
José Saramago

Inventas vitam juvat excoluisse per artes

Seçilmiş əsərləri



NOBEL MÜKAFATI LAUREATI



NOBEL MÜKAFATI
LAUREATLARININ ƏSƏRLƏRİ

Azərbaycan Respublikasının Prezidenti
İlham Əliyevin
"Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında" 2007-ci il 24 avqust tarixli
sərəncamı ilə nəşr olunur.

"Şərq-Qərb"
Bakı – 2010



Inventas vitam juvat excoluisse per artes
Ustalığa yüksələrək bu dünyanı xoş edənə

José de Sousa Saramago

Az. 263987

NOBEL MÜKAFATI LAUREATI

Joze Saramaqo

SEÇİLMİŞ ƏSƏRLƏRİ

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"Şərq-Qərb"
Bakı – 2010

ISBN 978-9952-448-58-0

Tərtib edəni: Asif Hacılı

Tərcümə edəni və ön sözün müəllifi: İlqar Əlfioğlu

Redaktor: Nərgiz Cabbarlı

Korrektor: Aqşin Məsimov

Bədii tərtibat və dizaynın müəllifi: Tərlan Qorçu

Kompüter düzümü: Hikmət Aydınoğlu
Mehman Musabəyli

Joze Saramaqo. Seçilmiş əsərləri. – Bakı: "Şərq-Qərb", 2010, 800 səh.

Mətn: Bakı Slavyan Universiteti, "Kitab aləmi" NPM, 2010
Bədii tərtibat, səhifələnmə: "Tutu" nəşriyyatı, 2010
© "Şərq-Qərb" ASC, 2010



YABANI TURPUN ACILIĞI

Bir zamanlar Joze Saramaqo deyirdi: "Bəzən mənə elə gəlir ki, Mars planetinə çatmaq müasirlərimizin qəlbinin qapısını açmaqdan asandır".

* * *

Görkəmli Portuqaliya yazıçısı Joze Saramaqo xalqının miflərini, tarixini və özünün sürrealist fantaziyalarını zəngin yaradıcılığında birləşdirməklə böyük ədəbi irs yaradıb. Onun öz yaradıcılığına verdiyi qiymət, əslində, bir çox ədəbiyyatşünasların araşdırmalardan sonra gəldiyi nəticələrlə üst-üstə düşür. Saramaqo əsərlərini səciyyələndirəndə belə deyirdi: "Qeyri-mümkünlüyün mümkünlüyü, arzular və illüziyalar – mənim romanlarımın əsas predmeti məhz bunlardır".

* * *

Joze Saramaqo 1922-ci il noyabr ayının 16-da Lissabon yaxınlığındakı Azinaqa qəsəbəsində kasıb kəndli ailəsində dünyaya gəlib. Ailələrinin Souza soyadını daşımasına baxmayaraq, anadan olanda qəsəbələrinin vətəndaş aktlarının qeydiyyatı bölməsinin katibi körpənin soyadını ağırtəbiətli atasına həmkəndlilərinin verdiyi ləqəbə uyğun "Saramaqo" (yabanı, acı turp) yazır.

1924-cü ildə Souza ailəsi Azinaqanı tərk edib Lissabon şəhərinə köçür.

Beləliklə, balaca Jozenin soyadı ilə bağlı dolaşıqlıq artıq Lissabonda, uşaq məktəbə gedən vaxt sənəd təqdim edəndə açılır və səhvi düzəltmək heç cür mümkün olmur.

İbtidai məktəbi bitirdikdən sonra o, qrammatika kollecində təhsilini uğurla davam etdirir. Lakin maddi vəziyyətlərinin ağır olması üzündən kolleci yarımçıq qoyub, texniki məktəbə keçmək məcburiyyətində qalır, mexanik peşəsinə yiyələnir və əmək fəaliyyətinə avtomobil emalatxanasında usta şagirdi olmaqla başlayır. Axşamlar, işdən sonra isə savadını və dünyagörüşünü Lissabonun kütləvi kitabxanasında mütaliə ilə artırmaq qərarına gəlir.

Joze Saramaqo 22 yaşında, mülki qulluqçuların sosial təminatı orqanlarında çalışanda ailə qurur. 1947-ci ildə, qızı Violanta dünyaya gələndə özünün ilk əsərini dərc etdirir. Yazıçının versiyasında "Dul" adlanan roman redaktorun israrı ilə "Günah diyarı" adı altında işıq üzü görür. İlk kitabının oxuculara təqdimatından ruhlanan Saramaqo, eyni zamanda daha bir neçə roman üzərində işləməyə başlayır, lakin az sonra anlayır ki, içində insanlarla bölüşəsi dəyərli bir şey yoxdur. Bu dərketmə prosesi onun Portuqaliya ədəbiyyatından düz iyirmi il kənarlaşması və 1969-cu ildə ölkədəki hərbi diktatura tərəfindən qadağan edilmiş Portuqaliya Kommunist Partiyasına qoşulması ilə nəticələnir.

1955-ci ildən başlayaraq Saramaqo, ailəsinin dolanışığını təmin etmək üçün vaxtının çoxunu tərcümə fəaliyyətinə həsr edir. Portuqaliya oxucusu Per Lagerkvist, Kolett, Mopassan, Andre Bonnard, Tolstoy, Şarl Bodler, Hegel, Raymond Bayer və bir çox başqa görkəmli söz ustalarının əsərləriylə məhz onun tərcümə fəaliyyəti nəticəsində tanış olur.

Ədəbiyyat aləminə ikinci, amma bu dəfə əsaslı gəlişi isə bir də 1966-cı ildə baş tutur. Saramaqo həmin il "Mümkün şeirlər" toplusunu çap elətdirir. Sonra isə birbirinin ardınca "Bəlkə də, bu sevincdir" (1970), "Bu və o dünyadan" (1971) adlı şeir topluları işıq üzü görür. Yazıçının poeziya kitabları və 1970-ci illərin ortalarından etibarən qələmə aldığı "Təsviri sənət və kalliqrafiya dərsliyi" romanı, "Kvaziobyekt" adlı fəlsəfi novellalar silsiləsi dövrünün ictimai-siyasi problemlərinə həsr olunur və oxucularda müəyyən maraq doğurur.



Həmin illərdə Joze Saramaqo "Diario de Lisboa" qəzetində işləyir və peşə fəaliyyətindən dolayı cəmiyyətlə daha sıx əlaqədə olur. Yazıçının çox məhsuldar çalışdığı dövr də elə həmin illərdən sonraya təsadüf edir.

1979-cu ildə "Gecə" pyesini, 1980-ci ildə "Torpaqdan ucalanlar", 1982-ci ildə "Baltazar və Blimunda", 1984-cü ildə "Rikardo Reyşin ölüm ili", 1985-ci ildə "Monastır xatirələri", 1986-cı ildə "Daş bərə", 1989-cu ildə "Lissabon mühasirəsinin tarixi", 1991-ci ildə "İsanın İncili" romanlarını, 1993-cü ildə "İn Nomine Dei"[1] pyesini, 1995-ci ildə "Korluq", 1997-ci ildə "Bütün adlar", 2000-ci ildə "Mağara", 2002-ci ildə "Bənzər", 2005-ci ildə "Təxirə salınmış ölüm" əsərlərini dərc etdirir.

Joze Saramaqonun adı, təxminən, on il ərzində artıq dünya ədəbi elitasının dilinə düşür və heç təsadüfi deyil ki, bu ad Nobel mükafatına namizədlərin sırasında da dəfələrlə çəkilir, lakin İsveç Kral Akademiyası hər dəfə həmin mükafatı başqa söz ustalarına təqdim edir.

1998-ci ilin oktyabr ayında isə Almaniyada Frankfurt kitab yarmarkasını tərk etməyə hazırlaşanda Saramaqoya qəflətən xəbər verirlər ki, bu il həmin yüksək mükafat ona təqdim olunacağından təcili İsveçə yola düşməlidir. Aldığı xəbər yazıçı üçün çox gözlənilməz olur. Jurnalistlər çaşqın görkəmli yazıçıdan bu halının səbəbini soruşanda isə etiraf edir ki, Nobel mükafatına nominantlar arasında olmağa artıq çoxdan öyrəncəli imiş, amma laureat kimi özünü necə aparacağını hələ təsəvvür etmir.

Bu yüksək mükafata layiq görülməsi özü üçün gözlənilməz olsa da, ədəbiyyatşünasların böyük əksəriyyəti, o cümlədən, tanınmış Amerika tənqidçisi, Nyu-York və Yell universitetlərinin professoru, iyirmidən artıq kitabın müəllifi Harold Blümdən ötrü "böyük yaradıcılıq yolunun məntiqi nəticəsi" idi.

Harold Blüm yazır: "Ədəbiyyat üzrə son illər verilmiş Nobel mükafatlarından, bəlkə də, yalnız Joze Saramaqo bu titulu daşımağa tam layiqdir. Nə Amerika Birləşmiş

[1] Tanrının adıyla (*lat.*)

Şatlarında, nə Cənubi Amerikada, nə Avstraliyada, nə də Qərbi Avropanın özündə Joze Saramaqodan müasir, çoxşaxəli romançı var".

Müəllifin yaradıcılığında xüsusi mərhələ təşkil edən, 1998-ci ildə ədəbiyyat üzrə Nobel mükafatına layiq görülmüş "İsanın İncili" romanı son onilliklərin ən qalmaqallı kitabı sayılır. Portuqaliyanın hakim dairələri əsərin yayımını dayandırandan sonra Joze Saramaqo dövlət katibinin müavini vəzifəsindən istefa verir, həyat yoldaşı Pilar del Rio ilə bir yerdə ölkəni tərk edib, İspaniyanın Lansarote adasında məskunlaşmağa məcbur olur. Yazıçı müsahibələrinin birində Portuqaliyanı tərk etməsinin səbəblərini belə açıqlayır: "Mənim Lansarote adasına köçməyimin səbəbi bəllidir. 1992-ci ildə Portuqaliya hökuməti "İsanın İncili" romanımı özünəməxsus senzuraya məruz qoydu. Mədəniyyət Nazirliyinin göstərişi ilə o zaman üçün artıq ondan çox dilə tərcümə olunmuş kitabım Ümumavropa Ədəbiyyat mükafatına namizədliyi irəli sürülmüş əsərlər arasından çıxarıldı. Buna səbəb kimi romanda "xaçpərəstlərin dini irsi ilə əlaqədar başlıca prinsiplərin tənqidi" göstərilir, Mədəniyyət Nazirliyinin yüksək rütbəli məmuru isə mətbuata açıqlamalarında deyirdi ki, Avropa Birliyi tərəfindən təsis edilmiş "bu yüksək mükafat uğrunda yarışda ölkəmizi Saramaqo təmsil edə bilməz". Qısasını desək, sağ mərkəzçi hökumət bununla elə məsələyə müdaxilə edirdi ki, qətiyyən onun səlahiyyətində deyil. Təbii ki, bu, məni qəzəbləndirdi. Kanar adalarında isə çoxlu qohumlarımız var və məhz bu, gələcək yaşayış yerimizi seçəndə həlledici rol oynadı".

Joze Saramaqo ölkəsini incik tərk etdiyini mətbuatda çox qabartmasa da, narazılığı müsahibələrindən birində çox gözlənilməz şəkildə təzahür edir: yazıçı Portuqaliyanın gec-tez İspaniyanın tərkibinə keçməyə məcbur olacağı barədə fikir yürüdür və bununla da ölkə ictimaiyyətinin kəskin qınağına tuş gəlir, mətbuatda onun əleyhinə kampaniya başlanır.

Yazıçı özü isə bu barədə deyirdi: "Mən, əslində, pis adam deyiləm, amma həmişə dilimin bəlasına düşürəm".



Lakin bütün ziddiyyətlərə baxmayaraq, 10 milyon əhalisi olan Portuqaliyada onun müxtəlif kitablarının ümumi tirajı iki milyondan artıq olub. Bu, son dərəcə yüksək göstəricidir. Yazıçı elə həmin dövrdən etibarən öz bədii yaradıcılığını siyasi görüşlərini bölüşmək üçün təsirli vasitə kimi nəzərdən keçirməyə başlayır.

Ötən əsrin axırlarından başlayaraq Saramaqo vaxtının çoxunu beynəlxalq forumlarda iştiraka sərf edir, çıxışlarında Avropa Birliyini, Beynəlxalq Valyuta Fondunu dəfələrlə kəskin tənqidlərə məruz qoyur. 2002-ci ildə isə daha bir hərəkəti ilə, həqiqətən, dünya miqyaslı qalmaqal yaradır. İordan çayının qərb sahilinə səyahətə çıxan yazıçı yəhudi sionistlərinin Fələstin torpaqlarında yaratdığı vəziyyətlə alman faşistlərinin Osvensim həbs düşərgəsindəki rejim arasında müqayisə aparmaqla bütün dünyadakı yəhudilərin qızğın etirazına səbəb olur və İsrail hökuməti onu ölkə ərazisinə buraxmaqdan uzun müddət imtina edir.

Saramaqo isə müsahibələrinin birində bu barədə belə deyirdi: "Məni İsrail tərəfdən ünvanıma yönəlmiş tənqid az narahat edir. İstənilən vicdanlı insan başa düşür ki, fələstinlilərin özlərinə dövlət qurmaq haqqı var. Lakin İsrail rəhbərliyinin həm beynində, həm də planlarında "Böyük İsrail" ideyası möhkəm yer tutubsa, fələstinlilərin bu istəyi necə gerçəkləşə bilər? Əgər İordan çayının qərb sahilində – məhz Fələstin dövlətinin yerləşməli olduğu torpaqlarda yəhudilər iki yüzdən artıq yeni yaşayış məskəni salıblarsa, İsrail rəhbərlərinin bəyanatlarına necə inanmaq olar? O ki qaldı tez-tez qaldırılan "islam fanatikləri" məsələsinə, belə sual vermək olar: "Yer üzündə İsrail siyasətindən, İsrail ordusunun hərəkətlərindən daha fanatik bir şey varmı?" Onların söykəndiyi dəyərlərin qiymətini, dünyasını bu yaxınlarda dəyişmiş yəhudi professoru Leyboviç gözəl vermişdi. O, İsrail hökumətinin ideologiyasını "yəhudi-nasist" ideologiyası adlandırırdı. Birləşmiş Millətlər Təşkilatının qərarlarını cəzasızlıq şəraitində rədd edən İsraili belə vəziyyətdə nəyəsə inandırmaq, ya da onunla dialoqu davam etdirmək qeyri-mümkündür və olduqca mənasız görünür..."

* * *

Azərbaycan oxucusuna təqdim etdiyimiz bu kitaba yazıçının iki romanı, bir pyesi və Nobel mükafatının təqdimat mərasimindəki çıxışının mətni daxil edilib. Zənnimizcə, həmin əsərlər görkəmli yazıçının ədəbi irsini kifayət qədər uğurlu təmsil edir.

Yuxarıda qeyd etdiyimiz kimi, Jozе Saramaqonun kitaba daxil edilmiş birinci romanı – "İsanın İncili" son onilliyin, bəlkə də, ən qalmaqallı kitabıdır. Onun nəşri katolik kilsəsinin qəti etirazına, müəllifin isə küfrdə ittiham edilməsinə səbəb olmuşdu. Lakin buna baxmayaraq, "Tanrı əleyhinə çıxan, tarixi həqiqətləri lağa qoyan, Əhdi-Cədidin əsas personajlarının xarakterlərini təhrif edən həmin kitab" dünya xalqlarının əlliyə yaxın dilinə tərcümə edilərək işıq üzü görüb və bu gün də ən çox mütaliə edilən əsərlər sırasındadır.

Bəllidir ki, son iki yüz ildə Bibliya və ya İncil, yaxud Əhdi-Cədiddə əksini tapan, xristianlığın ideologiyasını təşkil edən tarixçəni ya kobud materializm, ya da fanatik klerikalizmlə yozub, ona gah kinayə ilə yanaşıblar, gah da lap göylərə qaldırıblar. İsanın dünyəvi həyatı həm saysız-hesabsız tikanlı pamfletlər, həm də dərin inanca köklənmiş ehtiyatlı interpretasiyalar doğurub. Bu mövzuda olan filmlərin, romanların, hekayələrin və təsviri sənət əsərlərinin sayı-hesabı yoxdur, hətta yetmişinci illərin əvvəllərində musiqisevərlərə həmin dövr üçün sensasiyaya çevrilən "İsa Məsih – Superulduz" adlı rok-opera da təqdim olunmuşdu. Bununla əlaqədar, adama elə gəlir ki, Bibliyanın qədim və sadə süjetində yeni çalarlar tapmaq, ona daha nəsə əlavə etmək, əslində, qeyri-mümkündür. Lakin Jozе Saramaqonun təcrübəsi isbat etdi ki, hətta zamanın özü qədər qədim və yetərincə araşdırılmış o hadisələrdə belə yeni nələrsə tapmaq imkanı həmişə mövcuddur.

"İsanın İncili" hələlik ilk və yeganə əsərdir ki, Mark, Matfey, Luka və İoannın qələmindən çıxan kitablardan



doğmur, onlarla paralel, yanaşı irəliləyir. Saramaqo öz oxucusuna əzbər bildiyimiz faktların növbəti təfsirini deyil, Tanrı Sözünün tarixçəsini minilliklərin ayrıcında Fələstində yaşamış və bu olayların bilavasitə iştirakçısı olmuş adam kimi təqdim edir; tamamilə müstəqil, heç bir mənbəyə ehkamçı münasibət bəsləmədən. Elə bu səbəbdən də yazıçının variantı kilsənin məqbul saydığı variantdan çox fərqlənir. Romanda Kanonik İncildə əhəmiyyətli sayılan bəzi hadisələr öz əksini çox səthi tapıb, bəziləri isə heç tapmayıb. Əvəzində çar İrodun gələcək Tanrı elçisini yox etmək məqsədiylə bütün vifliyemli körpələrin qətlə yetirilməsi barədə icra olunmuş əmri Saramaqo qələmiylə taleyüklü mahiyyət tapıb və ön sıraya çıxarılıb. Müəllif bu hadisəylə, əslində, tarixin çarxını döndərir, həmin uşaqların qətlində dolayı günahı olan dülgər İosifin rahatlığını əbədilik əlindən alır, onun ilk övladını – İsanı isə tükənməz əzablara düçar edir.

Amma elə düşünsəniz ki, "İsanın İncili" məzmun və forma baxımından indiyədək çox rast gəldiyimiz növbəti arxaizmdir, yanılarsınız. Saramaqonun romanı, bəlkə, bir az da şişirdilmiş dərəcədə, ifrat dərəcədə müasirdir. Çünki İncildəki hadisələrin dövrünü təsvir etmək üçün yazıçının bəsit fəndlərə, köhnəlmiş dilə, özünün yaşadığı əsrin reallıqlarından prinsipial imtinaya qətiyyən ehtiyacı yoxdur. Saramaqo lazımi effektə tamam başqa yolla nail olur – müasir təhkiyə tərzi, müasir ifadələr, çoxdan abidələşmiş qəhrəmanların sxematikliyi əvəzinə ağrı doğuracaq dərəcədə real obrazlar vasitəsiylə. Oxucu birdən həyatını dəfələrlə başqa mənbələrdən izlədiyi insanların içinə düşür, onlarla bir yerdə həyəcanlanır, onlarla ağlayır, onlarla gülür. Saramaqonun buna necə nail olduğunu dəqiq şərh etmək mümkün deyil. Mümkün olan yalnız bu romanı oxuyub nəticə çıxarmaqdır.

Əslində isə yazıçının həmin qədim və həmişəcavan mövzuya müraciət etməsinin səbəbi elə İncilin özüdür. Bu müqəddəs kitab İsanın anadan olması ilə Tanrının rəsulu kimi fəaliyyətə başlaması arasında dərin və qaranlıq bir

uçurum qoyur. Məhz bu uçurum Saramaqoda dünyaya adi insan kimi gəlmiş və ömrünün çox hissəsini adi insan kimi yaşamış kəsin insan mahiyyətini açmaq, insan həyatını araşdırmağa istək yaradır. Yazıçı təxəyyülü ateist dünyagörüşü ilə birləşərək oxucuların gözləri qarşısında çox maraqlı mənzərələr açır.

Saramaqo təxəyyülünün bu məhsulu da bütün qalanları kimi son dərəcə inandırıcıdır. Bunun səbəbi də bəllidir: realist təhkiyə istedadı qələmindən çıxan mətnlərə elə gərginlik verir ki, onun çalarları çox vaxt oxucu təxəyyülündə maddiləşdikcə maddiləşir və axırda mütləq həqiqətə iddialı görünür.

Əslində isə realist təhkiyə tərzi özü də müəyyən mənada yalandır: sənətkar öz fantaziyalarına həqiqət donu biçməklə oxucunu onun "həqiqiliyinə" inandırmağa çalışır. Bu məqsədlə o, ənənəvi dinşünaslıqda səthi yanaşılan bəzi hadisələri bilərəkdən qabardıb konfliktin mərkəzinə çıxarır və bununla da oxucusunun şüurunda dönüş yaradır.

Əsərdəki belə dönüşlərdən lap birincisi vifliyemli körpələrin yuxarıda xatırlatdığımız qətli ilə əlaqədar hadisələrdir. Zaman-zaman bəşəriyyət tarixində əhəmiyyətli rol oynamış mütəfəkkirlər bu sual üzərində elə Saramaqonun özü kimi baş çatlatmışlar: niyə Xilaskarın dünyaya gəlişi günahsız körpələrin qətlinə səbəb olub? İncilin özü də, bu problemlərlə məşğul olan dinşünaslar da iki min yaşı olan həmin sualı cavabsız qoyur. Qana çalxanmış Vifliyemdəki hadisə isə tarixin dalanlarında əhəmiyyətsiz fakt kimi atılıb qalır. Tanrı mələyi tərəfindən xəbərdar edilmiş İosifin qətlə yetiriləcək körpələr haqqında, onların binəva valideynləri barədə düşünüb-düşünmədiyi bu günə kimi sual altında qalır.

Saramaqo isə Luka və Matfeydən fərqli olaraq onların üstündən dinməz keçdikləri, amma sonralar bəşəriyyəti əsrlər boyu narahat edəcək bu boşluğu doldurmağa çalışır. Onun İncilində İosif bu günahını lap qəbir evinədək boynunda daşıyır: axı o, şəhər əhalisini yaxınlaşan bəladan hali edə bilərdi, lakin öz övladının başına gələ biləcək

faciədən patoloji qorxu onun yadlar barədə düşünməsinə imkan vermir. Bu hadisə də İosifin gecə kabuslarına, reallıqda cinayətkar fəaliyyətsizlik yuxuda əsl cinayət fəaliyyətinə çevrilir: heç vaxt əlinə silah almamış sadə dülgər özünü İrodun sərsəm əmrini yerinə yetirmək üçün Vifliyemə yollanan döyüşçülərin arasında görür. Həyatının sonunda haqsız olaraq qiyamçılara qoşulmaqda ittiham olunub çarmıxa çəkilməsini belə artıq layiqli cəza kimi qəbul edir: "Nə fərqi var hansı günaha görə cəzalanırsan?.." Hələ bu azmış kimi, Saramaqo İsanı da məcbur edir ki, atasının günahını bütün ömrü boyu alnında möhür kimi daşısın. Məhz həmin günahın ağrısı sonralar dülgər oğlunu bütün başına gələnlərlə barışmağa vadar edir.

Kitabdakı ikinci – "Təxirə salınmış ölüm" romanını tənqidçilər zahirən ictimai antiutopiya janrına aid edirlər. Çünki onun süjetini hərəkətə gətirən mexanizmlər daha çox yazıçı-fantastların sərəncamında olanlarla eynidir. Saramaqo konkret bir cəmiyyəti özünə araşdırma obyekti seçir, onun gündəlik həyatını təfərrüatlara vararaq təsvir edir. Oxucu özünün harada yaşamasından asılı olmayaraq təxəyyül məhsulu olan həmin o cəmiyyətdə saysız-hesabsız tanış cizgilər tapır. Lakin bu hadisələri normal axarından çıxarıb gözlənilmədən naməlum səmtə aparan nəsə baş verir. Adət etdiyimiz tapdanmış cığırlar birdən yox olur, işə büsbütün yad element qarışır və qəhrəmanların gündəlik həyatını baş-ayaq edir, onların astarını üzünə çevirir. Cəmiyyət minilliklərdən bəri labüd saydığı bir şeydən məhrum olur – insanlar daha ölmür. Bircə gün əvvəl qaçılmaz sayılan şey artıq əlçatmaz olur. Həmin andan etibarən nə dünya əvvəlki ola bilər, nə də ki onu məskunlaşdıran insanlar. Lakin Saramaqonun bir cəhəti də başqa yazıçılarınkına bənzəmir. Onun qəhrəmanları fövqəladə vəziyyətlərdə ənənəvi ekzistensial ədəbiyyatın obrazları kimi mənəviyyatlarının onlar üçün ənənəvi olmayan cəhətlərini qətiyyən nümayiş etdirməyəcəklər, xasiyyətlərinin daxili məntiqi müəllifin heyrətləndirmək, mat qoymaq arzusundan sarsılıb

təhrifə uğramayacaq. Əksinə, Saramaqonun qəhrəmanları elə davranacaqlar ki, onların yerində real insanlar da məhz elə davranardı. Lakin ən böyük təbəddülat, ən maraqlı dəyişiklik cəmiyyətdə, hətta onun üzvlərində deyil, təhkiyənin özündə baş verir – o tamam başqa müstəviyə keçir, xronikadan pritçaya çevrilir. Əslində, bu ədəbi fəndin özü də yeni deyil, lakin bütün qəribəlik ondadır ki, Saramaqonun pritçavarı təhkiyəsində də əhvalat real həyatla sıx bağlılığını itirmir. Vəziyyətin fantastikliyinə baxmayaraq, saysız-hesabsız xırda detallar və təfərrüatlar oxucuya reallıqdan uzaqlaşmaq, mütləq mücərrədliyə yuvarlanmaq imkanı vermir, biz qəribə şəkildə təhrif olunmuş bu dünyada tanış cizgilər tapmaqda davam edirik.

Əsər oxucunu maqnit kimi çəkən cümlə ilə başlanır: "Ertəsi gün heç kəs ölmədi". Ondan sonrakı gün də ölmədi, sonrakından sonrakı gün də... Elə bilirsiniz, bu yaxşıdır? Onlar da əvvəlcə elə bilirdilər. Amma az sonra "ölümsüzlüyün" necə böyük bəla olduğunu dərk etdilər. Çünki onlara sağlamlıq yox, ölümsüzlük verilmişdi. Hər şeyi dərk edən kimi də dəhşətə gəldilər. Təsəvvür edirsiniz, heç kəsin ölmədiyi məmləkətdə nələr baş verər? Sonrakı hadisələr bu suala mükəmməl cavab verir. Oxuyursan və bədii təxəyyülün gücünə heyran qalırsan. Özünü materialist, ateist və kommunist sayan Saramaqo ən cəsarətli sələflərindən irəli gedir, ölümü komik vəziyyətə salır, onu yumor və hətta kinayə obyektinə çevirir. Eyni zamanda müəllif müasir, inkişaf etmiş, özünü sivil sayan Avropa cəmiyyətinin eybəcərliklərini təsvir edir. Son dərəcə komik vəziyyət hadisələrin təbii axarı ilə lirik sonluğa qovuşur və yazıçının bütün əsərləri kimi "Təxirə salınmış ölüm" romanı da çox gözlənilməz, novellavarı tərzdə başa çatır.

"İn Nomine Dei" pyesinin mövzusu real tarixi hadisədən götürülüb. Pyesə yazdığı ön sözdə Joze Saramaqo dünyagörüşü etibarilə ateist olduğunu xatırladır, amma bu əsərinin onun baxışlarından deyil, xaçpərəstliyin öz tarixindən doğduğunu söyləyir. Elə pyesin sonunda oxuculara



təqdim etdiyi xronologiyanın özü də yazıçının həqiqətə söykəndiyini isbatlamaq üçün ortaya qoyduğu dəlil bazasından savayı bir şey deyil.

Məncə, daha bir məsələni oxuculara xatırlatmaq yerinə düşərdi. Avropa və ümumiyyətlə, Qərb ədəbiyyatında xristianlıq dinindəki məzhəblər və təriqətlər arasındakı qanlı müharibələri, az qala, soyqırım səviyyəsinə çatan qırğınları belə inandırıcı əks etdirən çox az nümunə tapmaq olar. Çünki bu gün Qərb ideoloqları öz yaxın və uzaq tarixlərini unudur, dünyaya demokratik dəyərlərin ixracı ilə məşğul olduqlarını iddia edir, təmsil etdikləri ölkələri bu dəyərlərin beşiyi sayırlar. Eyni cəhəti elə rəngbərəng xristian missionerlərinin fəaliyyətində də görmək mümkündür. Joze Saramaqo isə onların israrla unutmaq və unutdurmaq istədiyi tarixçəni bir daha yada salır, keçdikləri yolu göstərir və bununla da, sanki, oxucularını ehtiyatlı olmağa çağırır. Dolayı yolla isə indi müsəlman dünyasını islam fundamentalizmində, fanatiklikdə ittiham edənlərin, öz dinlərini başqa dinlərdən üstün sayanların fanatik mahiyyətini açır.

Maraqlıdır ki, eyni xətt Joze Saramaqonun bütün əsərlərindən keçir, yazıçı insani dəyərləri, mənəvi dəyərləri dini dəyərlərdən üstün tutduğunu dəfələrlə göstərməkdən çəkinmir. "İn Nomine Dei" faciədir və bu faciə, əslində, hər hansı dini detallara görə insanlar arasında ayrı-seçkilik salan insanların faciəsidir. Pyesə bu baxımdan yanaşmaq, zənnimizcə, müasir Azərbaycan oxucusu üçün də faydalı ola bilər.

* * *

Bir qədər də Joze Saramaqonun bütün yaradıcılığı üçün səciyyəvi olan cəhətlər barədə.

Onun qəribə dili ayrıca söhbətin mövzusudur. Görün yazıçı dil və onun imkanları barədə nə deyir:

"Dilimiz qəribə və əsrarəngizdir. Onu nə qədər çox burur, nə qədər çox sındırırsansa, bir o qədər dərin mətləbləri anlada bilir... Ah, kaş ifadələrin baş-ayaq

çevrilməsini qanuniləşdirə biləydik, görün onda necə qəribə, gözəl dünya yaradardıq".

Həqiqətən də, Joze Saramaqo zahirən dilin bütün bəlli normalarını sındırmaqla məşğuldur, durğu işarələrinə, cümlə quruluşuna, söz sırasına çox sərbəst münasibət bəsləyir. Lakin onun ilk baxışdan nizamsız kimi görünən dili ölçülü-biçili, son dərəcə canlı, təsvirləri qeyri-ənənəvi olsa da, dəqiqdir. Biz onun üslubunu, dilini və təfəkkür tərzini oxucularımıza maksimum həddə çatdırmağa çalışmışıq. Ona görə belə etmişik ki, Joze Saramaqonun başqa yazıçılardan nəylə fərqləndiyini təsəvvür edə biləsiniz.

Ümumiyyətlə, Saramaqonu mütaliə eləmək əyləncə deyil, ağır, az qala, fəhlə, əkinçi əməyidir. Müəllif oxucunu əyləndirmir, onu öz arxasınca çəkib aparır, yaradıcılıq prosesinə cəlb etməyə çalışır. Siz oxuyursunuz və oxuduqca dəyişirsiniz, azad düşünməyi, buxovları qırmağı, sərbəst olmağı öyrənirsiniz. Joze Saramaqo özü kimi, oxucularını da azad, hər cür ehkamdan uzaq görmək istəyir.

Böyük yazıçının yaradıcılığından söz açanda oxucu üçün daha bir sevindirici məqamı qeyd etmək istərdik: Saramaqo özünün sonluqlarıyla da gözəldir. O, elə müəlliflərdən deyil ki, əsərlərini indi çox dəbdə olan üç nöqtə ilə bitirib oxucusunu sirli sual qarşısında qoysun. O, romanlarını parlaq, dinamik, ən əsası isə gözlənilməz sonluqlarla bəzəyir. Bircə şeyi qabaqcadan bilməlisiniz ki, bütün mütaliə prosesi boyu etdiyiniz təxminlərin heç biri doğrulmayacaq, müəllif hadisələrin inkişafı üçün heç ağlınıza gəlməyən, qeyri-adi məcra tapacaq və oxucusunu təəccübləndirməkdən doymayacaq.

İlqar Əlfioğlu



Azl- 263984

İSANIN İNCİLİ

(roman)

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

İSANIN İNCİLİ

(roman)

Hadisələrin şahidləri və Tanrı sözünün qulları tərəfindən bizə yetirilmiş mətləblər vasitəsilə çox yaxşı bildiyimiz bu əhvalatı nəql etməyə artıq çoxları başlayıb deyə, istəyirəm mən də hər şeyi lap ibtidadan dəqiq araşdıraraq, hadisələri sıraya düzüb sənə anladım, möhtərəm Feofil. Elə təsvir edim ki, inanc bəslədiyin təlimin möhkəm bünövrəsinə yaxşı bələd olasan.

Lukanın İncili, 1:1-4

Nə yazmışamsa, yazmışam artıq.

Pilat

Günortanın çırağını sərsəmləmiş küləklər burulğanına bənzədən, dörd bir tərəfə dağılan iti şüalar və alov haləsiylə üzük qaşı kimi dövrəyə alınmış Günəşin insan sifəti var: ağlayan, dözülməz ağrıdan əyilmiş, səssiz qışqırıqdan geniş açılmış ağzı olan bir sifəti – ona görə səssiz ki, bunların heç biri, əslində, yoxdur. Qarşımızda yalnız kağız və rənglərdir. Aşağıda isə bir adam görürük: onu ağacın gövdəsinə bağlayıblar, əgər belindəki, necə deyərlər, ayıbını örtən sarğını saymasaq, tamam lütdür; ayaqları ağacın budanmış, yekə şaxına dirənib və yəqin, bu təbii dayaqdan sürüşməsinlər deyə, onlara iki dənə yekə mismar çalınıb, lap dərindən. Üzündəki ilhamlı-əzabkeş ifadədən, səmaya yönəlmiş baxışlarından "Müdrik quldur"u tanımaq olardı. Bunun dəqiq əlaməti qıvrım saçları da ola bilər – axı həm mələklərin, həm də baş mələklərin saçı mütləq dalğalı olur, peşmançılıq hisslərini

yaşayan bu quldur isə, görünür, İlahi Səltənətinə, onun sakinlərinin yanına aparan yolun yarısında idi artıq. Bəlli deyil ki, məxsusi budayaraq eybəcərləşdirdikləri, edam alətinə çevirdikləri bu tiri ağac saya bilərikmi, onun kökləri torpaqdan həyat şirəsini hələ də içirmi və bəlli deyil ona görə ki, gövdəsinin aşağı qismini əynində enli, dəbdəbəli və zəngin libası olan uzunsaqqallı bir şəxs tamam örtür, o da başını qaldırıb, amma göylərə baxmır. Bu vüqarlı qamət, bu qəmli sifət, düşündüyümüz kimi, Kirenalı Simona yox, yalnız Arimafeyli İosifə məxsus ola bilər və belə fikirləşməyimizin bəlli səbəbi də var, axı edamın protokoluna əsasən, Simon məhkuma kömək göstərəsi olmuşdu ki, edam alətini düz ekzekusiya məkanınadək daşımasına yardım etsin, yalnız sonra öz yoluna davam eləsin və o çarmıxdakının ölümqabağı əzablarından çox, özünün qeyri-iradi gecikməsindən qaynaqlanmaq ehtimalı olan xoşagəlməz hadisələrin fərqində idi. Bəli-bəli, edam edilənlərdən hər üçünə qəbir qazılması və onların həmin qəbirlərdə dəfn olunmasının xərcini könüllü olaraq boynuna çəkən bu mərhəmətli və varlı insanın adı məhz Arimafeyli İosif idi, lakin bu ürəyigenişliyinə görə onu nə müqəddəslər, nə də ki, heç olmasa, onların yaxınları sırasına aid etmişdilər, odur ki şəkildə onun başını küçələrdə gəzib-dolaşarkən başına qoyduğu çalmadan savayı heç nə bəzəmirdi, amma ön planda diz çökən qadının çiyinlərinə tökülmüş dağınıq saçlarını isə evdə toxunmuş krujevanı çox xatırladan əbədi şöhrət haləsi qucmuşdu. Dizləri üstə çökən bu qadının adı, təbii ki, Mariya idi, çünki bizə əvvəlcədən məlumdur: burada, elə bu saatda toplaşan qadınların hamısı bu adı daşıyırdı və biz sonralar onlardan yalnız birini Maqdalina çağıracağıq ki, bütün qalanlarından fərqləndirə bilək, hərçənd ki elementar həyati məsələlərdən bir balaca xəbərdar olanlar bu qadının elə ilk baxışdan həmin o Maqdalina olduğunu anlayarlar, çünki yalnız onun kimi qaynar keçmişi olan qadın belə faciəvi anlarda bu cür sinəsiaçıq paltar geyə və dolu döşlərini bir qədər də

dikəldib, onları qabardan dar sinəbənd taxa bilərdi ki, yanından ötən, özləri də istəmədən şəhvani ləzzət girdabına yuvarlanaraq, ruhunu əbədilik məhv etmək riskinə məruz qoyan bütün kişilərin ac baxışlarını özünə sarı çəksin.

Amma bütün bunlara rəğmən, onun sifətində çox dərin kədər vardı, bükülmüş qəddi isə şəhvətli vücudun içində qərar tutmuş ruhun çəkdiyi əzaba dəlalət edirdi və buna görə də gəlin indidən şərtləşək ki, əgər bu qadın tamam lüt olsa belə, biz ona bütün zəruri hörmət və ehtiramı bəsləməyə borcluyuq. Mariya Maqdalina – əgər bu, həqiqətən, odursa, ölümcül yaralanıb, son qüvvəsini itiribmiş kimi yerə sərilmiş başqa bir qadının əlini sözlə təsvir etmək mümkün olmayan canıyananlıqla tutub və sanki, öpməyə hazırlaşır. Onun da adı Mariyadır – özünü bu hadisələrdə təzahür etdirməsinə görə ikinci, lakin əhəmiyyətinə görə isə əsasdan da əsas yer tutur, çünki diqqət yetirsək, kompozisiyanın aşağı hissəsində ona ən mərkəzi yer ayrılıb. Qadının yalnız ağlamaqdan şişmiş sifəti və gücsüz halda yanlarına düşən əlləri görünür – qalan hər şey isə, çox güman ki, beli kobud kəndirlə bağlanmış örtüyün və tunikanın[1] altında gizlənib. O, birinci Mariyadan yaşlıdır, bu, başının ətrafında bərq vuran halənin daha mürəkkəb, qəribə şəklini əsaslandıran yeganə səbəb deyil, səbəblərdən yalnız biridir – bu aləmdə qəbul olunmuş iyerarxiya, titul və dərəcələrdən o qədər də baş çıxarmamağıma baxmayaraq, əgər soruşsaydılar, özümdə bunu bəyan etmək cəsarəti tapardım; bir də indi haqqında danışdığım bu təsvirlərin nə qədər geniş yayıldığını xatırlasaq, yalnız yadplanetlilər onun kimliyini bilməzdilər – o da əgər həmin bu yad planetdə bir zamanlar, yaxud indinin özündə buna bənzər hadisələr baş verməyib və vermirsə – beləliklə, yalnız mövcudluğunu təsəvvür etmək belə mümkün olmayan həmin bu yadplanetli bilməzdi ki, dərdindən ölən bu qadın – dülgər İosifin dünyaya çoxlu uşaq gətirmiş arvadı idi və taleyin

[1] ***Tunika*** – baş və əl üçün yerləri olan kisə formasında paltar



qismətindən, ya da bu taleyin özünü də yönəldən varlığın iradəsindən, bu uşaqların yalnız biri çiçəklənib şöhrət tapmışdı, özü də yaşadığı dövrdə o qədər olmasa da, ölümündən sonra şöhrəti misilsiz olmuşdu. Sol tərəfə əyilmiş Məryəm, İsusun – İsanın – həmin o indicə xatırlatdığımız şəxsin anası – dirsəyini başqa bir qadının ayağına söykəyib: o da dizləri üstünə çöküb. Onun da adı Mariyadır və paltarının açıq-saçıqlığını heç xəyalən belə, təsəvvür edə bilmədiyimiz həmin bu qadın, çox güman ki, həqiqi Maqdalinanın özüdür. Elə bu üçlükdən olan birinci qadın kimi, onun da saçları kürəyinə tökülüb və bu saçlar, çox böyük ehtimal ki, sarışındır – əgər qravüra ustası alətinin tiyəsini tam təsadüf nəticəsində deyil, açıq rəngi çatdırmaq üçün bilərəkdən yavaş basıbsa. Elə bu səbəbdən, biz indi tam əminliklə söyləyə bilmərik ki, Mariya Maqdalinanın saçları həqiqətən qızılı olub, hərçənd həqiqi və sonradan boyanmış sarışınların mahiyyətcə, guya, ən kamil günah aləti olduğu barədə kifayət qədər geniş yayılmış fikirlə də tam şərikik. Amma bu qadının məhz Maqdalina olduğunu israrla söyləməyimizin səbəbi heç də o deyil ki, saçlarının açıq rəngi əlimizə o biri Mariyanın açıq-saçıq, iri, ağır döşlərindən daha əsaslı dəlil verir. Başqa şahidin də söylədikləri bəllidir və bu ifadə qadının şəxsiyyətini tam dəqiqliklə müəyyənləşdirməyə imkan verir: bir fikir verin, o, bir əliylə İsanın yerə sərilmiş anasını yüngülcə, qeyri-iradi tutubsa, digər tərəfdən isə Çarmıxa Çəkilənə baxır, özü də necə baxır; onun gözlərində elə həqiqi, elə alovlu məhəbbət parlayır ki, adama elə gəlir, sanki, bütün bədəni, bütün cismi parlaq halə ilə çevrəyə alınıb və bu halənin işığında başının üstündəki işıq – cızdığı sərhədlərdən içəriyə gərəksiz fikir və hissiyyatları buraxmayan ecazkar halənin işığı çox solğun görünür. Ancaq sevməyə qadir olan qadın bu cür baxa bilər və biz bu keyfiyyətə, sözün həqiqi mənasında, yalnız Mariya Maqdalinanı malik sayırıq – bu isə artıq sizin üçün həlledici dəlildir və bu dəlil ona dəlalət edir ki, həmin qadın məhz onun özüdür,

başqa heç kəs ola bilməz, odur ki daha dördüncü Mariya barədə, həmin qadınla yanaşı durub əllərini göylərə qaldıran, özünün bütün görkəmiylə dərdini göstərməyə çalışan, amma baxışları, kim bilir, haralarda dolaşan Mariyadan daha geniş söz açmağa dəyməz. Elə qravüranın bu hissəsində təsvir olunan lap gənc, yeniyetmələk çağlarından təzəcə çıxmış, süni bir poza tutub duran kişi də sonuncu qadına yaraşır – gəncin sol ayağı dizdən bükülüdür, sağ ayağının dizi isə teatral qeyri-təbiiliklə yerə düşüb, onun nəzərləri dramatik kompozisiya yaradan dörd qadına tərəf yönəlib. Bu qıvrımsaç, titrək dodaqlı yeniyetmə İoanndır. O da başqa bir ağacın gövdəsini Arimafeyli İosif kimi örtüb və bu ağacın quşlar yuva qurmalı olduğu təpəsində daha bir şəxs asılaraq mismarlanıb. Birincidən fərqli olaraq, bu ikincisinin saçları düzdür, başını aşağı sallayıb ki, aşağıda nə baş verdiyini görsün, əgər hələ baxmaq iqtidarındadırsa və onun arıq, yanaqları batmış sifəti o biri ağacdan asılan yoldaşınınkına heç bənzəmir – yoldaşı donub qalıb, ölümqabağı cançəkişmə anlarında da özündə qüvvə taparaq, başını qaldırır, bizə sarı çevirir – hətta ağ-qara qravürada belə, dolu, qanı qaçmamış, ölüm havası duyulmayan üzünü çevirir. İkinci edam olunan isə başını sinəsinə sallayıb, sanki, gözlərini yerə zilləyib, ən rəzil qurbanını belə qəbul etməyə hazır olan torpağa baxır, iki cəzaya – əzablı edama və cəhənnəm alovuna məhkum edilən yalnız "Zalım quldur" ola bilər. Lakin etiraf edirik ki, sadəlövh, səmimi xisləti üçün onun ruhuna riyakarlıq etməməsi güc verib və o, özünü elə göstərmir ki, guya, bir dəqiqəlik, ya bir saatlıq peşmançılığın bir ömürlük cinayətin bağışlanmasına səbəb olacağına inanır. Başının düz üstündə görünən, qulağında bu şərait üçün tamamilə yersiz sırğa təsvir edilmiş qadın cildində ay da qüssəlidir, ay da ağlayır – belə sərbəstliyi keçmişdə heç bir rəssam, heç bir şair özünə rəva bilməzdi və bu üslubun sarsaqlığına baxmayaraq, gələcəkdə kiminsə ondan ilhamlanacağını heç güman eləmirəm. Göydə kədərlənən günəşlə ay yer üzünü hər

iki tərəfdən işıq selinə qərq edib, bircə kölgə də görünmür, yəqin, elə bu səbəbdən də qravüradakı mənzərə gözlərimiz önündə düz üfüq xəttinə kimi bütün aydınlığı ilə açılır – qüllələr və qala divarları, içərisində su parıldayan yarğanın üzərindən salınmış, qalxıb-enən körpü, qotik milləri ucalan damlar və kompozisiyanın lap dərinliyində, sonuncu təpənin başında bir yel dəyirmanının donub qalmış pərləri. Bir az yaxında isə təlim görmüş atların belində dörd yaraq-yasaqlı süvari çapır, lakin jestlərindən bəllidir ki, tamaşanın lap axırına yetişiblər və əllərinin hərəkətiylə bizim görmədiyimiz tamaşaçılara salam göndərirlər. Buradakı, artıq başa çatmış bayram təəssüratını bizə həm də zireh geymiş bir piyada yetirir, o artıq edam yerindən uzaqlaşmaq üçün ilk addımını atıb, sağ əlində uzaqdan parçaya bənzəyən, lakin yaxından baxanda tunika, ya da xiton[1] da ola biləcək nəsə aparır; həmin an o biri iki əsgərin üzündə isə – əgər bu məsafədən onların xırda sifətlərindəki ifadəni düzgün anlamaq mümkündürsə, pərtlik, hətta qəzəb oxunur, bəxti gətirməmiş adamlar kimi. Bu bayağı səhnənin: əsgərlər, qala divarları içindəki şəhərin üzərində isə dörd mələk süzür və onlardan tam təfərrüatı ilə təsvir olunmuş ikisi acı-acı ağlayıb-sıtqayır, qaşlarını işgüzar tərzdə çatmış üçüncü mələksə Çarmıxa Çəkilənin sinəsinin sağ tərəfindən fəvvarə vuran qanı son damlasına kimi əlindəki cama toplamağa səy göstərir. Qolqofa adlandırılan bu təpədə belə acı qismət çoxlarının nəsibi olub, çoxlarının da hələ başına gələcək, lakin onlardan yalnız birini – həmin bu xaça mismarlanmış çılpaq adamı, İosiflə Məryəmin oğlu İsanın adını gələcək dönəmlər baş hərflə yazılmağa layiq görəcək, bütün qalanları isə elə həmişəlik adi çarmıxa çəkilənlər sırasında qalacaqlar. İndi, nəhayət, aydındır ki, Arimafeyli İosifin və Mariya Maqdalinanın baxışları hara yönəlib, günəşlə ay kimin üçün ağlayır, "Müdrik quldur" kimə alqış ucaldır və onun tövbə etməmiş yoldaşı kimi qarğıyır, öz yoldaşından

[1] *Xiton* – düzbucaqlı parçadan tikilmiş paltar



heç bir şeylə fərqlənmədiyini qanmadan qarğıyır. Onların arasında bir fərq varsa, bu, o deyil ki, biri tövbə edib, o birisi isə günahlara bataraq qalıb, axı onların heç biri özbaşına mövcud deyil, onların hər biri yalnız o birisində olmayanların yerini doldurmaq üçündür. Çarmıxa Çəkilənin başı üzərində günəşdən, aydan da min dəfələrlə parlaq yanan latın əlifbasının hərfləridir, həmin hərflər ki onu İudeyanın Çarı elan edir, alnını və gicgahlarını tikanlı budaqlardan hörülü çələng sıxır – bu çələngi başa taxırlar, vacib olmasa da, taxırlar ki, yırtılmış dəridən, deşilmiş ətdən qan gəlsin – bu çələngi onlar taxır ki, çar olmağa icazələri yoxdur. O biri iki quldurdan fərqli olaraq, İsanın ayaqlarını dirəməyə yeri yoxdur və bədəninin üst qisminə güc verib, əzələlərini gərməsə, xaçın çatına mismarlanmış əllərindən sallana qalar, amma sinəndən qan fışqırırsa, gücün nə qədər yetəcək ki... Xaçı şaquli vəziyyətdə saxlayan və onunla birlikdə yerə girərək, torpağa istənilən insan qəbrindən daha öldürücü bir yara vurmayan iki dayağın arasında kəllə sümüyü görünür, yanında da kürək, baldır sümükləri, lakin bizi məhz kəllə sümüyü maraqlandırır, çünki "qolqofa" sözünün dilimizə tərcüməsi elə kəllə sümüyü deməkdir. Bəlli deyil ki, bu insan qalıqlarını kim, nə vaxt atıb bura. Bəlkə də, kimsə indi xaçın üstündə əzab çəkən bədbəxtləri torpağa, külə, heçliyə dönməmişdən başlarına açılacaq müsibətlərdən acı bir istehza ilə xəbərdar edirmiş. Bəziləri israr edirlər ki, bu kəllə sümüyü Adəminkidir, qədim geoloji layların qaranlıq dərinliyindən üzə çıxıb və bir də qayıtmağa gücü çatmadığından özünün yeganə mümkün və birdəfəlik itirdiyi cənnətini – yer üzünü əbədi seyr etməyə məhkumdur. Zirehli süvarilərin at çapdığı elə bu çöllükdə bir insan da gedir: bizdən uzaqlaşaraq, elə gedə-gedə çönüb arxasına baxır. Sol əlində bir satıl, sağ əlində isə ucuna süngər sancılmış uzun ağac – süngəri bu məsafədən görmək heç asan deyil. Satılın içindəki isə, sizi əmin edirəm, adi sirkəli sudur. Bu adamın alnına həmin gündən dünyanın düz sonunadək

şər-şəbədə qurbanı olmaq yazılıb: onun barəsində uydurma şeylər söyləyəcəklər, guya, İsa su istəyəndə qəzəbindənmi, kinayə eləmək üçünmü ona sirkə içirib. Əslində isə suya turşlaşdırmaq üçün qatılan sirkə o yerlərdə hələ lap qədimlərdən susuzluğu yatırmaq üçün ən təsirli vasitə sayılırdı. O çıxıb gedir, sonluğu gözləməyəcək, çünki əlindən gələni artıq eləmişdi – hər üç məhkumun içini didib-dağıdan üzücü yanğını toxtatmışdı, İsayla quldurlar arasında heç bir fərq qoymadan görmüşdü öz işini, çünki bu barədə çox sadə düşünürdü və düşüncələrini dilinə gətirsə, deyərdi: onların üçü də torpaqdan yaranıb, torpağa da dönəcək. Vəssalam, daha nə deyəcəkdi ki...

* * *

Gecənin hələ şəfəqə yetmək üçün xeyli yolu qalıb. Qapının böyründə mismardan asılı yağ çırağı yanır, amma şöləsinin titrək işığı onu dövrəyə almış və fəzanı hər tərəfdən dolduran qaranlıqla heç bacarmaq gücündə deyil və zülmət otağın künclərində daha qəliz, daha sərt olur, istəyirsən, götür bıçağı, lap kəs. İosif qəfil oyandı, elə bil, onu kimsə çiynindən itələyib oyatmışdı, amma görünür, bu dürtmə bircə anda qaçan yuxunun bir parçası idi – onu itələyəsi bir kimsə yox idi, evdə kim vardı ki, yalnız özü və heç qımıldanmadan uyuyan arvadı. Hələ indiyədək gecənin ortasında yuxudan oyandığı olmamışdı: adətən, qapıdakı enli yarıq kül rəngli soyuq işıqdan şişib böyümədən gözlərini açmazdı. Neçə dəfə istəmişdi ki, həmin o yarığı tuta – dülgərin əlində bu nə idi ki, bir parça taxta tap, yonub sığalla, bir-iki dənə mismar vur, vəssalam – lakin gözlərini açanda günün doğduğundan xəbər verən həmin bu şaquli işığa elə öyrəşmişdi ki, onu görmədən, vücudunu və ətrafındakı dünyanı tutub saxlayan yuxunun qaranlığından heç cür qopa bilmirdi. Qapıdakı bu yarıq evinin bir parçası idi, divar, ya tavan kimi, ocaq kimi, tapdanmış torpaq döşəmə kimi. İosif arvadını oyatmamaq

üçün səsini içinə salaraq, yuxunun sirli dünyasından hər dəfə dönəndə söylənməsi vacib olan sübh duasının sözlərini dedi: Sənə minnətdaram, Tanrım, ey Göylərin Hökmdarı, minnətdaram ki, böyük mərhəmətindən mənə ruhumu necə vardısa, eləcə – diri qaytardın. Çünki, görünür, onun beş hissiyyatının beşi də yuxudan eyni anda oyanmamışdı, amma bununla belə, istisna etmək olmaz ki, haqqında söhbət açdığımız zəmanədə insanlar öz duyğu üzvlərinin hamısı üzərində hakimiyyətlərini hələ tam bərqərar etməmişdilər və ya indi bizim bu dərəcədə karımıza gələ biləcək duyğu üzvlərini hələ itirməmişdilər – İosif də özünə, sanki, lap uzaqlardan göz qoyurdu: qıvrılan kiçik çaylar kimi yerin üstüylə axaraq, torpağın bətninə hopan suyun ən dərin köklərə yetişməsini, özünün yaşam gücü ilə pöhrələri, yarpaqları necə doyurursa, qayıdan ruhunun bax eləcə, bədəninin bütün künc-bucağına nüfuz edib, onları dolduraraq doyurmasına diqqət yetirirdi. Bu qayıdışın necə çətin olduğunu görən İosif yanında uzanmış arvadının yuxusunu pozmaqdan çəkindi: qadın indi yalnız ruhsuz qılafdan ibarət idi, çünki ruh yatmış adamın bədənindən uçub, onu tərk eləyirdi, yoxsa hər səhər biz oyanarkən, bədənimizə qaytardığı ruh üçün İlahiyə alqışlar yağdırmağın nə mənası vardı və elə bu an daxilindəki bir səs ondan soruşdu: "Bizim gördüyümüz yuxular hardandır bəs? Bəlkə, yuxular ruhun bədən haqqında yaddaşıdır", – İosif fikirləşdi: cavab isə əslində də elə bu idi. Mariya tərpəndi – görünür, onun ruhu lap yaxınlıqda, haradasa, evdə pərvazlanırdı – amma oyanmadı, yalnız nəfəsini hıçqırırmış kimi dərindən alıb, bütün bədəni ilə dalğavarı bir hərəkət eləyərək, ərinə sığındı; bu, şüursuz hərəkət idi – çünki oyaq olsaydı, buna cürəti çatmazdı.

İosif bədənini dalayan kələ-kötür yorğanını çiyninə çəkib, arvadından aralanmadan həsirin üstündə yerini rahatladı və hiss elədi ki, gözəl rayihələr – sanki, içində xoş qoxulu otlar olan dolu bir mücrünün ağzını açmışdılar – məstedici isti

köynəyinin bezindən keçərək, bədəninin istisinə necə qarışır. Sonra yavaş-yavaş gözlərini qapadı, nə barədə düşündüyünü unutdu və ruhundan ayrılan vücudu yenə yuxuya qərq oldu.

Onu yalnız xoruzun banlaması oyatdı. Artıq qapının yarığından naxır bulağının suyu kimi bozumtul işıq sayrışırdı. Gecə öz qüvvəsinin tükənməsini hövsələylə, quzu kimi gözləyə-gözləyə artıq çölləri də səhərin açılmasına hazırlayırdı, dünən və həmişə olduğu kimi; çünki insanların bu dərəcədə borclu olduqları Günəşin, Qavoan üzərində donaraq, İsa Navinə şəhər divarlarına yaxınlaşmış beş çarı məğlub etməsinə fürsət yaratdığı həmin o əfsanəvi günlər çoxdan ötüb. İosif dikəldi, həsirin üstündə oturdu, yorğanını bir kənara çəkdi və həmin an xoruzun ikinci banı səsləndi, sanki, xatırladırdı ki, xoruza bu keyfiyyəti verdiyi üçün bütün məxluqatın Xaliqinə təşəkkür etməyi unudub. "Təşəkkür edirəm Sənə, ulu Tanrım, ey Göylərin Hökmdarı, təşəkkür edirəm ki, xoruza gecəni gündüzdən ayırmaq bacarığı bəxş eləmisən", – İosif dilləndi və xoruz bu dəfə üçüncü banını elan etdi.

Adətən, dan yeri söküləndə onun səsinə bütün qonşu xoruzlar səs verərdi, amma bu gün nəsə səsləri çıxmırdı, sanki, onlar üçün gecə ya bitməmişdi hələ, ya da ki elə indicə düşmüşdü. İosif arvadına nigaran bir nəzər saldı, adətən, quş kimi ayıq yatan, xırdaca xışıltıdan oyanan bu qadının bu gün belə möhkəm yatmasına təəccüblənirdi, sanki, nəsə yad bir qüvvə onun üzərinə enir və yaxud da başının üstündə pərvazlanaraq, onu yerə sıxır, amma eyni anda hərəkət etməsinə də imkan verir – İosif alaqaranlıqda fikir verdi ki, hərdən onun bədənindən suyun üzündən xırdaca dalğalar keçirmiş kimi, bir üşütmə keçir. "Görəsən, xəstələnməyib ki?" – düşündü, lakin içində indicə baş qaldırmış həyəcanı təcili yüngülləşdirmək ehtiyacı onu çölə qovurdu – elə bu da nəsə, həmişəki kimi deyildi, heç vaxt bu saatda və belə tələsik olmamışdı işi. Arvadını oyatmamaq üçün ehtiyatla ayağa qalxdı,

istəmirdi hara getdiyindən duyuq düşə, çünki Qanun kişilik ləyaqətini hər vəchlə qorumağı tələb edir. Cırıldayan qapını açıb həyətə çıxdı. Səhər alatoranının bütün yer üzünə, sanki, kül səpdiyi saat idi. İosif evin yanındakı alçaq artırmaya tərəf getdi; uzunqulağının axuru da burada idi və yarışüurlu bir ləzzətlə güclü şırnağın samana tökülməsindən gələn səsi dinləyə-dinləyə, özünü orada yüngülləşdirdi. Heyvan uzun qulaqlarını şəkləyib, başını ona tərəf çevirdi – alaqaranlıqda domba gözləri parıldadı və yenə başını axura soxaraq, qalın həssas dodaqları ilə yemin olan-qalanını dartışdırmağa davam etdi.

İosif kəndirdən asılı dolçaya yaxınlaşdı, onu əydi, əllərini yuyub, köynəyinin ətəklərinə sildi, fövqəladə müdrikliyindən insanı həyat üçün gərəkli olan təbii borular və lazımi anda açılıb-bağlanan dəliklərlə təmin etdiyinə görə İlahiyə alqışlar ünvanladı. Elə bu dəm o, göyə nəzər saldı, ürəyi bir anda qırılıb, ayağının altına düşdü, sanki, günəş hələ çıxmasını ləngidirdi və bütün göy qübbəsində şəfəqin qırmızısından xırdaca iz belə yox idi, səmada bircə dənə belə, çəhrayı, ya açıq-qırmızı ləkə də gözə dəymirdi, lakin divarların görməyə imkan verdiyi aralıqda, alçaq buludların yaratdığı nəhayətsiz günbəzin altında heç nəyə bənzəməyən, heç vaxt görünməmiş bir bənövşəyi rəng daşıb çağlayırdı, şərq tərəfdə, günəşin çıxmalı olduğu yerdə isə həmin o rəng, elə bil, ağarараq titrəyirdi, əvəzində oradan savayı bütün göy üzünün mübhəm bənövşəyisi daha çox şişir, daha çox tündləşirdi, bəzi yerlərdə isə bu qaraltı hətta gecənin zülmət səmasıyla da çulğaşır, qovuşurdu. İosif bütün həyatı boyu belə bir şey görməmişdi, hərçənd ki Xaliqin gücünü göstərən qəribə səma hadisələrinin – qübbənin tən yarısını tutan göy qurşağının, yerdən düz göyün neçənci qatına ucalan pilləkənlərin, göydən yerə yağan yeməli nemətlərin hərdən baş verdiyini qocalardan eşitmişdi. Amma səmanın bu rəngə düşməsini heç vaxt söyləyən olmamışdı. Elə bir rəngə ki, həm nəyinsə



başlanğıcından, həm də nəyinsə sonundan xəbər verir, göylərin altında, bütün yer üzündə xırda-xırda, saysız-hesabsız, lap səhradakı daşların sayı qədər buludların sıxlaşmasından yaranmış bir günbəzin asılacağından xəbər verə bilərdi. Qəlbini qorxu sardı, ona elə gəldi ki, dünyanın axırı yetişib və İlahinin öz hökmünü necə icra etməsinin yeganə şahidi də o olacaq: nə yerdən, nə göydən bir səs belə eşidilmirdi – qonşu evlərdən nə bir danışıq, nə uşaq ağlamağı, nə dua, nə qarğış sözləri, nə küləyin səsi, nə keçi bəyirtisi, nə it hürüşü gəlirdi. "Bəs xoruzlar niyə banlamır axı", – dodaqaltı mızıldandı və xoruz səsinin nicat üçün sonuncu ümid verə biləcəyini güman edərək, sözlərini bir də təkrarladı. Göy üzündə isə artıq dəyişiklik baş vermişdi. Həmin o bənövşəyi rəng tədricən, demək olar ki, heç sezilmədən, bulud günbəzinin o üzündən solmağa başlayaraq, açıq-çəhrayıya keçirdi, sonra da qızardı və nəhayət, heç bir iz qoymadan, tamam yoxa çıxdı, elə bil, heç yerli-dibli yox idi və səma qəflətən işıqdan partladı, sanki, saysız qızıl nizələr buludlara sancılaraq, onları dəlib keçdi, buludlar isə, kim bilir, nədən və necə böyüyərək, yelkənlərini külək doldurmuş nəhəng gəmilərə çevrilib, artıq tam təmizlənmiş göyün üzü ilə üzməyə başladı. İosifin də qəlbi qorxudan azad oldu, gözləri təəccüb və heyrətdən geniş açıldı: yalnız onun şahidi olduğu bayaqkı mənzərə görünməmiş bir şey idi və dodaqları təbiətin Yaradıcısına alqışlar söylədi, göylər isə özlərinin bütün sakit əzəmətiylə ondan yalnız sadə sözlər gözləyirdilər, insan dilindən qopa biləcək sadə sözlər: "Eşq olsun Sənə, İlahi, buna görə, buna və başqa şeylərə görə eşq olsun". Bu sözləri dedi və elə həmin an, ecazkar ovsun səsləndirilibmiş kimi, sanki, möhkəm qapanmış qapını açdın, həyatın bütün səsküyü bayaqdan bəri lal sükutun səltənətinə çevrilmiş yerlərə təpildi, sakitliyi qovdu – əldən-ayaqdan uzaq, ağacların xışıltısı və cikkiltisinə bürünərək, gizlənmiş balaca meşə yarğanları kimi lap ucqarlara qovdu. Səhər qalxır, vüsət tapırdı və

işıq altında par-par yanan tükləri olan nəhəng cənnət quşu kimin əzəmətli əllərivlə havaya atıldı, uçmağa başladı, tovuzquşunun mingözlü quyruğu parlaq yelpinc kimi açılaraq cilvələndi, adsız, kiçik bir quşun öz bəsit təranəsini oxumağa vadar edildiyi an göz önündə açılan gözəllik, az qala, lap dözülməz oldu. Elə bu yerdə əsməyə başlamış küləyin dalğası İosifin sifətinə vurdu, saqqalını dağıdıb, köynəyinin qoynuna doldu, ətrafında burulğan kimi hərləndi, bəlkə də, bu yalnız qanın qəfil qaynamasından doğan ani divanəlik idi. Bel sütununun ətrafında yandırıcı bir vicvicə duydu – bu, artıq başqa bir istəyin, onu bayaq bayıra çıxaran istəkdən qat-qat güclü bir istəyin göstəricisi idi.

Özünü evə, küləyin qucağında gəlirmiş kimi yetirdi, arxasınca qapını örtüb, gözlərini qaranlığa alışdırmaq üçün bir dəqiqə dayandı. Yanındakı çıraq faydasız közərirdi. Yuxudan oyanmış Məryəm kürəyi üstə uzanmışdı, diqqətlə düz qarşısına baxırdı, sanki, nəsə gözləyirdi. İosif dinmədən ona yaxınlaşdı, üstündəki örtüyü ehmallıca çəkdi. O, gözlərini gizlətdi, gecə köynəyinin ətəklərindən yapışdı, amma köynəyini yalnız qarnına kimi qaldırmağa macal tapdı, onun üzərinə əyilmiş İosif də öz köynəyini çəkdi və Məryəm dizlərini araladı. Amma, bəlkə də, onun ayaqları daha tez aralanmışdı, hələ yuxuda olanda və o ya vücudundakı qeyri-adi əzginlikdən, ya da öz vəzifəsini gözəl anlayan arvadın ürəyinə daman hissiyyat ucbatından elə dizləri aralı uzanıb qalmışdı. Tanrı da, bəllidir ki, laməkandır deyə, görünür, həmin an lap yaxında imiş, amma cisimsiz ruh olduğundan, heç vaxt görə bilməzdi ki, onların saçları bir-birinə necə toxundu, kişinin bədəninin bir hissəsi öz vəzifəsini yerinə yetirərək qadının bədəninə necə girdi, İosifin toxumları Məryəmin müqəddəs bətninə töküləndə isə Tanrı, yəqin, artıq orada deyildi, çünki dünyada elə şeylər var ki, heç yaradanın da şüuruna sığışmır. Həyətə çıxan Tanrı, kişinin sinəsindən qopan boğuq, ölümqabağı xırıltını andıran səsi də eşidə bilməzdi, o ki qala, özünü



saxlaya bilməyən qadının ağzından çıxan zəif iniltini ola. Bir dəqiqədən sonra, bəlkə, daha da tez İosif qadını buraxıb qalxdı, o isə köynəyini endirib, yorğanı üstünə çəkdi, üzünü dirsəkdən bükülü qoluyla gizlətdi. Otağın ortasında durub, əllərini göylərə qaldıraraq, gözlərini tavana zilləyən ər bütün duaların ən dəhşətlisini elədi: "İlahi Pərvərdigara, Sənə minnətdaram ki, məni qadın yaratmamısan". Tanrı isə artıq heç həyətdə də deyildi, çünki nə evin divarları əsib uçuldu, nə də yer aralandı. Burada indiyədək tam dinməz olan Məryəmin sakit səsi eşidildi, fağır-fağır deyirdi:

– Tanrım, Sənə minnətdaram ki, məni öz iradənlə belə yaratmısan.

Diqqət edin ki, bu sözlər hamıya tanış olan və geniş şöhrət tapmış sözlərdən heç fərqlənmir: "Mən Tanrının quluyam. Qoy Sən deyən kimi olsun, İlahi". Yəqindir ki, o sözləri deyə bilən bir qadın bu birisini də dilinə gətirə bilərdi. Sonra dülgər İosifin arvadı Məryəm həsirinin üstündən qalxdı, onu ərininki ilə bir yerdə lülələyib, üstlərinə örtdükləri yorğanı iki qatladı.

* * *

İosiflə Məryəm Qalileyada, Nazaret adlı əhalisi az, yoxsul bir yerdə, qonşularınınkından, demək olar ki, heç fərqlənməyən, elə onlarınkı kimi üstünə gil çəkilmiş çiy kərpicdən tikilmiş, kərpic az işlənsin deyə dördüncü divarını əvəz edən təpəyə söykənmiş əyri-üyrü daxmada yaşayırdılar. Heç bir memarlıq-filan olmadan – hamınınkı kimi bir dəfə qəbul olunmuş və həmişə istifadə edilən qəliblə tikmişdilər bu evi, elə bir qəliblə ki, heç vaxt adamın zəhləsini tökmədiyindən, daim təkrarlanırdı. Bizə artıq bəlli olduğu kimi, İosif öz peşəsini babat bilən dülgərdi, lakin təxəyyüldən, yaradıcı ustalıqdan, diribaşlıqdan tamam məhrum idi və hər dəfə bu və ya başqa dərəcədə incə iş sifarişi alanda bütün çatışmazlıqları açılırdı. Amma düşünmürəm ki, məsələnin belə olması

mənim hətta ən tələbkar oxucularımı belə hiddətləndirsin, çünki hamıya bəllidir ki, iyirmi yaşını təzəcə haqlamış, bu dərəcədə məhdud imkanları olan bir əyalətdə, daha məhdud tələbatla yaşayan bir gənc üçün təcrübə qazanmağa buralarda qətiyyən şərait yoxdur və insan isə özünün estetik zövqünü formalaşdırmadan işində peşəkarlığını heç cür artıra bilməz. Elə bu səbəbdən insanın bütün dəyərini onun necə bir usta olması ilə məhdudlaşdırmayıb, demək istəyirəm ki, İosif özünün gənc olmasına baxmayaraq, Nazaretdə düzgün həyat sürən, Tanrıdan çəkinən, bütün ayin və mərasimləri qısqanclıqla yerinə yetirən bir adam kimi tanınırdı, hərçənd ki İlahi onu bütün qalan insanlardan fərqləndirmək üçün bəlağətli nitqlə mükafatlandırmamışdı, lakin fikirləri düzgün, iradları dəqiq və yerli-yataqlı olurdu, ələlxüsus da əgər söhbət nələrisə müqayisə etməkdən, yaxud birbaşa onun sənətiylə bağlı nələrisə müəyyənləşdirməkdən, məsələn, ətrafındakı dünyanın müxtəlif parçalarının bir-birinə nə dərəcədə möhkəm bağlanmasından düşərdisə. Lakin İosif qanadlı, əsl yaradıcı təxəyyüldən elə təbiətən məhrum olmasından dolayı, özünün qısa həyatı boyu bircə dəfə də dilinə elə bir söz, elə bir ifadə gətirməmişdi ki, Nazaret əhalisinin yaddaşlarına həkk olsun, oğuldan nəvəyə, ağızdan-ağıza ötürülsün, həmin o göz qamaşdıracaq dərəcədə aydın, mənası şəffaf söz örtüyünə bələnmiş səlis ifadələrdən deyirəm, elə ifadələrdən ki, gələcəkdə onu yozanlara qətiyyən ehtiyac olmasın və yaxud elə qaranlıq, dumanlı ifadələr ki, bizim zəmanəmizdə cürbəcür eruditlər üçün ləziz bir tikəyə çevrilsin.

O ki qaldı Məryəmin istedad və bacarıqlarına, bütün səylərə baxmayaraq, ərə gedəndən sonra da on altı yaşında kövrək qız kimi qalan bu insanda elə bir diqqətəlayiq cəhət aşkarlanmadı, necə deyərlər, beləsindən dünyanın hər yerində bir düjünə on üçü düşür. Məryəm özünün kövrəkliyinə baxmayaraq, elə bütün qadınlar kimi çalışır – toxuyur, yun əyirir və tikir, Tanrının hər günü çörək bişirir, bulaq başına, su



gətirməyə enir, sərt yoxuşla, başında ağır dolça geri dırmanır, axşamqabağı elə həmin cığırlarla çırpı yığmağa gedir və gedə-gedə də yol boyu öz zənbilini qurumuş təzəklə, qanqalın, çaqqal gavalısının tikanlı budaqlarıyla doldurur; bu bitkilər Nazaretin sərt yamaclarında yaman bol bitir, çünki Tanrı ocaq qalamaq və çələng hörmək üçün onlardan gözəl şey fikirləşə bilməyib.

Yol boyu bir xeyli yük yaranır və yaxşı olardı, bütün bunları uzunqulağa şəlləyəsən, amma bir mühüm məsələ vardı – heyvan İosifin yanında işləyir, onun taxta-tuxtasını daşıyırdı.

Məryəm suya da ayaqyalın gedir, tarlaya da və yoxsul paltarları gündəlik əməkdən cırılır, kirlənir, odur ki onları təzədən yamamaq, tikmək, yumaq gərək olur. Ərin qisməti-nə həm təzə şeylər düşürdü, həm də evdə qayğı-filanla əhatə olunmaq. Məryəm isə oraların bütün qadınları kimi lap aza qane olandır. Sinaqoqa da o, Qanunun tələbinə uyğun olaraq, yalnız yan qapıdan girə bilərdi, istəyir lap Nazaretin hər yerindən, bütün Qalileyadan otuz qadın toplaşsın ora, mütləq gözləməliydilər ki, azı, on kişi yığılsın, sonra ibadətə başlaya bilsinlər: qadınlar belə ibadətlərdə yalnız kənar, dinməz müşahidəçi kimi iştirak edə bilərdilər. Əri İosifdən fərqli olaraq, o, möminliyi və zahidliyi ilə ad çıxarmayıb, hərçənd ki məsələ onun hansısa mənəvi çatışmazlığında da deyil, çox güman ki, kişilərin fikirləşib taparaq, özlərinə uyğunlaşdırdıqları dilin çatışmazlığındadır: ibadətin sözlərində qadın cinsi olsa da, nədənsə, demək olar ki, heç işlənmir.

Lakin günlərin birində, həmin unudulmaz, buludların görünməmiş bənövşəyi rənglə dolduğu gündən, təxminən, dörd həftə sonra İosif – axşamtərəfi idi – evinin içində, döşəmədə otturaraq, barmaqlarının beşini də kasanın içinə salaraq şam edirdi; o zamanlar belə yeyirdilər, Məryəm isə ayaq üstə idi, gözləyirdi ki, əri doyub çəkilsin, o da artıq-urtuğu yeyib qarnını doyursun; hər ikisi susmuşdu – birinin deməyə sözü yox idi, ikincisi isə beynində dolaşanları sözlə dilinə

necə gətirəcəyini bilmirdi – birdən həyətin qapılarını Nazaretdə görünməmiş bir şey olmasa da, bu məhəllələrə yolu nadir hallarda düşən dilənçilərdən biri döydü; buralar kasıb yerlər idi, sakinləri də əksərən ağır həyat keçirir, bir qarnı ac, bir qarnı tox dolanırdılar və bu vəziyyətdə nisbilik nəzəriyyəsindən bəhrələnən, təcrübəli və çoxbilmiş dilənçilər xəbərdar olmaya bilməzdilər, onlar yaxşı bilirdilər ki, Nazaretin harasında oxları daşa dəyməyəcək.

Lakin Məryəm mərciməklə noxuda soğan qatıb bişirdiyi şorbadan kasaya doyumluq töküb saxlamışdı, bu, onun axşam yeməyi idi, gətirib öz payını həyətə girməyərək, elə qapının ağzında yerə oturmuş dilənçiyə verəsi oldu, o da yeməyə girişdi. Qadın gərək bunun üçün ərindən uca səslə icazə alaydı – əri isə cavabını başının bircə işarəsiylə də verə bilərdi, çünki, artıq bildiyiniz kimi, sezarların dövründə sözə ehtiyac yox idi, o zamanədə baş barmağın bircə işarəti bəs eləyirdi ki, qladiatoru ya öldürəsən, ya yaşadasan. Heç şübhəsiz, son üç günü dilinə bir şey dəyməmiş – o boyda kasanı bir göz qırpımında nəinki boşaltmaq, həm də onu yalamaq üçün, həqiqətən, gərək çox ac olasan – dilənçi isə artıq boş kasanı qaytarmaq və mərhəmətinə görə təşəkkür eləmək məqsədilə qapını yenidən taqqıldadırdı. Məryəm açdı: dilənçi düz onun qarşısında dayanmışdı, gözləmədiyi dərəcədə ucaboylu idi – qadına ilk an onun boyu qətiyyən uca gəlməmişdi, deyəsən, qarnı doymuş adam acdan boyuyla da təəccüblü dərəcədə fərqlənir və onun sifəti, sanki, daxili nurdan işıqlandı, gözləri parıldadı, hardansa qopmuş külək qəflətən onun cır-cındırını qaldıraraq, havada oynatdı və bir anlıq bulanmış baxışlara bu cındırlar dəbdəbəli, bahalı geyim kimi gəldi, buna, əlbəttə, yalnız həmin an orada olan bir şəxs inana bilərdi. Məryəm əlini uzatdı ki, dilənçidən gil kasanı alsın, lakin qeyri-adi bucaq altında sınan gün şüaları qəflətən kasanı təmiz qızıl kimi parıldatdı və kasa əldən ələ keçərkən, miskin dilənçi, kim bilir, haradan peyda olmuş, şeypur səda-



sını andıran səslə dindi: Tanrı sənə yar olsun, qadın, sənə övladlar ata etsin və onları qarşında dayanmış acı taleli, başını söykəməyə yer tapmayan adamın qismətinə yazılanlardan qorusun. Məryəm isə, elə bayaqkı kimi, kasanı düz qabağında tutmuşdu, lap dilənçi camı kimi, sanki, dilənçidən sədəqə gözləyirdi, o isə daha heç bir söz demədən əyildi, yerdən bir ovuc torpaq götürüb, əlini kasanın üstündə tutdu, barmaqlarının arasından torpağın kasaya tökülməsinə imkan verdi və sonra da eyni zamanda həm kar, həm də cingiltili səslə dedi: Gil – gilə, kül – külə, torpaq – torpağa, başlanğıcı olan hər şey sonuna varacaq, başlanan hər şey bitmişdən doğacaq. Məryəm özünü itirib, soruşdu: Bu sözlərin mənası nədir? Dilənçi isə cavab verdi: Arvad, sən öz bətnində oğul gəzdirirsən, insanların nəsibi elə budur – başlamaq və başa çatdırmaq, başa çatdırmaq və bir də başlamaq. Sən hardan bildin ki, mən hamiləyəm? Sənin qarnın hələ yekəlməyib, amma boynuna uşaq düşəndə, ananın gözlərində qeyri-adi bir parıltı olur. Onda gərək mənim ərim elə gözlərimdən anlayaydı ki, ondan uşağa qalmışam. Bəlkə, sizin baxışlarınız heç toqquşmur. De, sən kimsən ki, məndən heç nə soruşmadan hər şeyi bilirsən? Mən mələyəm, amma bunu bir kimsəyə demə.

Elə həmin an gözəl, dəbdəbəli paltar yenə cır-cındıra çevrildi, əzəmətli qədd-qamət isə cılızlaşdı, qurudu, sanki, onu alov öz dili ilə yalamışdı və bu qəribə təbəddülat düz elə həmin an baş verdi ki, Məryəmlə dilənçi tədbirli tərpənib, bir-birlərindən aralandılar, çünki sədəqə istəyən dilənçi ilə ev sahibəsi arasındakı adi söhbətdən daha boğuq və sakit çıxan səslərə diqqət verən İosif bu mükalimənin həddən artıq uzandığından narahat olub, qapının ağzında göründü. "Səndən nə istəyirdi o?" – arvadından soruşdu, o isə nə cavab verəcəyini bilmədiyindən, dilənçinin sözlərini təkrar elədi:

– Gil – gilə, kül – külə, torpaq – torpağa, başlanğıcı olan hər şey sonuna varacaq, başlanan hər şey, bitmişdən doğacaq.

Bunları o dedi sənə? Bəli. Bir də dedi ki, hələ doğulmamış, hələ anasının bətnində olan uşaq, qadının gözlərinə xüsusi parlaqlıq verir. Bir mənə bax. Baxıram, sənin gözlərin, doğrudan, qeyri-adi parıldayır, – İosif dedi. Məryəm isə cavab verdi: Sənin oğlun olacaq. Axşamçağının səmasında artıq göyərir, gecənin ilk rənglərini alırdı və gil kasanın dibindən qara işıq qalxdığını, Məryəmin üzünü bələyib, cizgilərini dəyişdiyini gördülər; onun gözləri artıq, sanki, özündən çox yaşlı bir qadınınkı idi.

– Deməli, sən hamiləsən? – nəhayət, İosif soruşdu. Hamiləyəm, qadın cavab verdi. Bəs niyə demirdin? Hazırlaşırdım elə bu gün deməyə, gözləyirdim ki, şam yeməyini bitirəsən. Onda da o avara gəlib çıxdı, hə? Hə. Daha nə söylədi sənə, nəsə yaman çox danışdınız. Dedi ki, Tanrı mənə ürəyim istəyən qədər uşaq verəcək. Bəs o kasanın içindəki nədir, nədir elə parıldayan? Torpaqdır. Çürüntü qara olur, gil yaşıl, qum bəyaz və yalnız qum parıldayır, o da gün düşəndə, amma indi gecədir axı. Mən qadınam, belə şeyləri bilmərəm: kişi yerdən bir ovuc torpaq götürüb, kasanın içinə atdı və həmin o sözləri dedi. Torpaq – torpağa? Hə.

İosif qapının cəftəsini açıb, küçəyə boylandı, hər iki səmtə baxdı. "Heç kəsi görmürəm, yoxa çıxdı", – dedi. Məryəm isə artıq sakitcə evə sarı gedirdi, çünki bilirdi: o dilənçi, əgər özü barədə dedikləri həqiqət idisə, istəsə görünər, istəməsə yox olardı.

Kasanı ocağın səkisinə qoydu, köz götürüb, fitil alışana kimi üfürərək, çırağı yandırdı. İosif girdi içəri – baxışları qayğılı və çaşqın idi, çaşqınlığını da ağır hərəkətiylə, qamətinin əzəmətiylə pərdələmək istəyirdi və bu, yaman gülməli, yersiz görünürdü, çünki belə cavan oğlanın hələ patriarx olmasına bir ömür vardı. Arvadı görməsin deyə, içində torpaq işıqlanan kasaya çəpəki baxdı, həm də sifətinə istehzalı-inamsız bir ifadə verməyə çalışırdı, amma səyi əbəs oldu – Məryəm nəzərlərini qaldırmırdı və ümumiyyətlə, elə bil, burada yox idi heç.

İosif bir az ləngiyib, camdakı torpağı yerə tökdü və onun əvvəlcə qaralmasına, sonra isə solğun, hamar parıltısının təzədən qayıtmasına təəccübləndi, torpaqda sürətli qığılcımlar oynayırdı, elə bil. Başa düşmürəm, dedi, burada nəsə əməl var: bəlkə, bu, qeyri-adi torpaqdır, yanındaymış, amma özünü elə göstərib ki, guya, yerdən götürdü, lap möcüzədir, – hələ görən olmayıb ki, bizim Nazaretin torpağı belə parıldasın. Məryəm isə cavab vermirdi; o, qazanda qalmış noxudlu, mərcili, soğanlı şorbasını, zeytun yağında isladılmış bir tikə çörəyini aramla çeynəyə-çeynəyə yedi. Çörəyi qoparanda, Qanunun öyrətdiyi kimi, lakin qadına yaraşan bir mütiliklə dedi: – Alqış Sənə, İlahi. Göylərin Hökmdarına ki, bu sünbülə torpaqda bitmək imkanı vermisən. Sonra da dinməzcə yeməyə başladı, İosif isə arvadının sözlərinə ilk dəfə idi ki, fikir verirdi, həmin bu sözləri elə özü də hər dəfə çörək qoparanda söyləyirdi; qulaq asdı və fikrə getdi, sanki, sinaqoqda Tövratdan bir parçanı, ya da peyğəmbərin ehkamını yozurdu və təsəvvür etməyə çalışdı ki, görsün bu nur saçan torpaqda arpa necə bitər, məhsulu və bu məhsulun çörəyi necə olar və sonra da bu çörəyi yeyəndə nə olar. Sən əminsən ki, bu torpağı o, yerdən götürdü? – o, yenə Məryəmə müraciət elədi və Məryəm cavab verdi: Hə, əminəm. Torpaq parıldamırdı ki? Yox, yerdə parıldamırdı. O, bu sözləri o qədər əminliklə dedi ki, kişilərin, ümumiyyətlə, qadın sözünə, xüsusilə də öz qanuni arvadlarının sözünə əzəli inamsızlığı gərək sarsılaydı, lakin İosif, həmin dövrdə, həmin yerlərdə yaşayan bütün kişilər kimi çox yayılmış bir fikri – kişi qadın təsirindən və qadın bicliyindən nə qədər çox qoruna bilirsə, bir o qədər müdrikdir – fikrini sidq-ürəkdən bölüşürdü. Qadınlarla az danışmaq, ondan da az qulaq asmaq gərəkdir – hər bir şüurlu insan bu məsləhəti xatırlayırdısa, mütləq ona riayət edirdi – rabbi İosafat ben İokanaanın məsləhətinə.

Ölüm saatında arvadınla zəruri ehtiyac olmadan etdiyin bütün söhbətlərə görə cavab verəcəksən. O anda İosif özünə

sual verdi ki, Məryəm ilə elədiyi bu söhbəti necə, görəsən, zərurilər sırasına aid etmək olarmı və belə bir nəticəyə gəldi ki, olar, çünki baş verən hadisənin qeyri-adiliyi də gərək nəzərə alınaydı, lakin fikrən öz-özünə and içdi ki, adaşının müqəddəs sözlərini heç vaxt unutmayacaq – axı İosafat elə İosiflə eyni ad idi ki, ölüm anında gecikmiş peşmançılıq yaşamasın və Tanrı elə eləsin ki, onun bu saatına hələ lap çox qalsın. Nəhayət, özünə sual etdi ki, görəsən, həmin o mübhəm dilənçi və onun bir ovuc işıqlanan torpağı barədə söhbəti sinaqoqdakı ağsaqqallara çatdırmaq olarmı və qərara aldı ki, olar. Bunu vicdanını təmizləmək üçün, bir də ki evinin sakitliyini və hüzurunu qorumaq üçün etmək gərəkdir. Məryəm yeməyini bitirdi. Qabları üst-üstə qaladı; yumağa hazırlaşırdı və təbii ki, dilənçiyə yemək verdiyi kasanı kənara çəkdi. Otaq isə indi iki alovla işıqlanırdı – qəflətən çökmüş gecənin zülmətiylə zorla bacaran hisli çıraq, bir də kasadakı bir ovuc torpaqdan qalxan yumşaq, seyrək işıq və bu işıq, sanki, göy üzünə doğmağa heç cür ürək eləməyən günəşin işığı idi. Məryəm yerdə oturub, gözləyirdi ki, bəlkə, əri ona yenə nəsə deyə, lakin İosifin, görünür, deməyə sözü yox idi və o, indidən sabah sinaqoqda müdriklərə və ağsaqqallara ünvanlayacağı nitqi barədə fikirləşirdi. Onu təəssüfləndirən məqam bu idi ki, dilənçi ilə arvadı arasında baş verənləri bütün dəqiqliyi ilə bilmirdi, daha nə demişdilər bir-birinə, amma soruşmaq da istəmirdi, bunun səbəbi vardı: əvvəla, inandırıcı deyildi ki, Məryəm söylədiklərinə nəsə əlavə eləyə, ikincisi də soruşsaydı, arvadının iki dəfə təkrar elədiyi hadisəyə inanmaq məcburiyyətində qalacaqdı, yəni onu həqiqət olaraq qəbul edəcəkdi. Əgər onun danışdıqları yalandırsa belə, İosif bu yalanı heç vaxt isbatlaya bilməz və bayaq da, indi də aldatdığını yaxşı bilən qadın üzünü örtüyünün altında gizlədib, sakitcə güləcək, lap Həvvanın Adəmə güldüyü kimi; onda hələ onun üçün gülüşünü gizləmək çox çətin idi, hələ örtük taxmırdılar və təbii ki, üzlərini örtməyə



də bir şeyləri yox idi. İosifin düşüncələri bu nöqtəyə kimi gələrək, sonra özünün təbii və qaçılmaz yolu ilə irəliləməyə başladı, sirli dilənçi onun gözünə İblisin əməlləsi kimi göründü və bu əmələ zəmanənin dəyişdiyini, keçmişdəki adamlardan fərqli olaraq, indikiləri aldatmağın çətinliyini anlamayacaq həddə sadəlövh olmadığından, keçmişlərdəki kimi özünün qadağan olunmuş meyvə fırıldağına əl atmayıb, məkrli və tez inanan qadın mahiyyətinin özəlliklərindən istifadə edərək, təzə bir şey fikirləşmişdi – qəribə, işıqsaçan torpaq. İosifin başı, sanki, od tutub yanırdı, lakin, bununla belə, o, özündən, öz fikirlərinin istiqamətindən razı qaldı. Məryəm isə ərinin iblisşünaslığın hansı dərinliklərinə baş vurduğundan, onun boynuna hansı ağır məsuliyyəti yıxmaq istədiyindən bixəbər tamam başqa şeylərin hayında idi: İosifə hamilə olduğunu söyləyən andan etibarən içində yaranmış qəribə boşluğun mənasını çözmək istəyirdi. Bu boşluğu bədəninin içində duymurdu, çünki artıq heç şübhə yox idi ki, onun bətni sözün əsl mənasında doludur. O, öz ətrafında, özündən kənarda qəribəlik duyurdu, sanki, ağ işıq indicə sönəcək, ya da çox, lap çox uzaqlaşacaqdı. O, hər şeyi xatırlayırdı, – lakin bu xatirələr də, elə bil, başqa həyatdan idi, – xatırlayırdı ki, şamdan sonra və hələ yatmaq üçün həsirləri açmamışdan, evdə həmişə görüləsi işləri olurdu, indi isə elə hesab edirdi ki, nə yerdən qalxmaq, nə də hərəkət eləmək gərək deyil: elə oturduğun yerdə qal, kasanın üstündəki sayrışan nura bax, oğlunun yer üzünə gəlişini gözlə. Həqiqətə bəslədiyimiz hörmət naminə deyək ki, Məryəmin fikirləri onda belə aydın, dəqiq deyildi, onlar daha çox dolaşıq düşmüş, hər tərəfindən ucları çıxan sap kələfini xatırladırdı; onların bəzisi yumşaq, adama tabe olan, dartdıqca uzanan idisə, digərləri, əksinə, o qədər dartılmışdı ki, bir az da çəksən, fikrin nəfəsini kəsərsən, ya da lap boğarsan bilmədən, lakin bu üçqat, burularaq dolaşmış sapın bütün uzunluğunu ölçmək istəyirsənsə, mütləq gərək kələfi çözəsən, bunu

isə, nə qədər istəsən də, kənar kömək olmadan eləmək mümkün deyil – gözəl günlərin birində kimsə mütləq gəlib deməlidir ki, göbək harasından kəsiləsidir və gəlməlidir ki, fikirlə onu doğuran səbəbi birləşdirsin.

Ertəsi günün səhəri bütün gecə uzunu eyni dəhşətli yuxudan əzab çəkən İosif – elə hey görürdü ki, ağzı üstə çevrilmiş nəhəng kasanın dibinə hardansa, çox yüksəklərdən düşür – sinaqoqa yollandı ki, ağsaqqallardan məsləhət və kömək istəsin. Onun hadisəsi o dərəcədə qeyri-adi idi ki, – hansı dərəcədə qeyri-adi olduğunu heç özü belə, əməlli təsəvvür eləyə bilmirdi, çünki, bildiyimiz kimi, o ən əsas məsələ, hadisənin mahiyyəti barədə məlumatsız idi, – əgər Nazaretin sayılan insanlarının və ağsaqqalların yanında şəksiz hörməti olmasaydı, yəqin ki, evlərinə əliboş, qaça-qaça qayıdacaqdı, xəcalətdən alışıb-yanan qulaqlarının pərdələrində isə Müqəddəs Kitabın tunc cingiltisi kimi uğuldayan kəlmələri səslənəcəkdi: Sadəlövh insan məzəmmətə layiqdir. O isə özünü tamam itirərək, bütün gecə əziyyət vermiş yuxunu xatırlayıb, elə həmin Kitabın başqa kəlmələriylə etirazını bildirmək iqtidarında olmayacaqdı: "Ayna və yuxu mahiyyətcə eynidir, həm onda, həm də bunda insan öz obrazını görür". Amma ağsaqqallar onun əhvalatını dinləyərək, əvvəl bir-birlərinə baxdılar, sonra da nəzərlərini İosifə yönəltdilər və onların ən qocası, içindəki dumanlı inamsızlığı sualının kəsəliyinə yönəldərək, birbaşa dedi: "Bizə danışdıqların həqiqətdirmi, tam həqiqətdirmi və yalnız həqiqətdirmi?" Dülgər isə cavab verdi: "Tanrı şahiddir ki, bu, bir həqiqətdir, tam həqiqət və yalnız həqiqət". Ağsaqqallar məşvərətə başladılar, məşvərətləri xeyli çəkdi, İosif isə bir kənarda durmuşdu, sonra isə onu yanlarına çağırıb, elan elədilər ki, aralarında fikir müxtəlifliyi yarandığından, bu qəribə hadisələr barədə Məryəmin özünü sorğu-sual etmək üçün, başqa heç kəsin görmədiyi bu avara dilənçinin kimliyini, zahiri görünüşünü, məhz hansı sözləri dediyini, Nazaretdə bir də peyda olub-olmayacağını aydınlaşdırmaq üçün, eyni zamanda da qonşularından bu qəribə adama aid ola bilən hər hansı məlumatı toplamaq məqsədilə, üç elçi göndərmək qərarına gəliblər. İosifin ürəyində şadyanalıq oyandı, çünki bunu özünə belə etiraf etməsə də, nədənsə arvadının yanına tək qayıtmaqdan çəkinirdi, – bu bir gün ərzində qadını tamam dəyişmişdi: adətlərin və davranış qaydalarının tələblərinə uyğun olaraq, gözlərini qaldırıb mənə baxmırdı, amma üzündə nəsə təzə çalar, gizlətmək mümkün olmayan nəsnə, elə bil, hamıya meydan oxuma vardı, – belə ifadə demək istədiyindən artıq bilən və bildiyini hamıya göstərən insanlara xasdır. Həqiqətdir, tam həqiqət ki, qadın məkrinin həddi yoxdur, hətta ən təmiz niyyətlisinin belə.

Beləliklə, evinin yerini göstərmək üçün qabağa düşən İosifin arxasınca üç elçi də yola düzəldi, onların adı – Aviafar, Dotaim və Zakhey – bu adlar burada yalnız ona görə çəkilir ki, bizim tarixi saxtakarlıq etdiyimizə qətiyyən şübhə yaranmasın, belə fikirlər bu faktları, mülahizələri başqa, bizim qaynaqlardan fərqli, bəlkə də, lap ənənələrlə təsdiq edilmiş, lakin bundan həqiqətə daha uyğun olduğu heç də iddia edilə bilməyən başqa mənbələrdən alan insanların qəlbində oyana bilər.

Lakin elçilərin adlarını çəkməklə, biz bu adları daşıyan insanların, həqiqətən, yaşadıqlarını isbat edirik və bununla bütün şübhələr üçün münbit zəmini tam aradan qaldırmasaq da, ən azı, onların inandırıcılığını əlindən alırıq. Bir halda ki külək küçəylə addımlayan, yerişlərindəki, qamətlərindəki məxsusi əzəmətdən çox asan tanınan bu üç müdrik qocanın saqqalını tanrının hər verən günü qarışdırmır, ləbbadələrinin içinə hava doldurmur, tezliklə onların ətrafına yaşlarının azlığından, ağılları kəsmədiyindən saymazyana hırıldayaraq, səs-küy salan bir dəstə oğlan uşağı yığıldı; onlar elçilərin arxasınca bu gəlişi müşayiət edən, səs-küy və qışqırıqlar ucbatından bütün Nazaretin məsələdən xəbərdar olmasından möhkəm pərtləşmiş İosifin düz evinə kimi gəldilər. Bu hay-küyə evlərinin qabağına çıxmış qonşu qadınların burnuna maraqlı xəbər

iyi dəydiyindən, uşaqlarına tapşırdılar ki, Mariyagilə tərəf yüyürsünlər, orada camaatın niyə toplaşdığını öyrənsinlər. Amma əbəs səylər idi, çünki içəri yalnız evin sahibi ilə üç ağsaqqal girə bildi və hər şeylə maraqlanan qonşu qadınların düz burnunun qabağında çırpılan qapı, dülgər İosifin evində nələr baş verdiyindən xəbərdar olmaq imkanını bizim də əlimizdən aldı. Qadınların kor qalmış hər şeydən baxəbər olmaq həvəsi isə təxəyyüllərini coşdurdu və heç kəsin görmədiyi dilənçi oğruya, quldura çevrildi, yəni tamam şər və böhtan yarandı, zira mələk – sizdən xahiş edirəm, onun mələk olması barədə bir kimsəyə söyləməyin – heç bir şey oğurlamamışdı, yalnız ona nə vermişdilərsə, onu da yemişdi, hələ bir fövqəltəbii girov da qoymuşdu bunun əvəzində. Beləliklə, iki ağsaqqal Məryəmi sorğu-sual edənədək, üçüncüsü, o qədər də qoca olmayanı və Zakhey adı daşıyanı qonşuların evini gəzməyə başladı ki, dülgər İosifin arvadının təsvir etdiyi və çox da uğursuz təsvir etdiyi həmin o dilənçi haqqında məlumat toplasın və qonşular da birağızdan deyirdilər ki, dünən qəsəbədən heç bir dilənçi keçməyib, əgər keçibsə də, onların qapısını döyməyib və ümumiyyətlə, həmin o dilənçi dedikləri, əslində, evdə adam olduğundan xəbər tutmuş oğru imiş, özünü dilənçi kimi göstərərək, aradan çıxmaq istəyib – burada nə var ki, bu, dünyanın özü qədər qədim oğru hiyləsiydi.

Zakhey Məryəmin evinə əliboş dönəndə, düz həmin məqam idi ki, o, bizim bildiyimiz şeyləri ya üçüncü, ya da dördüncü dəfə, lap başdan danışırdı. Ağsaqqalların qarşısında müttəhim kimi dayanmışdı, yerdəki kasada isə bir ovuc ecazkar torpaq sakit vuran ürək kimi işıqla döyünürdü. İosif arvadının yanında oturmuşdu, ağsaqqallar isə – onlarla üzbəüz, hakim təki və birinci Dotaim dilləndi – müdriklərin ortancılı. Bizi başa düş, qadın, biz sənin söylədiklərinə inanmadığımızı demirik, lakin sən bu insanı görən yeganə adamsan; əgər o, həqiqətən, insan imişsə, ərin isə onun yalnız səsini eşidib, bax, elə Zakhey də bütün qonşuları dolaşandan



sonra, bizə məlumat verdi ki, onu heç görən olmayıb. Tanrı şahiddir ki, mən sizə həqiqəti söylədim. Həqiqəti söyləməyinə söylədin, amma həqiqətin hamısınımı dedin və dediklərinin hamısı həqiqətdirmi? Mən sınaqdan keçməyə hazıram, heç bir günahım olmadığını isbat etmək üçün acı su belə içməyə razıyam. Acı suyu ərinə xəyanət elədiyindən şübhələndikləri qadına verirlər, sənin isə, Məryəm, ərinə xəyanət eləmək üçün heç vaxtın da olmayıb. Deyirlər ki, yalan da elə xəyanətdir. Yalan başqa cür xəyanətdir. Mənim dilim də elə özüm kimi düzgündür. Bu yerdə Aviafar, ağsaqqalların ən qocası dilləndi: Biz daha səndən heç şey soruşmayacağıq, amma yadda saxla, Tanrı sənə söylədiyin həqiqətə görə yeddiqat, bizə yalan deyirsənsə, yeddi dəfə yeddiqat əvəzini verəcək. O susdu və sükutu kifayət qədər uzun sürdü, sonra da yoldaşlarına müraciətlə soruşdu: Bu parlayan torpağı nə edək? Tədbirli hərəkət torpağı burada qoymamaq olardı, çox mümkün ki, bu işdə bir şeytan əməli var. Dotaim dilləndi: Qoy haradan götürülübsə, ora da qaytarılsın, yenə qara torpağa dönsün. Zakhey dedi:

Biz o dilənçinin kimliyini bilmirik, bilmirik ki, niyə Məryəmdən başqa kimsənin onu görməsini istəmirdi, gil kasanın içindəki bir ovuc torpağın niyə işıq saçdığını da bilmirik. Dotaim dedi: Onu səhraya aparaq, heç kəsin görmədiyi yerə, qoy külək sovursun onu, qoy yağış bu işığı söndürsün. Zakhey dilləndi: Əgər həmin torpaq səadət gətirirsə, onu heç yana aparmaq gərək deyil, əgər bəd əməldirsə, qoy ondan yalnız bu məqsədlə seçilmiş adamlar, bu torpağı kimə gətiriblərsə, elə onlar da əziyyət çəksin. Onda Aviafar soruşdu: Sənin təklifin nədir? Zakhey cavab verdi: Burada xəndək qazıb, kasanı basdıraq, amma əvvəlcə ağzına qapaq qoyarıq ki, bu torpaq adi torpağa qarışmasın: xeyiri basdırsan da, əbəs yerə itmir, şər isə torpaq altında qalsa, heç olmasa, görünməz. Aviafar soruşdu: Sən nə düşünürsən bu barədə, Dotaim? O isə belə cavab verdi: Zakhey düz deyir, elə o cür

də eləyək. Aviafar Məryəmə dedi: Çəkil, biz işimizə başlayaq. Hara çəkilim? – o, soruşdu və qəflətən İosif həyəcan içində qarışdı söhbətə: Kasanı basdırmaqdırsa, burada yox, həyətdə basdırın, yoxsa altımda işığın basdırıldığını bilsəm, gecələr gözümə yuxu getməz. Aviafar ona dedi: Necə bilirsənsə, elə də elə, – sonra da üzünü Məryəmə tutdu: Sən burada qal. Kişilər həyətə çıxdılar. Zakhey kasanı aparırdı. Tezliklə kətmənin ahəngdar, güclü zərbələri eşidildi, bu, İosif idi, torpağı qazırdı, bir neçə dəqiqədən sonra isə Aviafarın səsi gəldi: Bəsdir, daha dərinləşdirmə. Məryəm qapıdakı yarığa sinib gördü: əri sınıq dolça qırığı ilə kasanın ağzını örtdü və əlini, az qala, çiyninə kimi xəndəyə soxaraq, ora qoydu, sonra qəddini dikəltdi və yenə də kətməni alıb, xəndəyi doldurdu, ətrafındakı torpağı da tapdalayıb hamarladı.

Dörd kişi bir az da həyətdə durub, yavaşdan söhbət eləyə-eləyə, təzə qazılmış torpağa baxırdı; sanki, bu dəqiqə bir xəzinə basdırmışdılar və onun yerini yaxşı yadda saxlamağa çalışırdılar. Amma, təbii ki, söhbət tamam başqa şeydən gedirdi, çünki birdən Zakheyin başqa səsləri üstələyən səsi eşidildi və bu səsdə, elə bil, kinayəli qınaq vardı. Sən necə dülgərsən ki, arvadına çarpayı da düzəltmirsən? Ağsaqqallar gülüşdülər, onlarla bir yerdə İosif də güldü, bir az utancaq, amma yarınırmış kimi, – səhvi üzünə deyilmiş, amma etiraf etmək istəməyən adam kimi. Məryəm onların çöl qapısına sarı getdiklərini, küçəyə çıxdıqlarını gördü, sonra isə ocağın yanında çömbəlib, gözlərini otağa gəzdirdi, sanki, əri çarpayı düzəltsə, onu hara qoyacağını fikirləşirdi. O nə gil kasa barədə, nə nursaçan bir ovuc torpaq haqqında düşünmək istəyirdi, nə də dünən onun evinə gələn, həqiqətən, mələk idimi, yoxsa onunla miskin dilənçi, sadəcə, zarafat etmişdi – heç bu barədə də fikirləşmək niyyəti yox idi. Bir qadına əgər otağa çarpayı qoyacaqlarını vəd edirlərsə, yalnız bu çarpayının otağın harasında yaxşı duracağı barədə düşünmək qalır.

* * *

Tamuz ayının günləri axıb, Av ayının günlərinə qovuşanda, artıq üzüm yığımı başlananda və əncir ağacının sərt yaşıllığında yetişib, işıqlanan ilk meyvələr görünəndə, yuxarıda təsvir etdiyimiz hadisələr də cərəyan edirdi, onların arasında ən adi, ən bəsitləri də vardı, zira əri ilə cismani yaxınlıqda olan qadının bəlli müddətdən sonra elə ərinə dediyi: Mən səndən uşağa qalmışam – sözlərindən adi və bəsit nə ola bilərdi ki, amma bununla yanaşı, çox qəribə və görünməmiş məsələlər də baş vermişdi, çünki adi, fağır dilənçi, əgər yeddi başı olsa belə, qadına hələ onun özünə bəlli olmayan hamiləliyindən xəbər verə bilməzdi, xüsusilə də əgər, buna inanın ki, onun bu hamiləliyə heç bir dəxaləti yox idi, zira ona aid olan, kasada işıqsaçan həmin bircə ovuc torpaq idi ki, İosifin inamsızlığına və ağsaqqalların müdrik ehtiyatına görə, onu gözdən uzaq eləyərək, həyətdə çala qazıb, lap dərində basdırmışdılar. İsti günlər başlayırdı, quraqlıq çölləri lütləyir, otlar kövrək, sınan olurdu və boğucu günorta saatlarında hər tərəfdən sükut və tənhalıqla mühasirəyə alınmış Nazaret ulduzlu gecənin intizarını çəkirdi ki, nəhayət, zülmətdə fəzanın nəfəsini duysun, səma qübbələrinin musiqisini dinləsin. Yeməyini yeyəndən sonra İosif həyətdə otururdu, qapının sağında və üzünü, saqqalını saran axşam sərininin ilk mehindən ləzzət alırdı. Hava lap qaralanda, Məryəm də həyətə çıxırdı, o da əri kimi yerə otururdu, amma qapının solunda və beləcə dinməz əyləşərək, qonşu evlərdən gələn, hələ övladları olmadığından onlara tanış olmayan ailəməişət səs-küyünə qulaq verirdilər. Tanrı oğlan ata edəydi – gün ərzində İosif bu barədə neçə dəfə fikirləşmişdi və Məryəm də öz-özünə deyirdi: "Tanrı bir oğlan yollayaydı; hər ikisi eyni şey istəyirdi, amma tamam fərqli səbəbdən". Məryəmin qarnı asta böyüyürdü deyə, həftələr, aylar keçəndən sonra hamiləliyindən hamı xəbər tutdu və o, qonşuları

ilə utancaqlığından, təvazökarlığından az ünsiyyətdə olurdu deyə, uşağa qalmasını qəfil anlayanda elə yekdil təəccübə səbəb oldu, sanki, gündüzün günortaçağı camaat içinə gecə köynəyində çıxmışdı.

Çox ola bilər ki, onun hər şeyi gizlin saxlamasının daha bir və qat-qat məxfi səbəbi vardı ki, o da bundan ibarət idi: ömründə istəməzdi onun hamiləliyi ilə Nazaretdə peyda olan sirli dilənçi arasında kimsə bir əlaqə görsün və hər şeyin necə baş verdiyindən məlumatlı olan bizlərə tamamilə yersiz gələn bu ehtiyat bəzən, tamam başqa saatlarda, bədənin əzginləşərək əridiyi, ruhun isə qəribə, azad arzulara daldığı zamanlarda həm tərəddüdlərinin cəfəng əsassızlığından qorxmuş, həm də bütün vücudunu çulğayan, əvvəllər heç görmədiyi ehtiraslı titrəyişdən təntiyən Məryəmi məcbur edirdi ki, özünə bu sualı versin: bəs ürəyinin altında gəzdirdiyi uşağın həqiqi və əsl atası kimdir? Lakin bəllidir ki, hamilə olmuş qadınlar bundan da ağlasığmaz fantaziyalara uymağa, bundan da ağlasığmaz arzulara dalmağa meyilli olurlar – indi Məryəmi çulğayan, gələcək ananın paklığını ləkələməmək üçün bundan sonra sirr olaraq qoruyacağımız məqamlardan da yasaq fikirlərə.

Vaxt isə öz işində idi və Av ayı tələsmədən Elulun qaynar qazanına axdı, o ayın ki, səhradan yandırıcı külək gətirir, xurma və əncir baldan şirin dadır, Elul da payızın ilk yağışlarıyla yumşalmış torpağın kotan bıçağını və növbənöv toxumları qəbul etdiyi Tişri ayına keçdi, Tişridən sonra da Xeşvan yetişdi, zeytun yığımının dəmi və havanın, nəhayət ki, sərinləməsindən istifadə eləyən İosif kobud taxt düzəltmək fikrinə düşdü; bildiyimiz kimi, çarpayı adını daşımağa layiq olan bir şey düzəltmək üçün onun ustalığı bəs etməzdi ki, Məryəm bu qədər intizardan sonra yekə, ağır qarnını rahatlada biləcək yer tapsın. Kislev ayının sonlarına yaxın leysan yağışlar başladı, düz sonrakı, Tevet ayının axırına kimi və bu səbəbdən də İosif çarpayının inşasını həyətdən



evə keçirməyə məcbur oldu və evi işıqlandırmaq üçün qapını açaraq ağacı mişarlayır, baltayla yonur, rəndələyir, kobud qurğusunu düzəldirdi; özündən sonra isə Mariyanın süpürüb, həyətə çıxarmağa məcbur olduğu qalaq-qalaq yonqar, ağac kəsikləri qoyurdu.

Şvat ayı yetişdi, badam çiçəklədi, Adar ayı ilə Purim bayramı ötəndən sonra isə artıq çoxdan bəri Qalileyanın şəhər və kəndlərini, İrod çarlığının digər əyalətlərini dolaşan Roma əsgərlərindən bəziləri Nazaretə də gəlib çıxdılar və onlar əhalini xəbərdar etdilər ki, imperator Avqustun əmri ilə konsul Publi Sulpitsi Kviron tərəfindən idarə olunan bütün əyalətlərin sakinləri siyahıyaalmadan keçməlidirlər və bu tədbirin də məqsədi özündən öncə keçirilənlərin hamısı kimi, Romaya vergi ödəyənlərin tam siyahısını qaydaya salmaqdır və hər kəs siyahıyaalmada iştirak etmək üçün mütləq anadan olduğu yaşayış məskəninə dönməlidir. Meydanda imperator fərmanına qulaq asan əksər şəhər əhalisinə onun heç bir dəxli yox idi, çünki onlar artıq neçə nəsil idi Nazaretdə yaşayırdılar və elə siyahıyaalmanı da orada keçəcəkdilər. Lakin onların arasında gəlmə insanlar da vardı – Havlonitid, ya Samariyadan, İudeya, Perey və İdumeydən, başqa yaxın və uzaq yerlərdən – və elə onlar da fikrə getdilər, səslərini içlərinə salıb, Romanın doyurmaq mümkün olmayan acgözlüyünü söyməyə və öz aralarında danışmağa başladılar ki, tezliklə arpa, kətan yığımıdır, tarlalarda işçi qüvvəsi çatmayacaq. Çoxuşaqlı ailəsi, xırda balaları, ya da qoca, əldən düşmüş valideynləri olanlar isə qarşıdakı uzun və ağır yolu necə keçəcəklərini düşünürdülər, fikirləşirdilər ki, eşşək arabasını haradan ucuz kirələmək olar, yola yeyəcək, içməli suyu necə tədarük etsinlər, çünki yolları səhradan keçirdi və bir də açıq havada, quru torpağın üstündə gecələyəsi olacaqlarından, lazımi sayda həsiri, yorğanı haradan tapsınlar, yağışdan necə qorunsunlar.

İosif imperator fərmanı haqqında bu sevindirici xəbəri başqa yerlərə çatdırmaq üçün əsgərlər oradan aralanandan

sonra eşitdi: məhz belə bir iş üçün səhərin gözü açılmamış yuxudan duran Ananiya adlı qonşusu danışdı ona. Ananiyanın özünə Nazaretdən heç yana tərpənmək lazım deyildi: onun yerli adam kimi siyahıyaalmanı burada keçəcəyi azmış kimi, hələ bir biçin dövrünə düşdüyündən, Pasxa üçün Yerusəlimə getmək fikri də yox idi. O, qonşusunu xəbərdar etməyi özünə borc bilmişdi və bu borcundan çıxdığı üçün məmnun idi, hərçənd ki bu məmnunluq, bəlkə də, onun üzündə elə çox görünmürdü və kiməsə bir bəd xəbər çatdırmağı Tanrı heç kəsə göstərməsin, amma ən müsbət adamlarda belə hərdən yamanlığa meyil oyanır, biz isə bu Ananiyanı o dərəcədə yaxşı tanımırıq ki, qərar verək: onun sifətində həmişə belə ifadə olurdu, yoxsa o dəm əlində, yəqin, heç bir vacib işi olmayan İblisin felinə uyaraq, kiminsə bədbəxtliyindən kam alırmış kimi, məmnunluq duyurdu?..

Hər necə olsa, Ananiya darvazanı döyüb, İosifi çağırdı, amma o, əvvəlcə eşitmədi, çünki həmin an çəkici əlində, gurultuyla mismar çalırdı. Məryəmin qulağı isə daha iti idi, amma onu yox, ərini səsləyirdilər deyə, onun köynəyinin qolundan dartıb dedi: Kar olmusan? Səni çağırırlar. Ananiya isə özü də artıq səsini ucaltmışdı, həm də qapını daha bərkdən döyürdü və onda İosif getdi ki, qapını açsın və qonşusuna nə lazım olduğunu öyrənsin. Qonşusu isə içəri girib, salamlaşandan sonra, çoxdan bəlli olan bir şeyi dəqiqləşdirən adamın ahəngi ilə soruşdu: İosif, sən haralısan? O isə heç nədən şübhələnməyərək, sadəlövh cavab verdi: Vifliyemdən. Yerusəlim tərəfdədir, hə? Hə. Bəs Pasxa bayramına Yerusəlimə getməyəcəksən ki? – deyə Ananiya soruşdu. İosif cavab verdi: Yox, bu il getməyəcəyəm, arvadım doğasıdır. Hə, belə de. Niyə soruşursan ki? Onda Ananiya əllərini göylərə qaldırdı və sifətində misilsiz kədər göründü: Ah, yazıq İosif, ağır sınaqlar, məşəqqətlər gözləyir səni: bax sən indi öz peşənlə məşğulsan və heç bilmirsən ki, hər şeyi tullayıb, Tanrı bilir, hara getməlisən, zira İlahi üçün mümkün



olmayan heç nə yoxdur və onun yerdə də, göydə də qüdrəti sərhədsizdir, lakin qoy o, günahımdan keçsin, sənə bu işdə necə kömək edə biləcəyini heç cür başa düşmürəm, çünki buralar Sezarın hakimiyyətindədir. İosif soruşdu: Sən nədən danışırsan? Ananiya cavab verdi: Ondan danışıram ki, Roma əsgərləri tapşırıblar ki, Nisan ayının sonuna qədər bütün bəni-İsrail doğulduğu yerdə qeydiyyatdan keçsin, odur ki sən biçarəni uzun, çətin bir yol gözləyir.

İosif özünə gəlib, ona cavab verməyə macal tapmamış, həyətdə Ananiyanın Şuya adlı arvadı da göründü və Məryəmə sarı üz tutaraq, az qala, ağı deməyə başladı: Ay yazıq, bədbəxt qadın, nələr gələcək başına, hələ bir yükün də ağırdı, kim bilir, haralara getməlisən bu vəziyyətdə. İudeyaya, Vifliyem şəhərinə, – əri ona cavab verdi. Bu ki lap dünyanın o başındadır! – Şuyanın nidası eşidildi və bu, gəlişigözəl söz deyildi, qadın nə dediyini bilirdi, çünki Yerusəlimə ziyarətə gedəndə, onun yaxınlığındakı Vifliyemə də baş çəkmişdi ki, rahibin məqbərəsində dua eləsin. Məryəm cavab vermirdi, gözləyirdi ki, əri birinci danışsın, lakin İosif çaşqınlığına heç cür güc gələ bilmirdi: belə mühüm xəbəri şəraitə uyğun sözlərə bürüyərək, ən əsası isə lazımi və düzgün ahənglə o özü çatdırmalı idi Məryəmə, daha qadın onu qaça-qaça həyətə girmiş qonşularının çığırışmasından bilməməliydi. Elə buna görə də özündən narazı qaldığını gizlətmək üçün, təşəxxüslü görkəm alıb, müdrik sözlər gətirdi dilinə: Tanrı sezarın iradəsini həmişə həyata keçirmir, Sezar isə Tanrının iradəsi ziddinə heç bir şey etməz. – O susdu ki, hamı bu müdrik sözlərdəki dərin mənaya vara bilsin və əlavə etdi: Pasxa bayramını evdə qarşılayaram, elə əvvəlcədən qərarlaşdırdığım kimi, sonra isə, əgər bizə getmək əmri verilibsə və əgər buna Tanrının iradəsi varsa, vaxtında qayıdarıq ki, Məryəm evdə doğsun, əgər çatdırmasaq, nə etməli, onda bizim ilkimiz öz əcdadlarının torpağında gələr dünyaya. Ya da yolda, – Şuya mızıldadı, amma İosif eşidib, cavab verdi: Bizim



qəbiləda şlarımızın çoxu yollarda doğulub, mənim oğlum da onlardan biri olar. Bu sözlər hökm kimi səsləndi, şikayət hüququ verməyən hökm kimi və eşidənlər də onu beləcə qəbul edib, deməyə söz tapmadılar, nə Ananiya, nə arvadı.

Onlar isə qonşularının yanına yüyürmüşdülər ki, dərdlərinə şərik olalar və həm də öz canıyananlıqlarından ləzzət alalar, amma indi belə çıxırdı ki, onları nazla oynamadan çölə çıxarırdılar, lakin elə həmin an Məryəm Şuyanı evə dəvət elədi – guya, nəsə, toxumaq istədiyi yun barədə məsləhət alacaq ondan, İosif isə, yəqin, özünün qaraqabaqlığından utanaraq, Ananiyaya dedi: Səndən bir xahişim olacaq, arvadımla mən burada olmadığımız müddətdə yaxşı qonşu kimi mənim evimə də göz-qulaq ol, çünki hər şey uğurlu olsa belə, bir aydan tez qayıdası deyilik – obaş-bubaşa yol, üstəgəl, bir həftə arvadımın qapalı yerdə qalaraq doğuşdan təmizlənməsi, əgər qızım olsa, bir az da artıq çəkəcək, amma inanmıram Tanrı buna yol verə, hər nəsə, bir xeyli çəkəcək. Ananiya cavab verdi ki, İosif heç bir şeydən narahat olmaya bilər, onun evinə də elə öz evi kimi baxacaq, sonra da qəflətən ağlına gəlmiş fikri səsləndirdi: İosif, əzizim, Pasxanı bizdə, mənim qohumlarımla, dostlarımla bir yerdə qeyd etməklə, mənə şərəf verməyə razı olarsanmı, axı Nazaretdə nə sənin, nə də Məryəmin valideynləri dünyalarını dəyişəndən sonra, – özü də elə bir yaşda ki, camaat indiyə kimi başa düşmür ki, Anna bu qızını İoakimdən necə doğa bilərdi – Nazaretdə heç yaxın adamlarınız yoxdur. İosif ona istehzalı qınaqla cavab verdi: Ananiya, yadına sal, inanmayan Avraam Tanrıdan nəslinin davam edəcəyi barədə xəbər alanda, dodaqaltı nə mızıldanırdı; deyirdi ki, yüz yaşlı ərlə doxsan yaşlı arvadın övladı ola bilməz, İoakim və Annanınsa yaşları Avraamla Saranınkından xeyli az olardı, odur ki qeyri-mümkün anlayışını qəbul etməyən Tanrı üçün mənim qayınatamla qayınanama uşaq yollamağa nə vardı ki. Qonşusu isə ona belə cavab verdi: O vaxt başqa dövran idi, Tanrı da özünü insanlara hər

gün şəxsən göstərirdi, indiki kimi öz məxluqları vasitəsilə yox. İosif isə yönəldiyi inancın möhkəmliyini isbat etməyə çalışaraq belə dedi: Tanrı, ey mənim mehriban qonşum, elə zamanın özüdür, Tanrı üçün bütün zəmanələr eynidir və Ananiya da hakimiyyət barədə mübahisə açmağı daha yersiz saydı – həm təbii, həm də öz əməyinlə qazanılmış hakimiyyətlər, Tanrı və Sezar hakimiyyətləri, – buna girişmədi, çünki çox dolaşıq məsələ idi. İosif, söhbətlərinin belə ilahiyyatçı çalar almasına baxmayaraq, qonşusunun Pasxanı onlarla, dostlarıyla qarşılamaq təklifini də unutmadı və bu təklifi qəbul etmək qərarına gəldi, amma dəvətini belə tələsik, sevincək qəbul etmək istəmirdi, çünki hamıya bəllidir: təklif olunan xidmət və iltifatı minnətdarlıqla qəbul etmək xoş qədirbilənlik əlamətidir, lakin həddən-ziyadə sevinmək və heyranlığını göstərmək yersizdir, fikirləşməsinlər ki, biz elə bunun arzusunda idik. Qonşusuna onları şərəfyab etdiyinə, gözəl münasibət göstərdiyinə görə təşəkkür etdi, Şuya isə Məryəm ilə bir yerdə artıq həyətə çıxmışdı, ona deyirdi: Əllərin qızıldır, Məryəm isə qız kimi qızardı, çünki onu ərinin yanında tərifləyirdilər.

Bu çox şey vəd edən Pasxadan Məryəmin yaddaşında yalnız bayram süfrəsini hazırlamaq qayğısından, masa arxasında oturmuş kişilərə qulluq göstərmək vəzifəsindən azad olması qaldı. Mətbəxdə əlləşən digər qadınlar onu bu mükəlləfiyyətlərdən azad edərək dedilər ki, sənə olmaz – yəqin, onlar nəyə icazə olub-olmadığını daha yaxşı bilirdilər, axı demək olar ki, hamısının uşağı vardı.

Odur ki digər kişilərlə birlikdə, yerdə oturmuş İosifə qulluq göstərməkdən başqa heç nə eləyəsi olmadı, – onun üçün çaxır süzür, boşqabına kəndli yeməkləri qoyurdu – şit fəsəli, soyutma quzu əti, acı ot, üyüdülmüş çəyirtkədən və undan hazırlanan top kimi yumru bişmiş, – bəzi qonaqlar burunlarını bu yeməkdən yan çevirsələr də, Ananiya bu ənənəvi təamla məxsusi qürrələnirdi, odur ki qonaqlar da bu



iyrənmələrindən xəcalət çəkirdilər, zira qəlblərinin dərinliklərində hiss edirdilər ki, zaman-zaman səhralara düşən, ehtiyacı ləyaqət, çəyirtkəni isə ilahi təam sayan neçə-neçə peyğəmbərin nümunəsini təkrar etməyə səviyyələri çatmır. Şamın axırına yaxın yazıq Məryəm bir kənarda əyləşdi, alnında soyuq tər damlaları puçurlanmışdı; iri qarnını hansı vəziyyətdə rahatlada biləcəyini anlamırdı, artıq gülüş də, söhbətlər də, hekayətlər də, dualar da qulaqlarında bir-birinə qarışmışdı, hiss edirdi ki, bu həyatdan getməyə dəqiqəbədəqiqə daha qəti, daha dəqiq hazırdır, onu həyata indi çox nazik bir tel bağlayırdı, bu tel isə beynində dolaşan sonuncu fikir idi, bəlli bir şey barədə olmayan, sözdən don geyinməmiş, obrazsız fikir, əslində, ona heç fikir demək də olmazdı, sadəcə, hissiyyat idi, düşündüklərindən doğan hissiyyat – nədən qaynaqlandığı, niyə yarandığı bəlli olmayan hissiyyat. O, qəfil dürtmə yeyibmiş kimi, özünə gəldi, çünki yarımhuşsuzluğun zülmətində əvvəlcə dilənçinin sifəti sərgiləndi gözləri önündə, sonra da cır-cındıra bürünmüş bütün vücudunu gördü və mələk – əgər bu, mələk idisə – onun yuxusuna xəbərdarlıqsız girdi, özü də təsadüfi xatirə kimi yox və onun uzaqlaşmasına bir az qayğılı, bir az da sual dolu nəzərlərlə baxdı, bir də zorla sezilən maraqla, amma bəlkə də, bütün bunlar heç olmamışdı da, lakin Məryəmin ürəyi ürkmüş quşun qəlbi kimi çırpındı və o özü də bilmirdi ki, qorxudan idi bu, yoxsa qulağına qəflətən pıçıldanan gözlənilməz, utandırıcı sözlərdən. Kişilər və oğlanlar, bayaqkı kimi, yerdə oturmuşdular, qadınlar isə oyan-buyana yüyürərək, sonuncu yeməkləri daşıyırdılar, lakin artıq görünürdü ki, hamı doymuş, hələ bir az da o yana keçmişdi və hərçənd ki çaxırın təsirindən canlanan söhbət, elə əvvəlki kimi ucadan səslənirdi, şənliyin sona yaxınlaşdığı artıq bəlli idi. O qalxdı və heç kəs fikir vermədi ona. Artıq hava tamam qaralmışdı və aydın, aysız gecədə ulduzların işığı, elə bil, uzaq, sezmək çox çətin olan bir uğultunu özünə çəkirdi və dülgər İosifin arvadı onu qulaqlarıyla

yox, tamam başqa əzaları və hissiyyatı ilə – dərisi, sümükləri, içi, bütün vücudu ilə qəbul edirdi, sanki, onun vücudunu bitib-tükənməz, divanə bir şəhvət qıcolması tutmuşdu və heç buraxmaq fikrində də deyildi. Məryəm həyətdən keçib, bayıra boylandı. O heç kəsi görmədi, qonşuluqdakı evlərinin darvazası bağlı idi – çıxarkən özü qıfıllamışdı onu, amma havada, elə indicə buradan kimsə keçibmiş, qaçıbmış, bəlkə də, lap uçubmuş kimi, titrəyiş vardı, lakin buradan ötənin özündən sonra qoyduğu heç nə gözə dəymirdi, yalnız Məryəmin duyduğu bu müəmmalı nişanədən savayı.

* * *

İosif üç gündən sonra, qayıdana kimi onu gözləyəcək sifarişçilərlə bütün məsələləri yoluna qoydu, sinaqoqda ağsaqqallarla vidalaşdı, evinin və içində olan var-yoxunun qayğısını çəkməyi qonşusu Ananiyaya tapşırdı və arvadı ilə birlikdə Nazaretdən Vifliyemə yollandı ki, Sezarın əmrinə əsasən, orada siyahıdan keçsin. Əgər rabitənin pis çalışması ucbatından və yaxud sinxron tərcümədəki dolaşıq məqamlar səbəbindən göylərdə Roma dekretlərindən gec xəbər tutublarsa, onda İlahi Pərvərdigar, yəqin, dəstə-dəstə insanın eninə-uzununa fasiləsiz hərəkətlərə başladığı İsrailin bir anda nə dərəcədə dəyişdiyini görəndə, təəccüblənib, axı əvvəllər, həmişə Pasxa bayramından sonra gələn günlərdə ölkə daxilindəki bütün hərəkət mərkəzdənqaçma qanunlarına əsaslanırdı və insan selləri yalnız bir nöqtədən ölkə üzünə axırdı. Biz yer üzünün günəşi, planetimizin göbəyini nəzərdə tuturuq – Yerusəlimi.

Əlbəttə, şübhə etməmək olar ki, mütləq və ilahi uzaqgörənlik öz vərdişinə rəğmən, hətta o səmavi yüksəklikdən belə bu dəyişiklikləri görər və adət etdikləri, çoxdan tapdanmış yollarla doğma qəsəbə və kəndlərinə tələsmədən qayıdan zəvvarları, Yerusəlimdə Tanrı qarşısında müqəddəs borcunu yerinə yetirərək və yaxud heç yetirmədən, indi Sezarın dünyəvi əmrini icra etmək üçün can atanlardan hər şeyi anlayar,



hərçənd ki bu tezisi baş-ayaq çevirmək də çətin deyil, əgər Tanrı özünə və yalnız özünə bəlli olan səbəblərdən İosiflə arvadının məhz həyatlarının bu parçasında Vifliyemə yollanmasını özü istəyibsə, imperator Avqustun fərmanını ilahi ilhamın təzahürü kimi də qələmə vermək mümkündür.

Bu mühakimələr ancaq ilk baxışdan mənasız və məzmunsuz görünür – əslində isə onların bizim hekayətimizə birbaşa dəxli var və məhz bu yolla bizim yolçuların ins-cins olmayan, vəhşi yerlərlə tək-tənha, heç kəsdən dərdə şəriklik və kömək görmədən, yalnız Tanrının mərhəmətinə ümid etmək və ancaq mələklərdən kömək gözləməklə başa vuracağı ağır yolçuluğu təsəvvürlərdə canlandırmaq olar. Lakin İosiflə Məryəm Nazaretdən çıxan kimi iş tamam başqa məcraya düşəcək: onlarla bir yerdə daha iki ailə yola çıxacaq, özü də kifayət qədər çoxsaylı ailələr, odur ki ağsaqqalları, yeniyetmələri və uşaqları ilə birlikdə iyirmi nəfərə yaxın olardılar, – az qala, bütöv bir qəbilə alınırdı. Bu insanların hamısı, təbii ki, Vifliyemə getmirdi: ailənin biri yarıyolda ayrılacaqdı, Ramala yaxınlığındakı kənddə, ikincisi isə bir az da cənuba gedəsi idi, bir də ki, onsuz da, ayrılacaqdılar, çünki bəziləri tələsir, digərləri isə dəstənin quyruğunda ayaqlarını zorla sürüyürdülər, yolda isə yeni yoldaşlar tapılacaqdı, biz hələ əks istiqamətdə hərəkət edənləri demirik, amma nə bilmək olar, bəlkə, onların da arasında Nazaretdə siyahıyaalmada iştirak eləyəsi adamlar olacaqdı. Ən qabaqda, bütün başqalarından ayrı, kişilərlə həddi-büluğa çatmış, on üç yaşdan yuxarı yeniyetmələr gedirdilər, qadınlar, qızlar və qarılar isə dağınıq dəstəylə arxadan gəlirdilər, yanlarında da bütün yaşlardan olan uşaqları. Yolun başlanğıcında kişilər qarşılarındakı vəzifəyə və vəziyyətə uyğun dualarını göy gurultusunu andıran xorla deyir, bu duanın sözlərini qadınlar da təkrarlayırdılar, mızıldana-mızıldana, tamamilə anlaşılmaz tərzdə təkrarlayırdılar və onlar, görünür, bir mətləbə əbədilik və möhkəm inanıblar: dua etsən də, etməsən də, çətin ki onu

göylərdə eşidələr, hətta Tanrıdan heç nə istəmirsənsə, ona yalnız alqışlar yağdırırsansa belə.

Qadınların arasında hamilə təkcə Məryəm idi və onun üçün yolun əzab-əziyyəti o qədər dözülməz idi ki, əgər tale ona nəhayətsiz hövsələyə deyil, həm də böyük gücə malik bu uzunqulağı yollamasaydı, bir addım da ata bilməyəcəkdi və ruhunun gücünü tam itirib, xahiş edəcəkdi ki, onu yolun kənarında oturtsunlar, doğuş vaxtını burada gözləsin; bu doğuşa isə, bildiyimiz kimi, artıq az qalmışdı; baxmayaraq ki onun nə dəqiq vaxtı, nə də yeri bəlli deyildi, adətlər və din isə dülgər İosifin oğlunun dünyaya nə vaxt gələcəyi barədə mərc qoşmağı da yasaq edirdi. Amma hələ ki yükünü yerə qoymaq dəmi yetişməmişdi deyə, Məryəm əzab çəkəndə, başı daim qarışıq olan, çənəsi-yoldaşları ilə maraqlı söhbətə qızışmış ərinin nadir hallarda baş verən saymazyana qayğıkeşliyindən çox, eşşəyinin üzüyola, sakit xislətinə bel bağlaya bilərdi və heyvan onu öz belində daşıyaraq təəccüblənməyindən də qalmırdı (əlbəttə, təbii ki, həyat şəraitində və belində daşıdığı yükün həcmində duyulan dəyişikliklər əgər eşşək şüuruna çatırdısa): onu şallaqlayan, tələsdirən yox idi, özü və onunla yanaşı addımlayaraq, dırnaqlarını yolun daşlarına elə onun kimi taqqıldadan digər uzunqulaq həmcinsləri kefləri istəyən kimi yeriyə bilərdi. Addım-addım yeridiklərinə görə qadınlar tez-tez öndə gedən kişilərdən dala qalırdılar və onlar da məcbur olurdular ki, ayaq saxlayıb, qadınlar çatana kimi gözləsinlər; hərçənd ki özlərini nəfəs dərmək istəyən kimi göstərirdilər, çünki getdikləri el yolu olsa da, hamının eyni zamanda da heç kəsin idi və bəllidir ki, xoruz banlayan yerdə fərələr qaqqıldamaz, qaqqıldasa da, bu ancaq yumurtlayanda baş verər, dünyanın düzəninə zəmanət də elə bundadır – o dünyanın ki, bizim də qismətimizə onda ömür sürmək düşüb. İndi budur, Məryəm öz köhləninin aramlı yerişinə uyğun yırğalanaraq, bütün qadın yoldaşlarından fərqli, çariça kimi gedirdi, qalan qadınlar piyada

idilər, digər heyvanların bellərinə isə ev əşyaları, cürbəcür yük şələlənmişdi.

Qadınların işi bir az yüngülləşsin, onların dincəlməsinə imkan yaransın deyə, Məryəmin qucağına uşaqların gah birini, gah da digərini verirdilər və beləliklə, o, qarşıdakı analıq qismətinə olmasa da, yükünə bəri başdan alışırdı.

Səfərlərinin ilk günü, hələ alışmamışdılar deyə, yolçular o qədər də yol qət eləyə bilmədilər; yaddan çıxarmayın ki, onlarla bir yerdə qocalar və kiçik uşaqlar da vardı: birincilər uzun ömürləri ərzində artıq bütün güclərini sərf etmişdilər və hələ nəsə qaldığını göstərmək fikrində də deyildilər; ikincilər isə hələ qüvvələrini düzgün paylaya, ona nəzarət edə bilmədiyindən, ikicə saat qaçhaqaçdan sonra tamam əldən düşdülər, çünki yol boyu oyan-buyana elə yüyürürdülər, elə bil, dünyanın axırı indicə yetişəcək və son dəqiqələrdən mütləq səmərəli istifadə etməliydilər. Düşərgəni İzreel adlı böyük kəndin karvansarasında və yaxud yolçu evində saldılar; ora saysız-hesabsız yolçunun ucbatından yaman qarışıqlıq idi; camaat qaynaşır, dəli kimi qışqırışırdı, hərçənd ki düzünə qalsa, tələsiklikdən çox, qışqırıq vardı: amma lap tezliklə göz də, qulaq da basabasa, hay-küyə alışırdı, axı insanların və heyvanların dörd divar arasında durmadan hərəkət etməsi də düzən yaratmağa kortəbii, şüursuz meyildən irəli gəlir – lap asayişinə pəl vurulmuş qarışqa yuvasında olan kimi; onun da sakinləri yalnız ilk baxışda otərəf-butərəfə məqsədsiz və amalsız yüyürüşürlər. Hər necə olsa, üç ailənin bəxtinə açıq səma altında deyil, çardağın altında gecələmək düşdü: kişilər bir tərəfdə uzandılar, qadınlarla uşaqlar digər, amma bütün bunlar hələ sonra baş verəcəkdi – gecə düşəndə və bütün karvansara özünün sakinləriylə birgə yuxuya gedəndə. O vaxta qədər isə qadınlar hələ biş-düş eləməli, quyudan su çəkməli idilər, kişilər isə gərək heyvanların yüklərini alaydılar, palanlarını, çullarını çıxaraydılar, onları suvaraydılar, özü də bunun üçün elə bir vaxt seçəydilər ki, suvarma quyusunun yanında



dəvələr olmayaydı; çünki burada cəmi ikicə dəvə olsa da, quyunun suyunu son damcısına kimi içirdilər, odur ki bir dəfə, beş dəfə yox, daim yüyürüb su gətirəsi, quyunu təzədən doldurası olurdun; dəvələr içib doyana kimi də xeyli vaxt keçirdi. Bunun öhdəsindən gələndən sonra, eşşəklərə yem verərək, yolçular özləri də yeməyə oturdular – əvvəl, həmişəki kimi, kişilər, yalnız sonra qadınlar; zira öz təbii xislətlərinə görə də onlar ikincidərəcəli idilər, əcdadımız Həvvanı – növbəti dəfə, amma son dəfə yox – xatırlamaq kifayətdir; onu Adəmdən sonra yaratmışdılar, özü də onun qabırğasından, odur ki etirafın yeridir: həyatda elə şeylər var ki, ilkin mənbələrə varmadan, qətiyyən anlamaq olmur.

Beləliklə, kişilər yeyəndən, qadınlar isə onların qabağından qalanlarla qarınlarını doyurandan sonra elə alındı ki, Vifliyem şəhərinin sakini, çox qoca yaşlarında olan və Ramala kəndinə camaatı siyahıya almaq üçün gedən Simeon adlı ağsaqqal, özünün yaşı və bilavasitə yaşdan doğan müdrikliyinə görə adamların ona böyük hörmətlə yanaşmasından istifadə edərək, İosifə sual verib, maraqlandı ki, siyahıyaalma üçün nəzərdə tutulan müddət ərzində Məryəm – qoca, əslində, onun adını deməmişdi – hamiləliyini başa çatdıra bilməsə – bu ehtimal təbii idi, onu da nəzərdən qaçırmaq olmazdı – nə etmək fikrindədir. Bu sual, necə deyərlər, akademik səciyyə daşıyırdı (əgər hekayətimizin bəhs etdiyi həmin yer və həmin vaxt üçün təbir caizsə), çünki Roma hüququnun bütün biclik və incəliklərini mənimsəmiş siyahıyaalanlar hamilə qadınların bu prosesdə iştirakından yaranan belə tapmacaları həll etmək iqtidarında idilər.

Simeon dedi:

– Biz hamımız siyahıdan keçirik, bəs sənin arvadının bətnindəki uşaq necə olsun, onu necə yazaq: hansı cinsdən olacaq; bəs əgər uşaq bir yox, əkizdirsə necə, bunu da istisna eləyə bilməzsən, əkizlər isə qardaş da ola bilərlər, qardaş-bacı da, bacı da.

Mömin iudey olması ilə qürurlanan İosif öz cavabında adi Şərq məntiqinə müraciət etmək barədə heç düşünmədi də; yoxsa deyərdi ki, əgər qanunda boşluqlar və uyğunsuzluqlar aşkarlanırsa, ona tabe olmaq fikrində deyiləm və əgər Roma bu və buna bənzər digər hadisələri nəzərdən qaçırıbsa, cavabdehliyi də başıboş qanunvericilər daşımalıdırlar. Yox, belə çətin sualla üz-üzə qalmış İosif, uzun-uzadı fikirləşdi, beynində bütün mümkün cavabları götür-qoy etdi, cavab isə elə olmalıydı ki, tonqalın ətrafında oturanlara təkzibedilməz dərəcədə inandırıcı gəlsin, həm də forma etibarilə parlaq olsun. Nəhayət, çox uzun düşüncələrdən sonra o, bayaqdan bəri alovun rəqs eləyən dillərindən çəkmədiyi gözlərini yavaş-yavaş qaldırdı və dedi:

– Əgər siyahıyaalma üçün müəyyən edilmiş müddətin son gününədək oğlum anadan olmasa, deməli, Tanrı onun doğuşundan romalıların xəbər tutmasını, onun adını öz siyahılarına daxil etməsini istəmir.

– Oho, – Simeon ona cavab verdi, – əgər Tanrının nəyi istəyib-istəməməsi barədə fikir yürüdürsənsə, deməli, özündən yaman razısan.

– Tanrı mənim yolumdan da, addımlarımın sayından da xəbərdardır, – İosif ona cavab verdi; dülgərin İovanın kitabında tapa biləcəyimiz bu sözləri, hazırkı şəraitdə o mənanı daşıyırdı ki, orada əyləşənlərin və əyləşməyənlərin şahidliyi ilə Tanrı qarşısında mütiliyini etiraf edir, itaətini bəyan edir, yəni onun bütün hissləri iblisvarı təhrikə qarşı qiyamdadır və Simeon da indicə dediklərilə elə buna işarə edirdi, guya, İosif Külli-ixtiyarın gizli arzularını oxumağa can atır. Yəqin, ağsaqqal da onu məhz bu cür başa düşdü, elə o səbəbdən də dillənmədən gözlədi, İosif isə davam elədi:

– Zamanın ibtidasından insanın doğuşu və bu dünyanı tərk etdiyi günlərin iki möhürlü sirri mələklər tərəfindən qorunur və yalnız Tanrı bu möhürü öz istəyi ilə qırmaqda azaddır: birini tez, digərini gec, bəzən də ikisini də birdən,



ikiəlli; hərdən isə görürsən, kiminsə ölümünün möhürünü qırmır ki, qırmır – tamam unudub onu.

İosif susdu, sanki, tərəddüd keçirirdi, davam etsinmi söhbətinə, amma yenə də bic bir təbəssümlə söylədi:

– İstəməzdim ki, bizim söhbətimiz Onun yadına səni salsın, Simeon.

Tonqalın ətrafında oturanlar gülüşdülər, amma səslərini boğaraq; bu sözlərin mənası o idi ki, qocanın yaşadığı illərin yükü onun şüurunu zəiflədəndə, onun dediklərində məna və məntiq olmayanda belə, dülgər ağsaqqalın layiq olduğu mütləq hörməti ona göstərməliydi, amma göstərmirdi.

Simeon isə qəzəbli hərəkətlə xlamidasının[1] yaxasını örtüb cavab verdi:

– Əgər özündən yaşlılarla, səndən çox yaşadığından səndən çox bilənlərlə belə hörmətsiz və abırsız bir tərzdə davranırsansa, ola bilər ki, Tanrı sənin doğuşunun möhürünü vaxtından qabaq qırıb və sənin hələ dünyaya gəlmək vaxtın deyildi.

İosif isə onun bu sözlərinə belə cavab verdi:

– Ah, Simeon, sən məndən soruşdun ki, siyahıyaalmanın sonuna kimi mənim oğlum dünyaya gəlməsə nə edəcəyəm, mən də ki Roma qanunlarına bələd olmadığımdan sənin sualına da cavab verə bilməzdim və məncə, bu qanunları heç sən özün də bilmirsən.

– Mən də bilmirəm.

– Lakin sən axı dedin ki...

– Nə dedimsə, dedim artıq, bir də zəhmət çəkib danışma, hamısı yadımdadır.

– Axı sən başladın bu söhbəti, Simeon, mənə layiqsiz sözlərlə müraciət elədin, məni xudpəsəndlikdə günahlandırdın, sən deyənlərdən belə nəticə çıxır ki, guya, mən Tanrının göstərişləri barədə, hələ onların mahiyyəti açılmamış fikir yürüdürəm; bundan sonra dediklərim əgər sənin

[1] *Xlamida* – yunanlarda kişi üst geyimi

xətrinə dəyibsə, bağışla, lakin incidən sözləri birinci sən dedin, Simeon, sən isə böyüksən, mənə nümunə olmalısan.

Tonqalın ətrafından razılıq səsləri gəldi: dülgər İosif bu mübahisədə aşkar üstünlük qazanmışdı, amma hamı bilmək istəyirdi ki, Simeon ona etiraz etməyə söz tapacaqmı. O da etiraz elədi, dediyi sözlərdə nə zəkasının itiliyi, nə də təxəyyülünün pərvazlanması duyuldu:

– Sən, heç olmasa, mənim yaşıma görə susmalıydın.

İosif isə dedi:

– Əgər mən sussaydım, hamıya aydın olardı ki, sənin sualın nə qədər mənasızdır, odur ki necə çətin olsa belə, mənim cavabımı sənə olan hədsiz ehtiramım kimi qəbul elə, zira mən sənin vaqif olmadığın, amma hamımızı maraqlandıran mətləblərə toxunmağına kömək elədim: əgər Tanrı istəsə, nə vaxtsa öz xalqını düşmənin gözündən gizləyə bilərmi?

– Hə-ə, sən indi də hələ doğulmamış oğlundan Tanrının seçdiyi xalq kimi danışırsan?!

– Yox, Simeon, sən əbəs yerə mənim dodaqlarıma söyləmədiyim və heç vaxt söyləməyəcəyim sözləri yamamaq istəyirsən, amma bir mənada deyilmiş hər sözü başqa mənada da anlamaq olar.

Onun bu tiradasına[1] artıq Simeon etiraz edə bilmədi, yerindən qalxaraq, çevrədən çıxdı və bir kənarda, ən qaranlıq guşədə əyləşdi, onun ardınca isə bütün qohumları və onunla bir evdə yaşayanlar getdilər; ailə mükəlləfiyyətinin tələbləri onları bu addımı atmağa məcbur edirdi, amma daha çox söz güləşməsində məğlub olan patriarxa yazıqları gəldiyindən getdilər. Tonqalın ətrafında sükut hakim oldu, sonra da bu sükut asta, burunaltı danışıqlar, şıqqıltılarla əvəz olundu; yatmağa, dincəlməyə hazırlaşan adamların adi səs-küyü, karvansaranın digər guşələrindən də gələn boğuq, hərdən cingiltili nidalarla, uzunqulaqların fınxırtısı, fısıltısına qarışmış sakit səslər indi daha yaxşı eşidilirdi, hərdən də məhəbbət ehtirasından qızmış dəvələrin dəhşətli nəriltisi ucalırdı. Onda nazaretlilər də bayaqkı narazılığı unudub, zorla eşidiləcək bir tərzdə – amma sayları çox olduğundan səsləri əməlli-başlı ucadan çıxırdı – gün ərzində Tanrıya oxunan duaların ən sonuncusu və ən uzununu avazla oxumağa başladılar. Sonra, üstündən bir neçə dəqiqə ötmüş, vicdanı ən təmiz olanlar, ya da yolda daha çox yorulanlar artıq yatmışdılar, özü də onların bəziləri tamamilə insafsızcasına xoruldayırdı; qalanları da onlardan nümunə götürərək, əyinlərində nə vardısa, elə onda da uzanıb yerlərini rahatladılar; ancaq uşaqlara və qocalara məxsusi yer düzəldib, üstlərini də qalın eləmişdilər. Tonqal yanıb qurtardı, sönməyə başladı və yalnız hərdənbir zəif şölə yol boyu ehtiyatlı tərpənib, bu faydalı məqsəd üçün yığdıqları, indi artıq kömürləşmiş çırpıların üstündə oynayırdı. Az sonra Nazaretdən çıxanlara sığınacaq vermiş çardağın altında artıq hamı yatmışdı, təkcə Məryəmdən başqa. Heç cür uzana, böyük qarnına – ölçülərinə baxanda deyərdin ki, içində nəhəng gizlənib – rahat yer tapa bilmirdi, sızıldayan belini toxtatmaq üçün kürəyini palanlara söykəyib, yarıoturmuş vəziyyətdə qalmışdı. O da hamı kimi İosifin Simeonla mübahisəsinə qulaq asırdı və çarpışma qansız olsa da, əsl arvad kimi ərinin qələbəsinə sevinirdi. Lakin mübahisənin mövzusu və mahiyyəti yaddaşından silinmişdi, ya da, bəlkə, bədənində gah peyda olan, gah da yoxa çıxan hissiyyatların gücündən sıxışdırılaraq beynindən çıxarılmışdı – səyahətdə çox olmuş adamların danışdığı, amma şəxsən özünün heç vaxt görmədiyi dənizin qabarması və çəkilməsi kimi. Ona rahatlıq verməyən bu dalğa o demək idi ki, bətnindəki uşaq hərəkət eləyir, amma nəsə qeyri-adi hərəkət – sanki, hələ doğulmamışdan, hələ bətnində ikən anasını çiyinlərinə almağa cəhd göstərirdi. Məryəmin gözləri açıq idi və alaqaranlıqda parıldayırdı, hətta tonqal yanıb qurtarandan sonra belə bu parıltı qalırdı; lakin bunda təəccüb ediləsi heç bir şey yoxdur – dünyanın yaranışından gələcək anaların hamısında belə olur, biz

[1] *Tirada* – dramda qısa və təsirli monoloq

də bunu dülgər İosifin arvadının yanına özünü mələk adlandıran, amma dilənçi qiyafəsində olan kişi gələndə tam dəqiqliyi ilə öyrəndik.

İlk xoruzlar banlayaraq, dan yerinin söküləcəyindən xəbər verirdilər, lakin zərurətdən bundan daha tez oyanan yolçular, tacirlər, qatırçı və dəvəçilər artıq bayaqdan – göy üzü hələ tam qaranlıq olandan – heyvanlarının belinə yüklərini, mallarını yığıb, yola hazırlaşırdılar; elə bu səbəbdən də karvansarada elə bir səs-küy qalxmışdı ki, axşamkı onun yanında toya getməli idi. Karvan gedəndən sonra isə karvansara günəşin altında yayılmış kərtənkələ kimi bir neçə saatını sükut və hərəkətsizlik içində keçirəcək, – orada yalnız o kəslər qalacaq ki, bütün günü burada keçirmək niyyətindədir və o çağa kimi dincəlmək istəyir ki, axşama yaxın yolçuların təpədən-dırnağadək toz-torpaq içində olan, yorğunluqdan əldən düşmüş yeni dəstəsi gəlsin və yol boyu susmuş bu adamlar içəri girməyə macal tapan kimi onlar özlərinin səs tellərinə güc verəcəklər, canlarına cinlər daraşıbmış kimi, qışqırmağa başlayacaqlar – gecəgözü cinlərin adını çəkdik, Tanrı xeyrə calasın! Nazaretlilər karvansaranı gəldiklərindən də böyük dəstə kimi tərk edirdilər və burada qəribə heç nə yoxdur, çünki onlara daha on nəfər qoşulmuşdu və bu torpaqları kimsəsiz sayanlar dərindən səhv edirmişlər, xüsusilə də bu siyahıyaalma elan ediləndən sonra və Pasxa bayramının lap ərəfəsində.

İosif isə öz-özlüyündə qərara almışdı ki, qoca Simeonla barışsın, özü də qərarını ona görə verməmişdi ki, gətirdiyi dəlillər bir gecənin ərzində onun gözündə artıq öz təkzibolunmazlığını itirmişdi – o, hər halda, böyüklərə, xüsusilə də qocalara pərəstiş ruhunda tərbiyə olunmuşdu, onlar isə çox uzun ömürlərinin bahasını, adətən, şüurlarının aydınlığı və mühakimələrinin sağlamlığını itirməklə ödəyirdilər, odur ki yeni, cavan pöhrələr hərdən qocalara bir quruşluq da dəyər vermirdilər. Budur, o, Simeona yaxınlaşıb, itaətkar şəkildə dedi:



– Əgər axşamkı sözlərim sənə qaba və ötkəm gəldisə, bağışla məni, amma sən özün bilirsən də bu necə olur – söz sözü çəkir, yaxşının ardınca pis deyirsən, nəticədə ağzından həmişə artıq sözlər çıxır.

Simeon başını qaldırmadan dinlədi, dinlədi və nəhayət, belə cavab verdi:

– Bağışladım.

İosif özünün ürəyigenişliyi müqabilində tərs qocadan daha səxavətli cavab gözləməkdə haqlı idi və layiq olduğu sözləri eşitməyə hələ də ümidli olduğundan, qocanın yanında bir xeyli yol getdi. Lakin Simeon, gözlərini ayaqlarının altına zilləyib, özünü elə göstərirdi ki, guya, onu heç görmür və nəhayət, dülgər hirslənib – hirs üçün əsas da vardı – əlini yelləyib, addımlarını sürətləndirmək istəyəndə, qoca özünü dərin düşüncələrdən qəfil oyanıbmış kimi göstərib, yenə də İosifə çatdı, paltarından yapışıb dedi: Dayan.

Təəccüblənmiş İosif ona tərəf çöndü. Qoca, bir də dayan, deyə təkrar eləyib, özü durdu. Qalan yolçular artıq onları ötüb-keçmişdilər və yolda ikisindən başqa kimsə yox idi, sanki, yolun bu parçası heç kəsin deyildi; kişilər getmiş, qadınlar isə hələ yetişməmişdilər. Xeyli aralıdan gələn qadınlardan ibarət dəstənin içində Məryəmin başı eşşəyinin addımlarına uyğun yırğalanırdı.

Onlar İzreel vadisindən çıxdılar. Yol əyildi, qaya parçalarının yanından ötüb, yavaş-yavaş yoxuşa getdi – Samariyanın dağlarına sarı, qərb tərəfə, dağ silsiləsi boyunca; bu dağların arxasında isə İordana enib, cənuba doğru sərilən qədim və daim qövr eləyən yara – İudeya səhrası başlayırdı; çoxları, lap çoxları üçün arzuolunan, amma kimə məxsusluğunu heç özü də bilməyən səhra.

– Dayan, – dedi Simeon və dülgər çaşqınlıq içində tabe oldu. Qadınlar artıq çox uzaqda deyildilər.

Qoca yenə yolla addımladı, bütün gücü onu tərk edirmiş kimi, İosifin paltarından yapışmışdı.

– Dünən gecə, mən yatmamışdan, xəyal göründü gözlərimə.

– Xəyal?

– Hə, amma adi xəyallardan deyildi, əşya, adam-zad görmürdüm, axşam mənə dediyin sözlərə bələnmiş bir şey idi gördüyüm, dediklərin yadındadır? – əgər oğlun siyahıyaalma üçün təyin olunan vaxta qədər doğulmasa... o sözlərini deyirəm. Tanrı istəmir ki, romalılar onu tanıyıb, öz siyahılarına yazsınlar.

– Hə, mən elə dedim, amma xəyalı ki sən görmüsən.

– Bilmirəm nə gördüm mən... birdən içimdə əminlik oyandı ki, yaxşısı romalıların sənin oğlundan xəbər tutmamasıdır, qoy onun barəsində heç kəs heç nə bilməsin və əgər o, bu dünyaya gəlsə belə, ən yaxşısı qismətinə düşən həyatı şöhrət-filan qazanmadan, dərdsiz-qəmsiz yaşaması olar, bax o, bizdən uzaqlaşan kişilər kimi və bizə yaxınlaşan o qadınlar kimi, qoy özünün ölüm saatınadək bizim hər birimiz kimi, adsız-sansız yaşasın, hətta ölümündən sonra da.

– Nazaretdən olan adi bir dülgərin oğlunun bəxtinə sən söylədiklərindən başqa hansı tale yazılacaqdı ki?

– Yox, İosif, onun həyatının ixtiyarı tək sənin əlində deyil.

– Təbii ki, hər şey Tanrının iradəsindədir, əsrlər boyu belə olub, biz də buna inanmağa adətkərdə olmuşuq, amma, Simeon, mənə oğlumdan bir az da danış, nə gördün orada, nə öyrəndin?

– Heç nə, sənin o sözlərindən başqa heç nə, amma sözlər, elə bil, şəfəq parıltısından tamam başqa məna tapdılar: yumurtaya nəzər salanda bəzən cücəni görürsən ha, bax elə.

– Tanrı istədiyini eləyir və elədiyini istəyir, mənim oğlumun taleyi də Onun əlindədir, mənlik heç nə yoxdur burada.

– Bu belədir, amma hələ qabaqda bir neçə gün var ki, hələ doğulmamış uşağa sahibliyi Tanrı ilə anası da bölüşür.

– Düzdür, amma sonra oğlum olsa, onun üzərindəki hakimiyyət Tanrıya və mənə məxsus olacaq.

– Ya da təkcə Tanrıya.



– Bütün canlılar kimi.

– Yox, bütün yox, bəziləri həm Tanrının, həm də İblisin hakimiyyətindədir.

– Bəs bunu necə bilmək olar?

– Əgər Qanun qadınlara susmağı tapşırmasaydı, onlar – yeni-yeni günahlar doğuran birinci günahın baiskarları – bəlkə də, sənə bilməli olduğun çox şeyi anladardılar.

– Mən nələri bilməliyəm ki?

– Onların bətnindəki körpənin hansı hissəsi Tanrıdan, hansı hissəsi isə İblisdəndir?

– Mən səni anlamıram, Simeon, sən axı, deyəsən, mənim oğlumdan danışırdın.

– Sənin oğlundan yox, qadınlardan və onların bizim hamımızı dünyaya gətirməsindən, axı onlardan yaxşı kim bilər ki, bizim hər birimiz həm böyük, həm kiçiyik və hər birimizdə xeyir də var, şər də, sülh də var, hərb də, qəzəb də var, itaət də.

İosif arxaya boylanıb, eşşəyin belində gələn Məryəmi, onun qabağında isə palanın üstündə əsl kişi kimi oturmuş oğlan uşağını gördü və bir anlıq ona elə gəldi ki, öz oğlunu görür; qadınların böyüməkdə olan dəstəsinin önündə gedən arvadını da, sanki, ilk dəfəydi görürdü. Qulaqlarında hələ də Simeonun qəribə sözləri səslənirdi, amma, hər halda, heç inanmağı gəlmirdi ki, qadından bu qədər çox şey asılı ola, ən azı, elə onun öz arvadı heç vaxt, heç bir şeylə, hətta ən kiçik eyhamıyla belə, özünün bütün başqa qadınlardan fərqli cəhətlərini ona anlatmağa cəhd göstərməmişdi. Lakin bircə an sonra o, üzünü yana çevirdi, çünki yadına işıldayan torpağı gətirmiş dilənçi düşmüşdü, titrədi və başından düz ayağına kimi əsdi, saçları təpəsində biz-biz durdu və kürəyindən üşütmə keçdi; sonra üzünü yenə də arvadına çevirən İosif öz gözləriylə lap aydın gördü ki, onunla yanaşı elə ucaboy bir kişi addımlayır ki, qalan qadınlar ancaq onun çiyninə çatardılar və məhz bu əlamətdən həmin kişinin qabaqlar heç vaxt görmədiyi dilənçi olduğunu müəyyən elədi. O, bir də

baxdı – elədir ki var, həmin o kişi lap dəqiq, qadınlardan ibarət dəstənin içində idi, bu isə mümkün olan iş deyildi, haradan peyda olacaqdı ki? İosif bir istədi Simeondan da çönərək arxaya bir nəzər salmasını xahiş eləyə, istəyirdi ki, heç cür ağla sığışmayan bu möcüzəni o ya təsdiq, ya da təkzib eləyə, amma qoca artıq çox qabaqda idi, keçib-getmişdi, nə deməliydisə, onu da deyərək, indi isə öz qohumlarına çatmağa can atırdı ki, peyğəmbərdən bir nəslin adi ağsaqqalına çevrilsin. Dülgər ətrafında bir şahid tapmayaraq, öz gözlərinə inanmaq qərarına gəldi və arvadına sarı bir də baxdı. Lakin onun yanında artıq kimsə yox idi.

Onlar bütün Samariyadan keçib, cənub istiqamətində gedirdilər, hərbi dillə desək, iti marşla irəliləyirdilər, özü də gözlərini ətraflarda gəzdirə-gəzdirə; çünki buraların yerli əhalisi assuriyalıların fitnəkar sələfləri idi, onların imansızlıq girdabına yuvarlanmış nəvə-nəticələriydi burada yaşayanlar; onlar bu yerlərdə Nineviya çarı Salmanasar zamanında peyda olmuşdular; on iki İsrail qəbiləsinin köçürülərək dörd bir yana perikdirilməsindən sonra və onlarda iudeylərdən də çox şey vardı, amma daha çox bütpərəstlərdən gör-götür etmişdilər, çünki özləri üçün yalnız Musanın beş kitabını müqəddəs sayaraq, siz bir təsəvvür eləyin ki, nə deyirdilər; guya, Tanrı öz məbədi üçün məkan olaraq Yerusəlimi deyil, onların torpaqlarında yerləşən Herizin dağını seçibmiş və indi yolçular onların edə biləcəyi düşmənçilikdən, daha doğrusu, bədxahlıqlarından çəkinirdi. Bizim yolçular bu diyardan nə qədər tez ötməyə can atsalar da, hər halda, iki gecəni açıq çöldə keçirəsi oldular; qarovul qoymuşdular ki, samariyalılar onların düşərgəsinə xəlvətcə yaxınlaşa bilməsinlər; onlardan nə desən, gözləmək olardı – nə desən eləyərdilər, onlar susuzluqdan ölən adama bir udum su da verməzlər, hətta əgər bu adam qanı təmiz yəhudi olsa belə, o ki qaldı hamıya bəlli olan istisnaya[1] – istisna elə ona görə istisnadır ki, qaydanı bir daha təsdiq

[1] Mərhəmətli samariyalı haqqında pritça nəzərdə tutulur (Lukanın İncili, 10, 30-36).



eləsin. Yolçuların nigarançılığı o qədər dərin idi ki, kişilər adətlərinə xilaf olaraq iki dəstəyə bölünmüşdülər; öz arvaduşaqlarını təhqirlərdən, bəlkə də, daha pis şeylərdən qorumaq istəyirdilər. Lakin samariyalılar həmin o günlər, nədənsə, sakit idilər və qalileyalılarla yolda rastlaşanda belə, yalnız kinli baxışlar və yağdırdıqları söyüşlərlə kifayətlənirdilər, daha pusqu qurub, silahsız, zəif, qorxmuş insanlara hücum çəkmək, ya onları daşa basmaqdan söhbət gedə bilməzdi.

Ramallah yaxınlığında yolçular arasındakı ən qatı mömin-lərin, ya da burunları çox gözəl işləyənlərin dediyinə görə, artıq havadan Yerusəlimdən yayılan müqəddəslik rayihəsi duyulurdu; Simeonla qohum-əqrəbası da yol yoldaşlarını burada tərk etdi – hekayətimizin əvvəllərində dediyimiz kimi, o, Ramallahın kəndlərindən birində siyahıdan keçməli idi. Yolun düz ortasında vidalaşarkən bir-birinə xeyir-dua verən, son arzularını bildirən Simeon ailəsinin qadınları Məryəmə azı yüz dənə məsləhət verdilər, axı onların hər biri, bəlli olduğu kimi, başına gələn başmaqçı idi və yalnız bütün mümkün məsləhətlərini verəndən sonra ayrıldılar: bir qismi vadiyə enməyə başladı, dördgünlük yolçuluğun əziyyətindən tezliklə orada dincələcəkdilər, digərləri isə Ramallaha istiqamət götürdülər və elə bu gecəni oradakı karvansarada keçirəcəkdilər. Yerusəlimdə isə qalan nazaretlilər də onları tərk edəcəkdi, onların çoxu Berşev istiqamətində gedəcəkdi, hələ ikigünlük yolları vardı; dülgər İosiflə arvadı isə daha uzağa – Vifliyemə getməliydilər. Vidalaşma mərasiminin qarışıqlığında İosif Simeonu bir kənara çağırıb, böyük ehtiramla soruşdu ki, yolda keçirdikləri son günlər ərzində gözlərinə görünən həmin xəyalat barədə yadına yenə nələrsə düşdümü.

– Mən axı sənə dedim, bu, xəyalat deyildi.

– Hər nə idisə, qoy olsun, mən oğlumu gözləyən taledən xəbər tutmaq istəyirəm.

– Sən hələ heç öz taleyini belə bilmədən, indi məndən hələ dünyaya gəlməmiş birinin taleyi barədə soruşursan.

– Ruhun gözü daha uzaqlardan xəbər verir, ona görə də mən fikirləşdim ki, gözlərini Tanrı açan birisi kimi – o, bunu yalnız seçilmişlərinə əta edir – sən elə dərinliklərə baş vurmusan ki, oralar mənim üçün hələlik zülmət içindədir.

– Bəlkə də, oğlunun taleyi barədə nəsə bilmək sənin nəsibin deyil, amma öz taleyin, mümkün ki, yaxınlarda açılacaq, sual vermə və qabaqcadan fal açma, bugünkü gününlə yaşa. – Simeon bu sözlərlə sağ əlini İosifin başına qoydu, heç kəsin eşitmədiyi xeyir-dua sözlərini mızıldadı və özününkülərin yanına yollandı, çünki artıq onlar ilan kimi qıvrılan cığırla vadiyə enməyə başlamışdılar; üzbəüz yamacın lap aşağısında, sanki, dayaz basdırıldığından ağaran uclan torpaq altından çıxmış sümükləri xatırladan daşların arasında Simeonun kəndi zorla görünürdü. İosif daha onun barəsində heç nə eşitmədi, bircə ondan xəbər tutdu ki, qoca hələ siyahıyaalma başlayanadək dünyasını dəyişib – amma bu xəbər ona çox gec çatdı.

Üstlərini buludlarla örtüb, canlarını ulduzların işığına qızdırmağa məcbur olduqları o iki gecədən sonra – həmin gecələrdə qəfil basqından hələ ehtiyat etdiklərindən heç tonqal da qalamadılar – nazaretlilərə karvansaranın rahatlığı və istisi yaman ləzzət elədi. Qadınlar Məryəmin uzunqulaqdan düşməsinə yardım etdilər, onun halına yana-yana, elə hey deyirdilər: "Sənin vaxtın lap çatıb ki, ay qız". Yazıq Məryəm də cavabında pıçıldayırdı ki, hə, yəqin, lap az qalıb, sanki, lap qəfil böyümüş qarnı (doğrudan, böyümüşdü, yoxsa ona elə gəlirdi?) yaxınlaşan doğuşun ən dəqiq əlaməti idi. Qadınlar onu imkan daxilində, sakit bir guşədə rahat yerləşdirdilər və vaxtı çoxdan ötmüş şam yeməyi ilə məşğul olmağa başladılar. Yeməyə hamı yığışdı, amma bu dəfə tonqal ətrafında söhbət eləyən yox idi – nə rəvayətləri yada salırdılar, nə də öz başlarına gələn əhvalatları; Yerusəlimin yaxınlığı, elə bil, hamını susmağa vadar eləyirdi, hər kəs içinə bir nəzər salıb, özündən sual edirdi: "Kimsən sən, mənə bu qədər bənzəyən və eyni zamanda, heç tanış olmayan insan,



sən kimsən", amma elə fikirləşməyin ki, bütün bunları ucadan deyirdilər, insanlar özləriylə beləcə, heç bir səbəb olmadan söhbət etmirlər və bu sualın heç bilərəkdən verilməsi də ağlabatan deyil; şəksiz olan yalnız budur: əgər kimsə alov dillərinin sükut içində seyretmə prosesini sözlərə bələmək istəsə, başqa yox, məhz bu kəlmələr alınardı və eyni sözləri elə hamı deyərdi. İosif əyləşdiyi yerdən öz arvadının üzünü yaxşı görürdü, tonqalın qırmızımtıl şöləsindən nurlanmış, konturları yumşaq işıq-kölgə çalarlarıyla çəkilmiş profilini süzürdü və birdən ağlına gələn qəfil fikrə təəccüb qalaraq düşündü ki, Məryəm gözəl qadındır: sifətində yarıuşaq cizgiləri qalsa da, gözəldir; hərçənd ki əvvəlki qamətini indi itirib, axı onun qabaqlar necə incə və şax qamətli olduğunu yaxşı xatırlayırdı və təbii ki, doğandan sonra yenə qabaqkı kimi olacağına da əmin idi.

İosif bu barədə düşündü və elə o dəqiqə də arvadı boylu olandan bəri nəfsini məcburən boğduğu ayların yükü özünü göstərdi: qanı qaynamağa başladı, bütün bədənindən dalğa dalğanın dalınca keçdi, istəyi o qədər güclü idi ki, beyni dumanlanırdı; sonra isə bu istək çağlayan təxəyyülündən güclənərək, möhkəmlənərək, aydın olmayan, mübhəm bir şeydən dəqiq və maddi bir şeyə çevrildi, elə yarandığı nöqtəyə də qayıtdı. Bu yerdə Məryəmin qısa iniltisini eşitdi, amma yaxınlaşmadı. Yadına düşdü – və yaddaşındakı, sanki, başına buz kimi su töküb, vücudunu çulğamış ən qaynar şəhvətini belə bir göz qırpımında soyutdu – xatırladı ki, iki gün öncə həmin o dilənçi, Məryəmin yanında necə peyda oldu, yəqin, arvadının hamiləliyi bəlli olan gündən onları təqib edirdi, bəli, təqib edirdi, baxmayaraq ki İosif həmin o qəribə gündən düz iki gün əvvələ kimi onu bircə dəfə də görməmişdi; amma arvadının gizli fikirlərində bütün bu doqquz ay ərzində o müəmmalı dilənçinin daim olduğuna qətiyyən şübhəsi yox idi. O, ürək eləmədi qadından soruşsun ki, yanlarındakı adam kim idi, sanki, buxarlanıbmış kimi, birdən hara yox oldu;

ona görə cürət etmədi ki, gözlədiyi və qorxduğu cavabı eşitməkdən çəkinirdi, qorxurdu ki, arvadının təəccüb dolu sualı səslənər: "Kişi? Hansı kişi?" – əgər bundan sonra israr, tərslik etmək fikrinə düşsəydi belə, arvadı, çox güman ki, yolu onunla bir yerdə gedən qadınları özünə şahid çəkəcəkdi, yəni qoy onlar desinlər, aramızda kişi var idi, yoxsa yox – və onlar da birağızdan bəyan eləyəcəkdilər ki, yanlarında heç bir kişi olmayıb, hələ bir narazılıq əlaməti kimi başlarını da bulayacaqdılar və üstəlik, qadınların ən dillisi deyəcəkdi ki, yəqin, yer üzündəki bütün kişilərin ağlı elə eyni istiqamətdə işləyir və bəlli yerləri sızıldamasa, biz qadınlara heç yaxın da düşməzlər. İosif yalnız bir şeyi güman etməzdi – Məryəmin onun bu sualına, həqiqətən, səmimi təəccüblənəcəyi, çünki, doğrudan da, o heç bir dilənçi görməmişdi axı, nə həqiqətdə, nə də ki təxəyyülündə, istər ətli-qanlı məxluq olsun, istər kabus – görməmişdi, vəssalam. "Axı bu necə ola bilər, əgər mən onu öz gözlərimlə, sənin düz yanında görmüşəmsə?" – İosif yəqin soruşardı, Məryəm isə bu dəfə özünün qəti cavabını verərdi:

– Mənə həmişə deyiblər ki, Qanun arvaddan hər şeydə ərinə tabe olmağı, ona hər cür itaət etməyi tələb eləyir, elə bu səbəbdən də mən yanımda heç bir kişi olmadığını bir də təkrar etmərəm; lakin əgər sən mənim sözlərimin əksini israr edirsənsə, yalnız bircə söz deyə bilərəm ki, mən heç kəsi görməmişəm.

– Bu, həmin o dilənçi idi, tanıdım onu!

– Sən axı haradan bilirsən, əgər bizim qapımızı döydüyü gün onu heç görməmisənsə.

– O idi, o, başqa heç kəs ola bilməz.

– Niyə olmur ki, bəlkə, adi bir yolçu imiş, öz yolunu yavaş-yavaş gedirmiş, biz də gəlib ötdük onu – əvvəlcə siz kişilər keçmisiniz yanından, sonra da biz və mən onun tuşundan keçəndə, sən də çönüb baxmısan, vəssalam, başqa heç nə olmayıb, burada nə var ki...

– Deməli, sən onun olduğunu təsdiq edirsən?

– Yox, təsdiq etmirəm, lakin bununla yanaşı, öz borcunu dərk eləyən bir qadın kimi yalnız səni qane edə biləcək bir izah axtarıram.

Artıq yuxulamaq üzrə olan İosif yarıqapalı gözləriylə arvadının üzünə bir də nəzər salır, həqiqəti aşkarlamaq istəyir, lakin onun üzü indi ayın görünməyən tərəfi kimi qaranlıqdır və sönməkdə olan tonqalın zəif şölələri qadının profilini dumanlı, seyrələn bir xətlə cızır. İosif bu tapmacanı heç vaxt açа bilməyəcəyinə inanmış kimi başını sinəsinə sallayır və yuxuya gedərkən, beyninə dolan axmaq bir fikri də özüylə aparır: arvadının yanında gördüyü həmin o şəxs onun doğulmamış oğludur, gələcəkdən gəlib ki, bunları desin: "Bax, mən böyüyəndə belə olacağam, amma sən bunu görməyəcəksən". İosif yuxuda mütilik, itaətkarlıq içində gülümsünərək, sanki, söylədiklərinə Məryəmin cavabını eşidirdi: "Tanrı bizlərə bunu heç göstərməsin, amma mənə lap dəqiq bəllidir ki, o dilənçi özünə heç yerdə sığınacaq tapa bilmir". Həqiqətdir, həqiqət söyləyirəm sizə: bu yer üzündə bir çox gizli mətləblər, onlardan törəyəcək hadisələr baş verməmişdən də aydınlaşa bilərdi, əgər ərlər və arvadlar bir-biriylə əsl ər-arvad kimi danışmaq adətinə daim sadiq qalsaydılar.

Ertəsi gün səhər tezdən bu gecəni karvansarada keçirənlərin çoxu Yerusəlimə tərəf hərəkət etdi, amma bu dəfə elə alındı ki, İosif Virsaviyaya yollanan həmyerlilərini gözlərindən yayındırmaq istəməsə də, arvadının böyründə, necə deyərlər, üzəngisinin dibində, üç gün qabaq həmin o dilənçiydi-nəydi, lap onun kimi birayaq-birayaq addımlayası oldu. Lakin İosif bu dəqiqələrdə onun haqqında düşünmək istəmir: qəlbinin ən dərin guşələrində o tam əmindir ki, əgər oğlunu, o, hələ doğulmamışdan, özü də bələndiyi bezlərin içində baramaya bənzəyən köməksiz insan sürfəsi – çığırtısından qulaq batan və xoşagəlməz qoxulu – kimi yox, yetkin kişi kimi, atasından və başqa həmqəbilələrindən düz bir qarış

uca görə bilibsə, deməli, Tanrının xüsusi mərhəmətinə layiq görülüb və İosif həqiqətən xoşbəxtdir ki, indi oğlunun yerini tutur, özünü, eyni zamanda həm ata, həm oğul kimi hiss edir və bu fikirlərdən onun hissləri elə mübhəm vüsət tapır ki, oğlunun Yerusəlimə indi öz ayaqlarıyla deyil, anasının bətnində getməsini də qəflətən unudur.

Mömin yolçular vadinin o biri kənarındakı yamacdan göz önündə əsrarəngiz bir səma mənzərəsi kimi açılan şəhəri görəndə – "Yerusəlim! Yerusəlim!" – qışqırırlar və dünyanın mərkəzi günorta günəşinin parlaq işığı altında saysız-hesabsız qığılcımlarla bərq vururdu, büllur çələng kimi, təmiz qızıl kimi parlayırdı, qürub şüalarından alışan, süd bəyazından bədirlənmiş ay təki görünən Yerusəlim, Yerusəlim.

Bu an Məbəd elə qəfil peyda oldu, sanki, Tanrı elə indicə onu yerinə qoydu və zəvvarların, sadə yolçuların saçına, yanaqlarına, libaslarına toxunan yüngül meh də, bəlkə, elə Tanrının əl hərəkətindən doğur və əgər göydəki buludlara diqqətlə baxsan, ənginliklərdə itən bu nəhəng əli, onun uzun, gilə bulaşmış barmaqlarını, qırışlarında yer üzündəki bütün insanların və kainatdakı bütün məxluqların həyat və ölüm cizgiləri gizlənən və hətta bunu bilməyimizin də artıq vaxtı çatdı – Tanrının özünün belə həyat və ölüm xətləri gizlənmiş ovcunu görə bilərsən. Yolçuların vücudunu çulğamış hissiyatın gücündən əsən əllər göylərə uzanıb, ağızlardan alqış dolu sözlər qarşısıalınmaz sel təki axır və artıq xor kimi səslənmir onlar; zira hər kəs öz heyranlığına bələnib, bu cür hisslərin bəyanında təbiətən sakit olanlar isə yerlərində donaraq qalıblar, gözlərini çəkmədən göylərə baxırlar, duanın kəlamlarını isə başqalarından bir az quru, bir az sərt deyirlər, sanki, bu dəqiqələrdə öz Ağaları ilə bərabər danışmağa icazələri var. Yol ahəstəcə enişə aparır və yolçular vadiyə tərəf daha çox enirlər ki, sonra yenə növbəti yoxuşa – onları şəhər darvazasının yanına çıxaracaq yoxuşa baş vursunlar və nə qədər çox enirlərsə, Məbəd də gözləri



önündə bir o qədər ucalır və uca Antoninin qülləsini – yaraqəsləhəsi, dəbilqələri günəş şüaları altında gah parlayan, gah da itən legionerləri hətta bu məsafədən belə aydın görünən – Antoni qülləsini də perspektivin qanunlarına uyğun olaraq, öz arxasında görünməz edir. Burada nazaretli cütlük öz yoldaşlarından ayrılır, çünki Məryəm artıq çox yorulub və uzunqulaq köhlənin çaparağına qəti davam gətirə bilməzdi; çapmasaydılar da, addımlarını itiləşdirən, şəhər darvazalarını görəndə isə lap qaçaraq gedən zəvvarlara yetişə bilməzdilər.

Nəticədə İosiflə Məryəm yolda ikisi qaldılar – qadın gücünün olan-qalanını cəmləməyə çalışır, o isə düz məqsədə çathaçatda baş vermiş məcburi gecikməyə görə yüngülcə təəssüf hissi keçirirdi. Günəşin dimdik şüaları dülgərlə arvadını əhatə eləyən sükuta sancılırdı. Elə bu an Məryəmdən boğuq inilti qopur.

– Haran ağrıyır? – İosif nigaran soruşur.

– Ağrıyır, – o cavab verir, lakin elə o dəqiqə də sifəti dəyişir, inamsız bir ifadə bütün üzünə yayılır, sanki, şüurunun dərk etmək iqtidarında olmadığı nəyləsə rastlaşmışdı: ağrı, əslində, özününkü deyildi – hərçənd ki elə özü də bir balaca ağrıyırdı – bu ağrı kiminsə başqasının idi; kiminsə deyəndə, bətnindəki uşağının ağrısıydı: məgər başqasının ağrısını lap özününkü kimi hiss etmək mümkündür – amma, bəlkə də, biz bu məqamı lazımi sözlərlə, lazımi şəkildə təsvir etmirik – bu qaranlıq mətləbi başqa dillə çatdıraq: duyduğu ağrı naməlum akustik anomaliyaya görə əks-sədanın onu yaradan səsdən daha dəqiq və ucadan çıxması kimiydi.

– Hə, nə oldu, hələ ağrıyır? – təsdiq eşidəcəyindən qorxan İosif ehtiyatla soruşur, Məryəm isə bilmir nə cavab versin: deyəcəksən "hə" – yalan olacaq, "yox" desən, bu da düz olmayacaq və ona görə də heç cavab vermir, ağrı isə yox olmamışdı, bax burada idi, Məryəm onu elə hiss eləyirdi, sanki, öz bətninə, ağrı çəkən körpəsinə baxır, amma müdaxilə eləməyə gücü çatmırdı və onu heç toxtada da bilmirdi,

çünki çox uzaqda, əlçatmaz idi hələlik. İosif uzunqulağı tələsdirmirdi, qovmurdu – o özü qəflətən addımlarını yeyinlətdi, ayaqlarını daha iti ata-ata, Yerusəlimə aparan dik yamaca qalxmağa başladı və yoluna lap yüngül davam elədi, elə bil, kimdənsə eşitmişdi ki, tezliklə saman dolu axur, çoxdan gözlədiyi istirahətini tapacaq; amma bilmirdi ki, Vifliyemə qədər hələ xeyli yol qalıb, ora çatanda da anlayacaq ki, həyat göründüyü qədər sadə deyilmiş və əlbəttə, Yuli Sezar üçün də özünün şöhrət anında "Gəldim, gördüm, qələbə çaldım" deyə bəyan etmək xoş idi, naxoş olanı isə o idi ki, Sezar ölümü tezliklə öz doğma oğlunun simasında əyani gördü, bundan sonra isə artıq qələbə çalmaq yox, ölmək və özü də doğma yox, ögey oğlunun əlində ölmək belə kimsə üçün kiçik təsəlli də deyildi.

Bu ata-oğul müharibəsi lap qədimlərdən gedir – nəsildənnəslə ötürülən günah, qisas, intiqam, günahsızların qurban getməsi qədimlərdən var və heç qurtarana da oxşamır.

Artıq şəhər darvazalarından o üzdə Məryəm ağrıdan qışqırığını boğa bilmədi – amma bu dəfə bu qışqırıq elə tükürpədici idi, sanki, onu lap nizəylə vurdular. Lakin səsini təkcə İosif eşitdi, çünki şəhər divarlarının qabağındakı bazarda adamlar və mal-qara təsəvvürəgəlməz səs-küy qoparmışdılar – düzdür, ikincilər özlərini daha sakit aparırdılar, amma, hər halda, həm onlar, həm də bunlar elə çığırışırdılar ki, adam öz səsini belə zorla eşidirdi.

Dülgər tədbirli davranmaq qərarına gəldi:

– Daha getmək olmaz, yaxşısı budur, gəl, buralarda bir sığınacaq tapaq, mən səhər Vifliyemə – siyahıyaalmaya gedərəm, deyərəm ki, arvadım hamiləliyin lap axırındadır, əgər ehtiyac varsa, doğuşdan sonra gələ bilər, mən axı bu romalıların qanunlarını bilmirəm, bəlkə, elə bizim vəziyyətimizdə təkcə ailə başçısının siyahıdan keçməsi onlara bəs elədi.

Məryəm isə cavab verdi:

– Keçdi, ağrı keçdi.



Bu, həqiqət idi: ağrı artıq qarnına nizə kimi girmirdi, sancaq kimi batır, kobud yun kimi dalayırdı və özünü yaddan çıxarmağa imkan verməsə də, indi dözüləsi idi. İosif görünməmiş yüngüllüklə, sinədolusu nəfəs aldı: doğmaq kimi ağır bir işə hazırlaşan qadını – o isə bütün kişilər kimi belə vəziyyətdə yaman qorxacaq olurdu, amma bunu heç özünə belə etiraf etmirdi – sığınacaq verə biləcək kimsəni tapmaq üçün Yerusəlim küçələrinin labirintində dolandırmaq zərurəti də ağrıyla bir yerdə itmişdi.

"Vifliyemə gələrik, – o, götür-qoy eləyirdi, ora da elə Nazaret kimi əyalətdir də, orada hər şey asan olar: kiçik şəhərciklərdə hamı bir-birini tanıyır və kimsəyə yardım əli uzatmaq bizim yerlər kimi, yəqin, oraların camaatı üçün də boş söz deyil". Məryəm isə zarımasını kəsmişdi – deməli, ya ağrıları bitmişdi, ya da dözüləsi idi, hər halda, mütləq bu fürsəti fövtə vermədən, Vifliyemə hərəkət etmək lazımdır. Uzunqulağın yançağına əliylə şapalaq ilişdirdi; əgər düşünsək, görərik ki, onun hərəkəti bu ağlasığmaz basabasda heyvana "bir az tələs" deməkdən çox, ağır tərəddüd daşını öz çiynindən salaraq yenə yola kökləndiyinin göstəricisi sayılardı. Dar küçələr ağzına kimi bütün irq, qəbilə və ləhcələrdən olan adamlarla dolu idi və keçid yalnız uzaqdan romalı gözətçilərin dəstəsi və ya dəvə karvanı görünəndə möcüzəli tərzdə boşalırdı, camaat onda Qırmızı dənizin suları kimi hər iki divara sıxılırdı. Lakin yavaş-yavaş, Nazaretdən gəlmiş ər-arvad və onların eşşəyi özlərinin bütün səbrini və inadını səfərbər edərək, dəli kimi əl-qol atan, qarışqa kimi qaynaşan, alverdən başqa heç nəylə maraqlanmayan bu adamların arasından sivişib, nisbi sakitliyə çıxdılar, amma maraqlanmırdılarsa, deməli, heç bilməsələr də olardı ki, bax bunlar – dülgər İosiflə qarnı burnuna dəyən Məryəm adlı arvadı Vifliyemə əhali siyahısına düşmək üçün gedirlər və əgər həqiqətən də, Roma hakimiyyətinin xeyirxah himayəsindən indiyə kimi bir xeyir görən olmayıbsa, bu yalnız ona görədir ki,

bizlər eyniadlı insanların bol olduğu bir diyarda yaşayırıq və elə bu kütlənin öz içində müxtəlif yaş və təbəqədən olan başqa iosiflər, başqa mariyalar addımbaşı tapılar və çox güman ki, onların arasında ilk övladlarının dünyaya gəlişini gözləyən də tək bizim qəhrəmanlar deyil və nəhayət, yarımçıq mətləb qalmasın deyə, bunu da əlavə edək – çox mümkündür ki, eyni vaxtda, şəhərin eyni məhəlləsində, bəlkə də, lap eyni küçədə işıqlı dünyaya kişi cinsindən iki körpə gələcək, Tanrı kərəminə alqış, çünki eyni cinsdən olacaqlar, amma taleləri eyni olmayacaq; hərəsi öz nəsibini yaşayacaq, əgər biz ovaxtkı primitiv astrologiyanın əhəmiyyətini vurğulamaq üçün son cəhddə bulunaraq oğlanların hər ikisinə hətta eyni adı versək belə – məsələn, İeşua, ya da bəzilərinin tələffüz etdiyi kimi, İsa. Bununla qoy bizə deməsinlər ki, hələ doğulacaq şəxslərə ad verməklə, guya, irəli qaçaraq hadisələri qabaqlayırıq; bunun günahı bizdə deyil – nazaretli dülgərdən soruşun, o nə vaxtdan bəri başına möhkəm pərçim eləyib ki, ilkinin adı məhz belə olacaq – İsa.

Beləliklə, yolçular Yerusəlimin cənub darvazalarından çıxaraq Vifliyem istiqamətində hərəkətə başladılar, sevinirdilər ki, mənzil başına yetişməyə az qalıb və nəhayət, bütün bu uzun və çətin yolun üzgünlüyünü dincələrək canlarından çıxaracaqlar; lakin yazıq Məryəmi dinclik gözləmirdi, qarşısında indiyədək yaşadıqlarından kiçik olmasa da, tamam başqa əziyyət vardı – öz uşağını özü doğmalıydı, başqası yox və tək Tanrı bilir ki, bu, harada və necə baş verəcəkdi. Vifliyem, Kitaba inansaq, David nəslinin məskunlaşdığı yer olsa da, onun qohumlarının bir qismi artıq dünyalarını dəyişmişdi, digərləri isə onunla qohumluğunu, yəqin, heç bilmirdilər və məsələnin bu cəhəti bizə imkan verir ki, hələ burada, yolda ikən böyük ehtimalla təxmin eləyək: dülgərlə arvadının sığınacaq tapmasında böyük çətinliklər yaranacaq, çünki İosif qarşısına çıxan ilk qapını döyüb, deyə bilməz: "Bizi qəbul eləyin, öğlum artıq bu dünyaya gəlmək istəyir" və təbii ki,

deyə bilmədiyindən, cavabında da təbəssümdən nur saçan, sevindiyindən özünə yer tapa bilməyən ev sahibəsinin bu sözlərini eşidə bilməz: "İçəri keç, keç içəri, ey hörmətli İosif, biz artıq suyu da qızdırmışıq, həsiri də salmışıq, təmiz məhrəba da hazırlamışıq, keç içəri, özünü evinizdəki kimi hiss elə". Belə bir şey yalnız "qızıl əsr"də mümkün idi, onda ki canavar quzunun həyatına son qoymamaq üçün, çəmənlikdə otlayırdı, amma biz qəddar zəmanədə yaşayırıq – dəmir əsrində və möcüzələr dönəmi ya artıq tarixdə qalıb, ya da hələ yetişməyib; bütün bu sadaladıqlarımdan başqa da nə desələr belə, əgər məntiqə ziddirsə və şeyləri yaxşılaşdırmaq üçün onların daxili təbiətini tərsinə çevirməyə məcbur olursansa, onda möcüzə heç yaxşı şey deyil, lap qoduq işdir.

İosif isə addımlarını yavaşıtmaq istəyir ki, bütün çətinliklərlə bir az gec görüşsün, lakin ən çətin məsələ barədə – necə etsin, oğlu, heç olmasa, çölün düzündə doğulmasın – düşüncələri onu vadar edir ki, uzunqulağı tələsdirsin; bu fağır heyvanın da necə yorulduğunu yalnız belindəki qadın bilir, çünki Tanrı hətta əgər bu barədə nəsə bilirsə belə, yenə adamların qeydinə qalır, onda da hamısının yox, çünki elə heyvan kimi, lap ondan da pis yaşayan adam yer üzündə nə qədər desən var.

Yoldaşlarından biri hələ Nazaretdən təzə çıxanda İosifə demişdi ki, Vifliyemdə karvansara var – karvansaralar bayaqdan təfərrüatlarını vurğuladığımız problemi bir göz qırpımında həll etmək üçün zamanın çox gərəkli ictimai institutu idi – lakin o qədər də həssas olmayan bizim dülgər bəlli dərəcədə utancaq idi: təsəvvür eləyin ki, onu qarşıda nələr gözləmirdi; arvadı camaatın gözü qabağında seyrə qoyulanda və bu seyretmə prosesi əyləncəyə, qeyri-sağlam marağın obyektinə və sakinlərin şübhəli zarafatlarının mövzusuna çevriləndə – hər şeydən pisi də o idi ki, karvansara sakinlərinin çoxu, elə oturub-durduqları heyvanların özü kimi kobud, bəlkə, hələ kobudluqda onları da üstələyən qatırçılar və dəvəçilərdən ibarət idi və ona görə üstələyirdilər ki,

dilsiz-ağızsız heyvanlardan fərqli olaraq, bunlar hələ danışmaq kimi ilahi bir nemətə də malik idilər. Nələr olacağını təsəvvür eləyən İosif də fikirləşdi ki, məsləhət və kömək üçün, yəqin, sinaqoqdakı ağsaqqallara müraciət eləyəsi olacaq; sonra da bu ideyanın indiyə kimi ağlına gəlməməsinə görə özünü qınadı da və indi, artıq qərar qəbul ediləndən sonra, arvadının özünü necə hiss etdiyi ilə maraqlanmağı gərəkli bildi, lakin bunu həmin an eləmədi; bəzi səbəblər vardı – ən başlıcası xatırladı ki, hamilə olmaqdan tutmuş, elə doğuşun özünə kimi hər şey nə qədər alçaq, murdar və natəmizdir, aman, ya Rəbbim, niyə istədin ki, balaların bu labirintə bənzər dibsizlikdə, bütün yer üzünün şəri sığışa biləcək bu bətndə, gah qan, gah iç şirəsi, gah döl suyu, gah da murdar cift gələn bu günah borusunda doğulsun; niyə razı oldun ki, Sənin sevimli balaların – kişilər bu kəsafətin içində yaransın və Sənin üçün də, ulu Tanrım, bizim üçün də nə qədər yaxşı olardı ki, dünən də, bu gün də, sabah da Sən bizləri parıltı və işıqdan yaradasan, bizim hamımızı – ən böyüyündən tutmuş ən kiçiyinə kimi – əsilzadəylə qara camaata, çarla dülgərə fərq qoymadan yaradasan və yalnız yüksələrək, kimliyini unudanları dəhşət doğuran qəzəb möhürünlə damğalayasan. Bu vacib düşüncələrə qərq olduğundan fikri yayınan İosif özünə gələndə bayaqdan ləngitdiyi sualını verdi; – daha doğrusu, əlçatmaz şeylər haqda fikirləşən birisinin özünü yendirib, xırda məsələlərlə maraqlanmasına bənzəyən biganə ahənglə soruşdu: "Hə, indi necəsən?" – çox yerində və vaxtında soruşmuşdu, çünki Məryəm bir neçə saniyə qabaq ağrı dərəcəsini sınadığı tutmalarında bir təbəddülat duymuşdu, "sınadığı" əla sözdür, amma burada yerində işlənmədi, zira, dəqiqlik naminə deməliyik ki, əslində, o, ağrıları deyil, ağrılar onu sınayırdı.

Onlar artıq bir saatdan çox idi ki, yoldaydılar və tezliklə Vifliyemin mənzərəsi gözləri önündə açılmalıydı. Yol isə bəlli deyildi ki (elə deyirik ki, guya, həmişə, hər şeyin izahı olur)

niyə nazaretli ər-arvad Yerusəlimin cənub darvazalarından çıxandan bəri boş idi və bu, əslində, təəccüb doğurası şey sayıla bilərdi: Vifliyem müqəddəs şəhərə o qədər yaxın idi ki, bu yol hər iki istiqamətdə hərəkət edən insanlarla, heyvan sürüləriylə ağızbaağız dolu olmalıydı. Lakin Yerusəlimdən bir neçə stadiya[1] məsafəsi olan, yolun Virsaviya və Vifliyem istiqamətində haçalandığı həmin o yerdən etibarən, bütün dünya, əgər dünyanı insana bənzətmək mümkünsə, elə bil, sıxıldı, büzüşüb, əyildi, sanki, yorğanını başına çəkdi ki, heç nə görməsin və yalnız yolçuların addım səslərini eşitsin, necə ki biz insanlar yarpaqların arxasında bizdən gizlənmiş və ya bizim gizləndiyimiz – yəqin, quşlara da elə gəlir ki, biz də budaqların arxasında onlardan gizlənirik – quşların cəhcəhinə qulaq asırıq. İosif, Məryəm və eşşək səhra ilə gedir, çünki səhra sözü burada həmişə işlətdiyimiz anlamda deyil, insan olmayan yer mənasındadır və heç unutmaq olmaz ki, quraqlıqdan yanmış, həyat nişanəsi olmayan səhraya lap insan kütləsinin düz ortasında da düşə bilərsən. Onlardan sağda Rahilin məqbərəsidir – İakovun on dörd il gözlədiyi qadının: Lavanın yanında qulluğunun yeddi ili tamam olan kimi Liyanı ona arvad elədilər və yalnız növbəti yeddi il keçəndən sonra sevdiyi qadını – sonradan dünyaya oğlan uşağı gətirib, özü ölən qadını aldı; uşağın adını da Veniamin, yəni "sağ əlin oğlu" qoydular; Rahilin özü isə ölməmişdən ona Benoni adını qoymuşdu və bu adı seçməkdə haqlı idi, çünki bunun mənası "kədərimin oğlu" deməkdir. Budur, artıq Vifliyemin ilk evlərini də seçmək olur – onlar da Nazaretin evləri kimi torpaq rəngindədir, amma burada, parlaq işığın altında adama elə gəlir ki, torpaq rənginə sarı qatmısan, bir az da kül. Məryəm lap yarımcandır, palanın üstündə zorla duruş gətirir, hər addımda əvvəl yana əyilir, sonra da özünü gücə salıb, birtəhər düzəlir; odur ki İosif arvadına kömək etməli, arvadı isə onun çiyninə söykənməli

[1] Bir stadiya 185 metrə yaxındır.

olur və çox təəssüf, ətrafda bir ins-cins yoxdur ki, belə gözəl, qeyri-adi mənzərədən zövq ala. Beləliklə, onlar Vifliyemə daxil olurlar.

İosif istəməsə də, karvansaranın yerini soruşdu, qərara almışdı ki, səhərə kimi orada dincəlsinlər; Məryəm ağrılarından şikayətlənsə də, yaxın bir neçə saatda doğacağına güman yox idi. Lakin şəhərin o biri başındakı karvansara elə gözlədiyi kimi natəmiz, səs-küylü idi – bazar idimi, tövləydimi, bilinmirdi – və hələ ertə olduğundan camaatla dolu olmasa da, burada xəlvət bir guşə tapılmadı, axşama yaxın isə daha pis olacaqdı – mütləq qatırçılar-zadlar içəri doluşacaqdılar. Geriyə qayıtdılar, İosif Məryəmi iki evin arasındakı keçiddə, əncir ağacının kölgəsində oturtdu, özü isə başlıca məqsədinin ardınca getdi – ağsaqqalları axtarmağa. Lakin sinaqoqda o ancaq gözətçini tapdı, onun köməyi isə yalnız bu oldu ki, həyətdə oynayan oğlanlardan birini çağırıb, yolçunu ağsaqqalın yanına aparmağı tapşırdı – yəni qoy o özü araşdırsın, lazımi tapşırığını versin. Günahsız insanların havadarı olan göylər isə – orada yaşayanların diqqəti yer üzündə olanda – istəyirdi ki, boynuna yeni qayğılar şələlənmiş İosif arvadını qoyduğu yerin yanından ötsün, Məryəmi də elə bu xilas elədi, çünki o, əncirin boğucu kölgəsində oturmuşdu və az qalmışdı ki, ər-arvadın bağışlanmaz səhlənkarlığından o dünyaya yollansın, çünki onlar bu ağacların bol olduğu bir diyarda yaşayırdılar və bilməliydilər ki, əncir ağacından, yaxşı-pis, nə gözləmək olar. Sonra isə onlar iki məhkum kimi ağsaqqal axtarmağa getdilər, amma onun evindən İosifə dedilər ki, haradasa səfərdədir və tezliklə qayıdacağına heç güman yoxdur. Onda dülgər bütün cəsarətini toplayıb, uca səslə soruşdu:

– Hər şeyi görən və bilən Tanrı xatirinə, bu evdə, ya da başqa birisində elə bir guşə tapılmaz ki, mənim indicə doğacaq arvadıma sığınacaq olsun. Ola bilməz ki, burada bir guşə olmasın, başqa heç nə istəmirik, şükür ki, özümüzlə həsir də gətirmişik; bundan əlavə, daha bir şeyi soruşum sizdən,



mərhəmətli insanlar, sizin kənddə mənim arvadıma kömək edə biləcək mamaça varmı? – indikilərin diliylə desək, belə dərin intim məsələlər barədə ucadan qışqıran zavallı İosif utanır, qızarırdı və qızardığını hiss etdikcə də daha möhkəm pörtür, daha artıq xəcalət çəkib, daha pis qızarırdı. Onun həm yalvarış, həm də etiraz dolu nitqini ünvanladığı, darvaza ağzında durmuş kəniz evə girdi və tezliklə qayıdıb, cavab gətirdi ki, burada onları qəbul eləyə bilməzlər, qoy özlərinə başqa sığınacaq axtarsınlar, amma tapa biləcəkləri şübhəlidir... Odur ki sahibəm və xanımım tapşırdı sizə çatdırım ki, ən yaxşısı, mağaraların birinə sığınmaqdır, yaxınlıqdakı dağlarda mağara nə qədər istəsən var. "Bəs mamaçanı haradan tapaq?" – İosif soruşdu. Kəniz dedi ki, sahibləri icazə versə və onun, yəni İosifin razılığı olsa, doğuşu özü qəbul eləyə bilər, çünki bütün bu illər ərzində o qədər doğuş görüb ki, mamaçalıq elminə tam yiyələnib. Hə, görünür, həqiqətən, pis zəmanədə yaşayırıq – doğuş ərəfəsində olan bir qadın qapımızı döyür, biz də onu heç həyətə də buraxmırıq, doğmaq üçün mağaraya göndəririk, sanki, insan deyil, ayıdır, canavar-zaddır. Lakin vicdanımız bizi rahat qoymur və budur, artıq yerimizdən qalxıb, darvazaya yaxınlaşırıq, onun arxasında isə həmin o şəxslər durub ki, sadə bir iş üçün deyil, çox zəruri və təcili ehtiyac ucbatından bizdən sığınacaq istəyirdilər; bu biçarənin üzündəki əzabkeş ifadəni görəndə isə qadın ürəyimiz lap sızıldayır və biz yerində işlətdiyimiz ifadələrlə öz rədd cavabımızın səbəblərini izah edirik: "Evdə adam yaman çoxdur, oğullarım, qızlarım, oğul-qız nəvələrim, kürəkən və gəlinlərim, odur ki sizə qonaqpərvərlik göstərə bilmərik, lakin bizim kəniz sizi qabaqlar heyvan saxladığımız mağaraya ötürər, indi boşdur deyə, sizə orda rahat olar"; – indi budur, bütün bu sözləri deyib bu bədbəxtlərin minnətdarlığını dinləyəndən sonra öz otaqlarımıza qayıdırıq və içimizdə elə misilsiz rahatlıq duyuruq ki, onu adama ancaq təmiz vicdanı verə bilər.

Bu qaçaqaç, bu tələsiklik, bu intizar, suallar və xahişlər davam edərkən, səmanın parlaq göy rəngi ağardı və günəş tezliklə, bax, qarşıdakı o dağın dalına enəcəkdi. Kəniz isə – onun adı Salomeya idi – irəlidə gedib, yol göstərir, əlində içi köz dolu qazançа aparır ki, mağarada tonqal qalamağa nəsə olsun, gil qazan aparır ki, içində su qızdırsın və duz aparır ki, doğulacaq korpənin bədənini silsin. Madam ki təmiz əsgilər Məryəmin özündə var, göbəyi kəsmək üçün bıçaq isə – təbii ki, əgər Salomeya onu elə dişləriylə üzməyə üstünlük verməsə – İosifin heybəsindədi, deməli, belə hesab etmək olardı ki, hər şey hazırdır və körpə artıq dünyaya gələ bilər; bu pəyə isə heç də evdən pis deyildi, heyvan axurunda uzanmaq xoşbəxtliyi alnına yazılmamış hər hansı şəxs isə heç vaxt bilməyəcək ki, dünyada axur qədər uşaq beşiyinə bənzəyən heç nə yoxdur. Ən azından onların arasında eşşək belə fərq görməz – saman, elə hər yerdə, lap göylərdə də samandır. Nəhayət, mağaraya yetişəndə, günəş artıq ətraf təpələrin başını zorla saraldırdı; ona görə ləngiməmişdilər ki, mağara Vifliyemdən çox uzaq idi, yox, sadəcə, çoxdan gözlədiyi sakitlik və rahatlığı tapmış, ağır əzablardan qurtulacağı vəd olunmuş Məryəm bütün mələklərə yalvarırdı ki, onu hifz etsinlər, qorusunlar, çünki uzunqulağın dırnağı daşlardan azacıq sürüşüb, onu azacıq silkələyən kimi ürəyi ağrıdan sıxılırdı.

Qaranlıq idi və qürubun zəif işığı elə girişdəcə ölürdü, lakin mağarada ehtiyat üçün toplanmış çırpını üst-üstə yığan Salomeya bir çəngə samanı içində köz olan gil qazana soxdu, tonqalı alışdırdı və tezliklə mağarada, elə bil, dan yeri söküldü, şəfəq qızardı. Bunun ardınca qul qadın divarın çıxıntısındakı yağ çırağını yandırdı, Məryəmə düşməyə yardım etdi və su gətirmək üçün yaxınlıqdakı Solomon nohuruna yollandı. Qayıdanda isə gördü ki, İosif tamam başını itirib, bilmir nə etsin, nədən birinci yapışsın və biz onu qınamamalıyıq, çünki kişilərə heç kəs belə vəziyyətlərdə özlərini necə aparmalı olduğunu öyrətmir, elə onların özləri də bunu öyrənmək



fikrində deyillər və fərasətləri çatan ən böyük iş – əzabkeş qadının əlini əlinə alaraq – hər şeyin öz-özünə düzələcəyini gözləmək olur. Bu, bir də təkrar edim, maksimumudur, bizim Məryəm isə – həyatının belə anında tamam tək qalıb, çünki əgər o zəmanənin mömin yəhudisi, heç olmasa, belə kiçik həmdərdliyə qeyrət göstərsəydi, dünya qopardı. Lakin Salomeya içəri girib dedi: "Eybi yox, heç nə olmaz" – deyərək Məryəmin hərəsi bir yana baxan ayaqlarının arasında dizi üstə çökdü, çünki qadın həm toxumu qəbul etmək üçün, həm də bətninin meyvəsini vermək üçün ayaqlarını geniş açmalıdır. Salomeya isə dünyaya gəlməsinə kömək elədiyi körpələrin sayını da itirmişdi və bu biçarənin əzabları – bütün başqa doğanlarınkı kimi idi, sözə baxmadığına görə İlahi Pərvərdigarın Həvva üçün təyin etdiyi kimi – "Hamiləlikdə dərdini artırdıqca artıracağam sənin; əzab içində doğacaqsan balalarını" – və elə bu gün də, üstündən bu qədər əsrlər ötəndən, bu qədər dərd, ağrı bir-birinin üstünə qalanandan sonra da, Tanrı hələ razı qalmayıb, elə hey bu əzabı uzadır. İosif isə artıq yaxında deyil, o heç mağaranın ağzında da yoxdur, qaçıb ki, qışqırıqları eşitməsin, lakin onlardan heç yana gizlənə bilməzsən, bu qışqırıqlardan, sanki, yerin təki oynayır – elə qışqırıq ki, öz qoyunlarını qovan üç çoban İosifə yaxınlaşaraq soruşdu:

– Bu nədir, elə bil, yerin özü bağırır?

İosif isə cavab verdi ki, bu, mənim arvadımdır, bax o mağarada doğur və çobanlar dedi:

– Sən buralı deyilsən, biz səni tanımırıq.

Cavabında İosif dedi:

– Biz Qalileya Nazaretindənik, siyahıdan keçməyə gəlmişdik ki, arvadımın sancıları başladı.

Sürətlə qəlizləşən zülmətdə dörd kişinin üzü, demək olar ki, seçilmirdi və tezliklə tamam itəcəkdi, təkcə səsləri eşidiləcəkdi.

– Heç olmasa, yeməyə bir şeyiniz varmı? – çobanlardan biri soruşdu.

– Bir az varımızdır, – İosif cavab verdi.

– Hər şey qurtarandan sonra sizə qoyunlarımın südündən gətirəcəyəm, – həmin səs bir də eşidildi.

– Mən də pendir verərəm, – başqa səs çıxdı.

Üçüncü çobanın səsi çıxana kimi, izaholunmaz dərəcədə uzun bir sükut çökdü, üçüncünün səsi, sanki, yerin təkindən gəlirdi:

– Mən isə sizə çörək gətirərəm.

İosiflə Məryəmin oğlu bütün insan öğulları kimi – anasının qanına bələnmiş, hər yanı selikli və öz əzabını dinməz çəkən məxluq kimi doğuldu. Sonra ona görə ağladı ki, məcbur elədilər – o andan etibarən və əbədi olaraq, yalnız və yalnız bu səbəbdən ağlayacaq – məcbur edildiyi üçün. Bələyib, uzunqulağın düz qarşısındakı axura qoydular, onu isə ehtiyat üçün – Tanrı göstərməsin qoy, dişləyib-eləyərdi birdən – noxtasından möhkəm bağladılar. Salomeya adətə uyğun bayıra çıxdı ki, cifti basdırsın, düz bu məqamda İosif peyda oldu. Qul qadın gözləyir ki, kişi mağaraya girsin, özü isə gecənin təmiz havasını acgözlüklə ciyərlərinə çəkirdi, o yorulub, sanki, özü doğmuşdu, amma yox – bu, sadəcə, təxəyyülün oyunu idi, onun heç vaxt övladı olmayıb.

Yamacla enən həmin o üç nəfər də mağaraya yaxınlaşdı.

Bu, çobanlardı. Budur, onlar içəri girirlər. Məryəm uzanıb, gözləri qapalıdır. İosif əllərini axurun kənarına söykəyərək daşın üstündə oturub, sanki, oğlunun qarovulunu çəkir. Birinci çoban irəli yeriyib deyir:

– Öz əllərimlə sağdım qoyunlarımı və südlərini sizə gətirdim.

Məryəm gözlərini açıb gülümsünür. İkinci çoban qabağa çıxaraq deyir:

– Öz əllərimlə pendir tutub, sizə gətirdim.

Axura üçüncü çoban yaxınlaşanda isə, adama elə gəlir ki, o, bütün mağaranı öz vücuduyla doldurub. Körpənin nə anasına, nə də atasına nəzər salmadan deyir:

– Öz əllərimlə xəmir yoğurdum, ancaq yerin dərinliyində yanan ocaqda bişirdim çörəyi və onu sənə gətirdim.

Məryəm o dəqiqə anladı ki, həmin çoban kimdir.

* * *

Dünya yaranandan belədir ki, yer üzünə biri gəlir, biri gedir. İndi də çar İrodun növbəsi idi – doğulmaq yox , təbii ki, ölmək növbəsi. Bu məqamın hər şeydən fərqli və hər şeydən ağrılı cəhətləri barədə sonra, öz dəmində söhbət açılacaq, indi isə deməliyik ki, çar dəhşətli və qarşısıalınmaz, adamın ağlını əlindən alan bir qaşınmaya mübtəla idi – elə bir qaşınma ki, sanki, yüz min qəzəbli qarışqa onun bədənini xırda çənələriylə didib-tökürdülər. Həkimlərin həmin günə kimi bütün insan xəstəliklərini müalicə elədikləri məlhəm və dava-dərmanlar – hətta Misir və Hindistandan gətirilənlər də daxil olmaqla – sınaqdan çıxarılandan və kiçicik bir fayda belə verməyəndən sonra, çarın təbibləri sözün birbaşa mənasında başlarını itirməkdən qorxub, nə vaxtsa, kiməsə köməyi dəydiyini eşitdikləri bütün dərman otlarını və tozlarını birbirinə qatıb (hətta əgər onların qatılması əczaçılıq elminin qaydalarına tamam zidd olsa belə) onları ya suda, ya da yağda həll etdilər, təmizləyib çimdirməyə başladılar. Çar ağrıacılarından və qəzəbdən başını itirib, quduz it dişləyibmiş kimi, ağzı köpüklənə-köpüklənə hamını hədələyirdi ki, əgər ən qısa bir zamanda onun əzablarını toxtatmaq üçün etibarlı vasitə tapmasalar, təbiblərini ən dəhşətli edam cəzasına məhkum edəcək; o vaxtadək tətbiq olunan bütün dərmanlar onun dərisini yandırır, bədənini qıc edir, onu ürəkgetmə bəlasına mübtəlaymış kimi yerə yıxır, gözlərini hədəqəsindən çıxarıb, vücuduna daraşmış və durmadan artan qarışqaların qarşısını almaq üçün, əyninin paltarını dəli kimi cırıqlamasına, büzüşüb, qıvrılmasına səbəb olurdu, lakin dərdi yüngülləşmək bilmirdi ki, bilmirdi. Son günlər yaranmış qızartılar isə daha dəhşətli, çox-çox dəhşətliydi və hər şeydən pisi də o idi ki,

adı bəlli olmayan, barəsində sarayda pıçıltıyla danışılan bu qızartılar, guya, ona səbəb olmuşdu ki, hökmdarın cinsiyyət orqanlarını qurd basmışdı və həmin qurdlar onu diri-diri yeyirdilər. İrodun bağırtılarından yataq otaqları, dəhlizlər silkələnirdi, onu qarabaqara izləyən xacələr nə yuxu bilirdilər, nə dincəlmək, qullar qaçıb gizlənirdilər ki, onun gözünə görünməsinlər. İrod yalnız qəzəbinin hesabına yaşayırdı, onu ayaq üstə saxlayan yalnız qəzəb idi, lakin paltarlarına, saçlarına çəkilən ətirlərə baxmayaraq, bədənindən gələn üfunətli çürüntü iyi günbəgün artırdı. Təbiblər və silahlı döyüşçülərlə əhatə olunmuş kəcavəsində uzanıb, sarayın bu başından o başına gəzirdi ki, yeni-yeni xainlər aşkarlasın, çünki artıq lap çoxdan onun gözlərinə hər yerdə xəyanət görünürdü və bir də baxırdın, onun şəhadət barmağı növbəti qurbanına tuşlandı, bu qurban isə sarayda həddindən artıq nüfuza malik baş xacə də ola bilərdi, Tövratın tələblərinə riayət etməkdə nümunə olası şəxslərin özləri bu müqəddəs kəlamın müddəalarını pozanda onları danlayan cəsarətli farisey[1] də ola bilərdi – onun adını çəkməyə ehtiyac yoxdur: hamı, onsuz da, söhbətin kimdən getdiyini bilir – çarın dəhşətli şübhələrinin qurbanına lap onun doğma oğulları Aleksandr və Aristobul da çevrilə bilərdi; onlar da həbs edilmişdilər, elə o dəqiqə də ölüm hökmü çıxarmaq üçün əsil-nəcabətli zadəganlardan ibarət, tələsik təşkil olunmuş xüsusi məhkəmə tərəfindən edam cəzasına məhkum olunmuşdular; əgər sərsəm yarımhuşluq halında çarın gözlərinə qılınclarını sivirmiş oğlanlarının ona yaxınlaşması görünürdüsə, hələ üstəlik yuxularının ən dəhşətlisində özünü güzgüdə başıkəsik görmüşdüsə, yazıq başqa nə cür hərəkət eləyə bilərdi ki? Odur ki qəzəbli hökmdar bədxahları qabaqladı, sui-qəsdin qarşısını aldı və cəmi bircə dəqiqə qabaq onun oğlanları, taxt-tacının varisləri olan, indi isə qəsddə və öz hakimiyyətlərindən həyasızcasına sui-istifadədə ittiham edilib, məhkəmə vasitəsiylə ölüm cəzasına layiq görülən və kəndirlə boğulan bu şəxslərin meyitlərini artıq səksəkəsiz, sakitcə seyr edə bilərdi.

[1] *Farisey* – İudeyada dini-ictimai cərəyan; həm də "ayrılmış", "xüsusi" mənasını verir



Lakin əldən düşmüş çar özünün qısa və dayaz yuxusuna gedəndə, haradansa, beyninin lap qaranlıq dərinliklərindən onun dincliyini əlindən alan başqa bir dəhşət üzə çıxırdı – İrodun həyəcanlı ruhu qarşısında İsayi zamanında yaşamış peyğəmbər Mixey canlanırdı – assuriyalıların Samariya və İudeya torpaqlarına gətirdiyi dağıdıcı və qanlı müharibələrin canlı şahidi və sən bir işə bax, yuxusuna girən kimi də başlayırdı əsl peyğəmbər kimi yalnız varlıları, güclüləri damğalamağa. Mixey əynindəki, hələ döyüş meydanlarının tozunu daşıyan və üstündə təzə qan ləkələri olan tunakasında çarın yuxusuna elə bir qurultuyla soxulurdu ki, bu dünyada o səsi heç cür eşidə bilməzsən; sanki, arxasınca nəhəng tunc qapılar çırpılırdı və özü isə göy gurultusunu andıran səsiylə elan edirdi: "Tanrı yerindən ayrılır, yer üzünə enəcək və qədəmini öz zirvələrinə basacaq", bu sözlərdən sonra da başlayırdı hədə-qorxuya: "Qanunsuzluq edənləri, güclü olduğundan, gecələr yatağında şər əməllər düşünüb, dan yeri söküləndə onları həyata keçirənləri bəla gözləyir! Zəmilər, tarlalar xoşlarına gəlsə, güclə alırlar; evləri bəyənsələr zorla insanın özünü də, evini də talayırlar, həm özünü, həm də mirasını əlindən alırlar". Mixey hər dəfə, hər gecə bütün bunları təkrar edəndən sonra, sanki, kiminsə işarəsiylə tüstü-duman kimi əriyir, yox olurdu. Lakin İrod bu öncəgörmələrdən təəccübləndiyinə, çəkindiyinə görə yuxusundan soyuq tər içində və ölüm qorxusunun ağuşuna düşmüş halda ayılmırdı – yox, ən ağır olanı bu idi ki, gecə yuxusuna gələn adam düz əlini yuxarı qaldırıb, dodaqlarını aralayıb, yenə nəsə çox vacib bir şey deməyə hazırlaşdığı an yoxa çıxır, itirdi, sanki, sözünün davamını gələn dəfəyə saxlayırdı. Lakin hamıya və hər kəsə bəllidir ki, çar İrod təhdidlərdən qorxan biri deyildi, çünki onun yaddaşı öz əmriylə artıq öz səhifələrinə qətlə

yetirdiyi saysız-hesabsız adamların adlarını həkk etmişdi, ürəyində isə bir damcı peşmançılıq hissi də yox idi. Dünyada hamıdan çox istədiyi arvadı Mariamın qardaşını da suda boğmağı tapşırmışdı – o düşdü yadına, bir də babasını asdırması; sonra isə onu xatırladı ki, arvadından xəyanətdə şübhələnərək onu necə boğdurdu. Lakin o da bir həqiqətdir ki, bundan sonra çar divanəlik həddinə çataraq sayıqlayarkən, daim Mariamı yanına çağırır, hələ sağmış kimi səsləyirdi, lakin əleyhinə planlaşdırılan bütün qəsdlərin ilhamvericisi olan qaynanasının onu taxtdan salmaq üçün təzə bir qurğu hazırladığını eşidən kimi çar İrod o dəqiqə özünə gəlmiş, müvəqqəti divanəliyindən qurtulmuşdu. Kimsə gözünü belə qırpmağa macal tapmamış, İrodun Tanrının bəd günü qohum olmaq fikrinə düşdüyü bu təhlükəli araqarışdıran qadın artıq ailə məqbərəsində, özünün bütün qohumlarıyla yanaşı yatırdı. Bundan sonra çarın üç oğlu qalmışdı: acı talelərini artıq bildiyimiz Aleksandr və Aristobul, bir də Antipatr – o da qardaşlarıyla eyni qismətdən qaça bilməyəcəkdi, amma bu, hələ bir az sonra baş verəcəkdi. İndi isə həyatın yalnız faciə və dəhşətlərdən ibarət olmadığını xatırlatmaq üçün sizə məlumat verək ki, İrod həyatı boyu cismani ləzzət almaq və şənlənmək üçün Mariamdan başqa, misilsiz gözəlliyə malik daha on qadınla da tanış olmağa fürsət tapmışdı, lakin bizim bəhs etdiyimiz hadisələr dönəmində ona bu gözəllərin artıq heç bir faydası və ləzzəti yox idi, onun özü isə çoxdan qadınlara gərək deyildi. Odur ki İudeya və Samariya, Perey və İdumena, Qalileya və Qavlonitid, Trakonitid, Avranitid və Vataney torpaqlarının qüdrətli və hakimi-mütləq çarı dinclik bilməyən peyğəmbərin hər gecə gəlməsindən elə də çox qorxmazdı – əgər həmin o yarımçıq, səsləndirilməmiş, mübhəm təhdid olmasaydı; həmin o təhdid ki, az qalırdı, hər gecə səslənsin, amma heç cür səslənmirdi və elə o səbəbdən də hələ toxunulmaz, məxfi qalmağına baxmayaraq, özündə tamam yeni, haradan gələcəyi bəlli olmayan bir təhlükə ehtiva edirdi.

Həmin zamanda isə İrodun lap yaxınlığında, demək olar ki, onun lap böyründə, Vifliyem altındakı mağarada İosif hələ də öz ailəsiylə birlikdə yaşayırdı, çünki dülgər tezliklə Nazaretə dönmək istədiyindən ev, ya da başqa bir yer axtarmaq fikrindən daşınmışdı, həm də mənzil məsələsi o vaxtlar böyük problem idi, hətta bizim günlərdə olandan da böyük – o zamanlar hələ evi kirayə vermək, kirayə götürmək adamların ağlına gəlməmişdi və evsizlərə sosial yardım məsələləri də hələ kəşf olunmamışdı. İlk övladının doğuşundan səkkiz gün sonra İosif onu sinaqoqa apardı ki, sünnət mərasimini icra eləsin, sinaqoqun qulluqçusu da daş bıçaq və uzun müddət ərzində yaranan vərdişiylə silahlanıb, körpəni sünnət elədi və üzdüyü bu bir tikə dəri parçasının taleyi də elə bütöv romanın süjetinə çevrilə bilərdi, çünki həmin rəngsiz, azca qanı sızan dəri halqası artıq indiki, hamının bizim adlandırdığı eranın səkkizinci əsrində papa Birinci Paskual tərəfindən təntənəli şəkildə müqəddəsləşdiriləcəkdi. Onu görmək həvəsinə düşən hər adam yalnız bircə şey etməlidir – italyan şəhəri Viterbo yaxınlığındakı Kalkata kilsəsinə yollanmalıdır; orada həmin bu müqəddəs miras həqiqi və möhkəm möminlərə öyüd vermək məqsədilə, qeyri-xaçpərəstlərə isə əyləncə üçün hələ də nümayiş etdirilir. İosif dedi ki, oğlunu İsa adlandırmaq istəyir və körpə elə bu ad altında da əvvəlcə Sezarın sayçılarının dəftərinə, sonra isə Tanrının siyahısına düşdü. Bir qırıq uşaq kənar müdaxilə nəticəsində kiçilən orqanından çəkdiyi acıya biganə qalmadı, özü də ki, yəqin, verdiyi bu itkidən heç onun ruhu da gözəgəlimli bir şey qazana bilməmişdi deyə, mağaraya dönərkən bütün yolu ağladı – orada isə anası körpəsinin yolunu əsaslı bir nigarançılıqla gözləyirdi və o, əvvəlcə "mənim yazıq balam" – deyib vay-şivən qopardı, sonra da oğlunu tez sol, ürəyinə yaxın döşünün altına aldı. Adının məhz bu cür olduğundan hələ xəbərsiz İsa – çünki, məsələn, quş yavrusundan, küçük balasından, quzudan, bu dünyaya yenicə gəlmiş bütün Tanrı

məxluqlarından heç fərqlənmədiyi üçün yanağında döşün elastiki ağırlığını, onun azacıq nəmlənmiş dərisini, ağzında ana südünün şirin dadını duyan kimi bir an öncə ona dözülməz gələn ağrı birdən uzaqlaşdı, yarandıqca yaranan, artdıqca artan, lakin xəyali sərhəddən ötərək öz tamlığına heç cür yetişə bilməyən, bağlı qapını açıb, yasaqlara qələbə çalmaq iqtidarında olmayan mübhəm bir ləzzətin içində əridi. Oğlan böyüyəndə bu hissiyyatı mütləq unudacaq və nəhayət, bir gün ona elə gələcək ki, heç vaxt belə bir hissi yaşamayıb və yaşaya da bilməzdi; bu, əslində, hər birimizin başına gəlir, çünki harada anadan olmağımızdan, qismətimizin necəliyindən asılı olmayaraq, hamımızı qadın doğub. Əgər cəsarətlənib soruşmaq istəsəydik – belə ayıb şeylərdən bizləri Tanrının özü qorusun, amma gəlin bu ağlasığmaz vəziyyəti, heç olmasa, təsəvvür edək – beləliklə, əgər biz həmin bu hissiyyatlar barədə İosifdən soruşsaydıq, deyərdi ki, bir ailə başçısı kimi onun başqa, daha vacib qayğıları var, çünki artıq bir yox, iki ağzı doyurmalıdır – və körpə İsanı heç də onun deyil, Məryəmin doyurduğunu, özü də döşünü əmizdirərək doyurduğunu nəzərə alsaq belə, İosifin söylədikləri nə öz həqiqətini, nə təsirini, nə də ki gücünü itirir. Düz sözə nə deyəsən, onun qayğısı, həqiqətən, artmışdı və bu qayğılardan birincisi bu idi ki, Nazaretə qayıdana kimi necə dolanacaqdılar, axı Məryəm doğuşdan sonra hələlik tam özünə gəlməmişdi və uzun yola dözəsi halı yox idi; bundan başqa, o, hələ pak sayılmırdı, çünki bunun üçün müəyyən edilmiş qırx gündən cəmi yeddisi ötmüşdü. Nazaretdən özüylə götürdüyü pullar – guya, nə qədər pul idi ki – bitmək üzrə idi; burada, Vifliyemdə özünü və ailəsini dolandırmaq üçün işləyib qazana da bilməzdi – yanında nə alətləri vardı, nə də dövriyyə üçün vəsaiti ki, taxta-zad ala bilsin. Yoxsul insana isə hələ o qədim zamanlarda da yaşamaq çətin idi, çünki Tanrı hər şeyi qabaqcadan görüb, qarşısını ala bilməz. Elə həmin an mağaranın dərinliyindən anlaşılmaz, şikayətli



nıqqıltı eşidildi və elə o dəqiqə də kəsildi: Məryəm oğlunu bir döşündən o birisinə keçirirdi, körpə də bir anlıq özünün itkisini, incikliyini xatırlamışdı çünki yaralı yerində sızıltı duymuşdu, nıqqıltısı da bundan idi. Amma tezliklə yeyib doyacaq və anasının qolları üstündə yatacaqdı, qadın onu mümkün qədər ehtiyatla, mehriban və etibarlı dayənin qolları arasına ötürürmüş kimi axura uzadanda belə, oyanmayacaqdı. İosif mağaranın girişində oturub, yalnız bir şey barədə ara vermədən fikirləşirdi – Vifliyemdə onun üçün iş yoxdur, heç əl altında əmələliyə götürən də tapılmır, odur ki hər dəfə işə düzəlmək istəyəndə, eyni sözləri eşidirdi: "Köməkçi lazım olsa, sənə xəbər eləyərəm"; amma halva-halva deməklə, ağız şirin olmaz, hərçənd ki dünyaya kasıb gələnlər qarınlarını daim elə boş vədlərlə doldurası olurlar.

Təcrübə min dəfələrlə bizə göstərib ki, hətta boş-bekar qalıb, ağıllı-ağıllı düşüncələrə dalmağa meyilli olmayan adamlar belə, ən yaxşı qərarlarını vermək üçün, gərək mütləq fikirlərinə azadlıq versinlər – qoy sərbəst axsın fikirlər, özləri istəyən kimi qaynayıb-qarışsınlar – lakin belə vaxtlarda mütləq gərək onlara diqqətlə və eyni zamanda da fikrin dağınıqmış kimi göz qoyasan ki, lazımi anda qəflətən parlamış bir fikrin üstünə atılıb, ondan möhkəm yapışasan – ac pələng ovundan yapışan kimi. Beləliklə, dülgərlərin bekara vədləri haqda düşüncələr İosifin fikirlərini əvvəlcə Tanrıya və onun həqiqi vədlərinə, oradan da – Yerusəlim Məbədinin əzəmətli tikintisinə yönəltdi, çünki tikinti onda hələ davam edirdi və birdən ona, sanki, vəhy gəldi, hər şey əyan oldu; əgər tikirlərsə, deməli, fəhlə əllərinə də ehtiyac var; ilk növbədə, təbii ki, bənnalara və daşyonanlara, amma dülgərsiz də keçinə bilməzsən axı: tikinti üçün pilləkənlər, körpülər, keçidlər üçün ağacı kim yonacaq, kim onları bir-birinə mismarlayacaq, bütün bunlar isə İosifin əlindən gələnlərin yanında boş şeylər idi. Bir şey pis idi – təbii ki, əgər onu işə götürsəydilər – bu mağaradan Yerusəlimə yaman uzaq idi, sürətli yerisən,

bir saat yarımlıq yolu vardı, bəlkə də, hələ daha artıq – özü də üzüyoxuşa; bəlkə, uzunqulaqla gedəydi, amma onda da gərək hər gün başını çatladaydı ki, heyvanı harada gizlətsin ki, oğurlamasınlar, çünki Tanrının bu məkanı sevməsi və onu hər yerdən uca tutması heç də o demək deyildi ki, oralarda oğru yox idi – hər gecə peyğəmbər Mixeyin oğrular haqqında İroda söylədiklərini xatırlayaq. İosif bu həlli müşkül məsələlər üzərində baş çatladırdı ki, oğlunu yedirib yatıran Məryəm mağaradan çıxdı. "Hə, İsa necədir?" – ata soruşdu, əslində, yaxşı başa düşürdü ki, bu şəkildə verilmiş sual çox mənasız səslənir, lakin atalıq qürurunu daha bir dəfə məmnun etməkdən aldığı ləzzəti dadmaq üçün indi oğlunu adı ilə çağırmaq istəyirdi. "Yaxşıdır", – Məryəm cavab verirdi, onun üçün oğlunun adı qətiyyən önəmli deyildi; bütün ömrü boyu onu, sadəcə, "mənim oğlum" çağıra bilərdi və heyif ki, bu mümkün deyil, çünki başqa oğullar da doğulacaq – yəqin, mütləq doğulacaq – və onda bir zamanlar "Babil mərəkəsi" adlandırılmış həngamədən də betər qarışıqlıq düşəcək. İosif isə bu sözlərini deyirmiş kimi yox, mülahizə yürüdürmüş kimi ağzından çıxardı: "Gərək bir fikirləşək, görək necə yaşayacağıq, hələ ki tərpənə bilmərik, buradayıq: Vifliyemdə mənim üçün bir iş yoxdur". Məryəm cavab vermirdi, heç əslində, cavab verməli də deyildi: onun işi dinməz oturub, ərinə qulaq asmaq idi, əri elə, onsuz da, danışmağıyla ona böyük şərəf verirdi.

İosif günəşin hara qalxdığına nəzər saldı, fikirləşdi ki, görəsən, gedib-qayıtmağa vaxtı çatar, yoxsa yox, sonra da mağaradan heybəsini və örtüyünü götürüb, bayıra çıxaraq dedi: "Ulu Tanrım, sənə ümidəm, mənə öz evində iş ver; əlbəttə ki, əgər təmiz qəlbli, bütün ümidləri buna bağlamış bir ustanı belə uca mərhəmətə layiq bilirsən". Sonra isə plaşının sağ ətəyini sol çiyninin üstünə atdı, heybəsinin çiyin kəmərini onun üzərində yerləşdirdi və bayaq söylədiklərinə bircə kəlmə də əlavə etməyib yola düzəldi.

[1] *Tirada* – dramda qısa və təsirli monoloq

Amma dünyada xoşbəxt anlar, xoşbəxt saatlar da olur.

Məbəd lap çoxdan tikilsə də, orada hələ də təzələrə iş tapılırdı, xüsusilə elə işçilərə ki, hesablaşma vaxtı ortaya böyük iddia qoymurdular.

İosif ustasının daha çox qayda-qanun naminə təşkil elədiyi sadə sınaqlardan asanlıqla keçdi və bu gözlənilməz uğur bizi fikrə getməyə məcbur eləyir – bəs bu necə oldu, axı hekayətimizin əvvəllərində biz İsanın atasının peşə bacarığına çox skeptik yanaşırdıq? Daha sonra Mədəbin təzə inşaatçısı ləngimədən haradan gəlirdisə, ora da döndü və yol boyu bir neçə dəfə Tanrıya alqış elədi, bir neçə dəfə isə ayaq saxlayıb, rastlaşdığı adamları da oz dualarına qoşulmağa çağırdı və yolçular səmimi bir təbəssümlə onun xahişini yerinə yetirirdilər; çünki İosifin mənsub olduğu xalqın bir nəfərə nəsib olmuş sevinci belə bütün soydaşlarına şamil etmək adəti vardı, bu da, çox güman ki, onların hər şeydən öncə, azsaylı olduqlarından qaynaqlanırdı. Rahilin məqbərəsinə yetişəndə isə bizim dülgərin beynində deyil, haradasa, içinin lap dərinliklərində doğulub, üzə çıxan bir fikir başını qarışdırdı: oğlunu bir belə arzulayan qadın artıq ölüb, ya onun əlindən ölüb, ya da, heç olmasa, onun günahı ucbatından və yazıq öz balasına heç baxmağa belə fürsət tapmayıb, o ki qalmış nəsə bir söz deməyə və körpənin bədəni anasının bətnindən ağacdan düşən meyvə biganəliyiylə ayrılıb. Bu sərsəm fikrin ardınca onun düşüncələri daha kədərli məcraya yönəldi – uşaqlar həmişə onları əkmiş atalarının və bətnində yetirərək, həyata gətirən analarının ucbatından ölürlər, zira doğulmasaydılar, ölməzdilər – İosif günahsız olaraq ölümə məhkum edilmiş oğlunun halına acıdı. Ruhi sarsıntı içərisində İakovun ən sevimli arvadının qəbri üstündə əllərini gücsüz halda yanlarına saldı, başını aşağı dikdi, bütün bədəninin buz kimi tərdən islanmasını hiss edib durdu və həmin an yolda da kimsə yox idi ki, kömək üçün müraciət etsin. Dülgər anladı ki, dünyanın müdrik və şüurlu yaranışına ilk

dəfədir şəkk eləyir və buna son ümidlərini qovurmuş kimi, qışqırdı: "Mən burada öləcəyəm!" Çox ola bilər ki, bu sözlər tamam başqa şəraitdə dərin inamla səslənib – yəqin, bu inam intihar edənlərdə olur – dirilər dünyasını tərk edəcəyimiz qapını dinməz-söyləməz qarşımızda açaydı, lakin insanların böyük əksəriyyəti ruhi cəhətdən zəif olduqlarından ən əhəmiyyətsiz məsələ belə, fikirlərinin istiqamətini dəyişə bilər: göyün üzündə buludmu görünər, hörümçəkmi torunu toxumağa başlayar, ya küçük kəpənəyin arxasınca düşər, ya da cücələrini çağırıb yeri eşən bir toyuq ucadan qaqqıldayar – bir də gördün artıq fikrimiz yayındı, bəzən isə lap sadə olur – burnun qaşındı, qaşıdın – budur, artıq öz-özündən soruşursan: "Mən nə fikirləşirdim?" Məhz ona görə də bir an sonra Rahilin məqbərəsi həmişə nə idisə, ona da döndü – o qədər də böyük olmayan əhənglənmiş tikili; tamamilə pəncərəsiz, tək qaldığından gərəksiz olmuş, çölə atılmış zərə bənzəyən bəsit tikili; onun girişini qapayan bu daşdan isə bu müqəddəs yeri ziyarət eləyən saysız-hesabsız zəvvarlar, kim bilir, nə vaxtdan bəri öz kirli, tərli əllərilə yapışırdılar, lakin yəqin, məqbərənin ətrafında bitən zeytunlar onda da qoca idilər – yazıq anasının məhz burada əbədi sükunət tapacağını qərara alan İakov ərazini təmizləyəndə, həmin ağaclardan bir neçəsini qurban verəsi olmuşdu; odur ki kifayət qədər inamla iddia eləyə bilərik: tale var və hər kəsin taleyi həmin an özü kimin əlinə düşübsə, elə onun da əlindədir.

İosif yoluna davam etməmişdən elə bir dua etdi ki, onun özünə çox vaxtında və çox yerində gəldi: "Alqış Sənə, ey atalarımızın və bizim Tanrımız, Avraamın Tanrısı, İsaakın Tanrısı, İakovun Tanrısı, alqış Sənə, ey qüdrətli İlahi". O, mağaraya girdi və iş tapması barədə xəbərlə arvadını sevindirməmiş, birbaş axura sarı yönəldi ki, öğluna baxsın; oğlu isə yatırdı. İosif öz-özünə dedi: "O öləcək, o ölməlidir" və ürəyi sancdı, lakin sonra fikirləşdi ki, təbii qanunlara əsasən, əvvəlcə özü ölməlidir və ölüm onu yer üzündə yaşayanlar arasından alacaq,



bu dünyada varlığını yoxluğu ilə əvəz edəcək, ona – bunu dəqiq necə ifadə edək? – ağlasığmaz ifadəmə görə üzr istəyirəm, təxminən, zamanla məhdudlaşmış bir ölməzlik verəcək və bu ölməzlik artıq bizimlə olmayan insanları nə qədər xatırlayırıq, nə qədər seviriksə, bir o qədər də davam edəcək.

İosif dülgərlərin onbaşısını xəbərdar etməmişdi ki, cəmi bir neçə həftə işləyəcək – ən çoxu, beş həftə, ondan sonra uşağını anasının təmizlənmə mərasimi üçün Məbədə aparmağın vaxtı çatacaq, onun dalınca da artıq yavaş-yavaş evə, Nazaretə hazırlaşmaq vaxtı gələcək. Ona görə susmuşdu ki, qorxurdu işə götürməyələr və diqqətinizə yetirdiyimiz təfərrüat bunu göstərir: bizim dülgər, necə deyərlər, bu dəstədə ağ qarğa idi, öz işinin həm ağasıydı, həm nökəri və buna görə də o vaxtın əməkçilərinin yalnız bu və ya başqa müddətə çalışan günəmuzd fəhlələrdən ibarət olduğunu bilmirdi. İosif işinin sonuna neçə gün qaldığını diqqətlə hesablayırdı – iyirmi dörd, iyirmi üç, iyirmi iki və çaşmasın deyə mağaranın divarında təqvim kimi bir şey də düzəltmişdi və hər axşam köndələninə bir xətt qoymaqla – on doqquz – ötən gününü pozurdu – on altı. Tanrıya alqışlar yağdıran Məryəmin – on dörd, on üç... doqquz, səkkiz, yeddi, altı – ona bu cür hərtərəfli qabiliyyətə malik ər əta etdiyindən minnətdarlığı və təəccübü hədsiz idi. İosif ona deyirdi: "Bax, Məbədə gedən kimi yola düzələrik, Nazaretdə sifarişçilərin, yəqin, gözünün kökü saralıb artıq". Məryəm isə çox ehtiyatla, sözləriylə ərinə məsləhət verirmiş kimi çıxmasın deyə, mülayim-mülayim cavab verirdi: "Amma mütləq bu mağaranın sahibəsinə və uşağımızı tutan həmin o kənizə təşəkkür eləmək lazımdır, onların ikisi də, az qala, hər gün bizim oğlumuza baş çəkirlər". İosif susdu, çünki etiraf etmək istəmirdi ki, ən adi minnətdarlığı belə unutmuşdu; əslində isə o, Məbədə yollananda eşşəyin belinə hər nəyi varsa şələləyib, ona göz olmağı orada kimdənsə xahiş edəcəkdi ki, mərasim qurtaran kimi birbaşa doğma yerlərə yola düzəlsinlər; daha minnətdarlıq,

vidalaşma kimi şeylərə vaxt itirmək fikri yox idi. Amma arvadı düz deyirdi; beləcə, onlara heç bir söz demədən çıxıb getmək düz deyildi və həqiqəti söyləmək lazımdır, bu heç yaxşı tərbiyəyə də dəlalət etmirdi. Öz səhvi ucbatından İosif düz bir saat arvadına əsəbiləşdi və bu hiss, həmişəki kimi, yenə özünə yönəlmiş hirsini soyutdu. Nə etməli, daha iki-üç gün qalarlar, hamı ilə lazımi qaydada sağollaşıb, lazımi sayda təzim edərlər ki, Vifliyem əhalisinin yaddaşında bu mömin, nəzakətli, Tanrı və insanlar qarşısında borcunu dərk edən, heç Qalileyadan gələnlərə oxşamayan – nəzərə alaq ki, Yerusəlim və ətrafındakı kəndlərin əhalisi, əslində, İosiflə Məryəmin həmyerliləri barədə heç də yüksək fikirdə deyildilər – bu ailə barədə bəd yox, xoş xatirələr qalsın.

Nəhayət, həmin o əlamətdar gün, körpə İsa səyyahlıqlarının ilk anından bəri onlara əvəzolunmaz yoldaş və köməkçi olmuş səbrli uzunqulağın belində oturan anasının qucağında Məbədə yollandı. İosif heyvanın noxtasından tutmuşdu, tələsdirirdi onu, çünki özü də tələsirdi, istəmirdi ki, bütöv iş gününü itirsin, hərçənd ki artıq səfər ərəfəsindəydilər. Elə bu səbəbdən də yola lap erkən çıxmışdılar – sayrışan şəfəq özünün qızaran barmaqlarıyla gecənin zülmət əbasının ətəklərini yığışdırmağa başlayan kimi. Budur, Rahilin məqbərəsi də arxada qaldı, ailə məzarın tuşuna çatanda isə şəfəqin şüaları bəyaz divarlara düşüb, onu nar rənginə boyadı və inanmaq olmurdu ki, bu, aysız gecədə bulanıq ağımtıl olan, bədirlənmiş ayın işığında ölü sümüklərinin dəhşətli bəyaz rəngini alan, yeni doğmuş ayın altında isə, sanki, üstündən qan damcılayırmış kimi görünən həmin o divardır. O an körpə tamam ayıldı – əvvəl anası onu yol üçün bələyəndə gözünü biranlıq açmışdı və elə o dəqiqə də təzədən yummuşdu və hələlik imkanı çatan yeganə yolla, yəni ağlamaqla acdığını xəbər verdi. Gün gələcək, o da bizim hamımız kimi dillənəcək, başqa ehtiyaclarını dili vasitəsiylə anlatmaq öyrənəcək və təbii ki, başqa göz yaşlarının dadını da biləcək.

Yerusəlim yaxınlığındakı dik yamacda, ailə zəvvarlar və tacirlərdən ibarət bir dəstəni ötdü, onlardan hər biri, yəqin, şəhərdə o birilərindən tez olmaq istərdi, lakin qayda-qanuna göz qoyan romalı qarovul cütlüyü və İrodun muzdluları görünən kimi (onların içində yəhudilərdən savayı daha hansı qəbilənin nümayəndələri yox idi ki – idumey və frakiyalılar, qalatlar, germanlar və qallar, hətta sərrast ox atmaqda ad çıxarmış babillilər də vardı) ehtiyat üçün, addımlarını səngidirdilər. Sakit adam olan İosif anadan olandan əlinə rəndə və sıyırğa, taxta çəkic və kərkidən savayı başqa bir silah almamışdı deyə bu qəzəbli döyüşçüləri görəndə içində həm həyəcan, həm də bir nifrət duydu və bu qarışıq hiss onun gözlərindən oxunmaya bilməzdi. Elə buna görə də o, Məryəmdən fərqli olaraq, yol gedəndə gözlərini kütləşdirmişdi, arvadı isə daim dörd divar arasında oturduğundan, son həftələr isə həmin o mağarada dustaq olduğundan – ona baş çəkməyə yalnız doğuşa yardım etmiş kəniz gəlirdi – indi əlində öz balasını apardığı üçün və deməli, zəif qadın olmasına baxmayaraq, Tanrısı və öz əri qarşısında vəzifəsinin öhdəsindən gələ bildiyi üçün dik tutduğu başını yorulmaq bilmədən oyan-buyana çevirib, ətrafına maraqla tamaşa eləyirdi. Onun bütün görkəmindən xoşbəxtliyin elə parlaq nuru saçılırdı ki, görünüşü hətta sarışınsaçlı, iri, sallaq bığları olan, kobud qall muzdlularını da riqqətə gətirirdi və görünür, onların da qəlbi hələ tam daşlaşmamışdı, çünki bu əyri-üyrü, yaraq-əsləhəli əsgərlər belə, sanki, özündə həyatın əbədi yeniləşməsini təcəssüm etdirən, qucağında təzəcə anadan olmuş körpəsi olan cavan ananı görəndə mütəəssir olub gülümsünürdülər və qətiyyən əhəmiyyəti yoxdur ki, bu təbəssüm onların çürük dişlərini də göstərirdi – məsələ dişdə deyil.

Nəhayət, budur! Məbəd! Əgər ona alt nöqtədən – aşağıdan, baxdığımız yerdən baxırsansa, əzəmətdən nəfəsin kəsilir, başın hərlənir; adama elə gəlir, yer üzündə elə bir güc yoxdur

ki, bu qədər dağ boyda daşı yona, qaldıra, bir-birinin üstünə qoyub, bir-birinə elə uyğunlaşdıra ki, onlar heç bir sementzad olmadan, öz çəkiləri hesabına möhkəm dayanalar; elə dünyada hər şey necə dursa, eləcə möhkəm və sadə duralar; ikinci Babil qülləsiymiş kimi düz göyə millənən bu tikili İlahinin nəzərinə baxmayaraq, elə birincisinin taleyini yaşayacaq, bu əzəmət də dağılacaq, narahat zamanlar, qarışıq dönəm gələcək, qanlar sel kimi axacaq və min-min heyrətli səs soruşacaq: "Nəyə görə?" və o səsin sahibləri cavab gözləyəcək, elə biləcəklər ki, bu sualın cavabı da var, amma sonra həmin səslər gec-tez kəsiləcək, çünki yalnız sükut həqiqi və əbədidir.

İosif eşşəyi karvansaraya apardı, Pasxa günlərində pəyə və tövlələrdə o qədər qoşqu və yük heyvanı yığışırdı ki, necə deyərlər, dəvənin quyruğunu tərpədib milçəyini qovmasına belə imkan yox idi, amma indi, siyahıyaalma başa çatandan, adamlar yaşadıqları yerlərə dönəndən sonra, uzunqulağa yer tapıldı, özü də axı hələ səhər ertə idi, hələ tünlük düşməmişdi. ertə olmağına, ertə idi, lakin Məbədin ətrafındakı, ondan tağlarla ayrılan Bütpərəstlər Həyətində artıq çoxlu adam vardı – sərraflar, qurbanlıq göyərçin, çəpiş, buzov satanlar, hər birinin müqəddəs məkana məhz bu gün gəlməsinə bəlli səbəbi olan zəvvarlar, çar İrodun əmri ilə ucaldılmış gerçək dünya möcüzəsini öz gözləriylə görmək istəyən yadellilər. Lakin memarlar həyəti elə tikmişdilər ki, onun əks tərəfində olan adam xırda həşəratdan böyük görünmürdü və bu, çarın istəyi idi; istəyirdi ki, hər bir adi insan, xüsusilə də başqa dindən olanlar Külli-İxtiyar qarşısında miskinliklərini dərk etsinlər. Bəli, başqa dindən olanlar, və da mömin yəhudilər əgər bura adi seyrçi kimi gəlmirdilərsə, qətiyyən lənqimir, sütunların arasından ötərək, öz məqsədlərinə məbədin tən ortasında yetişirdilər – yaranışın mərkəzinə, dünyanın göbəyinə, müqəddəslər müqəddəsinə. Dülgər İosiflə arvadı Məryəm də elə ora yollanırlar, atası iki göyərçin alandan sonra körpə İsa da anasının qolları üstə məhz ora gəldi;

düzü, bilmirəm ki, bu dini mahiyyət daşıyan ticarətin monopoliyasını yaratmış adamın adını necə deyim; qoy, belə deyək – məsələn, məbəd qulluqçularından biri. Yazıq quşlar bilmir, alınlarına nə yazılıb, hərçənd ki, ən azı, yanmış lələklərin və ətin qoxusundan hər şey ağıllarına gələ bilərdi. Lakin bu qoxu başqa, daha güclü iylərin içində itir – qan iyi, peyin iyi gəlir, çünki darta-darta qurbangaha aparılan danalar qorxudan və həyəcandan yol boyu əməlli-başlı batırırlar. İosif qabarlı əllərini qoşalayıb, hər iki göyərçini aparır, onlar isə nahaqdan sevincək olduqlarından onun qəfəsin milləri kimi durmuş barmaqlarını yüngülcə dimdikləyir və sanki, yeni sahiblərinə bunu deyirlər: "Yaxşı ki, bizi aldın, indi sənin də göyərçinlərin olacaq". Məryəm oz oğlundan savayı heç bir şey görmür, İosifin əllərinin sərtləşmiş dərisi isə mehriban göyərçin morzesini qətiyyən duymur.

Onlar Məbədin içinə on üç keçiddən biri vasitəsiylə daxil olacaqlar, onların hər birinin üstündə yunan və latın dillərində qısa yazılar var və bu yazılar xəbərdar edir ki, heç bir bütpərəst və başqa dindən olan şəxs ölüm təhlükəsi altda bu kandardan ötüb, Məbədi əhatə eləyən hasardan o üzə keçə bilməz. Onlar içəri girir, İsanı da aparırlar – az sonra oradan sağ-salamat qayıdacaqlar, lakin biz artıq bilirik, göyərçinlər geri dönməyəcək: onların qismətinə ölmək yazılıb, çünki bunu Qanun yazır; onlar ölməlidir ki, Məryəmin təmizlənməsi baş tutsun. Hər hansı bir şəbədəçi, sayğısız və o qədər də orijinal olmayan Volter davamçısı indi tikanlı-tikanlı deyərdi ki, yəqin, göyərçin kimi, quzu kimi günahsız və ziyansız məxluqlar yalnız ona görə yaşayırlar ki, dünyanın təmizliyi keşiyində dursunlar. İosif və Məryəm isə daha dörd pillə qalxıb, nəhayət ki, Məbədin ucaldığı səkiyə çıxırlar. Bura Qadın Həyətidir: sol tərəfdə yağ və çaxır anbarı, sağda nazorilərin yataq otaqlarıdır – levilər qəbiləsinə aid olmayan ruhanilər belə adlanırdı: nazori əhdi edənlər başlarını qırxa, çaxır içə və

[1] *Morze* – rabitə kodu: ikili (qısa ilə uzun) siqnallarla kodlaşdırılmış əlifba

meyitə yaxınlaşa bilməzdilər. İrəlidə, üzbəüz girişin hər iki tərəfində isə xüsusi məkan var, orada təmizləndiklərini güman edən cüzamlılar durmuşdular, gözləyirdilər ki, ruhani onları nəzərdən keçirsin və qurbanlıq tonqallar üçün odun da elə orada saxlanır, özü də hər bir odun parçası hər gün yoxlanılır, çünki məqsədlər üçün çürük, ya da qurdlu ağac – bu, qətiyyən yaramaz. Məryəmə cəmi bir-neçə addım atmaq qalıb. Budur, artıq o Nikanor darvazalarına aparan, yarımdairə şəklində olan on beş pillə ilə qalxır və orada mütləq dayanacaq, çünki İsraillilər Həyətinə qadınlar buraxılmır; həyətə çıxan qapıların birinin önündə isə levilər qurbanlıq gətirənləri gözləyirlər, lakin buradakı atmosferdə zahidlik ruhu qətiyyən yoxdur, amma, bəlkə də, o zamanlar bu anlayış tamam başqa şeyləri ehtiva edirdi – bura tüstü-dumanlı, hisli-paslıdır, havasından yanmış piy və təzə qan iyi gəlir, burada insan səsləri ilə ölümünü gözləyən heyvanların nərilti, böyürtü, mələrtisi birbirinə qarışıb; bir zamanlar quruldayan quşun boğazından çıxan sonuncu xırıltı da buradadır. Məryəm Leviyə deyir ki, paklaşma mərasiminə gəlib, İosif göyərçinləri ona verir. Qadın bircə anlıq quşlara toxunur və onun bu hərəkətindən sonra əri ilə ruhani elə o dəqiqə qapının arxasında görünməz olurlar. Əri qayıdana kimi Məryəm yerindən tərpənməyəcək, o yalnız bircə addım kənara çəkilir ki, başqalarına mane olmasın və oğlunu qucağına alıb gözləyir.

Orada, bu qapının dalında isə qırğındır, kəshakəsdir. İki böyük daş masanın üstündə qurbanlıq heyvanları – danaları və buzovları, qoyunları, çəpişləri və keçiləri soyurlar. Masaların yanında üstündə qurğuşun qarmaqları olan sütunlar durur, artıq soyulmuş heyvanlar bu qarmaqlardan asılır və bıçaqlar, dəhrələr, qəmələr, baltalar, xırda dişli mişarlar və sallaqxana arsenalının digər silahları onların üzərində divanə bir rəqsə başlayır və yanan dərinin hisi, tüstüsü, tər və qan buxarları havaya hopub; odur ki müqəddəslik iddiasında olmayan sadə insanın ruhu heç cür dərk edə bilməz ki, əgər



Tanrı, həqiqətən, bütün məxluqların, həm insan, həm də heyvanların atasıdırsa, bu qırğına necə sevinə bilər. İosif İsraillilər Həyətini Ruhanilər Həyətindən ayıran məhəccərin çöl tərəfində durmalıdır, amma elə oradan da uzunu dörd adam boyundan artıq olan mehrab əla görünür – məbəd adını həqiqətən doğruldan yer ancaq buradır, zira bütün bunlar həmin zamanlarda Çində düzəldilən, bir-birinin içinə girən tapmaca qutulara çox bənzəyirdi və həqiqətən də, uzaqdan baxsaq, deyərik ki, bura Məbəddir; Bütpərəstlər Həyətinə girsək, yenə deyərik ki, Məbəddir və indi dülgər İosif də oyma məhəccərə söykənib elə həmin sözü deyir:

Bura Məbəddir, lakin indi belə deməyin yeri var. Budur, onun ortasında yerləşən, yunan tərzində kapitel-akantalarla bəzədilmiş dördsütunlu fasadı və giriş qapısı, ya darvazası deyil, keçidi var – Tanrının məkanına keçidi və əgər biz sizinlə bütün qadağalara rəğmən Müqəddəs Məkandan ötüb içəri keçsək, "Müqəddəsin Müqəddəsi" adlandırılan sonuncu qutunu da görəcəyik; adamın canına üşütmə salan daş otaq, Kainatın özü kimi boş, pəncərəsiz olduğundan gündüz işığı görməyən bir otaq... Günəş şüaları ora yalnız dağıntı anı yetişəndə düşəcək və onda da hər şey artıq daş xarabazarlığa çevriləcək və daşların hamısı bir-birinə bənzəyəcək, heç cür fərqləndirə bilməyəcəksən. Tanrı nə qədər əlçatmazdırsa, bir o qədər Tanrıdır, dülgər İosif isə yalnız buradakı çoxsaylı körpələrdən birinin atasıdır və o – körpəni yox, təbii ki, atasını nəzərdə tuturuq – iki günahsız göyərçinin ölümünü öz gözləriylə görəcək – çünki günahsızlığı ilə göyərçinlərdən heç də geri qalmayan körpəsi indi anasının qolları üstündə uzanıb və əgər bacarsaydı, mütləq düşünərdi ki, qədəm basdığı dünya yalnız hal-hazırda gördükləridir və bu dünya elə necə varsa, əbədilik eləcə də qalacaq.

Bura, bu müqəddəs məkana mədəndən çıxdığı kimi yerləşdirilən yonulmamış daşlara dəmir heç vaxt dəyməyib;

mehrab bu daşlardan düzəldilib, onun lap qarşısında isə əynində bez xiton olan ayaqyalın ruhani durub, levinin əlindəki göyərçini ona verməsini gözləyir. Budur, quşlardan birini alır, mehrabın küncünə tərəf aparır və orada əlinin bircə hərəkətiylə başını bədənindən ayırır. Qan sıçrayır. Ruhani həmin qanla mehrabın aşağı hissəsini isladır, sonra başsız bədəni xüsusi novçaya qoyur ki, bütün qanı ora axsın: sonra, ayin bitəndən sonra o, göyərçini özünə götürəcək. İkinci quş isə daha böyük şərəfə nail olub yandırılma mərasiminin qurbanına çevriləcək. Müqəddəs alovun yandığı məkana qalxan ruhani, elə mehrabın həmin tərəfində, amma əks, cənub-qərb istiqamətindəki küncündə – birinci qurban həyatıyla cənub-şərq səmtində vidalaşmışdı – göyərçinin başını üzür, qanını kənarları qoç buynuzları şəklində naxışlarla bəzədilmiş səkiyə damcıladır və içalatını çıxarır. Heç kəs fikir vermir – bu ölüm çox cılız, əhəmiyyətsizdir və yalnız İosif başını qaldırıb, ümumi tüstü-dumanın içində öz qurbanının tüstüsünü seçməyə çalışır, ruhaninin üzərinə məxsusi duz səpib yandırdığı ətin qoxusunu duymağa çalışır, lakin inanmıram ki, bizim dülgər buna nail ola – alovun dəli rəqs elədiyi tonqalda yanan, içalatı çıxarılmış cəmdək o qədər miskin və xırdadır ki, heç Tanrının dişindəki bircə oyuğu belə doldura bilməz. Aşağıda, qurbangahın dibində isə artıq üç ruhani gözləyir. Dəmir qarmaqdan aldığı zərbə bir dananı yerə yıxır – Aman, İlahi, biz nə qədər zəifik, Sənin iradənlə nə qədər asan ölürük! İosifin daha burada işi yoxdur, getmək, arvadını, oğlunu aparmaq vaxtıdır. Məryəm təmizləndi – təbii ki, əsl təmizlənmədən söhbət gedə bilməzdi; ümumiyyətlə, insanların, xüsusilə də qadınların buna ümid bağlamaları tamam mənasız şeydir, söhbət yalnız ondan gedir ki, qadın doğuşdan sonra bəlli müddətini başa vurub və artıq hər şey əvvəlki kimidir, yer üzündə iki göyərçin azaldı, bir oğlan artdı. Onlar girdikləri qapıdan da çıxdılar; İosif eşşəyini geri aldı və Məryəm yolun kənarındakı daşın üstünə



çıxıb heyvanın belinə qalxaraq yerini rahatlayana kimi atası oğlunu qucağında saxladı – bu, ilk dəfə deyildi, lakin indi, göyərçinin içalatını necə çıxardıqlarını hələ yaxşı xatırladığından uşağı anasına qaytaranda, bir az ləngitdi, sanki, fikirləşirdi: övladı ata əllərindən yaxşı heç nə qoruya bilməz. O, ailəsini şəhər divarlarına kimi ötürüb təzədən Məbədə – iş başına qayıtdı.

Tam həftə alınsın deyə sabah bura sonuncu dəfə gələcəkdi, sonra isə bir saniyə belə ləngimədən evə, Nazaretə yollanacaqdılar.

Elə həmin gecə də, nəhayət, Mixey peyğəmbər nə vaxtdan bəri açmadığı mətləbi anlatdı. Bu zaman artıq gecə əzablarına adət eləyərək dözməyə alışan çar İrod gözləyirdi ki, Mixeyin kabusu, çox təkrar olunduğundan artıq təsir gücünü itirmiş həmişəki ifşaedici sözlərini deyib yox olacaq və mövcudluğundan şübhələndiyi dəhşətli öncəgörmələri dodaqlarından yenə də qopmayacaq, lakin bu dəfə qəflətən təzə, gözlənilməz sözlər səsləndi: sən, ey Vifliyem, minlərlə İudeya məskənləri arasında çox kiçikmisən? Səndən doğacaq mənə İsrail Hökmdarı. Elə həmin an çar İrod oyandı, amma onun yataq otağında peyğəmbərin kəlamları, sanki, ecazkar musiqi alətinin simindən qopan sürəkli, susmaq bilməyən səs təki eşidilirdi. İrod bu öncəgörmədə gizlənmiş sirli məqamlar üzərində düşünərkən, daha gözlərini yummadı və indi düşüncələri o qədər dərin idi ki, hətta, elə bil, dərisinin altında qaynaşan qarışqaları, bədəninin ən məhrəm yerlərində diri-diri çürüyən ətinə daraşmış qurdları da unutdu. Bu öncəgörmədə, bu peyğəmbərlikdə onun üçün yeni bir şey yox idi, o da hər bir mömin iudey kimi bunları bilirdi; lakin heç vaxt qədim peyğəmbərlərin öncəgörmələri üzərində baş çatlatmağa zaman sərf etməyi faydalı bir iş saymırdı, məgər reallıqda baş verən hadisələrin qapalı məqamları ona bəs eləmirdi? Macal tapıb, özünə qarşı yönələn qəsdlərin üstünü açmaq – onun əsas işi bu idi.

İndi isə onu narahat edən və ruhunu qəribə bir nigarançılıqla əzən tamam başqa şey idi; nigarançılığı bu sözlərin səsləndiyi ahəngdən, daha doğrusu, sözlərin əks-sədasından qaynaqlanırdı, sanki, sözlər təkcə daşıdıqları birbaşa mənanı ehtiva etmir, həm də yaxın və qarşısıalınmaz, dəhşətli təhlükədən, tezliklə yetişəcək və labüd bəladan xəbər verirdi. Bu qarabasmanı qovmağa, yuxuya getməyə çalışırdı, lakin bədəni sözünə baxmır, qəlbi isə vücudunun ən dərinliklərindən qalxan dərdə yenə də açılırdı, odur ki bu barədə düşünüb mülahizə yürütməyin özü də indi onun üçün müdafiə vasitəsi idi. Gözlərini tavana dikdi – işığı azaldan lövhələrin boğduğu məşəllərin nurunda tavanın oyma bəzəkləri, sanki, canlandı, hərəkətə gəldi – çar İrod axtarır, amma cavab tapa bilmirdi. Sonra o yuxusunun və yuxusuzluğunun keşiyində duran baş xacəni səslədi və əmr etdi ki, təcili – lap elə bu dəqiqə! – yanına Məbəddən ruhani gəlsin və peyğəmbər Mixeyin də kitabını özüylə gətirsin.

Təcili alınmadı: saraydan Məbədə, Məbəddən saraya çatana kimi, demək olar ki, düz bir saat keçdi və ruhanini çarın yataq otağına salanda hava artıq işıqlaşırdı.

– Oxu! – çar İrod əmr elədi və o başladı:

– Mixey Morasfiliyə İudey çarları İoafam, Ahaz və Ezekia dövründə... – və bu minvalla mətnin davamı, ta ki, İrod onu qışqırığıyla dayandırdı:

– Ardını, ardını oxu!

Günün bu vaxtında saraya nə üçün çağrıldığını heç cür anlaya bilməyən ruhani başqa parçaya keçdi:

– Qanunsuzluq törədənləri, öz yatağında şər əməllər düşünənləri bəla gözləyir – bu yerdə duruxdu, qorxdu ki, bu qeyri-ixtiyari səhvi ona baha başa gələ və çaşdı, sonra da, sanki, dilindən indicə çıxan qorxulu sözlər tez unudulsun deyə haradan gəldi, oxumağa başladı:

– Son günlər belə olacaq: Tanrı evinin dağı, dağların ən ucası qalacaq və bütün təpələrdən üstə yüksələcək və xalqlar sel kimi axacaq ona sarı.



– Sonra! Sonrasını oxu! – İrod nərildədi, ruhaninin bura çağrılmasına səbəb olmuş məhz o parçanı eşidə bilmədiyindən əsəbiləşirdi və biçarə ruhani, nəhayət ki, həmin yerə də çatdı:

– Sən Vifliyem-Efrava, minlərlə İudeya məskənləri arasında çox kiçiksənmi? Səndən çıxacaq mənim üçün İsrail Hökmdarı.

– Təkrar elə! – İrod əlini qaldırıb nərildədi və ruhani tabe oldu. – Bir də oxu! – o, bir daha oxudu. – Bəsdir daha, – çar uzun sükutdan sonra dilləndi, – gedə bilərsən.

Hər şey aydınlaşmışdı: kitab kiminsə doğulacağından xəbər verirdi, peyğəmbər Mixeyin görünməsi isə bu hadisənin artıq baş verdiyinin müjdəsi idi. "Səndən çıxacaq mənim üçün", – hər şeyi lap aydın deyirdi, bütün peyğəmbərlər kimi; o, bizik, yozmağa başlayanda aşkar sözləri də dolaşdırırıq. İrod fikirləşir, fikirləşirdi və üzünün ifadəsi get-gedə daha çox tündləşir, rəngi boğulurdu, indi onu görən hər kəsi dəhşət bürüyərdi və çar, nəhayət ki, qarovul rəisini yanına çağırtdırdı, icrası təcili olan əmr verdi. O isə bir azdan hökmdarın yanına qayıdanda iradəsinin yerinə yetirildiyi haqqında məlumat verdi və çar ona tamam başqa əmr verdi – səhər üçün. Tezliklə biz söhbətin nədən getdiyini öyrənəcəyik, amma həmin o ruhaniyə nə bu kiçik zaman kəsiyini yaşamaq, nə də saraydan Məbədə qayıtmaq nəsib deyildi – yolda onu kimliyi bəlli olmayan döyüşçülər öldürmüşdülər. Belə güman etməyə əsas var ki, İrodun birinci əmri məhz bu barədə idi, çünki mümkün səbəblə məntiqi nəticə bir-birinə çox yaxındır. O ki qaldı peyğəmbər Mixeyin kitabına, o da elə həmin gün izsiz-soraqsız yoxa çıxdı. Təsəvvür eləyin ki, əgər həmin kitabdan cəmi bir nüsxə olsaydı, bəşəriyyət üçün necə misilsiz itki olardı.

* * *

Ayaqüstü nahar bitmişdi, onbaşı isə camaatı hələ iş başına göndərməmişdi deyə neçə-neçə dülgərdən biri olan İosif oturub dincələ bilərdi, hətta gözlərini yumub uzana da bilərdi, xoş düşüncələrinin sakit axarına düşə də bilərdi və təsəvvüründə canlandıra bilərdi ki, guya, Samariya dağlarından o üzdəki yolla gedir, daha yaxşısı isə – gözlərinin qabağında canlandırardı ki, artıq zirvədə durub ürəkdən darıxdığı doğma Nazaretinə baxır. Amma onun ruhu indi xoş nəğmə oxuyurdu və İosif öz-özünə deyirdi ki, budur, uzun hicranın son günü yetişdi, çünki səhər tezdən, dan yeri söküləndə göylərin qatı zülmətində təkbaşına yanacaq Çobanulduzundan savayı bütün ulduzların nuru solanda addımlarımızı yönəldən və evlərimizi hifz edən İlahi Pərvərdigara alqış yollayaraq yola çıxacaq. Silkindi, gözlərini açdı – ona elə gəlmişdi ki, yuxuya gedib, işin başladığını bildirən fitin səsini eşitməyib, amma yox. Həqiqətən, onu azacıq mürgü aparsa da, yoldaşları yanındaydı hələ – kimi dincəlir, kimi əngə verirdi, onbaşı isə elə bir görkəmlə oturmuşdu, sanki, bu günü istirahət elan edəcəkdi və öz ürəyigenişliyindən də qətiyyən təəssüflənməyəcəkdi. Günəş artıq zenitdə idi, küləyin qısa, lakin güclü dalğaları qurbangahın tüstüsünü əks tərəfə qovurdu və bura, cıdır meydanının inşa edildiyi bu çökəyə hətta Məbəddə alver edənlərin belə hay-küyü yetişmirdi; adama elə gəlirdi ki, zamanın bütün təkərləri, dişli və nazim çarxları indi yerində donub Kainatın ənginliklərinə, bütün era və dövrlərə nəzarət eləyən böyük Onbaşını gözləyir. Lakin bir an qabaq son dərəcə xoşbəxt və qayğısız olan İosifin içini qəflətən qəribə narahatlıq sardı və o, ətrafına boylandı ki, bunun səbəbini araya; ətrafda isə hər şey elə bayaqkı kimi idi, bütün bu həftələr ərzində artıq adət elədiyi kimi taxta qurğular, daşlar, ağaclar, daşdoğrayan dəzgahların yanındakı bəyaz toz, yandırıcı günəşin şüaları altında belə, uzun

müddət yaş qalan taxta yonqarı... O, bu qəfil, boğucu sıxılmadan çaş-baş qalıb, halının belə dəyişməsinə, indiki məyusluğuna izah tapmağa çalışdı; əvvəlcə fikirləşdi ki, yəqin, bu, başladığı işi sona çatdırmadan, yarıyolda buraxmağa məcbur olan hər bir kəsin içindəki təbii hissdir, hətta əgər bu iş sənin deyilsə və onu yarımçıq qoymaq üçün çox əsaslı və qanuni səbəblərin varsa belə. O ayağa qalxdı, ehtiyatda nə qədər vaxtı olduğunu fikirləşirdi, onbaşı isə ona tərəf heç çönmədi də; Məbədin tikintisində çalışdığı yerlərə tez baş çəkib, yoldaşlarıyla sağollaşmaq qərarına gəldi, necə deyərlər, yonduğu tirlər, rəndələdiyi taxtalar, sığallayıb yerinə oturtduğu çivlərlə vidalaşırdı – bu cəsarətli təşbehə görə üzr istəyirəm, amma o, indi kiminsə yeyəcəyi balı özününkü sayan arını xatırladırdı.

Vida mərasimini başa vurandan sonra artıq öz işinə qayıtmağa hazır idi, amma bir an da ləngidi, qarşıdakı təpədə pillə-pillə ucalan şəhərə hayıl-mayıl oldu, çoxpilləli, tikildiyi bişmiş kərpicdən rəng alan, qızarmış kömbə kimi şəhər və budur, yəqin, onbaşı artıq onu çağırır, lakin İosif tələsmir – o, şəhərə baxaraq gözləyir, nəyi gözləyirdi – bəlli deyildi. Bir müddət keçdi – heç nə baş vermədi və o, dodaqaltı elə mızıldandı, sanki, nəyləsə barışır, nədənsə imtina edirdi: "Yaxşı, getmək lazımdır", – həmin an, onun durduğu yerin düz altından keçən yolda səs ucaldı və İosif daş divarın böyründən boylananda üç döyüşçü gördü. Onlar, təbii ki, yoldan ötürdülər, amma indi ayaq saxlamışdılar: ikisi əlindəki nizələrinin dəstəsini yerə söykəyib üçüncüsünə qulaq asırdı – həmin o üçüncü, görkəmindən yaşlıya oxşayırdı, bəlkə də, rütbəsi onlarınkından daha yüksək idi, lakin bu barədə dəqiq fikir yürütmək üçün gərək həmin ulduzların, dördbucaqlıların, xətlərin və tikmələrin kəmiyyəti, yeri və növündə gizlənən sirli mənaya vaqif olasan. İosifin qulağına dəymiş anlaşılmaz sözlər isə həmin o üç nəfərdən biri tərəfindən verilmiş sual idi:

– Bəs nə vaxt?

Bu sualın cavabı isə artıq tamam aydın səslənirdi:

– Saat üçdən ötən kimi, hamı evdə olanda.

Sonra bir də soruşdular:

– Neçə nəfər göndərəcəklər?

Yenə cavab eşidildi:

– Hələ bilmirəm, amma şəhərciyi tam mühasirə etmək lazım olacaq.

– Yəni hamısını?

– Yox, hamısını yox, iki yaşdan aşağı olanları.

– İndi gəl bundan baş çıxar, görüm necə çıxarırsan: iki yaşı var, yoxsa artıq üç olub, – bunu birincisi dedi.

– Cəmi neçə nəfər alınır? – bunu öyrənməyə çalışan ikincisi idi.

– Siyahıya görə – təxminən, iyirmi beş eləyir, – böyükləri cavab verdi.

İosif gözlərini elə bərəltmişdi ki, qulaqlarına inanmaq istəmədiyi üçün, sanki, eşitdiklərinin mənasını dərketmə prosesinin gözlərindən gələcəyinə inanırdı və onun bədənindən bir anda möhkəm üşütmə keçdi; aydın olan bircə məqam vardı: bu döyüşçülər kimlərisə öldürməyə gedəcəkdilər. "Amma kimləri, axı kimləri?" – çaşqınlıq içində özü özündən soruşurdu, "yox, elə deyil, adamları yox, uşaqları öldürəcəkdilər, bəs uşaqlar məgər adam deyil? İki yaşdan aşağı uşaqları" dedi bu kapral, serjant, katib-kaptenarmus, ya nə bilim, kim; bəs görəsən, harada, harada olacaqdı bu? – axı İosif divardan sallaşıb soruşa bilməzdi ki: "Ey, uşaqlar, harada müharibə eləmək fikrindəsiniz?"

Üçüncü döyüşçü bir də dillənəndə İosifin alnından soyuq tər sel kimi axdı, dizləri əsdi:

– Tanrıya şükür ki, nə biz özümüz, nə də ki, oğullarımız Vifliyemdə yaşamır.

– Heç olmasa, bəllidir ki, bizi niyə Vifliyemdəki körpələri öldürməyə göndərirlər? – birinci nizəli soruşdu.

– Yox, bəlli deyil. – Hətta görünür, heç rəislər də bilmir bunun səbəbini – Çarın əmridir – vəssalam.

Nizəsinin ağacını yerdə gəzdirib, sanki, taleyin mübhəm işarələrini torpaq üstə çızan döyüşçü dedi:

– Bəla gələcək başımıza, dərd gələcək, guya, adama həyatda özünün törətdiyi bəd əməllər azlıq edir, hələ bir başqasının şər işlərini də sənin əlinlə eləyirlər.

Lakin İosif artıq bu sözləri eşitmirdi, o, sakitcə oradan aralandı, sanki, kiminsə görünməz əliylə aparıldığı həmin o daş divardan aralandı, sonra isə arxasına belə baxmadan keçi cəldliyi ilə daşların üstündən tullanıb qaçmağa başladı; və bu döyüşçülərin dilindən indicə çıxmış dəqiq fəlsəfi postulat onun həqiqətən söyləndiyini və məhz bu sözlərlə söyləndiyini təsdiq edəcək bir kimsənin ortada olmaması, bu faktın özünün belə baş verməsini böyük şübhə altına alırdı, xüsusilə də əgər bu kəlamın aşkar orijinallığı və həsəd aparılacaq dərəcədə dərin olması ilə onu səsləndirən şəxsin miskin sosial mahiyyəti arasındakı misilsiz ziddiyyət nəzərə alınsa, həqiqətən, orada deyilənə heç oxşamırdı.

Qarşısına çıxan bütün maneələri yel kimi süpürləyib kənara atan, piştaxtaları, xırdavat qutularını aşıran, qurbanlıq göyərçinlərin qəfəslərini və sərrafların masalarını çevirən, arxasınca yollanan qəzəbli qışqırtıları eşitmədən yüyürən İosif yel kimi uçur və onun qızmış beynində həmin an bircə fikir dolaşırdı – onun oğlunu axtarırlar, öldürmək üçün axtarırlar və heç səbəbi də bəlli deyil. Biz, gəlin razılaşaq ki, bu kolliziya dramatizmlə ağızbaağız doludur: biri körpəyə həyat verib, o birisi həmin həyatı almaq istəyir və bu iki istəyin biri elə o birisinə dəyərdi – yaratmaq və dağıtmaq, bağlamaq və açmaq, ucaltmaq və yıxmaq. Birdən o, ayaqları yerə mismarlanmış kimi dayanır, belə dəli qaçışın necə böyük təhlükə yarada biləcəyini qəflətən dərk edir; bir də gördün, saray gözətçiləri peyda oldular, onu tutub apardılar, hələ yaxşı ki, bayaq törətdiyi dağıntıları görməmişdilər. Beləliklə, imkan dairəsində heç



kəsdən fərqlənməməyə çalışan İosif saman çuvalında iynəyə döndü; elə o dəqiqə də simasız, adsız birisinə çevrildi, indi onun ətrafdakılardan yeganə fərqi bir az sürətli getməyində idi, lakin buna da o basabasda fikir verən kim idi ki.

O bilirdi, şəhər divarlarından çıxana qədər qətiyyən qaçmaq olmaz, lakin beynini bir fikir gəmirir, ona heç rahatlıq vermirdi – nizə, qəmə və səbəbsiz bir qəzəblə silahlanmış əsgərlər artıq yoldadırlar və əgər piyada yürüşüylə səf çəkib gedirlərsə, yaxşıdır, lakin süvaridirlərsə, indi yortma sürürlərsə, dəhşətdir; yol da tərs kimi üzü enişədir, at belində gəzinti kimi gələr onlara və əgər belədirsə, dəstəyə heç cür yetişmək olmaz və mənim oğlum həlak olacaq, mənim zavallı oğlum, bədbəxt oğlum, sevimli oğlum, mənim bircə dənəm, İsam; və həmin an təzə fikir, sarsaq, söyüş kimi ləyaqətsiz bir fikir İosifin şüuruna təhqiramiz tərzdə, çağırılmamış soxulur: maaş, bir həftənin maaşı batdı; nifrətəlayiq mənfəətpərəstliyin, alçaq maraqların insan üzərində gücü o qədərdir ki, İosif dayanmasa da, addımlarını bir az səngitdi, sanki, şüuruna ölçüb-biçmək, götür-qoy eləmək fürsəti verirdi ki, bu iki məsələni hansı şəkildə uzlaşdırmaq olarsa, onu tapsın – necə deyərlər, həyatla pul kisəsinin arasında seçməsin, hər ikisini əlində saxlasın; lakin bu fikir yüngül, ötəri bir şey idi, yaranan kimi də yox olan, özü barədə heç iz qoymayan bir şey; bu səbəbdən İosif heç utanmağa da macal tapmadı – bu qədər tez-tez yaşadığımız, eyni zamanda, o qədər də tez-tez yaşamadığımız utanc hissi həmişə bizim ən etibarlı, ən səmimi qoruyucumuza, mehriban mələyimizə çevrilir.

Nəhayət, artıq şəhərin sərhədlərindən o üzdədir, yolda döyüşçülər gözə dəymir, lap göz işlədikcə baxsan belə, görünmürlər; darvazalardan qoşun hissəsi çıxsaydı, mütləq yolda bir canlanma olardı, lakin bunun ən dəqiq, ən yəqin əlaməti yol qırağında sakitcə oynayan uşaqlar idi: burada döyüşçü dəstələri təbillərin gurultusu, şeypur səsləri altda bayraqlarını açıb görünsəydi, oğlan uşaqları ruhlarındakı dünyanın

özü qədər qədim olan döyüş çağırışına tabe olaraq mütləq onların dalınca düşərdilər – yol kənarında bircə uşaq da qalmazdı – və döyüşçüləri, ən azı, yolun birinci döngəsinə kimi müşayiət edərdilər, oğlanların ən davakarı, ən igidi isə düz mənzil başına kimi gedib hər şeyi öyrənərdi, gələcəkdə onun nəsibinə düşəcək hər şeyi – öldürüb, ölməyi öyrənərdi.

İosif artıq yüyürə bilərdi – o qaçır, qaçırdı; yaxşı ki, yol da üzüenişə idi, öz xitonunun ətəklərinə dolaşa-dolaşa qaçırdı, hərçənd ki ətəklərini, az qala, dizinə kimi qaldırıb kəmərinə sancmışdı, lakin (yuxuda belə olur) üzücü hissiyyatlar hələ də yaxasından əl çəkmir, sanki, ayaqları bədəninin yuxarı qisminin tələblərini, yalvarışlarını yerinə yetirə bilmirdi – xilas etməyə, qorumağa tələsən qisminin, lakin heç cür çatdıra bilməyən ürəyinin, gözlərinin, başının, əllərinin yalvarışlarını. Onunla üzbəüz gələn insanlar ayaq saxlayır, dəli kimi qaçan bu adamı təəccüblü baxışlarıyla müşayiət edirdilər, mənzərə isə, həqiqətən, gözə yaman pis dəyirdi, çünki bu xalq təmkini, dəyanəti, özünü ağır aparmağı, yerişin və ümumiyyətlə, davranışın vüqarını həmişə uca tutur və İosifin bağışlanmasına yeganə səbəb o ola bilərdi ki – təbii ki, onun öz balasını xilas etmək üçün tələsdiyindən savayı – geyimindən qalileyalı olduğu aşkar bilinirdi, onlar isə, artıq dəfələrlə deyildiyi kimi, yonulmamış və kobud insanlar sayılırdılar. Budur, Rahilin məqbərəsi də arxada qaldı və yəqin, o heç vaxt güman etməzdi ki, öz ovladlarının halına ağlaması üçün, ətrafdakı qonur təpələri öz qışqırıqları və hönkürtülərıylə oyatmaq üçün, üzünü və yaxud ondan indiyə qalan nədirsə, onu cırmaq üçün, saçlarını əlçim-əlçim qoparmaq üçün, ya da lüt kəlləsini yaralamaq üçün bir zamanlar bu qədər əsaslı səbəbi olacaq. İosif hələ Vifliyemin ilk evləri görünməmişdən yoldan çıxıb, birbaşa tarlalarla yüyürürdü və əgər kimsə təəccüblənərək bu hərəkətinin səbəbini soruşsa, mütləq belə deyərdi: "Bu yol qısadır", amma yolun, həqiqətən, xeyli qısa olmasına baxmayaraq, zamin dura bilərik ki, həm də xeyli narahatdır. İosif öz

torpağında işləyən adamlarla rastlaşmaqdan yayınaraq çobanları görəndə daşların arxasına sinərək yolunu xeyli uzadır ki, özünü təhlükədən sığortalayıb mağaralarına mütləq çata bilsin; arvadı artıq onun yolunu gözləyirdi, oğlu isə gözləmirdi, çünki yatmışdı. Sonuncu təpənin ətəyinə çatanda və mağaranın qara dəliyi xatırladan girişi artıq görünəndə ürəyinə daha bir dəhşətli şey damdı: birdən Məryəm uşağı özüylə götürüb, təkliyindən istifadə edib Salomeya ilə, axır vaxtlarda tanış və dost olduğu yerli qadınlarla təsəlmədən, əməlli-başlı vidalaşmaq üçün kəndə gedər – bu axı qadınlara xas idi, onlar üçün son dərəcə səciyyəvi idi – mağaranın sahiblərinə təşəkkür etmək hüququnu və vəzifəsini isə ərinə saxlayar. İosifin gözləri önündə həmin an bir mənzərə canlanır; budur, o, Vifliyemin küçələriylə yüyürür, bir-bir evlərin qapılarını döyür, qışqırır: "Mənim arvadım burada deyil ki?!" – çünki iki aylıq körpəni xəbər almaq, həqiqətən, sarsaqlıq olardı və onun çaşqın görkəmini, özünə heç oxşamadığını görənlərin içində mütləq uşaqlı bir qadın tapılacaqdı ki, soruşsun: "Nəsə baş verib?" – o isə deyəcəydi: "Yox, elə bir şey olmayıb, sadəcə, sabah tezdən yola çıxırıq, gərək şey-şüyümüzü yığaq".

Buradan, yüksəklikdən Vifliyem tikilməkdə olan Məbədə bənzəyir, hər yana səpələnmiş daşlar isə, sanki, fəhlələrin gəlməsini, onları üst-üstə qoymasını, keşikçi qülləsimi, qələbələri əbədiləşdirən xatirə abidəsimi, ya da göz yaşı divarlarınımı ucaltmasını gözləyir. Uzaqda it hürür, o biri köpəklər də onun səsinə səs verirlər, lakin Vifliyem hələ qürub ərəfəsindəki son saatın qaynar sükutunun ağuşundadır, bu saat isə demək olar ki, artıq öz bərəkətini və gücünü itirməkdə, yarıunudulmuş xeyir-dua kimi, yüksəklikdə əriyən buludun sonuncu lələyi kimi əriyib yox olur...

İosif bir an hərəkətsiz qaldı, bu sözləri demək üçün bizə lazım olandan da az müddətdə. Sonuncu sıçrayış – və budur, o artıq mağaranın qapısında idi və arvadını çağırırdı:

– Məryəm, buradasan?



Qadın dərinlikdən hay verəndə duydu ki, ayaqları necə əsir, dizləri necə qatlanır – o dəli qaçışdan, həm də bu xoşbəxt sarsıntıdan: oğlu sağ-salamatdır. Mağarada isə Məryəm şam yeməyi üçün tərəvəz doğrayırdı, körpə öz axurunda yatmışdı. İosif gücsüz halda yerə çökdü, lakin elə həmin an özünə güc eləyib, bir də qalxdı:

– Biz gedirik, biz gedirik.

Məryəm heç nə anlamayaraq ona baxdı:

– Gedirik? – soruşdu və onun cavabını aldı:

– Hə, hə, indi gedirik.

– Axı sən deyirdin...

– Sus! – o arvadının sözünü kəsdi, – tez şey-şüyü yığ, mən eşşəyi çullayıram.

– Gəl, heç olmasa, əvvəl yeməyimizi yeyək.

– Yolda yeyərik.

– İndicə hava qaralacaq, gecəgözü hara gedirik axı, azarıq.

İosif çığırdı:

– Sus dedim, nə deyirlər, onu da elə!

Məryəmin gözlərində yaş gilələndi – ilk dəfəydi ki, əri ona səsini ucaldırdı, kirimişcə şey-şüyü toplamağa başladı.

– Tez ol, əlli tərpən, – İosif onu tələsdirirdi, özü isə həmin vaxtda uzunqulağı noxtaladı, çulladı, tapqırlarını necə gəldi çəkib, əlinə keçəni yəhər xurcunlarının içinə doldurdu, Məryəm isə ərini tanıya bilmir, təəccüblənirdi.

Onlar artıq yola çıxmağa tam hazır idilər – bircə ocağın üstünə torpaq tökmək lazım idi ki, İosif qəflətən arvadına yerində qalmasını tapşırıb qapının ağzına atıldı, bayıra boylandı. Alatoranın külü həm yer, həm də göy üzünə səpilmişdi, indi onları bir-birindən fərqləndirmək olmurdu. Günəş hələ tam batmamışdı, amma bu qəliz pərdə ətraf tarlaları görmək imkanı verəcək qədər yüksəkdə olsa belə, günəş şüalarını heç keçirmirdi. İosif diqqət kəsilmişdi, irəliyə bir-iki addım atdı, qulaq asdı və həmin an başının tükləri qabardı:

Vifliyemdən qışqırıq qopdu və bu qışqırıq o qədər tükürpədici idi, sanki, insandan çıxmırdı; elə o dəqiqə də – həmin qışqırığın əks-sədası ətraf təpələrdən çəkilməmiş, yeni hönkürtü və çığırtı partlayışı fəzanı ağuşuna aldı, amma yox, bu, bəlaya tuş gəlmiş adamların halına ağlayan mələklərin səsi deyildi, ağlını itirmiş insanların bomboş göylərə yönəltdiyi yalvarışlar idi. İosif astaca, addımlarının səsini kiminsə eşidə biləcəyindən qorxurmuş kimi, mağaranın dərinliklərinə çəkilərkən onun qadağasını pozmuş Məryəm ilə toqquşdu – arvadı başdan-ayağa əsim-əsim əsirdi.

– Bu nə qışqırıqlardır? – qadın soruşdu, İosif isə cavab verməyərək onu mağaranın içərisinə çəkdi və ocağı torpaqlamağa başladı. – Bu nə qışqırıqlardır? – mağaranın zülmətində görünməz olan Məryəm bir də soruşdu, o isə bu dəfə əvvəl sussa da, sonra dilləndi:

– Adamları öldürürlər, – yenə bir az da dinmədi və dəhşətli bir sirr açırmış kimi əlavə elədi – uşaqları öldürürlər, çar İrod belə əmr eləyib – və səssiz, göz yaşında görünməyən bir hönkürtünün qəhəri onu boğdu, lakin özünü ələ alıb sözünü bitirdi, – elə ona görə qaçmaq istəyirdim.

Əvvəlcə saman, sonra bələk xışıldadı – bu, Məryəm idi, oğlunu axurdan çıxarıb sinəsinə sıxmışdı:

– İsa, səni öldürmək üçün axtarırlar... – sonuncu kəlməsini ağlamaq qırdı.

– Sus, – İosif dedi, – səsin çıxmasın, ola bilər ki, döyüşçülər heç bura gəlməsinlər, onlara tapşırılıb ki, Vifliyemin iki yaşa qədər olan bütün körpələrini öldürsünlər.

– Bəs sən necə xəbər tutdun bundan?

– Söhbətlərinə qulaq asdım, Məbədin yanında, o dəqiqə də qaçıb gəldim.

– Bəs indi biz nə edək?

– İnanmıram ki, onlar buralardakı bütün mağaraları ələkvələk eləyələr, onlara əmr verilib ki, evləri gəzsinlər, dua elə ki, bizi satan olmasın, onda qurtularıq.



O, yenə bayıra boylandı: qışqırtılar səngimişdi, indi yalnız ağlamaq səsləri gəlirdi, bu, o demək idi ki, körpələrin qətli artıq başa çatmışdı. Göy üzü elə bayaqkı kimi tutqun idi – yetişməkdə olan gecənin qaranlığı və duman pərdəsi indi Vifliyemi səmada yaşayanların gözlərindən möhkəm gizləmişdi.

– Burada qal, – İosif dedi, – yola tərəf gedim, görüm döyüşçülər çıxdılar, yoxsa yox.

– Ehtiyatlı ol, – Məryəm dilləndi.

Elə bil, dərk etmirdi ki, əri üçün heç bir təhlükə yoxdur, çünki ölüm Vifliyemin kişi cinsindən olan, sinni yalnız iki yaşdan aşağı əhalisini aparmağa gəlmişdi – əgər əsgərlərin gedib-getmədiyini bilmək üçün İosif kimi yola çıxmış bir kimsə onu satmasa, deməsə ki, bax, bu da dülgər İosifdir, onun İsa adında oğlunun isə hələ heç iki ayı tamam deyil və həmin o öncəgörmədə də – biz özümüz onu nə oxumuşuq, nə də bilirik – yəqin, elə onun haqqında deyilir ki, oğullarımıza çar çələngi hazırlanıb, axı bizim uşaqların, onsuz da, hamısını artıq qırmısınız, onlar olmayacaq ki.

Mağarada elə qatı zülmət vardı ki, lap barmaqlarını ona toxundura bilərdin. Mariya qaranlıqdan qorxurdu, uşaq vaxtından öyrəncəli idi ki, evin içində daim ya ocaq yanar, ya çıraq, ya da hər ikisi birdən və indi içində getdikcə güclənən elə bir hissiyyat vardı, sanki, diri-diri torpağa basdırılmışdı və zülmətin barmaqları elə indicə boğazından yapışacaqdı.

Ərinin qadağasını pozub, oğlunu təhlükəyə məruz qoyub, mağaradan çıxa bilməzdi, lakin qorxu saniyəbəsaniyə artır, ehtiyatın çat vermiş divarlarını uçurmağa hazırlaşırdı və o, indi özünü əbəs yerə tamam başqa şeylərə inandırmağa çalışırdı:

"Əgər işıq yananda burada heç bir şey yox idisə, deməli, indi də yoxdur"; lakin gözləmədiyi halda bunun da köməyi oldu və qadın əlləriylə axuru tapıb oğlunu yerinə qoydu, sonra da, az qala, imək-läyə-imək-läyə ocağa yaxınlaşdı, çırpı

ilə közlərin üstündəki torpağı təmizlədi və bir neçə közərən odun görəndə, qorxu hissi onu birdən tərk etdi – səbəbi bəlli deyildi, amma yadına gil kasadakı torpaq düşdü, elə bu cür titrək, sayrışan işıqlı, içindən qəfil qığılcımlar keçən torpaq, sanki, dağın təpəsində kimsə əlindəki məşəli başının üstünə qaldırıb, yelladır, ya da oyan-buyana qaçırdı. Gözləri önünə dilənçinin obrazı gəldi, elə o dəqiqə də yox oldu – mağaranı işıqlandırmaq ehtiyacı onun obrazını sıxışdırıb gözlərinin önündən qaçırdı. Məryəm elə bayaqkı minvalla – yerə sinəsinə axurun yanına qayıtdı, samanı əliylə eşib bir çəngə qopardı, torpağın azacıq ağardığı bayaqkı yerə, ocağın yanına döndü və mağaranın ən uzaq küncündə, bayırdan baxan kimsəyə görünməz olan guşədə birləşən divarlara hisli çıraq işıq saldı və bu tutqun, öləziməkdə olan işıqla bir yerdə onun vücuduna sakitlik çökdü. Məryəm yenə axura yaxınlaşdı, oğlu bayaqkı kimi sakitcə yatmışdı, bütün qorxulara, sarsıntılara, bayırda tüğyan edən zorakı ölümlərə biganə idi; onu qucağına aldı və azacıq işıq düşən küncdə yerə çöküb gözləməyə başladı. Bir müddət keçdi, uşaq oyandı, ağlamsınaraq üzünü qırışdırdı, lakin artıq analıq elmini öyrənmiş Məryəm körpənin ağlamasına imkan yaratmadı; paltarının yaxasından döşünü çıxarıb giləsini səbirsiz dodaqların arasına saldı. Bayırdan addım səsləri gələndə, beləcə oturmuşdular. İlk an Məryəmə elə gəldi ki, ürəyi dayanacaq – əsgərlər! – lakin addımlar dəqiq bir nəfərə aid idi, əsgərlər isə, bəllidir ki, tək-tək gəzmirlər, ən azı, ikisi olur; həm adət belədir, həm də nizamnamənin tələbləri; belə bir şəraitdə, axtarış aparanda isə – axtarış vaxtı əsgərlər bir-birini həm də arxadan qorumalıydı axı – bu lap vacib şərt idi. "Bu İosifdir", – deyə düşündü və qorxdu ki, çırağı yandırdığından üzü danlanacaq. Tələsmədən atılan addımların səsi yaxınlaşdı və budur, İosif içəri girdi, lakin birdən Məryəmi əsməcə tutdu – bu ağır, sərt addımlar ərininki ola bilməzdi, görünür, hansısa avara özünə bir gecəlik sığınacaq axtarırdı; əvvəllər iki dəfə

belə olmuşdu və Məryəm qorxmurdu, çünki təsəvvürünə belə gətirmirdi ki, kimsə, nə cür qəddar bir adam olsa belə, qucağında südəmər uşağı olan bir qadını incidə bilsin; lakin onda hələ xəbəri yox idi ki, bu gün Vifliyemdə qətlə yetirilən körpələrin çoxu da indi İsanın olduğu kimi, analarının qucağında idilər və qılıncın tiyəsi incə dərini kəsib bədənlərinə işləyəndə, elə onun kimi süd əmirdilər; lakin bu qılıncın qəbzəsi evsiz-eşiksiz avaranın deyil, çar əsgərinin əlində idi, bu isə, razılaşın ki, eyni şey deyildi. Yox, bu onun nə əri idi, nə şöhrət ehtimalını kiminləsə bölüşmək istəməyən, təkbaşına macəra axtaran əsgər, nə də evsiz-eşiksiz avara; yox, bu dəfə çoban qiyafəsində onun yanına həmin o şəxs gəldi ki, əvvəl də – həm birinci, həm də ikinci dəfə – dilənçi sifətində gəlmişdi, özünü mələk adlandıran şəxs – səma, yoxsa cəhənnəm mələyi olub-olmadığını heç söyləməmişdi. Məryəm əvvəlcə qətiyyən fikirləşmədi ki, bu, elə həmin şəxs ola bilər, indi isə anlayırdı: bura ondan başqa kimsə gələ bilməzdi.

Çoban qiyafəsində olan belə dedi:

– Eşq olsun sənə, ey İosifin arvadı, sənə və oğluna, xoşbəxtsiniz ki, bu mağara sizə ev olub, yoxsa bu gün ikinizdən biriniz parça-parça edilərdi, o birisi isə sağ qalsa belə, ürəyi parça-parça olardı.

Məryəm dedi:

– Mən qışqırtılar eşidirdim.

Mələk dedi:

– Hə, bu dəfə yalnız eşitdin, amma gün gələcək sənə səslənəcəklər, sən isə eşitməyəcəksən, həmin günə çatmamışdan isə yanında bugünkündən min dəfələrlə daha güclü qışqırıq eşidəcəksən.

Məryəm dedi:

– Ərim yola çıxdı ki, görsün İrodun əsgərləri Vifliyem sərhədlərini tərk ediblər, yoxsa yox və qayıdanda səni burada görsə, yaxşı olmaz.

Mələk dedi:

– Narahat olma, mən o, geri dönənədək gedəcəyəm və ancaq ona görə bura gəldim ki, sənə bunu söyləyim – məni bir də belə tezliklə görməyəcəksən, çünki nə baş verməliydisə, artıq oldu, mənzərənin kamilliyi üçün təkcə qətlə yetirilmiş bu körpələr, bir də onları hələ öldürməmişdən İosifin törətdiyi cinayət çatmırdı.

Məryəm dedi:

– Mənim ərim heç bir cinayət törətməyib, çünki mərhəmətli, yaxşı insandır.

Mələk dedi:

– Hə, o, cinayət törətmiş mərhəmətli, yaxşı adamdır və sən heç təsəvvür də eləyə bilməzsən ki, onun kimi adamlar nə qədərdir – əksər insanların düşündüyünün əksinə olaraq yaxşı adamların cinayətlərinin sayı-hesabı yoxdur – lakin bu cinayətləri qətiyyən bağışlamaq olmaz.

Məryəm dedi:

– Axı nə edib o?

Mələk dedi:

– Özün bilirsən, boynundan atma, yoxsa cinayətinə sən də şərik olacaqsan.

Məryəm dedi:

– And içirəm ki, mən bilmirəm.

Mələk dedi:

– And içməyə gərək yoxdur, amma istəsən, and da içə bilərsən, lakin yadda saxla ki, mənim üçün andların əhəmiyyəti elə küləklərin səsindəki məna qədərdir.

Məryəm dedi:

– Biz nə etmişik ki?

Mələk dedi:

– İrodun qəddar iradəsinə əsasən, qılınclar qınından çıxarılmışdı, lakin sizin xudpəsəndliyiniz və qorxaqlığınız bədənlərinə bu qılıncların sancıldığı insanların əl-qolunu bağladı.

Məryəm dedi:

– Mən axı nə edə bilərdim?



Mələk dedi:

– Sən heç nə, çünki çox gec xəbər tutdun hər şeydən, amma sənin dülgərin hər şey eləyə bilərdi: Vifliyem əhalisini xəbərdar edə bilərdi ki, əsgərlər bura körpələri öldürmək üçün gəlirlər və onda onların valideynləri, məsələn, səhrada gizlənmək, ya da Misirə qaçıb çar İrodun bu yaxınlarda baş verəcək ölümünü orada gözləməyə vaxt tapardılar.

Məryəm dedi:

– O heç bu barədə fikirləşməyib.

Mələk dedi:

– Hə, fikirləşməyib, amma bu, ona bəraət qazandırmır.

Məryəm ağlayaraq dedi:

– Məni bağışla, sən axı mənim mələyimsən.

Mələk dedi:

– Mən bura bağışlamaq üçün gəlməmişəm, İrod daha tez bağışlanacaq, nəinki İosif, satqın dönükdən tez bağışlanır.

Məryəm yenə dedi:

– Bəs biz nə edək?

Mələk dedi:

– Yaşayacaqsınız, əzab çəkəcəksiniz hamı kimi.

Məryəm dedi:

– Bəs mənim oğlum?

Mələk dedi:

– Valideynlərinin günahı uşaqlarının başına tökülür və İosifin törətdiyi cinayətin kölgəsi də İsanın üzünə düşəcək.

Məryəm dedi:

– Biz bədbəxtik.

– Bədbəxtsiniz, – mələk razılaşdı, – sizə heç nə kömək edə bilməz.

Məryəm başını aşağı saldı, oğlunu sinəsinə daha bərk sıxdı, sanki, bununla onu gələcək bəlalardan qorumaq istəyirdi, nəzərlərini təzədən mələyə dikmək istəyəndə gördü ki, artıq yoxdur; lakin gəldiyi kimi getmədi, indi onun addım səslərini eşitməmişdi. "Yəqin, uçub getdi", – Məryəm fikirləşdi.

Qalxıb, mağaranın qapısına yaxınlaşdı ki, onun dalınca baxsın, heç olmasa, mələyin havada buraxdığı izi görsün; həm də görsün ki, İosif yaxınlıqdadırmı. Duman dağıldı, ilk ulduzlar ətrafa metal parıltısı yayırdılar, Vifliyemdən elə bayaqkı kimi ağlamaq səsləri gəlirdi və elə o an onun başı, mələyin bütün öncəgörmələrinə rəğmən, nəhayətsiz şöhrətpərəstlikdən, ən günahkar təşəxxüsdən hərləndi, sanki, oğlunun nicatı istənilən adamı acı ölümün çənginдən çıxarmağa qadir olan İlahinin iradəsiylə baş verməmişdi və özü də elə bir anda ki, başqaları üçün tək bircə yol qalırdı – Tanrıya sual vermək imkanı tapacağı günü gözləyib ondan soruşmaq: "Sən bizi niyə öldürdün?" – və sualının cavabı hər necə olsa da, onunla kifayətlənmək.

Lakin Məryəmin bu məmnunluq halı çox çəkmədi: artıq bir an sonra ona elə gəldi ki, Vifliyemin bir çox analarının kimi indi o da qucağında oğlunun cəsədini tuta bilərdi; bunu duşunəndə içini saran dəhşətli sarsıntıdan ruhunun nicatı, şüurunun sağalması üçün qadının gözlərindən yaş sel kimi axmağa başladı. İosif qayıdanda, o, hələ də oturub ara vermədən ağlayırdı – Məryəm onu görürdü, amma yerindən tərpənmədi, çünki artıq onun qınaqlarından çəkinmirdi: o, dövrə vurub, balalarının cansız cəsədlərini dizləri üstünə alaraq oturmuş, onların dirilməsini gözləyən başqa analarla bir yerdə ağlayırdı. İosif onun göz yaşlarını gördü, onların səbəbini anladı və dinmədi.

Mağaraya girəndə onu heç çırağı yandırdığına görə də danlamadı. Ocağın közü indi nazik kül təbəqəsinin altında qalmışdı, lakin düz ortasında alovun kiçik dili, son qüvvəsini işə salıb titrəyirdi. Uzunqulağın belindən yükləri endirən İosif dedi:

– Təhlükə sovuşdu, çıxıb getdilər və ən yaxşısı – səhərə qədər burada gözləməkdir, sabah səhər isə dan yeri sökülən kimi tərpənərik, özü də yolla yox, cığırla, cığır olmayan yerlərdə də elə səmti tutub düz gedərik.



– Nə qədər uşaq həlak oldu, – Məryəm qüssə içində pıçıldadı və İosif birdən hirsləndi:

– Nə qədərdir ki? Sən axı nə bilirsən, nə qədər ölüb, nədi, yoxsa onları saymağa getmişdin? Mənim bir neçəsi yadımdadır. Yaxşısı budur, sağ ol de ki, sənin oğlun sağ qalıb.

– Deyirəm.

– Mənə elə baxma, elə baxırsan, guya, nəsə bir cinayət eləmişəm.

– Mən baxmıram.

– Mənimlə bir də bu cür danışmağa cəsarət eləmə, elə bil, məni nədəsə ittiham eləyirsən, qınayırsan.

– Yaxşı, mən susacağam.

– Hə, elə sussan yaxşıdır.

Elə bu sözlərini deyib, uzunqulağı içində bir az saman qalmış axurun payasına bağladı, hərçənd ki çox acmış olmazdı, çünki son həftələr işinin adı qarnı tutana kimi yemək, günəşin altında yerə sərilərək canını qızdırıb yaşıl otdan qırpmaq idi, amma xoşbəxtlik, bəlli olduğu kimi, müvəqqəti şey idi, çox tezliklə onun ağır yük altında əzabla günləri yenidən başlayacaqdı. Məryəm oğlunu uzandırıb dedi:

– Ocağı qalayım.

– Niyə?

– Şam yeməyi hazırlayım.

– Lazım deyil, tonqalı kimsə görər, Tanrı verəndən yeyərik – yavandan, yağlıdan...

Elə də etdilər. Yağ çırağı mağaranın dörd sakinini titrək işıqlandırırdı – eşşək dodaqlarını heç yemək istəmədiyi samanın içinə salaraq heykəl kimi hərəkətsiz durmuşdu; körpə yuxuda idi; kişiylə qadın isə acıqlarını bir ovuc əncir qurusu ilə aldatmağa çalışırdılar. Sonra Məryəm həsirlərini yerə sərdi, mələfəni açdı və həmişəki kimi ərinin uzanmasını gözlədi. Lakin İosif əvvəlcə yenə bayıra boylandı, ətrafa qulaq verdi – yer üzünə də, göy üzünə də sükut hakim kəsilmişdi; Vifliyemdən də nə nalə, nə hönkürtü eşidilirdi və

görünür, Rahilin gücü yalnız evinin və ruhunun qapısını çırparaq inildəmək, köks ötürmək üçün qalmışdı. İosif həsirin üstünə uzandı və vücudunda qəflətən görünməmiş yorğunluq hiss elədi – bu gün həddən-ziyadə qaçmışdı, yaman qorxurdu və o heç deyə də bilmirdi ki, İsa məhz onun səylərinə görə sağ qalmışdı, çünki əsgərlər aldıqları əmri dəqiq yerinə yetirirdilər – Vifliyemin bütün kişi cinsindən olan körpələrini öldürmək, bundan kənarda kiçicik təşəbbüs göstərib ətraf mağaraları axtarıb, oralarda kiminsə olub-olmadığını aydınlaşdırmaq fikrinə də düşməmişdilər – bu isə çox kobud taktiki səhv idi, ciddi desək, bütün əməliyyatın iflasa uğramasının başlıca səbəbi oldu; mağaralardan biri bütöv ailə üçün daimi yaşayış məskəni idi. İosifi arvadının yatağa, adətən, onun yuxuya getməsindən sonra girməsi əsəbiləşdirməzdi, bu gün isə özünün yatacağı, Məryəmin isə oyaq qalaraq, onun halına acımadan yuxuda köməksiz sifətinə baxacağı barədə fikir İosifə lap dözülməz gəlirdi. Elə buna görə də dedi: "Uzan, başımın üstünü kəsdirmə". Məryəm tabe oldu, amma əvvəlcə, həmişəki kimi, uzunqulağın necə bağlandığını yoxladı və dərindən köksünü ötürüb həsirin üstünə uzandı, gözlərini bərk-bərk yumdu – yuxusu tezmi gələcəkdi, yoxsa bir az sonra, amma o artıq ətrafındakı heç bir şeyə baxmaq istəmirdi. Gecənin bir aləmi İosif yuxuda gördü ki, guya, hansısa kəndə enən yolla at çapır və budur, artıq ilk evləri də görürdü, o özü isə döyüşçü paltarında, yaraq-əsləhədə idi, qılınc, nizə, xəncərli, yanındakılardan da zahirən heç şeylə fərqlənmirdi, amma birdən rəisindən soruşdu: "Bəs sən, ay dülgər, sən hara?" – İosif isə heç duruxmadan, öz məqsədini yaxşı bilən adam kimi vüqarla ona cavab verdi: "Vifliyemə, öz oğlumu öldürməyə" və elə bunu deyən kimi də xırıldayıb oyandı, bütün bədəni dəhşətdən qıc olmuşdu. Məryəm dedi: "Nə oldu sənə?" İosif başdan-ayağa əsim-əsim əsirdi, bircə bunu söyləyə bildi: "Heç nə, heç bir şey", lakin elə həmin an indicə yaşadığı dəhşət köksünü dağıdan hön-

kürtü şəklində çıxdı vücudundan. Məryəm qalxdı, çırağı yaxına gətirib onun üzünə işıq saldı, lakin o, əllərilə işıqdan gizləndi: Yığışdır, yığışdır! – və hönkürtüdən hələ də boğula-boğula, qalxıb oğluna baxmaq üçün axurun yanına atıldı.

Siz çox əbəs yerə narahat olursunuz, möhtərəm İosif, oğlunuz, həqiqətən, – körpə mələkdir, nə problem yaradır, nə əziyyət verir, yeyib yatır, özü də indi elə sakit, elə qayğısız yatırdı, sanki, ölüm onun iki addımlığından keçməmişdi, özü də necə ölüm – ona həyat vermiş öz doğma atasının əlindən, hətta bilsək də ki taledən qaçmaq olmaz və ölüm özünü gec-tez hamı üçün yetirəcək, amma gəlin razılaşaq ki, ölümdən ölümə fərq var axı. İosif isə artıq mürgüləməyə qorxurdu, qorxurdu ki, bayaqkı dəhşətlər yenə yuxusuna girər, ona görə də daha uzanmadı, örtüyə bürünüb mağaranın ağzında, qayanın daş səkisinin altında oturdu; bu səki təbii talvar kimi bir şey yaratmışdı və ayın işığı parlaq olanda elə qatı kölgə salırdı ki, çırağın titrək nuru onunla bacarmaq gücündə deyildi. Bu yerdə çar İrodun özü belə öz qullarının çiynində, qana susamış qoşunlarının başında burada peyda olsaydı, yalnız bunu deyərdi: "Davam eləyin, vaxtı boş keçirməyin, bizim axtardığımız burada deyil, burada zərif körpəti və təzəcə başlamış həyat yoxdur, ümumiyyətlə, heç nə yoxdur, təkcə qayalar və onların kölgələri var". İosifin yadına yuxusu düşəndə yenə əsdi, özünə sual etdi ki, görəsən, bu yuxunun mənası nə olar və bütün bunları necə başa düşsün – göylərin qapanmaz baxışları altında yolla üzüenişə yüyürürdü, daşların üstündən ötür, çəpərlərdən tullanırdı, tələsirdi, bir ata kimi tələsirdi ki, oğlunu müdafiə etsin, xilas eləsin; yuxuda isə özünü qaniçən cəllad simasında gördü, bəlkə, "yuxulara inanmaq olmaz" deyən el məsəli həqiqətdir. Bu dəm, sanki, qaranlıqda görünməyən bir quşun cəhcəhinə bənzər fit səsi gəldi qulağına, bəlkə, çobandır öz sürüsünü çağıraraq tütək çalır, amma yox, çoban üçün çox ertədir, hələ sürüsü yatıb onun, indi yalnız qoyun itləri oyaq olar.

Lakin sakit və insan hənirindən qaçan, canlı və cansızlardan uzaq gecə, bizlərin Kainata şamil etdiyi, maddi olan hər şeyin tam və birdəfəlik sonundan sonra qalacaq – əgər onda, ümumiyyətlə, bir şey qalacaqsa – ali biganəliklə, ya da biganəliyin başqa növüylə ağızbaağız dolu gecə bu dünyanın bizi bütün sərsəmliyimizlə bir yerdə qəbul etmək üçün yarandığını düşündüyümüz saatlarda belə onu idarə edən mənanı, şüurlu düzəni tam təkzib edirdi. İosifin yaddaşında bu gecənin də, bu ay işığının da, axurda yatmış körpənin də və hər şeydən artıq ayılaraq özünü ələ alan, öz fikirlərinə nəzarəti ələ alan insan şüurunun da – hərçənd ki bu fikirlər artıq sakit və mehriban idilər, amma bununla belə, yenə həyata dəhşətli həyulalar gətirə bilərdilər, məsələn, əsgərlərin bu qədər körpəni qətlə yetirərək onun sevimli oğluna rəhm etmələrindən (təbii ki, səhlənkarlıqları və tənbəlliklərindən) doğan razılıq hissi kimi dəhşətli duyğular – və bütün bunların təkzib etdiyi yuxu getdikcə həqiqətə daha az oxşayan, daha qondarma görünməyə başladı, rəngi qaçdı, tutqunlaşdı. İndi dülgər İosiflə vifliyemli anaları eyni gecə öz ağuşuna alıb, ataları isə... Gəlin Məryəm kimi heç ataları da yada salmayaq və bunun səbəbini də göstərməyək. Zaman tələsmədən axır və artıq dan yeri sökülür, ay isə hələ solmayıb; İosif qalxır, yükünü uzunqulağın belinə şəlləyir, tezliklə onun bütün ailəsi – İsa, Məryəm və onun özü – dülgər İosif Qalileyaya istiqamət götürür.

Səhər isə sahibəsinin indi iki uşaq meyiti olan evini bircə saatlığa tərk eləyən qul qadın Salomeya, doğuşunu qəbul etdiyi körpənin də bu dəhşətli faciəyə tuş gəldiyinə əminliyini yox etmək üçün, mağaraya baş çəkir. Lakin mağara artıq boş idi, orada insan ayaqlarının, heyvan dırnağının izlərindən savayı heç nə gözə dəymirdi, tamam sönmüş kömürlərin üstündəki küldə isə bir damla da qan izi görünmürdü. "O, burada deyil, – qadın öz-özünə dedi, – birinci ölümündən canını qurtara bildi".

[1] *Tirada* – dramda qısa və təsirli monoloq

* * *

İosif bütün ailəsi ilə birlikdə – yalnız uzunqulağı çıxmaq şərtilə, o, nəsə sağ ayağını yerə basanda axsayırdı – sağ-salamat idi; təhlükədən uğurla can qurtarıb doğma Nazaretə döndüyü gündən düz səkkiz ay sonra ona xəbər yetişdi ki, çar İrod İerixondakı saraylarının birində vəfat edib; hökmdar ora artıq zəif, ümidsiz xəstə ikən, Yerusəlimdə xəstə və zəiflərə ikiqat çətin olan sərt qışın yetişəcəyindən xəbər verən ilk yağışlar başlayan kimi köçmüşdü. Həm də deyirdilər ki, öz hökmdarından məhrum olmuş səltənət tiranın varisləri arasındakı çəkişmələrdən sonra onun üç oğlu arasında bölündü: İrod Filipp Qalileyadan qərbdəki torpaqların, İrod Antip Qalileya və Pereyin hökmdarı idi, Arxelaya isə İudeya, Samariya və İdumeya çatmışdı. Elə həmin günlərdə bir qərib qatırçı – belələrinə su, çörək vermə, qoy olanı olmaza qatıb danışsın – Nazaret əhalisinə çar İrodun dəbdəbəli dəfnindən danışdı, and-aman eləyirdi ki, həmin dəfn mərasimində, guya, özü də varmış: Çarı qızıl kəcavəyə səpilmiş daş-qaşın üstündə uzatmışdılar, kəcavənin özü qeyri-adi bir katafalka qoyulmuşdu – o da təmiz qızıldan, üstü isə gözəl bənövşəyi örtüyü olan talvarla bağlı idi; katafalkı iki ağ öküz çəkirdi, İrodun bədənini başdan-ayağa qırmızı tikməylə örtmüşdülər, odur ki təkcə tacından başqa, heç nə görünmürdü, onu da çarın başı hara düşürdüsə, ora qoymuşdular; katafalkın dalınca fleytaçalanlar, onların dalınca muzdlu ağıçılar gedirdi və bu insanlar düz burunlarına vuran həmin o üfunəti sinələrinə çəkəsi olurdular; dəstə yanımdan ötəndə, yolun kənarında durmağıma baxmayaraq, elə mənim özümün də, az qaldı, ürəyim ağzıma gəlsin; onların dalınca çarın şəxsi mühafizə dəstəsindən olan süvarilər gedirdilər, sonra da yaraq-əsləhəli döyüşçülər, nizə, qılınc, qalxan, bir sözlə, elə bil, davaya hazırlaşırdılar və bu qoşun gedir, getdikcə də, bitmək bilmirdi, lap nəhəng ilan kimi – nə başı görünürdü,

nə quyruğu. Adama elə gəlirdi ki, bu dəstə heç vaxt keçib qurtarmayacaq; ölünün dalınca gedən izdihama baxanda adamın canına üşütmə düşürdü, çünki bu insanlar həm də öz ölümlərinə sarı gedirdilər, ölüm isə gec-tez, onsuz da, hamının dalınca gəlir, hərçənd ki bəzən elə bilirsən ölüm nədənsə yaman gecikir, amma bir də baxırsan ki, yox, artıq buradadır, artıq qapını döyür: "Vaxt bitdi, zaman yetişdi, gəlmişəm" – deyir, özü də bu qonaq sözünü düz kandardan deyir, nə çara, nə qula fərq qoymadan deyir; indi irəlidə, dəstənin önündə aparılan iylənmiş, çürüyən meyitlə qoşunun qaldırdığı tozu udmağa məcbur olaraq onun dalınca gedən sağlar arasında böyük oxşarlıq var, burada hamı öz əbədi sükunətinin mənzilinə sarı gedir, ağır-ağır gedir. Məncə, çarın dəfnindən danışan bu nağılçıya – rəbbim şahiddir ki, həqiqi deyirəm – indi başqa peripatetik[1] filosoflarla bir yerdə hansısa akademiyanın korinfsayağı sütunlarının altında gəzişmək lazım idi, İsrailin yollarıyla qatır qovmaq, üfunətli karvansaralarda gecələyib bu nazaretlilər kimi kəndçilərə dastan açmaq yox.

Sinaqoqun qarşısında toplaşmış həmin bu adamların arasında bizim İosif də vardı – yolu oradan düşmüşdü və ayaq saxladı ki, söhbətə qulaq assın; dəfn mərasimi barədə danışdıqlarını o qədər də diqqətlə dinləmirdi, əgər əvvəlcə nələrsə yaddaşında qalsa belə, sonra, mənzərələrin təsvirindən fəsəfi sonluğa keçəndə və nağılçı arfasının elegiya simində gəzişən kimi hər şeyi unutdu: dülgərin əsaslı səbəbləri vardı ki, qəlbinin sarı simi məhz bu məqamlarda səslənsin. Elə bu səbəblər artıq onun düz alnına yazılmışdı – İosif tanınmaz dərəcədə dəyişmişdi, çünki bir var, onun əvvəlki əzəmətli sakitliyi, çox cavan olmasını ört-basdır eləməli olan diqqətli ciddiliyi və bir də var, tamam başqa qat-qat pis şeylər – ağzının qıraqlarında acı qatlara dönmüş, sifətini vaxtından qabaq paralayan dərin qırışlara çevrilən kədər, hüzn. Hələ bu harasıydı, onun gözlərindəki ifadəyə diqqət yetirənlər isə ciddi

[1] *Peripatetik* – Aristotel fəlsəfəsi tərəfdarı



şəkildə narahat olardılar, daha doğrusu, gözündəki ifadəni yox, tam ifadəsizliyi görənlər: gözləri ölüydü, sanki, kül sərilmişdi bəbəklərinə, külün altında isə, elə bil, yuxusuzluğun üfürərək, alışdırdığı pis bir alov heç cür sönmək bilmirdi. İosif, həqiqətən də, son vaxtlar, demək olar ki, yatmırdı.

Yuxu indi qatı düşməninə çevrilmişdi, onunla ölüm-dirim mübarizəsindəydi, İosif bu müharibəni udası deyildi, əgər nadir hallarda kiçik və əhəmiyyətsiz döyüşlərdə qələbə çalsa və əldən düşmüş cismi təslim olaraq yuxuya getsə belə, mütləq həmin an yol da görünəcək, həmin süvari dəstəsi də peyda olacaq və onun sıralarında başqa döyüşçülərlə yanaşı, başının üstündə qılıncını hərləyə-hərləyə özü də at səyirdəcək və şüurun hər şeyi üstələdiyi an mütləq o rəisin sualı bir də səslənəcək: "Bəs, ay dülgər, sən hara?" – yazıq İosif ona cavab vermək istəmir, son gücünü toplayıb, müqavimət göstərir – artıq cismani gücüylə deyil, o güc çoxdan tükənib, mənəvi gücüylə müqavimət göstərir – lakin yuxu güc gəlir, dəmir barmaqlarıyla dülgərin bir-birinə sıxılmış dişlərini aralayır və sinəsindən qopan hönkürtüylə bir yerdə, artıq reallığa qayıdan İosifin dodaqlarından daimi, dəhşətli cavabı pərvazlanır: "Vifliyemə, öz oğlumu öldürməyə". Ona görə də gəlin ondan heç soruşmayaq ki, İrodun dəfn kəcavəsinə neçə öküz qoşulmuşdu, ağ idimi onlar, yoxsa ala, onsuz da, cavab verə bilməyəcək – indi evlərinə qayıdanda o yalnız qatırçının son sözləri barədə düşünür, axı o deyirdi ki, çarı dəfn eləyən bütün o saysız-hesabsız camaat, o qullar və döyüşçülər, gözətçilər və ağıçılar, fleytaçılar, əyanlar, knyazlar, taxt-tacın varisləri və elə hər birimiz də kimliyimizdən, harada olmağımızdan asılı olmayaraq həyatda yalnız bir şey üçün çalışırıq – elə bir məkan gəzirik ki, oradan daha heç yana tərpənəsi olmayaq. Amma İosifin beynində belə fikirlər həmişə dolaşmır və indi onun qüssəsi o qədər əzəmətlidir ki, beynində müdrik mütiliyə də yer qoymayıb, bu mütilik isə əlin hər şeydən üzüləndə əzablarını yüngülləşdirə bilir, dərdi səngidir:

"Həmişə belə olmur axı", – təkrarlayır o, çoxları bütün ömürlərini elə doğulduqları yerdə sürürlər, ölüm də onların dalınca elə ora gəlir və bu, isbat edir ki, tale – yeganə sabit, dəqiq və tam zəmanətli bir şeydir, aman, ya Rəbbim, necə asandır bu, təkcə gözləmək lazımdır, hər şeyin çin olacağını, alnımıza yazılanların həyatda baş verəcəyini gözləmək... Bax onda deyə bilərik: Taleyi beləymiş, çar İrodun qismətinə İerixonda ölmək və dəfn mərasiminin başında özünün sarayqalasına, İrodiyaya getmək yazılıbmış, ondan fərqli olaraq körpə vifliyemliləri isə ölüm hər cür yolçuluqdan özü azad elədi. O ki qaldı İosifin öz taleyinə, əgər baş vermiş hadisələr zəncirinə təzədən nəzər salsaq, görərik ki, əvvəllər, sanki, onun həyatı ali ideyanın tərkib hissəsi kimi o günahsız, kiçik məxluqların həyatını xilas edəcək faktor kimi düşünülmüşdü, amma reallıqda tamam başqa şeyə çevrildi, çünki dülgər, ölüm təhlükəsi barədə eşidən kimi heç kəsə heç nə demədən öz oğlunu xilas etməyə can atdı, bütün qalanlarını isə taleyin axarına buraxdı – sözün ən hərfi və dəqiq mənasında. Bax buna görə də onun yuxusu ərşə çəkilmişdi, yuxuya gedə biləndə də az sonra qəm, qüssə içində oyanır, gerçəkliyə dönəndə isə həmin məşum yuxunu heç cür unuda bilmirdi və beləliklə, demək olar ki, yata bilməyəndə yatmağın həsrətini çəkir, yuxulayıb özünü unudanda isə hər dəfə oyanmağa can atır, gördüklərindən qaçıb qurtulmaq istəyir, amma sonda bütün cəhdləri boşa çıxır və bilir ki, onsuz da, ora dəfələrlə dönəcək, dönəcək ki, daim yuxu ilə həqiqətin qovşağında yuva qurmuş bu vəsvəsəni, qarabasmanı bir də yaşasın və həmin sərhədi keçən İosif o dözülməz işgəncəni yaşamağa hər dəfə məhkumdur. Gün kimi aydındır ki, bütün bu iztirab kələfinin sadə adı var – vicdan əzabı, hərçənd əsrlər uzunu toplanmış ünsiyyət təcrübəsi birmənalı təsbit edir ki, tərifin dəqiqliyi – illüziyadan başqa şey deyil, zira insanın dili çox nahamvar, çox kasaddır və Tanrıya şükürlər olsun ki, bu, məhz belədir, məsələ isə heç də onda deyil ki, tutalım, sevgi



kəlməsini ifadə etməyə söz tapılmır, məsələ ondadır ki, söz nə qədər desən var, amma sevginin özü yoxdur.

Məryəm ikinci uşağı gözləyir. Bu dəfə əynində dilənçi paltarı olan heç bir mələk qapısını döyüb bu xoş xəbəri ona çatdırmadı və heç qəfil külək də toz-torpağı Nazaretin küçələrində burum-burum eşib göylərə qaldırmırdı və içində işıqsaçan torpaq olan ikinci kasanı da birincisinin yanında basdırmaq gərək olmadı, bunların heç biri baş vermədən, qadın elə eyni ifadəylə ərinə yenə də hamilə olduğunu söylədi: "Mən hamiləyəm", daha demədi ki, məsələn: "Gözlərimə nəzər sal, onların parıltısında ikinci balamızın müjdəsini görərsən" və İosif də bu sözlərə, təxminən, belə cavab verərdi: "Elə bilirsən, görmürdüm? Görürdüm, amma gözləyirdim ki, sən özün bu barədə bir söz deyəsən". Belə bir dialoq olmayıb və olmayan şeydən söhbət də gedə bilməz: İosif dinlədi və dinmədi, onun "a-a" deyə mızıldanmasını nitq saya bilmərik axı, mızıldandı və əlindəki taxtasını rəndələməyinə davam elədi, səylə, bacarıqla, amma tam şüursuz, düşüncəsiz. Bəs onun düşüncəsi haralarda dolaşırdı həmin an, bunu biz yaxşı bilirik. Elə Məryəm də bilir, həmin məşum gecədən etibarən bilir, ərinin ürəyini deşən, həmişə ciddcəhdlə gizlətdiyi sirrini ona etibar etdiyi gecədən bəri bilir, eşidəndə isə heç təəccüblənməmişdi də – buna bənzər bir şey, onsuz da, qaçılmaz idi, mələyin mağarada dediklərini xatırlayaq: "O günədək sən öz yanında min dəfələrlə güclənmiş qışqırıq eşidəcəksən". Əslində, yaxşı arvad ərinə mütləq belə deyərdi: "Bəsdir, bu haqda düşünmə, etdiklərini geri qaytarmaq mümkün deyil, o ki qalmış eləmədiklərin ola". Nəhayət, hər bir kəs, həqiqətən də, ən əvvəl öz doğma oğlunu xilas etməlidir, başqalarının oğulları qarşısında sənin heç bir öhdəliyin yox idi, amma iş burasındadır ki, bəlli zamandan etibarən Məryəm sözün adi anlamında yaxşı arvad deyildi daha, yəni əvvəllər olduğu, yaxud olmağa can atdığı kimi deyildi və ola bilər ona görə can atmırdı ki, mələkdən

tamam başqa, daha sərt sözlər eşitmişdi, bu sözlər isə deyiliş tərzinə, ahənginə görə həm də elə onun özünə aid idi: "Bağışlamaq üçün gəlməmişəm bura mən".

Əgər Məryəm içindəki bu mübhəm sirri əriylə bölüşsəydi, Müqəddəs Kitabı böyük maraqla öyrənən İosif, heç şübhəsiz, ciddi fikrə gedərdi ki, aya, arvadının gözünə görünmüş mələk kim idi – günlərin birində, kim bilir, haradan gəlib deyir ki, guya, o bağışlayan mələk deyil, bu elə özözlüyündə şübhəli idi də, çünki hamıya məlumdur, mələk adlandırılan məxluqlar bağışlamaq səlahiyyətinə qətiyyən malik deyillər, çünki bu səlahiyyət yalnız Tanrının özündədir; əgər mələk iddia edirsə ki, bağışlayan mələk deyil, onda ya onun sözləri heç bir məna kəsb etmir, ya da ki tam əksinə – həddən-ziyadə çoxmənalı səslənir və əgər təxmin etsək ki, Məryəmin yanına gələn mələk, əslində, cəza mələyi idi, onda sözlərini belə anlamaq olardı: "Bu nə mənasız hərəkətdir, məndən üzr diləyirsən, mən bağışlamıram, cəzalandırıram". Lakin əllərində odlu qılınc olan İlahi Pərvərdigarın həyat ağacına gedən yolun qorunmasını tapşırdığı xeruvimləri çıxmaq şərtilə – o ağacın meyvələrindən bizim əcdadlarımız və onların nəsilləri, yəni sizlər və bizlər uzaq durmalıydıq – bütün mələklər mahiyyətcə xoşagəlməz, amma cəmiyyət üçün gərəkli olan repressiv funksiya daşıyan polis nəfərlərinə heç bənzəmirlər və yalnız ona görə mövcuddurlar, o məqsədlə xəlq ediliblər ki, həyatda bizə kömək etsinlər, quyuya düşməyimizə lap az qalanda qarşımızı kəssinlər, dibsiz uçurum üzərindəki körpüdə ayağımız sürüşəndə qolumuzdan yapışsınlar, sərsəmləmiş atlar cəng arabasını düz üstümüzə gətirəndə, ya da əyləci xarab olmuş avtomobil bizə sarı şığıyanda yoldan kənara itələsinlər. Mələk, əgər, həqiqətən, mələk olsaydı, bədbəxt İosifi nəhayətsiz gecə kabuslarından da tamam xilas edə bilərdi, zira bəs idi ki, yuxuda Vifliyemdən olan hər qətlə yetirilmiş körpənin atasının qarşısında dura raq desin: "Qalx, uşağını və anasını



yanına al, Misirə qaç və mən sənə deməyincə orada ol, çünki İrod sənin körpəni axtarır, məhv etmək üçün axtarır" və bu minvalla butun körpələr nicat tapardı – İsa öz valideynləriylə bir yerdə mağarada olduğundan, qalan körpələr isə müvəqqəti olaraq Misirdə gizləndiklərindən nicat tapardılar, doğma yerlərinə sonra da qayıda bilərdilər, mələk onların atasının qarşısında durub bu sözləri deyəndə: "Qalx, körpəni və anasını götür və İsrail torpağına get, çünki körpənin ruhunu axtaran kəs artıq öldü". Aydındır ki, mələk zahirən ən gözəl hisslərdən qaynaqlanan bu xəbərdarlığıyla uşaqları elə yerə qaytaracaqdı ki, onlar vaxtı yetişəndə öz ölümlərini orada tapacaqdılar; daha dəqiqini söyləsək, onların ölümünü, sadəcə olaraq, bir qədər təxirə salacaqdı, çünki, artıq buna əmin olduq, mələklərin əlindən çox işlər gəlsə də, gücləri sonsuz deyil – bu cəhətdən onlar Tanrıya bənzəyirlər – bizi ölümdən əbədilik qoruya bilməzlər. Söylədiyimiz istiqamətdə düşüncələrə dalan İosif axırda çox güman, bu qənaətə gələrdi ki, mağarada arvadının yanına gəlmiş mələk, istənilən vəziyyətdə cəhənnəmin elçisi, çoban qiyafəsinə girmiş iblis imiş və bu da qadınların təbiətən nə qədər zəif, səbatsız, günahlara düşkün olmasına, hansısa rəzil mələk onu öz toruna salanda, əlindən nə qədər bicliklər gəlməsinə daha bir izafi sübutdur. Lakin bütün bunlara baxmayaraq, əgər Məryəm əri ilə öz fikirlərini bölüşsəydi, susa bilməsəydi, əgər o, öncəgörmənin qeyri-adi epizodları barədə xatirələrini sirr kimi saxlamasaydı belə, xeyri yox idi, əri, onsuz da, köhnə mahnını təzə üslubda oxuyacaqdı və öz nəzəriyyəsini isbatlayan neçə-neçə dəlil gətirəcəkdi, ən başlıcası isə, təbii, bu olacaqdı ki, həmin o mələk qadına konkret olaraq deməmişdi: "Mən Tanrının mələyiyəm", ya da: "Mən Tanrı tərəfindən göndərilmişəm", yalnız qısaca, bunu söyləmişdi: "Mən mələyəm" və sonra da Məryəmə tələsik xəbərdarlıq da etmişdi: "Bu barədə heç kəsə bir söz demə", elə xəbərdarlıq etmişdi, sanki, bunu hamının biləcəyindən çəkinirdi. Yəqin

ki, bu hamıya bəlli, məşhur hadisənin mahiyyətini açmayan ayrı-ayrı əhəmiyyətsiz təfərrüatların bu şəkildə yozumuna etiraz edən xeyli adam tapılacaq, lakin bu detallar əlinizdəki İncilin müəllifinə həm keçmiş, həm də gələcək baxımından müstəsna dərəcədə əhəmiyyətli gəlir, fərq yalnız bundadır ki, səni səma mələyi, yoxsa cəhənnəm mələyi elan edəcəklər, özü də bu fərq özünün yalnız forması baxımından deyil, həm də məzmunu və mahiyyəti baxımından mühümdür, çünki bəlli olduğu kimi, birinciləri xəlq edən, elə ikinciləri də yaradıb, hərçənd ki sonra öz səhvini düzəldib.

Məryəm də hərdən elə əri kimi, amma tamam başqa səbəblərdən, qəflətən dərin düşüncələrə qərq olur, yerində donaraq yol çəkən gözlərini, kim bilir, hara zilləyir və həmin anlarda heç əli də iş tutmur, düzünü desək, bunda onun vəziyyətində olan qadın üçün qəribə heç nə yox idi, əgər fikirlərin bu rəngarəng müxtəlifliyi son nəticədə gətirib bir suala dirənməsəydi: "Niyə mələk mənə İsanın doğulacağını xəbər verdi, amma indi daha görünmür?" O, yenicə imələməyə başlayan – onun yaşda olan bütün uşaqlar kimi – oğluna baxır, onda nəsə bir özünəməxsusluq, fərqli cəhət, əlamət tapmağa çalışır – məsələn, alnında ulduz, ya əlində altıncı barmaq təki, lakin onun oğlu da eynilə digər uşaqlar kimidir: ağzından köpük buraxır, əskilərini bulayır, ağlayır və onunla bütün başqa uşaqlar arasında fərq ancaq ondadır ki, bu, onun oğludur, saçları da elə ata-anasınınkı kimi qaradır və gözlərinin əlvan təbəqəsi artıq ağımtıllığını, süd rəngini itirir, yavaş-yavaş özünün təbii və ya neçə nəsil əcdadlarından miras qalmış çalarını alır – bəbəyin ətrafındakı tünd darçını rəng, mərkəzdən aralandıqca başqa çalara keçir – biz ona bozumtul-yaşıl deyərdik – lakin bu cəhətdə də fövqəladə, əhəmiyyətli bir şey yoxdur, belə xırda şeylər söhbət yalnız öz uşağımızdan – indiki vəziyyətdə Məryəmin oğlundan – gedəndə əhəmiyyətli olur. Daha bir neçə həftə keçəcək və körpə ayağa qalxmaq üçün, yerimək üçün ilk cəhdlərini edəcək və iki



ayaq üstünə qalxsa da, hərdənbir adəti üzrə, imələməyə enəcək, o, bəzən yerində donub baxışlarını irəli yönəldib başını zorla saxlayacaq, onu yanına çağıran anasının səsini dinləyəcək: "Bura gəl, gəl bura, mənim əzizim", bir müddət sonra isə özü danışmaq istəyəcək, qırtlağında qəribə, təzə səslərin yığışaraq bayıra çıxmağa can atdığını duyacaq, əvvəlcə ona bu səsləri idarə etmək yaman çətin olacaq, artıq qışqırandamı, ağlayandamı tanış olduğu səsləri bir-biriylə səhv salacaq, sonra isə həmin təzə səsləri tamam başqa cür çıxarmaq lazım olduğunu anlayıb ata-anasının dalınca təkrarlamağa başlayacaq, onların dodaqlarının hərəkətinə göz qoya-qoya, ta ki özünün ilk kəlməsi dilindən qopana kimi, hərçənd hələlik heç kəsə bəlli deyil ki, bu ilk söz hansı olacaq – bəlkə, "ata", bəlkə, "ana", bəlkə də, "nəm-nəm", lakin artıq indidən əminliklə söyləmək olar ki, anası, ya da qonşularından hansısa ona bir də bu sualı verəndə: "Bəs toyuq harada yumurtlayır", körpə İsa daha sağ əlinin barmağıyla sol ovcunu göstərmək kimi çox mənasız jestlər etməyəcək ki, layiq olmadığı, bəşər övladı üçün alçaldıcı və təhqiramiz davranışın, ona da müxtəlif səslərə reaksiya verməyi öyrənmiş (istər adam səsi olsun, fit olsun, ya da qamçı şaqqıltısı) bir it küçüyü kimi münasibət göstərilməsinin şahidi olsun. İndi, artıq ovcundakı həmin yeri göstərməkdən imtina etmiş İsa maraqlananlara açıq anladırdı ki, toyuq könlü harada istədi, orada da yumurtlayır. Məryəm öz oğluna baxıb köksünü ötürürdü, təəssüflənirdi ki, mələk xeyli müddətdir görünmür: "Artıq məni bu tezliklə görməyəcəksən", – deyə vəd etmişdi, amma təzədən peyda olsaydı, Məryəm əvvəlki kimi sıxılmaz, sualı sual dalısınca yağdıraraq onu məcbur edərdi ki, cavab versin, axı oğul doğmuş və indi bətnində ikinci körpəsini gəzdirən ana daha dilsiz-ağızsız quzu mütiliyindən azaddır, zira əzabların, təhlükənin, kədərin nə olduğunu öz canında sınaqdan keçirib və bütün bunları tərəzinin bir gözünə qoysan, onu üstələyəcək bir yük tapılmaz yəqin.

Nəsibinə mələklə bir daha söhbət eləmək düşsəydi, o, ilk görüşlərində söylədikləriylə canını qurtara bilməzdı: "Tanrı sənə yar olsun, arvad, sənə övladlar əta etsin, onları indi qarşında duran, həyatı kədərlə dolu, başını söykəməyə belə yer tapmayan bir şəxsin qismətinə düşənlərdən azad eləsin", – indi o, birincisi, izah etməli olardı ki, adından danışdığı Tanrı kimdir, ikincisi, həqiqətənmi, onun başını söykəməyə bir yeri yoxdur, çünki bu kəlmələri bir mələkdən eşitmək kifayət qədər qəribə idi, yoxsa dilənçi obrazına həddən-ziyadə girdiyindən söyləyirdi bunu, sonra da qoy izah eləsin ki, həmin o kədərli, qaranlıq öncəgörməsində mənim oğlum üçün hazırlanmış hansı gələcəkdən danışırdı, nəhayət, içində parlayan toprağı olan o gil kasanın sirri nədə idi – onu qapının ağzında basdırmışdılar və onlar Vifliyemdən dönəndən sonra tezliklə həmin yerdə gövdəli, yarpaqlı qəribə ağac bitib və nə qədər də onu çəkib kökündən çıxarmağa çalışsalar da, hər dəfə təzədən, özü də əvvəlkindən bir az da böyük, qollubudaqlı bitir. Sinaqoqun iki ağsaqqalı – Zakheylə Dotaim o ağaca baxmağa gəlmişdilər və hərçənd botanika elmindən o qədər də hali deyildilər, amma gördüklərindən belə nəticə çıxarmışdılar ki, bu qəribə ağac həmin o nur saçan torpağın içində gəlmiş toxumdan cücərib, Zakheyin sözləriylə desək, elə həyatı xəlq etmiş Tanrının qoyduğu qanuna uyğun olaraq. Lakin əgər Məryəm bir müddətdən sonra həmin inadkar ağaca öyrəndisə və onun həyətə gözəllik gətirdiyini söylədisə, İosifin qəlbinə o narahatlıq doldurur, köhnə şübhələrinə yeni əsaslar verirdi, odur ki hətta dülgər dəzgahını belə başqa yerə keçirmişdi, özünü elə göstərirdi ki, elə bil, o ağac heç yerli-dibli yoxdur. Bir az əvvəl isə bu ağacı qurutmaq, onu yox eləmək üçün hansı oyunlardan çıxmırdı, hansı vasitələrə – hamısı da boş yerə, hamısı da əbəs – əl atmırdı ki: baltalayır, mişarlayır, dibinə qaynar su tökür, gövdəsinin ətrafına qalaq-qalaq köz yığırdı və yalnız mövhumata ehtiramından cəsarət eləmədi ki, kətməni əlinə alıb, düz fəsadın kökünə –

parıldayan torpaqlı kasaya kimi qazsın. Bax İosiflə Məryəm ikinci, adını İakov qoyduqları oğulları dünyaya gələnədək beləcə yaşayırdılar.

Bu minvalla daha bir neçə il keçdi və hər şey elə qabaqkı kimi qalmışdı, əgər dünyaya daha bir neçə oğul və iki qız gətirmələrini, özlərinin isə təmtəraqlı, bəzəkli ifadə ilə desək, cavanlığın sonuncu gözəlliklərindən də məhrum olduğunu nəzərə almasaq. Nə etməli, təəccüblü bir şey yoxdur: bəllidir ki, qadın tez-tez uşağa qalıb bətnində daşıyıb doğursa, necə əldən düşür, yavaş-yavaş gözəlliyini, təravətini necə itirir – təbii ki, əgər bütün bunlara qabaqlar malik idisə – üzü, bədəni necə solur, burada nə var ki: İakovun dalınca Liziya, Liziyadan sonra İosif, İosifin ardınca İuda, İudadan sonra Simon, Simonun dalınca Lidiya, Lidiyadan sonra İustin, İustindən sonra Samuil doğulmuşdu, Samuilin dalınca olanlar isə lap körpə ikən, hələ ad almağa macal tapmamış ölürdülər. Övladlar bizə sevinc, təsəlli üçün bəxş olunur və Məryəm var gücüylə çalışırdı ki, sevinsin, təsəlli tapsın, amma yorulmuş bətnində məhəbbətin bütün cismani və mənəvi gücünü alan bu qədər bəhrəsini aylar uzunu gəzdirirsənsə, istər-istəməz ürəyinə əvvəlcə bir şübhə, sonra dözümsüzlük, onun dalınca isə etiraz dolur, lakin Məryəm elə zamanlarda yaşamırdı ki, bütün bunların məsuliyyətini əri İosifin və təbii ki, Tanrımızın boynuna yıxsın – axı bütün olum və ölüm məsələlərində tək odur azad və onun rizası olmadan hətta başdan bir tük belə düşməz. İosif isə dünyaya uşaqların nədən gəldiyini çox az başa düşürdü, daha doğrusu, bu sahədə ən bəsit və əməli vərdişlərə yiyələndiyindən, bu məsələyə, əgər təbir caizsə, sırf empirik yanaşırdı, çünki dünyanın ona verdiyi gündəlik dərs bütün müəmmaları yalnız təsbit olunmuş, əyani görünən bir faktın üzərinə yönəldirdi – əgər kişi ilə qadın birləşirsə, başqa sözlə desək, bir-birini cismani tanıyırsa, çox böyük ehtimalla, doqquz aydan, hətta bəzən yeddi aydan sonra qadın dünyaya həyat üçün yararlı olan uşaq gətirəcək.

Qadın bətninə atılmış kişi toxumu, öz içində hələ gözlə görünməyən yeni məxluqu artıq gizlədib və bu məxluq Tanrının iradəsiylə yer üzünü məskunlaşdıran insan nəslinin kəsilməməsi, tükənməməsi üçün elə Onun özü tərəfindən seçilib, lakin bu, həmişə belə olmur və bu faktın özü Tanrı yolunun dərkedilməzliyinə daha bir, bəlkə də, izafi sübutdur: uşağın doğulması üçün kişi toxumu öz-özlüyündə vacib şərtdir, amma kafi şərt deyil – hələ gərəkdir ki, kişi öz toxumunu məhz bunun üçün nəzərdə tutulmuş məkandan başqa yerə tökməsin, mərhum qardaşının nəslini davam etdirmək istəmədiyindən həyatını itirmiş bədbəxt Onan kimi, çünki o, gözəl bilirdi: toxum əgər qadının bətninə düşməsə, tam əminliklə demək olar ki, uşağa qalmayacaq, lakin bütün başqa vəziyyətlər üçün bu el məsəli həqiqətdir: "Nə əkərsən, onu da biçərsən", burada nə var ki. Lakin isbat olunub: Avraamın özündən birtəhər sıxıb çıxara bildiyi tükənməkdə olan damlaya doğulacaq İsaakı da yerləşdirən Tanrıdır və Tanrıdan başqa heç kəs qadınlar üçün zəruri olan bəlli halından çoxdan məhrum olmuş Saranın bətnini həmin o bir damlayla heç cür suvara bilməzdi. Biz bu sualı teogenik bucaqdan araşdıraraq – məntiqlə ziddiyyətə girmədən, çünki məntiq həm bu, həm də bütün başqa dünyalarda həmişə mütləq birinci məqamda durmalıdır – elə qənaətə gələ bilərik: məhz Tanrı İosifi belə israrla həvəsləndirirdi ki, (təhrik edirdi kəlməsini işlətmək istəmirik) arvadı Məryəmin yanına belə tez-tez və bu cür həvəslə girsin və sonrakı nəticələr barədə düşünməyib Vifliyemdə körpələrin qətlə yetirilməsinə imkan yaratdığı gündən bəri ona mənəvi ağrı verən vicdan əzabından yaxa qurtarmaq üçün məhz arvadını alətə çevirsin. Tanrı yolunun nəinki dərkedilməzliyinə, həm də bəzən, sadəcə, keçilməzliyinə dəlalət edən ən maraqlı məqam isə onda idi ki, İosif, az qala, şüursuz şəkildə, sövq-təbii hərəkət etməsinə baxmayaraq, öz hərəkətlərini – istəyirsiniz inanın, istəyirsiniz yox – Tanrı tərəfindən xeyir-dua almış hesab



edərək istəyirdi ki, Vifliyemdə qətlə yetirilən körpələri həyata qaytarmaq mümkün olmasa belə – bu, təbii ki, qeyri-mümkün idi, – yer üzünə, təxminən, elə həmin sayda övlad gətirsin və növbəti siyahıyaalma üçün ümumi sayı tarazlaşdırsın. Tanrı ilə dülgər İosif eyni səbəbdən əzab çəkirdilər və əgər o qədim dövrlərdə də "Tanrı heç vaxt yatmır" məsəli artıq mövcud idisə, bizim tam ixtiyarımız var ki maraqlanaq, bəs niyə yatmır – səbəb onun da səhvə yol verdiyi deyildimi, elə səhvə ki, nəinki İlahi Pərvərdigar, hətta adi insan üçün belə bağışlanmaz sayılardı? İosifin iradəsiylə yer üzünə buraxılan hər yeni uşaqla Tanrı aşağı dikdiyi başını bir az qaldırırdı, lakin sona kimi qaldırmaq ona heç vaxt nəsib olmayacaq, çünki İrodun qoşunları Vifliyemdə iyirmi beş canı qılıncdan keçirmişdilər, İosifə ayrılmış həyat isə həmin sayda oğlan uşağını dünyaya gətirmək üçün çatmazdı və buna bircə arvadının yorğun bətni bəs eləməzdi; bir də Məryəmin həm cismi, həm də ruhu o qədər əzab çəkmişdi ki, nə lazım olan sayda uşağa qala, nə də ki onları doğub, böyüdə bilərdi. Uşaqlar dülgərin həyət-bacasını, evini doldurmuşdular, amma adama elə gəlirdi ki, bu həyət də, bu ev də bomboşdur.

İosifin ilki beş yaşına çatanda, sinaqoqun nəzdindəki məktəbə getməyə başladı. Hər səhər tezdən anası onu müxtəsər savadı ibtidai təhsil üçün bəs eləyən müəllimin yanına aparırdı və sinaqoqda ona xüsusi otaq ayırmışdılar. İsa Nazaretin yaşı ondan artıq olmayan başqa oğlanlarıyla birlikdə məşhur müdrikin tərbiyə haqqında məsləhətlərini həyata keçirirdi: "Uşağı – Müqəddəs Qanunla, öküzü – boyunduruqla". Dərslər, indiki saatları götürsək, günorta başa çatırdı və vaxt tamam olana yaxın artıq oğlunu gözləyən yazıq Məryəm onun təhsilindəki uğurlarıyla belə, maraqlanmaq ixtiyarına sahib deyildi, çünki elə həmin müdrikin özü birmənalı şəkildə belə demişdi: Qanunu qadınların əlinə verməkdənsə, oda atmaq əfzəldir. Həm də bu imkanı istisna etmək olmaz ki, onun bu dünyada qadınların, o cümlədən də analarının yeri barədə



məlumatlanan oğlu bu sualın cavabında elə anlaşılmaz və dolaşıq ibarələr işlədib ki, onların məqsədi ancaq qadına öz yerini göstərmək, dəyərsizliyini yaddan çıxarmasına imkan verməmək olub; hərənin dəyərsizliyi, miskinliyi isə mütləq özünəməxsus olur, lap elə çar İrodu xatırlayaq – bir zamanlar sonsuz hakimiyyət, misilsiz, nəhəng gücü vardı onun, amma indi nəzər salaq – heç "Çürüntü içrə uzana qalıb"[1] dan belə onun üçün deklamasiya eləyə bilmərik, çünki çürüməyə də bir şeyi yoxdur, heç nə qalmayıb, kirli cır-cındırla örtülmüş murdar qoxulu sür-sümükdən savayı heç nə. İsa evlərinə girəndə isə atası soruşurdu: "Bəs bu gün nə öyrəndin?" – və təbiətin nadir yaddaş bəxş etdiyi oğlan aldığı dərsi sözbəsöz təkrar edirdi: əvvəlcə bu, hərflər idi, sonra ən mühüm anlayışlar, onun dalınca Tövratdan bütöv ifadələr və Kitabın parçaları, İosif isə ona qulaq asa-asa, sağ əliylə ritmi tutur, razılıqla başını tərpədirdi. Bir kənarda oturmuş Məryəm də yavaş-yavaş soruşa bilmədiklərini öyrənirdi – bu, qadın təhsilinin uzun əsrlər və minilliklərin təcrübəsiylə mükəmməliyə çatdırılan ən qədim üsuluydu: onlara soruşmaq icazəsi verilməyib, onlar, sadəcə, qulaq asırlar və tezliklə artıq hər şeyi mənimsəyirlər, ən uca zirvəyə çatanda isə yalanı həqiqətdən seçə də bilirlər. Onun bilmədiyi və yaxud kifayət qədər bilmədiyi bir şey vardı: atanı oğulla bağlayan hansı qəribə əlaqə idi ki, hər dəfə öz oğluyla danışanda İosifin üzündə yaranan kədərli şəfqət ifadəsini hətta yad adam belə duyardı, sanki, ata həmin an bunu düşünürdü: "Sevgili oğlum mənim – ağrım mənim". Əvəzində qadın bilirdi ki, ərinin dəhşətli yuxuları – ruhun gicişmələri – onun yaxasından əl çəkməsə də, artıq adət şəklini almışdı, məsələn, sağ böyrü üstündə yatmaq, yuxudan gecəyarısı oyanıb su içmək kimi. Yaxşı arvad kimi İosif üçün nigarançılıq çəksə də, Məryəm üçün dünyada hər şeydən vacib oğlunun həm ruh, həm cismani baxımdan tam sağlam olması idi və bu sağlamlıq

[1] Ş. Pessoanın "Anasının balası" şeirindən bir sətir

onun atasının törətdiyi günahın o qədər də böyük olmadığına və Tanrının öz qəzəbini nümayiş etdirmədən, artıq layiq olduğu cəzasını ona göndərdiyinə dəlalət edərdi, necə ki, İov adlı müflis olmuş, günahsız, ədalətli, rəbbindən qorxan və günahı yalnız Tanrı ilə İblis arasında mübahisənin predmetinə – hər ikisi öz mövqeyini, dəlillərini israrla müdafiə edirdi, – çevrilmək olan cüzamlı bir kişinin üzərinə Pərvərdigar cəza yollamışdı. Sonra da hələ təəccüblənirlər ki, insan çıxılmazlıq içində çığırır: Dağılsın o gün ki, mən dünyaya gəlmişəm və bir də həmin o gecə ki, barəsində "insan döl tutdu" deyirlər, o gün qoy qaralsın, o gecə – zülmətin qoynunda boğulsun, ilin aylarına, ayın günlərinə yazılmasın, həmin gecə – kimsəsiz olsun qoy, şadlıq qədəm basmasın ona, lakin, ədalət naminə qeyd edək ki, sonra Tanrı İovun itirdiklərini özünə qaytardı və aldıqlarının əvəzini sadəlövhcəsinə ikiqat ödədi və bunu adıyla kitab nazil olmayan başqaları haqqında qətiyyən deyə bilməzsən – onların hər şeyi əlindən alınıb və heç nəyi qaytarılmayıb, onlara vəd edilib, amma yerinə yetirilməyib. Dülgərin evində isə, heç nəyə baxmayaraq, həyat sakit keçir və masaları böyük müvəffəqiyyətin bol bəhrələrindən aşıb-daşmasa da, ruhun bədəndə həmişə qalmasına kömək eləyən çörəkləri, başqa şeyləri vardı. İovun və İosifin var-dövləti arasındakı yeganə bənzərlik isə budur ki, birincisinin yeddi oğlu və üç qızı vardı, ikincisinin isə – yeddi oğlu və iki qızı, odur ki bu sahədə də qəti üstünlük dülgərin tərəfində qalırdı; hər halda, o, dünyanı daha bir qadının gəlişindən xilas etməyə müvəffəq olmuşdu. O ki qaldı bütün qalan şeylərə, yadımıza salaq – Tanrı, İovun malik olduğu hər şeyi ikiqat artırana kimi yeddi min xırdabuynuzlu heyvanı, üç min dəvəsi, beş yüz cüt kəli, beş yüz dişi uzunqulağı və xeyli nökər-naibi vardı, İosifin isə cəmi bir dənə bizə yaxşı tanış olan eşşəyindən başqa heç nəyi yox idi. Etiraf edək ki, bir var, iki nəfəri doyurmaq üçün işləyəsən, sonra üçünü, lap qoy həmin o üçüncüsü bir il anasının

döşündən yesin, bir də var, gözünü açıb görəsən ki, bir bölük uşağın arasındasan, onlar axı böyüyür və özləri böyüdükcə ehtiyacları da artır, bu ehtiyacları isə gərək vaxtında, necə lazımdırsa, ödəyəsən. Nə qədər ki İosifin qazancı özünə işçi tutmaq üçün bəs eləmir, bütün ümidlər oğullarına qalırdı, onlar axı burada, lap əlinin altındaydılar və ata əgər övladlarının böyüyüb oğru-quldur olmasını istəmirsə, oğlanlarına mütləq sənət öyrətməlidir – bu, onun birbaşa vəzifəsidir, bu barədə Talmudda açıq deyilir. Əgər ravvilərin nəsihətlərində öz işi ilə məşğul olan ustaya hətta din alimlərinin ən müdrikini görəndə belə, ayağa qalxmamaq icazəsi verilirsə, bizim dülgərin öz sənətinin sirrlərini böyüyən oğlanlarına necə peşəkar qürur hissilə ötürməsini təsəvvür etmək çətin deyil – əvvəlcə İsaya, sonra İakova, sonra İosifə, sonra İudaya – ötürür və onlara peşəsinin sirlərini, incəliklərinə və bicliklərini öyrədir, amma eyni zamanda da qədim müdrik kəlamı unutmur: "Yeniyetmənin əməyi az gəlir gətirir, lakin ağılsız o şəxsdir ki, bu əməyə əhəmiyyət vermir", "uşaq əməyi" deyilən şey isə çox sonralar yaranacaq. Günorta yeməyindən sonra yenidən işinin qulpundan yapışan İosifə oğlanları kömək edirdilər və bu, həqiqi ailə işi gözəl bəhrələr verə bilərdi – bir də gördün dülgərlər sülaləsi lap günümüzə qədər yaşayardı – əgər nə istədiyini yaxşı bilən Tanrı başqa şey istəməsəydi.

* * *

Roma imperiyası yəhudi xalqını yetmiş ildən artıq müddətdə misilsiz qəddarlıqla və həyasız kibrlə ara vermədən tapdadığı bəs deyilmiş kimi, İrod carlığının parçalanmasından sui-istifadə edərək qərara aldı ki, daha bir siyahıyaalma keçirsin, bu dəfə insanlara anadan olduqları yerlərə qayıtmaq tapşırılmırdı ki, tarlalar, zəmilər kimsəsiz, mal-qara baxımsız qalmasın, ticarət dayanmasın və bütün bunlardan baş verən xoşagəlməz fəsadlar yaranmasın, məsələn, İosiflə



onun ailəsinin problemi kimi. İndi siyahıyaalma başqa cür keçirilirdi: sayçılar kənddən-kəndə, şəhərdən-şəhərə keçərək mərkəzi meydanda, ya da başqa açıq yerdə bütün kişiləri, – istər ailə başçıları olsun, istərsə də subay – bir yerə yığırdılar və gözətçilərin nəzarəti altında onların adları, rütbələri, məşğuliyyəti, ödədikləri vergi barədə ən xırda məlumatları belə siyahıya daxil edirdilər. Təbiidir ki, bu cür tədbirlər əhali tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanmırdı, hərçənd ki bunu məhz romalıların kəşf etdiyini və yalnız həmin dövrdə tətbiq olunduğunu heç cür iddia eləmək olmaz – elə Müqəddəs Kitabda həmin o çar Davidin ağlına gələn uğursuz ideyanı xatırlamaq bəs eləyir, o isə sərkərdəsi İoava belə bir əmr vermişdi: "Bütün İsrail və İuda nəsillərini Danadan Virsaviyaya qədər gəz və say ki, xalqımın sayı mənə bəlli olsun"; təbii ki, çarın sözü – qanundur, İoav öz tərəddüdlərini gizləyib, qoşununu yığdı, onlar da yola düşüb işə başladılar. Düz doqquz ay və iyirmi gündən sonra onlar Yerusəlimə qayıtdılar, İoav da xalqın siyahıyaalınmasının nəticələrini çara təqdim elədi və məlum oldu ki, israillilərin müharibəyə yararlı kişiləri səkkiz yüz nəfər, iudeyalılarınkı isə beş yüz min imiş. Lakin yaxşı bəllidir ki, kimsə onun yerinə haqq-hesab aparanda İlahi Pərvərdigarın heç xoşu gəlmir, ələlxüsus da – onun seçdiyi xalqı saymağa girişirsənsə, axı seçilmiş xalqın başqa hökmdarı yalnız elə seçilmişliyinə görə ola bilməz, özü də əgər bu hökmdarlığa yalançı ilahilərin və yalançı hakimlərin başçılıq etdiyi Roma iddialıdırsa – əvvəla, həmin ilahilər mövcud deyillər, ikincisi isə, hətta qismən mövcud olsalar belə, əgər insanlar heç bir məna və fayda olmadan onlara sitayiş edirlərsə, elə bihudə sitayişin özü də pərəstiş obyektinin qondarmalığına dəlalət edir.

Lakin hələlik Romanı kənara qoyaq və hekayətimizi siyahıyaalma ilə, çar Davidin əmriylə həyata keçirilmiş həmin bu tədbirlə davam etdirək ki, biləsiniz, sərkərdə hazırladığı

siyahısını oxumağa başlayanda çarın ürəyi əsdi, lakin artıq çox gec idi və heç çarın Tanrıya üz tutaraq gecikmiş peşmançılığını etiraf etməsi də fayda vermədi: "Ağır günah işlətdim bu işi tutmaqla və indi Sənə yalvarıram, ulu Tanrım, öz qulunun günahını bağışla, çünki çox düşüncəsiz hərəkət etmişəm", – səhər isə Davidin yanına Qad peyğəmbər – çarın gələcəkdən xəbər verən müdriki və deməli, onunla Tanrı arasındakı vasitəçisi gəldi və elan etdi: "Tanrı belə deyir, özün seç, ölkəndə yeddi il sərasər aclıqmı olsun, yoxsa özün üç ay düşmənlərindən qaçasan və onlar da səni təqib etsinlər, yoxsa ki, ölkəndə üç gün azar-bezar olsun". Davidin ağlına gəlmədi o dəqiqə maraqlansın ki, seçim üçün təklif olunan bu bəlaların hər birində nə qədər insan həlak olacaq və fikirləşdi: üç gün taun belə olsa, hər halda, üç ay müharibədən və yeddi il aclıqdan az adam qırılar və dedi: "Qoy sənin iradənlə olsun, Tanrım, qoy azar-bezar gəlsin ölkəmə". Tanrı da xəstəliyi göndərdi və yetmiş min adam qırıldı, təbii ki, qadınlarla uşaqları saymasaq – adətən, o zamanlar heç onları saymırdılar da. Nəhayət, Tanrı onun şərəfinə qurbangah düzəldilməsindən sonra ölkəyə yazığı gələrək bu bəlanı dayandırmağa razı oldu, amma vay ölənin halına, onlar birdəfəlik getdilər, ya İlahinin yadına düşmədilər, ya da ki onları artıq diriltməyin də bir mənası yox idi, çünki məntiqə əsaslansaq, təxmin etmək olardı ki, artıq onlardan qalan əmlakın bölgüsü tam sürətlə gedirdi və vərəsəlik hüquqları güzəştsiz mübahisələrə səbəb olurdu, çünki Tanrının himayəsi altında olsa belə, qan-tər içində, zəhmətlə, ya da döyüşdə qazanılmış – bunun elə bir fərqi yoxdur – sərvətindən imtina eləmək son məqamda bu xalqın xasiyyətinə uyğun deyildi, özü də nəhayətdə deyəndə, gərək ən son, nəhayət, nəzərə alınsın.

Lakin ən müxtəlif fəaliyyətlər, həm insanların, həm də Tanrının fəaliyyəti ətrafında daha əsaslı mulahizələr yürütmək üçün, bir məsələni də nəzərə almaq heç də pis olmazdı: məsələn, çar Davidin yol verdiyi səhvə görə alınan ağır qisas



özünü təcili göstərmişdi, lakin indi isə Pərvərdigar nədənsə heç tələsmirdi, onun sevimli balalarına Romanın bütün mümkün əzabları verməsinə kənardan göz qoyurdu və hər şeydən çox da narahatlıq doğuran o idi ki, özünə qarşı, öz gücünə qarşı son həddə çatan sayğısızlığı belə, anlaşılmaz biganəliklə qarşılayırdı. Əgər beladirsə, Tanrı köməyə tələsmirsə və özünü, ümumiyyətlə, heç cür büruzə vermirsə, insana çıxış yolu axtarmaqdan başqa şey qalmır, o da öz evini tərk edib xaosun hökmranlıq etdiyi, hər şeyin başayaq, kəllə-mayallaq olduğu dünyada nizam yaratmağa gedir və ona yox, Tanrıya məxsus olan bütün dünyanı öz evinə çevirir. Beləliklə, sayıcılar şəhərləri, kəndləri gəzib öz hakimlərinin abırsız və ötkəm əmrini möhkəm qalxan altında, yəni onları söz və hərəkətlə təhqir etmək istəyən adamlardan qoruyan döyüşçülərin müdafiəsi altında yayanda, Qalileya və İudeyada narazı danışıqlar başlandı, əvvəlcə sakitcə, elə bil, kimsə oyanmış etirazın gücünü yalnız yoxlamaq istəyirdi, ölçüb-biçmək istəyirdi, imkanlarını müəyyənləşdirmək istəyirdi, sonra isə bu narazılıq getdikcə gücləndi, sanki, qıcqıraraq şişmə prosesinə keçdi və bu proses çərçivəsində ayrı-ayrı ümidsiz etiraz partlayışları da baş verirdi, məsələn, sənətkar sayıcının qeydlər götürdüyü masanın önündə qəflətən bəyan eləyirdi ki, öz adını, hətta işgəncə altında olsa belə, deməyəcək və ya ticarətçi ailəsiylə bir yerdə dükanda qıfıllanıb bütün gil qab-qacağı qırıqlamaq, pal-paltarı cırıqlamaqla hədələyirdi hamını, ya da bir əkinçi öz əkinlərinə "qızılquyruq xoruz" buraxıb, yəni od vurub, sayıcıya bir zənbil kül təqdim edib deyirdi: İsrail onu təhqir edənlərə vergini belə ödəyir. Bir an sonra bu cəsurların hamısını tuturdular, döyür, təhqirlərə məruz qoyurdular, zira lap bineyi-qədimdən məlum olduğu kimi, insan gücə tabedir, onun mətanəti, dözümü, adətən, lap qısa müddətə yetir, axı çox kövrək, çox zəifik, əsəblərimiz elə tez boşalır ki, əksəriyyətin kişiyana hərəkətdən imtina etməsində heyrətamiz bir şey yoxdur və

axırda iş bununla bitirdi ki, elə həmin cəsur sənətkar dözə bilməyib özünün ən mübhəm sirlərini açırdı, ticarətçi özünün qızlarından birini, hərdən də lap ikisini vergiyə əlavə kimi romalılara təklif edirdi, əkinçi isə öz başına kül səpib könüllü olaraq qul kimi satılırdı. Düzdür, az da olsa, elələri də vardı ki, sonadək davam gətirir, sonra isə, sadəcə, ölürdülər, lakin bunlardan başqa üçüncülər də olurdu: belələri bir dəfə və əbədilik dərk etmişdilər ki, yaxşı romalı – yalnız və yalnız ölü romalıdır, əllərinə silah alıb dağlarda gizlənirdilər. Biz "silah" deyəndə, təbii ki, daşları, yabaları, ağac və dəyənəkləri, bir də uzaqbaşı oxla yayları nəzərdə tuturuq – düzünü desək, bütün bu cəbbəxana döyüş aparmaq üçün bəs eləməzdi – amma sonra, bəlkə də, bu siyahıya qısa toqquşmalarda ələ keçirilmiş qılınc, nizə əlavə olundu, lakin həlledici anda bu qənimətlərin onlara əhəmiyyətli bir köməyi dəyməzdi yəqin, çünki silahı olmaq hələ az idi, onunla rəftar etməyi də bacarmaq lazımdır, onlar isə hələ çar David zamanından əllərinin altında nə vardısa, onlarla, özlərinin düzəltdikləri sadə qurğularla müdafiə olunmağa adətkərdə idilər, bu silahlar isə müharibəni öz peşəsinə çevirən adamlardan çox, dinc çobanlara xas idi. Lakin hansı qəbilədən, tayfadan olmasına, yəhudi olub-olmamasına baxmayaraq, müharibəyə alışmaq, sonradan dinc həyata qayıtmaqdan qat-qat asan idi, xüsusilə də əgər belə insanlar özlərinə layiqli başçı taparaq ona özündən çox inandığına inana bilibsə. İosifin ilkinin on bir yaşı tamam olanda Roma əleyhinə qiyama qalxmış belə başçılardan biri – İuda, əslən Qalileyadan, daha doğrusu, Qavlonitiddən idi və buna görə də həmin dövrdə yayılmış adətə əsasən, onu Qalileyalı İuda və ya Qavlonitidli İuda adlandırırdılar.

Yəqin, yəhudilərin bu sadə adəti, yəni adlara təxəllüslər əlavə etmələri bir az qəribə görünə bilər, belə təxəllüslər hərdən lap əsl adların özünü belə sıxışdırırdı, odur ki Arimafeyli İosif, yəni Arimafeydən olan İosif, Kireneyli Simon, yəni Kireneydən olan Simon, ya da deyək, Mariya Maqdalina,

yəni Maqdalalı Mariya demək idi və əgər İosifin böyük oğlu yetkin yaşlarına çatsa, onu da, heç şübhəsiz, Nazaretdən olan İsa, ya Nazaretli İsa, ya da, sadəcə, Nazaretli çağıracaqdılar, axı əvvəlcədən heç vaxt bəlli olmur ki, insanın anadan olduğu yer, ya da bizim hadisədəki kimi, böyüyüb boya-başa çatdığı yer onun öz adı ilə nə dərəcədə möhkəm bağlanacaq. Lakin hələlik bu, ehtimaldan savayı bir şey deyil, çünki dəfələrlə isbata yetirildiyi kimi, tale həm ağzıaçıq və eyni zamanda da bağlı bir camdır – içinə baxsan, həyatda baş verənləri, keçmişləri, baş tutmuş qədəri görərsən, lakin o şeylər ki hələ olacaq, onları görmək nəsibimiz deyil: gələcək gözlərimizdən gizlənib və bizim əlimiz çatan yalnız qaranlıq ürəyədammalar, qarışıq hissiyyatlardır, məsələn, elə bu İncilin özü kimi və bu kitab da yaranmazdı, əgər taleyin bir neçə qəhrəmana adi insan həyatında baş verənlərdən daha əhəmiyyətli, qeyri-adi şeylər hazırlamasına dəlalət edən əlamətlər olmasaydı. Ot, necə deyərlər, öz kökü üstə bitər, Qavlonitidli İudanın damarlarında əsl qiyamçı qanı axırdı, çünki onun hələ atası, qoca Ezekiya öz zamanında dəstə yığıb, çar İrodun ölümündən sonra Qalileya torpaqlarında onun bütün ehtimal olunan varislərinə qarşı ayağa qalxan qüvvələrlə birləşmişdi və bu, Romanın çarlığın bölünməsi haqqında qərarı çıxana və yeni tetrarxların səlahiyyətinin qanuniliyi qəbul edilənədək baş vermişdi. Hərdən izah eləmək mümkün olmur ki, zahirən eyni materialdan hazırlanmış – elə eyni ət, eyni sümük, eyni dəri, eyni qan, eyni dərəcədə tərləyən, eyni ağlayan, eyni gülən adamlar birdən tamam fərqli olurlar; bəziləri qorxaq olur, digərləri cəsur, bəziləri döyüşkən, digərləri sülhsevər: İosif, deyək ki, İuda ilə eyni şəraitdə böyüyüb boya-başa çatıb, lakin öz atasının oğlu olan və oğlanlarının atası olan, atasının nümunəsinə sadiq qalaraq öğlanlarına nümunə göstərən İuda, rahatlığı, sakitliyi rədd eləyir ki, İlahi Pərvərdigarın yeganə hökmdar olmaq hüququnu döyüşdə müdafiə etsin, dülgər İosif isə

özünün doqquz azyaşlı uşağı və onların anası ilə evdə qalmağa üstünlük verir və elə əvvəlki kimi dülgər dəzgahının arxasında işləyərək ailəsi üçün çörəkpulu çıxarır, sabahkı günü barədə düşünmür, çünki yalnız Tanrı halidir sabah baş verəcəklərdən, hərçənd ki bəziləri belə hesab edirlər: bu heç kəsə bəlli olmayan adi fərziyyədir, başqalarından nə yaxşı, nə pis fərziyyə, bizim "dünən", "bu gün", "sabah" məfhumlarına şamil etdiyimiz müxtəlif anlayışlar isə, mahiyyətcə eyni məfhumun müxtəlif adlarından başqa bir şey deyil.

Amma, hər halda, aralarında xeyli cavan kişilər olan başqa nazaretlilər Qavlonitidli İudanın qiyamçı dəstəsinə qoşuldular: adətən, onlar kəndlərdən heç kəsə xəbərdarlıq etmədən gedirdilər və bir-birinin dalınca yoxa çıxırdılar, sanki, havada buxarlanırdılar, onların ailələri isə təbii ki, hər şeyi tam məxfilikdə saxlayırdı, qonşuları da ağızlarını qıfıllamağın zəruriliyini gözəl dərk edirdilər deyə, heç birisinin ağlına, yazılmamış qanunları pozaraq bu sualı vermək gəlmirdi: "Bəs Nataniel hara itib görəsən? Nəsə çoxdandır ki, görünmür", – məsələn, əgər həmin bu Nataniel sinaqoqda gözə dəymirsə və ya tarlada görünmürsə, biçinçilərin sırası bir nəfərlik qısalıbsa, belə vəziyyətlərdə hamı özünü elə göstərirdi ki, heç bir Nataniel buralarda əbəda olmayıb, hətta əgər mərkəzdə eşitsələr də ki, Nataniel bu yaxınlarda kəndə baş çəkib, gecənin zülmətində gizlin gəlib, elə gecə də gedib, əllərindən bir şey gəlmirdi, çünki onun gecə gəlişindən yalnız arvadının üzünə qonmuş təbəssümü aydın danışırdı, başqa heç nə və qadın heç bir səbəb olmadan, əgər yerində donub qalırsa, üfüqü dumanlı, gəzəri nəzərlərlə süzürsə, elə növbəti an baxışları divara dirənibmiş kimi dururs a, sakit suları yüngülcə ləpələndirən meh kimi təbəssüm sifətindən aramla, qayğılı-qayğılı sürüşüb keçirsə, yalnız qadının həmin təbəssümünü görə bilməyən kor inanar ki, Natanielin arvadı bu gecəsini ərsiz keçirib. Qadın ürəyi isə o qədər həssas, o qədər yanağandır ki, hətta ərlərindən ayrılmaq barədə düşünməyən

arvadlar da elə o dəqiqə bu nadir görüşlərin titrək məqamlarını təsəvvür edərək kökslərini ötürməyə başlayır və ağzınacan nektarla dolu olan çiçəyin üzərində vızıldaşan arılar kimi Natanielin arvadını həyəcan içində hər tərəfdən dövrəyə alırdılar. Məryəm isə bütün bu ehtiraslardan çox uzaq idi, onsuz da, doqquz uşaqla yanaşı, əri də özünə qarşı günbəgün daha böyük qayğı tələb edirdi, İosif hələ də gecənin bir aləmində dəhşətdən və misilsiz sıxıntıdan bağırıb oyanmağa davam edirdi, odur ki hər dəfə atalarının dalınca uşaqlar da durub ağlaşmağa başlayırdılar. Lakin zaman keçdikcə, təbii ki, uşaqlar öyrəşdilər buna, daha qorxmadılar və yalnız övladlarının ən böyüyü elə qabaqkı kimi gecəyarısı atasının səsinə yuxudan oyanırdı və çox mümkün ki, onun da yuxusuna qorxulu şeylər girirdi, oyanır və anasından soruşurdu: "Atama nə olub" və o da heç nə baş verməyibmiş kimi cavab verirdi:

– Sarsaq yuxu görüb, – axı oğluna bunu necə deyə bilərdi: atanın yuxusuna girir ki, guya, o, İrodun at belində Vifliyemə gedən döyüşçülərindən biridir.

– Hansı İrod?

– İndi bizim hökmdarımız olanın atası.

– Bəs niyə belə ucadan qışqırır, inləyirdi?

– Elə ona görə.

– Burada qorxulu nə var ki: özünü çoxdan ölmüş çarın doyüşçüsü görəsən?

– Sənin atan axı heç vaxt İrodun döyüşçüsü olmayıb, həmişə dülgər olub.

– Bəs onda bu yuxunu niyə görür?

– İnsanlar axı yuxularını özləri seçə bilmirlər.

– Deməli, onda yuxular özü seçir adamları, seçir ki, gözünə görünsün?

– Bu barədə heç eşitməmişəm, amma yəqin, elədir ki var.

– Bəs axı niyə belə qışqırır, inildəyir yuxuda?

– Çünki hər gecə yuxusuna girir ki, guya, səni öldürməyə hazırlaşır, – elə əslində də növbəti cavabı məhz belə

olmalıydı, amma Məryəm bu sözləri oğluna heç vaxt deyə bilməzdi, məgər ərini təqib eləyən kabusların sirrini öz balasına açа bilərdi heç, üstəlik də əgər həmin balası bu yuxuda Avraamın oğlu İsaak kimi qurbanlıq qismində görünürdü, lap sonda baş tutmamış olsa belə.

Bir dəfə İsa atasına düzəltdiyi qapını tənzimləməyə kömək edəndə özünü cəmləyib ona əzab verən sualı soruşdu, dalınca uzun bir sükut gəldi, ondan sonra atası gözlərini qaldırmadan söylədi:

– Oğlum, sən artıq vəzifə və borclarını bilirsən, onları yerinə yetir, bu minvalla Tanrının özündən xeyir-dua almış olacaqsan, amma həm də çalış ki, öz qəlbində elə borc və vəzifələr aşkarlayasan ki, başqalarına heç tanış deyil və Qanunda da yazılmayıb.

– Sənin yuxun elə budur, ata?

– Yox, bu, yuxunun yalnız səbəbidir, nəticə isə məhz buna görə mənə əziyyət verir, çünki bir dəfə mən öz borcumu unutmuşam artıq, hətta, bəlkə, bundan da pis nəsə etmişəm.

– Necə yəni "bundan da pis"?

– Unutmamışdım əslində, mən onu – yerinə yetirməli olduğum vəzifəni heç yadıma salmamışdım.

– Axı bu, sadəcə, yuxu idi.

– Yuxu mənə yalnız nə haqqında düşünməli olduğumu xatırladır, indi onu hər gecə xatırlayıram və bunu bir daha unuda bilmərəm.

– Bəs sən nə barədə fikirləşməyə borclu idin?

– Soruşma, çünki sən bütün suallarını verə bilməzsən, heç mən də onların hamısının cavabını bilmirəm.

Yay idi, günəş əməlli yandırırdı, ata ilə oğul həyətdə özlərini kölgəyə verib işləyirdilər. Yaxınlıqda da İsanın qardaş və bacıları oynayırdılar, uşaqların yalnız ən kiçiyi evdə idi, anasının döşünün dibində uzanmışdı özü üçün. İakov da atasına kömək eləməyə gəldi, amma ya yoruldu, ya da darıxdı işi görəndə, bu da, qətiyyən, qəribə deyildi – yeniyetmə yaş-



larında bir il fərq çox böyük şeydir, axı İsa, onun böyük qardaşı artıq həddi-büluğa çatmaq ərəfəsindəydi, təhsilinin ilk pilləsini başa vurmuşdu və indi dini tərbiyənin prinsiplərinə əsasən Tövratı, başqa sözlə desək, yazılı Qanunu daha geniş mənimsəməklə yanaşı, müdrikliyin daha çətin mənbəyini – Talmudu, ya da şifahi Qanunu öyrənməyə başlayacaqdı. İsanın kiçik yaşlarına baxmayaraq, atası ilə belə ciddi söhbətlər aparmaq, lazımi sözlər tapmaq və eyni zamanda da, ardıcıl, düşünülmüş mülahizələr yürütmək bacarığı da elə məhz bununla izah olunurdu. İsanın artıq on iki yaşı vardı, lap tezliklə həddi-büluğa yetişəcəkdi və mümkün ki, indi cavabsız qalan suallarını onda da atasından soruşacaqdı və əlbəttə ki, İosif özündə qüvvə tapıb günahını onun qarşısında etiraf edəcəkdi, öz günahını oğlunun qabağında boynuna almayan Avraamın tayı olmayacaqdı. Lakin Pərvərdigarın yazdıqlarının Tanrı qullarının dolanbac yollarıyla kəsişməsi çox nadir hallarda baş verir və bu da bir həqiqətdir, elə son anda göydən Tanrı mələyinin çağırdığı həmin Avraamın əhvalatını İosifinki ilə tutuşdurmaq bəs edər: Öz övladına qaldırma əlini, lakin İosifə nəinki Tanrı mələyi, elə Tanrının özü şərait yaratmışdı ki, çənədən boş üç döyüşçünün yoldakı söhbətinə qulaq assın, sonra da macal tapıb vifliyemli günahsız körpələrin nicatı üçün verilmiş fürsətdən istifadə edə bilməsin. Lakin əgər zaman ötdükcə İsa xoş niyyəti tərk etməsə, çox mümkün ki, bunu öyrənmək istəyəcək: "Niyə Pərvərdigar İsaakı xilas etmək istədi və niyə günahsız körpələrdən ölüm təhlükəsini kənarlaşdırmaq üçün barmağını barmağına belə vurmadı və o körpələr elə Avraamın oğlu kimi günahsız olsalar da, Tanrı dərgahında özlərinə qarşı mərhəmət qazanmadılar". O zaman İsa öz atasına deyərdi: "Ata, baş vermiş hadisədə günahkar yalnız sən deyilsən", – qəlbinin lap dərinliklərində isə, bəlkə də, ürək eləyib, hələ soruşardı da:

"Tanrım, elə bir gün yetişəcəkmi ki, yanımıza gəlib, öz övladların qarşısında günahlarını etiraf edəsən?"

Hələlik isə evlərinin və qəlbinin qapılarını bərk-bərk bağlayıb birini deyib, o birini gizləyən dülgər İosif oğlu ilə söhbətləşirdi, onların yüksək materiyadan sualların müzakirəsini apardıqları vaxt romalılar əleyhinə qalxmış müharibə davam edirdi. Bu müharibə artıq iki il idi ki gedirdi və zaman-zaman Nazaretə kədərli xəbərlər yetişirdi: Yefraim həlak oldu, Abizər öldü, Neftəli öldü, Yeleazar həlak oldu və kim indi dəqiqliyilə deyə bilərdi ki, onların cəsədi harada qalıb – dağlardakı daşların arasındamı, dərin uçurumun dibindəmi, ağacın əbəs yerə sıxlaşdırdığı kölgədəmi qalıb, yoxsa onları öz axarıyla çay aparır. Nazaretdə qalanlar isə özlərini yığışdırmalı olur, bildikləri hər şeyi inkar edirdilər və hətta həlak olanlar üçün yas saxlamaq imkanından belə məhrum olurdular, bu sözlərdən savayı daha nə deyə bilərdilər ki: "Bizim əllərimiz o qana bulaşmayıb, gözlərimizsə heç nə görməyib".

Lakin camaata böyük qələbələr barədə də müjdələr yetirdi: romalıları Sepforis şəhərindən qovublar; bu isə lap yaxında, Nazaretdən cəmi iki saatlıq piyada məsafəsində idi, bundan savayı İudeya və Qalileyanın, yəni İosifin öz doğma kəndinin elə əraziləri vardı ki, orada son il ərzində bircə dənə də olsun Roma əsgəri görünməmişdi. Kim bilir, bəlkə də, hər şeylə maraqlanan, qulluq göstərməyi sevən qonşusu Ananiyanı – onun barəsində biz öz hekayətimizdə indiyədək ötəri söz açmışdıq – həvəsləndirən bu idi ki, günlərin birində dülgərin evinə gəlib gizli işi olan adam görkəmiylə İosifə pıçıldasın: Çıxaq buradan, danışmaq lazımdır və demək vacibdir ki, elə ehtiyatlı uzaqgörənlik heç də əbəs deyildi, çünki bu bapbalaca evlərdə özgə gözlərindən və özgə qulaqlarından nə gecənin zülmətində gizlənmək mümkün idi, nə gündüzün işığında və nə eləsən də, necə qorunsan da, xeyri yox idi, onsuz da, xəbər tutacaqdılar, nahaq yerə deməyiblər: bir nəfər bildisə – hamı bildi və razılaşın ki, İlahi Pərvərdigar Məhşər günü "özününküləri" təyin etməli olanda bu vəzifə qat-qat yüngülləşəcək. İosif qonşusunun xahişinə çox elə



təəccüblənmədi, hətta Ananiya bu sözləri mübhəm tərzdə deyəndə belə: "Bax, ora gedək, səhraya"; – axı yaxşı yadımızdadır hələ, səhra – kitabda bu kəlməyə rast gələndə, yaxud onu haradasa eşidəndə, şüurumuzun adəti üzrə gözlərimiz önündə canlandırdığı mənzərə, qumdan başqa heç şeyin olmadığı nəhayətsiz ənginliklər, dəniz kimi dalğalarla şırımlanan isti qum təpələri deyildi yalnız, yox, burada da gözəl başa düşürdülər ki, səhra yamyaşıl Qalileyada da ola bilər və bu həm əkilməmiş zəmilər, həm heç kəsin yaşamadığı, insan izi, onun çəkdiyi zəhmətin izi duyulmayan kimsəsiz yerlər də ola bilər və deyəndə ki "səhraya gedək", bunu da əlavə etmək yerinə düşər ki, biz ora qədəm basanda, artıq səhra da səhralığını itirir. İki nəfər meşədən ötüb təpənin başında ucalan üç nəhəng daşın yanına yollananda, aydın idi ki, buradan Nazaret hələ görünsə də, tam kimsəsiz yer idi, deməli, onlar çıxıb gedəndən sonra yenə səhralığında qalacaqdı. Ananiya yerdə oturdu, İosif də onun yanında. Yaşları arasındakı fərq kənardan həmişə kifayət qədər bəlli olurdu: haqqında ilk dəfə söhbət açdığımız zamanlarda Ananiya hələ bəs deyincə şux idi, yaşına görə əla görünürdü, amma indi artıq əsl qocaya çevrilmişdi – zaman heç kəsə mərhəmət göstərmir, elə İosifə də. Ananiya tərəddüd edirdi və bayaq dülgərin evinə gələndə özüylə gətirdiyi bir parça cəsarətini də, elə bil, yolda itirmişdi. İosifə hal-hazırda lazım idi ki, heç nə soruşmadan sadə bir söhbətlə qocanı danışmağa həvəsləndirsin, məsələn, belə: "Ay uzağa gəldik ha..." Elə bu bəs idi ki Ananiya cavab versin: "Evdə danışılası söhbətdir ki..." Sonra isə, necə deyərlər, söz sözü çəkərdi, hərçənd bir azdan aydınlaşacaq ki, söhbəti doğuran mətləb, həqiqətən, çox incə idi deyə həmsöhbətləri xəlvətə çəkilməyə sövq etmişdi.

Ananiya dedi:

– Yadındadır, bir dəfə sən məndən xahiş eləmişdin ki, özünüz burada olmayanda evə göz qoyum, mən də sənin bu xahişini yerinə yetirdim.

– Sənin mərhəmətini heç vaxt unutmaram, – İosif cavab verdi, Ananiya isə sözünə davam edirdi:

– İndi də elə zaman yetişib ki, bir xahiş də mən səndən eləyim: istəyirəm burada olmayanda evimdən muğayat olasan.

– Arvadınla harasa gedirsiniz?

– Yox, tək gedirəm.

– Deməli, Şuya qalır, hə?

– Yox, o da balıqçı qohumlarının yanına gedəcək.

– Nədir, yoxsa demək istəyirsən ki, arvadını boşamaq fikrindəsən?

– Əgər onun sonsuz olduğunu biləndə atmamışamsa, indi heç atmaram, amma məsələ bundadır ki, bəlli bir müddət evdən uzaqda olmalıyam, Şuya üçün də yaxşı olar ki, həmin müddəti qohumlarının yanında qalsın.

– Çoxmu qalacaqsan orada?

– Bilmirəm, bu, müharibənin nə qədər çəkəcəyindən asılıdır.

– Müharibənin nə dəxli var ki? – İosif son dərəcə təəccüblə soruşdu.

– Mən Qavlonitidli İudanı axtarmağa gedirəm.

– Onu neynirsən ki?

– Soruşacam ki, görüm məni öz dəstəsinə qəbul eləyər?

– Ananiya, sən axı həmişə sülhsevər, dinc adam olmusan, heç inana bilmirəm ki, romalılarla savaşa girişmək istəyəsən; yadına sal, gör bir Yefraimin, Abizərin başına nə gəldi.

– Neftəli ilə Yeleazarı da əlavə eləyə bilərsən.

– Ağlını başına yığ, Ananiya.

– Yox, İosif, sözlərimə yaxşı fikir ver və heç fərqi yoxdur ki, indi məni dilləndirən nədir, çünki yaşda artıq atama çatmışam, o isə öz həyatı boyu məndən – öz oğlundan qat-qat artıq işlər görüb: heç özümdən sonra dünyada övlad da qoymuram, səndən fərqli olaraq, müdrik də deyiləm ki, məsələn, sinaqoqda ağsaqqallıq eləyim, odur ki indi mənə

oturub gecə-gündüz ölümümü gözləmək qalır, özü də çoxdan sevmədiyim arvadın yanında.

– Eladirsə, ayrıl ondan.

– Ondan yox, kaş özümdən ayrılaydım, amma başa düşürsən ki, mümkün deyil.

– Bəs necə döyüşəcəksən, axı nə güc var səndə?

– Döyüşəcəyəm, elə doyüşəcəyəm, sanki, dünyaya oğul gətirmək istəyirəm.

– Ömrümdə belə söz eşitməmişəm.

– Elə mən də eşitməmişəm: bu fikir indicə gəldi ağlıma.

– Nə deyirəm, düz sən qayıdana kimi evinizə göz qoyaram.

– Əgər qayıtmasam və sən də eşitsən ki, məni öldürüblər, bu xəbəri Şuyaya çatdırmağa söz ver: qoy varis kimi ona nə düşürsə, hamısını ala bilsin.

– Söz verirəm.

– Artıq arxayınam, qayıdaq.

– Bu necə olur: müharibəyə hazırlaşırsan, özün də belə sakitsən, – düzünü desəm, səni heç başa düşmürəm.

– Ah, İosif, İosif, neçə yüz il ərzində təcrübə yığıb Talmuda əlavə etməliyik ki, ən sadə şeyləri anlayaq?

– Bəs niyə bu qədər uzağa gəldik?

– İstəyirdim səninlə şahid yanında danışam.

– Məgər hər şeyi görən və eşidən Tanrının özü, harada olmağımızdan asılı olmayaraq daim başımızın üstündə açılan göylər hər yerdə bizə şahidlik etmir?

– Mən bu daşların yanında danışmaq istəyirdim.

– Daşlar lal-kardırlar, onlar şahidlik edə bilməzlər.

– Elədir, lal-kardırlar, lakin sabah onların yanında içdiyimiz andı pozsaq, onlar bizi düz özləri toza çevrilənə kimi, biz torpağa dönənə kimi ittiham edəcəklər. Yaxşı, gecdir, qayıdaq.

Yol boyu Ananiya bir-neçə dəfə arxasına qanrılıb baxdı ki, daşları bir də görsün, onlar təpənin arxasında gizlənəndə isə İosif soruşdu:

– Şuyanın necə, artıq xəbəri var bundan?

– Hə, demişəm.

– Nə deyir?

– Əvvəl-əvvəl susurdu, amma sonra dedi: – Məndən boşansaydın, daha yaxşı olardı, – indi də elə hey ağlayır.

– Biçarə qadın.

– Özününkülərin yanına dönən kimi məni unudacaq, lap döyüşdə ölsəm belə heç fərqi yoxdur, onsuz da, unudacaq: həyatın qanunu budur – unudulma.

Onlar kəndə girdilər və bu səmtdən, yol tərəfdən gələndə qonşusununkundan əvvəl gələn dülgərin evinə yaxınlaşarkən qardaşları İakov və İuda ilə küçədə oynayan İsa atasına xəbər verdi ki, anaları elə indicə qonşuya keçib. Kişilər Ananiyanın evinə sarı yollandılar və arxadan qardaşları ilə oynayan İudanın amiranə səsini eşitdilər, qürurla deyirdi:

– Mən Qalileyalı İudayam.

Sonra qonşu çönüb oğlana nəzər saldı, gülümsünüb atasına dedi:

– Budur, mənim sərkərdəm, – lakin İosif ona bir cavab verməyə macal tapmadı, çünki o biri oğlunun – İsanın səsini eşidirdi:

– Onda sənin yerin bura deyil.

Bu sözlər İosifin ürəyini elə sancdı, sanki, onun özünə ünvanlanırdı, adi uşaq oyununda isə tamam başqa – ali həqiqətin təzahürü canlanırdı və o nədənsə həmin o üç daşı xatırladı, daxilindəki mübhəm çağırışa tabe olub təsəvvür eləməyə çalışdı ki, onların lal şahidliyi qarşısında dayansa necə yaşayar, necə danışar, necə hərəkət edərdi və artıq bir an sonra dəhşətdən ürəyi üşüdü, çünki bütün bu müddət ərzində Tanrını heç yada salmadığını xatırladı.

Qonşunun evində Məryəm çox çalışdı ki, yazıq Şuyanı birtəhər sakitləşdirsin, o isə ancaq qapıda iki kişini birdən görəndə ağlamağını kəsib gözlərinin yaşını sildi, hərçənd bunun mənası qətiyyən o deyildi ki, dərdi səngimişdi, sadəcə

olaraq, burada qadınlar dinməz ağlayaraq göz yaşlarını udmağı öyrənmişdilər – yəqin, elə ona görə deyirlər: "Onlar elə güldükləri qədər də ağlayırlar, amma bu heç düz deyil, çünki gülüş cingiltili, göz yaşları laldır".

Düzdür, Ananiya evini tərk eləyən gün arvadı qəlbini sarmış kədəri gizləmək iqtidarında olmadığından artıq lap ucadan ağlayırdı. Bir həftə sonra isə arxasınca dəniz kənarında yaşayan qohumları gəldi. Məryəm onu Nazaretin sərhədlərinə qədər yola saldı və elə orada da vidalaşdılar. Şuyanın gözləri qupquru idi, lakin bəbəklərində səngiməz bir dərd özünə əbədi yuva salmışdı, sanki, qəlbində alov alışmışdı, heç cür sönə bilmirdi və bu alov onun göz yaşlarını hələ doğulmamışdan qurudub yanaqlarından aşağı yuvarlanmasına imkan vermirdi.

Aylar bir-birini beləcə əvəz edirdi, elə qabaqkı kimi müharibədən müxtəlif xəbərlər gəlirdi – bəzən yaxşı, bəzən də pis xəbərlər və əgər yaxşı xəbərlərdə diqqətlə fikir verəndə çox əhəmiyyətsiz və kiçik görünən qələbələrə dumanlı eyhamlardan savayı bir şey olmazdısa, pis xəbərlər, əksinə, artıq Qalileyalı İudanın qiyamçı dəstələrinin ağır və qanlı məğlubiyyətlərindən söz açırdı. Bir dəfə də Baldadın həlak olması haqqında xəbər gəldi, bu hadisə qiyamçıların qurduğu pusqunun üstünə gözlənilmədən romalılar gəlib çıxanda baş vermişdi, beləliklə, o quyunu qazanlar elə özləri də onun içinə düşmüşdülər, həmin hadisədə çoxlu ölən olmuşdu; Nazaretdən təkcə Baldad idi. Bir dəfə isə kimsə gəlib xəbər vermişdi ki, guya, kimsə kimdənsə eşidib kiməsə deyirmiş ki, Suriyanın romalı canişini Varon iki legion əsgərlə qiyamçıların üstünə yeriyir; guya, o, üç ildən bəri davam edən və artıq dözülməz olmuş üsyana bu yolla birdəfəlik son qoymaq istəyir. Öz-özlüyündə "mən isə eşitmişəm ki" sözləriylə başlayan xəbəri bu üsulla almaq özünün qeyri-müəyyənliyiylə insanların içinə bir qorxu salırdı və onlar hər dəqiqə gözləyirdilər ki, elə indicə qarşıdakı döngədən dəhşətli cəza

dəstəsinin başı üstündə qartallar və dörd hərfli SPOR kəlməsi – "senat və Roma xalqı" sözlərinin baş hərfləri – yazılmış bayraqlar görünəcək və bu emblemlər, bu bayraqlar və standartlar, üstündə çəkilən təsvirlərdən asılı olmayaraq, həm o dövrlərdə, həm də sonrakı və bütün zəmanələrdə, sanki, insanların öz həmcinslərini qətlə yetirməsini imza və möhürlə qanuna mindirirdi və başqa, birincisindən heç də az məşhur olmayan daha bir qısaldılmış ifadəyə – İNRİ, yəni "İsa Nazorey İudeya Çarı" ifadəsinə də məhz belə hörmətli məqam ayrılmışdı, lakin gəlin hələ çox qabağa qaçmayaq, hər şeydən öz məqamında söz açmaq gərəkdir, hərçənd ki sonrakı hər şeyi bilməyimiz, onlardan, sanki, başqa bir dünyadan səslənirmişik kimi danışmaq iqtidarında olmağımız qəribə hisslər doğurur, çünki hələ bu dörd hərf naminə nə həyatından keçən var, nə canını verən – hər şey hələ qabaqdadır.

Hər yerdən ağır döyüşlərin sorağı gəlir və inamı möhkəm olanlar deyir ki, bir il keçməz, romalılar İsrailin müqəddəs torpaqlarından qovular, lakin xeyli elələri də var ki, bu vədləri eşidəndə yaxınlaşmaqda olan bəlaları hiss edərək başlarını qüssəylə aşağı dikir və bütün bunların nəticəsi barədə düşünürlər. Elə axırda haqlı çıxan da onlar oldu. Varonun legionlarının hərəkətə gəlməsi barədə şayiələr yayılmasından keçən bir neçə həftə ərzində heç bir hadisə baş vermədi, elə qiyamçılar da fürsətdən istifadə edib mübarizə apardıqları dağınıq qoşun hissələrinə qarşı təsirli basqınlarını şiddətləndirdilər, lakin tezliklə bu zahiri sakitliyin strateji əsasları bəlli oldu: Qalileyanın kəşfiyyatçıları məlumat verirdilər ki, legionlardan biri dövrələmə manevri keçirib İordandan üst tərəfdə cənuba doğru irəliləyir ki, sonra İerixon bərabərində sağa burularaq şimala hərəkət edəndə usta balıqçı əliylə suya atılmış tor təki qarşısına çıxan nə varsa, çəkib özüylə aparsın; elə eyni manevri həyata keçirən ikinci legion isə cənub səmtinə hərəkət eləyirdi. Hərbi dildə bu fəndə "kəlbətinə almaq" deyirlər, amma bu manevrləri həyata

[1] *Tirada* – dramda qısa və təsirli monoloq

keçirən legionlar hər şeydən çox üzbəüz gələn iki divara oxşayırdı: getdikcə daralan boğazdan çıxıb qaça bilməyən hər şeyi əzən divara və belə şəraitdə sonuncu – həlledici, düşmənin bütün canlı qüvvəsini məhv edəcək zərbə isə məhz sonuncu dəqiqələr üçün ehtiyatda saxlanırdı. Roma legionlarının Qalileya və İudeyanın yolları, vadiləri, dağlarıyla yürüşü İudanın həmməsləklərini çarmıxa çəkdikləri böyük xaçlarla qeyd olunmuşdu, onların əllərini xaçın köndələn tirinə mismarlayır, ayaqlarını, daha doğrusu, baldır sümüklərini isə çəkiclə xıncım-xıncım eləyirdilər ki, ölüm gecikməsin. Legionerlər kəndlərə girir, şübhəli şəxslərin axtarışında ev-ev gəzirdilər, çünki bu insanları çarmıxa çəkmək üçün – təki istək olsun – adi şübhədən başqa heç bir dəlil-sübuta ehtiyac yox idi. Bu bədbəxtlərinki hələ gətirmişdi – acı ironiyama görə üzr istəyirəm: axı onları, belə demək mümkünsə, düz evlərinin qabağında çarmıxa çəkirdilər, elə buna görə də son nəfəsləri kökslərindən çıxandan sonra qohumları cəsədlərini xaçdan çıxarmağa tələsirdilər, bu mənzərəyə baxan adamın onlara yazığı gəlirdi: anaların və arvadların ağlaşması, atasız qalmış uşaqların çığırtısı və onlar min bir əzab içində ölmüş bədbəxti olmazın ehtiyatla xaçdan çıxarırdılar, çünki cansız cəsəd oradan yerə düşsəydi, dirilərin də canı ağrıyacaqdı. Sonra çarmıxa çəkiləni tabuta qoyurdular, meyit də mütləq bazar gününü gözləyirdi. Lakin dağlarda-zadda, adamsız yerlərdə döyüşdən sonra əsir düşənləri legionerlər çarmıxa çəkəndən sonra xaçın üstündə elə diri qoyub gedirdilər, bu zavallılar da adı Tənha ölüm olan səhralar səhrasında qalırdılar: günəş yandırır, vəhşi quşlar didib-dağıdırdı cisimlərini və zaman da onları çürüyən ətdən, ovulan sümüklərdən ibarət murdar tör-töküntüyə çevirirdi – o qədər murdar, o qədər pis bir şeyə ki, onlardan mərhumun öz ruhu belə iyrənərdi. Həm əvvəllər, həm də tamam başqa şəraitdə bizimki kimi İncillərin yazdıqlarını dinməzcə qəbul etmək istəməyən, hər şeylə maraqlanan, hər

şeyin xırdalıqlarına varan insanlar, bəzən də lap elə bədbin – özləri də bilmək istərdilər ki, romalılar bu qədər yəhudini çarmıxa necə çəkə biliblər; özü də bu edam prosesləri, əsasən, meşəlik olmayan yerlərdə, çöllükdə baş verirdi və oralarda yüz ildə bir bitən ağaclar o qədər nazik, o qədər zəif olardı ki, onlarda heç bədənsiz ruhun özünü də çarmıxa çəkə bilməzdin – davam gətirməzdi.

Lakin bu insanlar gərək yadda saxlayalar ki, ozamankı hərb elminin son nailiyyətlərinə əsasən təşkil olunmuş Roma ordusu üçün maddi-texniki təchizat və arxa cəbhə – gəlişigözəl, boş sözlər deyildi, hərbi hissələr bütün İudeya kampaniyası ərzində xaçlarla fasiləsiz təchiz olunurdular, elə legionun arxasınca gələn qatır və eşşəklərin bitib-tükənməz sırasına nəzər salsanız bəs edər; bu araba karvanında başqa şeylərlə yanaşı, həmin edam aləti sökülmüş vəziyyətdə – müxtəlif ölçülü düzbucaq şəklində yonulmuş tirlər – daşınırdı, odur ki mənzil başına yetişəndə təkcə məhkumun qollarını köndələn tirə mismarlamaq, onu yerdəki şaquli tirin yuxarısına kimi çəkmək, sonra da əvvəlcədən dizdən bükülü ayaqlarını yana əyib üst-üstə qoyulmuş pəncələrinə bir qarışlıq mismar çalaraq onu xaçın üstündə möhkəmlətmək qalırdı. Roma legionundan olan istənilən cəllad sizə deyərdi ki, zahirən çətin görünən bu əməliyyatı sözlə təsvir etmək, onu həyata keçirməkdən xeyli müşküldür.

Bəli, bəla vəd eləyənlər haqlı çıxdılar, çox haqlı. Çaşqın qorxu hissi yaşayan insanlar şimaldan cənuba, cənubdan şimala qaçırdılar: onların arasında qiyamçılara kömək göstərməkdə şübhəli bilinənlər də var, eləcə adi qorxusu ucbatından qaçanlar da, xüsusən, ona görə ki, bizə bəlli olduğu kimi, müttəhim olmaq üçün günah işlətmək vacib deyildi.

Budur, qaçqınlardan biri addımlarını bir neçə dəqiqəliyə saxlayıb İosifin qapısını döydü və xəbər verdi ki, onun qonşusu Ananiya qılınc yarası alıb, indi Sepforisdədir və xahiş elədi onun arvadına çatdırasınız ki, müharibə məğlu-



biyyətlə başa çatıb və o da qaçıb gizlənə bilməyib, odur ki qoy arvadı gəlib onu aparsın.

– Daha heç bir şey demədi? – İosif soruşdu.

– Başqa heç nə demədi, – elçi cavab verdi.

– Bəs niyə sən onu özünlə gətirmədin, onsuz da, yolun buradan idi.

– Vəziyyəti heç yaxşı deyil, çox çətin olacaqdı, mən də ailəmlə bir yerdəyəm, əvvəlcə onların qayğısına qalmalıyam.

– Təbii ki, amma təkcə onların yox.

– Sən nədən danışırsan, mən ki görürəm, burada uşaqların var və əgər bir yana qaçmırsansa, deməli, səni təhlükə gözləyir.

– Burada ləngimə, get, qoy İlahi özü sənə kömək olsun; təhlükə Tanrı olmayan yerdədir.

– Sən tanrıtanımazsan, axı o ləməkandır.

– Hə, amma bəzən bizləri görmür, o ki qaldı Tanrını tanımağa, bu barədə fikir yürütmək sənə qalmayıb, öz yaxın adamını bəlada qoyanın imanı kamil olmaz.

– Lap yaxşı, düz deyirsən, onda elə özün get qonşunun dalınca.

– Gedərəm, niyə getmirəm ki.

Bu söhbət günorta baş verirdi, gözəl, günəşli bir gündə, bəmbəyaz buludlar avara, sükana ehtiyacı olmayan qayıqlar kimi səmada süzürdülər. İosif eşşəyini açdı, arvadını çağırıb söhbətin təfərrüatına varmadan dedi:

– Mən Sepforisə gedirəm, qonşumuz Ananiyanın dalınca, özü gələ bilmir.

Məryəm yalnız başını tərpətdi – hər şeyi anlamışdı, lakin balaca İsa atasının yanına yüyürdü:

– Olar, mən də sənin gedim?

İosif oğluna baxdı, sağ əlini onun başına qoyub dedi:

– Yox, sən evdə qal, mən tək gedəcəyəm, belə daha tez qayıdaram: o başa gedəndə yolda ləngiməsəm hava qaralmamış dönərəm, – bu mümkün idi, çünki Nazaretdən Sepforisə

səkkiz kilometrdən artıq məsafə yoxdur, elə Yerusəlimdən Vifliyemə qədər də elədir, bir də qeyd edək ki, bu dünyada üst-üstə düşən nə qədər şeylər var. İosif heyvanın noxtasından yapışıb yola düzəldi: istəyirdi ki, heyvanın gücünü qayıdanbaşa saxlasın: təpər aşıqda, sərtlik dırnaqdadır; süysünü sürtülməsin, belini yormasın, çünki qayıdanda zəif, daha dəqiqi, əlil şəxsi daşıyacaqdı, bu isə heç də eyni şey deyil.

Bir il qabaq Ananiyanın Qalileyalı İudanın qiyamçı dəstələrinə qoşulmaq qərarını ona açıqladığı təpənin dibindən keçəndə İosif gözlərini üç gilə kimi bir saplaqda bitişmiş üç böyük daşa sarı qaldırdı; orada, yuxarıda onlar, sanki, intizar içində donmuşdular, öz suallarına göydən də, yerdən də cavab gözləyirdilər – ucadan heç səslənməsə belə, bütün canlı və cansızların mövcudluğundan doğurdu bu sual: "Niyə buradayam? Bəlli olub-olmayan hansı səbəb bunu mənə izah edə bilər? Əgər dünya indi belədirsə, görəsən, mən olmasaydım necə olardı?"

Bunu bizdən Ananiya soruşsaydı, cavab verərdik ki, ən azı, daşlar necədirlərsə, elə də qalacaqlar: əgər külək, yağış, günəş onları, demək olar, aşındırmırsa, çox güman, iyirmi əsrdən sonra da elə durduqları yerdə duracaqlar və bu iyirmidən sonra daha bir iyirmi əsr keçəcək, dünya büsbütün dəyişəcək, amma həmin o birinci iki suala heç onda da cavab tapılmayacaq. Yolla dəstə-dəstə qaçqın gedirdi; Ananiyanın göndərdiyi elçinin yaşadığı qorxudan yaşayırdı hamısı – onlar İosifə təəccüblə baxırdılar və biri onun əlini əlinə alıb dedi:

– Sən hara gedirsən? – dülgər cavab verdi:

– Sepforisə, dostumun dalınca, yaralıdır, yazıq batıb qalacaq.

– Sən yaxşısı budur, öz halına acı, ora getmə.

– Niyə?

– Çünki romalılar lap yaxındadırlar, şəhərə aman verməyəcəklər.

– Mən getməliyəm, qonşum mənə qardaş kimidir və dalınca gedəsi başqa kimsəsi yoxdur.

– Yaxşı-yaxşı fikirləş.

Bunu deyərək həmin ehtiyatlı məsləhətçi yoluna davam edir, İosifi isə bir fikir yolun ortasında daşa döndərir; Düzdür ki, o, özünü çox istəyir, yoxsa – belə qənaətə gəlmək üçün onun daha çox əsası vardı – sevmir, nifrət edir özünə, lakin bir az düşünüb qərara aldı ki, nə elədir, nə belə: o, sadəcə, özünə qarşı biganə idi – özü üçün heç idi, heçlikdə isə nə yaxın, nə uzaq, göz ilişdirəsi heç nə olur, axı olmayan şeyə necə zilləyəsən gözünü. Sonra o düşündü ki, atalıq borcu onu geri dönməyə çağırır: çünki ən əvvəl gərək övladlarının qayğısına qalasan, daha sənə yalnız qonşu, özü də keçmiş qonşu olan birisinin dərdinə hay verməyəsən, o axı öz evini atıb gedib, arvadını da başqa diyarlara göndərib. Lakin İosifin övladları təhlükəsizlikdə idilər – romalılar xətər toxundurmazdı; axı onlar yalnız qiyamçıları axtarırdı. Fikirlərinin axarı İosifi bu qənaətə gətirəndə o fikir verdi ki, içindəki həyəcanına cavab verirmiş kimi ucadan söyləndi bu sözləri: "Mən ki qiyamçı deyiləm". Elə həmin an da eşşəyinin sağrısına şapalaq vurub qışqırdı: "Hə, yeri görüm" və yoluna davam elədi.

O, Sepforisə girəndə artıq axşam düşürdü.

Evlərin və ağacların yerə uzanmış, əvvəlcə aydın görünən uzun-uzun kölgələri tədricən itirdi, sanki, özlərini üfüqə kimi çatdırıb o üzə keçirdilər: lap çay astanasından o tərəfdəki dərin sular kimi. Küçələrdə adam az idi, qadın və uşaq isə heç gözə dəymirdi; yalnız etibarsız silahlarını əllərindən indicə qoymuş yorğun kişilər ağır-ağır nəfəs ala-ala yerdə uzanmışdılar və yəqin, heç kəs deyə bilməzdi ki, onlar yenidən döyüşmək üçün güc yığırlar, yoxsa döyüş meydanından birdəfəlik qaçıblar. İosif birinə sual elədi:

– Romalılar yaxındadır?

O gözlərini əvvəlcə yumdu, sonra yavaş-yavaş açdı və dedi:

– Sabah burada olacaqlar – və üzünü çevirə-çevirə əlavə etdi – get buradan, eşşəyini də min, get.

– Mən dostumu axtarıram, onu döyüşdə yaralayıblar.

– Tapa bilməzsən: buralara sərilmiş yaralılar qədər sənin pulun olsaydı, dünyada ən varlı adam olardın.

– Bəs yaralılar indi haradadırlar?

– Buradadırlar, həm də o tərəfdə: hər yerdə yaralılardı da.

– Bəs elə bir bəlli yer var ki, yaralıları ora toplasınlar?

– Odur e, bax, o evlərin arxasında anbar var, içində yaralı lap çoxdur, bəlkə, öz dostunu orada taparsan, tələs – ora yaralı gətirməkdən daha tez-tez ölü aparırlar.

İosif şəhəri tanıyırdı; bura tez-tez düşürdü yolu, bura həm qazanc dalınca gələrdi – çiçəklənən, böyüyən Sepforisdə daim nəsə tikilirdi, yaxşı dülgərə həmişə ehtiyac vardı – həm də xeyli uzaq olan, yolu baha başa gələn Yerusəlimdə bayram edilməsi zəruri olmayan dini mərasimlərdə iştirak üçün. Odur ki həmin anbarı tapmaq çətin olmadı: sadəcə, qan iyinə və əzab çəkən vücudların istisinə getməliydi, hətta bunu uşaq oyunu kimi də təsəvvür etmək olardı: lakin bəxtinə yummaq düşən adam gizlədilmiş əşyanı axtaranda onu yönəltmək üçün deyilən "soyuq, soyuq, ilıq, qaynar" sözlərinin əvəzinə, burda belə söyləmək lazım idi: "ağrıtmır, ağrıtmır, ağrıdır, bərk ağrıdır" və budur, artıq dözülməz oldu bu ağrı.

İosif eşşəyi qapının ağzındakı payaya bağladı; yəqin, bura at bağlayırdılar və qaranlıq xəstəxana palatasına dönmüş anbara girdi. Yerdəki həsirlərin arasında yağ çıraqları zorla işarırdı və onlar zülmət gecə səmasının ulduzları kimi idilər, zira işıqları yalnız özlərinin varlığını isbatlamağa yetirdi; onları lap uzaqdan da görə bilirdik. İosif Ananiyanı axtara-axtara uzanmış adamların arasıyla qoxuların boğucu qarışığını sinəsinə çəkə-çəkə yavaşca irəliləyirdi – yaraları təmizlədikləri yağ və çaxırın qoxusu gəlirdi, bir də tər, nəcis və sidik iyi, çünki müsibət içində olan bu adamların arasında elələri də vardı ki, tərpənmək imkanı olmadığından zəifləmiş

iradəsinin bədəndə saxlaya bilmədiyi şeylərdən elə uzandığı yerdə azad olurdu.

"Burada yoxdur", sıranın axırına çatan İosif dodaqaltı mızıldanaraq əks istiqamətdə getməyə başladı; bu dəfə daha yavaş addımlayıb sifətlərə çox diqqətlə baxırdı, çünki bütün əzabkeşlər, əslində, bir-birinə bənzəyirlər: saqqallar, çökəyə düşmüş gözlər, yağ və tərdən həyat nişanəsi zorla işaran, yapışqanlı üzdə batmış yanaqlar.

Yaralılardan bəziləri onu acgöz baxışlarla müşayiət edirdi, inanmaq istəyirdilər ki, bu sağlam adam onların ardınca gəlib, lakin bir anda gözlərdə alışan ümid işığı tez də sönürdü və yenə intizar – kimi, nəyi axtarır bu adam? – davam edirdi. İosif yaşlı, ağsaç və saqqallı bir adamın qarşısında durdu və öz-özünə dedi: "Bu odur", hərçənd ki bu adam İosifin Ananiyanı sonuncu dəfə gördüyü kimi deyildi: onda saçları gümüşüyə çalırdı, indi isə köhnə, kirli qar təpəsini xatırladırdı və yalnız qaşları elə əvvəlki kimi – kömür təki qaralırdı.

Gözləri qapalı idi, ağır-ağır nəfəs alırdı. İosif asta səslə çağırdı:

– Ananiya, – sonra bir az da əyilib daha ucadan səsləndi – Ananiya – və o, torpağın altından çıxırmış kimi ahəstə-ahəstə göz qapaqlarını qaldırdı, gözləri tamam açılanda aydın oldu ki, bu, həqiqətən, Ananiyanın özüdür – evini, arvadını qoyub romalılarla vuruşmağa gedən, indi isə burada qarnıcırıq halda uzanmış, iylənmiş ət qoxusu verən qonşusu.

Əvvəlcə Ananiya İosifi tanımadı; çırağın işığı zəif, gözləri isə ondan da zəif idi, yalnız İosif bir də tamam başqa ahənglə, bəlkə də, məhəbbətlə Ananiyanı çağıranda qocanın gözləri yaşla doldu və o dilləndi:

– Bu sənsən, bu sənsən, niyə burdasan, niyə buradasan, – deyib dirsəklərinin üstündə qalxmağa çalışdı, əlini ona uzatmaq istədi, amma tam gücsüzdü deyə, yenə ağrıdan üzünü qırışdırıb kürəyi üstə düşdü.

– Mən sənin dalınca gəlmişəm, – dülgər dedi, – uzunqulaq qapının ağzındadır, gözünü qırpmağa macal tapmayacaqsan, ikimiz də evə çatacağıq.

– Sən gərək gəlməyəydin, axı romalılar elə indicə şəhərə girəcəklər, mənim isə daha buradan çıxası halım yoxdur, heç yataqdan da qalxa bilmərəm, – dedi və titrəyən əllərilə xitonunun qılınc zərbəsindən cırılmış yaxasını araladı.

Çaxıra batırılmış yağlı əsgilərin altında iki dərin və uzun yaranın kənarları dodaqları şişmiş ağız kimi açılırdı və İosifin burun pərələri şirintəhər və ürəkbulandırıcı iydən titrədi, o, gözlərini qaçırdı. Qoca yaxasını örtdü, əlləri halsız şəkildə yanına düşdü, sanki, gücü artıq tam tükənmişdi.

– Özün görürsən, mənə toxunmaq olmaz, bir az tərpənsəm, bağırsaqlarım töküləcək çölə.

– Səni möhkəm sarıyarıq palana, yavaş-yavaş gedərik, tələsmədən, – İosif israr elədi, hərçənd ki səsinin ahəngində artıq bayaqkı əminlik yox idi: bəlliydi ki, qocanı eşşəyin belinə çıxarsa belə, mənzilbaşına sağ çatdıra bilməyəcək.

Ananiya isə yenə gözlərini yumdu və daha açmadan dedi:

– Get, İosif, get buradan, romalılar indicə çatacaqlar.

– Narahat olma, gecə hücum eləməzlər.

– Get, evə get, – Ananiya köksünü ötürdü, İosif isə ona cavab verdi:

– Yat. Sən yat.

Amma özü isə bütün gecəni gözlərini də yummadı. Hərdən huşu yuxulu gicəllənmədən dumanlansa da, yatmağa qorxduğundan onu aparan mürgüyə müqavimət göstərib özündən soruşurdu ki, bura niyə gəlib: axı, həqiqətən, onunla qonşusunun arasında həqiqi dostluq yox idi; ilk növbədə elə yaşlarındakı fərqə görə, amma təkcə ona görə də yox, həm də ona görə ki, Ananiya ilə arvadı qəribə adam idilər, daim hər şeylə maraqlanır, başqalarının işinə burun soxur və eyni zamanda da, məmnuniyyətlə köməyə gəlirdilər, lakin

adama həmişə elə gəlirdi ki, xeyirxahlıqlarının müqabilində nəsə gözləyirlər və burada əvəzi necə və nə ilə alacaqlarını da özləri müəyyən edirdilər; bu, onların müstəsna hüququ idi. "O, mənim qonşumdur, yaxınımdır və indi bu adam ölüm ayağındadır, gözlərini ona görə yummayıb ki, məni görmək istəmir; yaxınlaşan ölümün bir anını da qaçırmaq istəmədiyindən açmır gözünü, onu bu vəziyyətdə ata bilmərəm", – İosif fikirləşir və öz suallarına indi bundan yaxşı cavab tapa bilmirdi.

İki həsirin arasındakı dar keçiddə oturmuşdu; onların birində Ananiya, digərində isə lap cavan oğlan uzanmışdı, oğlu İsadan azacıq böyük olardı, zavallı astaca zarıyır, qızdırmadan çatlamış dodaqlarından anlaşılmaz sözlər qopurdu. İosif oğlanın əlindən həmin o an tutdu ki, Ananiya əllərini ətrafında nəsə axtarırmış kimi gəzdirməyə başladı, sanki, özünü qorumağa ya silah gəzirdi, ya da kimsənin əlini sıxmaq istəyirdi və bu üç nəfər beləcə də qalmışdılar: bir sağ – iki ölməkdə olanın arasında; bir həyat – iki ölümün ortasında, aydın gecə səması isə planetləri, ulduzları çəkə-çəkə aparırdı ki, dünyanın o biri üzündən bəyaz, parlaq ayı dartıb gətirsin, o isə fəzada süzür, bütün Qalileya torpağını özünün günahsızlığına bürüyürdü.

İosifi huş apardı və iradəsinin ziddinə olaraq yuxudan xeyli gec, yüngülləşmiş kimi oyandı, çünki bu dəfə yuxusuna Vifliyem yolu girməmişdi, gözlərini açanda isə gördü ki, Ananiya ölüb, gözləri də açıqdır: yəqin, son anda ölümün üzünə baxmağa cürəti çatmamışdı, sol əliylə isə onun barmaqlarını elə bərk sıxırdı ki, az qala, ufuldayacaqdı və onda İosif oğlanın bayaqdan bəri tutduğu əlini buraxdı, tam oyanmamış şüuru ilə başa düşdü ki, qızdırması artıq düşüb. Açıq qapıya baxdı, ay artıq çıxmışdı və keçid, hələ başlamamış günün qonur işığıyla dolmuşdu. Alaqaranlıqda kölgələr tərpəşirdi: bu, yaralılar idi, qalxmağa gücü çatan gedib şəfəqin ilk işartılarına baxırdı və onlar indi həm bir-birindən,

həm də birbaşa elə göylərin özündən soruşa bilərdilər: "Doğmaq istəyən günəş gözlərini açanda nə görəcək", – bir zamanlar biz mənasız suallar verməməyi öyrənəcəyik, həmin zamanın hələ yetişmədiyindən istifadə eləyib özümüzdən soruşaq: "Doğmaq istəyən günəş gözlərini açanda nə görəcək?"

İosif fikirləşdi: "Getmək lazımdır; burada daha məndən hay yoxdur", amma bir sual çaları bu fikri də boyadı, ondan sonrakını da: "Aparım onu Nazaretə" və ona elə gəldi ki, bura məhz bunun üçün gəlib; diri Ananiyanı tapıb ölü Ananiyanı aparmaq üçün.

Oğlan su istədi, İosif gil dolçanı onun dodaqlarına yaxınlaşdırdı:

– İndi necəsən?

– Bir az babatam.

– Hər halda, deyəsən, qızdırman enib.

– Hə, görüm qalxa bilirəm?

– Ehtiyatlı ol – İosif dilləndi və içində qəfil cücərən bir fikirdən çaşıb susdu: Ananiya üçün daha heç nə eləyə bilməzdi, təkcə Nazaretdə dəfn etməkdən savayı, amma bu oğlanı, əslən haradan olmasının da fərqi yoxdur, hələ xilas etmək, buradan, ölümün kandarından çıxarıb aparmaq olardı, əgər belə demək mümkünsə, qonşunun birini o biriylə əvəz edərdi. Artıq Ananiyaya yazığı da gəlmirdi, ondan qalan yalnız boşalmış vücud idi və İosif hər dəfə ona nəzər salanda ruhunun getdikcə uzaqlaşdığını görürdü.

Oğlan isə, elə bil, hiss edirdi ki, indicə başına nəsə yaxşı iş gələcək, gözləri parladı, amma heç nə soruşmağa macal tapmadı, İosif artıq bayıra çıxmışdı, uzunqulağın dalınca, istəyirdi anbarın içinə salsın onu: eşq olsun Tanrıya ki, insanın beyninə hərdən parlaq fikirlər də yerləşdirə bilir. Amma eşşək yox idi. Ondan qalan bir parça kəndir idi: oğru kəndirin sadə düyününü açmağa da vaxt sərf eləməmişdi, iti bıçaq məsələni daha tez çözmüşdü.

İosif bu bədbəxtliyi görəndə bədəni heydən düşdü, elə bil. Məbəddə dəyənəklə huşu başından çıxarılmış qurbanlıq dana kimi dizi üstə çökdü, əllərilə üzünü örtdü və on üç yaşından bəri bağışlanmasının və ya cəzasının intizarında damla-damla yığılan göz yaşları indi bir göz qırpımında sel kimi axdı. Tanrı öz iradəsiylə törənən günahları heç bağışlamır. İosif bir də anbara qayıtmadı: o artıq öz hərəkətlərinin də mənasını bilirdi, bütün dünyanın da və daha bu suala cavab axtarmırdı: "Günəş niyə qalxırdı, ya Rəbbim və nədən göy üzünə səhraya səpilən xırda daşlar kimi min-min bulud səpilib?"

Əgər kimsə İosifin əbasının qoluyla gözünün yaşını necə sildiyini görsəydi, yəqin, elə fikirləşərdi ki, bu anbarda uzanmış yaralılardan biri onun əzizi imiş və o öldüyündən ağlayır, amma əslində isə İosif elə indicə varlığının sonuncu göz yaşlarını, əzablı həyatının sonuncu damlalarını tökmüşdü gözlərindən. Şəhəri bir saatdan çox dolaşdı oğurlanmış eşşəyini tapmaq ümidiylə, zəif bir ümidlə dolaşdı və artıq Nazaretə qayıtmaq istəyirdi ki, Sepforisə girən Roma əsgərləri tərəfindən yaxalandı.

– Sən kimsən?

– Mən İosifəm, İlianın oğlu.

– Hardan gəlmisən?

– Nazaretdən.

– Hara gedirsən?

– Nazaretə.

– Belə bir gündə Sepforisdə nə işin vardı?

– Mənə dedilər ki, qonşum buradadır.

– Hansı qonşun?

– Ananiya.

– Tapdın onu?

– Bəli.

– Harda tapdın?

– Başqaları ilə bir yerdə, anbarda.

– Başqaları kimdir?

– Yaralılar.

– Harda?

– Orda.

Onu meydana apardılar; orada artıq on iki-on beş nəfər vardı, yerdə oturmuşdular, aralarında yaralılar da vardı və dedilər ona: Otur burada, bunların yanında. İosif başa düşdü ki, meydanda oturanlar qiyamçılardır, etiraz elədi: Mən dülgərəm, sakit adamam, bunlara heç bir aidiyyətim yoxdur və yerdə oturanlardan biri də onun sözlərini təsdiqlədi: "Biz bu adamı tanımırıq", lakin əsirlərə göz qoyan qarovul rəisi heç nə eşitmək istəmirdi və İosifi o biri əsirlərin yanına elə itələdi ki, yıxıldı: "Burdan bircə yolun var sənin – düz xaçın üstünə".

İlk anda yıxılmağından və çıxarılmış hökmdən ikiqat sarsılan İosifin başında bircə fikir də işarmırdı. Özünə gələndə isə daxilində böyük bir sakitlik tapdı, sanki, başına gələnlər sarsaq yuxudan başqa bir şey deyildi – bunların yuxu, özü də elə yata-yata anladığın yuxulardan olduğuna inandı – fikirləşdi ki, özünü yeyib-tökməyin, qorxmağın yeri yoxdur, gözlərimi açan kimi özləri duman təki dağılacaq başımdan. Burada xatırladı ki, Vifliyem yolu yuxusuna girəndə də o oyanacağından arxayın idi və elə həmin an da bütün vücudunu qəfil əsmə sardı və acı qisməti özünün bütün qəddar labüdlüyü ilə qarşısında birdən zühur etdi. Mən öləcəyəm, əbəs yerə, heç nədən öləcəyəm. Elə həmin an çiynində kiminsə əlini hiss etdi; yanında oturanlardan biriydi, deyirdi:

– Legionerlərin rəisi gələndə ona deyəcəyik ki, sənin bizə heç bir aidiyyətin yoxdur, o da səni buraxacaq.

– Bəs siz necə olacaqsınız?

– Romalıların pəncəsinə keçəndə adamı həmişə eyni şey gözləyir – xaç və elə bu dəfə də məhz elə olacaq, buna heç şübhə yoxdur.

– Tanrı sizə nicat versin.

– Tanrı ruhları xilas edir, bədənləri yox.

Daha iki-üç nəfər gətirdilər, sonra da iyirmisini birdən. Meydanın kənarında Sepforis sakinləri sıxışmışdılar; qadınlar və uşaqlar, tək-tük kişi də vardı, onlar narahat-narahat pıçıldaşırdılar, amma romalıların icazəsi olmadan yerlərindən tərpənə bilməzdilər, onsuz da, hələ bəxtləri möhkəm gətirmişdi ki, qiyamçılara kömək etməkdə suçlu bilinməmişdilər. Bir müddətdən sonra daha bir nəfəri gətirdilər, onunla gələn legionerlər isə dedilər: "Qurtardı, daha heç kəs yoxdur" və qarovul rəisi bunu eşidəndə komanda verdi: "Hamı qalxsın!"

Əsirlər elə bildilər ki, koqortanın komandiri gəlir, qonşusu isə İosifə: "Hazırlaş", – dedi, yəni hazırlaş, indi səni azad edəcəklər, sanki, azadlıq üçün də nəsə bir məxsusi hazırlıq lazım idi; amma gələn oldusa da, bu, koqorta komandiri deyildi və ümumiyyətlə, həmin adamın kimliyi qaranlıq qaldı, çünki rəis öz əsgərlərinə əmri latın dilində verdi; bunu da qeyd etmək lazımdır ki, həmin ana kimi əsgərlər tərəfindən nə deyilirdisə, yalnız latın dilində idi, Romanın dişi canavarından törəyən oğullar barbar şivələrini öyrənmək kimi əskikliyi özlərinə rəva bilməzdilər axı, bəs tərcüməçilər nə üçündür, lakin indiki vəziyyətdə söhbət hərbçilərin öz arasında gedirdi deyə heç bir tərcüməyə ehtiyac yox idi, legionerlər isə əsirləri cəld mühasirəyə aldılar: "Addımla, marş!" – və bütün dəstə – qabaqda məhkumlar, dalınca da Sepforis sakinləri şəhərdən çıxdılar. İosif anlayanda ki onu beləcə, aman diləmək imkanı vermədən aparırlar, əllərini göyə açıb qışqırdı: "Məni xilas et, mən onlar kimi deyiləm, mənə nicat ver, mən günahsızam", – lakin yaxınlaşan əsgər nizəsinin dəstəsiylə kürəyindən elə zərbə endirdi ki, İosif ayaq üstə zorla davam gətirdi. Sonuncu ümidini də itirdi. O, çarəsizlikdən Ananiyaya nifrət etdi; ona görə ki, İosif onun ucbatından ölümə məhkum olunmuşdu, lakin bu hiss bütün içini qarsaraq ürəyinə çatdığı kimi də getdi, yerində isə bomboş bir səhra qaldı. "Sanki, daha buradan o tərəfə

gedəsi yer yoxdur", – düşünürdü, lakin yenə səhvi vardı: var idi, gedəsi yer hələ var idi, hərçənd ki bu yer o qədər uzaq deyildi. Buna inanmaq çətindir, amma ölümün yaxınlığı onu sakitləşdirdi.

O, əzab və bədbəxtlik yoldaşlarını nəzərdən keçirdi – sakit idilər, aramla addımlayırdılar, bəziləri gözlərini yerə dikmişdi, eləcə də gedirdi; qalanları isə sinələrini gen açıb başlarını dik tutub qürurla irəliləyirdilər. Onların əksəriyyəti mömin idi. O anda İosif ilk dəfə öz balalarını saldı yadına, ani olaraq arvadını xatırladı, lakin doğma sifətlər, adlar çox idi deyə, başı yuxusuzluqdan, aclıqdan hərləndi və yol boyu davam edən bu hərlənmədə onları bircə-bircə salıb itirdi, qaldı təkcə İsa – onun ilki və sonuncu cəzası. İosif onunla yuxularından danışmasını xatırladı: "Məndən bütün sualları soruşa bilməzsən, mən də onların hamısına cavab verə bilmərəm..." İndi isə vaxt bitmişdi artıq, nə soruşmağa macal vardı, nə cavab verməyə.

Şəhərdən kənarda, amma Sepforisin küçələrindən görünən təpədə torpağa hər sırada səkkiz olmaqla qırx dənə qalın tir basdırılmışdı: insan çəkisinə dözsünlər deyə, kifayət qədər qalın idilər. Hər tirin yanında isə uzun, köndələn tir qoymuşdular: adamın başı və yana açılmış iki əli boyda. Bu edam dəzgahlarını görəndə əsirlərin bir neçəsi qaçmağa cəhd göstərdilər, lakin əsgərlər öz işlərini yaxşı bilirdilər deyə, onların qarşısını qətiyyətlə aldılar, qiyamçılardan biri özünü qılınca keçirmək üçün irəli atıldı, amma əbəs cəhd idi – yüngül ölüm qismәti olmadı, birinci elə onu apardılar xaçın ayağına. İş sürətləndi: məhkumların əlini yerdəki köndələn tirlərə mismarlayırdılar, sonra isə şaquli tirlərə qaldırırdılar. Ətraftan çığırtılar, iniltilər gəlirdi – Sepforis xalqı ağlayırdı, onların gözünü qırmaq üçün bu mənzərəyə baxmağa məcbur eləyirdilər. Tezliklə xaçlar mükəmməl, tam şəkildə ucaldılar: hər birisinin üzərindən ayaqları dizdən qatlanmış bir adam asılmışdı, odur ki əsirlərin ayağını niyə belə qatladıqlarını

bilmək maraqlı olardı deyə, qeyd edək ki, bu fərman Romadan gəlirdi və onu əməliyyatın maya dəyərinin aşağı salınması, materiallara qənaət məqsədiylə tətbiq etmişdilər, axı çarmıxa çəkilmənin texnologiyasından tam bixəbər olan şəxs belə dərk edər ki, insanı tam boyu ilə asanda, xaç da xeyli uzun olmalıdır, deməli, sərf olunan material da ona mütənasib artacaq, yükdaşımanın həcmi yüksələcək, qurğunun yerinə qoyulması daha böyük zəhmət bahasına başa gələcək və həmçinin bunu da nəzərə almaq lazımdır ki, alçaq xaçlar edam olunanlar üçün də daha əlverişli – təbii ki, bu vəziyyət üçün əlverişli imkanlar yaradır: əgər onların ayaqları, az qala, yerə çatırsa, deməli, onları sonradan xaçdan almaq üçün heç bir nərdivana ehtiyac yaranmır və necə deyərlər, tirin üstündən birbaşa ya qohumlarının, yaxınlarının qucağına düşürlər – bəlli ki, əgər qohumları varsa – ya da vəzifə borcuna əsasən onları dəfn edəcək şəxslərin qucağına: razılaşın, çarmıxda gələn əsrə kimi qalmayacaqdılar ki, kimsə basdırmalıydı onları. İosifi çarmıxa sonuncu çəkdilər, belə alındı, ona görə də tanımadığı otuz doqquz yoldaşının əzablarına bir-bir tamaşa eləyəsi oldu, özünün növbəsi çatanda və bütün ümidlər puç olanda isə artıq günahsız olduğunu bir daha söyləməyə də gücü qalmamışdı, yəqin, o daha bir imkanını da onda itirdi ki, əlində çəkici olan əsgər öz komandirinə belə dedi: "Bu kişi bayaqdan deyir ki, günahı yoxdur", rəis də fikrə getdi, bu yerdə mütləq gərək qışqıraydı ki, bəs mən günahkar deyiləm, amma İosif dinmədi, artıq təslim olmuşdu, onda rəis də ətrafına göz gəzdirdi, yəqin, düşündü ki, sonuncu xaçdan istifadə olunmasa, simmetriya pozulacaq, həm də düşər-düşməzi olar, zira qırx – gözəl rəqəm idi, tam, bütöv idi və əlini yelləyib işarə verdi, mismarı çaldılar, İosif isə qışqırdı, elə hey qışqırdı, qışqırdı, onu yuxarı qaldırdılar və bədəninin bütün ağırlığı ilə biləklərini dəlmiş mismarlardan asılı qaldı; bir də onda çığırdı ki, sonuncu, lap uzun mismar üst-üstə qoyulmuş pəncələrini deşdi: alqış

Sənə, ey ulu Tanrım, bu mənəm, Sənin yaratdığın insan; çünki Sənə qarğış yağdırmağa Qanun qadağa qoyur. Birdən, elə bil, kimsə işarə verdi, Sepforis xalqı birağızdan kədərli bir qışqırıq çıxardı, amma edam olunanlara canları yandığından deyildi – bütün şəhər eyni anda yanmağa başlamışdı, alov ulaya-ulaya evdən evə keçirdi, yaşayış məskənlərini, ictimai binaları, iç həyətlərdəki ağacları birər-birər udurdu. Digər legionerlərin odladığı şəhərdəki yanğına məhəl qoymayan, cəlladlara kömək üçün ayrılmış dörd əsgər isə çarmıxa çəkilənlərin sıraları arasında yüyürür, onların baldır sümüklərini ağır linglərlə qırıqlayırdılar. Çarmıxa çəkilənlər bir-birinin dalınca ölənə kimi Sepforis də bünövrəsinədək yanıb qurtardı. İosif adlı dülgər, İlianın oğlu hələ cavan idi, ömrünün lap çiçəklənən çağında – yaxın günlərdə otuz üç yaşı yenicə tamam olmuşdu.

* * *

Bu müharibə bitəndə – buna az qalmışdı, zira artıq onun ölümqabağı xırıltıları artıq eşidilirdi – insanlar orada-burada, yaxında-uzaqda müharibənin apardığı adamların sayını dəqiq hesablayacaqlar, əgər döyüş meydanlarında, pusqularda, toqquşmalarda həlak olanların sayı yavaş-yavaş öz əhəmiyyətini itirsə, hətta tamam unudulsa belə, xaçın üstündə ölmüş, təxminən, iki min adam İudeya və Qalileya əhalisinin yaddaşında həmişəlik qalacaq, çarmıxa çəkilənlər haqqında çox illər sonra da danışacaqlar, düz həmin torpaq başqa müharibənin qanıyla suvarılana kimi danışacaqlar. İki min çarmıxa çəkilən – bu həddindən artıqdır, lakin yol boyu birbirindən bir kilometr aralı basdırılmış, ya da gələcəkdə Portuqaliya adını alacaq ölkənin bütün perimetri boyu sancılmış xaçları təsəvvür eləsən, bu rəqəm adama olduğundan da çox gələr, çünki o boyda ölkənin sərhədləri, təxminən, elə o uzunluqda olardı. İordan çayından dənizə kimi olan bütün ərazidə dul qadınların, yetim uşaqların ağlaşması eşidilir: dulların,



yetimlərin qisməti elə budur: ağlayıb ağı demək, lakin sonra uşaqlar böyüyəcək, yeni müharibəyə gedəcəklər, onların yerini isə təzə dullar və təzə yetimlər tutacaq və əgər adət-ənənələr dəyişirsə belə, məsələn, matəm əlaməti olaraq ağ yerinə qara paltarlar, ya da əksinə geyirlərsə, əgər başının tüklərini yolmaq yerinə, onları krujeva ləçək altında gizlədirlərsə də, göz yaşları həmişə eyni qalır.

Məryəm hələ ağlamır, amma artıq ürəyinə damıb – əri evə qayıtmadı, Nazaretdə isə adamlar danışırlar ki, guya, Sepforisi bünövrəsinə kimi yandırıblar, xeyli adamı çarmıxa çəkiblər. Məryəm özüylə uşaqların böyüyünü götürüb İosifin dünən getdiyi yolu təkrar eləyir; onun səndəllərinin qoyduğu izləri arayır, hələ yağış mövsümü yetişməyib və külək hələ ki sakit, mülayimdir, yerə lap yüngülcə toxunaraq əsir, lakin artıq İosifin izləri bu yerlərdə çox-çox qabaqlar yaşamış hansısa qədim heyvanın izlərinə dönüb. Biz "Dünən" deyəndə, bu elə "Min il əvvəl" kimidir, çünki zaman – düyünləri olan kəndir deyil ki, qarış-qarış ölçəsən; zaman – dalğalanan maili səthdir və yalnız yaddaşımız onu hərəkətə gətirib bizə yaxınlaşdırmaq gucundədir. Məryəm və İsayla bir yerdə Nazaretin başqa insanları da həmin istiqamətdə gedirlər – kimi canıyananlıqdan, kimi maraqdan, onların arasında Ananiyanın hansısa uzaq qohumları da var, onlar elə gedəndə də bura gələndə yoldaşları olan həmin tərəddüdlərlə evlərinə dönəcəklər: əgər meyiti tapılmadısa, deməli, sağdır, amma anbarda axtarmaq heç ağıllarına gəlməmişdi: bir də gördün, öz ölülərini də başqalarının arasında elə onlar kimi kömürə dönmüş şəkildə tapardılar. Yolun ortasında nazaretlilər onların şəhərinə yollanan əsgərlərə tuş gələndə bəziləri vardövlətlərindən nigaran qalıb qayıdacaq, çünki qapılarını döyəndə heç bir cavab eşitməyən əsgərin ağlına nə gələcəyini kim bilər ki? Əsgərlərin başçısı isə bilmək istəyirdi ki, bu kəndlilərin Sepforisdə nə iti azıb, ora niyə gedirlər. "Yanğına baxmağa gedirik", – deyə cavab verəcəklər, əsgərbaşı da bu

cavabdan razı qalacaq, çünki dünya yarananda alov insanı özünə cəlb eləyib və bəzi müdriklər hətta deyirlər ki, bu meyil əbədi başlanğıcın batindən qalxan çağırışına təhtəlşüur cavabdır, insanın içindən ucalır; sanki, həmin o küldə yanmış nəyinsə yaddaşı yaşayır və elə bu səbəbdən də istər evimizi isidən ocaqda yansın, istər həmin evi aydınladan şamın fitilində titrəsin, fərqi yoxdur, biz daim alova ovsunlanmış kimi tamaşa eləyirik. Əgər pərvanələr, kəpənəklər və başqa həşəratlar kimi şüursuz və düşüncəsizcəsinə cəsur olsaydıq, yəqin, bütün bəşər nəsli tam heyətdə alovun içinə atılardı, onda ərşə elə misilsiz atəş qalxardı ki, onun işığı Tanrının bağlı göz qapaqlarından da keçər, onu letargiya yuxusundan oyadardı, amma onda da əfsus ki, İlahinin alovlar içində məhv olub külə dönmüş bizləri görmək, seyr etmək və tanımaq macalı daha olmayacaqdı. Ev dolusu uşağı nəzarətsiz qoyub gəlmiş Məryəm isə qayıtmadı – elə getməyində idi, hətta həyəcanlanmadı da, çünki çar İrodun qoşunları da körpələri öldürmək üçün evlərə hər gün soxulmur və heç bizim həşəmətli romalılar da onların böyüməsinə əngəl törətmirlər, əksinə, hətta camaatı buna həvəsləndirirlər də – yəni, hələlik yaşayın, sonrasına baxarıq, sonrası da birbaşa ondan asılı olacaq ki, siz nə dərəcədə qanunsevər, tərbiyəlisiniz, bir də vergilərinizi vaxtlı-vaxtında ödəyirsinizmi.

Budur, Məryəmlə İsüs yolun ağına düşüb gedirlər, Ananiyanın yarım düjün qohumunun başı isə söhbətə qarışdığından geri qalıblar, uzaqdadırlar və madam ki ana ilə oğulun o anlarda içlərini sökən nigarançılığı büruzə verən ifadələrdən savayı danışmağa sözləri yoxdur, tam dinməz gedirlər ki, bir-birinə artıq əziyyət verməsinlər, ətrafa qəribə sakitlik hakim kəsilir – nə quşların səsi eşidilir, nə küləyin vıyıltısı, heç nə, yalnız ayaqlarının yüngül tappıltısından başqa bir səs duymazsan, lakin o da get-gedə azalır, boğulur, sanki, vicdanlı bir yolçu təsadüfən sahiblərinin tərk etdiyi evə girib və indi utanaraq oradan çıxmağa tələsir. Yolun növbəti, sonuncu

döngəsindən sonra bəzi hissələri hələ də yanan, başdan-ayağa artıq seyrəlməkdə olan tüstü pərdəsiylə örtülü Sepforis qəflətən gözləri önündə açılır: evlərinin divarları hisdən qaralmış, kömürləşmiş ağacları pas rəngi almış yarpaqlarını qoruyub saxlayan Sepforis. Orada, onlardan sağda isə xaçlar ucalır.

Məryəm istədi xaçlara tərəf yüyürə, amma çox uzaq idilər – qaça-qaça çata bilməzdi və nəfəsi kəsiləndə addımlarını səngitməyə məcbur oldu: burada qəribə heç nə yoxdur; bu qədər doğuşdan sonra ürəyi zəif idi onun. İsa valideynlərinin hörmətini saxlayan oğul kimi indi də anasının yanında olmaq istəyir, sonra, ikisi bir yerdə eyni sevinci, ya da eyni kədəri yaşayanda da, lakin anası o qədər yavaş gedir, ayaqlarını elə çətinliklə atır ki, oğlan dilə gəlir:

– Biz bu minvalla, heç sabaha kimi də çatmarıq ora.

Məryəm əlinin hərəkətiylə onu sərbəst buraxırdı, sanki, belə deyirdi: "Get, tək get". Oğlan yolunu kəsə eləmək üçün birbaş tarlanın içindən keçir, var gücüylə tirlərə sarı yüyürdü, astadan: "Ata, ata", – deyib çağırmağa başladı: o ümidlə ki, edam olunanlar arasında onu tapa bilməsin, lakin bir an sonra daha bu kəlmələri əzabla deyirdi, çünki, bəlkə də, artıq tapmışdı. O qaça-qaça tirlərin birinci sırasına yaxınlaşdı – bəzilərinin üstündə hələ adam vardı, digərlərindən çıxarmışdılar, yerdə idilər, dəfnlərini gözləyirdilər və yalnız bəzi xaçların yanında mərhumun qohumları durmuşdu, çünki qiyamçılardan çoxu heç buralı deyil, gəlməydilər və müxtəlif dəstələrdə döyüşürdülər, yalnız sonuncu döyüşləri ərəfəsində elə burada birləşmişdilər, indi isə yenə ayrı idilər, onları ayırmışdılar başqalarından və sözlə təsvir olunmayan bir ölüm tənhalığı yaşayırdılar. İsa atasını görmür və onun qəlbindən yaşanası sevinc ötür. ağlı isə deyir: "Hələ dayan, bu, hələ son deyil... dayan, hə, bu da son" – axtardığı ayağının altındadır, yerə uzadıblar – demək olar ki, qan yoxdur, yalnız biləklərində və pəncələrində açıq dəliklərdə görərdin laxtaları –

İosif, sanki, yatıb; amma yox, ata, sən yatmamısan: ayaqlar bax belə, qeyri-təbii burulanda heç kəs yuxuya gedə bilməz, sağ olsun o kəs ki, rəhmdilliyi, heç olmasa, səni xaçdan çıxarmağa bəs eləyib, lakin o qədər edam olunan var ki, sənin qayğına qalanlar xıncım-xıncım olmuş ayaqlarını düzəltməyə macal tapmayıblar.

İsa adlı yeniyetmə, atasının cəsədi önündə dizləri üstə çöküb, ağlaya-ağlaya ona toxunmaq istəyir, amma cəsarəti çatmır, lakin elə bir an yetişir ki, kədər ölüm qorxusunu üstələyir və o, meyiti qucaqlayır. "Ata, ata" deyir, düz yanında isə başqa səs eşidir: "Ah, İosif, ərim mənim", – bu da artıq əldən düşmüş Məryəmdir, hələ yolda ikən ağlamağa başlayıb, çünki yerində donmuş oğlunu uzaqdan görəndə onu nə gözlədiyini anlamışdı. Lakin indi daha ümidsiz, daha acı-acı ağlayır, çünki sınmış ayaqlarını görüb: axı bəlli deyil ki, insanın yaşayarkən, xüsusilə də həyatının son dəqiqələrində çəkdiyi ağrılar öləndən sonra da davam edirmi, çox ola bilər ki, ölüm anı ilə, həqiqətən də, hər şey bitir, amma yəqin, heç kəs iddia edə bilməz ki, çəkdiyi ağrının yaddaşı, heç olmasa, bir-neçə saat bizim bədən adlandırdığımız nəsnədə yaşamır və bunu da istisna etmək olmaz ki, cismin iylənməsi və çürüməsi – bu əzablardan qurtarmaq üçün yeganə yoldur. Məryəm isə ona elə incə, elə yumşaq toxunur ki, sağ olanda buna heç ürək eləməzdi, çalışdı ki, İosifin qeyri-təbii burulmuş, onu sınıq kuklaya çox bənzədən ayaqlarını düzəltsin.

İsa atasına toxunmurdu, yalnız xaça qaldırarkən əynindən çıxarmadıqları xitonunun yuxarı çırmanmış ətəyini çəkir, amma insan bədəninin əslində nə qədər kövrək olduğunu qəribə, məxsusi bir kəskinliklə göstərən baldırları açıq qalır. Baldır sümükləri qırılmışdı, odur ki pəncələri dik baxmırdı, yana əyilərək topuqlarındakı, milçəkləri qan iyinə çəkib gətirən yaraları açırdı.

Bir az əvvəl ölüm ağacının məhvə məhkum meyvəsi olan İosifin nimdaş, toz içində olan səndəlləri torpağa basdırılmış

qalın tirin altına atılmışdı və yəqin, elə orda da qalardı, əgər İsa ya özünün sövq-təbii istəyindən, ya da yuxarının əmriylə əlini onlara uzatmasaydı və bunu Məryəm heç görmədi də, oğlan isə səndəlləri ailənin böyük uşağı olduğundan ona düşən rəmzi miras təki götürdü, kəmərinə taxdı, çünki çox və vacib şeylər bəsitdən, sadədən başlanır və əbəs yerə deyil ki, bu məsəl bizim günlərə kimi gəlib: "Atamın ayaqqabılarında mən də kişiyəm".

Roma əsgərləri bir az aralıda durub baş verənlərə nəzarət eləyirdilər, mərhuma son borclarını edam olunmuşların cəsədləri üzərində inilti və göz yaşlarıyla başa çatdıran insanların arasında əgər qiyama çağırış və yaxud düşmənçilik hərəkətləri görünsəydi, qarşısını almağa hazır idilər. Lakin bu adamlar ya çox dinc əhvali-ruhiyyədəydilər, ya da zamanı yetişənə qədər öz düşmənçiliklərini büruzə vermək istəmirdilər, bir edam olunandan o birinə yaxınlaşıb cənazə dualarını oxuyurdular və artıq düz iki saat idi ki, hər mərhumun başı üstündə eyni duanın kəlmələrini səsləndirir, əyinlərindəki paltarları cırırdılar – əgər mərhum qohum idisə, sol tərəfində, deyildisə, sağda dururdular və axşamçağının sakitliyində avazla oxuyanların səsləri eşidilirdi: "Tanrım, insan Sənin nəyinə gərək idi, bəşər oğlunu neynirdin, axı onun həyatı ani əsən bir meh kimi qısadır, qadının doğduğu insanın ömrü kölgədən də ötəri qısadır və yalnız əzablarla doludur, o, bir çiçək kimi bitir, elə çiçək kimi də biçinçinin orağına tuş gəlib solur, heç bir iz qoymadan kölgə kimi yox olur". Sonra, insanın Tanrı qarşısında miskinliyinin bu səmimi etirafının ardından xor daha ucadan, ruh yüksəkliyi ilə səslənirdi ki, İlahiyə insanın gözlənilməz əzəmətini də xatırlatsın: "Onu mələklər qarşısında nə qədər zəif yaratdığını, amma bunun müqabilində nə şöhrət verdiyini yadına sal".

Ağıçılar tanımadıqları İosifin ən qıraqdakı, qırx çarmıxa çəkilən arasında son sırada yer almış cəsədinə yaxınlaşanda dualarını oxumağa tələssələr də dülgər, hər halda, o dünyaya

əliboş getmədi; adət və Qanuna əsasən aparmalı olduğu hər şeyi apara bildi, tələskənliyin səbəbi isə bu idi ki, elə həmin Qanun çarmıxa çəkilənləri növbəti səhərə kimi basdırmamış saxlamağa icazə vermir, günəş isə artıq qərbə sarı əyilmişdi və tezliklə hava qaralmağa başlayacaqdı. İsanın yaşı az olduğundan, kədər əlaməti kimi paltarlarını cırıqlaması vacib deyildi, lakin onun nazik, titrəyən səsi Tanrı dualarını oxuyarkən başqalarının avazından daha yüksəklərə ucalırdı. Əgər yerə sərilmiş İosif mismarların deşdiyi pəncə və biləklərinin ağrısından hələ də acı çəkirsə, onda yəqin, İlahinin ədaləti barədə sözləri də eşidir və indi mütləq bilər ki həyatında Tanrının yeri nə olub, – yalnız indi bilər: nə İlahi ədalətdən, nə də ki, həyatın özündən artıq heç bir gözləntisi qalmayanda.

Dualarını oxudular; indi dəfnə başlamaq lazımdır, lakin edam olunanların sayı o qədər çox, gecə isə o qədər yaxındır ki, mərhumların hamısını son sükunət üçün ayrıca yerlə təmin etməyə, yəni ayrıca qəbir qazmağa, kəfənlənmiş mərhumu onun içinə qoymağa, ətrafına girdə daşlar düzməyə qətiyyən imkan yoxdur, bu barədə heç düşünməyə dəyməz. Yalnız onunla kifayətləndilər ki, bütün cəsədlərin yerləşəcəyi uzun bir xəndək qazdılar və inanın ki, bu nə ilk, nə də sonuncu dəfə idi ki, meyitləri qardaşlıq qəbrinə uzadırdılar; elə hansı vəziyyətdə tapmışdılarsa, eləcə, İsaya da bel verdilər və o, böyüklərlə bir yerdə səylə, onlarla bərabər çalışırdı, çünki çox istəyirdi "insan insan oğlunun qazdığı məzarda dəfn olunacaq, lakin özü məzarsız qalacaq" peyğəmbərliyi çin olsun.

Qoy ilk baxışdan mübhəm görünən bu sözlər sizin düşüncələrinizi metafiziki səmtə yönəltməsin, çünki onların mənası göz qabağındadır, olduqca sadədir və bu məna da yalnız ondan ibarətdir ki, bir zamanlar yer üzündə qalacaq sonuncu insanı torpağa tapşırası kimsə olmayacaq.

Oğlanı isə başqa tale gözləyir – bəşər nəsli onunla tükənməyəcək, insanlar hələ çox minilliklər doğularaq öləcək və



əgər "insan insanın canavarıdır" deyimi həqiqətdirsə, onda bizim tam haqqımız var düşünək ki, insan həm də insanın cəlladı və qəbirqazanı da olacaq.

Günəş artıq dağ yamacının o üzünə aşmışdı. İordan vadisinin üstünə alçaq qara buludlar enmişdi: göy üzündə aramla qərbə sarı süzürdülər, buludların kənarlarını qırmızıya boyayan son şüalar onları, sanki, özünə çəkirdi.

Qəfil sərinlədi – görünür, gecə yağış yağacaqdı, hərçənd ki yağıntı ilin bu vaxtı üçün nadir hadisə idi. Əsgərlər getdilər, işıq ikən duşərgələrinə dönmək istəyirdilər, yəqin, Nazaretə kəşfiyyata getmiş yoldaşları da artıq qayıtmış olardı – nizami ordunun qiyama qalxmış xalqdan da fərqi elə bu nizamlı hərəkətlərindədir, bu fərqin nəticələri isə indi göz qabağındadır: döyüşdə əsir götürülərək çarmıxa çəkilmiş otuz doqquz nəfər və qırxıncı yazıq isə, heç bir günahı olmasa da, necə deyərlər, quruların oduna yanıb həyatını itirmişdi, həqiqətən də, atalar gözəl deyib ki, qurunun oduna yaş da yanır. Sepforisin sakinləri indi gedəcəklər ki, özlərinə yandırılmış şəhərdə gecələmək üçün yer tapsınlar, səhər isə hər ailə öz evinin küllüyündə eşələnəcək: bəlkə, alov ev əşyalarından hansınasa dəyməyib, təzə yerdə həyat qurmağa da nədənsə başlamaq lazım idi axı, romalılar isə hələlik şəhəri təzədən tikməyə icazə verməyəcəkdilər – tez idi hələ, vaxtı yetişməmişdi. Məryəm və İsa – meşədə iki kölgə, ağaclarının yarpaqları, budaqları olmayan meşədə; bir-birində igidlik axtaran iki qorxu və ana oğlunun əlindən tutub özünə tərəf çəkir, qara səmadan aman gözləmə, torpaqda yatan ölülər də bir də gördün yapışdılar dirilərdən, yapışdılar və getməyə qoymadılar.

– Şəhərdə gecələyək, – İsa dedi.

Məryəm isə cavab verdi:

– Olmaz, qardaşların evdə təkdir, yəqin, acdırlar.

Ana ilə oğulun gözləri ayaqlarının altını zorla seçir, neçə dəfə büdrəyəndən, bir dəfə də yıxılandan sonra, nəhayət,

qaranlıqda qurumuş çayın məcrası kimi ağaran yola çıxırlar. Sepforis arxada qalandan sonra yağış başladı – ilk ağır damlalar yolun tozlu sinəsinə yumşaq tappıltıyla düşür, az sonra isə göydən sel kimi tökülən leysanın altında yolun tozu da palçığa çevrilir və Məryəm ilə oğlu ayaqqabılarını çıxarası olurlar ki, səndəlləri ilişib palçıqda qalmasın.

Onlar danışmadan gedirlər, ana öz yaylığı ilə oğlunun başını da örtüb, bir-birinə deməyə sözləri yoxdur və bəlkə də, hər ikisinin beynindən eyni dumanlı fikir keçir: "İosif ölməyib, bax, qayıdacaqlar evə – görəcəklər ki, oradadır, uşaqlara özü bildiyi kimi baxır və o, arvadından soruşacaq: Kim sizə icazə verib ki, məndən soruşmadan şəhərə gedəsiniz?" Məryəmin gözləri yenə doldu, lakin bu daha dərddən, qəmdən deyildi, dözülməz yorğunluqdan, amansız yağışdan, bitməz gecədən idi. Yox, İosifin sağ olmasına inanmaq üçün hər şey çox qara və boğucudur. Bir gün gələcək, kimsə Sepforisdəki böyük möcüzədən danışacaq, harada ki, edam üçün yonulmuş ağaclar təzədən kök ataraq yarpaqlamışdılar və "möcüzə" kəlməsi burada gəlişigözəl ifadə kimi istifadə olunmayıb; əvvəla, romalılar gedəndə, adətlərinin xilafına olaraq, tirləri özləriylə aparmamışdılar; ikincisi isə, həm təpəsindən, həm də kökə yaxın yerindən mişarlanmış ağac özündə eybəcər, budanmış taxtaları canlı ağaca çevirəcək həyat suyunu və tumurcuqlarını qoruya bilməz, bu mümkün deyil. Möminlər deyirdi ki, bu, əzabkeşlərin qanıdır, yox, yağışdır, deyə kəmətiqadlar söyləyirdilər, amma nə axıdılmış qanlar, nə göylərdən yağan sel-su əvvəllər nədənsə təpələrdə və çöllərdə ucalan saysız-hesabsız xaçları dirilməyə, yaşıllaşmağa məcbur edə bilmirdilər. Yalnız ona heç kəsin cəsarəti çatmadı ki, bunun Tanrı iradəsi olduğunu desin, ona görə cəsarət eləmədi ki, bu iradə, hər necə olsa, şüura sığmır, lakin həm də ona görə ki, heç kəs anlaşılan, ağlabatan bir tərzdə Sepforisdə çarmıxa çəkilənlərin başqalarından nələriylə yaxşı olduğunu, hansı xüsusi xidmətlərinə görə belə misilsiz,

yalnız bütlərin göstərməyə meyilli olduğu səmavi nemətə layiq görüldüklərini izah edə bilmədi. Hələ uzun müddət həmin ağaclar orada duracaq, sonra nələr baş verdiyi barədə yaddaş, nəhayət ki, siliнəcək və onda yer üzündə hər şeyi izah etmək – istər həqiqi, istər qondarma – arzusunda olan insanlar çoxlu əhvalatlar uyduracaqlar, onların əvvəlcə həqiqi hadisələrlə hər hansı əlaqəsi, bağlılığı olacaq, sonralar isə zaman ötdükcə ondan daha çox uzaqlaşacaq, həqiqətlə arasındakı telləri itirə-itirə gedəcək, nəhayət, adi əfsanəyə çevriləcək. Sonra elə bir gün yetişəcək ki, bu ağacların ömrü tamam olacaq, onları kəsəcəklər, sonra da həmin bu yerlə şose yolu çəkmək, məktəb, yaşayış evi, ticarət mərkəzi tikmək, ya da uzunmüddətli atəş nöqtəsi qurmaq istəyəcəklər, bura ekskvatorlar gətirəcəklər, onlar da dişlərini torpağa sancıb yer üzünə, işıqlı dünyaya iki min il qabaq bu torpağa qoyulanların qalıqlarını çıxaracaqlar, onlara müəyyən mənada ikinci həyat verəcəklər. Antropoloqlar və anatomiya professorları peyda olacaq, skeletləri öyrənib, heyran qalmış dünyaya elan edəcəklər ki, o uzaq zamanlarda insanları çarmıxa çəkəndə, əvvəlcə ayaqlarını qırırdılar. Əgər alimin əlindən elmi nailiyyətlərini almaq, onu yalançı alim elan etmək mümkün deyilsə, onda dünya estetik mülahizələrinə əsasən ona nifrət ediləcək.

İliklərinə kimi islanmış, sümüklərinədək üşümüş, təpədən dırnağa qədər palçıq içində olan Məryəmlə İsa evə çatanda gördülər ki, uşaqlar həmişəkindən də yaxşı vəziyyətdədirlər; böyüklərin – İakov və Liziyanın qayğısı ilə. Onlar gecənin soyuq olacağını başa düşüb, ocağı da qalamışdılar və balacalarla bir yerdə odun dövrəsində oturmuşdular, qarınlarındakı sümürücü boşluğu kənardakı isti ilə sakitləşdirməyə çalışırdılar. Darvazanın döyülməsini eşidən İakov açdı onu, yağış isə elə həmin an əsl leysana çevrildi və Məryəm ilə İsa içəri girəndə su onların üstündən doşəməyə axdı. Uşaqlar analarına baxdılar, böyük qardaşlarına baxdılar,

qapı onların dalınca örtüləndə başa düşdülər ki, ataları gəlməyəcək, amma İakov yenə soruşdu: "Bəs ata?" Saplarına kimi islanmış pal-paltardan süzülüb damcılayan suyu gil döşəmə yavaşca özünə çəkirdi, sakitlikdə ocaqdakı nəm odunun şaqqıldaması aydın eşidilirdi, uşaqlar analarına baxırdılar. "Bəs ata?" – İakov yenə soruşdu.

Məryəm artıq ağzını açmışdı ki cavab versin, lakin nəhs sözlər boğazını dar ilgək kimi sıxdı və onun yerinə İsa deməli oldu: "O ölüb" və özü də nə etdiyini tam dərk eləmədən söylədiyinə təkzibolunmaz sübut kimi kəmərindən yaş səndəlləri çıxarıb uşaqlara göstərdi: "Budur".

Yaşca böyük olanların gözlərində, onsuz da, yaş gilələnmişdi, lakin yalnız bu səndəlləri görəndən sonra əməlli-başlı ağlamağa başladılar, ümumi, sakitləşmək bilməyən ağlaşma başladı. Dul qadın bilmirdi ki, doqquz uşağından hansını birinci sakitləşdirsin və nəhayət, gücdən düşüb dizləri üstə çökdü, uşaqlar isə ona sarı yüyürüşdülər, dövrəyə aldılar və analarından yapışıb, canlı üzüm salxımı kimi qaldılar, heç sıxmaq da gərək deyildi ki, qanı – şəffaf göz yaşları sıçrasın. Təkcə İsa ayaq üstə qalmışdı və atasının səndəllərini elə hey sinəsinə sıxırdı, içində isə dumanlı hissiyyat vardı ki, onları nə vaxtsa geyəcək. Uşaqlar isə yavaş-yavaş analarından aralanırdılar: əvvəlcə nisbətən böyüklər – onlara dərdi tək çəkməli olduqlarını deyən utancaqlıqdan, arxalarınca da kiçiklər – başlarına gələn bəlanı hələ tam miqyası ilə dərk edə bilmirdilər, amma ağlayırdılar, çünki qocalarla uşaqların gözlərinin yaşı, hətta hissiyyatları hələ inkişaf etməyibsə və yaxud artıq ölübsə belə həmişə ovuclarındadır. Məryəm isə otağın ortasında hələ də dizi üstə qalmışdı, sanki, qismətini, hökmünü gözləyirdi, amma bu dəm onun vücudunu başdan-ayağa titrətmə götürdü, yadına düşdü ki, yaşdır və onda qalxdı, sandıqdan ərinin köhnə, neçə dəfə yamanmış köynəyini çıxardı, İsaya uzadıb dedi:

– Əynini dəyiş, ocağa yaxın otur.



Sonra qızları Liziya və Lidiyanı çağırıb, həsiri pərdə kimi saxlamağı tapşırdı, onun arxasına keçib, paltarını dəyişdi, qurusunu geydi və evdə tapdığı ərzaqdan şam yeməyi hazırlamağa başladı. Ocağın yanında canı qızmış İsa, atasının topuqlarına düşən, qolları çox uzun köynəyində oturmuşdu və əlbəttə, başqa şəraitdə qardaş-bacıları ona gülməkdən vaz keçməzdilər – çox gülməli görünürdü bu geyimdə – amma bu gün cəsarət eləmədilər və yalnız ona görə yox ki, evlərinə bəla gəlmişdi: yox, onlara elə gəlmişdi ki, böyük qardaşları, elə bil, qəflətən yaşlanmışdı, sanki, boyu da böyümüşdü; bu hissiyyat qardaşları ağır, təmkinli bir hərəkətlə atalarının səndəllərini ocağın yanına çəkəndə gücləndi, hərçənd ki bu hərəkətində bir məna da yox idi, zira bu səndəllər İosifin dərdinə dəyməzdi daha. Yaşca ondan sonra gələn İakov, qardaşına yaxın oturdu, astaca soruşdu:

– Bəs atamıza nə oldu?

– Onu qiyamçılarla bir yerdə çarmıxa çəkiblər, – İsa da astadan cavab verdi.

– Niyə?

– Bilmirəm, onlar qırx nəfər idilər, atamız da ordaydı.

– Bəlkə, o da?

– Nə?

– O da qiyamçıdır?

– Yox əşşi, o, həmişə evdə oturub öz işini görürdü.

– Eşşəyi necə, tapıblar?

– Yox, nə ölüsünü, nə dirisini.

Məryəm isə bu vaxt ərzində yeməyi hazırladı, hamısı dövrə vurub oturdu və böyük kasadan yeməyə başladılar. Axıra yaxın ən kiçiklər mürgü döyməyə başladılar, nə qədər həyəcanlı olsalar da, yorğun bədən istirahət istəyirdi. Oğlanlar üçün arxa divar boyu saldılar həsirləri, qızlarınsa yerini Məryəm özünün hər iki tərəfində saldı ki, heç biri inciməsin. Qapının yarığından külək dolurdu içəri, amma evdə boğanaq idi – hələ soyumamış ocağın, həm də bir-birinə söykənmiş

uşaqların istisindən; ailə köksünü ötürə-ötürə, burnunu çəkə-çəkə yuxuya getməyə başladı, Məryəm başqalarına nümunə göstərdi, gözlərinin yaşını saxladı – həm uşaqlar tez yatsınlar deyə, həm də öz dərdi ilə təkbətək qalmaq üçün, həyatın ona – doqquz uşaqla bir dərədə ərsiz qalmış bir qadına – vəd elədiyi gələcəyə nəzər salmaq üçün. Beynində fikirlər dolaşsa da, qəlbi ağrısa da, hər şeyə biganə bədən yuxuya müqavimət göstərə bilmirdi. Artıq hamısı yatmışdı.

Gecənin bir aləmi kiminsə iniltisi Məryəmi oyatdı. Fikirləşdi ki, yəqin, yuxuda özü inildəyib, lakin inilti bir də, bu dəfə daha ucadan təkrar olundu. Qızlarını narahat etməmək üçün ehtiyatla dikəldi, yerinin içində oturdu, ətrafına göz gəzdirdi, lakin çıraq elə tutqun yanırdı ki, oğlanları görə bilmədi. "Hansıdır, görəsən?" – düşündü, hərçənd ki ürəyi artıq ona deyirdi ki, inildəyən İsadır. Səssizcə qalxdı, qapının ağzından asılmış çırağı əlinə götürüb başının üstünə qaldırdı ki, işığı artsın, yatmış oğlanlarını nəzərdən keçirdi: İsa yerində qurcalanır və nəsə donquldanırdı, sanki, qorxulu bir yuxu əziyyət verirdi ona və əlbəttə, atasını görürdü yuxuda, çox tez idi onun yaşında bu gün gördüklərini görmək – ölüm, qan, işgəncə. Məryəm fikirləşdi ki, onu oyatmaq lazımdır, əzablarına son qoymaq üçün, amma bunu eləmədi, istəmirdi ki, oğlu ona öz yuxusunu danışsın və İsanın ayaqlarında atasının səndəllərini görən kimi fikrini unutdu. Bu, onu lap özündən çıxardı – bu nə axmaq hərəkətdir, bu nə hörmətsizlikdir – atanın səndəllərini geymək, özü də elə ölən günü! Üzünü həsirə tərəf çevirdi, bilmirdi, nə fikirləşsin: bəlkə, İsa atasının köynəyində və ayaqqabılarında uzandığı üçün yuxuda İosifin faciəvi yoluyla gedirdi, evinin kandarından xaça kimi bütün yolu təkrar eləyirdi və deməli, o, Tanrı Qanunu ilə mənsub olduğu kişilərin dünyasına artıq tam daxil olmuşdu, yeni hüquqlar almışdı – varislik hüququ, qoy lap köhnə köynəkdən və tapdanmış səndəldən ibarət olsun, yuxu görmək hüququ, qoy lap bu yuxularda atasının yer

üzündə son addımlarını görsün. Məryəm fikirləşmirdi ki, İsanın yuxusuna bunlardan başqa nəsə girə.

Gün aydınlıq idi, buludsuz səmadan günəş yandırır, parlayırdı və yağışdan qorxmamaq olardı.

Məryəm evdən erkən, məktəb yaşında olan oğlanları və əvvəl dediyimiz kimi, təhsilini artıq başa vurmuş İsayla bir yerdə çıxdı. Qadın sinaqoqa yollandı ki, həm ərinin ölüm xəbərini çatdırsın, həm də İosifin və başqa bədbəxtlərin cənazəsi üzərində ölü duasını oxuyandan sonra necə çətin vəziyyətə düşdüklərindən danışsın, hərçənd ki yerin özü də belə mərasim üçün əlverişli deyildi, vaxt da çox dar idi, lakin oxunan duaların sayına və onların məzmununa görə demək olardı ki, ərini son mənzilə, adət-ənənəyə uyğun yola salmışdılar.

Böyük oğluyla evə dönəndə Məryəm fikirləşdi ki, bax, indi atasının səndəllərini niyə geydiyini soruşmaq üçün rahat məqamdır, lakin ən son anda özünü saxladı, oğlunu utandırmaqdan qorxdu; böyük ehtimalla İsa hərəkətinin səbəbini izah edə bilməyəcəkdi və utanıb, bu hərəkətinə görə özünü anasının qabağında alçalmış sayacaqdı, çünki bu hərəkəti adi səbəblərlə izah etmək olmazdı, məsələn, oğlan gecə yuxudan oyanıb bir tikə çörək yeyəndə onu görən olsaydı, aclığını bəhanə gətirərdi, lakin bu səndəl əhvalatı adi çərçivələrə sığmırdı – əgər ona tamam başqa aclığın, bizim üçün sirr kimi qalacaq aclığın əziyyət verdiyini saya almasaq.

Bu yerdə Məryəmin ağlına başqa fikir gəldi: İsa bu gündən etibarən nəsildə və evdə böyükdür, elə buna görə də ondan asılı olan ana qərara aldı ki, ona lazımi ehtiramı və diqqəti göstərmək, gecə ona hansı yuxunun əziyyət verdiyini soruşmaq daha düzgün olar. "Atanı görürdün yuxuda?" – soruşdu, lakin İsa özünü elə apardı ki, elə bil, eşitmir və hətta üzünü də çevirdi, lakin ana israrla təkrar etdi: "Atan idi?" – gözləyirdi ki, oğlu əvvəlcə "hə" cavabı verəcək, elə onun ardınca da "Yox" deyəcək və onun gözlərində elə

ifadə yaranacaq, sanki, edam olunmuş İosif durub gözlərinin önündə.

Onlar bir müddət dinməz addımladılar, evə girəndə isə Məryəm yun əyirməyə oturdu, fikirləşdi ki, artıq indi uşaqları doyurmaq üçün çox işləmək gərəkdir, məhsulun da bir hissəsini satışa vermək lazımdır, əgər əlində sənəti də, fərasəti də varsa, niyə də etməsin ki.

İsa isə göyə baxıb, əmin olandan sonra ki, hava elə bayaqkı kimi yaxşıdır atasının talvarın altında duran dülgər dəzgahına yaxınlaşdı və bir-birinin dalınca başlanmış, amma bitməmiş işlərə, sonra da alətlərə baxdı. Məryəmin ürəyi oğlunun öz yeni vəzifələrinə elə ilk gündən necə məsuliyyətlə yanaşmasından dağa döndü. Kiçiklər məktəbdən qayıtdandan və ümumi nahar başlayandan sonra, yalnız çox iti göz görərdi ki, bu ailə cəmi bir neçə saat qabaq öz başçısını, ər və atanı itirdiyinə görə ağlayırdı və əgər İsanın sərt çatılan qaşları nəsə mübhəm düşüncələrdən xəbər verirdisə, içində Məryəm də olmaqla, başqaları sakit və qayğısız görünürdülər, çünki deyilir: "Qəlb ağrısından acı-acı ağla, inlə, mərhuma yas saxla: ya iki, ya üç gün, sənin üçün kimliyindən asılı olaraq, çünki insanlar arasında belə olmalıdır, sonra isə dərdini toxdat". Bir də deyilir: "Qəlbini kədərə tapşırma, qov onu, unutma ki, sən də vaxtında gedərgəlməzə yollanacaqsan, heç nəylə köməyin dəyməz mərhuma, özünə isə ziyan verərsən. Gülmək hələ tezdir, lakin gülüşün də vaxtı gələcək, çünki günlər bir-birinin dalınca ötür, ilin fəsilləri öz sırasıyla gedir", bizə bu barədə ən yaxşı nəsihəti verən Ekklesiast şadyanalığı, nikbinliyi üstün tutur, çünki yer üzündə, günəşin altında yaşayan insan üçün yemək, içmək və şənlənməkdən yaxşı heç nə ola bilməz; Tanrının bu dünyada bizə verdiyi əzablı həyat boyu insanı bütün bunlar müşayiət edir.

Axşama yaxın İsayla İakov dama çıxdılar və bütün gecəni su daman yeri samanla tutub gillə malaladılar və heç təəccüblənmək lazım deyil ki, gündəlik həyatımızın bu sadə



məişət təfərrüatını – evlərinin dammasını əvvəl heç yazmamışdıq – insan ölümü, istər günahkar olsun, istər günahsız – hər şeydən üstün tutulmalıdır.

Yenə gecə düşdü – doğulacaq növbəti günün astanası və ailə Tanrı verən nemətlərdən şam yeməyini yeyib həsirlərinin üstünə uzandı, yuxuya getdi. Səhərə yaxın Məryəm qorxu içində oyandı, lakin dəhşətli yuxudan yox – pis yuxunu İsa görürdü: o, iztirab içində inildədi və elə ucadan ağladı ki, hətta böyük uşaqlar belə oyandı – günahsız körpələr isə bayaqkı kimi möhkəm yatmışdılar. Məryəm yuxuda əllərini qabağa açaraq, sanki, endirilən qılınc, nizə zərbələrindən müdafiə olunurmuş kimi, onlardan yayınmaq istəyirmiş kimi hərəkətlər eləyən İsaya tərəf atıldı, lakin oğlunun dəhşətdən doğan həyəcanlı hərəkətləri yavaş-yavaş sakitləşirdi; elə bil, ya hücum edənlər əl çəkdilər, ya da ki həyatı bitdi. O, gözlərini açdı, başının üstündə əyilmiş anasından bərk-bərk yapışdı, ailənin böyüyü, başçısı, kişi deyilmiş kimi yapışdı: o qorxmuş uşaq kimi ağlayırdı, biz sarsaqlar isə etiraf etmək istəmirik ki, göz yaşları ağrılı qəlbin məlhəmidir.

"Nə olub, sənə nə olub?" – Məryəm həyəcanla təkrarlayırdı, lakin İsa cavab vermirdi – istəmirdi, ya da bacarmırdı, çünki ağzı qıc olubmuş kimi kip qıfıllanmışdı və üzünün bu ifadəsində daha uşaqlıqdan əsər-əlamət yox idi. "Söylə, nə girmişdi yuxuna", Məryəm israr edirdi və birdən oğluna, sanki, istiqamət verməyə çalışdı: "Atan idi, hə?" Lakin İsa başını silkələyib anasını buraxdı, həsirinə uzandı: "Eybi yox, eybi yox, uzan, uzan dincəl" – Məryəm onun qardaşlarına işarə etdi: "Qoy onlar da yatsınlar, hər şey yaxşıdır, qoy yatsınlar".

Ana iki qızının arasındakı yerinə qayıtdı, amma hələ hava tam işıqlaşmamışdı deyə uzandı, gözləri açıq idi, ətrafına diqqət kəsilmişdi və hər dəqiqə gözləyirdi ki, dəhşətli yuxu indicə təkrar olacaq və fikirləşirdi ki, görəsən, yuxuda oğlunu bu dərəcədə sarsıdan nə idi, amma təkrarlanmadı, tam sakitlik idi. Heç ağlına gəlmədi ki, indi oğlu, ümumiyyətlə,

gözlərini yummur, həmin o dəhşətləri bir də görməsin deyə yatmaq istəmir. Ana fikirləşirdi ki, bu necə olur, axı böyük oğlu həmişə möhkəm, sakit yatırdı, bu kabuslar ona yalnız atası ölən gündən bəri əziyyət verməyə başlayıb. "Rəbbim, qoy bu yuxu onu bir də narahat etməsin", – deyə iltimas etdi, sağlam düşüncə isə onu sakitləşdirirdi ki, yuxuları irsən ötürmək də olmaz, almaq da, amma bu səhv idi, zira insanlara yuxularını bir-birinə danışmaq vacib deyildi ki, uşaqların gözləri önündə eynilə atalarına görünən yuxu açılsın. Nəhayət, dan yeri sökülməyə başladı, şəfəq özünü göstərdi, qapının çatı işıqlandı. Səhərə yaxın yuxu aparmış Məryəm gözünü açanda İsanın yerini boş gördü. "Haradadır, görəsən?" – fikirləşdi, yerindən dik atılıb qapını açdı, bayıra çıxanda oğlunu gördü, – əlləriylə başından yapışıb dirsəklərini dizlərinə söykəyərək talvarın altındakı saman qalağının üstündə hərəkətsiz oturmuşdu. Sübhün sərinindən və özü bu haqda düşünməsə də, oğlunun tənha görkəmindən üşürgələnib ona yaxınlaşdı, soruşdu:

– Xəstələnmisən?

Oğlan başını qaldırdı:

– Yox, sağlamam.

– Bəs onda nə olub sənə?

– Yuxularım imkan vermir.

– Yuxuların?

– Daha doğrusu, bir yuxu; onu dünən də gördüm, bu gün də.

– Atanı gördün çarmıxda?

– Axı dünən dedim, onu görməmişəm.

– Dünən dedin ki, atan girmişdi yuxuna.

– Girmişdi, amma onu görmədim, lakin dəqiq bilirəm ki, o da yanımda idi.

– Bəs nə idi gördüyün o dəhşətli yuxu?

İsa o dəqiqə cavab vermədi, anasına çaşqın-çaşqın baxdı, qadın isə, sanki, kiminsə barmaqları ürəyini bərk-bərk sıxır-

[1] *Tirada* – dramda qısa və təsirli monoloq



mış kimi hiss etdi ki, onun oğlu, ilki – hələ uşağa oxşayan, üst dodağından yuxarıda bığ yerləri təzəcə tərləmiş, yanağında yumşaq tükləri bəlli balası yuxusuzluqdan qızarmış gözləriylə qarşısında oturub və onları bir-birinə bağlayan tellər əbədilik qırılmazdır.

– Mənə hər şeyi danış, – o xahiş elədi, oğlan, nəhayət ki, dilləndi:

– Görürdüm ki, hansısa şəhərdəyəm, amma bu, Nazaret deyil, yanımda, elə bil, həm sənsən, həm də sən deyilsən, çünki yuxuda anam olan qadının sifəti tamam başqa idi, yanında da mən yaşda başqa uşaqlar vardı; nə qədər idilər, xatırlamıram, bir də onların anaları vardı, hamımızı meydana yığmışdılar, gözləyirdik ki, əsgərlər gəlib bizi öldürəcək, onlar da getdikcə yaxınlaşırdılar, amma onları görmürdük, yalnız eşidirdik – atlarının ayaq səslərini eşidirdik, amma mən nədənsə heç qorxmurdum, bilirdim ki, bu ancaq yuxudur, sonra isə birdən başa düşdüm ki, atam da əsgərlərlə bir yerdə gəlir, çöndüm sənə tərəf ki, məni müdafiə eləyəsən – amma içimdə o qadının sən olduğundan heç əmin deyildim – başqa analar da çıxıb getdilər, biz tək qaldıq; baxdım ki, daha yekə oğlanlar deyilik, körpə uşaqlarıq, yerdə uzanıb ağlayırdım, elə o birilər də ağlayırdı, baxmayaraq ki əsgərlərlə gələn ancaq mənim atam idi və hamımız meydana çıxan döngəyə boylanırıq, başa düşürük ki, indicə gələcəklər, gözləyirik, onlar da görunmurlər, hərçənd ki addımları getdikcə lap yaxınlaşır, elə bil, indicə, lap indicə çatacaqlar, amma gəlmirlər ki, gəlmirlər və bir də görürəm, elə indiki yaşımdayam; amma, elə bil, balaca uşağın içindəyəm, o da elə mənim özüməm; istəyirəm onun içindən çıxım, amma, elə bil, əlqolumu bağlayıblar, başlayıram səni köməyə çağırmağa, atamı çağırıram, o da məni axtarır ki, öldürsün... elə bu an oyandım. Bu gecə də həmin yuxunu gördüm, dünən də.

Məryəm dəhşətdən əsdi, elə oğlu danışmağa başlayan kimi yuxunun mənası ona aydın olmasa da, bircə onu bilirdi

ki, ən pis təxminləri doğrulurdu – sağlam düşüncəyə və şüurun gətirdiyi bütün dəlillərə rəğmən, İsa bu yuxusunu atası İosifdən irsən almışdı; bəlkə də, bu yuxuların arasında fərq də vardı, amma mahiyyət bu idi ki, həm ataya, həm oğula – hərəsinə öz zamanında, öz məkanında eyni şeylər görünürdü. İsa bu sualını verəndə lap dəhşət bürüdü onu:

– Bəs atamın hər gecə gördüyü yuxu nə idi?

– Əşşi, axmaq yuxuları hamı görür.

– Yox, yox, bilirsən, nə soruşuram.

– O, öz yuxusunu mənə heç vaxt danışmayıb, bilmirəm.

– Sən həqiqəti məndən gizləməli deyilsən, axı sənin oğlunam.

– Bunu bilməsən yaxşıdır, xeyir gətirməz.

– Sən mənə nəyin xeyir, nəyin ziyan olduğu barədə necə fikir yürüdə bilərsən ki?

– Anana hörmət elə.

– Oğlunam və sənə hörmət edirəm, amma indi məndən elə şeyləri gizlədirsən ki, həyatım onlardan asılıdır.

– Məni məcbur eləmə danışmağa.

– Bir dəfə atamdan soruşdum, yuxusunda nə görür, o da dedi ki, nə bütün suallarımı ona verə bilərəm, nə də o, bütün sualların cavabını bilir.

– Hə, yaxşı deyib, bəsindir, kifayətlən bununla.

– Mənə bu cavab atam sağ olanda bəs eləyirdi, lakin indi ailənin başçısı olmuşam, onun köynəyini geyirəm, ayaqlarımda onun səndəlləridir, hələ onun yuxusunu da irsən almışam. Mən artıq bu mirasla dünyaya çıxa bilərəm, amma gərək bilim ki, gedəndə özümlə hansı yuxunu aparacağam.

– Oğlum, bəlkə, bu yuxunu bir də görməyəcəksən?

İsa anasına baxdı, baxışlarıyla da qadını məcbur elədi ki, gözlərini gizlətməsin və belə cavab verdi:

– Əgər bu gecə həmin yuxunu görməsəm, indicə soruşduqlarımı öyrənməyə çalışmayacağam, amma görsəm, and iç ki, mənə hər şeyi danışacaqsan.



– And içirəm, – Məryəm cavab verdi, çünki oğlunun ötkəm israrından yaxasını necə qurtarsın, bilmirdi, lakin dərdli, ağrılı qəlbini Tanrıya açıb səssiz dualarıyla yalvardı və bu yalvarışlara sözdən don biçəsi olsaydın, belə səslənərdi: "Tanrım, o yuxunu mənə hər gecə göndər, qoy o, mənə lap son saatımda da əziyyət versin, amma elə et ki, oğlum bir də görməsin onu".

İsa dedi:

– Yadındadırmı and içdiyin?

Məryəm dedi:

– Yadımdadır, – içində isə yalvarışlarını bir də təkrar elədi.

Lakin Tanrı ona qulaq asmadı. Gecə yetişdi, dan yeri söküləndə qara xoruz banladı və həmin yuxu təkrarlandı; bu dəfə birinci atın başı da göründü döngədən. Məryəm İsanın necə inildədiyini eşitdi, amma daha yaxınlaşmadı, o isə tir-tir əsirdi qorxudan, soyuq tər içindəydi, heç anasını da çağırmırdı: yaxşı bilirdi ki, yatmayıb, oyaqdır. Fikirləşirdi ki, görəsən, mənə nə danışacaq?

Oğluna yaxınlaşmayan Məryəm də fikirləşirdi: "Necə danışacağam ona atasının yuxusunu?" – və indi də üsullar arayırdı ki, heç olmasa, hər şeyi danışmasın. Səhər yerlərindən qalxanda isə İsa anasına dedi:

– Qardaşlarımı sinaqoqa bir yerdə apararıq, sonra da xəlvət yerə gedib söhbətimizi eləyərik.

Uşaqlara yemək hazırlayanda yazıq Məryəmin əli iş tutmurdu, lakin dərdlərinin şərabı artıq süzülmüşdü və indi onu yalnız içmək qalırdı. Balacaları məktəbə aparandan sonra ana ilə oğul şəhərcikdən çıxdılar, hansısa çöllükdə bir zeytun ağacının altında oturdular, onların söhbətini Tanrıdan başqa – o da əgər həmin dəqiqələrdə burada idisə – bir kimsə eşidə bilməzdi, nə barədə danışdıqlarını yalnız daşlar bilərdi; daşlarsa, bəlli olduğu kimi, hətta onları bir-birinə vuranda belə, susurlar; qalır bir torpaq – onun da bətnində bütün sözlər sükuta dönür.

İsa dedi:

– Vədini yerinə yetir.

Məryəm açıq danışdı:

– Atan yuxusunda görürdü ki, başqa əsgərlərlə bir yerdə səni öldürməyə gedir.

– Məni?

– Hə, səni.

– Sən mənim yuxumu danışırsan, bu yuxunu mən görmüşəm.

– Hə, – qadın gözlənilməz rahatlıqla təsdiq elədi və özünə fikirləşdi ki, təsəvvüründə canlandırdığından qat-qat asan imiş bu, dili isə bunları dedi:

– Artıq sən hər şeyi bilirsən, dur gedək evə, yuxularsa bulud kimidir; necə gəliblər, eləcə də gedəcəklər, sən, sadəcə olaraq, atanı çox sevirdin, odur ki yuxusu da sənə miras qalıb, amma bil ki, atan səni heç vaxt öldürməzdi və hətta Tanrının iradəsiylə əlini sənə qaldırsaydı belə, mələk son anda qolundan yapışardı, necə ki, oğlu İsaakı qurban verməyə hazırlaşan Avraamın başına gəlmişdi.

– Bilmədiyini danışma, – İsa anasının sözlərini çox quru tərzdə kəsdi və Məryəm anladı ki, qismətinin acı şərabını mütləq son damlasına kimi içməlidir.

O dedi:

– Razılaş, oğlum, Tanrının iradəsinə heç nə və heç kim zidd çıxmaq iqtidarında deyil, bu iradə hər necə olsa belə, Tanrı isə əvvəl bir şey istəyə bilər, sonra tamam başqasını, əvvəlki istəyinə əks olanı və biz də sənlə ona heç vaxt zidd çıxmarıq.

Bu sözlərlə qadın susdu, oğlunun nə deyəcəyini gözləyərək əllərini müti şəkildə dizlərinin üstünə qoydu.

İsa dedi:

– Bütün suallarıma cavab verəcəksən?

Məryəm dedi:

– Verəcəyəm.

– Atam bu yuxunu nə vaxtdan görməyə başlayıb?

– Lap çoxdan, çox illər qabaq.

– Dəqiq neçə il?

– Sən anadan olandan.

– Hər gecə eyni yuxunu görürdü?

– Hər gecə, amma son zamanlar daha məni oyatmırdı, insan hər şeyə öyrəşir.

– Mən İudeya şəhəri Vifliyemdə doğulmuşam?

– Hə.

– Bəs mən anadan olanda nə baş verib ki, atam yuxuda, guya, məni öldürdüyünü görürmüş?

– Bu yuxular sən doğulan gündən başlamayıb.

– Bəs nə vaxt başlayıb?

– Bir neçə həftə sonra.

– Onda da bir şey olmuşdu?

– Çar İrod Vifliyemdəki iki yaşdan aşağı bütün körpələri qətlə yetirmək üçün adam yollamışdı.

– Niyə?

– Bilmirəm.

– Bəs atam bilirdi?

– Yox.

– Bəs məni niyə öldürməyiblər?

– Biz şəhərdən kənardakı mağarada gizləndik.

– Deməli, məni tapa bilmədiklərinə görə öldürməmişdilər?

– Bəli.

– Atam döyüşçü idi?

– Yox, heç vaxt olmayıb.

– Bəs kim idi atam?

– O, Məbədin tikintisində işləyirdi.

– Başa düşmürəm.

– Mən sənin suallarına cavab verirəm.

– Əgər İrodun döyüşçüləri məni görməyiblərsə, əgər biz şəhərdən kənarda yaşayırdıqsa, əgər atam heç vaxt döyüşçü

olmayıbsa, əgər heç nəyə görə cavabdehliyi yoxdursa və heç bilmirdisə ki, İrod nədən Vifliyemdəki uşaqları öldürməyi tapşırıb...

– Dedim axı, bilmirdi.

– Bütün bunlardan belə çıxır ki...

– Heç nə çıxmır. Əgər sənin məndən soruşası başqa sualın yoxdursa, mənim sənə verəsi cavabım da yoxdur.

– Sən məndən nəyisə gizləyirsən.

İsa susdu, hiss edirdi ki, sözlərinin ahənginə bayaqdan hakim kəsilmiş amiranəlik və ötkəmlik vücudundan quru torpağa axan su kimi yox olur, eyni zamanda, şüurunun hansısa çox mübhəm guşəsində hələ son cizgilərini formalaşdırmağa macal tapmadığı murdar və dəhşətli bir fikir qıvrıldı. Düz gözlərinin önündəki yamacla bir çoban öz sürüsünü otlağa aparırdı, sürü də, çoban da elə torpaq rəngdə idilər və sanki, torpağın üstüylə torpaq idi yeriyən. Məryəmin müti sifətində təəccüblü bir ifadə yarandı: çobanın uca qaməti, tanış yerişi ona nəyisə, kimisə xatırladırdı, yəni neçə illərdən sonra, elə bu an, burada peyda olan elə onun özüydü? Bir az da diqqətlə baxdı, Nazaretdəki qonşularını tanıdı; otarmağa apardığı yarım düjün qoyunu kimi özü də arıq olan çobanı.

İsanın beynində isə həmin o fikir artıq özünə forma tapıb çölə çıxmaq istəyirdi, amma oğlanın dili fikrinin bələndiyi sözləri tələffüz eləmək üçün dönmürdü, amma yenə də, özü özündən qorxurmuş kimi dedi:

– Atam bilirdi ki, körpələri öldürəcəklər.

O soruşmadı deyə Məryəmin cavabına da ehtiyac qalmamışdı.

– Haradan bilirdi bunu, haradan xəbər tutmuşdu? – dilləndi və bu artıq sual idi, Məryəm dedi:

– O, Yerusəlimdə Məbəd tikirdi və döyüşçülərin öz aralarında etdikləri söhbətlərdən nəyə hazırlaşdıqlarını eşitmişdi.

– Bəs sonra necə oldu?



– Sonra isə o tələsirdi ki, səni xilas eləsin.

– Bəs sonra?

– Sonra da fikirləşdi ki, mağarada gizlənsək, oradan qaçmamaq da olar.

– Bəs sonra?

– Sonrası yoxdur daha, İrodun döyüşçüləri aldıqları əmri yerinə yetirib getdilər.

– Bəs sonra.

– Sonra da biz Nazaretə qayıtdıq.

– O vaxtdan atam başladı bu yuxunu görməyə?

– Birinci dəfə həmin yuxunu hələ biz mağarada ikən gördü.

İsanın əlləri üzünə cumdu: sanki, dırnaqlarıyla yanaqlarını didmək istəyirdi, sinəsindən çarəsiz bir çığırtı qopdu:

– Vifliyemdəki körpələri mənim atam öldürüb!

– Sən dəli olmusan, oğlum, bunu İrodun döyüşçüləri eləyib.

– Yox, qadın, onları mənim atam öldürüb, İosif, İlianın oğlu, çünki qanlı divandan xəbərdar ola-ola körpələrin valideynlərinə xəbər verməyib, – bu an, bütün bu kəlmələr onun dodaqlarından uçan kimi, təskinlik ümidi də qəlbindən əbədilik uçdu. İsa torpağa düşərək ağlaya-ağlaya təkrarladı:

– Yazıqlar, yazıqlar! – adam heç inanana bilmir ki, on üç yaşlı bir uşaq, xudpəsəndliyin bu dərəcədə anlaşılan və bağışlanan olduğu bir yaşa çatmış oğlan uşağı, müasir dünya barədə bütün bildiklərimizi nəzərə alsaq, istisnasız olaraq hamının biganə qalacağı bu xəbərdən belə sarsılıb. Amma insanlar eyni deyillər, onların arasında istisnalar da olur və bütün istisnaların da ən sevindiricisi elə bu oğlan idi – bəlkə, atasının bir zamanlar yol verdiyi səhvə görə, bəlkə, lap iki dəfə günahkar olan atasını bu dərəcədə sevdiyinə görə, bəlkə, elə öz acı taleyinə görə belə acı-acı göz yaşı tökən həmin bu oğlan.

Məryəm əlini uzatdı, ona toxunmaq istədi, lakin oğlan çəkildi:

– Əl vurma mənə, qəlbim yaralıdır.

– İsa, oğlum mənim.

– Mənə oğul demə, sənin də günahın var bunda.

Yeniyetmələr güzəşt nə olduğunu bilmədiklərindən çox sərt mühakimə yürüdürlər, lakin Məryəm də elə qətlə yetirilmiş körpələr qədər günahsız idi, çünki burada qadınların yerinə bütün qərarları kişilər verir; əri gəldi, dedi ki, gəl burdan gedək, sonra da fikrini dəyişdi: yox, yaxşısı budur, getməyək, gizlənək – dedi, daha heç nəyi izah eləmədi, o zaman təbii ki, mütləq ondan soruşmaq lazım idi: "O nə qışqırıqlardır, gəlir?"

Lakin Məryəm heç oğluna da etiraz eləmədi, hərçənd ki tam günahsız olduğunu sübut eləmək çox asan idi. Etiraz etmədi ona görə ki, həmin an çarmıxa çəkilmiş İosifi xatırladı, axı o da günahsız öldürülmüşdü və gözlərindən axan xəcalət yaşlarının hərarətindən hiss elədi ki, indi ərini sağ olandan daha çox sevir: elə bu səbəbdən də özünə haqq qazandırmağa heç çalışmadı da: nə fərqi var ki, hansı günaha görə cavab verirsən? Bircə bunu dedi:

– Gedək evə, biz hər şeyi danışdıq.

Oğlu isə cavab verdi:

– Get, mən hələ burada qalacağam.

İndi, sanki, sürüdən ayrı düşmüş bir qoyun idi və çöl də bomboşdu, hətta yamaca adda-budda səpələnmiş evlər belə yavaş-yavaş torpağın bağrına işləyən nəhəng daşlara bənzəyirdilər. Məryəmin fiquru vadinin kül rəngli dərinliyində əriyəndən sonra bütün bədəni qanla tərləyirmiş təki ahşıb-yanan İsa dizləri üstə düşdü və içindən bir hayqırtı qopdu: "Ata, ata, sən niyə məni qoyub getdin?!" – çünki yazıq oğlan özünü atılmış, tərk edilmiş, rədd edilmiş sanırdı, sanki, tamam başqa səhranın nəhayətsiz boşluğuna düşmüşdü: elə bir boşluğa ki, orada nə atası, nə anası, nə qardaş-bacıları vardı və ölülərin yolu da öz başlanğıcını oradan götürürdü.

Qoyunlarının arasında oturmuş və onlardan fərqlənməyən çoban isə uzaqdan ona baxırdı.

* * *

İki gündən sonra İsa evdən getdi. Bütün bu müddət ərzində dilindən çıxan sözləri bir əlin barmaqlarıyla saymaq olardı, gecə isə gözlərini də yummurdu, çünki yuxuya gedə bilmirdi. Dəhşətli mənzərələr canlanırdı gözləri önündə: görürdü ki, İrodun döyüşçüləri evlərə soxulur, beşiklərdən uşaqları qapır, bələklərini açıb onların balaca bədənlərini qılınclayır, deşik-deşik edirlər; o eşidirdi ki, analar necə dəli nalələr çəkirlər, atalar quduz öküz kimi necə böyürürlər; çox balaca olduğundan yadda saxlaması heç cür mümkün olmayan mağarada özünü də təsəvvür eləyirdi və zaman-zaman ağır, ləng hərlənən bir val, sanki, onu altına alırdı və bütün vücuduna anlaşılmaz ölmək arzusu dolurdu: ya ölmək, ya da, heç olmasa, yaşamamaq.

Anasına verə bilmədiyi bir sual indi onu buraxmırdı: "Vifliyemdə axı neçə uşaq qətlə yetirilmişdi"; ona elə gəlirdi ki, saysız-hesabsız idi bu qurbanların sayı, yanıb məhv olmaq, tüstüyə dönərək göylərə sovrulmaq arzusuyla qurbangahda alovu gözləyən quzu cəmdəkləri kimi dağ boyda üst-üstə qalaqlanmış, başsız, qanlı körpə bədənlərini görürdü. Bu barədə lazım olanda, həqiqət anında anasından soruşmağa ürək etməyib, indi belə fikirləşirdi ki, artıq bununla maraqlanmağın yeri yoxdur – əgər o zəmanədə "yeri yoxdur" anlayışı, ümumiyyətlə, vardısa – elə-belə, qəflətən soruşa bilməz anasından: "Bilirsən, onda unutdum səndən soruşam, bu vifliyemli uşaqlar vardı, həmin o qətlə yetirilənləri deyirəm, neçə nəfər idilər", o da cavab versin: "Ay oğlum, əşşi, çıxar onları başından, o uşaqlar otuz nəfər-zad olardı, artıq deyildilər; ona görə öldülər ki, Tanrı özü istədi bunu, onun əlindəydi də, istəsəydi, xilas eləyərdi". Lakin İsa qardaşlarına baxa-baxa özünü bu sualla daim bərk incidirdi: "Neçə uşaq? Neçə?" – çünki mütləq bilmək istəyirdi ki, tərəzinin o biri gözünə neçə uşaq meyiti qoymaq lazım idi ki, onun nicat tapmış həyatına tən gəlsin.

Nəhayət, üçüncü günün səhəri anasına dedi:

– Mən səni də, qardaşlarımı da qoyub gedirəm, çünki rahatlığım yoxdur burda, qəlbim sakit deyil.

Məryəm əllərini göylərə qaldırıb nalə çəkdi:

– Axı harda görünüb ki, böyük oğul dul qalmış anasını atıb getsin, bu dünya hara gedir, İlahi; sən axı atan evindən hara gedəcəksən, doğma ailəni necə atacaqsan, sənsiz biz necə yaşayacağıq?

– Yaşayarsınız, İakov məndən cəmi bir yaş balacadır, – İsa ona cavab verdi, – mən ailə başçısını necə əvəz edirdimsə, – o da elə əvəz eləyər.

– Ailəmizin başçısı sənin atan idi.

– Mən onun barəsində danışmaq istəmirəm, ümumiyyətlə, heç nədən danışmaq istəmirəm, əgər istəyirsənsə, mənə xeyir-dua ver, verməsən də, elə-belə gedəcəyəm.

– Hara gedəcəksən axı?

– Bilmirəm, bəlkə, Yerusəlimə, bəlkə, Vifliyemə; deyirəm, bir doğulduğum diyara baxım.

– Səni axı orda heç kim tanımır.

– Tanımasalar yaxşıdır, bir düşün ki, mənim kimliyimi bilsəydilər, başıma nə oyun açardılar.

– Kəs səsini, İsa, qardaşların eşidər.

– Onsuz da, nə vaxtsa biləcəklər hər şeyi.

– Bəs axı bütün yollar Roma əsgərlərinin nəzarətindədir, axtarırlar: İudanın qiyamçılarını axtarırlar, səni min təhlükə gözləyir.

– Əşşi, romalılar məgər İuda adlanan birisinin dəstələrindən pisdir, xatırlayırsan onu yəqin. Romalılar əliqılınclı cummazlar mənim üstümə və çarmıxa da çəkməzlər, axı mənim heç bir günahım yoxdur, pis bir iş görməmişəm.

– Sənin atan da heç bir pis iş tutmamışdı, amma gör axırı nə oldu.

– Düzdür, sənin ərin günahsız ölüb, amma günahsız yaşamayıb.

– İsa, sənin dilinlə İblis danışır.

– Bəlkə, İblis deyil, Tanrıdır?

– Onun adını yeri gəldi-gəlmədi tutma.

– Heç kəs bilməz ki, Tanrının adı yersiz çəkilir, yoxsa yox: sən bunu bilmirsən, heç mən də bilmirəm, bizim və niyyətlərimizin fərqi yalnız Ona bəllidir.

– Oğlum.

– Nədir?

– Sən bu yaşda bir belə müdrikliyi hardan yığmısan, bu elmləri harda öyrənmisən?

– Heç yerdə heç nəyi öyrənməmişəm, görünür, insanlar həqiqəti lap doğulanda tapırlar, amma dillərinə o səbəbdən gətirmirlər ki, tapdıqlarının həqiqət olduğuna əminlikləri yoxdur.

– Deməli, sən qəti qərara almısan gedəcəyini?

– Bəli.

– Qayıdacaqsanmı?

– Bilmirəm.

– Əgər dərdin dözülməz olsa, Vifliyemə get, Yerusəlimə get: Məbədə, əhli-kitabla söhbət elə, müdriklərlə görüş, onlardan soruş, sənə hər şeyi anladarlar, ata evinə dönərsən, çünki mənə lazımsan, qardaşlarına, bacılarına lazımsan.

– Qayıdacağıma söz vermirəm.

– Bəs sən necə dolanacaqsan: atan çox tez öldü, heç sənə öz sənətini tam öyrətməyə də macal tapmadı.

– Mən yer şumlayacağam, mal-qara otaracağam, balıqçılardan xahiş edəcəyəm məni özləriylə dənizə aparsınlar.

– Sən çoban olmaq istəmirsən.

– Bunu hardan bilirsən?

– Mənə elə gəlir.

– Mən nə olmalıyamsa, o da olacağam, indi isə...

– Yox-yox, sən belə gedə bilməzsən; yola yemək hazırlamalıyam, pulumuz azdır, amma taparam, bir də atanın səfər heybəsini götür, yaxşı ki, o qalıb.

– Yeməyi götürərəm, amma bu heybəni yox.

– Evdə başqa heybəmiz yoxdur, atan da nə qotur idi, nə cüzamlı, nahaq yerə iyrənirsən.

– Götürmərəm.

– Gün gələcək, atan üçün ağlayacaqsan, amma heç yaddaşında da yaşamayacaq o.

– Mən artıq onun üçün ağlamışam.

– Yenə ağlayacaqsan, onda atanın günahları barədə fikirləşmək də yadından çıxacaq, – amma bu sözlərinə Məryəm artıq cavab almadı.

Böyük uşaqlar qardaşlarına yaxınlaşıb dedilər:

– Anamızla nə barədə danışırdınız, bilmirik, indi isə sən evdən gedirsən.

İakov isə belə dedi:

– Elə istərdim ki, sənlə gedim, – onun oyunbazlığa, rəsq etməyə, macəralara, yeni yollara, görüb-tanımadıqlarına marağı böyük idi.

– Olmaz, – İsa cavab verdi, sən qalmalısan, anamızın qayğısını da kimsə çəkməlidir, o duldur axı, – və dilini dişlədi, lakin artıq gec idi: söz ağızdan çıxmışdı, tutub saxlaya bilməmişdi onu, necə ki, atasının canlı xatirəsi dözülməz dərəcədə parlaq nur seli kimi gözlərinə qəfil çarpılanda sel kimi axan göz yaşlarını saxlaya bilməmişdi.

Amma o dəqiqə getmədi: adətən, birlikdə elədikləri ailəvi nahar başa çatandan sonra getdi. Bir-bir qardaşlarının hər biriylə, iki bacısıyla və ağlayan anasıyla vidalaşdı, anasına özünün də tam anlamadığı bu sözləri dedi:

– Mən qayıdacağam, istər belə, istər elə, amma qayıdacağam.

Sonra da dağarcığını çiyninə atdı, həyətdən ötdü, qapını açıb küçəyə çıxdı və bir an ləngidi: sanki, nə edəcəyini düşünürdü – evlərini tərk eləmək, anasını, qardaşlarını qoyub getmək. Eh, həyatda necə tez-tez baş verir bu, düz kandarda – ya evin, ya da ki qərarın kandarında – ağlımıza yeni, qəflə-



tən peyda olmuş bir dəlil gəlir, ya da, sadəcə, ürəyin sancır və budur, biz artıq öz qəti niyyətimizdən imtina eləməyə hazırıq, hətta nə desən verərdik, təki dilimizdən çıxmış kəlmələr səslənməmiş olaydı. Məryəm də elə bu barədə fikirləşirdi, oğlunun darvazanın ağzında ayaq saxladığını görəndə üzündə şad bir təbəssüm parladı, lakin günəş tutqun səmadan yalnız bir anlıq boylandı – oğlu geri dönməmişdən dağarcığını yerə qoydu, sanki, onu çətin qərarın qəbuluna aparan uzun düşüncələrinə, tərəddüdlərinə son nöqtəni qoyurdu. İsa doğmalarına baxmadan evə girdi. Bir neçə saniyədən sonra yenə həyətdə görünəndə əlində atasının səndəlləri vardı. Dinmədən, danışmadan baxışlarını kütləşdirmişdi, sanki, kiminləsə göz-gözə gəlməkdən utanır, xəcalət çəkirdi, səndəlləri dağarcığına soxdu və yenə bir kəlmə də dillənmədən, heç kəsə əl eləmədən çıxdı. Məryəm darvazaya sarı atıldı, uşaqlar da onun dalınca, özü də böyüklər özlərini elə göstərirdilər ki, guya, heç nə baş vermir, bəlkə də, baş verənlərin mahiyyətini, həqiqətən, tam olaraq başa düşmürdülər hələ, uzaqlaşanın dalınca heç əl yelləyən olmadı, çünki o, bir dəfə də çönüb arxasına baxmadı. Təsadüfən yaxınlıqda olan, bu mənzərəni görən qonşu qadın soruşdu:

– Oğlun hara gedir, Məryəm?

Məryəm cavab verdi:

– Yerusəlimə, iş tapıb orda.

Biz sizinlə bilirik ki, bu heç həqiqət deyildi, amma yaxşısı budur, mənəvi qiymət vermək məsuliyyətini qətiyyən öz üstümüzə götürməyək, zira əgər zamana kifayət qədər zaman versək, mütləq elə bir gün yetişəcək ki, həqiqət yalan olacaq, yalansa həqiqət.

Elə həmin gecə Məryəmdən başqa evdə hamı yatanda o, oğlunun indi harada olması barədə düşünürdü – görəsən, karvansaranın tavanı altında gecələyir, yoxsa ağacın altında, ya bəlkə, hansısa mağarada, daşların ustundə uzanıb, harada olur-olsun, təki romalıların əlinə keçməsin – bu vaxt birdən

həyətin alaqapısı cırıldadı, urəyi elə çırpındı ki, az qaldı, ağzından çıxa: "İsa qayıtdı!" – fikirləşdi və sevincindən bir anlıq vücudu uyuşdu, çaşıb qaldı, çünki qapını belə sevincək görkəmdə, oğlunun məğlubiyyətinə təntənə eləyirmiş kimi – yəni, gördün də, necə qəlbidaş idin mənə münasibətdə, özün isə ata evinlə ayrılığa bircə gün də dözə bilmədin – açmaq istəmədi; bu, onu alçaldardı, odur ki yerində sakit, dinməz oturmaq qərarına gəldi, özünü mürgü vurурmuş kimi göstərəcəkdi; qoy İsa özü girsin içəri, qoy hələ bir yerinə də uzansın, qoy heç "Bu da mən" deməyə məcbur olmasın, özü isə sərsəri oğlunun geri dönməsinə necə sevindiyini səhər göstərər, onsuz da, hicranın qısalığı sevincin böyüklüyünə qəti təsir etməyəcəkdi, çünki ayrılıq da ölümə bənzəyir, onların arasında isə yeganə, lakin əhəmiyyətli fərq var – ümid. Bəs niyə bu qədər ləngidi, bəlkə, düz qapının ağzında durub tərəddüdlərini yaşayır hələ? Bu fikrə Məryəmin heç tabı yox idi: qapının yarığından baxsa, həyəti, oğlunu görə bilər, özü isə görünməz qalardı, o, içəri girmək istəyəndə qaçıb yerinə girərdi, əgər fikrini dəyişib yenidən geri dönmək istəsə belə, tutub saxlamağa macal tapardı. Ayaqyalın, barmaqlarının lap ucunda qapıya yaxınlaşdı, yarıqdan baxmaq üçün yerə sindi. Aylı gecə idi, torpaq eynən göldəki su kimi parıldayırdı. Hündür bir kölgə asta-asta qapıya sarı gəlirdi, Məryəm bu silueti görən kimi ağzını tutdu ki, qışqırmasın. İsa deyildi, heyrətamiz dərəcədə ucaboylu, nəhəng dilənçi idi: elə həmin dilənçi, elə ilk dəfə gördüyü cır-cındırda, amma, bəlkə də, ayın parlaqlığından indi bu cındırlar qat-qat, ağır-ağır sallanan möhtəşəm libasa çevrilmişdi. Məryəm dəhşət içində qapının taxtasından yapışdı. Ona nə lazımdır? Ona nə lazımdır? – dəhşətdən ağarmış dodaqları eyni kəlmələri təkrarlayırdı, bir an sonra isə o tamam özünü itirdi: keçən dəfə özünü mələk kimi təqdim edən sərsəri düz qapının ağzında, içəri girməyib azca yana çəkildi və indi onun yalnız necə nəfəs alması eşidilirdi, sonra isə qəribə bir səs eşidildi: sanki,

torpağın yarasını qaşıyır, eşir, onu dərin, dibsiz bir uçuruma çevirirdilər. Məryəmin nəsə soruşmasına, qapını açmasına da ehtiyac yox idi – onsuz da, qapının dalında nələr baş verdiyini bilirdi: amma o çox qısa bir an ərzində özünün əzəmətli bədəniylə Məryəmin gözləri önündəki mənzərəni tamam qapatdı, sonra dilənçi yenə peyda oldu, axırda isə qapıdan darvazaya sarı getməyə başladı; özüylə köklərindən yarpaqlarına kimi heç zədələnməmiş həmin ağacı aparırdı – on üç il qabaq içində bir ovuc yanar torpaq olan kasanın basdırıldığı həmin bu yerdə peyda olmuş mübhəm bitkini. Alaqapı açılıb bağlandı, mələk yenə dilənçiyə çevrildi, artıq çəpərin o üzündə göründü, dalınca uzun, sıx yarpaqlı, lələkli ilanları xatırladan budaqlar sürünürdü və az sonra artıq səsin kölgəsi də itdi; sanki, bütün bunlar ya təxəyyülündən keçmişdi, ya da ki, Məryəmin yuxusu idi. O, astaca qapını açdı, addımını qorxa-qorxa bayıra qoydu. Göylərin əlçatmaz ucalığı altındakı dünya parlaq idi, işıqlanırdı. Evin, az qala, lap divarının dibində bir çala qaralırdı – ağacın çıxarıldığı çala və bu çaladan düz alaqapıya qədər, lap Saman Yolu kimi par-par yanan bir iz qalmışdı – gəlin onu belə adlandıraq, Müqəddəs İakovun Yolu deməyək, çünki sonradan adı bu yola qoyulan şəxs o vaxt hələ, təxminən, İsayla eyni yaşda olardı və heç kəsin tanımadığı qalileyalı yeniyetmədən başqa bir şey deyildi, onların hər ikisinin həmin an harada olduğunu isə bircə Tanrı bilərdi. Məryəm oğlu haqqında düşündü, amma bu dəfə qorxunun caynaqları daha qəlbini cırıqlamırdı, çünki belə gözəl, sonsuz, sakit, nurdan bişən çörəyin qırağı kimi ağaran, torpağın bütün mənbə və şirəsinin qaynağı olan ayın parladığı göylərin altında onun başına pis heç nə gələ bilməzdi. Məryəm içində ruhi rahatlıq, həyətdən ötdü, ayağını yerdəki ulduzlara qorxmadan basıb alaqapını açdı. Çölə boylandı – nur saçan iz bir neçə addımlıqda yox olurdu, sanki, yarpaqlardakı sayrışan nurun gücü qəfil tükənmişdi, ya da ki – gəlin, daha uşağa qalmasının, doğmasının səbəblərini

axtarmağa heç vaxt ehtiyacı olmayacaq bu qadının təzə sayıqlamalarına qulaq asaq – sanki, mələk qiyafəsinə yenidən girmiş sərsəri dilənçi belə əlamətdar hadisə münasibətilə torpağın üstüylə yeriməmiş, qanadlarını açaraq pərvazlanmışdı. Onda Məryəmə bu cür ağlasığmaz möcüzələr lap özünün ay işığında çimən əlləri kimi sadə, təbii, adi gəlmişdi. Evə qayıdanda o, mıxdan çırağı çıxartdı, ağacın köklərinin zədələnməsindən çıxarıldığı dərin xəndəyə sarı əyildi. Çalanın lap dibində boş kasa qalmışdı.

Məryəm əlini çalaya soxub kasanı bayıra çıxartdı – adi, sadə kasa idi: içində də azca torpaq, amma daha işıq saçmırdı, özünün adi, gündəlik işinə qayıdan bəsit məişət əşyası, o gündən bəri və həmişə, içinə sahibinin imkanı və istəyindən asılı olaraq süd, su, ya da çaxır tökülən qab, çünki düz deyilir ki, hər şeyin öz zamanı var və bu zamanın özü də göylərin iradəsindədir.

Yolçuluğunun birinci gecəsini İsa açıq havada keçirmədi. Hava artıq qaranlıqlaşmağa başlayanda yol onu kiçik bir qəsəbəyə, daha doğrusu, bir şəhər ətrafına çıxartdı; anadan olandan bəri oğlana səxavətli olmayan və heç bir pis əlaməti sübutsuz buraxmayan taleyi bu dəfəki hökmünü belə verdi: İsanın xüsusi ümid bəsləmədən gecələmək xahişiylə qapısını döydüyü evin sahibləri o dərəcədə ürəyigeniş adam çıxdılar ki, belə bir oğlanı gecəgözü kandardan qovsaydılar, ömürlərinin sonuna kimi özlərinə bağışlamazdılar, çünki hər tərəfdə müharibə, kəshakəs, qırğın idi, insanları heç nədən çarmıxa çəkir, günahsız körpələri isə beşikdə öldürürdülər. İsa ona sığınacaq verən ev yiyələrinə dedi ki, Nazaretdən Yerusəlimə gedir, amma anasının dodaqlarından səslənən utandırıcı yalanı, yəni orada iş tapdığını təkrar eləmədi və dedi ki, ailəsinin tapşırığı ilə Məbədin əhli-kitabından Qanundakı bir qaranlıq məqamı aydınlaşdırmalıdır. Ev sahibi bu qədər məsuliyyətli işin hələ yeniyetməlik çağlarını yaşayan, həddi-büluğa təzəcə yetişmiş bir adama tapşırılmasına xeyli



təəccübləndi, İsa isə atası barədə bir kəlmə də danışmadan izah elədi ki, belə də olmalıdır, çünki o, ailənin böyüyüdür. Ona yemək verib həyətdəki talvarın altında yerini saldılar, çünki təsadüfi yolçu üçün bundan yaxşı yer tapılmadı. Gecənin bir aləmi yenə öz yuxusunu gördü, amma bu dəfə İrodun döyüşçüləri o qədər yaxın gəlmirdilər deyə atın da başı döngədən çıxmırdı, amma bundan yuxunun dəhşəti qətiyyən azalmır, əzabları yüngülləşmirdi – özünüzü onun yeinə qoyun, təsəvvür edin ki, sizə həyat vermiş doğma atanız əlində qılınc həmin o həyatı almağa gəlir. Evdə heç kim onlarda gecələyən yeniyetmənin çəkdiyi əzablardan xəbər tutmadı, çünki İsa artıq yuxuda da özünə və qorxusuna nəzarət etməyi öyrəndiyindən sonuncu və təsirli vasitə kimi yuxudan oyanmadan ağzını əliylə tuturdu, odur ki inildilərdən bütün bədəni lərzəyə gəlsə də, heç nə eşidilmirdi, səslər yaranmağa macal tapmamış donurdular.

Səhər ilk yeməkdə iştirak etdi, sonra isə ev sahiblərinə təşəkkürünü bildirib alqışlar yağdırdı; özü də üzünün ifadəsi, sözləri o qədər təntənəli və yerli-yerindəydi ki, hərdən bütün ailə bu oğlana əsl Tanrı nemətinin bəxş olunduğunu hiss edirdi, hərçənd ki özləri çox elə mötəbər sayılmayan Samariya tayfalarından idilər. Beləliklə, İsa onlarla vidalaşıb yola düşdü, qulaqlarında isə ev sahibinin vidalaşanda dediyi sözlər səslənirdi: "Alqış Sənə, İlahi Pərvərdigara, Göylərin Çarı, insan addımlarını yönəldən", – sonra da özünün Pərvərdigara, Göylər Hökmdarına minnətdarlıqla verdiyi cavabı, çünki insanın ehtiyacı olan hər şeyi qabaqcadan nəzərə alan və yaşadığın günlərin sayıyla topladığın təcrübənin düz mütənasib olduğunu isbat edən və bu qaydanın tələblərinə tamamilə uyğun bir şəkildə çoxa sahib olana çox verilməsini düzgün sayan da O idi – Tanrı idi.

Qısasını desək, var varı gətirər.

Yerusəlim yolu isə lap yaxşı idi, amma kaş bir az da asan olaydı. Əvvəla, samariyalı samariyalıya bənzəməz və artıq

o əyyamda bəlli idi ki, bir qaranquşla bahar olmaz; heç olmasa, ikisi lazımdır – təbii ki, bahar yox, qaranquş, özü də biri erkək, birisi dişi ki, bala verə bilsinlər. Əbəs yerə İsa qapılarını döyürdü – daha üzünə qapı açan olmadı və təbii ki, məcbur qaldı, harda gəldi gecələsin, əvvəlcə əncir ağacının altında: çətiri enli, iri, qollu-budaqlı idi, bizim təsvir etdiyimiz hadisələrdən, təxminən, on səkkiz əsr sonra dəbə minəcək və "krinolin" adı alacaq qadın ətəkliyi kimi; ikinci dəfə – karvanla bir yerdə gecələdi: yolda qoşulmuşdu onlara və xoşbəxtlikdən – İsanın xoşbəxtliyindən – karvansarada yer tapılmadı, elə bu səbəbdən də çölün düzündə düşərgə saldılar. Biz "xoşbəxtlikdən" kəlməsini ona görə işlətdik ki, bir az əvvəl kimsəsiz dağ yollarıyla səyahət edən bizim balaca səyyahın üstünə iki quldur basqın etmişdi, elə qorxaq olduqları qədər də amansız idilər, yanında olan qəpik-quruşunu da əlindən almışdılar, elə bu səbəbdən də İsa gecəni karvansarada, yolçu evində təhlükəsiz keçirmək imkanından məhrum idi, çünki onların sahibləri ticarət qanunları keşiyində möhkəm durub qonaqlarından asqırmağa görə də pul alırdılar, daha dam altında yatmağın qiymətindən heç danışmağa dəyməzdi. Necə acınacaqlı mənzərə olduğunu təsəvvür elə-yin, – lakin onun halına acıyası bir kimsə yox idi – quldurlar isə onu hələ bir məsxərəyə də qoyub getdilər və o, nəhayətsiz ənginliklərin altında, ətrafdakı dağların qoynunda, hər cür mənəviyyat anlayışlarından bilmərrə uzaq, yalnız ulduzlarla, quldurlarla və cəlladlarla məskunlaşmış Kainatda tamam tək qaldı. Xahiş edirəm, dəlillərimi mübahisə mövzusuna çevirməyin, deməyin ki, on üç yaşlı oğlan uşağının belə melanxolik düşüncələr üçün nəinki lazımi bilik və fəlsəfi bazası, həm də sadə həyat təcrübəsi yoxdur, ola da bilməz; mənə xatırlatmayın ki, nə bizim qəhrəmanın getdiyi sinaqoqun nəzdindəki məktəb, nə bu yaşadək göstərdiyi, özünü ən çox, necə deyərlər, söz üçün cibə girməməsində büruzə verən bəlli diribaşlığı ona məxsusi diqqətimizi heç cür əsaslandıra



bilməz. Bu yerlərdə nə çoxdur dülgər oğulları; ataları çarmıxa çəkilənlər də bəs deyincə var, əgər biz bu qədər münasib material olan bir yerdə onların arasından birini seçmişiksə, gəlin bütün şübhələrimizi kənara tullayaq: bizim seçim təsadüfi deyil və tamamilə düzgündür. Əvvəla, artıq çoxdan heç kəs üçün sirr deyil ki, hər bir insan öz içində bütöv bir dünyadır: bu, onun immanent cəhəti, transsendental keyfiyyətidir. İkincisi isə bu yerlər həmişə məxsusi, başqalarından fərqli olub, tək onu xatırlasaq ki, İsayadan başlayıb Malaxiya ilə bitən siyahıda neçə-neçə ali, orta, xırda rütbəli insan burada peyğəmbərlik, vaizlik edib, onların arasında həm çarlar olub, həm ruhanilər, həm çobanlar, – daha kim olmayıb ki! – bəs edər və elə buna görə də biz öz mülahizələrimizdə daha əsaslı olmalıyıq, zira dülgər oğlunda aşkarlanmış müxtəsər istedad rüşeymləri bizə tələsik, qəti nəticələr çıxarmaq hüququ vermir, çünki onun karyerasını lap başlanğıcda korlamaq olmaz. Hər halda, Yerusəlimə yollanan bu yeniyetmənin yaşıdlarının əksəriyyəti ata evinin kandarından bayıra ayaq basmasa da, qartal kimi iti gözə sahib olmasa da, dərrakə, savad xəzinəsi sayılmasa da, hörmətə layiqdir: onun özünün isə, anasına söylədiyi kimi, qəlbi yaradır və bu oğlan natura etibarıyla elə adam çıxmadı ki, bu yaraya uyğunlaşıb yaşaya bilə və oturub gözləyə ki, insanın düşünməmək, dərd çəkməmək kimi misilsiz qabiliyyəti o yaranın üstünü qaysaqlasın – yox, o, dünyaya çıxdı və çox güman ki, həmin bu dünya ona yeni-yeni zərbələr vuracaq, yaralarının sayını artıracaq və onları bir bütöv, hər şeyi müəyyənləşdirən ali əzaba çevirəcək. İstisna deyil ki, belə ehtimallar yolverilməz anaxronizm kimi görünəcək, çünki biz müasir kompleksləri Freydlə Yunqun və Qroddeklə Lakanın[1] yer üzünə gəlişindən çox-çox əvvəl doğulmuş

[1] *Georq Qroddek* (1866-1934) – alman həkimi, yazıçı və alim, Z.Freydin istifadə etdiyi "onо" anlayışının yaradıcısı. *Jan Lakan* (1901-1981) – fransız alimi, filosof və sistemli psixoanalizin banisi)

fələstinli oğlanın ya beyninə, ya da ruhuna yerləşdirməyə çalışırıq, amma bizim səhvimiz o qədər də kobud deyil – bu iddiaya görə üzr istəyirəm – çünki yəhudilər üçün ruhi qida olmuş kitablarda nə qədər misal var ki, bizə imkan verir istənilən dövrün insanlarını: nə vaxt yaşamalarına və aralarında neçə yüz il fərq olmasına rəğmən, bir-birilərilə müasir hesab edək, amma təbii ki, mücərrəd mənada. Bu qaydadan yeganə və şəksiz istisna – Adəmlə Həvvanın tarixçəsidir, heç də ona görə yox ki, o, ilk kişi, Həvva isə ilk qadın olub, ona görə ki, onlar uşaqlıq çağlarından məhrum olublar və bu dünyaya artıq elə böyük kimi gəliblər.

Qoy bioloqlarla psixoloqlar özlərinin təkziblərilə ortaya atılmasınlar, bəyan etməsinlər ki, guya, artıq kromanyon[1] insanının təsəvvürəgəlməz mentallığı bizim çiyinlərimizdə gəzdirdiyimiz qafanın içində qaynatdıqlarımıza tədricən gətirib çıxarıb. Bizim üçün bu, görürsünüz ki, çox kobud arqumentdir, çünki Müqəddəs Kitabda heç bir kromanyon barədə bir kəlmə də tapmazsan, İsa isə dünya və insanın yaranışını yalnız həmin kitabdan öyrənirdi. Lakin qələmə aldığımız, İncilə bilavasitə aidiyyəti olan bu mühakimələrdən yayınmaqla əsas vəzifəmizi – dülgər İosifin oğlunun dalınca Yerusəlimə getməyi unutduq, axı o, artıq şəhərin yaxınlığındadır – cibində bir qara qəpiksiz, amma sappasağ, qanayana kimi sürtülmüş ayaqları, lakin qəlbində uzun yol boyu bir zərrə də laxlamamış əvvəlki inamı ilə.

Onun bura ilk dəfə deyil gəldiyi, odur ki qaydasında sevinir – Tanrını yaxşı tanıyan, ya da lap yaxınlarda tanıyacaq mömin insandan məhz belə hissiyyat gözləmək olar. Gefsiman, yəni Zeytun adlanan bu dağdan onun gözləri qarşısında nitq mədəniyyətinin ən qəliz əyyamlarındakı cümlələrin qüsursuz düzülüşünə bənzər ecazkar mənzərə açılır, Məbəd, qullələr, saraylar və Yerusəlimin evləri özünün bütün qənirsiz gözəlliyilə cilvələnir, şəhər adama o qədər yaxın gəlir,

[1] *Kromanyon* – Fransanın vilayəti; burada qədim insan qalıqları tapılıb.



sanki, ona lap əlini də vura bilərsən, lakin bir vacib şərtlə: içindəki mistik atəş elə bir zirvəyə yüksəlsin ki, bu alovda yanan insan gec-tez özünün miskin gücüylə dünya ruhunun tükənməz qüvvəsi arasındakı fərqi itirsin. Axşam düşürdü, günəş uzaq dənizə sarı diyirlənməkdəydi. İsa vadiyə enməyə başladı, fikirləşirdi ki, görəsən, bu gün harada gecələyəcək – şəhərin özündə, yoxsa əvvəllər olduğu kimi, şəhər divarlarından kənarda, çünki qabaqlar atası ilə anası onu Pasxada bura gətirəndə mərhəmətli şəhər rəhbərliyinin zəvvarlar üçün qurduğu çadırların birində yaşayırdılar, amma təbii ki, qadınlarla kişilər ayrı-ayrılıqda və bu qayda hətta lap balaca uşaqlara da şamil olunurdu. Lakin alatoran düşhadüşdə şəhər divarlarına yaxınlaşanda gördü ki, darvazalar artıq bağlanır, amma qarovulçular onu içəri buraxdılar və o içəri gircək ağır darvaza tirləri dəmir çənbərlərin içində arxasınca gurultuyla bağlandı və İsa yerinə vicdanı təmiz olmayan, hər yerdə gözünə səhv və günah görünən adamlardan biri olsaydı, fikirləşərdi ki, bu səs tələ şaqqıltısı idi, bağlanan tələnin – özünün dəmir dişlərini tutduğu baldıra birdəfəlik keçirən tələnin, ya da özü özünə bir milçək kimi gələrdi: hörümçək torunun yapışqanlı sapı ilə getdikcə daha möhkəm sarınan milçək. Lakin on üç yaşlı yeniyetmənin günah yükü elə çox deyildi və bu günahların hamısı özündən asılı olmayan hərəkətlərdən doğurdu, zira quldurluq etmək, adam öldürmək, yalançı şahidlik üçün çox tez idi, öz yaxın adamının arvadına, onun evinə, quluna, öküzünə, eşşəyinə tamah salmaq da həmçinin və elə bu səbəbdən İsa təmiz idi: vicdanında və ruhunda bircə ləkəsi belə yoxdu, hərçənd ki ilkin paklıq, körpəlik dövründən artıq çıxmışdı, çünki hələ heç kəsə ölümü öz gözüylə görərək əvvəlki kimi qalmaq nəsib olmayıb.

Günün elə bir vaxtı yetişirdi ki, camaat bütün ailəsiylə axşam yeməyinə yığışırdı, boşalmış küçələrdə yalnız sərsərilər və dilənçilər qalardılar, amma elə onlar da aşkarda deyildilər, onlar da özlərinin gizli yuvalarına, sığınacaqlarına

tələsirdilər, çünki tutulsalar, Sepforisdəki kimi dəhşətli edama məhkum ediləcəklərini bilsələr də, öz qara əməllərindən daşınmayan şəxslərin – araqarışdıranların və pisniyyətlərin qənimi olan Roma gözətçilərinin İrod Antipin paytaxtında şəhərin küçələrinə çıxan vaxtı idi. Budur, məşəlin titrək işığına qərq olmuş qılınc və qalxanların sakit cingiltisindən, ağır döyüş səndəllərinin tappıltısından səsə gələn belə gözətçi dəstələrindən biri küçənin dərinliyində göründü. Qapı aralığına sinmiş İsa legionerlərin gözdən itməsini gözlədi, sonra da gecələmək üçün yer axtarmağa getdi. Elə ümid elədiyi yerdə də sığınacaq tapdı – Məbədin əzəmətli tikintisində: iki nəhəng, yonulmuş daşın üstünə üçüncüsünü qoymuşdular, taxça kimi bir şey alınmışdı. İsa ora girib, quru, kiflənmiş çörəyinin qalıqlarıyla dağarcığının dibindən tapdığı bir ovuc əncir qurusunu yedi. Su istəyirdi, amma yerini bilmirdi deyə dözmək qərarına gəldi. Həsirini açdı, üstünü balaca yorğança ilə örtdü – onların hər ikisini evdən götürmüşdü – dörd tərəfdən soxulan soyuqdan qorunmaq üçün lap büzüşdü və yuxuya getdi. Burada, Yerusəlimdə də onu elə həmin yuxu haqladı, lakin, görünür, Tanrının yaxınlığından yuxu daha elə dəhşətli deyildi – elə əvvəllər də gördüyü mənzərələr idi, amma bu dəfə onun bayaq əllərindən uğurla can qurtardığı romalılar da yuxusunun iştirakçılarına çevrilmişdilər. Hava işıqlaşmağa başlayanda yuxudan oyandı. Buz kimi məzarı xatırladan yuvasından sürünüb çıxdı, yorğanına bürünüb yüngülcə çəhrayıya boyanmış alçaq, daş evlərə nəzər saldı. Sonra onun uşaq dodaqlarında xüsusi təntənəylə səslənən duanın sözlərini dedi:

– Alqış Sənə, Pərvərdigara, mənim Tanrım, Göylərin Hökmdarı, alqış ki, mərhəmətindən ruhumu mənə sağ qaytardın.

Həyatda elə anlar var ki, onları yadda saxlamaq lazımdır, zamandan qorumaq lazımdır, təkcə bizim bu İncillə elədiyimiz kimi kağız üzərinə hərflərlə qeyd etmək, ya kətanın üstündə rənglərlə çəkmək, fotoşəkillərə, kinolentə, videolentə qeyd etmək yox – mühüm olanı budur ki, həmin anlarda yaşayan və həmin anları yaşamış insan bunu özünün gələcək nəsillərinə ötürsün, onlar da bütün bunları öz gözləriylə görsünlər, lap elə bizim kimi: indi Yerusəlimə gəlmişik ki, gözlərimiz önündə həmin bu oğlan – İsa canlansın, İosifin oğlu, kiçik yorğançaya bürünmüş, müqəddəs şəhərin evlərinə baxan və İlahi Pərvərdigara ruhunu ona diri qaytardığı üçün dua edən İsa. Onun yalnız on üç yaşı var, həyatı yenicə başlayır, gələcəkdə ona həm daha xoşbəxt, həm daha kədərli, həm ümid işığıyla dolu, həm çıxılmazlığın zülmətində batan, həm gülməli, həm lap faciəvi saatlar nəsib olacaq, amma biz həmin bu dəqiqəni seçmişik: şəhərin hələ uyuduğu, şəfəqin nuru zorla sezilən, dağarcığını ayaqlarının arasında saxlayan yorğana bürünmüş oğlanın gözləri önündəki evlərə tamaşa etdiyi, bütün yer üzünün sükut içində donub gözlədiyi dəqiqəni. Amma bu, qeyri-mümkün işdir axı, budur, oğlan özü də tərpəndi, dəqiqə bitdi və zaman bizi o yerlərə aparır ki, sonra yalnız xatırlamaq qalacaq bizə: olubmu bu, yoxsa olmayıb, belə olub, yoxsa yox... "Olub", deyəcəyik, hər şey məhz belə olub. İndi isə İsa yavaş-yavaş adamlarla dolan dar küçələrlə addımlayır – Məbədə gəlmək üçün hələ tezdir: kitab əhli, bütün əsrlərdə və bütün ölkələrdə olduğu kimi burada da bir az çox yatmağı sevir. Ona artıq soyuq deyil, acından qarnı burulmağa başlayıb: İosifin oğlu yemək istəyir, amma dağarcığında qalmış iki əncir qurusu yalnız aclığını qızışdırar. Bax, quldurların taladığı pula təəssüflənməyin vaxtı indi çatır, çünki şəhər çöllük kimi deyil, çöldə özünçün gedirsən, fit çala-çala, baxırsan ki, əkinçilər Tanrının ehkamını yerinə yetirib sənin üçün nəsə qoyublar yeməyə: "Öz tarlanda məhsul yığanda əgər dərzi unutdunsa, götürmək üçün qayıtma – qoy qəribə, yetimə, dula qalsın; zeytununu toplayanda ötdüyün budaqları bir də yoxlama; üzümünü yığanda qalıqlara dəymə – gəlməyə, yetimə, dula saxla və unutma ki, özün də Misir torpağında qul olmusan".



Lakin Yerusəlim böyük şəhərdir və İlahi Pərvərdigar özünün yer üzündəki məskənini orada ucaltmağı əmr etsə də, belə mərhəmətli adətlər ya buralara çatmayıb, ya da çatsa belə, tutmayıb, odur ki əgər yemək almağa pulun yoxdursa, sənə ancaq istəmək qalır, kobud rədd cavabına tuş gələcəyinə göz yumaraq istəmək, ya da oğurlamaq – amma nəzərə al: tutulsan – səni azı şallaq gözləyir, bir də qoduqluq, hələ, bəlkə, ondan da sərt cəza. İsa oğurlaya bilməz, dilənmək istəmir və üst-üstə qalanmış dağ boyda təzə çörəyə ac gözləriylə baxır, meyvələrdən qurulmuş ehramlara, bütün kuçə boyu piştaxtaların üstündəki yeməklərə, şirnilərə baxır, baxır və beyni dumanlanır, az qalır, huşunu itirə, zira bu üç gün ərzində, samariyalıların verdiyini saymasaq, demək olar ki, dilinə heç nə dəyməmişdi və içində yığılmış aclıq dözülməz qəmişə dönmüşdü; yaxasından qopmaq bilmirdi. Bəli, əlbəttə ki, o, Məbədə gedir, lakin pəhrizkar-mistiklərin nə söyləməsinə baxmayaraq, əgər diqqət yetirib anlamaq bacarığımızı yeməklə möhkəmləndirsək, bizim cismimiz də Tanrı sözünü daha yaxşı qavrayar. Xoşbəxtlikdən yanından ötən farisey acından huşunu itirmək dərəcəsinə çatmış yeniyetməyə fikir verdi, onun halına acıdı və çox nahaq yerə gələcəkdə fariseylərin dalınca pis şöhrət dolaşacaq, "farisey" sözünün özü də, az qala, söyüş kimi səslənəcək, çünki onlar, mahiyyətcə mərhəmətli insanlar idi və bunu İsaya diqqət yetirmiş həmin o şəxs də isbat elədi:

– Sən kimsən?

– İsayam, Qalileya Nazaretindən, – oğlan cavab verdi

Ardınca daha bir sual: "Yemək istəyirsən?" – səslənəndə baxışlarını kütləşdirdi, çünki söz demək artıq idi daha: hər şey üzündən aydınca oxunurdu.

– Sən yetimsən?

– Yox, amma burda təkəm.

– Evdən qaçmısan?

– Yox, – əslində də qaçmamışdı axı, bircə onu yada salaq ki, anası, qardaş-bacıları vidalaşanda onu necə qucaqlayırdılar, gedəndə isə bircə dəfə də dönüb arxasına baxmamağı qətiyyən o demək deyildi ki, o, evdən qaçıb, amma sözlərin xasiyyəti budur və adama həmişə elə gəlir ki, sadəcə, "hə" ya da "yox" söyləmək ən adi və inandırıcı cavabdır, lakin həqiqət konkret deyil axı, Həqiqət çox vaxt qeyri-müəyyən cavab tələb edir: "Necə yəni qaçmaq, mən heç yerdən qaçmamışam", – bu yerdə bizim bayaqdan nəql etdiklərimizin hamısını başdan bir də səsləndirmək lazımdır, amma narahat olmayın, bunu eləməyəcəyik, əvvəla ona görə ki, hekayətimiz boyu bir də rastlaşmayacağınız həmin fariseyə bunları bilmək qətiyyən gərək deyil, ikincisi isə, biz özümüz bunu istənilən adamdan çox bilirik: bir fikir verin ki, bu İncilin qəhrəmanları bir-biriləri barədə nə qədər az bilirlər, İsa – atası, anası barədə, Məryəm – əri və oğlu haqda; qardaşlıq məzarına atılmış İosifə isə, ümumiyyətlə, heç kəs barədə heç bir şey məlum deyildi. Bizi isə onlarla muqayisə eləmək olmaz, həmin bu ana kimi nə baş veribsə, onların özü, ya da tamam başqaları tərəfindən nə danışılıbsa, nə düşünülübsə, hər şeyi bilirik, hərçənd özümüzü elə aparmalıyıq ki, guya, anlamırıq, başa düşmürük və bu, bizi müəyyən mənada həmin o "Yemək istəyirsən?" soruşan fariseydən fərqləndirməyəcək, baxmayaraq ki İsanın solğun, heydən düşmüş sifəti bütün sözlərdən daha bariz cavab idi bu suala: "Soruşma, yedizdir".

Axırda bu rəhmdil adam elə onu da elədi, sobadan təzəcə çıxmış iki çörək, bir fincan süd aldı və bütün bunları dinməzcə İsaya uzatdı, özü də fincanı əldən ələ ötürəndə bir az süd onların ikisinin də əlinə dağıldı, hər ikisi eyni anda, eyni hərəkətlə yaş əllərini dodaqlarına yaxınlaşdırıb damcılarını sümürdülər: təxminən, yerə saldığımız çörəyi öpdüyümüz kimi və həqiqətən, təəssüf doğurur ki, bu iki nəfərə bir də görüşmək nəsib olmayacaq – axı onlar, sanki, öz aralarında mübhəm bir sazişə girmiş və bu gözəl hərəkətlə də təsdiqləmişdilər onu.



Farisey özünün adi həyatına dönməmişdən cibindən iki dənə sikkə çıxarıb dedi:

– Yaxşısı budur, evinizə qayıt, bu dünya hələ sənin üçün çox böyükdür.

Əlində fincanla çörək tutmuş dülgər oğlu birdən içindəki aclıq hissini duymadı, ya da aclıq duyduğunu duymadı, uzaqlaşan fariseyin dalınca baxaraq təşəkkür bildirən sözlərini dilinə yalnız bu an gətirdi, amma o qədər yavaş dedi ki, o, yəqin, eşitməzdi bu sözləri; əgər hər mərhəmətli hərəkətinə görə minnətdarlıq gözləyənlərdən olsaydı, bizim qəhrəmanı qədirbilməz, tərbiyəsiz oğlan sayardı. Aclığı yeni qüvvəylə hücuma keçmiş İsa elə burada, küçənin ortasında çörəyini yeyib, südünü içdi, boş fincanı satıcıya uzatdı, o isə dedi: "Onun da pulu çatıb, lazım deyil, özünə saxla". Soruşacağıq ki, bu nə adətdir belə, Yerusəlimdə – təkcə südü yox, həm də onun töküldüyü fincanı almaq? Bəlli deyil ki, farisey niyə məhz belə etmişdi və həmin an onun farisey başında dolananları yalnız Tanrı bilir.

– Deməli, bunu özümlə götürə bilərəm?

– Dedim axı, fincan sənindir, pulunu verdi.

İsa fincanı yorğançasına büküb dağarcığına soxdu, fikirləşdi ki, indi gərək ehtiyatlı olsun ki, sındırmasın, gil kövrək şeydir, tez sınır, axı bu, əslində, bir ovuc torpaqdır, amma taleyi elə insanı da bəlli müddət üçün düzəldib, möhkəm, nəmöhkəm, nə fərqi var? Cismini doyurub ruhunu yüksəltmiş İsa səndəllərinin burnunu Məbəd istiqamətinə çevirdi.

Məbəd səkisinin dik pillələri qalxan meydanda artıq camaat toplaşmışdı. Divarın dibində hər iki tərəfdən çadırlar, piştaxtalar uzanırdı, onlarda cürbəcür şeylər satırdılar və o cümlədən də qurbanlıq heyvanlar; orada-burada sərraflar öz masalarının arxasında oturmuşdular; əl-qol ölçə-ölçə çığırışan satıcılar mallarını öyürdü; qayda-qanuna nəzarət eləyən Roma gözətçiləri ya piyada, ya at belində keçirdilər; qulların çiyinlərində üstübağlı kəcavələr süzür, möhtəşəm

dəvələr ağır-ağır, yüklü eşşəklər xırda addımlarıyla, tələsik gedirdilər; hər tərəfdən adamların səs-küyü ucalırdı, bu səs-küy hərdənbir quzuların, çəpişlərin mələşməsiylə kəsilirdi – bəzisini lap yorğun uşaq kimi qucaqlarında, bellərində, digərlərini boynuna bağlanmış kəndirdən çəkə-çəkə aparırdılar, lakin onların hamısını eyni tale gözləyirdi – qəssab qəməsinin tiyəsi, qurbangah tonqalının alovu. İsa əlüzyuyan adlı böyük məxsusi çənin yanından ötüb pillələrlə qalxdı, ayaq saxlamadan Bütpərəstlər həyətindən Qadınlar həyətinə keçdi, oradakı qapı Yağ həyətinə və İsraillilər həyətinə aparırdı, axtardığını da elə orada tapdı – ağsaqqallar, müdriklər orada idilər və adət-ənənəyə uyğun olaraq Qanunu izah edir, sualları cavablandırır, məsləhət verirdilər.

Oğlan ən az adam olan dəstəyə yaxınlaşdı, elə bir anda yetişdi ki, onlardan biri əlini qaldırıb sual vermək istəyirdi və əhli-kitabın baş tərpətməklə verdiyi icazədən sonra soruşdu:

– Mənə başa sal, xahiş edirəm, İlahinin Sina dağında Musaya vəd etdikləri – torpaqlarımıza sülh yollayacağı, bizi daha heç kəsin incitməyəcəyi, vəhşi heyvanları torpaqlarımızdan qovacağı, bu yerlərdən bir daha əliqılınclı keçən olmayacağı, bizim düşmənlərimizə qələbə çalacağımızı, onların qılınclarımız altında öləcəklərini, beşimizin yüz nəfəri, yüzümüzün isə bir ordunu məğlub edəcəyi haqda Nəsihətin lövhələrində yazılmış sözləri hərfi mənada anlamaq lazımdırmı?

Kitab əhli sual verənə şübhəylə baxdı, çəkinirdi ki, həmin bu şəxsi Qalileyalı qiyamçı İuda göndərmiş olar ki, bu ikibaşlı sözlərlə beyinləri qarışdırsın, Məbədin Roma hakimiyyətiylə barışdığını isbatlasın, elə buna görə də onun sualına kəskin cavab verdi:

– Bu kəlamları bizim əcdadlarımız səhralarda misirlilər tərəfindən təqibə məruz qalanda Tanrımız buyurmuşdu.

Sual edən daha bir şey soruşacağına işarə olaraq əlini bir də qaldırdı və dedi:

– Səni necə başa düşməliyəm, demək istəyirsən ki, Tanrının Sina dağında buyurduqları yalnız bizim əcdadlarımız vəd olunmuş torpaqları axtardıqları zəmanə üçün əhəmiyyətlidir?

– Əgər bunu belə anlayırsansa, onda sarsaq israillisən, çünki Tanrı sözü həmişə əhəmiyyətli olub, var və olacaq. Bu sözlər Tanrı tərəfindən söylənməmişdən də onun ağlında idi, ağzını yumandan sonra da ordadır.

– Sən mənə düşünməyi qadağan etmirsən ki?

– Sən nə haqda düşünürsən ki?

– Düşünürəm ki, Tanrı bizim istismar edənlərə qarşı silah qaldırmamağımızla, yüzümüzün beş nəfərə qarşı qalxmağa cəsarət göstərməməyimizlə və yüz romalının on min yəhudini tir-tir titrətməsiylə razılaşır.

– Unutma ki, sən Məbəddəsən, döyüş meydanında yox.

– Lakin bizim Tanrımız – döyüş Tanrısıdır.

– Yadına sal ki, Rəbbimiz Musaya bir şərt də qoymuşdu.

– Nə şərt?

– Tanrı demişdi ki, bütün bunlar olacaq, əgər onun nizamı ilə yaşasaq, onun nəsihətlərini qoruyub onlara riayət etsək, anladın?

– Biz nədə pozduq onun nəsihətlərini, hansı sözlərinə əməl etmədik ki, Romanın hakimiyyətini günahlarımızın layiqli cəzası kimi qarşılayaq?

– Bunu yalnız Tanrının özü bilir.

– Hə, Tanrı özü bilir ki, azad olmayan insan necə tez-tez günah işlədir, sən mənə deyə bilərsən ki, niyə Tanrı bizi romalıların tapdağına buraxmaqla cəzalandırdı və niyə cəzamızı şəxsən özu, seçdiyi xalq ilə üz-üzə durub vermədi?

– Tanrı öz məqsədlərini bilir və bu məqsədin yollarını da özü seçir.

– Deməli, sən söyləmək istəyirsən ki, romalılar onun iradəsiylə İsrailə sahiblik edirlər?

– Bəli.

– Deməli, romalılara qarşı üsyan edənlər Tanrı iradəsinə qarşı çıxırlar?

– Sənin çıxardığın nəticələr düz deyil.

– Sən özün özünə zidd danışırsan, ey müdrik.

– Tanrının istəyi, onun bir şeyi istəməməsində də zahir ola bilər, o, öz istəyini məhz belə büruzə verər.

– Yalnız insan nəyisə istəyə bilər, amma bu istəyin Tanrının gözündə heç bir əhəmiyyəti yoxdur?

– Məhz elədir.

– Deməli, insan azaddır?

– Bəli, cəza çəkməkdə azaddır.

Bu yerdə söhbətə qulaq asanlar arasında astaca səs-küy qalxdı, bəziləri də sual verən adama nəzər saldılar, zira onun sualları Müqəddəs Kitabın nuruyla işıqlansa da, narahat, hələ, bəlkə də, lap qiyamçılıq kimi səslənirdi – elə baxırdılar, sanki, bütün israillilərin günahını təkcə o götürməliydi öz çiyinlərinə, həm götürməli, həm də bu günahları qanıyla yumalıydı, beləliklə, tərəddüd edənlər də tərif və təbrikləri aqilanə təbəssümlə qəbul edən müdrikin haqlı olduğuna bir-dəfəlik inandılar. O, öz qiymətini bilən usta kimi, söz meydanının pəhləvanı kimi ətrafına özündənrazı nəzərlərlə göz gəzdirir, sanki, söz güləşdirməyə yenə kimisə dəvət etmək istəyirdi, lap zəif rəqibini kürəyi üstə qoyub daha güclüsünü tələb eləyən qladiator kimi, çünki döyüş nə qədər çətin olsa, qalibə bir o qədər böyük şərəf gətirər. Sonra budur, əl yenə qalxdı və sual səsləndi:

– Tanrı Musayla danışanda dedi: "Qəribi sıxışdırma, onu istismar etmə, zira siz özünüz də Misir torpağında gəlmə olmusunuz", – lakin o, sözünü bitirməyə macal tapmamış bundan qabaqkı bəhsdə qazandığı qələbədən qızışmış müdrik istehza ilə onun sözünü kəsdi:

– Ümidvaram məndən soruşmayacaqsan ki, niyə romalılar qərib olsalar da, onlara həmvətənimiz kimi münasibət göstərmirik?

– Yox, istəyirdim öyrənim ki, niyə romalılar bizimlə öz həmvətənləri kimi davranırlar, baxmayaraq ki, biz tamam ayrı ilahilərə etiqad göstəririk və qanunlarımız da fərqlidir.

– Hə-ə, sən də Tanrı sözünü iblisvarı yozub onun qəzəbinə gəlmək istəyirsən, – ağsaqqal onun sözünü bir də kəsdi.

– Yox, istəyirəm biləm ki, sən, həqiqətənmi, bizim öz torpağımızda olmasa da, etiqad bəslədiyimiz dində qərib olmağımızla Nəsihətlərə riayət etdiyimizi sanırsan?

– Sən nədən danışırsan, birbaşa de!

– Nədən danışıram? İndi yaşayan bəzilərindən, keçmişlərdə yaşamış əksəriyyətdən və gələcəkdə yaşayacaq çoxlarından.

– Bilirsən, mənim vaxtım yoxdur ki, sənin nağıllarına qulaq asım, tapmacalarını tapım.

– Biz Misir torpaqlarından çıxanda adını İsrail qoyduğumuz torpaq başqa xalqlarla məskunlaşmışdı, onlarla döyüşməliydik və o dövrlərdə qərib idik. Lakin Tanrı bizə tapşırır ki, onun iradəsinə qarşı çıxanları qətlə yetirək, məhv edək. Bəli, bu, bizə vəd edilmiş torpaq idi, lakin onu almaq, özünə tabe etmək lazım gəlirdi, axı biz onu nə pulla almışdıq, nə də hədiyyə kimi. İndi isə biz yadellilərin hakimiyyəti altında yaşayırıq, bir zamanlar özümüzünkü etdiyimiz torpaq da artıq bizim deyil.

– Rəbbimiz özünün seçdiyi xalqı bir an da unutmayacaq, istər o bütün yer üzünə səpələnmiş olsun, ya da bir məkana toplaşmış və Tanrı haranı istəsə, ora da İsrail torpağı olacaq.

– Lakin bundan belə bir nəticə çıxarıram ki, biz harda olsaq, qalanları bizim üçün yalnız qərib olacaq.

– Tanrının gözündə, əlbəttə, elədir ki var.

– Yaxşı, axı Nəsihətlərə əsasən aramızda yaşayan qəribləri biz Misirdəki qürbət çağlarımızın xatirəsinə özümüzünkü kimi sevməyə borcluyuq.

– Bəli.



– Mən belə güman edirəm ki, biz qəribləri sevməliyik, amma romalılar kimi xalqımızı özünə tabe edə biləcək qəribləri yox.

– Sən duz mühakimə yürüdürsən.

– Onda qoy müdrikliyin və savadın cavab versin mənə: əgər elə güclü olacağımız bir gün gəlsə, Tanrı bizə sevməli olduğumuzu tapşırdığı qəribləri istismar etmək icazəsi verəcəkmi?

– İsrail heç vaxt Tanrı iradəsinin ziddinə getməyəcək, Tanrı isə özünün seçdiyi xalqa pislik etməz.

– Hətta əgər bu xalq sevməyə borcludursa?

– Hə, əgər onun iradəsi belədirsə.

– Kimin iradəsi, Tanrının, yoxsa İsrailin?

– Hər ikisinin, zira onların ikisi bir vahiddir.

– Bəs Nəsihətdə deyilir axı, qəriblərin haqqını tapdamaq olmaz.

– Bu, yalnız o halda mümkündür ki, özümüz onların bu haqqını tanıyaq.

Əhli-kitabın bu sözləri də növbəti sarsaq üzərində qələbə kimi qiymətləndirildiyindən, razılıq nidalarıyla dəstəkləndi və onun gözləri diski hamıdan uzağa atmış atletin, rəqibini yıxan güləşçinin, ötüşdə ən sürətli olmuş arabaçının gözləri kimi parladı. Burada İsa da əlini qaldırdı və heç kəs məəttəl qalmadı ki, bu qədər kövrək yaşda olan bir yeniyetmə Məbədin müdriklərindən və əhli-kitablarından nəsə öyrənmək istəyir – yeniyetməlik dövrü üçün hər şeylə maraqlanan beyin çox səciyyəvidir, yeniyetmələr hələ Qabillə Habilin zamanlarından daim tərəddüdlər məngənəsində sıxılırlar, böyüklər də mütəkəbbir təbəssümlə onların kürəklərini yüngülcə şappıldadıb deyirlər: "Bax, böyüyərsən, özün görərsən ki, bütün bunların heç bir əhəmiyyəti yoxdur", özləri isə hər şeyi anlayırmış kimi əlavə edirlər: "Məni də sən yaşda olanda bunlar çox maraqlandırırdı". Amma bu arada dinləyicilər yavaş-yavaş, deyəsən, dağılışmağa başlayırdılar və bu da bizim indi işlətdiyimiz təbirlə desək, auditoriyanın diqqətinə

alışmış əhli-kitabın təəssüfünə səbəb olurdu, amma İsanın səsi eşidilən kimi aralanmaq istəyənlər də ayaq saxladılar:

– Mən günah barədə soruşmaq istəyirəm.

– Öz günahın barədə?

– Yox, ümumiyyətlə, günah barədə, amma həm də öz günahım barədə: mən günahkaram, amma birbaşa günah işlətməmişəm.

– Aydın danış.

– Tanrı buyurur ki, atalar öz övladlarına görə ölümlə cəzalandırılmamalıdırlar, uşaqlar da atalarına görə və hər kəs öz günahının cəzasını çəkməlidir.

– Elədir, amma bunu da nəzərə al ki, onda qədim zamanlar nəzərdə tutulurdu, nə vaxt ki ailənin bir üzvünün günahına görə hamı cəza alırdı, lap balaca günahsız körpələr də daxil olmaqla.

– Lakin Tanrı sözü bütün zamanlara aiddir, sən özün də indicə dedin ki, insan cəzasında azaddır, buna görə də fikirləşirəm ki, atanın törətdiyi cinayətin cəzası, əgər o özü artıq bu cəzanı alıbsa belə, onunla məhdudlaşmır və irsən oğluna da keçir, məsələn, elə Adəmlə Həvvanın ilkin günahının yükü indi yaşayan bizlərin də çiynindədir.

– Etiraf edim ki, mənim üçün belə gənc və əgər geyimindən nəticə çıxarsaq, sadə bir oğlanın Müqəddəs Kitabımızı belə yaxşı bilməsi və özünə lazım olan yerləri bu qədər asanlıqla tapması təəccüblüdür. Sən hardansan?

– Qalileya Nazaretindən.

– Ləhcəndən elə də anlamışdım.

– Zəhmət olmasa, mənim şübhələrimi aydınlaşdır.

– Yaxşı, belə fərz edək ki, Tanrının buyruğundan çıxmış Adəmlə Həvvanın günahı xeyir və şər ağacının meyvəsini dadmaqdan çox, bu hərəkətdən doğan fəlakətli nəticələrdədir, zira onlar öz hərəkətləriylə Hakimi-Mütləqin əvvəl kişini, sonra isə qadını yaratmaqla içində gəzdirdiyi ideyaya müdaxilə etmişdilər.

[1] *Tirada* – dramda qısa və təsirli monoloq



– Deməli, belə çıxır ki, insanın hər bir hərəkəti – istər cənnətdə Tanrıya itaətsizlik, istər başqa şey olsun, həmişə insan arzularından ibarət dənizin ortasındakı adaya bənzəyən Tanrının işinə qarışmaq kimi dəyərləndirilir?

Bu sualı İsa verməmişdi – dülgər oğlu bu ürəyə sahib deyildi – ikinci sualı verən başqa birisiydi və əhli-kitab da sözləri diqqətlə, ehtiyatla seçərək ona cavab verirdi:

– Bilirsən, məsələ qətiyyən belə deyil: Tanrı iradəsi təkcə hamıdan, hər şeydən üstün deyil, o həm də bütün varlığın mənbəyidir.

– Bəs sən özün indicə deyirdin: Adəmin sözə baxmaması onunla nəticələndi ki, Tanrının bizim əcdadımız barədə fikirlərini öyrənmədən qaldıq?

– Bəli, elədir, lakin Tanrının, Xaliqin və dünyanın Hakimi-Mütləqinin iradəsində müxtəlif iradələr ehtiva olunur: o həm Tanrının özünə, həm də bütün insanlara – indi yaşayanlara da, sonralar yaşayacaqlara da aiddir.

– Əgər sən deyən kimi olsaydı, – birdən İsa, sanki, hansısa qəfil tapıntının təsiri altında səsini ucaltdı, – bizim hər birimiz Tanrının bir parçası olardıq.

– Çox mümkündür, lakin yer üzündə olan insanların hamısı bir yerdə Tanrının müqabilində nəhayətsiz səhrada bir qum dənəciyi kimidir.

Kitab əhli birdən inanılmaz dərəcədə dəyişdi – təkəbbürü bilmərrə yox olmuşdu. O, elə bayaqkı kimi şagirdləri və köməkçilərinin əhatəsində döşəmədə oturmuşdu və onların baxışlarında elə ehtiram qədər də dəhşət vardı – ona bir sehrbaz kimi baxırdılar, ehtiyatsız və qeyri-iradi bir ovsunla dəhşətli qüvvələri yoxluqdan çəkib çıxarıb özü də əbədi olaraq onların təsiri altına düşən bir sehrbaz kimi. Belini donqarladıb əllərini heysiz halda dizlərinin üstünə salmış bu ağsaqqal, sanki, bütün görkəmi ilə, uzanmış sifətinin hər cizgisi ilə iltimas edirdi ki, onu özünün kədəriylə baş-başa buraxsınlar. Bu vaxt adamlar ayağa qalxmağa başladılar

– kimisi İsraillilər Həyətinə yönəldi, digərləri isə bəhsləri hələ də davam edən digər dəstələrə qoşuldular.

İsa dedi:

– Sən mənim sualıma cavab vermədin.

Qoca yavaşca başını qaldırıb ona dərin yuxudan indicə ayılıbmış kimi nəzər saldı və uzun, dözülməz dərəcədə uzun sükutdan sonra cavab verdi:

– Günah canavardır: atanı yeyəndən sonra oğlunu didir.

– Həmin canavar mənim atamı da yedi?

– Hə, yedi, indi də sənə girişəcək.

– Sənin özünü necə, bu canavar heç didib?

– Nəinki didib, nəinki yeyib, hətta murdar bir şey kimi qusub da...

İsa ayağa qalxıb çıxdı. Qapının ağzında ləngidi, ayaq saxlayıb arxaya çöndü. Qurbangahın tüstüsü dik yuxarı millənmişdi, düz göylərə ucalır və orada, yüksəklikdə isə əriyib yox olurdu, sanki, Tanrının nəhəng ciyərləri onu öz içinə çəkirdi. Gün günortaya yaxınlaşır, içəridə camaatın sayı artırdı, Məbəd otaqlarının birində isə, ruhu param-parça olmuş biri içindəki nəhayətsiz boşluğu duyaraq oturmuşdu, gözləyirdi ki, nə vaxt köhnə sümüklərin üstünə adi ət gələcək, nə vaxt öz dərisinə qayıdacaq ki, bir gün sonra, məsələn, "Lutun arvadı hansı duzun sütununa dönmüşdü – daş duzun, yoxsa dəniz duzunun, ya da Nuhun içdiyi çaxır ağ idi, yoxsa qırmızı" kimi suallara sakit, ləyaqətlə cavab verə bilsin. Artıq Məbəddən çıxanda İsa Vifliyem yolunu soruşdu, iki dəfə azdı, səhv istiqamətə döndü, küçə və döngələrin dolaşıq sistemsizliyində, qarışqa yuvasını xatırladan ağlasığmas basabasda bir xeyli dolaşdı, nəhayət, on üç il qabaq artıq bu dünyanın qapısını taqqıldadan öğlunu öz bətnində daşıyan Məryəmin getdiyi həmin yolu – səyahətinin ikinci məqsədini tapdı. Amma güman etməyə dəyməz ki, o məhz belə düşünürdü, xüsusən ona görə ki, yəqinlik və şübhəsizlik həmişə ilhamın qanadlarını qayçılayır, buna sübut olaraq indi bircə

nümunə gətirim: qoy bu İncilin oxucusu öz anasının portretinə baxsın, onu ürəyinin altında gəzdirdiyi zamanların portretinə və etiraf etsin görək özünü onun bətnində təsəvvür eləyə bilirmi. İsa isə bu vaxt Vifliyemə addımlayırdı, əhlikitabın verdiyi cavabları fikirləşə-fikirləşə – həm öz suallarına, həm də daha əvvəl soruşulanlara – gedirdi, amma bir hissiyyat onu sıxır, ona rahatlıq vermirdi, çünki bütün suallar son nəticədə tək bircə şeyə köklənirdi, amma hər birinin cavabını istənilən suala da aid etmək mümkün idi, xüsusilə də – ağsaqqalın yekun və hər şeyi özündə ehtiva edən, günah canavarının heç vaxt doymayacağı və daim içləri didib-dağıdacağı, yeyib qusacağı barədə verdiyi son cavabını. Əksərən yaddaşımızın zəifliyindən biz heç özümüz də günahlarımızın mənbəyini, səbəbini, onun lap dərin köklərini bilmirik – əgər biliriksə də, elə bil, tez unutmağa çalışırıq onu – Məbəd əhlikitabının məcazlarıyla desək, qurban gəzən canavarın çıxdığı həmin o yuvanı. Lakin İsa bu yuvanın harada olduğunu yaxşı bilir və indi birbaş ora gedir. O heç bilmir ki, orada nə edəcək, amma sanki, hamıya və hər kəsə elan etmək istəyir: "Bu mənəm", sonra da qarşısına çıxanların hamısından bunu soruşmaq istəyir: "Sənə nə lazımdır? Cəzalandırmaq? Bağışlamaq? Unutmaq?"

Bir zamanlar valideynləri etdiyi kimi, o da Rahilin məqbərəsinin yanında dayandı, dua edib yoluna davam elədi; görürdü ki, ürəyi getdikcə daha şiddətlə döyünür. Budur, Vifliyemin ilk evləri, hər gecə gördüyü yuxularda İrodun yolladığı döyüşçülər bu evlərə soxulurlar, yanlarında da onun atası, amma düzünə qalsa, adamın heç inanmağı gəlmir ki, o dəhşətli cinayət, bax, bu səma altında törədilib: səmada o qədər sakit, o qədər ağ buludlar süzürdü, sanki, günəş altında nazlanan bu torpaqda onları Tanrının özü sevirdi, odur ki adam qeyri-ixtiyari belə demək istəyir: "Eh, bunların hamısını unudaq, köhnə palan içi tökməyək"; əliuşaqlı qadın evlərdən birinin darvazası önündə görünüb ondan kimi axtardığını

soruşanadək geri dönsün, elə eləsin ki, bizi bura gətirən izlər də bilmərrə itsin və zamanın əbədi axarı özünün qalın tozu ilə həmin o hadisələrin sonuncu yaddaşının da üstünü örtə- cəyi ümidiylə gözləsin. Amma gecdir, çox gecdir. Hələ bir an qabaq milçək canını qurtara bilərdi, əgər qanadıyla, qanadı- nın lap qırağıyla yapışqanlı hörümçək toruna toxunmamış olsaydı, indi isə nə qədər istəyirsən çabala, artıq faydasız qanadlarını necə istəyirsən çal, artıq heç nə kömək etməz və canını qurtarmaq üçün nə qədər qəzəblə, nə qədər tələskən- liklə çabalasan, bir o qədər də çox dolaşacaqsan tora, gücdən tam düşəndə isə ölüm çaşqınlığı içində anlayacaqsan ki, nicat yoxdur və mərhəmət gözləməyə dəyməz, hətta hörümçək sənin kimi əhəmiyyətsiz ovdan vaz keçsə belə, faydası yox- dur. Elə İsa üçün də xilas ola biləcəyi an artıq keçmişdi.

Şəhər meydanının ortasında, qollu-budaqlı əncir ağacı- nın altında o qədər də hündür olmayan kub formasında nəsə durur, çox elə diqqətlə baxmağa ehtiyac yoxdur ki, onun sərdabə olduğunu başa düşəsən. İsa yaxınlaşdı, aramla ətra- fına dolandı, ayaq saxladı, yan tərəfində zorla anlaşılan, yarısı pozulmuş yazıları oxudu, bütün bu hərəkətləri elədikdən sonra anladı ki, axtardığını tapıb. Meydandan keçən, təxmi- nən, beş yaşlı uşağın əlindən tutub aparan qadın addımlarını yavaşıtdı, yad adama maraqla baxıb soruşdu:

– Sən hardansan? – sonra da hər şeylə maraqlanmasını əsaslandırırmış kimi əlavə elədi – Görürəm, buralı deyilsən.

– Mən Qalileya Nazaretindənəm.

– Burda qohumların var?

– Yox, Yerusəlimdəydim, qərara aldım bir Vifliyemə də baş çəkim.

– Deməli, elə-belə, yol keçirdin, hə?

– Hə, axşam sərinində Yerusəlimə qayıdacağam.

Qadın uşağını qucağına alıb dedi:

– Qoy Tanrı sənə yar olsun, – artıq gedirdi ki, İsa soruşdu:

– Burda kim dəfn olunub?



Qadın uşağını kimdənsə qoruyurmuş kimi sinəsinə sıxdı və cavab verdi:

– İyirmi beş balaca oğlan uşağı, çox illər qabaq öldürüb- lər onları.

– Neçə?

– Dedim axı, iyirmi beş.

– Neçə il qabaq?

– On dörd ilinə bir şey qalmayıb.

– Hə, həqiqətən, çoxdur.

– Təxminən, elə sən də on dörd yaşı olana oxşayırsan.

– Mən o öldürülənləri soruşurdum.

– Onlardan biri mənim qardaşım idi.

– Sənin qardaşın da burdadır?

– Hə.

– Bəs qucağındakı oğlundur?

– Hə, ilkimdir.

– Bu oğlanları niyə öldürüblər?

– Bilmirəm, o vaxt yeddi yaşım vardı.

– Amma sən, yəqin, bu barədə valideynlərindən, ya da böyüklərin hansındansa eşitmisən.

– Nə eşitmək, öz gözlərimlə gördüm necə öldürdüklərini.

– Öz qardaşını da?

– Öz qardaşımı da.

– Bəs kim öldürmüşdü onları?

– Çar İrodun qoşunları gəlmişdi, iki yaşa qədər bütün uşaqları tutub öldürdülər.

– Bilinmir, nəyə görə?

– Yox, indiyədək bilinmir.

– Bəs İrod öləndən sonra niyə Məbədə gedib, ruhanilər- dən xahiş eləmədiniz ki, bunu öyrənsinlər?

– Bilmirəm, deyə bilmərəm.

– Əgər bunu romalılar etsəydi, mən hələ başa düşərdim, axı nəsə bir səbəb olmalıdır ki, çar öz təbəələrini, özü də azyaşlı təbəələrini öldürməyə qoşun yollasın.

– Bizə çar iradəsini dərk etmək nəsib deyil, qoy Tanrı sənə nicat verib qorusun.

– Mənim ki iki yaşım yoxdur.

– Ölüm dəmi hamının iki yaşı olur, – qadın bunu deyib yoluna davam elədi.

İsa tək qaldı, sərdabənin ağzını örtmüş qəbir daşının yanında dizüstə çökdü, dağarcığından bir tikə qurumuş çörək çıxarıb girəkdə ovxaladı: sanki, qırıntılarını günahsız qətlə yetirilmiş körpələrin gözəgörünməz ağızlarına qoyurdu. Elə bu an yaxın döngədən daha bir qadın çıxdı, amma başqa cür – artıq lap qoca, beli bükülmüş, əl ağacına söykənə-söykənə yeriyən və yarıkor idi. Lakin tanımadığı yeniyetmənin orada nə etdiyini özünün zəif gözləriylə də seçdi, ayaq saxlayıb diqqətlə baxdı, İsa isə ayağa durub başını aşağı əydi, sanki, bu bədbəxt oğlanların ruhuna Rəbbindən sükunət diləyirdi və hərçənd ki burda "əbədi" sözü yerinə düşərdi, biz bunu etməyəcəyik, çünki bir dəfə əbədi sürəcək sükunətin nə demək olduğunu təsəvvür etməyə çalışdıq, təxəyyülümüz bundan imtina elədi.

İsa duasını bitirib ətrafına göz gəzdirməyə başladı, kor divarlar, bağlı qapılar və bir az aralıda durmuş qul paltarlı çox qoca bir qadın gördü, əl ağacına söykənib durmuş qarı məşhur tapmacanın üçüncü sualına əyani cavab idi: "Hansı heyvan səhər dörd ayaq üstə gəzir, günorta – iki, axşam – üç?", bir zamanlar sfinksin müdrik Edipdən sorduğu tapmaca, cavabı da belə olmuşdu: "İnsan" və qətiyyən xatırlamamışdı ki, hər insan ömrünün günortasına yetişə bilmir və tək Vifliyemdə belə adamların sayı iyirmi beş olmuşdu.

Qarı isə ağır-ağır gəlir, ayaqlarını sürüyə-sürüyə yaxınlaşır, yaxınlaşırdı, budur, o artıq İsanın lap yanındadır, yaxşı görmək üçün boynunu uzadıb baxır və soruşur:

– Kimisə axtarırsan?

O isə o dəqiqə cavab vermədi, çünki həqiqət bunda idi ki, axtarıb tapdığı "kim" deyildi, "nə" idi və həmin o şey düz

iki addımlığında idi, içindəkilər heç ölməmişdən də "adam" məfhumuna zorla uyğun gələrdi – əşşi, çolma-çocuq idilər də; burnufırtıqlı, əsgiləri də kirli, – sonra da ölüm yetirdi özünü və onların hərəsini bir nəhəngə çevirdi, indi heç bir qəbrə sığmırlar, bütün sərdabələr onlara darlıq eləyir, əgər yer üzündə həqiqət varsa, deyirlər ki, hər gecə yer üzünə qayıdır, özlərinin ölümcül yaralarını göstərirlər – qılıncların tiyəsiylə varlıqdan yoxluğa çıxdıqları qapıları.

– Yox, – İsa cavab verdi, – heç kəsi axtarmıram.

Lakin qarı getmədi, sanki, gözləyirdi ki, yenə nəsə söyləsin və bu gözləntidən onun demək fikrində olmadığı sözlər də ağzından özbaşına çıxdı:

– Mən burda, şəhər kənarında doğulmuşam, mağarada, indi də gəlmişəm ki, baxım, görüm.

Qarı geriyə çox çətinliklə başa gələn addım atdı, diqqətli – gücü çatan qədər diqqətli baxışlarını onun üzünə zilladı və titrəyən səsiylə dedi:

– Sənin... adın nədir sənin, hardan gəlirsən, valideynlərin kimdir?

Qul qadının verdiyi suallara cavab vermək vacib deyil, lakin nə qədər aşağı təbəqədən olsa belə, qarının yaşına ehtiram göstərmək, görünür, onun qanında idi: qocaların suallarına, kimliyindən asılı olmayaraq, həmişə cavab vermək gərəkdir, çünki nəsə soruşmaq fürsəti o qədər az qalıb ki, biz suallarını havadan asılı qoysaq, çox qəddar davranmış olarıq, xüsusilə də əgər bu suallardan birini nə zamandan bəri gözləyiriksə.

– Mənim adım İsadır, Qalileya Nazaretindənəm – cavab verdi və ata evinin kandarından bəri keçəndən başqa bir söz deməmişdi.

Qarı ona sarı bir addım atıb bayaqkı yerinə qayıtdı:

– Valideynlərin kimdir, adları nədir?

– Atam – İosif, anam – Məryəm.

– Neçə yaşın var?

– On dörd olacaq.

Qarı ətrafına çaşqın-çaşqın göz gəzdirdi, sanki, oturmağa yer gəzirdi, lakin İudeya Vifliyeminin meydanı sizin üçün San-Pedro-de-Alkantara parkı deyil ki, rahat skamyaları, qəsrə açılan gözəl mənzərəsi olsun, burada elə yerə otururlar, tozun içinə, ən yaxşı halda da qapının ağzındakı daş səkiyə; o da əgər qəbir üstünə ziyarətə gəlmisənsə – o səkiyə, daşa ki əzizlərinin məzarı başına ağlamaq üçün gələn sağlar onun üstündə dincəlir, nəfəslərini dərirlər ki, sonra yenə ağlasınlar, bəlkə də, qəbirlərdən qalxan kölgələr sağlıqlarında axıda bilmədikləri göz yaşlarından azad olsunlar deyə, bu qədər ağlayırlar, lap məqbərəsi bu yaxınlıqda olan Rahilin əhvalatı kimi: "Rahil oz balaları üçün ağlayır və heç cür toxtaqlıq tapa bilmir, zira onlar yoxdur" və qətiyyən, Edip müdrikliyinə malik olmaq gərək deyil ki, anlayasan: burada məkan şəraitə uyğundur, göz yaşı – onu doğuran səbəbə.

Qarı nıqqıldaya-nıqqıldaya daşın üstündə əyləşdi və İsa hətta yerindən tərpəndi ki, ona kömək eləsin, amma macal tapmadı – təmiz qəlblə etmədiyimiz şeylər həmişə gecikir – nəhayət, yerini rahatlayandan sonra dedi:

– Mən səni tanıyıram.

– Səhv salırsan, – İsa cavab verdi, – ilk dəfədir bura gəlirəm, Nazaretdə isə səni heç görməmişəm.

– Sənə toxunan ilk əl mənim əlim olub, ananınkı yox.

– Bu, necə ola bilər axı?

– Adım Salomeyadır, mamaçayam, doğuşda səni mən tutmuşam.

İsa bir an içində – bizim bayaq ürəkdən gəlməyən hərəkətlərin həmişə gecikdiyi barədə söylədiyimiz fikirdən çıxış etsək, onda deməliyik ki, səmimi hərəkətlərin səciyyəviliyi onun vaxtında büruzə verilməsindədir – qul qarının önündə dizlərini qatladı: onu bu hərəkətə ya heyrət dolu sevincdən qaynaqlanan qeyri-iradi maraq, ya da adi hörmət sövq etmişdi – axı bizi o şəraitdə ən yüksək məsuliyyət nümunəsi göstərərək hələ şüur və yaddaşla yüklənməmiş ömür sürdüyümüz yerdən çıxarıb bunlar olmadan təsəvvürə sığışmayan həyata buraxmış insana minnətdarlığını necə bildirməyəsən?!

– Amma anam mənə sənin barəndə heç vaxt danışmayıb.

– Danışası nə var axı? Sənin valideynlərin sahibimin evinə gəlib kömək istədilər, o da məni yolladı; çünki belə işlərdə təcrübəm vardı.

– Bu, elə həmin bu qəbirdə yatan körpələrin qətlə yetirilməsi ərəfəsində olub?

– Hə, elədir, sənin bəxtin gətirdi, tapa bilmədilər, yoxsa indi burda idin.

– Biz mağarada gizlənmişdik, ona görə?

– Elədir və bəlkə, həm də ona görə ki, sizinkilər qaçmağa macal tapmışdılar: mən anana, sənə baş çəkməyə gələndə mağara artıq boş idi.

– Bəs atamı necə, xatırlayırsan?

– Əlbəttə, bir gəl xatırlamayım: o vaxt cavan, hündürboy, şax qamətli kişi idi və görünürdü ki, yaxşı da adamdır.

– O ölüb.

– Heyif, az yaşadı, bəs sən, sən ki ailənin böyüyüsən, niyə ananı tək qoymusan, ümidvaram o sağdır, hə?

– Mən doğulduğum yerləri görmək istəyirdim, həm də o öldürülmüş uşaqlar haqqında öyrənmək lazım idi.

– Bir Tanrı bilir ki, onları niyə öldürdülər, ölüm mələyi İrodun döyüşçülərinin qiyafəsində Vifliyemə endi və onların canını aldı; görünür, Tanrının iradəsi belə imiş. Mən bir qul qarıyam, amma yer üzündə çoxdan yaşayıram və anadan olandan bəri eşidirəm ki, nə baş verirsə, insanlar bir-birinə nə zülmlər edirsə, hamısı ancaq Tanrının iradəsiylə olur.

– Kitabda da belə deyilir.

– Tanrı bugün-sabah mənim ölümümü istəsə, bunu anlayaram, amma günahsız körpələr niyə ölməlidirlər?

– Sənin son gününü Tanrı müəyyənləşdirəcək, onları isə bu ölümə insan məhkum elədi.

– Əgər qismətində qurban getmək olanlardan Tanrı qılıncın tiyəsini uzaqlaşdıra bilməyibsə, onda, görünür, İlahinin əli gücsüzdür.

– Tanrıya zidd danışma, ey qadın.

– Mən heç nə bilmirəm və əgər bilmirəmsə, deməli, kiminsə qarasına da danışa bilmərəm.

– Bu gün Məbəddə eşitdim ki, hər şey, hətta insanın ən kiçicik hərəkəti belə Tanrı tərəfindən müəyyən edilir və insan yalnız cəzalanmaqda azaddır.

– Məni isə azad olduğuma görə deyil, qul olduğumdan cəzalandırırlar, – qarı dilləndi.

İsa dinmədi. Salomeyanın son sözlərini çətin ki eşidəydi – beyninə bir fikir qəfil açılan pəncərə qapaqlarından qaranlıq otağa axan gözqamaşdırıcı işıq kimi girdi: insan Tanrının əlində oyuncaqdan başqa bir şey deyil və ömrünün sonuna kimi yalnız Tanrıya lazım olanları etməyə məhkumdur: həm ona tam tabe olduğunu düşünəndə, həm də ziddinə getdiyinə əmin olanda.

Günəş qüruba doğru hərəkətdə idi, əncir ağacının qorxulu kölgəsi artıq düz ayaqlarının yanına sərilmişdi. İsa bir az çəkildi, qarını səslədi, o isə başını zorla qaldırdı.

– Nə istəyirsən?

– Məni doğulduğum mağaraya apar, əgər bunu eləyə bilməzsənsə, heç olmasa, yolunu başa sal, özüm gedim.

– Mənə yerimək, həqiqətən, çətindir; güc qalmayıb, amma mənsiz də tapa bilməzsən.

– Uzaqdır?

– Uzaq deyil, orda mağara çoxdur, hamısı da zahirən bir-birinə oxşayır.

– Onda birlikdə gedək.

– Yaxşı, gedək də.

Həmin gün Salomeyanı tanımadıqları yeniyetmənin yanında görənlər bir-birindən xəbər alırdılar ki, görəsən, onların arasında nə əlaqə var? Amma bu sualın cavabını heç

kim bilmədi, çünki qarı taleyinə yazılmış son iki il ərzində bu görüşdən heç danışmadı, İsa isə anadan olduğu yerlərdə sonralar bir də görünmədi. Onların görüşünün səhərisi qarı oğlanı dünən axşam qoyduğu mağaraya getdi və heç kəsi görmədi orada. Qəlbinin dərinliklərində buna hazır idi. Onu elə qoyduğu yerdə tapsaydı belə, bir-biriylə danışası sözləri yox idi.

* * *

Həyatımızın təsadüflərdən toxunmuş xalı olduğu barədə az deyilməyib, lakin hər gün baş verən görüşlər isə, demək olar ki, heç vaxt xatırlanmır və bu, çox qəribədir, çünki həyatın müqəddəratını məhz görüşlər müəyyən edir, yönəldir, hərçənd ki həyatın imkanlarını natamam qavradığımızdan bu postulatın, əgər belə demək mümkünsə, müdafiəsinə aşağıdakı arqumenti irəli sürmək olar: görüş, əgər ciddi desək, bir təsadüfdür, bundan isə təbii ki, hər təsadüfün də görüş olduğu barədə nəticə çıxmır. Bizim İncildə təsadüflər çoxluq təşkil edir, lakin məxsusi diqqət yetirdiyimiz İsanın həyatında – xüsusilə də onun doğma evlərindən çıxdığı saatdan etibarən – görüşlər sarıdan heç kasadlıq yoxdur. Onu qarət etmiş quldurlarla bağlı bəd epizodu bir kənara qoyaq, çünki bu görüşün mümkün nəticələri hələ yaxın və daha uzaq gələcəyin dumanında anlaşılmaz olaraq qalır, o ki qaldı qalanlarına, qeyd etməliyik ki, İsanın tənha səyahətində görüş sarıdan, həqiqətən, bəxti gətirib: həm çox, həm də uğurlu olub görüşləri – taleyin, sanki, öz əliylə göndərdiyi mərhəmətli fariseyi yada salaq, heç olmasa: bizim yeniyetmə məhz ona minnətdar olmalıdır ki, həm içindəki dağıdıcı aclığı boğdu, həm də bu görüşə nə az, nə çox, dəqiq lazım olan qədər vaxt sərf elədi – o qədər ki, nə tez, nə gec, düz bizim qəhrəmanın Nazaretdən özüylə gətirdiyi sualları üçün – əgər xatırlayırsınızsa, məsuliyyət və günah barədə idi bu suallar – münbit şərait yaradan həmin söhbət vaxtı gəlib çıxdı

Məbədə. Təhkiyənin söykənməli olduğu sərt qaydaların mudafiəçiləri və biliciləri deyəcəklər ki, biz əhəmiyyətli, taleyüklü görüşləri minlərlə başqa, heç bir əhəmiyyət daşımayan görüşlərlə növbələşdirməli idik – real həyatda baş verən kimi – ondan ötrü ki, bizim qəhrəman oxucuların gözündə – əgər onlar tapılsa – başına heç bir bayağı, adi hadisə gələ bilməyən müstəsna varlığa çevrilməsin. Bir də onu deyəcəklər ki, hekayətimiz yalnız bu yolla özünün baş məqsədinə çataraq arzuedilən həyatabənzərlik effektini əldə edə bilər, zira bizdə uydurulmuş epizod təsvir edilməyibsə və belə hadisənin real həyatda ola da bilməsi qeyri-mümkündürsə, onda elə etmək lazımdır ki, həmin bu epizod həqiqi hadisəyə bənzəsin, ya da, ən azından, oxucuya bənzəyirmiş kimi gəlsin; guya, indicə təqdim etdiyimiz və yazdıqlarımızı tarix kimi qəbul etmək istəyən oxucuların inamını ən abırsız tərzdə qıran əhvalat – İsa Vifliyemə gəlməyə macal tapmamış – buyur, bu da axtardığın, qarşına lap tabağın içində çıxır – onu öz əlləriylə bu dünyaya qəbul etmiş qoca mamaçayla burun-buruna toqquşur, sanki, bu görüş və digər qadınla ona məlumatlar verən, müəllifin bilə-bilə araya dürtdüyü həmin söhbət də – o əliuşaqlı qadını xatırladınız? – mötəbərliyin bütün bəlli sərhədlərini aşmırdı. Bu, hələ harasıdır; ən ağlasığmazı hələ qabaqdadır: deyin, necə inanmaq olar ki, Salomeya qarı İsanı öz xahişiylə mağaraya ötürüb, elə orada da qoyub: İndi isə get, mən burada, bu divarlar arasındakı qaranlıqda tək qalacağam, ilk çığırtımı sükut içində dinləmək istəyirəm, çünki bu körpə çığırtısının əks-sədası lap çoxdan sönüb – Salomeyanın dediyinə görə, İsa, guya, qarıya indicə oxuduğunuz məhz bu sözləri deyib, hərçənd ki bu artıq həqiqətəuyğunluğa nümayişkaranə bir çağırışdır və müəllif əgər azacıq sağlam fikirli insan olsaydı, bu sözləri kağıza deyil, ayağa yazmalıydı – Salomeyanın qocalıq mərəzinin, ağıldankəmliyinin ayağına. Hər halda: ya vəlvələdən, ya zəlzələdən, qarı taytıya-taytıya çıxıb getdi, ayaqlarını



səntirləyə-səntirləyə, inamsız ataraq, hər addımdan qabaq ikiəlli tutduğu ağacıyla torpağı yoxlayaraq getdi və düz sözümdür, əgər bizim qəhrəman onun üçün bu qədər fədakarlıq etmiş bu bədbəxt qarıya evə qayıtmağa kömək göstərsəydi, ləyaqətli hərəkət etmış olardı, lakin biz hamımız cavanlıqda xudpəsənd, təkəbbürlü oluruq və niyə İsa öz yaşıdlarından fərqlənməlidir ki?

O isə daşın üstündə oturub, yanındakı çıraq kələ-kötür divarları zorla aydınladır, köhnə ocağın daha tünd görünən yanmış yerini işıqlandırır. İncə əllərini heysiz halda sallayaraq oturub: sifəti çox ciddidir. "Mən burada anadan olmuşam, beşik yerinə bu axurda yatmışam, valideynlərim isə mən indi oturduğum daşın üstündə oturublar, Vifliyemdə İrodun adamları körpələri qıranda biz burada gizlənmişik və mən indi nə qədər çalışsam da, nə ilk körpə çığırtımı, nə o körpələrin ölümqabağı qışqırıqlarını, nə də bütün bunları gözləriylə görən valideynlərinin necə nalə çəkdiyini eşidə bilmərəm: əzəllə axırın qovuşduğu, ataların köhnə, balalarınsa gələcək günahlarının hesabını ödədiyi – bunu Məbəddə izah etdilər mənə – bu mağaranın sükutunu heç nə poza bilməz, lakin əgər həyat hökmdürsə, ölüm – ədalət məhkəməsidir, deməli, yer üzündə heç vaxt həmin o səbəbsiz öldürülən vifliyemli körpələr qədər günahsız insan olmayıb və danışmaq lazım gələn yerdə susmuş atam qədər günahkar da olmayacaq və indi, hətta ömrüm boyu bircə günah belə işlətməsəm də, onun günahı mənim axırıma çıxacaq: mənə ona görə nicat verilib ki, bu nicatın bahasını hansı cinayətlə ödədiklərini bilim".

O, mağaranın alaqaranlığında ayağa qalxdı, sanki, qaçmaq istəyirdi, lakin yalnız ikicə inamsız addım ata bildi və ayaqları qəflətən büdrədi, əlləri gözlərinə sarı qalxdı ki, gilələnən göz yaşlarını saxlaya bilsin. Yazıq oğlan: dözülməz ağrı çəkirmiş kimi qıvrılır, yerdə, tozun içində sürünürdü, indi onun vicdanı törətmədiyi günahın acısını çəkirdi və nə qədər

ki yaşayacaqdı baş günahkar daim özünü sayacaqdı, çünki onun günahı dözülməz, bağışlanmaz idi. İrəliyə qaçıb deyək ki, bu ağrılı və heç vaxt yüngüllük gətirməyən göz yaşı seli İsanın gözlərində kədərin nəmli parıltısı kimi əbədilik qalacaq, baxana daim elə gələcək ki, indicə çox möhkəm ağlayıb.

Zaman ötürdü və günəş də keçirdi: qərbə doğru gedirdi, kölgələr uzanıb hər şeyi bələyən mütləq kölgənin – yaxınlaşan gecənin bütün yer üzünü çulğayacaq kölgəsinin gələcəyindən xəbər verirdi, hətta bu alaqaranlıq mağaranın özündə belə, dəyişikliklər görünməyə başladı: zülmət çırağın fitilinin ucunda titrəyən işıqlı ləkəni yeyirdi – yağı bitirdi yəqin – günəş də əbədilik sönəndə elə bu cür olacaq və insanlar birbirilərinə deyəcəklər: "Nəsə pis görünür hər yer" və heç ağıllarına da gəlməyəcək ki, daha göz gərək deyil onlara.

İsa özünü neçə gündən bəri canında yığılmış yorğunluğun rəhminə təslim edib yatırdı, çünki bu müddət ərzində nə qədər hadisə baş vermişdi – atasının əzabkeş ölümü də, ondan miras qalan dəhşətli yuxu da, anasının acı həqiqəti etiraf etməsi də, Yerusəlimə çətin yol da, adamın canına qorxu salan Məbəd də, əhli-kitabın rəhmsiz sözləri də, Vifliyem səfəri də, taleyin ona nəsib etdiyi, zamanın dərinliklərindən onun son tərəddüdlərini də yox etmək üçün gəlmiş mamaça qarı ilə görüş də və burada təəccüblü bir şey yoxdur ki, əldən düşmüş bədəni yorğun ruhu da özüylə alıb yuxuya qərq olmuşdu, lakin ruh da artıq tərpənmişdi və indi bədəni də götürüb Vifliyemə uçmuşdu; orada, meydanın ortasında dəhşətli bir cinayətin etirafı səslənirdi, ruh bədənin dodaqlarıyla deyirdi: "Mən həmin o şəxsəm ki, sizin oğullarınızın ölümünə səbəb olmuşam, məni mühakimə edin, cismimi mühakimə edin, budur, o, indi sizin qarşınızdadır – ruhumun canlandırdığı diri bədənim – işgəncələrə məruz qoyun onu, ən dəhşətli edam edin, zira bəllidir ki, ruh yalnız cismin çəkdiyi əzablardan keçərək nicatla mükafatlandırılacaq".

İsa yuxuda, öldürülmüş körpələrini qucaqlarında tutmuş vifliyemli anaları görür və onlardan yalnız biri sinəsinə diri balasını sıxır: bu, meydanda ilk görüşdüyü qadındır və onun sözlərinə həmin qadın cavab verir: "Əgər sən onların həyatını qaytara bilmirsənsə, sussan yaxşıdır – ölümlə göz-gözə duranda bütün sözlər əbəsdir". Yol dağarcığının dibində görünməz olmuş əzik tunika kimi çaşqın ruh da öz içində gizlənir, tərk etdiyi cismi isə vifliyemli anaların məhkəməsinə verir, lakin İsa bilməyəcək ki, özünün puç qılafını buradan salamat apara bilər, çünki uşağı salamat olan o qadın elə hazırlaşmışdı ki, ona "sən müqəssir deyilsən, get" desin, elə həmin an oğlana gözqamaşdırıcı bir işıq kimi gələn nəsə mağaranın zülmətini yırtdı, o oyandı.

"Mən hardayam?" – beyninə girən ilk fikir bu idi və tozlu döşəmədən zorla gözünü qaldırıb hələ qurumamış göz yaşlarının içindən qarşısında nəhəng qamətli bir adam gördü və əvvəl ona elə gəldi ki, guya, onun başı alov içindədir, lakin elə o dəqiqə anladı – həmin şəxs yuxarı qaldırdığı sağ əlində məşəl tutmuşdu: alovu mağaranın tağına dirənirdi, başı isə ondan xeyli aşağıda qalsa belə, lap Qoliafın özünə də məxsus ola bilərdi – boyu çox uca idi, lakin onun üzündə qəzəbli, döyüşkən ifadə yox idi, əksinə, dodaqlarında məmnun bir təbəssüm işarırdı; adətən, axtardığını tapmış adamlar belə gülümsünür. İsa qalxıb divara tərəf çəkildi və indi bu nəhəngi daha yaxşı görə bilirdi, o, elə də ağlasığmaz boyda deyildi; ən hündür nazaretlidən cəmi bir qarış uca olardı, onun gözünə görünən isə görmə yanlışlığından savayı bir şey deyildi, bu yanlışlıqsız da, bəllidir ki, heç bir möcüzə, heç bir fövqəladə hadisə olmazdı yer üzündə və güman etmirəm ki, bu kəşf yalnız bizim dövrlərə aid ola, Qoliaf da bir az gec anadan olsaydı, ancaq basketbol oynayardı, vəssalam.

– Sən kimsən, – məşəlli adam soruşdu: amma görünürdü ki, o, sadəcə olaraq, söhbətə başlamaq üçün ayaq vermək

istəyir. Sonra əlindəki məşəli daşların arasındakı yarığa soxdu, özüylə gətirdiyi iki ağacı – biri düyün-düyün idi, çoxdan işlətdiyindən ovcunda pardaqlanmışdı, digəri isə, görünür, indicə kəsilmişdi deyə, hələ heç qabığı da soyulmamışdı – divara söykədi, özü isə ən böyük daşın üstündə əyləşib, çiyninə atdığı enli plaşının ətəklərini yığdı.

– Nazaretli İsa, – yeniyetmə ona cavab verdi.

– Nazaretdənsənsə, bəs burda niyə oturmusan?

– Mən burda doğulmuşam, bu mağarada, indi də dünyaya gəldiyim yerə qayıtmışam.

– Sən dünyaya elə bir yerdən gəlmisən ki, əgər istəsən də ora qayıda bilməzsən. – Onun ikibaşlı sözləri İsanı utanmağa, qızarmağa məcbur elədi. – Nədir, yoxsa evdən qaçmısan? – naməlum adam sözünə davam etdi.

İsa bir az tərəddüd elədi, sanki, hələ bunu özü üçün həll etmək istəyirdi ki, onun evdən gedişinə qaçmaq demək olar, yoxsa yox və sonra cavab verdi:

– Hə.

– Ata-ananla düz gəlməmisən?

– Atam yoxdur mənim.

– Həə, – kişi dilləndi, lakin İsanı qəflətən qəribə, mübhəm bir hissiyyat götürdü; deyəsən, onun həmsöhbətinə bu da məlum idi, yalnız bu yox, ümumiyyətlə, söylədiyi hər şey və hətta hələlik barəsində danışmadıqları da. – Niyə mənim sualıma cavab vermirsən?

– Hansı suala?

– Mən soruşurdum ki, valideynlərinlə narazılığınız olub?

– Sənə dəxli yoxdur.

– Ədəbsizlik etsən, çırpacağam səni, burda sənin səsini heç İlahi Pərvərdigarın özü də eşitməz.

– Tanrı göz və qulaqdır, hər şeyi görür, hər şeyi eşidir, amma hər şeyi ona görə söyləmir ki, lazım bilmir hələ.

– Ay oğlan, sən axı bunları hardan bilirsən?

– Sinaqoqda mənə nə öyrədiblərsə, onu da bilirəm.

– Bəs sən nəyə görə belə hesab edirsən ki, Tanrı göz və qulaqdır – iki göz və iki qulaq deyil bizim kimi?

– Çünki bir göz o birisini aldada bilər, elə qulaq da həmçinin, dil isə birdir.

– İnsan dili də ikiüzlü ola bilər: həqiqət də söyləyə bilər, yalan da danışa bilər.

– Lakin Tanrıya yalan danışmaq qadağandır.

– Ona kim qadağan edib ki bunu?

– Özü qadağan edib, yoxsa özu özünü təkzib edərdi.

– Sən onu görmüsən?

– Kimi?

– Tanrını.

– Mən görməmişəm, amma başqaları görüb, xəbərini də hamıya yayıblar.

Kişi sükut içində bir müddət İsanı süzdü, sanki, sifətinin cizgilərində kiminləsə bənzərlik axtarırdı, sonra isə dedi:

– Elədir, elələri var ki, guya, Tanrını görüblər, – bunu deyib bir az da susdu və sonra bic-bic gülümsünüb dilləndi:

– Amma mənə cavab vermədin ha.

– Nə barədə?

– Ata-ananla necə dolandığın barədə.

– Mən evdən getmişəm ki, dünyanı görüm.

– Sənin ağzın yalan söyləməyə öyrənib, amma mən axı sənin kimliyini əla bilirəm: sən dülgər İosiflə, toxucu Məryəmin oğlusan.

– Məni hardan tanıyırsan?

– Gözəl günlərin birində tanımışam və görürsən ki, hələ də unutmamışam.

– Əməlli izah elə.

– Mən çobanam, artıq çox illərdir bu yerlərdə öz qoyunlarım və keçilərimlə, qoyun və keçilərimi minən qoç və təkələrimlə gəzirəm: sən anadan olanda da, Vifliyemdə körpələri öldürəndə də burda idim, odur ki səni çoxdan tanıyıram.

İsa dəhşət içində ona baxıb soruşdu:

– Sənin adın nədir?

– Otardığım sürüyə mənim adım gərək deyil.

– Mən ki o sürünün quzusu deyiləm.

– Nə bilmək olar.

– Mənə adını de.

– Əgər sənə bunu bilmək o dərəcədə vacibdirsə, məni "Çoban" deyə çağır və bu bəs edər ki, çağırışına gəlim.

– Məni öz yanına köməkçi götür – çoban əlaltısı.

– Gözləyirdim ki, bunu xahiş edəsən.

– Hə, götürürsən?

– Neynək, götürürəm səni öz sürümə.

O qalxdı, məşəlini alıb mağaradan çıxdı. İsa da onun dalınca getdi. Qaranlıq gecə idi, ay hələ çıxmamışdı. Mağaranın ağzında qoyunlar, keçilər zınqırovlarını astaca cingildədərək sakit durmuşdular, lap dinməz idilər, sanki, Çobanlarının öz təzə köməkçisi ilə apardığı söhbətin bitməsini gözləyirdilər. Çoban məşəli qaldıraraq keçilərin qara başlarını, sümüklü bellərini, qoyunların ağımtıl ağızlarını, pırtlaşıq böyürlərini işıqlandırıb dedi:

– Budur mənim sürüm, otar onu və göz yetir ki, bu heyvanların biri də itməsin.

İsayla Çoban mağaranın girəcəyində əyləşərək boyat çörəklə pendir yedilər, sonra o, mağaradan təzə çomağını çıxardı, kiçik bir tonqal çatıb onu alovun üstündə ustalıqla hərləməyə başladı: elə elədi ki, qabığı uzun-uzun liflərlə çıxdı, sonra isə onu yondu, bir də oda verdi, amma bu dəfə elə salan kimi də çıxartdı – və beləcə, bir neçə dəfə bu işi gördü: göz qoyurdu ki, alov onu yandırmasın, cavan budağı ancaq qarsaraq sərtləşdirsin, rəngini tündləşdirsin, sanki, vaxtından qabaq qocaldırdı ağacı. İşini başa çatdırıb çomağı İsaya uzadarkən o, bu sözləri dedi:

– Al, indi sənin çomağın möhkəmdir, düzdür, ondan muğayat ol – bu, sənin üçüncü əlindir.

İsanın əlləri çox elə zərif olmasa da, çomağı saxlaya bilmədi, əlindən saldı – barmaqlarını yandırmışdı. O fikirləşdi ki, görəsən, Çoban bunu necə saxlayırdı, fikirləşdi, amma cavab tapmadı. Nəhayət ki, ay çıxanda onlar mağaraya girdilər, yatmaq üçün yerlərini rahatladılar. Bir neçə qoyun, keçi də onlarla bir yerdə içəri girib yanlarında oturdu. Dan yeri sökülmək istəyirdi ki, Çoban İsanı bu sözlərlə silkələdi:

– Bəsdir yatdın, oğlan, qalx, mənim heyvanlarım acıb, bu gündən etibarən, həmişə onları otarmağa aparacaqsan və ömrün boyu sənin bu qədər vacib işin olmayıb, bunu bil.

Onlar öz addımlarını sürünün xırda-xırda, büdrəyən yerişinə uyğunlaşdıraraq tərpəndilər – Çoban irəlidə, şəyirdi də dalınca – dünyanı yaranışın ilk günü kimi göstərən, öz yerinə günəşi parlaqlığına qısqanırmış kimi çağırmağa tələsməyən aydın şəfəqin sərinliyində yola çıxdılar.

Onlardan sonra, xeyli sonra Vifliyemdən üç ayaq üstündə, yəni əl ağacına söykənib taytıya-taytıya bir qarı gəlib mağaraya girdi. O, İsanı orada görməyəndə çox təəccüblənmədi – onların, çox güman ki, bir-birinə danışası sözləri də yox idi. Mağaranın alaqaranlığında isə çıraq parlaq yanırdı, çünki Çoban ona yağ tökmüşdü.

Bu görüşün üstündən dörd il keçəcək, İsa da Tanrı ilə görüşəcək. Elə gözlənilməz və təhkiyənin yuxarıda xatırlatdığımız qaydalarına rəğmən vaxtı çatmamış bəyanatı verməklə, biz yalnız ona nail olmaq istəyirik ki, bu İncilin oxucularını çoban həyatından bir neçə adi epizodla tanışlığa həvəsləndirək, bunu həm də kitabın həmin hissələrini oxumayaraq vərəqləmək istəyənlərə haqq qazandırmaq və onlara məlumat vermək üçün söyləyirik: həmin epizodlarda bizim tarixçənin əsas predmetinə dəxli olan əsaslı bir şey yoxdur. Amma, hər halda, razılaşın ki, dörd il əhəmiyyətli müddətdir, xüsusilə də o yaşda ki, insan belə heyrətamiz dəyişikliklərə – həm fiziki, həm mənəvi – məruz qalır: qəflətən boy atır,

kürəkləri enlənir, təbiətin bəxş etdiyi qarabuğdayı sifəti burnunun altına, yanaqlarına çıxan tükdən bir az da qaralır, səs kobudlaşır və elə guruldayır ki, elə bil, yekə daşı dağın təpəsindən dığırlayırsan, beyninə cürbəcür fantaziyalar gəlir və oyaqkən yuxular görür – bu sonuncular qəbahətli məzmun daşıyır, xüsusilə də gecələr yatmağa icazən olmayanda, postda duranda, qarovula, kəşfiyyata gedəndə, ya da bizim çoban şəyirdi olmuş qəhrəman kimi ağası göz bəbəyi kimi qorumağı tapşırdığından, qoyun-quzunun keşiyini çəkməyə məcbur birisi üçün. Yeri gəlmişkən, onun sahibinin kimliyini də heç anlamaq olmur. O diyarlarda və o zəmanədə sürünü ya qula, ya da ən axırıncı muzdura tapşırardılar, onlar da ciddi cəza təhlükəsi altında həm süd sağımı, həm də yun qırxımının gedişi barədə ciddi hesabat verəsi olurdular, daha daim artmalı, mömin sahibini varlandırmalı olan baş sayından danışmağa dəyməz və həmin sahib bizim dünyada yayılmış adətlərə görə, əslində, qoyun-keçilərini minən qoç və təkələrin cinsi aktivliyinin artmasından daha çox, göylərin mərhəmətinin tükənməməsini arzulamalıdır. Qəribəlik də onda idi ki, bu kişinin, yəni İsaya özünün tapşırdığı kimi adlandırsaq, bu Çobanın sahibi, deyəsən, heç yox idi, çünki bu dörd ildə kimsə yunu, südü, pendiri aparmağa gəlməmişdi, o heç özü də sürünü qoyub heç yana getmir, heç kəsə hesabat vermirdi. Əgər o, bu qoyun-keçilərin, sözün qəbul olunduğu və birbaşa anlamında sahibi olsaydı, hər şey öz yerini alardı, lakin buna adamın inanmağı gəlmirdi, çünki hansı sahib bu qədər yunun batmasına imkan verərək qoyunları ancaq istidən əziyyət çəkməsinlər deyə qırxar, südd ən , əgər bu ifadə caizsə, dəqiq hər gün yeyiləcək pendir üçün nə qədər lazımdır, elə o qədər istifadə edər, artıqlarını da çörəyə, xurmaya, əncirə dəyişərdi? Nəhayət, tapmacaların tapmacası – quzuları, hətta Pasxa ərəfəsində belə satmaqdan – o günlərdə heyvanlar əla satılır, onlardan babat pul qazanmaq olurdu – kim imtina edərdi? Buna görə də təəccüblü

deyil ki, sürünün sayı durmadan artırdı, sanki, qoyunlar və keçilər onlara təbiət tərəfindən buraxılmış zamanı sonadək yaşayacaqlarına inandıqlarından Tanrının şirin təbii instinkti o qədər də effektiv saymayaraq verdiyi əmri: "Doğun, törəyin və durmadan artın" əmrini böyük inad və ilhamla həyata keçirirdilər. Sürüdəki heyvanlar yalnız qocalıb ölürdülər, lakin xəstəliyi və ya qocalaraq heydən düşməsi ucbatından sürü ilə ayaqlaşa bilməyən heyvanlara da Çoban öz əlləriylə, soyuqqanlı tərzdə ölməyə kömək edirdi.

Belə hadisə İsanın gözləri qarşısında ilk dəfə baş verəndə, o, az qaldı, bu qəddarlığa görə etiraz eləsin, lakin Çoban ona sadə cavab verdi:

– Ya mən onları həmişəki kimi kəsəcəyəm, ya bu kimsəsiz yerdə təkbaşına qoyacağam, ya da bütün sürüylə bir yerdə burda qalıb onların ölməsini gözləyəcəyəm: ölüm isə bu tezliklə təşrif gətirməyə də bilər, onda da sapsağlam heyvanlara yem çatmaz, onlar da qırılar... Söylə, mənim yerimə olsaydın, necə edərdin? Bu sürünün yaşaması da, ölümü də sənin əlindədir.

İsa isə bilmirdi nə desin, elə ona görə də tamam başqa şeydən danışdı:

– Əgər sən yun satmırsansa, əgər südümüz və pendirimiz ikimizin yeyə və içə biləcəyindən çoxdursa, əgər quzu, çəpiş satmırsansa, durmadan artan, günlərin birində düzü-dünyanı tutacaq bu sürü sənin nəyinə lazımdır?

Çoban cavab verdi:

– Əgər sürü burdadırsa, kimsə onun qayğısını çəkməlidir, acgözlərdən qorumalıdır, mən də burda elə bununla məşğulam.

– "Burda" – yəni harda?

– Burda da, orda da: hər yerdə.

– Əgər düzgün başa düşdümsə, sən demək istəyirsən ki, bu sürü həmişə olub?

– Təxminən, düz anlamısan.

– Bəs birinci qoyunu, birinci keçini necə, sən özün almısan?

– Yox.

– Bəs kim alıb?

– Onlara günlərin birində rast gəldim, əslində, heç bilmirəm ki, onlar alınıb, yoxsa elə həmişə sürü olub.

– Onları sənə veriblər?

– Yox, heç kim onları mənə verməyib, mən sürüyə rast gəlmişəm, sürü də – mənə.

– Deməli, onların sahibi sənsən?

– Yox, mən yox və bu dünyada var olan heç bir şey mənim deyil. Çünki hamısı Tanrıya məxsusdur.

– Bax, əsl sözü axırda özün dedin. Bəs çoxdan çobanlıq edirsən?

– Çoxdan, hələ sən doğulmamışdan mən sürü otarırdım.

– Yenə də, çoxdan, yəni nə qədər?

– Bilmirəm heç, sən yaşayandan, təxminən, bir on beş dəfə çox.

– Tək-tək adamlar yalnız Nuh əyyamından əvvəl bu qədər, ya daha çox ömür sürürdülər, bizim günlərdə belə şey olmur.

– Bilirəm.

– Əgər bilirsən və o qədər yaşadığında israr edirsənsə, deməli, belə fikirləşirsən ki, mən sənin, guya, insan olmadığını düşünə bilərəm?

– Ehtimal edirəm.

Ah, əgər bu dəqiqlik və belə düzgün ardıcıllıqla sual verən İsa mayevtikanın[1], heç olmasa, ilkin kursunu keçmiş olsaydı və soruşsaydı ki: "Yaxşı, əgər sən insan deyilsənsə, bəs kimsən?" – çox mümkün ki, Çoban özünə rəva bilib əhəmiyyətsiz bir şeymiş kimi bunu deyərdi: "Mən mələyəm, amma bu, öz aramızda qalsın". Belə şeylər kifayət qədər tez-tez baş verir: biz sual vermirik, çünki hələ cavabı dinləməyə

[1] *Mayevtika* – Sokratın insanın içindəki mübhəmləri məharətli suallarla aşkarlamaq metodudur.



hazır deyilik və ya bu cavabdan qorxuruq. Nə vaxt ki cəsarətimizi toplayıb sualımızı verəcəyik, onda bizə heç cavab da verməyəcəklər, necə ki, bir dəfə İsanın özündən soruşurlar: "Həqiqət nədir?" – o isə susur. Həmin bu sükut o vaxtdan düz bizim günlərə kimi davam edir.

Hə, beləliklə, İsa bunu özü də bilir və mübhəm yoldaşından bunu soruşmağa ehtiyac duymur, bildiyi isə odur ki, yoldaşı Tanrının mələyi deyil, çünki Tanrı mələkləri gecə və gündüzün hər anında İlahiyə alqışlar yağdırırlar, daha insanlar kimi bunu zorla olmasa da, öz vəzifələrinin icrası üçün, hərdənbir etmirlər, özü də bu dualarının bəlli və müəyyən edilmiş saatları var, mələklərin isə Tanrıya alqış yağdırmasına səbəb qat-qat çoxdur – mələklər axı göylərdə onunla bir yerdə yaşayırlar, necə deyərlər, yeməkləri də birdir, yatmaqları da. Amma hər şeydən çox İsa ona təəccübləndi ki, Çoban dan yeri sökülənə mağaradan çıxanda, ondan fərqli olaraq dua etmək – biz axı artıq bunu bilirik – ruhunu qaytardığı üçün, xoruzu banlatdığı üçün, sonra, daşın dalına keçib yüngülləşəndə isə öz böyük müdrikliyindən insan bədənini sözün ən hərfi mənasında tuluqlar, damarlar və deşiklərlə – onlarsız təbii ehtiyacları heç cür ödəmək olmazdı – təchiz etdiyinə görə Tanrıya şükürlər və alqışlar göndərmək fikrinə də düşmədi. Çoban göyü və yeri süzdü; yuxudan oyananda hamımız belə edirik, sonra da, deyəsən, havanın yaxşı olması barədə nəsə mızıldandı və qoşa barmağını ağzına soxub qulaqbatırıcı bir fit verdi və bu fitə tabe olan heyvanlar hamısı birdən atılıb ayaq üstə qalxdılar. Vəssalam. İsa əvvəlcə fikirləşdi ki, Çobanın dua etmək, yəqin, yadından çıxıb – hərdən adamın beynini mühüm fikirlər dolduranda belə olur: bəlkə, çoban nəsə düşünür, fikirləşir ki, qəliz çobanlıq elminin sirlərini indiyədək dülgərxananın rahatlığında vaxt keçirmiş bu oğlana necə öyrətsin. Amma demək lazımdır ki, İsa əvvəlki şəraitdə yaşasaydı, sahibinin möminlik səviyyəsinin necə təzahür etdiyi barədə çox düşünməzdi, çünki o zamanlar

yəhudilər Tanrıya gündə, təxminən, otuz dəfə alqış yollayır, ona ən xırda şeylərə görə minnətdarlıq edirdilər; bunu bütün hekayətimiz boyu dəfələrlə əyani göstərmişik, odur ki indi yeni nümunələr və dəlillər gətirmədən də keçinə bilərik. Lakin bir gün ötdü – alqışlar eşidilmədi, çobanların quru torpağın üstündə, açıq səma altında keçirdikləri gecə yaxınlaşdı – alqış eşidilmədi və hətta başlarının üstündəki ulduzlu günbəzin əzəməti belə Çobanın qəlbində minnətdarlıq duyğuları oyatmadı və onun dilindən Tanrının adına bircə tərif də çıxmadı, hətta göy üzünü buludlar örtəndə, havadan yağış iyi gələndə, lakin İlahinin öz övladlarının qayğısına qalmasının birmənalı sübutu kimi yağış yağmayanda belə Çoban alqış etmədi. Ertəsi günün səhəri pendir-çörəklərini yeyəndən sonra Çoban heç bir şuluq keçinin ətrafda təkbaşına gəzməyə çıxmadığına arxayın olmaq üçün sürüsünə baş çəkməyə hazırlaşanda İsa qəti şəkildə dedi:

– Mən gedirəm.

Çoban ayaq saxladı, ona sarı çöndü, sifətinin ifadəsini azacıq da dəyişmədən dilləndi:

– Yaxşı yol, sən ki qulum deyilsən və işəgötürmə müqaviləsi də yazmamışıq öz aramızda, odur ki istənilən an gedə bilərsən, tam azadsan.

– Heç soruşmayacaqsan ki, niyə getmək qərarına gəlmişəm?

– Mən hər şeylə o dərəcədə maraqlanan deyiləm.

– Onda bil: mən gedirəm, çünki Tanrı qarşısında vəzifələrini yerinə yetirməyən bir insanla yanaşı yaşaya bilmərəm.

– Hansı vəzifələrdən danışırsan?

– Lap elə ən adilərindən: sən İlahini alqışlamırsan, ona dua etmirsən.

Çoban yalnız gözləriylə gülümsünərək bir müddət susdu, sonra dilləndi:

– Mən yəhudi deyiləm və buna görə başqa dinin ayinlərini icra etməməliyəm.

Heyrətə gəlmiş İsa çaşqınlığından hətta dal-dala getdi. O, təbii ki, İsrailin yadellilərlə, başqa dindən olanlarla, bütpərəstlərlə dolu olduğunu bilirdi, lakin heç vaxt belələriylə yanyana yatmalı olmamışdı, bir tikə çörəyi, bir fincan südü bölməmişdi. Bu səbəbdən, sanki, nizəsini irəli tutub qalxanla qorunurmuş kimi dedi:

– Tanrı təkdir!

Çobanın üzündəki təbəssüm silindi, dodaqları isə acı iztehzayla əsdi:

– Hə, əgər o varsa, yəqin, təkdir, amma yaxşı olardı ki, ondan iki dənə olsun – biri canavar, o birisi – quzu üçün; biri ölən üçün, biri də öldürən üçün; məhkum üçün biri, cəllad üçün o birisi.

– Tanrı təkdir, yahiddir, – İsa bu imansızlıqdan qeyzlənərək, az qala, ağladı, Çoban isə cavab verdi:

– Bilmirəm, Tanrı necə yaşayır... – lakin sözünü bitirməyə macal tapmadı, çünki İsa sinaqoq müəlliminin ahəngiylə onun sözünü kəsdi:

– Tanrı yaşamır, O...

– Mən bilmirəm, bu incəliklərdən heç başım çıxmır, amma sənə bir düz söz deyim: heç istəməzdim, bir əliylə caninin bıçaqlı əlini yönəldən, o birisiylə qurbanın hülqumunu onun qabağına itələyən bir İlahiyə ibadət edim.

– Sən bu sözlərinlə Tanrını təhqir edirsən.

– Sən nə danışırsan, nə təhqir, mən kim, o kim...

– Tanrı yatmır, nə vaxtsa səni cəzalandıracaq.

– Yatmaması yaxşıdır, yatmırsa, deməli, vicdan əzabı da ona yuxularında əziyyət vermir.

– Sən niyə mənimlə vicdan əzabından, dəhşətli yuxulardan danışdın?

– Çünki sənin ilahin onlardır.

– Bəs səninki hansıdır?

– Mənim isə, elə bu qoyunlar kimi, heç Tanrım yoxdur.

– Sənin qoyunların, heç olmasa, öz quzularını İlahi Pərvərdigara qurban getmək üçün dünyaya gətirirlər.

– İnan, əgər bunu bilsəydilər, canavar kimi ulayardılar.

İsa hirsindən ağardı, deməyə bir söz tapmadı. Sürü isə onları dövrəyə alıb sakitcə durmuşdu: heyvanlar, sanki, insanların söhbətinə diqqətlə qulaq asırdılar. Doğan günəş qoyunların qıvrım tüklərinə və keçi buynuzlarının ucuna yaqutu rəngdə toxundu.

– Mən gedəcəm, – İsa dedi, lakin yerindən tərpənmədi. Çomağına söykənmiş Çoban elə sakit və arxayın gözləyirdi, sanki, ehtiyatda əbədiyyət qədər fürsəti vardı. İsa sıx durmuş qoyunların arasından iki-üç addım atdı, sonra da birdən ayaq saxlayıb soruşdu:

– Dəhşətli yuxular və vicdan əzabı barədə nə bilirsən?

– Mən bilirəm ki, onlar sənə atandan miras qalıb.

İsa bu sözlərə artıq dözə bilmədi: dizləri əsdi, qatlandı, dağarcığı çiynindən sürüşüb yerə düşdü və onun içindən təsadüfən, ya da kiminsə qərəzindən atasının səndəlləri çıxdı və eyni anda həm də kar bir taqqıltı eşidildi – fariseyin bağışladığı fincan sındı. İsa balaca uşaq kimi ağladı, Çoban isə yaxınlaşmadan, dayandığı yerdən bircə addım belə tərpənmədən deyirdi:

– Unutma ki, ananın bətninə düşən andan etibarən sənin barəndə hər şey bəllidir mənə, odur ki indi bir dəfə və ömürlük qərar ver: qalırsan, yoxsa gedirsən.

– Əvvəlcə kim olduğunu söylə.

– Bunu bilməyinin zamanı hələ yetişməyib.

– Nə vaxt yetişəcək ki?

– Əgər sən indi getsən, qalmadığına peşman olacaqsan, qalsan – getmədiyinin peşmançılığını çəkəcəksən.

– Lakin getsəm, sənin kimliyini heç vaxt bilməyəcəyəm.

– Yox, burda səhvin var: vaxt gələcək və mən gözlərinin önünə çıxıb kim olduğumu deyəcəyəm, indi isə bəsdir boş-boş danışmaq, sürü bütün günü sənin qərarını gözləyə bilməz.

İsa yerdən fincanın qırıqlarını yığdı, onları əlində oyanbuyana çevirdi, sanki, bu qırıqlardan ayrılmağa heyfi gəlirdi, hərçənd ki təəssüflənəsi bir şey yox idi – srağagün elə bu



vaxt heç fariseylə tanış da deyildi hələ, bundan başqa, gil fincan da elə möhkəm bir şey deyildi. Nəhayət, qərara gəlib qırıqları müxtəlif yerlərə tulladı; sanki, şum yerinə toxum atırdı, burada Çoban birdən dilləndi:

– Sənin başqa piyalən olacaq və o piyalə nə qədər ki sən sağsan, heç qırılmayacaq.

İsa isə artıq onu eşitmirdi – əlində atasının səndəllərini tutmuşdu və fikirləşirdi ki, onlar, yəqin, hələ ayağına olmaz: çox az zaman keçib hələ, lakin biz sizinlə bilirik ki, zaman nisbi anlayışdır, oğlana da elə gəlirdi ki, dağarcığında bu səndəlləri nə zamandan daşıyır, elə bu səbəbdən də səndəllər onun ayağına elə qabaqkı kimi böyük olsaydı, yaman təəccüblənərdi. Onları geydi, özününküləri isə dağarcığına qoydu, amma heç özü də bilmədi ki, niyə. Çoban dilləndi:

– Sənin ayaqların bir dəfə böyüdümü, daha kiçilməz, neynirsən onları; özündən sonra xiton, plaş, səndəl miras qoyası uşaqların da olmayacaq.

Lakin İsa yenə tullamadı səndəllərini, çünki dağarcığı tamam boş olsaydı, çiynindən sürüşəcəkdi. Çobana cavab verməyə isə ehtiyac yox idi və oğlan sürünün quyruğunda öz yerini tutdu, qəlbi isə mübhəm bir dəhşətin ağrısından, hardan gələcəyi bilinməyən təhlükə hissindən və bir də daha sirli duyğudan – qatmaqarışıq, tutqun bir heyranlıqdan parampарça olurdu. "Mən, onsuz da, öyrənəcəyəm sənin kimliyini", – dodaqaltı deyirdi İsa, sürünün dalınca toz buludunun içində addımlayır, geri qalan heyvanları qova-qova deyirdi: məhz bu həqiqəti aşkarlamaq üçün bu qəribə çobanla qalmaq qərarını vermişdi, bu seçimini özü özünə belə əsaslandırırdı.

Birinci gün beləcə keçdi. Daha müqəddəslik və münkirlik, həyat və ölüm, mal və mülk haqqında söhbət aparmadılar, lakin Çobanın hər addımına diqqətlə göz qoyan İsa fikir verirdi ki, o özü Tanrıya alqış və şükürlər edəndə yoldaşı oturub iki əlini torpağa qoyur, başını tam əyirdi və bunu bircə kəlmə də danışmadan, mütləq sükut içində edirdi. Bir

dəfə, hələ lap balaca olanda Nazaretdən keçən səyyah qocaların söhbətlərində eşitmişdi ki, guya, yerin altında nəhəng mağaralar olur, orada da yerin üstü kimi şəhərlər, çöllər, meşələr, səhralar, çaylar var, bu daxili, gizli dünya yaşadığımız dünyanın tam əksidir və guya, onu da Tanrıya qarşı qiyam edərək göylərdən yerə qovulandan sonra İblis yaradıb. İblis bir zamanlar Tanrının dostu və sevimlisi olduğundan – hətta deyirlər ki, bu cür dostluq zamanın ibtidasından bəri olmayıb və daha bir də olmayacaq – qocalar söyləyirdi ki, İblis Adəmlə Həvvanın yaranışında da orada olub və onların necə yaradıldığını öyrənib, sonra da özünün yeraltı dünyasında kişi ilə qadını yaradıb, amma Tanrıdan fərqli olaraq, onlara heç bir şey yasaq edilmədiyindən o dünyada heç kəs yolundan çıxmayıb. Qocalardan biri onda hətta lap ürəklənib demişdi ki, əgər ilkin günah olmayıbsa, deməli, başqa günahların da heç birisi olmayıb. Bu səyyahları Nazaretdən inandırıcı çıxması və tərbiyəvi əhəmiyyət daşıması üçün daşa basmaqla, nifrin və qarğışlarla qovanda qəzəblənmiş camaat artıq anlamışdı ki, bu kafirlər özlərinin məkrli çıxışlarıyla nəyə nail olmaq istəyirdilər və onda yerin çox dərin qatlarından qalxan kiçik zəlzələ baş vermişdi – cəmi bir yüngül təkan və elə bu təkan da hələ onda azyaşlı, lakin diribaş İsanı səbəblə nəticəni əlaqələndirməyə məcbur etmişdi. İndi isə dizləri üstə torpağa çökmüş, sanki, hər qum dənəciyini, hər xırda daşı, torpağın üstünə çıxmış hər kökü daha yaxşı duymaq istəyən Çobana baxanda o köhnə əhvalatı xatırladı, bu insanın həmin gizli dünyanın – İblisin bizim dünyaya baxaraq yaratdığı dünyanın övladı olduğuna inandı.

"Bəs, görəsən, bura niyə gəlib", – fikirləşərək götür-qoy eləyirdi və elə bu səbəbdən də Çoban ayağa qalxanda soruşdu:

– Sən bunu niyə eləyirsən?

– İstəyirəm əmin olam ki, torpaq əvvəlki kimi mənim ayaqlarımın altındadır.



– Nədir, sənə bunu bilmək üçün onun üstündə yerimək azlıq edir?

– Ayaqla duymaq olmaz, dərketmə əllərə bəxş edilib: axı sən də öz Tanrını alqışlayanda ayaqlarını qaldırmırsan yuxarı: əllərini göyə tutursan, halbuki bədəninin istənilən qismini qaldıra bilərdin, ayaqlarının arasında olan həmin o bir parça ət də daxil olmaqla, hər yerini; təbii ki, əgər axta deyilsənsə.

İsa qıpqırmızı qızardı, yandırıcı xəcalətdən və bir də qorxuya bənzər nədənsə, az qalmışdı, boğula:

– Sən tanımadığın, dərk etmədiyin Tanrını təhqir edə bilməzsən! – nəhayət, qışqırdı, lakin tərəf-müqabilini çaşdırmaq çətin idi.

– Sənin cismini kim xəlq edib? – Çoban soruşdu.

– Tanrı.

– Necə varsansa, elə də xəlq eləyib və onda olan hər şey səndə də var?

– Bəli.

– Bəs, sənin cismində İblisin necə, yaratdığı nəsə var?

– Yox, yox, mənim cismim – Tanrının xəlq etdiyidir.

– Deməli, bədəninin bütün hissələri Onun qarşısında eynidir?

– Bəli.

– Bəs onda sənin cismindən nəyisə rədd edə bilərmi, məsələn, qıçlarının arasındakı ət parçasını?

– Yəqin ki, yox, edə bilməz, amma bunun nə dəxli var, O ki öz obrazına uyğun yaratdığı Adəmi qovdu cənnətdən.

– Sən, lütf elə, mənə birbaşa cavab ver, sinaqoqdakı əhli-kitablar kimi uzunçuluq eləmə.

– Sən məni özünə lazım olan kimi cavab verməyə məcbur eləyirsən, amma istəyirsənsə, Tanrının murdarlanma və ölüm təhlükəsi altında insana özünün və başqasının çılpaqlığını göstərməyi qadağan etdiyi bütün halları sadalaya bilərəm, bu, məgər sübut deyil ki, cismin, haqqında bəhs etdiyin həmin qismi də lənətlənib?

– Yalan deyən, şər söyləyən ağızdan çox lənətlənməyib, lakin sən elə həmin ağzınla Tanrıya alqışlar yağdırırsan, özü də əvvəlcə yalan söyləyir, sonra dua edirsən, dalınca isə yenə şər-şəbədə uydurursan.

– Sənə qulaq asmaq belə istəmirəm.

– İstəmirsən, amma qulaq asmağa məcbursan, çünki mənim sualıma başqa cür cavab verə bilməyəcəksən.

– Hansı sualına?

– Cavab ver: Tanrı sənin qıçlarının arasında olan zadı özünün yaratmadığı bir şey kimi rədd edə bilərmi, ya "hə" de, ya "yox".

– Yox, edə bilməz.

– Niyə?

– Çünki İlahi Pərvərdigar əvvəllər sevdiyini indi sevməyə bilməz.

Çoban başını yavaşca tərpətdi və belə dedi:

– Başqa sözlərlə desək, sənin Tanrın tək özünün məhbus olduğu zindanın yeganə nəzarətçisidir...

Bu dəhşətli müddəanın kəlmələri hələ İsanın qulaqlarında cingildəyirdi ki, Çoban süni bir təbiiliklə təklif elədi:

– Özünə ürəyincə bir qoyun seç.

– Nə? – İsa çaşqın halda soruşdu.

– Deyirəm ki, özünə bir qoyun seç, təbii ki, əgər keçilərə üstünlük vermirsənsə.

– Nəyə görə?

– Əgər səni, həqiqətən, axtalamayıblarsa, gərəyin olacaq.

Bu sözlərin ehtiva etdiyi məna oğlanı ağır yumruq zərbəsi kimi tutdu, lakin xəcalət və nifrətdən güclü bu hissləri bir anda sıxışdırıb çıxaran, başgicəlləndirici dərəcədə qarşısıalınmaz cismani istək oldu. O, əlləriylə üzünü tutdu və boğuq səslə dedi:

– Tanrı belə vəsiyyət edib bizə: "Heyvanla cinsi əlaqədə olan hər bir kəs ölümə məhkum edilsin", bir də deyib: "Heyvanla cütləşəni öldürün və həmin heyvanı da öldürün", elə deyil?



– Bunun hamısını sənin Tanrın deyib?

– Hə! Mən isə sənə deyirəm: çəkil yanımdan, murdar heyvan, İblis törəməsi.

Çoban dinmədən qulaq asdı, heç qımıldanmadı da, sanki, gözləyirdi görsün ki, İsanın sözləri arzu olunan effekti doğuracaqmı – ildırımmı vuracaq, yara-xoramı basacaq, yoxsa ruhu bir anda bədənini tərk edəcəkdimi? Amma heç bir şey baş vermədi. Yalnız daşların arasından külək vıyıldadı, yerdən toz buludunu qaldırıb çöllüyə sümürdü – bunun dalınca isə yenə sakitlik çökdü və Kainat bütün insanlara və heyvanlara sükut içində baxırdı; elə bil, gözləyirdi ki, onların hər ikisinin həmin sözlərə sığışdırdıqları anlam, verdikləri məna, onlarda tapdıqları məzmun ona da tam aydın olsun və içində kükrəyən həmin o ilkin alov gecikmiş cavabın intizarında özünə yeni qida tapmayaraq zəifləməyə, közünün üstünə kül yığmağa başladı, nəhayət, söndü. Çoban birdən əllərini səmaya qaldırıb göy gurultusunu andıran səslə dedi:

– Qulaq asın, qulaq asın, ey sürümün qoyunları, qulaq asın və yaşından xeyli böyük dərrakəyə malik bu oğlanın sözlərinə fikir verin: sən demə, sizinlə pozğunluq eləmək yaxşı deyilmiş; Tanrı buna icazə verməyibmiş, odur ki sakit yaşayın; sizi qırxmaq – olar, kəsmək – ürəyin istəyən qədər, dərinizi soymaq – buyurun, ətinizi yemək – nuşi-can, siz elə buna görə yaradılmısınız da; və yalnız onun iradəsiylə bu yer üzünü tapdalayırsınız.

Sonra o, üç dəfə uzun fit çaldı, çomağını başının üstündə hərləyib qışqırdı: "Hə, tərpən görüm!" – sürü də artıq gözdən itmiş toz buludunun getdiyi səmtə üz tutdu. İsa isə hərəkətsiz durub Çobanın hündür qaməti uzaqda itənə kimi, qoyunların aramla tərpənən tüklü belləri uzaqlaşıb torpaqla qarışana kimi onların dalınca baxa-baxa qaldı. "Onun dalınca getməyəcəyəm", – dedi, amma yenə getdi. Çiynində dağarcığını rahatladı, atasının səndəllərinin bağını möhkəm çəkdi

və onların dalınca, amma bir xeyli geridə addımladı. Yer üzünə gecə enəndə o, zülmətin içindən tonqalın yanına çıxıb dedi:

– Bu mənəm.

* * *

Zaman zamanı qovur. Belə həqiqətlər hamıya bəllidir, bizim aramızda da deyilən sözlər geniş yayılıb – istər tək-tək atılsın onlar, istərsə də, bacarıqla düzəlmiş söz birləşməsi olsun – lakin belə ifadələr onların lap ilkin mənasına diqqət yetirən adamlara göründükləri qədər şəksiz-şübhəsiz deyillər, çünki hər şey ahəngdən, ahəngin özü isə onu doğuran hissiyyatdan asılıdır və razılaşın ki, dövranların fərqi barədə taleyi gətirməyən, həyatdan hələ də yaxşı yeniliklər gözləyən bir adamla bu sözləri gələcəyin qanadlarında yetişəcək təhlükə kimi söyləyən adamın deyimlərində mütləq fərq olacaq. Ən sonuncu variant isə nə sağlamlığından, nə maddi rifah halından şikayətlənməyə heç bir əsası olmayan birisinin həmin bu mətləbləri melanxolik bir tərzdə köks ötürərək söyləməsidir. O elə bədbin doğulub ki, həyatdan daim pis şeylər gözləyir. Çox elə inanmağım gəlmir ki, İsanın cavan dodaqlarından bu kəlmələr yuxarıda sadaladığım məqamların hansındansa qopmuş ola, lakin sizinlə biz həmin o zamanlarda nə baş verdiyini və sonralar nələr olacağını, az qala, elə Tanrının özü qədər bildiyimizdən, İsanın İudeya dağlarında və ya – bu da öz zamanında olacaq hələ – İordan vadisinə enərkən çobanlığını necə etməsi barədə istər çığıraraq, qışqıraraq söyləmək, istərsə də mızıldanmaq hüququna malikik. Burada məsələ heç bilavasitə İsanın özündə də deyil – bəşər nəslinin hər bir nümayəndəsinin sürdüyü həyatın hər bir dəqiqəsində həm nəsə yaxşı şeylər olacaq, həm də pis və bu yaxşı-pis isə ilin fəsilləri birbirini necə əvəz edirsə, eləcə növbələşəcəklər və madam ki, başqaları tərəfindən əvvəllər qələmə alınmış nümunələri təkzib etmək, baş vermiş bu və ya digər hadisənin olmadığını isbatlamaq kimi ləyaqətsiz məqsəd daşımayan bizim İncilin şəksiz

[1] *Tirada* – dramda qısa və təsirli monoloq

qəhrəmanı İsadır, bizim üçün onun haralarda olduğunu bildiyimizdən, özünə yaxınlaşmaq, ona gələcəyini söyləmək: həyatının necə bənzərsiz, gözəl olacağını, özünün isə acları doyurub, xəstələri sağaldaraq, hətta bir ölünü belə dirildərək necə möcüzələr göstərəcəyini demək heç də çətin deyil, amma bunu etməyəcəyik, çünki bu oğlan sidq-ürəkdən inansa da, keçmiş ağsaqqalların və peyğəmbərlərin yazdıqlarından baş çıxarsa belə, öz yaşına xas olan sağlam skeptikliyə də malikdir, odur ki bunu etsək, bizə "get tullan!" deyə bilər. Təbii ki, o, Tanrı ilə görüşəndə dünyaya baxışını tamam dəyişəcək, lakin bu taleyüklü görüş heç də sabah baş verməyəcək və o vaxta kimi İsa hələ çox dağlara dırmanacaq, çox qoyun-keçi sağacaq, onlardan aldığı süddən çox pendir tutacaq, bu pendiri ətraf kəndlərdə nə qədər şeyə dəyişəcək. Hətta azarlamış, ya da şikəst olmuş heyvanı kəsəsi də olacaq, onun başı üstündə göz yaşları axıdası da...

Yalnız bir şey heç vaxt olmayacaq, heç zaman baş verməyəcək, buna arxayın olun: məkrli və pozğun Çobanın onu başdan çıxarmasına, cismani aclığını ya qoyun, ya keçi, ya da növbəylə hər ikisindən istifadə etməklə ödəyərək, ilhamlı ruhunu birgə yaşamağa məcbur olduğu alçaq bədəniylə sakitləşdirmək təklifinə heç vaxt uymayacaq. Psixoanalizin incəliklərinə girməyin burada heç yeri deyil, ən əsası isə – zamanı deyil və bu zaman hələ çox əsrlər sonra yetişəcək, odur ki indi gəlin heç xatırlatmayaq ki, cismimiz özünün şöhrətpərəst paklığı naminə necə tez-tez kədərə, həsədə düçar olur və guya, təsirindən qurtulduğu həmin kəsafətin ağır yükünü ruh çəkəsi olur.

Çobanla İsa isə özlərinin zaman-zaman yenidən coşan mənəvi-etik mübahisələrinə elə o dəqiqə son qoymasalar belə, mehriban yaşayırdılar və böyüyü çobanlıq peşəsinin sirlərini balacasına hövsələylə ötürürdü, balaca isə onları elə inad və səylə öyrənirdi, sanki, həyatının qalan hissəsi bundan asılı idi. O, çomağını başının üstündə bərk qıjıldayanadək fırlayıb sürüdən saymazlığı, ya da özünəəminliyi ucbatından

ayrılmış qoyunun düz belinə tullamaq sənətinə yiyələnmişdi, bu sənət də bütün başqaları kimi qurban tələb edirdi: bir dəfə – hələ bu fəndi mükəmməl öyrənməmişdən, o, çox aşağıdan nişan aldı və çomaq havaya uçaraq bir neçə gün qabaq anadan olmuş çəpişin düz boynundan dəydi; o da elə yerində qaldı. Belə uğursuzluqlardan heç kəs sığortalanmayıb: cümlə təsadüflər kimi onlar da hətta ən təcrübəli, sənətinin bütün sirlərini bilən çobanların belə, başına gələ bilər, lakin bəxtinə, onsuz da, ağır sınaqlar düşmüş İsa çəpişin hələ isti bədənini yerdən qaldıranda qüssədən daşa dönmüşdü. Amma əli hara çatacaqdı ki; hətta ana keçi də öz oğlunun cansız cəsədini iyləyib artıq bir kənara çəkilmişdi, başını hər ot qırpanda qısa və cəld hərəkətlə darta-darta yeməyində idi, özünün bu ciddi işgüzarlığıyla "Buynuzunu silkələyənin ağzından yem yan ötməz" məsəlinin, ya da "Göz yaşından dərdə dərman olmaz" deyiminin həqiqətini əyani isbatlayırdı. Çoban yaxınlaşdı, nə baş verdiyini öyrənəndə dedi:

– Yazıq, heç yaşamağa da macal tapmadı, amma sən qəm yemə.

– Onu mən öldürdüm – İsa çıxılmazlıq içində qışqırdı, – bu balaca çəpişi mən öldürdüm.

– Hə, sən öldürdün, bəs qoca, qotur, murdar bir keçini öldürməyin eybi yoxdur, o olar, hə? Qoy onu yerə, özüm məşğul olaram, sən, yaxşısı budur, bax, o qoyuna göz ol, doğmağa hazırlaşır.

– Sən neyləyəcəksən onu?

– Dərisini soyub təmizləyəcəyəm, daha nə qaldı ki: dirildə bilmərəm; möcüzə göstərmək əlimdən gəlmir.

– And içirəm ki, mən onun ətindən yeməyəcəyəm.

– Özün öldürdüyün heyvanı yemək, ona hörmət qoymağın yeganə yoludur, amma başqalarının sənə zorla öldürtdüyünü yemək ondan daha pisdir.

– Mən yeməyəcəyəm.

– Yemirsən, yemə, mənə çox qalar.

Çoban kəmərindən bıçağını çıxardı, İsaya baxıb dedi:

– Gec-tez, sən bunu da öyrənməlisən, görməlisən ki, bizim faydalanmağımız, o cümlədən də qida kimi istifadə etməyimiz üçün xəlq olunanların daxili quruluşu necədir.

İsa üzünü çevirib yana addım atdı, lakin Çoban heyvanın boynuna yaxınlaşdırdığı bıçağı çəkmədən dedi:

– Qul yaşayır ki, bizə qulluq etsin və bəlkə, onun da içinə baxmaq lazımdır ki, orada yeni-yeni qulların olmadığına səndə əminlik yaransın, sonra isə çarın qarnını yırtmaq lazımdır ki, görəsən, içində özündən birisi də varmı, amma İblislə rastlaşsan və o da sənə qarnını yarmağa icazə versə, bir də gördün içindən Tanrı çıxıb səni mat-məəttəl qoydu.

Bayaq biz demişdik ki, çobanla şəyirdi arasında ideoloji toqquşmalar hərdən baş verirdi – bu da onlara bir nümunə. Zaman keçdikcə, hər halda, İsa anladı ki, hər şeydən yaxşısı susmaq və bəhsə girişməməkdir, bizim indiki təbirlərlə desək, provokasiyaya uymamaqdır, özü də indicə misal gətirdiyimə bənzəyən çox kobud provokasiyaya, hələ bu harasıdır, bundan da pisi ola bilərdi: təsəvvürünüzə gətirin ki, Çoban – ondan nə desən çıxar – əgər desəydi "Tanrı öz içində İblis gəzdirir", görün onda nə olardı. Lakin bu dəfə İsa quzulamaq üçün sürüdən qalmış qoyunu axtarmağa getdi və ümid elədi ki, heç olmasa, burada məsələ gözlənilməz bir hadisə baş vermədən bitəcək və quzu bütün başqa quzular kimi eynilə öz bacılarına oxşayan anasının kiçik bir nüsxəsi kimi dünya üzünə çıxacaq: Tanrıya şükür ki, dünyada yalnız özünə bənzər balalar doğuran məxluqlar hələ var və bu gözəl, sakit varislik çırpınan, çabalayan ruhlara bir məlhəmdir.

O, qoyunu tapanda heyvan artıq yükünü yerə qoymuşdu və yenicə doğulan, hələ yerdə uzanmış bu körpə məxluq ancaq hərəsi bir yana baxan ayaqlardan ibarət idi, anası isə onu ağzı ilə ehmallıca itələyir, qalxmasına kömək etmək istəyirdi, amma biçarə körpə yalnız başını gic kimi silkələməyində idi; sanki, təzəcə gəldiyi dünyaya hansı bucaq altında

baxmaq lazım oldluğunu müəyyənləşdirmək istəyirdi ki, onu, heç olmasa, bir azca dərk eləyə bilsin. İsa barmaqlarını, əllərini heyvanın daxili həyat sularına bulamaqdan çəkinməyərək, quzuya qalxmağa kömək elədi: bax, heyvanlarla yanaşı keçən əsl kənd həyatı budur – necə deyərlər, kiminə nəcisdir, kiminə peyin – amma quzu qiyamət idi, qıvrım tükləri vardı, çəhrayı ağzı artıq süd axtarışlarında anasının heç vaxt görmədiyi, qarnında oturanda təsəvvürünə belə gətirə bilmədiyi məmələrini hövsələsiz-hövsələsiz dümsükləyirdi. Həqiqətən də, əgər yaratdıqlarını hələ anadan olandan bu qədər faydalı bilgilərlə təchiz edirsə, heç bir məxluq Tanrısından şikayətlənə bilməz.

Bir az aralıda isə Çoban çəpişin dərisini qurutmaq üçün ulduz şəklində bağlanmış şüvüllərə çəkirdi; artıq təmiz parçaya bükülü cəmdək dağarcığında idi: sürü gecələməyə dayananda Çoban onu bütöv duzlayacaqdı; təbii ki, özünün yeyəcəyi tikədən savayı, yaxşı ki, İsa demişdi ki, onun ehtiyatsızlığı ucbatından ölmüş heyvanın ətini yeməkdən imtina edir. Əslində, onun etiqad bəslədiyi inanc, riayət etdiyi adətənənə üçün bu cür vasvasılıq, az qala, cinayət sayılmalıydı, zira Tanrı mehrabının yanında hər bayram nə qədər bax bu cür günahsız məxluqlar qırılır, xüsusilə də Yerusəlimdə belə qurbanlardan, az qala, dağ qalaqlanır. Lakin İsanın ilk baxışdan zaman və məkanla izah edilə bilməyən hərəkəti, çox güman ki, lap bu yaxınlarda onu sarsıtmış, ruhunu yaralamış hadisələrdən doğurdu – gəlin unutmayaq ki, İosifin əzablı ölümündən nə qədər qısa bir zaman ötüb, Vifliyemdə on beş il əvvəl baş verən dəhşətlərin dözülməz təfərrüatı isə hələ onun yaddaşında necə canlıdır və təəccüblənək ki, oğlan bütün bunlardan sonra hələ ağlını itirməyib, onun qafa qutusuna yerləşdirilmiş həssas mexanizmin dişli çarxları, qarqaraları və şkivləri pozulmayıb, baxmayaraq ki ağır yuxular ona hələ də işgəncə verir və əgər biz onları artıq xatırlatmırıqsa, bu heç də o demək deyildir ki, bu yuxular artıq



yoxdur. Var, var onlar və onun iztirabları artıb bütün sürüyə sirayət edəcək, heyvanları gecə yarısı yuxudan oyadacaq və onları da bıçaq altında labüd ölümlərini duyurmuş kimi həyəcanlandıracaq dərəcəyə çatanda Çoban oğlanı ehmallıca, bu sözlərlə ayıldır:

– Nə olub? Sənə nə olub?

Bu zaman İsa dəhşətin iti caynaqlarından düz onun qolları üstünə düşərək sinəsinə sıxılır, necə ki, bir zamanlar bədbəxt atasına sığınardı. Bir dəfə, hələ lap əvvəllərdə o, Çobana öz yuxularından danışmışdı, lakin hər gecə çəkdiyi əzabların səbəblərini, dərin köklərini gizlətməyə cəhd göstərmişdi, o isə oğlanın bu cəhdinə belə cavab vermişdi: "Əşşi, qurtar, əbəs yerə səy göstərmə, mən hamısını, hətta gizlətməyə çalışdıqlarını da bilirəm". Elə düz bu söhbətdən sonra İsa Çobana bərk cummuşdu, onu inamsızlıqda, cürbəcür aşkar və gizli, görünən və nəzərdə tutulan qüsur və günahlarda ittiham etmişdi, o cümlədən də – bağışlayın ki, bu mövzuya bir daha toxunuruq – seksual sahəyə aid günahlarda. Lakin oğlanın bu yer üzündə artıq ayrıldığı və demək olar ki, unutduğu ailəsindən başqa bir kimsəsi yox idi – söhbət, bəlli ki, onun anasından getmir: bizə həyat bəxş etmiş bu varlıq həmişə ana olaraq qalacaq, hərçənd ki həyatda elə anlar olur, adam öz anasından lap soruşmaq istəyir: "Məni niyə dünyaya gətirmisən?" – lakin anasından savayı – bəlli deyil niyə – yalnız bacısı Liziyanı salırdı yadına: axı hər birimizin kimisə xatırlamaq və unutmaq üçün öz səbəblərimiz var. Beləliklə, bütün bunlara görə İsa axırda Çobana yaman bağlandı və bunu başa düşmək heç də çətin deyil: dünyanın yalnız səndən və sənin günahlarından ibarət olduğunu düşünməyə nöqtə qoymaq, yanında bu günahdan xəbərdar olan, lakin özünü onun iradəsi daxilində olsa belə, bağışlamaq mümkün olmayan bir şeyi bağışlayırmış kimi göstərməyən birisinin varlığı, özünüz başa düşürsünüz ki, nə deməkdir; sənin lə hiyləgərlik etməyən, yeri gələndə

danlayan, səbəb olanda tərifləyən, yəni günah dənizinin tən ortasında günahsızlığımızın qaldığı kiçik adanı qorumağa çalışan bir dostun olması nə deməkdir. Bu uzun-uzadı izahatlara fürsətdən istifadə edərək məhz indi baş vurmağımız məqsədlidir: bunu indi edirik ki, öz kobud sahibindən və müəllimindən hər şeyi ilə fərqlənən, hətta onunla tam ziddiyyət təşkil edən İsanın Tanrı ilə vəd olunmuş, qabaqcadan xəbər verilmiş, lakin hələ bu tezliklə baş tutmayacaq görüşə qədər – Tanrının adi, öləri bir insanla görüşü üçün də çox əsaslı səbəbləri olmalıdır axı – onunla qalmasının nədən irəli gəldiyini səhv yozmayaq, düzgün dərk edək.

Lakin bu görüşədək haqqında lap əvvəldən bəhs etdiyimiz təsadüflər, gözlənilməz hadisələr tam üst-üstə düşməlidir: İsa anası və qardaş-bacılarından bəzisinə Yerusəlimdə, doğmalarından ayrı ilk dəfə qeyd etdiyi Pasxa bayramında rast gəlməlidir. Onun Yerusəlimə səfəri isə Çobanı bərk təəccübləndirərək qadağaya səbəb ola bilərdi, zira sürü çöllükdə idi və ikiqat nəzarət, baxım, ehtiyat tələb edirdi, hələ adi, saysız-hesabsız başqa çoban qayğılarından danışmırıq, odur ki, ümumiyyətlə, yəhudi olmayan, heç bir ilahiyə ibadət etməyən Çoban elə təkcə mərdimazarçılığından belə deyə bilərdi: "Yox bir! Heç yana getməyəcəksən, sənin yerin buradır, sahibin də mənəm, iş görmək yerinə özünü gicliyə qoyma". Lakin xəbər verməyə tələsək ki, bunların heç biri olmadı, Çoban bircə bunu soruşdu: "Qayıdacaqsan?" – özü də elə soruşdu, sanki, təsdiq ifadəsi eşidəcəyinə möhkəm tərəddüdləri vardı, amma İsa bir an da ləngimədən, bu hərəkətinə özü belə təəccüblənərək cavab verdi:

– Qayıdacağam.

– Onda sürüdən bir quzu seç özünə, sizdə necə deyirlər, təmiz, qüsursuz, kök heyvan olsun, öz adətlərinizə uyğun, qurban verərsən onu.

Lakin Çoban bunu sınamaq üçün deyirdi, istəyirdi görsün ki, İsa qoruyub boya-başa çatdırmaq üçün bu qədər əzab

sərf edilmiş bir sürüdən olan quzunu qurban verməyə qadirdirmi. İsaya heç kəs xəbər vermədi ki, səni sınayırlar, onun arxasında heç bir mələk – bilirsiniz də, hansı mələklər, belə... balaca, az qala, gözəgörünməz mələkləri deyirik – peyda olmadı və onun qulağına yavaşca söyləmədi: "Ehtiyatlı ol, sənə tələ qurublar, gözlə, düşməyəsən, bu adamın əlindən hər şey gələr". Yox, bütün bunlar olmadı və düzgün cavab öz-özünə tapıldı: bu cavaba istiqaməti isə öldürülmüş çəpiş və yenicə doğulmuş quzu verdi.

– Yox, bu sürüdən quzu götürmərəm.

– Niyə?

– Böyütdüyümü öz ayağımla ölümə aparmaram.

– Nə deyirəm, bunu düzgün hərəkət sayıram, onda başqa sürüdən götürməlisən quzunu.

– Hə, gərək haradansa götürəm: quzular göydən düşmür ki.

– Nə vaxt getmək istəyirsən?

– Sabah erkən.

– Qayıdacaqsan?

– Qayıdacağam.

Söhbət elə burada da bitdi, hərçənd ki biz qəti təsəvvür eləmirik, imkansız adam olan, bir qarın çörəyə işləyən İsa qurbanlıq heyvanı necə alacaq. Amma o adama pul xərclədən şirin adətlərdən o qədər azad idi ki, fariseyin hələ bir il qabaq ona verdiyi pulunu belə indiyədək saxlaması mümkün idi, amma heyvan almağa heç bu pul da bəs eləməzdi, çünki ilin bu vaxtı, bayramqabağı mal-qaranın, xüsusilə də quzuların, toğluların qiyməti, dediyimiz kimi, kəlləçarxa qalxırdı. Hərçənd ki İsanın nəsibinə qəm-kədər az düşməmişdi, mən, hər halda, onun xoşbəxt ulduz altında doğulduğunu deməyə cəsarət edərdim, çünki bu ulduz onu bəlalardan hifz edirdi və ona görə "cəsarət edərdim" deyirəm ki, bizim planetdən bu dərəcədə uzaq olan səma cisimlərinin insanın yerdəki həyatına az və ya çox dərəcədə həlledici təsir göstərə bilməsinə inanmaq – nə qədər ovsun və dualar edilsə belə; onlara

nə qədər diqqətlə göz qoysalar belə; əgər camaatın söz-söhbəti həqiqətdirsə, yaxınlarda bu çöllüklərdən keçmiş üç məşhur falçı – əslində, onların gəlişindən ciddi bir şey də baş verməmişdi: gördüklərini görüb, yollarına davam etmişdilər – parlaq səma cisimlərinin məqamı ilə mövcudluq arasında nə qədər səylə bağlılıq axtarsa belə – xüsusilə mənim üçün, həm də elə bütün incilçilər üçün şübhəli dərəcədə bağışlanmaz bir sarsaqlıq sayılardı. Beləliklə, bu uzun hissənin – əgər siz onu başa çatdıra bildinizsə – bütün mənası ona yönəlib ki, bizim İsa, heç şübhəsiz, Məbədə layiqli, yəni qurbangahın alovuna vermək üçün layiqli quzu ilə gəlməyin yollarını tapacaq, əsl mömin kimi öz vəzifəsini yerinə yetirəcək, çünki, onsuz da, bizim yeniyetmə öz möminliyini çox ağır şəraitdə, Çobanla cəsarətli qarşıdurmada artıq isbatlayıb.

Sürü isə həmin vaxt Qazer və Emmaus şəhərləri arasında uzanan Aialon vadisinin bol otlaqlarındakı yemdən ləzzət alırdı. Bu şəhərlərin ikincisində İsa ona çox lazım olan quzunu almaq üçün pul qazanmağa cəhd göstərdi, amma elə o dəqiqə əmin oldu ki, heyvandarlığa həsr etdiyi bir il ərzində bütün qalan işlərə, o cümlədən də vaxt azlığından, onsuz da, əməlli yiyələnə bilmədiyi dülgərliyə az-çox qabiliyyətini tam itirib, onun bacardıqları çörək pulunu bu yolla qazanmaq üçün qəti yaramaz. Elə bu səbəbdən də öz ağır taleyi haqda düşünə-düşünə Emmausdan Yerusəlimə yollandı: quzu almağa, bildiyimiz kimi, pulu yox idi; oğurlamaq, artıq çoxdan bəllidir ki, istəmirdi və belə bir şəraitdə yolda itmiş, sahibsiz bir quzu tapması bəxti gətirməkdən çox, möcüzə sayılmalı idi, tapacağı bu quzu sahiblərinin mərhəməti onu qucağına almağa bəs etmədiyindən, boynuna kəndir bağlanaraq yolla aparılan neçə-neçə heyvandan biri olmalı idi və o, körpə həyatında belə uzun marşa ilk dəfə çıxdığından, onun üçün bu qədər dərkedilməz bir şəraitə düşdüyündən, indi çaşqınlıq, həyəcan içində döyükərək ətrafında baş verənləri anlamağa çalışacaqdı və təbii ki, dilsiz-ağızsız heyvan

olduğundan heç kəsdən soruşa da bilməyəcəkdi, elə dörd bir tərəfini gözləriylə yeyəcəkdi: sanki, sözlərdən ibarət bir dünyanı baxmaqla dərk etmək olar. İsa yolun kənarındakı daşın üstünə əyləşib mənəvi borcunu yerinə yetirməkdə əngəl olan maddi problemini necə həll edəcəyi barədə fikirləşir, qəlbində tam mənasız ümidlər bəsləyirdi, düşünürdü ki, indicə, məsələn, elə həmin, ya da tamam başqa bir farisey peyda olacaq və bir il qabaq "Yemək istəyirsən?" soruşduğu kimi, indi də "Quzu lazımındırmı?" soruşacaq, lakin onda oğlan istəyinə heç nə istəmədən nail olmuşdu, indi isə istəyirdi, amma alacağına heç güman yox idi. Əli artıq sədəqə üçün açılmışdı, bu jest bütün sözlərdən o qədər dəqiq, o qədər ifadəli idi ki, biz, adətən, onunla rastlaşanda ya özümüzü görməzliyə vurur, ya da üzümüzü yan çeviririk: qövr eləyən açıq yaraya, tərbiyəsiz bir mənzərəyə tuş gəlibmişik kimi. Huşu başından o qədər də çıxmamış yolçuların atdığı bir neçə xırda pul artıq İsanın çömçə kimi açdığı ovcuna düşmüşdü, amma bu məbləğ özündə olan pulla birlikdə belə heç yarım dənə quzu eləməzdi, halbuki Tanrı öz mehrabına yalnız erkək cinsindən olan, qüsursuz, kök heyvanları – dana, qoyun, keçi qəbul edir və məbadə kor, şil, eybəcər, xəstə, arıq, qotur heyvan gətirəsiniz; təsəvvür edəndə adamı dəhşət götürür ki, Məbədə cəmdəyin aşağı hissəsini gətirsək, əlimizdən necə əsəbiləşərlər və ya, məsələn, təsəvvür edin ki, qurbanlıq, xayaları əzilmiş, kəsilmiş, qoparılmış bir heyvan gətiririk, onda heç şübhə etməyə dəyməz ki, bizi oradan qovarlar. Lakin bu yeniyetmədən pul nəyinə lazım olduğunu soruşmaq heç kəsin ağlına gəlmədi, indicə oxuduğunuz cümlə bitən kimi dəstəylə gedən çoxsaylı ailənin içindən xeyli yaşlı, ağ, uzun saqqalı olan bir qoca aralanıb ona yaxınlaşdı, ailənin qalan üzvləri isə, öz böyüklərinə ehtiram əlaməti olaraq yolun ortasında ayaq saxlayıb gözləməyə başladılar. İsa elə güman edirdi ki, ondan da bir mis sikkə alacaq, amma səhv etmişdi, çünki qoca soruşdu:

– Sən kimsən?

– Nazaretli İsa, – o ayağa qalxıb cavab verdi.

– Yetimsən?

– Yox.

– Bəs niyə qohumlarınla deyilsən?

– Mən İudeyada çoban düzəlmişəm, – bu ya həqiqəti deyərək yalan söyləmək idi, ya da yalan deyib riyakarlıq etməmək.

Qocanın marağı hələ tükənməmişdi və o, İsaya bir sual da verdi:

– Əgər əlində işin varsa, niyə dilənirsən?

– Mən bir qarın çörəyə işləyirəm, odur ki bayrama quzu almağa pulum çatmır.

– Elə buna görə sədəqə yığırsan?

– Bəli.

Qoca özününkülərdən birinə işarə verib əmr etdi:

– Ona bir quzu gətirin, Məbədə çatanda birini alıb çatmayanın yerinə qoyarıq.

Qocanın əmrinə tabe olub kəndirlə bağlanmış altı quzudan sonuncusunu ayırıb onun yanına gətirdilər, qoca isə İsaya dedi:

– Al, bu da sənin quzun, Pasxa üçün Tanrıya qurban verərsən, – sonra təşəkkür gözləmədən gülümsündü, onun bu hərəkətinə sevincək əl çalan qohumlarına qoşuldu.

İsa onda "sağ ol" dedi ki, artıq onu eşitməyə bilərdilər, həmin an səbəbi bəlli deyil, amma yol, sanki, bir sehrbaz iradəsindən bomboş oldu və indi onun bir döngəsindən ta o birisinə kimi yeniyetmə ilə quzudan savayı heç kəs yox idi, Emmausdan Yerusəlimə gedən yolda, nəhayət ki, rastlaşdığı qoca yəhudinin mərhəmətindən İsa quzunun boynundakı kəndirin bir ucunu əlinə doladı, heyvan isə öz yeni sahibinə ürkək bir nəzər salıb titrək səslə "mə-ə-ə" edib elə qorxa-qorxa, elə incə mələdi ki, bu cür mələməyi yalnız ilahilərin daha çox sevdiyi, körpə ikən ölməyə məhkum südəmər

quzular bacarır. Özünün çobanlıq həyatında, kim bilir, neçə mininci dəfə eşitdiyi bu mələrti oğlanın düz qəlbinə işlədi – birdən ona elə gəldi ki, heyvana mərhəmətindən bədəninin bütün əzaları əriyir: ilk dəfə idi ki, başqa bir məxluqun həyatı və ölümü üzərində tam hakimiyyətini hiss edirdi, həmin bu ağ quzunun; pak, təmiz canlının; iradəsi və arzusu olmayan; balaca ağzını inamla ona sarı qaldırıb, suallı gözlərini üzünə dikən, mələyəndə incə, çəhrayı dili görünən, narın tüklərinin arxasından qulağının dərisi çəhrayı işıq saçan və hətta adamlarda "dırnaq" deyilən və kobudlaşıb qaralaraq, bərkiyib buynuzlaşaraq əsl qoç dırnağına heç vaxt dönə bilməyəcək dırnaqları da çəhrayı quzunun.

İsa quzunun başını sığalladı, o da cavabında başını qaldırıb nəm burnunu onun ovcuna sürtdü, oğlanın bədənindən bir üşütmə keçdi. Bu zaman sehrbazın ovsunu qəflətən duman kimi qalxıb uzaqlaşdı – Emmaus tərəfdən yolda çomaqlar göründü, küləkdə qanad çalan xitonlar gözə dəydi, çiyinlərdə dağarcıqlar tərpəndi: zəvvarların başqa dəstəsi gəlirdi, Tanrıya alqışlar yağdıraraq kəndirlərindən tutduqları başqa quzularla gəlirdi. İsa özününkünü körpə kimi qucağına alıb yola düzəldi. Yerusəlimdə həmin o gündən bəri olmamışdı: o gündən ki, günahlarının, vicdan əzablarının dəyərini bilmək, onlarla bacarmaq – bilmirdi miras kimi hissələrəmi bölüb qarşılasın, yoxsa hər birimizin öz ölümünü qəbul etdiyi kimi tam qəbul etsin – onların öhdəsindən gəlmək üçün getmişdi. Məbədin səkisi üstünə insan kütləsi kirli-qonur sel kimi axırdı. İsa qucağında quzusu, bu qarışıqlığa, basabasa baxırdı: bəziləri qurban getməyə məhkum heyvanlarını pillələrlə yuxarı aparır, digərləri artıq nurlu sifətlə, əliboş qayıdır, "Alliluyya!", "Osanna!", "Amin!" qışqıra-qışqıra, ya da dinməz gəlirdilər, çünki onların vəziyyətində sevinmək Yerusəlim Məbədindən çıxanda "Evoe!" – ya da gurultulu "Urra!" çığırmaq qədər yersiz olardı, hərçənd ki bu nidalar arasında fərq o qədər də əhəmiyyətli deyildi, çünki

biz onlarla ən ali mükəmməlliyi, təntənəmizin kvintessensiyasını göstəririk, amma zaman keçir, sözlər çox işlənməkdən yaprıxır və biz onları tələffüz edərkən hərdən düşünürük: "Axı bunlar nəyə lazımdır?" – heç cavab da tapa bilmirik.

Məbədin üzərindən göylərə bir tüstü sütunu ucalırdı – bitmək bilməyən, daim yeni-yeni qurbanlarla təchiz edilən sütun və bu sütun bütün dünyaya göstərməliydi ki, qurban gətirənlərdən nə qədəri Adəmlə Həvvanın övladları, bir zamanlar Tanrıya öz sürüsündən və yağından pay gətirmiş Avelin birbaşa və qanuni varisləriydi, İlahi Habilə, onun gətirdiyi paya xeyirxihlıqla baxdı, qurbanını qəbul etdi, torpağın sadə nemətlərindən savayı gətirməyə heç bir şeyi olmayan Qabilin hədiyyəsi isə rədd edildi, səbəbi hələ bu günə kimi tapmaca olaraq qalır. Əgər Qabil Habili məhz bu səbəbdən qətlə yetiribsə, biz rahat yata bilərik: bizi artıq bir təhlükə gözləmir, zira hər birimiz, təxminən, eyni şeyləri qurban veririk və buna əmin olmaq üçün təkcə tonqalda piyin çırtıltısına, ətin fışıldayaraq qızarmasına qulaq asmaq kifayətdir və Tanrı göyün neçənci qatından bu qırğın və qətllərin gözəl rayihəsini məmnuniyyətlə sinəsinə çəkir.

İsa quzusunu sinəsinə bərk-bərk sıxır – niyə Tanrı istəmir ki, onun mehrabına süd – mövcudluğun özünü təmin edən şirə səpsinlər, elə şirə ki, məxluqun birindən o birisinə keçir; nədən mehraba şum kimi bir ovuc buğda dənəsi atmaq olmaz, o dənələr ki, onlardan təməllərin təməlini – ölməz çörəyi bişirirlər?

Az əvvəl tanımadığı qocanın hədiyyəsi olan bu quzuya sabah günəşin necə doğacağını görmək nəsib olmayacaq – onu Məbədin pillələriylə yuxarı çıxarıb bıçaq ağzına və qurbangahın alovuna vermək dəmi idi, sanki, onun yaşamaq haqqı yox idi və sanki, bütün otlaqların və zəmilərin əsl sahibinə qarşı cinayət törədərək həyat bulağından su içmişdi bu heyvan. Onda İsa, sanki, birdən ayıldı, Qanunun tələblərinə sinaqoqda öyrəndiyi müticəsinə riayətin ziddinə, Tanrı

sözünün ziddinə qərara aldı ki, bu quzu ölməyəcək, ona həyat naminə bağışlanan bu məxluq sağ qalacaq və özü bu müqəddəs şəhərə – Yerusəlimə qurban vermək üçün gəlsə də, buradan vicdanında daha bir günah aparacaq: sanki, əvvəlki günahları ona azlıq edirdi və nəhayət, elə bir gün gələcək ki, bütün bunların hesabını verəsi olacaq, çünki Tanrı heç nəyi unutmur. Bir anlıq bu labüd cəza onun tərəddüdünə səbəb oldu, lakin təxəyyülü ildırım sürətiylə gözlərinin önündə dəhşətli bir mənzərə canlandırdı: quzuların, danaların və başər övladı öz yaranışından bəri verdiyi digər qurbanların damarlarından axan qandan ibarət nəhayətsiz dəniz, zira bəşəriyyət yalnız səcdə etmək, qurban vermək üçün gəlib bu yer üzünə. Əməlli-başlı tələtümə gəlmiş təxəyyülü al qırmızı qanın Məbəd səkisində pilləbən-pilləyə axaraq düz onun ayaqlarına necə yaxınlaşmasını göstərdi, o isə əlindəki quzusunun cansız, başsız cəsədini göylərə qaldırıb durmuşdu. O, reallıq barədə təsəvvürlərini itirdi; indi, sanki, boş, sükut dolu bir qovuğun içindəydi, amma bu qovuq bir anda partlayaraq tikə-tikə oldu, İsanın qulaqları yenə səslər, qışqırıqlar, dualar, mahnılar, şikayətli quzu mələrtisiylə doldu, bütün bu hay-küyü bircə göz qırpımında üstələyən səs: spiral kimi burulmuş qoyun buynuzunun üçlü, bəm səsi guruldadı. Öz quzusunu, sanki, labüd təhlükədən qorumaq üçün dağarcığının içinə soxub meydandan qaçdı İsa, dardolanbac küçələrin hörümçək torunda itdi, hara qaçdığını heç özü də bilmirdi. O yalnız şəhərin şimal – Ramallah darvazalarından çıxanda özünə gəldi, Nazaretdən gələndə burnunun önündə bağlanmış həmin o darvaza. O, yol kənarındakı əncirin altında əyləşdi, dağarcığından quzusunu çıxardı, insanlar da ona baxanda heç təəccüblənmirdilər, yəqin, fikirləşirdilər ki, yorulub, quzusunu Məbədə aparmamışdan, dincəlir, güc yığır; ah, nə gözəldir və biz qətiyyən tapa bilmərik ki, bu sonuncu fikirləri İsaya aid idi, yoxsa quzuya. Şəxsi düşüncəmizə görə, onların hər ikisi gözəl idi, lakin

əgər onların ikisindən birini mütləq seçmək lazım idisə, qalibiyyət çələngini quzuya verərdik, bu şərtlə ki, böyüyüb zırpı bir qoça çevrilməsin. İsa kürəyi üstə uzanaraq ipin ucundan tutub ki, quzusu qaçmasın, amma, görünür, bu, izafi ehtiyat idi: heyvan lap əldən düşmüşdü: yaşının azlığından deyildi bu, həyəcandan idi, otərəf-butərəfə qaçmaqdan, oyan-buyana dartılmaqdan idi; onu gah qucaqlarına götürür, gah yerə qoyurdular, bütün bunlardan da başqa, hələ səhər açılanda anasının yanına da buraxmamışdılar heyvanı, çünki o dünyaya qarnıdolu getmək ayıb idi: istər quzu ol, istər əzabkeş, heç fərqi yoxdur. Budur, İsa arxası üstə uzanıb, nəfəsi yavaş-yavaş tənzimlənir, o, səmanı küləyin azacıq tərpətdiyi əncir budaqlarının arasından görür və günəşin şüaları yarpaqların arasındakı boşluqlardan düşüb gözləri önündə oynayır. Yəqin, altıya işləyərdi hələ; günəş kifayət qədər yüksəkdə, kölgələr isə qısa idi, təsəvvürə belə gətirmək olmurdu ki, yüngülcə nəfəsiylə bütün bu misilsiz parlaqlığı söndürəcək gecə artıq uzaqda deyildi. İsa bir az dincəlib canının ağrısını çıxardı, indi də quzuya müraciət edirdi: "Səni aparım sürüyə", – dedi və ayağa durmağa başladı. Yerusəlim yolu ilə adamlar gedirdi, arxada isə daha bir neçə nəfər gəlirdi və onlara diqqət yetirən təki bir sıçrayışla ayağa qalxdı; beyninə ilk gələn qaçmaq oldu, amma təbii ki, bunu etməyəcəkdi; buna cəsarəti çatmazdı və başqa necə ola bilərdi ki: anasını, kiçik qardaşlarını – İakovu, İosifi, İudanı tanımışdı; bacısı Liziyanı da görürdü, amma o, qadın idi deyə hesaba almırdı, baxmayaraq ki dünyaya gəlməklərinin sırasında İakovla İosifin arasında yer tuturdu. Hələ onu görmürdülər. İsa quzusunu da qucağına alıb yola enir, amma qəlbinin dərinliklərində duyur ki, bunu yalnız əlləri məşğul olsun deyə eləyir. Böyük qardaşını birinci İakov görür, o, anasına tələsik nəsə deyir, o isə ətrafa boylanıb baxır, sonra addımlarını sürətləndirirlər və onlarla üzbəüz gələn İsa da tələsir – daha qucağında quzu qaçmayacaqdı ki; biz bu səhnəni



o qədər uzadırıq ki, sanki, bu görüşün, nəhayət, baş tutmasını heç istəmirik, amma inanın ki, məsələ bunda deyil, məhəbbət – ana, oğul, qardaş məhəbbəti onları qanadlandırardı, lakin məhəbbətdən savayı dünyada yenə nələrsə var axı – siz onların necə ayrıldıqlarını xatırlayın; odur ki bu yerdə utanc hissi də təbiidir, bəlli bir xəcalət də; bir də axı bilirik ki, bu uzun ayrılıq, bir-birindən bütün bu aylar boyu tam məlumatsızlıq hansı nəticələr doğurur. Amma bir səmtə gedirsənsə, mütləq çatacaqsan və budur, onlar da görüşdülər, artıq üz-üzə dayanmışdılar.

– Ana, xeyir-dua ver, – İsa dedi.

– Tanrı versin xeyir-duanı, – Məryəm dilləndi.

Onlar qucaqlaşdılar, sonra növbə qardaşlarına çatdı, lap axırda da Liziyaya və qabaqcadan bəlli olduğu kimi, onların heç biri belə vəziyyətdə nə demək lazım olduğunu bilmirdi, Məryəm də "Pah, nə gözəl görüşdür!" çığırmaq fikrində deyildi, İsa da elə onun ahəngiylə: "Heç ağlıma gəlməzdi, siz hara, bura hara?" demədi, onsuz da, bəlliydi – Tanrı Pasxası adlandırılan bayram yaxınlaşırdı, bir-birinə baxan iki quzu bunun bariz göstəricisi idi və onlar arasında yeganə fərq bu idi ki, onlardan biri ölməliydi, digəri isə canını xoşbəxt bir təsadüf nəticəsində qurtarmışdı.

– Sən çıxıb getdin, birdən yox oldun, – Məryəm, nəhayət, dilləndi və bu yerdə gözünün yaşı sel kimi axmağa başladı – onun ilki, onun böyüyü qarşısında durmuşdu: böyümüşdü, lap kişi olmuşdu, günəşin və tozlu küləyin yandırıb aşılayaraq qaraltdığı sifət yalnız açıq havada yaşayanlarda olur.

– Ağlama, mənim əlimdə indi işim var, çobanam.

– Çoban? Mən də ümid edirdim ki, atanın sənətiylə məşğul olarsan...

– Mənə çobanlıq qismət imiş.

– Bəs evə nə vaxt qayıdacaqsan?

– Bilmirəm, nə vaxtsa qayıdaram.

– Heç olmasa, indi Məbədə bir yerdə gedək.

– Mən Məbədə getməyəcəyəm.

– Niyə, axı quzun da var.

– Bu quzu qurbanlıq deyil.

– Nədir, qüsuru var?

– Heç bir qüsuru yoxdur, amma öz həyatı bitəndə öləcək yalnız.

– Başa düşmürəm.

– Heç gərək də deyil: mən bu quzunu ona görə xilas etmişəm ki, vaxtı gələndə məni də kimsə xilas etsin.

– Deməli, sən bizimlə Yerusəlimə getməyəcəksən?

– Mən ordan gəlirəm.

– Bəs hara gedirsən?

– Sürüm hardadırsa, ora.

– Sürün hansı tərəfdədir?

– İndi Ailon vadisindədir.

– O haradır?

– O yandadır.

– Nəyin o yanında?

– Vifliyemdən o yanda.

Məryəmin rəngi ağardı və indi bəlli oldu ki, nə qədər qocalıb, baxmayaraq ki cəmi otuz yaşı vardı.

– Sən niyə Vifliyemin adını çəkdin?

– Çünki orda çobanla rastlaşdırn – məni özünə köməkçi götürən çobanla.

– O kimdir? – İsa onun sualına cavab verməyə macal tapmamış qadın uşaqlarına tapşırdı:

– Siz irəli gedin, məni şəhər darvazalarının qarşısında gözləyərsiniz – sonra da İsanın əlindən tutub yoldan çıxartdı.

– O kimdir? – təkrar soruşdu.

– Bilmirəm.

– Heç olmasa, adı varmı?

– Bəlkə də, var, amma mən bilmirəm, tapşırıb ki, onu Çoban çağırım.

– Görkəmi necədir?

– Hündür adamdır.

– Sən ona harda rast gəlmisən?

– Anadan olduğum mağarada.

– Mağaranı kim göstərdi sənə?

– Salomeya adında, doğulanda məni qəbul edən bir qul qadın.

– O?..

– Nə o?

– O nə dedi sənə?

– Sənin bilmədiyin bir şey demədi.

Bu sözlərdən sonra Məryəm yerə sərildi, sanki, kiminsə güclü əli yıxmışdı onu.

– O İblisdir.

– Nədir, özü deyib bunu sənə?

– Yox, birinci dəfə söyləmişdi ki, guya, mələkdir, amma tapşırdı ki, heç kəsə deməyim bu barədə.

– Bu, nə vaxt olmuşdu?

– Sənin atan boylu olduğumu bilən gün həmin o adam bizim evə dilənçi qiyafəsində gəlmişdi, sədəqə istədi, sonra da mənə dedi ki, mələkdir.

– Sən onu sonralar bir də görmədin?

– Gördüm, sənin atanla Vifliyemə, siyahıyaalmaya gedəndə, sonra da sənin doğulduğun mağarada gördüm, bir də sən evdən getdiyin gün kimsə həyətə girdi, əvvəl elə bildim sənsən, amma əslində, o imiş, qapının yarığından baxdım, gördüm ki, ağacı çıxarır torpaqdan – yadındadır? – içində işıqlanan torpaq olan kasanı basdırdıqları yerdə bitmişdi, bax, o ağacı.

– Nə kasa, hansı torpaq?

– Mən sənə bu barədə heç vaxt danışmamışam: dilənçiyə yemək verdiyim kasaya sonra o, bir ovuc torpaq tökdü, torpaq da başladı işıq saçmağa. Torpağı işıqlandırmağa ancaq mələyin gücü çatar. Mən elə özüm də əvvəlcə belə fikirləşdim, amma İblis də axı möcüzələr eləyə bilir.

İsa anasının yanında oturdu, quzunu isə otlamağa buraxdı.

– Hə, elə mən özüm də başa düşmüşəm ki, mələyi şeytandan ayırmaq çətindir; əgər işlərini bir yerdə görürlərsə.

– Mənə söz ver ki, bizimlə gedəcəksən və həmin o adamın yanına bir də qayıtmayacaqsan.

– Mən ona söz vermişəm ki, dönəcəyəm, vədimə xilaf çıxmaram.

– İblisə ancaq ona görə söz verirlər ki, sonra onu aldatsınlar.

– Bu adam – hərçənd ki onun adam olmadığını bilirəm, – bu mələk, ya şeytan məni düz anadan olandan bəri izləyir və mən də bilmək istəyirəm ki, niyə, səbəb nədir.

– İsa, mənim oğlum, gedək bizimlə Məbədə, bu quzunu da qurban ver və Tanrıdan xahiş elə, səni canına dolmuş pis fikirlərdən xilas etsin.

– Bu quzu qismətində yazılan gün öləcək.

– Həmin gün yetişib.

– Ana, sənin övladların da əbədi yaşamayacaqlar, amma sən onların vaxtından qabaq ölməyini heç istəməzsən.

– Bir quzu ilə adamın doğma övladları arasında fərq var.

– Tanrı Avraama İsaakı öldürməyi tapşıranda bu fərq hələ heç kəsə bəlli deyildi.

– Mən sadə qadınam, sənə cavab verə bilmirəm, amma bircə xahişim var: bu pis fikirləri beynindən çıxart.

– Ana, fikirlər öz-özlüyündə yaxşı, pis olmurlar, onlar adamın başında göydəki buludlar kimi qeyri-iradi süzür; hesaba alınansa yalnız əməllərindir.

– Tanrıya eşq olsun ki, mənim kimi kasıb, bisavad qadının oğlu belə müdrik böyüyüb, amma sənə bir də deyirəm: bu müdriklik İlahidən deyil.

– Elə İblisdən də nəsə öyrənmək olar.

– O, sənin içində yuva salıb, İsa, oğlum, sən onun ixtiyarındasan.

– Əgər onun iradəsiylə bu quzu sağ qalıbsa, deməli, dünya bundan nəsə qazanıb.

Məryəm heç bir cavab vermədi. İakov şəhər darvazalarından onun dalınca qayıdırdı. Qadın qalxdı:

– Səni indicə tapdım, yenə də ayrılırıq.

– Əgər tapmısansa, deməli, nə vaxtsa itirmişdin, – İsa cavab verib əlini dağarcığına soxdu, bir neçə sikkə çıxardı – sədəqə kimi yığdıqlarını – olanım budur, al.

– Bu qədər vaxt ərzində?

– Mən bir qarın yeməyə işləyirəm.

– Görünür, sahibini yaman sevirsən, əgər bu qədər az məbləğə qane olursansa.

– Tanrı – mənim çobanımdır.

– İblislə yaşayan bir adamın ağzından Tanrı adı söyüş kimi səslənir.

– Nə bilmək olar, bəlkə, mənim sahibim də öz Tanrısının mələyidir: amma başqa ilahiyə qulluq edir, başqa göydə yaşayır.

– Qanunda deyilir: "Mən Tanrıyam, sənin İlahin və sənin Məndən başqa ilahin olmamalıdır".

– Amin, – İsa cavab verdi.

O, quzunu qucağına aldı:

– Odur, İakov da sənin dalınca gəlir, əlvida, ana.

– Elə bil, sən bu quzunu doğma ailəndən daha çox sevirsən.

İsa cavab verdi:

– İndi bəli.

Məryəm acı qəzəbdən boğularaq ondan uzaqlaşıb ortancıl oğluna sarı getdi və bir də çönüb arxasına baxmadı.

İsa isə əvvəlcə şəhər divarı boyunca, sonra isə başqa, kəsə yolla, birbaş tarlaların içindən Avialon vadisinə uzun enişini başladı. Kəndlərin birində dayanıb Məryəmin imtina etdiyi pula çörək, əncir, özü və quzusu üçün süd aldı: süd də qoyun südü olduğundan, fərqini quzu duymadı və məhz bu şəraitdə "ana elə anadır" deyimini işlətmək olardı. Oğlanın

artıq çoxdan dünyadan köçməli olan bir quzuya pul xərclə-məsinə təəccüblənən kəslərə isə cavab vermək olardı ki, onun iki quzusu vardı, birini Tanrı eşqinə qurban verdi, ikincisini isə o qəbul etmədi, çünki heyvanda qüsur aşkarlanmışdı – "qulağının biri cırıq idi, bax – görürsən?" "Heç nə görmürəm, qulağı salamatdır", – deyəcəkdilər ona. "Əgər salamatdırsa, özüm cıraram", – İsa cavab verəcək, quzusunu çiyninə atıb yoluna davam edəcəkdi.

Sürünü artıq günün sonuncu işığında gördü, göyün üzü buludlarla örtülməyə başladığından, hava sürətlə qaralırdı. Havada bir gərginlik vardı – ildırımdan xəbər verirdi və ilk şimşək bu intizarı yanıltmadan göylərin bağrını elə İsa sürünü görən dəm yardı. İldırım həmin o "quru" deyilənlərdən idi – yağış tökmədi və adilərdən fərqli olaraq adamı daha çox qorxudurdu, çünki biz üstümüzü külək və yağış pərdəsiylə örtmədən, özümüzü, həqiqətən, köməksiz hiss edirik, hərçənd ki onların bizi necə qoruya biləcəyi də heç bəlli deyil: bu – guruldayan, ildırımlarla parçalanan səmanın qıcolmadan titrəyən, zərbəyə zərbə ilə cavab vermək gücündə olmayan yerlə açıq toqquşmasıydı. İsanın yüz addımlığında gözü deşən, dözülməz bir parıltı göründü və əncir ağacı təpəsindən düz gövdəsinə kimi şaqqalanıb məşəl təki alışdı. Yaxın zərbədən və düz başı üzərindəki dəhşətli gurultudan göy qübbəsi çatlayıb iki parçaya bölündü və İsa ölü kimi yerə düşdü. Daha iki ziqzaq parladı – biri burada, o birisi orada, sanki, iki həlledici söz səsləndi və şimşək uzaqlaşmağa, sakitləşməyə başladı; düz göylərlə yerin birləşdiyi yerə qədər, zorla eşidilən məhəbbət pıçıltılarına dönənə kimi davam etdi. Yıxılanda qucağındakı quzu əzilməmişdi, qorxulu nə vardısa, artıq arxada idi: o, üzüstə uzanmış İsaya yaxınlaşdı və dodaqlarıyla onun dodağına toxundu – yalamadı, iyləmədi, fınxırmadı: sadəcə, toxundu və elə bu da bəs etdi ki – bizim buna şübhəmiz var məgər? – İsa özünə gəlsin. Oğlan gözlərini açıb quzunu gördü, düz onun başının



üstündə isə göylərin özünün qara əliylə gündüzdən qalan nə varsa, sildiyi qatı zülmətini gördü. Əncir ağacı hələ yanırdı. İsa ora-burasını tərpətdi və hiss elədi ki, hər bir hərəkət onun canını ağrıdır, lakin bədəni sözünə baxırdı: əgər huşunu, hərəkətini belə asan itirərək yerə çırpılan bir şeyin sözəbaxanlığından danışmaq, ümumiyyətlə, olarsa. Böyük çətinliklə qalxıb oturdu, görmənin şəksiz şahidliyi ilə deyil, qaranlıq hissiyyatıyla duydu ki, bədənində nə yanıqları var, nə əzilmə, əl-ayağı, qabırğaları salamatdır, ümumiyyətlə, bütün bədəni sappasağ idi, bircə başındakı zingilti, uğultu bitmək bilmirdi. O, quzunu özünə sarı çəkib, kim bilir, haradan ağlına gəlmiş bu sözləri dedi: "Qorxma. O, sənə, sadəcə olaraq, göstərmək istəyirdi ki, ixtiyarın Onun əlindədir, canını ala bilərdi, mənə isə anladır ki, səni ölümdən mən yox, O qurtarıb". Sonuncu gurultu ahəstə bir nəfəs kimi tələsmədən göydə dolaşdı, aşağıda isə qoyun sürüsü ağarırdı – səhrada çoxdan intizarını çəkdiyin vadi kimi. İsa uyuşmuş ayaqlarını çətinliklə ataraq ora yönəldi, boynunda artıq mənasını itirmiş, tamamilə gərəksiz kəndir olan quzu da onun yanıyla küçük kimi yüyürürdü; arxada qalmış əncir ağacı isə hələ də yanırdı. Əriməkdə olan alatoranın işığı deyil, ağacın parlaq məşəli qəflətən onun qarşısında peyda olan Çobanın plaşa bürünərək çomağına söykənmiş uca qamətini işıqlandırdı; adama elə gəlirdi ki, çomağını qaldırsa, ucu göyə dirənərdi. Çoban dedi:

– Mən bilirdim ki, şimşək sənin üçün pusqudadır.

– Gərək mən özüm də bunu anlayaydım, – İsa cavab verdi.

– Bəs bu nə quzudur?

– Quzu almağa pulum çatmadı, oturdum yolun qırağında ki, sədəqə yığım, bir qoca bu quzunu mənə bağışladı.

– Bəs niyə qurban etmədin onu?

– Bacarmadım, gücüm çatmadı.

Çoban gülümsündü:

– İndi mən daha yaxşı anladım ki, O, niyə sənə imkan verdi sürüyə qayıdasan: istəyirdi öz gücünü mənim gözlərimin qarşısında göstərsin.

İsa cavab vermədi, çünki indicə quzuya da bütün baş verənləri, təxminən, elə həmin sözlərlə izah etmişdi və o, qətiyyən istəmirdi ki, qayıdan kimi Tanrının niyə başqa cür yox, məhz belə etməsinin səbəbləri ətrafında söz açsın.

– Yaxşı, indi nə emək niyyətindəsən bununla?

– Heç nə, qoy sürüylə bir yerdə otlasın.

– Ağ quzuların hamısı bir-birinə bənzəyir; artıq səhər sən onu başqalarından seçə bilməyəcəksən.

– Amma o, məni tanıyacaq.

– İndi tanıyır, hə, amma sabah unudacaq, bundan başqa, hər dəfə səni axtaranda əldən düşəcək: onu necəsə fərləndirməliyik sürüdən: bəlkə, azacıq qulağını cıraq.

– Yazıqdır.

– Sənin də şeyindən bir tikə kəsiblər ki, kimə aid olduğun bilinsin.

– Bu tamam başqa şey, başqa məsələdir.

– Bu yalnız bizə başqa bir şey kimi gəlir, əslində isə elə eyni şeydir.

Çoban çır-çırpı yığıb, indi də çaxmaqdaşıyla alışdırmağa çalışırdı. İsa dedi:

– Bəlkə, yanan əncirin budaqlarından götürsək yaxşıdır?

Çoban cavab verdi:

– Yox, yaxşısı o deyil, qoy göydən düşən alov öz-özünü yesin.

Əncirin gövdəsi isə qaranlıqda kösöv kimi işıq saçırdı, külək onun qabıqlarını qırıb özüylə sovurur, qopan qığılcımlar o dəqiqə də sönürdü.

Gecənin zülməti həmişəkindən fərqli olaraq alçaqdakı buludları gizləməmişdi. Çobanla İsa, adətləri üzrə, yeməyə oturdular, birincisi istehzayla dilləndi:

– Deməli, bu il Pasxa quzusunun dadına baxmayacaqsan.

İsa bu sözün cavabında susdu, amma özu-özündən narazı qaldı, çünki elə həmin dəqiqədən etibarən həlledilməz bir seçimlə üz-üzə dayanası olmuşdu: "Dananı, qoçu, quzunu kəsmədən necə ət yesin".

– Hə, indi nə edək bununla? – Çoban yenə soruşdu. – Quzunu deyirəm: nişan qoyaq, yoxsa yox?

– Mənim əlim gəlməz.

– Yaxşı, özüm məşğul olaram.

O, əlinin cəld, inamlı hərəkətiylə heyvanın qulağının lap ucunu üzdü və onu əlində tutub soruşdu:

– Bəs bunu nə edim – torpağa basdırım, yoxsa eləcə atım getsin? – İsa indi nə dediyinin fərqinə varmadan cavab verdi:

– Ver bura, – dəri parçasını alıb ocağa atdı.

– Bir zamanlar sənin də şeyinin ucunu elə bu cür ediblər... – bunu Çoban dedi.

Kəsik qulağın ucunda bir damla qan göründü və elə o dəqiqə də laxtalandı. Tonqaldan tüstü ilə bir yerdə, qızarmış zərif ətin məstedici qoxusu qalxdı və beləliklə, yalnız bu uzun, uşaq hərəkətləri və ziddiyyətli addımlarla dolu günün sonunda Tanrı ona duşən payı aldı və kim bilir, bütün bu əzəmətli şimşək əhvalatı göy gurultuları, ildırımlarıyla bir yerdə Onun iradəsinə tabe olduqları barədə bu tərs çobanlara verdiyi işarə deyildimi? Qanın sonuncu damcısı yerə düşdü və torpaq onu acgözlüklə uddu, zira qurbanın ən əsas, haqqında bu qədər tərəddüdlər yaşanmış, söz-söhbət getmiş bir hissəsi əbəs yerə puç ola bilməzdi.

Sonra belə oldu ki, üç ildən sonra, məhz həmin quzunun böyüyüb çevrildiyi, başqalarından yalnız qulağıkəsikliyiylə fərqlənən bu adi qoyun sürüdən ayrı düşərək İerixonun cənubunda, səhra başlayan vəhşi yerlərdə itdi.

Sürü nəhəng idi: bir qoyun nəydi ki – biri az, biri çox, amma yenə də, haqqında söz açdığımız heyvan başqaları kimi deyildi, elə bu çobanlar da hər addımda rast gəldiyimiz başqa

adamlara bənzəməzlər, odur ki Çoban heyvanları saymağa qətiyyən ehtiyac duymadan, qalın, qıllı qaşlarının altından bircə nəzər salmaqla itkidən xəbər tutdu, İsanı çağırıb dedi:

– Sənin qoyunun yoxdur, get, axtar onu, – bizim qəhrəman ona: "Nə bilirsən ki, mənim qoyunum yoxdur?" – sualını vermədiyi üçün, gəlin biz də soruşmayaq.

Axı məsələ heç bunda da deyildi – indi ən əhəmiyyətlisi o idi ki, İsa bu ətrafı tanımasına – yeri gəlmişkən, buralara çox pis bələd idi – və heç də qüsursuz olmayan duyma qabiliyyətinə güvənib, çoxdan tapdanmayan cığırlarla yollanacaqdı, amma üfüqlərə kimi uzanan bu nəhayətsiz çöllərdə yolu necə tapacaqdı, bəlli deyildi. Madam ki artıq insanlarla ünsiyyət saxlamaq, alver etməkdənsə, daimi köçəri həyata üstünlük verən Çobanla şəyirdi İerixonun münbit vadilərində qalmaq istəməyərək, oraları tərk etmişdilər, onda adam da heyvan da çox güman ki, nə vaxtdan bəri axtardığı tənhalığın ləzzətinə özünə yem tapmaq üçün sərf edəcəyi həddən-ziyadə səyin kölgə salmayacağı yerdə itməyə üstünlük verərdilər, xüsusilə də bunu, həqiqətən, bilərəkdən edirdilərsə. Bu məntiqi mülahizələr zəncirinə riayət etsək, İsanın qoyunu gizlincə, amma guya, təsadüfən sürüdən dala qalmalıydı ki, indi də İordanın sahil sərinliyində və eyni zamanda – ehtiyat üçün – İerixondan uzaq olmayan bir yerdə təzə otdan ləzzətlə qırpa bilsin.

Lakin həyat həmişə məntiqlə uzlaşmır: çox vaxt elə olur ki, ən aşkar, ən bəlli şeylər də yalnız onların özünə bəlli olan bəzi amillərin arxasına düşüb öz təzahürü üçün dolanbac yollar seçir, necə deyərlər, əsas məqsəddən yayınır. Əgər məsələ, həqiqətən, beləndirsə, bizim İsa azmış qoyunu arxada qalmış yaşıl otlaqlarda deyil, irəlidə – uzandıqca uzanan, seyrək, sərt, istidən yanmış otları olan səhrada axtarmalı və inandırıcı səslənən, lap üzdə olan bir dəlili tamamilə qulaq ardına vurmalıdır: qoyun sürüdən ona görə aralanmayıb ki, acından və susuzluqdan ölsün, əvvəla, ona görə qulaqardına

vurmalıdır ki, heç kəs qoyun qafasından nələrin keçdiyini dəqiq bilməz, ikincisi isə – bəlli şeylərin bayaq xatırlatdığımız həqiqəti, hərdən elə bəlli şeylərin özünü də tamam gözlənilməz şeylərə çevirə bilir. Odur ki İsa çölluyə gedəcək – artıq gedir də və onun bu qərarı Çobanı qətiyyən heyrətləndirmədi, əksinə, o susmasıyla oğlanın bu seçimini dəstəklədi, özü də bu dəstək başının astaca, təntənəli bir tərpənişində təzahür elədi və bu hərəkəti – sən bir qəribəliyə bax! – vidalaşma əlaməti kimi də qəbul etmək olardı.

Bu yerlərin səhrası qətiyyən eninə-uzununa göz işlədikcə uzanan qumsallıqlardan ibarət deyildi. Bu yerlərin səhrası daha çox birindən o birinə keçən quru və sərt təpələrin eniş və yoxuşlarının əmələ gətirdiyi dolaşıq labirintlərdən ibarət idi və buraların sərt təbiətinə ancaq tikandan ibarət nadir bitkilər davam gətirə bilərdi; onlarla isə ancaq keçilərin daş kimi damaqları bacarardı, çünki incə qoyun dodaqları bu tikanlara toxunan təki paralanardı. Buraların çöllüyü hamar qumsallıqlardan, dəqiqəbaşı formasını dəyişən mütəhərrik qum təpəciklərindən çox qorxulu, tamam fərqli idi: burada, içində bir təhlükə gizlətmiş hər təpə özündən sonrakı təpənin arxasındakı təhlükədən xəbər verirdi, yolçu əsə-əsə o biri təpəni də keçəndə, hiss edirdi ki, təhlükə qətiyyən sovuşmayıb; sadəcə, onun önündən arxasına keçib. Burada onun harayına əks-səda belə cavab verməyəcək, eşidəcəyi yalnız ya təpənin çığırtısı olacaqdı, ya da onun içində, arxasında inadla gizlənən həmin o müdhiş və mübhəm nəsnənin.

Bax, İsa yalnız çomağı və çiynindəki dağarcığıyla silahlanıb həmin bu vəhşi çöllərə qədəm basdı. Bu dünyanın sərhədini keçəndən sonra heç bir neçə addım atmağa macal tapmamış, qəflətən anladı ki, köhnə, İosifdən ona qalmış səndəllər artıq tamam dağılıblar. Bu səndəllər ona etibarla qulluq etmişdilər, o da ayaqqabılarını daim səylə yamayır, ömrünü, istifadə müddətini uzadırdı, lakin indi nə sərrac, nə kəndirçi, nə pinəçi heç bir şeylə kömək edə bilməzdi –

bu enişlər və yoxuşlar səndəllərin altı üçün çox dik idi, çox yollar keçmişdi onlar, çox tər damlaları yolların tozu ilə qarışaraq onların bağlarını yeyib aşındırmışdı. İndi, sanki, bir əmrə müntəzirmişlər kimi ayaqqabılarının müxtəlif yerləri bu barədə danışmağa sərf etdiyimiz zamandan da qısa bir vaxtda sıradan çıxdı: altlığı dağıldı, sonuncu kəmərləri sürtülüb süzüldü, axırıncı mumlu sap qırıldı, kəndir bağlar didildi və İsa ayaqyalın qaldı. Bizim yeniyetmə – biz onu belə çağırmağa adət etmişik, əslində isə on səkkiz yaşlı yəhudi artıq yetkin kişi sayılır – bütün bu müddət ərzində dağarcığının dibində keçmişin xatirəsi kimi gəzdirdiyi köhnə səndəllərini xatırladı və çıxarıb geyinməyə cəhd elədi. Amma bekara cəhd idi, İsaya yalnız indi aydın oldu ki, bir dəfə yekələn ayaq, bir də kiçilməz deyən Çoban nə qədər haqlı imiş. Ayaqları bu səndəllərə heç cür sığmazdı. O, çöllüyün astanasında ayaqyalın durmuşdu, Cənnətdən qovulan Adəm kimi durmuşdu və elə ulu babamız kimi də onu çağıran dağım-dağım torpağa ilk və ən çətin addımını ata bilmirdi. Bir an sonra isə özünə "mən bunu niyə edirəm" sualı vermədən İsa çomağını atdı, çiynindən dağarcığını aldı, bircə hərəkətlə xitonunu başından çıxarıb bir kənara tulladı və elə Adəm kimi lüt qaldı. Onun durduğu yerdən artıq Çoban görünmürdü, sürüdən bir dənə çoxbilmiş çəpiş belə arxasına düşüb gəlməmişdi, indi qarşısında uzanan bu gözəgörünməz sərhədi pozmağa hərdənbir quşlar, yerin üstündə yaşayan canlılardan isə qarışqa, qırxayaq-zad, bir də ki ürkmüş, zəhərli iynəsini göstərən əqrəb ürək edirdi: çünki onların heç biri bu yerlərdə heç vaxt lüt adam görməmişdilər və ümumiyyətlə, bilmirdilər ki, bu nə olan şeydir. İsadan əgər soruşsaydın: "Sən niyə soyunmusan?" – verəcəyi cavab da bu hörümçəkkimilər, buğumlular və zərqanadlılar üçün anlaşılmaz olacaqdı: "Səhrada ancaq lüt olmaq mümkündür". Elə biz də təkrar edərik: "Ancaq lüt", hərçənd ki tikanlar dərini cırır, qasığının tüklərindən ötüb, ətinə batır; lüt – baxmayaraq



ki dabanlar tikandan partlaq-partlaq olub, daşlara sürtülüb, qumdan göynəyir; lüt – baxmayaraq ki günəş yandırıb-yaxır, kor eləyir; lüt – zira azmış qoyunu tapmaq gərəkdir: o, bizimkidir, bizim qoyduğumuz nişanəni daşıyır. Səhra İsanı öz qoynuna alır və onun gözəgörünməz qapıları o dəqiqə də arxasında qapanır; geri çəkilməyə yol qoymadan qapanır. Sükut qulaqlarında sakit gurultuya dönüb – sahilə atılmış, içində yalnız dalğaların səsini saxlayan balıqqulağı kimi; həmin balıqqulağını kimsə qaldırıb qulağına tutaraq deyəcək: Səhra. İsanın ayaqları qan içindədir, günəş buludları qovur ki, öz şüalarının tiyəsini onun çiyinlərinə dərindən saplasın, tikanların caynağı dərisinə sancılır, dalayan kolların budaqları onu döyür. "Ey, sən hardasan?!" – çığırır və təpələr də, necə lazımdır, əks-səda verərdilər:

"E...sən...ardasa, e...sən...ardasa, e...sən...ardasa" – səslənərdi, əgər bu sözləri bilsəydilər, lakin uzun və uzaq gurultu – balıqqulağının içindəki gurultu – bütün qalan səsləri üstələyir və bu gurultudan söz düzülür: "Ta-a-a-nrı, Ta-a-a-nrı, Ta-a-a-nrı".

Birdən, sanki, təpələr çəkildi, İsa onların dar labirintindən qumsal açıqlığa çıxdı və bu açıqlığın tən ortasında öz qoyununu gördü. İstədi qançır olmuş, yaralanmış ayaqlarıyla ona sarı yüyürsün, amma bir səs gəldi:

– Dayan.

İsa öz qarşısında, təxminən, iki adam boyu bir bulud gördü, öz oxu ətrafında burula-burula durmuşdu: tüstü sütunu kimi və səs də ondan gəlirdi.

– Kimdir mənimlə danışan? – tir-tir əsən İsa eşidəcəyi cavabı qabaqcadan təxmin edib soruşdu.

Səs cavab verdi:

– Mən Tanrıyam.

İsa indi anladı ki, səhranın sərhədlərindən lüt keçməsinin səbəbi nə imiş.

– Məni sən gətirmisən bura, nə istəyirsən? – dedi.

– Hələ heç bir şey, amma günlərin birində hər şey istəyəcəyəm.

– Yəni nə?

– Həyatını.

– Sən axı Tanrısan, Sən həmişə bizim həyatımızı əlimizdən alırsan, Özün verdiyin həyatı.

– Mən nə edə bilərəm axı, almasam, yer üzü tamam dolar.

– Mənim həyatım nəyinə lazımdır ki?

– Bunu bilməyinin vaxtı yetişməyib hələ, hələ yaşa, sənə xəbər göndərməyimə xeyli var, sənin üçün hazırlayacağım o ali məqsədə bədənin və ruhunla hazır olmalısan.

– İlahi, İlahi, Sənin sözlərini dərk edə bilmirəm, başa düşmürəm məndən istədiyini.

– Sən hakimiyyət və şöhrət zirvəsinə çatacaqsan.

– Hansı hakimiyyət, nə şöhrət?

– Bunu da səni çağırmaq vaxtı gələndə açıqlayacağam.

– Həmin vaxt nə zaman yetişəcək?

– Tələsmə, yaşa nə qədər bacarırsan.

– Tanrım, budur, mən burdayam, Sənin qarşında, məni lüt gətirmisən Öz dərgahına, odur ki sabaha saxladığını indi ver mənə.

– Nə bilirsən ki, sənə nəsə vermək niyyətindəyəm?

– Sən söz verdin.

– Yox, mən verməyəcəyəm, biz, sadəcə, dəyiş-düyüş edəcəyik.

– Bəs mən öz həyatımla nəyin bahasını ödəyəcəyəm?

– Hakimiyyətinin bahasını.

– Bir də şöhrətimin, elə bilirsən, unutdum, amma demə sən ki, kimin üzərində hakimiyyət alacağam, nəylə və kimin qarşısında şöhrətlənəcəyəm, deməli, Sənin vədlərin hələ bivaxtdır; onu indidən vermək olmaz.

– Sən hazır olanda mənimlə rastlaşacaqsan, lakin bu gündən etibarən əlamətlərim, nişanələrim daim səninlə olacaq, səni müşayiət edəcək.

– Tanrım, söylə mənə.

– Sus, başqa heç nə soruşma, saatı yetişəndə – nə ondan tez, nə də gec – nə istədiyimi öyrənəcəksən.

– Səni eşidirəm, Rəbbim, eşidirəmsə, deməli, tabe oluram, lakin daha bir sualıma cavab ver. Sən mənim hövsələmi sınayırsan. Tanrım, bu, mənə çox lazımdır.

– Yaxşı, de.

– Olar, mən öz qoyunumu götürüm?

– Hə-ə, səni maraqlandıran bu imiş.

– Olar, hə?

– Olmaz.

– Niyə?

– Çünki aramızda indicə bağladığımız ittifaqa görə qoyunu mənə qurban edəcəksən.

– Onu qurban edəcəyəm?

– Hə.

– Mən sənə başqasını verərəm, indicə qaçıb gətirərəm, bircə dəqiqəyə.

– Mənimlə söz güləşdirmə, bunu istəyirəm.

– Axı onun qüsuru var, qulağı cırıqdır.

– Səhvin var, normal qulaqdır, özün bax.

– Axı bu mümkün deyil, ola bilməz.

– Mən Tanrıyam, mənim üçün mümkünsüz şey yoxdur.

– Axı bu, mənim qoyunumdur.

– Sən yenə səhv edirsən: məndən quzu almısan, indi qoyunla ödə bahasını.

– Qoy Sən deyən kimi olsun: onsuz da, bütün dünya Sənindir, mən də Sənin qulunam.

– Onda hərəkət elə, yoxsa ittifaqımız həqiqi olmaz.

– Lakin, Tanrım, Sən axı görürsən, mən lütəm, yanımda nə bıçağım var, nə qəmən və... – bu sözləri deyəndə İsa hələ də qoyunun həyatını xilas edə biləcəyinə ümidli idi, lakin Tanrı cavab verdi:

– Mən Tanrı olmazdım, əgər sənə kömək edə bilməsəydim, al.

Heç sözünü axıra çatdırmamış İsanın düz ayağının yanında enli, uzun tiyəli təzə bıçaq peyda oldu.

– Tez ol, tərpən, tərpən görüm, mənim hələ işlərim var, dünya durduqca burda sənin lə avara ola bilmərəm – İlahi dedi.

İsa yerdən bıçağı götürüb qoyuna sarı addım atdı, o isə tərəddüd içində başını qaldırıb oğlana baxdı, deyəsən, tanıya bilmirdi. Çünki, əvvəllər heç vaxt onu lüt görməmişdi və məlum olduğu kimi, qoyunların iybilmə qabiliyyəti də elə yaxşı inkişaf eləməyib.

– Ağlayırsan? – Tanrı soruşdu.

– Yox, mənim gözlərim elə həmişə belədir, – İsa cavab verdi.

Bıçağın tiyəsi sürətlə yuxarı qalxdı, lazım olan bucaq altında dönüb iti hərəkətlə çəkic kimi, hələ kəşf olunmamış gilyotinin bıçağı kimi aşağı endi. Qoyun heç cınqırını da çıxarmadı, bircə səs eşidildi: "A-a-ah". Bu, Tanrının səsiydi, sinədolusu nəfəsini razı halda çölə buraxdı.

– İndi mən gedə bilərəm? – İsa soruşdu.

– Get, amma yadda saxla, bu gündən etibarən sən mənə məxsussan, ittifaqımızı qanla möhkəmlətdin.

– Bəs sənin yanından necə getmək lazımdır?

– Mənim üçün, əslində, fərqi yoxdur, dalını da çevirib gedə bilərsən, amma belə qəbul olunub ki, dal-dala getməlisən, baş əyə-əyə.

– Tanrım...

– Sən nə qəmiş şeysən, yenə nə istəyirsən?

– Bəs Çoban?

– Hansı çoban?

– Mənimlə sürünü otaran Çoban.

– Hə, sözünü de...

– O mələkdir, yoxsa iblis?



– Hə-ə, onu deyirsən, tanıyıram.

– Kimdir o? Söylə mənə.

– Mən artıq dedim də sənə, Tanrı üçün nə dal var, nə qabaq, yaxşı yol, tərpən.

Elə bunu demişdi ki, tüstü sütunu seyrəlib dağıldı, yerdə hələ bəlli olan qan isə tüstüyə qarışıb yox olmağa tələsdi.

İsa qayıdanda Çoban onu diqqətli nəzərləriylə süzüb soruşdu:

– Qoyun hanı?

– Mən Tanrı ilə rastlaşdım.

– Mən səndən soruşmuram ki, Tanrıyla rastlaşdın, yoxsa yox, qoyunu tapdın?

– Onu qurban verdim.

– Niyə?

– Tanrı ordaydı, belə lazım oldu.

Çoban çomağının ucuyla torpağın üstündə bir şırım açdı – şum zolağı kimi dərin, alovdan divar kimi keçilməz – və dedi:

– Sən heç bir şey öyrənmədin, get.

* * *

İsa uzaqlaşan Çobanın dalınca baxaraq fikirləşirdi ki, ayaqları yaman gündədir, necə gedəcək. Qoyunun yoxa çıxmasını belə, bacarıqla həyata keçirən Tanrı oğlanı özünün ilahi tüpürcəyinin nemətilə mükafatlandırmadı və buluddan tüpürcək yağdırmadı ki, İsa hələ də axan qanı daşların üstündə parıldayan yaralarına məlhəm edib sağalda. Çobandan da yardım gözləməyə dəyməzdi – o, qınaq dolu sözlərini oğlanın üzünə çırpıb getmişdi. Hökmün mütləq icra ediləcəyinə heç bir şübhəsi qalmayan və kiminsə yola hazırlaşmağına tamaşa etmək, xüsusilə də vidalaşmaq fikrində olmayan birisi kimi getmişdi. İsa son düşərgələrinin yerinə dizi üstə imək-ləyə-imək-ləyə çatdı, burada addımbaşı heyvan səltənətinin əlamətləri görünürdü – sərniclər və başqa çoban ləvazimatı

hər tərəfə səpələnmişdi, hələ təmizlənməmiş, aşılanmamış qoyun, keçi dəriləri qalaq-qalaq idi, Çobanla o əgər istəsəydilər, onları dəyişməklə yaşamaları üçün lazım olan hər şeyi – plaş, yorğan, xiton, yeməyə nə istəsən ala bilərdilər. İsa fikirləşdi ki, keçmiş qoyun-keçiləri ondan qətiyyən inciməzlər, əgər özü özünə zəhməti müqabilində bir məvacib ödəsə. İstəyirdi ayaqlarına qoyun dərisi sarıyıb üstündən də keçi dərisindən kəsdiyi zolaqlarla möhkəm bağlasın, ayaqqabı kimi bir şey düzəltsin. Keçinin tükü seyrək olur deyə, onunla işləmək asandır. Bu yerdə düşündü, görəsən, necə yaxşı olar, tükünü içəri tərəfə salsa, yoxsa çölə? Fikirləşdi ki, ayaqları yaman gündədir, dəri ona toxunsa, möhkəm ağrıdacaq, odur ki içi tüklü çəkmə düzəltməyə üstünlük verdi.

Pis bircə orası idi ki, qoyunun tükləri açıq yaralarına elə o dəqiqə yapışdı, amma İordan sahilləriylə getməyə qərarlı idi deyə, düşündü ki, ağrıya dözə bilməyəndə ayaqlarını elə çəkmələrində suya sallayar. Düzəltdiyi bu şeylər, onsuz da, öz-özlüyündə kifayət qədər ağır idilər, suda islanandan sonra isə lap zindan olacaqdılar. Yapışmış tükləri yaradan öz ağırlıqlarıyla çəkib qoparacaqdılar, həm də dabanlarının bərkimiş qaysaqları da yumşalardı. Ayaqqabılarından başlanıb suyla axan qan izinin rəngi ona dəlalət edirdi ki, nə qədər qəribə olsa da, yaraları hələ irinləməmişdi. İsa şimala sarı çox yavaş sürətlə irəliləyirdi, çünki tez-tez özünə dincəlmək üçün yer seçməli olur, sahildə oturub ayaqlarını suya salayır, onun sərinliyindən və yaralarına məlhəm olmasından ləzzət alırdı.

Amma ağrıyan təkcə ayaqları deyildi – qəlbi də incidirdi. Bu nə demək idi, o, Tanrı ilə görüşəndən sonra Çoban onu yanından qovmuşdu. Bu, necə ola bilərdi axı? Bu, sözün əsl mənasında misilsiz bir görüş idi. Ona məlum olduğu qədərincə, bütün İsraildə Tanrını görmək nəsibi olan, sağ qalıb bununla qürrələnə bilən bircə nəfər də yox idi. "Görmək" deyəndə, bu, bir az düz çıxmır. Özünüz düşünün, əgər səhrada

[1] *Tirada* – dramda qısa və təsirli monoloq

bizim gözümüzə tüstüyə, ya da buluda bənzəyən bir şey görünür və deyirsə ki, "mən Tanrıyam", sonra da sənin lə söhbət eləyir, özü də nəinki məntiqi ardıcıllıqla, həm də çox aydın, ilahi mükəmməlliklə, heç bir etiraz və mübahisəyə yol verməyən amiranə ahənglə danışır ki, həmsöhbətimizin göylərdən gəldiyinə ən kiçik şübhə belə kafirliklə tən tutulmalıdır. Tanrıdan savayı kim Çoban barədə suala eyni zamanda həm saymazyana, həm də hər şeyə vaqif olan tərzdə cavab verib nümayiş etdirərdi ki, ona bir az nifrət eləsə də, tanıyır, özü də yaxşı – demək olar ki, lap yaxından tanıyır. Bunu sonuncu suala – onun mələk, yoxsa iblis olduğu barədə suala cavab verməməklə hətta çox gözəl tanıdığını başqa kim isbat edə bilərdi? Hamısından maraqlısı bu idi ki, Çoban özü də məsələyə zahirən heç əlaqəsi olmayan, çox quru tərzdə dediyi sözlərlə bu qeyri-adi görüşün həqiqətinə şübhə etməyini təsdiqləmişdi. "Mən səndən soruşmuram, Tanrını gördünmü", – donquldanıb bu görüşə kiçicik bir maraq da göstərmədi, sanki, onun baş verəcəyini qabaqcadan bilirdi. Ən əsası da Çoban İsaya qoyunun ölümünü bağışlamadı – onun son sözlərini başqa nəylə izah etmək olardı? "Sən heç bir şey öyrənmədin, get!" – deyərək, bizim indiki dilimizlə söyləsək, nümayişkaranə bir şəkildə ayağa qalxıb sürünün yanına keçdi və İsa gedənə kimi üzünü onun tərəfə heç çevirmədi də. İndi isə İsanın təxəyyülünə zor edərək Tanrının növbəti görüşdə ondan nə istəyəcəyini əbəs yerə təxmin etməyə çalışdığı bir vaxtda Çobanın "Sən heç bir şey öyrənmədin, get" sözləri onun qulaqlarında olduqca səlis və aydın səslənirdi, sanki, hələ də onunla yanaşı durmuşdu. Həmin an tənhalığın, ayrılığın və itkinin sıxıntısı onun bütün vücudunu elə çulğadı ki, lap ürəyi sancdı. O, İordanın sahilində oturub ayaqlarını suya sallamışdı və şəffaf suyun səthində yarılmış dabanından axan qanın necə yayıldığına tamaşa edirdi. Birdən hiss etdi ki, nə bu qan, nə özünün şəxsi ayaqları artıq onunku deyil. Onu buraya sürüyə-sürüyə atası

gətirmişdi ki, İordanın suyuyla dağılmış topuqlarını sərinlətsin və elə Çoban kimi ona desin: "Hər şeyi başdan başla, heç nə öyrənməmisən". İsa, sanki, ağır və uzun zənciri halqa-halqa sahilə çəkirmiş kimi bütün həyatını xatırlamağa başladı – həm anasının uşağa qalması barədə mübhəm xəbəri, həm işıqlanan torpağı, həm mağarada doğulmasını, həm vıfliyemli körpələrin və çarmıxa çəkilmiş atasının həlak olmasını, həm irsən keçən dəhşətli yuxuları, həm evdən qaçmasını, həm Məbəddəki mübahisəni, həm Salomeyanın şahidliyini, həm mağarada özünü Çoban adlandıran şəxsin peyda olmasını, həm çoban həyatını, həm də xilas etdiyi quzunu, sonra da səhranı, ölü qoyunu, Tanrını. Bu zəncirdə sonuncu halqa artıqlıq elədi – İsa daha onun barəsində düşünə bilmədi və fikirləri tamam başqa səmtə yönəldi: "Niyə quzu ölümdən qurtula bildi, amma qoyun yox?" Sarsaq sualdır, deyilmi, lakin daha yaxşı dərk etməyə can atsaq, elə həmin sözü başqa cür deyərik: "Əbədilik qurtulmaq olmur, bir dəfə məhkum olan isə elə əbədi məhkumdur". Budur, nəhayət, zəncirin sonuncu halqasını da sahilə çəkdi – qamışlıqda görünməyən qadının oxuduğu cansıxıcı mahnı ilə bir yerdə çəkdi. O qadın, görəsən, orada neynirdi, paltar yuyurdu, yoxsa çimirdi? İsa anlamaq istəyirdi ki, bütün bunlar, əslində, eyni şeydir: ölü qoyuna çevrilmiş diri quzu, atasının qanına bulaşmış ayaqları və indi bu mahnını oxuyan qadın. Yüngül mehdən üsulluca ləpələnən suya sərilib, dolu, möhkəm döşlərini göyə tuşlayıb, qarnının aşağısında isə tüklü üçbucaq qaralır – yox, İsaya hələ ömrü boyu belə bir şey görmək qismət olmayıb, lakin sirli tüstü sütunundan indicə ayrılmış birisi, təbii ki, elə o dəqiqədən etibarən "Tanrı ilə gələn görüşündə nə etsin" sualının üzərində baş çatlatmağa başlayır. Ola bilərmi, indi o dərk etməsin ki, bu gözəlliklər – hə, deyəsən, bu kəlmə indi yerinə düşür – yəni həmin qadının nəməhrəm gözəllikləri nə təxəyyüldə canlandırıla bilər, nə də ki oxuduğu mahnıyla təlqin olunar, xüsusilə də əgər onun sözlərinin



kimə ünvanlandığı bizə qətiyyən məlum deyilsə. İosif isə artıq burada deyildi, o, Sepforis yaxınlığındakı qardaşlıq məzarına qayıtmışdı. Çobanın da, heç olmasa, çomağının ucu görünəydi... O ki qaldı Tanrıya, əgər, həqiqətən, laməkandırsa, indi öz qulunun görüşünə tüstü, bulud sütunu kimi yox, aram-aram axan su şəklində gəlmişdi – həmin o qadının bədənini yuyan su kimi. İsanın vücudu artıq özünü büruzə verir və ayaqlarının arasında bütün erkəklərdə, həm insan, həm heyvanlarda olan bir şey baş qaldırırdı: cismi şişir, qalxır, qan bədənin hər yerindən ora elə sürətlə axırdı ki, artıq yaralardan, çapıqlardan süzülüb axmağa heç nə qalmırdı.

"Ya Rəbbim, nə bərkdir bu?" Lakin İsa o qadını axtarmağa getmədi və cismani nəfsin sərt əllərini özündən kənara itələdi. O nəfsin ki, qulaqlarına bu sözləri pıçıldayırdı: "Əgər özün özünü sevmirsənsə, heç kimsən və əgər öz bədənini dərk etməmisənsə, Tanrını da dərk edə bilməzsən". Kim idi bunları pıçıldayan – bilinmirdi, amma yüz faiz Tanrı deyildi. Bu daşlar onun təsbehindən ola bilməzdi. Çoban buradan çox uzaq olmasaydı, bunu deyə bilərdi. Bu sözlər ona yaraşardı, lakin, bəlkə də, qamışlıqdakı qadın idi, mahnısında oxuyurdu onları. İsa fikirləşdi ki, əgər qadından xahiş etsəydi ki, həmin sözlərin mənasını aydınlaşdırsın, çox gözəl olardı, amma səs birdən kəsildi – ya çayın axarı aparmışdı o qadını, ya da, sadəcə, sahilə çıxmışdı ki, bədənini qurudub paltarının altında gizlətsin. Daha doğrusu, bədənini susdursun, onu susmağa məcbur eləsin. İsa isə ayaqlarını sudan şişmiş çəkmələrinin içinə dürtüşdürdü, dörd tərəfinə fırçıltıyla su sıçradı – elə bil, süngərdən idi. Hə, həmin qadın əgər bu səmtə gəlsəydi, yəqin, ayaqlarındakı eybəcər ayaqqabılarını görən kimi möhkəm gülərdi. Amma bizə elə gəlir ki, bu gülüşü tez də bitərdi, çünki baxışları ayaqlarından yuxarı sürüşəndə xitonun altında mütənasib və qamətli bədəni duyardı, sonra isə bir az da qalxardı – düz gözü gözünə dirənənə kimi... Daim kədərli, indi isə yeni həyəcandan dumanlanmış gözlərinə baxardı.

Qadın heç nə, ya da demək olar ki, heç nə demədən öz çılpaqlığını yenidən göstərərdi, onda da belə vəziyyətlərdə tamamilə gözlənilən bir şey baş verərdi. Onun eybəcər dəri ayaqqabılarını ehtiyatla çıxarıb yaralarını öpüşləriylə sağaldardı, sonra da hər pəncəsini əlində yumurta varmış kimi incə hərəkətlə, təbərrük təki hələ nəm saçlarına bükərdi.

Yol boş idi. Ətrafına göz gəzdirən İsa, köksünü ötürərək xəlvət bir guşə tapdı, lakin birdən yerində donub qaldı – İlahinin öz toxumlarını onlar üçün nəzərdə tutulmuş yerdən kənara tökən Onanı necə cəzalandırdığını çox vaxtında xatırladı. Təbii ki, İsa bu klassik epizod üzərində yenidən düşünsəydi və onu hərtərəfli araşdırsaydı, Tanrının güzəşt bilməyən sərtliyi qarşısını kəsə bilməzdi. Çünki Onanın İlahinin sözündən çıxması üçün iki səbəbi vardı. Əvvəla, Qanuna uyğun olaraq, ölmüş qardaşının nəslini davam etdirməli olan qadın yanında deyildi. İkinci səbəb isə bundan da əsaslı idi – Tanrı onun yanına gələrək demişdi ki, gələcəkdə onun barəsində bəzi planları var. Amma bu planların nədən ibarət olduğunu heç açıqlamamışdı. Onun xırda bir şeyə görə – toxunmaq qadağan olan yerə dəyməyə cəsarət eləmiş avara bir əlin ucbatından bütün vədlərini unudub hər şeyi vurub dağıtması heç ağlasığan görünmür, çünki Tanrı bilir ki, hər aclığı yeməklə, içməklə sakitləşdirə bilməzsən. Tamam başqa, aclıq hissindən heç də zəif olmayan bir istək də var və insan zəifliyinə rəvac verən bu və bu kimi başqa mülahizələr indi İsanı günahın məhvedici yoluna, daha sadə dillə desək, xəlvət guşəyə gətirmək əvəzinə, əks təsir göstərdi. Yəni apardı, ilkin fikrindən daşındırdı. O ki qaldı istəyin özünə, onun bəlli günah yükü daşıması da oğlanın vücudunu soyutdu, içinə müəyyən tərəddüdlər saldı. Beləliklə, İsa özünün əməlisalehliyiylə barışdı, dağarcığını çiyninə atıb çomağından bərk yapışdı və yola düzəldi.

İordan vadisi boyunca getdiyi yolun ilk günü bu dörd illik həyatında vərdiş etdiyi sayaq, adam çox olan yerlərdən

yayınmaqla keçdi – odur ki ara-sıra tuş gəldiyi kəndlərdən də yan ötürdü. Lakin Genisaret gölünə yaxınlaşdıqca bunu etmək daha çətin olurdu. Əvvəla, ona görə ki, kəndlər əkin sahələriylə, tarlalarla əhatə olunmuşdular – gəl onların başına dolan görüm, necə dolanırsan. İkincisi isə şübhəli görkəmi olan bir sərsərinin insanlardan aşkar qaçması kəndlilərin ağlına pis fikirlər gətirə bilərdi. İsa işıqlı dünyaya çıxmaq qərarına gəldi və dünya da onun ümidlərini boşa çıxarmadı. Hərçənd ki çobanlıq həyatı dövründə yadırğadığı səs-küyüylə, az qaldı, qulaqlarını batıra. Qədəm basdığı ilk kənddə tuş gəldiyi bir dəstə uşaq ayaqlarındakı eybəcər şeyləri görəndə onu fitə basıb elə bir səs-küy qopardılar ki, İsanın ağlına elə ilk fürsətdə mütləq əsl səndəl almaq fikri gəldi. Unutmayaq ki, bunun üçün onun pulu da vardı, axı dörd il elə yerlərdə yaşamışdı ki, oralarda pul xərcləməyə nə zəruriyyət vardı, nə imkan. Odur ki fariseyin verdiyi pullara heç əlini də vurmadığından, indi bütöv sərvət sahibi idi, bundan artıq heç nə arzulaya bilməzdi. Səndəlləri alandan sonra onun sərvəti kiçik dəyərli iki sikkəyə kimi azaldı, amma bundan qəti pərişan olmadı. Heç aclığı da onu narahat etmirdi, çünki Nazaretə – həmişəlik getdiyini güman etdiyi, amma nə zamansa qayıdacağına söz verdiyi, "Mən qayıdacağam, hər necə olsa, qayıdacağam" deyib tərk etdiyi doğma evlərinə çatmasına artıq çox qalmamışdı. O burula-burala axan çayın sahilləriylə tələsmədən gedirdi. Ayaqları hələ uzun yolçuluğa imkan verən həddə sağalmamışdı, lakin ləngiməsinin başlıca səbəbi isə, görünür, evlərinin həmişəki yerində – yaxında olmasıydı. O, belə hesab edirdi ki, artıq evlərinə çatıb. Amma bununla yanaşı, qəlbini qaranlıq bir nigarançılıq da narahat edirdi: "Evə nə qədər tez gəlsəm, bir o qədər də tez getməliyəm".

O, İordanın sahiliylə şimala sarı irəliləyir və artıq Nazaret şəhərinin bərabərinə yetişirdi. İndi azacıq qərbə tərəf burulmaq lazım idi ki, düz evlərinə çatsın. Lakin gölün geniş, sakit göy suları onu qəflətən ləngitdi. İçindəki istəyinə tabe

olaraq sahildə oturub balıqçılara göz qoymağa başladı. Bir zamanlar, hələ lap uşaq ikən o, valideynləriylə bu yerlərə gəlmişdi, lakin nədənsə suyun dibindən çıxıblarmış kimi balıq iyi verən bu insanların əməyinə o vaxtlar heç fikir verməmişdi də. İndi isə onlara özü bacardığı kimi kömək etmək istəyirdi – özünün isə, əslində, bacardığı bir şey yox idi. Bəlkə, qayığı çəkib sahilə çıxarmağa, ya da əksinə, itələyib suya salmağa, başqalarıyla birlikdə torun bir ucundan yapışıb çəkməyə köməyi dəydi, balıqçılar da ac sifətini görəndə ona iki-üç sümüklü balıq verirdilər. Əvvəllər payını, utandığından qıpqırmızı olaraq, kənara çəkilib orada yeyirdi, ikinci gün isə – orada cəmi üç gün qalmışdı – balıqçılar onu öz tonqallarının kənarına dəvət elədilər. Sonuncu gün də o, balıqçıların – Simon və Andrey adlı iki qardaşın qayığında Genisaret gölünün dəniz adlandırdıqları gen sinəsinə çıxdı – onlar İsadan böyük idilər, hər ikisinin yaşı artıq otuzu keçmişdi.

Balıq tutanda özünün yeni dostları tərəfindən həvəsləndirilən, öz bacarıqsızlığına hamıdan əvvəl özü gülən naşı İsa toru atarkən onu başının üstündə elə bərk hərləyirdi ki, sahildən baxanda elə bilərdin, tor deyil, tamam başqa şey atır. Bir neçə dəfə də böyük toru suya atmağa cəhd göstərdi, amma bu cəhdlərin hamısı uğursuz nəticələndi, hələ üstəlik bir dəfə özü də, az qalmışdı, qayıqdan yıxıla. Balıqçılar qəhqəhə çəkib gülürdülər, çünki artıq onlara bəlliydi ki, bu oğlanın qoyun-keçidən başqa heç nədən başı çıxmır. Simon deyirdi: "Əgər balıqları da qoyun-keçi kimi otarmaq mümkün olsaydı, ay qiyamət olardı ha, elədir?" Onun bu sözlərinə İsa belə cavab verdi: "Balıq, heç olmasa, sürüdən azmır, onun dalınca dərə-təpəni gəzmirsən, neçəsi varsa, hamısı buradadır – dənizin içində. Hər gün balıqçı torlarından qaçır və hər gün də həmin torlara düşürlər". Həmin gün ov seyrək idi – qayığın dibini ancaq örtürdü. Andrey dedi: "Qardaş, çevir sahilə, bu gün dəniz bizə nə bacarırdısa, artıq verdi". Simon da razılaşdı: "Düzdür, qardaş, gedək evə". Artıq avarları



yığıb sol avarı tərsinə çəkmək istəyərkən İsa təklif elədi ki – şəxsən biz buna inanmağa meyilli deyilik ki, bu ideya təhtəlşüur çağırışdan, yaxud fövqəlbəşər bir qüvvənin təhrikindən doğurdu, sadəcə, daha çox, özünün də dərk etmədiyi minnətdarlıq hissindən qaynaqlanırdı – toru daha üç dəfə atsınlar: "Bəlkə, balıqların çobanı indi bizi düz sürünün üstünə çıxarıb?" – Simon gülərək, – "Çömçə balıqlarına baxanda qoyunların daha bir üstünlüyü də budur – onlar uzaqdan görünür", – dedi, amma yenə də üzünü Andreyə tutub dilləndi: "Yaxşı, at, nə itiririk ki, onsuz da, tutduğumuzu tutmuşuq".

Andrey böyük toru atdı, tor ağzına kimi balıqla doldu. Tor ikincü, üçüncü dəfə də dolu dönəndə qardaşlar gözlərini bərəldib heyranlıq və çaşqınlığa keçən bir təəccüblə İsaya baxırdılar. Bir az əvvəl cansız görünən sulardan indi günün altında parlayan qəlsəmə, bel, üzgəc seli geniş çay kimi axmağa başlamışdı. Elə axırdı ki, balıqçıların gözləri alacalandı. Onda Simonla Andrey soruşdu: "Sən sürünün məhz indi yaxınlaşdığını hardan bildin, yoxsa gözlərin suyun dərinliklərini də, dibdəki hərəkətləri də görür?" Lakin İsa cavab verdi ki, heç bir şey bilmirdi və fövqəladə görmək qabiliyyəti də yoxdur. Sadəcə olaraq, ağlına gəlmişdi ki, evə dönməmişdən qabaq niyə bir də yoxlamasınlar, niyə bəxtlərini bir daha sınamasınlar? Qardaşlar onun sözlərinin həqiqətinə şübhəylə yanaşmadılar – təsadüf, məlum olduğu kimi, hərdən bundan da böyük möcüzələr göstərir, lakin İsa içində bir əsmə, öz-özündən soruşurdu: "Bunu kim elədi?" Simon dedi: "İndi İlahi imkan versin, tutduğumuzu saf-çürük eləyək". Biz də bu fürsətdən istifadə edib xəbər vermək istəyirik ki, ümumiləşdirici, bərabərləşdirici "Balıq olmayan yerdə, xərçəng də balıqdır" ifadəsi dəqiq Genisaret sahillərində yaranmayıb. Çünki Qanun elə bu məsələdə də bütün başqa məqamlar kimi qeyri-dəqiq, ikibaşlı bir şey qoymur, aydın deyir: "Suda olan bütün heyvanlardan bunları yeyin – pulcuğu və lələləri olan su heyvanlarını, istər dənizdə yaşasın, istər çayda – onları

yeyin. Amma bütün lələksiz və pulcuqsuzlar, istər dənizdə olsun, istər çayda üzsün, sizin üçün murdardır. Onlar sizin üçün haram olmalıdır, ətlərini yeməyin və cəsədlərindən iyrənin. Havada lələyi və suda pulcuğu olmayan canlılar murdardır".

Seçilmiş xalq tərəfindən yeyilməyə layiq olmayan sonunculara indi də həmişəki kimi davrandılar – onları təzədən suya atdılar və çoxlarını da gölə qaytardıqları ilk dəfə deyildi. Balıqların bəziləri artıq buna öyrəncəliydilər, balıqçı toruna düşəndə bunu özlərinə elə də dərd etmirdilər. Çünki bilirdilər ki, boğulmağa macalları olmayacaq, onları doğma sulara qaytaracaqlar. Bəlkə də, özlərinin balıq beyinləriylə düşünürdülər ki, Xaliq onlara məhəbbət də olmasa, xeyirxah münasibət bəsləyir. Elə bu səbəbdən də özlərini qayıqların, barkasların dibində qalaqlanan, Tanrının qarşısında neçə-neçə və növbənöv günah işlədərək onun tərəfindən heç təəssüf hissi keçirmədən suların dibsiz qaranlıqlarında acı ölümə məhkum olunmuş balıqlardan çox-çox yüksəkdə duran, məxsusi xəlq olunan məxluqlar sayırdılar.

Nəhayət ki, onlar sahilə yan alanda – bu dəfə qayıdış balıqçılardan min bir ehtiyat və bütün bacarıqlarını tələb edirdi, çünki həddən-ziyadə yüklənmiş qayığın kənarları gölün suyuyla ləbələb idi və hər dəqiqə çevrilə bilərdilər – sahildəki adamlar təəccüblərindən özlərinə gələ bilmir, görünməmiş müvəffəqiyyətin səbəbiylə maraqlanırdılar. O səbəbdən ki, digər balıqçılar əliboş dönmüşdülər. Amma bu üç nəfərdən heç biri, sanki, dinməz bir razılaşma əsasında, bu misilsiz ovun təfərrüatı haqqında danışmadı. Hər birinin də bunun üçün öz səbəbi vardı: Simon və Andrey yoldaşları qarşısında öz bacarıq və təcrübələrini əhəmiyyətsiz həddə endirmək fikrində deyildilər; İsa isə istəmirdi ki, o biri balıqçı artelləri onu özləriylə ova apararaq tələ yemi kimi bir-birinə ötürsünlər. Bizim anlayışımıza görə, bu, ədalətli addım olardı, çünki insanlar ögey-doğmaya bölünməz və aralarındakı qarşıdurma bilmərrə bitərdi – dünyada bu cür ziddiyyətlərdən o qədər



bəla doğur ki. Bu səbəbdən də İsa həmin axşam elan elədi ki, dan yeri söküləndə dörd il sürən, sözün əsl mənasında dəhşətli və ağır keçdiyindən "zəhrimar" adlandırılmağa layiq olan dərbədərlikdən bəri görmədiyi ailəsiylə görüşmək üçün Nazaretə gedir. Onun bu sözlərinə Simonla Andrey çox kədərləndilər, axı Genisaret sularının öz tarixindən bəri tanıdığı ən əla balıq çobanını itirirdilər, amma onun getməsinə başqa iki balıqçı da təəssüflənirdi: İakov və İoann – Zavedeyin oğlanları. Onlar o qədər sadəlövh idilər ki, zarafatla "Zavedeyin oğlanlarının atası kimdir?" soruşsaydın, çaşıb özlərini itirirdilər, halbuki Zavedeyin oğulları olduqlarından sualın cavabını təbii ki, bilirdilər və bu cavabı bir anda yox, azı, bir dəqiqə sonra axtarıb tapırdılar. Özü də üzücü sükutdan sonra. Onlar İsanın getməsinə yalnız ona görə təəssüflənmirdilər ki, qalaq-qalaq balıq tutmaq imkanını itirirlər, yox. Hər ikisi çox cavan idi – İoannın yaşı hətta İsadan da az idi. Onlar ümid edirdilər ki, üçü birləşsə, yaşlı nəslin qabağına qoz qoyardılar. Sadəlövhlükləri isə kütbeyinlikdən və anadangəlmə keylikdən qaynaqlanmırdı, sadəcə olaraq, həyatlarını, tamam başqa şeylər üzərində möhkəm düşünərək keçirirdilər və Zavedeyin oğlanlarının atasının kim olduğu o dəqiqə ağıllarına gəlmirdi. Heç cür başa düşmürdülər ki, niyə onlar, nəhayət, təntənəli bir görkəm alıb suala "Zavedey" cavabı verəndə belə qəhqəhələr qopur.

İndi isə İoann özündə cəsarət tapdı ki, İsaya yaxınlaşıb desin: "Bizimlə qal, qayığımız Simonla Andreyinkindən böyükdür, onlardan da çox balıq tutarıq". Həm xeyli müdrik olan, həm də oğlanların halına acıyan İsa isə cavab verdi: "Tanrı hər şeyi insanların arşını ilə deyil, tamam başqa arşınla – öz ədalətinin arşınıyla qiymətləndirir". İoann başını aşağı salıb çəkildi və həmin axşam daha heç kəs İsanı saxlamağa cəhd göstərmədi. Səhər tezdən isə o, özünün on səkkiz ildə tapdığı ilk dostlarıyla vidalaşdı, yol üçün yeməklə təmin edilərək Tanrının ona ilk nişanəsini göstərdiyi Genisaret

dənizindən uzaqlaşdı – təbii ki, əgər bu barədə yanılmırdısa – və ayaqqabılarının burnunu dağlara sarı, yoxuşa yönəltdi. Nazaret yolu dağlıq idi. Maqdala şəhərindən keçəndə ayağını, az qala, sümüyünə kimi parçaladı, qanı kəsmək bilmirdi. Tale elə düzüb-qoşmuşdu ki, bu hadisə düz şəhərin kənarında baş vermişdi. Başqalarından aralı durmuş – sanki, ya özü yaxınlaşmaq istəmirdi, ya da onlar uzaqlaşmaq istəyirdilər – bir evin qabağında. İsa görəndə ki, qanı kəsmək bilmir, elə hey axır, qışqırdı:

– Ey, kim var burda?

Elə o dəqiqə də darvazanın arxasında, bunu gözləyirmiş kimi, bir qadın peyda oldu və üzündən keçən yüngül təəccüb kölgəsindən bəlliydi ki, evinə qapı döymədən, onu səsləmədən gələnlərə çoxdan adətkərdədir. Əgər yaxşı fikirləşsək, görərik ki, onun adətkərdəliyinin bütün qalan vəziyyətlərdən fərqli olaraq, konkret bu vəziyyətə, heç bir dəxli yoxdur, çünki bu qadın, o vaxtın diliylə desək, fahişə sayılırdı və öz peşəsinin qanunlarına ciddi riayət edirdi. Bu qanunlar isə qonağı içəri salandan sonra dalınca qapını bağlamağı vacib bilirdi. Torpağın üstündə oturub qanı axan yarasını sıxan İsa yaxınlaşan qadına ötəri nəzər saldı və dedi:

– Mənə kömək edərsən?

O, qadının uzatdığı əlindən tutub birtəhər dura və darvazaya kimi taytıya bildi.

– Sən bu vəziyyətdə gedə bilməzsən, – qadın dedi, – gir evə, yaranı sarımaq lazımdır.

İsa nə "hə" dedi, nə də ki "yox" – bu qadından elə qoxu gəlirdi ki, oğlan fikirləşmək qabiliyyətini də itirmişdi. Hətta açıq yarasının ağrısını belə unutdu. Əlini qadının çiyninə qoyarkən belində özünün yox, başqa birisinin əlini hiss etdi və bədənini qəribə bir tufan bütün istiqamətlərdə silkələdi. Hərçənd ki "istiqamət" yox, "duyğular" desək, daha yerinə düşərdi, çünki məhz bu duyğularda, ya da onlardan birində eyni adı daşıyan, amma görmə, eşitmə, iybilmə, duyma,

hissetmə duyğularına qətiyyən dəxli olmayan, onların hər birindən kiçik bir parça alaraq özündə cəmləşdirən bir duyğu tüğyan edirdi. Bunun üçün Tanrıya çox şükürlər olsun. Qadın isə bu zaman ərzində onu kiçik həyətə saldı, alaqapını bağladı və dedi:

– Otur, mən bu dəqiqə gəlirəm, – özü isə evə girib tez də qayıtdı – əlində gil dolça və bəyaz parça vardı. Onu suda isladıb İsanın qarşısında dizləri üstə oturaraq bir əliylə yaralı ayağını tutdu. Yarasını ehtiyatla təmizlədi, torpağını yudu, çatlarından qanla bir yerdə murdar görünüşlü, iyrənc sarı irin axan qaysağını yumşaltdı. Qadın dedi:

– Burda tək su kömək eləməz.

– Sən onu möhkəm sarı, – İsa dilləndi, – bircə özümü Nazaretə yetirim... Orda isə... – orda anam məni sağaldar, – demək istəyirdi, amma demədi, çünki bu qadının gözündə, bir yeri əzilən kimi gözlərindən yaş tökə-tökə ona yazığı gəlmələrini, yaralı barmağını anasının "Ağlama, ağlama, mənim körpəm, toyuna kimi unudarsan" deyə-deyə üfürməsini istəyən, bir şey olantək "Ay a-a-na!" çığıran oğlana oxşamaq istəmirdi.

– Nazaretə hələ bir xeyli yolun var, amma özün bilərsən, qoy bircə məlhəm sürtüm – deyən qadın yenə də evə girdi, bu dəfə orada bir az ləngidi. İsa isə bu vaxt ərzində ətrafına göz gəzdirdi. Həyətin təmizliyinə, səliqə-səhmanına təəccübləndi. O, təxmin eləyirdi ki, evin sahibəsi bədənini satmaqla məşğuldur – ona görə yox ki, insanı görən kimi elə ilk baxışdan nə işlə məşğul olduğunu tapmaq gücündədir. Lap bu yaxınlarda özü qoyun-keçi iyi verirdi, deyə bilərdin ki, peşəsi çobanlıqdır, amma indi ondan balıq qoxusu gəlirdi, özü də elə gəlirdi ki, istənilən adam "Məsələ aydındır, bu oğlan balıqçıdır" deyərdi. Belə çıxırdı ki, bir pis qoxu daim başqasıyla, ondan daha pisiylə əvəz olunurdu.

Qadından isə tanımadığı rayihələr gəlirdi – söhbət İsadan gedirsə, onun günahsızlığını bisavadlıq və məlumatsızlıqla

səhv salmayaq, çünki cütləşmənin necə baş verdiyini özü də dəfələrlə görmüşdü, elə sağlam düşüncəsi də bunu anladırdı və qadın bədənindən gələn şirin, xoş rayihə onu fahişə hesab etmək üçün hələ yetərli dəlil deyildi. Bir də ki fahişələr kiminlə işləyirlərsə, onların da iyini verməlidirlər – məsələn, kişilərin. Bu, eynilə keçiotarandan keçi, balıqçıdan balıq iyi gələn kimi bir şeydir. Nə bilmək olar, bəlkə, bu peşənin nümayəndələri ona görə çoxlu ətir vururlar ki, kişilərin iyini yayındırsınlar, onu üstələsinlər, ya da, heç olmasa, zəiflətsinlər. Qadın isə elə həmin an yenidən qapıda göründü. Əlində kiçik bir qab vardı, elə gülümsünürdü ki, sanki, evdə ona nəsə maraqlı bir şey danışmışdılar. İsa gördü ki, qadın ona yaxınlaşır. Gözləri onu aldatmırdısa, o, son dərəcə yavaş gəlirdi, elə bil, bu qadını yuxusunda görürdü; onun əynindəki tunika yançaqlarının nazlı hərəkətlərini təkrarlayaraq yırğalanırdı, zəmidə küləkdən dalğalanan sünbüllər kimi uzun, qara saçları çiyinlərində oynayırdı. Şübhə yoxdur, hətta kor da anlayardı ki, bu, əsl fahişə geyimidir, rəqqasə bədənidir və belə təbəssümü yalnız yüngülxasiyyət qadınlar daşıyır. İsa çaşqınlıq içində yaddaşına yalvardı ki, özünün məşhur adaşı, Siraxovun oğlu İsanın müdrikliklərindən uyğun bir məsəl dadına çatsın. Yaddaşı da bu məqamda ona dönük çıxmadı, xatırladığı məsəli zorla eşidiləcək tərzdə qulağına pıçıldadı: "Müğənniylə çox qalma ki, sənətinin əsiri olmayasan". Daha biri: "Ruhunu gəzəyən qadınlara vermə ki, mirasını məhv etməyəsən". Əgər birincisi cavanlığına görə mümkün idisə, ikincisinin İsa üçün təhlükəsi yox idi, çünki onun maddi vəziyyəti barədə bizim də məlumatımız var. Elə o özü də təsəvvür edəndə ki qadın qiymətdə razılaşmamışdan mütləq "Sənin nə qədər pulun var?" – soruşacaq, sevindi. Odur ki hər şeyə hazır olduğundan, ayağını dizləri üstə alaraq yaraya məlhəm sürtən qadının verdiyi sual onu qəfil yaxalamadı:

– Sənin adın nədir?



– İsa, – o cavab verdi, amma daha "Nazaretdən" sözünü əlavə eləmədi. Çünki artıq haradan olduğunu, hara getdiyini bayaq söyləmişdi. Elə qadın da özünün Mariya adına "Maqdaladan" sözünü əlavə eləmədi – bu, onsuz da, aydın idi. Görün Mariyanın yaranı məlhəmlədiyi, təmiz kətanla möhkəm sarıyıb bağladığı vaxt ərzində nə qədər şeylər baş vermişdi. O, işini başa çatdırandan sonra dedi:

– Hə, qurtardı.

– Sənə necə minnətdarlıq edə bilərəm? – İsa soruşdu və həmin an gözləri ilk dəfə qadının qara, amma suyun üzündə bərq vuran rənglər kimi görünən, oğlanın cismini ən gizli guşələrinə kimi saran, qəribə şəhvani nəmliklə çulğanmış gözləriylə toqquşdu. Qadın o dəqiqə cavab vermədi, baxışlarını onun üzündə gəzdirdi, sanki, qiymətləndirirdi. Halbuki cibində bir quruş da olmadığı o dəqiqə görünürdü. Nəhayət, dilləndi:

– Məni yadında saxla, vəssalam.

– Sənin mərhəmətini ölənə kimi unutmaram, – İsa cavab verdi, sonra da özünü cəmləyib əlavə etdi, – sənin özünü də unutmaram.

– O niyə? – qadın gülümsündü.

– Çünki gözəlsən.

– Sən hələ mənim əvvəllər necə olduğumu görməmisən.

– Mən sənin indi necə olduğunu görürəm.

Qadının üzündəki təbəssüm birdən çəkildi, elə bil, yuyub apardılar:

– Sən bilirsən, mən kiməm, nəylə məşğulam, çörəkpulumu nədən çıxarıram?

– Bilirəm.

– Nədir, yoxsa adama bir dəfə nəzər salmaq sənə bəs eləyir ki, onun barəsində hər şeyi biləsən?

– Mən nə bilirəm ki, heç nə.

– Mənim özümü satdığımı da bilmirsən?

– Yox, bunu bilirəm.

– Kişilərlə pulla yatdığımı?

– Hə.

– Onda daha bilməli bir şey qalmadı.

– Mən elə bunu bilirəm.

Qadın onun yanında oturdu, əlini yüngülcə başında gəzdirdi, barmaqlarının ucuyla dodaqlarına toxundu.

– Mənə minnətdarlıq etmək istəyirsənsə, bu gün qal yanımda.

– Olmaz.

– Niyə?

– Mənim sənə verəsi pulum yoxdur.

– Guya, bilmirəm?!

– Lağa qoyma məni.

– Sən, bəlkə də, inanmayacaqsan, amma mən pul kisəsi dolu olan kişilərə daha həvəslə gülürəm. Məsələ yalnız pulda deyil.

– Daha nədədir ki?

İsa dinməzcə üzünü çevirdi. Qadın da ona kömək eləmədi, hərçənd, "Sən hələ qadınla olmamısan?" – soruşa bilərdi. Amma soruşmadı, gözləmə mövqeyi tutdu. Sükut elə dərin, elə sıx idi ki, sanki, iki qəlbin necə döyündüyünü duymaq istəyirdi – onunku güclü və gur, bununku isə əvvəlcə aramla və sakit döyünürdü. Sonra isə, sanki, onun həyəcanı qadına sirayət elədi. Qadının ürəyi getdikcə daha sürətlə və narahat döyünməyə başladı. İsa dedi:

– Sənin saçların Qalaad dağından enən keçi sürüsünü xatırladır. – Qadın dinməzcə gülümsündü. İsa dedi:

– Sənin gözlərin Vatrabbim darvazalarındakı Yesevon gölünə bənzəyir. – Qadın yenə gülümsündü və yenə dinmədi. Onda İsa üzünü ona çevirdi:

– Mən hələ qadın görməmişəm.

Mariya onun əllərini sıxdı:

– Nə vaxtsa hamı bu yolu keçməlidir: qadın görməmiş kişi də, kişi görməmiş qadın da. Qoy bunu bilən öyrətsin, bilməyən də öyrənsin.



– Sən mənə öyrədəcəksən?

– Hə. Onda yenə də mənə təşəkkür etməli olacaqsan.

– Belə getsə, sənə əbədi borclu qalaram ki.

– Mən də səni daim öyrədərəm.

Mariya qalxıb qapının cəftəsini çəkdi, amma bundan əvvəl darvazasının üstündəki payanın başından nəsə şey asdı, sanki, hamının diqqətinə yetirirdi ki, evin sahibəsi indi qonaq qəbul etməyəcək, çünki mahnı oxumaq zamanıdır: "Qalx, ey külək, şimaldan qalx, cənubdan əs, mənim bağçama əs, onun gözəl rayihəsini ətrafa dağıt. Qoy sevgilim bağçama gəlsin, onun şirin meyvələrindən yesin".

Sonra da onlar birlikdə – İsa bayaqkı kimi Mariyanın, onun yaralarını sağaldan, indi isə yatağında qəbul edəcək Maqdalalı fahişənin çiyninə söykənib – evə, təmiz otağın sərin alatoranına girdilər. Burada yataq İsanın ata evində gördüyü kimi kobud həsirin üstünə salınmış qonur mələfədən ibarət deyildi, əsl yataq idi. Təxminən, bu sözlərlə təsvir oluna biləcək yataq: "Mənim yatağım örtüklərlə bəzənib, mələfələrim misir kətanından toxunub, nard ətri və zəfəran, zanbaq və darçın, mirra və əzvay rayihələriylə ətirlənib".

Mariya Maqdalina onu ocağın yanına apardı, ətrafındakı döşəməyə daş tavalar düzülmüşdü. O, İsanın köməyindən imtina edərək onu öz əliylə soyundurdu, çimizdirdi, barmaqlarının ucuyla bədəninin burasına da, burasına da, burasına da dəyir, dodaqlarıyla oğlanın gah sinəsinə, gah belinə arxadan da, qabaqdan da toxunurdu. İsa bu yüngül toxunuşlardan əsim-əsim əsdi, qadının iti dırnaqları dərisinin üstündə gəzişəndə hər yerində, elə bil, qarışqalar yüyürüşdülər.

– Qorxma, – Mariya dilləndi və əlindən tutub onu yatağa tərəf apardı, – sən uzan, indi gəlirəm.

Pərdə çəkildi, su sırıltısı eşidildi, hər tərəfə gözəl rayihə yayıldı, Maqdalalı Mariya yatağın yanında çılpaq göründü. İsa da elə onun qoyduğu kimi, lüt uzanmışdı. Fikirləşirdi ki, onun çılpaq qoyub getdiyi bədənini örtsə inciyər, xətrinə

dəyər. Mariya ona ehtiraslı və eyni zamanda, nəvazişli nəzərlərlə baxa-baxa dayandı: "Sən qəşəngsən, amma gözəl olmaq üçün, gərək gözlərini də açasan". İsa ani tərəddüddən sonra tabe oldu, amma elə o dəqiqə də gözləri qamaşdığından bir də yumdu. Sonra yenə açdı və başa düşdü ki, çar Solomonun sözlərinin mənası, əslində, nə imiş: "Yançaqlarının girdəsi mirvari dənələridir. Qarnın – ətirli şərabı tükənməyən girdə camdır. Bətnin ətrafına zanbaqlar düzülmüş bir qucaq buğdadır. İki məmən – iki çəpiş kimidir, dağkeçisi əkizləri". Bu sözlərin mənası ona o vaxt daha aydın oldu ki, Mariya yanında uzandı, əllərindən tutub özünə sarı çəkdi, onları ehmallıca bütün bədənində gəzdirməyə başladı. Saçından alnına, alnından yanaqlarına, boynuna, boynundan çiyinlərinə, çiyinlərindən döşlərinə, tutdu onları, yüngülcə sıxdı, sonra buraxdı, sonra yenə sıxdı. Döşlərindən qarnına, göbəyinə və aşağı, ayaqları ayrılan yerə və orada da ləngidi, onun barmaqlarını dolaşdırdı və azad elədi, sonra bir də öz tüklərində dolaşdırdı, orada da yançaqlarının sərt, sanki, yonulmuş yoxuşuyla apardı. Ara vermədən, zorla eşidiləcək səslə, az qala, pıçıltıyla elə hey təkrar edirdi: "Öyrən, öyrən, mənim bədənimi öyrən". İsa onun əllərinin içində sıxılmış əllərinə baxırdı və istəyirdi ki, əllərini azad eləyib onun bədənini, hər yerini qarış-qarış öyrənsin, Amma Mariya buraxmır, onun əllərini bədənində gəzdirirdi. Yuxarıdan aşağı, sonra bir də, bir də, bir də. "Öyrən, öyrən", – pıçıldayırdı. İsa ağır-ağır, qırıq-qırıq nəfəs alırdı və bir anlıq ona elə gəldi ki, nəfəsi indicə birdəfəlik kəsiləcək. Bu, həmin an baş verdi ki, qadının əlləri – sol əli alnından, sağ əli topuqlarından – astaca bir-birinə sarı sürünərək ortadakı bir nöqtədə görüşdülər, buluşdular, birləşdilər. Amma orada bircə anlıq ləngiyib, yenə yollarına davam etdilər. "Sən heç bir şey öyrənmədin, get", – bunu Çoban demişdi və bəlkə də, onun bu sözlərinin mənası o idi ki, İsa hələ həyatı müdafiə etməyi öyrənməyib. İndi isə bunu ona Maqdalalı Mariya öyrətməyə çalışırdı, elə

hey: "Mənim bədənimi öyrən" – deyə-deyə öyrədirdi. Sonra da birdən cəmi bircə söz dəyişərək "Öz bədənini öyrən", – dedi və budur, cismi gərildi, bərkiyib üsyana qalxdı. Mariyanın sehrli çılpaqlığına üz qoydu, o isə dedi: "Sakit, hər şeyi unut, heç nə haqda düşünmə, mən özüm". Bu anda o, qəflətən duydu ki, bədəninin bir hissəsi, həmin o yandıran hissəsi qadının vücudunda gizləndi – cismini yanar halqa kimi qucub yuxarı-aşağı gəzən vücudunda. Ta ki lərzələrə gəlib qışqırıqlar içində, lap qumun üstündəki balıq kimi titrədi. Amma yox, belə demək olmaz, çünki balıqlar qışqırmır, o isə həmin an qışqırırdı. Elə bu vaxt Mariya inildəyib onun üstünə yıxıldı və qışqırtısını ac, səbirsiz ağzıyla son damlasınadək uddu. Bu öpüşdən İsanın bədənini bitmək bilməyən ikinci qıcolma öz çənginə aldı.

Bütün gün ərzində Mariyanın darvazasını döyən olmadı. Bütün günü o, Nazaretdən olan oğlana qulluq elədi, həmin oğlana ki, mövcudluğundan xəbərdar olmaya-olmaya ondan kömək istəmişdi. Yaralarının sağaldılmasını, çapıqlarının qaysaqlanmasını, əzablarının yüngülləşdirilməsini istəmişdi. O əzabların ki, (qadın bunu bilməzdi) onlar İsanın başqa görüşündə, Tanrı ilə səhradakı görüşündə doğmuşdu. Tanrı ona demişdi: "Bu gündən etibarən sən mənə məxsussan, sən ittifaqımızı qanla möhkəmlətdin". İblis isə, yəqin, saymazyana qovardı. "Sən heç bir şey öyrənmədin, get", – deyərdi.

Bərkimiş və sərtləşmiş döşlərinin arasından tər axan, dağınıq saçlarından, sanki, tüstü çıxan, gözləri qara burulğana bənzər Mariya öpüşlərdən şişgin dodaqlarıyla ona belə pıçıldayırdı:

– Sən öyrətdiklərimlə canını qurtara bilməyəcəksən məndən, səhərə kimi yanımda qalacaqsan.

İsa onun üstünə əyilib cavab verirdi:

– Sənin mənə öyrətdiklərin zindan deyil, azadlıqdır.

Onlar bir yerdə yuxuya getdilər, amma yalnız bu gecə. Səhər erkən oyandılar və onda da – bədənləri bir-birini

axtarıb tapışaraq bir-birinə yiyələnəndən sonra – Mariya İsanın yaralarına baxdı və dedi:

– Bitişir, amma hələ getmək yaxşı olmazdı, yolun tozu ziyan eləyər.

– Mən axı qala bilmərəm, sən özün dedin ki, bitişir.

– Qala bilərsən, əgər istəsən və mənim darvazam biz nə qədər istəsək, o qədər də bağlı qalacaq.

– Axı sənin həyatın...

– İndi mənim həyatım – sənsən.

– Niyə?

– Mən sənə çar Solomonun sözləriylə cavab verəcəyəm: "Sevgilim əlini yarıqdan içəri saldı və içimdəkilər lərzəyə gəldi".

– Mən necə sənin sevgilin ola bilərəm, axı məni heç tanımırsan. Əzab çəkirdim, yazığın gəldi, buraxdın içəri, ən çox da avamlığıma görə yazığın gəldi.

– Kömək etdiyim üçün, öyrətdiyim üçün sevirəm səni. Sən isə məni sevə bilməzsən, çünki mənə öyrətməli heç bir şeyin yoxdur. Heç sağalda da bilməzsən.

– Axı sən yaralı deyilsən.

– Axtarsan, yaramı taparsan.

– O nə yaradır elə?

– Mənim yaram sevgilimdən başqa hamının keçdiyi bu qapıdır.

– Sən axı dedin ki, sənin sevgilin mənəm.

– Elə ona görə səni içəri salıb qapını bağladım.

– Amma mən səni uzaqbaşı özüm öyrəndiklərimə öyrədə bilərəm.

– Heç olmasa, buna öyrət, mən də verdiyim dərsləri sənin necə mənimsədiyini öyrənim.

– Biz bir yerdə yaşaya bilmərik.

– Sən demək istəyirsən ki, pozğun qadınla yaşaya bilməzsən?

– Hə.



– Nə qədər ki sən mənimləsən, mən fahişə deyiləm, sən içəri girən andan mən fahişəliyə son qoymuşam və indi də deyiləm.

– Sən məndən həddindən artıq çox şey istəyirsən.

– Yalnız onu istəyirəm ki, mənə, bir-iki yaranın sağalması, özümün isə başqa yara almağım üçün neçə gün lazımdırsa, o qədər ayırasan.

– Mən bura on səkkiz il yol gəlmişəm.

– Bir də iki gün, amma iki günün əhəmiyyəti yoxdur. Onsuz da, çox cavansan.

– Sən də.

– Mən səndən böyüyəm, amma anandan cavanam.

– Məgər sən onu tanıyırsan?

– Yox.

– Bəs niyə danışırsan?

– Çünki mənim sənin boyda oğlum ola bilməzdi.

– Doğrudan ha, nə sarsağam mən!

– Sarsaq deyilsən, günahsızsan.

– Artıq günahsız deyiləm.

– Çünki qadın gördün?

– Yox, səninlə yatağa girməmişdən günahım vardı.

– Mənə özün barədə danış, amma sonra, indi yox, qoy sənin sol əlin başımın altında olsun, sağ əlinlə də qucaqla məni.

İsa Mariya Maqdalinanın yanında bir həftə qaldı – yarasının üstünə yeni dəri gələnə kimi düz bir həftə çəkdi. Darvaza isə elə bağlı qalmışdı. Mariyanın müştərilərindən ən hövsələsizləri qapının üstündən asılmış, onları yaxına buraxmamalı olan parçaya fikir vermədən şəhvət arzularının və dilxorçuluqlarının gücündən darvazanı döyürdülər. Onlar qadının yanında bu qədər müddət kimin ilişib qaldığını bilmək istəyirdilər və aralarındakı bir zarafatcıl hətta qışqırdı da:

– Ey, Mariya, sənin qonağın ya heç nə bacarmır, ya da heç nə anlamır, aç qapını, mən hər şeyi ona başa salım.

Mariya həyətə çıxıb ona belə cavab verdi:

– Sən hər kim olsan da, daha əlindən bir şey gəlməz və əvvəllər etdiklərini bir də eləyə bilməzsən.

– Dilinə yara çıxsın, lənətəgəlmiş fahişə!

– Çıx get, sən çaşmısan. Mən lənətə gəlməmişəm, əksinə, yer üzündə heç bir qadının eşitmədiyi xeyir-duanı almışam.

Onun bu sözlərinin təsiri oldumu, yoxsa hər şey öz-özünə baş verdi – bilinmədi, amma daha heç kim darvazaya yaxın gəlmədi, onu döymədi. Yəqin ki, Maqdalanın və uzaq ətrafının kişilərindən heç biri risk edib kişi gücsüzlüyünə düçar olmaq istəmirdi. Çünki ara-bərədə gəzən söz-söhbətə görə, fahişələr, xüsusilə də bu peşənin sirlərinə bütün incəliklərilə yiyələnmiş yüksək səviyyəli ustalar, təbiətənmi, yoxsa çoxillik təcrübələrindən kişi vücudunu yalnız sevindirməyi yox, həm də əksinə, ona qarşısıalınmaz ruh düşkünlüyü tələqin edərək başını həmişə dik tutan cismin şəstini qırmağı, başlarını aşağı dikdirməyi də bacarırlar. Hər necə olsa da, daha İsayla Mariyanı bu səkkiz gündə narahat edən olmadı və bu günlər ərzində verilən və alınan dərslər, sanki, bir-birinə qarışaraq tamlaşmışdı, hərəkətlərdən, pıçıltılardan, anlaşılmaz sözlərdən, gözlənilməz kəşflərdən, dərketmə və ixtiralardan ibarət idi. Ayrı-ayrılıqda mozaika şüşələri kimi mənasız və əhəmiyyətsiz görünən, yalnız bir yerə yığılandan sonra bütöv və gözəl mənzərəyə, mozaik pannoya çevrilən xırdalıqlardan. Maqdalalı Mariya dəfələrlə sevgilisindən özü haqda danışmasını xahiş edir, İsa isə mütləq cavabdan yayınır. Məsələn, belə bir cavab verirdi: "Mən öz bağçama gəldim, bacım, adaxlım mənim qoxumu verən mirra çiçəklərindən topladı, mənim şanılarımın balından yedi, mənim şərabımı mənim südümə qatıb içdi". Həmin poetik misraları deyib, elə həmin ilhamla da sözdən işə keçirdi. Qadın da İsaya deyirdi: "Həqiqət budur, əziz İsam, həqiqət söyləyirəm, belə söhbətlərin faydası azdır".

Amma bir dəfə dülgər atasından, toxucu anasından, səkkiz qardaş-bacısından danışmaq qərarına gəldi. Adətə



uyğun olaraq, atasının peşəsinə necə yiyələndiyindən, sonra evdən gedərək dörd il qoyun-keçi otarmasından, sonra isə evlərinə dönəndə bir neçə gününü balıqçılarla keçirməsindən, bu peşəyə yiyələnmək üçün fürsətinin az olduğundan danışmaq qərarına gəldi.

Bunları günün sonunda, həyətdə oturub şam yeyəndə danışırdı və hərdənbir başını qaldırıb baxışlarıyla cığıltılarla uçuşan qaranquşları izləyirdi. Sonra isə birdən susdu, belə güman etmək olardı ki, artıq hər şeyi danışdı. Kişi ona bütün etiraflarını etdi, amma o, görünür, tamam başqa cür düşünürdü, çünki soruşurdu: "Elə bu?" "Hə", – deyib başını tərpətdi. Ortaya mütləq bir sükut çökdü, qaranquşlar fəzada xəyali çevrələrini cızmaq üçün harasa, başqa yerə uçdular və onda İsa dilləndi:

– Mənim atamı çarmıxa çəkiblər, dörd il qabaq, Sepforisdə, adı da İosif idi.

– Sən, yəqin, onun böyük övladısan?

– Hə, böyüyü mənəm.

– Bəs onda niyə ailənizlə qalmadın, bu, böyük oğulun borcudur axı?

– Sən hər şeyi başa düşə bilməzsən və məndən daha heç nə soruşma.

– Yaxşı, ailən barədə soruşmaram, amma mənə çobanlığından danış, onda nə edirdin, necə yaşayırdın?

– Danışmalı nə var ki, qoyun-keçi, qoç-təkədir də, bir də ki süd, süd, hər yerdə süd...

– Xoşun gəlirdi?

– Hə, gəlirdi.

– Bəs niyə getdin?

– Zəhləmi tökdü, bir də ki özümünkülər üçün darıxmışdım.

– Necə yəni "darıxmışdım?"

– Yəni görmək istəyirdim.

– Sən düzünü demirsən.

– Nədən bilirsən?

– Sənin gözlərində qorxu var, bir də günah.

İsa cavab vermədi, ayağa qalxıb həyəti dolaşdı, Mariyanın qarşısında durdu:

– Nə vaxtsa, əgər bizə görüşmək bir də nəsib olsa, sənə qalan şeyləri də danışacağam, amma söz ver ki, başqa heç kəs bilməyəcək.

– Niyə sonraya saxlayırsan, indi danış.

– Yox, bir də görüşsək, danışacağam.

– Ümid eləyirsən ki, o vaxta mən daha fahişə olmaram, hə? Yoxsa, indi mənə inamın yoxdur? Qorxursan ki, birdən pul alıb sirrini kiməsə açaram, ya da elə-belə, məzə üçün, məni səndən yaxşı sevən və sevəcək birisinə minnətdarlıq əlaməti kimi danışaram?

– Yox, indi susmağımın səbəbi bu deyil.

– Onda bax, sənə deyirəm, mən Mariya, Maqdalalı fahişə sənə nə vaxt lazım olsam, ayaqlarının altına sərilləcəyəm.

– Mən necə qazandım bu məhəbbəti?

– Sən hələ bilmirsən ki, kimsən...

Onların söhbəti elə bununla bitdi, amma elə həmin gecə İsanın yuxusuna əvvəlki dəhşətlər gəldi. Son zamanlar keçmiş yuxusu dumanlı kölgə kimi adi yuxuların arasına girirdi deyə dözməli olmuşdu. Amma bu gecə – bəlkə də, ona görə idi ki, bu yataqda sonuncu dəfə yatırdı, ya da axşamçağı Sepforisi xatırlamışdı – dəhşət idi, qış yuxusundan oyanmış nəhəng ilan kimi öz halqalarını bir-bir açmağa, dəhşətli başını qaldırmağa başlamışdı və İsa qışqırıqla, soyuq tər içində oyandı.

– Sənə nə olub? Nə olub sənə? – Mariya həyəcanla soruşurdu.

– Heç nə, yuxuma nəsə girmişdi, – o cavab verdi.

– Danış, – dedi və bu sözü elə məhəbbətlə, elə incə tələffüz elədi ki, İsa əvvəl göz yaşlarını saxlaya bilmədi, sonra da sözlərini – gizlətmək istədiyi sözləri:

– Yuxuda görürəm ki, atam məni öldürmək üçün axtarır.

– Sənin atanı öldürüblər, özün sağ-salamatsan, burdasan.

– Mən lap balacayam, körpəyəm, İudeya Vifliyemindəyəm və atam məni axtarır ki, öldürsün.

– Bəs niyə Vifliyemdə?

– Mən orada anadan olmuşam.

– Bəlkə, sənin yuxun o deməkdir ki, atan dünyaya gəlməyini istəmirmiş.

– Mariya, sən axı heç nə bilmirsən.

– Hə, bilmirəm.

– Vifliyemdə körpələr vardı ki, onların məhvinə atam səbəb olmuşdu.

– Öldürmüşdü onları?

– Yox, öz əlləriylə öldürməmişdi, onlara kömək göstərməməsiylə, başlarının üstündən asılmış qılıncı kənarlaşdırmamasıyla məhvlərinə səbəb olmuşdu.

– Yuxuda da sənə elə gəlir ki onlardan birisən?

– Mən artıq min dəfə ölmüşəm.

– Yazıq, yazıq İsa.

– Elə evdən də buna görə getmişəm.

– Hə, nəhayət, indi hər şeyi anladım.

– Elə bilirsən, anlamısan?

– Nədir, bu hələ hamısı deyil?

– Yox, elə şeylər var ki, mən hələ sənə deyə bilmərəm.

– Bir də görüşəndə deyəcəyin şeylər?

– Hə.

İsa başını Mariyanın çiyninə söykəyib yuxuya getdi. Nəfəsi qadının sinəsinə vururdu, o da gözlərini belə yummadan gecənin qalanını yaşadı. Ürəyi sızıldayırdı, çünki səhərin açılmasıyla hicran dəmi də yetişəcəkdi, amma qəlbi rahat idi. Artıq bilirdi ki, yanında yatan adam bütün ömru boyu intizarını çəkdiyi adamdır – ona məxsus olan və onun məxsus olduğu adam. Düzdür, istəklisi onunla rastlaşanda bakir oğlan idi, amma o, İsaya günahkar vücudunu vermişdi, həyat

onun üçün bir də başdan başlamışdı – ağ vərəqdən və bu vərəqdə indi cəmi səkkiz sətir – səkkiz gün vardı. Böyük, toxunulmamış gələcəklə müqayisədə bu nə idi ki və İsa çox gəncdir, mən – Maqdalalı Mariya isə, kim bilir, neçənci dəfə kişiylə yan-yana uzanmışam, lakin indi məhəbbətdən yanıram və mən də, elə bil, yenicə doğulmuşam.

Ertəsi günün səhəri yol hazırlığında keçdi və adama elə gəlirdi ki, İsa dünyanın qurtaracağına gedir. Daha buradan iki yüz stadiya məsafəsi olan Nazaretə yox. Adi adam hətta Maqdaladan Nazaretə yolun o qədər də düz və hamar olmadığını, sıldırımların, daşlı yoxuşların bolluğunu nəzərə alsan belə, yola günorta çıxsaydı, günbatana mütləq mənzil başına yetişərdi.

– Ehtiyatlı ol, buralarda hələ də qiyamçılara rast gəlmək olur, – Mariya dedi.

– Doğrudan?

– Sən bu yerlərdə çoxdan olmamısan, bura axı Qalileyadır.

– Mən də qalileyalıyam, onlar mənə ziyan vurmazlar.

– Sən əgər İudeya Vifliyemində doğulmusansa, hardan qalileyalı oldun?

– Anam Nazaretdə olanda mənə hamilə qalmışdı, doğulmağım isə, lap düzünü desəm, Vifliyemin özündə olmayıb. Ora yaxın olan mağarada anadan olmuşam, yerin altında. İndi mənə elə gəlir ki, ikinci dəfə də burda, Maqdalada doğuldum.

– Səni gəzəyən bir qadın doğdu.

– Mənim üçün sən gəzəyən qadın deyilsən, – İsa qəzəblə cavab verdi.

– Bu, mənim peşəmdir.

Bu sözlərdən sonra uzun sükut çökdü. Mariya gözləyirdi ki, o, sözünü bitirsin, İsa isə öz çaşqınlığına qalib gəlmək istəyir, amma heç cür bacarmırdı. Nəhayət, o dilləndi:

– Sən darvazandan kimsənin gələ bilməməsi üçün asdığın o parçanı çıxaracaqsan?



Mariya ona ciddi baxdı, amma elə o dəqiqə də bic-bic gülümsündü:

– İki kişini birdən qəbul etmək olmaz axı.

– Bu sözlərinin mənası nədir?

– Mənası budur ki, sən getsən də, burda qalacaqsan. – Bir an susub əlavə elədi: – Parça bu darvazadan həmişə asılı qalacaq.

– Amma hamı elə biləcək ki, yanında kişi var.

– Elə düz də biləcəklər, çünki sən mənimlə olacaqsan.

– Daha bir də heç kəs gəlməyəcək yanına?

– Bunu sən dedin, Maqdaladan Mariya adlı qadın sən bura qədəm basan andan daha fahişə deyil.

– Bəs necə dolanacaqsan?

– Yalnız inciçiçəyi özbaşına, qayğı görmədən böyüyür.

İsa onun iki əlindən tutub dedi:

– Nazaret uzaq deyil, bir dəfə gələcəyəm yanına.

– Gəlsən, mənə yiyələnəcəksən.

– Mən sənə daim yiyələnmək istəyirəm.

– Nə qədər ki sən yaşayırsan, həmişə belə olacaq.

– Nədir, mən səndən tez öləcəyəm?

– Mən böyüyəm və təbii ki, birinci öləcəyəm, lakin sən birinci öləsi olsan, mən həyatımı, heç olmasa, ona görə davam etdirəcəyəm ki, sənə məxsus olum.

– Bəs əgər sən birinci ölsən?

– Alqış olsun o qüvvəyə ki, mən artıq bu dünyada olanda səni bura gətirib.

Bu sözlərdən sonra Maqdalalı Mariya İsaya yemək verdi və onun bu sözləri deməyinə heç ehtiyac qalmadı: "Mənimlə otur", – çünki darvazanın kilidləndiyi ilk gündən bəri bu kişiylə qadın öz aralarındakı hərəkət və duyğuları, hissiyyat və fəzanı bölür və adət-ənənənin, qanun-qaydanın hayına da qalmırdılar. Şübhə etməyə bilərsiniz ki, əgər biz onlardan bir sualın cavabını soruşmaq fikrinə düşsək, qətiyyən anlada bilməzdilər: necə bacardılar ki, cəmi bir neçə gündə, dörd

divar içində özlərinə uyğun bir dünya quraraq özlərini həm etibarlı müdafiə altında, həm də tam azad hiss etdilər. Ötəri xatırladaq ki, bu dünya, daha çox, qadına uyğun idi, nəinki kişiyə və madam ki hər ikisi yenə görüşəcəklərinə qətiyyən şübhə etmirdilər, bizə yalnız onların başqa dünya ilə, darvazanın o tərəfindəki dünya ilə üz-üzə dayanacaqları zamanı gözləmək qalır və o dünyanın sakinləri indi bir-birindən narahat-narahat soruşurdular: "Görəsən, içəridə nə olub, nə baş verir?" Sizi əmin edirəm ki, onların təxəyyülü qətiyyən yataqla bağlı mənzərələr canlandırmırdı.

Beləliklə, Mariya ilə İsa yedilər, qadın onun səndəllərini geyindirdi və dedi:

– Əgər axşama Nazaretdə olmaq istəyirsənsə, artıq getmək vaxtıdır.

– Əlvida, – İsa dedi və dağarcığını, çomağını götürüb həyətə çıxdı.

Göy üzünü buludlar sarmışdı və bu daranmış kirli yunun qalıqlarına çox bənzəyən örtüyün arxasından Tanrı, yəqin, öz qoyunlarının nə oyunlardan çıxdığını görməyə çətinlik çəkirdi. İsayla Mariya vidalaşanda qol-boyun oldular və bu qucaqlaşmanın, sanki, sonu olmayacaqdı. Bir də ki öpüşdülər. Amma öpüş uzanmadı və burada qəribə bir şey də yoxdur. O zamanlar uzun öpüşlər hələ dəb deyildi.

* * *

İsa dörd uzun ildən bəri – bir həftə çox olsun, bir həftə az, əhəmiyyəti yoxdur – olmadığı Nazaretə qədəm basanda gün əyilmişdi və hələ uşaq olanda, ölüm havası duyulan çarəsizlikdən başını götürüb evlərindən qaçanda yer üzündə bir kəs axtarırdı ki, ona həyatının ilk dözülməz həqiqətini qəbul etməkdə yardımçı olsun. Dörd il, nə qədər uzun sürsə belə, dərdə dərman etmək üçün bəs deyil, amma onu toxtada, kütləşdirə bilər. Bu insan Məbəddə əhli-kitabdan nəsə öyrənmək istədi, dağların cığırlarıyla İblisin sürüsünü otardı, Tanrı



ilə görüşdü, Mariya Maqdalinayla yatdı, indi yalnız gözlərindəki nəm parıltı keçmiş əzablarına şahidlik edirdi. Biz əvvəllər də bu parıltıdan söz açmışdıq, lakin ola bilərdi ki, onun gözlərini hələ də qurbangahların tonqallarından qalxan qəliz tüstü yeyirdi, ya da bu, uca dağların çəmənlərində onun gözlərinə açılan mənzərənin nəhayətsizliyinə heyran qalmış ruhunun göz yaşlarıydı. Bəlkə də, gözlərində işaran səhrada tənha qalmış və "MənTanrıyam" sözlərini eşidənin qorxusuydu. O, bir neçə saat öncə tərk etdiyi Maqdalalı Mariyanın bədənini xatırlayıb qüssə yeyir, xiffət çəkirdi. "Məni şərabla sərinlədin, almayla doyurun, çünki məhəbbətdən üzülmüşəm" – şirinlərin şirini olan bu həqiqəti İsa anasına, qardaş-bacılarına müraciətlə söyləyə bilərdi, amma nədənsə ata evinin lap qarşısında addımlarını yavaşıtdı. "Kimdir onlar? Mənim anam və qardaşlarım?" – özündən soruşurdu və bu, bilmədiyindən deyildi. Görəsən, anası, qardaşları bilirdilərmi ki, onların yanına Məbəddə sorğu-sual edən, yüksəklikdən üfüqləri süzən, Tanrını görən, qadını tanıyan və özünü kişi kimi dərk edən birisi gəlir?! Bax, bir zamanlar elə bu yerdə özünü mələk kimi təqdim edən sərsəri dilənçi oturmuşdu və hərçənd ki mələk evə bircə qanad çalmaqla yel kimi girə bilərdi, amma girməmişdi. Qapını döyərək fağır görkəmlə sədəqə istəməyə üstünlük vermişdi.

Alaqapı cəftəlidir, lakin onu çöldən açmaq çox asandır və Maqdaladakı kimi "Ey, kimsə var burda?" – deyib kimsəni çağırmağa da ehtiyac yox idi. Çünki bu ev onun özününkü idi və bu evə sakitcə, inamla girəcəkdi. Baxın, ayağındakı yara da artıq sağalmışdı, amma burası da var ki, qan və irin ifraz edən cismani yaralar müalicəyə başqa yaralardan çox-çox asan tabe olur. Beləliklə, qapını döyməyə ehtiyac yoxdur, amma o döyür. Divarın arxasından səslər eşidir, hətta artıq anasının səsini də seçib. Amma yenə də, sadəcə, alaqapını itələməyə və deməyə ürək eləmir: "Bu da mən". Yolunu səbirsizliklə gözlədiklərini dəqiq bilən və evdəki yaxınlarına xoş sürpriz

bağışlamaq istəyən hər bir kəs belə edərdi. Alaqapını balaca, səkkiz-doqquz yaşlı bir qız açdı. O, gələni tanımadı və heç qan yaddaşı da ona söyləmədi ki, "qapının ağzındakı qardaşındır, xatırlamırsan məgər, böyük qardaşın İsadır. Lakin bacısının da, özünün də yaşının üstünə dörd yaş gəlməsinə, axşamçağının alatoranına baxmayaraq, soruşdu: "Sənin adın Lidiyadır?" Qız başını tərpətdi, tanımadığı adamın onun adını bilməsi kimi bir möcüzəyə uşaq heyran qalmışdı, lakin İsa bu möcüzənin sehrini bilmərrə dağıdaraq dedi: "Mən sənin böyük qardaşınam, İsa, burax görüm içəri". O, həyətdə, artırmanın önündəki talvarın altında kölgə kimi siluetlər gördü. Bu, qardaşları idi, nəzərlərini qonağa yönəltmişdilər. İki ən böyüyü, İosif və İakov isə ayağa qalxaraq onun qabağına çıxdılar, bacılarına dediyi sözləri eşitməsələr də, onu tez tanıdılar. Elə Lidiya da artıq sevinc içində çığırırdı: "İsadır, bizim qardaşımız!" Bu sözlərdən sonra bütün kölgələr hərəkətə gəldi, qapının ağzında Məryəm göründü, onun yanında da elə özü boyda olmuş Liziya. Bir an sonra isə artıq həyətin ortasında hamı onu qucaqlayırdı. Arada bir ailənin sevinci, məhəbbəti vardı, belə bir görüş, həqiqətən, sevinc gətirir, xüsusilə də bizim təsvir etdiyimiz vəziyyətdə – ailənin ilki dönürdü evə, ailənin böyüyü və onu yenə əzizləmək, başına dolanmaq olardı. İsa anası ilə, qardaşlarının hər biri ilə, hər iki bacısıyla salamlaşdı, onlar da ürəkdən deyirdilər: "Xoş gəlmisən, qardaş, nə yaxşı ki, gəlib çıxdın, artıq elə bilirdik bizləri tamam unutmusan". Burada hamının beynində dolaşan bircə fikir sözə çevrilmədi: "Qardaş, heç varlanana oxşamırsan". Sonra hamısı bir yerdə evə girdilər və axşam yeməyinə oturdular. İsa qapını döyəndə onlar elə yeməyə hazırlaşırdılar, odur ki bu yerdə sadə və yoxsul adamların arasında geniş yayılmış bir deyim – xüsusilə də əgər onun haradan gəldiyini, son bir həftədə mənəviyyatını unudaraq günahkar cismini cidd-cəhdlə harada ovundurduğunu nəzərə alanda – lap yerinə düşərdi. Onsuz da, kasıb olan süfrələrini bölüşməli olduqları

gözlənilməz qonaq gələndə dodaqaltı mızıldanardılar: "Şeytan gətirdi onu, harda aş, orda baş". Lakin yox, indi buna bənzər bir şey olmadı və belə sözlər nəinki ağızda səslənə, hətta beyinlərdən də keçə bilməzdi, çünki doqquz çənə çeynəyəndə, onsuz da, onuncusu eşidilməz. Bir ağız çox, bir ağız az – nə fərqi var ki. Nə qədər ki şam yeməyi davam edirdi, kiçik uşaqlar İsanın yaxasından əl çəkmir, başına gələn macəraları öyrənmək istəyirdilər. Amma anası və üç böyük uşaq özləri də anlamışdılar ki, Yerusəlim altında sonuncu görüşlərindən sonra, İsa təzə bir sənətə yiyələnməmişdi. Çünki ondan nəinki balıq iyi gəlmirdi, əksinə, Maqdalalı Mariyanın məhəbbətpərəst bədənindən gələn rayihələr, onun vücudunun qoxusu İsanın bədəninə hopmuşdu. Amma bu rayihəni duymaq üçün gərək burnunu onun xitonunun yaxasından içəri soxaydın, çünki uzun, tozlu yolların kirini-pasını da nəzərə almaq lazımdır. Əgər özününkülərdən heç biri buna ürək eləmədisə, biz heç cəsarət göstərmərik. İsa danışdı ki, sürü otarırmış – ömrü boyu gördüyü sürülərin ən böyüyünü. Son günlərdə isə balıqçılarla dənizə çıxırmış və onlara nəhəng, qəribə balıqları, başqa dəniz heyvanlarını tordan çəkib çıxarmağa kömək edirmiş və sonra isə başına elə qəribə, elə görünməmiş, elə gözlənilməz bir hadisə gəlmişdi ki, onun barəsində vaxtı gələndə danışacaq, özü də hamıya yox. "Yox, yox, indi danış", – balacalar yalvarmağa başladı, İuda adlı ortancılı isə heç bir ikibaşlı fikri olmadan soruşdu: "Bu qədər müddətdə, kim bilir, nə qədər pul qazanmısan?" – "Heç üç dənə sikkə də olmaz, heç iki dənə də, heç bircə dənə də", – İsa cavab verdi və sözlərinin doğruluğuna inandırmaq üçün – buna axı inanmaq, həqiqətən, çətin idi – necə ola bilərdi axı: dörd il ara vermədən işləyəsən, bircə qəpiyin də olmaya? Dağarcığını tərsinə çevirdi. Həqiqətən də, heç nəyi yox idi, belə sərvəti nadir hallarda görərdin – əyilmiş, ağzı getmiş bıçaq, ip qırığı, bir tikə daş kimi çörək, bir cüt dəlmədeşik səndəl və bir zamanlar tunika olmuş cındır. "Bu, sənin

atanın tunikasıdır, – Məryəm dilləndi və dağarcıqdan çıxmış səndəllərə əlini toxundurub uşaqlara dedi: "Bunlar da atanızındır". Uşaqlar başlarını aşağı dikdilər, otaqda kədər hakim idi. İsa isə əşyalarını təzədən dağarcığına yığa-yığa birdən fikir verdi ki, tunikanın bir küncü düyünlənib. Görən kimi də onun ağırlığını hiss elədi, düşünəndə ki, ordakı puldur, qan vurdu üzünə, o dəqiqə qıpqırmızı oldu. Çünki bir dəqiqə əvvəl demişdi ki, bircə quruşum da yoxdur. Pulları burada, yəqin, Maqdalalı Mariya gizlətmişdi, öz qazandıqlarından idi. Ləyaqətli adamlar kimi alnının təriylə qazanmasa da, yalançı ehtirasın iniltiləriylə qazanmışdı. Əgər arada tər vardısa belə, qətiyyən zəhmət təri deyildi. Anası, qardaş-bacıları tunikanın kənarındakı düyündən gözlərini çəkmirdilər. Sonra da hamısı birdən, əmr alıbmış kimi üzlərini İsaya çevirdilər, o isə bilmirdi ki, nə etsin. Onun yalanını isbatlayan bu pulları gizlətsinmi, yoxsa açıb göstərsin. Özü də bu pulların mənşəyini izah eləməyə heç bir imkanı olmaya-olmaya. Çünki bu izah elə olmalıydı ki, yüksək mənəviyyatlı ailəsi onları qəbul etmək iqtidarında olsun və ikincisinə, ən çətininə qərar verdi. Düyünü açdı, oradan iyirmi dənə sikkə töküldü. Bu, evdə heç vaxt görünməmiş sərvət idi. O dedi: "Mənim bunlardan xəbərim yox idi". Əzizlərinin qınaq dolu sükutu səhranın közərmiş küləyitək üzünü qarsdı – biabırçılığa bax! Böyük oğulları yalan deyir! İsa isə öz qəlbində eşələnib Maqdalinaya qarşı qəzəbin bircə zəif kölgəsini də tapa bilmədi, orada yalnız nəhayətsiz minnətdarlıq vardı – həm misilsiz səxavətinə, həm bu səxavəti doğurmuş həssaslığına görə. Qadın bilirdi ki, pulu ona açıq verə bilməyəcək, çünki bununla İsanı alçaltmış olardı. Bir var "Sol əlin başımın altındadır, sağla məni qucaqla" deyəsən, bir də var səni nə qədər cürbəcür sağ və sol əllərin qucaqladığı haqda, səndən heç kəsin: "bəlkə, əlimi başının altına qoyum" – deyə soruşmadığı barədə düşünməyəsən. Bunlar başqa-başqa şeylər idi. İndi artıq İsa özününkülərin sifətinə bir çağırışla baxırdı – onun

"Mənim bunlardan xəbərim yox idi" sözlərini qəbul edəcəkdilərmi? Axı bu sözlər tər-təmiz həqiqət idi, yalnız həqiqət. Amma, eyni zamanda da, həm bu həqiqətin hamısı idi, həm də hamısı deyildi. O, səssiz-səssiz sualları gözləyirdi: "Əgər sən onlar barədə heç nə bilmirsənsə, bu pullar səndə nə gəzir?" Buna cavab verməyə heç bir sözü yox idi, axı "Onları mənə pozğun qadın verib, sonuncu səkkiz günümü onun yanında keçirmişəm, ona isə bu pulları mənə qədər yatdığı kişilər verib" – deyə bilməzdi ki... Dörd il qabaq çarmıxa çəkilmiş, sonra da it kimi xəndəkdə, qardaşlıq məzarında basdırılmış bir şəxsin kirli, cırıq tunikasının üstündə iyirmi sikkə parlayırdı, onların parıltısı bir zamanlar gil kasanın içində işaran, həmin bu evin divarlarını işıqladan torpağı xatırladırdı. Amma bu gün bura sinaqoqdan ağsaqqallar gəlməyəcək və "Basdırın onu" deməyəcəkdilər və heç kəs "Bu pullar hardandır?" soruşmayacaqdı. Çünki cavab elə olacaqdı ki, bu pullardan imtina etmək lazım gələcəkdi, nə qədər ehtiyac olsa belə, onlara yiyələnmək istəyi nə qədər güclü olsa belə, onlardan imtina ediləcəkdi. İsa əllərivlə sikkələri bir yerə qalaqlayır, sonra da onları çömçə kimi tutduğu iki ovcuna yığır və bu hərəkəti təkrar eləyirdi: "Mən onlar barədə heç nə bilmirdim". Sonra da, sanki, əlində olan son imkandan istifadə edərək anasına baxıb deyirdi: "Onları mənə İblis verməyib".

Qardaş-bacıları İblisin adını eşidib tir-tir əsdilər, lakin Məryəm üzündəki ifadəni bircə damcı da dəyişmədən cavab verdi: "Amma heç Tanrı da verməyib". İsa pulları bir-iki dəfə ovcunda atıb-tutdu, cingiltisiylə əylənirdi və sözünü anasına elə adi bir tərzdə dedi ki, sanki, sabah səhərdən atasının dülgər dəzgahında çalışacağından xəbər verirdi: "Tanrı barədə sabah danışarıq". Sonra da İakovla İosifə müraciətlə əlavə elədi: "Sizin də hər ikinizə deyəsi sözlərim var". Elə düşünməyin ki, ailənin ilki bu sözləri yalnız nəzakət xatirinə deyirdi, yox, qardaşları artıq yetkinlik yaşına çatmışdılar və

deməli, inancın qəliz sualları ətrafında fikir yürütməyə haqları vardı. Lakin İakov belə anladı ki, söhbətləri son dərəcə ciddi, əhəmiyyətli olacaq və bu söhbətin nə barədə olacağını elə indidən öyrənsəydi, daha yaxşı olardı. Hər halda, böyük qardaşlarının evlərinə qayıtması – lap nə qədər böyük olsa belə – az idi, ona görə də dedi:

– Söhbətimiz, yəqin, Tanrı haqqında olar, – sonra bir az iztehzalı tərzdə gülümsünərək əlavə elədi – axı deyirsən ki, dörd il qoyun-keçi ilə dağları-daşları dolanmısan və əgər evə qayıtmağa macal tapan kimi bizimlə Tanrıdan danışmaq niyyətini dilinə gətirirsənsə, yəqin ki, bu müddətdə sinaqoqa gedib zəruri ayinləri icra edə bilməmisən.

İsa, çox dərində gizlənmiş ədavəti hiss edib cavab verdi:

– Ah, İakov, sən əgər bilmirsənsə ki, Tanrını axtarmağımıza ehtiyac yoxdur – o lazım biləndə özü bizi tapacaq, onda Tanrının kim olduğunu necə də az dərk etdiyin bəlli olur.

– Sən, yəqin, özündən danışırsan, hə?

– İndi məndən heç bir şey soruşma, amma sabah mən nə deməliyəmsə, hamısını söyləyəcəyəm.

Bunun cavabında İakov nəsə anlaşılmaz şeylər mızıldadı, amma son sözlərində də hər şeydən xəbərdar olduğunu güman eləyənlərə yönəlmiş kinayə vardı. Məryəm isə öz ilkinə müraciətlə yorğun bir tərzdə dilləndi:

– Bu ya sabah olacaq, ya o birisi gün, ya da sənin ürəyin nə vaxt istəsə, onda. İndi isə mənə və qardaşlarına de ki, bu pullardan necə istifadə etmək niyyətindəsən, çünki biz ehtiyac içində yaşayırıq.

– Sən heç bilmək istəmirsən ki, bu pullar məndə hardandır?

– Sən axı özün dedin ki, bilmirsən.

– Mən həqiqəti dedim, amma indi, bir qədər fikirləşəndən sonra anladım hardan olduqlarını.

– Əgər bu pullar sənə bəla gətirməyibsə, ailənə də ziyan etməz.

[1] *Tirada* – dramda qısa və təsirli monoloq

– Bu, sənin deyə biləcəyin sözlərin hamısıdır?

– Hə.

– Onda özün necə istəyirsənsə, elə də xərclə, evə-zada sərf elə, ya da başqa işlərə.

Bu sözlərdən sonra qardaşlar arasında nəsə xoş bir canlanma yarandı və İakovun sifətində hətta dostyana bir işartı da göründü, Məryəm isə dedi:

– Əgər sənin etirazın yoxdursa, pulların bir qismini bacının cehizinə saxlayaq.

– Mən heç bilmirdim, Liziya ərə getməyə hazırlaşır.

– Hə, artıq toy günü də təyin olunub.

– Cehizə nə qədər saxlayacağıq?

– Mən heç bilmirəm ki, bu sikkələrin qiyməti nə qədərdir.

İsa gülümsündü:

– Onların qiymətini mən də bilmirəm, bircə onu bilirəm ki, bu qiymətin dalında nələr durub – özü də öz sözlərinə ürəkdən, ucadan, sakitləşmək bilmədən güldü, ailəsi isə ona çaşqınlıq içində baxırdı. Bircə Liziya özünün on beş yaşlı saflığıyla baxışlarını kütləşdirdi, çünki qızlarda hərdən sirli duyğular olur və bütün ailənin içində ancaq o, nədənsə hardan gəldiyi, kiminki olduğu və necə qazanıldığı bəlli olmayan pullardan həyəcanlanmışdı. İsa sikkələrin birini anasına uzatdı və dedi:

– Sabah xırdalayarsan, biz də onun qiymətini bilərik.

– Amma məndən soruşacaqlar ki, bu qədər sərvəti hardan almışam, çünki hamıya aydındır ki, kim bu sikkənin birini göstərirsə, deməli, qalanını gizləyib.

– Deyərsən ki, oğlun İsa uzaq ellərə səyahətdən qayıdıb və bir də deyərsən ki, yer üzündə sərsəri oğulun qayıtmasından böyük sərvət ola bilməz.

Həmin gecə İsa atasını yuxuda gördü. O, həyətdə, talvarın altında uzandı, çünki yatmaq vaxtı çatanda başa düşdü ki, bütün künc-bucaqlarında əbəs yerə rahatlanmaq istəyən on nəfərin yatdığı evdə heç cür yuxuya gedə bilməyəcək. Artıq

bacı-qardaşlarıyla quzu sürüsü arasında fərq qoymadığı zamanlar çoxdan keçmişdi – indi ona əlləri, ayaqları, başqalarının təsadüfi toxunuşları mane olurdu, belə darısqallıqda qaçılmaz olan utancaqlıq mane olurdu.

Yuxuya getməmişdən Mariya Maqdalinanı, onunla bir yerdə elədiklərini xatırlayırdı, hərçənd bu xatirələri onu elə coşdurdu ki, iki dəfə samanın üstündən qalxıb həyəti dolaşmağa məcbur oldu. Hərarətini aşağı salmaq istəyirdi, amma necə deyərlər, körpə kimi yuxuya getdi. Onu aramla yırğalayaraq harasa aparan çay kimi bir şeyin içinə girdi və o, huşundan yavaş-yavaş, axınla bir yerdə ayrılırdı. Əllərini yana açıb başının üstündəki budaqların və buludların necə süzdüyünə baxa-baxa axırmış kimi ayrıldı və hərdən səssiz bir quşcuğaz gah görünür, gah da yox olurdu. Yuxu da belə başladı: əvvəlcə yüngül bir təkan duydu, elə bil, bədəninə başqa bir bədən toxunmuşdu. Əvvəlcə elə bildi ki, Mariya Maqdalina yanındadır. Gülümsündü, təbəssümlə üzünü ona sarı çevirdi. Bir də baxdı ki, həmişə gördüyü həmin sudur. Həmin budaqların və həmin dinməz quşcuğazın qanad çaldığı həmin səmanın altındadır. İndi də atasının meyitini aparır. Keçmiş, köhnə dəhşətin qışqırtısı onun boğazında çırpınaraq bayıra çıxmağa çalışdı, amma elə həmin an da susdu: bu, onu daim təqib eləyən və artıq adiləşmiş, özünü Vifliyemin şəhər meydanında başqa körpələrlə birlikdə ölümü gözləyirmiş kimi gördüyü həmin yuxu deyildi. Addım səsləri, at kişnərtisi, silah cingiltisi eşidilmirdi, çay elə əvvəlki kimi ipək yumşaqlığıyla axır və onun üstündə ata ilə oğul bərədəymiş kimi üzürdülər. Həmin an qorxu İsanın qəlbini tərk etdi və onun yerini lap qəfildən bir yanğın, bir partlayış kimi şadlıq, sevinc hissi tutdu – nəhayətsiz və tükənməz sevinc hissi. "Ata!" – o, yuxuda çığırdı. "Ata!" – qışqırırdı, oyanıb göz yaşları içində təkrar etdi, çünki artıq yanında heç kəsin olmadığını anlamışdı. O, yuxusuna qayıtmaq istəyirdi, onu lap başdan bir də görmək istəyirdi ki, təsadüfi görüşün gözlədiyi

yüngül sarsıntısından heyranlığını bir də yaşasın. Atasını görsün, onunla bir yerdə üzsün – düz ömrünün sonuna kimi, çayın suları bitənə kimi üzsün. Buna nail ola bilmədi, lakin həmin o keçmiş kabusları da bu gündən etibarən daha ona əziyyət verməyəcəkdi. Dəhşətli yuxular əbədilik heyranlıqla əvəz olunacaqdı, tənhalığının yerini atası ilə yaxınlığı tutacaqdı. Təxirə düşmüş ölümün əvəzinə isə yaşam müjdələri gələcəkdi. Qoy indi Müqəddəs Kitabı əzbər bilən müdriklər bu yuxunun mənasını açsınlar, çayın nə demək olduğunu, onun üzərinə sallanmış budaqların, üzən buludların, dilsiz-ağızsız quşcuğazın daşıdığı məfhumu aydınlaşdırsınlar. Qoy izah etsinlər ki, bütün bunların bir vəhdət halında birləşməsi və sıraya düzülməsi zamanı ata ilə oğulun görüşünə səbəb olan nə baş verdi. Düzdür, elə əvvəlkilərdən birinin günahını yumaq, o birininkinin isə dərdini ovutmaq mümkün deyil.

Ertəsi gün İsa İakova dülgərlikdə kömək etmək istəyirdi, amma o dəqiqə bəlli oldu ki, bacarığı heç bir səylə əvəz etmək mumkun deyil və niyə hələ atasının sağlığında onun bu sahədəki uğurları, heç olmasa, kafi qiymətə layiq görülməmişdi. İakov isə bir dülgər kimi yaxşı olmasa da, hər halda, pis də deyildi. Elə üçüncü qardaşları İosif də – hələ on dörd yaşı olmasına baxmayaraq, sənətdən elə baş çıxarırdı ki, özündən böyüyə də məsləhət verə bilərdi. İakov İsanın bacarıqsızlığına və səriştəsizliyinə gülüb təkrar edirdi: "Səni çoban eləyən kimdirsə, evini yıxıb".Təsəvvür eləmək mümkün deyildi ki, bu sadə, kinsiz kinayə özündə pünhan, mübhəm bir məna daşıyır, lakin İsa birdən iti hərəkətlə dəzgahdan aralandı. Məryəm ortancıl oğluna dedi:

– Ev yıxmaqdan danışma, evimizi şeytana tanıtma.

Çaşqın qalmış oğlan isə cavab verdi:

– Mən heç nəyi heç bir şeyə tanıtmıram, bir söz idi, dedim.

– Eşitdik də, bəsdir, – İsa onun sözünü kəsdi, – anamız da eşitdi, elə biz də. Sənin beynində "çoban"la "ev yıxmaq"

sözləri şeytan vəsvəsəsiylə birləşdi. Çünki bu, sənin ağlına gəlməzdi və səbəb də yalnız ona məlumdur, sənə yox.

– Mən sənə xəbərdarlıq etmişdim, – Məryəm kəskin tərzdə dedi.

– Gec tərpənmisən, ana, şər – əgər bu, həqiqətən, şərdirsə – artıq törənib, çünki mən özümə baxıram, amma görə bilmirəm.

– Özünü korluğa vurmuş adam əsl kordan betərdi.

Anasının bu sözləri İsaya nədənsə lap möhkəm dəydi və o, acı bir ittihamla cavab verdi:

– Səsini kəs, qadın! Çünki əgər sənin oğlunun gözləri şər görübsə də, bu, hər halda, əvvəlcə sənin gözlərinin önünə gəlib. Amma mən, sən məni kor saysan da, elə bir şey görmüşəm ki, sən onu heç vaxt görməmisən və görməyəcəksən də.

Onun son sözləri sirli idi. Böyük oğlunun iradəsinə müti-liklə tabe olan və ahənginin amiranəliyindən pərt olmuş Məryəm daha dinmədi. Lakin quru və sərt cavabda, hər halda, bir xəbərdarlıq da duyuldu:

– Bağışla məni, sənin xətrinə dəymək istəmirdim, Tanrı qismət eləsin, sənin gözlərindəki və ruhundakı işıq heç vaxt sönməsin.

İakov heç nə anlamayıb gözlərini gah anasına, gah da böyük qardaşına dikirdi. Başa düşürdü ki, onlar küsüşürlər, lakin bu küskünlüyün köhnə, onu aydınlaşdıran səbəbləri barədə təsəvvürü yox idi. Bilirdi ki, yeni səbəblərin onları küsdürməyə, sadəcə, imkanı çatmazdı.

İsa evə sarı getdi, kandarda ayaq saxlayıb Məryəmə dedi:

– Balacaları göndər, sənlə söhbət etməliyəm, İakovla İosif də qalsınlar.

Elə də etdilər, bir dəqiqə qabaq ağzına kimi dolu olan ev birdən boşaldı və dörd nəfər döşəmədə əyləşdi – Məryəm, onun hər iki tərəfində İakovla, İosif, onlarla üzbəüz isə İsa. Aralığa uzun bir sükut çökdü, baş verəcək söhbət uşaqların



qulaqları üçün nəzərdə tutulmadığından, sanki, qarşılıqlı razılığa əsasən onlara fürsət verdilər o qədər uzaqlaşsınlar ki, heç səs-küyləri də evə çatmasın.

Nəhayət, İsa sözləri tək-tək ağzından çıxarıb dilləndi:

– Mən Tanrını görmüşəm.

Anasının və qardaşlarının sifəti əvvəl müqəddəs bir dəhşət ifadə etdi. Amma elə həmin an bu ifadə ehtiyatlı inamsızlıqla əvəz olundu. Bu iki hissin arasında İakovun gözlərində bədxah bir şübhə, İosifinkində heyranlıq və çaşqınlıq sezildi. Məryəmin baxışlarından isə acı mütiliyin kölgəsi keçdi. Lakin onlardan heç biri dillənməyə cəsarət etmədi. Uzanan sükutu yenə İsa pozdu. "Mən Tanrını görmüşəm", – deyib bir də təkrar elədi.

Əgər xalq deyiminə əsasən sükut sakitlik mələyinin uçuşundan yaranırsa, onda bura indi bir düjün mələk girmişdi. İsa sözünü deyib qurtarmışdı, doğmaları isə heç bilmirdilər nə desinlər və tezliklə onların hər biri qalxıb öz işinin dalınca gedəcəkdi, çünki hər birinin öz həyatı vardı. Gedərək də fikrən özlərindən soruşacaqdılar ki, doğrudanmı, gördükləri yuxudur – heç cür inanmaq mümkün olmayan yuxu. Lakin sükut, əgər ona vaxt versən, elə bir üstünlüyə malikdir ki, xislətinə tamamilə zidd olsa da, adamı danışmağa vadar eləyir. Nəhayət, budur, gərgin intizara artıq dözmək mümkün olmayanda İakov sual verdi – ağla gələn sualların ən ziyansızını. Heç bir şeyə vadar etməyən və mənasız, bir sözlə, tam ritorik bir sual:

– Sən əminsən?

İsa cavab vermədən qardaşına, təxminən, elə baxdı, düşünmək olardı ki, Tanrı da ona buludun içindən beləcə baxmışdı. O, sözünü üçüncü dəfə təkrar elədi:

– Mən Tanrını görmüşəm.

Məryəm heç nə soruşmadı, bircə bunu dedi:

– Sənə elə gəlib.

– O, mənimlə danışırdı, – İsa cavab verdi.

İakov, bir az özünə gələndə fikirləşdi ki, yəqin, qardaşının ağlı çaşıb – bu nə boş söhbətdir, dedi:

– Tanrı danışıb onunla, – və iztehzalı təbəssümlə əlavə etdi, – bəlkə, pulları da sənin dağarcığına o qoyub?

İsa qızardı, amma sakit, quru bir cavab verdi:

– Bizə nə gəlirsə, Tanrıdan gəlir, o tapır, bizə nələrisə gətirən yolları o açır və bu pullar da mənə ondan gəlməyib, onun yardımıyla gəlib.

– Bəs de görüm, sən Onunla harda rastlaşdın, yuxudaydın, yoxsa oyaq?

– Səhrada, mən sürüdən azmış qoyunu axtarırdım, O, məni çağırdı.

– Nə dedi sənə, əgər Onun sözlərini təkrar etməyə icazən varsa, bunu söylə.

– Dedi ki, günlərin birində məndən həyatımı istəyəcək.

– Bizim hər birimizin həyatı, onsuz da, ona məxsusdur.

– Hə, mən də elə bu cür cavab verdim Ona.

– Bəs O?

– Dedi ki, həyatımın müqabilində mənə hakimiyyət və şöhrət verəcək.

Məryəm qulaqlarına inanmırmış kimi soruşdu:

– Həyatın əvəzinə hakimiyyət və şöhrət?

– Hə.

– Həyatda olmayan adamın hakimiyyət, şöhrət nəyinə gərəkdir?

– Bilmirəm.

– Bəlkə, sən xəyalatda idin?

– Mən tam ayıq idim, səhrada qoyunumu axtarırdım.

– Bəs nə dedi, sənin həyatını nə vaxt istəyəcək?

– Bilmirəm, O, təkcə bunu dedi ki, mən hazır olanda yanıma bir də gələcək.

İakov qardaşına həyəcanla baxıb mülahizə yürütdü:

– Səhrada, yəqin ki, sənin başına möhkəm gün döyüb, vəssalam.



Məryəm isə birdən soruşdu:

– Bəs qoyun? Qoyun necə oldu?

– Tanrı tələb elədi ki, bizim ittifaqımızın təsdiqi kimi onu qurban verim.

Bu sözlər İakovu lap coşdurdu:

– Sən küfr edirsən, qardaş. Tanrı bir dəfə öz xalqı ilə ittifaq bağlayıb, təkcə səninlə, sadə, adi adamla, dülgər oğluyla, çobanla, daha bilmirəm nəylə yox.

Məryəmin üzündəki ifadəyə baxanda deyərdin ki, çox böyük gərginlik içində hansısa fikri tutmağa çalışır. Elə bil, qorxurdu ki, düşüncələrinin sapı indicə qırılacaq. Amma yox, budur, kələfin ucundan tutdu və məhz verməli olduğu sualı verdi:

– Bu, hansı qoyun idi?

– Biz Yerusəlim yaxınlığında, Ramallahda görüşəndə yanımda olan quzuydu, böyüyüb qoyun olmuşdu; mən onda quzunu Tanrıya qurban etmək istəmişdim, indi isə məndən qoyun aldı.

– Bəs nə şəkildəydi O?

– Mənim yanıma bulud şəklində gəldi.

– Bulud?

– Hə, bulud; tüstü sütununa oxşayan bulud.

– Yox, sən, həqiqətən, dəli olmusan! – İakovun nidası eşidildi.

– Əgər beladirsə, deməli, Tanrı istəyir bunu.

– Səni İblis alıb çənginə! – Məryəm bunu artıq demədi, qışqırdı.

– Səhrada mən İblisi yox, Tanrını görmüşəm və əgər məni çənginə alan İblisdirsə, bu da Tanrının iradəsiylədir.

– İblis səni doğulandan ələ alıb.

– Hə?

– Hə, sən düz dörd il onunla bir yerdə və Tanrıdan uzaq yaşamısan.

– Dördüncü ilin tamamında da Tanrı ilə qarşılaşmışam.

– Sənin ağzından küfr və yalan yağır.

– Mən sənin oğlunam, məni yer üzünə sən gətirmisən: mənə inan, ya da rədd et.

– Mən sənə inanmıram.

– Bəs sən, İakov?

– Mən də sənə inanmıram.

– Bəs sən necə, İosif, atamızın adını daşıyan qardaşım?

– Mən sənə inanıram, amma sözlərinə yox.

İsa qalxdı, hər üçünü boyunun hündürlüyündən süzüb dedi:

– Tanrının mənə vəd etdikləri baş verəndə indi inanmadıqlarınıza inanası olacaqsınız.

O, dağarcığını götürdü, çomağını aldı, səndəllərini geyindi. Artıq qapının ağzında pulları çıxarıb iki yerə böldü.

– Qoy bu Liziyanın cehiz pulu olsun, – dedi, qalanını isə elə kandardaca səliqəylə üst-üstə yığdı, – bunları da hansı əldən almışamsa, ona da qaytaracağam, bir də gördün, elə bu da cehizə sərf olundu, – dedi və üzünü qapıya çevirdi. Yenə sağollaşmamış getmək istəyirdi ki, Məryəm dilləndi:

– Mən fikir verdim ki, sənin dağarcığında kasa yoxdur.

– Varım idi, amma qırıldı.

– Odur, ocağın üstündə dördü birdən durub, bəyəndiyini götür. – İsa tərəddüd elədi, çünki niyyəti bu evdən əliboş getmək idi. Amma nə düşündüsə, ocağa yaxınlaşdı. Kasalar bir-birinin içinə yığılmışdı. – Ürəyin hansını istəyir, götür, – Məryəm təkrar elədi.

İsa baxdı, baxdı və seçdi:

– Bax, bunu, görkəmindən ən köhnə olanını götürürəm.

– Bəyəndiyin kasanı götürdünmü?

– Hə, bu kasa torpaq kimi qaradır, nə sınar, nə ovular.

Kasanı dağarcığına soxdu, çomağını yerə vurdu:

– Sözlərimə inanmadığınızı bir də deyin mənə.

– Biz sənə inanmırıq, – anası dilləndi, – və mən indi sənə əvvəlkindən də az inanıram, çünki seçdiyin kasa da İblisin möhürüylə nişanlanıb.



Həmin an Çobanın dediyi sözlər yaddaşının ən dərin guşələrindən üzə çıxıb İsanın qulaqlarında səsləndi: "Sənin bir başqa kasan da olacaq və o kasa nə qədər ki sağsan, sınmayacaq". Kələf bütün uzunu boyu açıldı və sanki, gözlərinin qabağında halqa şəkli aldı – ucları birləşdi. İsa ikinci dəfə ata evini tərk edirdi, amma bu sözləri daha deməyəcəkdi: "Qayıdacağam, ya elə, ya belə, mütləq qayıdacağam".

Nazareti arxada qoyub birinci təpənin enişiylə düşürdü və çox sadə, lakin kədərli şeylər barədə fikirləşirdi: "Əgər Mariya Maqdalina da ona inanmasa, nə olacaq?"

Tanrı bu insana hakimiyyət və şöhrət vəd eləyib, lakin Maqdalalı pozğun qadının evindən başqa gedəsi yeri yoxdur. Öz sürüsünün yanına qayıda bilməz – Çoban ona: "Get" – demişdi, evdə qalmaq olmaz – doğmaları: "Biz sənə inanmırıq" – söyləmişdilər. Elə bu səbəbdən də onun addımları inamsızdır. O getməyə çəkinir, gəlməyə çəkinirdi, sanki, yenə səhralara düşmüşdü. "Mən kiməm", – soruşurdu. Nə dağlar cavab verir, nə dərələr. Hətta hər yeri öz günbəziylə örtən və ona görə də hər şeyi bilən göylər belə susurdu. Amma evlərinə dönüb anasından həmin sualı bir də soruşsaydı, yəqin ki, "Sən mənim oğlumsan, amma mən sənə inanmıram", – deyəcəkdi. Odur ki dünya xəlq ediləndən bəri onun yolunu gözləyən bu daşın üzərində oturub tənhalıq və yurdsuzluq üzündən ağlamağın əsl zamanıdır. Çünki Tanrının onun görüşünə bir də – qoy lap bulud, tüstü şəklində olsun – gəlib-gəlməyəcəyi hələ bəlli deyil, amma kaş gələydi və deyəydi: "Hə, bu heç olmadı, belə yaramaz, burnunun suyunu niyə axıdırsan, hamının həyatında qara zolaqlar olur. Amma çox mühüm bir məsələ var – heç kəsə heç vaxt bu barədə söyləməmişəm, sənə isə deyəcəyəm. Bilirsən, hər şey nisbidir. Ən pis şeylər belə. Əgər təsəvvür eləsək ki, bundan da pisi ola bilərdi – onlar sənə dözüləsi gələcək. Odur ki gözlərini sil, özünü kişi kimi apar. Sən axı artıq atanla barışmısan. Daha nə istəyirsən? O ki qaldı ananla narazılığınıza, zamanı yetişəndə bununla

özüm məşğul olacağam. Düzünü desəm, Maqdalalı Mariya ilə olan əhvalat da mənim heç ürəyimdən deyil. O, hər halda, fahişədir. Amma eybi yox, cavan oğlansan, birinin o birinə dəxli yoxdur. Hər şeyin öz vaxtı var – yemək vaxtı, oruc vaxtı, günah vaxtı və tövbə vaxtı, yaşamaq vaxtı və ölmək vaxtı". İsa əlinin dalıyla gözlərini sildi. Doğrudan da, gözünün yaşını niyə axıdırdı ki və burada nə vaxtdan bəri niyə oturub. Səhra elə həmin səhradır da – bizi dövrəyə alır, mühasirə edir və özü bildiyi kimi qoruyur, amma heç nə vermir və buludlar günəşi birdən boğanda deyirik: "Budur, hətta göylər də bizim tərəfimizdədir". Əslində isə çox sarsaq bir söz deyirik, çünki hiss-həyəcan nə olduğunu bilməyən qərəzsiz səma öz tərəfsizliyini ciddi qoruyur və nə sevincimizlə işi var, nə kədərimizlə.

Nazaretdən gələn yolla adamlar gedirdi. İsa onlara kinayə üçün əsas vermək istəmirdi. İstəmirdi: "Buna bir bax, saqqalı çıxıb, amma körpə uşaq kimi zırıldayır, elə bil, məmə verməyiblər", – desinlər.

Yol boyu yolçularla da rastlaşırdı; kimi yoxuşu qalxırdı, kimi enirdi, bir-biriylə dəbdəbəli tərzdə, uzun-uzadı salamlaşırdılar. Amma tuş gəldikləri adamın niyyətinin xoş olduğuna əminlik yarananadan sonra salamlaşırdılar, çünki bu yollarda pis adamlar da az olmur. Onların arasında beş il qabaq Yerusəlimə kədərini çözmək üçün gedən İsanı lümlüt soymuş yolkəsənlər kimi əsl quldurlar da olurdu, ali ideyaları uğrunda ilhamla mübarizə aparan qiyamçılar da. Amma onlar yolların özündə az görünərdilər, yalnız hərdən yolun kənarlarında bir yer seçib gizlənər, hərbi hissələrin gedişgəlişinə göz qoyardılar ki, əlverişli yerdə romalılara pusqu qura bilsinlər. Ya da onun üçün ki, indi bizlərin "kollaborasionistlər" adlandırdığımız varlı adamların qızılını, gümüşünü, başqa qiymətli əşyalarını heç çəkinmədən tutub əllərindən alsınlar. Bunun qabağını isə daha heç bir gözətçi, heç bir qarovul dəstəsi ala bilməzdi. Əgər uçurum və sıldırımlarında Qalileyalı İudanın davamçıları gizlənən bu əzəmətli

dağların görkəmindən oyanmış təxəyyülü indi onun gözləri önündə döyüş səhnələrini bir anlıq canlandırmasaydı, İsanın on səkkiz yaşı olmazdı və düşünürdü ki, əgər yolda qiyamçılarla rastlaşsa və yoxsul, amma dinc həyatını döyüş şöhrətinə, qalib hökmfərmalığına dəyişməyi ona təklif etsələr, hansı qərarı verərdi. Axı Müqəddəs Kitabda xalqını istismarçılardan azad etmək, onların əzələlərini gələcək döyüşlərə hazırlamaq üçün Tanrı tərəfindən bir Rəsulun, bir Məsihin göndəriləcəyi müjdə verilir.

Bir anda divanə bir ümid, qarşısıalınmaz fəxarət küləyi onun üzünə vurdu, başını gicəlləndirdi və dülgər oğlu təsəvvüredilməz dərəcədə qısa zaman içində özünü döyüşçü, sərkərdə, hərb adamı simasında gördü. Elə bir adam ki, əlinə qılınc alması bəs edərdi ki, özündənrazı legionlar sarsılıb geri çəkilsinlər – elə tələsik, elə səhmansız çəkilsinlər, elə qaçsınlar ki, sanki, senat və Roma xalqının hamısı vücuduna cin-şeytan doluşmuş donuzlara çevriliblər.

Lakin həmin an – vay bizim halımıza! – İsa xatırladı ki, şöhrət və hakimiyyəti ona, onsuz da, verəcəklər. Çünki artıq vəd edilib – amma indi yox, ölümündən sonra verəcəklər. Odur ki ixtiyarında olan illərdən imkan dairəsində səmərəli istifadə etməlidir. Döyüşməyə gedərdi, amma bir vacib şərtlə – toqquşmalar arasındakı fasilədə ona icazə versinlər ki, qoşunları buraxıb bir neçə gününü Mariya Maqdalina ilə keçirsin. Çünki hətta bu azadlıq ordusunun düşərgələrində də mümkün deyil ki, markitant qadın – onu belə adlandıraq – öz məhəbbətini yalnız bir əsgərə bağışlasın, qalanlarından isə nəvazişini əsirgəsin. Qadın ki birini yox, bir neçəsini sevdi, onda bu daha məhəbbət sayılmaz, fahişəlik olar. Fahişəliyin daşını isə Mariya Maqdalina, əgər onun sözünə inansaq, birdəfəlik atmışdı. Tanrı çin eləsin, çünki İsa o qadını bircə dəfə xatırlamaqla böyük ruh yüksəkliyi hiss etdi. Ağır yarasının birini sağaldaraq canına dözülməz şəhvət hissi salıb ikincisini vuran qadın, maraqlı idi ki, oğlan, üstündən

parça asılmış bağlı darvazanın önündə indi peyda olsaydı, özünü necə aparardı. Axı zəmanət vermək olmazdı ki, onu qapının arxasında öz təxəyyülünün çəkdiyi kimi tapacaqdı – intizar içində yaşayan, sevgilisinin həm qəlbinin, həm bədəninin intizarında çırpınan məxluq... Çünki Mariya Maqdalina onları ayrı-ayrılıqda bir heç sayırdı.

Gün axşama doğru əyilirdi, uzaqda Maqdalanın sürüdəki qoyunlar kimi burun-buruna durmuş evləri görünürdü. Mariyanın evi isə sürüdən perik düşən quzuya bənzəyirdi. Onu buradan görmək olmurdu – burula-burula gedən yolun hər iki tərəfindəki nəhəng daşlar qoymurdu. Hansı ansa İsa, Tanrının ona sırıdığı ittifaqı qanı ilə möhkəmlətmək üçün öldürməli olduğu qoyunu xatırladı. Artıq döyüşlər və qələbələr haqqında düşüncələrdən azad beynində onu həyəcanlandıran başqa bir fikir peyda oldu. Ona elə gəldi ki, yenə həmin qoyunu axtarır, amma kəsmək üçün deyil, tapıb sürüsünə qaytarmaq üçün deyil, onunla bir yerdə bakirə çəmənliklərə qalxmaq üçün. Onlar isə – yaxşıca axtarsan – bizim böyük və bu qədər ayaqların gəzib cığırlar saldığı dünyamızda, yəqin ki, var. Qoyun isə mütləq bizim adamların hamısından fərqli olaraq toxunulmaz guşələr və gözlənilməz uçurumlar tapacaq. Amma təbii ki, bir az da artıq axtarmaq lazım gələcək.

İsa darvazanın ağzında dayandı, inamsız əlləriylə yoxlayıb onun içəridən cəftələndiyinə əmin oldu. Parça yenə üstdən asılı idi – Mariya Maqdalina qonaq qəbul etmir. İsaya çağırmaq, səsini çıxarmaq, yalnız "Bu mənəm" demək kifayət idi ki, sevinc dolu səs cavab verəydi: "Mənim sevgilimin səsi gəlir! O, bura tələsir: dərələrdən sel kimi, təpələrdən yel kimi tələsir. Budur, artıq divarımızın o üzündədir, pəncərəyə boylanır, mənə baxır..." O susaraq yumruğuyla qapıya bir-iki dəfə vurmağa üstünlük verdi və cavab gələnə kimi gözlədi. "Kimdir, nə istəyirsən", – içəridən soruşdular. İsanın beyninə bir axmaq fikir gəldi, səsini dəyişib özünü sevişmək yanğısının hövsələsizliyindən təntimiş, pullu qonaq kimi



göstərsin və təxminən, belə bir söz desin: "Qapını aç, ey çöllər zanbağı, aç, peşman olmazsan, nə nəvazişimi əsirgərəm, nə gümüşümü, pulumu". Lakin alınmadı – istəyirdi səsini dəyişə, amma səsi onu dəyişdi – fikirləşdiyini yox, nə deməliydisə, onu da söylədi: "Mənəm, Nazaretli İsa". Mariya o dəqiqə açmadı, çünki bu səs ona tanış deyildi. Bundan başqa, heç inanmağı gəlmirdi ki, sevgilisi bu qədər tez – cəmi bircə gecə və bir gün keçmiş onun yanına qayıdar. O kəs ki, gedəndə demişdi: "Nazaret uzaq deyil; bir dəfə gələrəm yanına". Bizlər belə, buna bənzər sözləri ancaq dinləyənin könlünü xoş etmək üçün nə qədər tez-tez deyirik. Həmin bu "bir dəfə" isə lap üç aydan sonra da ola bilər, amma sabah yox, sabah qətiyyən olmaz. Lakin budur, o, qapını açır və İsanın ağuşuna atılır. Çaşqınlığı o qədər güclüdür ki, beyninə axmaq bir fikir gəlir – o, yarası açıldığından qayıdıb. Bu fikirlə də onu evə salır, oturdur və çırağı yaxına çəkir: "Ayağın necədir, göstər görüm ayağını". Lakin İsa cavab verir: "Ayağım çoxdan sağalıb, məgər görmürsən"? "Görmürəm", – Mariya Maqdalina cavab verə bilərdi və bu, tam həqiqət olardı. Çünki yaşla dolu gözləri indi, doğrudan da, görmürdü. Dodaqlarını tozlu ayaqlara dirəyəsi, səndəllərinin topuqda bağlanan kəmərlərini ehtiyatla açası, barmaqlarını yaralarının təzə, incə dərisinə toxundurası oldu ki, çəkdiyi məlhəmdən gözlədiyi müalicəvi əhəmiyyətin doğrulduğuna arxayınlaşsın və sevgilisinin sağalmasına məhəbbətinin də kömək etdiyi haqda fikri özü özündən də gizlətsin.

Nə qədər ki şam edirdilər, Mariya Maqdalina heç sual vermirdi, yalnız bilmək istəyirdi ki – bunların eyni şey olmadığını sizə söyləmək artıqdır – evlərinə necə yetişdi, yol boyu xoşagəlməz görüşləri olmadı ki. Bir sözlə, bu qəbildən sadə şeyləri öyrənmək istəyirdi. Yeməyi bitirəndən sonra isə susdu və sükutunu pozmadı, çünki indi danışmaq növbəsi onunku deyildi. İsa ona diqqətli və sınayıcı nəzər saldı, hündür bir uçurumun təpəsində durub, öz gücünü dənizə atılmamışdan

qiymətləndirmək istəyən adam təki baxdı. Dərinlikdə yırtıcı heyvanların, ya da şişuclu qayaların olmasından xəbər tutmaq üçün belə baxmırlar, yalnız ona görə baxırlar ki, özlərindən soruşsunlar: "Aşağı atılmaq üçün cəsarətin çatacaqmı?"

Bu qadını cəmi bir həftədir ki tanıyır, bu isə tam bir əbədiyyət deməkdir. Ya da azından, onun yanına gələndə qoynunu açıb özünü, öz bədənini təklif edəcəyinə əmin olmaq üçün bəs deyincə yetərli müddətdir. Lakin İsa cəmi bir neçə saat qabaq qan cəhətdən doğma, lakin ruhən yad çıxmış adamların onu rədd etdiyini deməyə qorxurdu. Şəksiz ki, indi bunun əsl zamanı idi. Amma İsa tərəddüd içindəydi, bilmirdi, sözlərinin başını açıb hansı yola buraxsın. Nəhayət, uzun, müfəssəl izahatın yerinə dilindən zaman qazanmaq üçün dediyi bir ifadə qopdu. Hərçənd ki bu ifadəylə nəinki zaman, heç bir şey udmaq olmaz, ancaq itirmək mümkündür – elə vaxtı da: "Yəqin, belə tez gəlməyimə təəcubləndin, hə?" "Mən səni bu darvazadan çıxdığın dəqiqədən gözləməyə başlamışam. Gedişinlə gəlişin arasındakı zamanı da ölçməmişəm. On ildən sonra dönsəydin belə, ölçəsi deyildim". İsa gülümsünüb yüngülcə çiynini çəkdi – artıq bilməyin vaxtı idi ki, bu qadınla nə yersiz təfsilata ehtiyac var, nə ikiüzlülüyə. Onlar döşəmədə üz-üzə oturmuşdular, aralarındakı yağ çırağı şam yeməyinin qalıqlarını işıqlandırırdı. İsa bir tikə çörək götürdü, əlində ikiyə bölüb birini Mariyaya uzadaraq dedi:

– Qoy bu, bir tikə həqiqət çörəyi olsun, onu yeyək ki, burda deyiləcək və eşidiləcək heç bir şeyə şübhəylə yanaşmayaq.

– Qoy belə olsun, – Mariya dedi.

İsa tikəsini yedi, onun da öz payını yeyib qurtarmasını gözlədi və sonuncu gecə-gündüzdə dördüncü dəfə dedi:

– Mən Tanrını görmüşəm.

Maqdalina elə oturduğu kimi də oturmuşdu, həmin sözlər səslənəndə yalnız dizlərinin üstündə çarpazlaşdırdığı əlləri azacıq tərpəndi.

– Bir də görüşəndə deyəcəyini vəd etdiyin bu idi?

– Hə, bu idi və dörd il qabaq evimizi tərk edəndən bəri başıma nə qədər çox cürbəcür hadisələr gəlirdisə, bir o qədər də aydın görürdüm ki, bütün bunlar bir-birinə bağlıdır. Lakin niyəsini, nədən ötrüsünü hələ də aydınlaşdıra bilmirəm.

– Mən, – Maqdalina dedi, – elə hesab et ki, sənin dodaqların və qulaqlarınam. Mənə nə desən, elə bil, öz-özünə demisən. Mən – sənin içində nə varsa, bax, oyam.

İndi İsa söhbətinə başlaya bilərdi. Hər ikisi düzlük, həqiqət çörəyi kəsib yemişdilər və həqiqət də burasında idi ki, həyatda bu saat kimi saatlar çox az olur.

Gecə şəfəqə sarı axdı, çıraq iki dəfə öldü, iki dəfə də dirildi və İsanın hekayəti elə təfərrüatlarla dilə gətirildi ki, biz onları heç vaxtında diqqətəlayiq saymamışdıq. Burada bizə bəlli olmayan neçə-neçə şeylər səsləndi – ona görə yox ki, İsa onları bizdən gizlətmişdi, sadəcə, İncil yazan, gəlin bununla razılaşaq, axı hər şeyə vaxt çatdıra bilməz. O zaman ki İsa Nazaretə qayıdandan sonra baş verənlərə keçdi, səsi, elə bil, birdən zəifləndi və çaşqınlıq, qüssə içində susdu. Bilmirdi, danışsınmı? İçində eynən ata evinin qapısını döyməmişdən qabaq keçirdiyi xoşagəlməz hissiyyatlar kimi indi də qəribə hisslər dolaşırdı. Bu zaman Maqdalina bütün bu müddət ərzində sükutunu ilk dəfə pozaraq bir sual verdi, amma görünürdü ki, cavabını özü də gözəl bilir:

– Anan sənə inanmadı?

– Hə, inanmadı.

– Sən də bura gəldin, bu evə?

– Hə.

– Həyatda hər şeyimdən keçərdim ki, sənə yalandan "mən də inanmıram" deməyə gücüm çatsın.

– Niyə axı?

– Çünki onda, sən atan evini tərk etdiyin kimi, bu evi də tərk edərdin. Mənə isə, əgər inanmıramsa, sənin arxanca getmək olmazdı.

– Qoy belə olsun, amma bu, mənim sualımın cavabı deyil.

– Düz deyirsən, bu, cavab deyil.

– Onda cavab ver.

– Əgər mən sənə inanmıramsa, bəxtinə yazılmış o dəhşətləri sənin lə birgə yaşamayacağam.

– Sən bunu hardan bilə bilərsən axı?

– Mən Tanrı haqqında heç nə bilmirəm, bircə bunu bilirəm ki, onun seçdiyi insan olmaq da dəhşətlidir, lənətlərinə tuş gəlməyin özü də.

– Nəyə görə belə deyirsən?

– Tanrının rədd etdiyi birisi ilə yaşamağın nə demək olduğunu bilmək üçün qadın olmaq gərəkdir, səndən isə Tanrının sevimlisi adına layiq yaşamaq və buna layiq ölmək üçün adi bir kişidən tələb olunanlardan min dəfə artıq fədakarlıq tələb olunacaq.

– Sən məni qorxudursan, Maqdalina?

– Mən sənə gör nə danışmaq istəyirəm. Bir dəfə yuxuma bir körpə girdi, kim bilir, hardan, necə peyda olmuşdu. Gəldi və dedi ki, Tanrı dəhşətlidir. Dedi və o an da yoxa çıxdı. Mən heç bilmədim ki, kiminki idi bu körpə.

– Yuxudur da, burda nə var ki?

– Bunu kim desə də, sən gərək belə saymazyana deməyəsən.

– Yaxşı, bəs sonra nə oldu?

– Sonra, sonra mən öz peşəmlə məşğul oldum.

– Bəs indi necə, buraxdın da sənəti.

– Amma mənim bu yuxumu, heç sən mənim həyatıma girəndən sonra da heç kəs təkzib etmədi.

– Bir də təkrar elə, körpənin dediklərini təkrar elə.

– Tanrı – dəhşətlidir.

İsa yenə səhranı gördü, ölü qoyunu, torpağın üstündə onun qanını gördü, bulud sütunundan çıxan son dərəcə razı nəfəs səsini eşitdi və belə dedi:

– Ola bilər, ola bilər, amma yenə də, bir var, bunu yuxuda görəsən, bir də var, əyani yaşayasan. Tanrı sənə bunu görməyi qismət etməsin.



– Qədərdən qaça bilməzsən. Sənin taleyin isə artıq bəyan edilib – sən birinci və ən vacib əlaməti artıq almısan.

Maqdala üzərində və bütün dünya üzərində göyün ağzına kimi dolu süzgəci aramla hərlənirdi. Nəhayətsiz ənginlikləri nəhayətsiz həddə dolduran Tanrı həmin bu nəhayətsizliyin bir küncündə oturub fiqurları hərəkət elətdirir, zər atırdı. Başı nəsə başqa bir oyuna qarışmışdı. Bu oyuna isə hələlik əli çatmırdı. Ancaq bunu edə bilmişdi ki, hadisələr özünün təbii axarıyla cərəyan etsin və hərdən də çeçələ barmağının ucuyla ilişmiş bir hərəkəti, bir fikri lap yüngülcə itələyib tərpədirdi ki, talelərin rəhmsiz harmoniyası pozulmasın.

– Sən dedin ki, mənimlə hara desəm, gedərsən.

– Dedim, sən harda olsan, mən də ordayam.

– Nə fərqi var?

– Heç bir, bu, o deməkdir ki, burda ürəyin nə qədər istəyir, o qədər də qala bilərsən – əgər bədənimi satdığım evdə yaşamaq səni sıxmırsa.

İsa fikirli-fikirli susdu, sonra cavab verdi:

– Maqdalada iş tapmağa cəhd eləyim, sənin lə ər-arvad kimi yaşayarıq.

– Bu, mənimçün həddindən çox oldu, mənə bəs edər ki, ayaqlarının altına sərilməyimə imkan verəsən.

İsa Maqdalada heç bir iş tapmadı, əvəzində bəs deyincə kinayələrə, iztehzalara, şit zarafat və təhqirlərə tuş gəldi. Əgər təzəcə qıllanmış bir beçə özünü bütün el-aləmin tanıdığı bir qadına toxuyursa, başqa necə olmalıydı ki? "Bir az gözləyin, – deyirdilər, – qoy bircə həftə keçsin, bir də görəcəksiniz ki, qapının ağzında oturub onun müştəri yola salmasını gözləyir".

İsa iki həftə dözdü, sonra isə Mariyaya dedi:

– Mən gedirəm.

– Hara?

– Dənizə sarı.

Onlar səhər hava işıqlanmamışdan getdilər və Maqdalanın sakinləri heç nə qazana bilmədilər; yanan evdən nəsə çıxarmağa macalları olmadı.

* * *

Bir neçə aydan sonra, qışda, yağışlı soyuq gecələrin birində Nazaretli Mariyanın – Məryəmin evinə mələk girdi və uşaqlardan heç biri oyanıb onun gəlişindən xəbər tutmadılar – yalnız onun özü eşitdi. Əgər mələk bu sözlərlə birbaş onun özünə müraciət edirdisə, başqa cür ola da bilməzdi:

– Sən bilməlisən, Məryəm, ilk dəfə uşağa qaldığın səhər Tanrının toxumları ərin İosifin toxumlarına qarışmışdı. Amma sənin qanuni ərin o deyil, sən oğlun İsaya Tanrının toxumundan qalmısan.

Bu xəbərdən görünməmiş həddə təəccüblənən Məryəm xoşbəxtlikdən elçinin pəltəkliyinə baxmayaraq, dediklərinin məğzini aydın qavramışdı deyə soruşdu:

– Deməli, mənim oğlum İsa həm də Tanrının oğludur?

– Qadın, bu nə hörmətsizlikdir, sən öz adını birinci qoymağa necə cəsarət edirsən? Deməlisən ki, "Tanrının və sənin oğlun".

– Tanrının və sənin?

– Mənim yox, sənin.

– Sən məni tamam çaşdırdın, başımı xarab elədin, düzəməlli cavab ver görüm, İsa kimin oğludur?

– Tanrının, sən isə ancaq onu bətnində gəzdirib doğmusan.

– Deməli, belə. Tanrı seçib məni?

– Sənə necə deyim: Tanrı o vaxt buralarda imiş, elə göyün rənginin qəflətən dəyişməsi buna sübutdur. Baxıb görür ki, sən də, ərin də sağlam adamlarsız, bədəninizdə qüsur-zad yoxdur. Əgər sən istəyin necə yarandığını, nədə təzahür etdiyini hələ unutmamısansa, o, səni arzulayıb və nəticədə doqquz aydan sonra İsa dünyaya gəlib.

– Tam əmin ola bilərəm ki, mənim ilk övladım məhz Tanrıdandır?

– Bu çox incə məsələdir, sən məndən nə az, nə azacıq, birbaş atalığın təsbit edilməsini istəyirsən, mən isə sənə deyirəm ki, belə vəziyyətlərdə nə analiz verirsənsə ver, nə sınaq götürürsənsə, götür, qan hissəciklərini necə sayırsansa say, heç nəyi tam arxayınlıqla demək olmaz.

– Mən yazıq səni dinləyəndə fikirləşdim ki, həmin səhər Tanrı özü seçib məni, arvadlığa götürüb. İndi isə belə çıxır ki, məsələ hələ də tam qaranlıqdır. Belə də ola bilər, elə də. Bilirsən, nahaq yerə göylərdən Nazaretə enmisən, içimə təzədən tərəddüdlər saldın, amma əgər bilmək istəyirsənsə ki, mən bu barədə nə fikirləşirəm, sənə bunu söyləyə bilərəm: Tanrının oğlu əgər mənim bətnimdə böyüyübsə də, doğulanda da, böyüyəndə də həm qəddi-qamətindən, həm də üzündən, nitqindən ona oxşamalıdır. Lakin ana məhəbbəti kor olsa belə, görürəm ki, oğlum İsa bu tələblərə cavab vermir.

– Məryəm, sənin birinci səhvin budur ki, elə bilirsən, mən bura Hakimi-Mütləqin məhəbbət macəralarından söz açmağa gəlmişəm. İkinci səhvin odur ki, elə bilirsən, insanın gözəlliyi və bəlağəti Tanrıya bənzədiyindən qaynaqlanır, hərçənd ki bizim Tanrımız – sən mənə inan, mən, necə deyərlər, onun yanına girib-çıxanam – siz insanlar onu özünüz üçün necə təsəvvür edirsinizsə, onun tam əksidir. Ən azı, mən belə hesab edirəm ki – öz aramızda qalsın – heç başqa cür ola da bilməzdi. Mən ondan daha tez-tez "hə" kəlməsini deyil, "yox" kəlməsi eşidirəm.

– Mən də elə bilirdim ki, hər şeyi şübhə altına alan, hər şeyi inkar edən İblisdir.

– Yox, mənim qızım, İblis özü özünü inkar edir və əgər sən bu fərqi bütün qəlbinlə dərk etməyəcəksənsə, kimə məxsus olduğunu heç vaxt bilməzsən.

– Təbii ki, Tanrıya.

– Bax sən deyirsən ki, Tanrıya məxsussan, özün isə üçüncü, ən pis yanlışlığa düçar olmusan. Öz oğluna inanmırsan.

– İsaya?

– Daha kimi deyəcəyəm ki, sənin uşaqlarının başqa heç birisi Tanrını görməyib və heç vaxt da görməyəcək.

– Mənə söylə, ey Tanrının mələyi, deməli, mənim oğlum İsa, həqiqətən, Tanrı ilə görüşüb?

– Hə, görüşüb və ömründə birinci dəfə quş yuvası tapan balaca uşaq necə yüyürüb öz tapıntısını anasına göstərərsə, o da sənin yanına gəlib, sənlə bölüşüb. Sən etibarsız isə dedin ki, bu, ola bilməz: yuva boşdur, lap əgər içində yumurta varsa belə, artıq iylənib, əgər yoxdursa da, deməli, onları ilan yeyib.

– Bağışla məni, mənim mələyim, inamsızlığımı bağışla.

– Bunu mənə deyirsən, yoxsa oğluna?

– Həm sənə, həm oğluma – hər ikinizə. Mən günahımı necə yuyum?!

– Ana ürəyi özü deyər necəsini.

– Yəqin, onu axtarıb tapmaq lazımdır, demək lazımdır ki, məni bağışlasın, evə qayıtsın, Tanrı da onu lazımı olanda yanına bu evdən çağırsın.

– Düzünü desəm, heç bilmirəm ki, bu fikirləşdiklərini eləyə biləcəksən, yoxsa yox. Oğlan uşaqları yaman inciyən olurlar. Qorxuram ki, acı sözlər eşidəsən, bəlkə də, lap üzünə qapını çırpacaqlar.

– Əgər belə bir şey baş versə, bütün günahlar o İblisin, İsanın canına daraşıb oğlumu məhv eləyən əcinnələrin boynuna düşəcək. Mən, düzü, heç başa düşmürəm ki, Tanrı – hər halda, atasıdır axı! – İblisə niyə bu qədər güzəştə gedir, onun qulağını çəkəydi gərək.

– Sən kimin barəsində danışırsan?

– O çobanı deyirəm, oğlum dörd il onunla sürü otardı, o sürüdən də heç nə görmədi.

– Hə-ə, sən Çobandan danışırsan.



– Sən onu tanıyırsan?

– Məktəbdə bir oxumuşuq.

– Bəs niyə Tanrı ona imkan verir, torpağı tapdasın, sonra da şad-xürrəm yaşasın?!

– Ona görə ki, dünyanın düzəni belə tələb eləyir, son söz isə həmişə Tanrınındır. Amma heç kəs bilməz bu söz nə vaxt səslənəcək. Sənin isə şübhən olmasın ki, günlərin bir günü səhər-səhər oyananda görəcəyik yer üzündə artıq şər yoxdur. İndi isə vaxtdır, əgər yenə nəsə soruşacaqsansa, dayanma.

– Bir şey də soruşacağam.

– Eşidirəm.

– Tanrı mənim oğlumu neyləyir?

– Bax sən yenə ona "oğlum" deyirsən.

– İnsanların gözündə İsa mənim oğlumdur.

– Soruşursan, o, Tanrının nəyinə gərəkdir? Sənə deyim ki, gözəl sualdır. Mən hətta deyərdim ki, qiyamət konkret sualdır. O ki qaldı cavabına – bunu deyə bilməyəcəyəm. Çünki mən sualın cavabını bilmirəm. Əslində, bunu onların ikisindən savayı kimsə bilmir. Qorxuram ki, İsanın özü də sənə söylədiklərindən artığını bilməyə.

– O, mənə dedi ki, öləndən sonra hakimiyyət, şöhrət qazanacaq.

– Bunu mən də bilirəm.

– Bəs Tanrının bu nemətinə layiq görülmək üçün həyatda, görəsən, nə etməlidir?

– Hə-ə-ə, yəni, ey bisavad qadın, doğrudan, sən elə düşünürsən ki, sənin özünəarxayınlıqla söylədiyin bu sözlərin Tanrının gözündə qədir-qiyməti var? Tanrı iradəsinin müticəsinə həyata keçirilməsindən savayı sizin kimi miskin qulların hansı xidməti ola bilər ki?

– Yaxşı, daha bir kəlmə də dillənməyəcəyəm, mən, həqiqətən də, Tanrı quluyam, qoy özüm də Onun dediyi kimi olum, bircə buna cavab ver. Oğlumu hardan tapım? Gör artıq neçə aydır evdən gedib?

– Axtar, öz borcunu yerinə yetir, necə ki İsa itmiş qoyunu axtara-axtara yerinə yetirdi. Axtardı ki, axırda öldürsün. Qorxma, səni bu təhlükə gözləmir, amma sən əgər ölüm saatında onun yanında olmasan, doğrudan da, öldürəcəksən onu.

– Sən hardan bilirsən ki, mən ondan çox yaşayacağam?

– Gəl bir, mən də bilməyim. Mən bu qərarların qəbul edildiyi dairələrə yaxınam. İndi isə salamat qal, bilmək istədiyin hər şey haqqında soruşdun, bəlkə də, soruşmalı olduğun hər şeyi soruşmadın. Amma bu daha mənim problemim deyil.

– Mənə izah elə.

– Sən özün özünə hər şeyi izah eləyərsən.

Bu sözlərdən sonra mələk yox oldu, Məryəm isə gözlərini açdı. Uşaqları yatmışdı. Üç böyüyü – İakov, İosif, İuda bir küncdə, üç kiçiyi – Simon, İustin və Samuil o birində. Özünün hər iki tərəfində isə, elə həmişəki kimi, qızları Lidiya, Liziya yatmışdı. Məryəmin mələkdən eşitdiyi həqiqətlərdən, onsuz da, karıxmış gözləri heyrətdən lap təpəsinə çıxdı. Böyük qızı yerinin içində yayılıb uzanmışdı, o qədər çabalamışdı ki, lütlənib köynəyini döşlərindən də yuxarı çırmamışdı, dərin yuxuda kəsik-kəsik nəfəs alaraq xumar-xumar gülümsünürdü. Alnında, sanki, öpüşməkdən şişkinləmiş, qızarmış dodaqlarında yüngül tər damcıları işarırdı. Bütün bu əlamətlər o qədər birmənalı idi ki, Məryəm əgər burada yalnız və yalnız danışmaq həvəskarı olan bir mələyin olmasından tam əmin olmasaydı, qara-qışqırıq salardı ki, yatmış qadınları öz məkriylə zorlayan hansısa iblis balası günahsız qızın ehtiyatsızlığından, anasının isə başının söhbətə qarışmasından sui-istifadə edib, onunla mazaqlaşıb. Və çox ola bilər ki – biz, sadəcə, bunu hələ bilmirdik – mələklər həmişə cüt-cüt işləyirlər və biri fikir yayındırmaq üçün söhbət açanda o birisi dinməzcə *aktus nefandus*[1] edir. Bunu biz elə-belə, nitq ənənələrinə sadiq qalaraq söylədik, çünki bu aktda,

[1] Murdar əməl (*lat.*)



əslində, *nefand* bir şey də yoxdur və çox güman ki, onlar cism və ruhun mübarək bayramını tam həcmində duymaq üçün növbəti dəfə yerlərini və vəzifələrini dəyişəcəklər. Məryəm qızını bacardığı kimi abırlı vəziyyətə gətirdi, çırmanmış köynəyini gizli saxlanması zəruri olan yerə kimi çəkdi, onu oyatdı və birbaşa soruşdu:

– Yuxuda nə görürdün?

Qəfil yaxalanmış Liziya nə yalan deyə bilirdi, nə də cavabdan boyun qaçıra. Qız belə cavab verdi:

– Yuxuma mələk girmişdi, amma heç nə demirdi, yalnız baxırdı. Özü də elə incə, elə zərif baxırdı ki...

Qız onun baxışından elə hisslər yaşamışdı ki, yəqin, heç cənnətdə də bundan yaxşı ola bilməzdi.

– O, sənə toxunmurdu ki? – Məryəm soruşdu və Liziya cavab verdi:

– Bizə göz nə üçün verilib?

Məryəm özü də bilmirdi ki, düz böyründə baş verənlərdən sakitləşsin, yoxsa daha da narahat olsun. Elə həmin sakit səslə dedi:

– Bilirsən, mən də yuxuda mələk gördüm.

– Səninki necə, danışırdı, yoxsa susmuşdu? – günahsız Liziya soruşdu.

– Danışırdı, özü də dedi ki, sənin qardaşın İsa bizə yalan söyləməyib, o Tanrını görmək məsələsini deyirəm.

– Ah, ana, nə pis oldu ki, biz onun sözlərinə inanmadıq, axı bizdən inciyə də bilərdi, pulları da alıb gedərdi – cehiz üçün verdiklərini deyirəm. Amma aparmadı. İndi gərək fikirləşək ki, günahımızı necə yuya bilərik.

– Axı biz onun harda olduğunu bilmirik, bir xəbər-ətəri də yoxdur. Bax mənim mələyim kömək eləyə bilərdi bizə, axı mələklər hər şeyi bilir. Amma eləmədi, bircə onu dedi ki, bizim borcumuz İsanı axtarıb tapmaqdır. Əgər o, həqiqətən, Tanrını görüb onunla danışıbsa, bu gündən etibarən bizim həyatımız dəyişəcək.

– Dəyişəcək, özü də pisə doğru dəyişəcək, çünki əgər biz ona, onun sözlərinə inanmamışıqsa, düşünürsən ki, başqaları inanacaq?

– Nazaretin içində yüyürüb "İsa Tanrını görüb, İsa Tanrını görüb" çığırışmayacağıq ki... Bizi daşqalaq eləyərlər. Lakin əgər Tanrı seçibsə onu, bizi, onun doğmalarını da müdafiə edər.

– Nahaq yerə buna belə arxayınsan. Tanrı bizim İsanı seçəndə biz yanında deyildik, Onun üçünsə nə valideyn var, nə övlad. Avraamla oğlu İsaakı yadına sal.

– Ah, anacan, yaman pis oldu bu! Ən ağıllısı – bütün bunları içində gizlədib mümkün qədər az danışmaqdır.

– Yaxşı, bəs indi biz nə edək?

– Sabah mən İakovla İosifi qardaşlarının axtarışına yollayacağam.

– Axı harda axtaracaqlar onu? Qalileya nəhəngdir. Bəs Samariyaya, İudeyaya, İdumeneyə yollanıbsa, necə olsun, onlar lap dünyanın qurtaracağıdır ki...

– Çox güman ki, sənin qardaşın dənizə tərəf gedib.

– Yadındadır, bizdə olanda danışırdı ki, balıqçılarla dostlaşıb?

– Bəlkə, yenə sürü otarır?

– Yox, onun vaxtı keçdi.

– Hardan bilirsən?

– Yat, Liziya, səhərə hələ xeyli var, yat.

– Bəlkə, mələklərimiz yenə yuxumuza girərlər?

– Bəlkə də.

Lakin əgər Liziyanın mələyi öz şərikindən canını qurtararaq onun yuxusuna təkrarən gəldisə də, qız bunu duymadı. Xəbərçi mələk isə, əgər Məryəmə nəsə çox vacib bir şeyi çatdırmağı unutmuşdusa belə, onun yuxusuna ikinci dəfə girə bilməzdi. Çünki qadın düz səhərə kimi gözlərini də yummayıb alaqaranlıqda oturdu. Ona bəlli olanlar nigaran düşüncələri üçün artıqlamasıyla bəs edirdi. Şübhələndikləri isə onu qorxu məngənəsində boğurdu.

Gün doğdu, həsirlərini bükdülər və Məryəm bütün ailəni başına yığıb məlumat verdi ki, son zamanlar İsayla davranışları haqqında çox düşünüb. "Hamıdan əvvəl bir ana kimi mən özüm gərək ona qayğı, mərhəmət göstərəydim. Onu başa düşməyə çalışaydım. Odur ki tamam aydın və ədalətli qərar qəbul etmişəm. Biz gərək onu tapaq, xahiş edək ki, evə dönsün. Deyək ki, özünə tam inanırıq. Əgər Tanrı özü bunu istəyirsə, elə dediklərinə də inanarıq", – Məryəm övladlarına belə dedi və heç özü də fikir vermədi ki, eynilə İsanın evdən çıxıb getdiyi acınacaqlı anda İosifin qardaşına dediklərini birər-birər təkrar edir. Nə bilmək olar, oğlanın mızıldayaraq dediyi, zorla eşitdikləri həmin sözlərə qalanları da səs ucaltsaydılar, İsa doğma ocağını, bəlkə də, heç tərk edib getməzdi də. Məryəm nə mələk haqqında bir söz dedi, nə də onun söylədikləri barədə. Söhbətini yalnız kiçik qardaşların və bacıların böyük qarşısında olan borcu haqqında danışaraq aparırdı. İakov anasına etiraz etməyə cəsarət etmədi, hərçənd qəlbinin dərinliklərində tam əmin idi ki, qardaşı ya ağlını itirib, ya da ən yaxşı halda (amma bunu heç istisna etmək olmazdı), kiminsə qəddar və ələ salmaq məqsədi daşıyan acı zarafatının qurbanı olub. Anasının nə cavab verəcəyini qabaqcadan gözəl bilsə də, soruşdu:

– Bəs İsanı axtarmağa bizlərdən kim gedəcək?

– Elə sən gedəcəksən. Ondan sonra ailənin böyüyü sənsən, səninlə isə İosif gedəcək. Birlikdə həm gününüz xoş keçər, həm də səfəriniz təhlükəsiz olar.

– Bəs yaxşı, axtarışlarımızı hardan başlayaq?

– Qalileya dənizinə gedin, mən əminəm ki, qardaşınızı orda taparsınız.

– Sən bizim nə vaxt getməyimizi istəyirsən?

– İsanın getdiyindən bir neçə ay keçib, odur ki bir saat da ləngimək olmaz.

– Gör necə leysan tökür, bu havada yola çıxmaq yaxşı deyil.

– Oğlum mənim, şərait həmişə zərurətlər doğura bilər, lakin bəzən zərurət o qədər güclü olur ki, şəraiti özü doğurur.

Uşaqlar analarına təəccüblə baxdılar, çünki ondan belə cilalı ibarələr eşitməyə adət etməmişdilər. Yaşlarının azlığından dərk edə bilmirdilər ki, məsləklərin gəlişi heç vaxt nəticəsiz olmur və bundan da parlaq nəticələrə gətirib çıxarır. Bunun ən gözəl sübutu da elə o idi ki, Liziya həmin an anasının sözləriylə razılaşdığını başını tərpətməklə deyil, ehmallıca, xumar-xumar aşağı dikməklə bildirdi. Ailə məsləhətləşməsi beləcə başa çatdı və İakovla İosif çıxdılar görsünlər ki, hava daha pis qızışmayıb ki? Qismətlərinə qardaşlarını axtarmaq üçün yağışlar ayında səfərə çıxmaq düşsə belə, ən azı, həyətlərindən xeyli uzaqlaşana kimi iliklərinə qədər islanmaq istəmirdilər. Göylərin də, elə bil, yazığı gəlmişdi onlara. Düz Qalileya dənizinin üstündə günün quru keçəcəyini vəd edən buludsuz mavi səma görünürdü.

Evin içində vidalaşdılar, çünki Məryəmin düşüncəsinə görə qonşular lazım olandan artıq bilməməliydilər. Beləliklə, qardaşlar yola düzəldilər; amma Maqdala yolu ilə yox. Çünki İsanın o istiqamətdə getdiyinə dəlalət edən heç bir şey yox idi. Tamam başqa yolla getdilər və bu yol tezliklə onları birbaş Yeni Tiveriada şəhərinə çıxarmalıydı. Yollar yağışdan yaman palçıq idi və elə bu səbəbdən qardaşlar ayaqyalın gedirdilər. Fikirləşirdilər ki, səndəllərini horra palçığın içində itirməkdənsə, dağarcığın dibində qoysalar yaxşıdır. İakov Tiveriad yolunu iki səbəbdən seçmişdi: əvvəla, kənddə yaşayan birisi kimi barəsində yalnız ağızdan-ağıza eşitdiyi saraylara, məbədlərə və digər əzəmətli tikililərə baxmaq üçün burnunun ucu göynəyirdi. İkincisi isə, şəhər, bildiyinə görə, Tiveriad dənizinin sahilində yerləşirdi. Dənizin düz şimalla cənub kənarlarının ortasında, yəni yolun tən ortasında. Axtarışlar nə qədər davam edəcəkdi, bunu kimsə bilməzdi. Hər halda, yaşamaq da lazım idi axı və İakov, guya, oradakı kükürdlü bulaqlar ucbatından havasının zəhərli olması barədə

mömin nazorilərin mülahizələrini qulaqardına vuraraq, şəhərdəki tikintilərin birində pul qazanmaq niyyətindəydi. Lakin axşamadək onlar Tiveriada yetişə bilmədilər – göylər verdiyi vədə sədaqətli qalmamışdı. Heç bir saat keçməmiş yağış yenə başladı və xoşbəxtlikdən bu yağış onları yoldan zibil təki süpürüb aparacaq leysana çevrilənə kimi qardaşlar bir mağara aşkarlayıb içində daldalanmağa macal tapdılar. Elə orada – mağaradaca gecələdilər, səhər isə artıq acı təcrübələrindən bəhrələnib havanın birdəfəlik düzəldiyinə və demək olar ki, qurumuş paltarlarının islanmayacağına əmin olana kimi çölə çıxmadılar. Tiveriadda onlar daş yonmaqla məşğul oldular. Yeni iş idi, heç tanış deyildilər, odur ki bir neçə gündən sonra xeyli pul qazandıqlarını görəndə əməlli-başlı sevindilər. Ona görə yox ki, İrod Antipa öz inşaatçılarına pulu səxavətlə verirdi. Yox. Ona görə ki, fəhlələrin ehtiyacları o qədər cüzi idi və o qədər nadir hallarda meydana çıxırdı ki, onları təmin etməyə əhəmiyyət verməmək də olardı.

Elə orada – Tiveriaddaca sorğu-sual elədilər ki, buralarda kimsə Nazaret şəhərindən İsa adlı birisini görübmü: "O, bizim doğma qardaşımızdır, boyu, təxminən, bu boydadır, tək olub-olmadığından da xəbərimiz yoxdur. Əmin deyilik, odur ki bir şey söyləmirik". Onlara cavab verirdilər ki, bu yerlərdə, deyəsən, elə adam görməyiblər. Nəhayət, bütün tikintilərə baş çəkəndən sonra İakovla İosif əmin oldular ki, İsa Tiveriada girməyib və burada qəribə heç nə yox idi: onbaşıların ağır əlinin altında zırpı daşlarla əlləşməyin nə mənası vardı ki?! Əgər əvvəlki balıqçılıq peşəsinə qayıtmaq niyyətindəydisə, dəniz, budur, lap yaxındaydı. Beləliklə, qardaşlar az da olsa, pul qazanmışdılar deyə, artıq qərar qəbul etməliydilər ki, kənddən-kəndə, arteldən-artelə, barkasdan-barkasa İsanı soruşa-soruşa sahillə cənub tərəfi gəzsinlər, yoxsa şimala getsinlər.

İakov cənub istiqamətini seçdi – yol ona asan gəlmişdi, hamar, düz idi, şimal tərəfin relyefi isə lap müsibət idi. Yağışlar başa çatmışdı deyə, hava da düzəlmişdi, bir az istiləşirdi,

bizim yeniyetmələrə nisbətən daha təcrübəli adam havanın özündə və torpağın titrəyişində baharın ilk ürkək müjdəsini duyardı. Analarının əmriylə çıxdıqları ekspedisiya yavaş-yavaş xudpəsənd və xoş bir ekskursiyaya çevrilməyə başlamışdı. Adama elə gəlirdi ki, onlar indicə dəniz sahillərinə niyə gəldiklərini də unudacaqlar, başları məsuliyyətsiz əyləncələrə qarışacaq. Lakin artıq gözləmədikləri halda ilk rastlaşdıqları balıqçılar İsa barədə onlara məlumat verdilər, özü də bax, belə qəribə sözlərlə:

– Biz onu görmüşük, tanıyırıq. Siz isə, əgər onu görsəniz, çatdırın ki, yolunu İlahinin neməti kimi gözləyirik.

Qardaşlar təəccübləndilər və əvvəl inanmadılar ki, söhbət onların qardaşı İsadan gedir. Fikirləşirdilər, yəqin, bu, başqa bir İsadır.

– Əlamətlərindən ona oxşayır, – bunu da balıqçılar deyirdi, – amma Nazaretdən olub-olmadığını bilmirik, bizə söyləməmişdi.

– Bəs niyə onu İlahi neməti kimi gözləyirsiniz? – İakov soruşdu.

– Çünki o, bizim qayıqda olanda balıq özü tora soxulur, biz ömründə belə bir şey görməmişik.

– Yəqin, siz deyən adam bizim İsa deyil – onun balıq tutmaqdan heç başı çıxmır.

– Biz söyləmirik ki, o, bacarıqlı balıqçıdır, o, bircə bunu deyir: "Toru, bax, bura atın". Biz də atırıq, çəkəndə isə görürük ki, ağzına kimi balıqla doludur.

– Əgər belədirsə, bəs o, niyə indi sizinlə deyil?

– Bir neçə gün qabaq harasa getdi, dedi ki, başqa balıqçılara da kömək etməlidir. Bu da ədalətli hərəkət idi, çünki artıq bizimlə üç dəfə dənizə çıxmışdı, hər dəfə də deyirdi ki, qayıdacaq.

– Bəs indi hardadır, görəsən?

– Bilmirik, deyirdi ki, cənuba gedəcək, amma, kim bilir, bəlkə, şimal istiqamətinə yollanıb. Biz onu başa düşmürük,

bir də görürsən peyda oldu, sonra da yoxa çıxdı. Kefi necə istəsə, elə də hərəkət eləyir.

Onda İakov İosifə dedi:

– Cənuba gedək, heç olmasa, bilirik ki, o, bu sahildədir.

Deyəndə asan gəlirdi, amma elə deyildi. Onlar sahil boyu gedərkən İsa növbəti möcüzəli ovunu nümayiş etdirmək üçün dənizə çıxa bilərdi. Biz öz hekayətimizdə belə xırdalıqlara diqqət yetirmirdik, lakin indi söyləməyin zamanıdır ki, tale, guya, hər şeyin qabaqcadan yazılması barədə bizim anlayışlarımızla qətiyyən uzlaşmır. Əslində, heç elə deyil. Özünüz baxın – kiminsə kiminləsə görüşəcəyi haqda alın yazısının çin olması üçün gərəkdir ki, bu iki nəfər, ən azı, lazım olan vaxtda, lazım olan yerdə olalar. Bu isə, mən bir də təkrar eləyirəm, heç də asan iş deyil. Bircə an ləngisən, məsələn, ayaq saxlayıb göydəki buluda tamaşa eləsən, quşların cəh-cəhinə qulaq assan, qarışqa yuvasının neçə girişi, neçə çıxışı olduğunu saymağa başlasan, ya da əksinə, fikrin dağınıq olduğundan bütün bunlara əhəmiyyət verməsən, baxmasan, dinləməsən, saymasan – həmin bu əlverişli məqam əldən çıxacaq. Qısasını deyək, dünyada öz alnına yazılan qisməti tapmaqdan çətin heç nə yoxdur. Bax, İosif, qardaşım, mənim yaşıma çatarsan, onda hər şeyi başa düşərsən.

İakovla İosif bütün xırdalıqları qabaqcadan nəzərə almaqda möcüzələr göstərirdilər – ətrafa dördgözlə baxır, ayaq saxlayıb dənizə balıq ovuna çıxmış barkasın dönməsini, sahilə yan almasını gözləyirdilər. Hətta ürəklərinə gələndə ki İsa arxada, artıq olduqları yerdə qalıb, mütləq qayıdırdılar. Bu minvalla onlar dənizin bütün sahili boyu gəzib-dolaşdılar, dayaz yerindən İordan çayını keçdilər və rastlaşdıqları ilk balıqçılardan İsa barədə soruşdular. "Əlbəttə, eşitmişik, – onlar cavab verirdilər, – bir gəl eşitməyək. Özü barədə də eşitmişik, ecazkar istedadı barədə də, amma o, buralarda görünməyib". Qardaşlar elə nəzərdə tutduqları kimi diqqətlərini ikiqat artıraraq şimala istiqamət götürdülər. Artıq

özləri də toru çəkəndə şah-balıq tutacaqlarına ümid eləyən balıqçılar kimi olmuşdular. Hər dəfə yol kənarında yatanda növbə ilə dincəlirdilər ki, İsanı qaçırmasınlar. Bir də gördün beyninə vurdu, bir yerdən o birinə aylı gecədə, xəlvətcə keçmək istədi. Bax, beləcə, onlar ərazini qarış-qarış ələk-vələk eləyərək Tiveriada yetişdilər. Bu dəfə artıq qazanc axtarmayacaqdılar, çünki hələ pulları vardı və bunun üçün onları balığa qonaq edən mərhəmətli balıqçılara minnətdar olmalıydılar. Bir dəfə qayıqdan boşaldılan balığı görəndə İosif İakovdan soruşmuşdu: "Heç ağlına gəlib ki, bu balığı bizim qardaşımız tutmuş olar?" İakov isə belə cavab vermişdi: "Nə olsun, bundan balığın dadı artmayacaq ki..." Bu sözlər qardaşlıq məhəbbətindən deyil, saman çuvalında iynə axtarmalı olan birisinin təbii əsəbiliyindən doğmuşdu.

İsanı isə onlar Tiveriaddan cəmi bir saatlıq məsafədə tapdılar. Onu, birinci, uzağı yaxşı görən İosif gördü və gözü sataşan kimi də qışqırdı:

– Odur! Ordadır!

Göstərdiyi səmtdə yolla iki nəfər gedirdi – kişiylə qadın – və bundan çaşmış İakov dilləndi:

– Yox, səhv salırsan.

Böyük qardaşla mübahisə etməzlər, amma İosif elə sevinirdi ki, adət-ənənələri qulaqardına vurub cavab verdi:

– Sənə deyirəm, odur!

– Yanında bir qadın da var axı.

– Qadın elə qadındır da; kişi isə – bizim İsadır.

Ətəkləri düz suya dirənən iki təpənin arasındakı vadinin düzənlik yerində, düz dənizin sahiliylə uzanan dar cığırla İsa və Mariya Maqdalina gedirdilər. İakov gözləyib ayaq saxladı və İosifə də bunu etməyi tapşırdı. O da içində etiraz etsə də, böyük qardaşına tabe oldu. Amma ürəyindən keçirdi ki, zülmlə tapdıqları qardaşının qabağına yüyürsün, boynuna sarılsın. İakovu isə İsayla yanaşı gedən naməlum qadın karıxdırmışdı – qardaşının artıq qadınları tanıdığına inanmağa



gücü çatmırdı. Çünki yalnız elə bunun mümkünlüyü onu böyük qardaşından çox-çox uzaqlaşdırırdı. Sanki, İsa artıq tamam başqa dünyanın adamı idi – Tanrını gördüyündən deyil, bakirliyini itirdiyindən. Söz sözü çəkər, fikir fikri, özü də bəzən onların birindən o birisinə hiss etmədən keçirik. Lap elə bil, yanları bağlı körpüylə çayın üstündən keçirsən, gedirsən, amma bilmirsən ki, hara çıxacaqsan, sonra da birdən məlum olur ki, sən demə, artıq suyun – varlığından xəbərdar olmadığın çayın üstündən ötmüsən. İakov heç özü də bilmədi neyləsin, amma başa düşdü ki, belə tir kimi çəkilib durmaq yaxşı deyil. Elə bil, ailənin ilki sən özünsən, gözləyirsən ki, kiçik qardaşın yaxınlaşıb salam versin. Onun bu fikri nə təhərsə İosifə ötürüldü, o da sevincək qışqırıqla, qollarını açıb İsanın üstünə yüyürdü və sahildəki hündür qamışlıqda gizlənib lildə eşələnərək yem axtaran bir sürü quşu ürkütdü. İakov addımlarını sürətləndirdi. İstəmirdi ki, qanunla yalnız özünün iddia etmək haqqı olduğu bir şeyə kiçik qardaşı nail olsun və onu qabaqlayıb dedi:

– Tanrıya şükürlər olsun ki, bizə nə vaxtdan bəri axtardığımız qardaşımızla görüşməyi qismət elədi.

İsa cavab verdi:

– Tanrıya eşq olsun ki, hər ikinizi sağ-salamat görürəm.

Mariya Maqdalina bir az aralı dayanmışdı. İsa soruşdu:

– Siz hara, bura hara?

İakov cavab verdi:

– Gəl kənara çəkilək, rahat danışaq.

– Bizə, onsuz da, mane olan yoxdur, – İsa dilləndi, – o ki qaldı gördüyün qadına, qardaşım, bunu bil ki, mənə deyəcəyin hər şey, səndən eşitmək istədiyim hər bir kəlmə onun yanında səslənə də bilər, eşidilə də.

Bu sözlərdən sonra ortaya elə dərin, elə qatı, elə uca bir sükut çökdü ki, sanki, dənizlərin, dağların lallığıydı, daha susaraq özündə güc axtaran dörd nəfər adi bəşər övladının yox. Bu ötən aylar ərzində İsa bir az da kişiləşmişdi, dərisi

bir az da qarabuğdayı olmuşdu, amma gözləri daha qızdırmalı adamlarınkı kimi alışıb-yanmır, qara saqqal basmış üzü, sanki, sakitliklə, rahatlıqla nəfəs alırdı. Elə bil, onun rahatlığını heç bu gözlənilməz görüş belə poza bilməzdi.

– Kimdir bu qadın? – İakov soruşdu.

– Onun adı Mariyadır, o da mənimlədir, – İsa cavab verdi.

– Nədir, yoxsa evlənmisən?

– Həm hə, həm də yox; həm yox, həm də hə.

– Başa düşmürəm.

– Mən heç ümid eləmirdim ki, başa düşəsən.

– İstərdim, təklikdə danışaq.

– Sən məgər mənim dediyimi eşitmədin?

Maqdalina irəliyə addımladı:

– Narahat olmayın, mən elə yerdə duraram ki, söhbətinizi eşitməyim.

– Mənim qəlbimdə sənə bəlli olmayan heç bir şey yoxdur, ona görə də ədalət naminə anamın mənim barəmdə düşündüklərini də bilməlisən. Bu yolla məni bütün bu söhbətləri sənə bir də danışmaq ehtiyacından azad etmiş olarsan.

Pərtlikdən İakovun sifəti qıpqırmızı oldu və o bir addım arxaya çəkildi – sanki, getmək istəyirdi və Maqdalinaya qəzəbli bir nəzər saldı. Lakin qəzəbdən başqa bu baxışlarda kinlə qarışıq şəhvət hissi də oxunurdu. İosif əllərini irəli açdı ki, qardaşlarını saxlaya bilsin – bundan artıq heç nə edə bilməzdi. İakov öz hisslərini ram etməyi bacardı və bir az ləngidi ki, fikrini toparlasın. Bəzi məqamları yadına salsın, sonra da avazla, yüksək səslə dedi:

– Anamız bizi göndərdi, səni axtarıb tapaq və deyək ki, o, sənin evə dönməyini xahiş edir, çünki biz sənə inanırıq və əgər bunu Tanrı istəyirsə, dediklərinə də inanarıq. Sənin buna cavabın nə olacaq?

– Bitdi? – bu, İsanın sözləri idi. Demək istəyirsən, siz özünüz heç bir səy göstərməyəcəksiniz ki, mənim sözlərimə

[1] *Tirada* – dramda qısa və təsirli monoloq



inanasınız, oturub gözləyəcəksiniz ki, Tanrı başınıza ağıl qoysun, dərketmə qabiliyyətinizi dəyişsin?

– Dərk edəcəyik, yoxsa yox – bu da Tanrıdan asılıdır.

– Səhvin var: Tanrı bizə ayaq verib – yeriyirik, amma mən indiyə kimi eşitməmişəm kimsə Tanrını gözləsin ki, ona "yeri" deyə əmr versin. Elə bizə bəxş etdiyi idrak məsələsi də belədir – gərək idrakımızdan öz iradəmizlə, öz arzumuzla istifadə edək.

– Mən sənin lə mübahisə etməyəcəyəm.

– Düz də edəcəksən, çünki bu mübahisədə qazana bilməzsən.

– Anama nə çatdırım?

– De ki, onun sözləri mənə çox gec yetişdi və bu sözləri vaxtında İosif də demişdi, amma onda anamız bunu təkrar etmək istəmədi. Əgər səma mələyi gəlib sizə danışdıqlarımın həqiqətini birər-birər təsdiq eləsə və sizi, nəhayət ki, Tanrı iradəsinə tabe olmağa inandırsa belə, mən evə dönəsi deyiləm.

– İsa, sən təşəxxüsünlə günah edirsən.

– Ağac onu kəsəndə inildəyir, iti vuranda zingildəyir, insan isə təhqir olunanda böyüyür.

– O, sənin anandır, biz qardaşların.

– Bu gündən belə mənim anam və qardaşlarım o insanlar olacaq ki, ağzımı açan kimi dediklərimə inanacaqlar. Mənim anam və qardaşlarım dənizə çıxanda ovun əvvəlkindən çox olacağına inananlardır. Mənim anam və qardaşlarım onlardır ki, taleyimə ağlamaq üçün ölümümü gözləmirlər.

– Ona çatdırası başqa sözün yoxdur ki?

– Başqa sözüm yoxdur, amma tezliklə mənim barəmdə eşidəcəksiniz, – dedi İsa və Maqdalinaya sarı çönüb dilləndi:

– Gedək, Mariya, qayıqlar dənizə çıxmağa hazırdır, balıq artıq sürüyə toplaşıb, məhsulu yığmaq vaxtıdır.

Onlar artıq uzaqda idilər ki, İakov qışqırdı:

– İsa, anam soruşacaq ki, səninlə olan qadın kim idi, nə cavab verim?

– De ki adı Mariyadır – o, mənimlədir.

Onun bu sözləri təpələrin arasında, dənizin üstündə cingiltili əks-səda verdi. İosif üzüstə yerə düşüb acı-acı ağladı.

* * *

İsa balıqçılarla dənizə çıxır, Mariya isə onu sahildə gözləyirdi – suyun lap kənarındakı daşın üstündə oturur, ya da onun qayığını daha asan izləmək mümkün olan təpəyə çıxırdı. Balıq isə özünü çox gözlətmirdi. "Hələ buralarda bir belə balığı kimsə görməmişdi – adamlar əvvəl-əvvəl belə deyirdilər – deyəsən, burda balıq tutmaq onu hovuzdan yığmaq kimi bir şeydir, özü düşür qucağına". Lakin bir-iki gündən sonra görürdülər ki, İsa qayıqda olmayanda balıq da çəkilir. Az sonra mənasız yerə tor atmaqdan qolları, çiyinləri ağrıyırdı, sudan bomboş çıxmış, bir-iki balıq ilişmiş toru görəndə isə adamı lap qüssə götürürdü. Bu səbəbdən də Qalileya dənizinin bütün qərb sahillərinin balıqçıları İsanı çağırır, İsanı tələb edir, onu yanına çəkməyə, özlərinə bağlamağa can atırdılar. Artıq bəzi yerlərdə onu gül-çiçəklə, palma budaqlarıyla, alqışlarla, bayramsayağı qarşılayırdılar.

Lakin insan elə xəmirdən yapılıb ki, onun tərkibində eyni qədər paxıllıq da var, qəzəb də, lap azacıq mərhəmət də. Bu xəmirin mayası isə qorxudur. Bu maya bütün murdar xasiyyətləri qıcqırdaraq çoxaldır, yaxşı cəhətləri isə kiçildir. Bu səbəbdən balıqçı artelları, hətta bütöv kəndlər arasında davalar da düşürdü. Çünki hamı istəyirdi ki, İsa ancaq ona kömək eləsin, başqaları isə özləri bilərlər, necə istəyirlər, qoy elə də keçinsinlər. Bu cür hadisələr baş verəndə İsa çıxıb səhraya gedir və davakarlar gəlib yalvarmayınca, öz hövsələsizliklərinə görə üzr istəməyincə qayıtmırdı. Balıqçıların belə hərəkətlərinin səbəbi isə, onların öz sözlərinə inansaq, İsanı həddindən çox sevmələri idi. Həmişəlik sirr olaraq qalacaq ki, niyə şərq sahillərinin balıqçıları öz elçilərini bura göndərmirdilər ki, yerlilərlə söhbətləşərək ədalətli bir razılığa

gəlsinlər. Onda İsa bu yerlərdə az olmayan, növbənöv bütpərəstlər istisna olmaqda bütün əyaləti öz xeyirxahlığı ilə eyni dərəcədə sevindirərdi. Onlar lap qaranlıq, aysız gecə seçib bir dəstə qayığı dəniz döyüşünə hazırlayırmış kimi təchiz eləyərək xəlvətcə sahilə yan alar, İsanı oğurlayıb özləriylə apara da bilərdilər. Artıq bolluğa öyrəşmiş qərb camaatını isə yenidən aclığa düçar edərdilər.

İsanın onu evlərinə aparmaq istəyən, sərsəriliyin daşını atmağa çağıran insanlar – hərçənd ki balıq ovu, balıq ticarəti və ondan doğan nə varsa xeyli dərəcədə bu sərsərilikdən asılı idi – qardaşları İakov və İosiflə görüşdüyü gün hələ də vardı. Elə həmin anlarda onlar – biri qəzəb, o birisi göz yaşları içində – iti addımlarla dağlardan, dərələrdən keçərək Nazaretə gedirdilər. Orada isə analarl, bəlkə də, yüzüncü dəfə özündən soruşurdu ki, görəsən, iki oğul yola salandan sonra üçünü bir yerdə qarşılayacağı günü görə biləcəkmi? Buna gümanın nə dərəcədə az olduğunu anlayırdı. Qardaşların sahildə İsayla görüşdükləri yerdən öz evlərinə kimi ən kəsə yol Maqdala şəhərciyindən keçirdi ki, bu şəhərciyi də İakov az tanıyırdı. İosif isə heç tanımırdı. Lakin elə ilk baxışdan nəticə çıxaranda, tanımamaqlarıyla elə bir şey itirməmişdilər. Orada yorğunluqlarını alıb yollarına davam etdilər. Bu yaşayış məskənindən artıq çıxarkən – yaşayış məskəni ifadəsi burda dörd tərəfdə görünən çöllüyə yalnız məntiqi və aydın antiteza kimi işlədilib – onlar bir az aralıda, yolun sol tərəfində kömür kimi qaralmış dörd divar gördülər. Yanmış evdən qalan ancaq bu idi. Həyətin qapısını aşkar yerindən çıxarmışdılar, amma yanmamışdı. Ətrafındakı hər şeyi udan yanğın evin içində başlamışdı. Belə vəziyyətlərdə yoldan keçən hər kim olsa, mütləq fikirləşir ki, yanğın yerində xəzinə tapacaq. Bu məqsədlə – əgər təpəsinə düşə biləcək tirdən qorxmursa – başlayır əlindəki ağacla, ya da ayaqqabısının burnuyla küllüyü eşələməyə. Bir də gördün, bu kömürlərin arasından qızıldan-zaddan, heç bir şəraitdə xarab olmayan

brilyant, zümrüd daş-filan parıldadı. İakovla İosif isə yalnız maraqları ucbatından içəri girdilər. O qədər sadəlövh deyillər ki, buralara hələ acgöz qonşuların ayağının dəymədiyini, ev yiyələrinin çıxara bilmədiyi, alovun isə toxunmadığı şeyləri axtarmadığını güman etsinlər. Amma bu ev elə kiçik idi ki, görünür, bütün qiymətli əşyaları xilas edə bilmişdilər. Yalnız lüt divarlar qalmışdı – təzə yerdə, onsuz da, təzə divarlar ucaltmaq mümkün idi. Ayaqlarının altında uçmuş ocağın ətrafına düzülən kaşı qırıntılarının xırçıltısı eşidildi.

– Burda heç nə yoxdur, getdik, – İakov dedi, amma İosif soruşdu:

– Bəs bu nədir?

Onun "bu" deyə işarə etdiyi isə enli, uzun taxt kimi bir şey idi. Qıçları yanmışdı, kənarlarından yanıb qarsılmış parçalar sallanırdı.

– Buna çarpayı deyirlər, – İakov izah elədi, – onun üstündə çarlar, varlılar yatır. Bir də ki bizim anamız.

– Yox bir, gör nələri müqayisə edirsən. Amma bura heç varlı adamın evinə bənzəmir.

– Zahiri görünüş aldadıcı olur, – İakov qəti dedi.

Onlar çıxdılar və İosif darvazanın o üzündə çəpərə sancılmış bir paya gördü. Belə paya ilə, adətən, ağacdan əncir salırlar. Amma ondan bu məqsədlə istifadə edəndə, yəqin ki, daha uzun imiş – sonradan baltalayıblar.

"Bu ağac niyə burdadır?" – o ya öz-özündən, ya da qardaşından soruşdu və cavab almadığından payanı özüylə götürdü. Yanğın yerindən, alışmış evdən, tanımadıqları, bir zamanlar burda yaşamış insanlardan xatirə kimi götürdü. Qardaşların evə necə girdiyini kimsə görməmişdi, çıxmaqlarını da görən olmadı. Sadəcə, əynində hisə bulaşmış tunikası olan iki yeniyetmə Nazaretə, evlərinə gedirdi. analarına qara xəbər aparırdılar.

Daşın üstündə oturub dənizə çıxmış İsanı gözləyən Maqdalalı Mariyanın düşüncələri isə Nazaretli Mariyanın –

Məryəmin yanında idi. Bu günə qədər İsanın anası onun üçün elə İsanın anası idi. Amma indi artıq adını bilirdi, çünki özü soruşmuşdu. Adaş idilər və bu təsadüf öz-özlüyündə elə bir məna kəsb etmirdi. Yer üzündə Mariya çoxdur və bu ad dəbə minsə, lap çox olacaq. Amma gəlin biz riskə gedib təxmin eləyək ki, eyni adın daşıyıcıları arasında nəsə çox sıx bir qohumluq əlaqəsi meydana çıxır və İosif, məsələn, başqa bir İosif barədə, onun atası olmuş İosif barədə fikirləşəndə özünü oğultək deyil, qardaş kimi hiss edirdi. Bu vəziyyətdə Tanrının halına yalnız acımaq olar. Çünki yer üzündə onun adını daşıyan bir kimsə mövcud deyil. Elə düşünməyə gərək yoxdur ki, sillogizmlər zəncirinin məhz bu son halqası Maqdalinanın beynində doğuldu. Düzdür, onu daha parlaq fikirlərə qadir istedadlı bir adam saymaq üçün barəsində kifayət qədər məlumatımız var, lakin indi onun düşüncələri tamam başqa səmtə yönəlmişdi. Belə də olur – qadın kişini sevir, amma onun anası barədə fikirləşir. Maqdalina ana məhəbbətini dadmamışdı, amma nəhayət ki, bu qədər müddət ərzində saxta, qondarma, yalançı məhəbbəti öyrənəndən, qəbul edəndən, bağışlayandan və məhəbbət olmayan nəsnənin min müxtəlif şəkliylə tanış olandan sonra, nəsibinə həqiqi qadın məhəbbəti tapmaq düşmüşdü. İsanı o, bir kişi kimi sevirdi, amma oğul kimi də sevmək istərdi. Yəqin, ona görə ki, evə dönməsini xahiş eləyən və rədd cavabı alan anasından çox da cavan deyildi. Maqdalalı Mariya indi Nazaretli Mariyanın – Məryəmin bu cavabı alanda keçirəcəyi əzablar barədə fikirləşirdi. Bu ağrı İsanı itirdiyini güman edəndə məruz qaldığı ağrılardan deyildi, elə olsaydı, oğlunu itirmiş olardı, sevgilisini yox. "İlahi, əgər nəsibimdə varsa, bu ağrının ikisini də mənə yolla". – Mariya İsanı gözləyəndə dodaqaltı dilləndi.

Barkas sahilə yan alanda və onu çəkib quma çıxaranda, ağzına kimi balıqla dolu zənbilləri boşaldanda, İsa isə dizə kimi suyun içində duraraq uşaq təki gülə-gülə balıqçılara kömək edəndə Maqdalalı Mariya birdən özünü

lap Nazaretli Mariya – Məryəm kimi hiss etdi, qalxdı, suyun içinə girdi ki, onun yanında olsun və çiynindən öpərək dedi: "Oğlum mənim".

Heç kəs ona İsanın necə cavab verdiyini eşitmədi: "Ana". Bəllidir ki, qəlbin diliylə deyilən söz səs donuna girmir, boğazda yumruq kimi düyünlənmir, ağızdan qəfil çıxmır və onu yalnız gözlərdən oxumaq mümkündür. İsayla Mariya barkasın sükançısının əlindən bir zənbil balıq qəbul etdilər – öz payları, qazandıqları idi – və həmişəki kimi gecəni harda keçirəcəkdilərsə, oraya da yollandılar. Hə, onların həyatı belə keçirdi – evsiz-eşiksiz, sığınacaqsız, köçəri. Əvvəl-əvvəl İsa bir neçə dəfə Mariyaya belə deyirdi: "Bu cür həyat sənin üçün deyil, qayıqdan-qayığa, həsirdən-həsirə gəzib əziyyət çəkirsən, gəl, özümüzə ev quraq, mən də fürsət düşən kimi ora gələrəm". Lakin Mariya cavab verirdi:

– İstəmirəm səni gözləyəm, sən hardasansa, orda olmaq istəyirəm.

Bir dəfə İsa soruşdu:

– Sənin elə qohumların varmı ki, onların yanında qala biləsən? – O da cavab vermişdi ki, Marfa adlı bacısı, Lazar adlı qardaşı var, İudeya Vifaniyasında yaşayırlar, lakin pozğunluğa başlayanda onları biabır etməmək üçün özü uzaqlaşıb, çıxıb uzaq ellərə gedib, sonra da gəlib Maqdalaya.

– Deməli, səni Vifaniyalı Mariya çağırmaq lazımdır, Maqdalalı Mariya yox? – İsa soruşdu.

– Hə, mən Vifaniyada doğulmuşam, lakin səni Maqdalada tanımışam, odur ki Maqdalina olaraq qalacağam.

– Mənə də Vifliyemli İsa demirlər, baxmayaraq ki, orda anadan olmuşam, heç Nazaretli İsa da deyiləm, çünki orda məndən imtina ediblər. Elə mən də doğmalarımdan orda imtina etmişəm, bəlkə, mən də səninlə eyni səbəbdən elə Maqdalalı İsa adlanmalıyam.

– Lakin bizim ordakı evimiz yandı, yadındadır?

– Ev yandı, yaddaş isə yaşayır.



Ondan sonra Mariyanın Vifaniyaya qayıtması barədə bir də danışmadılar və dənizin bu sahili onlar üçün bütöv bir dünyaya çevrildi.

Xalq içində (çox güman ki, bir xalqın yox, yer üzündəki bütün xalqların içində, çünki söhbət ümumi, dünyəvi şərdən gedir) deyirlər ki, dərd-bəla ayağın altında bitir. Bu deyim, belə düşünürük ki, torpaqla çox bağlı olan və bu səbəbdən də tez-tez sürüşən, büdrəyən, amma şükür ki, ölümcül yaralanmayan bir xalqın içində yaranıb. Sonra da yuxarıda xatırlatdığım dünyəviliyinə, ümumiliyinə görə düz-dünyaya yayılaraq məhdud əlamətdən universal qanuna çevrilib. Bu məsəl, bizə belə gəlir ki, dəniz sahillərində yaşayan və dənizdən dolanan xalqların içində, balıqçıların, dənizçilərin arasında, özünə, hər halda, asanlıqla yox, çətin yer tapıb. Çünki onlar ayaqlarının pəncəsiylə torpaq arasında bəzən necə dibsiz dərinliklərin, köpüklənən necə girdabların olduğunu bilməklə yanaşı, ondan da xəbərdardırlar ki, dərd-bəla ayağın altında bitmir – göydən yağır. Adına da tufan, fırtına deyirlər. Onların kəramətindən dalğalar şahə qalxır, kükrəyir, külək tüğyan edir, yelkənlər cırıq-cırıq olur, dor ağacları çöp kimi qırılır, dəlmə-deşik qayıqlar suyun dibinə gedir və düzünü desək, dəniz xalqı, sözün hərfi mənasında, göylə yerin arasında həlak olurlar. Göyə əlin çatmaz, yerə ayağın. Qalileya dənizi, adətən, müti, sakit, aramdır və ümumiyyətlə, o, dəniz deyil, əslində, göldür. Lakin gün gəlir, o da coşur, coşanda da ki, başlı başını saxlasın. Amma bütün başları salamat saxlamaq olmur axı. Bizim hekayətimiz də elə bu istiqamətdə davam edəcək. Lakin əvvəlcə Nazaretli İsanın ona əzab verən, insan qəlbinin heç vaxt xoşbəxt olmadığını isbatlayan kədərinin yanına dönmək lazımdır. Çünki öz sadə vəzifəsinin vicdanla yerinə yetirilməsi onda aza qane olan adamların yaşadığı razılıq, məmnunluq hissini yaratmırdı. Həqiqətən də, deməyə əsasımız var ki, İsanın İordanın yuxarı və aşağı hissələri arasında daim hərəkətdə olmasına görə, bütün qərb

sahilləri boyu heç kəs ac, çarəsiz qalmırdı. Orada yaranmış bolluq hətta balıqçılıqla heç əlaqəsi olmayan adamlara belə öz müsbət təsirini göstərirdi. Çünki məhsulun bolluğu qiymətləri aşağı salmışdı. İnsanlar yeməklərinə gündən-günə daha az vəsait xərcləyirdilər. Amma gizlətməyək ki, balığın qiymətini daha yüksək səviyyədə saxlamaq üçün cəhdlər edilirdi. Buna görə hətta ovun bir hissəsini qaytarıb dənizə atmaq fikrindəydilər. Lakin torun boş, yaxud dolu çıxmasının səbəbkarı olan İsa balıqçıları hədələmişdi ki, başqa diyarlara gedəcək və korporativ etikanın bic nümayəndələri də ondan üzr istəyəsi olmuş və öz niyyətlərindən hələlik əl çəkmişdilər. Onlar fikirləşdilər ki, sonrası sonra bəlli olar. Hər halda, bu yerlərin bütün insanlarının özünü xoşbəxt hiss etmək üçün əsası vardı – hamının, bircə İsadan savayı. O düşünürdü ki, belə yaşamaq olmaz – yuxarı-aşağı, sahilə yan al, sahildən aralan. Bir də fikirləşirdi ki, Tanrı əgər ona balığı tora cəlb etmək kimi ecazkar bir istedad veribsə, yəni Tanrıya özünün vəd etdiyitək, onu öz yanında xidmətə çağıracağı zaman yetişənədək günlərini, saatlarını belə cansıxıcı, yeknəsəq keçirməsi lazımdır? Lakin Tanrının daim onun yanında olmasına İsanın bir anlıq belə şübhəsi yox idi. Çünki balıq onun sözü ilə tora yenə özü gəlib girirdi və bu vəziyyət – fikrin ümumidən xüsusiyə istiqamətlənmiş labüd hərəkətindən qaynaqlanan, elmi dildə "deduksiya" adlandırılan bu anlayışın müfəssəl təsvirini biz artıq sayırıq – nəhayət, vadar etdi özündən soruşsun ki, görəsən, Tanrı ona başqa ecazkar keyfiyyətlər də bəxş etmək istəməzmi? Özü də onları İsaya həmişəlik yox, əlborcu kimi verə bilərdi. Bu keyfiyyətlərdən İsanın xeyir gətirməsi, bacarığından şər naminə qətiyyən istifadə etməməsi şərtiylə verə bilərdi, edəcəyi xeyir əməllərə, qoruyacağı ədalətə özü İlahi qarşısında hətta zəmanət də verərdi. Bunları düşünərkən o, nəzərində indi gördüyü işi tuturdu. Ağlına hələlik başqa bir şey gəlmirdi. Amma bunu öyrənmək çətin deyildi. Təcrübə etmək lazım idi, əgər alınsa,

deməli, Tanrı öz mərhəmətini ondan əsirgəməmək fikrindədir, alınmasa da, heç. Vacib məsələlərdən yalnız birini həll etmək qalırdı – seçim məsələsini. Tanrıdan birbaşa soruşmaq imkanı olmadığından, İsa öz riskinə ağlına gələn qüdrət nümayişlərindən eləsini seçməliydi ki, bunu etmək həm o qədər çətin olmasın, həm də bir o qədər gözə girməsin. Eyni zamanda, bu möcüzədən bəhrələnəcək adamlar bunu aşkar görə bilsinlər. Çünki əks təqdirdə inamsızlıq yaradar, Tanrının şəninə ləkə salmış olardı. Buna isə qətiyyən yol verilə bilməzdi. Lakin İsa ürək eləmədi, qorxdu ki, Tanrı ona gülə, onu alçalda, necə ki, səhrada alçaltmışdı. Heç indiyə kimi də İsa birinci dəfə "Toru bax, bura at" deyəndə və tor da sudan boş çıxanda xəcalətdən necə qovrulduğunu unuda bilmirdi.

Bu fikirlər beynini elə işğal etmişdi ki, bir dəfə yuxuda kiminsə onun qulağına bu sözləri pıçıldadığını eşitdi: "Qorxma və unutma ki, sən Tanrıya gərəksən". Lakin oyanandan sonra yenə də tərəddüdlərin ağuşuna düşmüşdü. Bu məsləhətçi göylərdən xəbər gətirən saysız-hesabsız mələklərdən biri də ola bilərdi, İblisin əmriylə hərəkət eləyən cin-şeytan ordusunun nümayəndəsi də. Yanında uzanmış Maqdalina isə, deyəsən, çox bərk yatmışdı. Odur ki bu məsləhəti o heç cür verə bilməzdi. İsa da bu ehtimalı özündən elə həmin an uzaqlaşdırdı. Beləcə bu məsələ davam edirdi, daha doğrusu, davam etmirdi. Nəhayət, başqa günlərdən heç nəyiylə fərqlənəcəyini büruzə verməyən günlərdən birində İsa artıq adət etdiyi möcüzəni göstərmək üçün dənizə çıxmadı. Hava korlanır, alçaq buludların qırımından möhkəm yağış havası süzülürdü. Amma belə xırda bir şeyə görə balıqçı sahildə qalmaz, çünki insan ömrü yalnız ləzzətli şeylərdən və xoş havalardan ibarət deyil. İş elə gətirmişdi ki, İsa bu dəfə Simonla Andreyin qayığında üzürdü – onun ilk möcüzəsinin şahidi olan qardaşların. Onların dalınca isə Zavedeyin oğlanları İakovla İoann gələrək fikirləşirdilər ki, indicə göstəriləcək möcüzənin

bəhrəsindən tam istifadə eləyə bilməsələr də, yaxınlıqda olsalar, ovun bir hissəsini əllərinə keçirmək imkanları ola bilər. Güclü külək qayıqların hər ikisini tez bir zamanda gölün ortasına apardı və orada balıqçılar yelkənlərini yığışdırıb torlarını açdılar. Hazırlaşırdılar ki, onları İsa göstərən yerə atsınlar. Bədbəxtlik də onları elə burada haqladı – ayaqlarının altından qalxmadı, yox, sanki, göydən gəldi. Əgər qara buludlar sarmış səmanı saymasan, demək olar ki, bu bəla divanə küləyin tam xəbərdarlıqsız əsl tufana çevrilməsiylə başladı. Dalbadal aşan dalğalar sükanı imtina etmiş, sərsəmləmiş təbiətin qəzəbli hücumlarına müqavimət göstərmək gücündə olmayan qayıqları qoz qabığı kimi otərəf-butərəfə tulladı. Sahildəki adamlar – arvadlar, analar, bacılar, hətta xasiyyəti həlim olan bəzi qaynanalar köməksiz qalmış bədbəxt balıqçıların hansı təhlükələrə düçar olduqlarını görəndə elə dəhşətli, çoxsəsli qışqırıq qopardılar ki, onun göylərə necə çatdığı da bəlli olmadı: "Oğlum mənim!" "Aman, ərim!" "Qardaş!" "Kürəkən!" "Səni lənətə gələsən, dəniz!" Danışmağı bacarmayan balaca körpələr isə öz ağlamaqlarını bu ağı xoruna qatdılar. Mariya Maqdalina da sahildə idi və pıçıldayırdı: "İsa, İsa!" Amma öz sevgilisi üçün qorxduğuna görə yox, çünki bilirdi ki, Tanrı onun üçün neçə balıqçının həlakına səbəb olacaq sıravi tufandan daha böyük şeylər hazırlayıb. O, bu adı ona görə pıçıldayırdı ki, bəlkə, o bədbəxtlərə sevgilisinin kömək edə biləcəyini düşünürdü. Onların işi isə, deyəsən, artıq yaman qəliz idi. İsanın özü də ətrafındakı çaşqınlıq və dəhşəti görəndə, görəndə ki, dalğalar barkasları suyla doldurub düz başlarının üstündən aşır, dor ağacları qırılır və yelkənlər cırılır, yağış isə elə azğınlıqla çırpır ki, lap imperator qalelasını da batırmaq üçün bəs edərdi, öz-özünə dedi: "Yoldaşlarım ölsə, mən isə sağ qalsam, ədalətsizlik olar, elə Tanrı da məni qınayıb "Sən onları xilas edə bilərdin, amma etmədin, doğma atanın başına gələnlər, demək, sənə bəs eləmədi?!" deyərdi". Bu əzici xatirənin

zorundan ayaqlarının altında oynayan qayığın göyərtəsi deyil, möhkəm torpaq imiş kimi dik qalxdı, küləyə qadağa qoydu və dənizə dedi: "Sakitləş! Kəs!" Sözlərini bitirməyə macal tapmamış tufan sakitləşdi, külək yatdı, buludlar dağıldı, günəş isə göydə yenə əbədi şöhrətiylə nur saçmağa başladı, necə ki, ömrü günəşinkindən az olanlara indi və daim elə gələcək. Qayıqlarda, sahildə kükrəyən sevinci heç cür təsvir etmək olmaz. Öpüşlər, qucaqlaşmalar, sevinc göz yaşları. Əgər sahildə tufanın nədən qəfil kəsildiyini anlamırdılarsa, qayıqdakı, bu dəqiqələrdə dünyaya ikinci gəlişlərinin sevincini yaşayan adamlar özlərinin ecazkar nicatlarından savayı heç bir şey barədə düşünmürdülər. Əgər indi "möcüzə" sözü ağızdan çıxdısa, bu möcüzəni kimin etdiyinin ilk anlarda bir kimsəyə dəxli yox idi. Lakin budur, ortaya sükut çökdü, digər qayıqlar da Simonla Andreyin barkasına yaxınlaşdılar, balıqçıların yadına küləyin vıyıltısını, şimşəyin gurultusunu üstələyən bir səsin necə guruldadığı düşdü: "Sakitləş! Kəs!". Öz istəyiylə balıqları tora çağıran bu səs onların həmin balıqlara yem olmasına imkan vermədi. İsa isə məhzun görkəmlə avarçəkən oturacağına əyləşdi, içində mürəkkəb, qaranlıq hisslər vardı. Sanki, yoxuş qalxmışdı, indi ən uca dağın zirvəsindəydi və bilirdi ki, artıq onu yalnız labüd enişin kədəri gözləyir. Lakin insanlar onu sıx dövrəyə alıb nə deyəcəyini gözləyirdilər. Tufanı sakitləşdirmək, küləyi kəsmək, dalğanı yatırmaq bəs deyildi, indi bütün bunları elə izah etmək lazım idi ki, Tanrının özü belə geri çəkilib, indicə insanların ölümün buz ağuşuna girəcəyi anı gözləyəndə sadə insan, Qalileyalı dülgər oğlunun bunu necə eləyə bildiyini anlasın. Onda İsa qalxdı və dedi:

– Sizin gördüklərinizi mən etmədim, tufanı mən saxlamadım, bütün bunları mənim dilimlə danışan, mənim dilimi özü üçün alət seçən Tanrımız elədi. Necə ki, qədim zamanlarda da o, peyğəmbərlərinin diliylə danışırdı, yəqin, yadınızdadır.

Simon dedi:

– Tufanı göndərmiş Tanrı onu dayandıra da bilərdi, biz isə, sadəcə, deyərdik ki, Tanrı gətirdi, Tanrı da apardı. Lakin Tanrının gözündə artıq itirməyə hazır olduğumuz həyatımız sənin sözlərinlə, sənin iradənlə qaytarıldı.

– Bir də deyirəm sənə: bunu mən eləmədim, Tanrı etdi.

Zavedeyin oğlanlarından kiçiyi, İoann dedi və öz sözləriylə isbatladı ki, nə o qədər sadədir, nə də kütbeyin.

– Əlbəttə, bunu bütün mövcud gücləri və qüvvələri özündə cəmləşdirən Tanrı elədi, amma sənin vasitənlə elədi. Mən bundan belə nəticə çıxarıram ki, o istəyirdi biz səni tanıyaq.

– Siz mənə, onsuz da, bələd idiniz.

– Biz yalnız onu bilirdik ki, hardansa gəlmiş birisi bizim torlarımızı, kim bilir, hansı üsuldan istifadə edərək balıqla doldurur.

– Mən – Nazaretli İsa, romalıların çarmıxa çəkdiyi bir dülgərin oğluyam. Qoyun-keçi otarırdım, ondan başqa heç nə görməmişdim. İndi isə balıq tuturam və ümidvaram ki, qəbir evinə kimi elə sizinlə qalacağam.

Simonun qardaşı Andrey dedi:

– Sən bizimlə qalmamalısan, biz səninlə qalmalıyıq, çünki özünün dediyin kimi, sadə bir adam heç kəsdə olmayan gücə və onu tətbiq etmək bacarığına malikdirsə, deməli, sən biçarə üçün təklik boynundan asılmış daş kimidir.

İsa dedi:

– Nə deyirəm, əgər urəyiniz bunu istəyirsə, əgər İoannın dediyi kimi, məni tanımaq istəyirsinizsə, mənimlə qalın, lakin burda gördüklərinizin heç birini kimsəyə söyləməyin. Tanrının öz iradəsini mənim simamda təsdiqləyəcəyi zaman hələ yetişməyib.

Onda Zavedeyin böyük oğlu, qardaşı kimi qətiyyən bəsit adam olmayan İakov dedi:

– Elə bilmə ki, xalq susacaq, bir sahilə bax, görürsən? Onlar səni gözləyir, şöhrətin zirvəsinə ucaltmaq üçün gözlə-

yir, ən hövsələsizləri isə artıq qayıqlara atılıb birbaş bura üzürlər. Onları gördüklərini sirr kimi saxlamağa razı sala bilsək belə, sən nə bilirsən ki, Tanrı istədiyi an səndə yenidən zühur edib özünü isbatlamayacaq?

İsa yenə qüssə ilə başını aşağı dikdi və dedi:

– Hamımız Tanrının əlindəyik.

– Sən – bizim hamımızdan artıq, – bunu isə Simon dedi, – çünki o, səni seçib, hamıdan üstün tutub və biz sənin yanında olacağıq.

– Axıra kimi, – İoann dedi. – Sən özün bizi qovana kimi, – Andrey dedi. – Nə qədər ki qüvvəmiz yetəcək, – İakov dedi.

Bu yerdə qayıqlar yaxınlaşdı, onlardakı adamlar İsaya əl edirdilər, ucadan alqış, xeyir-dua sözləri yağdırırdılar və o da bu labüdlüklə barışıb deyirdi: "Yaxşı, eybi yox, əgər şərab süzülübsə, onu içmək gərəkdir". O, indi qayıqlarda gələnlərin arasında Maqdalinanı axtarmırdı. Bilirdi ki, sahildə gözləyir, həmişəki kimi gözləyir, heç bir möcüzə də bu intizarın daimiliyini sarsıda bilməz. İsanın qəlbi minnətdar, müti bir sevincdən yumşaldı. Sahilə yan alanda onu qucaqladı, ona sığındı və yanağını yaş saqqalına söykəyərək qulağına pıçıldadıqlarını eşidəndə təəccüb eləmədi: "Nə etmək olar, sən döyüşü uduzacaqsan, amma muharibədə bütün qələbələr sənindir". Sonra onunla qol-qola girib onları dövrəyə alaraq, ilk döyüşdən qələbə ilə dönən bir sərkərdə kimi qarşılayanların salamlarına cavab verə-verə dostlarıyla bir yerdə dağlara aparan sərt yoxuşla Kapernauma – Simonla Andreyin yaşadığı kəndə istiqamət götürdülər. Həmin gecə elə onların evində də qaldılar.

İakov deyəndə ki İsa nahaq yerə tufanda göstərdiyi möcüzənin bilavasitə şahidlərindən başqa, bunu bir kimsənin bilməyəcəyinə ümid edir, düz, çox düz söyləyirdi. Bir neçə gün keçdi və artıq bütün ətrafda camaat arasında bundan başqa söhbət yox idi. Baxmayaraq ki, burda bir qəribəlik də vardı. Qalileya dənizi, dediyimiz kimi, elə də böyük

deyil və hava aydın olanda yüksəklikdən baxsan, onu bir küncündən o biri küncünə, bir sahildən o biri sahilə kimi tam görərsən. Amma, məsələn, Tiveriadda bu tufan haqqında kimsə bir şey eşitməmişdi. Biri ora gəlib Kapernaum balıqçılarıyla balıq ovuna çıxan bir nəfərin tufanı öz əmriylə sakitləşdirməsindən danışmağa girişəndə, sözünü kəsirdilər: "Hansı tufan?" Danışan yazığın da səsi xırp kəsilirdi. Lakin həmin tufanın həqiqətən olduğuna şübhə etməyin yeri yox idi, çünki bunu təsdiq eləyəsi və balıqçıların həyatının bir tükdən asılı olduğuna and içəsi xeyli adam vardı. Üstəlik, yaxınlarının taleyi üçün nigaran qalanların, sahildə toplaşan insanların arasında Safed və Kanadan gələn tacirlər də vardı, onlar da hadisəni izləyirdilər. Tufan vaxtı onlar öz işləriylə əlaqədar sahildəydilər. Elə bütün ölkəyə də bu xəbəri onlar yaydılar. Öz təxəyyüllərinə uyğun bəzəyib, danışmağa başladılar və hadisənin üstündən nə qədər çox vaxt keçirdisə, söhbətlər olay yerindən nə qədər uzaqlaşırdısa, danışılanlar həqiqətə daha az bənzəyirdi. Odur ki artıq kifayət qədər köhnəlmiş bu xəbər Nazaretə çatanda qətiyyən demək olmazdı ki, möcüzə baş verib, yoxsa İsanın həmin əmri xoşbəxt bir təsadüfdən küləyin əsməkdən bezdiyi məqamda səslənib. Amma ana ürəyini heç vaxt aldada bilməzsən və Məryəmə bu şübhəli möcüzənin sönməkdə olan əks-sədası bəs edirdi ki, inansın. Bəli, möcüzəni, həqiqətən, onun oğlu göstərib. O, künc-bucaqda sakitliyə çəkilib acı-acı ağlayırdı, özünü qınayırdı ki, təşəxxüsündən İsanın gözündə hörmətini itirə biləcəyini düşünərək, mələyin gəlişi, ona söylədikləri barədə oğluna o dəqiqə danışmayıb və sadəlövhcəsinə güman edib ki, ata evini urəyinin qanı axa-axa tərk etmiş oğlunun qayıtması üçün onca dənə qatma-qarışıq, mənasız söz bəs eləyər. Bundan savayı, Məryəmin dərdini bölüşməyə, ürəyini açmağa da kimsəsi yox idi. Bu müddət ərzində Liziya ərə getmişdi və artıq Qalileya Kanasında yaşayırdı. İakovla danışmağa isə ürək eləmirdi – o, qardaşıyla və yanındakı qadınla görüşü



yadına düşəndə, indiyədək qəzəbdən qaynayır, "anası yaşındadır o qadın, üzü üzlər görüb, həyat təcrübəsi yaman böyükdür, özü də elə bir sahədə ki, adamın deməyə dili də gəlmir!" – qışqırırdı. Həqiqət naminə söyləməliyik ki, onun özünün də bu sahədə təcrübəsi çox cüzi idi və bu təcrübəni Nazaret deyilən bir ucqarda zənginləşdirmək imkanı sıfra bərabər idi. Odur ki Məryəm ürəyini yalnız adıyla yox, həm də görkəmiylə rəhmətlik ərini xatırladan İosiflə boşaldırdı. Lakin onun da anasını ovundurmaq gücü yox idi:

– Anacan, biz elədiklərimizin cəzasını çəkirik. İsanı görmüş və eşitmiş birisi kimi çox qorxuram ki, o, evimizdən həmişəlik getmiş ola və indi onun olduğu yerdən qayıtması heç mümkün olmaya. Sən eşitmisən ki, onun barəsində nələr danışırlar, nələr deyirlər? Guya, tufana yasaq qoyan kimi külək kəsib. Mən balıqçılardan öz qulaqlarımla eşitdim ki, o, balıqlara əmr edirmiş ki, tora girsinlər.

– Mələk yalan demirmiş.

– Hansı mələk? – İosif soruşdu.

Bu zaman Məryəm oğluna hər şeyi danışdı. Qapılarını döyən dilənçidən tutmuş, onun kasaya torpaq atmasına, torpağın işıq saçmasına, yuxusuna girən mələyədək hər şeyi. Bu söhbəti onlar evdə eləmirdilər, bu boyda ailənin içində bu, sadəcə, mümkün deyildi, danışa bilməzdilər. O yerlərin adamları sakit danışmaq istəyəndə səhraya gedirdilər, orda da bəzən Tanrının özüylə rastlaşırdılar. Ana oğluyla, bax, beləcə söhbət edirdi və birdən İosif lap uzaqda, Məryəmin arxasındakı təpənin döşündə qoyun, keçi sürüsü və bir çoban gördü. Sürü onun gözünə elə böyük dəyməmişdi. Heç çoban da elə hündür deyildi, odur ki daha bir söz demədi. Lakin Məryəm deyəndə ki İsanı bir də görməyəcəyəm, İosif ona fikirli-fikirli cavab verdi: "Nə bilmək olar".

O öz tərəddüdlərində haqlı çıxmışdı. Zaman keçdi – təxminən, bir ilə yaxın və Liziya anasına qaynatasıyla qaynanasının adından baldızının toyuna, Kanaya dəvətnamə yolladı.

Üstəlik də çatdırırdı ki, özünlə kimi istəyirsən, götürə bilərsən, gəlişinizə yalnız şad olarlar. Məryəm dəvətliydi deyə, toyda onu müşayiət edəcək adamı da özü müəyyənləşdirməliydi. Amma istəmirdi ev yiyələrinə narahatçılıq yaratsın. İstəmirdi ki, sonra desinlər: "Buna bax, köçlü-külfətli gəlib". Çoxuşaqlı dul qadınlar isə, məlum olduğu kimi, bu baxımdan, adətən, çox həssas olurlar. Odur ki özüylə uşaqlarının yalnız ikisini götürmək qərarına gəldi – indiki sevimlisi İosifi və qızı Lidiyanı – o da yeniyetməlik çağında olduğundan toy-bayramdan, əyləncədən bezən vaxtı deyildi. Kana Nazaretdən uzaq deyildi. Piyada yolu bir saatdan çox olmazdı. Belə yumşaq bir payız günündə isə, sadəcə, gəzməyin özü də adama xoş təsir bağışlayırdı. Hətta yolun o başında səni gözləyən toy ziyafəti olmasa belə.

Hava yenicə işıqlaşanda evdən çıxdılar ki, Məryəm toy sahiblərinə son hazırlıq işlərində kömək eləyə bilsin. Axı bəllidir ki, qonaq nə qədər çox olsa, məclis yiyəsinin qayğısı da artır.

Liziya anasının, qardaşının və kiçik bacısının pişvazına sevincək çıxdı, öpüşmə, qucaqlaşma, sorğu-sual başladı. Amma iş çox idi deyə, Məryəmi bəy evinə apardılar. Adətə görə ziyafət orada olmalıydı, elə biş-düşü də orada eləyirdilər. İosiflə Lidiya həyətdə öz yaşıdlarıyla qaldılar, oğlanlar oynamağa başladılar, qızlar rəqsə və bu, düz toy mərasimi başlayana kimi davam elədi. Burada artıq adətə görə, cinsindən asılı olmayaraq, hamı bəyin əlində məşəllər tutmuş dostlarının dalınca tərpəndi. Günəş nə qədər parlaq olsa da, bu məşəllər sübut edirdi ki, onların yaydığı zəif, tutqun, titrək işığa məhəl qoymamaq mümkün deyil. Qonşular küçəyə tökülüb bəyi sevinclə salamlayır, xeyir-dualarını isə qayıdan başa saxlayırdılar – gəlinlə bir yerdə qayıdana. İosiflə Lidiyaya bundan sonra baş verəcək hadisələrdən heç birini görmək nəsib olmadı, amma bundan elə də kədərlənmədilər. Çünki onlar üçün burda xüsusi maraq kəsb edən bir şey də



yox idi. Lap bu yaxınlarda doğma bacıları ərə getmişdi, onlar hər şeyin necə baş verəcəyini qabaqcadan bilirdilər. Bəy gəlinin darvazasını döyəcək ki, gəlin özünü göstərsin, o da rəfiqələrinin əhatəsində bayıra çıxacaq. Qadınların əlində məşəl olmayacaq, çünki məşəl öz ölçüsünə və alovunun parlaqlığına görə kişilər tərəfindən götürülməlidir. Qadınların əlində isə balaca çıraqlar olacaq – adi yağ çıraqları. Qardaşla bacı gəlinin kandardan necə keçəcəyini də, bəyin onun duvağını qaldıranda sevincqarışıq heyrətlə içini necə çəkəcəyini də bilirdilər. Yəni gör mənim qismətimə necə sərvət çıxıb, guya, nişanlanmalarından keçən bir il ərzində adaxlısını azı min dəfə görməmişdi və necə gözəl olduğundan xəbərdar deyildi. Beləliklə, bunların heç birini İosiflə Lidiya görəsi olmadılar, səbəb isə bu idi. Yeniyetmə təsadüfən tamam başqa səmtə nəzər saldı, küçənin dərinliklərində iki kişiylə bir qadın gördü, özünü, sanki, təzədən doğulubmuş kimi hiss etdi. Böyük qardaşını və onun qadınını tanımışdı – İakovla bir yerdə dəniz sahilində rastlaşdıqları həmin qadını. Bacısını səslədi: "Ora bax, bizim İsa gəlir!" Dərhal hər ikisi var qüvvələriylə gələnlərin qabağına yüyürdülər. Lakin İosif birdən dayandı, yerində donub qaldı, çünki anasını xatırlamışdı. Yadına salmışdı ki, qardaşı onlarla necə sərt danışırdı. Hərçənd ki, məsələ heç onunla İakovda da deyildi. Məsələ anasının ona çatdırdıqları sözlərində idi. O qayıtdı, fikirləşdi ki, özünü niyə belə apardığını İsaya sonra izah edər. Artıq döngəni burulanda çönüb arxasına baxdı və qısqanclıq ilanı onu sancdı. Qardaşının Lidiyanı qov kimi əllərinə aldığını gördü. Qız onun üzünü öpüşlərə qərq etmişdi, yoldaşları da bu səhnəyə təbəssümlə baxırdılar. Gözlərində gilələnmiş pərtlik yaşlarından artıq heç nə görmürdü. İosif var gücüylə geri qaçdı, darvazadan içəri təpildi, yerə sərilmiş, üstünə yeyəcəklər düzülmüş süfrələri tapdamamaq üçün tullana-tullana həyətdən ötüb anasını çağırdı: "Ana!" Nə yaxşı ki, hər birimizə məxsusi səs verilib. Toyda əl-ayaq eləyən bütün qadınlardan

oğlunun səsinə yalnız Məryəm çöndü, ona baxdı və nə deyəcəyini anladı: "İsa!" Özü də hələ səslənməmişdən anladı. Onun rəngi qaçdı, sonra qızardı, gülümsündü, qaşlarını çatdı və nəhayət, ürəyindən tutdu, sanki, yerində olub-olmadığını yoxlayırdı. İkicə addım dala atıb, elə bil, divara söykəndi.

– Kim var yanında? – soruşdu. Heç şübhəsi yox idi ki, onun ilki tək gəlməyib.

– Bir kişi, bir qadın, bir də ki bizim Lidiya.

– Qadın elə həminkidir?

– Hə, həminkidir, amma kişini əvvəllər görməmişəm.

Heç bir şeydən şübhələnməyən Liziya onlara yanaşıb maraqla soruşdu:

– Nə olub, nə pıçıldaşırsınız?

– Sənin qardaşın bura, toya gəlib.

– İsa?

– Hə, İosif görüb onu.

Liziya anası kimi çaşmadı, duruxmadı, onun sifəti yalnız təbəssümdən işardı. Biz risk edib bu təbəssümü nəhayətsiz adlandıraq. O, səsinin ahəngini aşağı salıb dilləndi:

– Qardaşım. – Bilməyənlərə anladaq ki, belə təbəssüm və bu söz yer üzündə neçə-neçə heyranlığa dəyər. – Gedək onu qarşılayaq, – dedi.

– Sən tək get, mən burada qalacağam, – Məryəm müdafiə olunurmuş kimi dedi və İosifə tapşırdı. – Onunla get.

Lakin İosif İsanın onu kiçik bacısından sonra qucaqlamasını istəmirdi. Liziya isə tək getməyə ürək eləmədi və nəticədə hər üçü yerində qaldı, sanki, bir müttəhim idilər, məhkəmə hökmünü gözləyir və hakimin mərhəmətinə qəti inanmırdılar – əgər, təbii ki, bu cür vəziyyətlərdə "hakim" və "mərhəmət" kimi sözlərin yeridirsə.

İsa qucağında Lidiya, qapının ağzında göründü və ardınca Maqdalina gəldi. Amma kandardan birinci Andrey keçdi, İsanın yoldaşı məhz o idi. Onun həm də bəyə yaxın



qohumluğu çatırdı, bu elə o dəqiqə aydınlaşdı. Çünki onu sevincək salamlayanlara cavab verərək deyirdi: "Yox-yox, Simon gələ bilmədi". Budur, indi bəziləri görüşün sevincindən ləzzət alırdılarsa, digərləri bir-birinə elə baxırdılar ki, elə bil, aralarında uçurum vardı. Mütləq qərar qəbul etmək lazım idi ki, uçurumun üstündəki bu balaca, etibarsız və laxlayan körpüyə ilk qədəm basan kim olacaq. Biz hansısa şairin dalınca balanın yer üzündə ən şirin nemət olduğunu təkrar etməyəcəyik, amma məhz onlara minnətdar olmalıyıq ki, böyüklər bəzən öz ləyaqətlərini alçaltmadan birinci və ən çətin addımı atmağa nail olurlar. Qoy sonra lap bəlli olsun ki, getdikləri heç düzgün yol deyilmiş. Lidiya İsanın əlindən çıxıb anasının yanına yüyürdü və bu yerdə lap kukla teatrında bir hərəkət digərini, onların hər ikisi bir yerdə isə üçüncüsünü doğuran kimi, İsa anasına yaxınlaşdı. Heç bir hissiyyatdan ilıqlaşmayan adi bir təmkinlə onu, qardaşını və bacısını salamladı. Bundan sonra buz sütununa dönmüş Məryəmi, çaşqın İosifi və Liziyanı yerində qoyub irəli keçdi. Maqdalalı Mariya da onun dalınca gəlirdi və Nazaretli Məryəmin tuşuna çatanda hər iki qadın – biri tərbiyəli, digəri gəzəyən – eyni zamanda baxışlarını qaldırdılar, bu baxışlarda nə düşmənçilik, nə nifrət var idi, yalnız qəribə bir minnətdarlıq duyulurdu. Bu minnətdarlığı mühüm, məxfi bir işdə dilbir olan qadınlar yaşaya bilərdilər və qadın qəlbinin dolaşıq labirintlərindən yalnız inamla keçənlərə bu hissi anlamaq qismətdir. Toy dəstəsi artıq uzaqda deyildi, qışqırıqlar və alqışlar eşidilir, fəzaya qavalların titrək uğultusu, simlərin zil və sürəkli cingiltisi, rəqs edənlərin ritmik tappıltıları, çoxsəsli danışıq sədası yayılırdı. Adamlar həyətə doluşandan bir an sonra isə bəylə gəlini, sanki, alqış və çəpik dalğası içəri saldı, onlar xeyir-dua üçün intizarda olan valideynlərinə yanaşdılar. Məryəm də onlara xeyir-duasını verdi, necə ki, lap bu yaxınlarda öz Liziyasına vermişdi. Çünki indi nə əri, nə də ilki və böyük oğlu yanında deyildi ki, bu hüququ

onlara güzəştə gedə bilsin. Hamı yerində oturdu, İsaya hörmətli məqam təklif etdilər, çünki Andrey artıq qohumlarının qulağına pıçıldamağa macal tapmışdı ki, bu, öz iradəsiylə balıqları tora çağıran, tufanı "dur" deyib dayandıran həmin o adamdır. Lakin o, bu şərəfi rədd eləyib bir qıraqda əyləşdi. Ona Maqdalina qulluq edirdi. Heç kəs ondan soruşmamışdı ki, kimsən, haradansan. Hərdən də Liziya İsaya yaxınlaşırdı, o isə onlara münasibətində heç zahirdə də fərq qoymurdu. Məryəm həyətdən mətbəxə, mətbəxdən həyətə tələsəndə Maqdalina ilə neçə dəfə üzbəüz gəldi və onlar elə bayaqkı kimi baxışdılar. Amma heç dillənmir, danışmırdılar. Axırda İsanın anası gözünün işarəsiylə ona dalınca gəlməsini əmr elədi. Onlar həyətin o biri başında qarşılaşdılar və ana heç bir giriş vermədən dedi:

– Ondan muğayat ol, mələk mənə deyib ki, böyük sınaqlardan çıxmalıdır, mən isə yanında ola bilmərəm.

– Narahat olma, lazım gəlsə, ona görə həyatımdan keçərəm, əgər mənim həyatımın bir dəyəri varsa.

– Adın nədir?

– Maqdalalı Mariya, mən sənin oğlunla rastlaşana kimi pozğun qadın olmuşam.

Məryəm heç nə demirdi, çünki beynində ötən hadisələr gərəkli sırada düzülməyə başlamışdı – tunikanın ətəyinə düyünlənmiş sikkələr, İsanın üstüörtülü, eyhamlı sözləri, İakovun səbəbini yalnız indi anladığı əsəbi davranışı və böyük qardaşının yol yoldaşı barədə söylədikləri – bütün bunlar bir sapa düzüləndən sonra dedi:

– Sənə xeyir-dua verirəm, Maqdalalı Mariya, oğluma etdiyin yaxşılıqlara görə xeyir-duam həm bu gün, həm də əbədilik üstündən əskik olmasın. – Maqdalina yaxınlaşıb ehtiram əlaməti olaraq qadının çiynindən öpmək istəyirdi, lakin Məryəm əllərini ona uzadıb özünə sarı çəkdi və onlar qucaqlaşdılar. Amma bu vəziyyətdə çox durmadılar, çünki iş-güc gözləmirdi və onların işini kimsə görəsi deyildi.

Ziyafət davam edirdi, cürbəcür yeməklər ardı-arası kəsilmədən süfrəyə gəlir, dolçalardan şərab axırdı. Şadyanalıq artıq mahnılarda, rəqslərdə özünü büruzə verirdi ki, qəflətən məclisi idarə eləyən şəxsin ev sahiblərinə xəlvətcə çatdırdığı xəbər – şərab tükənir – onların təpəsinə qaynar qazan kimi töküldü. "Bəs indi nə edək, – deyə çaşqınlıq içində pıçıldaşırdılar, – qonaqlara necə deyək ki, şərabımız daha yoxdur, ertəsi gün Kanada bundan başqa söhbət olmayacaqdı". "Qızım mənim, – gəlinin anası, az qala, ağı deyirdi, – sənin görəcək günlərin varmış, bədxahlar səni necə lağa qoyacaqlar... "Öz toyunda şərabları da çatmadı" deyəcəklər. Axı belə biabırçılıq niyə bizim başımıza gəldi, əcəb şeydən başlandı sən bədbəxtin ailə həyatı". Süfrə dalında isə şərabın son damlalarını da sümürdülər və ən səbirsiz qonaqlar artıq oyanbuyana boylanırdılar ki, kasalarını dolduracaq birisini tapsınlar. Onda İsanın onun əlindən qəbul etmək istəmədiyi nə varsa – qayğı, himayə, vəzifə – elə indicə başqa bir qadına həvalə etməsinə baxmayaraq, Məryəmin beynində, sanki, qəflətən şimşək parladı. O, birdən öğlunun ecazkar istedadının özü üçün sübutunu arzuladı. Buna şəxsən inanmaq istəyirdi, əvvəlcə inanacaq, sonra da evinin qapısı kimi ağzını da əbədilik qıfıllayacaqdı. Bu dünyaya gəlişinin məqsədini həyata keçirən və indi də o dünyaya gedişinin intizarında olan birisi kimi. Gözləriylə Maqdalinanı axtardı, gördü ki, o da razılıq əlaməti olaraq astaca kirpiklərini endirdi. Daha ləngimədən oğluna yaxınlaşdı və ona hər şeyi nöqtəsinə kimi açıqlamağa zərurət görməyən bir adamın ahəngi ilə dedi: "Şərab yoxdur". İsa ləng bir hərəkətlə anasına tərəf çöndü, ona elə baxdı, sanki, bu sözlər qulağına hardasa, lap uzaqlardan yetişirdi. Soruşdu: "Nədir, ay qadın, sənə hamıdan çox lazımdır?" Adamın canına məhz qorxu salan bu sözləri yaxında-uzaqda əyləşənlər eşitmişdi. Heç bir oğul onu dünyaya gətirən ana ilə belə danışa bilməzdi. Lakin təəccüb, heyrət, inamsızlıq o dərəcədə idi ki, zaman, məkan və iradə bu sözləri elə

anlamağa, elə çevirməyə, elə təfsir, elə şərh etməyə, elə mənalandırmağa çalışacaqdı ki, aşkar qəddarlığı onların içindən qovub çıxarsın. Əgər alınmasa, elə etsin ki, onlara ehtiva etdikləri mənanın tam əksini sırsın. İllər və yüzilliklər sonra yazacaqdılar ki, İsa anasına belə cavab verdi: "Məni boş-boş şeylərə görə niyə narahat edirsən?" Ya da: "Bunun mənə nə dəxli var?" Ya da: "Səndən kim xahiş edib ki, buna qarışasan?" Bəlkə də: "Məndən xahiş etməyin gərək deyil, mən özüm görürəm və qarışacağam". Ya da: "Niyə məndən birbaşa xahiş etmirsən, mən sənin iradənə tabe olmuşam və həmişə olacağam". Bəlkə də: "Sənin ürəyin necə istəyir, elə də edəcəyəm, bizim aramızda heç bir anlaşılmazlıq yoxdur..."

Məryəm isə zərbəyə sinə gərdi, oğlunun onu rədd edən baxışlarına davam gətirdi və geriyə yolları kəsərək nökərlərə dedi: "Sizə nə desə, onu edərsiniz". İsa gördü ki, anası ondan uzaqlaşır, lakin dillənmədi. Əlini uzatmadı ki, onu saxlasın, çünki anlamışdı. Tanrı indi də ondan istifadə edirdi. Necə ki, qabaq tufandan, ondan da qabaq balıqçıların ehtiyacından istifadə etmişdi.

O, camını qaldırdı, dibində hələ bir az şərab vardı və nökərlərə dedi:

– Qabları su ilə doldurun.

Burda da İudeyanın paklama adətinə görə altı daş su qabı vardı, hərəsi iki, ya üç ölçü su tuturdu. Nökərlər də dolçaları ağzına kimi doldurdular.

– Onları mənə gətirin, – dedi və hər qaba camında qalan şərabdan bir neçə damla tökdü, – indi isə bu sulardan cama süzüb masabəyiyə aparın.

Masabəyi qabların hardan gəldiyini bilmədiyindən içində bir-iki damcı şərabın iz belə qoymadan həll olunduğu suyun dadına baxdı və bəyi çağırıb dedi:

– Hamı əvvəlcə yaxşı şərab verir, sonra – camaat babat vurandan sonra ən pisini. Sənsə şərabın əlasını indiyə saxlamısan?



Bəy isə su qablarının şərab üçün istifadə olunduğunu ömründə görməmişdi, ümumiyyətlə, xəbəri yox idi ki, süfrədə şərab qurtarıb. Odur ki yaxınlaşıb dadına baxdı və qətiyyən şübhə etmədiyi bir şeyi təsdiqləyən adamın boğazdanyuxarı təvazökarlığı ilə başını tərpətdi. Yəni həqiqətən də, qiyamət şərabdır, necə deyərlər, əsl vintajdır. Ertəsi gün nökərlər çənələrini boş qoyub bu hadisəni hamıya danışdılar. Əgər konkret bu halda nökərlərin simasında təmsil olunan xalqın səsi çıxmasaydı, möcüzədən kimsə xəbər tutmazdı. Bu da, təxminən, "heç bir möcüzə baş verməyib" deməklə eyni şey olardı. Çünki masabəyi də suyun şəraba çevrilməsindən xəbərdar deyildi, bəyə də başqasının xidmətini öz ayağına yazmaq təbii ki, sərf eləyirdi. İsa isə gördüyü işlərlə hər tində qürrələnənlərdən deyildi: "Mən filan-filan möcüzələr göstərmişəm". Lap əvvəldən bu intriqaya qatılmış Maqdalina da bu barədə danışmaq fikrindən tam uzaq idi. Məryəm isə heç istəməzdi ki, bu söhbət yayılsın, çünki hadisənin əsası onunla oğlu arasında baş vermişdi. Qalan məsələlər, necə deyərlər, ikinci dərəcəli idi. Yaxşı olardı bu olayı toydakılar, camları yenə də ağzına kimi dolmuş qonaqlar təsdiq eləsin.

Nazaretli Məryəm ilə onun oğlu daha heç vaxt bir-biriylə danışmadılar. Qürub çağına az qalmış doğmalarından heç biri ilə vidalaşmayan İsa və Maqdalina Kanadan Tiveriada yollandılar. İosif və Lidiya gizlənə-gizlənə onları kəndin çıxışına qədər müşayiət elədilər və döngədə gözdən itənə kimi dallarınca baxdılar.

* * *

Böyük intizar dövrü başlandı. Tanrının İsa vasitəsiylə göstərdiyi əlamətlər kiçik, əldəqayırma möcüzələr idi – "fırıldaq deyil, yalnız əllərin zirəkliyi" silsiləsindən. Əslində bu, Şərqdə müxtəlif maq və sehrbazların o qədər də təmiz, dəqiq göstərmədiyi fənd və fokuslardan heç də fərqlənmirdi. Məsələn, onlar havaya bir ip atıb, sonra da ona dırmaşa

bilirdilər, özü də tamaşaçılardan heç biri ipin ucunun qarmaqdan asıldığını, ya da köməkçilərdən kiminsə onun ucundan tutduğunu görmürdü. İsaya isə belə bir şey göstərmək üçün yalnız istəmək bəs edirdi və əgər ondan soruşsaydılar ki, bu niyə belə olur, cavab verə bilməzdi. Ya da deyərdi ki, balıqçıları – ovsuz, toyda qonaqları – şərabsız qoymaq olmaz. Həqiqətən də, hələ Tanrının onun diliylə danışmasının zamanı gəlməmişdi. Qalileyanın şəhər və kəndlərində yalnız İlahinin bəxş edə biləcəyi əzəmətə malik bir nazaretli haqqında söz-söhbət dolaşırdı. İsa bunları eşidəndə mübahisə etmirdi, lakin istedadının nə səbəbini, nə məqsədini, nə də ki əsasını izah etmirdi. Adamlara isə maraqlarının üstünü basdırıb yalnız təsadüfən ürcah olduqları nemətdən bəhrələnmək qalırdı. Simon və Andrey də, Zavedeyin oğlanları kimi bu cür düşünmürdülər. Axı onunla dost idilər və talelərinə görə çox narahatlıq keçirirdilər. Hər səhər yuxudan oyananda İsa soruşurdu: "Görəsən, həmin gün deyil ki?" Səssiz, öz içində soruşurdu. Bir neçə dəfə isə lap ucadan soruşmuşdu ki, Maqdalina da eşitsin. Lakin o susur, köksünü ötürürdü, sonra da əllərini boynuna salıb onun alnından, gözlərindən öpürdü. O da qadının döşlərinin zorla sezilən istiliyini duyurdu və bəzən yenə də yuxuya gedirdi, bəzən də içini didən nigarançılıqdan onun bədənində dərman axtarır, onun ağuşunda baramadakı ipəkqurdu kimi gizlənirdi. Bu yuvadan yalnız dəyişmiş, yeniləşmiş çıxmaq olardı. Sonra o, dəniz sahilinə gedirdi – balıqçılar orada gözləyirdilər və onların çoxu məsələnin nə yerdə olduğunu başa düşmür, soruşurdu ki, niyə o, gələcək gəlirləri hesabına şəxsi qayıq alıb özü üçün işləmir.

Hərdən də elə olurdu ki, açıq dənizdə qayığın səmti dəyişməsini, saya oturmasını və ya balıq tutmaq üçün zəruri olan başqa bir manevr etməsini gözləyərkən bekar qaldığı anlarda İsanın ürəyinə, elə bil, nələrsə damırdı. Onda qəlbi sürətlə döyünürdü, lakin nəzərləri göylərə zillənmirdi. Halbuki



Tanrının orada olması hamıya bəllidir. Belə anlarda o, suyun hamar, sanki, cilalanmış dəriyə bənzəyən səthinə dəli kimi gözlərini çəkmədən və acgözlüklə baxır və dəhşətqarışıq bir ümidlə gözləyirdi. Balıqçılar isə "bizim balıq nə vaxt gəlib çıxacaq" deyib dururdular. O, dərinliklərdən ucalacaq səsi gözləyirdi, səs isə hələ ki, eşidilmək bilmirdi. Ov başa çatırdı, ağır barkas sahilə yan alırdı, İsa isə – Maqdalina da onun dalınca – başını aşağı dikərək sahil boyu gəzişir, məccani yardıma ehtiyacı olan növbəti balıqçını gözləyirdi.

Həftələr həftələrin ardınca keçib aylar yaradırdı, sonra da illər. Dəyişiklik isə yalnız Tiveriadada görünürdü – yeni evlər tikilir, şəhərin şöhrəti artırdı. Bütün qalan yerlərdə isə hər şey birdəfəlik və əbədi qoyulmuş qaydalara uyğun davam edirdi. Necə ki, hər qış adama elə gəlir, torpaq elə əlimizdəcə birdəfəlik ölür. Lakin hər bahar o, yenə dirilir. Çox nahaq yerə bizə elə gəlir, çünki bu, böyük yanlışlıqdır, hisslərin aldatmasıdır – əgər qış yuxusu olmasaydı, torpaq bahar üçün gücünü haradan yığardı?

Nəhayət, elə bir il, elə bir ay yetişdi ki, iyirmi beş yaşlı İsa dünyanın silkələnərək hərəkətə gəldiyini başa düşdü. Birbirinin ardınca yeni-yeni əlamətlər, nişanələr görünməyə başlamışdı, sanki, kimsə itirdiyi vaxtın əvəzini çıxmağa çalışırdı. Ciddi desək, bu əlamətlərin birincisini həqiqi, əsl möcüzələrə aid etmək olmazdı, çünki onda fövqəladə heç nə yox idi. İsa dostu Simonun naməlum mənşəli qızdırmadan əziyyət çəkən qaynanasının çarpayısına yaxınlaşıb hamı kimi əlini xəstənin alnına qoymuşdu. Bizlər bunu əziyyət çəkən bir insanın dərdinə şərik olmaq üçün edirik, daha belə bəsit yolla dərdi, azarı xəstənin canından çıxarmaq ümidiylə yox. Lakin bizim heç birimizə qismət olmayıb və yəqin, heç olmayacaq da ki, barmaqlarımızın altında qızdırmanın necə zəifləməsini, düşməsini və bunun dalınca qadının yataqdan ayağa durmasını görək. Bu vəziyyətdə qətiyyən təsadüfi görünməyən sözlər deməsini eşidək: "Mənim kürəkənimin dostu kimdirsə, mənim



də dostum elə odur". Bunun dalınca da heç nə olmayıbmış kimi arvad başlamışdı həmişəki kimi ev işlərini görməyə.

Birinci, necə deyərlər, daxili, məişət tipli əlamət belə görünmüşdü. İkincisinin üzərində isə bir az müfəssəl dayanmaq gərəkdir, çünki İsa etdiyi hərəkətlə yazılmış, hörmətlə anılan və riayət olunan Qanuna qarşı bir addım atmışdı. Ola bilər ki, bu addım bəlli dərəcədə təbii insani duyğulardan qaynaqlansın, çünki İsa Maqdalina ilə kəbindənkənar yaşayırdı. Bu qadın hələ üstəlik, keçmiş fahişə idi. Burda qəribə heç bir şey yoxdu ki, zinada günahlandırılan qadını Musanın Qanununa görə daşqalaq etmək istəyəndə o, zavallıya qahmar çıxaraq demişdi: "Sizlərdən kim günahsızdırsa, qoy birinci daşı o atsın". Amma onun sözləri təxminən, bu anlamda idi: "Mən elə özüm də, əgər xirtdəyə kimi şəhvət günahına batmasaydım, əgər natəmiz fikirlər və hərəkətlərim çiyinlərimdə bir yükə çevrilməsəydi, sizinlə bir yerdə ədalət məhkəməsinin hökmünü icra edərdim". O, böyük riskə gedirdi, könüllü cəlladlardan qəlbi birdəfəlik daşa dönmüş, günahda sümükləşmiş birisi – bəlkə də, biri yox, bir neçəsi tapıla bilərdi ki, onun sözlərini qulaqardına vurub hökmü icra edə, fikirləşə ki, Qanun onun üçün deyil, qadınlar üçün yazılıb. İsa, yəqin, təcrübəsizliyindən düşünməmişdi ki, oturub əlini əlinin üstünə qoyaraq gözləsən ki, günahkarların dərsini vermək üçün yer üzünə məhkum etməyə və cəzalandırmağa yeganə mənəvi hüququ çatan tam günahsız insanlar gəlsin, qorxuram bizim fəaliyyətsizlik göstərdiyimiz zaman ərzində əxlaqsızlıq hədsiz dərəcədə artsın, günah çiçəklənsin və zinakarların sayı-hesabı olmasın. Gah onunla, gah bununla, gah da kiminlə gəldi, hamısıyla birdən zina törədənlərə addımbaşı rast gələk, lakin məgər ər-arvad xəyanəti yeganə günahdır? Min dənə başqası var, biri o birisindən murdar, biri o birisindən dəhşətli və onların arasında – Tanrının göylərdən alov və kükürd yollayaraq Sodom və Qomorranı külə döndərdiyi günah da var. Lakin, sevgili qardaşlarım, dünya ilə birgə

doğulmuş və mənə bəlli olduğuna görə pis şeylərin çoxunu elə dünyanın özündən öyrənmiş şər ad çıxarıb. Amma o, heç kəsin görmədiyi, atəşdə yanıb kül olan, lakin yenə dirilən Feniks quşu kimidir. Xeyir incə, kövrəkdir və şər onun üzünə adi bir günahın isti nəfəsini azacıq verdimi, əbədi olaraq paklığı itir, zanbaq ləçəkləri solur, saplağı isə lap kövrək, tez sınan olur. İsa zinakar qadına dedi: "Get və bir də günah eləmə". Lakin bunları deyəndə qəlbində bir tərəddüd vardı.

Diqqətəlayiq başqa bir hadisə də Qalileya dənizinin şərq sahilində, İsanın hərdənbir baş çəkməyi lazım bildiyi yerdə cərəyan etmişdi. Oralara gəlirdi ki, insanlar onun yalnız Kapernaum balıqçılarına qayğı göstərdiyini söyləməsinlər. Budur, o, İakovla İoannı çağırıb onlara dedi: "O tərəfə, Qadarin vilayətinə üzək, görək orda nə xəbər var, oralar necədir, geri dönəndə isə ov eləyərik. Hər iki halda əziyyətimiz boşa getməyəcək". Zavedeyin oğlanları razılaşdılar, qayıqlarının ağzını çevirib başladılar avar çəkməyə. Ümid edirdilər ki, az sonra səmt küləyi onların işini asanlaşdıracaq, mənzil başına çatdıracaq. Elə də alındı, lakin tezliklə canlarına qorxu düşdü. Çünki indicə elə bir tufan başlayacaqdı ki, həmin o şahidi olduqları birincisi onun yanında toya getməli olacaqdı. Amma İsa suya və küləyə dedi: "Bəsdirin!" Sanki, həddən-ziyadə şuluqluq eləyən uşağa təpinirdi və dəniz o dəqiqə sakitləşdi, külək yenə də lazımi səmtə əsməyə başladı, özü də lazım olandan şiddətlə yox. Sahilə yan aldılar, sahilə çıxdılar. Qabaqda İsa, dalınca da İoannla İakov, çünki onlar bu yerlərdə heç vaxt olmamışdılar. Hər şey onlara maraqlı gəlirdi, lakin, çox dəhşətli, qəribə birisini görəndə yaman günə düşdülər. Qəflətən yolda qabaqlarına adam, əgər təbiricaizsə, eybəcər məxluq atıldı, hər ikisinin ürəyi az qaldı ağzından çıxa. Onun bütün bədəni qotur içindəydi və iyrənc yaralarla örtülmüşdü. Dağınıq saçları, kilkə saqqalı vardı, yaman murdar iy verirdi. Sonra öyrəndilər ki, hər dəfə qaçıb canını qurtaranda sərdabələrdə gizlənirmiş, odur ki neçə



dəfələrlə onu tutub zəncirləyir, ayaqlarını kündələyirmişlər, amma yenə də zəncirini qırır, kündələrini çıxarırmış və kimsə bacara bilmirmiş onunla. Bu zavallı təkcə dəli olsaydı – hərçənd ki bəllidir, dəlilərin tutması tutanda, gücləri ikiqat olur – ən azı, barmaqlıqlarını möhkəm eləmək olardı, zəncirini bir az qalın düzəldərdin, bununsa canına cin-şeytan dolmuşdu, heç bir barmaqlıq, heç bir zəncir-filan vecinə deyildi. Gecə-gündüz dağlarda otərəf-butərəfə yüyürürdü, həm özündən, həm də elə kölgəsindən qaçırdı. Hara getsə, mütləq qəbristana qayıdır, sərdabələrin, qəbirlərin arasında, hərdən də lap içində gizlənirdi. Onu sonra zorla ordan çıxarırdılar. Bu mənzərəni görənlər isə bir xeyli özlərinə gələ bilmirdilər. Bax, İsa da onunla burda rastlaşdı, divanənin dalınca yüyürənlər isə uzaqdan əl-qol oynadıb işarə edirdilər ki, qaçın, canınızı qurtarın. Lakin İsa bu taya taleyini sınamaq üçün keçmişdi və heç bir imkanı qaçırmaq fikrində deyildi. İakov və İoann qorxsalar da, dostlarını tək qoymadılar. Elə ona görə də indiyədək kimsənin dilindən çıxmayan, kimsənin eşitmədiyi və hətta nə vaxtsa deyəcəyi, ya da eşidəcəyi ağıllarına belə gəlməyən sözləri ilk eşidən də onlar oldu. Ona görə ağıllarına gəlmirdi ki, bu sözlər İlahinin, Onun nəsihətlərinin birbaşa əleyhinəydi, bu da bizim hekayətimizin davamında sizlərə məlum olacaq. Divanə çürüyən ət parçalarının sallandığı dişlərini qıcayıb caynaqlarını açaraq sürətlə yaxınlaşırdı və İsanın başında tükləri qabardı. Lakin zavallı ona çatmağa ikicə addım qalmış yerə sərilərək uca səslə dedi: "Mənimlə nə işin var sənin, İsa, Tanrı oğlu, yalvarıram sənə, mənə əzab vermə".

Bəli, ilk dəfə, oyaq vəziyyətdə və camaat içində – tənha yuxularda, həqiqətini nəcib skeptisizmin şübhə altına almağa məcbur etdiyi yuxularda deyil, məhz insanların arasında – bir səs ucaldı və bu, İblisin səsi idi. Hamının eşidəcəyi bir tərzdə elan edirdi ki, Nazaretli İsa – Tanrı oğludur. Bunu o hələ heç özü də bilmirdi, çünki Tanrı ilə səhradakı söhbətində atalıq mövzusuna toxunan olmamışdı. "Sən mənə daha sonra lazım

olacaqsan", – Tanrının ona dediyi bundan ibarət idi, vəssalam. Hətta onların arasında bir bənzərlik aşkarlamağa da imkan yox idi, çünki o, İsanın gözünə ya bulud kimi, ya tüstü sütunu kimi, sözün kəsəsi, bulud sütunu kimi görsənmişdi. Canına əcinnə girmiş adam isə İsanın ayaqları altında qıvrılırdı. Canına dolmuş şər quvvələr təsəvvür və tələffüz edilməyəsi sözlərini deyib susdular. O an İsa, sanki, özünü tanıyıb hiss elədi ki, içinə nəsə girir, hansı qüvvəsə ona yiyələnir. Onu, kim bilir, hara, nəyə aparacaq və axırda da mütləq qəbir evinə çıxaracaq, qəbrə salacaq bir qüvvə. İsa ondan soruşdu: "Adın nədir?" O dedi: "Legion". Onun canındakı əcinnələrin sayı çox idi. Onda İsa əmr etdi: "Çıx bu insanın canından, şər ruh". Bu sözlərini deməyə macal tapmamışdı ki, əcinnələrin çoxsəsli xoru – burda nazik, zil, qulaqbatırıcı səslər də vardı, qalın və boğuq da, qadın səsi kimi qulağayatanı da, daşa girən mişar kimi tükürpərdicisi də, istehzalı və kinayəlisi də, riyakarı, dilənçininki təki müti və şikayətlisi də, ömründə ilk sözlərini dilinə gətirən uşaq səsinə bənzəyəni də, inildəyəni, ağrı çəkirmiş kimi sızıldayanı, vəhşi kimi ulayanı da – başladı İsaya yalvarmağa ki, onları bu ölkədən qovmasın. Onu inandırmaq istəyirdilər ki, əgər əmr etsə, bu zavallının canından çıxarlar, təki ölkədən qovmasın onları.

İsa soruşdu: "Siz hara çıxmaq istəyirsiniz ki?"

Elə buradaca, dağın ətəyində böyük donuz sürüsü yer eşirdi və əcinnələr ondan xahiş etdilər ki, icazə versin, bu heyvanların canlarına daraşsınlar. İsa düşündü və bu nəticəyə gəldi ki, bu düz olardı, çünki yəhudilərin murdar saydığı bu heyvanlar, yəqin, bütpərəstlərə məxsusdur. Amma daha ağlına gəlmədi ki, cin-şeytanın doluşduğu donuzları yeyən adamlar da cinliyə, dəliyə çevrilə bilər. O, özünün digər bir qərarının da pis nəticələrini qabaqcadan nəzərə almamışdı, çünki hətta Tanrı oğlu belə, kiminlə qohum olduğunu tam mənada dərk etməmişdən bütün gedişləri şahmatdakı kimi əvvəlcədən götür-qoy eləyib hər şeyi nəzərə ala bilməz.

Əcinnələr böyük həyəcanla onun cavabını gözləyirdilər və nəhayət, İsa dilləndi: "İcazə verirəm". Onların hamısı bir yerdə sevincək qışqırıq saldılar və elə o dəqiqə də donuzların canına doluşdular. Ya bütün bunların qəfil baş verdiyindən, ya da bu heyvanların hələ şər qüvvələri canlarında gəzdirməyə adət etmədiklərindən orada neçəsi vardısa, hamısı – iki min baş idi donuzun sayı – dəli olub uçurumdan aşağı, düz dənizə atıldılar və elə orda da boğuldular. Sürü yiyələrinin bu günahsız, bir neçə dəqiqə qabaq özü üçün sakitcə gəzərək torpaqda eşələnib yeməli köklər, qurd-quş axtaran, bu quraq yerlərdə bitən sərt, quru otları qırpan heyvanlarını suda görəndə necə qəzəbləndiklərini çətin təsəvvür edə bilərsiniz. Zavallı donuzlardan bəziləri artıq arxası üstə üzürdü, digərləri hələ səylə çapalayır, şıllaq atıb çox əzəmətlə səy göstərirdilər ki, qulaqları suyun üzündə qalsın. Donuzların qulaq dəlikləri qapanmır, su da onların içinə sel kimi axaraq bütün bədəni ağzınadək doldururdu. "Amin!" Donuzotaranlar dəli kimi yerdəki daşları qapıb İsaya və yoldaşlarına atmağa başladılar, sonra da üstünə yüyürdülər ki, onlara dəymiş ziyanın baiskarından ödəniş tələb etsinlər. Əgər donuzun bir başının qiyməti "iks" olsa, onu iki minə vururuq və ziyanın məbləğini müəyyənləşdiririk.

Hə! Əcəb işdir, kimdən alacaqsız o pulu? Balıqçıların pulu heç vaxt olmur, onlar nə tuturlarsa, onunla da dolanırlar, İsa isə heç balıqçı da deyildi. O əvvəl istədi çobanları gözləyib onlara izah eləsin ki, yer üzündə İblisdən pis kimsə yoxdur, onunla müqayisədə iki min donuzun tələf olması – çox xırda şeydir, bu yolda bizim hamımız itkilər verməyə məhkumuq; həm maddi, hə də başqa itkilər; istəyirdi onlara desin: "Səbrli olun, qardaşlar!" Lakin İakovla İoann fikirləşdilər ki, mövcud vəziyyətdən və ab-havadan dinc keçməyəcəyi dəqiq bəlli olan danışıqlara girişməyə dəyməz, çünki bir tərəfin nəzakəti və xoş niyyəti digər tərəfin arqument kimi istifadə etmək istədiyi gücün müqabilində heçdir. Və enişaşağı – düz sahilə cum-



dular, qayığa tullanıb avardan yapışdılar, tezliklə təhlükəsizlikdə idilər. Onları təqib edənlərlə, balıq tutmadıqlarından heç qayıqları da olmayan bu adamlarla daha üzə-üzə gəlməyəcəkdilər ki. İakov dedi: "Gör nə qədər donuz öldü, nicat tapan isə tək bircə ruh oldu, amma yenə Tanrı qazandı".

İsa ona fikirli-fikirli nəzər saldı, sanki, beynini tamam başqa şeylər işğal etmişdi və Zavedeyin oğlanları yaxşı bilirdilər ki, məhz nələr. Çox istərdilər həmin bu "başqa şeyi" – divanənin İsanın Tanrı oğlu olması haqqında görünməmiş sözlərini müzakirə etsinlər, amma yoldaşları gözlərini elə indicə tələsik ayrıldıqları sahilə dikmişdi. O, suya baxırdı, orda isə yüngül ləpələr heç bir günahı olmayan iki min donuzun leşini yırğalayırdı. O hiss edirdi ki, içindəki nigarançılıq durmadan artır, nəhayət, bütün hiss və həyəcanı ağzından çıxan bir qışqırıqda cəmləşdi: "Əcinnələr! Əcinnələr hardadı bəs?" Sonra başını göylərə qaldırıb qəhqəhə çəkdi: "Eşidirsən, İlahi, sən iradəni yerinə yetirməyə qadir olmayan bir insanı özünə oğul seçmisən, çünki min-min qüdrətinin içində bircəsi çatmır. Sənin şüurun İblisin şüuruyla bacarmaqda gücsüzdür!"

"Sən nə demək istəyirsən?" – İoann bu qəbə saymazlıqdan qorxub mızıldandı. "Demək istəyirəm ki, həmin o bədbəxtin bədənində məskən salmış əcinnələr indi azadlığa çıxdılar. Biz artıq bilirik ki, onlar ölmür və heç Tanrının özü belə onları öldürə bilməz. O ki qaldı mənim elədiyimə, onu, təxminən, dənizin dalğasını qılıncla yarmağa bənzətmək olar".

Sahildə artıq çoxlu adam toplaşmışdı – bəziləri suya girib yaxınlıqda üzən cəmdəkləri tutur, digərləri qayıq axtarırdı ki, dənizə çıxıb daha uzaqdakıları toplasın.

Elə həmin gecə, Simonla Andreyin sinaqoq yaxınlığında yerləşən evinə beş yoldaş yığışdı ki, dəhşət doğuran bir sualı hamıdan xəlvət müzakirə etsinlər:

– Həqiqətənmi əcinnələrin dediyi kimi İsa Tanrı oğludur? – günorta baş verənlərdən sonra hamısı yekdilliklə labüd söhbəti axşama qoymaq qərarına gəlmişdilər.

Birinci İsa dilləndi:

– Yalanın banisi olan birisinin heç bir sözünə inanmaq olmaz. – O, təbii ki, İblisi nəzərdə tuturdu.

Andrey dedi:

– Həm doğru, həm yalan eyni ağızdan çıxır və İblis əgər hərdən düz danışsa belə, İblislikdən çıxmaz.

Simon dedi:

– Biz çoxdan bilirik ki, sən başqaları kimi deyilsən, balıq məsələsini xatırlayaq. Sən olmasaydın, biz o qədər tuta bilməzdik, tufanı yadınıza salın, az qalmışdı bizi öldürə, bir də suyu şəraba çevirməyini, zinakar qadını daşqalaq etməklərini xatırlayın. Sən olmasaydın, öldürəcəkdilər onu, indi də əcinnələr. Dəlinin canına daraşan əcinnələr.

İsa dedi:

– Tək mən deyildim onları qovan.

– Düzdür, – İakov dedi, – amma onlar yalnız sənin önündə alçalaraq Tanrı oğlu olduğunu dedilər.

– Onların alçalmasının mənə nə faydası, əgər axırda alçalan elə özüm oldumsa?

– Axı məsələ onda deyil, – İoann müdaxilə etdi, – mən də oradaydım və hər şeyi özüm eşitdim. Sən niyə bizə demə-misən ki, Tanrı oğlusan?

– Mən heç bilmirəm ki, bu, həqiqətən, beladirmi?

– Elə şey olar ki, İblisə bəlli olan sənə bəlli olmasın?

– Əla sualdır, amma sənə qoy onlar cavab versinlər.

– Kim?

– İblisin mənə oğlu olduğumu söyləyən Tanrı və bunu yalnız Tanrıdan öyrənə bilən İblis.

Heç kəs dinmədi, sanki, yuxarıda adı çəkilən cütlüyə imkan vermək istəyirdilər ki, dillənsinlər. Sonra isə Simon hamının dilində dolaşan bir şey barədə soruşdu:

– Tanrı ilə sənin aranda nə olub?

İsa köksünü ötürdü:

– Mən bu sualı sizin yerlərə gələn gündən gözləyirdim.

[1] *Tirada* – dramda qısa və təsirli monoloq

– Bizim heç ağlımıza da gəlməzdi ki, Tanrı oğlu balıqçı olmaq istəyər. Sən, əslində, kimsən axı?

İsa üzünü əllərilə örtdü, yaddaşında elə nöqtə tapmaq istəyirdi ki, etirafını oradan başlasın və birdən öz həyatını, sanki, kənardan gördü, anladı. Əgər əcinnələr yalan demirsə, onun başına bu günə kimi gələnlərin hamısı tamam başqa mahiyyət kəsb etməlidir, bir çox hadisələr isə yalnız təzəcə aşkarlanmış bu həqiqətin işığında aydınlaşa bilər. Sonra üzünü açdı, qarşısında oturanların hər birinin üzünə iltimas dolu nəzərlərlə baxdı, sanki, yoldaşlarından ona inanmalarını istəyəndə bütün insani imkanlardan daha yüksəkdə duran çox böyük bir şey umduğunu etiraf edirdi. Nəhayət, uzun sükutdan sonra dilləndi:

– Mən Tanrını görmüşəm.

Balıqçılar susurdular, gözləyirdilər görsünlər ki, nə olacaq. İsa isə gözləri yol çəkərək danışırdı:

– Mən onunla səhrada rastlaşdım və o dedi ki, həyatımın əvəzində mənə hakimiyyət və şöhrət verəcək, lakin oğlu olmağım barədə heç nə demədi.

– Bəs o, sənin gözünə necə göründü? – İakov soruşdu.

– Belə, necə deyim, bulud kimi, ya bəlkə, tüstüdən sütun kimiydi, elə bil.

– Tüstü, ya alov?

– Tüstü.

– Sənə başqa heç nə demədi?

– Bircə onu dedi ki, vaxtı yetişəndə yenə gələcək.

– Nəyin vaxtı?

– Bilmirəm, bəlkə, həyatımın vaxtını deyirdi.

– Bəs sən hakimiyyəti, şöhrəti nə vaxt tapacaqsan?

– Bilmirəm.

İstiyə baxmayaraq, otaqdakı beş nəfərin hamısı tir-tir əsirdi, araya yenə sakitlik çökdü. Sonra Simon xüsusi ahənglə dedi:

– Bəlkə, sən elə bizim Tanrı oğlu saydığımız Məsihin özüsən? Gəlmisən ki, seçilmiş xalqı qul qismətindən azad edəsən?

– Mən Məsihəm?

– Niyə belə təəccüblənirsən? – Andrey əsəbi halda gülümsündü, – guya, Məsih olmaq birbaşa Tanrı oğlu olmaqdan böyük şeydir.

İakov dedi:

– Məsihmi, Tanrı oğlumu, mən bir şeyi anlaya bilmirəm, əgər Tanrı bu məsələni heç sənin özünə də açmayıbsa, bu barədə İblis haradan xəbər tutub?

İoann fikirli-fikirli dedi:

– Tanrının İblislə kim bilir, nə işləri var, biz haradan bilək? – Beşi də bir-birinə baxdı. Bu barədə düşünmək belə adama dəhşət gəlirdi və Simon İsadan soruşdu:

– Bəs sən nə edəcəksən?

İsa cavab verdi:

– Gözləyəcəyəm, zamanın yetişməsini gözləyəcəyəm, əlimdən başqa nə gəlir ki?

Vaxt isə artıq yaxınlaşırdı, amma İsa hələ həmin vaxta kimi iki dəfə özünün ecazkar gücünü nümayiş etdirəsi olacaqdı. Düzdür, ikinci dəfəsi barədə susmaq daha yaxşı olardı. Çünki o, yenə səhv edərək şər qüvvələrə uçurumdan atılan zavallı donuzlar qədər dəxli olan bir əncir ağacını məhv etmişdi. Amma birinci hadisə ona dəyərdi ki, Yerusəlimin baş ruhaniləri ondan xəbər tutsun və bu barədə Məbədin girişində qızıl hərflərlə yazılsın. Çünki belə bir şey qabaqlar heç vaxt görünməmişdi. Lap bizim günlərə kimi heç vaxt da görünməyəcəkdi. Tarixçilər həmin gün orada bir belə adamın toplaşmasının səbəblərini araşdırarkən etdikləri mübahisələrdə dəridən-qabıqdan çıxırdılar. Ötəri qeyd edək ki, bu mübahisələr indi də səngimək bilmir, çünki bəziləri – biz artıq səbəblərə qayıdırıq – deyir ki, söhbət əsrlərdən bəri ənənəvi olaraq təşkil edilən adi ziyarətdən gedir. Digərləri isə ağızları köpüklənə-köpüklənə tamam başqa şeyi sübut etməyə çalışırlar: "Qətiyyən elə deyil, oradakı basabasın səbəbi başqa idi. Camaat arasında söz yayılmışdı ki, guya,



fövqəladə səlahiyyətlərə malik bir romalı məmur vergi və gömrük haqqının azaldılmasını elan etmək üçün şəhərə gələcəkdi". Bu söz-söhbət də, əslində, düz çıxmışdı. Üçüncü bir qisim də vardı, onlar heç bir dəlil gətirməyib söyləyirdilər: "Xırda uşaqlar da vergilərin azaldılmasına, mövcud sistemin vergi ödəyicilərinin xeyrinə dəyişməsi barədə söhbətlərə inanmazlar. O ki qaldı camaatın kütləvi şəkildə ora axışmasına, qoy hər şeyin hazırına nazir olanlar özlərinə əziyyət verib bu kütlənin tərkibini, strukturunu araşdırsınlar". Lakin artıq müəyyən edilib və bu məlumatı mötəbər saymaq olar: oradakı camaatın sayı dörd minlə beş min arasında olub. Əgər qadınlarla uşaqlar hesaba alınmasa, bütün bu camaat birdən yeməksiz qalıb. Təbiətən belə uzaqgörən, bundan savayı, didərginliyə və uzun səfərlərə bu dərəcədə alışmış, lazımi tədarük görmədən heç bir kənddən o birisinə getməyən, bir parça çörək, bir tikə ət olmadan qətiyyən yola çıxmayan bir xalq bu dəfə necə olmuşdu ki, özüylə yeyəcək götürməmişdi – bu məsələni heç kəs izah edə bilmir. Doğrusu, buna heç cəhd də göstərən yoxdur. Amma fakt faktlığında qalır. Faktlar da buna dəlalət edir ki, orada qadınları və uşaqları saymasaq, on iki-on beş min adam varmış. Bəs qadın və uşaqları niyə saymayasan? Onlar da saatlar uzunu ac qalmışdılar və gec-tez evlərinə qayıtmaq niyyətindəydilər. Hərçənd ki onların əksəriyyətinin zəiflikdən yolda öləcəkləri, ya da yol kənarında oturub sədəqə istəməyə məcbur olacaqları gün kimi aydın idi. Həmişə belə vəziyyətlərdə olduğu kimi, birinci uşaqlar yemək istəməyə başladılar. Bəziləri hətta ağlayırdı da: "Ana, mən yemək istəyirəm!" Çox sonralar qəbul olunan ifadəylə desək, vəziyyətin nəzarətdən çıxması təhlükəsi dəqiqədəqiqə artırdı. İsa kütlənin ən sıx yerində Maqdalina və özünün dörd dostu – Simon, Andrey, İakov və İoannla bir yerdə dayanmışdı. Onlar donuzlarla əlaqədar məsələdən, onun dalınca aydınlaşan məsələlərdən sonra artıq ondan bircə dəqiqə də ayrılmırdılar. Amma oradakı

adamlardan fərqli olaraq yanlarında bir neçə çörək və balıq götürmüşdülər, qarınlarını rahatca doyura bilərdilər. Lakin bu qədər ac insanın arasında nəsə yemək yalnız xudpəsəndliyin ən murdar təzahürü sayılardı. Həm də qətiyyən təhlükəsiz deyildi. Çünki zəruriyyətdən qanuna – bircə dənə xırda addım var, həm də Qabil əyyamından qəbul olunub ki, ən yaxşısı, ədaləti öz əllərinlə bərpa etməkdir – bu daha tez başa gələr. İsanın heç ağlına da gəlməzdi ki, səs-küy, basabas salan bir belə adama nəyləsə kömək eləyə bilər. Lakin İakovla İoann şahidlərə məxsus inamla ona dedilər:

– Əgər sən insanın canından əcinnələri qova bildinsə, deməli, elə edə bilərsən ki, bu insanlar yemək tapsınlar, acından ölməsinlər.

– Haradan alım yeməyi, özümüzlə götürdüyümüzdür, vəssalam.

– Sən Tanrı oğlusan, deməli, bunu da eləyə bilərsən.

İsa Maqdalinaya baxdı və o dedi:

– Sən elə bir həddə çatmısan ki, oradan qayıtmaq artıq gecdir.

Bunu deyəndə onun sifətində kiminsə halına acıyırmış kimi bir ifadə vardı. Amma bilinmirdi ki, onun halına acıyır, yoxsa ac insanların? İsa özləriylə gətirdikləri altı çörəyi götürüb hər birini iki yerə böldü və yoldaşlarına payladı. Balıqlarını da eynən elə böldü və özünə də para çörək, yarım dənə balıq saxladı. Sonra dedi:

– Mənim dalımca gəlin, mənim hərəkətlərimi təkrar eləyin.

Bizə onun nə etdiyi bəllidir, amma bilmirik, necə edib ki, adamdan adama keçə-keçə, hərəyə para çörək və yarım dənə balıq verib. Amma hamının əlində bir bütöv arpa kömbəsi və bir dənə balıq olub. Onun dalınca gələn Maqdalina və dörd balıqçı dostları da eynilə onun hərəkətlərini təkrarlayırdılar. Onlar haradan keçirdilərsə, sanki, orada taxıl zəmisinin üstündən xoş bir nəsim əsirdi və başını əymiş sünbüllər bir-bir

dikəlirdilər, külək altında əsən sünbüllərin xışıltısını isə durmadan çeynəyən, alqış sədaları yağdıran ağızların sakit səsi andırırdı. "Bu Məsihdir" – bəziləri belə deyirdi. "Yox, o sehrbazdır" – başqaları söyləyirdi. Lakin onların heç birinin ağlına da gəlmədi soruşsun: "Sən Tanrı oğlusan?" İsa isə hamıya belə deyirdi: "Qulaqları olan eşitsin. Bölüşməsəniz, artmazsınız".

Yaxşı ki, o, bu möcüzəni şərait tələb edəndə – yerində və vaxtında göstərdi. Lakin cəzaya layiq olmayanı cəzalandırmaq heç yaxşı iş deyil. Bayaq xatırlatdığım əncir ağacının məsələsi bu qəbildən idi.

İsa çöllüklə gedirdi və acdığını hiss etdi. Yolun kənarında bir əncir ağacı görüb yaxınlaşdı ki, budaqlarında meyvəsi olub-olmadığına baxsın. Lakin yarpaqlardan savayı heç nə tapmadı, çünki bu ağacın hələ meyvə gətirən vaxtı deyildi. Onda dedi: "Qoy sənin heç vaxt meyvən olmasın". Ağac elə o dəqiqə soldu. Onda yanında olan Maqdalina dedi: "Ehtiyacı olanlara ver, verməyə heç nəyi olmayanlardan istəmə". Hərəkətindən utanan İsa ağaca dirilmək əmri verdi, lakin o elə əvvəlki kimi cansız qaldı.

* * *

Dumanlı sübh çağı. Balıqçı həsirin üstündən qalxır, pəncərədən süd kimi havaya baxaraq arvadına deyir: "Bu gün dənizə çıxmayacam, dumandır, heç nə görünmür". Qalileya dənizinin hər iki sahilindəki bütün balıqçılar həmin gün bu qeyri-adi mənzərəni görəndə bu, ya da buna bənzər sözlər demişdilər. İlin bu çağlarında, adətən, belə duman olmur. Yalnız dənizə, balıq ovuna tez-tez çıxsa da, heç balıqçı olmayan birisi evin kandarından görmək mümkün olmayan səmaya sarı baxaraq, bu gün məhz onun günü olduğuna arxayınmış kimi evdə olan kiməsə deyir:

– Dənizə çıxacam.

Maqdalina çiyninin üstündən ona nəzər salaraq soruşur:

– Çıxmalısan?

İsa cavab verir:

– Vaxtdır artıq...

O, qadını qucaqladı və dedi:

– Nəhayət ki, biləcəyəm, mən kiməm və nə üçün yaranmışam. – Sonra da qəribə bir tələsiklik və inamla – Yaman dumandır, adam heç öz ayaqlarını da görməz, – deyib enişaşağı sahilə qaçdı, qayıqlardan birini itələyib suya saldı, dənizin görünməyən ortasına doğru avar çəkməyə başladı. Sakitlik və dumanda avar çənbərinin cırıltısı, avarın qayığın gövdəsinə dəyəndə çıxardığı tappıltı, onlardan axan suyun şırıltısı uzağa yayılır və arvadlarının "Əgər dənizə çıxmırsansa, bu gün bir az artıq yat" sözlərinə baxmayaraq, balıqçılar da gözlərini açırlar. Balıqçı qəsəbəsinin sakinləri qatı dumanla örtülmüş dənizə sarı həyəcan və nigarançılıq içində baxırlar və özləri də bilmədən avarların tıqqıltısı və suyun şappıltısının qəflətən kəsməsini gözləyirlər ki, evlərinə dağılışa bilsinlər, bütün qapıların cəftəsini vursunlar, kilidləsinlər, hərçənd ondan da xəbərdardırlar ki, bunun köməyi olmayacaq. Əgər haqqında düşündükləri adam üzünü bu səmtə tutub bircə dəfə üfürsə, bütün qapılar dabanından çıxacaq. Duman İsanı irəli buraxıb dağılırdı, lakin o yalnız avarların kürəyini və qayığının dal tərəfini görürdü, bütün qalan şeylər isə indi boğuq kül rəngdə bir divardan ibarət idi. Qayıq məqsədə yaxınlaşdıqca dağınıq bir işıq dumanı yavaş-yavaş ağardır, parladırdı. İndi isə duman pərdəsi titrəyirdi, sanki, onun arxasından hansısa bir səs dumandan keçib bu üzə çıxmaq istəyir, amma bacarmırdı – pambığın içində boğulan kimi boğulurdu. Qayıq dənizin düz ortasındakı parlaq işıq ləkəsində dayandı. Qayığın arxa tərəfindəki yüksəklikdə isə Tanrı oturmuşdu.

Yox, bu dəfə bulud sütunu şəklində gəlməmişdi – belə havada bulud da, tüstü də dumana qarışardı. Bu, hündür qamətli, bütün sinəsini örtən şələ saqqallı, başıaçıq, enlisifət, iri ağzının ətli dodaqları danışanda da tərpənməyən bir qoca

idi. O, varlı yəhudilər kimi geyinmişdi – əynində şux qırmızı rəngdə tunika, üstündən də qızıl tikməli mavi, qollu xlamida vardı, ayaqlarında da kobud, sadə və möhkəm səndəllər – gözəllik üçün deyildilər, əsl yol ayaqqabıları idi, baxan kimi deyərdin ki, belə səndəl geyənin bir yerdə oturmaqla heç arası olmaz. Saçları nə rəngdə idi – çal, qara, şabalıdı – bax bunu deməyə çətinlik çəkirik. Hesabla bu yaşda artıq başı çoxdan ağarmalıydı, lakin ola bilər, o, elələrindən idi ki, lap qocalanda da saçları ağarmır. İsa avarları yatağından çıxardı, qayığın içinə qoydu, sanki, söhbətin uzun olacağını qabaqcadan bilirdi və çox sadə bir tərzdə dedi:

– Mən buradayam.

Tanrı tələsmədən və səliqəylə paltarının ətəklərini yığdı, onu dizlərində səliqəyə saldı və dedi:

– Mən də buradayam.

Səsinin ahəngindən elə hiss oluna bilərdi ki, bu sözü gülümsünərək deyirdi, lakin dodaqları hərəkətsiz qalmışdı, yalnız saçları, uzun bığları və saqqalı, elə bil, azacıq titrəyirdi – lap zəng uğultusundan titrəyən kimi.

İsa dedi:

– Mən gəlmişəm ki, kimliyimi bilim və ittifaqımızın mənə aid olan hissəsini yerinə yetirmək üçün nə etməli olduğumu öyrənim.

Tanrı dedi:

– Burada iki məsələ var, onları ayrı-ayrılıqda müzakirə etmək lazımdır. Hansından başlamaq istəyirsən?

– Birincisindən: mən kiməm? – İsa soruşdu.

– Özün bilmirsən? – Tanrı suala sualla cavab verdi.

– Elə bilirdim bilirəm, belə hesab edirdim ki, öz atamın oğluyam.

– Hansı atanı deyirsən?

– Doğma atamı – dülgər İosifi, İlia, ya da İakovun oğlunu, dəqiq yadımda deyil.

– Həmin o xaçdan asılanı deyirsən?

– Mən elə bilirdim başqa atam olmayıb.

– Hə, bu, romalıların faciəvi bir səhvi idi – sənin o atan günahsız həlak oldu.

– Sən "o" dedin, deməli, "bu" atam da var?

– Mən sənin ağlına heyran qalmışam.

– Ağlın bura nə dəxli var? Mən bunu İblisdən eşitmişəm.

– Tanıyırdın onu?

– Yox, bir dəfə mənimlə rastlaşdı.

– Hə, nə öyrəndin ondan?

– Öyrəndim ki, mən sənin oğlunam.

Tanrı razılıq əlaməti olaraq başını aşağı saldı:

– Hə, sən mənim oğlumsan.

– Axı insan necə Tanrı oğlu ola bilər?

– Əgər sən Tanrı oğlusansa, deməli, artıq insan deyilsən.

– Axı mən insanam: adam kimi içirəm, yatıram, sevirəm və deməli, adam kimi də öləcəm.

– Bilirsən, sənin yerinə olsaydım, buna belə arxayın olmazdım.

– Nə demək istəyirsən?

– Bu artıq başqa məsələdir və bu məsələyə öz vaxtında qayıdarıq. Vaxtımız isə hələ lap çoxdur. İndi isə mənə de görüm, sənə mənim oğlum olduğunu söyləyəndə İblisə nə cavab verdin?

– Heç bir cavab vermədim, səninlə görüşümü gözləyirdim, İblisi isə bir yazığın vücudundan qovdum. Ona yaman əziyyət verirdi. Adı da Legion idi, çünki tək deyildi.

– Yaxşı, bəs indi onlar haradadırlar?

– Bilmirəm.

– Axı dedin ki, onları qovmusan?!

– Sən, şübhəsiz ki, məndən yaxşı bilirsən bunu, çünki əcinnələri qovandan sonra bilirsən ki, onlar hara yox olur.

– Sən niyə düşünürsən ki, mən belə işlərin bilicisiyəm?

– Sən tək bunun yox, hər şeyin bilicisisən, çünki sən – Tanrısan.



– Bəlli həddə, yalnız bəlli həddə.

– Yəni hansı həddə?

– O həddə ki, ona yetişəndə yaxşısı budur, özünü bir şey bilməyən kimi göstərəsən.

– Ən azından, sən bilirsən ki, necə və nəyə görə mən sənin oğlunam.

– Mən baxıram ki, bizim son görüşümüzdən bəri sənin ruhun xeyli güclənib. Əgər kiminlə danışdığını nəzərə alsaq, mən deyərdim ki, lap həyasızlaşmısan.

– Onda mən qorxmuş bir yeniyetmə idim, indi – kişiyəm.

– Heç qorxmursan?

– Yox.

– Eybi yox, hələ olacaq, inandırıram səni, qorxu Tanrı oğullarının da canına dolur.

– Çoxdur onlar?

– "Onlar", yəni kim?

– Oğulların çoxdur?

– Yox, mənə bircəsi lazım idi.

– Danış bunu, mən necə sənin oğlun oldum?

– Məgər anan danışmayıb sənə?

– Məgər o bilir?

– Əlbəttə bilir, mən axı onun yanına mələk göndərmişdim ki, bütün bunların necə baş verdiyini izah eləsin. Mən elə bilirdim, o danışıb sənə.

– Bəs mələyi nə vaxt yollamışdın?

– Dayan, bir yadıma salım. Əgər qarışdırmıramsa, sən ikinci dəfə evdən gedəndən sonra. Amma Kanada fərqlənənə qədər.

– Deməli, o, hər şeyi bilirmiş, amma mənə deməyib, heç səni səhrada gördüyümə də inanmadı. Heç olmasa, göndərdiyin mələyin sözlərinə inanmalıydı axı, amma mənə etiraf eləmədi.

– Bilmirsən məgər, qadınlar utancaq, xırdaçı, vasvası məxluqlardır? Sən axı biriylə yaşayırsan. Onların öz qorxusu, öz nigarançılığı olur.

– Nə nigarançılıq?

– Bilirsən, anan sənə hamilə olmamışdan əvvəl mən öz toxumlarımı atan İosifin toxumlarıyla qarışdırdım. Bu, asan bir iş idi, heç kəs duyuq düşmədi də.

– Əgər belədirsə, əmin olmaq mümkündür ki, mən sənin oğlunam?

– Mümkündür, belə vəziyyətlərdə ən ağıllısı konkret bir söz deməməkdir, amma bizim vəziyyətdə – olar. Mən axı, hər halda, Tanrıyam.

– Bəs sən niyə istədin ki, oğlun olsun?

– Əgər göydə nəsil artırmamısansa, gərək bunu yerdə düzüb-qoşasan. Özü də bunu birinci mən fikirləşməmişəm ki... Hətta qadın ilahilərin tanrıdan uşaqları olmasına icazə verən dinlərdə də onlar hərdənbir yer üzünə düşürlər. Mənə elə gəlir ki, bunu həm rəngarənglik üçün, həm də birdəfəlik cinsi yaxşılaşdırmaq, sağlamlaşdırmaq üçün – dünyaya qəhrəman-zad gətirmək üçün eləyirlər.

– Yaxşı, bəs məni dünyaya niyə gətirmisən?

– Yox, bunu rəngarənglik üçün etməmişəm, inana bilərsən.

– Onda bəs niyə?

– Ona görə ki, mənə yer üzündə köməkçi olmaq üçün bir adam lazım idi.

– Sən Tanrısan, necə ola bilər ki, insanın köməyinə möhtac olasan?

– Bu artıq tamam başqa məsələdir.

Sükut davam edirdi, birdən dumanın içindən, – amma barmaqla göstərmək mümkün olan konkret bir yerdən yox – səslər eşidilməyə başladı. Üzəndə çıxardığı səslərdən və fınxırmağından, nəfəsinin təngliyindən bu üzgüçü heç ustaya oxşamırdı, ya da artıq gücdən düşmüşdü. İsaya elə gəldi ki, Tanrı gülümsünür və uzun sürən sükutu həmin üzgüçü düz ortaya – qayığın durduğu işıqlı sahəyə çatmayana kimi pozmaq fikrində deyil. Qəflətən fınxırtının və su səsinin

gəldiyi sol tərəfdən yox, açıq dənizə baxan sağ cinahdan tünd bir ləkə göründü. İsa əvvəlcə gələni başını sudan çıxarmış, qulaqları şək donuza oxşatdı. Lakin bir an sonra aydın oldu ki, ya adamdır, ya da, heç olmasa, adamdan zahirən fərqlənməyən bir məxluq. Tanrı ona sarı yanpörtü çöndü, yalnız maraqla deyil, sanki, sonuncu sıçrayış üçün həvəsləndirmək məqsədiylə baxdı. Bu yanpörtü duruş, görünür, üzən məxluqun gözlərindən yayınmamışdı deyə o dəqiqə təsirini göstərdi. Onun hərəkətləri cəldləşdi və elə bil, daha müntəzəm, mütəşəkkil oldu. Sanki, heç arxada o boyda məsafə yox idi – sahilin uzaqlığını nəzərdə tuturuq. Nəhayət, bir əl qayıqdan yapışdı – enlisümük, güclü, sərt dırnaqları olan əllər və yəqin ki, hələ sudan çıxmayan bədəninin qalan hissəsi də elə Tanrınınkı kimi əzəmətli, nəhəng, qədim olardı. Təkandan qayıq bir yanı üstə əyildi, suyun içindən əvvəlcə baş göründü, onun dalınca ətrafına damcılar səpən bədən sıçradı və nəhayət, ayaqlar çıxdı. Bu, artıq neçə ildən bəri səs-sorağı çıxmayan Çoban idi, qayığa dırmanıb dedi:

– Bu da mən, – qayığın kənarında oturdu, İsa da, Tanrı da ondan eyni məsafədə qaldılar, özü də bu dəfə qayıq heç ləngərləmədi də, sanki, gələn məxluq tamam çəkisiz idi. Elə bil, heç dibsiz dənizdən çıxmış nəhəng deyildi – havadan asıla qalmışdı, sadəcə olaraq, özünü elə göstərirdi ki, guya, oturub. "Bu da mən, – bir də təkrar elədi, – ümidvaram vaxtında çatdım, düz söhbət məqamında".

– Hə, biz çoxdan söhbətləşirik, amma əsas məsələyə hələ toxunmamışıq, – Tanrı cavab verdi və İsaya müraciətlə əlavə elədi:

– Bu, İblisdir, adını çək, qulağını bur.

İsa əvvəl birinə, sonra o birisinə baxdı və gördü ki, Tanrının saqqalı olmasaydı, bir-birinə çox bənzəyərdilər – lap əkiz qardaş kimi. Düzdür, İblis daha cavan görünürdü, üzündə qırışları da az idi, amma bunu da görmə yanlışlığına, ya da göz yayındırmaq bacarığına yozmaq olardı.

– Mən bilirəm bu kimdir, onunla bir yerdə dörd il keçirmişəm, amma o vaxtlar adı Çoban idi.

– Hə, kiminləsə ünsiyyət saxlamalıydın, axtarıb tapmalıydın da. Mənimlə imkan yox idi, evinizdəkilərlə özün istəmədin, odur ki, təkcə İblis qalmışdı.

– Mən onu axtarmırdım, o özü tapdı məni, ya da ki, sən göndərdin məni onun yanına.

– Əslində, nə birincisidir, nə ikincisi. Biz onunla, necə deyərlər, razılaşdıq ki, sənin üçün vəziyyətdən ən yaxşı çıxış yolu elə bu olar.

– Deməli, həmin dəlinin diliylə danışaraq mənə "sənin oğlun" deyəndə o, artıq həqiqəti bilirdi?

– Hə, ucundan-qulağından bilirdi.

– Deməli, məni ikiniz bir yerdə aldatmışdınız?

– Hə, elə yer üzündəki bütün insanlar kimi.

– Sən deyirdin ki, mən insan deyiləm.

– Bəli, deyirdim və indi də təsdiq edirəm, sən, demək olar ki – eh, yadımdan çıxdı, necə deyirlər bunu – hə! Yeni şəkildə ifadə olunmusan.

– Yaxşı, indi sizə bəs məndən nə lazımdır?

– Ona – heç bir şey.

– Siz burada ikiniz bir yerdəsiniz. Mən gördüm axı, onun gəlməsinə təəccüblənmədin, deməli, gözləyirdin.

– Bu, tam belə deyil, amma hər bir işi başlayanda gərək mütləq İblisi də yaddan çıxarmayasan, onu da nəzərə alasan.

– Əgər sənin mənimlə danışacaqların yalnız bizim ikimizə aiddirsə, niyə o buradadır, niyə qovmursan onu çıxıb getsin?

– Kiçik əclafları qovmaq olar – ona qulluq göstərənləri, sənə qarşı sözlə, hərəkətlə nəsə eləyənləri qovarsan, amma İblisin şəxsən özünü yox! Onu qova bilməzsən.

– Deməli, ona görə bura gəlib ki, bizim söhbətimiz ona da aiddir?

– Oğlum, sözlərimi yadında saxla. Tanrıya dəxli olan hər şeyin İblisə də dəxli var.

Çoban – icazə verin, onu hərdən elə əvvəlki kimi belə adlandıraq ki, bəşər övladının əbədi düşmənini kəlməbaşı nahaq yerə xatırlatmayaq – onları dinməzcə, açıq maraq göstərmədən seyr edirdi, sanki, söhbət heç ondan getmirdi. Sanki, özünün bütün görkəmiylə indicə Tanrının ağzından çıxan qəti iddiaların hamısını rədd edirdi. Lakin elə ki İsa yenə dilləndi və "İndi isə mənim ikinci sualıma cavab ver", – dedi, o dəqiqə bəlli oldu ki, onun biganəliyi boğazdanyuxarı imiş. İndi söhbətə diqqət kəsilmişdi, baxmayaraq ki elə bayaqkı kimi bircə kəlmə də danışmırdı.

Tanrı dərindən köksünü ötürdü, ətrafına göz gəzdirdi və elə bir ahənglə dedi, sanki, özü üçün çox maraqlı və gözlənilməz bir şey kəşf etmişdi: "Mən heç bu barədə fikirləşməmişdim – doğrudan, səhradan buranın nəyi pisdir?" Sonra İsaya nəzər saldı, susdu və sanki, labüd bir şeylə barışırmış kimi bir də başladı:

– Narazılıq hissi, mənim oğlum, insan ruhuna bütün məxluqatın xaliqi tərəfindən daxil edilib, yəni mənim tərəfimdən. Amma bu hissi də bütün başqa şeylər kimi mən özümə baxaraq yaratmışam, mən onu öz qəlbimdə tapdım və həmin zamandan ötən müddət onu qətiyyən məhv etməyib, zəiflətməyib. Hətta etiraf eləyim ki, o, indi daha güclüdür, bu hissim daha da itiləşib.

Tanrı yenə susdu, elə bil, nitqinin qiymətləndirilməsi üçün fürsət verirdi və sözünə davam etdi:

– Artıq dörd min dörd ildir ki, mən yəhudilərin ilahisi olmuşam, bu xalq isə özünün təbiəti etibarilə mürəkkəb, davakar, narahat xalqdır. Amma biz münasibətlərimizdə müəyyən bir tarazlığa nail ola bildik, çünki o, məni qəbul edir və əgər mən gələcəyi görmək qabiliyyətinə malikəmsə, həmişə, çox ciddi şəkildə qəbul edəcək.

– Deməli, sən ümumən götürəndə razısan? – İsa soruşdu.

– Necə deyim, həm razıyam, həm də yox, bir az da dəqiq desəm, razı olardım, əgər sakitlik nə olduğunu bilməyən

ruhum hər gün mənə söyləməsəydi ki, hə, nə deyəsən, ələ qurmusan işini, mükafatı ən səxavətli qurbanla belə verilə bilməyən dörd min illik əzab-əziyyətdən sonra hər şeyini özün xəlq etdiyin dünyanın küncündə yaşayan xırdaca bir xalqın tanrısı olaraq qalmısan. İndi sən de, oğlum, gözlərimin önündəki bu ağrılı ziddiyyətləri hər gün görüb məmnun qala bilərəm?

– Bilmirəm – İsa dedi, – dünyanı mən xəlq etməmişəm, ona qiymət verə bilmərəm.

– Qiymət verə bilməzsən, amma kömək eləyə bilərsən.

– Nədə və nəylə kömək edə bilərəm?

– Mənim nüfuzumu yaymaqda, genişləndirməkdə, çoxlarının, lap çoxlarının Tanrısı olmağıma kömək göstərə bilərsən.

– Başa düşmürəm.

– Əgər sənin üçün nəzərdə tutduğum rolun öhdəsindən gəlsən, mən tamamilə əminəm ki, beş-altı yüz ildən sonra sənin köməyinlə mən bir çox maneələrdən adlayıb təkcə yəhudilərin yox, yunanlarsayağı, katolik adlandırılacaq insanların da tanrısı olacam.

– Bəs bu rol nədən ibarətdir?

– Əzabkeş roludur, mənim oğlum, qurban rolu, çünki bundan yaxşı heç bir şeylə iman atəşini yandırmaq, inanc yaymaq mümkün deyil.

Tanrı "əzabkeş", "qurban" sözlərini çox şirin bir şeymiş kimi dedi, lakin buz kimi bir soyuq İsanın bütün bədənini qəflətən sarmışdı, Tanrı isə ona mübhəm bir ifadə ilə baxırdı – təbiətşünasın marağı ilə qeyri-iradi yazığı gəlmə arasında olan bir ifadə ilə.

– Sən axı demişdin ki, mənə hakimiyyət və şöhrət verəcəksən, – deyə İsa soyuqdan hələ də titrəyərək mızıldandı.

– Verəcəyəm, verəcəyəm, mütləq verəcəyəm, amma danışdığımız kimi, ölümündən sonra.

– Onları öləndən sonra neynirəm ki?



– Bilirsən, sən sözün tam mənasında ölməyəcəksən, çünki mənim oğlum kimi mənim yanımda olacaqsan. Ya yanımda, ya da ki məndə, hələ qəti qərara gəlməmişəm.

– Bu nə deməkdir axı? Necə yəni "sözün tam mənasında ölməyəcəm"?

– Bu, o deməkdir ki, sənə dünya durduqca məbədlərdə, mehrablarda elə ehtiram yağdıracaqlar, hətta – mən bunu sənə indidən deyə bilərəm – gələcəkdə məni də bir az sıxışdıracaqsan, çünki insanlar məni, özlərinin ilkin Tanrısını unudacaqlar. Amma bunun elə bir əhəmiyyəti yoxdur: bir azın nə ziyanı var, böyükdən nə əskiləcək ki.

İsa Çobana baxdı, onun dodaqlarındakı təbəssümü gördü və anladı.

– İndi başa düşdüm ki, İblis niyə buradaymış: əgər sənin hakimiyyətin başqa ölkələrə, başqa xalqlara da yayılsa və onlar sənə sitayiş etsələr, elə onun da gücü artacıq, çünki sənin sərhədlərin elə onun sərhədləridir – nə bir qarış az, nə bir qarış çox.

– Düzdür, oğlum, tamamilə doğrudur, səndəki uzaqgörənlik məni sevindirir, söylədiyinin də sübutu budur ki, bir dinin şər qüvvələri o biri dinin ərazisində fəaliyyət göstərə bilməz, eynilə bir ilahi də əgər təsəvvür etsək ki, başqa bir dinin ilahisi ilə qarşıdurmaya başlasa, nə ona qələbə çala bilər, nə də ki məğlub ola.

– Söylə, mən necə öləcəyəm?

– Əzabkeşin ölümü ağır, əzablı və biabırçı olmalıdır, belə olanda möminlərin ürəyini riqqətə gətirmək, onları daha həssas, daha zərif etmək asan olur.

– Olarmı, sözünün kəsəsini deyəsən, mən necə öləcəm?

– Sən ağır, əzablı, biabırçı vəziyyətdə öləcəksən – səni çarmıxa çəkəcəklər.

– Atam kimi?

– Sənin atan mənəm, bunu unutma.

– Əgər hələ də seçim imkanım olsa, mən onu seçərdim, lap qoy həyatının sonunda biabırçılıqla ölsün.

– Sən seçə bilməzsən, çünki səni seçiblər.

– Mən ittifaqımızdan imtina edirəm, səninlə bütün əlaqələrimi kəsirəm, çünki hamı kimi yaşamaq istəyirəm.

– Bu boş-boş sözlər kimə lazımdır, oğlum, yəni indiyə kimi başa düşməmisən ki, sən bütövlüklə mənim hakimiyyətimdəsən? Mənim tərəf kimi çıxış etdiyim bütün o sənədlərin adını nə qoyursansa qoy – müqavilə, razılaşma, pakt, kontrakt – onların hamısı eyni cür bitir, bu sonluğa kağız da az gedir, mürəkkəb də və orada sadə və aydın, heç bir dolaşıq ifadələrə yol vermədən bunlar yazılır: Tanrı nə istəyirsə, o da qanun qüvvəsinə minir – icrası zəruri olan qanuna çevrilir. Hətta qaydaları pozmaq istəsə belə, o, qanun qüvvəsinə minir. Məsələn, elə sənin özünü götürək, oğlum, sən də axı, şübhəsiz, bəlli bir istisnasan, sən də qanunun özü qədər vacib olacaqsan və bunu da mən eləyirəm.

– Əgər sənin bu qədər gücün varsa, niyə başqa ölkələri və xalqları fəth etməyə özün getmirsən – bu həm daha asan, həm də mənəvi baxımdan daha təmiz, daha düzgün, daha vicdanlı bir hərəkət olardı.

– Bunu eləyə bilmərəm, olmaz! Biz tanrıların öz aramızda bağladığımız müddətsiz və pozulmaz müqavilə, başqalarının münaqişəsinə birbaşa qoşulmamaq barədə götürdüyümüz öhdəlik buna imkan vermir. Bir də ki meydanda, bir sürü bütpərəstin qarşısında onları səhv ilahiyə inanc bəslədiklərinə, əsl tanrı mənim özüm olduğuma inandırmağa çalışarkən kənardan necə görünəcəyimi heç təsəvvürünə gətirirsən? Heç bir ilahi başqasına belə badalaq vurmaz və heç bir tanrı imkan verməz ki, öz vilayətində onu qane etməyən hərəkətləri özü gedib başqasının vilayətində törətsin.

– Deməli, siz insanlardan bir alət kimi istifadə edirsiniz?

– Elədir, oğlum, məhz elədir. İnsandan istənilən qaşığı yona bilərsən, ilk çığırtısından sonuncu nəfəsinədək o, həmişə tabe olmağa hazırdır, ona "Get" deyirsən – gedir, "Dur" – durur, desən "Geri" – mütləq qayıdacaq. İnsan istər müha-

ribədə olsun, istər dinc şəraitdə – təbii ki, bu, sözlərin geniş anlamında – tanrıların payına düşmüş ən böyük uğurdur.

– Bəs mənim materialımdan yonulmuş qaşıq nəyə yarayır?

– Sən mənim bəşəriyyətin qazanına salladığım qaşıq olacaqsan. Mən bu qaşıqla oradan insanları çıxaracam – mənim çevriləcəyim yeni tanrıya inanc bəsləyəcək insanları.

– Çıxarıb yeyəcəksən?

– Onları yeməyin nə mənası, əgər özləri özlərini dəqiqəbaşı yeyirlərsə.

İsa avar yerlərini bərkitdi və dedi:

– Əlvida, mən evə qayıtmalıyam, siz də gedin öz işlərinizin dalınca. Sən üzə-üzə get, sən isə bir heçdən peyda olduğun kimi də, çıx get heçliyə.

Nə Tanrı tərpəndi, nə İblis və onda İsa istehzayla əlavə elədi:

– Hə-ə, siz istəyirsiniz ki, mən cənabınızı sahilədək aparım, nə olar, məmnuniyyətlə apararam, qoy hamı, nəhayət ki, Tanrı ilə İblisi canlı görsünlər, qoy baxsınlar ki, onlar birbirinə necə bənzəyir, bir-birilərini necə gözəl anlayırlar.

O, yanpörtü çönüb gəldiyi sahilə işarə elədi, sonra isə avarın bir neçə güclü hərəkətiylə qayığı dumanın içinə sürdü. Duman elə qatı idi ki, artıq Tanrını görə bilmir, İblisin siluetini isə tam seçmək mümkün olmurdu. Özünün də əməlli-başlı kefi kökəlmişdi, qeyri-adi ruh yüksəkliyi, canlanma hiss edirdi, qayığının burnunu görməsə də hiss edirdi ki, avarını hər dəfə çəkəndə dördnala çapan, belindəki yükdən azad olmağa çalışan, amma bunu bacarmayan və axırda da bu yükün ona uçmaq imkanı verməyəcəyini, düz ömrünün sonuna kimi onu belində daşıyacağını bilən və bununla barışan cıdır atının başı kimi necə qalxıb-enir. İsa yorulmadan avar çəkirdi: artıq, yəqin, sahil də yaxın idi. Maraqlıdır, görəsən, adamlar ondan bu sözləri eşidəndə özlərini necə aparacaqlar? "Budur, saqqallı – Tanrıdır, o birisi – İblis". Çiyninin

üstündən nəzər salıb qarşısındakı dumanda bir seyrəlmə gördü və elan elədi: "Hə, deyəsən, çatdıq". Avarı daha səylə çəkməyə başladı. Gözləyirdi ki, qayıq indicə sahilin dayazlığına sürtünüb duracaq və altında çınqılın həmişəki şən xışıltısı eşidiləcək. Lakin qayığın görünməyən burnu yenə dənizə baxırdı, dumandakı seyrəlmə isə, əslində, heç seyrəlmə deyildi – elə həmin ecazkar işıqlı dairə, parlaq tələ idi. Bayaqdan bəri içindən çıxdığını güman etdiyi tələ. Bir anda gücdən düşüb başını aşağı saldı, əllərini dizlərinin üstündə elə cütlədi, sanki, kimsə yaxınlaşıb onları bağlayacaqdı. Hətta avarları sudan çıxarmaq da yadına düşmürdü, çünki bütün vücuduna amiranə bir tərzdə içində nə varsa, hamısını qovub çıxaran bircə hiss hakim idi: hər cür hərəkətin mənasızlığı və əbəsliyi. "Yox, o, birinci danışmayacaq, məğlub olduğunu ucadan etiraf etməyəcək, Tanrı iradəsinə, onun nəzərdə tutduqlarına zidd getdiyi və bununla birbaşa olmasa da, dolayı yolla İblisin maraqlarına xidmət göstərdiyi üçün mərhəmət diləməyəcək". İblis isə həmişəki kimi heç də ikinci dərəcəli olmayan bu dolayı yollardan artıq öz xeyrini götürməyə hazır idi. Uğursuz cəhddən sonra aralığa çökən sükut uzun sürmədi.

Yenidən qayığın arxa qismində peyda olan Tanrı, hökmün icra edilməsi mərasiminə hazırlaşan hakimin yalançı çoxmənalılığı ilə ətəklərini çəkdi, paltarının yaxasını düzəltdi və dedi:

– Başdan başlayaq, həmin o yerdən ki, mən sənə hakimiyyətim altında olduğunu dedim. Bu həqiqətin sənin tərəfindən müti, şəksiz təsdiqinə yönəlməmiş hər bir hərəkət əbəsdir və deməli, bu həm mənim, həm də öz vaxtının yolverilməz israfçılığıdır.

– Yaxşı, başdan başlayaq, – İsa dilləndi, – amma qabaqcadan bəyan edirəm ki, sənin mənə bəxş etdiyin möcüzə göstərmək imkanından imtina edirəm, onlarsız isə sənin bütün planın bir heçdir, göydən yağan və heç kimin susuzluğunu yatırmayan leysan kimi mənasızdır.

– Sənin sözlərin bir məna kəsb edərdi, əgər möcüzə göstərməyin özündən asılı olsaydı.

– Məgər məndən asılı deyil?

– Təbii ki, yox. Möcüzələri – həm xırdalarını, həm böyüklərini – mən yaradıram. Əlbəttə, sənin iştirakınla, sənin yanında yaradıram ki, mənə ünvanlanmalı heyranlıq sənə yönəlsin. Amma sən qəlbinin dərinliklərində yaman mövhumatçısan. Elə fikirləşirsən ki, xəstənin başının üstündə mütləq bir ecazkar durmalıdır, yalnız onda möcüzə baş verəcək. Əslində isə mənim bircə istəyim kifayətdir ki, tək-tənha qalaraq ölməkdə olan bir insan, həkimlərin sağalda bilmədiyi, dayələrin imtina etdiyi, bir fincan su verməyə kimsəsi olmayan adam, təkrar eləyirəm, mən istəyən kimi sağalsın, heç nə olmamış kimi həyatına davam eləsin.

– Bəs niyə bunu etmirsən?

– Ona görə ki, o, elə biləcək özünün şəxsi keyfiyyətlərinə görə nicat tapıb və mütləq belə deyəcək: "Bəli, mənim kimi bir insan ölə bilməzdi". Xəlq etdiyim dünyada isə elə onsuz da, özündənrazılıq həddən ziyadə çiçəklənib, indi lap baş alıb gedir.

– Başqa sözlə desək, bütün möcüzələri sən özün edirsən?

– Hə, o cümlədən sənin göstərdiklərini və gələcəkdə göstərəcəklərini də. Biz əgər ağlasığmaz bir şey fərz edib – bu fərziyyənin isə mənası yalnız bizi bura toplayan sualı sona kimi aydınlaşdırmaqdır – düşünsək ki, sən gələcəkdə də mənim iradəmə zidd gedəcək, hər addımbaşı elan edəcəksən ki – bunu məsələn deyirəm – Tanrı oğlu deyilsən, mən sənin həyat yolunu elə qeyri-adi möcüzələrlə bəzəyərəm ki, sənə minnətdar olacaq insanların alqışlarını sakitcə qəbul etməkdən başqa yolun qalmaz.

– Deməli, mənim heç bir çıxış yolum yoxdur?

– Heç xırdaca bir deşik də qalmayıb. Odur ki özünü qurban getmək istəməyən, mehraba aparılanda ayaqlarını

dirəyən, başı kəsiləndə də çığıran bir qoyun kimi aparma. Bütün bunlar mənasızdır. Qoyunun taleyi artıq həll olunub, boynunu vuracaq bıçağı artıq qaldırıblar.

– O qoyun elə mənəm.

– Mənim oğlum, sən Tanrı qoyunusan, sən mehraba Tanrının şəxsən aparacağı qurbansan. Yeri gəlmişkən, indi burada da elə buna hazırlıqla məşğuluq.

İsa Çobana nəzər saldı, sanki, ondan nəsə gözləyirdi. Yox, kömək gözləmirdi. O, adam olmadığından və heç vaxt da olmayacağından, həmçinin Tanrı olmadığı və heç vaxt da olmayacağından hər şeyə tamam fərqli baxmağa borcluydu. İsa ondan bir baxış umurdu, qaşlarının bircə işarəsini gözləyirdi. Qoy lap ikibaşlı olsun, amma bir əlamət, bir nişan gözləyirdi ki, heç olmasa, ona lap qısa müddətlik imkan verəydi ki, özünü qurbanlıq qoyun kimi hiss etməsin. Lakin İsa Çobanın gözlərində artıq onun bir dəfə diliylə dediyi sözləri oxudu: "Sən heç nə öyrənmədin, get". Anladı ki, Tanrıya bircə dəfə tabe olmamaq azdır. Onun mehrabına quzu qoymaq istəməyən birisi, qoyunu müticəsinə kəsməməliydi. Tanrıya o dəqiqə də "Hə" deyib! "Yox" demək olmazdı, sanki, bu sözlər qoşa avar idilər və qayıq ancaq hər iki avarla eyni dərəcədə yaxşı işləyəndə sürətlə gedir. Daim öz gücünü göstərməsinə rəğmən, kainat və ulduzlar, şimşək və göy gurultusu, partlayış və vulkan alovu olan Tanrı o gücdə deyil ki, səni qoyunu kəsməyə məcbur edə. Əgər sən gələcək şöhrətin barədə düşünərək onu kəsdinsə, axıtdığın qanı səhranın torpağı tam udmadı. Bax, bu qırmızı şırnaq necə bizə sarı sürünür; suda burulur və biz sahilə çıxanda isə dalımıza düşəcək, qarabaqara izləyəcək – məni, Tanrını, səni izləyəcək.

İsa Tanrıya dedi:

– Mən insanlara Sənin oğlun, Sənin yeganə oğlun olduğumu elan edəcəm, amma qorxuram bu hətta burada, sənin özününkü saydığın əyalətlərdə belə Sənin iradənlə Sənin ərazilərini genişləndirmək üçün azlıq edə.

– Çox sağ ol, oğlum, nəhayət ki, sən, az qala, mənim qəzəbimə səbəb olacaq bezdirici tərsliyinin daşını atdın və öz ayaqlarınla *modus faciendi*[1] adlandırılan yola çıxdın. İnsanlar arasında mövcud olan saysız-hesabsız fərqlər içində yalnız bir cəhət onların – irqindən, dərisinin rəngindən, inanc bəslədiyi tanrısından, fəlsəfi görüşlərindən asılı olmayaraq hamısını birləşdirir və onların hamısına xasdır – həm savadlısına, həm qanmazına, həm cavanına, həm qocasına, həm güclüsünə, həm gücsüzünə. Onlardan heç biri cəsarət etməz söyləsin ki, bunun ona dəxli yoxdur.

– O, hansı cəhətdir elə? – marağını gizlətməyən İsa soruşdu.

– Hər bir adam, – Tanrı öz sözünə nəsihətamiz bir ahənglə davam etdi, – kimliyindən, harada yaşamasından, nə iş görməsindən asılı olmayaraq günahkardır və günah insandan ayrılmazdır. Necə ki insanın özü günahdan ayrılmaz olur, bu, təxminən, bir sikkənin iki üzü kimi bir şeydir. Birində – insan, o birisində günah var.

– Sən mənim sualıma cavab vermədin.

– Verəcəyəm, verəcəyəm, beləliklə, bütün dediklərimdən bir nəticə hasil olur ki, heç bir insan "mənə dəxli yoxdur" deyib, bu sözləri rədd edə bilməz: "Tövbə et, çünki hamı həyatı boyu bircə dəfə də olsa, günah işlədir". Kimsə kiminsə barəsindəsə pis düşünür, kimsə adətə zidd gedir, kimisi cinayət törədir, bəzisi ehtiyacı olana yardım göstərmir, kimsə borcuna xilaf çıxır, bir başqası dini, ona qulluq edəni təhqir edir, biri də Tanrıya xain çıxır – və bütün bu insanlara sənin təkcə "Tövbə edin! Tövbə edin! Tövbə edin!" – deməyin bəs edəcək.

– Yəni belə xırda bir şey üçün "oğul" dediyin birisinin həyatını qurban verməyə dəyərmi? Adamların içinə bir peyğəmbər yollaya bilməzdin məgər?

– İnsanların peyğəmbərlərə qulaq asdığı dövran keçdi, bu gün daha təsirli vasitələr lazımdır. Elə bir şey ki, həqiqətən,

[1] Hərəkət tərzi (*lat.*)

sarsıtsın, onların içini üzünə çıxarsın, bütün hisslərini silkələsin.

– Məsələn, çarmıxa çəkilmiş Tanrı oğlu?!

– Hə, bu yarayar.

– Yaxşı, bəs bütün bu insanlara mən tövbəyə dəvət etməkdən savayı nə deməliyəm, bəlkə, sənin elçinə qulaq asmaqdan bezdilər, məndən üz çevirdilər?

– Əlbəttə, bu azdır, amma sən bir az təxəyyülünə güc verməlisən. Qəti demə ki, səndə bu bacarıq yoxdur. İndiyə kimi mənə qurban deyilmiş quzunu necə xilas edə bildiyini xatırlayıram.

– Bu, çətin deyildi. Quzunun tövbəlik işi yox idi axı.

– Yaxşı dedin, heyif ki, mənasızdır, amma bu da kara gələr – qoy insanlar öz rahatlıqlarını itirsinlər, nigaran qalsınlar, qoy fikirləşsinlər ki, əgər sənin sözlərini başa düşmürlərsə, sözlərdə heç bir günah yoxdur.

– Onlara cürbəcür hadisələr danışmaq lazım gələcək?

– Hə, gələcək: tarixçələr, rəvayətlər, nəsihətlər. Özü də danışdıqlarınla Müqəddəs Kitaba qarşı bir az küfr desən də olar. Qorxaq adamlar başqalarında belə sərbəstliyi çox yüksək qiymətləndirirlər, elə mənim özüm də eləyəm, hərçənd ki heç qorxaq deyiləm. O zinakar arvadı ölümdən necə zirəkliklə qurtarmağın xoşuma gəldi və razılaş ki, mənim dilimdən belə bir tərifi eşitməyin kiçik məsələ deyil. Çünki kimə nə cəza vermək lazım olduğunu Qanunda mən özüm müəyyənləşdirmişəm, elə Qanunun özünü də sizə mən vermişəm.

– Sən indi həmin Qanunu pozmağa icazə verirsən, bu, yaxşı əlamət deyil.

– İcazə verirəm, öz işimə yarayanda verirəm və mənə lazım olanda da tələb edirəm ki, ona ciddi riayət etsinlər. Yadına sal, mən qayda və istisnalar barədə sənə nə deyirdim, zira hər bir istisnanı qanunauyğunluğa çevirmək də mənim əlimdədir.

– Sən dedin ki, mən xaçda öləcəyəm.



– Hə, mənim iradəm belədir.

İsa çəp-çəp Çobana baxdı, amma o, sanki, burada deyildi. Elə bil, uzaq gələcəkdən nəsə bir epizod görürdü və öz gözlərinə inanmırdı. İsa əllərini yanına salıb dedi:

– Qoy hər şey Sənin iradənlə olsun.

Tanrı artıq qalxırdı ki, sevimli oğlunu təbrik eləsin, onu sinəsinə sıxsın, lakin İsa onu dayandırdı:

– Amma bir şərtlə.

– Sən gözəl bilirsən ki, mənə heç bir şərt qoya bilməzsən, – deyə O, narazı bir tərzdə dilləndi.

– Yaxşı, şərt yox, buna xahiş deyək – ölümə məhkum edilənin sonuncu xahişi.

– Yaxşı, de.

– Sən – Tanrısan, deməli, Sənə verilən hər suala düzgün cavab verəcəksən. Sən – Tanrısan, deməli, hər şeyi bilirsən – əvvəllər olanları da, indi baş verənləri də, sabah olacaqları da.

– Məhz elədir, çünki zaman da mənəm, həqiqət də.

– Onda mənə de, and verirəm Səni o sadaladıqlarına, mən öləndən sonra dünya necə olacaq, onda elə bir şey olacaqmı ki, əgər mən indi Sənin məmnuniyyət hissinin təmini üçün və mümkün qədər çox insanlara, ölkələrə hökmfərma olmaq istəyinə görə qurban getməyə razılıq verməsəm olmazdı.

Tanrı dilindən bəlaya salınmış birisi kimi açıq-aşkar pərt oldu və bir nəticə verəcəyinə inanmasa da, canını sözlə qurtarmağa cəhd elədi:

– Mənim oğlum, gələcək gözəgörünməzdir, orada baş verəcək olayların hamısını danışa bilməzsən.

– Biz artıq nə vaxtdan burada oturmuşuq, bu dənizin ortasında, dumanda – heç bilmirəm gündümü, aydımı, ildimi? Eybi yox, bir il də gözləyərik, bir ay da, bir gün də, İblis istəmirsə, rədd ola bilər, o artıq öz payını alıb və əgər gəlir, nəf tən bölünsə, ədalətlə bölünsə, sənin hakimiyyətin nə qədər artsa, o da bir o qədər güclənəcək.

– Yox, hələ oturum bir az, – Çoban dilləndi və bu, gələndən bəri dilindən çıxan ilk sözlər idi, – oturum, – deyə bir də təkrarlayıb əlavə elədi, – mən elə özüm də gələcəyi görmək qabiliyyətinə malikəm, amma bu görüntülərdə həqiqəti yalandan ayırmaq həmişə mümkün olmur, daha doğrusu, öz yalanımı aydın görə bilirəm, çünki bu, mənim həqiqətlərimdir, amma başqasının söylədiyi yalanın həqiqətə nə dərəcədə uyğun olduğunu müəyyən etmək heç vaxt qismətim olmur.

Bu dolaşıq tiradaya bitkin şəkil vermək üçün İblis gələcəkdə nə baş verəcəyini də söyləməliydi, lakin sözünü elə qəfil kəsdi ki, sanki, həddindən ziyadə danışdığını dərk etmişdi. Tanrıdan gözlərini çəkməyən İsa bir qədər kədər və kinayəylə dedi:

– Niyə özünü bildiklərini bilməyən kimi göstərirsən, nə mənası var? Sən qabaqcadan bilirdin ki, bu xahişi səndən edəcəyəm. Bilirsən ki, bilmək istədiklərimi mənə deyəcəksən. Odur ki daha vaxtı uzatmağın adı yoxdur – mən ölməyə başlamalıyam.

– Sən artıq yer üzünə gələn andan ölməyə başlamısan.

– Əlbəttə, amma indi hər şey daha tez cərəyan edəcək.

Tanrı ona elə bir ifadə ilə baxdı ki, buna "qəflətən peyda olmuş hörmət" də deyə bilərdin və onun bütün siması, bütün hərəkətləri, sanki, daha insani oldu. Hərçənd ilk baxışdan bunların bir-biriylə qəti əlaqəsi yox idi. Axı biz kimik ki, niyyətlər, məramlarla hərəkətlər, davranışlar arasındakı dərin və mübhəm əlaqələr barədə fikir yürüdə bilək? Duman daha qəliz, daha qatı olurdu, indi o, qayığı keçilməz bir divar kimi bürüyürdü ki, İsanın verəcəyi qurbandan dünyada yaranacaq durum haqda Tanrının söyləyəcəklərinin bircə kəlməsi belə sivişib yer üzünə sızmasın. Tanrı ona artıq "oğul" deyirdi. Onunla Nazaretli Məryəmin oğlu! Hərçənd həqiqi atası dülgər İosif idi, çünki yazılmamış qanunlar bizi vadar edir ki, yalnız gözlə gördüklərimizə inanaq, biz insanlar da, bəllidir ki, eyni



şeyi bir-birimizdən tamam fərqli görürük və bu keyfiyyətimiz bəşəriyyətə nəinki sağ qalmağa, həm də şüurumuzu müəyyən dərəcədə itirməməyimizə kömək göstərib.

Tanrı dedi:

– Sən ya Kilsənin banisi olacaqsan – bu sözün mənası sənə bəllidir, "yığıncaq" və yaxud "dini birlik" deməkdir – ya da onu sənin adından yaradacaqlar. Əslində, bunun elə bir fərqi də yoxdur, eyni şeydir. Bu Kilsə bütün dünyaya yayılacaq, hətta elə guşələrə çatacaq ki, oralar indi kəşf olunmayıb, hələ kəşf olunasıdır və o kilsənin adı onun bütün dünyanı əhatə etməsinə görə "katolik" kilsəsi olacaq. Amma təəssüf ki, bu kilsə özünə məni yox, səni mənəvi nümunə sayanların bölücülüyünün, ayrı-seçkiliyinin qarşısını ala bilməyəcək. Bu proses də çox çəkməyəcək – cəmi bir-neçə min il, çünki mən, hər halda, səndən əvvəl olmuşam və sən artıq olduğun kimi, gələcəkdə olacağın kimi olmayanda belə mən necə olmuşam, necə varamsa, elə də qalacam.

– Bir az aydın danışmaq olmaz? – İsa onun sözünü kəsdi.

– Olmaz, – Tanrı cavab verdi, – insanların dedikləri mahiyyətcə kölgədir, kölgələrlə isə işığı izah edə bilməzsən, zira onlarla işığın arasında mütləq bir qeyri-şəffaf nəsnə durmalıdır – hər ikisini yaradan nəsnə.

– Mən səndən gələcəyi soruşurdum.

– Söhbət elə ondan gedir.

– İstəyirəm məndən sonra dünyaya gələcək insanların necə yaşayacaqlarını öyrənim.

– Sən öz ardıcıllarını nəzərdə tutursan?

– Mənə maraqlıdır ki, onlar daha xoşbəxt olacaqlarmı?

– O qədər də yox, amma onlar xoşbəxtliklərini mənim əbədi məskənim olan göylərdə, mənim yanımda tapmaq ümidi qazanacaqlar.

– Vəssalam?

– Yəni Tanrı ilə bir yerdə yaşamaq belə kiçik şeydir?

– Bunun azmı, çoxmu, yoxsa, ümumiyyətlə, hər şeymi olduğu yalnız Məhşər günündən sonra – yaxşı və pis əməllərinə görə sənin insanları məhkəmə edəcəyin gündən sonra bəlli olacaq, o zamana qədər göylərdə tək qalacaqsan.

– Mənim mələklərim, baş mələklərim var.

– Adamın ki yoxdur...

– Hə, yoxdur və onların olması üçün səni çarmıxa çəkməlidirlər.

– Mən bir də onu bilmək istəyirəm ki, – İsa, sanki, qan içində və ölmüş vəziyyətdə xaçın üstündə asılan obrazından, gözlərinin qabağında canlanan obrazından imtina etmək istəyirmiş kimi, qəzəblə dedi, – mən bilmək istəyirəm ki, insanlar mənə inam bəslədikləri həddə, mənim davamçım olmaq dərəcəsinə necə yetişəcəklər? Amma bircə demə ki, onları bu yola yalnız özümün dəvət etməyim, yaxud inananların onları mənim adımla bu yola dəvət eləməsi kifayət olacaq. Sən demək istəyirsən ki, məsələn, başqa ilahilərə sitayiş edən bütpərəstlər və romalılar öz tanrılarını mənə dəyişəcəklər?

– Sənə yox, mənə.

– Sənə, mənə, nə fərqi var, söz oyunu oynamayaq, sualıma cavab ver.

– Kim inanc bəsləsə, o da gələcək yanımıza.

– Nə asan imiş. Başqa heç bir şey eləmək lazım olmayacaq?

– Yox, o qədər də asan deyil. Digər ilahilər buna mane olacaqlar.

– Sən də, təbii ki, onlarla mübarizəyə başlayacaqsan?

– Bu nə sarsaq sözdür? Onlarla mübarizə yer üzündə gedəcək, göylər isə əbədi və sakit olaraq qalacaq. İnsanların taleyi elə onlar yaşayan yerdə həll olunmalıdır.

– Qoy düzünü, təmizini mən deyim – sözlərim, sən deyən kimi, mahiyyətcə kölgə olsa belə – adamlar sənin və mənim, bizim uğrumuzda öləcəklər?

– İnsanlar daim ilahilərin yolunda ölürlər, hətta yalançı ilahilərin belə.

– Məgər ilahi yalançı ola bilər?

– Bilər.

– Sən onların içində yeganə həqiqisi, yeganə səmimisisən?

– Hə, mən – yeganə həqiqi Tanrıyam və mən yalan demirəm.

– Buna baxmayaraq, sənin yolunda yaşamaqları üçün, onlara heç bir dünyəvi ləzzət verə bilməyəcəyin göylərdə deyil, yer üzündə yaşamaqları üçün xəlq olunmuş insanları fəlakətdən qurtara bilməzsən?

– Sənin söylədiyin dünyəvi ləzzətlər – yalançı, yanlış, aldadıcıdır, zira bəşər övladı ilkin günahın lənətini hələ beşiyindən bəri daşıyır. Çobanından soruş, o, sənə məsələnin necə olduğunu danışar.

– Əgər Tanrı ilə İblis arasında sirlər varsa, deyəsən, birini artıq öyrəndim. Hərçənd ki o, mənə heç nə öyrənmədiyimi deyir.

Ortaya sükut çökdü. Tanrı ilə İblis ilk dəfə bir-birinin üzünə dik baxdılar və adama elə gəlirdi ki, onların hər ikisi nəsə demək istəyir, lakin heç dillənmirdilər.

İsa dedi:

– Mən gözləyirəm.

– Nəyi gözləyirsən? – bu, Tanrıya aşkar ləzzət eləmişdi.

– Gözləyirəm söyləyəsən ki, sənin başqa ilahilər üzərində qələbən nə qədər ölüm və əzablar bahasına başa gələcək, bizə – sənə və mənə inananlar öz mübarizələrinin bahasını hansı itkilər və qurbanlarla ödəyəcəklər?

– Sən cavab almaqda israrlısan?

– İsrarlıyam.

– Yaxşı, olsun. Mənim bayaq sənə dediyim həmin o dini birliyin binası ucaldılacaq, amma bünövrəsi canlı cisimlərdən qurulacaq. Bu bünövrəni möhkəmlətmək üçünsə sement

əvəzinə əzab, göz yaşı, möhnət, işgəncədən, ölümün həm indi bəlli olan, həm də gələcəkdə aşkarlanacaq cürbəcür növlərindən də istifadə olunacaq.

– Nəhayət ki, sən açıq danışmağa başladın, davam elə.

– Sənin tanıdığın və sevdiklərindən başlayaq. Məsələn, balıqçı Simon – sən ona Pyotr adı qoyacaqsan – onu da sənin kimi çarmıxa çəkəcəklər, amma təpəsi üstə. Qardaşı Andrey də çarmıxa çəkiləcək, amma çəp xaçın üstündə. Zavedeyin oğlanlarından adı İakov olanın boynu vurulacaq.

– Bəs İoann və Maqdalina?

– Onlar öz əcəllərilə öləcəklər, bu dünyadan təbii yolla köçmək vaxtları yetişəndə. Lakin sənin inancının bütün qalan davamçıları, söylədiklərini yayanlar əzabdan yaxalarını qurtara bilməyəcəklər. Məsələn, Filip adlı birisi çarmıxa çəkilərək daşqalaq ediləcək, Varfolomey adlı bir başqasının isə dərisi diri-diri soyulacaq, üçüncüsünü, Fomanı oxlayacaqlar. Orada hələ Matfey adlı biri də olacaq, amma unutmuşam başına nə gətirəcəklərini. Simon adlı başqa birisini iki şaqqa edəcəklər, İudanı qılıncla doğrayacaqlar, o biri İakovu daşqalaq edəcəklər, o biri Matfeyin başını üzəcəklər, İuda İskariot isə – amma onu sən daha yaxşı tanıyacaqsan, hər şeyi biləcəksən, təkcə ölümündən başqa – özünü öldürəcək, daha doğrusu, əncir ağacından asacaq.

– Onların hamısı sənə görə həlak olacaq? – İsa soruşdu.

– Əgər məsələni bu müstəvidə qoysan – hə, amma daha çox mənə görə yox, mənim uğrumda.

– Bəs sonra nə olacaq?

– Sonra isə, oğlum mənim, bitib-tükənmək bilməyən bir tarix yazılacaq, dəmir və qanla, alov və küllə yazılacaq, okean qədər göz yaşları və nəhayətsiz dəniz qədər əzablar olacaq.

– Danış, bunların hamısını bilmək istəyirəm.

Tanrı köksünü ötürdü və yeknəsəq ahənglə başladı bir-bir, əlifba sırasıyla sadalamağa. Sonra deməsinlər ki, birinin adını o birisindən əvvəl çəkdi:



– Praqalı Adalbert – yeddidiş nizəylə vurulub; Adrian – zindanın üstündə çəkiclərlə döyülüb; Ausburqlu Afra – tonqalda yandırılıb; Prenestalı Aqapit – ayaqlarından asılaraq yandırılıb; Bolonyalı Aqrikola – çarmıxa çəkilərək mismarlarla öldürülüb; Siciliyalı Akveda – onun döşlərini kəsəcəklər; Kantuarili Alfegi – öküz sümüyüylə ölənə kimi döyülüb; Salonikli Anastasi – boğularaq başı kəsilib; Sirmiyalı Anastasiya – döşlərini kəsərək tonqala atıblar; Sienli Ansani – içalatını çıxarıblar; Pamiyerli Antoni – dörd parça ediblər; Rivolili Antoni – daşqalaq edərək yandırıblar; Ravenli Apollinari – gürzlə öldürülüb; Aleksandriyalı Apolloniya – bütün dişlərini çəkəndən sonra aram alovda bişiriblər; Trevizli Auqusta – başı əzilərək yandırılıb; Ostiyalı Aura – dəyirman daşıyla əzilib; Suriyalı Aureya – üstü mismarlı stulun üstünə əyləşdirilərək qanaxmadan ölub; Auta – oxlanıb; Antioxlu Babili – boynu vurulub; Nikomediyalı Varvara – başı kəsilib; Kiprli Barnabi – daşqalaq edilərək yandırılıb; Romalı Beatrisa – boğulub; Dijonlu Sərsəri – nizələnib; Lionlu Blandina – quduz öküzlə tapdanıb; Kalisto – dəyirman daşlarının arasına atılıb; İmolili Kassian – tələbələri bıçaqlayıblar; Kastuli – diri-diri torpağa basdırılıb; Karfagenli Kiprian – boynu vurulub; Tarsiyalı Kiri – hələ uşaq ikən başını səkiyə çırpan hakim tərəfindən qətlə yetirilib; Nantlı Klari – başı kəsilib; Klementi – lövbərə bağlanaraq suda boğulub; Krispin və Krispinian – hər ikisinin boynu vurulub; Bolsanlı Kristina – dəyirman daşıyla, işgəncə təkəriylə, məngənəylə əzabdan sonra oxlanıb.

Bu yerə çatanda, Tanrı dedi:

– Bu minvalla da davam edir, fərq yalnız əzabların xırdalıqlarında, təfərrüatlarındadır, onları da xeyli izah eləmək gərəkdir. Amma belə baxanda, hamısı eynidir – başı kəsilib, yandırılıb, suda boğulub, vəhşi heyvanlara atılıb, nizələnib, qılınclanıb, çarmıxa çəkilib, boğulub, boynu vurulub, yandırılıb, suya atılıb, vəhşi heyvanlara atılıb, nizəylə vurulub, qınılcla şaqqalanıb, çarmıxa çəkilib, boğulub, işgəncə təkərinə

bağlanıb, dörd parça edilib, asılıb, atın quyruğuna bağlayaraq parçalayıblar, döşləri kəsilib, dilini qoparıblar, kor edilib, daşqalaq olunub, döyülərək öldürülüb, özü də nə qədər qəribə olsa da, taxta başmaqlarla döyüblər və yenə boynu vurulub, yandırılıb, boğulub, vəhşi heyvanlara atılıb, nizələnib, qınılcla vurulub, çarmıxa çəkilib, suda boğulub, buynuza geydirilib, çarmıxa çəkilib, çarmıxa çəkilib, çarmıxa, çarmıx, çarmıx, çarmıx – bəlkə, bəsdir?

– Bunu özündən soruşmalısan, – İsa cavab verdi və Tanrı siyahısına davam etdi:

– Assisli Sabian – başı kəsilib, Tuluzalı Saturni – vəhşi öküzlərlə tapdanıb, Sebastyan – oxlanıb, Sigizmund – quyuya atılıb, İkonili Tekla – dörd parça edilərək yandırılıb, Toedor – başı kəsilib, Tiburi – o da elə, Efesli Timofey – daşqalaq olunub, Urbanı – çarmıxa çəkilib və bunlardan başqa da saysız-hesabsız qurbanlar... bəsindir?

– Bəs deyil, – İsa cavab verdi, – qalanlırına nə olub?

– İsrar edirsən?

– İsrar edirəm.

– Başqaları deyəndə, mən onları nəzərdə tuturam ki, işgəncələrə məruz qalmayıblar və edam olunmayıblar, sadəcə, öz əcəllərilə ölüblər. İblis və dünyanın özü onları yoldan çıxarırdı, onlar isə nəfslərinə qalib gəlmək üçün öz bədənlərini dualarla, oruclarla öldürürdülər, burada da qəribə hadisələr baş verirdi. Məsələn, Con Skorn adlı birisi dizi üstə o qədər dua eləyib ki, dizlərinin gözündə qabarlar yaranıb, hələ deyirlər ki – ey, Çoban, bu artıq sənə aiddir – guya, o, İblisi çəkmələrinin içinə sala bilib, ha-ha-ha.

– Məni – çəkmənin içinə? – Çoban təəccübləndi, – boş söhbətlərdir, bunun üçün çəkmə gərək Yer kürəsi boyda olsun, hələ bu da kifayət deyil, gərək həmin bu çəkməni geyinib-soyunmağa bir həvəskar da tapılsın.

– Yalnız dua və orucla? – İsa Tanrıya müraciət eləyib sözünü kəsdi və o cavab verdi:



– Yox, onlar hələ öz bədənlərinə əzab da verəcəklər, kirpas içində yaşayacaqlar, qıfıl, zəncir-zad taxacaqlar, qabayundan dərini dağıdan əbalar geyəcəklər, özlərini şallaqlayacaqlar, bəziləri həyatları boyu çimməyəcək, digərləri meşənin dərinliklərində qarın içinə girəcəklər ki, şər qüvvələrin canlarına saldığı şəhvətlərini öldürsünlər. Sən bilirsən ki, bu qüvvələrin birinci vəzifəsi – göylərə aparan haqq yolundan ruhu azdırmaqdır. Öz qurbanlarına lüt gözəlçələr, dəhşətli həyulalar yollamaq, onları dəbdəbə və həzzlə yoldan çıxarmaq, qorxudaraq utandırmaq – İblisin biçarə insana əzab verən o qədər üsulları var ki.

– Sən bütün bunları edəcəksən? – İsa Çobandan soruşdu.

– Demək olar ki, hamısını, amma mənə çatan az olacaq: yalnız Tanrının imtina etdiyi vücudları bütün qüssə və sevinci ilə, çiçəklənməsi və qocalmasıyla, təravəti və çürüməsiylə bir yerdə götürəcəm. Qorxu mənim alətim deyil, zira xatırladığım qədərincə nə günahı mən fikirləşmişəm, nə də onun cəzasını. Elə qorxunun özu də həmin o yaranış anından bəri insandan ayrılmazdır.

– Səsini kəs, – Tanrı onun sözünü hövsələsizcəsinə kəsdi, – günahla İblis mahiyyətcə eyni şeyin iki adıdır.

– Yəni nəyin? – İsa soruşdu.

– Mənim yoxluğumun.

– Bəs sən niyə olmursan – sən adamdan niyə uzaqlaşırsan, ya bəlkə, o, səndən uzaqlaşır?

– Mən heç vaxt uzaqlaşmıram!

– Bəs səndən uzaqlaşanda barışırsan?

– Məndən uzaqlaşanda, deməli, məni axtarır.

– Hə, amma tapmayanda günahı İblisin boynuna düşür?

– Yox, bunda onun yox, mənim günahım var – məni axtardıqları yerə vaxtında çata bilməmişəm.

O, bu sözləri elə gözlənilməz və üzücü bir təəssüflə dedi ki, sanki, qəflətən öz əzəmətinin həddini aşkarlamışdı.

– Davam elə, – İsa dedi.

– Bəziləri, – Tanrı sözləri seçə-seçə danışmağa başladı – uzaqlara, sakit yerlərə gedir, mağaralarda məskən salırlar, yalnız şüursuz məxluqlarla ünsiyyətdə olurlar, digərləri inzivaya çəkilir, başqaları hündür sütunların üstünə dırmaşıb illər uzunu orada yaşayırlar – onlara sütunçular deyirlər.

Tanrının səsi zəifləyir, sönürdü, gözlərinin önündən bitməz bir səflə min-min kişi və qadın keçirdi – monastırlara, iqamətgahlara gedən insanlar. Onların getdikləri yerlər arasında kasıb, kobud daxmalar da vardı, əzəmətli saraylar da:

– Onlar orada yaşayacaqlar ki, səhərdən axşama kimi oyaq qalaraq dua eləyib bizə qulluq göstərsinlər, onların hamısının bir məqsədi, eyni taleyi var: onların hamısı bizim adlarımızı çağırıb ölürlər, baxmayaraq ki özləri başqa-başqa adlar daşıyırlar – benediktinlər, bernardinlər, karmelitlər, fransiskanlar, dominikanlar, trinitariyalar, yezuitlər, avqustinlər, gilbertinlər, kapusinlər və sair, və sair, və sair. O qədər çox olacaqlar ki, təəssüflənəcəyəm, amma qışqıra bilməyəcəyəm ki, İlahi Pərvərdigara, axı siz nə qədərsiniz!

Həmin an İblis İsaya dedi:

– Ümidvaram fikir verdin ki, həyatı itirməyin iki üsulu var – əzabkeş olmaq, ya da dunyadan imtina etmək. Onlara oturub bəlli vaxtda dalımızca gələcək ölümlərini gözləmək azlıq edir, yox, onlar hər bir vəchlə onun pişvazına tələsirlər. Ya çarmıx, tonqallar, dar ağacları, balta, ox və nizə, diriykən qəbir istəyir, ya da hücrələrdə və iqamətgahlarda, monastırlarda qıfıllanaraq özlərini ara vermədən cəzalandırırlar ki, niyə dünyaya Tanrının onlara verdiyi cisimdə gəliblər, bu cisim olmasaydı, ruh da özünə məskən tapmazdı. Bütün bu əzabları, işgəncələri, inan mənə, indi səninlə danışan İblis kəşf etməyib.

– Daha bir şey qalmadı? – İsa Tanrıdan soruşdu.

– Yox, hələ var, hələ müharibələr də olacaq.

– Müharibələr də?

– Hə, müharibələr də olacaq, zorakı ölümün başqa üsulları da.



– Bəziləri barədə məlumatım var, mən özüm də Vifliyemdəki qırğın zamanı ölə bilərdim və təəssüflənirəm ki, onda canımı qurtardım. Çünki belə olmasaydı, indi çarmıxı gözləyəsi olmayacaqdım.

– Sənin o biri atanı lazım olan vaxt, lazım olan yerə mən gətirmişdim ki, İrodun döyüşçülərinin mənim iradəmlə ağızlarından qaçırdıqlarını eşidə bilsin və son nəticədə sənin həyatın xilas olundu.

– Həyatı xilas elə ki, özünə lazım olanda, özünə xeyiri olanda təzədən geri alasan – bu elə adamı iki dəfə öldürmək kimi bir şeydir də.

– Məqsədin böyüklüyü, mənim oğlum, vasitəyə haqq qazandırır.

– Hə, əlbəttə, sənin ağzından çıxanları nəzərə alsaq, eləcədir ki, var. Həyatdan imtina və tərki-dünyalıq, əzab və işgəncələr azmış kimi, üstəlik hələ bir müharibələr də var. Nə müharibələrdir elə?

– Eh, hamısını sadalaya bilməzsən, amma ən dəhşətliləri – hələ olmayan tanrının tərəfdarlarının bizə qarşı apardıqları müharibələr olacaq.

– Bu, necə ola bilər: tanrı əgər həqiqətən tanrıdırsa, həmişə olub və olacaq.

– Razıyam, bunu anlamaq çətindir, amma izah etmək daha müşküldür. Hər şey məhz belə də olacaq. Yeni Tanrı gələcək və səninlə mənim üstümə hücum çəkəcək, həmin zamana kimi bizim ardıcıllarımız olanlar isə... Yox, necə qanlar axacağını, necə canlar alınacağını, hər iki tərəfin necə qırğınlar törədəcəyini anlatmaq üçün söz tapa bilmirəm. Yerusəlim Məbədində mənim mehrabımı təsəvvür elə, amma min dəfə ondan böyüyünü, qurbanlıq heyvanların da yerinə adamları qoy, amma yenə də səlib müharibələrinin nə demək olduğunu təsəvvür edə bilməzsən.

– O nə müharibələrdir elə və sən niyə onlar barədə keçmiş zamanda danışırsan. Onlar hələ gələcəkdədir axı?

– Yadına sal ki, zaman elə mən özüməm, odur ki bütün baş verəcək hadisələr mənim üçün artıq olub, bütün olmuşlar isə elə indi də olur.

– Mənə səlib müharibələrindən danış.

– Bilirsən, mənim oğlum, bizim indi söhbət elədiyimiz yerləri, elə Yerusəlimin özünü, onun şimalı və qərbindəki əyalətləri o yeni, bir az gecikmiş Tanrının tərəfdarları tutacaq. Səninlə mənim tərəfdarlarım isə var qüvvələriylə çalışacaqlar ki, sənin ilk addımlarını atdığın və mənim məmnuniyyətlə və tez-tez baş çəkdiyim bu torpaqları azad etsinlər.

– Bəs nə əcəb indi bu yerlərə yiyələnmiş romalıları qovmaq üçün sən heç o qədər də səy göstərmirsən?

– Mən sənə gələcəkdən danışıram, karıxdırma məni.

– Yaxşı, davam elə.

– Sən bu torpaqda döğulmusan, yaşamısan və ölmüsən.

– Mən hələ sağam!

– Mən ki sənə izah etdim: mənim nöqteyi-nəzərimcə olmuşlarla olacaqların heç bir fərqi yoxdur və lütf göstər, susmağımı istəmirsənsə, sözümü kəsmə.

– Yaxşı, susacağam.

– Beləliklə, sənin anadan olduğun, yaşadığın və öldüyün, elə bu səbəbdən də Müqəddəs adlandırılmış, sonra isə həmin bu yeni dinin beşiyinə çevrilmiş diyarı ona sahiblənməyə ləyaqəti çatmayan kafirlərdən azad etmək üçün iki yüz il dalbadal qərbdən böyük ordular gələcək. Gələcək ki, dünyaya göz açdığın mağaranı, yer üzünü tərk etdiyin dağı və başqa, heç də bundan az əhəmiyyətli olmayan müqəddəs yerləri ələ keçirsinlər. Buna isə, görürsən ki, əsas nə qədər desən var.

– "Səlib müharibələri" elə bu müharibələrə deyəcəklər?

– Hə.

– Onun iştirakçıları necə, məqsədlərinə çata biləcəklər?

– Yox, amma nə qədər adam qırılacaq.

– Bəs onların özləri necə?

– Elə özləri də eyni qədər itki alacaqlar, hələ, bəlkə, bir az da artıq.

– Bütün bunlar bizim uğrumuzda olub?

– Hə, onlar yürüşə çıxanda "Tanrının iradəsi belədir" deyirdilər, öləndə isə "Tanrı belə istəyib" pıçıldayacaqlar və bu, qəşəng, gözəl ölüm olacaq.

– Mənə isə elə gəlir ki, bu qurban, məqsədlə qəti mütənasib deyil.

– Mənim oğlum, ruhun nicatı üçün cismi qurban vermək gərəkdir.

– Bunu, ya da buna bənzər bir sözü səndən artıq eşitmişəm, amma maraqlıdır, görəsən, Çoban bu barədə nə düşünür?

– Mən fikirləşirəm ki, heç bir sağlam düşüncəli insan iddia eləyə bilməz ki, bütün bu qanlı qırğınlarda, müharibələrdə yalnız İblis müqəssir olub, var və olacaq da. Ancaq bədniyyət şər-şəbədəçilər bizim bu tanrıya düşmən olan təzə ilahinin meydana çıxmasının məsuliyyətini mənim ayağıma yazacaqlar.

– Mənə tamamilə aydındır və heç bir şübhə ola bilməz ki, sənin günahın yoxdur. O ki qaldı bu qondarma məsuliyyətə, de ki, yalanın təcəssümü olan İblis heç vaxt mahiyyəti həqiqət olan tanrını yarada bilməz.

– Bəs onda onu, yeni tanrını kim yaradıb? – Çoban soruşdu və İsa bir cavab tapa bilmədi. Susmuş Tanrı sükutunu davam etdirirdi, dumandan isə bir səs gəldi:

– Bəlkə, bu Tanrı və onun rəqibi olacaq o birisi – qeteronimdən başqa bir şey deyillər.

– Kimin qeteronimləri? – digər səs maraqla soruşdu.

– Pessoanın, – birinci səs dedi və bu söz dumanın təhrifinə məruz qalıb Personan kimi səsləndi.[1]

[1] Müəllifin fəlsəfəsini dərk etmək üçün son dərəcə əhəmiyyətli olan bu epizodun çoxşaxəli mənası burada oxucuya söz oyunu ilə çatdırılır. Böyük portəgiz şairi, onun iradəsindən asılı olmayaraq mövcud olan bir neçə müxtəlif adlı oxşarlar – qeteronimlər yaratmış Fernando Pessoanın soyadı "şəxs, persona, zat"la yanaşı, həm də "insan" anlamını verir. Jozе Saramaqo, bəlkə də, bununla Tanrının özünün belə poetik təfəkkürdən yarandığını çatdırmaq istəyir? (*tərc.*)

İsa, Tanrı və İblis əvvəlcə özlərini elə göstərdilər, sanki, heç nə eşitməyiblər, amma o dəqiqə qorxmuş halda bir-birilərinə baxdılar. Çünki qorxunun belə xüsusiyyəti də var – yaxınlaşdırmaq və birləşdirmək.

Vaxt ötürdü, duman isə susmuşdu və İsa sualını elə ahənglə verdi ki, guya, cavab yalnız təsdiq olmalıydı:

– Bitdi?

Tanrı bir az tərəddüd edib yorğun tərzdə cavab verdi:

– Yox, hələ inkvizisiya qalıb, amma onun barəsində, bəlkə, gələn dəfə danışaq.

– İnkvizisiya nədir?

– Bu, daha bir bitib-tükənməz tarixçədir.

– Danış.

– Sən bunu bilməsən yaxşıdır. Əgər bilsən, gələcəkdə baş verənlərə görə indiki həyatında vicdan əzabından əziyyət çəkəcəksən.

– Sən əziyyət çəkmirsən?

– Mən – Tanrıyam, Tanrı isə vicdan əzabının nə olduğunu bilmir.

– Əgər mən artıq sənin yolunda ölmək yükünü çiyinlərimə yıxmışamsa, elə sənin vicdanına düşən əzaba da birtəhər dözərəm.

– Mən səni bu əzablardan qorumağa üstünlük verərdim.

– Hə-hə, sən elə mən doğulan gündən ancaq bununla məşğulsan da.

– Sən bütün övladlar kimi qədirbilməzsən.

– Yaxşı, bəsdir, mənə de görüm, inkvizisiya nədir?

– İnkvizisiya, başqa adla desək, Müqəddəs Tribunal zəruri, vacib şərdir, qəddar bir alətdir və öz zamanında biz onun köməyiylə sənin Kilsənin vücudunu bir dəfə və uzun müddətə yaralayacaq murdar bidət bəlasına qarşı mübarizə aparmalı olacağıq. Əsas bəlaya və ondan qaynaqlanan ikinci dərəcəli bəlalara qarşı; Onların sırasına həm cismin, həm də ruhun qeyri-təbii təhrifləri daxildir və əslində, onları iriyə-



xırdaya, böyüyə-kiçiyə ayırmağın da mənası yoxdur. Hamısını bir dəhşətli torbaya doldurmaq lazımdır – lüteranlar, kalvinistlər, yansenistlər, yəhudipərəstlər, sodomitlər, sehrbazlar, cadugərlər və daha kimlər. Onların bəziləri gələcəkdə meydana gələcək, digərləri isə bütün dövr və zəmanələrə xasdır.

– Bəs inkvizisiya sənin dediyin bu böyük şərin axırına çıxmaq üçün nə edəcək?

– İnkvizisiya – axtarış, istintaq və məhkəmədir. Elə buna uyğun da fəaliyyət göstərəcək – tutmaq, məhkəmə qurmaq və hökm çıxarmaq.

– Hansı hökm?

– Zindan, sürgün, tonqalda yandırmaq.

– Sən nə dedin?

– Bəli, gələcəkdə tonqallarda minlərlə adam öləcək.

– Sən artıq mənə o barədə demisən.

– Yox, elə deyil, bayaq dediklərimi sənə inandıqlarına görə yandırmışdılar, bunları isə şəkk elədiklərinə görə oda atacaqlar.

– Şəkk eləmək olmaz məgər?

– Olmaz.

– Bəs bizə necə, romalıların Yupiterinin ilahi olub-olmamasına biz şəkk eləyə bilərik?

– Tanrı birdir – mənəm Tanrı və sən də mənim oğlumsan.

– Deyirsən, minlərlə adam öləcək?

– Yüz minlərlə.

– Yüz minlərlə kişi, qadın... Yer üzü əzablar içində olanların fəryadı, iniltisi, ölümqabağı xırıltısı ilə dolacaq və tonqallarda yananların tüstüsü günəşin üzünü tutacaq. Közün istisində əriyən piy sızıldayacaq və yanmış ət iyindən gizlənmək qeyri-mümkün olacaq...

– Mən də bütün bunların günahkarı olacam?

– Günahkarı yox, səbəbkarı.

– Ata, nə olar, qoy bu qismət camı məndən yan ötsün.

– Sən içməlisən onu – mənim hakimiyyətimin və sənin şöhrətinin rəhni bundadır.

– Mənə bu şöhrət lazım deyil.

– Amma mənə hakimiyyət lazımdır.

Duman pərdəsi azacıq seyrəlmişdi, qayığı əhatə edən su görünməyə başladı – sakit və tutqun, nə külək tərpədirdi onu, nə də üzüb keçən balığın üzgəci.

Onda İblis dedi:

– Həqiqətən, Tanrı olmaq lazımdır ki, qanı bu dərəcədə sevə biləsən.

Duman yenə qəlizləşdi və bu, nəyinsə baş verəcəyindən, nələrinsə səslənəcəyindən müjdə verirdi. Lakin Çobanın səsi eşidildi:

– Mənim sənə təklifim var, – Tanrıya müraciətlə dedi və o, heyrətlə, öz üstünlüyünü bilən birisinin istehzasıyla baxdı; bu istehza kimin desən danışmaq həvəsini yox edərdi, amma İblisin, onun qədim və yaxşı tanışının yox.

– Sənin? Mənə? Maraqlıdır, nə təklifdir elə?

Çoban bir qədər susdu, sanki, daha inandırıcı sözlər seçirdi və belə dedi:

– Söhbətiniz davam edərkən söylədiklərinizin hamısına diqqətlə qulaq asdım və hərçənd ki mən də gələcəyin üfüqlərində nəsə bir qızartı, kölgələr görürdüm və çox az narahat olurdum ki, qızartı – tonqalların qızartısı, kölgələr isə – alovda məhv olmuşların kölgəsidir.

– Nədir, indi isə bundan narahat olmağa başladın?

– Bu, məni narahat etməli deyildi, çünki mən İblisəm; İblisin isə hər ölümdən həmişə nəsə bir qazancı var, özü də bu qazanc səninkindən də çoxdur, çünki cəhənnəmdə insanların göylərdən daha sıx məskunlaşdığı hamıya bəlli bir faktdır.

– Yaxşı, bəs sən nədən şikayətlənirsən?

– Mən şikayətlənmirəm, mənim sənə bir təklifim var.

– Danış, uzatma, burada əbədi qalmaq fikrim yoxdur, tez ol.



– Sən hamıdan yaxşı bilirsən ki, İblisin də qəlbi var.

– Var, amma gərəyin deyil.

– Hə, deyildi, amma indi elə mən də ondan birbaşa təyinatı üzrə istifadə eləmək istəyirəm, çünki bununla razıyam və istəyirəm ki, sənin hakimiyyətin bütün yer üzünə yayılsın. Lakin bunun üçün o qədər insan öldürmək lazım gəlməsin və əgər səndən imtina edən, sənə itaət etməyən bütün adamları məndə təcəssüm olunan Şərin törəməsi sayırsansa, onların müvafiq olaraq mənə sitayiş etdiklərini qəbul edirsənsə, onda mənim təklifim bundan ibarətdir: mənə göylərə qayıtmaq imkanı ver, keçmişdə törətdiyim və gələcəkdə bir daha yol verməyəcəyim bəd əmələ görə bağışla, mənim mütiliyimi qazanaraq qoru. Məni Lüsifer, yəni "İşıqlı" çağırdığın zamanlarda, səninlə bərabər olmaq istəyi içimi didərək məni sənə qarşı çıxarana kimi necə idimsə, eləcə də olacam.

– Sən heç deməddin axı, xeyir ola, səni niyə bağışlamalıyam, niyə qəbul etməliyəm, nədən qaytarmalıyam və sairə və ilaxır.

– Bax, buna görə: əgər sən gələcəkdə kimə gəldi vəd edərək sola-sağa paylayacağın mərhəməti bu gün məndən əsirgəmirsənsə, elə buradaca, elə bu dəqiqə Şərin həyatına son qoyulacaq və sənin oğlun da çarmıxda öləsi olmayacaq. Səltənətin yalnız İsrail torpaqlarına deyil, bütün dünyaya, o cümlədən də hələlik bəlli olmayan ölkələrə yayılacaq və bütün Kainatda Xeyirin hakimiyyəti bərqərar olacaq. Mən də mələklərin mütilərindən ən etibarlısı, etibarlıların ən mütisi olaraq qalacağam, çünki tövbəlidən etibarlı birisi ola bilməz. Lap sonuncu sırada durub sənə alqışlar yağdıracam və hər şey də bununla bitəcək, sanki, heç vaxt başlamayıbmış kimi. İşlər lap əvvəldən necə getməliydisə, elə də gedəcək.

– Təəccüblü deyil ki, sən zəif ruhları öz toruna salaraq onları məhv edə bilirsən: mən həmişə sənin nitq qabiliyyətini etiraf etmişəm, amma belə çıxışı səndən eşidəcəyim ağlıma belə gəlməzdi – parlaq nitqdip. Bir az da sıxsaydın, məni də inandıracaqdın.

– Deməli, yox, sən məni qəbul edib bağışlamayacaqsan?

– Yox, nə qəbul edəcəm, nə də bağışlayacam, sən mənə elə indiki simanda gərəksən. Hələ əgər mümkün olsa, bundan bir az da pis.

– Niyə?

– Çünki məndə təcəssüm olunmuş Xeyir Şərin cəmləşdiyi İblis olmadan yaşaya bilməz və Xeyir də sənsiz o qədər anlaşılmaz, o qədər dərkedilməz olardı ki, mən heç özüm belə onu təsəvvürümdə canlandıra bilmərəm. Mənim Xeyir olaraq qalmağım üçün sən mütləq Şər olaraq qalmalısan. Əgər İblis İblis kimi yaşamırsa, deməli, Tanrı artıq – tam olaraq Tanrı deyil. Birinin ölümü, elə digərinin də ölümüdür.

– Bu, sənin son sözündür?

– İlk və son. İlk ona görə ki, ilk dəfədir dilimə gətirirəm, son – ona görə ki, bunu bir də heç vaxt söyləməyəcəyəm.

Çoban çiyinlərini çəkdi:

– Qoy sonra söyləməsinlər ki, guya, İblis Tanrı ilə barışmağa cəhd göstərmədi, – deyə İsaya müraciət etdi və qalxaraq ayağını elə qayığın kənarından atırdı ki, ləngidi:

– Sənin dağarcığında mənə məxsus olan bir şey var.

İsanın heç yadında da deyildi ki, dağarcığı yanındadır, yoxsa yox, lakin həqiqətən də, ayağının altında imiş.

– O nədir elə? – soruşub dağarcığının ağzını açdı, amma dibindəki köhnə, Nazaretdən çıxanda özüylə götürdüyü qaralmış camdan savayı bir şey görmədi:

– Bunu deyirsən?

– Hə, onu deyirəm, – İblis cavab verdi.

Elə həmin an cam onun əlinə keçdi və əynindəki qaba çoban paltarının qırışlarında itdi:

– Gün gələcək, bu cam qayıdacaq, amma bundan sənin xəbərin olmayacaq.

Tanrıya sarı baxmayaraq elə danışdı, sanki, gözəgörünməz və çoxsaylı dinləyicilərinə müraciət edirdi:

– Neynək, əbədiyyətdə görüşənədək, əgər o, belə istəyirsə, – dedi və dənizə atıldı.

İsa onu gözləriylə müşayiət edə-edə Çobanın yavaş-yavaş dumanın ən qatı yerinə tərəf uzaqlaşdığını gördü, amma heç ondan soruşa bilmədi ki, niyə qayığa gəlib-getmək üçün belə qəribə üsul seçmişdi – üzə-üzə. Çoban isə yenə qulaqlarını sudan çıxarmış donuza oxşayırdı və fınxırtısı, fısıltısı eşidilirdi. Hərçənd ki qulaqdan iti adam bu səslərdə qorxunun əks-sədasını duyardı. Təbii ki, batmaq qorxusunun yox, çünki İblis biz elə indicə öyrəndik ki, ölümsüzdür; bu qorxu isə əbədi yaşamaq zəruriyyətindən doğan qorxu idi. O, duman lopaları arasında artıq yox olmuşdu ki, Tanrının tələsik səsi eşidildi – adətən, ayağını kandardan bayıra qoymağa hazır adamlar belə danışır:

– Mən sənin köməyinə İoann adlı bir adam göndərəcəyəm, amma sənin, həqiqətən, söylədiyin adam olduğuna onu mütləq özün inandırmalısan.

İsa bu sözlərin gəldiyi səmtə baxdı, amma kimsəni görmədi. Elə həmin an duman qalxdı, seyrəldi, dağıldı, bir sahilindən o birisinə kimi sakit, hərəkətsiz dənizi göstərdi. İnanmaq olmurdu ki, bu suda cəmi bir dəqiqə əvvəl İblis üzürdü, bu havada isə indicə Tanrı özü şəxsən əridi.

Sahildən nə qədər uzaqda olsa da, İsa orada çoxlu adam seçə bildi, camaatdan o tərəfdə nə qədər çadır görürdü. Adama elə gəlirdi ki, bu sahil artıq səyyahların daimi və sevimli sığınacağına çevrilib. Sanki, yatmağa yerləri olmadığından burada düşərgə salmışdılar. İsaya bu maraqlı gəldi, amma ciddi bir şey düşünmədi və avarlara güc verib qayığı sahilə yönəltdi. Çiyninin üstündən baxa-baxa fikir verdi ki, bir neçə qayığı suya saldılar, bir az da yaxşı baxanda Simonu, Andreyi və başqalarını seçə bildi. Həmin bu başqalarının arasında həm gördüyü adamlar vardı, həm də görmədikləri – ona sarı gəlirdilər. Elə səylə avar çəkirdilər ki, tezliklə lap yaxınlaşdılar və Simon anlayanda ki artıq səsi çatar, qışqırdı:

– Sən harada idin?! – Hərçənd ki tamam başqa şey öyrənmək istəyirdi, amma, hər halda, söhbəti nədənsə başlamalı idi də. Dənizdən elə qeyri-müəyyən cavab gəldi ki, görünür, həqiqətən də, Tanrı oğlu, Məryəmin oğlu, dülgər İosifin oğlu həyatında tamam yeni bir dönəmin açılmasına rəğmən öz yaxınlarıyla ünsiyyətini heç də yaxşı başlamadı. Daha bir an sonra isə Simon artıq onun qayığına atıldı və elə o dəqiqə aydınlaşdı ki, qeyri-mümkün, anlaşılmaz, şüura sığmayan bir şey baş verib. Simon soruşdu:

– Sən bilirsən neçə vaxtdır dənizdə – dumanın içindəsən? Biz də qayıqları heç cür çıxara bilmirdik suya – elə bil, tükənməz bir güc onları geri, sahilə tullayırdı.

– Niyə bilmirəm ki, bütün günü dənizdə olmuşam, – deyə İsa cavab verdi, amma Simonun həyəcanını görəndə ehtiyat üçün əlavə elədi, – və bütün gecəni.

– Qırx gündür, – Simon çığırdı, sonra da bir az alçaqdan, – qırx gecə-gündüzdür dənizdəsən, qırx gündür ki, biz, sanki, süd gölünün içindəyik, duman, elə bil, istəyirdi ki, orada baş verənləri, sənin elədiklərini pərdələyib bizdən gizlətsin. Bütün bu müddət ərzində biz bircə dənə də ölüvay balıq tuta bilmədik.

İsa avarın birini Simona ötürdü və onlar kürək-kürəyə oturub birlikdə, ahəngdar hərəkətlərlə avar çəkməyə başladılar və sözləri də hərəkətləriylə eyni ahəngdə səslənirdi. İsa digər qayıqlar yaxınlaşmamışdan Simona ən mübhəm şeyləri anlatmağa çalışıb dedi:

– Mən orada Tanrıyla bir yerdəydim; mənə gələcək həyatımı və ondan sonra baş verəcək şeyləri açdı.

– Onun görkəmi necədir – Tanrını deyirəm.

– Tanrı çoxüzlüdür, bulud şəklində də görünə bilər, tüstü sütunu kimi də, varlı yəhudi qocası kimi də – biz onu yalnız səsindən tanıyarıq və onu bircə dəfə eşitmiş kimsə bu səsi bir də unuda bilməz.

– Yaxşı, o nə dedi sənə?



– Dedi ki, mən onun oğluyam.

– Deməli, təsdiq elədi?

– Hə, təsdiq elədi.

– Deməli, İblis düzünü deyirmiş?

– İblis də, demək olar ki, bütün bu vaxtı bizimlə bir yerdə idi. Mənə elə gəldi ki, mənim barəmdə o heç də Tanrıdan az bilmir. Elə anlar da oldu ki, hətta Tanrıdan çox bildiyini hiss elədim.

– Harada?

– Nə harada?

– Onlar haradaydılar?

– İblis burada oturmuşdu, sənin yanında, Tanrı isə – arxa tərəfdə.

– İlahi sənə nə dedi?

– Dedi ki, mən onun oğluyam və məni çarmıxa çəkəcəklər.

– Deməli, sən dağlara gedib qiyamçılara – romalılarla döyüşənlərə qoşulacaqsan? Əgər belədirsə, onda biz də sənlə gedəcəyik.

– Hə, siz də mənimlə gedəcəksiniz, amma dağlara yox və biz Sezarın məğlubiyyətinə silah gücünə nail olmayacağıq, yalnız sözlə – Tanrının təntənəsi budur.

– Yalnız sözlə?

– Sözlə və şəxsi nümunə ilə, ehtiyac olanda qurban verəcəyimiz həyatın özüylə.

– O, belə də dedi?

– Bu andan etibarən mənim ağzımdan nə çıxacaqsa, onun sözləri olacaq və ona inananlar mənə də inanacaqlar, zira Ataya inanıb Oğula inanmamaq mümkün deyil. Əgər Ata özünə yeni yol seçirsə, bu yol yalnız məndən – Onun Oğlundan başlana bilər.

– Sən dedin ki, biz də sənlə gedəcəyik?

– Dedim.

– "Siz" deyərkən kimi nəzərdə tuturdun?

– Hər şeydən öncə – sən və qardaşın Andrey və Zavedeyin oğlanları İakov və İoannı. Hə, yeri gəlmişkən, Tanrı dedi ki, mənə İoann adlı bir adamı köməkçi verəcək, amma düşünmürəm ki, bu elə bizim İoann ola.

– Bəsdir, nəyimizə gərəkdir artıq adamlar, İrodun əyan-əşrəfi deyil ki, sayı-hesabı olmasın.

– Sonra başqaları da gələcək, amma bəlkə də, artıq gəliblər, buradadırlar və Tanrının verəcəyi nişanəni, göstərəcəyi əlaməti gözləyirlər ki, mənə inanaraq dalımca gəlsinlər, zira mən olmasam, Tanrı öz üzünü onlara açmaz.

– Bəs sən insanlara nə xəbərlər verəcəksən?

– Söyləyəcəm ki, tövbə etmək zamanı yetişib, vaxt bitir artıq. Tanrının Çarlığı yaxınlaşır və İlahi onun sözünü rədd edərək ona tüpürənlərin boynunu alovlu qılıncı ilə vuracaq.

– Sən deyəcəksən ki, Tanrı oğlusan? Sən bunu deməli olacaqsan?

– Mən deyəcəyəm ki, atam mənə "oğul" deyib və bu sözlər qəlbimdə lap anadan olduğum gündən həkk olunub. İndi Tanrı da zühur edərək mənə "oğul" dedi, "sevimli oğul" və bu heç də o demək deyil ki, mən o biri atamı unudacağam. Lakin indi mən Tanrının əmrinə tabeyəm və qoy biz hamımız onun əmrinə müntəzir olaq.

– Bunu mənə həvalə et, – Simon dedi və o dəqiqə avarı bir kənara tullayaraq qayığın burnuna çıxıb qışqırdı, – Tanrı oğluna Osanna, qırx gün-qırx gecəni o, dənizdə Atası ilə söhbətlə keçirib, indi isə yanımıza qayıdır ki, biz də günahlarımıza tövbə edib hazırlaşaq.

– İblisin də orada olduğunu söyləmə ha, – İsa bunu deməyə zorla macal tapdı, qorxurdu ki, həqiqi vəziyyət hamıya bəlli olar. Sonra bunu izah edərək əsaslandırmaq çox çətin olardı. Simondan yeni, daha ucadan və daha qulaqbatırıcı bir qışqırıq çıxdı, bu səs sahildə dayananların canına titrətmə saldı, sonra isə qaçaraq özünü İsaya yetirib dedi:

– Avarı ver mənə, özün də qayığın burnunda dayan, amma biz sahilə çıxana kimi bircə kəlmə də danışma.

İsa – əynində nimdaş xitonu, çiynində boş dağarcığı – onun sözünə baxıb qayığın ön tərəfinə çıxdı, əllərini qaldırdı, sanki, salamlamaq, xeyir-dua vermək istəyirdi. Amma ürək eləmədi, buna layiq olduğuna arxayın olmayan adam kimi ya qorxdu, ya da çəkindi. Onun yolunu gözləyənlərdən üç nəfər ən hövsələsizi qurşağa kimi suya girdi, özlərini çatdırdılar, qayığın yanlarından tutub sahilə itələməyə başladılar, onlardan biri özünün sərbəst əliylə elə hey İsanın xitonuna toxunmağa can atırdı. Heç də ona görə yox ki, Simonun dediklərinə inanmışdı, onsuz da, qırx günü dənizin ortasında keçirmişdi. Tanrını axtarmağa istər lap səhraya, istərsə də dağların buz qoynuna getmiş birisi indi sağ-salamat dönürdü və Tanrını görsə də, görməsə də, bunun özü artıq öz-özlüyündə möcüzə idi. Elə bilirik, həmin günlərdə ətraf şəhər və kəndlərdə söhbətin yalnız bundan getdiyini qeyd etməyə xüsusi ehtiyac yoxdur və sakinlərin çoxu bu metereoloji fenomeni görmək üçün sahilə gələrək yalnız orada eşidirdilər ki, qəribə duman dənizdə bir nəfəri də yaxalayıb və onun halına acıyaraq pıçıldayırdılar:

– Yazıq.

Qayıq sahilə xırdaca təkansız yan aldı, sanki, onu yer üzünə mələk qanadları endirmişdi. Simon İsanın yerə düşməsinə kömək elədi, suya girdiklərindən özlərinə daha böyük mərhəmət uman həmin o üç nəfəri zorla gizlətdiyi bir qəzəblə kənarlaşdırmağa məcbur oldu. "Əl çək onlardan, gün gələcək, mənim ölümüm haqda xəbər alıb ağlayacaqlar ki, cəsədimi əlləri üstündə apara bilməyiblər. Qoy, heç olmasa, nə qədər ki sağam, kömək etsinlər". Sonra da soruşdu: "Mariya haradadır?" Elə adını çəkdiyi an onu gördü – sanki, heçdən yarandı, ya da duman buludlarından yumurlanıb göründü. Elə bil, indicə burada deyildi, qəflətən peyda oldu.

– Mən buradayam.

– Mənim yanımda dayan və qoy Simonla qardaşı Andrey və Zavedeyin oğlanları İakovla İoann da gəlsinlər – məni tanıyan və mənə inanan insanlar. Çünki mən hələ Tanrı oğlu olduğumu nə onlara, nə sizlərdən bir kəsə deyə bilmədiyim çağlarımdan məni tanıyırdılar, indi də mən – Tanrı oğlu, Atam tərəfindən çağırılaraq qırx gün onunla dənizin ortasında keçirmişəm ki, dönəndə bunları sizə söyləyim: Vaxt tamam oldu, günahlarınızı etiraf edin, nə qədər ki İblis Tanrının apardığı dərzin çürük sünbülləri kimi sizə sahib çıxmayıb, tövbə edin, əgər öz məhvinizə qol qoyaraq onun sevimli ağuşundan qaçsanız, bir heç olacaqsınız.

Kütlənin içindən dənizdə suyun titrəyişi kimi bir uğultu keçdi, çünki orada dayananların və İsaya qulaq asanların bir çoxu artıq onun göstərdiyi möcüzələr barədə eşitmişdilər, bəziləri isə bunun əyani şahidləri, hətta həmin möcüzələrdən bəhrələnənlər idi. "Mən o çörəyi və balığı yemişəm", – biri deyirdi; "Mən Kanadakı toyda həmin şərabdan içmişəm", – başqası söyləyirdi; "Mən o zinakar qadının qonşusu idim", – üçüncüsü dillənirdi, lakin bu transsendental qəribəliklərdən əsl möcüzəyə – Tanrı oğlunu, deməli, elə Tanrının özünü də görməyə yerdən göyə qədər məsafə vardı hələ. Bu məsafəni isə, bizə bəlli olduğu qədərincə, heç bizim günlərdə də kimsə ölçə bilməyib. Bu yerdə kütlənin içindən kiminsə nidası eşidildi:

– Sübut elə ki, sən Tanrı Oğlusan, mən sənin dalınca gedərəm!

İsa cavab verdi:

– Sən mənim dalımca gedərsən, əgər qəlbin mənə meyillidirsə, lakin elə o qəlbin sinənin qəfəsində qıfıllıdırsa, sən də məndən şüurunu deyil, hissiyyatını məmnun qoyacaq bir sübut istəyəcəksən. Nəhayət, çaşqınlıq içində qalaraq düşünəcəksən ki, şüurunamı inanasan, yoxsa hissiyyatınamı. Və mütləq çarəsiz qalıb qəlbinə inanacaqsan. Qəlbin də səni mənim yanıma gətirəcək.

– Bəlkə də, başqa kimsə səni anladı, amma mən yox, mən anlaya bilmədim, – deyə kütlənin içindəki həmin adam cavab verdi.

– Sənin adın nədir?

– Foma.

– Mənə yaxınlaş, Foma, yaxın gəl, bir az da yaxın, lap suyun yanına gəl, bax, mən yaş qumdan quşlar düzəldəcəyəm, görürsən, nə asandır; bu – bədəni, bu – qanadları, bu – başı, dimdikləri, bu daşlar da olsun onun gözləri, quyruğunun uzun lələkləri, bu isə, bax, bax, ayaqlarıdır onun, bu da dırnaqları; biri hazırdır, indi isə qalan on bir dənəsi, bax – biri, ikincisi, üçüncüsü, dördüncüsü, bu beş, altı, yeddi, səkkiz, doqquz, on, bu da on birinci. Oldu qumdan düzəlmiş on iki quş, əgər istəyirsənsə, hər birinə ad da verək, bu qoy Simon olsun, bu – İakov, bu – İoann, bu – Andrey, bunu da, əgər etiraz eləmirsənsə, Foma adlandıraq, qalanları isə qoy hələ öz adlarını gözləsinlər. Adlar çox vaxt görürsən ki, yaman gecikirlər, haradasa, yolda ləngiyirlər, elə bil. İndi isə bax, quşların üstünə tor salıram, yoxsa uçarlar axı.

– Yəni, indi toru qaldırsam, uçarlar deyirsən? – Foma şübhəylə soruşdu.

– Əlbəttə, uçarlar.

– Sənin sübutun budur?

– Həm hə, həm yox.

– Bu, necə olur?

– Ən yaxşı sübut – amma bu, məndən asılı deyil – olar ki, sən tora əl vurmadan inanasan ki, toru qaldıran kimi quşlar uçacaq.

– Necə uça bilər, sən axı qumdan duzəltmisən onları?!

– Sən bir sına, bizim ulu babamız Adəm də torpaqdan düzəlmişdi, sən isə ondan törəyibsən.

– Adəmə həyatı Tanrı vermişdi.

– Şübhələrini bir kənara qoy, Foma, toru qaldır, zira mən – Tanrı Oğluyam.

– Qoy sən deyən kimi olsun, ancaq onlar heç yana uçan deyillər.

Foma cəld bir hərəkətlə toru qaldırdı. Quşlar o dəqiqə "pırr" eləyib havaya qalxdılar, heyrətdən donmuş kütlə üzərində cəh-cəhlə iki dövrə vurub səmada yox oldular. İsa dedi:

– Sənin quşun uçdu, Foma.

O isə cavab verdi:

– Yox, Tanrım, o, buradadır, sənin ayaqlarının altında – bu, mənəm.

Camaat arasından bir neçə kişi çıxdı, dallarınca da onlarla bağlı olmayan bir neçə qadın. Yaxınlaşıb növbəylə danışdılar. "Mən Filipəm" – biri dedi və İsa onu çarmıxda, yağan daşların altında gördü. "Mən Varfolomey" və İsa onu dərisi soyulmuş gördü. "Mən Matfey" və İsa onu barbar nizələrinin ucunda gördü. "Mən Simon" və İsa onu şaqqalanmış gördü. "Mən – İakov, Alfeyin oğlu" və İsa onu daşqalaq olunmuş gördü. "Mən İuda Faddeyəm" və İsa onun başının üstünə qalxmış çəkici gördü; "Mən Kerioflu İudayam" və İsanın ona yazığı gəldi, çünki o, boğazındakı halqanı öz əlləriylə çəkmişdi. Sonra o, qalanlarını da çağırıb dedi:

– Artıq hamı toplaşıb və zaman da yetişib. – Andreyin qardaşı Simona müraciət elədi – İçimizdə adaşın olduğuna görə, bu gündən səni Pyotr çağıracağıq.

Onlar arxalarını dənizə çevirib yola düzəldilər və dallarınca da qadınlar getdi. Onların əksəriyyətinin adı naməlum qalacaq, amma vicdanla desək, adın nə dəxli var ki? Onların, demək olar, hamısı Mariyadır – hətta anadan olandan tamam başqa adlar daşıyıblarsa da...

Qadın deyiriksə, elə Mariya deyirik və onlar da bizə baxır, qulluğumuzda dururlar.

* * *

İsa və yoldaşları kənddən-kəndə gedirdilər və Tanrı onların diliylə danışır, belə deyirdi: "Tövbə edin, çünki vaxt

yetişdi və Tanrı Səltənəti yaxınlaşır". Kəndlərdə ona qulaq asan sadə, qara camaat elə başa düşürdü ki, "vaxt yetişdi" və "vaxt tamam oldu" ifadələri arasında heç bir fərq yoxdur. Deməli, dünyanın axırı yaxınlaşıb, çünki mələk yalnız dünyanın axırında söyləyir ki, daha vaxt olmayacaq. Tanrıya təşəkkür edirdi ki, ölçüyəgəlməz mərhəmətindən başqa birisini yox, məhz özünü onun oğlu adlandıran bir insanı yollayıb ki, onu xəbərdar etsin və bu insanın Tanrı oğlu olması həqiqətə bənzəyirdi. Çünki o, hara ayağını basırdısa, möcüzə göstərirdi və onun göstərilməsi üçün vacib, zəruri şərait yalnız bu möcüzəni arzulayan insanın möhkəm və səbatlı inamı idi. Bunlar olanda isə hər şey alınırdı – məsələn, cüzamlı ondan xahiş elədi: "İlahi, əgər istəyirsənsə, məni təmizlə". İsa isə onun bədbəxt görkəmindən təsirlənərək əlini ona toxundurdu və dedi: "İstəyirəm, təmizlən". Hələ sözünü bitirməyə macal tapmamış xəstəlik yazığın canından çıxdı, çürüyən əti sağaldı, bədəninin artıq ət olmayan yerlərində isə sümüyün üstünə təzə ət gəlməyə başladı. Rastlaşanda hamının dəhşət içində qaçdığı eybəcər məxluqun yerində artıq əməlli-başlı göyçək kişi dururdu. Xatırlatmağa dəyən digər bir hadisə də iflic vurmuş birisi ilə, ya da o dövrün təbiriylə desək, zəifləmiş birisiylə baş verdi. İsa belə bir inamın, həqiqətən, mükafata layiq olduğunu düşünərək ona dedi: "Səy göstər, övladım, günahların bağışlanır". Həmin an orada olan, gözlərinə əzbər bildikləri Qanunun daim kim tərəfindənsə təhqir olunması görünən əhli-kitab İsaya etiraz etdi: "Sən bidət edirsən, günahları bağışlayan yalnız Tanrı deyilmi?" İsa isə onların sualına sualla cavab verdi: "Hansını söyləmək daha asandır: "sənin günahların bağışlanır!", yoxsa "qalx, yatağını yığışdır və yeri"?" Onların cavabını gözləmədən sözünə davam etdi: "Bilin, İnsan övladı yer üzündə günahları bağışlamaq gücünə malikdir" və iflic vurmuş şəxsə müraciətlə əmr elədi: "Qalx, yatağını da götür və evinizə get!" Möcüzə nəticəsində sağalmış adam o dəqiqə nəinki ayağa

qalxdı, hətta uzun müddət hərəkətsiz qalmağından itirdiyi gücü özünə qayıtdı. Yatağını yığışdıraraq çiyninə atdı və Tanrıya alqışlar yağdıra-yağdıra adi həyatına döndü.

Biz hamımız zaman keçdikcə iri və xırda dərdlərimizə adət edirik. Ali qüvvələri belə xırda məsələlərə görə narahat etməyi yersiz sayırıq – bu heç bizim ağlımıza da gəlmir – odur ki heç də şikəstlərin və əzab çəkənlərin hamısı nicat tapmaq üçün İsanın yanına axışmırdılar!.." Günah isə tamam başqa şeydir, günah kənar gözlərdən gizli bəladır. Bu, sizin üçün topallıq, qolun quruması deyil və günahı, yəqin, daha çox cüzama bənzətmək olar, amma vücudumuzu zahirdən deyil, batindən dağıdan cüzama. Düz deyirdi, Tanrı qayıqda İsaya düz deyirdi ki, vicdanında, heç olmasa, bir dənə günahı olmayan adam yoxdur, çox vaxt isə belə günahların sayı min dəfələrlə çox olur. Əgər dünyanın sonu yaxındadırsa və İlahi Səltənəti yaxınlaşırsa, ora qədəm basmaq üçün günahların etirafıyla təmizlənmiş və bağışlanma ilə məlhəmlənmiş ruh ecazkar bir şəkildə sağalmış cismdən daha qiymətlidir. Əgər Kapernaumlu zəifləmiş həyatının bir hissəsini öz yatağından qalxmayaraq keçiribsə, bu yalnız ona görədir ki, günahları olub, zira hamıya bəllidir: xəstəlik günahın nəticəsidir, günaha görə qazancdır. Bundan isə qüsursuz bir məntiqi nəticə çıxır: möhkəm sağlamlıq – biz hələ ruhun, bəlkə, lap bədənin də əbədi həyatından danışmırıq, amma bunu da istisna etmək olmaz – mükəmməl paklığın, hər növ günahdan azadlığın nəticəsidir ki, buna iki yolla nail olmaq mümkündür. Ya bəxtəvər bixəbərliklə, ya da aktiv imtina ilə, bütün günahkar fikir və əməllərin qəti şəkildə rədd edilməsiylə. Lakin İsanın Tanrı məmləkətiylə səyahət eləyərək, Tanrının ona bəxş etdiyi ecazkar istedadla addımbaşı kimlərisə möcüzəli bir tərzdə sağaltdığını, bağışladığını güman etməyək. Düzgün başa düşün, bu heç də o demək deyildir ki, bunu istəmirdi – yox. Onun ürəyi yumşaq idi və hər yanı dolaşaraq Tanrının iradəsini yerinə yetirib dünyanın axırının tezliklə yaxınlaşacağını elan



etməkdənsə, hər kəsdən günahların etirafını, tövbə tələb etməkdənsə, səyyar dərman olmağa daha çox üstünlük verərdi. Günahkarlar "Günahkaram!" ifadəsini söyləyəcəkləri anı gecikdirmək məqsədi daşıyan yersiz düşüncələrə dalaraq, çox ləngiməsinlər deyə, Tanrı onun dilinə dəhşətli və çox şey vəd eləyən sözlər qoymuşdu, məsələn: "Həqiqətən, burada dayananların bəziləri hələ ölümlərinədək Tanrı Səltənətinin yetişdiyini bütün gözəlliyi ilə görəcəklər". Təsəvvür etmək çətin deyil ki, bu nitqlər insanlara necə təsir edirdi, onların kasad beynində necə qarışıqlıq yaradırdı və elə buna görə də hər tərəfdən – həm yaxınlardan, həm uzaqlardan onlar İsanın yanına sel kimi axışır və dəstə-dəstə dalına düşüb hövsələsiz bir ümidlə onları birbaş Tanrının yerdə yaratdığı cənnətə aparacağını gözləyirdilər. Göylərdəki cənnətdən ən başlıca fərqi onun gözəlliyindən dualarla, etiraf və peşmançılıqla, tövbə edib, Adəmdən bu yana gələn günahdan, başqa sözlə desək, ilkin günahdan təmizlənmiş saysız-hesabsız insanın ləzzət ala biləcəyi yeni cənnətə. Bu sadəlövh insanların əksəriyyəti ən aşağı sosial təbəqələrə – onların arasında sənətkarlar da vardı, yerqazanlar da, balıqçılar da, gəzəyən qadınlar da – mənsub olduqları üçün Tanrının başı başqa şeylərə qarışdığı günlərin birində İsa heç bir ilkin hazırlıq olmadan, sanki, ilhamlanaraq elə bir nitq söylədi ki, onu dinləyənlərin hamısının qəlbini alovlandırdı, gözlərindən sevinc yaşları axıtdı. Çünki o artıq ümid bağlamadıqları nicat tapmaq imkanını onların qarşısında tam olaraq açırdı: "Xoşbəxtdirlər, – İsa dedi, – dilənçilər xoşbəxtdirlər, çünki Tanrı Səltənəti onlarındır; aclar xoşbəxtdirlər, çünki qarınları doyacaq; ağlayanlar xoşbəxtdir, çünki təskinlik tapacaqlar". O, yəqin, elə bu ruhda da davam edəcəkdi, lakin Tanrı birdən duyuq düşdü. Baş verənlərə nəzər saldı və əgər deyilənləri artıq qaytarmaq mümkün olmasa belə, İsanın dodaqlarına elə kəlmələr qoyaraq tələsik tələffüz etdirdi ki, onların təsirindən sevinc dolu göz yaşları bir andaca qurudu və gələcək gözləri

önündə bütün qaralığı ilə canlandı: "Siz xoşbəxtsiniz, nə vaxt ki təhqir olunursunuz, qovulursunuz və mənə – Bəşər Oğluna qarşı ədalətsizlik edərək şər-böhtan danışırlar". O, bunları söylədi, az qaldı qorxudan ürəyi gedə, çünki növbəti an Tanrının ona dənizdə xəbər verdiyi işgəncə və ölümlər özünün bitib-tükənməz sırasıyla gözləri önündən keçdi. Elə buna görə də dəhşətə qərq olmuş insanların qarşısında İsa dizi üstə düşdü və dinməzcə dua eləməyə başladı. Özü də heç kəsin ağlına belə gəlmirdi ki, Tanrı oğlu kimi şöhrət tapmış, bağışlamaq kimi qüdrətli bir gücə malik birisi, hamı üçün bağışlanmaq diləyir. Elə həmin gecə, nəhayət, öz çadırında Mariya ilə tək qalanda ona belə dedi: "Mən çobanam, çomağı ilə həm günahkarı, həm günahsızı, həm düzü, həm əyrini, həm nicat tapmışı, həm məhv edilmişi qurbangaha qovan çoban və məni vicdan əzabından kim xilas edəcək? Mən indi, bir zamanlar atamın çəkdiyi əzablar kimi bir əzab çəkirəm, amma o, iyirmi beş həyata görə suçlu idisə, mən iyirmi milyonun cavabdehiyəm". Maqdalina onunla bir yerdə ağlayaraq belə deyirdi: "Sən axı bunu istəmirdin". O isə cavab verirdi: "Yox, istəmirdim, ən pisi də elə budur ki, istəmirdim". Bizim üçün mərhələ-mərhələ açılan hər şeyi lap əvvəldən və küll halında bilən Maqdalina isə ona deyirdi: "Tanrı yollar açır, Tanrı hər kəsi Öz yoluna istiqamətləndirir, səni isə onun üçün seçib ki, İlahiyə sitayişdə cığırlar-cığırını, yollar-yolunu tapasan və əgər sən bu yolu keçməsən, Məbədi də ucalda bilməyəcəksən, başqaları ucaldacaq onu, sənin qanını, ürəyini, ciyərlərini də tökəcəklər bünövrəyə. Ona görə, ən yaxşısı, sənin üçün nəzərdə tutulanları dinmədən, müticəsinə qəbul etməkdir, zira hər bir hərəkətin artıq əvvəlcədən bəllidir. Söyləyəcəyin kəlmələr hələ gedəcəyin yerlərdə səni çoxdan gözləyir – ayaqlarını sağaldacağın çolaqlarla, gözləri açılacaq korlarla, sənin iradənlə eşidəcək karlarla, danışmaq kimi bir neməti tapacaq lallarla, dirildəcəyin ölülərlə bir yerdə gözləyir".



– Ölümlə bacara bilmərəm.

– Hələ sınamamısan.

– Hə, sınamamışam, amma əncir ağacı yadındadır da – o, təzədən dirçəlmədi axı.

– İndi başqa zamandır: sən Tanrının istədiyini istəməyə məcbursan, lakin Tanrı da sənin istəklərinə "yox" deyə bilməz.

– Kaş kimsə bu yükü mənim çiyinlərimdən götürəydi, mən artıq heç nə istəmirəm.

– Bu mümkün deyil, mənim sevgilim, bu, Tanrının bacarmadığı yeganə şeydir – öz-özünü sevməmək.

– Sən haradan bilirsən bunları?

– Haradansa bilirəm, qadınlar hər şeyi fərqli dərk edirlər. Yəqin, ona görə ki, biz bir az fərqli qurulmuşuq; yəqin, ona görədir bu, hə, ona görədir.

Yer üzü və hətta onun Fələstin kimi lap kiçik parçası belə bir insanın səyləri və gücü üçün həddindən ziyadə böyük olduğundan İsa dostlarını iki-iki şəhərlərə və kəndlərə yolladı ki, Tanrı Səltənətinin tezliklə başlayacağını xəbər versinlər, moizə etsinlər, insanları öyrətsinlər, onlara məsləhət versinlər. Elə onun özü kimi, kişilərlə bir yerdə qadınlar da getdilər, özləri istədikləri üçün getdilər, o özü isə Maqdalina ilə ikilikdə qaldı. Bu məqamda Yerusəlimdən uzaq olmayan Vifaniyaya səfər etmək barədə çoxdankı niyyətini xatırladı və onu həyata keçirmək qərarına gəldi ki, bir oxla iki dovşan vursun. Əvvəla, Maqdalinanın qohumlarına baş çəksin – qadın artıq çoxdan idi ki, qardaşı və bacısıyla barışmalıydı, elə o özü də onlarla tanış olmaq istəyirdi – ikincisi isə üç aydan sonra Vifaniyada görüşəcəyi tələbələriylə bir yerdə müqəddəs şəhərə yürüş etmək istəyirdi. Bu on iki nəfərin İsrail torpaqlarında etdikləri barədə bir söz danışmayacağıq – hər şeydən öncə ona görə ki, hekayətimizin predmeti

onlar deyil. Həyatlarının müəyyən məqamları, ölümlərinin təfərrüatından savayı bizi bir şey maraqlandırmır və onların hamısı – hərəsi özünəməxsus bir tərzdə, öz istedadı müqabilində olsa belə, yalnız öz müəllimlərinin dərslərini təkrar edə bilərdi. Bu isə o deməkdir ki, onlar da elə müəllimləri kimi öyrədirdilər. Lakin xəstələri sağaltmağa gəlincə, nə bacarırdılarsa, onu da edirdilər. Çox təəssüf ki, İsa onlara bütpərəstlərin torpaqlarından keçməyi və samariyalıların şəhərlərinə girməyi qadağan etmişdi. Bu dərəcədə gözəl tərbiyə almış bir insan üçün həddindən ziyadə gözlənilməz və qəribə olan dözümsüzlüyün bu təzahürü onları gələcək əziyyətlərin yüngülləşdirilməsi, işlərin asanlaşdırılması yolunda atılacaq addımlardan məhrum etdi. Çünki Tanrı öz maraq, təsir dairəsinin genişləndirilməsi niyyətini kifayət qədər açıq, birmənalı şəkildə bildirmişdi və gec-tez təkcə samariyalıların yaşadığı deyil, həm də istər bu yerlərin, istərsə də başqa ölkələrin bütpərəstlərinin məskunlaşdıqları torpaqlara da getmək lazım olacaqdı. İsa öz apostollarına xəstələri sağaltmağı, ölüləri diriltməyi, cüzamlıları təmizləməyi, cinləri qovmağı da tapşırmışdı. Amma düzünü desək, tarixdə onların belə əməllərinin heç bir izi qalmayıb. Əgər bu cür şeylər, həqiqətən, olubsa, bu, ona dəlalət edir ki, Tanrı özünün mərhəmətini çox qısqanc bir diqqətlə paylayır və hətta ən parlaq zəmanətlərə belə inanmağa qətiyyən tələsmir. Apostollar İsanın yanına qayıdanda onların, təbii ki, öz moizələrinin, günahların etirafına etdikləri çağırışların təsirindən danışası sözləri çox olacaqdı, lakin xəstələrin sağaldılması baxımından uğurları xeyli zəif idi, bəlkə, hələ heç yox idi də. Çünki cürbəcür xırda cinlərin, əcinnələrin – o qədər xırda və zəif ki, ekzorsizmə asanlıqla məruz qalaraq adamın birindən o birisinə keçirdilər – qovulmasını buna aid etmək olmazdı. Heç şübhəsiz ki, onlar bütpərəst sayılmayan və bircə samariyalını gündüz çıraqla gəzsən belə tapa bilməyəcəyin bəzi vilayətlərdə necə pis qəbul olunduqlarından da, şəhər və kəndlərdən



qovulduqlarından da danışacaqdılar. Yeganə təsəlliləri isə ayaqlarının tozunu necə çırpdıqları haqda xatirələr olacaqdı. Onlar bunu elə qəzəblə edirdilər ki, guya, hamının tapdaladığı və hər şeyə dinməz dözən bu toz idi bütün bəlaların günahkarı. İsa isə onlara qulaq asmaq istəməyəcəklərini qabaqcadan bilirmiş kimi, bu cür vəziyyətlərdə necə davranmalı olduqlarını da qabaqcadan söyləmişdi: "Deyəcəyiniz sözlərin necə səslənəcəyi haqda qayğınızı bir kənara atın. O dəqiqə nə deməli olduğunuz sizə açılacaq".

Beləliklə, əgər təxmin eləsək ki, işlər bu minvalla düzələsi deyildi, bu halda da elə bütün başqa hallar kimi məzhəbin əsaslı və anlaşılan olması çox əhəmiyyətli dərəcədə, indicə deyildiyi kimi, şəxsiyyət faktorundan çox böyük dərəcədə asılıdır. Eybi yox, bunu da qulağımızda sırğa eləyək, kara gələr.

Hava isə lap qiyamət idi – sərin və təravətli, sanki, qızılgül ləçəyiydi. Yerimək o qədər asan və xoş idi, sanki, mələklər elə indicə yola şeh səpmişdilər, onu dəfnə və mirt şaxlarından süpürgəylə süpürmüşdülər. İsayla Maqdalina bircə dəfə də nə yolçu evində, nə də karvansarada gecələməyə qalmadılar. Karvanlara qoşulmadılar ki, onları tanıyan olmasın. Bu heç də o demək deyildi ki, İsa öz borcunu yerinə yetirməkdən vaz keçmişdi. Hər şeyi görən və həmişə oyaq Tanrı buna heç bir vaxt yol verməzdi. Əsla belə deyildi. Tanrının özü imkan verirdi ki, O, nəfəsini dərsin. Yol boyu nə onlardan nicat diləyən cüzamlı çıxırdı rastlarına, nə də hər cür köməkdən imtina eləyən cinli və onların keçdiyi kəndlərin hamısı idilliyadaydı, sükut və aramlıq içində dincəlirdi, sanki, özləri öz iradələriylə tövbə yoluna qədəm qoymuş, bu yolda artıq xeyli irəliləmişdilər. İsayla Maqdalina harada gəldi gecələyir, başlarını bir-birinin çiyninə qoymaqla kifayətlənərək heç bir rahatlıq axtarmırdılar, hərdən isə göy qübbəsi onların tavanı olurdu – Tanrının saysız-hesabsız ulduz qığılcımlarıyla dolu nəhəng qara gözü. Bu ulduzlar

nəsildən-nəslə səmaya zillənmiş insan baxışlarının əksi idi və indi ulduz kimi parlayan bu baxışlar sükutdan cavab umur və sükutun verdiyi yeganə cavabı dinləyirdilər. Sonralar, Mariya Maqdalina bütün yer üzündə tənha qalanda bu günləri və gecələri xatırlamaq istəyirdi. Amma hər dəfə də yaddaşını acı və əzablı xatirələrdən qorumağa məcbur olacaq, ətrafında kükrəyən bəla dənizindən, onun dibsiz ənginliklərindən çıxan əcaib həyulaların, ilan-çiyanın hücumundan bu kiçicik məhəbbət adasını müdafiə etməyə çalışacaqdı. Bu zamanlar elə də uzaqda deyildi, amma göylərə, yer üzünə baxarkən hələ gəlişin qorxunc əlamətlərini görmək olmazdı – səmanın genişliyində pırıldayıb uçan azad quşcuğaz da göyün yeddinci qatında artıq sürətli çalağanın qanadlarını yığaraq caynaqlarını açıb şığımağa, onun üstünə daş kimi düşməyə hazır olduğunu bilmir.

İsayla Maqdalina yollarda mahnılarını oxuyurdular və başqa yolçular onlara rast gələndə belə deyirdilər: "Bəxtəvərlər". Həmin dəqiqələrdə bundan doğru söz ola bilməzdi – bu, həqiqətlərin həqiqətiydi. Onlar bu minvalla İerixona yetişdilər, oradan da tələsmədən – yaman dözülməz isti vardı, bu istidən qorunmağa bir sığınacaq da tapmaq olmurdu – iki günə Vifaniyaya qalxdılar. Neçə illər keçmişdi deyə Maqdalina bilmirdi ki, qardaşı və bacısı onu necə qəbul edəcək, o özü isə evlərini tərk edəndən sonra yaman pis yaşamışdı. Deyirdi ki, bəlkə, onlar mənim öldüyümü zənn edirlər, öldüyümə ümidvardırlar və İsa da çalışırdı ki, sevgilisi bu qara fikirləri başından çıxarsın. "Zaman hər dərdi sağaldır", – deyirdi və heç yadına da salmırdı ki, özününkülərin ona vurduqları yara hələ də qövr eləyir – qanı axır.

Vifaniyaya girəndə Maqdalina qonşularından çəkinib başındakı yaylıqla yaşmandı, İsa isə onu yüngülcə qınadı:

– Kimdən gizlənirsən, əvvəllər olduğun həmin o qadın artıq yoxdur.

O isə cavab verdi:

– Hə, bu bir həqiqətdir, o qadın artıq yoxdur, amma bir zamanlar həmin o qadın olmuş birisi var və bu iki qadın öz aralarında yaddaş və xəcalət telləriylə möhkəm bağlanıblar.

– Sən indi olduğun kimisən və mənim yanımdasan.

– Tanrıya alqış olsun buna görə, baxmayaraq ki gün gələcək, o, səni mənim əlimdən alacaq.

Bu qəribə sözlərlə Mariya üzünün örtüyünü götürdü, amma kimsə onu görəndə demədi: "A-a, ona bax, Lazarın bacısı gəlir, həmin o pozğun bacısı".

– Budur, bizim evimiz, – dedi, amma darvazanı döyməyə, ev sahiblərini çağırmağa ürək eləmədi.

İsa örtülü alaqapını itələyib soruşdu:

– Evdə kimsə varmı?

– Var, – içəridən bir qadın səsi cavab verdi, – kimdir orada? – səsin ardınca darvazadan onun sahibi göründü – Marfa, Mariyanın bacısı, adi bacıdan da artaq – əkiz bacısı idi. Lakin bənzərlikləri qətiyyən gözə girmir, ancaq təxmin edilirdi. Çünki ona yaşadığı illər daha pis təsir göstərmişdi – ağır zəhmətdənmi, taleyin qismətindənmi, təbiətdən, həyat tərzindənmi?!

O, əvvəlcə İsaya nəzər saldı və üzü işıqlandı, aydınlaşdı, elə bil, üzündəki duman çəkildi, nəzərlərini bacısına çevirəndə isə üzündə əvvəlcə tərəddüd, sonra isə bir narazılıq göründü. "Bu əgər sənin yanında gəlibsə, kim olacaq ki?" – yəqin, belə düşündü Marfa, ya da: "O, göründüyü adamdırsa, sənin yanında necə ola bilər axı?" Hərçənd heç deyə də bilməzdi ki, İsanı görəndə kimə oxşatmışdı. Elə buna görə də "Necəsən?" ya da "Sən hara, bura hara?" sormaq əvəzinə, ağzından bu sözlər çıxdı:

– Bu adam kimdir?

İsa gülümsündü və bu təbəssüm yaydan çıxan ox sürətiylə düz onun qəlbindən dəydi. Bu zərbənin cavabı isə üzücü və qəribə, indiyədək duymadığı və şirin bir ağrı oldu.

– Mənim adım Nazaretli İsadır, – o cavab verdi, – sənin bacınla bir yerdəyəm.

Bu sözlər – romalılar öz latın dillərində *mutadis mutandis*[1] deyərdilər ona – lap bir zamanlar dəniz sahilində əbədilik ayrılarkən İosifə çığırdığı "Onun adı Maqdalalı Mariyadır və o, mənimlədir" deməyilə elə eyni şey idi.

Marfa qapını açıb dedi:

– İçəri girin, bu, sənin evindir. – heç bəlli olmurdu ki, "sənin" sözü bu iki nəfərdən hansına aid idi.

Artıq həyətdə Maqdalina bacısının əlindən tutub dedi:

– Mən bu evə aidəm, elə sənin kimi; mən həm də sənin məxsus olmadığın bu insana məxsusam; səninlə və onunla qırılmaz tellərlə bağlıyam. Elə buna görə də xahiş edirəm, öz məziyyətlərinlə öyünmə və məni də qeyri-kamilliyimə görə qınama. Mən bu evə rahatlıq içində gəlmişəm, elə rahatlıq içində də qalmaq istəyirəm.

Marfa dedi:

– Mən səni qohumluq borcum necə tələb edirsə, elə də qəbul edəcəyəm. Tanrı o günü nəsib etsin ki, səni əsl məhəbbətlə qarşılayım, amma bu gün yox, bu gün mümkün deyil.

O, yenə nəsə demək istəyirdi, amma susdu, çünki ağzını beynindən keçən bir fikir qıfıllamışdı: "Görəsən, bacısının özüylə gətirdiyi şəxs onun keçmiş həyatını bilirmi və bu həyat, həqiqətən, keçmişdə qalıbmı?" Fikirlərinin bu nöqtəsində üzünü utanc qızartısı basdı, bir anlıq onların hər ikisinə, üstəlik özünə də nifrət elədi. Amma bu yerdə İsa Marfanın nələr eşitmək istədiyini anladı, çünki insan beynində qaynaşan fikirlərin nədən ibarət olduğunu tapmaq o qədər də çətin deyil. Və dilləndi:

– Tanrı bizim hamımızın elədiklərinə göz qoyur, amma hər gün tamam başqa cür göz qoyur, çünki biz elə özümüz də hər gün müxtəlifik. Əgər o, bu gün sənə baxsaydı, Marfa, elə düşünmə ki, Mariyadan fərqli görərdi.

[1] Uyğun dəyişikliklər edərək (*lat.*)



– Aydın danış, mən səni anlamıram, – deyə qadın dilləndi.

– Sənə bundan artıq heç nə deməyəcəyəm. Mənim sözlərimi qəlbində saxla, hər dəfə bacına baxanda onları təkrar et.

– Yəni o artıq...

– Bilmək istəyirsən ki, fahişəyəmmi? – Maqdalina bir anlıq çaşmış Marfanın sözünü kobudluqla kəsdi. O isə bir addım dala atıb əllərini yana açdı:

– Yox-yox, heç bir şey demə, mənə İsanın sözləri bəs eləyir. – O, özünü saxlaya bilməyib hönkürdü. Mariya da ona yaxınlaşıb qucaqladı – qucağında yırğalayırmış kimi qucaqladı və Marfa göz yaşları içində dedi:

– Bu nə həyatdır, bu necə yaşayışdır! – Bəlli olmurdu ki, bunu özünə deyirdi, yoxsa bacısına.

– Lazar haradadır? – Mariya soruşdu.

– Sinaqoqda.

– Sağ-salamatdır?

– Onu elə qabaqlar olduğu kimi tutmaları incidir, boğulur, bircə bu olmasa, babatdır.

Marfa istədi yana-yana desin ki, ay gəzəyən, gec düşüb yadına – həqiqətən, bacısı bu sözün bütün çalarlarında "gəzəyən" idi. Acı bir kinayəylə düşündü: bütün bu illər ərzində bircə dəfə də onların sağ olub-olmamasıyla maraqlanmamışdı, Lazar isə, həqiqətən, yaman xəstə idi, bir də gördün, canını Tanrıya tapşırdı. Marfa bir az aralı durub təzədən qızışmağa hazır olan narazılığa göz qoyan İsaya sarı çönərək aydınlaşdırdı:

– Bizim qardaşımız sinaqoqda kitabları köçürür, başqa iş bacarmaz, sağlamlığı imkan vermir. – Bu fikir, bəlkə də, qəsdən yox, amma belə səsləndi:

– Belə həyatı heç kəs anlaya bilməz. Evdə kişi yoxdur, deməli, daimi qazanc da olmur, evin bütün işləri də onun boynundadır, bircə dəqiqə boş vaxtı olmur.

– Xəstəliyi nədir onun? – İsa soruşdu.

– Boğulması tutur, – Marfa dedi, – ürəyi az qalır dayansın, bənizi də ağappaq olur.

Sonra isə İsanın bu qədər cavan olduğuna birdən fikir verdiyindənmi, qısqanclığın qəlbinə girərək ruhunu sarsıtmasındanmı, bilmədi, amma sözlərinə bunu əlavə elədi:

– O, bizim ailənin kiçiyidir. – Bunun dalınca da elə sözlər dedi ki, əslində, bunu o yox, yanında durmuş Maqdalina deməliydi. Onun borcu idi, onun hüququ çatırdı buna:

– Sən yorulmusan, əyləş, ayaqlarını yuyum. – Bir az sonra, tək qalanda Maqdalina yarızarafat, yarıciddi dilləndi:

– Görünür, bu nəslin bütün bacılarının qismətinə İsaya vurulmaq yazılıb.

İsa da belə cavab verdi:

– O yaşamayıb, elə ona görə də qəlbi kədərlə doludur.

– Yox, ona görə deyil, – Maqdalina etiraz elədi, – o fikirləşir ki, gör dünya nə qədər ədalətsiz qurulub, gəzəyən qadın mükafat alır, ləyaqətlisinin isə bədəni boş-boşuna puç olur.

– Tanrı onu başqa cür mükafatlandıracaq.

– Ola bilər, amma bu dünyanı necə varsa, elə xəlq edən, yaratdığı qadınları onun heç bir meyvəsindən gərək məhrum etməyəydi.

– Məsələn, kişi tanımaqdan.

– Hə, eynən sənin qadın tanıdığın kimi və bundan artıq bir şey də uma bilməzsən, çünki Tanrının Oğlusan.

– Səninlə yatan dülgər İosifin oğludur.

– Düzünü desəm, mən də lap elə ilk gündən bəri İlahinin oğluyla yatdığımı heç hiss etmirdim.

– İlahinin yox, Tanrının.

– Mən dünyada hər şeyimdən keçərdim, təki sən Tanrı oğlu olmayaydın.

Marfa isə bu vaxt ərzində qonşunun oğlunu sinaqoqa yolladı ki, Lazarı bacısının qayıtmasından xəbərdar eləsin, özü də bu qərara daxilindəki tərəddüdlərdən, mübarizədən sonra gəldi. Çünki bununla bütün Vifaniya söz-söhbət, dedi-qodu



üçün əsas tapacaqdı: "Bu qədər müddəti pozğun yaşayan bir fahişə qayıdıb". Axı üstündən zaman ötdüyündən artıq şər danışan dillər susmuşdu. O elə özündən də soruşurdu ki, sabah küçədə görünməyə, daha artığı, bacısını da yanına salıb görünməyə cəsarət edəcəkdimi? Çünki qonşularla, rəfiqələriylə, təxminən, bu cür söhbətlər olacaqdı: "Mariya yadındadır, odur da bu, hə, qayıdıb". Qonşu qadın isə başını tərpədib ikibaşlı tərzdə deyəcəkdi: "Yadımdadır, əlbəttə, onu kim xatırlamır ki". Mən sizdən bu aşağı əyarlı həyati nəsr nümunəsi üçün artıq dərəcədə üzr istəyirəm, çünki hətta müqəddəs bir tarixçədə də başdan-ayağa hər şey müqəddəs olmur. Sinaqoqdan dönən Lazar Maqdalinanı bağrına basanda Marfa özünün qara fikirlərindən utandı, qardaşı isə belə dedi:

– Xoş gəlmisən, bacı.

Sanki, onun burada olmadığı uzun illər boyu Lazarın adı gələndə ortaya çökən çoxmənalı sükutdan heç əziyyət çəkməmişdi – qadın isə onun bu hərəkətindən utanıb sevincini bir yolla büruzə verməyə, xoş münasibət göstərməyə özünü borclu sayaraq qardaşına dedi:

– Bu da İsadır, bizim Mariyanın əri.

Lazarla İsa bir-birinə dostyana baxdılar, qadınlar keçmiş, gözəl zamanları xatırlayaraq ovaxtkı ədalarına uyğün dördəlli yemək hazırlayanda kişilər də söhbətə başladılar.

Şam yeməyindən sonra Lazarla İsa axşamın sərinini ciyərlərinə çəkmək üçün həyətə çıxdılar. Marfa ilə Mariya isə mühüm məsələni həll edirdilər – yatmaq üçün yerlərini necə salsınlar – çünki gecələyənlərin tərkibi dəyişmişdi, onlar arasındakı münasibətlər də fərqli idi. İsa isə bir xeyli sükutdan sonra hələ işıqlı göydə görünmüş ilk ulduzlara nəzər saldı və soruşdu:

– Özünü pis hiss edirsən, Lazar?

Lazar tamamilə sakit bir tərzdə cavab verdi:

– Hə. Pisəm.

– Sən tezliklə əzabdan qurtulacaqsan, – İsa dedi.

– Əlbəttə, qurtulacağam, öləndə.

– Yox, indi.

– Amma demə ki, təbibsən.

– Qardaş, mən təbib olsaydım, səni necə müalicə edəcəyimi bilməzdim.

– Bəs belə bilirsən?

– Sən sağaldın, – İsa onun əlindən tutub sakit, xəfif səslə dedi və elə həmin an Lazar xəstəliyin canından necə çıxmasını, günün altında su kimi buxarlanmasını duydu, nəfəsinin necə yüngülləşdiyini, qəlbinin cavanlıqda olan kimi aramla və qüvvətli döyündüyünü hiss etdi. Nə baş verdiyini dərk etmədiyindən canına bir qorxu doldu.

– Bu nədir belə? – qəflətən xırıldayan səsiylə soruşdu, – sən kimsən?

– Hər halda, təbib deyiləm, – İsa gülümsündü.

– Səni and verirəm İlahiyə, kimsən?!

– Onun adını yersiz çəkmə.

– Səni necə başa düşüm?

– Mariyanı çağır, o, səni başa salar.

Amma bir kimsəni çağırmağa ehtiyac olmadı – Marfa və Mariya həyətdəki kişilərin səslərinin dəyişməsindən ehtiyatlanaraq cəld kandarda göründülər. Düşündülər ki, birdən onların sözü çəp gələr, lakin o dəqiqə gördülər ki, bütün həyət göy rəngə boyanıb. Təbii ki, həyətin özü yox, fəzası və tir-tir əsən Lazar da İsaya işarə edərək soruşurdu:

– Bu adam kimdir ki, mənim əlimdən tutub dedi: "Sən sağaldın" və mən də sağaldım?

Marfa yaxınlaşdı ki, qardaşını sakitləşdirsin – əcəb sağalmaqdır, tir-tir əsirdi – o isə bacısını əliylə kənar elədi, bir də soruşdu:

– Mariya, söylə mənə, bu adamı sən gətirmisən, kimdir o?

Maqdalina isə elə bayaqkı kimi kandarda dayanmışdı, çox sakit tərzdə dedi:

– Nazaretli İsa, Tanrı Oğlu.



Marfa və Lazar əslən peyğəmbər açıqlamaları və vəhylər üçün seçilmiş bu yerlərin övladı olduqlarına baxmayaraq, onların vəziyyətində ən təbii görünən bir şey etdilər – bu sözlərə qəti inanmadılar. Çünki bir var, bəlli möcüzə əsasında sağaldığını etiraf edəsən, bir də var, sənin əlindən tutub azarını sağaldan adamın şəxsən Tanrı Oğlu olduğuna inanasan. Amma məhəbbətlə inam birləşəndə dağları yerindən oynada bilər, bəziləri isə hətta deyirlər ki, onlar təklikdə də bunu bacarmaq gücündədirlər. Odur ki Marfa gözlərinin yaşını axıda-axıda İsanın boynuna atılmaq istəyirdi, amma bu cəsarətindən qorxaraq ayaqlarına düşdü, sözünə baxmayan dodaqlarıyla yalnız bunu pıçıldaya bildi:

– Mən sənin ayaqlarını yudum, mən sənin ayaqlarını yudum.

Lazar yerində donmuşdu, sanki, heyrətdən uçunurdu və biz hətta tam ixtiyarla güman edə bilərik ki, bu açıqlama onu şimşək kimi vuraraq nəfəsini kəsib yerə sərməmişdi, yalnız ona görə ki, "Nazaretli İsa, Tanrı Oğlu" sözləri səslənməmişdən cəmi bircə dəqiqə əvvəl onun köhnə, əldən düşmüş ürəyi yeni, sinəsində dolğun döyünən ürəklə çox vaxtında dəyişmişdi.

İsa təbəssümlə ona yaxınlaşdı və qucaqlayıb dedi:

– Tanrı Oğlunun Bəşər Övladı olduğuna təəccüblənmə, özün düşün, Tanrı insanı seçməyib kimi seçəcəkdi ki? Kişi qadını, qadın isə kişini elə bu cür seçmirmi?

Sonuncu sözləri Maqdalinaya aid idi, o da bunu məmnuniyyətlə qəbul etdi. Lakin İsa onları deyərkən unutmuşdu ki, bu sözlər Marfanın dərdini də artırır, nəhayətsiz tənhalığını da qabardır. Tanrı ilə Tanrı Oğlu arasında fərq budur, birincisi bunu bilərəkdən edərdi, ikincisi insana xas olan bacarıqsızlıqla nəticələr haqda düşünmədən edir. Lakin bu gün bu evdə hakim olan sevinc o qədər böyük idi ki, Marfa dərd çəkməyə, köksünü ötürməyə yalnız sabah davam edəcəkdi. Amma bir şeyin ona təskinlik olacağı da aydın idi – heç kəs Mariyanın adını Vifaniyanın küçələrində, meydan

və bazarlarında pisliyə çəkməyə cəsarət etməyəcək, onun keçmiş pozğun həyatını müzakirəyə çıxarmayacaqdı, çünki elə indicə hamıya bəlli olacaqdı ki – bunun qeydinə Marfa özü qalacaqdı – bacısı ilə gələn şəxs Lazarı heç bir dərman və məlhəm olmadan sağaldıb. İndi onlar evdə oturub sevinirdilər və Lazar dedi:

– Uzaqlardan bizim qulaqlarımıza xəbər çatırdı ki, Qalileyadan bir adam çıxıb möcüzələr eləyir, amma Onun Tanrı Oğlu olduğunu demirdilər.

– Bir xəbər tez yayılır, başqası gec, – İsa cavab verdi.

– Sən həmin adamsan?

– Bunu özün dedin artıq.

Sonra İsa onlara öz həyatından danışdı, başdan axıra kimi, yalnız Çoban barədə bir söz demədi. Tanrı haqda isə təkcə onu söylədi ki, onunla görüşəndə belə demişdi:

– Sən – mənim oğlumsan.

Əgər Vifaniyaya köhnə möcüzələrin sorağı yetişməmiş olsaydı, bu soraq onların gözləri qabağında baş vermiş möcüzənin şəksiz həqiqətinə bələnməmiş olsaydı, inam və məhəbbətin qüdrəti olmasaydı, bir-iki kəlmə ilə, lap bu kəlmələr Tanrının özünün dilindən çıxmış olsa da, İsaya Marfa ilə Lazarı inandırmaq çox çətin olardı ki, Müqəddəs Ruh insan yaradıb və bu insan da sonra onların bacısı ilə yataraq onu bir qadın kimi tanıyacaqdı – o bacıları ki, Tanrıdan qorxmayıb o vaxta kimi neçə-neçə kişi görmüşdü. Heç kəsin görüb-eşitməməsi üçün üzünü yaylıqla örtən Marfaya bu sözləri dedirdən təşəxxüsünü də bağışlayardı: "Mən buna daha çox layiq olardım".

Ertəsi gün xəbər bütün Vifaniyaya sürətlə yayılaraq şəhəri Tanrıya ünvanlanan alqış səsləri, minnətdarlıq kəlmələriylə canlandırdı və hətta baş verənlərin həqiqətinə əvvəlcə tərəddüdlə yanaşan, bu şəhəri belə böyük möcüzələr üçün həddən ziyadə balaca sayan ehtiyatlı insanlar belə sağ-salamat Lazarı öz gözləriylə əyani şəkildə görəndə inanmaqdan başqa yolları



qalmadı. Onun barəsində isə həmin bu möcüzəyə kimi qətiyyən bu misalı söyləyə bilməzdin ki, sağlamlığını satanlardandır. Çünki əgər bu sağlamlıq onda olsaydı, satmazdı, paylayardı, zira ürəyi zəif, yaralı olsa belə, səxavətli, məhəbbətli idi.

Qapılarının ağzında artıq hər şeylə maraqlanan, yalan olmasın deyə, baş verənləri, ecazkarın özünü mütləq öz gözləriylə görmək istəyən, hələ fürsət düşsə, ona əllərilə toxunmaq arzusunda olan insanlar toplaşmışdı. Artıq Marfa ilə Lazarın evlərinə sarı xəstələr axışırdı – bəziləri öz ayaqlarıyla gəlir, digərlərini qohumları xərəkdə, ya da bellərində gətirirdilər. Odur ki bir azdan bütün küçə ağzına kimi bu adamlarla doldu. İsa ona köməkçi verilmiş şəhər carçısına tapşırdı ki, camaatı Vifaniyanın baş meydanına toplasın – görüş orada olacaq. Lakin xalq o qədər axmaq deyildi ki, quşu tutandan sonra ovcunu açıb onu qaçırsın. Bu uzaqgörən inamsızlıqları ucbatından heç kəs yerindən tərpənmədi, İsa da məcbur oldu ki, adi adam kimi qapının ağzında görünərək çölə çıxsın. O çıxanda ətrafa musiqi sədaları yayılmadı, parlaq nur seli axmadı, torpaq ayaqlar altında titrəmədi, başımızın üstündəki səma da yarılmadı. "Bu da mən", – dedi və çalışdı ki, səsi imkan daxilində adi çıxsın. Lakin buna nail olsa belə, onun tərəfindən söylənmiş bu sözlər hamını birdən dizüstə çökməyə məcbur elədi. "Bizə nicat ver!" – deyə bəziləri çığırırdı, başqaları isə qışqırırdılar: "Məni sağalt!"

O, danışa bilmədiyindən nə istədiyini anlamaq mümkün olmayan bir lalı dilləndirdi, qalanlarına isə evlərinə dönməyi – çünki bu insanların inamları az idi – və bura səhər qayıtmağı tapşırdı. Lakin hər şeydən öncə – günahlarını etiraf etməyin zəruri olduğunu, Tanrı Səltənətinin yaxınlaşdığını və vaxtın tezliklə yetişəcəyini söylədi. Daha doğrusu, əslində, yeni bir şey də demədi. "Sən Tanrı Oğlusan?" – soruşurdular ondan və o, dinləyənlərin artıq adət etdiyi həmişəki mübhəm cavablarından birini verdi: "Əgər olmasaydım, Tanrı sənin dilini lal edib bu sualı verməyinə imkan yaratmazdı".

İsanın Vifaniya səfəri belə başladı, belə də davam elədi. Düz uzaq ellərdən gəlmiş tələbələri ilə görüş vaxtı yetişənə kimi. Təbii ki, şimalda möcüzələr göstərən həmin o şəxsin indi Vifaniyada olmasını eşidənlər bütün əyalətlərdən, şəhərlərdən bura axışırdılar. İndi artıq İsaya heç Lazarın evindən çıxmaq da gərək deyildi. Camaat ora bir səcdəgah kimi gəlirdi, amma o, kimsəni burada qəbul etmədi, hamıya şəhərdən kənardakı bir dağda toplaşmağı tapşırdı. Söylədi ki, onlara moizə edəcək və hamını günahlarının etirafına, tövbəyə çağıracaq, bəzilərini isə sağaldacaq. Tezliklə onun barəsində dillərdə dolaşan söz-söhbət Yerusəlimə də yetişdi və kütlənin sayı elə artdı ki, İsa bu qədər insanın bir yerdə toplaşması zamanı qaçılmaz olan basabasdan qorxaraq öz-özünə sual verirdi ki, görəsən, bu moizələrə davam etmək lazımdır, yoxsa yox? Yerusəlimdən isə nicat tapmaq üçün əvvəlcə dilənçilər, yoxsullar gəlirdi, onların dalınca da varlılar. Hətta ağlı başında olmayan bir şəxsin özünü öldürmək həddində cəsarət göstərərək nə az, nə azacıq, birbaş Tanrı oğlu olduğunu elan etməsinə inanmaq fikrində olmayan bir neçə əhli-kitab da, farisey də gəlmişdi. Onlar Yerusəlimə əsəbi halda, qayğılı döndülər. Çünki İsa bunun həqiqət olub-olmadığı barədə suala heç vaxt kəsə cavab vermir, qohumluqdan söz düşəndə özünü Bəşər Övladı adlandırırdı. Əgər Tanrının adını çəkəndə ona "Ata" deməli olurdusa da, bunu elə anlamaq lazım idi ki, söhbət Göylər Atasından gedir, tək o yox, yer üzündəki insanların hamısı onun övladlarıdır. Aydınlaşmamış və mübahisəli bircə məsələ qalırdı, bu da onun dəfələrlə isbat olunmuş, sübuta yetirilmiş sağaltmaq bacarığı idi. Özü də heç bir sehrli sözlər, qəribə hərəkətlər olmadan, bir-iki sadə ifadələr işlətməklə: "Get", "Qalx", "Danış", "Gör", "Paklaş". Ya da heç əllərini sürtmədən yalnız barmaqlarını toxundurmaqla bircə an içində cüzamlıların dərisi sübh şəfəqlərinin nuru altındakı şehdən təmiz olur, lalların, pəltəklərin nitqi sel kimi axır, iflic vuranlar öz yataqlarından sıçrayaraq əldən düşənə kimi rəqs



eləyir, korlar gözləri önündə açılmış mənzərəyə inanmaq istəmir, topallar yorulmadan irəli-geri yüyürür, hərdən də camaatı əyləndirmək üçün bir an öncə necə axsadıqlarını nümayiş etdirərək sonra bir də qaçırdılar. "Tövbə edin", – deyirdi İsa onlara – başqa heç nə istəmirdi. Lakin cürbəcür peyğəmbərlərin yaratdığı narahatlıq və həyəcanlara hamıdan yaxşı tanış olan Yerusəlim Məbədinin baş ruhaniləri, İsanın bütün söylədiklərini ölçüb-biçəndən, götür-qoy edəndən sonra qərara aldılar ki, bu dəfə dini, siyasi qiyama yol verməyəcəklər və həmin gündən etibarən Qalileyalının deyəcəkləri, eləyəcəkləri möhkəm nəzarət altında olacaq ki, ehtiyac yaransa – və görünür, həmin an artıq uzaqda deyildi – bu şəri kökündən vurmaq mümkün olsun. Çünki baş ruhani demişdi: "O, məni aldada bilməz – Tanrı Oğlu elə Bəşər Oğludur".

İsa toxum səpmək üsün Yerusəlimə getmədi, lakin Vifaniyada gələcək biçin üçün oraq düzəldib onu yaxşı-yaxşı itiləmiş oldu.

Biçin vaxtı yaxınlaşdı, nə zaman ki onun tələbələri ikibir-üçbir, hələ yolda bir-biriylə rastlaşanda lap dörd-dörd də Vifaniyaya toplaşmağa başladılar, onların gətirdiyi xəbərlər, danışdıqları əhvalatlar bir-birindən yalnız ikinci dərəcəli təfərrüatlarda, az əhəmiyyətli məsələlərdə fərqlənir, bircə şeydə üst-üstə düşürdü: "Səhradan bir insan çıxıb, qədim zamanlardakı kimi peyğəmbərlik edir və onun səsindən daşlar yumbalanır, hərəkətindən dağlar yerindən oynayır, söylədikləri isə Məsihin mütləq gələcəyi, əməlisaleh olmayanları cəzalandıracağı idi".

Onu görə bilməmişdilər, çünki yerini tez-tez dəyişirdi və tələbələrin gətirdikləri məlumat əsas mətləblərdə üst-üstə düşsə də, hamısı ikinci əldən idi. Özlərinin dediyinə görə yalnız ona görə ki, İsanın qoyduğu üçaylıq müddət başa çatmaq üzrəydi və onlar Vifaniyadakı görüşə gecikmək istəmirdilər. İsa həmin peyğəmbərin adını soruşdu və onlar cavab verdilər: "İoann". Axı Tanrı da vidalaşarkən söyləmişdi

ki, İsaya kömək üçün hazırlayacağı şəxsin adı məhz belə olacaq. "Hə, o da gəldi", – İsa dedi və tələbələri anlamadılar ki, bu sözüylə nə demək istəyirdi, bircə Maqdalina başa düşdü, o isə, onsuz da, hər şeyi bilirdi. Əvvəlcə İsa bu şəxsin görüşünə getmək istəyirdi, heç şübhəsi yox idi ki, o da bu görüşün axtarışındadır. Lakin on iki tələbəsindən ikisi – Foma və İskariotlu İuda hələ qatıymamışdılar deyə ümid vardı ki, bəlkə, onlar bütün qalanlarından daha dəqiq, daha mötəbər xəbərlər gətirərlər. Elə bu səbəbdin də onları gözləmək qərarına gəldi. Bəlli oldu ki, düzgün seçim edib, çünki onlar nəinki İoanı görmüşdülər, hətta onunla söhbət də eləmişdilər. Foma ilə İudanın danışdıqlarına qulaq asmaq üçün qalan apostollar da öz çadırlarından gəldilər və Lazarın həyətində çevrə vurub oturdular. Mariya, Marfa və onlarla olan digər qadınlar isə kişilərə qulluq göstərirdilər. Foma ilə İuda növbəylə danışırdılar. Onlar nəql etdilər ki, Tanrının səsini eşidəndə İoann səhrada yaşayırmış və o, İordan çayına gedir ki, günahlarına tövbə edib xaç suyuna çəkilsin. Onun yanına tövbə üçün çoxları gəlirdi, o isə bu insanları qəzəbli qışqırıqlarla qarşılayırdı, Foma ilə İuda bunu görəndə xeyli təəccüblənmişdilər.

"Siz, ey əfi ilanın törəmələri, – deyirdi, – gələcək qəzəbdən qaçmağı kim sizə təlqin eləyib?! Tövbə üçün yararlı meyvə yaradın və öz-özünüzə deməyin: "Atamız Avraamdır". Çünki mən sizə söyləyirəm ki, Tanrı, bax, bu daşlardan Avraama uşaq düzəldə bilər. Artıq təbərzin də ağacların gövdəsinin yanında hazırdır. Bəhər verməyən hər ağac kəsilərək alovlara atılır". Camaat isə dəhşət içində ondan soruşurdu: "Bəs biz nə edək?" İoann cavab verirdi: "Kimin iki libası varsa, birini lütə versin; kimin yeməyi varsa, o da belə eləsin". Onun yanına xaç suyuna çəkilmək üçün vergiyığanlar gələndə isə belə deyirdi: "Qanunda olanlardan artıq heç bir şey tələb etməyin". Döyüşçülər də ondan soruşurdu: "Bəs biz nə edək?" Deyirdi onlara: "Heç kəsin xətrinə dəyməyin, şər söyləməyin və məvacibinizə qane olun".

Bu yerdə Foma susdu, nəfəsini dərirdi və İuda dilləndi:

– Xalq onun Məsih olması haqda düşüncələrə dalıb intizar içində gözləyəndə İoann hamıya belə cavab verirdi: "Mən sizi su ilə xaça çəkirəm, amma məndən güdrətlisi gəlir, onun səndəllərinin bağını açmağa belə ləyaqətim çatmaz mənim. O, sizi Müqəddəs Ruhla və alovla xaça çəkəcək, kürək onun əlindədir və öz xırmanını özü təmizləyəcək, taxılını anbarına yığacaq, samanı isə sönməz bir alovla külə çevirəcək".

İuda da susdu və indi hamı İsanın nə deyəcəyini gözləyirdi, lakin o susmuşdu, barmağıyla torpağın üstündə sirli işarələr cızırdı, sanki, öncə tələbələrinin danışmasını istəyirdi. Onda Pyotr dilləndi:

– İoann dediyi Məsih sənsən?

İsa isə barmağıyla tozun üstündə nəsə çəkməyinə ara verməyərək dedi:

– Bunu sən dedin, mən yox, – bir az susandan sonra əlavə elədi, – gedib axtarım onu.

– Biz də səninlə gedə bilərik? – Zavedeyin oğlanlarından biri, İoann adını daşıyanı soruşdu, lakin İsa başını yavaşca yellədi:

– Mən özüm gedəcəyəm, yalnız Foma ilə İudanı götürəcəyəm, onlar onu tanıyırlar.

O, sonuncuya müraciətlə soruşdu:

– Danış görüm, onun görkəmi necədir?

– Səndən ucaboy, xeyli cantaraqdır, uzun saqqalı var və dəvə yunundan paltar geyir, belinə gön kəmər taxır, orada, səhrada isə vəhşi arıların balıyla, bir də çəyirtkəylə dolanır.

– O, məndən çox Tanrı elçisinə bənzəyir, – deyərək İsa ayağa qalxıb çevrədən çıxdı.

Ertəsi gün, dan yeri yenicə sökülən kimi onlar üçü yola çıxdılar və İoannın bir yerdə uzun zaman qalmaqdan çəkindiyi bəlli olduğundan fikirləşdilər ki, onu böyük ehtimalla adamları xaç suyuna çəkdiyi İordan çayının sahilində tapacaqlar. Bunun üçün də Vifaniyanın yüksəkliklərindən enib

Ölü dəniz səmtinə, Vifavar şəhərinə istiqamət götürdülər ki, sonra çayyuxarı gedib Qalileya dənizinə yetişsinlər, oradan da bir az şimala, lazım gəlsə, bir az da şərqə meyilləsinlər. Vifaniya sərhədlərindən çıxanda güman etməzdilər ki, yolları bu qədər qısa olacaq. İoannla düz Vifavarda rastlaşdılar. Tək oturmuşdu, sanki, elə onları gözləyirdi. Hələ uzaqdan qayaları, zirvələri, mağaraları tam sağalmamış çapıqlara bənzəyən ağ dağlarla əhatə olunmuş İordanın sahilində onun kiçik siluetini gördülər. Onun sol tərəfində isə istidən ağarmış səmanın altında ərimiş qurğuşunu xatırladan məşum parıltılı Ölü dəniz sərilmişdi. Onlar bir sapand daşı məsafəsinə yaxınlaşanda İsa yoldaşlarından soruşdu:

– Bu odur?

Onlar isə əllərindən gözlərinə günlük düzəldib diqqətlə baxdılar və dedilər:

– Əgər bilməsəydik, elə düşünərdik ki, o, sənin əkiz qardaşındır.

– Məni burada gözləyin, – İsa dedi, – orada nə baş versə də, yaxınlaşmayın.

Daha heç nə əlavə etməyib yamacla çaya sarı enməyə başladı. Foma ilə İuda İskariot quraqlıqdan cadar-cadar olmuş torpağa əyləşdilər. Onlar uzaqlaşmaqda olan İsaya baxırdılar, o isə gah görünür, gah da dağ yamacının qırışları arasında görünməz olurdu. Sonra, sahilə çatanda da İoannın qımıldanmadan oturduğu yerə yönəldi.

– İlahi qismət eləsin, yanılmamış olaq, – Foma dedi.

İuda isə cavab verdi:

– Bir az yaxına getmək lazım idi, buradan nə görəcəksən?

Amma İsa arxayın idi ki, axtardığını tapıb, elə-belə, ehtiyat üçün ondan nəsə soruşdu. İoann isə ayağa qalxaraq yaxınlaşmaqda olan İsaya baxırdı.

– Nə barədə danışacaqlar görəsən? – İuda İskariot soruşdu.

– Bəlkə, İsa sonra danışar bizə, bəlkə də, yox, – Foma cavab verdi.



Orada, uzaqda isə onlar ikisi üz-üzə durmuşdular və havada oynayan çomaqlarından bəlliydi ki, nə barədəsə çox qızğın, lap qaynar söhbət gedir. Sonra isə lap suyun qırağına yaxınlaşdılar və İoannın artıq xaç suyuna çəkdiyi Foma ilə İuda onları görməsələr də, orada nə baş verdiyini yaxşı bilirdilər. Qurşağa kimi suyun içinə girirlər, İoann suyu ikiəlli götürüb əllərini yuxarı qaldırır, suyun İsanın başına tökülməsinə imkan verir və bu sözləri deyir: "Suyla xaça çəkilirsən, qoy sənin qəlbindəki atəşi canlandırsın". Və budur, mərasim başa çatır, onlar yenə sahilə çıxırlar, çomaqlarını yerdən qaldırırlar. İndi isə, şübhəsiz ki, vidalaşırdılar. Qucaqlaşdılar və sonra İoann sahillə şimala, İsa isə onlara sarı gəldi. Foma ilə İuda yerdən qalxıb gözləyirdilər, o isə yaxınlaşaraq bir kəlmə də danışmadan Vifaniya səmtinə yollandı. Tələbələri onun dalınca getdilər, amma bir az aralıda, təskinlik tapmamış maraqları onlara güc gəlirdi. Nəhayət, Foma dözmədi, İudanın xəbərdaredici işarələrinə rəğmən, soruşdu:

– İoannla nə barədə danışdığınızdan deməzsən bizə?

– Hələ vaxtı deyil, – İsa cavab verdi.

– Heç olmasa, bunu de, həmin Məsih sənsənmi?

– Hələ vaxtı deyil.

Yenə eyni sözlər səsləndi və tələbələri anlaya bilmirdilər ki, bayaqkı cavabını təkrar edirdi, yoxsa Məsihin gəldiyini elan etməyin vaxtı yetişmədiyini söyləyirdi. Onlar çaşqın halda dala qaldılar. İuda elə bu fikirdə idi, təbiətən tərs və hər şeydən şübhələnən Foma isə belə hesab edirdi ki, İsa özünün ilk sözlərini bir az əsəbi tərzdə təkrar etmişdi.

İordanın sularında baş verənlərin təfərrüatını isə həmin gecə təkcə Mariya Maqdalina bildi. O, az danışdı, İsa qadına bircə bunu dedi:

– Elə təzəcə salamlaşmışdıq ki, məndən həmin adam, həmin o gəlməli adam olub-olmadığımı soruşdu. "Bu sənsən, – dedi, – yoxsa hələ başqasını gözləməliyəm?"

– Bəs sən nə cavab verdin?

– Mən də dedim ki, korların gözü açılır, axsaqlar da yeriyir, cüzamlılar da sağalır, karlar da eşidir, dilənçilər də bunun sorağını aləmə yayır.

– Bəs o nə dedi?

– Məsihə bu qədər iş görmək lazım deyil, elə yalnız öhdəsinə düşəni eləsə, bəsdir.

– O, belə dedi?

– Hə, məhz bu sözləri dedi.

– Bəs Məsih nə etməlidir ki?

– Hə, mən də ondan elə bu barədə soruşdum.

– Bəs o?

– O da dedi ki, mənə elə bu məsələni açmalıdır.

– Sonra nə oldu?

– Heç nə, məni apardı suyun içinə, xaça çəkdi, sonra da çıxıb getdi.

– Bəs xaç suyuna çəkəndə hansı sözləri dedi?

– Suyla xaça çəkilirsən, qoy sənin qəlbinin atəşini canlandırsın.

Maqdalina ilə gecə söhbətindən sonra İsa düz bir həftə ağzını belə açmadı. O, Lazarın evindən Vifaniyanın kənarlarına getdi – tələbələri orada yaşayırdılar. Lakin öz çadırını bir az aralıda qurdu və bütün vaxtını orada tək keçirdi. Heç Maqdalinanı da yaxın buraxmırdı, gecələr isə lümlüt dağlara çıxırdı. Hərdən onu səssizcə izləyən tələbələri isə öz hərəkətlərini belə əsaslandırırdılar ki, ona göz qoymaqlarının səbəbi, lazım gələndə vəhşi heyvanlardan qorumaq idi. Amma oralarda heç binadan heyvan-zad yox idi. Onlar yalnız bunu görürdülər ki, İsa açıqlıqda dinməzcə oturur, gözlərini göylərə yox, düz qarşısına zilləyir, sanki, vadinin titrək kölgəsindən çıxacaq, ya da dağın yamacından enəcək kimisə gözləyir. Aylı gecələr idi, baxanda lap uzaqlar görünürdü, amma kimsə gəlmirdi.

Şəfəq yeni günün kandarından ilk addımını atanda isə o qalxıb öz çadırına gedirdi, növbə ilə onun üçün yemək



hazırlayan İoannla İudanın gətirdiklərindən bir balaca dadırdı. Amma onlar salamlaşanda cavab vermirdi. Bir dəfə isə Pyotra qarşı çox kobud davrandı, o yalnız kefini soruşmaq, bir tapşırığının olub-olmadığını öyrənmək istəyirdi. Pyotr heç bir səhvə yol verməmişdi, amma bunu vaxtsız soruşurdu. Düz bir həftənin tamamında İsa çadırından axşamtərəfi yox, gündüz çıxdı, öz tələbələrinə qarışıb onlarla birgə yemək yedi, sonra da dedi:

– Sabah biz Yerusəlimə gedirik, Məbədə, siz mənim hərəkətlərimi təkrar edəcəksiniz, çünki Tanrı Oğlunun öz atasının evində necə ibadət eləyə biləcəyini öyrənmək, Məsihin isə öz işini görmək dəmidir.

Tələbələri onu sorğu-suala çəkməyə başladılar. Bu sözlərinin mənasını öyrənmək istəyirdilər, amma İsa dediklərinə yalnız bir şey əlavə elədi:

– Siz bunu öyrənmək üçün qocalana kimi yaşayası olmayacaqsınız, tələsməyin.

Tələbələri onun belə quru, sərt danışığına öyrəncəli deyildilər. Adətən, sakit, müti sifətinin tanınmaz dərəcədə dəyişmiş, əvvəlki görünüşünü yox etmiş bu sərt ifadəyə də öyrəşməmişdilər. Əvvəlki İsa belə deyildi. Tanrı hara yollasa, ora da gedirdi və heç vaxt heç nədən narazılıq etmirdi. Heç şübhəsiz ki, belə heyrətamiz dəyişikliklər elə həmin, hələ bəlli olmayan, onu yoldaşlarının çevrəsindən uzaqlaşmağa vadar eləyən və gecələr canına cin girmiş adamlar kimi dərə-təpəni dolaşaraq yorulmadan söz axtarmasına səbəb olurdu.

Lakin yaşca bütün tələbələrdən böyük olan Pyotr belə düşünürdü ki, İsa tərəfindən heç bir izahat vermədən "Yerusəlimə gedirik" deməsi düzgün deyildi. Elə çıxırdı ki, onlar yalnız ora-bura yollamağa, heç nə sormadan onun iradəsini yerinə yetirməyə yarayırdılar; bunu onun özünə də dedi:

– Biz sənin qüdrətini və hakimiyyətini qəbul edirik, sənin sözlərinlə həmrəyik, həm Tanrı Oğlu, həm də insan kimi elədiklərinlə də razıyıq, amma sən bizimlə yaxşı rəftar

etmirsən, sanki, hələ ağıllanmamış uşaq, ya da şüuru korşalmış qocayıq. Öz fikirlərini bizimlə bölüşmürsən, bizdən yalnız özün elədiklərinin təkrarını istəyirsən, imkan vermirsən ki, bizdən tələb olunanları öz səviyyəmizə uyğun dərk edək.

– Məni bağışlayın, ancaq heç özüm də bilmirəm məni Yerusəlimə aparan nədir. Sadəcə olaraq, "get" deyirlər, siz isə mənimlə getməyə borclu deyilsiniz.

– Sənə ora getməyi kim deyir?

– Mənim şüuruma yiyələnmiş, nə edəcəyim, nələri etməyəcəyim barədə mənim əvəzimə qərar verən kimsə.

– Sən İoannla görüşəndən sonra yaman dəyişmisən.

– Mən dərk elədim ki, dünyaya dinclik gətirməmişəm, yalnız sülh yox, həm də qılınc gətirmişəm.

– Əgər Tanrı Səltənəti yaxındadırsa, – Andrey soruşdu, – onda qılınc nəyinə gərəkdir?

– Tanrı mənə söyləmədi ki, biz Onun Səltənətinə hansı yolla yetişəcəyik. Biz sülhü sınadıq, indi də qılıncı sınayaq, seçimi isə qoy Tanrının özu eləsin. Amma sizə bir də deyirəm, mənim dalımca getməyə borclu deyilsiniz.

– Sən özün bilirsən ki, – İoann dedi, – biz sənin dalınca lap dünyanın o başına gedərik.

– İndidən danışma, yalnız mənzil başına çatanlar biləcək ki, onları hara aparırdım.

Səhər İsa Lazarın evinə yollandı, yalnız vidalaşmaq üçün yox, həm də öz gəlişi ilə yenidən cəmiyyət içinə qayıtdığına işarə vermək üçün. Amma Marfa dedi ki, qardaşı artıq sinaqoqa gedib. Onda İsayla on iki yoldaşı Yerusəlim yoluna çıxdılar, Maqdalina ilə digər qadınlarsa onları şəhərin sərhədlərinədək yola saldılar, orada durub səfərə çıxanların dalınca əl yellədilər. Lakin yolçulardan heç biri çönüb bircə dəfə də arxasına baxmadığından bundan xəbər tutan olmadı.

Göy qaşqabağını tökmüşdü, tezliklə yağış vəd edirdi və yəqin, bu səbəbdən idi ki, nə onlarla üzbəüz gələn olurdu, nə də eyni səmtə gedən. Belə bir gündə Yerusəlimə getmək



üçün vacib səbəbi olmayanlar evdə oturmağa üstünlük vermişdilər. Lakin on üç nəfər yolla addımlayırdılar, nəinki başqa yolçuyla rastlaşmadıqları, ümumiyyətlə, ins-cins görünməyən yolla və başlarının üstündə, dağların üstündə tünd kül rəngli alçaq buludlar onlarla "qaçdı-tutdu" gedirdilər. Buludlar yerə o qədər yaxın idi, sanki, bu dəfə göylə yeri həmişəlik birləşdirmək, metalı qəlibə tökmək, erkəklə dişini cütləşdirmək, məhvərin ucunu yuvasına salmaq istəyirdilər. Lakin şəhər darvazalarına yaxınlaşanda gördülər ki, buralar həmişəki kimi qələbəlikdir, xeyli adam var, Məbədə yetişmək üçün hövsələni basıb xeyli gözləməlisən. Amma səhv edirdilər. Bu ayaqyalın, üz-gözünü tük basmış, əllərində ağır, düyünlü çomaqlar, əyinlərində xitonun üstündən geyindikləri, görkəmindən dünyanın yaranışını xatırladan tünd rəngli, ağır plaş olan on üç kişini görəndə qorxmuş kütlə ortadan aralanıb iki səmtə çəkildi. Adamlar bir-birindən soruşdular:

– Bunlar kimdir?

– İrəlidə gedəni tanımırsınız?

Cavab da tapa bilmirdilər, nəhayət, orada olan qalileyalılardan biri dedi:

– O, Nazaretli İsadır, özünün "Tanrı Oğlu" olduğunu söyləyir və möcüzələr göstərir.

– İndi hara gedirlər, görəsən?

Suallar səsləndi və bu suallara cavab tapmaq üçün mütləq İsanın, onun yoldaşlarının dalınca düşmək lazım idi deyə çoxları həmin səmtə yürüməyə tələsdilər. Beləliklə, Məbədin səkisinə artıq on üç deyil, min adam yaxınlaşdı. Lakin kütlə müdriklik nümayiş etdirərək orada ayaq saxladı. Onlar gözləyirdilər. Elə indicə onları maraqlandıran suallara cavab tapacaqdılar. İsa sərrafların oturduğu yerə yönələrək öz yoldaşlarına dedi:

– Biz bunun üçün buradayıq.

Elə həmin an da onların masalarını dağıtmağa, çevirməyə başladı – həm satanlara döşəyirdi, həm alanlara, elə

bir səs-küy, gurultu qalxdı ki, onun dedikləri bu hay-harayın içində əriyib itər, eşidilməz olardı, əgər qəflətən səsi bürünc kilsə zəngi kimi dolğun, cingiltili çıxmasaydı:

– Mənim evim – dua üçündür, siz isə onu quldur yatağına çevirmisiniz, – dedi və sərrafların masalarını aşırmağa, üstündəki sikkə topalarını yerə dağıtmağa davam elədi. Hadisəni izləyənlərdən bəziləri isə sevincək cingiltiylə dağılan pulları yığmağa girişdilər. İsanın dalınca onun tələbələri də göyərçinsatanların masalarına elə cumdular ki, azadlığını qəfil tapmış quşlar Məbədin girəcəyində uçuşmağa, naməlum xilaskarın onlara nicat verdiyi yerin üzərində, qurbangahların alovu üzərində çaşqın halda dövrə vurmağa başladılar. Əllərində dəyənəkləri olan Məbəd gözətçiləri hay-küyə özlərini yetirdilər. Qayda-qanunu pozanların cəzasını verərək onları əzib çölə atmaq istəyirdilər, amma bədbəxtlikdən on üç nəfər cantaraq qalileyalıyla qarşılaşası oldular, onlar da hücum çəkənlərin ən ürəklilərini çomaqlarıyla yerə sərib qalanlarına belə deyirdilər:

– Gəlin! Nə qədərsinizsə, hamınız gəlin!

Gözətçilərə əməllicə toy tuturdular, masalar, kətillər qırıq-qırıq olub, yerə tökülürdü və birdən, kim bilir, hardansa alovlanan bir məşəl peyda oldu. Az sonra çadırlar, köşklər, piştaxtalar alışdı, qurbangah tonqallarının yanından göyə daha bir tüstü sütunu ucaldı və kimsə çığırdı:

– Legionerləri çağırın.

Sanki, romalıların, hər nə baş versə belə, qanunla Məbədə girmək icazəsi olmadığını unutmuşdular. Məbəd gözətçilərinin köməyinə başqa gözətçilər də tələsdilər, amma artıq dəyənəklə yox, qılınc, qalxan, nizələrlə və sərraflardan, göyərçinsatanlardan da bəziləri onlara qoşuldu. Fikirləşirdilər ki, öz maraqlarının müdafiəsini başqalarının boynuna yıxmaq düzgün deyil, müqavimət göstərmək lazımdır. Bu döyüşün uğuru yavaş-yavaş onların üzünə gülməyə başladı – lap səlib yürüşlərində olan kimi – əgər bu müharibələr

Tanrının iradəsiylə baş verirdisə, qətiyyən hiss olunmurdu ki, İlahi öz tərəfdarlarının və ardıcıllarının müvəffəqiyyətinə yardım etsin. Hadisələr elə bu məcrada davam edirdi ki, baş kahin ağsaqqalların və əhli-kitabın əhatəsində Məbədin darvazalarından çıxdı, özü də demək lazımdır ki, lap tələsik çıxdı və səsini ucaltdı – hərçənd ki onun səsi İsanın səsiylə müqayisədə heç nə idi – dedi:

– İmkan verin getsinlər, amma bir dəfə də soxulsalar, parça-parça doğrayıb dəlicə kimi çölə atacağıq ki, taxılı boğmasın.

İsanın böyründə döyüşən Andrey isə müəlliminə dedi:

– Hərçənd sən bizə sülh gətirmədiyini söylədin, amma biz artıq bilirik ki, çoban çomağı qılıncın qabağında heç nədir.

İsa isə cavab verdi:

– Məsələ bundadır ki, qılınc kimin əlindədir, çomaq – kimin.

– Bəs indi biz nə edək? – o soruşdu.

– Vifaniyaya qayıdaq, çünki çatışmayan qılınc deyil bizdə, əllərdir.

Onlar səflərini pozmadan geri çəkildilər. Uğuldayan, onları fitə basan kütlənin irəli yeriməsinin qarşısını çomaqlarıyla alırdılar. Heç onlar da, əslində, ciddi bir addım atmaq fikrində deyildilər. Bu minvalla bir azdan Yerusəlimdən çıxıb geri dönməyə başladılar. Hamısı yorulmuşdu, bəziləri yaralıydı.

Vifaniyaya girəndə gördülər ki, qapılarının arxasından boylanan qonşular onlara acı kin-küdurət yağan nəzərlərlə baxırlar. Onlar da bunu özlərinə deyil, Məbəddəki davanın pis kökə saldığı əyin-başlarına, üz-gözlərinə aid etdilər. Lazarın evi yerləşən küçəyə burulanda aydın oldu ki, məsələ bunda deyil. O dəqiqə anladılar ki, bəla baş verib. İsa hamını ötüb qaçaraq özünü həyətə saldı, üzlərindən kədər yağan insanlar da ona yol vermək üçün çəkildilər, evdən isə ağlaşma səsləri gəlirdi. "Qardaş!" O, Marfanın səsini eşitdi və elə həmin an da Mariyanın səsi ucaldı: "Yazıq qardaş!"

Yerdəki həsirin üstündə Lazarı gördü – sakitcə əllərini sinəsində cütləyib uzanmışdı və adama elə gəlirdi ki, yatıb, lakin bu, yuxu deyildi. Ölmüşdü. Az qala, bütün ömrü boyu ürəyi dayanmaqla qorxudurdu onu, amma sonra sağaldı və bütün Vifaniya bunun şahidi idi. İndi isə hərəkətsiz qalmışdı, ölmüşdü, sanki, mərmərdən yonulmuş heykəl idi, artıq əbədiyyətə qovuşmuş kimi əlçatmaz görünürdü. Amma tezliklə ölümünün içindən iylənmə, çürümə çıxacaqdı üzə. Çıxacaqdı ki, yaşamağa davam edən yaxınlarının kədərini, dəhşətini daha dözülməz etsin. İsa dizləri tiyənin bircə zərbəsiylə vurulmuş adamlar kimi dizüstə düşüb göz yaşlarından boğularaq zorla dilləndi:

– Bu, necə oldu, necə oldu axı?!

İnsan çarəsizliyinin sözlərə bələnmiş göstəricisi – həmişə çıxılmaz vəziyyətdə qalanda bu anlaşılmaz sözləri deyirik. Yanımızda kim varsa, bu sualı onlara yönəldirik. Əslində, bu sözlər həqiqəti qəbul etmək zorunda olduğumuz anı uzaqlaşdırmaq üçün son və faydasız cəhddən savayı bir şey deyil. Həqiqət isə, doğrudan da, acı idi. Bəli, biz dərk etmək istəyirik ki, hər şey necə baş verib, yəni həyatın yerinə ölümü qoymaq, mövcud olan bir şeyin yerinə ola biləcək bir şeyi qoymaq istəyirik. Marfanın boğucu, acı hönkürtülərinin içindən İsaya ünvanlanmış sözləri çıxdı:

– Sən əgər o an burada olsaydın, mənim qardaşım sağ qalardı, çünki bilirəm, Tanrı sənin bütün istəklərini yerinə yetirir: cüzamlıları sağaldır, korlara görmək qabiliyyəti verir, karlar – eşidir, lallar – danışır, sənin iradəndə yaşayan, bircə sözünlə hərəkətə gələn başqa möcüzələr də eləyir.

İsa ona dedi:

– Sənin qardaşın diriləcək.

Marfa cavab verdi:

– Bilirəm ki, diriləcək, qiyamət günündə diriləcək.

İsa ayağa qalxdı, hiss etdi ki, ruhu indi görunməmiş bir gücə malikdir – bu saat o, hər şey edə bilərdi, ölümü bax,



bu bədəndən qova, onun yaşamını tam həcmində qaytara bilərdi. Sözləri, hərəkətləriylə, göz yaşları içində gülüşüylə, amma əzabsız və əziyyətsiz yaşamını. Deyə bilərdi ki:

– Mən dirilmə və həyatam, mənə inanan diriləcək.

Əgər Marfadan: "Sən mənə inanırsanmı?" – soruşsaydı, o, belə cavab verəcəkdi:

– Mən sənin yer üzünə gəlməli olan Tanrı Oğlu olduğuna inanıram.

Deməli, ən zəruri şeylər – güc, qüvvə, onları göstərmək iradəsi – artıq zühur etmişdi, hazır idi, yerində gözləyirdi. İsaya yalnız ruhun tərk etdiyi cəsədə nəzər salmaq, əllərini onun üzərində körpü kimi açmaq qalırdı. Ruh bu körpüdən keçib qayıdacaqdı. Bir də bunları demək lazım idi: "Lazar, qalx!" Lazar qalxardı, çünki Tanrı belə istəyirdi. Lakin ən son anda – həqiqətən, son anda – Mariya Maqdalina əlini onun çiyninə qoyub bu sözləri dedi:

– Heç kəs bir həyatda iki dəfə ölmək həddində günahkar deyil.

İsa əllərini yanına salıb ağlaya-ağlaya çölə çıxdı.

* * *

Lazarın ölümü özünün buz nəfəsi ilə İoannın İsanın qəlbində alovlandırdığı döyüş həvəsini bircə dəfə üfürməklə söndürdü. Onun qəlbində isə bir həftəlik ağır, bitib-tükənməz düşüncələr və bir neçə qısa anlıq Tanrıya ibadət, insanlara qulluq da vardı – onlar bir məcraya axaraq birləşmiş, vahid bir nəsnə yaratmışdılar. İlk, ən kədərli günlər arxada qalandan, gündəlik qayğılar və həmişəki adətlər yavaş-yavaş özünün əvvəlki yerini – hələ də hərdənbir bıçaq kimi kəsən ölüm dəhşətinin sıxışdırıb çıxardığı yerini tutmağa başlayandan sonra – Pyotrla Andrey İsanın yanına gəldilər ki, soruşsunlar, indi nə etmək niyyətindədir? Onları şəhərlərə, kəndlərə moizə etməyə yollayacaq, ya da yenidən Yerusəlimə gedəcəklər? Çünki artıq tələbələr də çox uzanmış

fəaliyyətsizlikdən deyinirdilər, deyirdilər ki, belə davam edə bilməz, biz öz ailələrimizi, evimizi, iş-gücümüzü ona görə buraxmamışıq ki, bekarçılıq çəkək.

İsa Pyotrla Andreyə elə baxırdı, sanki, gözləri önündə qaynaşan obrazların içində onların üzünü seçə bilmirdi. Elə dinləyirdi, elə bil, öz apostollarının səsini qulaqlarında guruldayan dağınıq çığırtılar xorundan zorla ayırırdı. Nəhayət, bir xeyli susandan sonra bir az da gözləmələrini tapşırdı. O, hələ düşünməliydi, çünki gözləyirdi bu yaxınlarda elə bir şey baş versin ki, onların taleyini birdəfəlik həll etsin, həyat və ölümlərini müəyyənləşdirsin. Bir də onu söylədi ki, tezliklə Vifaniyanın kənarlarında yaşayanlara birləşəcək və bunu nə Pyotr anlaya bildi, nə Andrey. Yetim qalmış bacıları necə tək qoyacaqdı və indi, hələ heç bir şey bəlli olmayanda buna nə ehtiyac vardı axı?

– Bizim yanımıza gəlmək lazım deyil, hələlik Lazarın evində qal, – bunu Pyotr dedi, heç bilmədi ki, İsanın qəlbini hər dəqiqə, gecə-gündüz iki əzabın işgəncə məngənəsi didib-dağıdır. Hər şeyini atıb onun dalınca gələn insanlar qarşısındakı borcu və surətləri onun güzgüdəki əksi kimi bir-birinə bənzəyən və bir-birinə düşmən mövqedə duran bacıların yanında, bu evdə qalmaq... Lazar hələ evdə idi, bir yana getmirdi – onun varlığı Marfanın sərtliyində duyulurdu. Qadın son anda işə qarışaraq qardaşının dirilməsinə mane olmuş bacısını bağışlamamışdı, elə İsanı da qınayırdı – öz ilahi gücündən istifadə etmədiyinə görə qınayırdı. Mariyanın axıtdığı göz yaşları isə qardaşının qismətinə nə vaxtsa ikinci dəfə ölmək düşə biləcəyindən və digər tərəfdən də onun yaşamasına mane olduğundan dolayı idi. İndi özünü düz qəbir evinə kimi cəzaya məhkum etmişdi, çünki onu, heç olmasa, birinci ölümdən xilas etməyə qoymadı. Lazarın daim yanında olmasını İsa da nəsə misilsiz dərəcədə nəhəng, onun çaşqın ruhunun bütün guşələrini, bütün künc-bücağını işğal edib dolduran bir hiss təki duyurdu. Özünün ruhu isə artıq iki



yerə yox, dörd parçaya bölünmüşdü, çünki Mariyanın dediklərilə razı olsa da, onu günahlandırırdı. Marfanın yalvarışlarını başa düşsə də, buna görə onu qınayırdı, sanki, dörd lövbər zəncirі bucurğada dolanaraq vücudunu lif-lif parçalayırdılar; sanki, Tanrı ilə İblis hərəsi bir tərəfindən yapışıb, tiftiklənmiş kəndir kimi, ilahi və iblisanə oyunları naminə onu dartışdırırlar. Bir zamanlar Lazarın evi olmuş bu evin qapısı ağzına miskin, rəzil, yara-xoralı insanlar gəlir, yalvarırdılar ki, onların ağrı çəkən vücudlarını sağaltsın. Marfa da onları qovurdu, sanki, belə deyirdi: "Mənim qardaşıma nicat tapmaq nəsib olmadı – siz də sağalmayacaqsınız". Onlar çıxıb gedirdilər ki, sonra bir də qayıtsınlar və nəhayət, İsanın onları sağaltmasına nail olsunlar. O isə xəstələrin canından azarı çıxarır, amma heç vaxt əvvəllər daim işlətdiyi bu sözləri dilinə də gətirmirdi: "Tövbə edin ki, sağalasınız". Məgər bu ölmədən yenidən doğulmaq deyildimi? Yeni doğulan körpənin günahı olmur və ona tövbə eləmək də gərək deyil. Çünki hələ heç günah törətməyə macalı olmayıb. Lakin insan cisminin canlanmasına özünün mərhəməti ucbatından can atan İsa – günahına yazılmasın dediklərimiz – sonra mütləq qəlbində baş qaldıran acı təəssüratdan, ağır və ağrılı fikirlərdən əziyyət çəkirdi. Çünki yalnız öz möcüzələriylə labüd tənəzzülü qeyri-müəyyən müddətə uzaqlaşdıra bilirdi; bilirdi ki, bu gün onun yanından sevinc içində, sağlam gedən birisi sabah yenidən gələcək. Özü də bu dəfə nicat tapması mümkün olmayan yeni xəstəlikləri, yeni dərdləriylə. Onun qüssəsi elə bir həddə çatmışdı ki, Marfa bir dəfə qızışıb ona dedi: "Bura bax, nə edirsən et, amma ölüb-eləmə, mənim ikinci Lazara dözəsi halım yoxdur". Maqdalina isə zülmətdə və gecənin sakitliyində yaralı heyvan öz yuvasında gizlənən kimi, yorğanının altında gizlənirdi ki, hamının gözündən uzaqda inildəyib ağlaya bilsin. İsanın yanında uzanıb pıçıldayırdı: "Mən bu gün sənə heç vaxt olmayan kimi gərəyəm, amma sən indi elə yerdə durmusan ki, mənim ora əlim çatası

deyil. Elə qapının dalındasan ki, onu açmaq heç bir insanın gücü daxilində ola bilməz". İsa isə Marfaya cavab verirdi: "Mənim ölümümdə Lazarın bütün ölümləri ehtiva olunacaq, o, daim öləcək və heç vaxt dirilməyəcək". Mariyaya isə yalvarırdı: "Sən həmin qapılara girə bilməsən belə, məndən uzaqlaşma, əlini uzat, hətta məni görməsən belə. Yoxsa mən həyatı, ya da həyat məni unudar".

Daha bir neçə gün keçdi, İsa tələbələrinin yanına getdi, Maqdalina da onunla.

– Əgər sənə baxmağımı istəmirsənsə, kölgənə baxacağam, – dedi.

– Əgər sən mənim kölgəmə baxacaqsansa, mən də kölgəm olan yerdə olmaq istəyirəm, – İsa ona cavab verdi.

Onlar bir-birini sevirdi, bütün yol uzunu buna bənzər sözlər səslənirdi və yalnız ona görə yox ki, bu sözlər səmimi, gözəl idilər – əgər, ümumiyyətlə, gözəl sözlər həm də səmimi ola bilərsə – həm də ona görə ki, kölgələrin zamanı yetişməkdəydi deyə, birlikdə olduqları bu zaman ərzində artıq həmişəlik tənhalığa öyrəşməyə başlamaq gərək idi.

Tezliklə Vifaniyaya xəbər yetişdi ki, Xaç Atası İoann tutulub. Onun həbs olunması, özü də birbaşa İrod Antipanın əmri ilə tutulmasından savayı bir şey bəlli deyildi. Bunun dəqiq səbəbini kimsə bilməzdi. İsayla tələbələri isə belə düşünürdülər ki, buna səbəb İoannın dili idi, peyğəmbərlik edərək deyirdi: "Başqası gəlir, sizi alovla xaça çəkəcək birisi". Bu sözlərinin arasında öz lənətlərini də yağdırırdı. "İlan-çayan balaları! Kim sizə tələqin edib ki, gələcək qəzəbdən qaçasınız?" – deyib Məsihin gələcəyi haqda xəbərdarlıq edirdi. İsa isə özününküləri xəbərdar elədi: "Hazırlaşmaq lazımdır, bizi qovacaqlar, təqib edəcəklər və elədiklərimizin, danışdıqlarımızın sorağı çoxdan bütün ölkəni dolaşdığından, İroda nəticə çıxarmaq və taxt-tacı üçün təhlükə yaradan əjdahanın ikinci, əsas başını kəsmək üçün Tanrı Oğlu olduğuyla qürrələnən dülgər balasını, onun tərəfdarlarını tutub



içəri salmaq, iki dəfə ikinin – dörd eləməsidir. Bircə dənə əmr verəcək, vəssalam".

"Xəbərin yoxluğu pis xəbərdən yaxşıdır", – deyən məsəlin həqiqətinə kiçicik bir şübhə də yoxdur, lakin İsanı dinləyənlərin başı uca olsun ki, bu bəd xəbəri həyəcan içində, ürəyi səksəkədə hər nə desən gözləyən, son zamanlar bekar qalmış adamlara xas sakit qəlblə qarşıladılar. Onlar birbirindən və İsadan soruşurdular ki, bu cür vəziyyətlərdə nə etsinlər – əvvəlki kimi bir yerdə olaraq qarşıdakı təhlükəni birgə qarşılasınlar, yoxsa kəndlərə, şəhərlərə yayılaraq, səhraya qaçaraq bir zamanlar İoannın özü kimi qurudulmuş çəyirtkə, vəhşi balla dolansınlar ki, İsanın şöhrəti daha çox yayılsın. Hadisələrin sonrakı inkişafı da göstərdi ki, öz başlarına elə bununla bəla açdılar. Lakin hələ ki İrodun döyüşçüləri yeni körpələri qırmaq üçün Vifaniyaya yollanmamışdılar deyə, İsayla tələbələri bütün mümkün variantları sakitcə götür-qoy edə bilərdilər. Təzə, ikinci və üçüncü xəbərlər yetişəndə də onlar elə bununla məşğul idilər. Xaç Atası İoannın boynu vurulub və bir də onun həbsinin, sonradan edam olunmasının Məsihin zühur edəcəyi və Tanrı Səltənətinin yetişəcəyi haqda öncəgörmələrlə qətiyyən əlaqəsi yoxdur. Bunun səbəbi yalnız İrodun öz bacısı qızı və gəlini İrodiadaya əri sağ ola-ola evlənməsi barədə camaat içində danışdıqlarıdır. İoannın həlak olmasını kişilər də, qadınlar da eyni çarəsizlik, eyni hüzn içində qarşıladılar. Lakin orada olanların heç biri İoannın belə əhəmiyyətsiz bir səbəbdən qətlə yetirildiyini qəbul etmək istəmirdilər. Çünki başqa, daha əhəmiyyətli bir səbəb olmalıydı. Bununla yanaşı, belə bir səbəbi indi də tapa bilmirdilərsə, sabah heç bu barədə düşünən də olmayacaqdı. İuda İskariot – yadınızdadırsa, onu da İoann xaç suyuna çəkmişdi – qəzəb içində çığırırdı: "Bu necə olur – o hamıya – həm kişilərə, həm qadınlara müraciətlə deyirdi, – necə ola bilər ki, İoann xalqı azadlığa çıxaracaq Məsihin tezliklə gələcəyini müjdə verir, onu isə, guya, dayı-balanın evlənməsinə,

ərə xəyanət və sair günahlarda kimlərisə ittiham etdiyinə görə öldürürlər? Guya, camaat bilmir ki, pozğunluq lap birinci İroddan onların qanlarındadır?" Deyirdi: "Əgər Tanrı İoannı Məsihin gəlişini xəbər vermək üçün yollayıbsa – mən şübhə etmirəm ki, onu yollayan, həqiqətən, Tanrının özü olub, ən azı, ona görə ki, İlahinin razılığı olmasaydı, yer üzündə heç nə baş verməzdi – qısası, əgər İoann Tanrı iradəsini yerinə yetirirdisə, qoy məndən daha çox bilən insanlar izah eləsinlər görək, o, necə razı olur ki, öz niyyəti burada, yer üzündə belə həyasızcasına tapdansın. Amma nə deyirsiniz deyin, bircə onu deməyin ki, Tanrının yollarından baş çıxarmaq olmaz. Deməyin ki, Ona bəlli olanlar bizə qaranlıqdır. Deməyin, çünki buna cavabım belə olacaq. Mənim öyrənmək istədiyim yalnız budur: bütün baş verənlərdən Tanrının xəbəri varmı?!"

Ona qulaq asanların canından bir üşütmə keçdi, sanki, Tanrının qəzəbi artıq həm bu sözləri dilinə gətirməyə cəsarət eləmiş ötkəm insanın, həm də küfr edərkən onun ağzını yummaq üçün cəhd göstərməmiş adamların başında çatlamağa hazır idi. Lakin Tanrı İuda İskariotun sözlərinə reaksiya göstərmədisə, bu çağırışı baş cavabdehə hamıdan yaxın olan İsa qəbul edəsi oldu. Əgər başqa bir din olsaydı və şərait də bu dərəcədə kəskin olmasaydı, bu söhbət, bəlkə, elə bu yerdə də başa çatardı. Həm də İsanın mübhəm təbəssümüylə başa çatardı. Bu təbəssüm nə qədər ötəri görünsə də, onu üç tərkib hissəsinə – təəccüb, iltifat, maraq – ayırmaq olardı. Özü də təəccüb elə həmin an parladı. İltifatda güzəştdən əsər-əlamət yox idi. Marağa isə bir yorğunluq hopmuşdu. Lakin təbəssüm elə həmin an da yox oldu və İsanın gözgörəsi uzanan sifətini bir ölü bəyazlığı örtdü. Sanki, gözləri qabağında öz taleyini əyani olaraq görürdü. "Qoy qadınlar getsin", – nəhayət ki, aramla, hər cür ifadədən xali səsiylə dilləndi. Birinci Mariya Maqdalina qalxdı. Sonra isə İsa bu sükutun hamını – tonqal ətrafında oturanların hamısını

özünün alçaq tağlarıyla əzib yer üzünün ən dərin zirzəmisində basdırmasını gözlədi və dedi:

– İoann özü Tanrıdan soruşacaq ki, niyə onun – bu qədər böyük həqiqətlərdən xəbər verməyə göndərilmiş birisinin belə əhəmiyyətsiz bir şeydən ölməsini rəva bilib?

Bunu deyib bir anlıq susdu, lakin İudanın nəsə demək istədiyini görüncə, əllərini qaldırıb onun ağzını bağladı və öz sözünü bitirdi:

– Mənim borcum isə – bunu elə indicə başa düşdüm – sizlərə bunları çatdırmaqdır: nəyisə özü mənə qadağan etməsə, mən Tanrının bildiklərini bilirəm.

Narahat tələbələr hərəkətə gəldilər, onların həyəcandan dəyişmiş səsləri eşidildi. Onlar həm qorxur, həm də bunu öyrənmək istəyirdilər və yalnız İuda əvvəlki meydan oxuyan, təkəbbürlü görkəmini saxlamışdı. İsa dedi:

– Mən öz taleyimi bilirəm, sizinkini və hələ anadan olacaq çoxlarının taleyini də bilirəm, Tanrının nəzərdə tutduqları və bunu nədən etdikləri mənə əyandır və bütün bunlar barədə sizinlə danışmalıyam, çünki bu, indi də hamıya aiddir, gələcəkdə isə daha çox aid olacaq.

– Niyə, – Pyotr soruşdu, – niyə Tanrının yalnız sənə söylədiklərini biz də bilməliyik, yaxşısı budur, danışma.

– Məni susdurmaq Tanrının iradəsindədir.

– Sən demək istəyirsən ki, danışıb-danışmayacağına Tanrı biganədir, həm bu, həm də o, eyni dərəcədə əhəmiyyətsizdir? Əgər Tanrı sənin dilinlə danışırsa, indiki kimi onun iradəsinin ziddinə gedəndə də sənin vasitənlə danışacaq?

– Pyotr, sən bilirsən ki, məni çarmıxa çəkəcəklər?

– Hə, bunu mənə sən özün demisən.

– Amma deməmişəm ki, sən də xaçda öləcəksən, Andrey də, Filip də, Varfolomeyin dərisini diri-diri soyacaqlar, Matfeyi barbarlar öldürəcək, Zavedeyin İakovunun boynu vurulacaq, Alfeyin İakovunu da daşqalaq edəcəklər, Foma nizələnəcək, İuda Faddeyin kəlləsi dəyənək zərbəsindən əziləcək,

Simonu isə mişarla iki böləcəklər. Bunların heç birini sən əvvəl bilmirdin, indi isə bilirsən, elə qalanları da bildi.

Onun sözləri sükutla qarşılanmışdı. Gələcək bəlli oldu və bəlli olduğundan artıq qorxu doğurmurdu. Hər şey elə idi, sanki, İsa onlara demişdi: "Siz öləcəksiniz". Onlar da birağızdan cavab vermişdilər: "Pah, xəbərə bax, guya, sənsiz bilmirdik?!"

Lakin İsa tərəfindən adları çəkilməyən Zavedeyin İoannı və İuda İskariot ikisi də birdən soruşdu:

– Bəs mən?

İsa cavab verdi:

– Sən, İoann, qocalana kimi yaşayacaqsan və öz əcəlinlə öləcəksən, sən isə, İuda, əncir ağacından gen gəz, çünki belə ağacların birindən özünü asacağın gün uzaqda deyil.

Bu yerdə tələbələrdən hansınınsa səsi eşidildi – amma konkret kim idi, bəlli olmadı:

Deməli, biz sənin uğrunda öləcəyik?

– Mənim yox, Tanrının, – İsa cavab verdi.

– Axı O nə istəyir? – İoann soruşdu.

– O, bütün dünyaya yiyələnmək istəyir.

– Axı dünya, onsuz da, onunkudur. Hakimi-Mütləq və Kainatın Xaliqi odur, özü də dünən, bu gün yox, zamanın başlanğıcından sonunadək, – Foma dedi.

– Bunu bilmirəm, – İsa cavab verdi.

– Sən bunları bu qədər müddətdir ki, ürəyində gizləmisən, bəs niyə indi danışmaq qərarına gəldin?

– Mənim sağaltdığım Lazar öldü, mənim xəbərimi gətirən İoann öldü, ölüm artıq bizim içimizdədir.

– Bütün məxluqlar öləridir, – Pyotr dilləndi, – bizim nəyimiz onlardan artıqdır ki?

– Gələcəkdə çoxları Tanrının iradəsiylə, onun uğrunda öləcəklər.

– Əgər onun iradəsiylə olacaqsa, deməli, bu ölümlər müqəddəs iş uğrunda baş verəcək.

– Onlar yalnız bu səbəbdən öləcəklər ki, məhz anadan olduqları vaxtda anadan olublar – nə tez, nə gec.

– Onlar əbədi həyata qədəm qoyacaqlar, – deyə Matfey etiraz elədi.

– Hə, amma nədən onlar bu əzablara məruz qalmalıdırlar?! Əgər Tanrı oğlu bunları söyləyirsə, o özü özünü təkzib edir, – Pyotr dedi.

– Sən səhv edirsən: yalnız Tanrı Oğlunun belə danışmaq hüququ var, zira sənin dodaqlarında küfr kimi səslənən mənim dodaqlarımda Tanrı sözüdür.

– Belə çıxır ki, deyəsən, biz sənin lə Tanrı arasında seçim etməliyik.

– Sizin seçiminiz əbədi və dəyişməz olmalıdır, Tanrı ilə Tanrı arasında. Mən isə sizinlə Tanrı arasındakı məsafənin tən ortasındayam. Məndən sizə qədər olan məsafə də, elə sizdən insanlara qədər olan məsafəyə bərabərdir.

– Biz nə etməliyik?

– Mənim ölümümlə hələ anadan olmayanların həyatını xilas etməlisiniz.

– Lakin sən Tanrının iradəsinin əksinə gedə bilməzsən.

– Bilmərəm, amma cəhd etməliyəm.

– Sən – Tanrı Oğlusan, sənin üçün qorxusu yoxdur, biz isə öz ruhumuzu əbədilik məhv edərik.

– Yox, çünki mənə tabe olmaqla Tanrıya tabe olmuş sayılırsınız.

Üfüqdə, səhra bitən yerdə ayın qırmızı tikəsi peyda oldu.

– Danış da, – Andreyin nidası eşidildi, amma İsa qanlı kürənin yer üzünə tam çıxmasını gözlədi və yalnız bundan sonra sözünə davam elədi:

– Tanrı Oğlu xaçın üstündə ölməlidir ki, Atasının iradəsini həyata keçirsin, amma onun yerinə çarmıxa adi adamı çəksələr, Tanrı daha öz oğlunu qurban verə bilməyəcək.

– Sən öz yerinə adi adam yollamaq istəyirsən, bizlərdən birini? – Pyotr soruşdu.

– Yox, oğulun yerini mən özüm tutacağam.

– Səni and verirəm Tanrıya, izah et sözlərini.

– Bəli, xaça sadə, adi adam gedəcək, lakin o, özünü, İrodu taxtdan salacaq, romalıları bu torpaqdan qovacaq, İudeya çarı elan edəcək və sizdən xahiş etmək istəyirəm ki, biriniz ləngimədən Məbədə yollanasınız. Orada deyəsiniz ki, həmin o İudeya çarı mənəm və əgər hakimiyyət zirək tərpənsə, Tanrı buradakı ədalət məhkəməsini öz məhkəməsiylə əvəz etməyə vaxt tapmayacaq. Necə ki İoannı cəllad baltasından xilas edə bilmədi.

Bütün tələbələr heyrətdən donub qaldılar, amma tezliklə birağızdan qışqırışaraq öz narazılıqlarını, etirazlarını bildirdilər. İsanın sözlərinə heç cür inana bilmirdilər.

– Əgər sən Tanrı oğlusansa, Tanrı Oğlu kimi də ölməlisən! – biri qışqırdı.

– Mən səninlə çörək kəsmişəm, necə sata bilərəm səni?! – digəri inildədi.

– Dünyaya sahib çıxmağa iddialı bir adam tək İudeya çarı ola bilməz! – üçüncüsü deyirdi.

– Səni satanın yerindəcə nəfəsini kəsərəm! – dördüncüsü nərildəyirdi.

Bütün bu səs-küyün içində İuda İskariotun aydın səsi ucaldı, sözlərini seçə-seçə, tək-tək tələffüz edirdi:

– Məbədə mən gedərəm – əgər sənin istəyin, həqiqətən, budursa.

Onu o dəqiqə tutdular və artıq plaşların altında gizlənmiş tiyələr əldə parlayırdı ki, İsa əmr elədi:

– Buraxın onu, ona ziyan yetirməyin, – ayağa qalxıb İudanı qucaqladı, hər iki yanağından öpdü, sonra da dedi:

– Nə edəcəksənsə, tez elə.

O, bircə kəlmə də danışmadan plaşının ətəklərini yığaraq çiyninə atdı və gecənin qaranlığında itdi, sanki, onu zülmət uddu.

Səhər açılan kimi məbəd gözətçiləri və İrodun döyüşçüləri İsanı tutmağa gəldilər. Onlar çadırların yanına ehtiyatla,

gözə dəymədən yaxınlaşdılar, sonra da qılınc və nizələrlə silahlanmış bəziləri hücuma keçdilər, döyüşçülərə rəhbərlik edən isə qışqırdı:

– Özünü "İudeya Çarı" adlandıran haradadır? – Sonra bir də – Özünə "İudeya Çarı" deyən çıxsın qabağa.

Bu zaman İsa çadırdan çıxdı, yanında da ağlayan Mariya Maqdalina. Onun qollarını bağlamaq üçün yaxınlaşan döyüşçü qulağına pıçıldadı:

– Bizim bu gün səni tutmaq üçün gəldiyimizə baxmayaraq, bir zamanlar bizim çarımız olsan, unutma ki, mən əmri yerinə yetirirdim və əgər sən onda indi sənin həbsin barədə əmri vermiş adamı tutmaq əmrini versən, indi ona necə tabe oluramsa, sənə də eləcə tabe olacağam.

İsa isə cavab verdi:

– Çarın biri o birisini tutmaz və Tanrı da başqa Tanrını öldürməz, çünki bunun üçün yer üzündə sənin kimilər var.

Qaçmaması üçün ayaqlarını kəndirlə bağlayanda İsa, sanki, özünə deyirmiş kimi astaca dilləndi:

– Gec duyuq düşmüsünüz, mən artıq qaçmışam.

Elə o an Maqdalina ağzından könül göynədən bir nalə çıxardı, İsa isə ona dedi:

– Sən mənimçün bundan da betər ağlayacaqsan, – və digər qadınlara, – elə sizlər də burada duranların hamısı üçün, özünüz üçün acı-acı ağlayacaqsınız. Amma bilin, əgər mən bu ölümü öz iradəmlə qəbul etməsəydim, gələcəkdə göz yaşları min dəfə bundan artıq olacaqdı.

Sonra üzünü döyüşçülərin başçısına tutub dedi:

– Mənimlə olan adamları burax, İudeya Çarı – mənəm, mən, onlar yox.

Daha heç bir söz deməyib irəli getdi, döyüşçülər isə onu əhatəyə almışdılar. Artıq günəş doğmuşdu, Vifaniya üzərinə nur saçırdı və onların hamısı Yerusəlim yoluyla irəliləyirdilər – qabaqda İsa, yanlarında ipin uclarından tutmuş döyüşçülər, dallarınca da tələbələri və qadınlar. Birincilər qəzəbdən

alışıb-yanır, ikincilər isə ağlayırdılar, lakin onların göz yaşının da faydası elə o birilərin qəzəbi qədər idi.

"Biz indi nə edək? – öz aralarında astadan danışırdılar, – bəlkə, döyüşçülərin üstünə hücum çəkib İsanı qaçırmağa cəhd eləyək, döyüşdə ölək, ya da bəlkə, nə qədər ki hamımızı tutmaq əmri verməyiblər, qaçıb canımızı qurtaraq?" Seçim etməyə gücləri çatmadığından heç bir şey eləmədən gözətçilərdən bir qədər aralı, dallarınca yürüdülər. Bir müddət sonra tələbələr diqqət yetirdilər ki, dəstə dayandı. Anlamaq olmurdu niyə dayanıblar; birdən ağıllarına gəldi ki, artıq başqa bir əmr yetişib və döyüşçülər indi İsanın əllərini açırlar. Lakin buna inanmaq üçün onların fantaziyasının gücü bəs eləməzdi. Buralarda heç bir düyünü açan yox idi. Bir düyün isə, əksinə, daha möhkəm çəkilir, bədənin ağırlığı altında ölümcül düyünə çevrilirdi. Yol kənarındakı, İsayla onu aparanların hələ yanından ötməyə macal tapmadıqları əncir ağacının budağından müəlliminin son iradəsini yerinə yetirməyi könüllü boynuna çəkmiş İuda İskariot asılmışdı. Konvoy komandirinin işarəsiylə gözətçilərdən ikisi kəndiri kəsib cansız cəsədi yerə endirdilər. "Hələ soyumayıb", – onlardan biri dilləndi və burada qəribə heç nə yox idi. Axı İuda ağaca əvvəlcədən dırmanmış, kəndiri onun budağına bağlayaraq başını halqaya keçirmişdi. Sonra da hövsələylə uzaqdakı döngədən İsanın görünməsini gözləyirdi ki, təmiz vicdanla – çünki lazım olanların hamısını artıq eləmişdi – özünü aşağı atsın. İsa cəsədə yaxınlaşdı, gözətçilər ona mane olmadılar və bir xeyli ölümqabağı ani əzabdan əyilmiş sifətə baxdı. "Hələ soyumayıb", – konvoylardan biri yenə təkrar elədi və İsa fikirləşdi ki, bax, indicə Lazar üçün etmədiyini ona eləyə bilərdi. Əgər istəsə, İudanı dirildərdi ki, başqa bir yerdə, başqa vaxt – bəlkə də, neçə-neçə illər sonra – o, özünün sakit və təbii ölümünə yetişsin, satqınlıq möhürü daşıyan ölümsüzlüyünə yox. Amma hamıya bəllidir ki, insanları diriltmək yalnız Tanrı Oğlunun əlindən gəlir, ruhu susmuş, əl-ayağı bağlı İudeya Çarının yox...



Konvoy komandiri əmr elədi:

– Qoyun qalsın, yerlilər dəfn edərlər. Əgər eləməsələr, qurd-quşa yem olacaq, amma əvvəlcə baxın görün üstündə qiymətli bir şey yoxdur ki.

– Heç nə yoxdur, bir quruş da, – meyitin ciblərini ələkvələk eləyən gözətçilər məlumat verdilər, heç ola da bilməzdi, çünki icmanın pullarına nəzarəti bir zamanlar gömrüyün vergiyığanı işləmiş, Levi adlanan Matfey eləyirdi.

– Məni satdığına görə pul da verməyiblər ona, – İsa mızıldandı və onun bu sözlərini eşidən gözətçi cavab verdi:

– İstəyirmişlər verələr, amma o deyib ki, özü öz borcunu qaytarmağa adət eləyib.

– Hə də, düz deyirmiş, artıqlamasıyla qaytardı da.

Dəstə yoluna davam elədi. Tələbələrdən bəziləri öz məsləkdaşlarının cəsədinə acıya-acıya baxırdılar, lakin İoann dedi:

– Qoyaq onu burada, o, bizimkilərdən deyil.

O biri İuda – İuda Faddey etiraz elədi:

– İstəsək də, istəməsək də o, həmişə bizimkilərdən olacaq. O başqa məsələdir ki, biz bilməyəcəyik onunla nə edək, amma bu mühüm deyil – o, bizimkidir.

– Gedək, – Pyotr dedi, – İuda İskariotun yanında bizim işimiz yoxdur.

– Düzdür, – Foma dedi, – bizim yerimiz İsanın yanındadır, o da boş qalıb.

Nəhayət ki, Yerusəlimə çatdılar və İsanı ağsaqqallardan, baş kahinlərdən və əhli-kitabdan ibarət Sinedriona gətirdilər. Başçı İsanı görən kimi sevindi və dedi:

– Mən sənə xəbərdarlıq etmişdim, qulaq asmadın, indi isə təşəxxüsün səni xilas edə bilməyəcək, ağzından çıxan yalanlar da tamam məhv edəcək.

– Sən nədən danışırsan? – İsa soruşdu.

– Əvvəla ondan ki, guya, sən – İudeya Çarısan.

– Bəli, mən – İudeya Çarıyam.

– İkincisi isə, guya, sən – Tanrı Oğlusan.

– Sənə kim deyib ki, mən özümü "Tanrı oğlu" adlandırıram?

– Hamı deyir bunu.

– İnanma onlara, mən – İudeya Çarıyam.

– Deməli, etiraf edirsən ki, sən – Tanrı oğlu deyilsən?

– Bir də təkrar eləyirəm, mən – İudeya Çarıyam.

– Özünü gözlə, tək bu bəs eləyir ki, səni ölümə məhkum edələr.

– Mən dediyimi dedim.

– Neynək, onda səni Roma prokuratorunun yanına yollayıram, onu bu ölkədən qovacaq, ölkəni Sezarın əlindən alacaq adama baxmaq, yəqin, prokurator üçün maraqlı olar.

Gözətçilər İsanı Pilatın sarayına apardılar və özünü "İudeya Çarı" adlandıran, Məbəddən alverçiləri və sərrafları qovalayan, onların piştaxtalarını, çadırlarını, köşklərini yandıran şəxsin tutulduğu haqda xəbər artıq yayılmışdı deyə, xalq dəstə-dəstə çara baxmağa axışırdı. Onu isə adi cinayətkar kimi bütün camaatın gözləri qabağında əl-qolu bağlı küçələrdən keçirirdilər. Maraqlananlar üçün heç əhəmiyyəti yox idi ki, o, əsl çarlardandır, yoxsa özünü belə adlandıranlardan. Bizim rəngarəng dünyamızda həmişə olan kimi, bəziləri onun halına acıyırdı, digərləri yox, bəziləri deyirdi:

– Buraxın zavallını, görmürsünüz ağlı başında deyil?

Digərləri isə əksinə, belə hesab edirdilər ki, bu cinayət görk üçün cəzalandırılmalıdır, qoy kimsə daha buna cəsarət etməsin; əgər cinayət böyükdürsə, cəza da qətiyyən ondan az ola bilməz. Kütlənin qalın yerinə qarışan İsanın tələbələri və onlarla gələn qadınlar özlərini itirmiş halda durmuşdular. Bax burada qadınları tanımaq daha asan idi – acı-acı ağlayırdılar və yalnız onlardan biri – Maqdalina ağlamırdı. Çölə axmayan göz yaşları onu içindən yandırırdı.

Baş kahinin evindən prokuratorun sarayına kimi uzaq deyildi, amma bu yol İsaya bitməz göründü. Ona görə yox ki, artıq kütlə gözətçilərin nəzarəti altında olan bu fağır



adamın onların çarı ola biləcəyinə inamını birdəfəlik itirmişdi və onu kinayələri, iztehzası, söyüşləri ilə bezdirmişdilər, yox, sadəcə, İsa öz iradəsiylə onu ölümə məhkum edəcək məhkəməyə heç cür gedib çata bilmədiyindən qayğılıydı. Axı hər dəqiqə Tanrı nəzərlərini bura salıb deyə bilərdi:

– Bu nədir belə?! Biz belə danışmamışdıq!

Məbəd gözətçiləri İsanı romalı əsgərlərə təhvil verib, özləri çöldə prokuratorun qərarını gözləməyə qaldılar, saraya isə yalnız Sinedrionun azsaylı üzvlərini buraxdılar.

Öz kreslosunda oturan Ponti Pilat adlı Roma prokuratoru üz-gözünü tük basmış və ayaqyalın birisini onun qarşısına necə, nə şəkildə gətirdiklərinə göz qoyurdu: əynində bir tunika vardı ki, üstü köhnə və təzə ləkələrlə doluydu – təzələrini yetişmiş meyvələr salmışdı, həmin meyvələr ki, ilahilər onları heç də insanların qəzəb içində bir-birinə tullayaraq özü kimi birisini təhqir etməsi üçün yaratmamışdı. Məhbus prokuratorun qarşısında durmuşdu, başını dik tuturdu, baxışları qabağa zillənmişdi, lakin harasa, uzağa yox, yaxındakı qeyri-müəyyən nöqtəyə. Təxminən, Pilatla nəzərlərinin kəsişdiyi bir nöqtəyə baxırdı. Pilat isə həmin anadək öz qarşısında iki cür müttəhim görmüşdü – bir qismi gözlərini ondan gizlədərək yerə zilləyirdilər, digərləri isə, əksinə, baxışlarını döyüş çağırışı kimi düz onun üzünə yönəldirdilər. Birincilərə nifrət edirdi, ikincilərdən bir az çəkinirdi deyə, həmişə çalışırdı ki, onların hökmünü tez çıxarsın. Bu məhbus isə, eyni zamanda, elə bil, həm burada idi, həm də haradasa başqa yerdə, sanki, həqiqətən, yaranışdan elə çar doğulmuşdu. Həm də ona inamlıydı ki, lap qısa bir zamanda bu acınacaqlı anlaşılmazlıq aydınlaşacaq, o da özünün çar çələngini, əsasını və əbasını yenə geri alacaq.

Bir xeyli süzəndən sonra Pilat onu da ikinci qisim məhbuslara aid etməyi daha düzgün saydı və sorğu-suala başladı.

– Sən haradansan və kimsən?

– İsa, İosifin oğlu, əslən İudeya Vifliyemindənəm, lakin Qalileya Nazaretində yaşamışam və buna görə də məni Nazaretli İsa çağırırlar.

– Sənin atan kimdir?

– Mən axı dedim – İosifdir.

– O, nəylə məşğul olurdu?

– Dülgərlik edirdi.

– Mənə de görüm, necə olub ki, dülgər İosif çar İsanı dünyaya gətirib?

– Əgər çar dünyaya dülgər gətirə bilərsə, deməli, dülgər də çar doğura bilər.

Bu an sorğu-suala baş kahinlərdən biri qarışıb dedi:

– Sənə xatırladıram, Pilat, bu şəxs özünü həm də Tanrı Oğlu elan edib.

– Düz deyil, mən ancaq Bəşər Övladı olduğumu deyirdim, – İsa cavab verdi. Baş kahin isə Pilata həyəcanla dedi:

– Prokurator, imkan vermə, səni aldatsınlar. Bizim dində "Tanrı Oğlu" və "Bəşər Övladı" elə eyni şeyin müxtəlif adlarıdır.

Pilat biganə bir sayğısızlıqla çiyinlərini çəkdi:

– O, hər yerdə özünü, heç olmasa, məsələn, qabaqlar neçə dəfə rast gəldiyim kimi, Yupiterin oğlu elan etsəydi, yenə maraqlanardım. Yoxsa mənə nə dəxli var ki, o, sizin Tanrının oğludur, yoxsa yox.

– Onda özünü "İudeya Çarı" adlandırdığına görə mühakimə elə, bizə bu bəs edir.

– İndi bircə qaldı aydınlaşdırmaq ki, bu, mənim özümə də bəs edirmi, – deyə Pilat son dərəcə sayğısız dilləndi. İsa isə sakitcə gözləyirdi ki, mübahisə nə vaxt qurtaracaq ki, dindirmə davam etsin.

– Beləliklə, sən kimsən? – Pilat soruşdu.

– İudeya Çarı.

– Bununla nəyə nail olmaq istəyirsən?

– Çar nəyə nail olmalıdırsa, ona.



– Məsələn?

– Öz xalqını idarə eləmək, onu müdafiə etmək.

– Nədən?

– Onu təhlükəyə məruz qoyan hər şeydən.

– Kimdən?

– Ona əziyyət verənlərdən.

– Deməli, ilk növbədə də Romadan, əgər səni düzgün başa düşürəmsə.

– Sən düzgün başa düşmüsən.

– Xalqını müdafiə etmək üçün bizimlə müharibə də eləyərsən?

– Əlbəttə, başqa necə ola bilər ki?

– Və bizi ölkənizdən qovarsan?

– Bunun biri o birisindən doğur, bu bəllidir.

– Deməli, sənin Sezara düşmən olduğun da bəllidir.

– Mən – İudeya Çarıyam və ağzımdan bundan başqa heç nə eşitməyəcəksiniz.

Baş kahin həddsiz qəzəb içində əllərini göylərə qaldırdı:

– Görürsən, prokurator, o etiraf elədi, sən isə şahidlərin yanında sənə və Roma Sezarına düşmən olduğunu bəyan eləyən birisini bağışlaya bilməzsən.

– Bir az sus, – köks ötürən Pilat dilləndi və İsaya sarı dönüb soruşdu:

– Daha nə deyə bilərsən?

– Heç nə, – İsa cavab verdi.

– Sən məni məcbur edirsən ki, ölüm hökmü çıxarım.

– Nə etməlisənsə, onu da et.

– Edamın növünü özün seçə bilərsən.

– Mən artıq seçmişəm.

– Hansını?

– Çarmıxı.

– Yaxşı, sən xaçda öləcəksən.

İsa, nəhayət ki, gözləriylə Pilatın gözlərini tapdı:

– Mənim bir xahişim var.

– Əgər bu xahişin hökmə maneçiliyi yoxdursa, de, yerinə yetirərəm.

– Qoy mənim başımın üstündən xaça bir lövhə mismarlasınlar, yazılsın ki, mən kiməm, nəçiyəm, qoy insanlar bunu bilsin.

– Elə bu?

– Elə bu.

Prokuratorun işarəsiylə katib ona lövhə və qələm gətirdi və Pilat öz əlləriylə bunları yazdı: "Nazaretli İsa İudeya Çarı". Bunu görən baş kahin daldığı ləzzətli təşəxxüs halından çıxıb vəziyyətə qəti etiraz elədi:

– "İudeya Çarı" yazmaq lazım deyil, "özünü İudeya Çarı adlandıran" yazmaq lazımdır.

Lakin Pilat özü öz əlindən hirslənərək – artıq inanırdı ki, daha düzgünü bu şəxsin həyatına toxunmamaq, onu buraxmaq olardı, çünki ən şübhəli hakim belə bu cür düşməndən Roma imperiyasına heç bir təhlükə gözləyə bilməzdi – quru cavab verdi:

– Daha bezdirmə, nə yazmışamsa, artıq yazmışam.

O, əsgərlərə işarə elədi ki, məhkumu aparsınlar və su gətirilməsini əmr etdi – adət üzrə məhkəmədən sonra əllərini yumalıydı.

İsanı isə Qolqofa adlandırılan dağa apardılar. Bədəndən möhkəm olsa da, dizləri çiynindəki tirin ağırlığından qatlanırdı deyə, senturion bu mənzərəyə bir anlıq baxmaq üçün ayaq saxlamış bir yoldanötənə məhkuma kömək eləməyi tapşırdı. O ki qaldı kütlədən yağan istehzalı sözlərə, söyüşlərə, qışqırıqlara, onların nə qədər çox olduğundan artıq söhbət açmışıq. Onun halına çox az adamın acımasını da söyləmişik, amma bələləri də tapıldı. O ki qaldı kütlənin arasına dağılmış tələbələrinə, bir arvad həmin dəqiqələrdə Pyotrdan soruşdu:

– Sən də onun yanında olanlardan deyilsən?

Pyotr suala sual elədi:

– Mən? – sonra da cavab verdi, – yox, – və tez aralanıb camaata qarışdı.



Amma orada da həmin qadını gördü. Qadın yenə sualını təkrar etdi və yenə cavab verdi: "Yox". Tanrı üçdən deyib axı, Pyotrdan bu sual üçüncü dəfə də soruldu və o, üçüncü dəfəsində də imtina etdi...

Qadınlar İsanın hər iki tərəfində dağa qalxırdılar: bir neçəsi bu tərəfdən, bir neçəsi də o biri yanında. Maqdalina ona hamıdan yaxında getsə də, yenə bir xeyli aralıydı, çünki əsgərlər cinsindən asılı olmayaraq heç kəsə üç dənə xaçın ucaldığı yerə yaxınlaşmağa imkan vermirdilər – ikisinin üstündə artıq məhkumlar bağırır, ulayır, nərildəyirdi. Göy qübbəsini düşməkdən saxlayırmış kimi, düz və qalın üçüncü sütun hələ boş idi. Əsgərlər İsanın yerə uzanmasını əmr elədilər və o tabe oldu. Qollarını çiynində gətirdiyi tirin üzərinə açdı və çəkicin güzəştsiz zərbəsiylə dərini və əti deşərək mil sümüklərinin arasından ilk mismar çalınanda kəskin ağrıyla yanaşı zamanın necə başgicəlləndirici sürətlə geriyə fırlanmasını duydu. Elə ağrı da atasının yaşadığı ağrıdan idi, özünü də Sepforisdə İosifi necə görmüşdüsə, eləcə də gördü. Sonra ikinci biləyini deşdilər və o dəqiqə də dəri və ət cırılaraq parçalanmağa başladı. Tiri üstünə mismarlanmış adamla bir yerdə, bir neçə iti hərəkətlə sütuna qaldırıb köndələninə bərkitdilər. Nəhayət ki, xaç əmələ gəldi və kövrək sümüklərdən onun bədəni bütün ağırlığıyla asıldı. Ayaqlarını azacıq qatlayıb üst-üstə qoyulmuş pəncələrini də üçüncü mismalra bərkidəndə hətta yüngüllük də hiss elədi. Artıq bitdi, daha bir şey olmayacaqdı, indi yalnız ölmək qalırdı.

İsa ölür, ölürdü, həyat artıq canından çıxırdı ki, birdən başının düz üstündə göylər iki yerə aralandı və Tanrı göründü – o elə qayıqdakı paltarında idi. Göy gurultusunu andıran səsinin dalğaları bütün yer üzünə yayıldı: "Sən – ey mənim qəlbimə yatan, sevimli Oğlum".

İsa onda başa düşdü ki, onu bura yalanla gətiriblər – qoyunu qurbangaha gətirən kimi. Anladı ki, onun həyatının

məhz belə bitəcəyi lap başdan hesablanmışdı. Mənbəyini ondan götürən qan və əzab çayını yadına saldı, bu çay isə axdıqca axacaq, bütün yer üzünü örtənə kimi genişlənəcəkdi. Üzünü bağrı yarılmış, yarığından Tanrının baxaraq gülümsündüyü göylərə tutdu: "Onu bağışlayın, insanlar, çünki nə etdiyini bilmir". Sonra isə ölümqabağı yarıhuşsuzluq halında Nazareti və atasını gördü – o da gülümsəyərək çiyinlərini çəkib ona deyirdi: "Sən də məndən bütün sualları soruşa bilməzsən və mən də hamısını cavablandıra bilmərəm". O, dodaqlarını su və sirkə qarışığı ilə isladan süngərin təravətini duyanda hələ sağ idi və aşağı nəzər salaraq çiynində ağac, əlində ved-rə uzaqlaşan adamı gördü. Lakin yerdə, düz xaçın altında, qanının damla-damla axdığı qara gil kasanı görməyə daha macal tapmadı.



TƏXİRƏ SALINMIŞ ÖLÜM

(roman)

TƏXİRƏ SALINMIŞ ÖLÜM

(roman)

Pilar – mənim evimə

Biz insanın nə olduğu barədə
getdikcə daha az bilirik.

"Xəbərdarlıqlar Kitabı"

Məsələn, ölüm haqqında bir də düşün – həqiqətən
təəccüblənəcəksən ki, bu məfhuma görə yeni anlayış-
ları, dilin yeni təsir məkanını dərk edə bilməmisən.

Vitgenşteyn[1]

Ertəsi gün kimsə ölmədi. Həyatın qanunlarıyla aşkar ziddiyyət təşkil edən bu vəziyyət şüurlarda istənilən nəzər nöqtəsindən baxanda əsaslı görünən dərin bir çaşqınlıq yaratdı. Çünki bircə onu xatırlamaq kifayətdir ki, dünya tarixinin qırx cildini də eşib töksən, qaşovlayıb çıxarsan, bu fenomenal hadisə haqda bircə məlumat da tapa bilməzsən ki, özünün səhər, günorta, axşam və gecə kimi tikələrə bölünmüş düz bir gecə-gündüzü, tam olaraq iyirmi dörd saatlıq fürsətində heç kim nə xəstəlikdən vəfat eləsin, nə bədbəxt hadisədən həlak olsun, nə də özünə qəsd etsin. Bayram günləri üçün çox adi olan və ölümlə sonuclanan avtomobil qəzaları, başqa sözlə desək, insanların özündənrazı məsuliyyətsizliyi və alkoqolun artıqlığı ucbatından yollarda bir-birinə duel çağırışı tullayaraq kimin maşınının məhvə daha tez çatdıra biləcəyini müəyyənləşdirməyə can atdıqları katastrofik toqquşmalar da yox idi. Bəli, yeni il ölümlərdən ibarət adi və gur seli özüylə gətirmədi. Adama elə gəlirdi ki, ağlı çaşmış Atropos qarı[2] öz qayçısını

[1] *Lüdviq Yozef Iohann Vitgenşteyn* (1889-1951) – Avstriya filosofu.

[2] *Atropos* – Qədim Roma inancında Parki adlandırılan tale ilahələri olan bacılardan birinin adı, əfsanəyə görə, insanın yaşam ipini o kəsir.

bir günlük kənara qoymaq qərarına gəlib. Qan isə axırdı, özü də xeyli həcmdə axırdı. Özlərini itirmiş və karıxmış yanğınsöndürənlər xurd-xəşil insanları dağıntılar altından çıxarırdılar. Onlar hadisələrin riyazi cəhətdən əsaslandırılmış məntiqinə əsasən, "bu ki dünəndən ölüb" formuluna daha çox uyğun gəlsə də, ağır yaralarına, yaşam ilə uyuşmayan xəsarətlərinə baxmayaraq, sağ qalır və təcili yardım maşınlarının tükürpərdici ulartısı altında xəstəxanalara çatdırılırdılar. Onlardan heç yolda da ölən olmadı. Bunun əvəzində bütün bu yaralıların hamısı bir nəfər kimi həkimlərin bədbin proqnozlarını ən yaxın zamanda təkzib etdilər. "Bu bədbəxt lap ümidsizdir, burada bizlik bir iş yoxdur, heç başlamağa dəyməz, çünki burada tibb elmi gücsüzdür", – deyən cərrah, maskasını taxmağa kömək eləyən tibb bacısına müraciət edirdi. Amma buna baxmayaraq, hələ dünən ölümə məhkum edilmiş həmin o "bədbəxt" bu gün də ölməkdən imtina edirdi. Eyni vəziyyət bütün ölkədə müşahidə olunurdu. İlin son gecəsinin düz yarısına kimi ölümü qayda-qanuna tam uyğun şəkildə qəbul etməyə hazır olan insanlar vardı. Həm məsələnin, necə deyərlər, çılpaq mahiyyətinə varanlar – mahiyyət isə bundan ibarət idi ki, həyat artıq bitmişdi – həm də haqqında bəhs olunan və yuxarıda adı çəkilən bu mahiyyətə çoxşaxəli cəhət və əlamətləriylə bir yerdə, yəni onun ölüm saatında bilindiyi hay-küy və dəbdəbə ilə müraciət edənlər. Bu olayla qarşılaşan insanın şəxsiyyəti baxımından ən diqqətəlayiq hadisə isə çox-çox yaşlı, hamı tərəfindən dərin ehtiram bəslənilən kraliça-anaya aid idi. Dekabr ayının otuz biri, saat iyirmi üç əlli doqquz dəqiqədə ən sadəlövh adam da onun həyatına yanmış kibrit çöpü qədər qiymət verməzdi. Bütün ümidlər puç olmuşdu, artıq həkimlər də acı gerçəklik qarşısında məcburi təslim olmuşdular. Əlahəzrət ailəsi isə taxt-taca varisliyin ciddi etiketinə uyğun sırayla xəstənin yatağını dövrəyə alaraq sakitcə gözləyirdi ki, nəslin başçısı ya son nəfəsini dinməzcə versin, ya da topuq vuran diliylə

gözəl ifadələrə bələnmiş bir neçə vida sözü söyləsin. Həm sevimli nəvələrinin, həm təbəələrinin, həm də yaddaşı qədirbilməzlik dərəcəsində yırtıq olan gələcək nəsillərin xatirində qalmaq üçün nəsə desin. Amma heç nə baş vermədi, zaman isə, sanki, durmuşdu. Kraliça-ana nə yaxşılaşır, nə pisləşirdi, onun qurumuş bədəni yaşamın düz sərhədində müvazinətini saxlamaqla məşğul idi. Bu sərhədin o üzünə aşacağı hər saniyə gözlənilirdi, lakin ölüm onu naməlum bir istəyin ucbatından hələ də nazik bir sapdan asılı vəziyyətdə saxlamışdı – daha kim saxlaya bilərdi ki. Biz isə artıq növbəti günə qədəm qoyduq, həmin günə ki, hekayətimizin lap əvvəlində dediyimiz kimi, daha heç kəs ölmədi.

Bu gün artıq öz ortasından xeyli o üzə adlamışdı ki, bir şayiə şişib dillərdə dolaşmağa başladı: yeni ilin gəlişi ilə, daha dəqiqini desək, yanvar ayının biri, saat sıfırdan etibarən ölkədə daha heç kəs ölməyəcək. Güman etmək olardı ki, bu şayiənin mənbəyi kraliça-ananın öz həyatının qalan günlərindən necə qəribə bir israrla yapışmasından qaynaqlanırdı. Elə sarayın mətbuat xidmətinin kütləvi informasiya vasitələrinə yaydığı tibbi bülleten də bu gecə saatları ərzində ülyahəzrətin səhhətində yaxşılığa doğru əhəmiyyətli dəyişikliklər baş verdiyini yazdı. Sözləri ehtiyatla seçərək tam sağalma ehtimalına belə eyham vurulurdu. Həmin şayiə isə çox təbii bir şəkildə hər hansı dəfn bürosu tərəfindən də dövriyyəyə buraxıla bilərdi: "Deyəsən, yeni ilin ilk günü ac qalası olduq". Ya da bir xəstəxananın personalı tərəfindən: "Bizim bu iyirmi yeddinci otaqdan olan xəstə nə oyanlıqdır, nə buyanlıq". Ya da lap elə yol polisi tərəfindən: "Lap möcüzədir, yollarda bir belə toqquşma var, bircə dənə də ölən yoxdur ki, qalanlarına görk ola".

Beləliklə, mənbəyini yalnız hadisələrin gələcək inkişafına nəzər saldıqdan sonra aydınlaşdırmaq mümkün olan şayiə lap tezliklə direktor və baş redaktorların qulaqlarına yetişərək qəzetlərə, radio və televiziyaya yol tapdı. Dünya

əhəmiyyətli hadisələri hiss etməyə adət etmiş, hətta ehtiyac yarananda bəzi olayların əhəmiyyətini şişirtməyə qadir olan bu insanların göstərişləri nəticəsində artıq bir neçə dəqiqədən sonra küçələrdə onlarla reportyor yolu düzünə-köndələninə keçən bütün insanları sorğu-suala çəkirdi. Həyəcana gəlmiş redaksiyalarda isə masa üstündə sıralanmış telefon aparatları bir göz qırpımında cana gəldi, tələsik rəy sorğuları başlandı. Xəstəxanalara, "Qırmızı xaç"a, ölüxanalara, dəfn kontorlarına, cürbəcür polis qurumlarına – təbii ki, məxfi polis istisna olmaqla – zəng seli axmağa başladı. Cavablar isə təəccüblü dərəcədə yeknəsəq və qısa idi: "Ölüm halı qeydə alınmayıb". Bir gənc telejurnalist qızın bəxti daha çox gətirmişdi. Yoldan ötən birisi gah ona, gah da televiziya kamerasına baxıb öz gözləriylə gördüyü və kraliça-ananın başına gələnlərlə eyni olan bir hadisədən danışdı: "Gecə yarısına az qalmış, saat zənglərinin sonuncu səsi eşidilməmişdən əvvəl can verən babam qəflətən gözlərini açdı, sanki, ölmək istədiyinə peşman olmuşdu və daha ölmədi". Jurnalist bu eşitdiklərindən elə şövqə gəldi ki, respondentin "Siz nə danışırsınız, mən aptekə getməliyəm, babam dərman gözləyir" etirazına baxmayaraq, onu redaksiyanın furqonlu maşınına dartır və sürüyə-sürüyə də bunları deyirdi: "Gəlin, gəlin, babanızın daha heç bir dərmana ehtiyacı yoxdur". Maşın da yerindən qopub düz studiyaya üz qoydu. Orada isə paranormal hadisələr üzrə üç mütəxəssisin indicə başlanacaq debatına hazırlıq gedirdi. Daha dəqiqini desək, iki görkəmli cadugər və bir tanınmış öncəgörən arasında görüş olacaqdı ki, müqəddəs heç nə tanımayan bəzi dildəniti adamların artıq "yarımçıq sonluq" adlandırdıqları bu şeyi izah etsinlər, araşdırmağa cəhd göstərsinlər. Haqqında bəhs etdiyimiz reportyor kobud səhvə yol vermişdi. O, öz respondentinin dediklərini belə yozmuşdu ki, güya, bir ayağı gorda olan qoca atmağa hazırlaşdığı labüd addımdan – yəni canını tapşırmaq, çezmək, tabuta girməkdən peşman olaraq ölməkdən

vaz keçmişdi. Halbuki xoşbəxt nəvənin dediyi "sanki, ölmək istədiyinə peşman olmuşdu" ifadəsi qətiyyətli "peşman oldu" ifadəsindən çox fərqli idi. Odur ki sintaksisin incəliklərilə və felin formalarının səciyyəsilə daha yaxından tanışlıq bu anlaşılmazlıqdan can qurtarmağa imkan verərdi. Bu, qaranlıq məqamlardan qaynaqlanan xəcalət və təhqirdən qıpqırmızı olmuş reportyor qıza rəisiylə görüşünün nəticəsindən nicat tapmasına imkan yaradardı. Amma nə rəis, nə də ki qız heç cür təsəvvürlərinə gətirə bilməzdilər ki, canlı yayımda səslənən, xəbərlərin axşam buraxılışlarında isə efirə təkrar verilən bu sözlər milyonlarla tamaşaçı tərəfindən səhv yozulacaq. Bu yozum çox yaxın gələcəkdə sarsıdıcı nəticələrə səbəb olacaq. Məsələn, adi insan iradəsini səfərbər etmək yoluyla ölümə qalib gəlməyin mümkünlüyünə inanan vətəndaşların təşkilatlanması kimi. Bu, o demək idi ki, yer üzündən bu qədər insanın bihudə yerə yox olması yalnız neçə-neçə keçmiş nəsillərin acınacaqlı iradə zəifliyindən doğurdu. Amma məsələ bununla da bitmədi. İnsanlar heç bir səy göstərmədən ölməmələrinə davam etdikləri üçün daha bir kütləvi hərəkat yarandı və perspektivlərin ən ürəkaçanından məst olaraq gur səslə bəyan etdi ki, bəşəriyyəti düz beşiyindən bəri düşündürən qızıl yuxu – bu dünyada əbədi həyat – artıq çin olub, ümumun istifadəsinə verilib. Məsələn, hər gün çıxıb-batan günəş kimi, ya da hamının ciyərinə çəkdiyi hava kimi. Hər iki hərəkat eyni elektoratın simpatiyası uğrunda mübarizə aparsa da, onlar, hər halda, razılığa gələ bilərək ittifaqa girdilər. Fəxri sədr vəzifəsinə müjdəçi istedadını göstərmiş bir şəxsi – ən həlledici anda ölümün qarşısında meydan sulayaraq ona qalib gələ bilmiş həmin o qocanı seçdilər. Bizdə olan məlumatlara əsasən, sakitləşmək bilməyən qocanın dərin koma vəziyyətinə düşməsinin, zahiri əlamətlərə əsasən bu vəziyyətdən çıxmaq fikrində belə olmamasının məsələyə zərrəcə təsiri duyulmadı.



Bu, "hökumət böhranı" söz birləşməsi haqqında bəhs edəcəyimiz misli-bərabəri görünməmiş hadisəni səciyyələndirməyə o qədər də uyğun gəlmirdi, çünki ölümün yoxluğundan formalaşan bu ekzistensial vəziyyəti belə adlandırmaq, həqiqətən, ağlasığmaz, yersiz və bəsit məntiqin qanunlarını qəsdən qulaqardına vurmaq olardı. Amma buna baxmayaraq, qeyd edək ki, səhih məlumat almaq hüquqlarının qayğısına qısqanclıqla qalan nə qədər vətəndaş öz-özündən və bir-birindən soruşmağa başlamışdı ki, bəs xeyir ola, hökumətimiz niyə həyat nişanəsi göstərmir? Lakin bir iclasdan o birisinə gedərkən yolda yaxalanmış səhiyyə naziri jurnalistlərə izah etdi ki, indiki vəziyyətdə hər hansı bir məntiqi izah mövcud olmadığı üçün hökumətin istənilən bəyanatı son dərəcə yersiz görünərdi. "Biz ölkənin hər tərəfindən gələn xəbərləri toplayırıq, – əlavə etdi, – hələlik hətta bir ölüm faktı barədə məlumat olmamasından dolayı, mənim tabeliyimdə olan nazirlik əməkdaşlarının bütün xalq kimi necə dərin təəccüb hissi yaşamasını təsəvvürə gətirmək çətin deyil. O səbəbdən də biz hələlik belə bir fenomenin özü, onun yaxın və uzaq nəticələri barədə fikirlərimizi bölüşməyə, sadəcə, hazır deyilik".

Ah, əgər nazir elə bununla da kifayətlənsəydi, vəziyyətin qeyri-adiliyini nəzərə alsaq, vətəndaşların minnətdarlığına ümid eləyə bilərdi. Lakin bütün vəziyyətlərdə camaatı daim sakitliyə çağırmaq adəti, siyasətçilərin, xüsusilə də hakimiyyətdə olan siyasətçilərin ikinci naturasına çevrilmiş bu tropizm[1], bu avtomatizmədək inkişaf etdirilmiş reaksiya onu təhlükəli qəlizliklərə sürükləyərək bütün dediklərinə bu sözləri də əlavə elətdirdi:

– Mən millətin sağlamlığına görə cavabdehlik daşıyan vəzifəli bir şəxs kimi, məni eşidənlərin hamısının qarşısında and içmək istəyirəm ki, həyəcan üçün heç bir əsas yoxdur.

– Əgər düzgün başa düşdümsə, – bir jurnalist elə həmin dəqiqə ahəngindəki iztehzanı lazım olandan artıq büruzə

[1] *Tropizm* – bitkilərin müəyyən kənar qıcıqdan bir istiqamətdə boy atması

verməməyə çalışaraq dilləndi, – cənab nazirin fikrinə əsasən, biz heç kəsin ölməməsindən narahat olmamalıyıq.

– Tamamilə doğrudur, hərçənd ki eyni fikri siz fərqli ifadələrlə qeyd edirsiniz.

– Əgər belədirsə, cənab nazir, icazə verin, xatırladım ki, hələ dünən insanlar ölürdü və bundan narahat olmaq heç kəsin ağlına belə gəlmirdi.

– Əlbəttə, biz insanların ölməsinə adət etmişik və yalnız ölümlərin sayı həddindən çox artanda, məsələn, müharibə, epidemiya zamanı narahatlıq hissi keçirməyə başlayırıq.

– Daha doğrusu, hadisələrin adi axarı pozulanda.

– Belə də demək olar.

– Lakin indi – artıq heç kəsin ölmədiyi dönəmdə sizin sakitliyə çağırışınız mənə, ən azı, paradoksal gəlir.

– Adətin gücü böyükdür; etiraf edirəm ki, bu şəraitdə "həyəcan" sözünü işlətmək lazım deyildi.

– Bəs hansı söz lazım idi? Mən, cənab nazir, yalnız ona görə bunu soruşuram ki, peşə borcunun tələblərindən doğan öhdəliklərini yaxşı bilən jurnalist kimi həmişə ən dəqiq sözlərdən istifadə etməyə çalışıram.

Bu isrardan azacıq pərtləşmiş nazir bir qədər quru cavab verdi:

– Bir deyil, beş sözdən istifadə etmək lazım idi.

– Hansı beş sözdən, cənab nazir?

– Gəlin biz əsassız ümidlərə qapılmayaq.

Heç şübhəsiz ki, ertəsigünkü nömrənin birinci sütununa əla başlıq çıxardı, lakin redaktor baş redaktorla məsləhətləşib ümumxalq sevincinin alovunu bir vedrə buz kimi su ilə söndürməyi elə marketinq baxımından da ağılsızlıq saydı və həmişəki, növbətçi başlığı qoymağı tapşırdı: "Yeni İl, Yeni Həyat".

Artıq gecədən xeyli keçmiş yayılan hökumət bəyanatında baş nazir yeni ildən etibarən bütün ölkədə bircə dənə belə ölüm faktının qeydə alınmaması barədə məlumatı təs-



diqləyərək, baş verənlərin ehtiyat və məsuliyyətlə qiymətləndirilməsinə çağırdı, olayın maqnit qasırğaları və ya digər kosmik təbəddülatdan doğan, məkan və zaman tənasübünün pozulmasına gətirib çıxaran təsadüfi faktorların üst-üstə düşməsiylə əlaqədar ola bilməsi ehtimalını da xatırlatdı. Əlavə etdi ki, artıq nüfuzlu beynəlxalq təşkilatlarla bu sahədə əməkdaşlığa doğru addımlar atılır və hökumətə kömək məqsədi daşıyan bu tədbirlər, bu fəaliyyət nə qədər dəqiq əlaqələndirilsə, onun da fəaliyyəti bir o qədər effektiv olacaq.

Ağlasığmaz hadisələrdən iltihaba uğramış beyinlərə sakitlik gətirmək üçün söylənilən bütün bu psevdoelmi qatıqlamaları dilinə gətirən baş nazir bəyan etdi ki, hakimiyyət dairələri bütün gözlənilməz hadisələrə hazırdır. Heç şübhəsiz ki, gələcəkdə ölüm anlayışının yox olmasından doğacaq sosial, siyasi, mənəvi və iqtisadi problemlər məcmusunu əhalinin köməyi ilə tam hazır vəziyyətdə qarşılamağa qərarlıdırlar. "Əbədi həyat bizə meydan oxuyur, bu çağırışı qəbul edək", – deyə baş nazir sonda bir az hissə qapılıb hökm verdi: "Əgər Tanrının iradəsi belədirsə, biz bu yolda məhz gözəl xalqımızı özünə alət seçdiyi üçün minnətdarlıq duyğularımızı və alqışlarımızı ona öz dualarımızla yollamaqdan yorulmayacağıq".

"Bütün bunlar isə o deməkdir ki, – nitqini bitirən baş nazir öz-özünə dedi, – deyəsən, əməlli-başlı ilişmişik". Ah, əgər o bilsəydi ki, bu şəraitdə "əməlli-başlı" ilişmək artıq xirtdəyə kimi deyil, lap qulaqlarının ucuna kimi zibilə düşməkdir... Növbəti yarım saat da kövrək sakitlikdə keçdi, sonra isə baş naziri evinə aparan limuzinə kardinal zəng çaldı.

– Axşamınız xeyir, cənab baş nazir.

– Axşamınız xeyir, kardinal həzrətləri.

– Zəng vurdum deyəm ki, mən şokdayam.

– Elə mən də... Vəziyyət son dərəcə ciddidir, buna bənzər bir hadisəylə ölkəmiz öz tarixi boyu rastlaşmayıb.

– Söhbət ondan getmir.

– Bəs onda nədən gedir?

– Söhbət çox acınacaqlı bir vəziyyətdən gedir, cənab baş nazir, siz öz bəyanatınızı oxuyarkən bizim müqəddəs dinimizin tavanını saxlayan qübbəni, onun məhək daşını xatırlatmağı lazım bilmədiniz.

– Günahkaram, ruhani həzrətləri, amma qorxuram ki, sözlərinizin mahiyyətini dəqiqliyi ilə tuta bilməyəm.

– Onda qulaq asın, cənab baş nazir; qulaqlarınızın ikisini də birdən açıb qulaq asın. Ölümsüz dirilmə yoxdur, dirilmə ideyası olmadan da din ola bilməz.

– Ay səni, iblis.

– Nə-nə? Bağışlayın, eşitmədim, təkrar edin, zəhmət olmasa.

– Yox-yox, kardinal həzrətləri, bir söz demədim, bu, yəqin, efirdəki maneələrdir, necə deyərlər, interferensiya, statik elektrik, bəlkə də, dalğa qaçır, nə bilim; peyk rabitəsində hərdən belə şeylər olur, fikir verməyin, beləliklə, deyirsiniz ki...

– Mən deyirdim ki, hər bir katolik – siz də cənab baş nazir, burada istisna deyilsiniz – bilməyə borcludur ki, kilsə dirilmə ideyasının üstündə qurulub, bundan savayı da, sizin ağlınıza necə gələ bilər ki, Tanrı öz sonunu arzulamaq istəsin? Belə bir şeyi iddia etmək – küfrlərin ən dəhşətlisinə, günahların ən böyüyünə qol qoymaqdır.

– Əfv edin, kardinal həzrətləri, mən demirdim ki, Tanrı öz sonunu arzulayır.

– Birbaşa, bəlkə də, demədiniz, lakin buna işarə vurdunuz ki, cismin ölümsüzlüyü bizə ilahinin iradəsiylə bəxş olunub və qətiyyən transendental məntiq professoru olmaq gərək deyil ki, anlayasan – mus-musun dalınca Mustafa gəlir. Birini söyləyən o birisini də demiş kimidir.

– Ruhani həzrətləri, axı bu, ritorik bir gedişdir, təsir doğurmağa yönəlmiş natiqlik fəndidir, başqa bir şey deyil. Siyasət bunu tələb edir, özünüz ki bilirsiniz.



– Kilsə də çox şey tələb edir, cənab baş nazir, amma biz yüz ölçüb, bir biçirik, hər sözümüzü tələffüz etməmişdən seçirik. Boş sözlər deyəndə də mütləq bəlli həddə dəqiqləşdirərək lap uzaq effektini hesablayırıq. Çünki bizim işimiz, sadə bir nümunə gətirim, məsələn, ballistika kimi bir şeydir.

– Mən ümidsizlik içindəyəm, kardinal həzrətləri.

– Sizin yerinizdə mən də ümidsiz olardım.

Bu sözlərdən sonra kardinal bir balaca ara verib daha yumşaq, daha səmimi tərzdə əlavə elədi:

– Bilmək istərdim ki, cənab baş nazir, əlahəzrət sizin bu bəyanatla tanışdırmı?

– Əlbəttə, kardinal həzrətləri, məgər belə incə işdə başqa cür hərəkət eləmək olar?!

– Bəs hökmdarımız nə dedi sizə – əgər dövlət sirri deyilsə?

– Təşəbbüsümüzü təqdir elədi.

– Hansı ifadələrlə?

– "Əladır" dedi.

– Nə? Əladır?

– Əlahəzrət mənə dedi ki, əladır.

– Deməli, o da küfr edirdi?

– Mən, kardinal həzrətləri, düşünmürəm ki, belə nəticələr çıxarmağa haqqım ola, elə öz səhvlərim özümə xirtdəyə kimi bəs eləyir.

– Mən kralla söhbət eləməli olacam və ona xatırladacam ki, belə qəliz, dolaşıq və incə məsələlərdə yalnız müqəddəs kilsəmizin doktrinalarına ciddi və davamlı riayət etməklə ölkəni təhlükə altına almış xaosdan xilas olmaq mümkündür.

– Siz daha yaxşı bilərsiniz bunu, ruhani həzrətləri, zər qədrini zərgər bilər.

– Mən əlahəzrətdən soruşacam, hansı daha yaxşıdır: kraliça-ananın daim heç vaxt qalxa bilməyəcəyi ölüm yatağında olması və müvəqqəti, parçalanmaqda olan qılafın onun ölümsüz ruhunu tutub saxlaması, yoxsa onun ölümə öz ölümüylə qələbə çalıb əbədi şöhrət nurunda parlayaraq göylərə ucalması?

– Cavab bəllidir.

– Təbii ki, amma sizin düşündüklərinizə rəğmən, məni cavablardan çox, suallar maraqlandırır, özü də bizim suallar. Buna xüsusi diqqət yetirin ki, bizim suallar həmişə həm qarşıda görünən məqsədi, həm arxada gizlənən niyyəti ehtiva edir. Həm də gələcək suallara yol açır.

– Siyasətdə də işlər, təxminən, elə bu cürdür, kardinal həzrətləri.

– Elədir, bəli, lakin kilsənin üstünlüyü – hərdən elə görünməsə də – bundadır ki, o, yuxarılarla iş görüb aşağıları idarə eləyir.

Bu dəfə araya çökmüş sükutu baş nazir pozdu:

– Mən artıq evə çatdım, kardinal həzrətləri, lakin icazə verin, bir məsələylə də qısaca maraqlanım.

– Buyurun.

– Daha heç vaxt heç kim ölməsə, kilsə nə edəcək?

– "Daha heç vaxt" sözləri, cənab baş nazir, çox mücərrəd anlayışı ifadə edir, hətta bu sözləri ölümə aid etsən belə.

– Mənə belə gəlir ki, möhtərəm kardinal həzrətləri, bu, cavab olmadı.

– "Cavab olmadı" deyirsiniz, onda buyurun, bu da sizin sualınıza suallı cavab: əgər daha heç kəs ölməsə, hökumət nə edəcək?

– Hökumət birtəhər can qurtarmağa çalışacaq, bəs kilsənin vəziyyəti necə olacaq?

– Kilsə isə, cənab baş nazir, əbədi suallara cavab verməyə o qədər öyrəncəlidir ki, başqa rolda onu heç təsəvvürümə belə gətirə bilmirəm. Hətta bu, həqiqətlə ziddiyyətə girirsə belə. Biz elə əvvəldən bununla məşğul olmuşuq və elə, necə deyərlər, daim bunun da üzərində dayanırıq.

– Bəs papa nə deyəcək?

– Onun yerinə olsaydım – İlahi, mənə bu cəfəng faniliyi bağışla! – mən o dəqiqə dövriyyəyə yeni doktrinanı buraxardım. Məhz təxirə salınmış ölümlər doktrinasını.

– Həm də heç bir izahat vermədən, elədirmi?

– Kilsədən heç vaxt heç nəyi izah etməsini istəməyiblər, onun sənəti bam-başqadır: ballistikadan savayı, bizim işimiz hər şeylə həddən ziyadə maraqlanan ruhu inamla sakitləşdirməkdir.

– Gecəniz xeyrə qalsın, kardinal həzrətləri, sabah görüşərik.

– Əgər Tanrının rizası olsa, cənab baş nazir, həmişə və daim – əgər Tanrı rizası olsa.

– İşlərin bugünkü vəziyyətində ilahinin bizim görüşümüzə imkan verməməsi, onu təxirə salması inandırıcı görünmür.

– Cənab baş nazir, unutmayın ki, ölkəmizin sərhədlərindən kənarlarda insanlar səliqəylə ölməklərindədirlər, heç nə baş verməyibmiş kimi və bu da xoş bir əlamətdir.

– Bilmirəm, kardinal həzrətləri, bəlkə də, qonşularımız indi bizim ölkəmizə bir vadi, behişt, yeni cənnət kimi baxırlar. Amma bir az diqqət yetirsəydilər, mütləq cəhənnəm görərdilər. Gecəniz xeyrə qalsın, kardinal həzrətləri, sizə xoş istirahət, möhkəm yuxu arzulayıram.

– Gecəniz xeyrə, cənab baş nazir, əgər ölüm bu gün bizim yanımıza dönməyə qərar versə, qoy sizi yadına salmasın.

– Əgər bu dünyada ədalət boş bir söz deyilsə, kraliçaana məndən əvvəl getməlidir.

– Sizin sözlərinizi krala çatdırmayacağıma söz verirəm.

– Mən sizə nəhayətsiz dərəcədə minnətdaram, kardinal həzrətləri. Gecəniz xeyrə qalsın.

– Xeyrə qarşı.

Gecə saat üçdə kardinalı kor bağırsağının tutmasından klinikaya gətirdilər, təcili cərrahi müdaxiləyə ehtiyac vardı. Anesteziyanın qara tuneli prelatı öz içinə sümürməmişdən, şüurun tam sönməsi ərəfəsindəki həmin o qısa anlarda özündən qabaqkı çoxları kimi o da fikirləşdi ki, bir də ayılmaya bilər. Sonra isə artıq belə sonluğun mümkünsüz olduğu

yadına düşdü və nəhayət, sonuncu qığılcım kimi beynində daha bir fikir işardı: "Əgər ölsə, bunun mənası o olacaq ki, bu cür paradoksal bir yolla olsa belə, hər halda, ölümə qələbə çalıb". Özünü qurban verməyin tükənməz heyranlığı bütün vücudunu çulğadığından, az qaldı, Tanrıdan onu öldürməsini xahiş eləyə, lakin sözlərini düzgün sıralamağa macal tapmadı. Narkoz onu görünməmiş bir küfrdən xilas elədi – daha çox həyat bəxş edən kimi tanınan bir varlığa, az qalmışdı, öldürmək səlahiyyəti də yapışdırılsın.

* * *

Onlarla rəqabətdə olan nəşrlərin gülüş obyektinə çevrilmişdi bu başlıq, onların əməkdaşları yazılarına öz baş redaktorlarının ilhamından zorla qopara bildikləri cürbəcür geniş başlıqlar qoyurdular – aralarında dramatikləri də vardı, lirikləri də, fəlsəfi və mistik dumana bürünmüşlərinə də rast gəlmək olurdu. Bəzən isə riqqətləndirici bir sadəlövhlük yağırdı onlardan, məsələn, bir kütləvi gündəlik qəzet "İNDİ BİZİM BAŞIMIZA NƏ GƏLƏCƏK" hayqırtısını sual işarəsinin burma başıyla bitirirdi. Lakin artıq adını çəkdiyimiz, bütün səhifəlik "YENİ İL, YENİ HƏYAT" başlığı özünün qışqırıqçı adiliyinə baxmayaraq, təmiz kərə yağı kimi – daha dəqiqi, nəsə yağabənzər bir şey kimi – özünün təbii mənəvi meylindən çıxış edərək, ya da maarifləndirmənin bəhrələrindən bolbol təpişdirərək söhbətin saxtalığından, xəyaliliyindən şübhələnməyə yüz faiz əsas olanda belə, praqmatik optimizmin sarsılmazlığını hər şeydən uca qiymətləndirən bəzilərinin qəlbinə yayıldı. Qəflətən yetişmiş bu nigarançılıq günlərinədək bütün mümkün və ağlabatan dünyaların ən gözəlində yaşadığını güman eləyən insanlar misilsiz bir sevinc içində kəşf etdilər ki, qeyri-adi, gözəl bir həyatın lap astanasında durublar. Bu həyatdan daha yuxarıda adı çəkilən qayçının xırçıltısından gündəlik səksəkə olmayacaq. Heç kimə elə məktublar gəlməyəcək ki, onu vədəsində açarkən məhz hara –



cənnətə, məhşərə, ya cəhənnəmə gedəcəyini bəlli etsin. Hələ lap bu yaxınlarda həyatımızı müxtəlif səmtlərə yönəldən, bizi əbədi nəsibimiz olan göz yaşlarıyla dolu məşəqqətli sonluğa, axirət qismətinə sarı aparan yolların başlanğıc götürdüyü yolayrıcının özü də yox olacaq, əziz yoldaşlar. Odur ki vəziyyətə skeptik, ya da soyuqqanlı münasibət göstərən nəşrlərlə bir yerdə televiziya və radio proqramlarına da ölkəni şimaldan-cənuba və qərbdən-şərqə öz ağuşuna almış ümumxalq sevincinin inamsızların şişmiş beyinlərini sərinlədən, qəbiristan sərvlərinin, məlum olduğu kimi, çox uzaqlara düşən kölgəsini gözlər önündən silən dalğalarından ibarət ləpədöyənə atılmaqdan başqa çarə qalmamışdı. Bəlli bir zaman keçəndən və həqiqətən, kimsənin ölmədiyi tam aşkarlanandan sonra bədbinlər və skeptiklər, əvvəlcə sısqa bulaqlar kimi tək-tək, sonra kiçik çeşmələr, arxlar kimi, lap axırda isə əsl çaylartək küçələrə axıb həyatın artıq, həqiqətən, gözəl olduğunu bağıraraq söyləmək üçün ən kiçik fürsəti belə fövtə verməyən həmvətənlərindən ibarət bolsulu göllərə tökülməyə başladılar.

Sonra isə lap bu yaxınlarda dul qalmış bir xanım içini dolduran sevinci təcəssüm etdirmək üçün başqa bir üsul tapmayaraq – kaş ilahi onun bu sevincinə yoxluğu ucbatından bu qədər göz yaşı axıtdığı sevimli ərini ölməyəcəyi təqdirdə bir daha görə bilməyəcəyindən qaynaqlanan bir yüngül kədər də qatmış olaydı – fikirləşdi: "Bəlkə, sevinc rəmzi kimi gül-çiçəklə bəzədiyi eyvanından dövlət bayrağını da assın?!" Bu, həmin o vəziyyətlərdən idi ki, adına "niyyətin hara – mənzilin də ora" deyirlər. Üstündən heç qırx səkkiz saat ötməmiş bayraqlar bütün ölkəni öz ağuşuna aldı, bütün mənzərəni öz rənglərinə boyadı. Özü də bu, o səbəbdən şəhərdə daha çox gözə dəyirdi ki, pəncərədən, ya eyvandan sallanmaq çölün düzündə asılmaqdan fərqlidir. Artıq ümumxalq vətənpərvərliyi əhvali-ruhiyyəsinin yüksəlişinə qarşı çıxmaq həm də o səbəbdən qətiyyən mümkün deyildi ki,

haradansa peyda olmuş, naməlum mənbədən qaynaqlanan və hər tərəfə yayılan alovlu, bəlkə də, lap aşkar təhdidedici bəyanatlar səslənirdi. Məsələn, bu qəbildən olan: "Kim vətənimizin ölməz bayrağını pəncərəsindən asmasa, sağ qalmağa layiq deyil".

Küçələrlə əldə bayraq yalnız o adamlar dolaşmırdı ki, artıq öz bayraqlarını bayraqsız vətəndaşlara, az qala, zorla soxuşdurmuşdular, özü də inkar etmək qeyri-mümkün olan bu sözlərlə: "Bizə qoşul, vətənpərvər ol, bayraq al. Birini də al. Üçüncüsünü də götür – həyata düşmən kəsilənləri əz, onları döy. Heyif ki, ölənəcən döymək alınmaz".

Beləliklə, küçələr əsl cəngavər düşərgəsinə çevrilmişdi. Hər yerdə külək altında dalğalanan açıq bayraqlar görünürdü, təbii ki, külək əsəndə, amma elə ki kəsdi, elektrik ventilyatorları işə salınırdı və onların gücü parçanı kişi kimi şax qaldırmağa, havada oynadaraq dalğalandırmağa, burum-burum burulmağa, öz şappıltısı ilə döyüşkən qəlblərə sevinc doldurmağa imkan verməsə belə, bu cihazın yeli bayrağı, ən azı, yüngülvari tərpətməyə yetirdi. Əlbəttə, az da olsa. Elələri də tapılırdı ki, dodaqaltı mızıldanırdılar, guya, bunlar artıq şeylərdir, şitini çıxarmaqdan başqa, heç nəyə yaramaz və bütün bu bayraq meşəsini gec-tez yığışdırmaq lazım gələcək. Odur ki bunu nə qədər tez eləsələr, bir o qədər yaxşıdır. Çünki həddindən artıq şirin kökə dad etibarilə nə qədər pis və mədə üçün nə qədər ziyanlı olursa, dövlətçilik simvollarına normal, qanuni ehtiramın bu dərəcədə aşkar əxlaqsızlığa çevrilməsinə imkan versək, qoysaq ki, bu, ekshibisionistin[1] öz bədnam plaşını açmasına bənzəyən əxlaqsızlıq səviyyəsinə ensin, onlar da acı gülüş hədəfinə çevriləcək. Sonra da deyirdilər ki, əgər bayraqlar – bu tavtalogiyaya görə üzr istəyirik – ölümün öz məhsulunu toplamaqdan vaz keçməsi kimi əlamətdar hadisə münasibətilə asılıbsa, deməli, ikisindən biridir: ya biz onları milli rəmzlərdən ifrat istifadə zamanı yaranan

[1] *Ekshibisionist* – qeyri-əxlaqi davranışa malik adam



labüd gəyirmə başlayanadək yığışdırmalıyıq, ya da düz ömrümüzün sonuna kimi – yəni əbədi, hə, hə, məhz əbədi, məhz dünyanın heç vaxt yetişməyəcək axırınadək, hər dəfə gün işığından bozaran kimi, yağışdan çürüyən kimi, küləkdən cırılan kimi – təzəsiylə dəyişəsi olacağıq. Az, çox az adam cəsarət edirdi ki, camaat arasında barmağını yaraya, bax beləcə aşkar soxsun. Bir yazığı vətənpərvərlik əleyhinə bu qəbildən olan qərəzli sözlərinə görə elə çırpmışdılar ki, yalnız ölümün bu ilin əvvəlindən etibarən ölkədə öz fəaliyyətini dondurmasına görə dünyasını dəyişməmişdi.

Lakin həyat belə yaranıb da: gülənlərlə yanaşı həmişə ağlayanlar da tapılır, özü də aşağıda görəcəksiniz ki, həm gülüş, həm də göz yaşları üçün səbəb eynidir. Hadisələrin inkişafından ciddi narahat olan bəzi çox nüfuzlu həmkarlar təşkilatları yavaş-yavaş öz narazılıqlarını büruzə verməyə başladılar. Gözlənildiyi kimi, bu narazılığı dəfn büroları hüquqi dona ilk olaraq geyindirdi. Xammal ehtiyatlarından çox kobud şəkildə məhrum edilmiş bu sənayenin kapitanları əvvəlcə klassik əda ilə əllərini dallarına qanıraraq ağıçılar xoruna çevrilib naləyə başladılar: "Məni kimin ümidinə qoyub getdin axı-ı-ı". Lakin bir az sonra onların təbəqəsindən olan heç bir nümayəndənin labüd iflasdan can qurtara bilməyəcəyini dərk edərək qurultay çağırdılar. Onun işinin yekunu isə çox gərgin və sərt, amma tamamilə faydasız oldu. Çünki bu sahənin vəziyyətini ölümün iştirakı olmadan düzəltmək daşdan hörülmüş möhkəm divarı kəllə ilə yarmağa tən gələrdi. Üstəlik, həyatda ölümun labüd iştirakını həmişə neçə nəsil qəbirqazan və tabutdüzəldən ordusu təbiətin gözəl bir neməti kimi qəbul etməyə alışmışdı. Beləliklə, bu qurultay hökumətə ünvanlanmış müraciətin qəbulu ilə nəticələndi və bu müraciətdə tək bircə bənd vardı. Onun da faydası ancaq gülməli olmasında idi – bunu qurultayın sədarətində əyləşənin özü açıq etiraf eləmişdi: "Bizi gülüş hədəfinə çevirəcəklər, amma başqa çıxış yolumuz da yoxdur, çünki bu olmasa,

bizim dəfn sənayesi məhv olacaq". Müraciətdə deyilirdi: "Biz, fövqəladə qurultayın iştirakçıları, ölümlərin hər yerdə dayanmasından doğan son dərəcə ağır böhranla mübarizə tədbirlərini hərtərəfli və ciddi araşdırmaq məqsədilə çağırılmış məclisimizdə xalqın ali maraqlarını bir an belə unutmayaraq, belə bir yekdil nəticə hasil etdik: başımıza gəlmiş, mövcud olduğu bütün müddət ərzində vətənimizin qarşılaşdığı ən dəhşətli bəlanın faciəvi nəticələrindən can qurtarmaq yalnız bir halda mümkün olacaq. Gərək hökumət özünün xüsusi sərəncamı ilə həm təbii səbəblər, həm də bədbəxt hadisələr nəticəsində həlak olmuş bütün ev heyvanlarının kremasiya və dəfnini zəruri elan etsin. Yuxarıda göstərilən mərasimlərin lazımi qaydada reqlamentləşdirilmiş təşkili əməkdaşlarının nəsildən-nəslə peşəkar məharətlərini təkmilləşdirdiyi, özlərini xalq mənafeyinin əsl müdafiəçiləri kimi göstərmiş, cəmiyyətə sözün ən dərin mənasında mərasim xidməti sahəsində qulluğun yüksək fədakarlıqla dolu nümunələrini nümayiş etdirmiş dəfn büroları və dəfn agentliklərinə tapşırılsın". Daha sonra məktubda deyilirdi: "Hökumətin diqqətini bir də ona cəlb edirik ki, bu sahənin təcili intibahı və onun ayrılmaz tərkib hissəsi olan istiqamətin radikal bir şəkildə dəyişməsi əhəmiyyətli həcmdə kapital qoyuluşlarını labüd edir. Çünki bir var, insan cəsədinin son sükunət məkanına gətirilməsi, bir də var, pişik və ya bülbülün nəşinin torpağa tapşırılması. Biz hələ sirk filindən, heyvanxana timsahından danışmırıq. Daha doğrusu, bizim ənənəvi nou-hau üsullarını kökündən və hərtərəfli təftiş edib, onlara yenidən baxmaq lazımdır. Bu işdə isə bizə artıq toplanmış təcrübə misilsiz kömək göstərəcək və bu təcrübə indi heyvanlar üçün məzarlıqların qurulmasına, onların dəfninə yönəldiləcək. Ya da başqa sözlərlə desək, ikinci dərəcəli, amma gizlətməyək ki, yüksəkgəlirli fəaliyyət növünün yeganə və fövqəladə işə çevrilməsinə istiqamət götürüləcək və bunun sayəsində yüzlərlə, bəlkə də, lap minlərlə uzun illərdən bəri



hər gün ölümün dəhşət doğuran sifətinə çəkinmədən, gözünü belə qırpmadan baxan fədakar və çalışqan peşəkarların işdən çıxarılmasının qarşısı alınacaq. Çünki bu insanlar çətin vəziyyətdə kimlərinsə onlara arxa çevirməsinə layiq deyillər. Son olaraq, cənab baş nazir, minilliklərdən bəri özünün gərəkliliyini, cəmiyyət üçün faydasını isbatlamış bir peşənin yaşam zəruriyyətindən doğan müdafiəsi naminə artıq dərəcədə xahiş edirik ki, bizim ərizəmiz əsasında lazımlı qərarın təcili qəbul edilməsinə sərəncam verəsiniz. Həmçinin ən qısa müddətdə elementar ədalətin bərpası naminə yeni kredit xətti açaraq bizə uzunmüddətli faizsiz borc ayrılmasına nail olasınız. Heç bir şübhə ola bilməz ki, bu kredit varlığı nə tarixin, nə də tarixəqədər adlandırılan dövrün də heç vaxt şahidi olmadığı təhlükə ilə ilk dəfə üz-üzə durmuş iqtisadiyyat sektorunun tezliklə canlandırılmasına xidmət edəcək. Çünki özünün dünyəvi həyatını başa vurmuş bəşər övladının nümayəndəsi onun cəsədini gec-tez torpağa tapşıracaq bir kəsdən heç yerdə, heç vaxt, heç bir şəraitdə məhrum edilməməlidir. Bu, yalnız o halda mümkün olardı ki, torpaq özü urəyigenişlik göstərərək qoynunu açıb mərhuma öz bətnində sonuncu sığınacaq versin. Hörmətlə, tarix, imza".

Bunun ardınca həm şəxsi, həm də dövlətin nəzdində olan xəstəxanaların, hospital və klinikaların rəhbərliyi təxirə salmadan səhiyyə və sosial təminat nazirliklərinin qapılarını döyməyə başladılar ki, onların rəhbərlərinə öz narahatlıqlarını çatdırsınlar. Bu narahatlıqlar isə, nə qədər qəribə olsa da, təminat məsələsinə aid idi. Sırf tibb-səhiyyə problemlərinə yox. Bəyan edilirdi ki, bu sektorda daimi hərəkətdə olan zəncirin halqaları xəstələrdən və daha xəstə sayılmayan iki qisimdən ibarətdir: bir qismi artıq sağalaraq xəstəxananı tərk edir, digərləri isə mərhumlar sırasına keçirlər. Bu zəncirin hərəkətində, əgər belə demək mümkündürsə, indi qısaqapanma kimi bir hadisə baş verib. Lakin əgər sırf elektrotexniki terminlərdən istifadə etməsək, onu pazla müqayisə

edə bilərik. İki taxtanı bərkitmək üçün aralarına çalınan paz yox, yollardakı paz, ya da tıxac. Qısasını desək, xəstəliklərinin, bədbəxt hadisə nəticəsində aldıqları xəsarətlərin ağırlığına görə adi vəziyyətdə artıq çoxdan haqq dünyasına köç etməli olan pasiyentlərin sayı dayanmadan artır. "Vəziyyət son dərəcə ciddidir, – xəstəxana rəhbərləri durmadan təkrar edirdilər, – artıq biz xəstələri dəhlizlərdə yerləşdiririk və hər şey ona dəlalət edir ki, ən yaxın zamanlarda nəinki çarpayıların, hətta otaqların çatışmazlığıyla üzləşəcəyik, çünki onların hamısı, tibbi personal üçün nəzərdə tutulanlar da daxil olmaqla, ağzına kimi doludur". Bildirirdilər ki, bu problemin həlli üçün mövcud olan yeganə yol birbaşa Hippokrat andına toxunur, belə bir qərarın qəbulu nə tibbi, nə inzibati deyil, yalnız siyasi ola bilər. Arifə bir işarə... Səhiyyə naziri hökumətin rəhbəriylə məsləhətləşmələrdən sonra aşağıdakı sərəncamı verdi: "Xəstələrin stasionarlara bitmək bilməyən, bütün səhiyyə sisteminin fasiləsiz fəaliyyətini əhəmiyyətli dərəcədə əngəlləyən və birbaşa ölmək ərəfəsində olan, yaxşılaşmağa və yaxud müsbət dinamikaya, ən azı, tibb elmi yeni dərmanlar və yeni müalicə metodları təklif edənədək heç bir ümid olmadan qeyri-müəyyən müddətə qalacaq pasiyentlərin sayının kəskin surətdə artmasından qaynaqlanan axını nəzərə alıb, hökumət xəstəxana rəhbərlərinə məsləhət görür ki, hər bir pasiyentin dəqiq ölümlə sonuclanan proseslərin dönməzliyini təsdiqləmək məqsədi daşıyan hərtərəfli müayinəsindən sonra belə xəstələri qohumlarının himayəsinə versinlər. Amma bununla yanaşı, tibbi müəssisələrin rəhbərliyinə tapşırılır ki, ailə-ev həkimlərinin zəruri və yaxud arzu edilən saydığı bütün kliniki tədqiqatların və müalicə tədbirlərinin təşkilini də həyata keçirsinlər. Bu qərar son dərəcə inandırıcı olan belə bir qənaətə əsaslanır ki, daim ertələnən ölüm ərəfəsində olan pasiyent üçün bu cür detalların heç bir əhəmiyyəti yoxdur. Hətta şüurunun ani aydınlaşdığı dəqiqələrdə belə onun üçün harada – ağzına



kimi dolu xəstəxana palatasında, yoxsa ailəsinin içində – yatmasının elə bir dəxli ola bilməz. Çünki nə orada, nə burada nə ölə, nə də ki sağala biləcək. Hökumət fürsətdən istifadə edərək vətəndaşların diqqətinə yetirir ki, ölümün yox olmasını doğuran, hələ də aydınlaşmamış qalan səbəblərin çözülməsinə yönəlmiş tədqiqatlar tam sürətiylə davam etdirilir. Məlumat verirlər ki, bu yaxınlarda yaradılmış, tərkibinə müxtəlif konfessiyaların ruhanilərı və müxtəlif fəlsəfi cərəyanların nümayəndələri – onların bu məsələ ətrafında deməyə həmişə sözləri olur – daxil edilmiş ekspert komissiyasına əbədi həyat kimi incə və vasvası problemdən baş çıxarmaq, eyni zamanda, cəmiyyətimizi gözləyən digər problemlərin təxmini siyahısını hazırlamaq tapşırılıb. Bu problemlərdən birincisi və ən əsası isə belə qəddar bir sualda təzahür edir: "Əgər şiltaqlıq və qəribəliklərinin qabaqlar olduğu kimi ölümlə sonuclanacağına bel bağlamaq artıq mümkün deyilsə, onda qocalarla nə edək?"

Qocalar evinin – öz altına batıranlara qulluq etmək üçün, onların fırtığını və ağızlarının suyunu silmək üçün, sfinkterin qocalıqdan həddən ziyadə zəifləməsindən qaynaqlanan – özü də necə qaynaqlanan – sidik saxlaya bilməmənin nəticələriylə mübarizə üçün gecələr əcdadlarının zəif çağırışına görə isti yataqdan qalxmağa nə vaxtı, nə lazımi səbri, nə də həvəsi olmayan ailələrin rahatlığı üçün yaradılmış bu nəcib müəssisələrin rəhbərliyi də dəfn büroları və xəstəxanaların saldığı cığırla tələsik irəli yürüyə-yürüyə başlarını divara çırpmağa başladılar. Ədalət naminə etiraf edirik ki, onların qarşısında duran seçim – yeni sakinləri qəbul etmək, yoxsa etməmək – özünün dözülməz üzücülüyünə görə, həqiqətən, misilsiz idi. Hər şeydən əvvəl ona görə ki, nəticə – bu növ dilemmaların həllini müəyyənləşdirən meyar elə nəticənin necəliyi deyilmi – bu vəziyyətdə tamamilə eyni idi. Özlərinin bədbəxtlik yoldaşları kimi venadaxili iynələrin vurulması və üzərində bənövşəyi matəm lentləri olan çələng və əklillərin toxunması

üzrə ustalar, həyatla ölümün sürətli, ara vermədən növbələşməsinə adət etmiş internat və qocalar evinin rəhbərləri də himayələrində olan insanların üz və bədən cizgilərinin yalnız düşkünləşməni, öləziməni daha bariz göstərmək istiqamətində dəyişəcəyi bitmək bilməyən dövr barədə düşünməyə belə qorxurdular. Günbəgün sıxlaşan, sifəti bişmiş almaya bənzədən qırışlar toru, əllərdəki əsmə və dizlərin zəifliyi, yerişin ləngəri, insanı kükrəyən dənizdə xırdaca bir qayığa oxşadan hərəkət yanlışlığı barədə düşünmək, doğrudan da, qorxulu idi. Bu qayğısız qürub evinə düşəndə – qocalar evinin rəsmi adı belə idi – hər yeni sakin nəzarətçilər üçün əvvəlcə mütləq sevindirici qayğıların predmetinə çevrilirdi. Çünki onun adını yadda saxlamaq, möhkəm əzbərləmək gərək idi, çöl dünyadan özüylə gətirdiyi, yalnız ona xas olan adətlər, əcaib qəribəliklərlə birər-birər tanış olmaq lazım idi. Təqaüddə olan məmur bütün gün ərzində öz diş fırçasını məcun qalıqlarından təmizləyirdi; bir qarı isə gecələr uzunu öz ailəsinin nəsil şəcərəsini ağac şəklində çəkməklə məşğul idi və onun budaqlarından asılmış damalara müxtəlif adları heç cür yerləşdirə bilmirdi. Yeni gələn, adəti üzrə, bir neçə həftə sürən məxsusi diqqət və qayğı dönəmini bitirərək bütün qalan pasiyentlərlə bərabərləşənə kimi hamının sevimlisi və ərköyününə çevrilirdi – həyatında sonuncu dəfə – həyat isə bu yaxınlardan etibarən, kim bilir, niyə və nədən əbədi davam etməyə başlamışdı. İndi onu bu yeni arkadiyanın istisnasız olaraq hər sakinini öz şüalarının bərəkətiylə qızdıran günəşlə müqayisə etmək mümkün idi. Müqayisə etmək olar, sadəcə, lazım deyil, çünki biz hər gün bu günəşin necə solduğunu öz gözlərimizlə görürük, lakin sağ qalırıq. Artıq hər şey dəyişib. Artıq hər yeni sakinin taleyi qabaqcadan bəllidir və o internatın qalan sakinləri ölümün təsadüfən onları da götürüb özüylə aparmaması üçün otaqlarına girərək, qapılarını bərk-bərk bağladığı qədim və gözəl zamanlarda olduğu kimi buranı evdə, yaxud xəstəxanada ölmək üçün tərk etməyəcəkdilər.



İndi artıq bizə bəllidir ki, bütün bunlar bir də dönməyəcək keçmişdə qalıb. Amma hökumət dairələri də gərək bizim barəmizdə, belə müəssisələrin sahibləri, müdiriyyəti və əməkdaşları barədə düşünsünlər. İndi çox acınacaqlı olan taleyimizin qeydinə qalsınlar. Bəs əllərimizi yanımıza sallayıb dinməz gözləyəndə bizə kim sığınacaq verəcək? Diqqət yetirin ki, özümüzə aid olan heç bir şeyin ixtiyarı bizdə deyil, lakin o, uzun illər boyunca bizi işlə təmin eləyib. Oxucu, yəqin, fikir verdi ki, burda artıq əməkdaşların xoru başlayır. Başqa sözlə desək, əgər oradan filan qədər müştərini çıxarmasaq, bizim qayğısız qürub sığınacaqlarında özümüzə yer olmayacaq. Bu fikir artıq xəstəxanalardakı tıxacları müzakirə eləyəndə hökumətin ağlına gəlib. Hökumət onda dedi ki, qoy ailə də öz vəzifə borcunu xatırlasın. Lakin bunun üçün ailənin başında, heç olmasa, bir damcı şüurun, bütün qalan bədəndə isə, ən azı, bir az enerjinin qalması gərəkdir. Bununla yanaşı, hamıya şəxsi təcrübəsindən və dünyaya göz qoyarkən öyrəndiklərindən bəllidir ki, həm bunun, həm də onun istifadə müddəti bir nəfəs qədərdir, əgər onu, yəni bu nəfəsi, bizdə son zamanlar bərqərar olmuş əbədiyyətlə müqayisə eləsək, İlahinin indi bizim üçün qoyduğu nicat yolu belə müəssisələrin sayının artırılmasındadır. Özü də indiyə qədər olan kimi yaxşı əyyamlar görmüş malikanələrin, evlərin ayrılması ilə yox, lap sıfırdan başlayıb, məsələn, beşguşəli Pentaqon, ya Babil qülləsi, ya da Knoss labirinti kimi nəhəng binalar tikmək lazım olacaq. Əvvəl binalar, sonra məhəllələr, onun dalınca şəhərlər, ya da, gəlin hər şeyi öz adı ilə çağıraq, dirilər üçün nəhəng qəbiristan salmalıyıq. O dirilərin ki, faciəvi, mütləq qocalığı Tanrının nəsihət etdiyi kimi və yalnız onun özünə bəlli olan müddətə, yəni ömrün daim qeyri-müəyyən müddətə təxirə salınan və bununla da ikibaşlı problem yaradan sonuna kimi onların da lazımi qayğı ilə əhatə olunmasına ehtiyac var. Lakin həmin o iki başı olan, vəzifəli şəxslərin diqqətini tələb edən problemin mahiyyəti isə bundan

ibarətdir ki, bir-birindən daha yaşlı qocaların sayının artması onlara qulluq göstərənlərin də sayının durmadan artmasına səbəb olacaq. Bu da öz növbəsində cəmiyyətdə mövcud olan və quruluş etibarilə romb şəklində təsəvvür etmək mümkün olan yaş nisbətini məcbur edəcək ki, öz formasını dəyişsin. Bir də qocaların sayının ara vermədən, dəhşətli dərəcədə artması yeni nəsilləri piton kimi udacaq, onlar isə əsas etibarilə sanitarlara və dayələrə çevrilərək öz həyatlarının əsas hissəsini müxtəlif yaşlı qocaların – lap adilərindən tutmuş, qurdla qiyamətə qalanlara kimi – budaqlardan qoparaq üst-üstə qalaqlanan, keçən, ondan qabaq, ondan qabaqdan da qabaqkı illərin lay-lay xəzəlləri kimi heç vaxt seyrəlməyəcək, əbədi sıralarla əbədiyyətə gedən ataların, babaların, ulu babaların və başqa, daha uzaq babalarının qayğısını çəkməyə həsr edərək – *ov sont les neiges d-antan*[1], deyən şairin dalınca biz də sual edək. Özləri də qarışqa sürüləri kimi səf-səf düzüləcəklər, koruş, karqulaq, selikli qişanın iltihabından – dərd, dəbəlikdən əzab çəkərək həyat yollarında dişlərini və saçlarını itirən bir ordu kimi addımlayacaqlar və bəlkə də, artıq heç addımlamayacaqlar, çanaq sümüyü başlığının sınmasından, ya da iflicdən uzanıqlı vəziyyətdə qalaraq çənəsindən axan seliyi silməyə qadir olmayacaqlar. İnanın buna, əlahəzrətlər, cənab nazirlər! Başımıza qəfil gəlmiş bu bədbəxtlik ən dəhşətli röyalarımıza da gəlməzdi. Belə bir əyyam heç bəşər övladı mağaraların tükənməz qaranlığında yaşadığı dövrlərlə belə müqayisəyə gəlməz. İlk qayğısız qürub sığınacağını yaradarkən qazandığımız təcrübəyə arxalanıb sizi inandırmaq istəyirik ki, bunlarla müqayisədə bütün qalan şeylər uşaq oyun-oyuncağından savayı bir şey deyil. Amma təxəyül də axı bizə nəyə görəsə bəxş edilib və icazə verin, kəsəsini söyləyək, cənab baş nazir. Əlimizi ürəyimizin üstünə qoyaraq deyək: "Ölüm yaxşıdır, ölüm bundan yaxşıdır!"

[1] "Bəs ötənilki qar hanı?" (*fr.*) – Fransua Viyonun "Keçmiş zamanın xanımları" balladasından bir misra.

"Bizim sahənin başı üzərini ölüm təhlükəsi alıb" – sığorta cəmiyyətlərinin prezidenti həyatlarının sığortası üçün bağladıqları müqaviləni təcili olaraq dayandırmağı tələb eləyən, sanki, eyni mətnin nüsxələri olan saysız-hesabsız məktubları nəzərdə tutaraq jurnalistlərə müraciətini məhz bu cümlə ilə başladı. Bu məktubların hər birində və hamısında məlumat verilirdi ki, geniş kütlələrə bəlli olduğu kimi, ölüm öz mövcudiyyətini bitirdiyi üçün aylıq sığorta haqqını əvvəlki kimi ödəmək, əgər yumşaq ifadə ilə söyləsək, tam mənasız bir iş olardı. Bu vəsaitlər indi yalnız, onsuz da, varlı olan sığorta şirkətlərinin daha artıq sərvət toplamasına xidmət edir. "Mən eşşəklərə kökə yedirtmək fikrindən uzağam" – qəzəblənmiş müştərilərdən biri öz məktubunun post skriptumunda belə yazırdı. Digərləri isə bir az da uzağa gedib indiyədək ödədikləri vəsaiti də geri tələb edərdilər, amma bunu vicdanlarının təmizliyi üçün, ehtiyat üçün yazırdılar, bir də gördün, bəxt işlədi, alındı. Jurnalistlərin labüd "Belə ağır topların qəfil yaylım atəşinə məruz qalmış sığorta təşkilatları indi nə etmək niyyətindədirlər" sualına federasiya prezidentinin cavabı belə oldu ki, hüquqşünaslar hal-hazırda standart sığorta polislərini araşdıraraq onda lap kiçicik də olsa, elə məqamlar tapmağa çalışırlar. Qanun çərçivəsində qalaraq, adətən, xırda hərflərlə yazılan bəndlərdən hər hansı birinə əsaslanıb müştəriləri məcbur etmək istəyirlər ki, öz iradələrinin ziddinə belə olsa, ömürlük pul ödəməkdə davam etsinlər. Daha doğrusu, əbədi, amma böyük ehtimalla müştərilərə bir centlmen sazişi, ağlabatan bir kompromis təklif olunacaq. "Təklifin mahiyyəti bu olacaq ki, müqavilənin mətninə qısa bir əlavə ilə səksən yaşı vacib ölüm yaşı elan edəcək ki, bunu da məcazi mənada başa düşmək gərəkdir", – deyə o, lütfkar bir təbəssümlə tələsik əlavə elədi: "Beləliklə, ödənişlər əvvəlki kimi tutulacaq, düz o vaxta qədər ki, xoşbəxt sığorta olunan özünün səksənilliyini bayram etsin və elə həmin gündən etibarən qanuni mərhuma çevrilərək sığorta mükafatını tələb etmək hüququ qazansın

və bu mükafat ona tam məbləğdə ödəniləcək. Əlavə etmək lazımdır ki, müqavilə müştərinin istəyi ilə növbəti səksən il üçün də uzadıla bilər və bu müddətin sonunda bir də və sairə; hər dəfə də indi deyilən kimi virtual ölüm qeydə alınaraq ödəniş təkrarlanacaq, sonra bir də, bir də". Bu yerdə jurnalistlərin heyranlıq dolu nidaları eşidildi və zalda səslənmiş yüngül alqış sədaları altında minnətdar prezident başını tərpətdi. Taktiki gediş strateji niyyət səviyyəsinə ucaldı, çünki elə həmin gün sığorta şirkətlərinə yeni məktublar axmağa başladı və bu məktublar əvvəl yazılanların etibardan düşmüş hesab edilməsini istəyirdilər. Bütün müştərilər sığortaçılarla həmin centlmen sazişini imzalamağa tələsirdilər. Bu, həmin o nadir hallardan idi ki, nə şiş yanırdı, nə kabab, hamı da razı qalırdı. Xüsusilə də düz təpələrinə düşən daşdan bir tük qədər yayınmağa müvəffəq olmuş sığorta şirkətləri. Şübhə yox idi ki, öz vəzifəsini belə yüksək səviyyədə yerinə yetirən federasiya prezidenti ən yaxın seçkilərdə öz postuna yenidən yiyələnəcəkdi.

* * *

Qarışıq komissiyanın ilk iclası barədə onun uğurlu keçməsindən savayı, hər şey demək olardı. Bütün məsuliyyət qocalar evinin rəhbərliyi tərəfindən hökumətə ünvanlanmış dramatik memorandumun boynuna düşürdü. O memorandum ki, bu təhdidedici ifadəylə bitirdi: "Ölüm daha yaxşıdır, cənab baş nazir, bundan ölüm yaxşıdır". Adətən, qaraqabaq pessimistə və güləyən optimistə bölünən filosoflar mininci dəfə açdıqları yarıboş və ya yarıdolu stəkan barəsindəki bəhslərinə, heç olmasa, qismən yekun vura biləndə, onları bir yerə toplayaraq əsas qayəsi ölümlə müqayisədə əbədi həyatın bütün üstünlükləri və çatışmazlıqlarının sadalanmasından ibarət olacaq müzakirə açmaq istəyirdilər. Vahid cəbhədə çıxış edən dini cərəyanların nümayəndələri bu müzakirəni başqa və onları maraqlandıran yeganə məcraya yönəltməyə çalışdılar. Onlar sübut etmək istəyirdilər ki, ölüm ilahi səltənətinin zəruri bünövrəsidir və



deməli, ölümsüz gələcək barədə bütün mübahisələr nəinki küfr olacaq, həm də absurd görünəcək. Çünki ilkin şərt kimi özündə Tanrının yoxluğunu, hələ, bəlkə də, yox olmasını ehtiva edirdi. Təzə bir şey yoxdur: kardinal artıq qəmbərqulunun nədə olduğuna işarə elədi, baş nazirlə söhbətində bu həlledilməz dilemmanın teoloji çalarlı növünə barmağını uzadaraq ona lap qaranlıq, eyhamlı sözlərlə olsa da, söylədi ki, ölümsüz dirilmə də olmayacaq. Dirilməsiz isə kilsənin varlığı özünün bütün mənasını itirir. Əgər Tanrının insanlara verdiyi, onun çarlığına aparan yola salmaq üçün yeganə alət olan ölüm yoxdursa, bir və təkzibedilməz nəticə çıxarılmalıdır: bütün müqəddəs tarix dalana dirənmiş olur. Bu arqument pessimist-filosofların ən yaşlı nümayəndəsinin ağzından səsləndi, amma o, bununla da kifayətlənmədi, bir az da uzağa gedərək bütöv nitq icad elədi:

– Dünyadakı bütün dinlər, biz onları hansı tərəfə, hara fırlasaq da öz mövcudiyyətlərini bircə şeylə – ölümlə əsaslandırırlar. Çünki ona su, hava kimi ehtiyacları var.

Din xadimləri etiraz etmədilər. Əksinə, onlardan katoliklərə aid biri dedi:

– Siz tamamilə düz buyurursunuz, biz elə ona görə mövcuduq ki, insanlar bütün ömürləri boyu qorxunun ağır yükünü boyunlarında dəyirman daşı kimi daşısınlar və özlərinin ölüm saatını azadlıq kimi qarşılasınlar. Cənnətə düşəcəklərinə ümid bəsləsinlər.

– Ya cənnətə, ya cəhənnəmə, ya da ki heç hara və onu deməliyəm ki, ölümdən sonra baş verənlər bizi, insanların düşündüyünə rəğmən, daha az maraqlandırır.

– Din, cənab filosof, dünyəvi işlərlə məşğul olur, səmavi məsələlərə qətiyyən aidiyyəti yoxdur.

– Belə bir şey eşitməmişəm.

– Təbii, axı malınızı satmaq üçün nədənsə danışmaq məcburiyyətindəsən. Başqa sözlə desək, siz ölümdən sonrakı həyata inanmırsınız.

– Biz onu nəzərə alırıq.

Filosofların ən qocası üzündə qeyri-müəyyən təbəssümün yaranmasınadək gözlədi – belə təbəssüm, adətən, çətin, amma uğurla sonuclanan laboratoriya təcrübəsinə qarşılıq verir.

– Əgər beladirsə, – söhbətə nikbin cinahın filosofu qarışdı, – onda niyə ölümün yoxa çıxmasından bu dərəcədə narahatsınız?

– Kim deyir ki, o yoxa çıxıb, ölüm, sadəcə olaraq, öldürməyinə son qoyub.

– Razıyam, amma nə qədər ki bu tərəddüd öz həllini tapmayıb, mənim sualım qüvvəsində qalır. Çünki insanlar ölməsə, hər şey mümkün olur.

– Bu pisdir məgər? – qoca filosof maraqlandı. – Hər şeyə icazənin olması, elə heç nəyə icazənin olmaması qədər pisdir.

Bu yerdə hamı susdu. Masanın ətrafında oturmuş səkkiz kişiyə ölümsüz gələcəyin insanlara nələr vəd etdiyi barədə mülahizələr yürütmək tapşırılmışdı və əldə olan məlumatlara əsasən, bəşəriyyətin rastlaşacağı yeni problemlər haqda daha uzaq proqnozlar müəyyənləşdirilməliydi. Demək artıqdır ki, bəlli köhnə problemlərin də hamısı mütləq gərginləşəcəkdi.

– Hamısından yaxşısı, ümumiyyətlə, heç bir şey eləməməkdir, – nikbin filosif deyirdi, – gələcəyin problemlərini qoy gələcəyin özü həll etsin.

– Bəla burasındadır ki, – bədbin filosof cavab verdi, – bu problemlər, həqiqətən, gələcəyə aid olsa da, artıq yetişib, bütün qalan şeylərlə yanaşı bizim əlimizdə internatların, xəstəxanaların, dəfn bürolarının, sığorta agentliklərinin, onların arasında bütün vəziyyətlərdən qazancla çıxmaq üçün usta olan sığortaçıları çıxsaq, yalnız sonuncular bütün vəziyyətlərdən qazancla çıxmaq üçün yol tapacaqlar. Hökumətə müraciətləri var, perspektivlər, etiraf etmək lazımdır ki, nəinki qaranlıq, hətta katastrofik, dəhşətli və ən parlaq təxəyyülü belə çaşdıracaq dərəcədə dözülməzdir. Mənim sözlərimi ironiya kimi qəbul etməyin, belə vəziyyətlərdə ironiyaya yol vermək axmaq zövqə dəlalət edərdi, – deyə protestant-

ların nümayəndəsi dilləndi, – lakin bizim komissiya ölü doğulmuş çağaya bənzəyir.

– Qayğısız qürubun rəhbərliyi düz buyurur, – deyə katolik danışdı, – bundan ölüm yaxşıdır.

– Komissiyanı təcili buraxmaqdan savayı təkliflər varmı, deyəsən, bu, elə bizim əsas arzumuzdur, – filosof-pessimist soruşdu.

– Biz, Roma katolik apostol kilsəsinin nümayəndələri, ümummilli kampaniyaya başlayacağıq və bütün möminləri Tanrının ən qısa bir zamanda bizə mərhəmət göstərərək ölümü qaytarması üçün dua etməyə çağıracağıq ki, bədbəxt bəşəriyyət, astanasında durduğu acı bəlalardan nicat tapa bilsin.

– Məgər Tanrı ölümə də rəhbərlik eləyir? – nikbinlərdən kimsə soruşdu.

– Bu ki bir sikkənin iki üzüdür: düz və tərs üzü.

– Əgər beladirsə, bəlkə, elə ölüm Tanrının öz iradəsiylə yox olub?

– Vaxtı yetişəndə bunun mənası bizə aydın olacaq, hələlik isə təsbehlərimizdən bərk yapışaq.

– Biz də dua etməyə başlayacağıq, amma təbii ki, təsbehsiz, – protestant gülümsündü.

– Bundan başqa, – katolik dilləndi, – küçələrə möminlərdən ibarət yürüş də çıxaracağıq, ad pefendem pluviat – yağış yağdırmaq üçün dua mərasimi olur ha, bax elə, – deyə katolik tərcümə elədi.

– Yox, biz hələ o dərəcəyə çatmamışıq, – protestant yenidən gülümsündü, – belə yürüşlərlə, belə mərasimlərlə heç vaxt maraqlanmamışıq.

– Nə etmək olar, – nikbin filosof ən yaxın zamanlarda düşmən sıralarına keçmək niyyətində olan bir adamın ahəngi ilə soruşdu, – indi, bütün qapıların üzümüzə çırpıldığı bir vaxtda biz nə etməliyik?

– Başlanğıc üçün bu iclası davam etdirməliyik, – deyə onun ağsaqqal, bədbin həmkarından səs gəldi – sonra isə...

– Sonra da fəlsəfi fikirlər yürütməyimizə davam edərik, əgər dünyaya ancaq bunun üçün gəlmişiksə, işimizin adı nədir?

– Niyə?

– Niyəsini isə bilmirəm.

– Onda nə üçün?

– Onun üçün ki, fəlsəfənin də ölümə ehtiyacı var və bu ehtiyac heç də dininkindən az deyil: biz elə öləcəyimizi bildiyimizdən filosofluq edirik də və nahaq yerə müsyö Monten[1] deməyib ki, filosofluq etmək – ölməyi öyrənməkdir.

Lakin heç filosof olmayanlardan da bəziləri – sözün hərfi mənasında – ölümün yolunu tapa biliblər. Nə qədər qəribə olsa da, ona görə yox ki, özləri ölmək öyrənsinlər, çünki bunun zamanı hələ yetişməmişdir; onun üçün ki, ölümü aldatsınlar, onun başqalarını aparmasına kömək eləsinlər.

Bəşər övladının, həqiqətən, geniş fantaziyaya malik olduğu ən qısa zamanda öz təsdiqini tapdı. Sərhəddən bir neçə kilometr aralıda bir kəndli ailəsi yaşayırdı və bu ailədə, yəqin ki, günahlarının ucbatından, bir yox, iki nəfər birdən can üstündə, ya da indi deyilən kimi, təxirə salınmış ölüm vəziyyətində idi. Onlardan biri baba – köhnə kişilərdən idi, hələ az əvvəl bütöv bir nəslin yenilməz ağsaqqalı sayılırdı; indi isə xəstəlik onu rəzil bir məxluqa, tör-töküntüyə, cındıra çevirmişdi, əlindən almadığı yalnız dili idi hələ. İkincisi – uşaq idi, bir neçə aylıq, heç "həyat", "ölüm" sözlərini də hələ bilmirdi və əsl ölüm də onun bu sözləri nə vaxtsa öyrənməsinə imkan verməmişdi. Onların hər ikisi, sözün birbaşa mənasında, nə ölü idi, nə diri. Xəstələrə həftədə bir dəfə baş çəkən kənd həkimi deyirdi ki, daha nə yardım etmək olar onlara, nə də ki ziyan vurmaq; hətta qabaqlar bəzi problemlərdən kəsə yolla can qurtarmaq imkanı verən həmin o iynədən vurmağın

[1] *Mişel de Monten* (1533–1592) – fransız yazıçısı, siyasi xadimi və filosofu. Onun qələmindən çıxmış "Təcrübələr" əsərinin birinci cildindən olan bu deyimi o, Siserona istinadən gətirir, Siseron isə, öz növbəsində, onu Platondan götürmüşdür.

da mənası olmazdı. Həkimin gücü çatan yeganə şey cəhd göstərib onları dartıb ehtimali ölümün olduğu yerə bir az da yaxınlaşdırmaqdı, amma bu da, əslində, boş, bihudə cəhd idi. Çünki ölüm də eyni anda öz əlçatmazlığını qoruyaraq bir addım geri çəkiləcəkdi və bununla da, namizədlə özü arasında eyni məsafəni saxlayacaqdı.

Ailə keşişə müraciət etdi, o dinlədi, nəzərlərini dağa zilləyib hamımızın Tanrı iradəsində qərar tutduğumuzu, onun isə mərhəmətinin nəhayətsiz olduğunu söyləməkdən yaxşı çıxış yolu tapmadı.

Hə, bu mərhəmət nəhayətsiz olmağına nəhayətsizdir, amma bizim atamızın, babamızın əbədi sükunətə dinclik içində çatması, bu dünyada heç kimə ziyan vurmamış körpəmizin nicatı üçün bəs eləmir. Onlar bax bu yarımçıq, nə oyanlıq, nə buyanlıq vəziyyətdə nicat üçün heç bir vasitə olmadan keçinməyə məcbur idilər. Buna hətta ümidləri belə ölmüşdü ki, birdən qoca dilləndi:

– Kimsə mənə yaxınlaşsın.

Onun ərdə olan qızı soruşdu ki, su istəyirsiniz yəqin.

– Su yox, ölmək istəyirəm.

– Axı özünüz yaxşı bilirsiniz, həkim dedi ki, bu, mümkün olan şey deyil. Daha ölüm yoxdur.

– Sizin bu həkimin heç nədən başı çıxmır, bu dünya yaranandan onda ölmək üçün həmişə fürsət də tapılıb, yer də.

– İndi isə yoxdur.

– Var.

– Atacan, həyəcanlanmayın, yoxsa qızdırmanız qalxar.

– Mənim qızdırmam yoxdur, heç olsaydı da, guya, nə baş verəcəkdi? Yaxşısı budur, mənə diqqətlə qulaq as.

– Eşidirəm.

– Yaxın gəl, qorxuram səsim sözümə baxmaya.

– Danışın.

Qoca onun qulağına bir neçə söz pıçıldadı. Qadın "yox", – deyə başını yellədi, amma o israr edirdi.

– Bunun heç bir faydası olmaz, – qorxudan karıxmış və bənizi qaçmış qızı dedi.

– Olar.

– Bəs olmasa?

– Hər halda, cəhd eləmək lazımdır.

– Yaxşı, bəs alınmasa, necə olacaq?

– Onda təzədən qaytararsınız məni bura.

– Bəs uşaq, uşağı neyləyək?

– Balacanı da özümlə götürəcəm. Əgər mən orada qalası olsam, o da mənimlə qalar.

Qızı fikrə getdi, üzündə bir çaşqınlıq oxunurdu və nəhayət, soruşdu:

– Bəs niyə burada yox? Elə bura gətirərik də.

– Sən nə danışırsan, təsəvvür elə ki, heç kəsin dəridən-qabıqdan çıxsa belə, ölə bilmədiyi bir əyalətdə qəflətən iki dənə meyit birdən peyda olsa, nə baş verər? Sən bunu necə izah edəcəksən? Bir də işlərin gedişinə baxanda, mən inanmıram ki, ölüm bizim bura dönməyimizə imkan verə.

– Ata, bu divanəlikdir.

– Hə, bəlkə də, həqiqətən, divanəlikdir, amma mən başqa çıxış yolu görmürəm.

– Biz istəyirik ki, siz yaşayasınız.

– Yaşayaq, amma bu cür yox, belə yox. Heç bilmirəm ölüyə oxşayan diriyəm, yoxsa diriyə oxşayan ölü.

– Əgər sizin istəyiniz, həqiqətən, budursa, biz onu yerinə yetirərik.

– Öp məni, bala.

Qızı dodaqlarını onun alnına toxundurub ağlaya-ağlaya çölə çıxdı. Və göz yaşları içində boğularaq qalan qohumlarına da məlumat verdi ki, atası elə bu gecə onu sərhəddən o üzə keçirməyi tapşırıb. O, elə düşünür ki, orada ölüm hələ qüvvədədir, öz işini görür, bizə isə yalnız atamızın iradəsini yerinə yetirmək qalır. Bu xəbər qürur və mütilikdən ibarət qarışıq bir hisslə qarşılandı. Qürur – ona görə ki, bir ağsaqqalın, necə deyərlər, öz ayaqlarıyla ondan qaçan ölümün dalınca getməsi hər gün baş vermir, mütilik – ona görə ki, onsuz da, hamının sonu ölümdür. Çünki artıq çoxdan deyilib ki, dünyada hər şeyə sahib çıxmaq olmaz. Bu igid qoca isə özündən sonra yalnız kasıb və təmiz ailəsini qoyub gedirdi. Bu ailə isə, heç şübhəsiz ki, onun xatirəsini daim əziz tutacaq.

Ailə təkcə otaqdan göz yaşları içində çıxan qızından, heç kəsə pislik eləməyə macal tapmamış körpədən ibarət deyildi – onun əri, üç sağlam, möhkəm uşağı olan ikinci qızı da vardı və bir də ərə getməmiş, bu fürsətini çoxdan fövtə vermiş bir bibiləri yaşayırdı. İkinci kürəkəni, yəni otaqdan göz yaşları içində çıxan qızın əri uzaq bir ölkədə idi, ora işləməyə getmişdi və sabah eşidəcəkdi ki, yeganə oğlundan da məhrum olub, çox hörmət etdiyi qayınatasından da. Həyatdır da, nə etmək olar: bir əliylə verir, sonra da, vaxtı çatanda – o biri əliylə hər şeyi alır. Amma bir kəndli ailəsinin içindəki qohumluq telləri bizim hekayətimiz üçün o qədər də mühüm deyil. Çox güman ki, bu insanlar roman boyu bir də görünməyəcəklər. Bu, bizə hamıdan artıq bəllidir, lakin belə hesab edirik ki, təhkiyə ustalığı baxımından bu tarixçənin ən dramatik epizodlarından – inandırıcı görünməyən, amma həqiqət olan – birinin baş qəhrəmanına çevrilmək nəsibi olmuş insanlara xəsisliklə bir-iki sətir ayırmaq da qətiyyən düz olmaz. Odur ki dəyməyək, qoy qalsınlar. Hə, unutdum söyləyəm ki, ərə getməmiş bibiləri öz tərəddüdlərini dilinə birinci gətirdi:

– Bəs görəndə ki, can üstə olan, amma heç cür ölə bilməyən adamlar daha yoxdur, qonşular nə deyəcək?

Ümumiyyətlə, bibinin belə qəliz danışmaqla heç arası yox idi və əgər indi danışırdısa, yalnız ona görə idi ki, heç kəsə pislik eləməyə macal tapmamış uşağın adını çəkəndə, ya da "mənim atam" deyəndə hönkürüb ağlamasın. Ona cavabı üç uşaq atası verdi:

– Nə baş verdiyini söyləyərik, sonra da oturub gözləyərik ki, görək nə olur; heç şübhəsiz ki, bizi onları xəlvəti

basdırmaqda, özü də hakimiyyət dairələrini xəbərdar etməyərək, üstəlik də, başqa ölkədə basdırmaqda ittiham edəcəklər.

– İlahi pərvərdigar özü qorusun, kaş buna görə müharibə qalxmasın, – bibi cavab verdi.

Gecəyarısına az qalmış onlar sərhədə sarı yollandılar. Qəribə hadisələr baş verəcəyindən şübhələnmiş kənd də həmişəkindən xeyli gec sakitləşmişdi. Budur, küçələr boşaldı, birbirinin ardınca pəncərələrin işıqları söndü. Qatırı arabaya qoşdular, sonra da qocanı böyük çətinliklə – elə bir çəkisi qalmasa da – arabaya qaldırdılar, o, zorla eşidilən səsiylə "külünglə beli unutmamısınız ki?" soruşanda onu sakitləşdirdilər: "Narahat olmayın, atacan" və sonra da ana beşikdən balasını çıxararaq sinəsinə sıxıb pıçıldadı:

– Əlvida, oğlum, biz daha səninlə görüşməyəcəyik!

Amma bu, həqiqət deyildi, çünki o da bacısı və bacısı əriylə bir yerdə getməyə hazırlaşırdı. Onların görəcəyi iş üçün üç nəfər heç də çox deyildi. Ərdə olmayan bibi evi həmişəlik tərk edənlərlə vidalaşmaq istəmirdi və otaqların birində üç azyaşlı uşaqla kilidləndi. Araba təkərlərinin çənbərləri kəndin kələ-kötür, daş döşənmiş yollarıyla gurultu salıb hər şeylə maraqlanan həmkəndlilərini pəncərələrə sinməyə vadar edərək, qonşularının belə bivaxt hara getdikləri haqda fikirləşməsinlər deyə, ailə dolayı yol seçdi. Əsas yola kəndin ərazisindən xeyli kənarda çıxdı. Dövlət sərhədi uzaq deyildi, amma əsas yol ona çıxarmırdı. Elə bu səbəbdən az sonra yenə də arabanın zorla keçdiyi dar yola burulası oldular. Hələ üstəlik, yolun sonuncu tikəsini də piyada getməliydilər. Odur ki qocanı necə aparacaqdılar, bilmirdilər. Xoşbəxtlikdən, yeznələri bu ətrafın meşələrini yaxşı tanıyırdı, çünki buraları çiynində ov tüfəngi, qarış-qarış gəzmişdi. Bundan başqa, bir az qaçaqmalçılığı da vardı. Arabanı qoyacaqları yerə kimi, təxminən, iki saat yol getdilər, çatanda isə yeznənin ağlına gəldi ki, qocanı qatırın belinə şəlləyib heyvanın dizibərkliyinə bel bağlasınlar. Qatırı açdılar; artıq qayışları yığışdırdılar və



başladılar qocanı birtəhər, min bir müsibətlə heyvanın belinə qaldırmağa. Qadınlar ağlayıb-sıtqayırdılar və onsuz da, az olan gücləri göz yaşlarıyla axıb gedirdi. Yazıq qoca, az qala, huşunu itirirdi, sanki, ölüm məmləkətinə aparan yolun ilk kandarından artıq keçmişdi. "Alınmır", – deyə yeznə dilxor-dilxor dilləndi, amma bu yerdə ağlına bir şey gəldi. Əvvəl heyvanın belinə özü minəcək, sonra da qayınatasını yuxarı çəkərək qabağında əyləşdirəcək: "Onu qollarımla bərk-bərk qucaqlayıb tutaram". Cavan ana isə arabaya yaxınlaşdı, körpənin üstünü örtdükləri yorğanın qıraqlarını düzəldirdi ki, uşaq soyuqlamasın, sonra da qayıdıb bacısına kömək eləməyə başladı. Amma heç cür alınmırdı, lap dəridən-qabıqdan çıxsalar da... Qocanın içinə, sanki, qurğuşun doldurmuşdular, əllərindən gələn onu ancaq yerdən azacıq qaldırmaq oldu. Bu an görünməmiş, fövqəltəbii bir şey baş verdi. Sadə dillə desək, möcüzə. Sanki, yerin cazibə qüvvəsi bir anlıq yoxa çıxdı, ya da ki onun vektorunun əyrisi öz istiqamətini dəyişərək aşağıdan yuxarıya doğru yönəldi, qocanın bədəni qızlarının əllərindən yavaşca azad olaraq özü havaya qalxdı və ehmallıca kürəkəninin qolları üstünə endi. Lap axşamdan bəri yağacağını göstərən sıx buludlarla örtülmüş səma isə qəflətən təmizləndi və ayın qabağı açıldı. "Hə, tərpənə bilərik, – yeznə arvadına müraciətlə dedi, – qatırı sən çəkəcəksən". Ana yorğanın bir qırağını qaldırıb oğluna baxdı. Onun qapalı gözləri indi iki solğun ləkəyə bənzəyirdi, sifətinin cizgiləri qarışırdı. Qadın elə çığırdı ki, bütün ətraf səsə gəldi, meşə heyvanları yuvalarında diksindilər: "Yox, bacarmıram, mən onu o tərəfə aparmayacam, öz əllərimlə ölümə verməyəcəm balamı, atamı aparın, mən burada qalacam". Bacısı ona yaxınlaşıb dedi:

– Nədir, istəyirsən, illər uzunu onun necə əzab çəkməsinə tamaşa eləyəsən?

– Sənin uşaqların salamatdır, sənin üçün danışmağa nə var ki.

– Sənin oğlun da elə mənimkidir.

– Əgər elədirsə, onda özün apar onu, mən bacarmıram.

– Sən bacarmırsan, mənə isə olmaz. Bu, öldürməyə bərabər bir şeydir.

– Nə fərqi var, kim aparacaq.

– Ölümə verməklə öldürmək eyni şey deyil, ən azı, bu uşağın vəziyyətində. Onun anası sənsən, mən yox.

– Məgər sən öz balalarından birini, ya da elə hamısını birdən apara bilərdin?

– Yəqin, bacarardım, amma dəqiq deyə bilmərəm.

– Deməli, mən düz deyirəm.

– Əgər belədirsə, onda bizi burada gözlə, babanı aparaq.

Qadın bunu deyib çəkildi, qatırın noxtasından yapışaraq ərinə müraciətlə dilləndi: "Getdik". "Getdik, – deyə o cavab verdi, – amma addım-addım, yıxılıb eləyərik".

Göyün üzündə bədirlənmiş ay par-par yanırdı. Haradasa irəlidə sərhəd xətti keçirdi – yalnız xəritədə görünən xətt.

– Necə biləcəyik sərhədin yerini, – arvadı soruşdu.

– Atamız xəbər verəcək bizə, – cavab belə oldu.

O da başa düşərək daha heç nə soruşmadı. Bir az da irəlilədilər; daha yüz metr; daha on addım və qəflətən ər dedi:

– Çatdıq.

– Bitdi.

– Hə.

Arxadan kiminsə səsi təkrar elədi:

– Qurtardı.

Ana ölü balasını sonuncu dəfə sol əlinin üstünə keçirdi, sağ əliylə isə yeznəsiylə bacısının bayaq unutduğu külünglə beli çiyninə aldı.

– Bir az da gedək, bax o açıqlığa kimi, – yeznə dedi.

Uzaqda, yamacda kəndin işıqları görünürdü. Qatırın necə yeriməsindən bəlliydi ki, torpaq yumşaqdır – qazmaq asan olacaqdı.

– Bax bura xoşuma gəlir, – nəhayət ki, yeznə dilləndi, – elə ağac da yaxşı nişanədir, gül-çiçək gətirəndə asan taparıq.



Ana əlindəki bellə külüngü buraxıb, oğlunu üsulluca yerə endirdi. Sonra hər iki bacı son dərəcə ehtiyatla, qatırdan enən kişinin köməyini gözləmədən qocanı da uşağın yanına uzatdılar. Ana hönkürtü çəkib eyni ahənglə təkrar edirdi:

– Mənim atam, mənim balam...

Ağlayan bacısı isə onu qucaqlayıb dedi:

– Belə yaxşıdır, belə yaxşıdır, bu, həyat idi məgər?

Hər ikisi dizüstə çökdülər, ölümü aldatmağı bacarmış mərhumlar üçün ağladılar. Yeznə isə bellə silahlanıb artıq xəndək qazırdı, onun içindən torpağı çıxarır, yenə qazırdı və dərinləşdikcə torpaq da bərkiyir, daşlı olurdu. Odur ki yalnız yarım saat səylə işləyəndən sonra qəbir lazımi dərinlikdə oldu. Nə tabut vardı, nə kəfən. Cəsədlər torpağa adi paltarlarında tapşırılacaqdı. Kişi və iki qadın güclərini səfərbər edərək – o, qəbrin içinə endi, qadınlar isə sağ-soluna keçdilər – başladılar qocanın cəsədini qəbrə endirməyə. Qızları onun xaça mismarlanıbmış kimi yana açılı əllərindən tutmuşdular, yeznə də qəbul edirdi. Budur, cəsəd dördbucaqlı xəndəyin içinə uzandı. Qadınlar ara vermədən ağlayırdılar, yeznənin isə gözləri qupquru idi, amma qızdırmalı kimi tir-tir əsirdi. Dəhşət hələ qabaqda idi. Göz yaşları və inilti sədalarıyla körpəni də məzarın içinə endirdilər. Əvvəlcə babanın böyrünə yerləşdirdilər, amma nəsə narahat alındı: balaca, zəif bədən gərəksiz, əhəmiyyətsiz həyat idi, sanki, tək, ayrı uzanmışdı, lap yad kimi. Elə bil, yiyəsiz idi. Onda kişi əyildi, uşağı qaldırdı, üzü üstə qocanın sinəsinə uzatdı. Onun əllərini isə körpənin balaca kürəyində cütlədi və bu dəfə yaxşı alındı. Hər ikisi əbədi sükunətlərini rahatlıq içində tapacaqdılar, artıq üstlərini torpaqlamaq olardı – ehtiyatla və tədricən. "Qoy hələ bir müddət bizi görsünlər, vidalaşsınlar, biz də onların nə dediklərini eşidək". "Əlvida, mənim qızlarım, əlvida, kürəkən, əlvida, xalalar, əlvida, ana".

Qəbri doldurandan sonra yeznə torpağı yaxşı-yaxşı hamarladı. Qoy kimsə yanından ötsə anlamasın ki, buradakı

qəbirdir. Baş tərəflərinə bir az iri, ayaq tərəfə balaca daş qoydu, məzarın üstünə əvvəlcədən yığdığı ot-ələfi tökdü, cəmi bir neçə gündən sonra bu ölü, solmuş, qurumuş, əmələ gəldikləri torpağın özünü yemləyəcək otların yerini diriləri, təzələri tutacaqdı. Yeznə məzarla, əlamət kimi seçdiyi həmin ağacın arasındakı məsafəni iri addımlarla ölçdü, on iki addım alındı, sonra da bellə külüngü çiyninə atıb dedi:

– Getdik.

Ay göyün üzünü yenidən sarmış buludların arxasında gizləndi. Ailə qatırı arabaya qoşanda yağış başladı.

* * *

Hər şeylə maraqlanan oxucunun diqqətinə bu dramatik epizodu bizim üslubumuz üçün qeyri-adi təfərrüatlarla təqdim edərkən hekayətimizin mərkəzinə gözlənilmədən çıxmış bu kəndli ailəsi sosial baxımdan kasıb sayılır. Faktlarla möhkəmləndirilməmiş bu təəssürat, nəql edənin səthi yanaşmasından qaynaqlanan səhv elə həmin dəqiqə düzəldilməlidir, çünki həqiqət hər şeydən üstündür. Kasıb – sözün əsl mənasında kasıb kəndli ailəsi heç vaxt nə araba, nə də qatır kimi acgöz bir heyvanı yedirtmək üçün bəs edəcək vəsaitin sahibi ola bilməzdi. Deməli, söhbət xırda əkinçi, ya da, heç olmasa, bir-biri ilə dialoqlarını nəinki qrammatik cəhətdən düzgün, həm də bəzilərinin başqa bir ad tapmadığından "məzmun", digərlərinin "mahiyyət", üçüncülərin və daha ehtiyatlıların "məna" adlandırdığı cümlələrlə aparmaq imkanı verən orta təhsil almış ortabab mal-mülk sahibindən gedir. Yoxsa ərdə olmayan bibi yuxarıda artıq şərh etdiyimiz həmin o gözəl ifadəni məgər qura bilərdi: "Bəs görəndə ki, can üstündə olan, amma ölə bilməyən adamlar daha yoxdur, qonşular nə deyəcək?"

Yaxşı, yanlışlığı vaxtında düzəldib həqiqəti bərpa elədik, indi isə gəlin qonşuların nə dediyinə qulaq asaq. Bütün ehtiyat tədbirlərinə baxmayaraq, onlardan bəziləri arabanı görüb təəccüblənmişdilər – bu üç nəfər gecənin bir aləmi hara



gedir, görəsən? Qazdan ayıq qonşu öz təəccübünü məhz bu sözlərə geyindirib elə həmin gecə özünə ünvanladı: "Bunlar gecəgözü hara gedir, görəsən?" Səhər isə bu sözlərinə kiçik bir dəyişiklik eləyərək artıq onları bizə yaxşı tanış olan həmin o qocanın kürəkəninə təqdim elədi:

– Gecənin o vaxtı hara belə gedirdiniz?

Sual ünvanlanan şəxs isə qeyri-müəyyən bir tərzdə, təxminən, nəsə bir iş dalınca getdiyini söylədi, amma qonşusu bu cavabdan razı qalmadı:

– Gecəyarısı nə iş olacaq, arabayla, arvadla, baldızla... Özün bilərsən, amma yaman qəribədir.

– Qəribə olsa da, elədir, olmasa da.

– Bəs hava işıqlaşanda haradan qayıdırdınız?

– Bunun sənə dəxli yoxdur.

– Düz deyirsən, mənə nə var axı, amma qocanın halını, yəqin, soruşa bilərəm də, o necədir?

– Elə elə...

– Bəs baldızının oğlu?

– O da elə qabaqkı kimidir, təzə bir şey yoxdur.

– İlahi hər ikisinə yar olsun.

– Çox sağ ol.

– Yaxşı, hələlik.

– Hələlik.

Qonşu bir neçə addım atıb dayandı və bir də qayıtdı.

– Dünən mənə elə gəldi ki, siz arabaya nəsə yükləyirdiniz; bir də, elə bil, baldızın uşağını da almışdı qucağına, düzünü desəm, mənə elə gəlmədi e, öz gözümlə gördüm. Çox güman ki, arabaya kişini qoyurdunuz, özü də yorğana bükmüşdünüz, bir də ki...

– Nə bir də ki?

– Bir də ki qayıdanda araba boş idi, baldızının da qucağında uşaq yox idi.

– Deyəsən, sən bütün gecəni gözlərini yummamısan.

– Mən ayıq yatıram, bir tıqq elədilərmi – oyanıram.

– Bir biz gedəndə oyanmısan, bir də qayıdanda... Bax buna deyərəm "təsadüf".

– Elədir ki var.

– Deməli, istəyirsən ki, hər şeyi necə varsa, danışım sənə?

– Yaxşı olardı.

– Onda getdik mənimlə.

Evə girdilər, qonşu üç qadınla salamlaşdı və tam səmimi tərzdə əlavə elədi:

– Narahatçılığa görə üzr istəyirəm – və gözlədi.

– Sən birinci xəbər tutacaqsan hər şeydən, – yeznə dedi, – səndən heç susmaq andı da istəmirik, nəyi danışmaq istəsən, danış. Mənim qayınatam da, uşaq da dünən gecə öldülər. Biz onları sərhədin o üzünə, hələ ölümün himayəsində olan tərəfə apardıq.

– Öldürdünüz, – qonşu bu yerdə nida etdi.

– Hə, əgər onlar öz ayaqlarıyla gedə bilmirdilərsə, belə də demək olar, amma bəlkə də, olmaz, çünki bunu babanın əmriylə eləmişik. O ki qaldı yazıq uşağa, o heç düz-əməlli yaşaya bilmişdi ki... Onları göyrüş ağacının altında basdırdıq, qucaqlaşdılar, torpaqladıq.

Qonşu başından tutdu:

– Bəs indi nə olacaq?

– O olacaq ki, sən bu xəbəri hər tərəfə yayacaqsan, bizi tutub polisə aparacaqlar, sonra da, yəqin, məhkəmə eləyəcəklər və eləmədiyimiz bir şeydə ittiham olunacağıq.

– Eləmisiniz, eləmisiniz.

– Sərhədə bir addım qalana kimi onlar sağ idilər, bircə addım atdıq – öldülər. İndi mənə de görüm, biz onları harada və necə öldürdük?

– Əgər aparmasaydınız, ölməzdilər.

– Əgər aparmasaydıq, artıq bu diyarlara gəlməyən ölümlərini gözləyə-gözləyə qalacaqdılar.

Üç qadın qonşuya dinməzcə və sakit baxırdılar.



– Yaxşısı budur, mən gedim: dünən fikirləşirdim ki, nəsə baş verib, amma bu heç ağlıma da gəlməzdi.

– Səndən bir xahişim var.

– Nə xahiş?

– Məni polisə apar, onda ev-ev gəzib bizim dəhşətli əməllərimizdən danışmağa ehtiyac qalmayacaq – siz bir təsəvvür edin, mərhəmətli insanlar, öz atalarını, öz körpələrini öldürüb bu adamlar, ilahi pərvərdigara, görün bizimlə yanaşı kimlər yaşayır.

– Mən heç nə danışmayacam.

– Bilirəm, amma de, aparırsan məni polisə, yoxsa yox?

– Nə vaxt?

– Elə indi, bilirsən də, dəmiri isti-isti döyərlər.

– Yaxşı, gedək.

Amma nə məhkəmə oldu, nə hökm çıxartdılar. Əvəzində bu xəbər bütün ölkəyə meşə yanğınından da sürətli yayıldı: qəzetlər və digər "KİV"-lər cinayətkarları damğalayır, bacıları qatil, yeznəni cinayətin aləti adlandırırdılar, qoca ilə körpə üçünsə göz yaşları axıdırdılar. Sanki, öz babaları, öz nəvələriydi və ictimai mənəviyyatın bir barometri kimi bu mənəviyyatın acınacaqlı dərəcədə aşınmasından, əsrlərdən bəri təsdiqlənmiş ailə dəyərlərinin bu dərəcədə tapdanmasından artıq mininci dəfə yazır, məhz bunların bütün bəlalarımızın, dərdlərimizin səbəbi və kökü olduğunu elan edirdilər. İki gün sonra isə artıq belə məlumatlar daxil olmağa başladı ki, bütün sərhədyanı məntəqələrdə eyni məzmunlu hərəkətlər geniş yayılmaqdadır. Budur, artıq başqa qatırlar çəkən başqa arabalara başqa cəsədlər yüklənib, dolama, əldən-ayaqdan uzaq yollarla təhlükəsizlik kəmərləriylə bərk-bərk bağladıqları yüklərini düşürəcəkləri yerlərə yollandılar. Hətta – bu artıq heç yerə sığışan deyildi – baqaj yerinə yorğana bükülü meyit tıxanmış müxtəlif marka və modellərdən olan avtomobillər ölkənin yollarıyla şütüyərək, bıçaq rolunda (bu cəsarətli təşbehimə görə üzr istəyirəm) nazik, gözlə görünməyən

sərhəd xəttinin çıxış etdiyi bu təzə kəşf olunmuş gilyotinin ayağına getməyə başlayaraq yeni-yeni qurbanları – bu tayda çıxarılan hökmü ölümün kaprizindən icra olunmayan zavallıları daşıyırdı. Bu ailələrin çox azı öz hərəkətlərinin müdafiəsinə bizə artıq tanış olan, necə bir nümunə göstərdiklərini heç uzaqdan-uzağa belə ağıllarına gətirməyən yazıq kəndlilərin əldə rəhbər tutduqları kimi möhkəm, amma bununla yanaşı, yenə də şübhəli görünən dəlillər irəli sürə bilərdilər. Bəziləri babasını və atasını sərhədin o üzünə keçirməyində mövcud problemdən sadə və effektiv qurtulmaq yolundan savayı bir şey görmürdülər. Amma kəsəsini desək, bu, əslində, evlərində ağır bir yük kimi – həqiqəti demək lazımdır – düşüb qalmış qohumundan öldürüb can qurtarmaq idi. Əvvəllər nəvəsiylə bir yerdə basdırılmış qocanın qızlarını və kürəkənini damğalayan, sonradan isə bu siyahıya cinayətkarlara havadarlıq edən, onlarla əlbir olan subay bibini də qatmış mətbuat indi artıq bu ilk baxışda çox ləyaqətli görünən, lakin ümummilli sınaq dönəmində üzlərindəki maskanı çıxararaq əsl simalarını nümayiş etdirmiş insanları qəddarlıq və qeyri-vətənpərvərlikdə ittiham etməyə başlamışdı. Üç həmsərhəd dövlətin rəhbərlərinin və müxalifətin təzyiqləri altında baş nazir də bu qeyri-insani rəftarı pisləyərək həyata daha sayğılı münasibət göstərməyə çağırdı. Bir də məlumat verdi ki, ölkənin sərhədləri boyunca yerləşdirilən hərbi hissələrə dövlət sərhədini keçmək istəyən, fiziki durumları çox ağır olan insanların – istər bu onların öz arzularıyla olsun, istərsə də qohumlarının özbaşınalığından qaynaqlansın – qarşısını qətiyyətlə almaq tapşırılıb. Baş nazir, təbii, heç dilinə də gətirmədi ki, əslində, ölkə rəhbərliyinə işlərin bu durumu əl verirdi, çünki belə nəticə – əlbəttə, bu ikibaşlı səslənir – ölkənin maraqları çərçivəsində olacaq. Son üç ayda durmadan yüksələn və bu yüksəlişini durmadan davam etdirən, lakin hələ də, həqiqətən, dəhşətli vəziyyətə yetişməmiş demoqrafik gərginliyi azaldacaqdı. Kabinet rəhbəri daxili



işlər nazirliyi ilə məxfi görüşündən də söhbət açmadı – ölkənin bütün şəhər və kəndlərində təxirə salınmış ölüm vəziyyətinə düşmüş pasiyentlərlə qohumluq əlaqəsində olan adamların istənilən şübhəli yerdəyişmələri barədə hökumətə təcili məlumat ötürmələri üçün müşahidəçi-agentlərin, sadə dillə desək, casusların yerləşdirilməsi barədə qərarın qəbul olunduğu görüşdən. Əgər hökumət indi bu görünməmiş miqrasiya kanalını tam qapatmaq istəmirsə və məqsəd yalnız həmsərhəd ölkələrin tələblərini yerinə yetirmək, onların narahatlıqlarının qarşısını alaraq diplomatik demarşlarına müəyyən müddətlik son qoymaqdırsa, işə qarışıb-qarışmamaq barədə qərar hər bir konkret halın xüsusiyyətlərinə nəzərən qəbul olunmalıdır. "Biz ona görə bu vəzifəyə təyin olunmamışıq ki, onların çaldığına oynayaq, – deyə baş nazir çox qəti bir şəkildə dedi, – diqqətdən kənarda kiçik xutorlar, şəhər kənarlarındakı bağ evləri, ayrıca tikililər qaldı, onlar da qoy nə istəyirlər, ağılları nə kəsirsə, onu eləsinlər, məgər siz bilmirsiniz ki, onsuz da, hər adamın böyrünə bir polis nəfəri qoya bilmərik".

Bu sistem, təxminən, iki həftə az-çox müvəffəqiyyətlə işlədi, ondan sonra isə casuslar şikayətlənməyə başladılar ki, onlara telefon açıb təhdidlərlə "əgər sakit yaşamaq istəyirlərsə, yarımölü vücudların müxtəlif istiqamətlərdə hərəkətinə barmaqarası baxın, lap yaxşısı, ümumiyyətlə, göz yumun, çünki əks təqdirdə nəzarət altına götürməli olduğunuz adamların sayını öz personalınız hesabına xeyli artıracaqsınız" – deyiblər. O ki qaldı bunların boş söz olmamasına, bu çox tez aydınlaşdı: agentlərdən dördü bir gündə yoxa çıxdı, sonra isə naməlum adamlar onların qohumlarına telefon açıb məlumat verdilər ki, itənləri haradan tapmaq olar. Harada demişdilərsə, orada da tapdılar – öldürməmişdilər, amma tam diri də demək olmazdı. Belə müşkül vəziyyətə düşən daxili işlər naziri gözəgörünməz düşmənə güc göstərmək qərarına gələrək, sərəncam verdi ki, əvvəla, nəzarəti gücləndirsinlər,

ikincisi, bu baş nazirin xeyir-duasıyla tətbiq olunan ikibaşlı aptek praktikasına – bunu aparmaq olar, onu yox – birdəfəlik son qoymaq lazımdır. Cavab özünü gözlətmədi. Daha dörd agent sələflərinin taleyini bölüşdü. Amma bu dəfə cəmi bir telefon zəngi oldu və o, nazirin özünə ünvanlanmışdı. Bunu isə həm təxribat, həm də qüsursuz dərəcədə məntiqli, məqsədi "biz varıq" – deyə xəbərdarlıq etmək olan bir addım kimi qiymətləndirmək mümkün idi. Amma diqqətəlayiq cəhət yalnız bu deyildi. Çünki söhbət özündə həm də bir centlmen sazişi bağlamaq təklifini ehtiva edirdi: nazir öz müşahidəçilərini yığışdırır, gözəgörünməz və naməlum şəxsin təmsil etdiyi insanlar isə əzabkeşlərin məxfi yollarla xaricə çıxarılmasını təmin edirlər.

– Siz, yəni kim? – dəstəyi qaldıran aparat əməkdaşı soruşdu.

– Qayda-qanun və nizam-intizam tərəfdarları, öz işlərinin böyük ustaları, heç bir qarışıqlığa dözümü olmayan, həmişə sözlərinə əməl edən insanlar və ən nəhayət, əsl vətəndaşlar.

– Bəs sizin təşkilatınız necə adlanır? – deyə məmur soruşdu.

– Bəziləri bizi maffiya adlandırır, iki "f" ilə.

– Bəs niyə iki dənə "f"?

– Klassik, bir "f" ilə tələffüz olunan variantdan fərqləndirmək üçün.

– Hökumət mafiya ilə işbirliyi qurmur.

– Bəli, imzalanan və möhürlənən, notariusda təsdiqlənən sənədlərlə – təbii ki, yox.

– Nə siz deyən kimi, nə başqa cür – heç cür qurmur.

– Mən kiminlə danışıram?

– Mən – katibliyin əməkdaşıyam.

– Hə-ə, deməli, real həqiqətdən bixəbər bir adamsınız.

– Mən öz vəzifə borcumdan xəbərdaram.

– Nə isə, bu, mühüm deyil: sizdən tələb olunan yalnız bizim təklifimizi nazirin diqqətinə çatdırmaqdır, əgər ona çıxışınız varsa.



– Çıxışım yoxdur, lakin bizim söhbətimiz barədə öz rəisimi təcili məlumatlandıracağam.

– Təkliflərimizi dəyərləndirmək üçün hökumətə düz qırx səkkiz saat vaxt ayırırıq – bir saniyə də artıq yox və yeri gəlmişkən, həmin o rəisinizə çatdırın ki, əgər cavab bizim istədiyimiz kimi olmasa, daha bir neçə müşahidəçiniz komadan çıxa bilməyəcək.

– Hər şeyi çatdıraram.

– Beləliklə, sabah yox, o birisi gün mən zəng vuracam ki, qəbul olunmuş qərar barədə məlumat alım.

– Mən qeyd etdim.

– Tanışlığımıza şadam.

– Mən isə belə deməzdim.

– Əminəm ki, sizin müşahidəçilərin sağ-salamat evlərinə döndüyünü eşidəndə fikrinizi dəyişəcəksiniz və əgər uşaq vaxtı sizə öyrətdikləri duaları unutmamısınızsa, dua edin ki, məhz belə olsun.

– Aydındır.

– Mənim buna şübhəm yox idi.

– Salamat qalın.

– Yadınızdan çıxmasın – qırx səkkiz saat, bir saniyə də artıq yox.

– Növbəti dəfə sizinlə danışan mən olmayacam.

– Mən isə əksinə, buna o qədər əminəm ki...

– Niyə?

– Ona görə ki, nazir mənimlə birbaşa danışmaq istəməyəcək və bundan başqa da, əgər bu iş düzəlməsə, mütləq sizi cəzalandıracaqlar. Bir də unutmayın – biz centlmen sazişi təklif edirik.

– Əlbəttə.

– Salamat qalın.

– Salamat qalın.

Məmur maqnitofondan kaseti çıxarıb rəislərinin yanına getdi.

Yarım saatdan sonra kaset artıq nazirin əlində idi. Ona bir dəfə qulaq asdı, sonra bir də, dalınca üçüncü dəfə də qulaq asıb soruşdu:

– Sizin bu əməkdaş etibarlı adamdırmı?

– İndiyə kimi heç bir xırda qeydimiz də olmayıb.

– Ümidvaram ki, heç böyüyü də olmuş deyil.

– Nə xırda, nə böyük, – həmin məmurun bilavasitə rəisi istehzanı sezməyib cavab verdi. Nazir kaseti çıxardı, içindəki lenti çəkib böyük külqabıya qoydu və çaxmağın alovunu ona yaxınlaşdırdı. Lent qırışıb qat-qat oldu, şaqqıldadı və bir dəqiqədən sonra qaramtıl kövrək külə çevrildi.

– Onlar da söhbəti yaza bilərdilər, – idarə rəisi dedi.

– Bunun əhəmiyyəti yoxdur: telefon söhbətini hər kəs yalandan düzüb-qoşa bilər, iki səs lazımdır – bir maqnitofon, vəssalam. Əsas – orijinalı məhv etməkdir, onda bütün nüsxələr də yox olmuş sayılır. Xatırlatmağa zəruriyyət yoxdur ki, xətdəki telefonçu qız da söhbəti qeydə alıb; bu yazının da yox olmasının qayğısına qalmaq lazımdır.

– Təbii, indi isə icazə verin, gedək; siz düşünməlisiniz.

– Getməyin, mən artıq düşünmüşəm.

– Burada təəccüblü bir şey yoxdur – siz, cənab nazir, nadir bir zəka sahibisiniz.

– Bu sözləriniz yaltaqlıq olardı, əgər özündə tərtəmiz bir həqiqəti cəmləşdirməsəydi. Mən, doğrudan da, çox sürətli düşünürəm.

– Yəni siz onların təklifini qəbul etmək istəyirsiniz?

– Mən onlara cavab təklifi irəli sürəcəyəm.

– Qorxuram ki, sizin təklifi rədd edələr, onların emissarı söhbətdə çox qətiyyətli idi və hədələyici bir ahənglə söz verdi ki, özünüz eşitdiniz də, əgər cavabdan razı qalmasalar...

– Mənim əzizim, biz elə cavab verəcəyik ki, onlar razı qalacaq.

– Başa düşmürəm.

– Mənim əzizim, sizin bəlanız bundadır ki – amma inciməyin – nazir kimi fikirləşmək bacarığınız yoxdur.



– Günahkaram və çox təəssüflənirəm.

– Mən axı dedim – bu, günah deyil – bəladır və təəssüflənməyə heç bir əsas yoxdur: əgər sizi nə vaxtsa nazir vəzifəsini icra etməyə çağırsalar, bax, bu kresloya əyləşən kimi başınız tamam başqa cür qaynatmağa başlayacaq – bu, təsəvvürəgəlməz bir şeydir.

– Nəyimə gərəkdir bu fantaziyalar, mən adi məmuram, sizi inandırım ki...

– And içməyin, hələ bilmək olmaz.

– Beləliklə, mənim tam diqqətim sizdədir, buyurun.

– Birisigün sizin həmin əməkdaş – əgər emissara cavab vermək onun bəxtinə düşübsə, onda bizim adımızdan danışıqları aparmaq da ona tapşırılmalıdır, başqa heç kəsə – zəng çalana deməlidir ki, biz onların təklifini nəzərdən keçirməyə hazırıq və bunun dalınca da əlavə eləyəcək ki, ictimai rəy və müxalifət qətiyyən imkan verməz ki, ortaya ağlabatan bir izahat qoyulmadan minlərlə agent öz fəaliyyətini dayandırsın. Bu qəbildən olan səbəb kimi, işə maffiyanın müdaxiləsini qətiyyən göstərmək olmaz.

– Aydındır, məhz belə deməlidir, amma bunu, yəqin, başqa sözlərlə demək daha yaxşı olardı... Bağışlayın, cənab nazir, qeyri-ixtiyari çıxdı ağzımdan.

– Bundan sonra sizin əməkdaş müqabil təklifini irəli sürəcək, ya da, necə deyərlər, alternativ variantı: müşahidəçi-agentlər yerlərində qalırlar, amma dezaktivləşirlər.

– Dezaktivləşirlər?

– Hə, məncə, bu, yaxşı sözdür.

– Şübhəsiz, cənab nazir, amma mən təəccübləndim.

– Burada təəccüblənməli nə var ki? Əclafların şantajına uymadığımızı nümayiş etdirmək üçün bu, yeganə yoldur.

– Amma, əslində, uyuruq, deyilmi?

– Bizim üçün mühüm olanı fasadı qorumaqdır, onun arxasında nə baş verəcək – bizlik deyil.

– Necə yəni?

– Məsələn, təsəvvür edək ki, bizim təsisat belə bir nəqliyyat vasitəsini ələ keçirərək cinayət törətmək istəyənləri həbsə alacaq. Tamamilə aydındır ki, bu riskin də dəyəri o biçarələrin qohumlarına təqdim olunmuş hesaba çoxdan daxil edilib. Orada nə hesab var, nə qəbz; maffiya vergi vermir. Bunu sözməsəli dedim, iş bunda deyil. Mühüm olanı budur ki, hamı udur – dövlət ağır yükdən qurtulur, agentləri daha yaralamır, şikəst eləmirlər, ailələr isə qohumlarının əbədi sükunət tapacağına, canlı meyit kimi qalmayacaqlarına əmin olanda, təbii ki, yüngül nəfəs alacaqlar, maffiya isə öz faizini qazanacaq.

– Parlaq plandır, cənab nazir.

– Hə, lakin bu plan əgər kimsə ağzını boşa qoyub danışmasa, həyata keçəcək.

– Düz buyurursunuz.

– Yəqin, mənim əzizim, naziriniz sizin gözünüzdə əxlaqsız göründü indi.

– Siz nə danışırsınız, cənab nazir, mən, sadəcə olaraq, heyran qalmışam ki, bu sxemi necə qüsursuz məntiqlə qurdunuz.

– Təcrübədir, mənim əzizim, təcrübə.

– Mən elə indicə həmin əməkdaşla danışıb sizin təlimatınızı yetirərəm, tamamilə əminəm ki, bu işin də öhdəsindən gələcək. Bayaq məruzə etdiyim kimi, indiyədək ondan narazı qalmamışıq.

– Yəqin, heç rüşvət də almayıb.

– Həqiqəti söyləyirsiniz, cənab nazir, – həmsöhbəti dilləndi, nəhayət ki, nazirin söhbətindəki duzun tamını tutmuşdu, deyəsən.

Hər şey – əgər daha dəqiq olsaq, demək olar ki, hər şey nazirin nəzərdə tutduğu kimi keçmişdi. Düz təyin olunmuş saatda – nə bir dəqiqə tez, nə bir dəqiqə gec, özlərini "maffiya" adlandıran mütəşəkkil cinayətkar birliyin nümayəndəsi daxili işlər təsisatının ona nə cavab verəcəyini öyrənmək

üçün zəng çaldı. Məmur onu nahaq yerə tərifləmədiklərini isbat edərək boynuna düşən vəzifənin öhdəsindən gözəl gəldi: səlis və aydın şəkildə əsas fikri çatdırdı – agentlər yerlərində qalır, amma fəaliyyətlərini dayandırırlar – bununla da, bütün mümkün cavablardan ən yaxşısını eşitmək və onu yuxarı instansiyalara çatdırmaq şərəfinə nail oldu. Hökumətin alternativ təklifi böyük diqqətlə nəzərdən keçiriləcək, nəticələr barədə iyirmi dörd saatdan sonra məlumat veriləcək. Məlumat verdilər də. Hökumətin təklifi qəbul edilə bilər, lakin bir şərtlə: adı çəkilən dezaktivləşməyə yalnız o agentlər məruz qalmalıdırlar ki, öz vəzifə borclarına sədaqətlərini qoruyub saxlamışdılar, başqa sözlə desək, maffiyanın əməkdaşlığa cəlb edə bilmədiyi agentlər nəzərdə tutulmalıdır. Gəlin problemə cinayət sindikatının gözləriylə baxmağa cəhd göstərək. Ümummilli miqyasda keçirilicək əməliyyat ərəfəsində öz yaxınlarından can qurtarmaq istəyən, onların da nəinki mənasız, həm də tükənməz əzablarına nöqtə qoymaq arzusunda olan qohumlara təsir göstərmək üçün ən yaxşı və sınanmış kadrların ayrıldığı bir zamanda qəflətən aydın oldu ki, polisin çoxdan sınanmış tədbirlər arsenalı – ələalma, qorxutma, şantaj sayəsində nəhayətsiz dərəcədə genişlənmiş imkanlardan istifadə etməklə yanaşı, hakimiyyət dairələrinin bütün ölkə ərazisinə artıq səpələdiyi nəhəng agent şəbəkəsini də işə salmaq çox faydalı və səmərəli olardı. Və daxili işlər nazirliyinin strategiyası yolun tən ortasına atılmış bu daşa ilişdi. Bununla da, dövlətin və hökumətin nüfuz və hörmətinə böyük zərbə vurulmuş oldu. Nazirlik zindanla çəkicin, qılıncla qalxanın, iki odun – daha buna bənzər nə var – arasında qalaraq qəflətən yaranmış bu kor düyünü çözmək üçün baş nazirlə məsləhətləşməyə yüyürdü. Məsələnin pis cəhəti bu idi ki, iş artıq yaman qəlizləşmişdi. Geriyə yol yox idi. Kabinetin rəhbəri, öz kolleqasından təcrübəli olsa da, quldurlara yeni təklif irəli sürməkdən yaxşı bir yol tapa bilmədi, təxminən, numerus clausus, daha doğrusu, kvota kimi bir

şey. Məsələn, deyək ki, bütün fəaliyyətdə olan agentlərin iyirmi beş faizi onlar tərəfə keçəcək. Məmur artıq hövsələsi daralan həmsöhbətinə müqavilənin güzəştli variantını yenidən izah etməli oldu və gah öləziyən, gah da təzədən işaran ümiddən yorulmuş nazirlər razılaşmanın, nəhayət, baş tutacağına inanmağa başlayırdılar – baş tutacağına, imzalanacağına yox, çünki söhbət centlmen sazişindən gedirsə, lüğətin izah etdiyi kimi, bütün hüquqi prosedurları bir kişi sözü əvəz edirdi. Amma belə düşünmək, maffiozların hiyləgər və məkrli təbiətindən azacıq belə xəbərdar olmamaq demək idi. Əvvəla, onlar öz cavablarının vaxtını bəlli etməmişdilər, bunun ucbatından da yazıq nazir köz üstündəki kabab kimi cız-cız cızıldayırdı. Hətta lap ümidsiz qalaraq istefa verməyə hazırlaşırdı. İkincisi, nəhayət, bir neçə gündən sonra onlar mərhəmət göstərib zəng edəndə bircə onu söylədilər ki, hələlik danışıqların yeni predmetinin onları nə dərəcədə qane etdiyi barədə bir rəyə gəlməyiblər. Sonra da, sanki, təsadüfən ötəri eyham vurdular ki, həmin ərəfədə daha dörd agentin lap ağlamalı vəziyyətdə aşkarlanması kimi acınacaqlı fakta görə onlar heç bir məsuliyyət daşımırlar. Üçüncüsü, hər intizar əvvəl-axır başa çatır – istər pisliyə olsun, istər yaxşılığa və bu artıq tamam başqa məsələ idi – indi də cavab gəlmişdi və elə həmin adamlar vasitəsilə nazirə çatdırıldı ki, cavab iki bəndə bölünür: a) hökumətə işləməyən agentlərin kvotası qətiyyən iyirmi beş deyil, bəlkə, hələ otuz beş olmalıdır və b) maffiya tələb edir ki, özü lazım biləndə hökumətə heç bir məlumat verməsin – razılıq almaqdan isə heç söhbət belə gedə bilməzdi – onlara qulluq edən agentlərin dezaktivləşdirilmiş casusların işlədiyi regionlara göndərilməsi hüququ onlara verilsin. Buna daha nə deyəsən – istəyirsən öl, istəyirsən qal.

– Bu tələdən çıxmaq üçün bir yol varmı? – kabinetin rəhbəri daxili işlər nazirindən soruşdu.

– İnanmıram, – o cavab verdi, – əgər razılaşmasaq, hər gün nə xidmət göstərmək, nə yaşamaq üçün yararlı olan



dörd agent alacağıq, razılaşsaq – bu tör-töküntüdən, kim bilir, nə vaxtadək asılı vəziyyətə düşəcəyik. Ya həmişəlik, ya da, ən azı, ailələr öz yarıölü üzvlərini daşımağa son qoyana kimi.

– Bilirsiniz, mənim bir ideyam var.

– Yox, bilmirəm, həm də onu bilmirəm ki, ideyanızın olduğuna sevinimmi.

– Var gücümlə çalışıram, cənab baş nazir, lakin əgər bu işdə sizə əngəl kimi gəlirəmsə, söyləyin.

– Hər şeyi ürəyinizə belə yaxın qəbul etməyin, ideyanızdan danışın.

– Belə fikirləşirəm ki, cənab baş nazir, biz elementar tələb-təklif məsələsiylə məşğuluq.

– Nə barədə deyirsiniz bunu, axı söhbət, həyatına yalnız bir yolla son qoyula bilən insanlardan gedir.

– Lap həmin o klassik sualda – hansı əvvəl yaranıb: toyuq, yoxsa yumurta – olan kimi, burada da bilmək olmur ki, tələb təklifi formalaşdırır, yoxsa əksinə.

– Mənə elə gəlir ki, sizi daxili işlər nazirliyindən iqtisadiyyat nazirliyinə keçirmək pis olmazdı.

– Fərq göründüyü qədər də böyük deyil, cənab nazir: iqtisadiyyat və daxili işlər birləşmiş qablara bənzəyir.

– Yaxşı, fikrinizdən yayınmayın.

– Əgər həmin o ilk ailənin ağlına gəlməsəydi ki, problemin həlli sərhədin o tayındadır, indiki vəziyyət çox fərqli olardı, əgər bu ailənin nümunəsindən digərləri bəhrələnmək fikrinə düşməsəydilər, iki "f" ilə tələffüz olunan maffiya mövcud olmayan işdən qazanc götürmək fikrində olmazdı.

– Nəzəri cəhətdən elədir, əlbəttə, baxmayaraq ki, bu zirəklər yumurtadan yun qırxmaqda, mallarını baha satmaqda ustadırlar, amma yenə də anlamadım ki, sizin ideyanız nədən ibarətdir.

– İdeya, cənab nazir, çox sadədir.

– Kaş elə olsun.

– Əgər ikicə sözlə desək, təklif kanalını kəsmək lazımdır.

– Bəs siz bunu necə eləmək niyyətindəsiniz?

– Ailələri inandırmaq lazımdır ki, humanizmin müqəddəs dayaqları olan doğmalara məhəbbət və həmrəylik naminə onlar öz qohumlarını xaricə çıxarmamalıdırlar.

– Siz belə güman edirsiniz ki, bu möcüzəni həyata keçirməyə gücünüz çatacaq?

– Mən düşünürəm ki, kütləvi informasiya orqanlarının, əyani təşviqat və təbliğat vasitələrinin cəlb olunmasıyla geniş bir kampaniya başlamaq gərəkdir: plakatlar, yolları köndələninə kəsən parçalar, maşınların qabaq şüşələrinə və bamperlərinə yapışdırılan kağızlar, vərəqələr yaymaq, tamaşalar qoymaq, adi və animasiya filmləri çəkmək, bir sözlə, özünün ailə borcunu və qohumluq vəzifələrini unutmuş adamları riqqətləndirərək onların peşmançılıq hissi keçirməsinə nail olmaq üçün bütün tədbirlərə əl atmaq gərəkdir. Mən əminəm, günahkarlar çox tez bir zamanda öz qəddar davranışlarının bağışlanmaz olduğunu dərk edəcəklər, yaxın keçmişdə təməl prinsipi sayılan dəyərlərimizə dönəcəklər.

– Mənim tərəddüdlərim dəqiqəbədəqiqə artır: indi isə mən özümə sual verirəm ki, bəlkə, sizə mədəniyyət naziri portfelini, ya da dini işləri tapşıraq, çünki böyük istedadınızı qara torpağa basdırırsınız.

– Ən düzü, adını çəkdiyiniz hər üç təsisatı birləşdirmək olardı.

– Aha, iqtisadiyyatı da.

– Bəli, çünki, bir də təkrar edirəm: onlar birləşmiş qablardır.

– Olar, amma sizin bu kampaniyadan heç nə çıxmayacaq.

– Niyə, cənab baş nazir?

– Çünki belə kampaniyalar yalnız onlar vasitəsilə pul qazananlara xeyir gətirir.

– Biz çox kampaniya keçirmişik.



– Hə, nəticələri də bəllidir və bundan savayı, əgər bir faydası olsa belə, bu günün-sabahın işi deyil bu, mən isə təcili qərar verməliyəm.

– Sizin sərəncamlarınızı gözləyirəm, cənab baş nazir.

Kabinetin başçısı çox həvəssiz bir tərzdə gülümsündü:

– Bütün bunlar həm mənasız, həm də gülməlidir, – dedi, – biz sizinlə bilirik ki, seçmək üçün variantımız yoxdur, bizim istənilən təklif isə vəziyyəti ancaq qəlizləşdirəcək.

– Deməli?

– Deməli, əgər biz hər gün ayağımıza dörd nəfər təpəsi dağıdılaraq ölümün ağzına atılmış əməkdaşımızın yazılmasını istəmiriksə, həmin o iki "f" ilə tələffüz olunan maffiyanın təklifini qəbul etməliyik.

– Biz ildırım sürətli polis əməliyyatı keçirə bilərdik, nə qədər mafiozu tutub içəri salardıq – bəlkə, onda təşkilatın rəhbərləri geri çəkilərdi.

– Əjdahanı məhv etmək üçün onun başını kəsmək lazımdır, dırnaqlarını yox.

– Hə, elədir, buna nə deyəsən. Amma, cənab nazir, həmin o dörd şikəsti xatırlayıb etiraf edin ki, bizim əl-qolumuz bağlıdır.

– Müxalifət lap quduzlaşacaq – başlayacaqlar çığırışmağa ki, bəs ölkəni quldurlara vermişik.

– Onlarda "ölkə" yox, "dövlət" demək dəbdir.

– Bu daha pis.

– Bəlkə, kilsə kömək edər bizə: nəzərə alarlar ki, biz bu qərarı insanların həyatını qorumaq naminə veririk.

– Bu ifadəni qabaqlar işlətmək olardı – "həyatı qorumaq". İndi isə olmaz, artıq düz deyil.

– Siz düz buyurursunuz, gərək nəsə fikirləşək.

Bir azca sükutdan sonra baş nazir dilləndi:

– Yaxşı, bəsdir, sizin həmin məmura təlimat verin və başlayın dezaktivləşdirməyə, bundan savayı da bilsək yaxşı olardı ki, maffiya bu iyirmi beş faizi ölkə ərazisində necə bölməyə hazırlaşır.

– Otuz beş.

– Bu düzəlişə görə ürəkdən təşəkkür edirəm sizə: bu düzəliş bizim lap əvvəldən qaçılmaz olan məğlubiyyətimizin daha ağır olduğunu mənə bir daha xatırladır.

– Kədərli gündür.

– O dörd agentin ailələri əgər bilsəydilər ki, burada nə baş verir, sizin üzünüzə çıxmazdılar.

– Bəlkə, bu dörd nəfər artıq sabah maffiyaya işləyəcək?

– Həyat belədir, ey sevimli birləşmiş qablar naziri.

– Daxili işlər, cənab nazir, daxili işlər.

– O, qabın tən ortasındadır.

* * *

Kimsə düşünə bilərdi ki, hökumətin cinayət aləmi ilə apardığı danışıqlardakı bu qədər və bu dərəcədə alçaldıcı güzəştlərdən sonra iş o yerə çatdı ki, təvazökar və təmiz dövlət qulluqçuları özlərinin bütün iş gününü mafiyaya həsr etdilər. Hə, onu deyirdim axı, kimsə düşünə bilərdi ki, artıq mənəvi düşkünlüyün ən son həddinə enmişik, daha bundan o yanası yoxdur. Amma yox, real siyasətin batlaq torpağıyla kor-koranə irəliləyəndə, praqmatizm dirijor çubuğunu qaparaq partituraya belə baxmadan konserti yönəldəndə şübhə etmək lazım deyil ki, əclaflaşmanın məntiqi imperativini göstərəcək – hələ yox, hələ bundan da aşağı enməyə yer var. Daha səmimi zamanlarda hərbi adlandırılan Müdafiə nazirliyi sərhəd boyu yerləşdirilmiş qoşunlara təlimat göndərdi ki, dövlət əhəmiyyətli avtomobil yollarına ciddi nəzarət edilsin. Xüsusilə də qonşu ölkələrə aparan yollara, ikinci dərəcəli yollara isə dəyməsinlər. Ara, piyada yolları, cığırlar və digər adam keçə bilən sahələr sərbəst buraxılsın. Bu, o demək idi ki, qoşunların əhəmiyyətli bir hissəsi özünün daimi dislokasiya yerinə qayıdacaqdı, bu isə sıravilər və kaprallar arasında təbii şadyanalıq oyatdı, çünki gecə-gündüz qarovulda durmaq və patrulda dolaşmaq zəhlələrini tamam tökmüşdü.



Digər tərəfdən isə, bu vəziyyət serjantların elə eyni dərəcədə təbii narazılığına səbəb oldu. Görünür, onlar döyüşçü şərəfi və vətənə xidmət sarıdan onlara rəhbərlik edənlərdən daha yüksəkdə dururdular. Amma bu narazılığın kapilyar hərəkəti çavuş və leytenantlara qədər qalxanda ilkin impulsunun gücünü qismən itirirdisə, kapitanların bərabərinə çatanda özündə əvvəlki və hətta daha böyük gücü yenidən tapırdı. Təbii ki, kimsə "maffiya" kimi təhlükəli bir sözü ucadan tələffüz etməyə cəsarət göstərməzdi, amma səmimi söhbətlərdə mütləq xatırlayırdılar ki, hələ əmr almamışdan sağalmaz xəstələrlə dolu çoxsaylı furqonları yoxlamaq üçün necə saxlayırdılar və sürücünün yanında oturmuş agent elə o dəqiqə şəxsiyyətini və səlahiyyətlərini isbatlayan imzalı, möhürlü sənədini göstərirdi. Bu sənəddən aydın olurdu ki, milli təhlükəsizlik naminə, filan-filan xəstəlikləri olan filankəsov filankəslərə ölkədən çıxmağa icazə verilir – getdikləri məntəqə göstərilmirdi – hələ üstəlik, bütün hərbi və mülki səlahiyyətlilərə tapşırılırdı ki, onların mənzilbaşına təcili çatdırılması üçün hər cür köməklik etsinlər. Serjantların cəsur ruhunu heç bir şübhə sarsıda, ürəklərinə yol tapa bilməzdi, əgər qəribə bir təsadüf nəticəsində agentlər, ən azı, yeddi dəfə onların sənədlərini yoxlayanlara öz icazələrini təqdim edərkən göz vurmasaydılar. Əgər hadisələrin baş verdiyi bu yerlərin birbirindən qədər uzaq olduğunu nəzərə alsaq, söhbətin yoldan çıxarmanın ən ibtidai üsulundan – ikibaşlı – həm öz cinsindən olanlara, həm də əks cinsin nümayəndələrinə işarə edilən him-cimdən – getdiyini absurd bir mülahizə kimi əvvəlcədən bir kənara atdılar. İstisnasız olaraq bütün agentlər gözgörəsi həyəcanlanırdılar – kimisi az, kimisi çox – və özlərini elə aparırdılar ki, guya, kömək istədiyi barədə naməsini qoyduğu şüşəni elə indicə dənizə atıb və bu, ayıq serjant təbəqəsini çuvalda gizlədilməsi namümkün olan cida haqda düşüncələrə sövq edirdi. Lakin onların hərbi hissələrə qayıtması barədə yuxarıda adı çəkilən və izaholunmaz, kim

bilir, harada, necə meydana gəlmiş, mənbəyi – xəbərçilərin məhrəmanə pıçıltılarına inansaq – elə daxili işlər nazirliyinin özü alan əmrdən sonra kazarmaların havası o qədər qatılaşdı, deyərdin ki, lap nəfəs yoxdu çəkməyə. Bu barədə də müxalifət qəzetləri xəbər verməyə tələsdilər, rəsmi nəşrlər isə hər hansı çürümə prosesinin silahlı qüvvələrin döyüş ruhunu zəhərləyə biləcəyi barədə ehtimalı qızğın bir tərzdə rədd edirdilər. Amma hazırlanan hərbi çevriliş barədə şayiələr – özü də onun məqsəd və səbəblərini kimsə izah etməyə də cəhd göstərmirdi – ya vəlvələdən, ya zəlzələdən durmadan genişlənir və artırdı. Həm də elə vüsətlə ki, ictimai rəydə, ölə bilməyən xəstələr problemini də ikinci plana sıxışdıra bildilər. Demək olmazdı ki, bu problem tamam unudulmuşdu. Buna sübut nə vaxtsa, kiminsə söylədiyi, kafelərin daimi müştərilərinin tez-tez təkrarladığı bir məsəl idi: "Əgər çevriliş olsa, bir şeyə arxayın ola bilərsiniz – bir-birinə nə qədər atəş açsalar da, kimsə öləsi deyil".

Hər dəqiqə gözlənilirdi ki, kral millətə birlik çağırışı ilə müraciət edəcək, hökumət ilk növbədə görüləcək tədbirlər paketini açıqlayacaq, quru qoşunları və aviasiyanın baş komandanları bəyanatla çıxış edəcəklər – ölkənin dənizə çıxışı yox idi, bu yoxdan da ikinci yox, yəni donanmanın yoxluğu doğurdu – qanuni hakimiyyətə sadiqlik andı içəcəklər, yazıçılar öz manifestlərini səsləndirəcək, rəssamlar öz mövqelərini açıqlayacaq, həmrəylik konsertləri və inqilabi plakatlar sərgisi keçiriləcək, hər iki böyük həmkarlar birlikləri ümumi tətilin başlandığını elan edəcəklər, yepiskoplar konreqasiyası dua etməyə, oruc tutmağa çağıracaq, "peşman olanların" yürüşü baş tutacaq, saysız-hesabsız sarı, göy, yaşıl, qırmızı, ağ vərəqələr atılacaq. Bəziləri hətta əmin edirdilər ki, guya, əzəmətli manifestasiya hazırlanır, müxtəlif təbəqə və yaşdan olan, təxirəsalınmış ölüm vəziyyətinə düşmüş minlərlə adam mərkəzi prospektlərlə əlil arabalarında, xəstəklərdə, oğlanlarından ən güclüsünün çiyinlərində keçəcəklər, qabaqda isə nəhəng bir transparant dalğalanacaq, onun üstündə də ifadə kəsərini artırmaq üçün vergülləri qurban verilmiş bir mətn olacaq: "Biz əzabkeşlər gedərək siz bəxtəvərləri gözləyirik".



Amma yox, bunların heç birinə ehtiyac olmadı. Adamların xaricə keçirilməsi prosesində mafiyanın birbaşa iştirakı barədə şayiələr dağılmadı. Bir az da irəli qaçıb söyləyək ki, sonrakı hadisələrlə əlaqədar bu şayiələr hətta gücləndi də, lakin xaricdən təhlükə haqda xəbərlər yayılan kimi, qardaş qırğınına aparan ehtiraslar, ölkədə tərəqqinin qarşısıalınmaz irəliləyişinə rəğmən, hələ də mövcud olan üç təbəqə bircə saatda sakitləşdi. Ruhanilər, aristokratlar və xalq öz monarxı və artıq heç bəraəti olmayan həvəssizliklə hökumət ətrafında birləşdilər. Sonradan baş verənlər barədə, demək olar ki, həmişə bizə xas olan yığcamlıq və lakonikliklə söhbət açacağıq.

Üç qonşu dövlətin hökumətləri dəfn komandalarının – istər mafiyanın iradəsiylə olsun, istərsə də özbaşına – heç kəsin ölə bilmədiyi qəribə ölkədən onların sərhədləri daxilinə daimi yürüşlərindən lap dəli olmuşdular. Çoxlu, tam mənada səmərəsiz diplomatik demarşlardan sonra birgə fəaliyyətə qərar verdilər və öz qoşunlarını sərhədlərə toplayıb, onlara sərhəd pozucularına atəş açmaq tapşırığı verdilər. Düzdür, yalnız üçüncü xəbərdarlıqdan sonra. Burada əlavə etmək yerinə düşərdi ki, yasaq zonasını keçib lap yaxından açılan atəşlə öldürülən bir neçə mafiozun həlak olmasından adekvat nəticə çıxarılmış, bu olay peşənin nə dərəcədə təhlükəli olduğunun göstəricisi kimi qiymətləndirilmişdi. Elə həmin an da birliyin öz xidmətinə görə müəyyənləşdirdiyi tarif qiymətlərinin artırılması üçün istifadə olunaraq, həmin məbləğin aşağıdakı qrafalara aid edilməsi məqsədəuyğun hesab edilmişdi: "şəxsi təhlükəsizlik" və "operativ risk". Cinayətkar sindikatın necə dəqiq fəaliyyət göstərdiyinə dəlalət edən bu aydın təfərrüatlar barədə danışaraq, işlərin sonrasına nəzər

salaq. Yenə də hökumətin tərəddüdlərini və yüksək rütbəli hərbçilərin şübhələrini taktiki cəhətdən qüsursuz manevrlə arxada qoyan serjantlar təşəbbüsü öz üzərlərinə götürərək, evlərdən meydanlara və prospektlərə axan, ordunu təcili olaraq döyüş meydanlarına qaytarmaq tələbiylə dalğalanan xalq hərəkatının əvvəlcə öncülləri, sonra isə qəhrəmanları oldular. Vətənimizi sarsıdan dördmərtəbə bəlaya – demoqrafik, ictimai, iqtisadi və siyasi – etinasız və sayğısız qonşu dövlətlər, nəhayət ki, maskalarını çıxararaq dünyaya əsl simalarını göstərdilər. Qəddar fateh və azğın istilaçı simalarını. Onların bizə paxıllıq etdiyi evlərdə və mağazalarda, radio və televiziyada danışılır, qəzet və jurnallar bu məsələyə durmadan yer ayırırdılar. Hə, onlar paxıllıq edirlər ki, bizim ölkədə heç kim ölmür və ona görə də buranı işğal etmək istəyirlər ki, özləri də ölməsinlər. Açıq bayraqlarla və vətənpərvər mahnılar – Marselyeza, Karmanyola, İnternasional, *Deutschland Uber Ales, God Save the Kinq, Bandera Rossa, Stars and Stripes*, Dünyada bizim əziz vətəndən gözəl məkan yoxdur – oxuyaraq ikigünlük yürüş edən əsgərlər bu yaxınlarda tərk etdikləri mövqelərə qayıdaraq hücumun qarşısını alıb özlərini ölməz şöhrət haləsiylə bəzəməyə hazırlaşdılar. Amma buna da ehtiyac olmadı. Nə hücum oldu, nə də, təbii ki, şöhrət. Qonşular heç təcavüzkar, işğalçı deyildilər, sadəcə olaraq, istəyirdilər ki, onların ölkəsinə məcburi köçkünlərin bu yeni növünü icazəsiz basdırmaq üçün gətirməsinlər, özü də təkcə basdırsaydılar nə vardı ki, həm də öldürür, qırıb tökür, məhv edirdilər. Çünki zavallılar bədənin qalan hissələriylə nə baş verdiyini gözlə görmək üçün sərhədi adlayanda onların dünyəvi mövcudiyyətinə son qoyulur, canları çıxırdı. Budur, üz-üzə iki düşmən düşərgəsi durub, amma bu dəfə qan sel kimi axmadı. Diqqət yetirin – ona görə yox ki, bizim əsgərlər istəmədi. Ona görə ki, onlar arxayın idilər, ölməyəcəklər, hətta pulemyot güllələriylə biçilsələr belə. Amma yalnız və yalnız qanuni elmi maraqdan çıxış edərək



öz-özümüzdən soruşaq ki, bədənin bir-birindən ayrı iki hissəsi necə yaşayacaq. Məsələn, mədə birində qalsa, bağırsaqlar o birisində. Soruşmağına soruşarıq, amma cavab almayacağıq. Qısasını desək, belə vəziyyətdə ancaq tamamilə sarsaq bir qafa, atəşi birinci açmaq barədə fikirləşə bilərdi. Heç kəs də atmadı. Hətta o tərəfin bir neçə əsgərinin təzə eldoradoya qovuşmaq üçün qaçması dezertirlərin təcili olaraq ilkin vəziyyətlərinə qaytarılmasından başqa bir hərəkət doğurmadı; orada isə artıq qaçqınların yolunu hərbi tribunal gözləyirdi. Əlbəttə, indi danışdıqlarımızın bizim zəhmət çəkib ard-arda düzdüyümüz tarixçəyə az aidiyyəti var və ona bir də qayıtmaq fikrimiz yoxdur, amma onların mürəkkəbqabının qaranlıq dibində qalmasını da istəməzdim. Çox güman ki, tribunal insan ruhuna xas olan əbədi yaşamaq istəyi kimi sadəlövh arzunu nəzərə almamışdı: Əgər hamı əbədi yaşamaq istəsə, bunun axırı nə olacaqdı. Hə, məhz nəylə bitməsiydi önəmli olan – ittihamçı tərəf ritorikanın ən həyasız fəndindən istifadə edib sual verəcək, müdafiə tərəfinin isə ya cəsarəti, ya da şüuru çatmayacaq ki, məntiqli bir cavab tapsın. Çünki o heç özü də məsələnin nəylə qurtaracağını bilmirdi. Ümid etmək gərəkdir ki, bu yazıqları, heç olmasa, güllələməzlər. Yoxsa belə çıxardı: qaş qayırmaq istədiyin yerdə, vurub gözü də çıxarırsan.

Amma bu barədə artıq kifayətdir. Əgər yadınızdadırsa, demişdik ki, serjantlar, onlara qoşulan gizir və kapitanlar əzabkeşlərin daşınması üçün məsuliyyəti birbaş maffiyanın boynuna yıxırdılar. Biz isə əlavə etdik ki, hadisələrin sonrakı axarında bu şübhələr bir az da möhkəmləndi. İndi isə məqam ona çatıb ki, bu hadisələrin nədən ibarət olduğu, necə cərəyan etdiyi barədə danışaq.

Öncüllərin nümunəsini götürən maffiya eynən elə hərəkət eləyirdi – ölməkdə olanları ölkədən çıxararaq mərhumları dəfn eləyir və buna görə külli miqdarda pul alırdı – arada bircə fərq vardı ki, bunlar gələcəkdə öz qəddarlıqlarına görə

dərd və peşmançılıq hissi yaşayan, məzarı tapıb orada uyuyan mərhumdan üzr istəmək arzusunda olan qohumlara kömək olası topoqrafik və oroqrafik[1] nişanələrin qayğısını qətiyyən çəkmirdilər. İnsanda strateji düşüncə tərzinə xüsusi qabiliyyət gərək deyil ki, bunu qanasan: sərhədin o üzündə qərar tutmuş üç ordu həmin anadək son dərəcə hamar keçən dəfn işinə çox ciddi maneəyə çevrilmişdi. Lakin maffiya maffiya olmazdı, əgər bu vəziyyətdən çıxış yolu tapmasaydı. Heyif, mötərizədə qeyd edək, Tanrı haqqı, çox heyif ki, cinayətkar birliklərə rəhbərlik edən bu cür parlaq zəka sahibləri qanunpərəstliyin rahat yolundan çıxaraq çörəyini alın təriylə çıxarmaq barədə İncil ehkamlarından birini pozublar, lakin fakt faktlığında qalır ki, adamastorun[2] dalınca acı-acı deyirdilər: Heç ürəyim bulanmamışdı belə, amma necə bic bir fəndlə ötdülər başqaları üçün keçilməz olan maneələrdən. Davam etməzdən əvvəl izah verək ki, bizim söz dahisinin uğursuz nəhəngin ağzına qoyduğu "ürəyin bulanması" ifadəsi o dövrdə yalnız dərin kədər, sıxıntı, peşmançılıq ehtiva edirdi, amma zaman keçdikcə sadə xalq anladı ki, gül kimi söz boş yerə zay olur. Halbuki onun vasitəsilə əvvəlki anlamın sinonimləri sırasından tamamilə çıxan iyrənmə, nifrət, çirkinlik kimi anlayışları da əks etdirmək olar. Sözlərlə davrananda gərək qulaqların şəklənə: onlar insanlardan az dəyişkən deyillər. Tamamilə bəllidir ki, fənd sözü də öz ilkin mənasından artıq çoxdan qopub. Burada hansı fənddən danışmaq olar ki, artıq məsələyə, yapışdırılmış bığları olan, qıraqları aşağı salınmış şlyapa gəzdirən şübhəli adamlar girişmişdilər; ən məşhur agentlərin fəal iştirakı ilə şifrələnmiş teleqramlar, kodlaşdırılmış telefon danışıqları, gecəyarısı

[1] *Oroqrafiya* – relyefin müxtəlif elementlərinin təsviri və onların mənşəyindən asılı olmayaraq, yalnız xarici əlamətlərinə əsasən təsnifatı

[2] Portegiz ədəbiyyatının klassiki Luis de Kamoensin (1524–1580) Vasko da Qamanın səyahətinə həsr olunmuş "Luziadlar" (1572) epik poemasının personajı – dənizçiləri Tufan Burnunda təhdid edən və Fetida adlı nimfanın məhəbbətinə nail olmağa can atan nəhəng.



dörd yol ayrıcında görüşlər, daş altında gizlədilən məktublar və daha nələr... Bundan başqa, düşünmək lazım deyil ki, bu tranzit aksiyalar elə əvvlki kimi də ikitərəfli qalmışdı. Heç kəsin ölmədiyi ölkənin maffiyasından başqa, həmsərhəd ölkələrin bu qəbildən olan təşkilatları da danışıqlarda iştirak edirdi, çünki bu, milli çərçivədə hər bir cinayətkar birliyin toxunulmazlığının qorunması üçün yeganə üsul idi. Bir ölkənin maffiyasının başqa dövlətin hakimiyyət dairələri ilə əlaqəyə girməsi qəbahət sayılırdı. Hər halda, yer üzündə elə sərhədlər var ki, onlardan adlamağa bir tərəfdən xəcalət hissi, digər tərəfdən isə həm mafiyalar, həm də hakimiyyət dairələri tərəfindən toxunulmaz hesab edilən müqəddəs milli suverenlik prinsiplərinə hörmət imkan vermir. Lakin ikincilərin məsələsi qismən aydındırsa, birincilər barədə muəyyən şübhələr yaranardı, əgər əlimizdə onların öz ərazilərini xarici həmkarlarının qəsdlərindən necə qısqanc bir dönməzliklə qorumağa adət etdiklərinin bariz sübutları olmasaydı. Faaliyyətlərin uzlaşdırılması ümumi ilə xüsusinin uyğunlaşdırılması, maraqların müvazinətini saxlamaq çox, çox çətin idi. Bu, qismən belə izah olunur: niyə iki uzun və ürəkbulandırıcı dərəcədə darıxdırıcı həftə ərzində əsgərlər bekarçılıqdan səsgücləndiricilər vasitəsilə bir-biriylə söyüşür, özü də bəlli çərçivə içərisində qalaraq çalışırdılar düşmənlərinə çox elə toxunmasınlar ki, hansısa son dərəcə prinsipial bir polkovnikin beyninə qan vurmasın və obrazlı desək, Troya alışmasın. Uzun və çətin danışıqlar tam məxfilik şəraitində keçirdi, baxmayaraq ki, bəzi məlumatlar hansı yollarlasa bayıra sızırdı: ehtimal etməyə çox ciddi əsas vardı ki, üç ordunun nümayəndələri ali komandanlıqlarının xeyir-duası ilə razılığa gələ bildilər ki – maraqlı idi, görəsən, nə qədər almışdılar buna görə – sərhəddən irəli-geri, otərəf-butərəfə get-gəli görməsinlər. Odur ki axırda məsələ öz həllini tapdı. Bu, xırdaca uşağın da ağlına gələrdi, amma plan effektiv olsun deyə, mütləq gərək o, şüurlu yaşa çatanda mafiozlar hazırlanan

məktəbin qapısını döyərək deyəydi: "Mən öz istəyimə uyğun olaraq bura gəlmişəm – ətim sizin, sümüyüm özümün".

Yığcamlığa dəyər verənlər, lakonikliyi qiymətləndirənlər, sözə qənaətin tərəfdarları artıq, yəqin ki, soruşurlar: "İdeya bu qədər bəsitdirsə, daha bir belə danışmağa nə ehtiyac var, niyə kəsəsini demirsən?" Cavab da elə sadəlikdə ideyanın özündən geri qalmaz və bir çoxlarının qeyri-sağlam rəyinə əsasən, bizim təhkiyəmizin üstünü kif kimi saran arxaizmlərlə tən gəlib çox müasir bir terminlə ifadə olunacaq. Beləliklə, bizdən soruşurlar: "niyə?" – və biz də cavab veririk: "Bəkqraund naminə". Bu söz səslənəndə hər kəs bilir ki, söhbət nədən gedir və biz çox tərəddüd edirik – əgər bu fikri nəinki zəhlətökən dərəcədə dəbdən düşmüş, həm də qeyri-dəqiq "arxa plan" söz birləşməsiylə çatdırmaq istəsəydik, bir faydası olardı, çünki "bəkqraund" nəinki təkcə "arxa plan"dır, həm də müşahidə olunan obyektlə üfüq xətti arasında mütləq mövcud olan bütün saysız-hesabsız planlardır. Yaxşı, qoy olsun, belə deyək – "kontekstə sığışdırma". Hə-hə, qoy belə olsun, söylədiklərimi, nəhayət, kontekstə yerləşdirəndən sonra vaxtı çatdı ki, maffiyanın qətiyyən marağında olmayan, onun planlarına maneçilik törədən hərbi münaqişəyə hətta yüngül bir işarənin belə qarşısını almağa imkan verən fəndinin nədən ibarət olduğundan bəhs edək. Beləliklə, artıq söylədik ki, ölmək istəyən adamın xaricə çıxarılması, labüd, qaçılmaz hadisə baş verəndən sonra onu artıq mərhum statusunda geri qaytararaq doğma torpağa tapşırmaq körpə uşağın da ağlına gələrdi. Şah və mat – sözün ən dəqiq, ən ciddi və tam anlamında. Özünüz görürsünüz, məsələ ona cəlb olunmuş tərəflər üçün ziyansız başa çatdı və sərhəddə can çürütməyə artıq heç kiçicik ehtiyac belə qalmadığından dörd qoşunun döyüşçüləri tələsik çıxıb gedə bildilər. Çünki maffiya cəld irəli-geri hərəkətlərinə başlamaq niyyətindəydi. Sizə bir daha xatırladaq ki, sərhəd xəttini keçən kimi əzabkeşlərin canı ağızlarından çıxdığından orada lazım olan



çox qısa zaman kəsiyindən artıq ləngiməyə kiçik bir ehtiyac belə yox idi. Axı ölüm anı bütün anların ən qısasıdır və bir nəfəs çəkməyə bənzəyir. Müqayisə üçün şamın heç bir külək, kənardan heç bir təsir olmadan öz-özünə necə sönməsini yadınıza salın. Heç vaxt, heç bir evtanaziya bu qədər yüngül, ağrısız olmamışdı. Ən maraqlısı isə o idi ki, heç kəsin ölmədiyi ölkənin ədliyyəsi ölü mafiyasını cinayət məsuliyyətinə cəlb etmək üçün heç bir əsasa malik deyildi. Onları qəsdən adam öldürməkdə təqsirləndirə bilməzdin, hətta bütün bunları maffiya ilə hökumət arasında centlmen sazişinə əsasən deyil, lap özbaşına etsəydilər belə. Bu hərəkətləri qınamaq olardı, amma bunda, qətiyyən məhkəmələ iş yox idi. Mən öz fikrimi bacardığım kimi ifadə edirəm, qoy kim bacarırsa, başqa sözlərlə çatdırsın, çünki texniki baxımdan heç öldürmək faktının özü də yox idi. Üstəlik, bu hadisələr ölkə sərhədlərindən kənarda baş verirdi. Onları ölü basdırmağa görə məsuliyyətə cəlb etməyəcəkdin ki?! Ölülərin başqa nəsibləri olur ki? Qara torpaqdan başqa hara gömüləcəkdilər ki? Əksinə, onların qarşısında hələ baş əymək gərəkdir ki, qəbirqazanlar bu bütün mənalarda ağır işi öz öhdələrinə çəkiblər. Onların boynuna yalnız bunu qoya bilərdin ki, mərhumların heç birinin ölüm faktı həkimlər tərəfindən qeydə alınmamışdı, dəfnin özü də qəbul olunmuş rəsmiyyət qaydalarına riayət etmədən baş tuturdu. Məzar nəinki adsız qalır, hətta ilk güclü yağışlardan sonra, münbit çürüntüdən baş qaldıran pöhrələr onun üstünü örtərək yad nəzərlərdən də gizlədirdi. Qarşıdakı çətinlikləri ölçüb-biçərək və maffiyanın güzəştsiz, qəddar, qəmiş qoymaqda mahirləşmiş, məhkəmə dartışmalarında sınaqdan çıxmış vəkillərinin nail olacağı məsrəf və kompensasiyaların boğucu bataqlığına qərq olmaqdan qorxan ədliyyə sistemi bir kənara çəkilmək, işin hansı səmtə doğru inkişaf edəcəyinin aydınlaşacağı anı gözləmək qərarına gəldi. Bu, müdrik hərəkət idi. Ölkə misli görünməmiş dərəcədə yerindən oynamışdı, hakimiyyət

dairələri çaşqınlıq içindəydilər, dayaqlar çat verir, hələ dünən sarsılmaz saydıqları dəyərlər sarsılır, tamam tökülüb-itir, vətəndaş biganəliyi hər sahəni, hər dəlmə-deşiyi doldururdu. Bu işlərin nəylə bitəcəyini, yəqin, tək Tanrı bilərdi, amma bu, bəlkə də, heç onun da ağlına gəlməzdi. Şayiələr dolaşır ki, maffiya dəfn biznesiylə məşğul olan çevrələrin başçılarıyla centlmen razılaşmasına gedərək səylərin optimal həddə uzlaşdırılması və vəzifələrin bölünməsinə nail olmaq istəyir. Bunu da adam dilinə çevirəndə belə çıxırdı: biri mərhum təchizatı ilə məşğul olacaq, digəri texnika və vəsait qoyacaq. Dəfn büroları bu təklifdən ikiəlli yapışdılar, çünki minillik təcrübə və vərdişlərini, əməllərini it, pişik, quş üçün məzar quraşdırmağa, dənizin torpağına – sən bir sarsaqlığa bax – hind donuzunu, ya da tamam qıc olub daşa dönmüş bir tısbağanı tapşırmağa, sahibinin çiynində uzanmağa öyrəşmiş dələ ya kərtənkələyə sərf etməkdən artıq bezmişdilər. "Biz hələ bu dərəcədə bihörmət olmamışdıq", – deyirdilər. İndi isə gələcək onlara təzədən şux və sevinc doğuran rənglərdə görünürdü, ümidlər çiçəklənirdi, hətta demək olardı ki, üzdəki paradoksal vəziyyətdən doğaraq, dəfn mərasimi ustalarına yeni həyatın şəfəqləri öz nurunu salırdı. Hamısı da maffiyanın işə yaraması və onun dolu pul kisəsinə görə idi. Mərhum sərhəddən bu üzə keçəndə maffiya hadisə yerinə ölüm faktını təsbit edəcək həkimləri gətirir, yerli hakimiyyət orqanları ilə razılaşdırdılar ki, onların müştərilərini ilk növbədə dəfn etsinlər, özü də günün məhz o saatında ki, sifarişçilərə əl versin. Özünüz başa düşürsünüz ki, bütün bunlar baha başa gəlirdi, amma dəyərdi. Fakturalar əlavə xidmətlərə və məsrəflərə görə şişir, biznes çiçəklənirdi. Birdən, dümdüz yerdə, elə bil, bulağın gözünü tutdular, son mənzilinə yönələn bolsulu meyit seli tükəndi. Adama elə gəlirdi ki, vücudlarını qəfil peşmançılıq küləyi sarmış ailələrin hamısının içində vicdan birdən oyanmışdı, daha əzizlərini ölmək üçün xaricə çıxarmayacaqları barədə qərar qəbul



etmiş, təxminən, belə fikirləşirdilər: nə qədər ki gücləri və şüurları yerindəydi – yaxşıydılar, indi, xəstələnəndə isə, deməli, köhnə, yumaq mümkün olmayan murdar bir cındır kimi zibilliyə tullamalıyıq onları? Dəfn büroları işıqlı şadyanalıqdan qara bədgümanlığa yuvarlandılar: yenə iflas kabusu başlarının üstünü almışdı, yenə ən acı rəzalət onları gözləyirdi; it-pişik, quş və tısbağalar, hind donuzları və dələlər də daxil olmaqla cürbəcür heyvanları, kərtənkələləri dəfn edəcəkdilər, amma sahibinin çiynində uzanan kərtənkələ daha olmayacaqdı, çünki ondan cəmi bircə dənə idi. Maffiya sakitliyini itirmədən, panikaya düçar olmadan məsələni aydınlaşdırmaq qərarına gəldi. Hər şey lap sadə imiş. Ailələr açıq demədilər, amma işarə və eyhamlarla anlatdılar ki, bir var qohumunu gizlincə, gecənin zülmətində aparasan və qonşular da heç dəqiq bilməyələr ki, o, hələ xəstəliyin ağuşundadır, yoxsa artıq harasa buxarlanıb – onda aldatmaq da asan olur. Sizin mərtəbənin o biri mənzilində yaşayan arvadın: "Babanız necədir", – sualına təəssüflə belə cavab vermək olar: "Hə, vəziyyəti elə eləbir, irəliləyiş yoxdur". Bir də var, ölüm haqqında şəhadətnamə və qəbiristanlıqda başdaşı peyda olandan sonra deyəsən. Paxıl və sözbaz qonşular çox tezliklə xəbər tutacaqlar ki, onların babalarının həyatı yeganə mümkün ölümlə nəticələnib, daha doğrusu, qəddar və qədirbilməz ailəsi tərəfindən xaricə çıxarılıb. "Nə edək, utandıq, çox xəcalət çəkdik bundan", – dedilər. Maffiya dinlədi, dinlədi və dedi ki, bu barədə fikirləşər. Bu düşüncələr bir sutkadan artıq çəkmədi. Bu yolu ilk keçən, 46-cı səhifədəki qocanın göstərdiyi nümunəyə uyğun olaraq – ölülər ölməyə özləri qərar veriblərsə, deməli, "ölümün səbəbi" qrafasında da bu gündən etibarən şəraitə uyğun olaraq – "özünəqəsd" yazılmalıdır. Bulağın tutulmuş gözü yenə açıldı.

* * *

Lakin sizin bildiyiniz kimi, heç kəsin ölmədiyi ölkədə hər şey o qədər də pis deyildi. Acgöz maffiya əbədi həyat ümidi

ilə ölməmək qorxusu arasında yaşayan cəmiyyətin bütün guşələrinə öz əyri caynaqlarını ilişdirərək ruhların əxlaqını pozub, keçmiş zamanlardan az-çox qalmış mənəviyyatı aradan hələ tam yox edə bilməmişdi. Həmin o zamanlardan ki, içində açıq-aşkar rüşvət iyi verən nəyinsə olduğu bilinən zərfi elə o dəqiqə də onu gətirənə qaytararaq bu sözləri deyəydin: "Bu pula uşaqlarınız üçün oyuncaq alın", ya da "siz ünvanı səhv salmısınız". Qürur hissi onda hələ bütün təbəqə və siniflər üçün əlyetən idi. İndi qondarma özünəqəsdlərə və sərhəddəki qaranlıq işlərə baxmayaraq, o zamanların ruhu hələ də suyun üzündə üzür – başqa, uzaq torpaqların sahillərini yuyan dəniz-okeanlardakı yox, göl və çayların, arx və nohurların, yağışdan təsadüfən qalmış gölməçələrin, quyuların – nədənsə göylərin ucalığı daha aydın yetişən dibində sirli şəkildə sayrışan və nə qədər ağlasığmaz görünsə belə, hətta akvariumlardakı suların sakit səthində. Bax məhz elə həmin an suyun üzünə qalxmış qırmızı pullu balıq dalğın halda əsnədi və artıq o qədər də dalğın olmadan özündən sordu ki, bu suyu, görəsən, nə vaxtdan dəyişmirlər. Bu balaca balıq nə soruşduğunu çox gözəl bilirdi, çünki havanın su ilə qarışdığı səthdə yaranmış təbəqəni artıq neçənci dəfə burnu ilə yırtırdı. Bax həmin bu taleyüklü anda filosofun tələbəsinin qarşısında yalın şübhəsizliyilə fərqlənən bir sual ucaldı və bu sual heç kəsin ölmədiyi ölkədə hələ o günə kimi misli görünməmiş qəddarlıqda bir polemikanın başlanmasına səbəb oldu. Bəli, akvariumun suyu üzərində uçan ruh təzə filosofdan soruşdu:

– Sən heç düşünmüsən ki, bütün məxluqlar üçün, istər insan da daxil olmaqla heyvanlar, istər ayaqlarımızın altındakı otlar, yüzmetrlik tropik ağac daxil olmaqla bütün bitkilər, öləcəyini bilən insan və bundan bixəbər at üçün ölüm eynidirmi? – Bir də bunu soruşdu: Baramanın içində bütün cəftələri daldan bağlayaraq qapanmış ipəkqurdu nə vaxt ölür? Mümkündürmü ki, bir məxluqun yaranışı digərinin ölümündən doğsun, kəpənəyin həyatı tırtılın məhvindən pərvazlansın – yoxsa baramaqurdu kəpənəyə çevrildiyi üçün heç ölməyib də.



Filosofun tələbəsi isə belə cavab verdi:

– Tırtıl ölməyib, kəpənək öləcək – yumurtalarını qoyan kimi.

– Hə, mən bunu doğulmamışdan çox-çox əvvəl bilirdim, – deyə akvariumun suyu üzərində pərvazlanan ruh dedi, – baramaqurdu ölmür və içindən kəpənək pərvazlanan baramada da heç bir leş qalmır; sən özün dedin bunu – birinin həyatı digərinin ölümündən doğur. Buna "metamorfoz" deyirlər.

– Bunu bilməyən var ki, – filosofun tələbəsi təkəbbürlə dilləndi.

– Qəşəng səslənir, çox şey vəd eləyir, sən bir "metamorfoz" deyib qoydun üstünə; sanki, heç diqqət yetirmədin ki, sözlər adi bir qılaf, əşya və hadisələrin üzərinə yapışdırılan etiket kağızı kimi şeydir, hadisənin, əşyanın özü deyil. Sən heç vaxt onların əslində necə olduğunu, hətta həqiqi adlarını da öyrənə bilməyəcəksən, çünki onlara verdiyin adlar, elə onlara verdiyin adlardan artıq bir şey deyil.

– Yaxşı, onda bizim ikimizdən hansımız filosofuq?

– Burada filosof yoxdur: sən fəlsəfəni yalnız öyrənirsən, mən isə – akvariumun suları üzərində uçan ruham.

– Deyəsən, biz ölümdən danışırdıq axı.

– Ölümdən yox, ölümlərdən, mən soruşdum ki, hansı əsasla insanlar və başqa məməlilər ölmürlər, hə məhz bunu soruşdum ki, nədən onların birinin ölməməsi digərinin ölməməsinə səbəb olmur və məsələn, bu qırmızı balıq öləndə... yeri gəlmişkən, sənə xəbərdarlıq edim ki, suyunu dəyişməsən, bu çox tez bir zamanda baş verəcək. Beləliklə, bu balıq öləndə onun ölümündə başqa ölümü – sənin indi, kim bilir, hansı səbəbdən nicat tapdığın ölümü tanıyacaqsanmı.

– Əvvəllər, bizdə hələ insanlar öləndə mən də, nadir hallarda olsa da, ölü görəndə heç vaxt fikirləşmirdim ki, onların

ölümü – bir zamanlar mənim özümü yaxalayacaq ölümlə eynidir.

– Bunun səbəbi odur ki, sizin hər birinizin öz ölümü var; siz onu dünyaya gələndən bəri gizli bir yerdə özünüzlə gəzdirirsiniz, o, səninkidir – sən də onunku.

– Bəs heyvanlar, bəs bitkilər?

– Məncə, onlarda da elə bu cürdür.

– Deməli, hər birisinin öz ölümü var?

– Məhz elədir.

– Deməli, ölümlərin sayı-hesabı yoxdur, yer üzündə nə qədər canlı yaşayıb, nə qədər yaşayır, nə qədər hələ yaşayacaqsa, ölüm də o qədərdir.

– Belə də demək olar.

– Sən özün özünü təkzib edirsən, – filosofun tələbəsi dilləndi.

– Sizin hər birinizin ölümü – necə deyərlər, ikinci dərəcəli, həyatdan asılı olan ölümdür; onlar öldürdükləri canlıyla bir yerdə ölürlər, lakin hamısından ucada bir dənə baş ölüm var, bəşər nəsli yaranan andan bəri onunla məcmu şəklində məşğul olan.

– Deməli, bunda da nəsə bir iyerarxiya var.

– Əlbəttə, bəs necə.

– Heyvanlarda da elədir – "protezoa" kimi gözəl ad daşıyan təkhüceyrəlidən tutmuş mavi kitə kimi?

– Hə, onlarda da elədir.

– Bitkilərdə də – mikroorqanizmlərdən başlamış, ölçülərinin doğurduğu hörmətdən sənin latınca adlandırdığın sekvoyaya kimi?

– Mənə bəlli olduğuna görə, onların da başına eyni şeylər gəlir.

– Deməli, onların da hər birinin şəxsi, özünəməxsus, heç kəsə ötürmək mümkün olmayan ölümləri var.

– Hə.

– Bundan başqa da iki dənə ümumi ölüm var – təbiətin hər səltənəti üçün biri.



– Tamamilə doğrudur.

– Hə, heç olmasa, burada tanatos tərəfindən ötürülmüş səlahiyyətlərin iyerarxiyaya uyğun bölgüsü bitir? – filosofun tələbəsi soruşdu.

– Mənim təxəyyülümün boy verdiyi yüksəklikdə daha bir ölüm görürəm – sonuncu və ali.

– Doğrudan?

– Sən təsəvvürünə gətir: həmin o ölüm ki, vaxtı gələndə kainatı aparacaq və sözün əsl mənasında "ölüm" adını daşımağa layiq olacaq. Hərçənd ki onun dəmi gələndə artıq bu sözü tələffüz etməli kimsə qalmayacaq. Bizim bəhs etdiyimiz şeylər isə mahiyyətcə əhəmiyyətsiz və xırda detallardır.

– Bütün bunlardan mən belə nəticə çıxarıram ki, ölüm tək deyil, – filosofun tələbəsi nədənsə yekunlaşdırdı.

– Bəs bayaqdan bəri mən sənə nədən dəm vururam. Daha doğrusu, bir ölüm – bizimki – öz fəaliyyətini dayandırır, iki başqası – flora və faunaya aid olanlar isə işlərinə davam edirlər, özü də bir-birindən qətiyyən asılı olmadan və hər birinin öz fəaliyyət sferası, öz sektoru var. Hə, necədir, inandıra bildim səni?

– Hə.

– Onda tərpən, bu barədə hamıya xəbər ver, – akvariumun üzərində uçan ruh dedi.

Akvariumun suyu üzərində pərvazlanan ruhun cəsarətli ehtimallarına qarşı çıxan etirazların səbəbi, hər şeydən öncə o idi ki, bu ideyaların, necə deyərlər, ruporu diplomlu filosof deyil, şəyird idi. Həmin o protozun özü kimi bəsit və ibtidai, hələ bu azmış kimi dağınıq və adda-budda, üst-üstə birtəhər qalaqlanmış, yel vursa dağılası, nazik sapa düzülmüş, parlaq rənglərinin və qurama formalarının bir-biriylə bəhsə girərək ya təlxək cərəyanına, ya da ektektika məktəbinə aid olan bir şəyird. Lakin əsas məsələ heç bu da deyildi. Hə, əlbəttə ki, postulatın mahiyyəti akvarium üzərində pərvazlanan ruh tərəfindən ifadə edilmişdi, amma ötən səhifələrdəki dialoqu

oxumaq kifayət idi ki, etiraf eləyəsən: Maraqlı ideyanın inkişafına filosofun tələbəsi, ən azı, dinləyici kimi az əmək sərf etmədi. Bu isə, hamınızın bildiyi kimi, hələ Sokrat dövründən bəllidir ki, dialektik cəhətdən zəruri faktordur. Ən azından bir şeyi danmaq olmaz: insan varlıqları, faunanın bütün qalan siniflərindən və növlərindən fərqli olaraq ölmürlər. O ki qaldı floraya, hamı, hətta botanikadan anlayışı olmayanlar da etiraf edər ki, bitkilər elə əvvəlki kimi doğulur, yaşıllaşır, solur, quruyurlar. Əgər bu çürüməklə müşayiət olunan və yaxud olunmayan final fazasını ölüm adlandırmaq olmazsa, onda qoy biri gəlib bunu daha yaxşı izah eləsin, nə deyirəm. Burada insanların ölməməsini, bütün qalan canlı aləmin isə ölməsini opponentlərdən bəziləri belə izah etməyə meyilli idi ki, deməli, yer üzündəki bütün normal şeylər hələ dünyanı tərk etməyib. "Normal" deyəndə isə söyləmək artıqdır ki, sadə bir şeyi nəzərdə tuturdular – vaxtında ölməyi. Ölmək və daha ölümün alnımıza hələ anadan olanda yazıldığı, yaxud elə-belə, gəzməyə çıxanda bizə təsadüfən rast gəldiyi barədə fikir yürütmək yox. Qalan ölkələrdə insanlar ölməyə davam eləyir və sən demə, bu səbəbdən yaman dərd çəkirlər. Əvvəl-əvvəl, təbii ki, paxıllıq da vardı, qəsd də, bizim nailiyyətlərimizi öyrənmək üçün yolladıqları bir-iki casus da tutmuşduq, lakin sonradan başımıza gələnlərdən çıxış edərək belə düşünürük ki, xalqların çox hissəsi bizə baxanda yalnız bunu deyir: "Yaxşı ki, bu, bizim başımıza gəlməyib".

Aydındır ki, kilsə bu debatlarda özünün sınanmış döyüş atının belinə qalxdı: "Tanrının yolları anlaşılmaz olub və olaraq da qalacaq". Bunu müasir və bir az küfrə bulaşmış dilə çevirəndə belə çıxır ki, bizim içəridə nə baş verdiyini görmək üçün səma darvazasının kilid deşiyindən baxmağımıza icazə yoxdur. Kilsə bir də deyirdi ki, təbii hadisələrin müvəqqəti, lap uzun müddətə belə olsa da, durması əvvəllər də olub, elə sonuncu iyirmi əsr ərzində Tanrının yol verdiyi möcüzələri yada salmaq kifayətdir. İndiki hadisə ilə o möcü-

zələrin fərqi yalnız miqyasındadır, çünki qabaqlar Tanrı mərhəmətinə ayrı-ayrı şəxslər imanın möhkəmliyindən layiq görülürdüsə, indi bu, bütöv bir ölkəyə şamil olunub. Necə deyərlər, onun bütün vətəndaşları ölməzlik iksirindən bəhrələnib, özü də məntiqlə fərqləndirmək lazım gələn yalnız həqiqi möminlər deyil, həm də ateistlər, aqnostiklər, kafirlər, bütün növlərdən olan bütpərəstlər, müxtəlif sektaların nümayəndələri, başqa dinlərin tərəfdarları, yaxşı və pis insanlar, lap yaramazlar, ağıllı və dəlilər, cəlladlar və qurbanlar, parlaq və alçaq adamlar, polislər və oğrular, qaniçənlər və donorlar, bir sözlə, istisnasız olaraq, hamı bir yerdə möcüzələr tarixində heç vaxt misli-bərabəri görünməmiş ən əzəmətli möcüzənin həm şahidlərinə, həm də ondan bəhrələnənlərə çevrildilər. Cismin əbədi həyatı həmin andan etibarən və həmişəlik ruhun əbədiliyi ilə qovuşdu. Lakin kilsənin rütbəliləri – yepiskop və ondan üstdə duranlar – möcüzə həsrətiylə yaşayan orta təbəqə ruhaniləri ilə razılaşmadılar və bunu möminlərə ünvanladıqları qəti ifadələrlə köklənmiş müraciətlərində tələsik açıqlamağa çalışdılar. Həmişəki kimi necə lazımdırsa, Tanrı yollarının dərkolunmazlığını xatırladaraq və kardinalın böhranın ilk saatlarında baş nazirlə telefon danışığı zamanı ekspromt şəkildə meydana gəlmiş fikrini israrla təkrar edərək – həmin danışıqda o, özünü papanın yerinə qoyub, Tanrıdan bu fani düşüncələrinə görə üzr diləyib və təcili olaraq yeni doktrinanın – təxirə salınmış ölüm doktrinasının irəli sürülməsini təklif edərək, özümüzü yalnız zamanın misilsiz və ünvanına artıq neçə dəfə mədhiyyələr deyilmiş müdrikliyinə tapşırmağı məsləhət gördü. Xatırlatmaq istəyirik. Zaman, bezdirmədən bizi daim anlatmağa çalışırdı ki, bu gün həlledilməz görünən məsələ sabah çözümünü özözünə tapacaq və axşamın xeyrindənsə, səhərin şəri yaxşıdır. Bir oxucu sevimli qəzetinin redaktoruna xəbər verirdi ki, ölümün öz-özünü qeyri-müəyyən müddətə təxirə salması ideyasını qəbul etməyə hazırdır, amma bundan kilsənin necə

xəbər tutduğunu bilmək istəyir. Bir də yazırdı ki, əgər kilsə bundan yaxşı xəbərdardırsa, onda qoy bu prosesin nə qədər uzanacağını hamıya açıqlasın. Redaksiya oxucuya xatırlatdı ki, söhbət hələ özünü qətiyyən isbatlamamış ehtimaldan gedir və bundan isə qulağı olan hər kəs belə nəticə çıxarmalıydı: "Kilsə də bu barədə elə bizim hər birimiz qədər məlumatlıdır, yəni, əslində, heç nə bilmir". Elə həmin günlərdə kimsə bir məqalə düzüb-qoşdu, həmin məqalədə tələb eləyirdi ki, diskussiyanı sualın əvvəlki məcrasına qaytarsınlar, yəni, ölüm təkdir, yoxsa çox?! Müəllif bəyan edirdi ki, kilsə vaxt qazanmaq üçün ikibaşlı mövqe tutur, üzərinə heç bir öhdəlik, heç bir məsuliyyət götürməyərək nə yardan doyur, nə əldən qoyur, qurbağanın ayağına təpitmə qoymaqla məşğuldur. Folklordan qaynaqlanan bu deyim, belə bir ifadəni nə eşitmiş, nə də ona yazılı ədəbiyyatda rast gəlmiş jurnalistlərdə dərin çaşqınlıq yaratdı. Bu tapmaca qarşısında dalana dirənən, lakin sağlam peşə qüruru vasitəsilə həvəsləndirilən söz sərrafları məqalə və yazılarını qələmə alarkən bəzən dadlarına çatan lüğətləri kitab rəflərindən götürüb, bu sudaquruda yaşayan məxluqun axtarışına çıxdılar. Təbii ki, heç nə tapa bilmədilər, daha doğrusu, tapdılar, ayağı da tapdılar, qurbağanı da, amma "təpitmə qoymaq" ifadəsini tapa bilmədiklərindən bu kəlmələri birləşdirib ifadənin dərin mənasını dərk eləyə bilmədilər. Bu yerdə kimsə, bir zamanlar kənddən şəhərə gəlmiş, lakin hələ də buxarı dibində nəvələrinə nağıl söyləyirmiş kimi danışan, hamının gülüş hədəfinə çevrilən qapıçını xatırladı. Ondan soruşdular ki, bu el məsəlini bilirmi, cavabında eşitdilər ki, onu heç bilməmək olarmı? "Onun mənasını anlayırsanmı" sualına isə, "burada anlaşılmaz nə var ki", – dedi.

– Onda izah eləyin, – şef-redaktor tələb elədi.

– Təpitmə qoymaq, cənablar, o deməkdir ki, təpitmə qoyursan, sınmış, ya da əzilmiş bir yerini sağaltmaq üçün.

– Bəs qurbağanın bura nə dəxli var?



– Necə yəni nə dəxli var, lap birbaşa dəxli var, çünki hələ qurbağanın ayağını tutub ona təpitmə qoymaq heç kimə nəsib olmayıb.

– Niyə?

– Çünki onun ayağı bir yerdə durmur axı.

– Yaxşı, onda bu ifadə nə deməkdir?

– O deməkdir ki, elə işlər var, onlara girişməsən yaxşıdır, onsuz da əmələ gəlməyəcək.

– Axı bizim oxucu yazır ki, bir işi heç cür başa çatdıra bilməyəndə, bəzən isə onu, necə deyərlər, acı bağırsaq kimi bilə-bilə uzadanda deyirlər ki, getdi qurbağa ayağına təpitmə qoymağa.

– Deməli, kilsə indiki şəraitdə qurbağanın ayağına təpitmə qoymaqla məşğuldur.

– Elədir ki, var.

– Deməli, bizim oxucumuz haqlıdır.

– Mənə elə gəlir ki, haqlıdır, amma mən balaca adamam, işim qapı ağzında oturmaqdır.

– Təşəkkür edirəm, bizə çox kömək etdiniz.

– Bəs "nə əldən qoyur, nə yardan doyur"u necə, izah eləmək lazım deyil ki?

– Yox, çox sağ olun, bunu özümüz də bilirik, bütün günü işimiz elə budur da.

Ölümlərin çoxluğu barədə akvarium üzərində uçan ruh tərəfindən belə uğurla başlanmış polemika, qəzetdə bir iqtisadçının məqaləsi olmasaydı, əsl məzhəkəyə çevriləcəkdi. Hərçənd ki sosial yardımın mühasibat uçotu onun ixtisası deyildi, lakin həmin iqtisadçı belə hesab edirdi ki, hökumət, tutalım, iyirmi il sonra əbədi davam edəcəyi güman olunan qocalığa görə təqaüdə çıxmış milyonlarla insana müavinəti hansı mənbələrdən ödəyəcəyini mətbuat vasitəsilə soruşmaq üçün mövzudan kifayət qədər anlayışı var, özü də nə onların, nə də bunların nəsibində ölmək onsuz da yox idi. Onların sayı ya riyazi, ya həndəsi silsiləylə artacaqdı, bu isə fəlakətə,

çaşqınlığa, dövlətdə: "başlı başın saxlasın" – qışqırıqlarıyla müşayiət olunan misilsiz qarmaqarışıqlığa zəmanət verirdi. Hələ üstəlik, bu vəziyyətdən, onsuz da, kimsə xilas ola bilməyəcəkdi. Belə dəhşətli perspektivləri görəndə filosoflara, köhnədən deyildiyi kimi, şələ-külələrini yığışdırmaq, kilsəyə isə ruhanilərin esxatoloji görüşlərinə əsasən, hər şeyi öz yerinə qoyacaq axır məhşəri gözləyərək təsbeh çevirməklərinə dönməkdən savayı bir şey qalmadı. İqtisadçının həyəcanlı qənaətlərinə gələndə isə bunu qeyd edək: onun hesablamaları qətiyyən dolaşıq deyildi və əgər nəzərə alsaq ki, qocalığa və əlilliyə görə təqaüdə çıxacaq şəxslərin sayı davamlı və getdikcə çoxalan sürətlə azalan işqabiliyyətli əhaliyə nisbətən durmadan artacaqdı, yalnız təəccüblənmək qalırdı ki, əvvəl-əvvəl xoşbəxtliyin zirvəsi, arzuların kulminasiya nöqtəsi və bəxtiyarlığın apogeyi hesab edilən ölümsüzlüyün o qədər də yaxşı bir şey olmadığını niyə əvvəldən kimsə anlamadı. Bunun üçün ehtiyac yarandı ki, filosoflar və sairlər, abstrakt mütəfəkkirlər öz aqilanə düşüncələrinin qaranlıq cəngəlliklərində tamam itsinlər. Yalnız onda sağlam düşüncə adi kağız və qələmlə silahlanaraq "iki dəfə iki – dörd" kimi isbat elədi ki, təcili nəzərdən keçirəsi başqa mövzular da var. İnsan xislətinin qaranlıq tərəfləri barədə məlumatlı olanları qətiyyən təəccübləndirmədi ki, adı çəkilən məqalənin dərc olunmasından bilavasitə sonra əhalinin sağlam hissəsinin, xəstə qisminə münasibəti kəskin surətdə pisləşdi. Həmin anadək hamı, bütün çətinlik və problemlərə baxmayaraq, inanırdı ki, qocalara və zəiflərə qayğı mədəni cəmiyyətin ən vacib vəzifələrindəndir. Elə buna görə də hərdən, bəzən hətta ürəkləri sıxılsa belə, onlara qayğı, himayə göstərməkdən imtina etmirdilər və hərdən, lap fövqəladə vəziyyətlərdə onların işığını keçirməmişdən əvvəl qocaları bir qaşıq diqqət və məhəbbətə qonaq edirdilər. Bəli, əlbəttə, bilirik, elə daşürəkli ailələr də tapılırdı ki, sağalmaz antihumanizmləri, tər hopmuş, ifrazatlara bulaşmış yataqda sonu



görünməyən ölümqabağı aqoniyada qıvrılan miskin insan tör-töküntüsündən can qurtarmaq üçün, onları maffiya ilə müqavilə bağlamağa sürükləyirdi. Lakin bizim ən böyük qınaq obyektinə çevirdiyimiz o ailələr idi ki, lənətdən ən son anda, səkkizyaşlı oğlanın mərhəməti sayəsində qurtarmağa nail olmuşdular. Yüz dəfələrlə eşitdiyimiz taxta kasa barədə köhnə nağıldakına bənzəyirdilər. İndi həmin nağılın məğzini onunla tanış olmayan yeni nəsillər üçün qısaca xatırladaq, ümidvaram ki, onu sadəlövh və sentimental saymayacaqlar. Hə, deməli, diqqətlə qulaq asın, mənəvi öyüdlərə diqqət yetirin. Çox zamanlar qabaq nağıllar ölkəsində bir ailə yaşayırdı – ana ilə ata, bu atanın atası, yəni baba və səkkizyaşlı bir oğlan. Baba artıq qoca idi, əlləri əsirdi, ona görə də masa arxasına əyləşəndə qaşığı ağzına silkələyib yerə tökmədən apara bilmirdi, bundan da onun öz oğlu, gəlini yaman əsəbiləşirdi, onlar qocanı möhkəm danlayır, söyürdülər, amma yazıq qoca nə edə bilərdi, əgər əlləri əsim-əsim əsirdisə. Onu danlayanda lap pis olurdu, odur ki daim süfrəni batırır, yeməyi yerə salırdı, hələ üstəlik, yemək yeyəndə istifadə elədiyi döş yaylığını da gündə üç dəfə – səhər, günorta, axşam – dəyişəsi olurdular. Hər şey beləcə də davam edir, yaxşılığa doğru heç bir irəliləyiş nəzərə çarpmırdı, nəhayət ki, oğul bu xoşagəlməz vəziyyətə son qoymaq fikrinə düşdü. Atasına bir dənə taxta kasa gətirib dedi: "Bundan sonra xörəyini bu kasada yeyəcəksən, oturmaq yerin də kandarda olacaq, çünki oranı təmizləmək asandır, gəlinin də süfrə, yaylıq yumaqdan bezməz". Elə onun dediyi kimi də oldu. Gündə üç dəfə qoca kandarda oturub bacardığı kimi yeyirdi: yeməyin yarısı kasadan ağzına kimi çatınca dağılır, bir hissəsi çənəsindən axırdı, odur ki yeməyin çox kiçik bir qismini, camaat arasında deyilən kimi, "həzme-rabedən" keçirə bilirdi. Zahirən ata-anasının babasıyla necə pis davranmalarının nəvəyə elə bir dəxli yox idi: əvvəl babasına nəzər salırdı, sonra da ata-anasına və heç nə olmayıbmış kimi yeməyini yeməyə davam

edirdi. Amma bir dəfə ata işdən dönəndə gördü ki, oğlan bıçaqla ağac parçaları yonur və fikirləşdi ki, yəqin, özünə nəsə bir oyuncaq düzəldir – o qədim zamanlarda bu adi bir şey idi. Lakin ertəsi gün fikir verdi ki, oğlunun düzəltdiyi bir az uşaq arabasını xatırladır, amma təkər bərkitmək yeri heç yoxdur, soruşdu: "Nə düzəldirsən?" Oğlan özünü elə göstərdi ki, guya, eşitmir və yenə əlindəki ağacı bıçaqla qazımağa davam etdi. Xatırladıram ki, bütün bunlar valideynlərin hələ o qədər də qorxaq olmadığı dövrlərdə baş verirdi, ona görə də oğlanın əlindən oyuncaq düzəltdiyi aləti tələsik almağa cummamışdılar. "Karsan-nədir, – atası dedi, – mən soruşuram ki, nə düzəldirsən?" Oğlan başını belə qaldırmadan cavab verdi: "Kasa düzəldirəm ki, siz qocalanda, əlləriniz əsəndə, qapının ağzında oturub xörəyinizi yeyəsiniz". Bu müqəddəs sözlərdən atanın gözlərini örtmüş pərdə yırtıldı, həqiqət nuru ona açıldı və elə o dəqiqə gedib qocadan üzr istədi, şam yeməyi yetişəndə isə ailənin başçısını masanın arxasına öz əlləriylə oturtdu, öz əlləriylə onu qaşıqla yedirtdi, dodaqlarını və çənəsini öz əlləriylə sildi, çünki hələlik onun buna gücü çatırdı, sevimli atasının isə artıq yox. Əhvalatın axırı necə oldu, bu barədə tarix susurdu, amma şəksiz təcrübələrimizlə bilirik bunu: əgər oğlanın əl işinin ortada yarımçıq qalması həqiqətdirsə, deməli, o ağac parçası haradasa, buralarda olmalıdır. Onu heç kəs yandırmayıb, heç kəs zibilliyə atmayıb – ya ona görə ki, bu dərs unudulmasın, ya da o səbəbdən ki, kiminsə bir zamanlar ağlına həmin işi başa çatdırmaq gələ bilər. Əgər insan ruhunun yuxarıda xatırlanan qaranlıq cəhətlərinin nə qədər yaşam gücünə malik olduğunu nəzərə alsaq, bunda qeyri-mümkün bir şey yoxdur. Birinin dediyi kimi, olacağa çarə yoxdur. Burada məsələ yalnız zaman məsələsidir və əgər biz bunu dünyanı dolaşaraq hələ görməmişiksə, deməli, kifayət qədər yaşamamışıq. Bizi təsvir üçün rəngi palitranın yalnız sol tərəfindən götürməkdə ittiham etməsinlər deyə, fərz edə bilərik ki, kol-



lektiv yaddaşın toz basmış künc-bucağındakı qəmli hörümçək torunu sivirmiş nağılın bu gözəl televersiyası ona səbəb oldu ki, ailələrin əldən düşmüş şüurlarına cəmiyyətdə bir zamanlar – indi hər şeyi üstələyən alçaq materializmin hələ o vaxtlar güclü sayılan, amma bərk sınağa çəkiləndə acı ruhi gücsüzlüyün bariz nümunəsi olduğu aşkarlanan iradələrə tam sahib çıxmadığı dönəmlərdəki əbədi və qeyri-maddi mənəvi dəyərlər yenidən qayıtmağa başladı. Odur ki bədgüman olmağa dəyməz. Ümid eləyək ki, əlində ağac parçası olan oğlan ekranlarda görünəndə ölkənin tən yarısı göz yaşlarını silmək üçün yaylıq dalınca cumacaq, dözümlü temperamentə malik o biri yarısı isə imkan verəcək ki, artıq törətdiyi, yaxud eləcə düşündüyü pis hərəkət ucbatından yaşanan peşmançılığın boş sözlər olmadığının sübutu kimi onlar, yəni göz yaşları yanaqlarından aşağı yuvarlansın. Tanrı qismət eləsin, qocalarımızı xilas etməyə vaxtımız çatsın.

Respublika tərəfdarları nəyin yerində, nəyinsə yersiz olduğuna tam və acınacaqlı bir anlamsızlıq nümayiş etdirərək, gözlənilmədən çox incə məqamdan özləri barədə ucadan bəyan etmək üçün yararlandılar. Onların sayı az idi, parlamentdə də təmsil olunmamışdılar, baxmayaraq ki vaxtında siyasi partiyada mütəşəkkilləşib seçkilərdə müntəzəm iştirak edirdilər. İftixar edirdilər ki, artist və ədəbiyyatçılar arasında tərəfdarları vardı, o çevrələrdə arabir onların kifayət qədər səs-küylü, amma tamam ziyansız manifestləri yayılırdı. Ölümün fasilə götürdüyü gündən bəri respublikaçılar həyat nişanəsi göstərmirdilər, hərçənd ki özünü barışmaz, ya da sistemli müxalifət adlandıran bir qüvvəyə Tanrının özü buyurub ki, maffiyanın sağalmaz xəstələrin sərhəddən keçirilməsində güman edilən iştirakına aydınlıq gətirilməsini tələb etsin. Respublikaçılar, özünü dünya qaşısında öymək istəyilə hamı kimi görünməmək qorxusu arasında vurnuxan ölkədəki çaşqınlaqdan istifadə edərək qəflətən siyasi quruluşun dəyişməsi barədə məsələni ortaya atdılar – nə az, nə

azacıq. Təbii ki, monarxiyanın, taxt-tacın qatı düşmənləri əmin idilər ki, ləngimədən respublika elan edilməsi üçün sarsılmaz bir əsas tapmışdılar. Onlar bəyan edirdilər ki, dövlətin başında heç vaxt ölməyəcək bir monarxın – əgər sabah qocalıqdan, ya da ağlının azlığından taxtdan imtina etmək istəsə belə kral kimi qalacaq – öz yataq otaqlarında gəlmək bilməyən ölümün intizarında uzanıb-qalmış yarıdiri-yarıölü monarxların bitmək bilməyən tacqoyma və taxtdan imtinalar zəncirindən birinin olması məntiqin çox kobud şəkildə tapdanması deməkdir. Onları saray dəhlizlərində basabas salmasınlar deyə, bir zamanlar məqbərələrdə rahat uyuyan, indi isə ya pis qoxuyan mumiya, ya da sür-sümük yığnağına çevrilən sələflərinin yanında üst-üstə qalaqlamaq lazım gələcək. Görün ölkəyə konkret müddət üçün – bu vəzifəni, ən çoxu, iki müddət tutacaq, sonra isə öz işini bitirib şəxsi həyatına başlayacaq: mühazirə oxuyacaq, kitab yazacaq, konqres və simpoziumları dolaşacaq, dəyirmi masaların iştirakçısına çevriləcək, səksən qeyri-rəsmi qəbulla dünyanı dolaşacaq, uzun donlar yenidən dəbə minəndə onlar haqda, ya da atmosferdəki ozon dəlikləri barədə (əgər o zaman üçün hələ atmosfer olacaqsa) fikir yürüdəcək və ümumiyyətlə, heç vaxt itib-batmayacaq bir prezident seçmək nə qədər müdrik hərəkət olardı. Biz isə hər gün qəzetlərdə, radio və televiziyalarda iki dəfə genişləndiriləndən sonra çarpayı sayının artırılması məqsədilə üçüncu rekonstruksiyaya ehtiyac duyulan saray xəstəxanaları pasiyentlərinin sabit ağır vəziyyəti barədə tibbi hissənin məlumatlarını oxuyası və eşidəsi olmazdıq. Ona görə cəm şəkildə deyirik ki, bütün stasionar tibb müəssisələrində olduğu kimi, burada da kişilərlə qadınlar ayrı palatalarda yatırlar, məsələn, kralla şahzadələr – bu tərəfdə, kraliça ilə qızları – o tərəfdə. Respublikaçılar xalqa müraciət edərək səlahiyyəti öz üzərinə, talelərini isə – öz əllərinə götürməyə, yeni, xoşbəxt həyatın yollarını öz sinələriylə açmağa, necə deyərlər, şəfəqə sarı irəliləməyə çağırdılar. Bu cəsarətli və



uğurlu obrazını kömək etdi, yoxsa tamam başqa şeylə bağlı idi, amma manifest artıq təkcə rəssamlarla ədəbiyyatçıların qəlbini coşdurmadı, başqa sosial təbəqə və kəsimlər də çağırışa biganə qalmadılar. Odur ki gözlənilmədən partiyanın, çaydakı balığa ov demək mümkün olduğu kimi artıq tarixi adlandırmaq mümkün olan bu yola çıxmağa hazır yeni-yeni tərəfdarları peyda oldu. Hələlik bəlli deyildi ki, bu yol, həqiqətən, tarixi idimi?! Nə qədər acınacaqlı olsa da, bunun ardınca baş qaldırmış və respublikanın yeni-yeni tərəfdarlarını çulğamış vətəndaş ruh yüksəkliyi hərdən demokratik dözümlülük və adi sayğı çərçivəsindən çox-çox kənarlara çıxaraq ən kobud söyüş qəlibinə tökülürdü. Yaxşı zövqü hələ korlanmamış hər bir insan etiraf edirdi ki, əlahəzrət ailəsinin üzvlərinə ünvanlanmış "eşşəkarısı", "gəmiricilər" və "müftəxorlar" kəlmələri nəinki yolverilməz, hətta bağışlanmaz idi. Sadəcə, demək olardı ki, xəzinə daha sarayın təmin edilməsi üçün durmadan artan vəsaiti ödəmək gücündə deyildi və hamı da bunu başa düşərdi. Həm həqiqətdir, həm də elə çox yandırmır. Amma ağızlarına gələni yazırlar.

Həm respublikaçıların qəzəbli hücumu, həm də məqalədə adı çəkilən həmin o xəzinənin yaxın zamanlarda qocalığa və əlilliyə görə təqaüdləri ödəmək gücündə olmayacağı kimi acınacaqlı fakt kralı vadar elədi öz baş nazirinə xəbər yollasın ki, onunla danışmaq istəyir – açıq, təkbətək, heç bir protokol və şahid olmadan. Baş nazir gəldi, bir ildən bəri son nəfəsini çəkməyə hazırlaşan, indi isə son nəfəsini bir çox başqaları kimi dəqiqədə on üç dəfə çəkən, amma öz yataq otağındakı örtüyün altında başqa həyat əlamətləri demək olar ki, göstərməyən kraliça-ananın vəziyyəti ilə maraqlandı. Əlahəzrət təşəkkür edib cavab verdi ki, kraliça-ana damarlarında hələ də cərəyan edən nəcib qanının tələblərinə uyğun olaraq öz nəsibini çiyinlərində ləyaqətlə daşıyır və sonra bilavasitə söhbətinin mövzusuna keçdi. Onun isə birinci bəndi respublikaçıların müharibəyə qalxması idi.

– Başa düşə bilmirəm, – deyirdi, – bunların beyninə nə girib: ölkə çoxəsrlik tarixi boyu görünməmiş çox ağır böhran içindədir, onlar isə quruluşun dəyişdirilməsindən dəm vururlar.

– Mən, hökmdar, bu barədə nigarançılıq keçirməyə meyilli deyiləm: onlar yalnız münbit zəmindən sui-istifadə etmək istəyirlər ki, öz təkliflərini daha əhəmiyyətli göstərsinlər. Sadə dillə desək, onlar bulanıq suda balıq tutmaq arzusundadırlar.

– Özü də acınacaqlı bir qeyri-vətənpərvərliklə.

– Məhz elədir, hökmdar, respublikaçıların dövlət quruluşu haqda fikirlərini yalnız onların özləri anlaya bilər, o da bəlkə.

– Onların siyasi görüşləri məni maraqlandırmır, mən sizdən eşitmək istəyirəm ki, quruluşun dəyişməsi imkanı mövcuddurmu?

– Əlahəzrət, onlar axı heç parlamentdə təmsil olunmurlar.

– Mən dövlət çevrilişini – inqilabı nəzərdə tuturam.

– Bu, qətiyyən mümkün deyil, əlahəzrət: xalq taxt-tac ətrafında birləşib, silahlı qüvvələr qanuni hakimiyyətə sadiqdirlər.

– Deməli, mən sakit ola bilərəm?

– Tamamilə, əlahəzrət.

Kral qarşısındakı kağızda "respublikaçılar" sözünün qarşısında quş qoydu və dedi:

– Beləliklə, bunu aydınlaşdırdıq – növbəti bəndə keçdi, – bəs bu ödənilməyən təqaüdlər nə məsələdir?

– Yox-yox, ödənilir, amma gələcək çox tutqun çalarlarla təsvir olunur, bu tamam başqa şeydir.

– Deməli, mən anlamamışam, elə bildim, ödənişləri dayandırmışıq.

– Yox-yox, hökmdar, lakin gələcəkdə bu təhlükə ola bilər.

– Nədə təhlükə?



– Hər şeydə, mənim hökmdarım, dövlət oyuncaq ev kimi dağıla bilər.

– Bu nədir belə – təkcə bizik bu problemlərlə üz-üzə qalan?

– Yox, əlahəzrət, gec-tez bu problem hamıya toxunacaq, burada fərq, bəsitliyə görə üzr istəyirəm, ölümlə həyat arasındakı kimidir.

– Anlamıram.

– Başqa ölkələrdə adamlar əvvəlki və adi qaydada ölürlər və ölümlərin sayı doğuşu tənzimləyir, bizdə isə, əlahəzrət, bizim ölkəmizdə heç kəs ölmür, ülyahəzrət ananızı xatırlayın. Hamıya elə gəlirdi ki, o ölüm ayağındadır, amma yox, ölmək hardaydı. Əlbəttə, bu, böyük xoşbəxtlikdir, amma bizim boynumuza indi dar ağacının kəndiri keçirilib, əlahəzrət, düşünməyin ki, şişirdirəm.

– Amma mənim qulağıma şayiələr yetişir ki, kimlərsə ölür axı.

– Bu, həqiqətən, belədir, əlahəzrət, amma elə hesab edin ki, dənizdə bir damladır: ailələrin əksəriyyəti bu addıma cəsarət etmirlər.

– Hansı addıma?

– Öz ümidsiz xəstələrini bu sahədə ixtisaslaşan, özünəqəsdlə məşğul olan təşkilatlara tapşırmağa.

– Başa düşmürəm, özünəqəsdin nə mənası var, əgər onlar ölə bilmirsə.

– Yox, ölə bilirlər.

– Bəs buna necə nail olurlar?

– Çox qəliz məsələdir.

– Danışın, bizi eşidən yoxdur.

– Sərhədin o üzündə ölüm qabaqkı kimi fasiləsiz fəaliyyətdədir.

– Deməli, bu təşkilat xəstələri ölkədən çıxarır.

– Tamamilə doğrudur.

– Belə çıxır ki, bu, xeyriyyəçi bir təşkilatdır.

– Onlar bizə ümidsiz xəstələrin həddən ziyadə çoxalmasının qarşısını almaqda kömək edirlər, amma artıq dediyim kimi, bu, dəryada bir damladır.

– Bu, nə təşkilatdır elə?

Baş nazir sinədolusu nəfəs alıb cavab verdi:

– Maffiya, əlahəzrət.

– Maf-fiya?

– Bəli, əlahəzrət, maffiya, çünki dövlət, hərdən kirli işləri onun yerinə görəcək qüvvələrə müraciət edəsi olur.

– Siz bu barədə əvvəllər mənə heç bir şey deməmisiniz.

– Günahkaram, əlahəzrət, amma sizin adınızın üstünə kölgə salmaq istəmirdim.

– Bəs sərhəddə yerləşdirilmiş qoşunlar?

– Onların öz rolu var.

– Nə rol?

– Onlar özlərini xaricə xəstələrin çıxarılması yolunda maneə kimi göstərməlidirlər, amma, əslində, elə deyillər.

– Mən isə elə bilirdim, onlar düşmən hücumlarının qabağını almağa hazırlaşırlar.

– Belə bir təhlükə yoxdur və heç vaxt mövcud olmayıb; biz qonşu dövlətlərin hökumətləri ilə danışmışıq, hər şey nəzarət altındadır.

– Hər şey, tək təqaüddən başqa.

– Hər şey, bircə ölümdən savayı, əlahəzrət, çünki biz ölməyə başlamasaq, gələcəyimizdən məhrum olacağıq.

Kral "təqaüdlər" sözünün də qarşısında quş qoydu və dedi:

– Gərək nəsə baş versin...

– Hə, əlahəzrət, gərək nəsə baş versin.

* * *

Katibə telekanalın baş direktorunun otağına girəndə, masanın üstündə bir zərf gördü. Qeyri-adi, bənövşəyiyə çalan rəngdə, parçanı xatırladan, qalın dımır-dımır kağızdan.



Qədim görkəmi vardı və elə bil, artıq istifadə olunmuşdu. Üzərində də nə məktubu yollayanın adı vardı – bu bəzən olur – nə də alanın – bu isə heç vaxt olmur. O, qapısı bağlı, cəmi bircə dəqiqə qabaq açılmış, gecə heç kimsənin girməsi mümkün olmayan kabinetdəki masanın üstündəydi. Zərfi əlində hərləyib o biri üzündə də bircə kəlmənin belə olmadığına əmin olandan sonra katibə hiss elədi ki, qəribə şeylər fikirləşir: həm bu hissin, həm də bu fikrin absurdluğunu dərk edərək düşündü ki, açarı qapıya salıb açanda bu zərf hələ masanın üstündə deyildi. "Bu nə sarsaq işdir, – dodaqaltı mızıldandı, – yəqin, dünən ona fikir verməmişəm". Sonra kabinetə göz gəzdirdi, hər şeyin yerində olduğuna əmin olaraq öz otağına getdi. O, inanılmış bir katibə kimi öz hüququndan istifadə edərək bu və ya istənilən zərfi açа bilərdi, özü də ki, onun üstündə heç "tamamilə məxfi", "şəxsən özünə", "şəxsən" kimi ciddi xəbərdarlıq da yox idi. Lakin bunu etmədi, amma heç bilmədi ki, niyə. İki dəfə öz iş kreslosundan qalxıb kabinetin qapısını araladı. Zərf elə bayaqkı yerində idi. "Adamın başı xarab olar, – fikirləşdi, – gəlib çıxsaydı, hər şeyi aydınlaşdırardı". Öz şefini nəzərdə tuturdu, telekanalın həmin gün nədənsə gecikən baş direktorunu. On birə on beş dəqiqə işləmiş o, nəhayət, gəlib çıxdı. Qaradinməz adam olan şef salamlaşıb, ayaq saxlamadan otağına keçdi, katibə ora yalnız beş dəqiqədən sonra keçirdi – nəzərdə tutulurdu ki, həmin vaxt ərzində otağın sahibi pencəyini çıxararaq gün ərzində ilk siqaretini yandıracaq. Lakin beş dəqiqədən sonra katibə kandardan içəri keçəndə direktor hələ pencəkdə idi və siqaret də çəkmirdi. Elə zərf rəngində olan bir vərəq kağızı ikiəlli tutmuşdu və əlləri əsirdi. İçəri girən adama sarı çöndü, amma sanki, onu tanımadı. Sonra isə əlini açıb irəli uzatdı, sanki, katibəsinin yolunu kəsirdi və – bu artıq lap dəqiq idi – yad bir səslə dedi: "Bu dəqiqə çıxın buradan, qapını örtün və yanıma heç kəsi buraxmayın, aydındır? Heç kəsi, kimliyindən asılı olmayaraq". Çaşqın katibə istəyirdi ki, nə baş verdiyini

soruşsun, amma o, qəzəbli bir qışqırıqla ona ağzını açmağa imkan vermədi: "Karsınız, çıxın, deyirəm, rədd olun buradan". Yazıq qadın gözləri dolmuş halda çıxdı, çünki özüylə belə davranışa adət etməmişdi: bizim hamımız kimi şefin də öz çatışmazlıqları vardı, amma mahiyyətcə tərbiyəli adam idi və əvvəllər katibənin üstünə çığırmaq adəti də yox idi. O, gözlərinin yaşını silmək üçün yaylıq axtara-axtara fikirləşdi ki, yəqin, məktubda nəsə var. Səhv etməmişdi. Əgər özündə cəsarət tapıb kabinetə bir də boylansaydı, görərdi ki, şef tam çaşqınlıq içində nə edəcəyini bilməyən, lakin bu işi özündən başqa kimsənin görə bilməyəcəyini aydın anlayan birisi kimi otağın küncləri arasında necə vurnuxur. Budur, o, saatına baxdı, sonra – kağıza, zorla eşidiləcək tərzdə, sanki, gizlincə deyirmiş kimi: "Hələ vaxt var, hələ vaxt var", – mızıldanıb kreslosuna çökdü, sirli məktubu bir də oxudu və oxuyarkən də öz başını qeyri-ixtiyari sığallayırdı, sanki, kəlləsinin hələ yerində durmasına, içini sarmış qorxudan onu hələ itirmədiyinə tam əmin olmaq istəyirdi. Məktubu bitirib gözlərini düz qarşısına zilləndi, fikirləşdi: "Gərək kiminləsə danışım". Sonra isə xilaskar bir fikrin ətəyindən yapışdı: "Bəlkə, bu yalnız zarafatdır, əsəbiləşmiş, hələ bir tikanlı təxəyyülə malik tamaşaçının axmaq zövqə və üsluba uyğun zarafatı – kanalın məsuliyyətli rəhbəri məgər bilmir ki, onun başçılıq etdiyi sahədə işlərin hamısı o qədər də hamar deyil. Amma hirslərini tökmək istəyəndə, adətən, mənə yazmırlar. Bu fikir təbii ki, onu selektorun düyməsini basaraq, katibədən soruşmağa vadar elədi – əslində, bunu bayaqdan eləmək lazım idi: Məktubu kim gətirib?

– Bilmirəm, cənab direktor, mən gələndə və həmişəki kimi sizin kabinetinizin qapısını açanda məktub artıq masanın üstündə idi.

– Axı bu ola bilməz, gecə kimsə girə bilməz buraya.

– Lakin bu məhz mən deyən kimidir.

– Bunu necə izah edə bilərsiniz?



– Məndən soruşmayın, cənab direktor, mən bayaq bu məsələ barədə danışmağa cəhd edəndə ağzımı açmağa imkan vermədiniz.

– Etiraf edirəm, mən həddindən artıq sərt idim, üzr istəyirəm.

– Eybi yox, cənab direktor, amma mən yaman incidim, ürəyim ağrıdı.

– Sizə desəydim ki, bu məktubda nə yazılıb, onda bilərdiniz "ağrı" necə olur, – direktor təzədən qızışdı. Dəstəyi asdı. Bir də saatına baxıb öz-özünə dedi:

– Bu, yeganə çıxış yoludur, başqasını görmürəm, belə qərarlar mənim səlahiyyətim daxilində deyil.

Məlumat kitabçasını açıb lazımi nömrəni tapdı, yığdı və demək lazımdır ki, xeyli əziyyət bahasına barmaqlarının əsməsini ram elədi, ondan bir az da artıq əziyyət çəkdi ki, "eşidirəm" sözünün cavabında inamlı səslə desin: "Danışan telekanalın direktorudur, xahiş edirəm, məni baş nazirlə calaşdırın".

– Salam, danışan katibliyin rəisidir, sizi eşitməyimə çox şadam, mənə dair qulluq.

– Cənab baş nazirə çatdırın ki, məni təcili olaraq çox mühüm və təxirəsalınmaz bir işlə əlaqədar qəbul etməsini xahiş eləyirəm.

– Məsələnin məğzi barədə mənə məlumat verə bilməzdiniz ki, cənab baş nazirə şərh edim?

– Çox təəssüf, amma bu mümkün deyil: məsələ yalnız problemin fövqəladə təciliyində və ciddiliyində deyil, həm də tam məxfiliyindədir.

– Heç olmasa, ümumi ştrixlərlə anladın.

– Buyurun: mənim əlimdə, nə vaxtsa əbədi bağlanacaq gözlərimin önündə dövlət əhəmiyyətli bir sənəd var və əgər bu da baş nazirə, onun harada olmasından asılı olmayaraq, mənim barəmdə təcili məruzə etməyiniz üçün kafi deyilsə, onda sizin gələcəyiniz üçün – həm şəxsi, həm də siyasi planda – çox böyük nigarançılıq keçirirəm.

– Yəni bu dərəcədə ciddidir?

– Sizə yalnız bir şey deyə bilərəm – hər an ləngiməyə görə sərt məsuliyyət daşıyacaqsınız.

– Yaxşı, mən çalışaram, amma cənab baş nazirin başı çox qarışıqdır.

– Onun başını açın, əgər mükafat almaq istəyirsinizsə.

– Gedirəm.

– Gözləyirəm.

– İcazənizlə, sonuncu sualımı da verim.

– Yenə nə lazımdır sizə?

– Niyə siz bir zaman bağlanacaq gözlərinizi xatırlatdınız, bu axı əvvəllər belə olurdu.

– Mən bilmirəm, siz əvvəllər nə idiniz, amma indi mükəmməl sarsaq oldunuz, bu dəqiqə calaşdırın məni baş nazirlə.

Təhqirlə dolu sərt ifadələr baş direktorun hansı həddə həyəcanlandığının, ruhunun nə dərəcədə sarsıldığının göstəricisi idi. Lap beyni pozulmuşdu – heç özü də başa düşmürdü ki, bircə qanuni suala görə insanın xətrinə bu dərəcədə necə dəymək olar. "Üzr istəmək lazımdır, – peşmançılıq hissi yaşayan baş direktor öz-özünə dedi, – sabah o, mənə lazım ola bilər". Baş nazirin səsi dəstəkdə hövsələsiz səslənirdi:

– Hə, nə olub orada? – deyə soruşdu, – televiziyanın problemləri mənim səlahiyyətimdə deyil. Görürəm, çox həyəcanlısınız.

– Həyəcanlanmaq nədir ki.

– Yaxşı, sizin o sirli məktubda nə deyilir?

– Telefonda söyləyə bilmərəm.

– Bu xəttə qulaq asmaq mümkün deyil.

– Buna baxmayaraq, deyə bilmərəm; belə işdə nə qədər ehtiyatlı olsan, azdır.

– Onda kuryerlə yollayın.

– Olmaz, mən onu sizə əlbəəl ötürməliyəm.

– Onda mən özüm kimisə yollayım yanınıza – bax lap aparatımın rəisini, ona tam inanıram.



– Cənab baş nazir, inanın ki, son həddə ehtiyac yaranmasaydı sizi narahat etməzdim, mənim üçün sizinlə görüşmək çox zəruridir.

– Nə vaxt?

– Elə bu dəqiqə.

– Mən məşğulam.

– Yalvarıram.

– Yaxşı, əgər bu dərəcədə israr edirsinizsə, gəlin, ümidvaram, sizin sirriniz məni peşman etməyəcək.

Baş direktor dəstəyi yerinə asdı, məktubu – zərfə, zərfi – pencəyinin döş cibinə qoyub ayağa qalxdı. Əllərinin əsməsi dayanmışdı, amma alnında tər puçurlanırdı. Üzünü yaylıqla sildi, daxili telefonla katibəyə tapşırdı ki, maşın çağırsın, o çıxır. Məsuliyyətin başqasının boynuna düşəcəyi barədə fikir onu bir az sakitləşdirirdi. Onun bu işdəki rolu yarımca saatdan sonra bitəcəkdi. Qapıda görünən katibə maşının hazır olduğunu dedi.

– Çox sağ olun, nə qədər müddətlik getdiyimi deyə bilmərəm, mənim baş nazirlə görüşüm var, amma bunu kimsə bilməməlidir.

– Narahat olmayın, cənab direktor, mən lal olaram.

– Salamat qalın.

– Sizə də yaxşı yol, ilahi sizə yar olsun ki, hər şey yaxşı keçsin.

– İş burasındadır ki, indi nəyin yaxşı, nəyin pis olduğundan baş çıxarmaq mümkün deyil.

– Düz deyirsiniz.

– Yeri gəlmişkən, atanız necədir?

– Elə həmişəki kimidir, cənab direktor, əziyyət çəkməyinə, elə bil, çəkmir, amma göz qabağında əriyir, iki aydır bu vəziyyətdədir, indi isə bircə onu gözləmək qalıb ki, məni nə vaxt onunla yanaşı uzadacaqlar.

– Nə bilmək olar, nə biləsən.

Elə bu sözlərlə də baş direktor kabinetindən çıxdı.

Katibliyin rəisi onu qapının ağzında qarşılayıb, qəsdən quru salamlaşdı:

– Mən sizi baş nazirin yanına ötürəcəyəm.

– Bir dəqiqə, hər şeydən öncə, mən üzr diləmək istəyirəm, bizim bayaqkı söhbətimizdə özünü sarsaq kimi aparan birisi vardısa, o da mən idim, siz yox.

– Çox güman ki, nə siz idiniz, nə də mən, – o gülümsündü, – əgər siz mənim cibimdəkini görsəydiniz, vəziyyətimi başa düşərdiniz.

– Narahat olmayın: mən sizi bağışladım.

– Təşəkkür edirəm, hər halda, bir neçə saatdan sonra bu bomba partlayacaq.

– Ümidvaram ki, elə bərk partlamaz.

– Bütün göy gurultularından dəhşətli, bütün şimşəklərdən parlaq.

– Siz məni çaşdırırsınız.

– Əminəm ki, buna görə də bağışlayarsınız məni.

– Yaxşı, gedək, baş nazir sizi gözləyir.

Onlar, bir zamanlar, yəqin, dəhliz adlandırılan otaqdan keçdilər və artıq bir dəqiqədən sonra direktor gülümsəyən baş nazirin qarşısında durmuşdu:

– Yaxşı, baxaq sizi mənim yanıma gətirən ölüm-dirim məsələsi nədən ibarətdir.

– İnanın, sizin dodaqlarınızdan belə şəksiz həqiqət hələ, bəlkə, heç vaxt çıxmayıb.

Baş direktor cibindən məktubu çıxarıb masanın üstünə qoydu.

– Kimə ünvanlandığı göstərilməyib, – baş nazir təəccüb etdi.

– Nə kimə ünvanlandığı, nə kimin yolladığı, adamda belə təəssürat oyanır, sanki, bu məktub bizim hamımız üçün birdən nəzərdə tutulub.

– Anonim məktub.

– Yox, altında imzası var, sizi and verirəm Tanrıya, oxuyun, oxuyun onu.



Zərf aramla açıldı, içindəki vərəq çıxdı, amma baş nazir onun elə ilk sətirlərini oxuyan kimi başını qaldırdı:

– Bu nədir – zarafatdır?

– Hə, əslində də zarafata oxşayır, amma mən belə hesab etmirəm: məktub mənim masamın üstündə idi və heç kəs deyə bilməz ki, o, necə gəlib ora çıxıb.

– Düşünmürəm ki, bu, bütün yazılanlara inanmaq üçün kifayət qədər əsas versin.

– Oxuyun, ardını oxuyun.

Məktubun axırına çatanda baş nazir dodaqlarını zorla tərpədərək bir sözü səssiz tələffüz elədi – daha doğrusu, onu imzalayan şəxsin adını.

Vərəqi zərfin üstünə qoydu, baş direktora diqqətlə baxıb dedi:

– Yaxşı, fərz edək ki, bu bir zarafatdır.

– Yox, zarafat deyil.

– Mən də belə düşünürəm, amma "fərz edək" deyəndə onu nəzərdə tuturam ki, tezliklə biz hər şeyi dəqiq biləcəyik.

– On iki saatdan sonra, çünki indi artıq günortadır.

– Əgər məktubda vəd edilənlər doğru çıxsa və əgər biz camaatı xəbərdar eləyə bilməsək, elə yeni il gecəsi baş verənlər olacaq – amma əksinə.

– Hətta xəbər verə bilsək də elə eyni effekt alınacaq.

– Əks effekt.

– Hə, əks, amma eyni effekt.

– Tamamilə doğrudur, lakin tutalım, onları xəbərdar etdik, sonra da bəlli oldu ki, bu, zarafat imiş, camaat nahaq yerə əziyyət çəkəcək. Hərçənd ki hələ böyük sual doğurur, əziyyət çəkəcəkmi və nahaq yerə əziyyət çəkəcəkmi?

– Bəs özünüz demədiniz ki, bunun zarafat olmasına inanmırsınız?

– Hə, inanmıram.

– Bəs onda nə edək – xəbərdarlıq edək, yoxsa yox?

– Məsələ də bundadır, mənim əziz baş direktorum, onun üzərində hərtərəfli düşünmək, hərtərəfli ölçüb-biçmək lazımdır.

– Siz bilən məsləhətdir, cənab baş nazir.

– Əlbəttə, qərarı mən verməliyəm. Mən hətta bu məktubu min tikə eləyib gözləyə də bilərəm ki, görüm nə olacaq.

– İnanmıram ki, bunu edəsiniz.

– Düz də eləyirsiniz ki, inanmırsınız, amma qərar qəbul etmək gərək olduğundan əhaliyə xəbər vermək hələ azdır, gərək biləsən ki, bu xəbəri necə verməlisən.

– Bunun üçün də, cənab baş nazir, kütləvi informasiya vasitələri mövcuddur – bizdə qəzetlər, radio, televiziya var.

– Sizcə, bu məktubun böyrünə hökumətin sakitliyə çağırışlarını, fövqəladə vəziyyətlərdə özlərini necə aparmalı olduqları haqda bir neçə məsləhəti əlavə edib açıqlamaq lazımdır?

– Siz bu ideyanı məndən qat-qat yaxşı ifadə etdiniz.

– Yüksək qiymətə görə təşəkkür edirəm, amma indi xahişim budur ki, təxəyyülünüzə güc verib fikirləşəsiniz: əgər biz məhz belə davransaq, nə baş verər?

– Mən milli televiziya şirkətinin baş direktorundan daha çox şey gözləyirdim.

– Əgər belədirsə, sizin ümidlərinizi doğrultmadığıma çox təəssüflənirəm.

– Yox, siz, sadəcə, qəflətən çiyninizə düşmüş məsuliyyətdən azacıq çaş-baş qalmısınız.

– Siz isə yox.

– Elə mən də, amma çaşmaq – hələ qıc olub uçunmaq deyil.

– Onda xoş ölkəmizin halına.

– Bir daha təşəkkür edirəm, sizinlə tez-tez söhbət etmək qismətim olmayıb, adətən, mən televiziya barədə sosial təminat naziri ilə danışıram, amma indi bu nəticəyə gəlmişəm ki, sizi ümummilli miqyasda bir fiqura çevirməliyik.

– Bax indi isə, cənab baş nazir, mən qətiyyən heç nə anlamıram.



– Hər şey çox sadədir, amma bu, öz aramızda qalacaq, yalnız ikimizin arasında: axşam doqquzda növbəti xəbərlər proqramı hökumətin gecəyarısı baş verəcək hadisələrdən bəhs edəcək bəyanatı ilə başlamamışdan həmin bu məktubdan parçalar oxunacaq; bunu isə kanalın baş direktoru şəxsən özü edəcək. Əvvəla, ona görə ki, o, məktubun ünvanlandığı şəxs olmasa da, onu bilavasitə alandır. İkincisi isə, siz elə bir şəxssiniz ki, bu məktubu imzalamış qadının birbaşa qələmə almadığı, amma aydın sezilən istəyilə ikimizin də öhdəsinə düşən missiyanı sona çatdırmağı sizə etibar etmək və tapşırmaq olar.

– Diktor bu işin öhdəsindən daha yaxşı gələrdi.

– Diktor yox, direktor lazımdır, özü də baş direktor.

– Əgər sizin istəyiniz beladirsə, onu yerinə yetirməyi özümə şərəf bilərəm.

– Yalnız siz, bir də mən bilirik ki, bu gün gecəyarısı nə baş verəcək və məlumatı bütün ölkə alana kimi onu sirr olaraq saxlamalıyıq, əgər xəbəri indi açıqlasaq qarşıda bizi on iki saat çaşqınlıq, panika, kütləvi psixoz, Tanrı bilir, daha nələr gözləyir. Odur ki əgər bizim – mən hökuməti nəzərdə tuturam – bu xoşagəlməz hallardan tamam can qurtarmağımız mümkün olmayacaqsa, onu, heç olmasa, üç saata endirək, qalanı daha bizdən asılı deyil. Göz yaşları, çarəsizlik, gizlətmək mümkün olmayan nigaranlıq və sairə.

– Nə deyirəm, məncə, pis fikir deyil.

– Onsuz da, ağlımıza başqa heç nə gəlmir.

Baş nazir yenidən kağızı götürüb gözlərini sətirlərində oxumadan gəzdirdi və belə dedi:

– Maraqlıdır, imza böyük hərflə başlanmalıdır, burada isə kiçik hərf yazılıb.

– Elə mən də təəccübləndim: adı kiçik hərflə başlamaq olduqca qəribədir.

– Yaxşısı budur, deyin görüm, bütün bu əhvalatda qəribə olmayan nəsə varmı?

– Yoxdur.

– Hə, yeri gəlmişkən, siz bunun kseronüsxəsini çıxara bilərsinizmi?

– Mən mütəxəssis deyiləm, amma iki dəfə eləmişəm.

– Çox gözəl.

Baş nazir kağızla zərfi sənədlər qovluğunda gizlədib, katibliyin rəisini çağırdı və kseroks aparatının olduğu otaqdan hamının çıxarılmasını tapşırdı.

– Axı orada əməkdaşlar oturur.

– Qoy başqa kabinetlərə keçsinlər, ya da dəhlizdə gözləsinlər, pilləkənin başında siqaret çəksinlər; bizə üç dəqiqə lazımdır, elə deyilmi?

– Hətta bir qədər də az.

– Məsələ məxfilikdədirsə, mən sənədin surətini elə çıxara bilərdim ki, kimsə görməzdi, – katibliyin rəisi təklif elədi.

– Məsələ elə bundadır, amma indi bunu şəxsən özüm edəcəm, burada gördüyünüz baş direktorun, necə deyərlər, texniki dəstəyi ilə.

– Baş üstə, cənab baş nazir, elə bu dəqiqə sərəncam verərəm ki, aparatın olduğu otaqdan hamı çıxsın.

Bir dəqiqədən sonra rəis qayıdıb məruzə etdi ki, otaq boşdur:

– Mən sizin icazənizlə, öz otağımda olacağam.

– Çox şadam ki, bunu sizdən mən xahiş eləyəsi olmadım və zəhmət olmasa, bu məxfiliyi inamsızlıq kimi dəyərləndirməyin; bütün bu ehtiyat tədbirlərinin mənasını elə bu gün eşidəcəksiniz, özü də məndən yox.

– Əlbəttə, cənab baş nazir, mən özümə rəva bilməzdim ki, sizi məxfiliyə vadar edən səbəblərin əsaslı olduğuna şübhə ilə yanaşım.

Katibliyin rəisi çıxandan sonra baş nazir qovluğu götürdü və dedi:

– Getdik.



Otaq, həqiqətən də, boş idi. Bir dəqiqə keçmədi ki, sənədin surəti hazır oldu – hərfbəhərf, sözbəsöz; amma yenə də özü deyildi: həyəcanlı bənövşəyi çalarını itirərək adi, bəsit məktuba çevrilmişdi, sanki, kiməsə işdə müvəffəqiyyət və şəxsi həyatda xoşbəxtlik arzulayırdı. Baş nazir surəti direktora uzatdı:

– Götürün, əsli məndə qalacaq.

– Bəs hökumətin bəyanatı?

– Oturun, mən onu bir dəqiqədə cızmaqara edərəm, buna nə var ki: "Əziz həmvətənlər, ölkə hökuməti bu gün əlimizə çatmış bir məktubdan sizi xəbərdar etməyi özünə borc bilir, bu, əhəmiyyətini şişirtmək mümkün olmayan mühüm bir sənəddir və baxmayaraq ki biz hal-hazırda onun həqiqiliyinə təminat verə bilmirik, amma müəyyən vaxt ərzində onu açıqlamamağımızın səbəbi orada yazılanların baş verməyəcəyinə ümidimiz idi. Lakin xalqımızın, gərginlik doğuracaq qəfil çaşqınlıqdan qaynaqlanacaq müxtəlif xarakterli böhran vəziyyətlərinə düşməməsi naminə, yuxarıda adı çəkilən məktubun məzmununu təcili olaraq sizlərə açıqlamaq niyyətindəyik. Bunu da hökumətin tapşırığı ilə milli televiziyamızın baş direktoru edəcək və sonra da daha bir neçə kəlmə deyirik: əziz həmvətənlərimiz, sizə deməyə ehtiyac yoxdur ki, hökumət xalqın maraqlarının qorunması mövqeyində möhkəm dayanıb və indi bizim xalqımızın qismətinə özünü xalq kimi duyandan və öz dövlətçiliyini qurandan bəri ən ağır saatlarını yaşamaq düşüb. Odur ki hamınızı sakitlik və dözümə çağırırıq, bu gözəl keyfiyyətlərin ən yüksək nümunələrini siz ilin əvvəlində qarşılaşdığınız sınaqlar zamanı nümayiş etdirmisiniz. Bununla yanaşı, inamımızı ifadə edirik ki, hadisələrin uğurlu inkişafı bizə layiq olduğumuz, əvvəllər bol-bol daddığımız dinclik və bəxtiyarlıq hisslərini qaytaracaq. Həmçinin bunu da qeyd etmək istəyirik ki, gücümüz birlikdədir, budur bizim devizimiz. Gəlin birləşək və onda gələcək də bizə məxsus olacaq!"

Hə, hazırdır, gördünüz ki, bircə dəqiqəlik işdir bu, hökumət bəyanatları təxəyyülün ehtizaza gəlməsini tələb etmir, hətta demək olar ki, öz-özünə yaranır, bunun üzünü köçürün, bir nüsxə də çıxarıb axşam saat doqquza kimi həmin o məktubla bir yerdə saxlayın. Baxın ha, bu kağızlar birbirindən bir anlıq belə ayrı düşməsinlər.

– Narahat olmayın, cənab baş nazir, öz məsuliyyətimi dərk edirəm və inanıram ki, sizi peşman etmərəm.

– Çox gözəl, daha sizi saxlamıram.

– İcazə verin, getməmişdən sizə daha iki sual verim.

– Buyurun.

– Siz indicə dediniz ki, axşam doqquza kimi cəmi iki nəfər biləcək bunu.

– Hə, elədir – bir mən, bir də ki siz, artıq heç kəs, hətta hökumət üzvləri belə bilməyəcək.

– Bəs kral? Bağışlayın ki, mənə aid olmayan şeylərə burun soxuram.

– Əlahəzrət hər şeyi vaxtında biləcək – camaatla bir yerdə, əlbəttə, əgər televizora baxacaqsa.

– Elə bilirəm, ona daha əvvəl xəbər verilmədiyindən məmnun qalmayacaq.

– Narahat olmayın, monarxın ən böyük keyfiyyəti – təbii ki, mən konstitusiyalı monarxiya quruluşunu nəzərdə tuturam – onun hər şeyi yüksək səviyyədə anlamaq qabiliyyətidir.

– Hə-ə.

– Yaxşı, bəs ikinci sualınız necədir?

– Əslində, ona heç sual demək olmaz.

– Yenə də.

– Məni, cənab baş nazir, sizin soyuqqanlılığınız çox təəccübləndirir, axı gecəyarısı ölkənin başına gələcək hadisələr – heç vaxt görünməmiş bir dəhşətdir, kataklizmdir, az qala, dünyanın axırıdır, sizə baxanda isə deyərsən ki, adi, gündəlik işinizlə məşğulsunuz, sakitcə sərəncam verirsiniz, hətta bayaq mənə elə gəldi ki, gülümsündünüz də.



– Mənim əzizim və baş direktorum, əminəm ki, bu məktubun məni nə qədər problemlərdən azad etdiyindən xəbəriniz olsaydı, siz də gülümsünərdiniz – problemlər öz-özünə çözüləcək, mənim tərəfimdən heç bir müdaxilə olmadan. İndi isə mənə icazə verin, öz işimə qayıdım, daxili işlər nazirini xəbərdar etmək lazımdır ki, polis hazır vəziyyətə gətirilsin. Bunun üçün isə bir bəhanə tapmaq lazımdır, məsələn, deyək ki, dövlət quruluşunun zor yoluyla dəyişdirilməsi cəhdi gözlənilir – xoşbəxtlikdən bizim baş qanun keşikçisi elə adamlardan deyil ki, fikirləşməyə vaxt itirsin. O, hərəkətə üstünlük verir, onu xoşbəxt eləmək istəyirsənsə – iş tapşır.

– Cənab baş nazir, icazənizlə əmin edim ki, bu taleyüklü anlarda sizinlə yanaşı olmağım mənim üçün böyük şərəfdir.

– Belə sözləri eşitmək çox xoşdur, lakin tamamilə əmin ola bilərsiniz ki, əgər bu kabinetdə səslənmiş bircə söz belə – fərqi yoxdur, mənimki, yoxsa sizinki – bu divarlardan kənara çıxsa, fikriniz tamam dəyişəcək.

– Başa düşürəm.

– Lap konstitusion hökmdarımız kimi.

– Bəli, cənab baş nazir, elədir ki var.

Doqquzun yarısında baş direktor xəbərlər proqramının redaktorunu öz yanına çağırıb məlumat verdi ki, bugünkü buraxılış hökumətin bəyanatı ilə açılacaq, onu həmişəki kimi diktor oxuyacaq, bundan sonra isə o özü mövzunu tamamlamaq üçün bir sənəd oxuyacaq. Bütün bunlar buraxıcı redaktora qeyri-adi, qeyri-normal və qəribə gəlsə də, özünü o yerə qoymadı, yalnız hər iki sənədi ona verməyi xahiş elədi ki, telesuflyordan buraxa bilsin – telesuflyor elə bic bir qurğudur ki, camaatı ekrandakı insanın hər bir tamaşaçı ilə fərdi ünsiyyət saxladığına inandırır. Baş direktor cavab verdi ki, məhz bu vəziyyətdə telesuflyordan istifadə etmək olmaz. Dədə-baba qaydasıyla oxuyacaq – əvvəllər olduğu kimi və əlavə elədi ki, düz doqquza beş dəqiqə qalmış studiyiya gələcək, bəyanatın mətnini diktora verəcək. O gərək qabaqcadan

məlumatlandırılsın ki, içində sənəd olan qovluğu yalnız oxumağa başladığı an açа bilər. Buraxıcı fikirləşdi ki, olayla, heç olmasa, bir az maraqlandığını göstərməyin vaxtıdır və soruşdu:

– Yəni bu dərəcədə mühümdür?

– Yarım saatdan sonra bilərsiniz.

– Deməli, dövlət bayrağını sizin kreslonun arxasında bərkitmək lazımdır.

– Yox-yox, heç bir bayraq gərək deyil, mən ki nə baş nazirəm, nə də nazir.

– Heç kral da deyilsiniz, – deyə buraxıcı yaltaq-yaltaq dilləndi, özünün ahəngi ilə bunu anladırdı: "Yox, elə kralsınız – milli televiziyanın kralı".

Baş direktor onun sözlərini qulaqardına vurdu.

– Gedə bilərsiniz, iyirmi dəqiqədən sonra studiyada olacam.

– Qrim eləməyə vaxtımız çatmayacaq.

– Heç lazım da deyil: az çəkəcək, tamaşaçıları isə, sizi inandırım ki, mənim pudralanıb-pudralanmamağımdan çox, başqa şeylər narahat edəcək.

– Necə məsləhətdir.

– Amma, hər halda, operatorlara deyin ki, işığı düzgün qursunlar: ekranda indicə xortlamış ölü kimi görünmək istəməzdim, xüsusilə də bu gün.

Saat iyirmi əlli beşdə direktor studiyaya girib, qovluğu diktora verib, özü üçün nəzərdə tutulmuş yerdə əyləşdi. Nəsə, görünməmiş bir hadisənin baş verdiyi barədə xəbər bir göz qırpımında televiziya mərkəzini dolaşdı, odur ki mərkəzi aparat otağına həmişəkindən xeyli artıq adam toplaşmışdı. Rejissor sakitlik tələb elədi. Düz saat iyirmi birdə xarakterik musiqinin müşayiəti ilə ekranda xəbərlər buraxılışından əvvəl gələn başlıq göründü – bir-birini tez-tez dəyişən kadrlar tamaşaçını inandırmağa çalışırdı ki, bu iyirmi dörd saat çalışan kanal bütpərəstlərin qədim ilahiləri kimi eyni zamanda hər yerdədir və hər yerdən xəbər yollayır. Diktorun hökumət bəyanatını bitirdiyi an rejissor təsviri iki



nömrəli kameraya keçirdi və ekranda baş direktor göründü. Bəlli olurdu ki, o, çox həyəcanlıdır, hətta boğazında yumurlanan qəhər də duyulurdu. Boğazını arıtlamaq üçün öskürüb oxumağa başladı:

"Çox möhtərəm cənab direktor, bu məktubla bütün maraqlı şəxslərin diqqətinə yetirirəm ki, bu gün, saat sıfırdan etibarən insanlar yenidən öləcəklər, necə ki zamanın əvvəlindən düz ötən ilin otuz bir dekabrınadək heç bir əhəmiyyətli narazılıq doğurmadan davam edirdi və aydınlaşdırmağı lazım bilirəm ki, qədim rəssam və qravüra ustalarının parlaq təxəyyülü vasitəsilə əlimə verilmiş, artıq emblem səciyyəsi daşıyan kənd təsərrüfatı alətini bir kənara qoyaraq öz fəaliyyətimi müəyyən müddətə dondurarkən məqsədim mənə bu dərəcədə nifrət eləyən insan nəslinə əbədi yaşamağın nə demək olduğunu göstərmək idi. Hərçənd ki cənab baş direktor, öz aramızda sizə söyləyim ki, bu iki anlayış arasında fərq mənim üçün qaranlıqdır və dərk etdiyimə görə, onlar əslində, eyni şeyi ehtiva edirlər. "Sınaq müddəti" adlandırılmağa layiq olan altıaylıq müddətin başa çatmasından sonra və bu eksperimentin həm mənəvi, daha doğrusu, fəlsəfi aspektdən, həm də praqmatik nöqteyi-nəzərdən, yəni sosial aspektdən doğurduğu acınacaqlı nəticələrini nəzərə alaraq ailə və cəmiyyətin rifahı naminə lazım bilirəm ki, yol verdiyim səhvi hamının qarşısında etiraf edim və təcili olaraq normal, fasiləsiz fəaliyyətimə qayıtdığımı bəyan edim. Bu isə o deməkdir ki, ölməli olan, lakin sağlamlığını tam itirsə belə bu dünyada qalmaqda davam edənlərin hamısının həyat şamı fəzada gecəyarısının yetişdiyini bildirən zəngin sonuncu zərbəsinin sədası susan kimi sönəcək. Özü də "zəng" sözü burada yalnız rəmzi mənada işlədilir, çünki kiminsə beyninə zamanın axarını dayandırmaq məqsədilə mənim qəti niyyətimə – insanların qəlbinə ali qorxunu qaytarmaq niyyətimə mane olmaq üçün kilsə zənginin dilini bağlamaq, ya da zəngli saatın mexanizmini korlamaq kimi sarsaq ideyanın gəlməyəcəyinə ümid

edirəm". Studiyada və aparat otağında basabas salmış adamların çoxu artıq qaçmışdı, qalanlar da bir-biriylə astaca danışaraq uğultu qoparırdılar və qəlbinin dərinliklərinə qədər sarsılmış rejissor da onları sakitləşdirməyi unutmuşdu, baxmayaraq ki bunun üçün əlinin bir sərt hərəkəti vardı və başqa, dramatikliyi bundan daha az olan vəziyyətlərdə istənilən səs-küyü dayandırmağa qadir idi. Mətn isə davam edirdi: "Odur ki, ay camaat, razılaşın və ölün, heç bir etiraz, mübahisə olmadan, çünki, onsuz da, bunların faydası və nəticəsi olmayacaq. Lakin əvvəlki fəaliyyətimdə elə bənd var ki, orada öz səhvimi etiraf etməliyəm: söhbət insanları gözlənilmədən, onlara bir kəlmə pis söz demədən, xəbərdarlıq etmədən, "özünü gözlə" qışqırmadan öldürməkdən gedir və boynuma alıram ki, bütün bunlar əsassız vəhşilikdir. Neçə dəfə olub ki, insanlara, heç olmasa, vəsiyyət eləmələri üçün vaxt verməmişəm, amma ədalət naminə qeyd edim ki, adətən, özümdən qabaq çox maraqlı xüsusiyyətləri olan xəstəlikləri, azar-bezarı yollayırdım – adamlar həmişə onlardan can qurtaracaqlarına ümid edirlər, odur ki çox gec başa düşürlər bu azarın sonuncu olduğunu. İndi isə hər şey artıq başqa cür olacaq və bu gündən etibarən hər bir kəs qabaqcadan xəbərdarlıq və birhəftəlik fürsət alacaq ki, öz dünyəvi həyatının qalıqlarını səliqə-sahmana salsın, vəsiyyətini tərtib etsin, yaxınlarıyla vidalaşsın, nə vaxtsa törətdiyi şər əməllərə görə onlardan üzr diləsin. Məsələn, əmioğlusuyla iyirmi il qabaq kəsilmiş əlaqələrini bərpa etsin. Son olaraq, möhtərəm baş direktor, mənə sizdən bir şeyi xahiş etmək qalır: mənim öz əlimlə yazdığım və hamıya bəlli olan adla imzaladığım bu müraciətim ölkənin bütün evlərinə yetişsin. Dərin hörmətlə, ölüm".

Özünün artıq monitorda olmadığını görən baş direktor kreslosundan qalxdı, vərəqi iki büküb, cibində gizlətdi. Artıq bənizi qaçmış, sifəti əyilmiş rejissor onun yanına tələsirdi.

– Hə, deməli, belə-belə işlər, – dodaqaltı, zorla eşidiləcək bir tərzdə mızıldanırdı, – deməli, belə oldu.



Direktor dinməzcə başını tərpədib studiyadan çıxdı. O daha diktorun səsini eşitmirdi – sonra xəbərlər bloku efirə çıxdı, artıq xəbərlər bütün mənasını itirmişdi, çünki ölkədə bu dəqiqə elə bir adam qalmamışdı ki, xəbərlərlə maraqlansın. Sağalmaz xəstəsi olan ailələrdə qohumları xəstənin yatağının yanına yığışırdılar. Amma üç saatdan sonra öləcəyini özünə xəbər verə bilmirdilər, ona deyə bilmirdilər ki, qalan vaxtını vəsiyyətnamə hazırlamağa, ya da məsələn, əmioğluyla barışmağa sərf etsin. Heç həmişəki ikiüzlü oyunlarını da davam etdirərək xəstədən həzin səslə özünü necə hiss etdiyini soruşa bilmirdilər, yox, onlar yataqdakının torpaq rəngli batmış yanaqlarına, sonra da gizlincə saatlarına baxacaqdılar, gözləyəcəkdilər ki, vaxt nə zaman bitəcək və dünyanın qatarı özünün adi yoluyla bitmək bilməyən səyahətini nə vaxt davam etdirəcək. Öz qohumlarının yarıölü qalıqlarını lazım olan yerə çatdırmaq üçün artıq maffiyaya pul vermiş ailələr də az deyildi. İndi isə pullarının əbəs yerə puç olduğunu başa düşərək, ən yaxşı halda bununla barışıb anlayırdılar ki, mərhəmətləri və hövsələləri bir az artıq olsaydı, izafi pul xərcləməyə də ehtiyac qalmazdı. Küçələrdə bir çaşqınlıq hakim idi: orada-burada heyrətdən sarsılmış, karıxmış və özünü itirmiş, hara gedəcəklərini, nə edəcəklərini bilməyən adamlar görünürdü. Bəziləri ara vermədən hönkürür, digərləri üzr istəməyə indidən başlamaq niyyətindəymiş kimi, indicə, elə burada qucaqlaşır, üçüncülər günahın kimdə olduğu barədə mübahisə aparırdılar – günah hökumətdəmi, tibb elmindəmi, yoxsa Roma papasındaydı?! Bir skeptik isə israr edirdi ki, tarix boyu ölümün məktub yazmasının kimsə şahidi olmayıb, ona görə də bu naməni təcili olaraq qrafoloji ekspertizaya yollamaq lazımdır, çünki yalnız sümükdən ibarət olan əl adi, ətli-qanlı, damarlı-vətərli əl kimi yaza bilməz, yüz il qala və əgər sümüklərin daktiloskopik izlər qoymadığını nəzərə alsaq, deməli, məktubun müəllifini təyin eləmək mümkün olmayacaq. Daim və istisnasız susan bu məxluqu

sarmış epistolyar qaşınmaya yalnız DNK analizi aydınlıq gətirə bilər.

Elə həmin an baş nazir kralla telefon danışığında idi, izah edirdi ki, hansı səbəblərdən əlahəzrəti məsələnin mahiyyətiylə tanış etməməyə qərar vermişdi. O isə deyirdi ki, hər şeyi başa düşür, baş nazir isə gecəyarısı son zəng səsiylə yetişəcək acınacaqlı sonuca görə kədərləndiyini dedi. Kral buna çiyinlərini çəkdi, yəni belə yaşamaqdansa, heç yaşamamaq yaxşıdır, bir də ki – bu gün sən, sabah mən, elə vəliəhd də nə vaxt taxta çıxacağıyla maraqlanır, hövsələsizlik edir. Baş nazir bu səmimi, qəlb söhbətini başa çatdırıb katibliyin rəisinə bütün kabinet üzvlərini təcili olaraq iclasa dəvət etməyi tapşırdı ki, düz qırx beş dəqiqədən sonra, saat onda hamı hazır olsun:

– Qəflətən dəyişmiş vəziyyətdən yaxın günlərdə mütləq baş qaldıracaq hər cür qarışıqlığı və özbaşınalığı minimuma endirmək üçün zəruri addımları müzakirə edib qərar vermək lazımdır.

– Siz qısa zaman kəsiyində çox artacaq təcili çıxarılmalı olan ölüləri nəzərdə tutursunuz? Bu nə problemdir ki, əzizim, bu qəbil problemlərin öhdəsindən dəfn büroları gələcək: onlar üçün böhran bitdi, indi, yəqin, gələcək qazanclarını hesablayıb xoşbəxtlikdən göyün yeddinci qatındadırlar, odur ki qoy ölülərini basdırsınlar. Yəni birbaşa vəzifələriylə məşğul olsunlar. Sənlə biz isə dirilərin qeydinə qalmalıyıq – məsələn, psixoloq dəstələri toplamalıyıq ki, camaatın bu travmatik vəziyyətin öhdəsindən gəlməsinə kömək etsinlər: həyatın əbədiliyinə tam inanandan sonra ölümlə barışmaq asandır məgər?

– Elə mən də bu barədə düşünürdüm, çox çətin məsələdir.

– Vaxtı itirməyin, nazirləri çağırın, qoy özləriylə statssekretarlarını da götürsünlər, mən onları saat on üçün gözləyirəm, gecikməsinlər, hansı soruşsa – hər birinə deyin ki, birinci onu gözləyirəm. Onlar axı uşaq kimi özlərini çox istəyirlər, qaqqa verməsən olmur.



Telefon səsləndi.

– Əlahəzrət, – daxili işlər naziri dedi, – bütün qəzetlər mənim yaxamdan yapışıb tələb edirlər ki, axşam xəbərlərində səslənmiş həmin məktubun surətini onlara verim, məndə isə bu barədə təəssüf ki, heç bir məlumat yox idi.

– Təəssüflənməli bir şey yoxdur, mən bu sirrin qorunması üçün məsuliyyəti öz boynuma götürmüşdüm, çünki əks təqdirdə biz düz on iki saat dəhşətli qarışıqlığın, panikanın və anlaşılmazlığın əlində qalacaqdıq.

– Yaxşı, bəs mən nə edim?

– Heç nə, mənim aparatım bütün KİV-lərə məktub yollayacaq.

– Əla.

– Düz saat onda kabinetin iclası başlayacaq, sizi birinci müavinlərinizlə bir yerdə gözləyirəm.

– Bəs o biri müavinlər lazım deyil?

– Yox, onlar hələlik qalsınlar, qoy nazirliyi qorusunlar, nahaq yerə xalq içində demirlər ki, çoxun faydası az olar.

– Baş üstə.

– Xahiş edirəm, gecikməyəsiniz, iclas düz saat on sıfır birdə başlayacaq.

– Əminəm, biz birinci yetişəcəyik.

– Onda sizə bir dənə medal.

– Nə medal?

– Fikir verməyin, sözməsəli dedim.

Dəfn bürolarının nümayəndələri, kremasiya və ölübasdırma ustaları, cəsəd qalıqları və meyit çürüntüsü üzrə mütəxəssislər də o dəqiqələrdə iclasa toplaşmışdılar. Onların boynuna misilsiz, görünməmiş, heç kəsin eşitmədiyi bir sınaq düşmüşdü – ölkə üzrə minlərlə adam eyni zamanda ölməliydi və bunun dalınca da son mənzilə yola salınmalıydı.

– Bunun öhdəsindən isə əlaqələndirilmiş fəaliyyətlə, bütün insani və texniki ehtiyatların səfərbər edilməsiylə, əlavə məsrəflərin azaldılmasıyla, məhsulun maya dəyərinin

aşağı salınmasıyla və hər bir iştirakçının payına uyğun kvotaların müəyyənləşdirilməsiylə gəlmək olar, – deyib assosiasiya prezidenti razı dinləyicilərdən alqışlar qopardı, – onu da nəzərə almaq lazımdır ki, tabutların, başdaşıların, heykəllərin, kəfən və örtüklərin istehsalı insanların ölmədiyi gündən bəri artıq dayandırılmışdı və hətta ehtimalı çox-çox az olan hallarda, sahibləri həddən ziyadə mühafizəkar olan ayrı-ayrı və dağınıq emalatxanalarda həyat hələ də müşahidə olunursa, onu ancaq Malerbonun[1] qönçəsinə bənzətmək olar.

Poetik təşbeh çox elə yerinə düşməsə də, yenə alqışlara səbəb oldu, prezident isə sözünə davam edirdi:

– Amma necə olsa da, bu yaxınların dəhşəti, xəcalət gətirən kabusu – bizim it-pişik, bülbül basdırmağımız əbədilik sona yetdi.

– Bir də tutuquşu, – zaldan çığırdılar.

– Hə, həm də tutuquşu, – prezident başını tərpətdi.

– Və tropik balıqlar, – kimsə yenə yada saldı.

Amma bu balıq basdırma məsələsi akvariumun üstündə süzən ruhun ortaya atdığı diskussiyadan sonra olmuşdu, bu gündən etibarən isə ölü balıqları həmişə pişiklərə atacaqdılar; cənab Lavuazyenin[2] maddənin itməməsi qanununa sübut olaraq. Dəfn agentlərinin təqvimlərdən əxz etdiyi erudisiyanın hansı dərinliklərə vardığını tam öyrənmək mümkün olmadı, çünki onlardan vaxtın tez ötməsindən qayğılanan birisi iyirmi iki qırx beşdə əlini qaldırdı və elə indi tabutçular assosiasiyasına telefon açıb vəziyyətin necəliyi ilə maraqlanmağı təklif elədi:

– Biz axı bilməliyik ki, sabah nəyə ümid eləmək olar.

Bu ideya elə gözlədiyimiz kimi alqışlarla qarşılandı, lakin bu vacib məsələnin öz ağlına gəlməməsindən pərt olan prezident dilləndi:

[1] Fransız klassisisti Fransua de Malerbonun (1555-1628) "Döpcryenin qızının ölümünə" şeri nəzərdə tutulur. "Heyhat, gözəl nə varsa yer üzündə, ildırımlar yandırdı, Zərif gül isə fəqət bircə şəfəq yaşadı."

[2] *Antuan-Loran Lavuazye* (1743-1794) – fransız kimyaçısı, bir çox kəşflərlə yanaşı, maddənin itməməsi qanunu da ona məxsusdur.



– Çox güman ki, bu saatda emalatxanalarda kimsə olmaz.

Cavabında bu sözləri eşitdi:

– Cənab prezident, mən belə hesab edirəm ki, bizi bura yığışmağa məcbur edən səbəblər tabutçuları da toplaşmağa vadar edib.

Elə də alındı. Həmin korporasiyanın mənzil-qərargahından məlumat verdilər ki, bu məktubu oxuyan kimi bütün üzvlərinə xəbər yollayaraq çox qısa bir zamanda, necə deyərlər, dəfn tarası istehsalının bərpa olunması zəruriyyətini xatırladıblar. Əldə olan məlumatlara görə, bir çox müəssisələr nəinki öz işçilərini geri çağırıblar, hətta istehsal prosesini tam sürətlə, üç növbədə təşkil ediblər.

– Bu, əlbəttə ki, əmək qanunvericiliyinin pozulmasıdır, – deyə nümayəndə qeyd etdi, – lakin vəziyyətin fövqəladəliyini nəzərə alsaq, bizim hüquqşünaslar əmindirlər ki, hökumət nəinki buna göz yumacaq, hətta bu operativliyə görə minnətdar belə olacaq. Düzdür, zəmanət verə bilmərik ki, bizim məhsullar – xüsusilə də birinci mərhələdə – özünün möhkəmliyi və səliqəsiylə, müştəriləri alışdırdığımız yüksək keyfiyyətiylə fərqlənəcək. Onların parlaq cilasını, lakını, qapaq üzərindəki qabarıq xaçı daha yaxşı əyyamlara saxlamaq gərəkdir. Yəni sifarişlərin təcililiyi bir qədər azalan vaxta. Amma istənilən halda biz öz məsuliyyətimizi dərk edirik, başa düşürük ki, bu prosesdə bizim rolumuz nə qədər mühümdür.

Bu yerdə dəfn bürolarının nümayəndələri yenə alqışlar yağdırdılar və indi artıq bir-birilərini təbrik etməyə səbəb vardı: bir meyit də dəfn olunmadan, bir hesab da ödənmədən qalmayacaqdı.

– Bəs qəbirqazanlar? – kimsə soruşdu.

– Qəbirqazanlar onlara tapşırılanı edəcəklər, – prezident bir az əsəbi tərzdə dilləndi.

O, bir az səhv edirdi. Daha bir telefon zəngi oldu və aydınlaşdı ki, qəbirqazanlar məvaciblərinə əhəmiyyətli dərəcədə artım, əlavə iş üçün isə üçqat tarif tələb edirlər.

– Bunun bizə aidiyyəti yoxdur, qoy bələdiyyələrin başı ağrısın, – prezident dedi.

– Bəs birdən biz qəbiristana gələndə orada kimsəni görmədik, bəlkə, heç qəbir qazımağa da adam tapılmadı? – deyə katib maraqlandı.

Qızğın mübahisə qopdu. İyirmi üç on beşdə prezidenti miokard infarktı vurdu, qırx beş dəqiqə sonra, zəngin sonuncu, on ikinci zərbəsinin sədası kəsilən kimi elə həmin xəstəlikdən də dünyasını dəyişdi.

* * *

Bu, istənilən getakombadan[1] daha qəliz idi. Altı ay ərzində – ölümün elan etdiyi birtərəfli barışıq, məhz bu qədər davam etmişdi – indiyəcən görünməmiş növbədə altmış min, daha dəqiq söyləsək, altmış iki min beş yüz səksən nəfər, eyni anda ölüm gətirən hansısa qüvvənin yalnız insanların cəlladlığı ilə müqayisəyə gələn azğın iradəsi nəticəsində əbədi sakitliyə qovuşdu. Yeri gəlmişkən, bunu xatırlatmaq ləzzətindən imtina edə bilmərik ki, ölüm öz-özlüyündə, kənar kömək olmadan həmişə insandan qat-qat az öldürür. Yəqin ki, hər şeylə həddən ziyadə maraqlanan birisi artıq soruşur ki, biz göz qapaqlarını əbədilik qapadanların sayını bu cür dəqiqliklə – altmış iki min beş yüz səksən – haradan tapdıq? Buna nə var ki? Bütün bu hadisələrin baş verdiyi ölkənin əhalisi, təxminən, on milyon nəfər təşkil etdiyindən, iki sadə hesab əməliyyatı – vurma və bölmə – bir də orta aylıq və orta illik məlumatlar bizə çox məhdud bir rəqəmə çatmaq imkanı verir. Onun üzərində isə həmin sayın özü ortalama və uyğun göstərici hesab edilə bilər, "uyğun" sözündən istifadə edərkən biz onu nəzərdə tuturuq ki, eyni uğurla altmış iki min beş yüz yetmiş doqquz və ya altmış iki min beş yüz səksən bir rəqəmini də ala bilərdik – əgər dəfn agentlikləri assosiasiyasının prezidentinin son anda qəflətən ölməsi bizim dəqiq hesablamalarımıza bəlli bir qarışıqlıq gətirməsəydi. Lakin buna baxmayaraq, biz tam olaraq inanırıq ki, artıq ertəsi günün səhərindən başlamış dəfnlərin statistikası hesablamalarımızın dəqiqliyini isbat edəcək. Hər şeylə bayaqkından az maraqlanmayan, bizi təhkiyəmizin ana xəttindən uzaqlaşdırmaq üçün dəridən-qabıqdan çıxan başqa birisi artıq hazırdır ki, söhbətə qoşulub soruşsun: "Bəs həkimlər haradan bilirdi ki, öz vəzifələrini icra etmək üçün hara yollanmalıdırlar, axı onların rəyi olmadan bir dənə də ölü rəsmən ölü olaraq tanına bilməzdi – hətta dəqiq oldüyünə heç bir şübhə olmasa belə?"

Bunu demək artıqdır ki, bəzi hallarda mərhumun qohumları ailə həkimlərini çağırırdılar. Amma özünüz başa düşürsünüz də, belə halların sayı əlacsızlıqdan ciddi məhdudlaşdırılmışdı, çünki əsas vəzifə anomal vəziyyəti rəsmi məcraya salmaqdan ibarət idi ki, "dəvəçiylə dost olanın darvazası gen gərək" deyiminin həqiqəti növbəti dəfə isbatlanmasın. Bu məsəlin isə vəziyyətə tətbiqi belə idi: evdə qəfil ölənin olması azmış kimi, hələ bir meyit də iylənirdi. Yeri gəlmişkən, elə burada aydınlaşdı ki, baş nazir bu yüksək vəzifəni xoşbəxt təsadüf ucbatından tutmamışdı və hədəfdən yan ötmədən düz alından vuran bir el məsəli: "Hər xalq öz hökumətinə layiqdir" – çox müdrik xalq deyimidir. Amma bu yerdə məsələni sonadək aydınlaşdırmaq üçün onu da qeyd etmək lazımdır ki, əgər "baş nazirdən baş nazirə fərq var" həqiqəti ədalətli sayılırsa, onda "bütün xalqlar eyni deyil" ifadəsinin ədaləti də ondan heç az olmaz. Qısasını desək, vəziyyətə baxır. Vəziyyət isə elə oldu ki, istənilən müşahidəçi, hətta mülahizələrinin qərəzsiz, ölçü-biçili olmasının fərqinə varmayanlar belə hökumətin ağır və əzablı vəziyyətdən üzüağ çıxdığını söyləyəndə bir an da tərəddüd hissi keçirməzdi. Hamımız xatırlayırıq ki, sevinclə dolu ilk günlər günahsız xalq qəflətən qismətimizə düşmüş, amma ömrü çox qısa olan ölməzlikdən ləzzət

[1] Mənşəyi yunan dilində yüz sözündəndir, yüz qurbanlıq öküzün kəsilməsi anlamını verir; adətən, böyük qırğınlara, müharibələrə işarə kimi istifadə olunur.



alarkən, dul qalmış bir qadın özünün təzə xoşbəxtliyini qonaq otağının küçəyə açılan gül-çiçəkli eyvanından dövlət bayrağını asmaqla qeyd etmişdi. Yəqin ki, bayraqların iki gün ərzində bütün ölkəni epidemiya kimi bürüt məftilindəki alovun sürətiylə çənginə alması da unudulmamışdı. Yeddi ağrılı peşmançılıq aylarından sonra isə bayraqlar yalnız orada-burada gözə dəyirdi. Onlar da artıq günün altında yanmışdılar, yağışlar üstündəki gerblərin rəngini tanınmaz dərəcədə dəyişərək onları adi cındır statusuna endirmişdi.

Özünün hər şeyi qabaqcadan görmək bacarığını əldən verməsini isbatlayan hökumət ölümün qəflətən qayıtmasından yaranmış dolayı effekti yumşaltmağa yönəlmiş digər təcili tədbirlərlə yanaşı, qərar verdi ki, bu gündən etibarən eyvandan asılmış dövlət bayrağı burada – məsələn, üçüncü mərtəbənin sol qanadında növbəti mərhumun dəfn olunmaq üçün növbə gözlədiyinə işarə olacaq. Nifrətəlayiq parkinin qayçısıyla qəlbi yaralanan ailələr dükana kimisə yollayırdılar ki, dövlətçiliyin simvolunu alıb pəncərədən assınlar. Onlar mərhumun sifətinə qonan milçəkləri qovaraq ölüm faktını rəsmən qeydə alacaq həkimin yolunu gözləyirdilər. Etiraf etmək lazımdır ki, bu ideya nəinki sağlam və müdrik idi, həm də yüksək zövqə dəlalət edirdi. Həkimlərə – istər şəhər olsun, istər kənd – yalnız maşınla, velosipedlə, piyada küçələri dolaşmaq qalırdı ki, bayrağa gözü sataşan kimi həmin evə girib heç bir alət olmadan, təkcə baxışlarıyla tələsik müayinə keçirsinlər. Onsuz da, vaxtın çatışmazlığından istənilən geniş müayinə qətiyyən mümkün deyildi. O da mümkün deyildi ki, dəfn agentliyini bu xammalın spesifik təbiəti baxımından sakitləşdirmək məqsədi daşıyan imzalı sənədi qoyub getsin. Başqa sözlə desək, zəmanət versin ki, kədərə qərq olmuş evdə onlara pişik yerinə dovşan, dovşan yerinə pişik soxuşdurmayacaqlar.

Oxucu yəqin, özü də başa düşdü ki, dövlət bayrağından bu məqsədlə istifadə olunması iki amala xidmət edirdi. Deməli, ikiqat xeyir gətirirdi. Əgər bu bayraqlar əvvəl-əvvəl həkimlərə



yol göstərən ulduz rolunu oynayırdısa, sonradan əsl mayak kimi, necə deyərlər, qablaşdırıcıları da hədəfə çatdırırdı. Əgər böyük şəhərlərdən, ilk növbədə, belə kiçik ölkə üçün olmazın dərəcədə böyük paytaxtdan danışsaq, ərazinin pay iştirakına uyğun kvotaların müəyyən olunmasına imkan verən kiçik parçalara bölünməsi ona şərait yaratdı ki, dəfn büroları assosiasiyasının vaxtsız vəfat etmiş prezidentinin hazırcavab ifadəsiylə desək, "kimə kökənin hansı tikəsinin düşəcəyi bəlli olsun". Bu da meyitləri mənzilbaşına çatdırmalı olan ekspeditorların əziyyətini çox yüngülləşdirirdi. Bayraqların asılmasının başqa nəticəsi skeptisizmi gözlənilməz və qəfil inkişaf etdirərək sistemə çevirməyimizlə bizim hansı yanlışlıqlara yetişə biləcəyimizi aydın göstərirdi. Bu da mərhəmətli, incə, alicənab davranışın dərin kök atmış stereotiplərinə sədaqətini büruzə verən və elə bu səbəbdən dövlət bayrağı ilə bəzənmiş pəncərənin önündən keçərkən şlyapasını çıxarmaqla oradakıları heyran qoyan bəzi vətəndaşlarımızın ehtiramlı davranışı idi. Bu mənzərəni görənlər anlamırdılar ki, onların papaq çıxarmasına səbəb mərhuma ehtiramlarıdır, yoxsa vətənin əbədiyaşar və müqəddəs simvolunu salamlamaq istəyi.

Demək artıqdır ki, həmin günlər heç kəsin daha ölməyəcəyi bəlli olan zamanlarla müqayisədə qəzetlərə tələbat dəfələrlə artmışdı. Təbii ki, insanların böyük bir hissəsi başlarına gəlmiş kataklizm haqda televiziyadan məlumatlı idilər. Çoxlarının evində yatağın üstündə mərhum, pəncərədə isə bayraq vardı, amma bunu anlamaq çətin deyil ki, bir var, kiçik ekranda baş direktorun həyəcandan əyilmiş sifətini görəsən, bir də var, apokaliptik qışqırıqlarla, konvulsiv qıcolma yağan başlıqlarla dolu, büküb cibinə basaraq evdə daha diqqətlə oxuya biləcəyin qəzet vərəqlərinə baxasan. Buyurun, bütün söyləmələrimə parlaq nümunə ola biləcək misallar gətirirəm:

"CƏNNƏTDƏN – CƏHƏNNƏMƏ", "ZİYAFƏTİ ÖLÜM VERİR", "YENİDƏN ÖLÜMƏ MƏHKUMSAN", "ŞAH VƏ MAT", "ŞİKAYƏTİN YERİ YOXDUR", "ƏFV GÖZLƏNİLMİR", "BƏNÖVŞƏYİ VƏRƏQİN

VERDİKTİ", "BİR SANİYƏDƏ ALTMIŞ İKİ MİN ÖLÜM", "ÖLÜM GECƏYARISI HÜCUMA KEÇİR", "TALEDƏN QAÇMAQ OLMAZ", "SEHRLİ YUXU DƏHŞƏTLƏ ƏVƏZLƏNDİ", "NORMAL ÖLÜMƏ QAYIDIŞ", "BİZ BUNA LAYİQİKMİ" və sairə və ilaxır.

İstisnasız olaraq bütün nəşrlər ölümün məktubunu ilk sütunlarında dərc etdilər, lakin bir qəzet, oxunuşu asanlaşdırmaq üçün mətni faksimiledə deyil, on dördlük şriftlə yığmışdı. Eyni zamanda, punktuasiya və sintaksisinə də əl gəzdirmişdi. Ehtiyac olan hər yerdə kiçik hərfləri böyükləriylə dəyişmişdi – imzanın özü də daxil olmaqla. Beləliklə, ölüm çevrilib Ölüm olmuşdu. Diqqətinizə yetirək ki, tələffüzdə hiss olunmayan bu fərq elə həmin gün naməni yollayanın qəzəbli etirazına səbəb oldu. Etiraz da elə həmin bənövşəyi çalarlı kağızda yazılmışdı. Məsləhətçi-linqvistin peşəkar rəyinə əsasən, ölüm ən bəsit yazı vərdişlərinə belə sahib deyildi. O ki qaldı xəttə, onun qənaətinə əsasən, müəllifin xətti də əcaib dərəcədə əyri-üyrü idi – adama elə gəlirdi ki, bu yazıda latın qrafikasının bütün mümkün və qeyri-mümkün yazı üslubları birləşmişdi. Elə təəssürat oyanırdı, sanki, hərflərin hər biri başqa-başqa adamların əliylə yazılmışdı. Hərçənd ki mətndəki sintaksis xaosu, nöqtələrin olmaması, çox zəruri görünən mötərizələrin qoyulmaması – yersiz vergüllər hələ toya getməli idi – baş hərflərin bilə-bilə, İblis tərsliyiylə gözardına vurulması heç yana sığan deyildi.

– Belə biabırçılıq olmaz, – dilçi narazılıq etdi, – bu rüsvayçılıqdır, təxribatdır, – və maraqlandı, – əgər keçmiş zamanlarda böyük söz dahilərini əbədiyyətə aparmış ölüm belə yazırsa, onda bizim övladlarımız öz savadsızlıqlarını bu diyarda gəzib-dolaşdığından elmin bütün sahələrindən eyni dərəcədə yaxşı baş çıxarmalı olan ölümdən nümunə götürməklə əsaslandırmaya bilərlərmi?

O, öz həcvini belə bitirirdi:

– Bu kədərli şöhrətə malik məktubda bol olan sintaksis dolaşıqlıqları məndə elə fikir oyadardı ki, bizim qarşımızdakı



ən ləyaqətsiz və rəzil çalarlara malik, çox genişmiqyaslı təxribat nümunəsidir. Əgər bu dəhşətli təhdidin sonradan yerinə yetməsi acı həqiqət olmasaydı.

Elə həmin gün axşama yaxın, bayaq ötəri qeyd etdiyimiz kimi ölümdən daha bir məktub gəldi və bu dəfə o çox sərt ifadələrlə təkzib tələb edir, adının düzgün yazılmasını istəyirdi:

"Mənin adım, hörmətli cənab redaktor, Ölüm deyil, sadəcə, ölümdür, Ölüm – elə bir şeydir ki, cənablar, onun hətta bircə tikəsini belə təsəvvürünüzə gətirə bilməzsiniz. Çünki siz insanlar yalnız xırda, gündəlik ölümlərlə rastlaşırsınız. Yəni o ən dəhşətli hallarda belə həyatın axarını saxlaya bilməz, onun davamını əngəlləyə bilməz. Amma bir zamanlar vaxt gələcək və sizlər böyük hərflə yazılan Ölümün kimliyini biləcəksiniz. Onda, təbii ki, əgər çatdırsanız, bir də onun özü imkan versə – mənə qalsa, mən buna böyük şübhə ilə yanaşıram – nisbi ilə mütləq, boş ilə dolu, "hələ var"la "yoxdur və heç vaxt olmayacaq" arasındakı həqiqi fərqi anlayacaqsınız. Mən "həqiqi fərq" deyəndə, "mümkün", "nisbi", "mütləq", "dolu" və "boş", "hələ var", "yoxdur və heç vaxt olmayacaq" arasındakı sözlə ifadə oluna bilməyən fərqi nəzərdə tuturam – bütün bunların mənasını, cənab redaktor, əgər özünüz də başa düşmürsünüzsə, mən deyim sizə. Sözlər mütəhərrik və axıcıdırlar, günbəgün dəyişirlər. Kölgə kimi davamsızdırlar, onlar, əslində, elə kölgədirlər. Var olduqları dərəcədə həm də yoxdurlar, onlar sabun qovuqlarıdır, balıqqulağında dənizin zorla eşidilən pıçıltısıdırlar, kəsik kötükdürlər. Bu məlumatları sizə havayı, daha doğrusu, tam qərəzsiz verirəm, çünki sizin hörmətli qəzetinizin oxucularına aydın izah etmək istəyirəm ki, ölüm və dirim məsələsi necə və nə cür olan şeydir. Bu məktubu və televiziyada oxunmuş o biri məktubu da öz əlimlə yazmışam və sizdən israrla tələb edirəm ki, Mətbuat Haqqında Qanuna müvafiq olaraq təkzib verəsiniz. Onu bilərəkdən və ya

məsuliyyətsizlikdən yol verilmiş səhv məlumatlar getmiş həmin səhifədə, elə eyni cür yerləşdirəsiniz və sizin, cənab redaktor, xüsusi diqqətinizə yetirirəm ki, əgər bu məktub heç bir ixtisara yol verilmədən təcili dərc olunmasa, günü sabah sizə, hələ bir neçə il həyatınızın qalan hissəsini qaraltmamaq üçün, dəqiq müddətini deməyəcəyəm, göndərmək fikrində olmadığım ilkin xəbərdarlıq yollayacağam. Odur ki dərin hörmətlə və imzaya diqqət yetirməyiniz şərtiylə, ölüm".

Elə ertəsi gün məktub redaktorun çoxsözlü üzrxahlıqları ilə bir yerdə dərc olundu, özü də elə-belə yox, iki cür – faksimile və ondördlük keqllə yığılmış. Redaktor təhdidi aldığı andan gizləndiyi, yeddi qıfılla kilidlənmiş bunkerindən yalnız qəzet satışa çıxandan sonra çıxmağa özündə cəsarət tapdı. Qorxusu o qədər güclü idi ki, qəzetinin səhifələrində bu sahənin ən görkəmli nümayəndəsi tərəfindən redaksiyaya gətirilmiş qrafoloji ekspertizanın nəticələrini dərc etməyə razı olmadı.

"Yox bir, elə bu imza məsələsi mənim başımdır, rəyinizi başqa qəzetlərə təklif edin, qoy onların da kürkünə birə düşsün. Nə deyirsiniz, eləyim, lakin əgər ondan can qurtara biliramsə, həmin o qorxunu bir də yaşamaq istəmərəm".

Qrafoloq deyilən ünvana getdi, sonra başqa redaksiyaya baş çəkdi, dalınca üçüncüsünə və yalnız dördüncüsündə, artıq ruhdan düşməyə başlayanda öz yazısını – neçə gecəlik əzab-əziyyətinin bəhrəsini – soxuşdura bildi. Əsaslı və məzmunlu məruzə bu xatırlatma ilə başlanırdı ki, xəttin səciyyəvi cəhətlərinin yozumu özünün ilk mərhələsində fizioqnomikanın bölmələrindən biri idi – məlumatı kasad olan insanlar üçün aydınlaşdıraq – ondan başqa mimika, motorika, nitqi ehtiva edirdi. Onların hər birisində də Kamillo Baldi, İohan Kaspar Lafater, Eduard Ögüst Patris Okar, Adolf Hense, Jan-İppolit Mişon, Uilyam Tyerri Preyer, Çezare Lombrozo, Jül Krepyö-Jamen, Rudolf Popqal, Lüdviq Klyages, Vilhelm Helmut Müller, Elis Enskat, Robert



Hayss[1] kimi parlaq zəkalar özlərinə abidə ucaltmışdılar. Məhz onların səyləri nəticəsində qrafologiya psixoloji aspektini möhkəmləndirərək tətbiqi fənnin və fundamental elmin ambivalentliyini kəsb etdi. Bundan sonra bir qalaq tarixi və cürbəcür başqa məlumatları ortaya tökən bizim qrafoloq usandırıcı bir dəqiqliklə materialın başlıca *subjudice*[2] səciyyəsini, yəni ölçü, qələmin basılma qüvvəsi, hərflərin yana meyilliliyi və birləşməsi, onların mətndə qarşılıqlı yerlərini ekspertiza etmişdi. O xatırladırdı ki, məqsədi nə kliniki diaqnoz qoymaq, nə xarakterin analizi, nə sınaqdan keçirilənin peşə qabiliyyətinin yoxlanılması deyildi. Bütün diqqət kriminoloji aspektə yönəlmişdi, çünki araşdırılan mətndə şəxsiyyətin cinayətkar xarakterinin aşkar sübutlarına addımbaşı rast gəlmək olurdu. "Buna baxmayaraq, – alim sonra öz yazısını gizlədə bilmədiyi acı peşmançılıq içində davam etdirirdi, – mən nəinki çətin, həm də qorxuram ki, prinsipcə həllolunmaz bir ziddiyyətlə üz-üzə qaldım. Çünki dəqiq qrafoloji ekspertizanın qəbul olunmuş metodikalarına riayət etməklə gəldiyimiz nəticələr göstərirdi ki, mətnlərin müəllifi silsilə qətllər törədən bir şəxsdir. Bununla yanaşı, əvvəlki tezisimi qətiyyən təkzib etməyən şəksiz sübut vasitəsilə aşağıdakılar isbatlanırdı: tədqiq olunan məktubu yazmış məxluq – ölüdür".

[1] *Kamillo Baldi* (1550-1637) – italyan alimi, qrafologiyanın əsasını qoyanlardan biri. *İohann Kaspar Lafater* (1741-1801) – İsveçrə yazıçısı, "Fizioqnomik fraqmentlər..." (1775-1778) traktatının müəllifi, *Eduard Ögüst Patris Okar* (1814-1883) – ilk fransız qrafoloqlarından. *Adolf Hense* (1814-1883) – alman qrafoloqu. *Jan-İppolit Mişon* (1806-1881) fransız qrafoloqu. *Uilyam Tyerri Preyer* (1841-1897) – ingilis fizioloq-psixoloqu, sonradan Almaniyaya mühacirət edib. *Çezare Lombrozo* (1835-1909) – italyan məhkəmə psixiatrı və kriminalisti, kriminalistika və cinayət hüququnda antropoloji istiqamətin (lombroziançılıq) banisi; müəyyən bioloji (antropoloji stiqmatlar) əlamətlərə əsasən cinayət törədilməsinə meyilli olan insan tipinin mövcudluğu haqda fərziyyə irəli sürmüşdür. *Jül Krepyö-Jamen* (1858-1940) – fransız qrafoloqu. *Rudolf Popqal* (1893-1966) – alman nevroloqu və qrafoloqu. *Lüdviq Klyages* (1872-1956) – alman qrafoloqu. *Vilhelm Helmut Müller, Elis Enskat, Robert Hayss* – iyirminci əsrin ortalarının alman qrafoloqları

[2] Burada: barəsində rəy verilən *(lat.)*

Bəli, bu, əslində də, belə idi və ölümün özünün bunu təsdiq etməkdən savayı bir yolu yox idi.

"Siz düz deyirsiniz, cənab qrafoloq", – yüksək elmi məruzəni oxuyandan sonra o dilləndi.

Aydınlaşmamış bircə o qaldı ki, yalnız sümükdən ibarət meyit olan ölüm necə öldürə bilir. Bir də məktubu necə yazır. Heç vaxt açılmayacaq bir sirr.

Həmin o təxirə salınmış ölüm vəziyyətində olan altmış iki min beş yüz səksən nəfərin vədə yetişəndə yaşadıqlarının təsviri başımızı möhkəm qatmışdı deyə, vəziyyətin dəyişməsinə qocalar evi, xəstəxanalar, sığorta agentlikləri, maffiya və kilsənin münasibəti barədə çox zəruri düşüncələrimizi daha əlverişli fürsət üçün saxlamışdıq. İndi isə həmin o fürsət də yetişdi və kilsə – ilk növbədə, təsvir etdiyimiz dövlətdə əsas yer tutan katolik kilsəsi şüurlara o dərəcədə hakim kəsilmişdi ki, vətəndaşlar arasında möhkəm əqidə, möhkəm inam vardı. İsa Məsih özünün ilk və bildiyimiz qədər hələlik yeganə dünyəvi həyatını mənbəyindən mənsəbinə kimi təkrar eləyəsi olsaydı, doğulmaq üçün, onsuz da, buradan başqa ölkə seçməzdi. Xoşbəxt qürub sığınacaqlarında – gəlin onlardan başlayaq – necə gözlənilirdisə, elə həmin hissiyyatlar yaşanırdı. Əgər diqqətə alsaq ki, pasiyentlərin müntəzəm rotasiyası – bunu qəribə hadisələrin lap başlanğıcında kifayət qədər açıqlamışdıq – bu qəbil müəssisələrin iqtisadi yüksəlişinin ən vacib şərti idi, ölümün qayıdışı böyük şadyanalıq və rəhbərləri qanadlandıran tamam başqa ümidlərin cücərməsindən savayı bir şey ola bilməzdi. Onlar televiziyada oxunan məktubun ilk şokunun öhdəsindən birtəhər gələrək təcili olaraq indi həyatlarının necə davam edəcəyini götür-qoy eləməyə, hesablamağa başladılar. Həyat da onların gözləntilərini puç eləmədi. Artıq unutmağa başladıqları normaya heç kəsin gözləmədiyi bu qayıdışı gecəyarısı sel kimi içdikləri şampan şərablarıyla qeyd etdilər. Yad gözlərə başqasının həyatına biganəlik və sayğısızlıq kimi görünən



bu mənzərə, əslində, çox təbii yüngülləşmənin təzahüründən başqa bir şey deyildi. Bu hissi yalnız bağlı qapı arxasında açarsız, zülmətdə qalan və qəflətən həmin qapılar taybatay açılanda dörd bir tərəfinin o üzdən düşən işığa qərq edildiyinin şahidi olan insanın qəlbinə dolan qanuni sevinclə müqayisə etmək olardı. Bir az cırtqoz insanlar deyəcəklər ki, sevinəydilər, amma, heç olmasa, səs-küylü şadyanalıq, şampan tıxaclarının partıltısı və eyş-işrətin digər göstəriciləri olmadan keçinəydilər. Çünki bu cür hadisəni qeyd eləmək üçün bir qədəh portveyn ya madera, bir qədəh konyak ya likörlə qəhvə bəs edərdi. Lakin içinə sevinc dolmuş ruhun qızışaraq cismin cilovlarını necə asan qırdığını gözəl bilən bizlər başa düşürük ki, bu hərəkəti bağışlamaq, bəlkə də, olmaz, amma güzəşt etmək vacibdir. Ertəsi gün səhər rəhbərlik qızğın fəaliyyətə başladı: qohumlar mərhumların cəsədlərini aparsın, otaqlar təmizlənsin, yatacaqlar dəyişsin, personal toplansın və onlara elan edilsin. Həyat, Tanrının kərəminə şükür, davam edir. Yalnız bundan sonra oturub qocalar evinə yerləşdirilməklə əlaqədar xahişnamələri araşdırmağa başladı ki, namizədlər arasında daha ümidverici görünənlərini seçsin. Buna o qədər də bənzəməyən, amma heç də az əhəmiyyət kəsb etməyən səbəblər üzündən səhiyyə müəssisələrinin çarxını fırladan vəzifəli şəxslərin də əhvali-ruhiyyəsi gecədən səhərə kimi ötən müddət ərzində gözgörəsi yüksəlmişdi. Hərçənd ki sizə əvvəllərdə danışdığımız kimi, dərdləri özünün kulminasiyasına yetişmiş və əgər əbədi davam edəcək nozoloji[1] vəziyyət barədə bu mümkündürsə, sonuncu fazasına qədəm qoymuş sağalmaz pasiyentlərin əhəmiyyətli bir hissəsini xəstəxanadan riyakarcasına "bu zavallıya kim sizdən yaxşı qulluq göstərə bilər ki" – deyərək qohumlarının himayəsinə buraxmışdılar. Sakit qürubu təmin edəcək heç bir qohumu və pulu olmayanlar da az deyildi. Elə xəstələr bu şanlı müəssisələrdə əsrlərdən bəri

[1] *Nozologiya* – xəstəlik, onların təsnifatı barədə təlim

və dünya durduqca qəbul olunduğu kimi təkcə dəhlizlərdə deyil, həm də bütün künc-bucaqda, çardaq və zirzəmilərdə, az qala, üst-üstə qalaqlanaraq tamam unudulmuş, qayğı və diqqətsiz qalmışdılar. Çünki neçə günlər ərzində onlara heç yaxınlaşan da olmurdu. Özü də bu nə həkimləri, nə tibb bacılarını narahat edirdi. Onlar özlərini bu fikirlə sakitləşdirirdilər ki, xəstələrin vəziyyəti nə qədər ağır olsa da, yüz faiz öləsi deyildilər. İndi onlar müvəffəqiyyətlə öləndən, xəstəxanadan çıxarılaraq dəfn olunundan sonra müalicə müəssisəsinin havası yenidən özünəməxsus, bərabər həcmdə efir, yod və karbolkadan ibarət rayihə çələngini bərpa etdi. Özünün kristal təravətiylə dağ zirvələrinin atmosferinə bənzəməyə başladı. Düzdür, şampan o qədər də çox içilməmişdi – direktor və baş həkimlərin xoşbəxt təbəssümləri ürəyə məlhəm kimi yayılırdı, ordinatorlar barədə isə yalnız onu demək olardı ki, bineyi-qədimdən bəri olan kimi, yenə də kiçik tibbi personalı şəhvətli baxışlarla süzməyə başlamışdılar. Bir sözlə, hər şey normasına qayıtmışdı. O ki qaldı sığorta agentlərinə, onların üçüncü yerdə durduğu bəlli sıranın sırasını pozmamaq xətrinə deyək ki, onlar barədə deyiləsi bir şey yoxdur. Çünki dəyişən vəziyyətin sığorta polislərindəki, bizim ağlasığmaz təfərrüatlara varıb danışdığımız dəyişikliklərə necə təsir göstərəcəyi barədə hələ bir rəyə gələ bilməmişdilər. Bilmirdilər yaxşılığadır, yoxsa tamam əksinə. Sığortaçılar qarşıda ayaqlarının möhkəm torpaq üstündə duracağına arxayın olmadan bircə addım da atmazlar, amma atan kimi də ona yeni toxumlar səpəcəklər. Yəni təzə müqavilələr – öz forma və məzmunu ilə onların maddi maraqlarına tam cavab verən müqavilələr imzalayacaqlar. Gələcək Tanrıya məxsus olduğundan və hamımız sabah bizi gözləyənlərdən xəbərsiz olduğumuzdan onlar – yəni sığortaçılar elə əvvəlki kimi səksən yaşına çatmış sığortalıları ölü sayacaqlar, çünki əllərindəki nağd soğan elə onlardır. İndi bircə qalır dəryada balıq sevdasına girişmək. Bu zirəklərdən bəziləri zindanla



gürzün, iki odun, pislə daha pisin və bu qəbildən olan cürbəcür təhlükəli şeylərin arasında indiyədək bu dərəcədə parçimlənməmiş ölkədəki qarışıqlıqdan istifadə edərək artıq onun barəsində düşünürlər ki, yaş həddini səksən beşə, bəlkə də, lap doxsana yüksəltmək heç də pis olmazdı. Bu fikri müdafiə edənlərin dəlilləri buludsuz gün kimi aydın, bulaq suyu kimi şəffafdır. Bu yaşa çatmış insanların, bir qayda olaraq, köməyinə arxalanmaq mümkün olan qohumları qalmır, əgər olsalar belə, onlar da elə özləri kimi Nuh əyyamından qalmadırlar. Təqaüdlər isə daimi inflyasiya və həyatın bahalaşmasına görə, necə deyərlər, durmadan əriyir və bu səbəbdən qocalar çox vaxt ödənişləri kəsməyə məcbur olur, bununla da sığorta kampaniyalarına gözəl bir bəhanə verirdilər ki, müqaviləni özləri üçün tam ziyansız şərtlərlə pozsunlar. "Bu, antihumanist hərəkətdir", – bəziləri çığıracaq. "Bu – biznesdir, əsl biznes", – digərləri etiraz edəcək. Yaxşı, gözləyək, görək işin sonrası necə olacaq.

Həmin dönəmlərdə iş barədə ən çox danışılan bir yer vardısa, o da maffiya çevrələri idi. Bəlkə, o səbəbdən ki, yuxarıda göstərdiyimiz qaranlıq tunellərlə dəfn biznesinə nüfuz eləyən cinayətkar birliklər, yalançı təvazöyə varmadan qeyd edək ki, həddən ziyadə mükəmməl olmaları ilə fərqlənirdilər. Oxucuda isə maffiya barədə yanlış fikir formalaşa bilərdi: əgər daha çox pul qazanmaq üçün daha az güc sərf etməyi bacarmırsa, bu nə rəzil toplumdur belə. Yox, əlbəttə, yox, bu qəbil qurumların yer kürəsinin istənilən nöqtəsində olmasına baxmayaraq, bütün belə təşkilatlar kimi maffiyanın da tamam başqa üsullardan ibarət geniş assortimentli tədbirləri vardı. Lakin perspektivli strateji planlarla ani taktiki vəzifələr arasında böyük ustalıqla müvazinət nöqtəsi tapa bilən, iki dənə "f" ilə yazılan yerli kriminal sindikat yalnız bu gün qazandıqlarının ardınca düşmür, həm də öz planlarını daha uzaqlara – lap elə əbədiyyətin özünə kökləyirdi. Bizim maffiya evtanaziyanın gözəl nemət olduğuna inanan ailələrin

köməyi və guya, tamam başqa səmtə baxdığını göstərən hakimiyyət dairələrinin havadarlığı sayəsində başər övladının hər bir nümayəndəsinin ölümü və dəfnini mütləq inhisarına salmaq, demoqrafik vəziyyətin ölkənin mənafeyinə necə uyğundursa, elə də olmasının məsuliyyətini öz boynuna götürmək istəyirdi. Daha doğrusu, bir dəfə işlətdiyimiz ifadə ilə söyləsək, həmin bulağın gözünü bildiyi kimi açıb-bağlamaq istəyirdi. Əgər doğuşun artıb-azalması hələlik onlarlıq deyildisə, xaricə, daha doğrusu, yaşamın sərhədlərindən xaricə səyahətlərin tezləşdirilməsi və ya gecləşdirilməsinin öhdəsindən tam olaraq gələ bilərdilər. Biz xoş niyyətli oxucumuzu həmin otağa daxil edərkən orada artıq qaynar bir diskussiyanın pıqqıltıları eşidilirdi və bu söhbət onun ətrafında gedirdi ki, ölümün vəzifə başına qayıdışından sonra bekarçılıqdan vaxtını boş keçirən əmək ehtiyatlarını necə işə salmaq olar. Özü də yaxşı olardı ki, elə eyni gəliri təmin eləyən bir iş olaydı. Dəyirmi masanın arxasında cürbəcür, az və ya çox dərəcədə radikal təkliflər səslənəndən sonra onların arasından eləsini seçdilər ki, əvvəla, qədim və şanlı ənənələrə söykənirdi və ikincisi, asan başa gəlirdi. Özünüz yaxşı başa düşürsünüz ki, söhbət himayədən gedir. Budur, artıq ertəsi gün şimaldan-cənuba, qərbdən-şərqə bütün ölkədə görüşə gələnlər dəfn bürolarının qapılarından içəri keçirdi – bir qayda olaraq iki kişi, bəzən isə kişi və qadın, lap nadir hallarda da iki qadın nəzakətlə müdiri soruşurdular. Sonra isə onun özünə çox mədəni bir şəkildə izah edirdilər ki, müəssisələri qəsb, partlayış, yanğın təhlükəsinə məruz qalıb. Çünki əbədi həyat hüququnun insan hüquqları üzrə ümumi deklarasiyaya daxil olunması tələbi ilə çıxış edən qeyri-qanuni assosiasiyanın fəalları indi gücsüz bir qəzəb içində qıvrılaraq qisas qılıncını günahı yalnız mərhumlara son sığınacaq vermək olan dəfn bürolarının başı üstündə oynadırlar.

– Bizdə dəqiq məlumatlar var, – gələnlərdən biri sözünə davam edirdi, – bu təxribatçı fəaliyyət müqavimətə rast

gələcəyi təqdirdə dəfn bürosu sahibinin, onun direktorunun, iki-üç əməkdaşının və onların hamısının ailə üzvlərinin ölümünə gətirib çıxara bilər və istisna etmək olmaz ki, bu hadisələr məhz sabah və sizin məhəllədə başlanacaq.

– Bəs indi mən nə edim, – deyə qorxmuş, tir-tir əsən həmsöhbətləri onlardan soruşurdu.

– Heç nə, sizin bir iş görməyinizə qətiyyən ehtiyac yoxdur, biz isə sizi müdafiə edə bilərdik, təbii ki, əgər istəsəniz.

– Əlbəttə istəyirəm, məni müdafiə eləyin, rica edirəm.

– Bunun üçün bəzi şərtləri yerinə yetirmək lazımdır.

– Ürəyiniz nə istəyirsə mən hər şeyə razıyam, ancaq sizdən müdafiə istəyirəm.

– Hər şeydən öncə, heç kəsə – hətta arvadınıza belə bu barədə bircə kəlmə də demirsiniz.

– Mən evli deyiləm.

– Fərqi yoxdur, ananıza, nənənizə, xalanıza – heç kəsə.

– Ağzımı da açmaram.

– Düz də eləyərsiniz, yoxsa ağzınızın əbədilik qapanma təhlükəsi var.

– Başqa nə şərtlər var?

– Tək bircə şərt qaldı, pul ödəmək, biz nə qədər desək, o qədər.

– Pul ödəmək?

– Bəs nə bilirsiniz – biz axı sizin təhlükəsizliyinizi təmin etməliyik. Bu isə, mənim əzizim, məsrəf tələb edir.

– Anladım.

– Biz bütün bəşəriyyəti müdafiə edə bilərdik: əgər lazım olan qədər pul ödəmək iqtidarında olsaydı. Nahaq yerə deməyiblər ki, bu günün sabahı da var; biz ümidimizi üzmürük.

– Başa düşdüm.

– Çox yaxşıdır ki, siz hər şeyi bir kəlmədən anlayırsınız.

– Bəs mən nə qədər pul verməliyəm?

– Baxın, burada məbləğ göstərilib.

– Nə qədər, nə qədər?

– Ədalətli qiymətdir, qafadan yazmamışıq, hesab-kitab var.

– Bu, illik qiymətdir, yoxsa aylıq?

– Həftəlik.

– Məndə bu qədər pul haradandır, dəfn biznesi qızıl alveri deyil.

– Hələ bəxtiniz gətirdi ki, biz sizdən həyatınızı neçəyə qiymətləndirirsinizsə, o qədər istəmədik.

– Hə, elədir, bir ömrümüz var da, ikincisi olmayacaq.

– Bunu da itirməməkçün mənim sizə məsləhətim budur ki, özünüzdən muğayat olasınız.

– Mən hər şeyi ölçüb-biçməliyəm, sonra da gərək bunu ortaqlarımla müzakirə eləyim.

– Sizin ixtiyarınızda düz iyirmi dörd saat var, bir dəqiqə də artıq deyil. Bir sutkadan sonra biz çəkilirik və onda baş verə bilən bütün hadisələrin tam məsuliyyəti sizin üzərinizə düşəcək. Özü də bu xoşagəlməz hadisə mütləq baş verəcək. Ümid edirik ki, birinci dəfə, yəqin, ölüm olmaz, ondan sonra söhbətimizi davam elətdirərik, amma qiymət artıq bunun iki misli olacaq və bu pulu mütləq ödəyəcəksiniz. Siz heç təsəvvür eləmirsiniz ki, əbədiyyət hüququnu müdafiə eləyən bu vətəndaş assosiasiyasının üzvləri nə qədər qəddardırlar.

– Yaxşı, mən razıyam.

– Dörd həftəninkini qabaqcadan ödəyin, əgər çətin deyilsə.

– Dörd həftənin?

– Niyə çığırırsınız: sizin problem adi deyil, biz axı başa saldıq, təhlükəsizliyin qorunması ucuz iş deyil.

– Nağd olsun, yoxsa çeklə?

– Nağd, biz çeki yalnız o məbləğlərə qəbul edirik ki, nağd olanda daşıya bilmirsən.

Müdir seyfi açıb əskinasları saydı və onları gələnlərə verəndə soruşdu:

– Bağışlayın, bir qəbz verəydiniz barı, təhlükəsizliyimə zəmanət verməyiniz haqda.



– Nə qəbz olacaq, nə zəmanət, bizim kişi sözümüzlə kifayətlənməlisiniz.

– Kişi sözünüzlə?

– Tamamilə doğrudur, kişi sözüylə; özünüz görəcəksiniz, kişi sözü nədir və bizim üçün necə qiymətlidir.

– Bəs ehtiyac olsa, sizi harada tapa bilərəm?

– Narahat olmayın, biz özümüz sizi taparıq.

– Gedək, sizi yola salım.

– Oturun-oturun, yolu tanıyırıq: dəhlizlə sola, tabut nümunələri qoyduğunuz satış zalının içindən kosmetika satdığınız otağa, ondan sonra qəbul otağı, oradan da küçəyə.

– Deməli, azmazsınız.

– Əlbəttə, biz istiqaməti yaxşı müəyyənləşdiririk.

– İtməzsiniz?

– Biz heç vaxt itmirik və bunun sübutu olaraq, gələn ay bizim yoldaş növbəti ödənişin dalınca gələcək.

– Bəs mən nə biləcəm ki, bu məhz odur.

– Elə bircə nəzər salsanız anlayacaqsınız, heç bir şübhəniz qalmayacaq.

– Yaxşı, onda salamat qalın.

– Siz də salamat qalın.

Axırda da – last but not least[1] – katolik, apostol və təbii ki, özündən razı qalmaq üçün külli miqdarda əsas tapmış Roma kilsəsi barədə. Lap əvvəldən ölümün ləğvinin yalnız iblis qurğusu ucbatından ola biləcəyinə və onunla mübarizə üçün israrlı dualardan gözəl vasitənin yoxluğuna möhkəm əmin olan kilsə böyük əziyyət və bir xeyli qurbanlar bahasına yeridərək inkişaf elətdirdiyi, təvazökarlıq məziyyətini bir kənara atıb özünü ara vermədən öyməyə və "Tanrıdan bədbəxt bəşəriyyətin daha dəhşətli bəlalardan hifz olunması üçün ölümün tezliklə qaytarılmasını diləyən" – sitatın sonu – ümummilli kampaniyanı böyük uğurla keçirdiyinə görə usanmadan qürrələnməyə başlamışdı. Dualar düz səkkiz ay göylərə ucaldı

[1] Əhəmiyyətdə yox, sırada sonuncu (*ing.*)

– əgər xatırlasaq ki, Marsa çatmaq üçün yarım il uçmaq lazımdır, göylər isə ondan xeyli uzaqdır, əgər yuvarlaqlaşdırsaq, on üç trilyon işıq ili – burada təəccüblü bir şey yox idi. Amma kilsənin yaşadığı əsaslı özündənrazılığın bal dadına bir damla qatran qarışdı. Din xadimləri elə hey mübahisə edirdilər ki, xaliqi və hakimi-mütləqi ölümün təcili olaraq qaytarılmasına təhrik edən motivlər nədən ibarətdir, lakin bir nəticəyə gələ bilmirdilər. Çünki ilahi altmış iki min ölənin sidr-kafirsiz, tapşırma duasının mərhəmətindən bəhrələnmədən, bizim bunu söyləməyimiz üçün gərək olan vaxtdan da qısa bir müddətdə canlarını tapşırmasına yol vermişdi. Və şübhə qurdu – ölüm Tanrıya tabedir, yoxsa əksinə – kilsə əhlinin beynini gizlincə gəmirməkdə davam edirdi. Bu qəbildən olan həyasız bir ehtimal isə – ölüm və Tanrı mahiyyətcə eyni medalın iki üzüdür – indiyədək nəinki küfr, hətta murdar dinsizlik nümunəsi sayılırdı. Amma bu, necə deyərlər, içəridən baxış idi. İnsanların böyük əksəriyyətinə isə elə gəlirdi ki, kilsə ilk növbədə kraliçaananın dəfni ilə məşğuldur. Altmış iki min adamın əbədi rahatlıq tapmasından və onların dəfn arabalarının hərəkəti ucbatından küçələrdəki basabasın səngiməsindən sonra ülyahəzrəti, adət üzrə, qurğuşun tabutda krallıq sərdabəsinə aparmaq zamanı yetişdi. Və qəzetlər tarixin daha bir səhifəsinin çevrildiyini yazmaqdan vaz keçmədilər.

* * *

Belə düşünmək lazımdır ki, əlamətləri bizim zəmanədə gec-gec görünən yaxşı tərbiyə və bir də çap olunmuş sözə qarşı titrək qəlbləri dolduran mövhumatçı hörməti, zorla gizlədikləri hövsələsizliyi artıq numayiş etdirməyə başlamış oxucularımıza imkan vermədi ki, bu söz selində, bəlkə də, lap söz daşqınında boğularaq soruşsun: "Ölüm həmin o məşum gecədən qayıtdığını bəyan etdiyi ana kimi nə ilə məşğul imiş?" Biz heç vaxt görünməmiş bu hadisələrdə aşağıda adı çəkilən institut və təsisatların nə qədər böyük rol



oynadığını xatırlayaraq məcbur olmuşduq, artıq təfərrüatlara vararaq izah edək ki, vəziyyətin qəfil və radikal dəyişməsinə qocalar evində, xəstəxanalarda, sığorta agentliklərində, katolik kilsəsində necə cavab verdilər. Lakin əgər ölüm lap yaxın zamanda torpağa tapşırılmalı olan külli miqdarda mərhumun mövcudluğunu nəzərə alaraq qəlbinin tamamilə gözlənilməz və çox böyük təqdirəlayiq çağırışına qulaq verib özünün yoxluğunu daha bir neçə gün uzatsaydı, imkan versəydi ki, həyat yenidən öz adi axarına dönsün, nisbətən asan olardı. Amma indi, başqa sözlə desək, bərpa olunmuş rejimin ilk günlərində rəhmətə getmiş adamlar istər-istəməz neçə aydan bəri sözün məcazi deyil, əsl mənasında nə ölü, nə diri olanlara qoşulmalı olmuşdular. Biz, məntiqin israrlı tələblərinə əsasən, bu təzə ölülərdən danışmalıydıq. Amma belə bir şey baş vermədi, ölüm bu cür mərhəmət nümunəsi göstərmədi. Təzə ilin ilk səkkiz günü ərzində kimsə ölmədi və bunun səbəbi – bununla əlaqədar hələ bir ümid yaranaraq dillərdə dolaşdı da, amma mahiyyətcə heç nə dəyişməmişdi – ölümlə ölməlilər arasında ən adi münasibətlər idi. Onların hamısı qabaqcadan xəbərdarlıq almalıydı ki, həyatlarının sonuna bir həftə qalır və bu həftədən səmərəli istifadə etmək gərəkdir; məsələn: bütün dünyəvi işləri yekunlaşdırmaq, vəsiyyətnamə yazmaq, borcları qaytarmaq, əzizlərin və yaxınlarınla vidalaşmaq. Nəzəriyyədə bütün bunlar əla görünürdü, əməldə isə heç elə alınmadı. Təsəvvür edin ki, möhkəm sağlamlığı olan, başı bircə dəfə belə ağrımamış, həm prinsipial mövqeyinə əsasən, həm də aydın və obyektiv səbəblərdən optimist olan birisi gözəl səhərlərin birində evdən çıxaraq işə yollanır, küçədə mehriban poçtalyona rast gəlir, o da belə deyir: "Nə yaxşı görüşdük, cənab filankəs, sizə məktub gəlib". Bundan sonra da həmin o bənövşəyi rəngli zərfi ona uzadır və bu naməyə adresat, bəlkə də, diqqət yetirməzdi, onu reklam və şəbəkə marketinqi ustalarının növbəti zəhlətökənliyi sayıb heç fikir də verməzdi, əgər zərfin üstündəki

qəribə xətt nümunəsinə gözləri sataşmasaydı. Bu yaxınlarda qəzetlərdə faksimile nüsxəsi yerləşdirilmiş həmin o məşhur müraciət də eyni xətlə yazılmışdı. Əgər onun ürəyi həmin an qorxudan titrəsəydi belə, əgər labüd bədbəxtliyin nəfəsini duyaraq məktubu əlinə götürmək istəməsəydi belə, bunu eləyə bilməyəcəkdi. Çünki elə bir hiss yaşayacaqdı ki, sanki, kimsə dirsəyindən yapışıb banan qabığının üstündə sürüşməsinə imkan verməyərək onu pilləkəndən endirir. Sonra ayağı ayağına dolaşmadan tini burulmasına kömək eləyir. Yəqin, məktubu tikə-tikə eləməyə cəhd göstərməyin də heç faydası yoxdur, çünki ölümün məktubunu prinsipcə məhv etmək olmur. Hətta tam gücüylə işə saldığın qaynaq aparatı belə ona heç bir ziyan gətirə bilməz. Özünü bu məktubu təsadüfən əlindən salmış kimi göstərməklə də bir şeyə nail ola bilməzsən, çünki zərf yerə düşməyəcək, barmaqlarına yapışıbmış kimi əlində qalacaq, hər hansı bir möcüzə nəticəsində hətta düşsə belə, şübhə etmə ki, haradansa peyda olmuş xeyirxah birisi onu yerdən qaldıraraq özünü fərsizliyə vurmuş sənə yetişəcək və belə deyəcək: "Bu, deyəsən, sizindir, birdən lazımlı şey olar". Ona yalnız melanxolik bir cavab vermək qalacaq: "Hə-hə, lazımdır, çox sağ olun". Amma bütün bunlar lap əvvəllərdə baş verə bilərdi. Onda hələ çox az adam bilirdi ki, ölüm öz taleyüklü xəbərdarlıqlarını göndərmək üçün dövlətin poçt xidmətindən istifadə edir. Sonralar bənövşəyi çalar rənglərin ən mənfuru sayılırdı; hətta yas rəngi olan qaradan da pis. Amma bu, tamam aydın məsələ idi. Yadımıza salaq ki, yas paltarını dirilər geyir, ölülər yox, lakin bu, onların qara kostyumda dəfn olunmasına heç mane olmur. Və budur, işə gedən bir adamın rastına qəflətən zəngi heç vədə iki dəfə basmayan[1] poçtalyon qiyafəsində ölüm çıxarkən onun sarsıntısını, karıxmasını, dərin çaşqınlığını təsəvvürünüzə gətirin. Çünki o, əgər məktubun ünvanlandığı şəxslə

[1] Amerika yazıçısı Geyms Keynin (1892–1977) "Poçtalyon həmişə zəngi iki dəfə çalır" (1934) romanına işarə



rastlaşmasa belə, zərfi ya poçt qutusuna atmaq, ya da qapının altına itələmək bəs eləyir. Və daşa dönmüş insan küçənin ortasında özünün elə qabaqkı əla səhhəti ilə qalır və onun başı hətta təpəsinə endirilmiş bu namədən sonra belə ağrımır. O hiss edir ki, dünya daha onunku deyil, o isə dünyanın. İndi onları bir-birilərinə cəmi səkkiz günlük borc veriblər, hə, səkkiz gündən çox yox, bu barədə bənövşəyi çalarlı zərfi olan məktub xəbər gətirib – indicə müticəsinə açdığı, lakin göz yaşlarından dumanlanan baxışları bir-birinə qarışmış sətirlərini oxumağa hələ bir xeyli imkan verməyən məktub: "Hörmətli cənab filankəs, yazıb hüzn içində sizi xəbərdar edirəm ki, həyatınızın müddəti qəti və dönməz surətdə bir həftədən sonra başa çatır. Bu səbəbdən qalan vaxtdan mümkün qədər səmərəli istifadə etmənizi israrla tövsiyə eləyirəm, mükəmməl hörmətlə, ölüm".

İmza – kiçik hərflə qoyulub, biz isə bilirik ki, bu, bir növ, məktubun həqiqiliyinin sertifikatıdır. İnsan – məktubdaşıyan onu "cənab" adlandırmışdı, deməli, o, kişi cinsinə mənsubdur və biz də bunu elə bu dəqiqə təsdiqləyirik – bilmir ki, indi nə etsin. Evə qayıdıb bu labüd bəlanı əzizlərinin təpəsinə töksün, ya da əksinə, göz yaşlarını udaraq yoluna davam etsin, işinin onu gözlədiyi yerə getsin, bütün qalan günlərini işlə doldurub tam hüquqla soruşsun: "Ölüm, bəs sənin qələbən haradadır?" Özü də bilə-bilə ki, heç bir cavab almayacaq, çünki ölüm heç vaxt cavab vermir. Ona görə yox ki istəmir, sadəcə, insan dərdinin zirvəsiylə rastlaşdığından bilmir ki, nə desin.

Yalnız və istisna olaraq hamının bir-birini tanıdığı kiçik ölkədə mümkün olan bu küçə səhnəsi çox bariz şəkildə ona dəlalət edir ki, ölüm bizim həyat dediyimiz şeylə müvəqqəti müqaviləsini pozmaq xətrinə necə ağlasığmaz rabitə sistemi qurub. Bunu sadist qəddarlığının hər gün gördüyümüz növbəti nümunəsi, göstəricisi kimi qəbul etmək olardı. Amma gəlin razılaşaq ki, ölümə qəddar olmaq qətiyyən gərək deyil. Ona təkcə insanların həyatını almaq bəs edir. İnanın ki,

o heç bu fikirdə də deyildi. İndi, yeddiaylıq bikarçılıqdan sonra, özünün yardımçı xidmətlərinin yenidən qurulmasına başı necə lazımdır qarışıqkən, hətta tezliklə öləcəyi barədə xəbər almış kişi və qadının dodaqlarından qopan çarəsizlik və kədər iniltilərinə heç fikir də vermirdi. Onlar bəzən hələ gözlədiklərinə və planlaşdırdıqlarına rəğmən, əks effekt də verirlər: yoxluğa məhkum olunmuş adamlar öz dünyəvi işlərini qaydaya salmır, vəsiyyətnamə hazırlamır, cürbəcür borclarını bağlamır, doğmaları və qohumlarıyla vidalaşmağı da lap son ana saxlayırlar. Bu isə, təbii ki, bəs eləmir, axı qarşıda əbədi ayrılıq var. Qəzetlər "tale" deyəndə də hay verən ölümün təbiəti barədə, əslində, heç nə bilmədən, qəzəbli hücumlarıyla dəridən-qabıqdan çıxıb quduzluqdan lap əldən düşmüşdülər. Onu insafsız, qəddar, tiranik, şər imperatriçəsi, ətəkli Drakula, bəşər nəslinin düşməni, qatil, qaniçən, satqın, xain, bir də qatil – amma indi artıq silsilə qətllərin qatili adlandırırdılar. Həftəlik, əsas etibarilə yumor sahəsində ixtisaslaşan dərgi isə öz əməkdaşlarının yaradıcı təxəyyülünü tamam sümürüb əldən salandan sonra onu "alçaq" adlandıraraq söyürdü. Yaxşı ki, hələ bir neçə redaksiyada sağlam şüur üstün gəldi. Yüzündən biri – yox, ay kişi, sonadək qulaq asmadınız – krallığın ən yaşlı və ləyaqətli qəzetlərinin yüzündən biri özünün redaksiya məqaləsində ölümlə açıq və səmimi dialoqa başlamağa çağırırdı – söylənməmiş bir söz qoymayan dialoqa, qardaşyana duyğularla çulğanmış, ürəklərin hərarətiylə qızmış, əsl qəlb söhbətinə. Təbii ki, əgər onun yerini, yuvasını, mağarasını, mənzil-qərargahını və baş ofisini aydınlaşdırmaq mümkün olsa. Digər nüfuzlu bir orqan hüquq-mühafizə strukturlarına təklif edirdi ki, dəftərxana ləvazimatı mağazaları və kağız düzəldən fabriklərlə ciddi məşğul olsunlar. Çünki bənövşəyi rəngdə zərf və kağızı həmişə alan müştərilər – bələləri isə, yəqin, barmaqla sayılardı – yaxınlarda baş vermiş hadisələrin ucbatından, yəqin ki, öz zövqlərini artıq dəyişmişdilər. Deməli,



ehtiyatlarını zənginləşdirmək üçün gələn məktubbaz müştərini yaxalamaq çətin olmayacaq. İkincisinin qatı rəqibi olan üçüncü qəzet bu ideyanı görünməmiş sarsaqlıq nümunəsi adlandırmağa tələsdi, çünki belə bir şey yalnız klinik idiotun ağlına gələ bilərdi: "Bizim təsəvvürümüzdə olan ölüm – kəfənə bürünmüş skelet – daban sümüklərıylə daş döşənmiş yolu taqqıldada-taqqıldada öz ayaqlarıyla, şəxsən özü gedəcəkdi məktubu atmağa, yox bir".

Mətbuatdan geri qalmamağa çalışan televiziya daxili işlər nazirliyinə məsləhət verdi ki, poçt yeşiklərini nəzarətə götürsün, görünür, unutmuşdular ki, ilk belə məktub baş direktorun masasının üstündə sehrbazlıq nəticəsində peyda olmuşdu. Özü də kabinetin qapısı açarla iki dəfə bağlı idi, pəncərələrin şüşələrinə isə dəyən belə olmamışdı – salamat idi. Nə döşəmədə, nə tavanda, nə də ki divarlarda, heç olmasa, ülgüc tiyəsinin keçə biləcəyi bircə çat belə yox idi. Əlbəttə, yaxşı olardı ki, bədbəxt və məhkum insanlara mərhəmət göstərməyin vacibliyinə ölümü inandıra biləsən, amma bunun üçün əvvəlcə onu tapmaq lazım idi. Bunu necə edəydilər və onu harada axtaraydılar – kimsə bilmirdi.

Bax onda öz fəaliyyət çevrəsinə bilavasitə və bilvasitə aid olan bütün şeylərdən kifayət qədər baş çıxaran bir məhkəmə ekspertinin ağlına parlaq bir fikir gəldi – xaricdən kəllə sümüyünün fraqmentlərinə əsasən üzün görünüşünü bərpa eləyən məşhur bir mütəxəssis dəvət olunsun. Bu mütəxəssis qədim tablo və qravüralarda ölümün təsvirlərini araşdıraraq onlara əzələ və sair ət parçaları əlavə etməyə cəhd göstərsin, göz dəliklərinə göz qoysun, lazımi qədər və bəlli nisbətdə saç, qaşlar, kirpiklər əlavə etsin, dəri örtüyünə lazımi rəng versin və bir də görəcəksiniz ki, əlimizdə mükəmməl bir adam başı var. Onun fotoşəklini çəkərlər, şəkilləri çoxaldarlar və müstəntiqlər onu yanlarında gəzdirərlər ki, qadın cinsindən olan şübhəli şəxslərin görkəmiylə tutuşdursunlar. Mütəxəssis, həqiqətən də, gəlmişdi, lakin məsələnin pis



tərəfi o idi ki, əldə olan üç kəlləni yalnız təcrübəsiz bir gözün yiyəsi eyni sayardı, ona görə də bir fotoşəkillə deyil, eyni zamanda üçü ilə işləmək lazım oldu. Bu da "Ölüm ovu" kimi təmtəraqlı ad daşıyan əməliyyatın keçirilməsini çətinləşdirirdi. Amma bir məsələ öz təsdiqini tam şəksiz və şübhəsiz tapdı: nə ən primitiv ikonoqrafiya, nə ən dolaşıq nomenklatura, nə də ən dumanlı rəmzlər yanlış idi – ölüm, həqiqətən də, qadın imiş. Özünün bütün cizgiləri, səciyyəvi cəhət və xüsusiyyətləriylə. Maraqlıdır ki, məhz bu qənaətə, yəqin, xatırlayırsınız, həmin o məşhur, ölümün ilk məktubunu araşdıran qrafoloq da gəlmişdi. Çünki nəmədəki bütün fellər israrla qadın cinsində yazılırdı ki, bu da artıq kök salmış adətdən qaynaqlana bilərdi. Kim bilir, nədən kişi və orta cinsə üstünlük verən bir neçə və azsaylı dillərdən savayı, bütün dillərdə ölüm – qadın cinsindən olan bir fərddir.

Hə, beləliklə, artıq yuxarıda xatırlatdıqlarımızın unudulmaması üçün israrla təkrar etməliyik: üç gənc qadının sifəti bir-birindən tamam fərqlənirdi. Baxmayaraq ki, eyni zamanda, aşkar, gözlə görünən və şəksiz oxşarlıqları da vardı. Növbə ilə çalışan üç müxtəlif ölümün mövcudluğuna adamın inanmağı gəlmədiyindən ikisini mütləq çıxdaş eləmək lazım idi. Hərçənd, sanki, işi bir az da dolaşdırmaq üçün elə alına bilərdi ki, həqiqi və əsl ölümün skeletəbənzər modeli həmin o üç seçilmiş təsvirin heç birinə uyğun gəlməsin. Bütün bunları cəsarətlə ona bənzətmək olardı ki, qatı zülmətdə bir atəş açasan və xoşbəxt bir təsadüfün hədəfi düz güllənin trayektoriya xəttinə çıxaracağına ümid də eləyəsən.

Başlandı, çünki başqa cür ola da bilməzdi, istintaq dövlət şəxsiyyəti müəyyənetmə xidmətinin arxivlərində başlandı. O arxivlərdə ki, orada ölkənin bütün yerli və gəlmə əhalisinin şəkilləri toplanaraq əsas göstəricilər üzrə təsnif edilmişdi – dolixokefallar solda, braxikefallar sağda. Nəticələr adamın inamını tamam qırırdı. Bəlli məsələdir ki, kimsə qədim qravüra və rəngkarlıq əsərlərindən rekonstruksiya üçün

seçilmiş modellərin müasir, cəmi bir əsr öncədən başlayaraq tətbiq edilən şəxsiyyətin identifikasiyası sistemlərinin bazasında insanileşdirilmiş obrazlarına uyğun gələcəyinə əmin ola bilməzdi. Lakin digər tərəfdən nəzərə alınmalıydı ki, daim, zamanın lap başlanğıcından mövcud olan ölüm bu qədər müddət ərzində özünün xarici görünüşünü dəyişmək fikrinə düşə bilərdi. Odur ki onun öz vəzifəsini gizli şəraitdə tam həcmdə yerinə yetirməsi böyük çətinliklər yaradardı deyə, tamamilə məntiqi görünən fərziyyəni qəbul edək: o, böyük ehtimalla yalançı ad altında qeydiyyatdan keçmiş olmalıdır. Əgər ölüm üçün – biz ki bunu gözəl bilirik – mümkün olmayan heç nə yoxdursa. Lakin, hər halda, fakt faktlığında qalır: müstəntiqlər ən yeni informasiya texnologiyalarını köməyə çağırsalar da, məlumat bazasında qorunan heç bir fotoşəkli ölümün üç virtual təsviri ilə eyniləşdirə bilmədilər. Uyğun gəlmirdi. Artıq başqa yol qalmırdı – bu variantı qabaqcadan nəzərdə tutmuşdular – klassik axtarış metodlarına, polis ləpirçilərinin xidmətinə müraciət etmək, ölkənin hər tərəfinə bir legion, bir qoşun agent yollamaq lazım idi ki, onlar ev-ev, dükan-dükan, kontor-kontor, fabrik-fabrik, restoran-restoran, bar-bar gəzib, hətta ən bahalı seksual əyləncələr üçün nəzərdə tutulmuş yerlərə belə baş çəksinlər, yeniyetmə qızlardan və xeyli yaşı olan xanımlardan savayı, qadın cinsinin bütün nümayəndələrini yoxlasınlar. Çünki bu agentlərin ciblərindəki şəkil şübhə üçün heç bir yer qoymurdu ki, ölümə rast gəlmək qismət olsa, o, mütləq otuz altı yaşında, nadir gözəlliyə malik bir qadındır. Əldə olan nümunəyə əsaslansaq, bu meyarlara cavab verən istənilən qadın ölüm ola bilərdi. Lakin, əslində, onların heç biri məzkur xanım deyildi. Göstərilən səylərin həddi yox idi, nəticələr isə lap cılızdı: küçələrlə, yollar və cığırlarla neçə-neçə kilometrlər qət edərək, üst-üstə gələndə göyün yeddinci qatına yetişmək üçün bəs eləyən qədər pilləkən qalxıb, agentlər iki qadını eyniləşdirməyə nail oldular. Onlar arxivlərdə tapılmış

şəkillərdən yalnız onunla fərqlənirdilər ki, plastik cərrahiyyənin nəcib müdaxiləsindən istifadə etmişdilər. Bu əməliyyatlar təəccüblü və qəribə təsadüf nəticəsində qadınların rekonstruksiya olunmuş nümunənin cizgilərinə bənzərliyini bir az da dərinləşdirmişdi. Lakin bu xanımların tərcümeyihalının diqqətlə araşdırılmasının nəticələri onların nə vaxtsa peşəkar və ya həvəskar səviyyədə, hətta yalnız boş vaxtlarında olsa belə, ölüm mələyi peşəsinin icrası imkanını tam əminliklə istisna edirdi. O ki qaldı ailə albomundakı fotoşəklə əsasən şəxsiyyəti eyniləşdirilmiş üçüncü qadına, bu xanım da ötən il dünyasını dəyişmişdi. Sadə çıxdaş metodu ilə sübuta yetirmək mümkün oldu ki, bir müddət əvvəl qurbana çevrilmiş bir məxluq qətiyyən ölüm ola bilməz. Söyləmək artıqdır ki, istintaqın davam etdiyi bütün müddət ərzində – o isə bir neçə həftə davam elədi – bənövşəyi çalarlı nəmələr ünvanlarına yetişməkdə idi. Şübhə yoxdu ki, ölüm bəşəriyyət qarşısında öhdəliklərindən bir qarış da geri çəkilməmişdi.

Öz-özünə bir sual doğur: yəni hökumət ölkənin onmilyonluq əhalisinin hər gün yaşadığı dramın, sadəcə, ehtirassız seyri ilə kifayətlənirdi?

Birmənalı cavab vermək olmur. "Hə" deyəcəksən – düz çıxacaq, çünki ölüm əsl mahiyyətdə həyatın ən normal və bəsit xüsusiyyətidir, ən adi bir şey, ən azı, Adəmlə Həvvadan bəri davam edən övladların valideynləri əvəzləməsinə yönəlmiş bitib-tükənməz bir prosesdir. Bütün ölkələrin hakimiyyət dairələri kimsəsizlər evində ölən hər yoxsul qoca üçün üçgünlük matəm elan etmək fikrinə düşsəydilər, onsuz da, laxlayan ictimai asayişə əməlli-başlı pəl vurmuş olardılar. "Yox" deyəcəksən, yenə səhv etməzsən, çünki ölümün təyin etdiyi bir həftəlik intizarın getdikcə ümumxalq fəlakətinin cizgilərini qazanmasına daş ürək belə dözə bilməz. Özü də söhbət yalnız qəddar taleyin hər gün qapısını döydüyü həmin o üç yüz nəfərdən getmir, bütün qalan əhalidən də gedir.



Onlar isə nə az, nə azacıq – düz doqquz milyon doqquz yüz doxsan yeddi min müxtəlif yaşlı və müxtəlif vəziyyətdə olan, üzücü gecə kabuslarından sonra səhər-səhər oyananda başının üstündəki Damokl qılıncını aydın görən adam demək-dir. Həmin o bənövşəyiyə çalan məktubları almış üç yüz nəfərin hər biri bu rəhmsiz hökmə müxtəlif cür, öz xarakterlərinin cizgilərinə uyğun tərzdə reaksiya göstərirdi. Yuxarıda xatırlatdığımız, "ölümdənsonradanəvvəlki" neologizmi ilə adlandırılmağa tam hüquq verən kifayət qədər mənasız qisas eşqinə düşərək özünün vətəndaşlıq və ailə qarşısında borcuna tüpürmək qərarına gəlib, heç bir vəsiyyət qoymayan, xəzinəyə borcunu ödəməkdən vaz keçən personajlardan başqa, elələri də vardı ki, "hər günü dəyərləndir"[1] kimi klassik çağırışı tamamilə sərbəst yozaraq onlara buraxılmış qısa fürsəti hər cür qınağa layiq orgiyalarda spirtli içkilərdən keyləşib narkotikdən hallanaraq ən murdar pozğunluğa yuvarlanırdılar. Çox güman ki, bu ifratçılığın onlara zərbə vurub – ya tibbi mənada, ya da cəza şimşəyi anlamında – yerinə mıxlayacağına və bununla da ölümün caynaqlarından qopacağına, artıq onun olmayan burnunun ovulacağına ümid bağlayırdılar. Üçüncü qisim – özlərinə bəs deyincə hörmət edən mərd insanlar – özünəqəsdin mütləq radikallığını seçirdilər. Onlar da güman edirdilər ki, bu yolla ölüm ilahisinə gözəl davranış dərsi verəcəklər. Qədim zamanlarda "mənəvi şapalaq" adlandırılan bu anlayış keçmiş dönəmlərin ali niyyətlərinə uyğun olaraq istənilən fiziki təsirdən daha ağrılı sayılırdı. Demək artıqdır ki, yalnız ayrı-ayrı tərs insanların bütün digər özünəqəsd və evtanaziya cəhdləri fürsətin sonuncu günü həyata keçirdikləri üçün uğursuzluqla nəticələnirdi. Ölümün bu usta gedişinə heç bir cavab yox idi.

Həm xüsusi, həm də ümumi məişətdə çox geniş yayılmış abbreviaturalar əsrində yaşadığımızı gözəl anlayan Roma

[1] "Carpe diem" (*lat.*) – Roma şairi Kvint Horatsi Flakkın (65-13) "Birinci oda" kitabından ifadə

katolik apostol kilsəsinə layiq olduğu qiyməti vermək gərəkdir. Çünki o, sadə "rkak" ixtisarına qəzəblənmirdi. Ona görə ki, camaatın mənəvi durumunun vəziyyətini ilk olaraq kilsə tam aydınlığı ilə dəyərləndirə bilmişdi. Lakin hər gün ümid və təsəlli sözləri eşidərək qəlbinə məlhəm ola biəcək mənəvi analgetik və trankvilizator payını almaq niyyətiylə məbədləri dolduran insan kütlələrini yalnız kor görməyə bilərdi. Həmin dönəmlərə kimi şüurunda ölümün danılmaz həqiqət olduğu, ondan qaçmağın imkansızlığı barədə inancla yaşamış və bununla yanaşı, bir belə adamın heçliyin astanasında dayandığı halda püşkün məhz ona düşməsi ehtimalının cüziliyinə bel bağlayan insanlar, indi pərdənin arxasında gizlənərək pəncərədən boylanırdılar: "Görəsən, poçtalyon görünmür ki?" Ya da işdən evə qayıdarkən tir-tir əsirdilər, çünki qapılarının arxasından qana susayan dəhşətli həyula kimi ağzını geniş açmış, yox-yox, ondan lap yüz dəfə qorxunc bir zad – tükürpədici bənövşəyi zərf qəflətən üstlərinə atıla bilərdi. Kilsələrdə tövbə etmək istəyən günahkarların daim və durmadan təzələndiyindən konveyeri xatırladan uzun səfi mərkəzi zalın başına indi artıq iki dəfə dolanırdı. Tövbəni qəbul edən ruhanilər dinclik bilmədən çalışır, hərdən yorğunluqdan fikirləri dağılır, bəzən də hansısa şirin-şəhvətli detallara QULAQ şəkləyirdilər. Sonra isə uzun-uzadı ibadətlər və pəhrizdən ibarət cəzaların, epitimyanın sadələşdirilmiş normalarını təyin edir – neçə dəfə müqəddəs ata, neçə dəfə iman duasını oxumaq – və tövbə üçün gələnlərin günahlarını tələsik bağışlayırdılar. Tövbə edənin birinin getməyi ilə o birisinin dizini qatlaması arasındakı qısa fürsətdə isə dişlərini toyuq sendviçinə sancıb bircə dişləm qopara bilərək – bu da onların naharı – mükafatlarını şam yeməyində alacaqlarına ümid edirdilər. Moizələr mütləq ölüm mövzusu ətrafında gərdiş edirdi – ilahi səltənətin hələ heç kəsə diriykən keçmək nəsib olmayan yeganə darvazası və minbərdəki təsəllipaylayanlar nə ən yüksək ritorikanın fəndlərindən, nə



də ən primitiv katexizisin kələklərindən çəkinməyərək səksəkədə olan möminlərə təlqin edirdilər ki, məhz onlar özlərini bütün əcdadlarından daha xoşbəxt saya bilərlər. Çünki ölüm bu insanların ruhunun cənnət bağına yüksəlməsi üçün hazırlığa kifayət qədər fürsət verib. Lakin ruhanilər arasında elələri də vardı ki, tövbə otağının ağır havalı alatoranında kilidlənib canını sarmış dəhşəti zorla cilovlaya bilirdi. Bir Tanrı bilir ki, bu, onlara nəyin bahasına tamam olurdu. Çünki həmin səhər özləri də bənövşəyi konvert almışdılar və təsəlliverici sözlərinin kifayət qədər kəsərli olacağına şübhə ilə yanaşmaq üçün əllərində bəs deyincə əsasları vardı.

Elə səhiyyə nazirliyinin kilsədən nümunə götürərək ruhun şəfa tapmasıyla məşğul olan, ən çıxılmaz vəziyyətdə olanlara yardım üçün göndərilən psixiatrların da başına bənzər hadisələr gəlirdi. Hər hansı bir psixoterapevtin pasiyentə ruhi əzabları yüngülləşdirmək üçün ağlamaqdan gözəl vasitə olmadığını söyləyərək göz yaşlarını saxlamağı məsləhət görmədiyi anlarda qəflətən sabah səhər poçtalyonun yenə də küçələrə çıxıb məktub paylayacağını və onun özünün də bənövşəyi zərf ala biləcəyi ehtimalının mövcudluğunu xatırlayıb uçuna-uçuna hönkürtü çəkməsi də az olmurdu. Müalicə seansı onunla bitirdi ki, həkim və pasiyent eyni bəlanın əzabına düçar olaraq qucaqlaşıb ağlaşırdılar. Lakin birincisi mütləq fikirləşirdi ki, əgər başına bu böyük bəla gəlsə belə, ehtiyatda hələ səkkiz günlük – yüz doxsan iki saatlıq həyatı var. Həkim eşitmişdi ki, bəziləri o dünyaya keçidi asanlaşdırmaq üçün cürbəcür narkotik, araq və pozğunluqlarla dolu yığıncaqlar təşkil edirlər, hərçənd ki bunun da bir riski vardı – belə vida məclislərindən sonra o dünyalıq olsan, lap çox darıxarsan.

* * *

İstisnasız qayda olmur, bunu müdrik xalq deyir və görünür, bu, həqiqətən, elədir. Hətta qanunlarını yekdilliklə

sarsılmaz saydığımız, istisnaların prinsipcə ağlasığmaz və imkansız olduğu hallarda belə. Məsələn, ali ölüm səltənətində bir dəfə bənövşəyi məktublardan biri ünvanlandığı şəxsə çatmayaraq aidiyyəti üzrə onu yollayanın üstünə qayıtmışdı. Bizə etiraz edərək deyəcəklər ki, bu, qətiyyən mümkün olan bir iş deyil və ölüm eyni zamanda hər yerdə olduğundan bir konkret məkanda ola bilməz. Bundan isə belə çıxır ki – meyitdən yox ee, tezisdən belə çıxır – bu, mütləq mənada qeyri-mümkün bir şeydir. Həm maddi, həm metafizik anlamda. Daha doğrusu, söhbət həmin məktubun aidiyyətini təyin və təsbit etməkdən, ya da bizim mövzuya bir az da yaxın durmaq istəsək, bənövşəyi məktubu yollayanın ünvanının tapılmasından gedir. Və bizə bir də etiraz edəcəklər ki – lakin bu dəfə elə böyük əminliklə yox – necə oldu, ölkə ərazisini əməlli-başlı ələk-vələk eləyən, bütün əyalətləri ev-ev gəzərək neçə həftədən bəri axtaran minlərlə agentin səylərinə rəğmən, zirək və ələkeçməz birəyə, ya da xırda bitə dönmüş ölümdən heç xəbər-ətər çıxmadı. Tamamilə şəksiz qənaət budur ki, əgər indiyə kimi bizə heç kəs ölümün məktubunun poçta necə düşməsi barədə izahat verməyibsə, ünvanına yetişməyən məktubun hansı sirli yollarla geriyə – onu yollayana, yəni həmin o ölümün şəxsən özünə qayıtdığını da söyləyən olmayacaq. Müticəsinə etiraf edək ki, bunun və bir çox başqa şeylərin izahı, əslində, yoxdur və biz bu izahı onu bizdən istəyənlərə vermək iqtidarında deyilik. Təkcə oxucunun sadəlövhlüyündən sui-istifadə edib hadisələrin məntiqinə bəsləməli olduğumuz hörmətin üzərindən adlayaraq süjetin həqiqi irreallığına təzə yalanlar calaya bilərik ki, bunun da hadisələrin həqiqətini əhəmiyyətli dərəcədə zəiflədəcəyini tam olaraq dərk edirik. Hərçənd yuxarıda dediklərimizin mənası qətiyyən bu deyil. Təkrar edək: bu deyil ki, yuxarıda adı çəkilən bənövşəyi zərfli məktub onu göndərənə müvəffəqiyyətlə qaytarılmayıb. Onsuz da, faktlar öz-özlüyündə yaman tərs şeylərdir, bu fakt isə, üstəlik, hələ təkzibedil-



məzlər sırasındadır. Buna ölümün daim gözlərimiz önündə olan obrazından – öz mələfəsinə bürünərək kətilin üstündə oturmuş, sümüklərinin kəlləsinin düzülüşündən tam çaşqınlıq içində olduğu bəlli obrazından – gözəl sübut yoxdur. O halda əlindəki zərfi çaşqın şəkildə o üz-bu üzünə çevirərək belə vəziyyətlərdə poçtalyonların qoyduğu qeydləri tapmağa çalışır – qəbul etməkdən imtina; yaşayış yeri dəyişib; adresat qeyri-müəyyən müddətə və naməlum istiqamətə yollanıb; adresat dünyasını dəyişdiyi üçün məktub çatdırılmayıb – və mızıldanır: "Bu nə sayıqlamadır, əgər onu öldürməli olan bu məktub üstümə qayıdırsa, hansı ölümdən söhbət gedə bilər?" Sonuncu kəlmələr beynindən qeyri-iradi keçib-gedəcəkdi, amma o qoymadı, yapışıb qaytardı və artıq ucadan təkrar elədi, özü də xəyalpərvər bir ahənglə: "Mənim üstümə qayıtdı".

"Geri qayıtdı" ilə "qaytarıldı" ifadələrinin arasındakı fərqi anlamaq üçün poçtalyon olmaq lazım deyil, çünki bu yalnız o anlamdadır ki, bənövşəyi məktubun ünvanına çatmasını əngəlləyən, səfərinin hansı mərhələsindəsə onu geri dönərək başlanğıc nöqtəsinə qayıtmağa məcbur eləyən nəsə baş verib. Amma məktubları kimlərsə daşıyır, onlar özü yerimir ki... Ona görə yox ki nə ayaqları, nə qanadları var, həm də onun üçün ki, şəxsi təşəbbüsdən tam məhrumdurlar, yoxsa qeyri-ixtiyari daşıdıqları dəhşətli xəbərləri çatdırmaqdan imtina edərdilər.

Bax, məsələn, bu məktubun özü kimi. Ölüm bunu bütün qərəzsizliyiylə etiraf etmək zorundadır, çünki kiminsə filan günün filan saatında öləcəyi haqda xəbər xəbərlərin ən pisidir, bu elə, kim bilir, neçə illər ölüm kamerasında qalmaq və günlərin birində öz qarşında kameraya girərək bu sözləri deyən nəzarətçini görmək kimi bir şeydir: "Burada sənə məktub gəlib, odur ki qalx, vaxtdır".

Maraqlıdır ki, sonuncu partiyadan olan bütün məktublar ünvanlarına çatmışdı, təkcə bu boşa çıxmışdısa, deməli, ortada

qabaqcadan nəzərə almaq mümkün olmayan bir təsadüf vardı. Lap bir məhəbbət məktubunun – ilahi bilir, bunun nəticəsi nə olmuşdu – iki tin o tərəfdə, yəni piyada on beş dəqiqədən də az məsafədə yaşayan bir şəxsin ünvanına beş il sonra çatması kimi. Ola bilərdi ki, zərf transportyorun bir lentindən o birisinə düşmüşdü, bunu da kimsə görməmişdi deyə səfərinin başlanğıc nöqtəsinə qayıtmışdı. Lap səhrada azan birisinin yalnız özünün qoyduğu izlərə güvənə bildiyi kimi.

"Nə etməli, bircə çıxış yolu var – ikinci dəfə göndərmək", – deyə ölüm, yanında bəyaz divara söykədiyi dəryazına müraciətlə dedi. Dəryazdan cavab gözləməyə dəyməz – burada artıq normal əmək alətindən söhbət gedir. "Əgər mən, – ölüm sözünə davam edirdi, – tələsik qərar verməyə həvəskar olan səni yollasaydım, iş bitmişdi artıq, amma, özün başa düşürsən də, son zamanlar dövran yaman dəyişib, biz də yeni cərəyanların və təmayüllərin səviyyəsində olmalıyıq, təzə texnoloji araşdırmaların nəticələrindən bəhrələnməliyik, məsələn, elektron poçtdan istifadə etməliyik – mən eşitmişəm ki, bu ən gigiyenik rabitə vasitəsidir: nə kağıza ləkə salırsan, nə də barmaqlarını mürəkkəbə batırırsan və bir də yaman sürətlidir bu poçt. Adam özünün outlok ekspresini açmağa macal tapmır ki, məktub, demək olar, artıq əlindədir, bircə burası pisdir ki, onda iki arxiv aparası olardım: biri bilgisayardan istifadə edə bilənlər üçün, ikincisi – bilməyənlər üçün. İstənilən halda bizim hələ vaxtımız var, indi dalbadal yeni, daha təkmilləşmiş modellər çıxır, bəlkə, nə vaxtsa mən də sınadım, hələlikisə dədə-babadan necə olub, elə də yazacam; qələmi batır mürəkkəbə, kağızın üstündə döşə getsin. Bunun da ənənəvi bir gözəlliyi var, ölüm işində də ənənə çox mühüm şeydir, özü də xeyli qiyməti var".

Ölüm bənövşəyi zərfə diqqətlə nəzər saldı, sağ əlinin bircə hərəkəti – məktub yox oldu. Deməli, biz də artıq bilirik ki, çox geniş yayılmış rəyə rəğmən, ölüm öz məktublarını poçta özü aparmır.



Masanın üstündə iki yüz doxsan səkkiz addan ibarət siyahı var, daha doğrusu, orta göstəricidən bir az aşağı, yüz əlli iki kişi, yüz qırx altı qadın, eyni sayda zərf və bənövşəyi çalarlı poçt kağızı. Bütün bunlar da qarşıdakı əməliyyat, poçtla ölüm əməliyyatı üçün nəzərdə tutulub. Ölüm siyahıya məktubu qayıtmış adamın adını əlavə etdi, onun altından qoşa xətt çəkib, qələmini qələmdana qoydu. Əgər onun əsəbləri olsaydı, biz deyə bilərdik ki, bir az gərgin dəyir gözə – bunun əsası vardı. Məktubunun qayıtmasını əhəmiyyətsiz bir şey saya bilmək üçün o, yer üzündə lazım olandan xeyli artıq yaşamışdı. Bir balaca təxəyyülün olsa, asanlıqla anlayarsan ki, Tanrının günahı ucbatından Qabil Habili qətlə yetirəndən bəri onun nə qədər işi olubsa, hamısı çox yeknəsəqdir. Bir ailədə yaşamağın nə qədər çətin olduğunu göstərən, bəşər dönəminin lap başlanğıcında baş vermiş bu kədərli hadisədən düz bizim günlərə kimi, əsrdən-əsrə, ildən-ilə, gündən-günə o, eyni işi görməkdədir. Nə nəfəsini dərir, nə fasilə bilir, nə ara verir, daim də ölümdən ölümə aparmağın yeni-yeni üsullarını arayır. Lakin mahiyyətcə hamısı birdir: nə edirsə, özündən fərqlənmir və nəticəsi də eyni olur. Düzünü desək, hələ görünməyib ki, ölməli olan adam ölməsin. İndi isə ölümün öz əliylə yazdığı və onun adıyla imzalanmış, sonun yetişməkdə olduğunu və daha fürsət verilməyəcəyini rəhmsizcəsinə çatdıran xəbərdarlıq böyük bir həyasızlıq nəticəsində mənbəyinə dönmüşdü – bu soyuq otağa, otaqda isə məktubun müəllifi özünün melanxolik kəfəninə, əsrlərin sınağından çıxmış xidməti geyiminə bürünərək oturub ya sümüklü barmaqlarını, ya da barmaqlı sümüklərini masanın üstünə taqqıldada-taqqıldada döyəcləyir və bu olay haqda düşünürdü. Bir az qəribədir, amma o istəyir ki, ikinci dəfə göndərdiyi məktub da geri qayıtsın və zərfin üstündə, məsələn, belə bir qeyd yazılsın: "Adresat naməlum istiqamətdə yola düşüb". Bax onda bizim nə vaxtsa uşaqlıq eləyib aradan çıxmaq istəyəndə gizləndiyimiz yeri daim səhvsiz

tapan ölüm indi, həqiqətən, heyrətə gələrdi. Lakin ölüm zərfin arxasında adresatın yerində olmadığı barədə qeyd yazılacağına inanmırdı, çünki onun məlumat bankı bizlərin istənilən hərəkəti nəticəsində avtomatik olaraq yenilənir. Hər addımımızı qeydə alır, mənzilin, ölkənin, peşənin, adət və vərdişlərin, siqaret çəkir, yoxsa yox, çox yeyir, yoxsa az, ya bəlkə, heç yemir, işgüzardır, yoxsa tənbəllik üçün ölür, başı ağrıyır, yoxsa mədə xorası var, qarnı qəbiz olur, ya əksinə, daim pozulur, keçəlliyə meyillidirmi, bəlkə, xərçəngin çəngindədir... Bütün bu "hə", "yox", "mümkündür" cavablarını öyrənmək üçün – kartotekanın əlaqədar yeşiyini çəkmək kifayətdir ki, lazımi formulyarı tapasan, vəssəlam. Və əgər öz dosyemizi oxumağa başımız qarışan dəm orada rast gəldiyimiz bir yazıdan adamı donduran bir kədər bizim bütün vücudumuzu daşa döndərsə, təəccüblənməyin yeri yoxdur. Ölüm bizim barəmizdə hər şeyi bilir və bəlkə, elə ona görə bu qədər kədərlidir. Əgər o, həqiqətən, heç vaxt gülümsünmürsə, bu, qətiyyən o səbəbdən deyil ki, təbəssümünü göstərəsi bir şey yoxdur. Bunu bizə anatomiya dərsi öyrədir: canlıların rəyinə baxmayaraq, təbəssüm dişlərin olub-olmamasından asılı deyil. Bəziləri deyəcəklər – qəbiristan yumoruyla yox, sadəcə, şübhəli zövqə söykənən yumorla – onun üzündə daimi, sanki, saxta bir təbəssüm var. Amma bu, belə deyil. Bu, təbəssüm deyil, əzabkeş mimikasıdır, çünki ağıza, içindəki dilə, dilin üstündə tüpürcəyə malik olduğu zamanın xatirələri onu qarabaqara izləyir. Budur, yüngülcə köks ötürüb vərəqi qarşısına çəkdi və bu gün ərzində ilk məktubunu yazmağa başladı: "Çox hörmətli filankəs xanım, dərin təəssüf hissi ilə sizi xəbərdar edirəm ki, həyatınızın müddəti bir həftədən sonra amansızcasına bitir və qalan müddətdən mümkün qədər yaxşı istifadə etmənizi arzulayıram, mükəmməl hörmətlə, ölüm".

İki yüz doxsan səkkiz vərəq, iki yüz doxsan səkkiz zərf, siyahıdan silinən iki yüz doxsan səkkiz ad. İşinin çox ağır



olduğunu söyləyə bilməzsən, lakin onu başa çatdıran ölüm özünü lap əldən düşmüş hiss edir. Sağ əlinin artıq bizə tanış olan bircə hərəkətiylə iki yüz doxsan səkkiz məktubu yoxa çıxmağa məcbur edir, sonra isə cismsiz əllərini masanın üzərinə qoyub başını qolları üstə endirir, amma onun üçün yox ki yuxuya getsin. Ölüm heç vaxt yatmır, sadəcə, dincəlmək üçün. Yarım saatdan sonra yorğunluğunu toxtadıb başını qaldıranda ikinci dəfə yolladığı məktubun yenə qayıdaraq düz qarşısında peyda olmasına boş göz oyuqlarının heyrətə gəlmiş ifadəsiylə baxdı.

Əgər ölüm ürəkbulandırıcı yeknəsəqlikdə onu əyləndirə biləcək hər hansı sürprizə ümid bağlayırdısa, deməli, artıq arzuladığını tapmışdı. Sürpriz budur, özü də ən gözəli.

Birinci məktubun çatmaması sistemdəki texniki pozuntu, ya da sürtgü yağının aşağı keyfiyyətindən, bəlkə də, səmavi rəngdə bir məktubun ünvana yetişməyə çox can atdığından sıçrayıb irəli çıxması ilə əlaqədar idi. Əşi, maşının içində nə desən ola bilər – lap insan bədəni kimi. Bir də görürsən ən dəqiq hesablamaları belə kəllə-mayallaq eləyir. Lakin sistemin ikinci yanlışı tamam başqa şeydir. O, aydın göstərir ki, məktubun ünvanlandığı adamın evinə aparan yolun hansı qismindəsə maneə rolunu oynayan bir şey var və onunla toqquşan konvert sapdırma nəticəsində geri uçur. Birinci hadisə zamanı, əgər yadımıza salsaq, məktub bir gün sonra qayıtmışdı deyə, elə güman etmək olardı ki, poçtalyon alıcını evdə tapmayaraq naməni poçt qutusuna, ya da qapının altına soxmaq əvəzinə, geri dönmə səbəbini göstərməyi unudub, onu yollayana qaytarmışdı. Əlbəttə, burada ehtimallar həddən ziyadədir, amma, hər halda, baş verənlərin izahı da ola bilər. Amma bu həna o hənadan deyil. Göndərilmə ilə geridönmə arasında yarım saatdan artıq vaxt ötməmişdi, bəlkə, hələ ondan daha az – əgər xatırlasaq ki, ölüm öz başını köndələninə üst-üstə qoyulmuş bazu sümüklərinin sərt balışından qaldıranda o artıq masanın üstündə idi. Yox-yox, sanki,

hansısa yad, mübhəm, ağlasığmaz bir qüvvə bu insanın ölümünə mane olur, baxmayaraq ki onun tarixi, bütün bəşər övladlarında olduğu kimi anadan olduğu gündən təyin edilib. "Bu mümkünsüzdür axı, – deyə ölüm lal dəryaza müraciət elədi, – bütün dünyada və onun hüdudlarından kənarda heç kəsin bu sahədə məndən artıq hakimiyyəti yoxdur və olmayacaq, mən ölüməm, qalan hər nə varsa, bir heçdir".

O, kətildən qalxıb kartotekaya yaxınlaşdı və əlində şübhəli bir formulyarla qayıtdı. Hə, heç şübhəsiz, bu idi axtardığı: ad zərfin üstündə olanla eyni idi, ünvan da, peşəsi – violonçelçalan, ailə vəziyyəti – xətt çəkilib, yəni – evli, dul, boşanmış deyil; çünki ölümün formulyarlarında "subay" yazılmır. Uşaq anadan olarkən onun üçün tərtib olunan kataloq kartında hara meyillənəcəyini özü belə bilmədən ailə vəziyyəti qrafasında – "subay" yazmaqla misilsiz sarsaqlığa yol vermiş olardılar. O ki qaldı ölümün ovcunda sıxılmış formulyardakı yaşa, orada qırx doqquz yazılıb. Və əgər bundan sonra da arxiv xidmətlərinin qüsursuz işinə sübut lazım olsa, onu biz elə həmin dəqiqə alacağıq – saniyənin ondabiri ərzində. Düz bizim təəccübdən donbalmış gözlərimizin önündə dörd və doqquz rəqəmləri beş və sıfırla əvəz olundu. Deməli, violonçelçalanın bu gün ad günüdür, bu münasibətlə isə ona bir həftədən sonra baş tutacaq ölümünün xəbərdarlığını yox, gül-çiçək yollamaq gərək idi. Ölüm yenə yerindən qalxıb otaqda var-gəl eləməyə başladı, iki dəfə dəryazın qarşısında dayanaraq ağzını elə açırdı, sanki, onunla danışmaq, rəyini öyrənmək, nəsə tapşırıq vermək, ya da, sadəcə, xəbərdar etmək istəyirdi ki, çaşbaş qalıb. Əgər xatırlasaq ki, öz peşəsiylə məşğul olduğu bütün müddət ərzində bu günədək bir dəfə də olsun külli-ixtiyar çobanı olduğu və olacağı insan sürüsü tərəfindən özünə qarşı ən kiçik sayğısızlıq belə hiss etməyib, bunda qəribə bir şey yoxdur. Elə həmin an ürəyinə çox kədərli bir şey damdı – bu hadisə lap əvvəlcə onun gözünə göründüyündən çox-çox



ciddi ola bilərdi. Yenə masa arxasına keçərək son səkkiz günün ölüm siyahılarını vərəqləməyə başladı. Elə ilk səhifədə, yəni dünənkində gördü ki, violonçelçalanın adı yoxdur. O, vərəqləməkdə davam edirdi, ikincisi, sonra o biri, ardınca da bir-bir və nəhayət, axtardığını səkkizinci siyahıda tapdı. Deməli, onun adını dünənki siyahıda nahaqdan gəzirdi və o artıq görünməmiş bir skandalla üz-üzə idi: iki gündür ölməli olan birisi hələ də sağdır. Məsələ heç bunda da deyildi. Alnına, nisbətən cavan, cəmi qırx doqquz yaşında ölmək yazılan violonçelçalan zalım oğlu həyasızcasına əlli yaşına çatmışdı ki, bununla da taleyini, nəsibini, qismətini, alın yazısını, qoroskopunu və insanın yaşamaq arzusunu bütün mümkün və qeyri-mümkün üsullarla puça çıxarmağa borclu olan digər şeylərin hamısını tapdalayaraq onu aşkar istehza obyektinə çevirmişdi. Bu, həqiqətən də, tam diskreditasiya idi.

"Maraqlıdır, bilmək istərdim ki, görəsən, indi bu çıxığı mən necə yerinə salmalıyam, axı bu heç baş verməyə də bilərdi – bu çağadək heç bir presedent olmamışdı, çünki nizamnamə və məsləhət kitablarında bunu lap uzaqdan-uzağa xatırladan heç nə nəzərdə tutulmamışdı". İndi ölüm bütün bunları özündən sorurdu, əsas məsələ də bu idi ki, violonçelçalan düz qırx doqquz yaşında ölməliydi, heç bir vəchlə əlli yox. Aydın və əyan idi ki, biçarə ölüm tam çaşqınlıq içindədir, o dərəcədə karıxıb ki, elə indicə çarəsizlikdən başını daş-divara döyməyə başlayacaq. Bu neçə minillik fasiləsiz fəaliyyəti ərzində belə əməliyyat uğursuzluğuna düçar olmamışdı. İşə bax ki, özü də məhz indi – öləri insanların tək və təkrarolunmaz *causa mortis*-lə münasibətlərinin klassik sxeminə gətirdiyi bəzi yeniliklərdən sonra çətinliklə qazanılmış etibarına qədər bir zərbə endirilmişdi. "Yaxşı, bəs nə edim, – deyə sorurdu, – axı təsəvvür etsəniz ki, o, ölməli olduğu halda ölməyib və bu minvalla mənim nüfuz dairəmdən kənara çıxıb, nə məsləhət görərdiniz? Bu kal armudu indi mən necə udum?"

Ölüm dəryaza – özünün sədaqətli rəfiqəsinə və saysız-hesabsız qanlı haqq-hesab çürütmələrinin vacib iştirakçısına nəzər saldı. Amma o, özünü elə göstərdi ki, guya, heç nə anlamır. O, ümumiyyətlə, susmağa üstünlük verirdi, indi isə görkəmindən lap biganəlik və bütün dünyaya ikrah yağırdı. Ovxarı getmiş, dilik-dilik olmuş, pas atmış tiyəsi ağ divarın üstündə dincəlirdi. Bu yerdə ölümün ağlına bir şey gəldi. Belə bir ifadə var, deyirlər ki, harada biri var, o birisi də olacaq, ardınca da mütləq üçüncüsü, çünki atalar üçdən deyib, gəlin biz də baxaq görək, həqiqətən, belədirmi. O, sağ əliylə vidalaşırmış kimi işarə elədi və iki dəfə qayıtmış məktub yenə yox oldu. Lakin üstündən heç iki dəqiqə keçmədi ki, təzədən masa üzərində idi. Poçtalyon nə aşağıda zəngi basdı, nə də konverti qapının deşiyindən atdı, amma məktub artıq burada idi.

Məlum məsələdir, adamın ölümə yazığı gəlməz. Bizim ondan narazılığımız həddən artıq çox və əsaslı idi deyə indi onun halına acımaq doğru olmazdı, o özü bizə nə vaxt mərhəmət göstərib ki, nazımızla nə vaxt oynayıb ki?! Onun məqsədinə həmişə necə üzücü və öldürücü bir israrla, nəyin bahasına olur-olsun, çatdığını özündən yaxşı bilən yox idi. Amma, hər halda, lap bir anlıq belə olsa, hər halda, qarşımızdakı fiqur indi çıxılmazlığın alleqorik heykəlinə bənzəyirdi. İti gözləri olan can verənlərə inansaq, vaxt bitənə yaxın çarpayımızın ayağında peyda olan və əlinin həmin o məktub yollayan hərəkətinə bənzər bir işarəsiylə bizi qandıran məşum məxluqa yazığımız gələrdi. Onun bu işarəsi o birisinin tərs üzüdür: yəni getmə, bəri gəl. Real və yaxud beyinin yaratdığı mübhəm bir optik effektin nəticəsində ölüm gerçək olandan çox kiçik və zəif görünür: sanki, sümük qaməti yığılıb. Hərçənd mümkündür ki, o elə həmişə bu boyda olub və yalnız qorxunun hədəqədən çıxan, həmişə böyümüş gözlərində əzəmətli görünürmüş. Biçarə ölüm. Hətta adam istəyir əlini onun sümüklü çiyninə qoyub qulağına, daha doğrusu, əmgək sümüyündən azacıq aşağıya, qabaqlar qulaq yerləşən



nöqtəyə mehriban sözlər pıçıldasın: "Ölüm xanım, özünüzü öldürməyin, hadisədi də, oldu qurtardı, bizim yerlərdə, bizdə, yəni adamlarda o qədər uğursuz, iflasa uğramış, peşmançılıq gətirən işlərin təcrübəsi toplanıb ki, gəl görəsən. Amma biz heç əlimizi yanımıza sallayıb durmuruq və yaxşısı budur, keçmiş, daha yaxşı dönəmləri xatırlayın. Bizləri gənc yaşında necə biçdiyinizi xatırlayın, lap bu yaxın zamanları, indinin özünü yadınıza salın. Yaşamaq üçün vacib olan hər şeydən məhrum insanlarla necə qəddar davranırsınız və istisna etmək olmaz ki, indi kimin daha tez əldən düşəcəyinə tamaşa eləmək əyyamıdır. Siz düşəcəksiniz, xanım, yoxsa biz?! Bunu da dərk edirik ki, sizin içinizdən bu an nələr keçir. İlk məğlubiyyət həmişə ən ağırıdır. Tanrı qismət eləsin, sonuncusu olmasın, yavaş-yavaş öyrəşəcək, dözəcəksiniz. İnanın ki, bunu qisas almaq üçün söyləmirəm, çox səfeh qisas olardı bu, təxminən, boynunu vurmağa hazırlaşan cəllada dil göstərmək kimi çıxardı. Odur ki mənim üçün yaman maraqlıdır, görəsən, irəli-geri gedən bu məktub problemindən, artıq əlli yaşı tamam olduğu üçün qırx doqquz yaşında ölə bilməyən violonçelçalanın pazından necə qurtaracaqsınız?"

Ölüm dostyana şəfqətlə qoyduğumuz əli çiynindən hövsələsiz bir hərəkətlə silkələnərək atıb ayağa qalxdı. İndi o, yenə daha böyük, daha uca görünürdü, nə istəyirsiniz, külli-ixtiyar bir xanımdır, yeriyəndə çiyinlərindən sallanan kəfənin yeli yer üzündən tozu qasırğa kimi qaldırır, addımlarından isə torpaq titrəyir. Ölüm hirslənib və indi ona dil göstərməyin əsl vaxtıdır.

Yuxarıda xatırlatdığımız, gözləri xüsusilə iti olan can verənlərin öz yataqlarının yanında bəyaza bürünmüş klassik kabusu, ya da Prustun[1] başına gələn kimi, qara paltarlı kök qadını görə bilmələri nadir istisnalardan idi. Ölüm, adətən, çox böyük təvazösü ilə fərqlənir və özünün gəlişini heç gözə soxmaq istəmir. Xüsusilə də, əgər vəziyyət onu küçəyə çıxmağa vadar edirsə. Ümumiyyətlə, belə bir təsəvvür var ki,

[1] *Marsel Prust* (1871-1922) – fransız yazıçısı

arxa tərəfi ölüm olan sikkənin bəri üzü Tanrıdır və onların hər ikisi gözəgörünməzdir. Bu, qismən belədir. Ölümün ağ mələfəyə bürünmüş skelet olmasının, onun köhnə, paslı, suallara cavab verməyən dəryazla bir yerdə, ağardılmış divarlarının arasında, içi formulyarla ağzına kimi dolu böyük çəkməcələri olan onlarca üstünü hörümçək toru örtmüş rəf düzülmüş soyuq otaqda yaşamasının inandırıcı şahidləri bizik. Deməli, aydındır ki, ölüm insanların arasında belə idimsiz görünmək istəməz. Əvvəla, sırf estetik baxımdan, ikincisi isə, məsələn, tini burulan yazıq yolçuların onun nəhəng göz oyuqlarını qəflətən görərkən yerlərində donmaması üçün. Odur ki ölüm adam çox olan yerdə yalnız gözəgörünməz olur və bu faktı böhran anında yazıçı Marsel Prust və digər gözdən iti ölməkdə olanlar təsdiq edə bilmişdilər. Tanrının məsələsi isə tamam başqadır. O, nə qədər çalışsa da, bəşər övladının heç vaxt gözünə görünə bilməyib – ona görə yox ki bacarmayıb, zira, bizə bəllidir, ilahi üçün qeyri-mümkün bir şey yoxdur. Sadəcə, ona görə ki, əfkari-ümumun qəbul etdiyi kimi, onun yaratdığı məxluqların qarşısına hansı görkəmdə çıxacağını bilmirdi. Çünki onları tanımayacağının, ya da – bu, yəqin, daha pis variantdır – adamların onu tanımayacağının ehtimalı böyük idi. Bəziləri Tanrının bizim gözümüzə burada görünmək istəməməsini böyük uğur sayır, çünki o halda bizi bürüyəcək dəhşətin müqabilində ölüm qorxusu uşaq oyuncağına dönərdi. Hər necə olsa da, Tanrı ilə ölümdən nə danışsalar da – hamısı yalan-palandan başqa bir şey deyil və bizim əhvalat da onlardan yalnız biridir.

Ölüm isə şəhərə yollanmaq qərarına gəldi. Bütün paltarını taşkil edən mələfəsini çıxardı, səliqəylə büküb, gördüyümüz kimi, bayaq özünün oturduğu stulun söykənəcəyindən asdı. Bu stulla masanı və bir də, təbii ki, rəflərlə dəryazı saymasaq, hara apardığı bəlli olmayan dar qapılı bu otaqda başqa heç nə yox idi. Çünki bu, yeganə çıxış idi, bu, ehtimal məntiqi olar ki, ölüm məhz bu qapıdan şəhərə çıxacaqdı.

Deməzsən, aldatdım? Kəfənsiz ölüm, sanki, əndazədə yenə yığılır: boyu, insan ölçülərinə çevirsək, haradasa yüz altmış altı, ya da yüz altmış yeddi santimetr olardı, lüt vəziyyətdə isə bir az da balaca görünür, lap cılız yeniyetmə skeletinə bənzəyirdi. Kim düşünərdi ki, onun qətiyyən layiq olmadığı təskinlik vermək və halına acımaq üçün çiyninə qoyduğumuz əlimizi qeyzlə silkinib atan həmin o ölümdür. Həqiqətən də, yer üzündə skeletdən lüt heç nə ola bilməz. Axı diriykən onun nəinki əti və dərisi vardı, həm də əgər yuyunmaq və digər, daha ləzzətli əməliyyatlar üçün çıxarmasa, həmin o ətini örtmək üçün geyimi də yox deyildi. Özünün əsl mahiyyətinə dönəndən, yəni həyatı çoxdan bitmiş bir məxluqun yarısökülü karkasına çevriləndən sonra adama elə gəlirdi ki, lap indicə bilmərrə yoxa çıxacaq. İndi məhz elə bu baş verəcəkdi. Təəccübdən hədəqəsindən çıxmış gözlərimizin qarşısında sümüklər nəinki fakturasının sıxlığını, həm də cizgilərinin dəqiqliyini itirməyə başlayır, sözün bütün çalarlarında pozulur, sərt maddədən qazşəkilliyə keçir və dumana bənzər nəsnə yaradır, sanki, skelet buxarlanır və zorla sezilən bir çevrəyə dönür. İndi baxışlar onun içindən keçərək o üzündə hər şeyə biganə dəryazı görə bilərdi və ölüm artıq yox olmuşdu. Vardı, indi yoxdur, daha doğrusu, var, amma bizim gözümüzə görünmür, bəlkə də, zirzəminin döşəməsini, onun altındakı torpağı deşərək keçirdi və violonçelçalana göndərilmiş məktub üçüncü dəfə dönəndən sonra özü üçün qərarlaşdırdığı kimi – çıxıb getdi. Biz hətta bilirik ki, hara. O, violonçelçalanı öldürə bilməz, amma onu görmək istəyir, qarşısında duraraq ona görünmədən toxunmaq istəyir. Əmindir ki, onu bu günlərdə bir yol tapıb öldürə biləcək, özü də qayda-qanunu o qədər də kobud tərzdə pozmadan. Hələliksə öyrənmək istəyir ki, onun xəbərdarlıq məktublarının çatmadığı bu şəxs necə insandır, hansı istedadların yiyəsidir. Əlbəttə, əgər məsələ, həqiqətən, bundadırsa, amma bəlkə də, özünün sadəlövhlüyündən və anlamazlığından

yaşamağına davam edirdi. Heç ağlına da gəlmirdi ki, artıq ölmüş olmalıdır. Bu pəncərəsiz, nə üçün olduğu bilinməyən dar qapılı soyuq otaqda zindan təki bağlı qalaraq vaxtın necə tez uçmasına təəccübləninik – səhər saat üçdür və ölüm artıq çoxdan violonçelçalanın yanında olmalıdır.

Elədir ki var. Ölümü çox əldən salan şeylərin sırasında addımbaşı və eyni zamanda, gözlərinin önündə canlanan şeyləri görmək istəməyəndə göstərdiyi qeyrət, səy ən fəxri yerdə durur. Ölüm bunda da Tanrıya bənzəyir. Məsələni bir az dərindən araşdıraq. Baxmayaraq ki bu vəziyyət insanın hissi təcrübəsi ilə yoxlaya biləcəyi şeylərin sırasına aid edilməyib, biz hələ uşaq vaxtlarımızdan Tanrı ilə ölümün, bu iki ali zirvənin eyni zamanda hər yerdə olmasına, daha doğrusu, laməkanlığına inanmağa öyrənmişik. Əslində, çox mümkündür ki, bu barədə düşünəndə, xüsusilə də danışanda sözlərin ağzımızdan necə asan qopduğunu xatırlasaq, görərik ki, heç söylədiklərimizin məna və əhəmiyyətini tam aydınlığı ilə dərk etmirik. Deməyə nə var ki: Tanrı da laməkandır, ölüm də, amma belə deyərkən heç özümüz də fərqinə varmırıq ki, əgər onlar eyni zamanda hər yerdədirlərsə, onda mütləq kainatın saysız-hesabsız hissəciklərinin hamısı irəli sürülənləri görmək zorundadır. Və əgər elə təkcə özünün vəzifə borcuna əsasən, bütün kainatda olmağa məcbur – əks təqdirdə onu heç yaratmağa dəyməzdi – Tanrıdan xəlq etdiyi bapbalaca Yer planetində baş verənlərə nəsə bir xüsusi maraq gözləmək ağlasığmaz lovğalıq olardı. Xüsusilə də – bu, heç kəsin ağlına gəlmir ki – o, bu planeti tamam başqa adla tanıyır. Amma ölüm həmin o ölüm ki, bir neçə səhifə bundan qabaq onun barəsində bəşər nəsli ilə eksklüziv bağlılığı olduğunu söyləmişdik, gözlərini bizdən bircə anlıq da çəkmir. Odur ki hələ ölmək dəmləri olmayanlar belə, onları daim təqib edən baxışların vicvicəsini duyurlar. Ümumiyyətlə, ölümün bizim hekayətimizin mənbəyini təşkil edən nadir hadisələr vaxtı hansı səbəblərdənsə özünün nəhəng qavrayışını insanların



səviyyəsinə endirmək üçün, daha sadə desək, hər şeyi növbə ilə görmək, hər dəqiqədə yalnız bir yerdə olmaq üçün necə titanik bir səy göstərməyə məcbur olduğunu təsəvvür eləyə bilərik. Bu konkret vəziyyətdə bizi yalnız onun violonçelçalanın qapısında niyə ilişib qaldığının səbəbi maraqlandırır. Səbəb isə belə idi: hər addımda (bu sözdən biz yalnız öz oxucularımızın təxəyyülünə kömək üçün istifadə edirik, ona görə etmirik ki, guya, ölüm, həqiqətən, aşağı ətraflarını ata-ata irəliləyir) onun təbiətinə xas olan, elmi dillə desək, ekspansiv meyillərinə qalib gəlməli olur, yoxsa bu meyillərə sərbəstlik versən, namöhkəm və davamsız, ağır zəhmətlər bahasına düzəlmiş və birtəhər uyğunlaşdırılmış bu birləşməni cingiltili şappıltı ilə havaya sovura bilər. Bənövşəyi çalarlı xəbərdarlığı almamış violonçelçalanın evi təsərrüf sinfinə aid idi, lakin eyni zamanda, xüsusi bir perspektivi olmayan burjuaya daha çox yaraşardı, nəinki Evterpanın[1] dəstpərvərinə. Dəhlizin alaqaranlığında beş qapı zorla sezilir: bu məsələyə daha qayıtmamaq üçün lap dərinlikdəki biri (onun haqda bəri başdan deyək ki, bu qapı hamam otağına aparırdı), dəhlizin sağ-solunda isə hər tərəfdə ikisi. Soldan birinci qapı – ölüm öz baxışını elə bu qapıdan başlamaq qərarına gəldi – burada heç bir yaşayış olmadığını aşkar göstərən və öz növbəsində içərisində bütün təchizatı olan kiçik mətbəxə birləşən balaca otağa açılırdı. Sonra yenə dəhliz və bu da qapı, ondan istifadə etmirlər, yəni nə açırlar, nə də bağlayırlar ki, bu da reallığa uyğun gəlməməlidir, çünki barəsində açılıb-bağlanmadığı söylənən qapı, hər halda, bağlı qapıdır və açıq olması qeyri-mümkündür. Aydındır ki, ölüm bu bağlı qapıdan da ötə bilərdi, onun arxasında olan hər şeydən də, lakin özünü bir yerdə toparlamağa və az-çox, başqaları üçün görünməz olsa belə, söylədiyimiz kimi, aşağı ətrafların mövcudluğunu özündə ehtiva etməsə belə, hər halda, insan cizgiləri formalaşdırmağa ona görə bu qədər səy sərf etməmişdi

[1] Lirik poeziyanın hamisi olan doqquz muzadan biri

ki, sonra götürüb özünü təhlükəyə məruz qoysun, boşalıb, qapının, yaxud onun arxasında mütləq mövcud olan dolabın lifləri arasında dağılsın. Elə buna görə də ölüm dəhlizlə girişdən sağdakı birinci qapıya kimi keçdi və oradan musiqi salonuna daxil oldu – içərisində açıq royalın və violonçelin, üzərində Robert Şumanın[1] üç fantaziya opusu olan püpitr durmuşdu – əsərin adını hər iki pəncərədən içəri süzülən boğuq narıncı işıqda oxumuşdu. Bir də orada-burada qalaqlanmış not dəftərləri, içərisində, görünür, musiqi ilə ən mükəmməl, bir zamanlar Areslə Afroditanın qızı olan, indi isə akkordların uzlaşdırılması elminə çevrilmiş harmoniya təşkil edən kitablarla dolu rəflər yığılmış otağa daha nə ad vermək olardı ki? Ölüm simləri sığalladı, barmaqlarının ucuyla dillərdə gəzişdi, lakin onlardan qopan səsləri – violonçelin sürəkli və bəm şikayətini, royalın qısa quş cikkiltisini – yalnız özü eşidə bildi, zira, insan qulağının qəbul etmək iqtidarında olmadığı hər şey bu qədər müddət ərzində cürbəcür köks ötürmələrin mənasını ayırd etməyə öyrəncəli olan onun üçün çox aydın və anlaşılan idi. Burada, qonşu otaqda isə, görünür, yataq otağı idi. Oranın qapısı açıqdır və qaranlıq burada bir az da qatı olsa belə, çarpayının və onun üzərində uzanmış birisinin cizgilərini seçmək mümkün idi. Ölüm yaxınlaşır, kandardan keçir, amma elə həmin an qətiyyətsizlik içində ayaq saxlayır, otaqda bir yox, iki canlı məxluq vardı. Şəxsi təcrübəsində olmasa da, həyatın bəzi tərəfləri haqda məlumatlı olan ölüm fikirləşir ki, yəqin, violonçelçalan öz yatağını bir nəfərlə bölərək, gecəni onunla keçirir və nə qədər ki bənövşəyi məktub onun əlinə yetişməyib, bu şəxs həmin bu evdə elə eyni mələfənin rahatlığından, eyni yorğanın istisindən istifadə edir. Ölüm bir qədər də yaxınlaşır, o qədər yaxın ki, əgər bu mümkün olsaydı, çarpayının yanındakı dolaba toxunardı və görür ki, yox, yataqda bir nəfərdir. Lakin çarpayıdan o tərəfdəki xalçanın üstündə orta böyüklükdə, tünd rəngli yumağa

[1] *Robert Şuman* (1810-1856) – alman bəstəkarı və musiqi tənqidçisi

dönərək bir it yatıb, çox güman ki, qara rəngdə. Xatırladığımız qədərincə, ölüm fikirləşdi ki, müstəsna olaraq yalnız insanlara aid olmasaydı, bu heyvan da onun rəmzi dəryazının ağzından qurtulacaqdı və ilk dəfə təəccübləndi, indi onun iradəsi daxilində deyildi ki, heç olmasa, barmağının ucuyla bu heyvana toxuna. Bu səbəbdən, yatmış köpək də ölümsüzlüyə qovuşardı, əgər onun öz ölümü – o biri ölüm, bitki və heyvanlar aləminə mənsub olan bütün canlıların cavabdehliyini daşıyan ölüm də özünü elə onun kimi aparsaydı, kiminsə öz kitabını aşağıdakı sözlərlə başlamasına gözəl imkan yaranardı: "Ertəsi gün isə heç kəs ölmədi". Çarpayıdakı adam tərpəndi: bəlkə də, Şumanın üç pyesini yuxuda da ifa edirdi və xoruz buraxmışdı; axı violonçel royal deyil – royalın bütün notları həmişə öz yerindədir, hər biri öz dilinin altında, simli alətlərdə isə bütün sim boyu səpələnib, onları axtarıb tapmaq, tutmaq, lazım olan anda kamanı lazımi güclə, lazımi bucaq altında basaraq, irəli aparmaq gərəkdir. Odur ki bir-iki notu səhv götürməkdən asan bir şey yoxdur, xüsusilə də əgər yuxuda çalırsansa. Ölüm musiqiçinin üzünü daha yaxşı seçmək üçün bir az əyilən anda onun beynində, həqiqətən, dahiyanə bir fikir parladı: onun kartotekasında hər bir formulyara fotoşəkil yapışdırmaq lazımdır – özü də hansı gəldi yox, eləsini ki, personajın şəxsi məlumatları kimi, zaman ötdükcə daim və avtomatik yenilənsin, onda baş verən dəyişiklikləri göstərsin: anasının qucağındakı qırmızı, bürüş-bürüş çağadan tutmuş, indiki vəziyyətinə kimi, biz onsuz da arabir özümüzdən soruşuruq: "Yəni biz bir zamanlar olduğumuz kimiyik, yoxsa hansısa sehrbaz hər saat kiminləsə dəyişir bizi?" Yatmış adam yenə tərpəndi, bir anlıq elə göründü ki, indicə oyanacaq, amma yox, nəfəsi tənzimləndi, əvvəlki ritminə düşdü. Dəqiqədə on üç dəfə alıb-verirdi və sol əli sinəsinin üstündə, ürəyinə yaxın, sanki, nəbzini tutur: sistola ilə diastolanın növbələşməsini; barmaqları azacıq qatlanmış sağ əlinin ovcu isə açıqdı, elə

bil, hər iki əlin xaç şəklində çarpazlaşmasını gözləyir. Yatmış adam artıq tamam olmuş əlli yaşından böyüyə oxşayır, amma o qədər də yox. Bəlkə də, sadəcə, yorğundur, ya da qüssəlidir, biz bunun hamısını o, gözlərini açanda öyrənəcəyik. Başında tükü azdır, olanlar da ağarıb. Nə gözəldir, nə eybəcər, adi kişidir. Kürəyi üstündə uzanmış, qatlanan yorğanının altından geydiyi zolaqlı pijaması görünən bu kişiyə baxanda fikirləşməzsən və deməzsən ki, o, şəhər simfonik orkestrinin birinci violonçelçalanıdır, həyatı not dəzgahının beş ecazkar xətti arasında axır və ola bilər ki, musiqinin mübhəm qəlbinin axtarışlarında – pauza, səs, sistola, diastola. Dövlət rabitə sisteminin işindəki pozuntulardan dilxor olmuş, amma bura gələrkən içində kükrəyən qəzəbi artıq soyumuş ölüm düz onun yatmış üzünə diqqətlə baxır və başında dumanlı fikirlər dolaşır ki, bu adam, əslində, artıq olmamalıdır, onun müntəzəm nəfəsi, bir-birini əvəz edən nəfəs almaverməsi artıq kəsilməliyd. Sol əlinin qoruduğu ürək isə boşalaraq durmalıydı, sonuncu dəfə yığılıb, həmişəlik susmalıydı. Ölüm bura ona baxmaq üçün gəlib və budur, indi görür onu və bu şəxsdə elə bir şey yoxdur ki, bənövşəyi məktubun üç dəfə geri dönməsini izah etsin. Yaxşısı bu olardı ki, özünün soyuq zirzəmisinə qayıtsın, orada bu cüy-cüyçünün, violonçel mişarlayanın özündən artıq yaşamasına səbəb olmuş lənətə gəlmiş təsadüfə son qoymaq barədə düşünsün. Dilxorçuluğun rənglədiyi iki ifadə cütlüyü – lənətəgəlmiş təsadüf və violonçel mişarlayan – onun üçün tələffüz olunurdu ki, artıq soyumaqda olan hirsini bir az qızışdırsın, amma onlar da məqsədlərinə çatmadılar. Yatmış adam bənövşəyi məktubun başına gələnlərdə qətiyyən günahkar deyil və heç təsəvvürünə belə gəlməz ki, artıq ona məxsus olmayan həyatı yaşayır və əgər işlər lazımi qaydada getsəydi, artıq bir həftə idi, qəbirdə yatmışdı və qara köpək indi ağlını itirib şəhəri ələkvələk edərək sahibini axtarır, qapının ağzında onun yolunu gözləyərək xiffətindən nə yeyir, nə içirdi. Bir anlıq ölüm



boşaldı, seyrəldi, otağı tamam doldurараq divarlara qədər yayıldı, qonşu otağa axdı və orada onun bir hissəsi stulun üstünə açıq vəziyyətdə qoyulmuş və İohann Sebastyan Bax[1] tərəfindən bəstələnmiş altı saylı süitanın min on iki re major əsərinin notları yazılan dəftərə baxdı və qətiyyən musiqi savadı almaq lazım deyil ki, onun da Bethovenin[2] doqquzuncu simfoniyası kimi sevinc dolu ahənglə dostluqdan, məhəbbətdən bəstələndiyini biləsən. Bu yerdə görünməmiş, hətta təsəvvürəgəlməz bir şey baş verdi, çünki ölüm cisminə nə lazımdırsa hamısını – dizlərini də, ayaqlarını da, ovuclarını da, onların arasında gizlətdiyi üzünü də, kim bilir, nədən əsən çiyinlərini də qaytararaq dizi üstə düşdü – çiyinləri, hər halda, ağlamaqdan əsməyəcəkdi, keçdiyi yollarda göz yaşı selləri qoyan və bu selin içində onun gözündən çıxmış bircə damcı belə olmayan birisindən bu boyda şey gözləməyə dəyməz. Elə olduğu kimi də qalaraq – nə görünən, nə görünməz, nə skelet, nə qadın – nəfəs kimi qalxıb yataq otağına döndü. Yatmış adam bayaqkı kimi heç qımıldanmırdı. "Mənim daha burada işim yoxdur, – ölüm düşündü, – gedim buradan, heç yatmış adamla iti görmək üçün gəlməyə dəyərdimi, bəlkə də, onlar yuxuda bir-birini görür, insan – iti, it – adamı: it görür ki, artıq səhər açılıb və o, başını adamın başının yanına qoyub, adam isə görür ki, artıq səhərdir və o, sol əliylə itin isti, yumşaq bədənini qucaqlayır və onu özünə sıxır".

Paltar dolabı ilə örtülü qapının yanında balaca bir divan dururdu, bax ölüm onun üstünə əyləşir – qabaqcadan düşünülmüş heç bir niyyəti olmadan oturur, bəlkə də, özü üçün belə çox gözlənilməz olaraq, arxivini saxladığı soyuq zirzəmini xatırlayır. Gözləri düz pəncərələrdən süzülən narıncı işığın aydınlatdığı violonçelçalanın başı bərabərində idi, profili yaxşı görünürdü. Ölüm öz-özünə təkrar edir ki, daha burada qalmasına heç bir ağlasığan səbəb yoxdur və elə həmin an da

[1] *İohann Sebastyan Bax* (1685-1750) – alman bəstəkarı
[2] *Lüdviq van Bethoven* (1770-1827) – alman bəstəkarı

cavab verir ki, yox, bir səbəb var, özü də çox əsaslı bir səbəb var: bu evdə – bu şəhərdə, ölkədə, bütün dünyada tək olan bu evdə – bir nəfər var ki, təbiətin qanunlarından ən sərtini tapdalayır – həyat və ölüm qanununu, elə bir qanunu ki, səndən "yaşamaq istəyirsənmi" sormayacaq və heç ölmək istədiyin də onun üçün maraqlı deyil. "Bu insan ölüdür, – deyə ölüm fikirləşdi, – ölməli olan hər bir kəs artıq ölüdür, bircə lazımdır ki, mən onu bir barmağımın ucuyla itələyim, ya da bənövşəyi məktubunu yollayım".

"Bu adam ölü deyil, – ölüm düşündü, – bir neçə saatdan sonra oyanacaq, hər səhər etdiyi kimi çarpayısından qalxacaq, bağçaya qapısını açacaq ki, iti çıxıb gəzə bilsin, səhər yeməyini yeyəcək, hamama girəcək və bir qədərdən sonra oradan təravətli, yuyunmuş və üzünü təraş etmiş halda çıxacaq və ola bilər ki, itini də özüylə götürüb tinin başına, qəzet ardınca gedəcək. Bəlkə də, püpitrin qarşısında əyləşib Şumanın üç pyesini çalacaq, sonra da, bəlkə, bütün öləri insanlar kimi o da ölümü xatırlayacaq, amma bilməyəcək ki, indi o, demək olar, ölümsüzlük tapıb, çünki indi ona baxan ölüm qətiyyən təsəvvür eləmir onu necə öldürsün".

Yatmış adam pozasını dəyişdi, kürəyini istifadəsiz qapının önünü tutan dolaba çevirdi və sağ əlini it yatan yerə salladı. Bir dəqiqədən sonra oyandı. Su istəyirdi. Dolabın üstündəki işığı yandırdı, yerindən qalxdı, ayaqlarını həmişəki kimi itin başının altında qalmış başmaqlarının içinə soxub mətbəxə keçdi. Ölüm onun arxasınca getdi. O, stəkana su töküb içdi. Həmin an mətbəxdə it də peyda oldu, bağçaya çıxan qapının ağzındakı suqabından yanğısını yatırdı və gözlərini sahibinə zilladı.

"Hə, aydındır, çıxmaq istəyirsən", – deyə o dilləndi. Qapını açıb, it qayıdanadək gözlədi. Stəkanda hələ bir az su qalmışdı. Ölüm ona nəzər saldı, var gücüylə təsəvvürünə gətirmək istəyirdi ki, su istəmək nədir, amma bacarmadı. Haradasa, səhrada insanları susuzluqdan öldürməli olanda da bunu anlaya bilmirdi, amma onda başa düşməyə heç çalış-

mırdı da. İti quyruğunu bulaya-bulaya qayıdırdı. "Getdik yatmağa", – adam dedi.

Onlar yataq otağına qayıtdılar, it iki dəfə öz oxu ətrafında fırlanıb tappıltıyla yerə sərildi, yumağa döndü. İnsan onun peysərini şappıldadıb iki dəfə öskürdü və tezliklə yuxuya getdi. Öz küncündə oturmuş ölüm bütün bunlara baxırdı. Bir xeyli sonra it xalçanın üstündən qalxıb, divana dırmandı. Ömründə ilk dəfə ölüm dizinin üstündə it saxlamağın nə olduğunu öyrəndi.

* * *

Hər birimizin həyatında zəiflik anları olur və əgər biz bu günümüzü belə anlar olmadan keçirmişiksə, sabah onlar, heç şübhəsiz, mütləq olacaq. Axillesin sinəbəndinin tuncu altında həssas qəlb çırpındığı kimi – heç olmasa, on il dalbadal, Aqamemnonun onun sevgilisi kəniz Briseidanı aparmasından sonra Peleyin oğlunun içini gəmirən qısqanclığı xatırlayaq, qəzəbi onu müharibəyə qaytardı, dostu Patrokl Hektorun əlindən həlak olandan sonra – elə ola bilər ki, bütün zamanlarda mövcud olmuş və bəşərin mütləq, qəti sonuna kimi hələ olacaq ən möhkəm zirehin içindən – siz, yəqin, söhbətin ölümün skeleti barədə getdiyini başa düşdünüz – gözəl günlərin birində zərif violonçel akkordu, ya da royalın sadədil cəh-cəhi keçə bilər, ya da lap masanın üstündə açıq qalmış adi not dəftərinin görünüşü sənin yadına məcburən elə şeyləri sala bilər ki, onlar barədə fikirləşmək belə istəmirdin, elə şeyləri ki, onlardan keçmək heç kəsə nəsib olmayıb və istəyirsən, lap başını divara döy, sən də dözə bilməzsən, əgər baş versə. Sən soyuq bir diqqətlə yatmış violonçelçalana, yanına, ya arxasınca gec gəldiyindən öldürə bilmədiyin birisinə baxırdın; sən yumağa dönmüş itə baxırdın və dərk edirdin ki, hətta sənin belə ona toxunmaq icazən yoxdur. Çünki o, sənin ixtiyarında deyil və yataq otağının ilıq alatoranında yuxuya təslim olmuş, lakin sənin barəndə

heç nə bilməyən bu iki canlı məxluq yalnız ona yarayar ki, uğursuzluq yükü ruhunu bir az da bərk əzsin. Sən, heç kəsdə misli-bərabəri olmayan qüdrətə adət etmiş sən, qəflətən gücsüz və köməksiz olmuşdun, əl-ayağın bağlanmışdı və sənin sıfır-sıfır-yeddi ölüm lisenziyan bu evdə işləmirdi və hələ heç vaxt, etiraf elə bunu, ölüm adını daşıyandan bəri heç vaxt belə alçaqlığa dözməli olmamışdın. Sən yataq otağından qonşu salona keçən an, İohann Sebastyan Baxın violonçel üçün altı nömrəli süitasının qarşısında dizlərini bükərkən çiyinlərin insanların təsəvvüründə qarşısıalınmaz hönkürtünü müşayiət eləyən hərəkətə başladı, bəli, sənin dizlərin sərt döşəməyə dəyəndə qəddarlığın da dağıldı və tam görünməz olmaq istəməyəndə döndüyün bir duman buludu kimi seyrələrək yox oldu. Sən otağa qayıtdın, violonçelçalan mətbəxə su içmək və iti çölə buraxmaq üçün keçəndə onun arxasına düşdün; sən əvvəlcə bu insanı yatmış görürdün, indi isə o oyanmış, qalxmışdı və yəqin, pijamasındakı şaquli zehlər elə bir optik effekt yaradırdı ki – o, səndən çox-çox ucaboy görünürdü, amma belə bir şey ola bilməz axı, bu görmə yanlışlığıdır, perspektivin yayınmasıdır, bax sənin böyük, bizim hamımızdan və dünyadakı hər şeydən böyük olduğunu israrla sübuta yetirən faktların məntiqi, əslində, budur. Amma istisna etmək olmaz ki, həmişə belə olmayıb, istisna etmək olmaz ki, dünyada baş verən hadisələr təsadüflərlə izah olunur, bax, məsələn, musiqiçinin uşaq vaxtından yaddaşına yazılmış parlaq ay işığı boş-boşuna zay olardı, əgər o, həmin an yatmış olsaydı, əlbəttə, təsadüflərə bağlıdır çox şey, çünki sən, ey ölüm, otağa qayıdanda balacalaşdın, divana əyləşəndə bir az da kiçildin, sonra it yerindən qalxıb divana dırmaşanda və sənin artıq qız döşünü andıran sinənə sığınanda ağlına gözəl fikir gəldi – sən fikirləşdin: yaxşı olmaz, ədalətsizlik baş verər əgər ölüm – sən yox, başqası – günlərin birində bu yumşaq heyvani istini soyutsa, hə, bu fikir yarandı səndə və kim düşünərdi ki, sənin, bu insanı öldürmək



vəzifəsinin eşqilə yaşadığın otağındakı arktik, ya da antarktik soyuğa bu dərəcədə öyrənmiş birisinin məşum ağlına belə şeylər gələr və bu insanın alnında, indi o yuxuda ikən acı bir qırış peyda oldu, belə qırışlar öz yatağını həyatı boyu bir dəfə də əsl insani bir şeylə bölüşməmiş, öz iti ilə bir-birini yuxuda görmələri barədə müqaviləyə girən: adam-it, it-adamlarda olur və gecənin bir aləmi o, özünün zol-zol pijamasında yataqdan qalxıb yanğısını yatırmaq üçün mətbəxə keçir, hərçənd ki həmin su stəkanını yatağının yanındakı dolabın üstünə qoymaq da olardı, amma belə adəti yox idi, bunu etmir, gecənin sakitləşdirici dinməzliyində, köpəyinin müşayiətiylə dəhlizlə mətbəxə qədər gəzməyə üstünlük verir, onun iti isə mütləq sahibinin ardınca gedir və hərdən lap çölə də çıxmaq istəyir, hərdən də – yox. Sən deyirsən, bu insan ölməlidir.

İndi isə ölüm yenə skeletə çevrilir, elə bil, kəllə sümüyünün dəhşətli görüntüsünü gizləmək üçün başlıqlı xlamidaya bürünüb, amma özünə əziyyət verməyə dəyməzdi, çünki burada belə müdhiş mənzərə ilə qorxudası kimsə yoxdur, xüsusilə də – yalnız ətrafların ətrafıdır görünən: aşağı ətraflar daş döşəmədədir, bəxtəvərlikdən onlara sarsıdıcı soyuğu duymaq nəsib deyil, yuxarı ətraflar isə bütün zamanlarda verilmiş ölüm hökmlərinin qeyd olunduğu qalın cildi vərəqləyir, bütün hökmlər, lap birincidən – o, bircə sadə sözdən ibarət idi: "öldür" – ən təzə, ölümün bütün mümkün üsulları, bütün bəlli variantları nəzərdə tutulmuş əlavə və tamamlamalara qədər, hərçənd ki burada tam əminliklə bir şey demək olar: bu siyahı heç vaxt bitən deyil. Ölümü axtarışlarının mənfi nəticəsi təəccübləndirmədi: əslində, bəşər nəslinin istənilən nümayəndəsi üçün həyatının son nöqtəsi, finalı, hökmü, ölümü təyin edildiyi bir kitabda qəflətən "həyat" və "yaşamaq" kimi, "yaşayıram" və "yaşayacam" kimi sözlərin peyda olması heç ağıllı bir iş olmazdı, ən başlıcası isə – tamam artıq olardı. Bu kitabda yalnız ölümə yer var və kiminsə, nə vaxtsa, guya, ölümdən qurtulması barədə ağlasığmaz mülahizələrə bircə

işarə belə yoxdur. Bu – görünməmiş bir şeydir. Lakin yaxşıca axtarsan, "mən yaşamışam" ifadəsinə rast gələrsən ki, ondan da cəmi bir dəfə, oxumaq üçün zəruri olmayan sətiraltı çıxarışda istifadə olunub, amma kimsə belə səyi və belə dəqiqliyi heç vaxt göstərməyib və bu da ondan şübhələnməyə səbəb olur ki, yaşamaqdan dəm vuran həmin bu faktın özü ölümün kitabında xatırlanmağa layiq deyil. Onu da bilmək faydalı olar ki, bu kitabın digər adı – "Heçlik kitabı"dır. Skelet qanunlar toplusunu bir tərəfə çəkib qalxdı. Hadisələrin daxili mahiyyətinə nüfuz etsək, istəyəndə, həmişəki kimi, otaqda iki dəfə dövrə vurdu, sonra kataloqun violonçelçalanın formulyarı olan yeşiyini çəkdi və bu formulyarı çıxardı. Onun bu hərəkəti bizə xatırlatdı ki – təsadüf barədə nə demişdik, yadınıza salın – tezliklə, bizim diqqətimizi bir dəfə artıq özünə cəlb etmiş arxivlərin işləməsi ilə əlaqədar mühüm bir aspektin aydınlaşdırılması fürsəti başa çatacaq, fəqət bunun barəsində hər cür qınağa layiq etinasızlıq nəticəsində indiyə kimi danışmamışıq. Hər şeydən öncə qeyd etmək lazımdır ki – təxəyyülümüzdə, bəlkə də, artıq konturları çəkilmiş bir şeyin təkzibi naminə – bu yeşikləri dolduran on milyon formulyar ölümün əliylə yazılmamışdı. Bir bu çatmırdı: o – ölüm idi, dəftərxana siçovulu yox. İnsanlar dünyaya gələndə, formulyarlar öz yerlərində, ciddi əlifba sırasıyla peyda olurlar, öləndə isə – itirlər. Əvvəllər, bənövşəyi məktublar tətbiq olunana kimi, ölüm heç özünə yeşikləri açmaq əziyyəti də vermirdi, formulyarların yaranması və yox olması səhvsiz və heç bir dolaşığa düşmədən baş verirdi və kiminsə doğulmaq istəməməsi və ölməyə etiraz etməsi ilə əlaqədar ağlamalı səhnələr barədə yaddaşda qalmayıb. Bu sonuncuların kartoçkaları öz-özünə, heç bir kənar kömək olmadan bunun altında yerləşən otağa düşür, daha doğrusu, mərtəbə-mərtəbə dərinə, yerin alovlanan mərkəzinə gedir və orada bu nəhəng kağız dağı, nəhayət ki, alışıb-yanır. Burada, ölümün və dəryazının olduğu bu otaqda vətəndaş aktlarının qeydiy-



yatı şöbəsinin[1] bir kargüzarı himayəsində olan ölü və dirilərin adlarını, sənədlərini bir arxivdə birləşdirmək qərarına gəlir – hər şeyi, onun sərəncamına verilmiş bütün ölü və dirilərin ad və sənədlərini – və belə hesab edir ki, bütün bu sənədlər yalnız bir yerdə olanda, bəşəriyyəti necə qavramaq lazımdırsa, elə də təmsil edə bilər. Daha doğrusu, mütləq mənada bir "tam" kimi, zaman və məkanından asılı olmayaraq, çünki onları ayırmaq ruha təcavüz olardı. Buranın ölümü ilə oranın düşüncəli sənəd qoruyucusu arasında böyük fərq var: nə qədər ki o, olimpiya nifrətiylə mərhumlara baxarkən qürrələnir – burada çox qəddar, amma neçə dəfələrlə təkrar olunmuş ifadəni yada salmaq yerinə düşərdi: kim keçmişdən danışırsa, özü də keçib gedir – o, yəni bizim arxivarius müasir dilimizdə "tarixi ədalət" adlandırılan nəsnədən, bu fikirdədir ki, diriləri ölülərdən heç bir halda ayırmaq olmaz, zira bu təqdirdə nəinki ölülər həmişəlik ölü olaraq qalacaqlar, həm də dirilər öz həyatlarını yarımçıq yaşayacaqlar, hətta əgər Mafusail qədər yaşasalar belə: Əhdi-Ətiqin masoret[2] mətnləri bizi inandırır ki, onun ömrü doqquz yüz altmış doqquz il davam edib, baxmayaraq ki samariya xəmsəsi ona cəmi yeddi yüz iyirmi il ayırmışdı.

Ölüm formulyarı araşdırır, amma əvvəllər görmədiyi heç bir şey tapmır onda – yəni artıq bir həftədir ölməli olan musiqiçinin tərcümeyi-halına baxır, o isə buna baxmayaraq, özünün sənətçi mağarasında divanın üstünə dırmanaraq başını xanımların döşünə qoymağı sevən qara köpəyi ilə, violonçeli və royalıyla, gecələr üz verən susuzluğu və zol-zol pijamasıyla sakitcə yaşamağındadır. "Bu tapmacanın bir yolu olmalıdır, – ölüm düşündü, – əlbəttə, ən yaxşısı onu diqqət cəlb etmədən həll eləməkdir, lakin axı ali instansiyalar yalnız alqışlara iltifatla qulaq vermək, göstərilən ehtiramları qəbul

[1] Burada və abzasın sonuna kimi müəllif oxucularını özünün "Bütün adlar" romanına istiqamətləndirir.

[2] 1947-ci ildə Ölü dənizin sahillərində tapılmış, müasir iudaizm və xristianlıqdan əsaslı şəkildə fərqlənən masoret əlyazmaları

etmək üçün mövcud deyillər, indi aşağıda, yer üzündə olanlara, necə deyərlər, özlərinin alın təriylə ağır zəhmət çəkənlərə biganə olmadıqlarını göstərmək üçün əla fürsət yaranıb, özlərinin qanunlar külliyyatını dəyişsinlər, fövqəladə tədbirlər qəbul edilməsinə icazə versinlər, işin xətrinə, çox da qanuni olmayan addımlara razılıq versinlər: hər halda, bunlar belə cəncəl hadisələrin davam etməsindən yaxşıdır". Hamısından gülməlisi o idi ki, ölüm bu tapmacanı hansı ali instansiyaların həll etməli olduğu barədə tam aydın təsəvvürə malik deyildi. Bəli, qəzetdə dərc olunmuş məktublarından birində o, vaxtı dəqiq bəlli olmasa da, bir zamanlar kainatda həyatın bütün təzahürlərini, lap sonuncu mikrobadək hər şeyi məhv edəcək mütləq ölüm haqda yazırdı, lakin bunun fəlsəfi labüdlüyə aid olmasıyla yanaşı – zira ölüm də daxil olmaqla heç nə əbədi davam edə bilməz – bu xatırlatma əməli olaraq elə bir nəticəyə gətirir ki, təcrübə yoluyla əldə olunmuş məlumatlardan qaynaqlanmasa belə, sağlam məntiqə əsaslanır və artıq çoxdan ərazi ölümlərinin arasında geniş yayılıb. Bəli, onlar indiyədək öz xəyallarındakı mütləq gücün, varlığını heç vaxt, lap ən kiçik əlamətlərlə belə büruzə verməmiş universal ölümün mövcudluğuna inamı qorumaq üçün çox iş görüblər. "Bizik, sahə müvəkkilləridir, həqiqətən işləyən, – ölüm mülahizə yürüdürdü, – yer üzünü bizlər artıq-urtuqdan təmizləyir və əgər vicdanla desək, kosmosun özü belə yox olsaydı, qətiyyən təəccüblənməzdim – özü də mütləq ölümün qalaktikalar və qara dəliklər arasında guruldamış müjdəsindən yox, xırda, məxsusi, ayrı-ayrı ölümcük və ölümcüyəzlərin bir yerə toplanmasından: həmin o məsələdəki, bir-bir dənləyərək çinədanını dolduran toyuğun əksinə, çinədanından buğdaları bir-bir, dənə-dənə çıxaran toyuq kimi və bu nə qədər sarsaq görünsə də, mənə elə gəlir ki, həyatın başına da məhz bu gəlir, o özü öz sonunu hazırlayır, bizə heç bir ehtiyacı olmadan, ona yardım əli uzadacağımızı gözləmədən". Odur ki ölümün çaşqınlığı tam anlaşılandır. Onun buraxılaraq bu dünyaya yerləşdi-



rilməsindən o qədər zaman keçir ki, artıq üzərinə düşmüş vəzifələrin dönmədən icra olunması tapşırığının ona kim tərəfindən təyin edildiyini də xatırlaya bilmir. Onun əlinə nizamnamə verərək, yolgöstərən ulduz kimi yalnız "öldür" kəlməsinə işarə etdilər və çox güman, heç fikir də vermədilər ki, bu sözlərdə necə kədərli ironiya var, ölümə "öldür" demək, "get, yaşa" kimi bir şey idi. O da getdi, düşündü ki, əgər bir şübhə ya da anlaşılmazlıq-zad meydana çıxsa, müdafiə edərlər: kimsə – rəhbər, boss, müdiriyyət, ruhani lider – mütləq tapılacaq və ondan da məsləhət almaq, nəyisə aydınlaşdırmasını rica etmək həmişə mümkündür.

Lakin inanmaq olmur ki – bu yerdə biz, nəhayət, ölümlə violonçelçalanın hadisəsi ilə əlaqədar yaranan vəziyyətin soyuqqanlı və sakit araşdırılmasına başlayırıq – minilliklər boyu bu arxivlərdə nümunəvi qayda-qanunu qoruyan, məlumat bazasını daim yeniləyərək, anadan olanların formulyarının peyda olmasını, ölənlərinkinin yox olmasını təmin edən çox kamil informasiya sisteminin bu dərəcədə bəsit çıxmasına inanmaq mümkün deyil; o dərəcədə bəsit və ikitərəfli əlaqədən o qədər məhrum olsun ki, həmin bu informasiya mərkəzi, harada yerləşməsindən asılı olmayaraq, ölümün fəaliyyəti haqda gündəlik məlumatları müntəzəm ala bilməsin. Bəs əgər müntəzəm alırsa, lakin kiminsə ölməli olduğu vəziyyətdə ölməməsi ilə əlaqədar fövqəladə məlumata reaksiya verməli olduğu halda, vermirsə, bu, iki şeydən biri deməkdir: ya bizim qənaətlərimizə baxmayaraq və gözləntilərimizə rəğmən, bu epizod maraq kəsb etmirsə, deməli, heç kim müdaxilə etməyə və vəziyyəti qaydaya salmağa özünü borclu bilmir, çünki ölüm öz düşüncələrinə və əməllərinə daban-dabana zidd olaraq gündəlik qayğılarda və əmək prosesində meydana çıxan istənilən problemləri istədiyi kimi həll etməkdə üstünlüyə malikdir. "Tərəddüd" sözünün bu səhifələrdə tez-tez görünməsi lazım idi ki, ölümün yadına qəflətən qanunların bir paraqrafı düşdü – kiçik, sətiraltı

şriftlə çap olunduğundan diqqəti cəlb etmirdi və zamanı yetişənədək unudulmuşdu. Violonçelçalanın kartoçkasını bir kənara qoyaraq ölüm kitabdan yapışdı. O bilirdi ki, axtardığı qanunların özündə deyil, haradasa əvvəldə, qədim olduğundan gec-gec vərəqlənən hissələrdə olmalıdır. "Şübhəli məqamlarda, – deyə lazım olan yeri tapan ölüm dodaqaltı mızıldanaraq oxumağa başladı, – ən qısa zamanda və qazandığı təcrübəyə əsaslanaraq, ölüm desideratumun[1] yerinə yetirilməsinə səy göstərməyə, anadan olarkən müəyyən edilən yaşam vaxtı bitəndə, ona son qoyulmasına yönəlmiş hərəkətverici fəaliyyətinə istiqamət verə biləcək bütün vəziyyətlərdə və istənilən hallarda borcludur, hətta yuxarıda göstərilənlərin əməliləşməsi naminə qəbul olunmuş və fatal niyyətin həyata keçirilməsi zamanı bu məcəllə tərtib edilərkən nəzərdə tutulması mümkün olmayan vəziyyətlər, o cümlədən obyektin anomal müqaviməti, ya da hadisələrin anomal axarı ilə rastlaşdığı şəraitlər də daxil olmaqla". Bütün bu dəftərxana məqamlarının mənası tam aydındır – ölümün əl-qolu açıqdır və öz bildiyi kimi hərəkət eləyə bilər. Bizim indi başladığımız tədqiqat da göstərəcək ki, burada yeni bir şey yoxdur. Əgər varsa – görərik. Ölüm öz riskinə yanvar ayının birindən etibarən öz fəaliyyətini dondurmağa qərar verəndə fikirləşməmişdi ki, hansısa ali bir instansiya ondan bu son dərəcə sarsaq hərəkətinə görə hesabat tələb edəcək, həm də düşünməmişdi ki, onun fərqli rəng çaları daşıyan qərarına – daha doğrusu, bənövşəyi məktublarına – elə həmin, ya da başqa bir instansiya çəp baxa bilər. Bəli, avtomatik qərarlardan, sayıqlığı korşaldan adilikdən, ziyanlı vərdişlərdən bu cür təhlükələr doğur. Əgər kimsə günbəgün səylə və diqqətlə, heç nədə tərəddüd etməyərək, heç bir şey soruşmayaraq yalnız yuxarıdan təyin edilmiş vəzifəsini yerinə yetirirsə və bəlli müddətdən sonra kimsə burnunu soxaraq öhdəsinə düşən vəzifələri məhz necə icra etməsiylə maraqlanmırsa, bir şeyi qabaqcadan söyləmək olar: o heç fərqinə belə varmadan, tezliklə özünü elə aparmağa başlayacaq, sanki, hər şeyin şəriksiz sahibi odur, özü də nəinki etdiklərini, həm də onları nə vaxt və necə edəcəkləri də yalnız özündən asılıdır. Bu da sizin üçün hekayətimizin əvvəlindən bəri xoşbəxtlikdən ya da bədbəxtlikdən – bunu bilmirik, bizlik deyil – amma hər iki halda bizə bəlli olan transendental qərarını işə keçirəndə ölümün heç kəsdən icazə istəməməsinin hansı səbəblərdən qaynaqlandığının yeganə məntiqi izahı. Lakin o, bu barədə heç düşünmədi də. İndi isə nə qədər qəribə olsa da, insan həyatlarının tək sərəncamçısı olduğundan, nə bu gün, nə də nə vaxtsa heç kəsin qarşısında hesabat verməyə borclu olmadığından qürrələnərək şişəndə, lovğalığın dumanından başı əməlli-başlı hərlənəndə ölüm anladı ki, ən son anda hansısa bir möcüzə sayəsində onun əlindən qurtulmağa nail olmuş insan haqda ağciyər fikirlərindən can qurtarmaq gücündə deyil.

Lakin buna baxmayaraq, ölüm indi stuldan hər şeyin hakimi-mütləq sahibi kimi inamla qalxır. O, torpağa gömülmüş təki bu buz kimi zirzəmidə oturmamalıydı, ən uca dağın zirvəsində olmalıydı – dünyanın talelərini idarə edərək, hamının eyni taleyə tabe olduğunu, geriyə addımın eynən irəliyə addım kimi ölümü yaxınlaşdırdığını, hamı üçün sonun bir olduğunu – bədəninin bir qisminin həmişə düşünməli olduğu, zira bu düşüncələr sənin insan nəslinə aidliyindən doğan sağalmaz bir damğadır – hamının hamıya bərabər olduğunu, sanki, bilməyib, mənasız şəkildə ora-bura yürüyən, vurnuxan insan sürüsünə mərhəmətli nəzərlər salmalıydı. Ölüm əlində musiqiçinin formulyarını tutub. Dərk edir ki, onunla nəsə etməlidir, dərk edir bunu, amma məhz nə etməli olduğunu hələ bilmir. Amma hər şeydən öncə sakitləşmək lazımdır, gərək fikirləşsin ki, indi – qabaqlar olduğundan artıq ölüm deyil, sadəcə, indi buna daha çox inanır: əvvəlki ilə indikinin arasında yeganə fərq məhz budur.

[1] Axtarılan, arzu olunan, tələb edilən (*lat.*)



İkincisi isə, nəhayət ki, violonçelçalanla haqq-hesabı çürütmək imkanı düşmüşdü əlinə – amma bu, gündəlik məktub payını unutmağa əsas vermirdi. Yalnız fikrindən keçirmək bəs edərdi – və iki yüz səksən dörd kartoçka özü masa üstünə endi: yarısı kişi, yarısı qadın – və kartoçkalarla bir yerdə iki yüz səksən dörd vərəq və iki yüz səksən dörd zərf. Ölüm yenə stula əyləşdi, violonçelçalanın kartoçkasını özünə sarı çəkib yazmağa başladı. Qum saatının boğazından sonuncu dənəcik düşəndə ölüm iki yüz səksən dördüncü məktuba imza atdı. Bir saatdan sonra isə bağlı zərflər yola salınmaq üçün hazır idi. Ölüm üç dəfə göndərilmiş və hər üçündə də geri qayıtmış zərfi də bənövşəyi zərflərin üstünə qoydu: "Sənə sonuncu şans verim", – deyə dilləndi. Sol əlinin vərdiş etdiyi hərəkətiylə məktublar yox oldu. On saniyə keçmədi ki, violonçelçalana göndərilmiş məktub yenə və tamam səssiz masanın üstündə peyda oldu. Onda ölüm: "Neynək, nə istəyirsən, onu da alarsan", – dedi. Formulyarda təvəllüd tarixini qaraladı, yenisini yazdı, bir il sonrakı tarixə, sonra da "yaş" qrafasında əllini qırx doqquza dəyişdi. "Belə etmək olmaz", – küncdən dəryazı dilləndi. "Artıq elədim". "Problemlə nəticələnə bilər". "Tək bir problem mümkündür". "Hansı?" "Mənim hesabıma kef eləyən lənətəgəlmiş violonçelçalanın ölümü". "Axı o yazıq heç bilmir ki, artıq ölməliymiş". "Mənim üçün bilib-bilməməsinin fərqi yoxdur". "Hər halda, sən kartoçkada dəyişiklik edə bilməzsən, haqqın yoxdur". "Səhvin var, bütün hüquqlar məndədir və bütün hakimiyyət də, iradə göstərmək haqqı da mənimdir və diqqət yetir ki, bu gündən etibarən necəyəmsə, hələ heç vaxt belə olmamışam". "Sənin heç ağlına da gəlmir ki, nəyə müdaxilə edirsən", – dəryaz xəbərdarlıq etdi. "Bütün dünyada ölümün girə bilməyəcəyi bircə yer var". "O, hansı yerdir elə?" "Ona cürbəcür adlar qoyurlar – urna, tabut, qutu, taxta paltar, sərdabə, sarkofaq, bax oraya mənim yolum bağlıdır, oraya ancaq dirilər girir, təbii ki, mən onları öldürəndən sonra. Gör

bir dənə qan qaraldan məsələyə görə nə qədər danışdıq. Hə, bu var da bizdə: heç cür danışıb qurtara bilmirik".

* * *

Ölümün planı var. Təvəllüd tarixinin dəyişdirilməsi bu əməliyyatın birinci gedişi idi, orada – bunu artıq indidən söyləmək olar – tamamilə müstəsna üsullardan istifadə olunacaq, bəşər nəslinin özünün qarı düşməni ilə qarşılıqlı münasibətləri tarixində heç vaxt görünməmiş üsullardan. Və şahmat partiyasında olduğu kimi, ölüm vəzirlə gediş etdi. Daha bir neçə gedişdən sonra qələbə təmin ediləcək, şah mat olacaq. Burada soruşmaq olar ki, niyə ölüm status-kvonu bərpa etmədi, insanların, sadəcə, ölməli olduğu üçün öldükləri, daha poçtalyonun onlara bənövşəyi zərfdəki məktubu gətirməsini gözləmədikləri dönəmə qayıtmadı. Sual məntiqidir, amma elə cavabı da ondan pis olmayacaq. Söhbət hər şeydən öncə izzəti-nəfsdən, peşəkar qürurdan, ləkə salınmış heysiyyətdən gedir. Ona görə də ölüm üçün keçmiş zamanların günahsızlığına qayıtmaq bütün dünyanın gözü önündə öz məğlubiyyətini etiraf etmək idi. Deməli, violonçelçalanı yalnız yeni, bənövşəyi məktublar layihəsi çərçivəsində öldürmək lazım idi, əgər bu layihəyə artıq start verilibsə.

Gəlin özümüzü ölümün yerinə qoyaq və onda məntiqinin möhkəm əsaslarını etiraf etməli olacağıq. Hə, biz axı düz dörd dəfə şahidi olmuşuq artıq, əsas məsələ – xeyli nimdaş kökə düşmüş zərfi adresata çatdırmaq – həll edilməmiş qalır və bu həsrəti çəkilən məqsədə çatmaq naminə barəsində söz açdığımız arzulara yalnız fövqəladə vasitələr tətbiq ediləcəkdir. Necə ki yuxarıda söyləmişdik. Amma irəli qaçmağa lüzum yoxdur, yaxşısı budur, ölümün indi nə etdiyinə baxaq. Hazırda ölüm həmişə məşğul olduğu şeylərlə məşğuldur, daha doğrusu, əgər geniş yayılmış ifadəylə desək, həmişəki kimi hər yerdə olmaqla məşğuldur. Ona tutmaq istədiyi adamların arxasınca yüyürmək gərək deyil: o, həmişə namizədlər

haradadırsa, orada olacaq. İndi yeni texnologiyalara görə poçt xəbərdarlıqları yollamaqla özünün zirzəmisində sakitcə oturub gözləyə bilərdi ki, poçt onun yerinə işin yarısını icra etsin, lakin fəal, narahat naturası sıxıntıya dözmür, sərbəstlik istəyirdi. Qədim bir məsəl nahaq yerə demir ki, quyuya su tökməklə... ardını özünüz bilirsiniz. Odur ki məcazi mənada desək, ölüm indi sulu quyunun arxasınca gedirdi. Yox-yox, o daha bağışlanılmaz sarsaqlığa yol verməyəcək, içində yaxşı nə varsa – nəhayətsiz ekspansiya imkanını – əzməyəcək və deməli, violonçelçalanın evində keçirdiyi ötən gecə olduğu kimi hərəkət edəcək. Onda, kim bilir, hansı səylər bahasına sıxılaraq cəmləşdi və görmənin son həddində, bu cizgidən keçmədən qala bildi. Mininci dəfə təkrar edək: ölüm lamə-kandır və deməli, musiqiçinin evində də var.

Köpək həyətdə, günün altında yatıb sahibinin gəlişini gözləyir. Bilmir ki, o, hara gedib, nəyə gedib və əgər onun it könlünə sahibinin izini alıb arxasınca getmək düşübsə, it bu arzunu elə o dəqiqə rədd edib, çünki paytaxt şəhərinin dörd bir tərəfə yaydığı yaxşı və pis qoxular heyrətamiz dərəcədə çoxsaylıdır. Gəlin düşünməyək ki, guya, itlər bizim barə-mizdə nəsə bilir – heç bir şey bilmirlər. Amma ölüm – bu, tamam başqa məsələdi. Ölüm bilir ki, violonçelçalan teatrın səhnəsində oturub, dirijordan sağda, yəni onun aləti harada olmalıdırsa, orada. Ölüm onun sağ əlinin kamanı necə işlət-diyini, sol əlinin isə sürətlə – nahaq yerə ona sol deyirlər – simlərdə aşağı-yuxarı gəzişdiyini görürdü. Eynən bu yaxın-larda alaqaranlıqda ölümün özü etdiyi kimi... Hərçənd ki heç vaxt, heç bir alətdə çalmamışdı və musiqinin əlifbasını belə bilmirdi. Dirijor ağacını püpitrin kənarına çaqqıldatmaqla məşqi dayandırdı ki, iradlarını söyləyərək arzusunu bildir-sin: burada violonçellər, hə-hə, məhz violonçellər elə səslən-məlidirlər ki, eşidilməsinlər və musiqiçilər bu akustik müəm-manı asanlıqla açdıqlarını göstərirlər – incəsənət belədir də: onun nabələdlərə qeyri-mümkün gələn nə qədər məqamı var,

amma onda qeyri-mümkün bir şey yoxdur. Demək artıqdır ki, ölüm bütün teatrı ağzına kimi doldurur, lap alleqorik kom-pozisiyalarla bəzədilmiş tavana, nəhəng, indi söndürülmüş çilçırağadək. Lakin baş verənlərə tamaşanı səhnəyə bir qədər çəpəki, lakin ondan hündürdə, bəm simli alətlərə – yəni skrip-kalar ailəsində kontraltonu ifa edən alta, baritona uyğun gələn violonçelə və ən qalın səsi olan kontrabaslara yaxın durmuş lojadan etməyə üstünlük verir. Bax orada, qırmızı məxmər çəkilmiş dar stulda əyləşib gözlərini birinci pultun arxasında oturmuş violonçelçalandan çəkmir – yatmış gördüyü, zol-zol pijama geyən, indi günün altında mürgüləyərək sahibi-nin qayıtmasını gözləyən iti olan violonçelçalandan. Budur o – onun adamı: violonçelçalan, musiqiçi – ondan artıq bir şey deyil, öz şamanının, yəni maestrosunun qarşısında yarım-çevrə qurub oturmuş yüz nəfərə yaxın digər kişi və qadın kimidir və haradasa bu günlərdə, gələn həftə, gələn ay, gələn il onlar da bənövşəyi məktub alacaqlar və boşalan yeri başqa skripkaçı, fleytaçı, şeypurçalan tutacaq və ola bilər ki, artıq başqa şaman onların qarşısında ağacını oynadacaq, səsləri ovsunlayacaq: həyat, ümumiyyətlə, daim çalan, gah ahəng-dar, gah dağınıq səslənən orkestrə bənzəyir, ya da əbədi olaraq okeanın dibsizliyinə qərq olan və mütləq suyun üzünə bir də qalxan "Titanik"ə və ölüm bu an fikirləşir ki, əgər qərq olan gəmi bir də heç vaxt yanlarından axan suyun bir zamanlar Amfitritanın bədənindəki relyefi yuyaraq, onu suları əsdirən – bu ad belə tərcümə olunur – bir ilahəyə çevirən ləpələrin ecazkar nəğməsinin sədaları altında üzə çıxa bilmə-sə, ölüm də özünə daha iş tapa bilməyəcək. Ölüm özündən xəbər alır, bu Amfitrita indi haradadır, görəsən, Nereylə Dori-danın qızı, həmin o qız ki, əslində, heç vaxt yaşamasa da, insan qəlbində qısamüddətlik yuva salır, orada – yenə də qısa-müddətlik – dünyanı dərk etməyin, bu reallıqda məna bul-mağın düzgün yolunu yaradır. "Onsuz da, dərk etməyəcək, tapa bilməyəcəklər, – ölüm fikirləşdi, – nə qədər çalışsalar

da, çünki onların həyatlarındakı hər şey müvəqqəti, laxlaq və qeyri-sabitdir, hər şey dayanmadan ötür, tanrılar da, insanlar da, nə vardısa – artıq bitib, nə varsa – əbədilik deyil və hətta mən özüm də bir zamanlar heç olacam, nə vaxt ki, istər klassik üsulla, istərsə də poçt vasitəsilə daha öldürməyə adam qalmayanda". Biz axı bilirik ki, bu fikir başqa, növbənöv fikirlərin axınına necə pərxaşlıq qatır, amma əvəzində hələ heç vaxt üzücü əməkdən sonra yavaş-yavaş dincəlməyə hazırlaşanda duyduğun böyük yüngüllüklə müqayisəyə gələ bilən bir duyğu oyatmayıb. Qəflətən orkestr susdu və indi yalnız violonçel eşidilirdi: buna solo deyirlər – təvazökar solo, iki dəqiqədən artıq sürməyəcək və adama elə gəlir ki, şamanın çağırdığı qüvvələrin arasından sükutlarını qoruyan onların hamısının yerinə danışa bilən bir səs yüksəlir və hətta dirijorun özü də susub və evlərindəki stulun üstündə İohann Sebastyan Baxın bəstələdiyi altı nömrəli süitanın min on ikinci re major opusu, onun bu teatrda heç vaxt ifa edə bilməyəcəyi süitasının notları olan açıq dəftərini qoymuş violonçelçalanı dinləyir. O çala bilməyəcək, çünki yalnız violonçelçalandır, qoy öz truppalarında lap birinci olsun və bütün dünyanı dolaşan, gül-çiçək və alqışlar, hörmət və mükafat qəbul edən məşhur ifaçıların sırasında olmasın və xoşbəxtlikdir ki, zaman-zaman onun nəsibinə orkestrin bir qayda olaraq çərçivədən çıxmayan sağ tərəfini xatırlamış hansısa bəstəkarın ürəyigenişliyindən bir neçə takt solo ifa etmək nəsib olacaq. Məşq başa çatacaq – o, alətini qutuya qoyacaq, evə baqaj yeri böyük olan taksidə qayıdacaq və görünür, elə bu gün, şam yeməyindən sonra püpitrə Baxın süitasını qoyacaq, dərindən nəfəs alıb kamanı simlərə toxunduracaq ki, ilk çıxardığı not onu həyatın bitib-tükənməz bəsitliyi ilə barışdırsın, ikincisi isə – onları unutdurmağa imkan versin, solo isə artıq bitmişdi və sonuncu akkordun dalğaları orkestrin tuttisiylə[1] susduruldu, şaman isə amiranə bir tərzdə ağacını tərpədib özünün

[1] *um tutti* (tamam) - musiqinin orkestrin bütün heyətiylə ifası



ovsunçu, səs ruhlarının bələdçisi roluna qayıtdı. Ölüm onun violonçelçalanının necə gözəl çalmasıyla fəxr edir. Yaxın qohum kimi, ana, bacı, nişanlı kimi fəxr edir, az qalmışdı, "arvad" da deyək, amma o, heç vaxt evli olmayıb axı.

Növbəti üç günü buradan yalnız öz zirzəmisinə qaçmaq, növbəti məktubları tələsik yazmaq və onları poçtla yola salmaq üçün aralanan ölüm violonçelçalanın kölgəsinə deyil, onun nəfəs aldığı havaya çevrildi. Kölgənin axı, etiraf edək, böyük qüsuru var: onu işıq mənbəyi olmadan görmək mümkün deyil. Ölüm isə violonçelçalanla onu evlərinə aparan taksidə oturmuşdu, onunla birlikdə evə girirdi, sevincindən ağlını itirmiş köpəyin necə atılıb-düşməsinə mərhəmətlə baxırdı, sonra isə, sanki, onu bir müddətlik qonaq çağırmışdılar bura, – özünü rahatlayırdı. Hərəkət etməyə ehtiyacı olmayan üçün bu asandır: ölüm üçün fərqi yoxdur – döşəmədə otursun, ya da dolabın üstünə dırmansın. Məşq uzanmışdı, lap tezliklə axşam düşəcəkdi. Violonçelçalan iti yedirtdi, sonra içindəkiləri qızdırmaq lazım olan iki tənəkə qabı boşaldıb qızdırdı, özü üçün şam hazırladı, ardınca məhrəbanı mətbəx masasının üstünə saldı, boşqabları düzdü, salfet qoydu, stəkana çaxır süzdü və tələsmədən, sanki, tamam başqa şeylər haqda düşünürmüş kimi çəngəli ağzına apardı. Köpək masanın yanında oturmuşdu, bilirdi ki, sahibinin onu öz boşqabından nələrəsə qonaq etmək imkanı var – onun üçün də desert kimi bir şey olardı. Ölüm violonçelçalana baxırdı. Əslində, o, gözəlliyi eybəcərlikdən seçə bilmir və bəlkə də, ona görə sifət yerinə onun kəlləsi var – gözsüz və burunsuz – bu kəllə isə bizim mahiyyətimizi aşkarlamaq, onu xarici görünüşümüzün vitrinindən bayıra çıxarmaq istəyir. Əslində, lap əslində və həqiqətdə – bu həqiqəti gizləyə bilməzsən – ölümün gözündə biz hamımız eyni dərəcədə eybəcərik, hətta gözəllik ilahəsi və ya onun kişilər üçün olan tituluna layiq görüləndə belə. O, violonçelçalanın barmaqlarının necə güclü olduğu barədə nəticə çıxara bilərdi, sol əlinin barmaqlarının ucları isə, yəqin, kobud idi,

bəlkə də, lap qabarlamışdı: həyat, ümumiyyətlə, ədalətsiz qurulub – sol əlin öhdəsinə daha ağır zəhmət düşür, publikanın bütün alqışları isə kamanı hərəkət etdirən ələ düşür. Şam yeməyini bitirib, qabları yudu, məhrəbanı və salfeti səliqəylə qatlarından bükdü, bufetin çəkməcəsində gizlətdi və mətbəxdən çıxmamışdan ora bir də göz gəzdirdi – hər şey yerindədirmi deyə. İt onun arxasınca musiqi salonuna keçdi, ölüm orada gözləyirdi. Bizim çoxdankı ehtimallarımıza rəğmən, violonçelçi Baxın süitasını çalmağa başlamadı. Bir dəfə orkestrin başqa üzvləriylə özünün musiqi portretini – həqiqi portretini, məsələn, Musorqskinin yaratdığı Qoldenberq və Şmulya[1] kimi tiplərin yox – yaratmaq imkanları barədə yarızarafat söhbət düşəndə o dedi ki, onun portreti, əgər musiqidə, həqiqətən, belə bir şey varsa, violonçel üçün əsərlərdə axtarılmamalıdır, çünki orada yoxdur, onu Şopenin[2] qısa etüdündə axtarmaq lazımdır, iyirmi beşinci opus, nömrə doqquz, sol-bemol major. Ondan soruşanda, niyə, cavab verdi ki, özünü not xətlərindən savayı başqa bir yerdə heç vaxt görə bilməyib və bu, səbəblərin ən əsaslısıdır. Və bir də əlavə etdi ki, əlli səkkiz saniyədə Şopen tanımadığın bir insan haqda nə məlumat vermək lazımdırsa, hamısını verib. Bir neçə gün zarafatcıl yoldaşları onu "əlli səkkiz saniyə" çağırırdılar, lakin ləqəb ona yapışmadı, çünki həddən ziyadə uzun idi və həm də sənin sualına əlli səkkiz saniyədə cavab verməyə hazırlaşan birisiylə dialoq aparmaq da mümkün şey deyil. Və indi violonçelçi, sanki, evdə naməlum səbəblərdən özü haqqında danışmalı olduğu üçüncü bir kimsənin də mövcudluğunu hiss edərək və hətta ən primitiv həyatı, az da olsa, anlatmaq üçün zəruri sayılan uzun-uzadı moizələrə üz qoymadan royalın arxasına keçdi və publikanın özünə gəlməsini bir qədər gözləyib pyesə hücum çəkdi. Püpitrin yanında

[1] M.P. Musorqskinin (1839–1881) "Sorgidən şəkillər" (1874) silsiləsindən "Samuel Qoldenberq və Şmulya" pyesi nəzərdə tutulur.

[2] *Friderik Şopen* (1810–1849) – polyak bəstəkarı və pianoçusu

mürgüləyən it təpəsinə tökülən səs tufanına elə əhəmiyyət vermədi – ya ona görə ki, bu kompozisiyanı əvvəllər də eşitmişdi, ya da o səbəbdən ki, sahibi barədə ona bəlli olan məlumatlara bu pyes heç nə əlavə etmirdi. Tutduğu vəzifəyə görə bir çox rəngarəng musiqilər eşitmiş – onların arasında elə həmin Şopenin dəfn marşı, ya da Bethovenin üçüncü simfoniyasından adajio assau[1] məxsusi yer tuturdu – nəhayətsiz dərəcədə uzun ömrü ərzində ilk dəfə dərk etdi ki, haqqında danışılanla necə danışmaq arasında ideal dinc yanaşı yaşam yarana bilər. Ehtiyac yoxdur ki, bu, violonçelçalanın portretidir, özü də bu musiqi parçasıyla lap uzaq da olsa, bənzərliyini, yəqin, özü düşünmüş və təxəyyülündə canlandırmışdı: ölümü ən çox sarsıdan istənilən və hər bir insan həyatının, istər adi olsun, istər qeyri-adi, bu əlli səkkiz saniyəlik ritmik və melodik səslənməyə uyğunlaşdırılması oldu, məsələ çıxılmazlıqla çulğanmış faciəvi qısalıqda və bir də onda idi ki, elə bil, pauza işarəsiylə bitən final akkordu havadan, nə bilim hansı boşluqdan asılı qalırdı, sanki, nəsə hələ deyilməmiş mətləblər vardı. Violonçelçi insanın ən bağışlanmaz günahlarından birinə uymuşdu və bu günahın adı təşəxxüs idi – o, hamını əks etdirən portretdə özünün şəxsi və müstəsna fiqurunu təxəyyülündə canlandırırdı və bu təşəxxüs, əgər ona diqqətli bir nəzər yetirsək, üzərində ilişməyərək daxilinə nüfuz etsək, təşəxxüsə zidd olan bir hissin, yəni mütiliyin təzahürü kimi yozula bilərdi, çünki bu portretdə əgər bizim hamımız varıqsa, deməli, orada mənə də yer olmalıdır. Ölüm tərəddüd edir, zira bunun təşəxxüs, yoxsa itaət olduğu barədə qərarını qətiləşdirməyib, bir də şübhələrinin girdabından qurtulmaq üçün violonçelçalanı nəzərdən keçirməyə başlayır, o ümidlə ki, üzünə və əllərinə nəzər salmaqla nəyin çatmadığını aydınlaşdırsın, çünki ələ baxıb onu açıq kitab kimi oxumaq olur və məhəbbət xəttini, həyat xəttini araşdıran, hə-hə, yanlış eşitmədiniz, həyat dedim,

[1] Sürət və ifadəliliyi göstərən musiqi termini – "çox ahəstə"



həqiqi və yalançı xiromantiyaya dəxli yoxdur bunun, məsələ onlarda deyil, sadəcə, əllər danışa bilir: nitq kimi sıxılıb-boşalanda, sığal çəkib vuranda, göz yaşını siləndə, təbəssümü gizləyərək ağzı tutanda, kiminsə çiyninə enəndə, ya da vidalaşarkən yellənəndə, sakit qalanda və işləyəndə, yatmış və oyaq olanda və ölüm bu yerdə öz müşahidələrini başa çatdıraraq belə bir nəticəyə gəlir ki, təşəxxüsün antonimi – əslən mutilik deyil, lap əgər hamı bir ağızdan bunu desə belə, yer üzündə mövcud olan bütün lüğətlər – yalnız mövcud olan sözlərlə idarə olunub, bizi idarə etməyə çalışan, halbuki o qədər heç yana yazılmamış, məsələn, götürək təşəxxüsə əks mövqedə durmalı olan, amma əyilmiş başa qətiyyən dəxli olmayan mütilik kəlməsini – bu bədbəxt məxluqlar and içib xaç çəksələr də, bu belədir və nə olsun ki, violonçelçinin üzündə və əllərində oxunan ifadə öz adını bizə deyə bilmir.

Ertəsi gün bazara düşdü. Hava imkan verəndə – məsələn, bugünkü kimi – violonçelçalan səhər saatlarını, adətən, özüylə itini və bir-iki kitab götürərək, şəhər parklarından birində keçirir. İt heç vaxt uzağa qaçmır, hətta əgər instinkt onu həmcinslərinin nişanələrini yoxlamaq üçün ağacdan-ağaca yüyürməyə məcbur etsə belə. Vaxtaşırı dal ayağını qaldırıb təbii ehtiyaclarını ödəməklə kifayətlənir, vəssalam. Digər daha köklü ehtiyaclarını o, intizamlı şəkildə evin yanındakı bağçada, özünün yaşadığı yerdə ödəyir və bununla da, sahibini onun ardınca məxsusi olaraq it nəcisinin yığılması üçün nəzərdə tutulmuş plastik torba və kiçik bellə gəzməkdən azad edir. Tərbiyənin belə uğurlu nəticələrinə valeh olmaq mümkün idi, bircə qeyri-adi məsələ olmasaydı. İş burasındaydı ki, bu, itin öz xoş istəyiylə baş verirdi və o, bu fikirdə idi ki, min iyirmi re-major opusundan Baxın süitası üzərində çalışan musiqiçi, artist, violonçelçalan bu dünyaya onun üçün gəlməyib ki, özününkü və yaxud istənilən başqa itin hələ isti nəcisini toplasın. "Olmaz, – deyə bir dəfə sahibiylə söhbətdə demişdi, – bax, məsələn, Bax bunu heç vaxt etməzdi". Musi-

qiçi isə ona cavab vermişdi ki, o vaxtlardan zəmanə yaman dəyişib, amma həm də etiraf etməyə məcbur olmuşdu ki, məsələn, Baxın özü, həqiqətən, bunu heç vaxt etməyib. Baxmayaraq ki o, hər cür ədəbiyyatı sevirdi – onun kitab rəflərinə bircə nəzər salmaq bəs idi – amma xüsusi rəğbəti astronomiya və digər, onun itinin ehtiyaclarından az təbii olmayan elmlərə idi, bu gün isə özüylə entomologiya dərsliyini götürmüşdü. Violonçelçinin bu sahədə ibtidai hazırlığı çatışmadığından o, çox şeyə ümid eləmirdi, o, sadəcə, yer üzündə həşəratların, təxminən, milyon növünün olması, onların qanadlılar və ilkinqanadsızlar dəstəsinə, onlarınsa öz növbəsində tarakankimilər, düzqanadlılar, torqanadlılar, pərdəqanadlılar, ikiqanadlılar, sinəxortumlular, samanyeyənəbənzərlərə ayrılmasından zövq alırdı. Budur, şəkildə "ölübaş" adlandırılan lepidopter, yaxud pulluqanadlılar yarımdəstəsinin nümayəndəsinin şəkli təsvir olunub və əgər bu şəklə inansaq, bu, latınca *axeronita atropos* adlandırılan kəpənəkdir. Gecəuçanlar ailəsindəndir, bədəninin bel hissəsində insan kəlləsini andıran ağ ləkə var, uzunluğu on iki santimetrə çatır, rəngi – tünd, arxa qanad cütü – qara-sarı rəngdədir. Onun adı belədir – atropos, yəni – ölüm. Violonçelçalan bilmir və heç vaxt təsəvvürünə belə gətirməzdi ki, ölüm onun arxasından kəpənəyin rəngli fotoşəklini maraqla nəzərdən keçirir. Maraqla, lakin çaşqın tərzdə. Xatırlayaq ki, həşəratların olumdan ölümə keçməsi üçün cavabdeh, daha doğrusu, onları öldürən o deyil, başqa parkidir və baxmayaraq ki hər ikisinin *modusoperandi*-si eyni idi, lakin bir xeyli fərq də vardı: elə onu demək kifayətdir ki, həşəratlar insanlar arasında çox geniş yayılmış səbəblərdən, məsələn, ciyər iltihabı, vərəm, xərçəng, qazanılmış immun çatışmazlığı sindromu, sadə dillə isə – viç-infeksiya, təyyarə qəzası, ya da ürək-damar çatışmazlığından ölmürlər. Bu, hamıya aydındır. Ölümün çaşqınlığına səbəb olan nəsnəni anlamaq daha çətindir, o, musiqiçinin arxasından insan kəlləsinin qeyri-adi dərəcədə



dəqiq təsvirinə baxırdı, kim bilir, yaranışın hansı anında kəpənəyin tüklü belini bəzəmiş təsvirə. Hə, bəzən insan bədənində də kəpənək təsvirinə rast gəlmək olar, amma insan bu təsvirlə doğulmur axı – bu təsvirlər adi döymədir. Ölüm düşünür ki, bəlkə də, bütün canlıların bir tam, vahid olduğu zamanlar varmış, beş səltənətə – təkhüceyrəlilərə, bəsitlərə, göbələklərə, bitkilərə və heyvanlara sonradan bölünüblər, elə onların içində də – biz həmin o səltənətləri nəzərdə tuturuq – saysız-hesabsız tarixi dönəmlərdə makro və mikro ixtisaslaşmanın bitməz zənciri başlanaraq davam edib, odur ki əgər bu bioloji dolaşıqlıq və qarışıqlıqda bir növlərin əlamətləri başqalarında peyda olubsa, buna təəccüblənmək gərək deyil. Bəlkə də, bu yalnız adında ölülər səltənətindəki çay adının "ölüm" kəlməsindən əvvəl gəldiyi *axeronita atropos* kəpənəyinin belində ağ kəllənin mövcudluğunu izah etmir, həm də mandraqora kökünün insan bədənini andırması kimi daha narahatlıq doğuran məqamı da aydınlaşdırır. Təbiətin belə bir möcüzəsiylə rastlaşanda, belə qəribəliklər görəndə bilmirsən ki, nə düşünəsən. Lakin bayaqkı kimi violonçelçinin arxasından baxan ölümün düşüncələri artıq tamam başqa istiqamətə yönəlmişdi – əslində, sarsaq, lakin əvvəlcə ona çox uğurlu bir ideya kimi görünən bənövşəyi məktubların yerinə kəllə nişanı daşıyan kəpənəklərdən istifadə etmək ağlına gəlmədiyi üçün kədərlənirdi. Kəpənəyin heç vaxt ağlına gəlməzdi ki, əliboş qayıtsın, o, özünün məqsədini belində daşıyır və bunun üçün doğulub. Hə, bunun təsiri də müqayisəyəgəlməz dərəcədə güclü olardı, əgər məktubu təqdim edən adi poçtalyonun yerinə başımızın üzərində on iki santimetrlik kəpənək qanad çalsaydı, zülmət mələyi öz qarasarı qanadlarını geniş açsaydı və süzən uçuşla havada bizim artıq içindən çıxa bilməyəcəyimiz bir çevrə cızıb düz qarşımızda dik yuxarı qalxsaydı və belindəki kəlləni bizim başımızın səviyyəsində saxlasaydı. Tamamilə yəqindir ki, belə akrobatik cəldliyi görəndə biz alqışlara xəsislik etməzdik.

Bütün yuxarıda söylənilənlərdən belə nəticə hasil olur ki, insan nəslinin tapşırıldığı ölüm hələ çox şey öyrənməlidir. Zira, bizim bildiyimiz kimi, kəpənəklər onun yurisdiksiyasında deyillər. Nə kəpənəklər, nə də heyvanlar səltənətinin sayı bəlli olmayan digər nümayəndələri. Bizim ölüm zoologiya departamentindən olan həmkarı ilə müqavilə bağlamalı, bir neçə *axeronita atropos* kəpənəyini əlborcu götürməli olardı, özü də qabaqcadan həyat arealları ilə saylarının nisbətini nəzərə alıb, səhv etməkdən qorxmayaraq, demək olar ki, həmkarının özündənrazı, sayğısız və birmənalı rədd cavabı verəcəyi yəqindir, bu isə hətta ölümlər arasında belə əsl yoldaşlıq tapmağın çətin olduğuna sübutdur. Entomologiyanın ibtidai kursundan alınmış məlumata diqqət yetirin: həşəratların milyondan artıq növü var və hər belə növdəki fərdlərin sayını təsəvvürünüzə gətirməyə çalışın və əgər bu poetik anlayışla kainatın kovulsiyalarda titrəyən, bizim, sadəcə, əhəmiyyətsiz bir sap olduğumuz, sayımızınsa sıfra can atan nəhayətsiz dərəcədə kiçik bir rəqəmlə ifadə olunduğumuz reallığını əvəz etsək, soruşarıq: deyin görək, yer üzündə bu məxluqlar göydəki ulduzlardan çox deyilmi? Beş kontinentə yayılmış cəmi yeddi milyard insana ağalıq edən ölüm – üçüncü dərəcəli ölümdür, tabelikdə olan, hələ bu azmış kimi, tanatosun iyerarxiyasında nə qədər əhəmiyyətsiz yer tutduğunu gözəl bilən və bunu adını baş hərflə yazmış qəzetin redaksiyasına göndərdiyi məktubda etiraf etmək cəsarətini özündə tapan ölüm. Lakin ayağını arzunun kandarına basmaq istəyəndə ölüm artıq violonçelçinin çiyninin üstündən baxmırdı, indi o, əgər ixtiyarına bir eskadrilya kəpənək verilsəydi, onlardan necə istifadə edəcəyi haqda şirin xəyallara dalmışdı – budur, onlar masanın üstündə sıraya düzləniblər, o isə kəpənəkləri bir-bir irəli çağıraraq əmrlərini verir: filan yerə uçursan, filankəsi tapırsan, kəlləni ona göstərib geri dönürsən. Və musiqiçi düşünəndə ki, şəkildəki *axeronita atropos* dirilərək kitabın səhifəsindən uçub, bu, onun sonuncu fikri

və gözünün tor qişasına həkk olunmuş sonuncu təsvir olacaqdı və ona ölüm müjdəsini nə Marsel Prust kimi şişman qadın gətirəcəkdi, nə də can verənlərin iti gözlərinə görünən kəfənə bürünmüş skelet. Kəpənək, kəpənəkdən və belində kəllə şəklində ağ ləkə olan böyük, qara kəpənəyin qanadlarının ipək xışıltısından başqa heç nə.

Violonçelçalan saata baxdı – nahar vaxtı çoxdan keçmişdi. Artıq on dəqiqədən bəri elə bu haqda düşünən köpək sahibinin yanında oturaraq başını onun dizinə qoymuşdu və hövsələylə onun bu dünyaya dönməsini gözləyirdi. Yaxınlıqda kiçik bir restoran vardı, oradan sendviç və onun kimi sadə, bəsit yeməklər almaq olardı. Səhərlər bu parka gələn violonçelçi həmin o müəssisənin müştərisinə çevrilir və hər dəfə eyni şeyi sifariş edir: mayonezlə iki balıq sendviçi və bir badə çaxır özü üçün, alaçiy ətlə sendviç isə – itə. Əgər hava bugünkü kimi yaxşıdırsa, onlar ağac kölgəsində, elə yerdəcə otururlar, yeyə-yeyə söhbət edirlər. Sendviçini sökən it ən dadlı tikəni axıra saxlayır, əvvəlcə çörək tikələrini udur, sonra isə alaçiy, sulu əti tələsmədən çeynəyərək tamını çıxarır. Violonçelçalanın fikri isə dağınıqdır, Baxın re-major süitası haqda düşünür, prelüdiya barədə; orada olan bir qəliz gəzişmədə artıq neçə dəfə tərəddüd və şübhələr içində ilişməli olub, bu isə musiqiçinin həyatında baş verə bilən ən pis hadisədir. Yeməyi bitirib otun üstündə uzanırlar: violonçelçi qısa müddətə mürgüləyir, it isə ondan da bir dəqiqə qabaq yatıb. Sonra oyandılar, evə döndülər – ölüm də onlarla birgə. Köpək böyük it işlərinin arxasınca həyətə yüyürəndə violonçelçalan süitanı püpitrin üstünə qoydu, həmin o sehrli yeri olan səhifəni açdı – lap şeytan əməlidir bu *pianissimo* – və yenə amansız tərəddüdlərinə qərq oldu. Ölümün ona yazığı gəldi: "Bədbəxt, onsuz da, istədiyi nəticəyə nail olmağa vaxt tapmayacaq, elə bütün çalan adamlar kimi: məqsədlərinə nə qədər yaxınlaşsalar da, yenə uzaqdırlar ondan". Və bu yerdə o, ilk dəfə fikir verdi ki, bütün evdə bircə dənə də olsun qadın



şəkli yoxdur, əgər bir ahıl qadının portretini saymasaq və o da musiqiçinin anası ola bilərdi və bir cənabla qol-qola çəkdirmişdi bu şəkli, kişi isə, yəqin, onun atası idi.

* * *

– Mənim səndən böyük xahişim var.

Dəryaz, adəti üzrə, cavab vermədi, amma deyilənləri eşitdiyinə yüngülcə əsməsi dəlalət edirdi, bu hərəkət ümumi çaşqınlığın fiziki təzahürü idi, çünki hələ heç vaxt onun sahibinin ağzından "xahiş", özü də "böyük xahiş" kəlməsi çıxmamışdı.

– Bir həftə olmayacam və mənə lazımdır ki, məktublarımı göndərəsən, təbii ki, yazmağını xahiş etmirəm, yalnız yollamaq lazımdır, bunun üçünsə təkcə fikrində əmr verməlisən, sonra isə ya hər hansı bir fikirlə, ya da hisslə – bunun fərqi yoxdur: təki sənin diri olduğunu göstərsin – tiyəni titrətməlisən və bu bəs edəcək ki, məktublar ünvanına getsin.

Dəryaz sükutunu pozmurdu, amma indi bu sükutun özündə də bir sual çaları vardı.

– Mən poçtla məşğul olmaq üçün ora-bura gedə bilmirəm, mən gərək violonçelçalanın məsələsini həll etmək üçün bütün diqqətimi cəmləşdirim və ona bu zəhrimar məktubu çatdırmağın yolunu tapım.

Dəryaz susurdu – amma indi bu susmada gözlənti vardı. Ölüm fikrini davam etdirirdi:

– Mən də belə fikirləşdim – oturub, olmayacağım bir həftədə yollanası məktubları birdəfəyə yazaram və bunu yalnız belə fövqəladə vəziyyətə görə özümə rəva bilirəm, sənin isə öhdənə yalnız onları yollamaq düşəcək, heç yerə çıxmağına da ehtiyac yoxdur və diqqət elə – mən səndən dostyana bir kömək istəyirəm, amma, sadəcə, əmr də verə bilərdim. Çünki son zamanlar sənin xidmətindən istifadə etmirəmsə, bu, o demək deyil ki, daha mənim qulluğumda deyilsən.

Dəryazın sükutu – bu dəfə artıq mütilik dolu – onun sonuncu tezisini təsdiqlədi.

– Deməli, razılaşdıq, – ölüm yekun vurdu, – bu gün axşama kimi məktubları yazacam, mənim hesablamalarıma əsasən, iki min beş yüz dənə olmalıdır, təsəvvür edirsən, işin axırına canım lap çıxacaq, məktubları isə masanın üstündə günlər üzrə səkkiz yerə ayıracam, soldan-sağa, diqqət et, çaşmayasan, yoxsa sonra ayırmaq baş ağrısıdır, bir də adresatın məktubunu ya çox tez, ya çox gec almasını Tanrı göstərməsin.

Belə qəbul olunub ki, sükut razılıq əlamətidir. Dəryaz susurdu və deməli, etirazı yox idi. Ölüm kəfənini çəkib, kapüşonu peysərinə saldı ki, mane olmasın və yazmağa oturdu. Neçə saat dalbadal yazdı, yazdı, yazdı: məktub yazır, zərflərin üstündə ünvanları qeyd edir, sonra paketin içinə qoyur, ağzını yapışdırırdı və təbii ki, kimsə soruşa bilər: əgər onun, üstündən tüpürcək axan dili yoxdursa, necə yapışdırır onları, lakin qabaqlar, bu işlər bəsit həll olunan dövrlərdə, biz mağarada yaşayanda, hələ modernləşmə sürət yığmamışdan beləydi, indi isə zərflərdə bir dənə bic kağız zolaq var, onu qoparırsan – vəssalam, odur ki dilin saysız-hesabsız funksiyalarından biri də artıq tarixə gömülüb. Bu yorucu işin axırında ölümün canı ona görə çıxmadı ki, olmayan şey necə çıxacaqdı ki. Amma, əslində, bu bir sözdür də, deyirlər, belə sözlər özünün ilkin mənasını tamam itirəndən sonra da biz onlardan yenə istifadə edirik. Ölüm isə əlinin vida hərəkətiylə bugünkü iki yüz səksən neçə məktubu yox olmağa məcbur etdi, çünki sabahdan etibarən poçt ekspeditoru vəzifəsinə dəryaz qədəm qoyacaqdı, görəcəyi işlər haqda isə lap indicə deyilmişdi ona. Vidalaşmaq üçün bircə söz də deməyən ölüm stuldan qalxdı, bu balaca otağın yeganə qapısına tərəf getdi – haqqında bir nesə dəfə söz açdığımız, amma nə üçün olduğu heç ağlımıza belə gəlməyən həmin o qapı – onu açdı və kandardan keçərək, yenə bağladı. Dəryazın yaşadığı hisslər o qədər güclü idi ki, mübhəm bir titrəyiş onun bütün tiyəsini lap iti ucuna qədər



sardı. Dəryazın xatırladığı qədərincə, bu qapıdan hələ istifadə edən olmamışdı.

Vaxt isə keçirdi və o qədər keçdi ki, günəşin doğulması üçün bəs edərdi – haradasa bayırda, heç vaxt zəif, bulanıq, sanki, qaranlıqda uzanmaqdan qorxan ölüdən kölgələri qovmaq üçün nəzərdə tutulmuş lampaları sönməyən bu ağ, soyuq otağın divarları arxasındaydı günəş. Lakin ölümün əmrini yerinə yetirmək, bugünkü məktubları azadlığa buraxmaq vaxtı hələ yetişməmişdi – hələ bir az da yatmaq olardı. Bu sözləri, adətən, yuxusuzluqdan əziyyət çəkənlər, gecəni səhərədək gözlərini yummayanlar deyirlər, bu yazıqlar elə bilirlər ki, onlara bircə dəqiqə də rahatlıq verməmiş yuxunun lap qısamüddətli belə olsa, gəlməsini xahiş etməklə onu aldada bilərlər. Bütün bu saatlarını tam tənha keçirən dəryaz ölümün bu qapıdan istifadə etməsinin izahını axtarırdı, çünki bu qapı qoyulandan, sanki, əbədilik bağlı qalmaq, yalnız dekorasiya rolunu oynamaq üçün qoyulmuşdu. Və nəhayət, baş çatlatmaqdan əl çəkdi, fikirləşdi ki, gec-tez bu qapının arxasında nələrin baş verdiyi də aydınlaşacaq, çünki ölümlə dəryaz arasında heç bir sirr ola bilməz, eynilə – oraqla onun dəstəyini sıxan əl arasında olduğu kimi. Və çox gözləmək lazım gəlmədi. Dəqiqə əqrəbi çevrənin yarısını yüyürmüşdü ki, qapının arasında bir qadın peyda oldu. Dəryaz eşitmişdi ki, hərdən belə də olur, ölüm bəzən insan qiyafəsinə girir, adətən də, qadın – görünür, qrammatika baxımından cinslərinin eyniliyinə görə – lakin bunu həmişə uydurma, əfsanə, necə deyərlər, mif sayırdı, təxminən, öz külündən doğulan feniks kimi, ya da öz saçından yapışıb özünü bataqlıqdan çıxaran baron Münhauzen, nə qədər öldürsən də, ürəyinə ağcaqovaq payası çalmadan öldürə bilmədiyin transilvaniyalı Drakula kimi, düzdür, deyirlər ki, bəzən heç paya da kömək eləmir, ya da bir irland inancındakı, əsl kral toxunanda qışqıran məşhur daş kimi, ya da yanan məşəlləri söndürən, söndürülmüşləri yandıran

Epir bulağı[1] və yaxud tarlaların məhsuldarlığını artırmaq üçün aybaşı qanından onlara səpən qadınlar, ya it boyda qarışqalar, ya qarışqa boyda itlər, ya da iki gündən bir düşə bilmədiyindən hər üç gündən bir yetişən bazar günü kimi.

– Sən çox gözəlsən, – dəryaz dedi və onun bu qeydi çox ədalətli idi: ölüm, həqiqətən, çox gözəl idi və otuz altı-otuz yeddi yaşından böyük olmazdı, bunu antropoloqlar düzgün hesablamışdılar.

– Hə-ə, axır ki, açdın ağzını, – ölüm ucadan dedi.

– Bəhanə düşdü əlimə: ölümün ona düşmən olan cinsin cildinə girdiyini hər gün görə bilməzsən.

– Başqa sözlə desək, mənim gözəlliyimə valeh olduğundan danışmadın.

– Bir az da ona görə danışdım, lakin müsyö Marsel Prust kimi qara paltarlı, qoca, kök qadın qiyafəsində gəlsəydin belə, danışacaqdım.

– Mən kök deyiləm və heç qara paltar da geymirəm, sən isə heç bilmirsən ki, Marsel Prust kimdir.

– Tamamilə bəlli səbəblərdən dəryazlar – həm insanları biçmək üçün olanlar, həm də ot-ələfdə çalışanlar – oxuya bilmirlər, əvəzində biz hamımız – bir qismimiz ot şirəsindən, mən isə konkret olaraq qandan – gözəl yaddaşa malikik və bu adı artıq neçə dəfə eşitmişəm deyə, faktları qarşılaşdırmaq mənim üçün çətin deyildi, özümə aydınlaşdıra bildim ki, o, böyük yazıçıdır. Bəlkə də, yer üzündə nə vaxtlarsa yaşamış ən böyüklərindən biridir və onun formulyarı da haradasa arxivlərdə olmalıdır.

– Amma mənimkində yox, onu mən öldürməmişəm.

– Nədir, məgər bu müsyö Marsel Prust yerlilərdən deyil? – Dəryaz təəccübləndi.

– Yox, o, Fransa adlı ölkədəndir, – deyə ölüm cavab verdi və onun səsində aşkar bir təəssüf oxundu.

[1] Roma yazıçısı Böyük Plini (23–79) yazırdı ki, Epir bulağının suyu sönmüş məşəlləri yandırmaq qüdrətində idi, halbuki yanan məşəlləri adi su kimi söndürürdü.

– Hə, nə olsun ki onu sən öldürməmisən, – dəryaz kömək etmək istədi, – qəm yemə, əvəzində sən gör necə gözəlsən.

– Mən həmişə bilirdim ki, sən əsl dostsan, amma buna görə kədərlənmirəm.

– Bəs nəyə görə?

– İzah edə bilmərəm.

Dəryaz ona bir qədər təəccüblə baxdı və başqa bir şeydən danışmağı daha doğru saydı.

– Bəs bu əynindəkiləri haradan tapdın?

– Bu qapının arxasında yaxşı seçim var: ora mağaza kimi, nəhəng dərzixana kimi bir şeydir, orada yüzlərcə dolab, yüzlərcə maneken, minlərcə asılqan var.

– Bir dəfə məni də apar, – dəryaz xahiş elədi.

– Nə xeyri var, sənin üslublardan, dəblərdən heç başın çıxmır.

– Hə, düzünü desək, heç sən özün də bu barədə bir şey bilmirsən, elə bircə nəzər salmaq kifayətdir ki, paltarlarının müxtəlif qisimlərinin necə zövqsüz seçildiyini görəsən.

– Sən bu otaqdan çıxmırsan və ona görə də camaat indi nə geyir, bunu bilməzsən.

– Amma buna baxmayaraq, görürəm ki, əynindəki köynək mənim əyyamımda geyilənlərə çox bənzəyir.

– Moda – mütəhərrik bir şeydir, elə bir mərkəzin ətrafında dövrə vurur, gedəcək də, gələcək də, amma küçələrdə gördüyümü danışsam, inanmazsan.

– Heç danışmasan da inanaram.

– Hə, indi nə demək istəyirsən, deməli, bu köynək bu şalvarla, bu ayaqqabılara yaraşmır?

– Yaraşır, – dəryaz etiraf etməyə məcbur oldu.

– Bəs başımdakı beret necə?

– O da yaxşıdır.

– Bəs bu dəri jaket?

– O da.

– Çiynimdəki çanta?

– Mən axı nə dedim ki?

– Qulaqlarımdakı sırğaya bax, onlar necədir?

– Yaxşı, mən tabe.

– Etiraf elə də, mən qənirsiz gözələm.

– Bu, sənin yoldan çıxarmaq istədiyin kişilərin tipindən asılıdır.

– Hər halda, sənin özünə elə gəlir ki, mən cazibədaram.

– Mən axı sözümü elə bundan başladım.

– Əgər belədirsə, onda salamat qal, bazar günü qayıdacağam, ən geci – bazar ertəsi, hər gün məktubları yollamağı unutma, düşünmürəm ki, bu, günlər uzunu divara söykənib qalmış birisi üçün elə ağır iş ola.

– Məktubları unutmamısan ki? – dəryaz özünü anlamaz kimi göstərib, istehzanı qulaqardına vuraraq soruşdu.

– Buradadırlar, – deyə ölüm cavab verib, hər kəsin məmnuniyyətlə dodaqlarına yaxınlaşdırmaq istədiyi nazik, qulluq görmüş incə barmaqlarını çantasına vurdu.

Gündüz işığında ölüm şəhər ətrafındakı dar, sağ-soldan divarlarla sıxışan küçəyə çıxdı. Nə onun çıxa biləcəyi qapı, nə də ki darvaza görünürdü, torpağın soyuq altından onu bura gətirmiş yolu bərpa etmək üçün nə bir nişanə, nə bir əlamət vardı. Günəş boş göz koğuşlarını qamaşdırmırdı və elə bu səbəbdən arxeoloqların qazıntılarda tapdığı kəllələrin qəfil işıq onların üzünə vuranda gözlərini qıymasına ehtiyac qalmır, bəxtəvər alim isə bərkdən qışqırır ki, bütün əlamətlərinə əsasən, neandertal adamı tapıb, hərçənd ki sonrakı baxış mütləq bu sümük fraqmentlərinin bir yerə düzüləndə adi homo-sapiens[1] kəlləsi əmələ gətirdiyini birmənalı isbat edəcək. Lakin qadına dönmüş ölüm, öz çantasından tünd rəngli eynəyini çıxararaq, özünün insan gözlərini hələ yay səhərinin parlaq nuruna öyrəşməmiş adamlarda tez-tez oyanan oftalmiyadan qoruyur. Ölüm küçə ilə divarların bitdiyi, ilk evlərin göründüyü yerə kimi küçəylə qalxır. Burada ona hər

[1] *Homo-sapiens* – şüurlu adam (*lat.*)



şey tanışdır: bircə dənə də ev yoxdur – gözlərinin qarşısında nə qədər ucalsalar da, lap şəhərin kənarına, lap dövlət sərhədinə kimi nə qədər uzanıb getsələr də – ki, azından bircə dəfə ora baş çəkməmiş olsun və hətta bax o tikintiyə də iki həftədən sonra gəlməli olacaq ki, ehtiyatsız, ayağını hara qoyduğuna baxmayan bənnanı damdan aşağı itələsin. Belə vəziyyətlərdə, adətən, deyirlər: "Həyat beladir də", – hərçənd ki biz daha dəqiq, daha mükəmməl ifadə edərdik bu vəziyyəti, əgər belə desəydik: "Ölüm beladir də". Lakin taksiyə əyləşən tünd eynəkli xanımı biz bu adla çağırmayacağıq, belə qərarlaşdıraq ki, bu elə həyatın özüdür və nəfəsimiz kəsilə-kəsilə onun arxasınca düşək və əgər başqa bir taksi saxlatmaq bizə qismət olsa, sürücüyə belə deyək: "Bax o maşının dalınca sür", – amma bundan bir nəticə hasil olmaz, çünki onu aparan taksi artıq tini buruldu və yaxınlıqda da bir başqası yoxdur ki, onun sürücüsünə belə deyə biləк: "Bax o maşının dalınca sür". Odur ki indi tam hüquqla və əsasla belə demək olar: "Həyat beladir də". Sonra da taleyə baş əyib ancaq çiyinlərimizi çəkməliyik. Lakin qoy bizim təsəllimiz o olsun ki, xanımın çantasındakı zərfin üstündə bizim adımız, bizim ünvanımız göstərilməyib və deməli, hələ damdan yıxılmağımızın da vaxtı deyil. Ölüm isə təxmin etdiklərimizə rəğmən, taksiyə violonçelçalanın evinə deyil, onun işlədiyi teatra sürməyi tapşırdı. Heç şübhə yox idi ki, məruz qaldığı uğursuzluq zəncirindən sonra o, qətiyyətlə, səhvsiz hərəkət etmək niyyətindəydi, lakin onun bu əməliyyata qadına, qrammatik ruhda mülahizə yürütsək, hələ lap əvvəldən həm qadına, həm ölümə eyni dərəcədə aid etdiyimiz qadın cinsinin nümayəndəsinə çevrilməklə başlamasını sırf təsadüf hesab etməyin. Bu yaşamın zahiri əlamətlərindən, xüsusilə də onun o hissələrindən ki, orada söhbət hisslərdən, meyillərdən və azmalardan gedir, tam bixəbərliyinə baxmayaraq, dəryazın ürcah olduğu – yox, ay kişi, bu dəfə daş deyildi – düz hədəfə vuran sual idi, ölümdən soruşacaqdı ki, yoldan çıxarmaq istədiyi

kişi hansı tipə aiddir. Bax açar söz budur – yoldan çıxarmaq. Bəli, ölüm birbaşa violonçelçalanın evinə yönələ bilərdi, qapısının zəngini basardı və o açanda qara eynəyini çıxarmaqla ona bir valehedici təbəssüm göndərərək, sonra da deyərdi ki, ensiklopediyaya abunə yığır, zira bu qarınmış və həmişəcavan fənd, demək olar ki, həmişə səhvsiz işləyir, dalınca da – iki şeydən biri: ya onu içəri girməyə dəvət edəcək ki, təklifi çay masası arxasında müzakirə etsinlər, ya da, təxminən, "sağ olun, mənə gərək deyil" kimi bir cavab verib əlini uzadacaq ki, qapını örtsün, rədd cavabını nəzakətli və utancaq bir təbəssümlə pərdələyərək. Heç olmasa, musiqidən olsaydı, bəlkə də, kara gələrdi. İstənilən halda məktubu çatdırmaq asandan da asan idi, lakin məhz bu təhqiredici asanlıq ölümün heç ürəyindən deyildi. Hə, bu insan onu tanımır, o özü ki gözəl tanıyır onu – yanında, onun evində bütöv bir gecə keçirib, onun necə çaldığının şahidi olub, bu isə, istər-istəməz hansısa münasibətlərin yaranmasına səbəb olur, yeni ahəngdar əlaqənin təməlini qoyur, odur ki elə kandardan deyəsən: "Tezliklə öləcəksən, sənin bir həftən var ki, violonçeli satasan və itini yaxşı bir adama bağışlayasan". Bu, kobudluq olardı, ölümün çevrildiyi gözəl qadının dodaqları üçün çox yersiz bir kobudluq. Yox, o, başqa bir şey fikirləşmişdi. Teatrın girəcəyindəki afişa çox hörmətli publikaya xəbər verirdi ki, bu həftə milli simfonik orkestrin iki konserti olacaq: biri dördüncü gün, yəni sabah yox, o birisi gün, ikincisi – şənbə. Tamamilə təbii olar, əgər bizim təhkiyəmizi yayınmaz diqqətlə izləyən, onun ən xırda təfərrüatlarını belə nəzərdən qaçırmayan və bizi ziddiyyətlərdə, diqqətsizlikdə və yarımçıq epizodlarda və digər günahlarda faş edən bir oxucuda qanuni bir maraq oyansa və onu bu sualı verməyə israrla sövq etsə: ölüm bileti nəylə almaq niyyətindədir, axı onun öz zirzəmisindən çıxdığı cəmi iki saatdır, ətrafda isə nə bir dənə bankomat, nə də ki bir bank şöbəsi görünmür. Əgər hər şeylə maraqlanan oxucu artıq açıq sual dənizinə çıxıbsa, onda



mütləq soruşacaq ki, nə vaxtdan bəri taksiçilər qara eynəkli, gözəl əndamlı və xoş təbəssümlü qadınlardan pul almırlar. Biz isə pis niyyətli ehtimallar kök salmamışdan izah etməyə tələsək ki, ölüm nəinki sayğacda göstəriləni ödədi, hətta çaypulu verməyi də unutmadı. Və əgər oxucunun təxəyyülünü pulların haradan çıxdığı barədə sual hələ də oynadırsa, bircə bunu demək kifayət edər: eynək haradan çıxmışdısa, pullar da oradan çıxdı, yəni çantadan, çünki bizə məlum olduğu qədərincə, bunun birindən sonra o birisinin çıxarılmasını qadağan eləyən qanun hələ yoxdur. Amma əvəzində çox ola bilər ki, ölümün taksiyə verdiyi və indi konsertə iki bilet almaq istədiyi və eyni zamanda, yaxın günlər ərzində oteldə bir otaq tutmaq niyyətində olduğu pullar artıq dövriyyədən çıxmış sayıla. O qədər olub ki, bir pula yatağa girmişik, oyananda – başqa pul işləyib. Amma, hər halda, ümid eləyək ki, bu pullar həqiqidir və qüvvədə olan qanunvericiliklə müdafiə olunur, yoxsa ölümün istedadlı mistifikasiyalara meylini nəzərə alaraq elə güman edərdik ki, taksi sürücüsü qara eynəkli xanımın verdiyi pullara diqqət yetirməyərək ondan bizim dünyada işlənməyən, ya da ən azından, indi işlənməyən əskinaslar qəbul edib, məsələn, üzərində bizə yaxşı tanış olan əlahəzrətin yerinə, respublika prezidentinin portreti olan əskinas. Teatrın kassaları indicə açılıb, ölüm içəri girir, salam verir və iki bilet istəyir – dördüncü günə və şənbəyə – lojanın birinci sırasına. Ölüm israr edir ki, hər iki konsertə eyni yeri versinlər ona və – əsas, ən vacib şərt – səhnədən sağda və səhnəyə ən yaxın yerdə. Sonra da əlini çantasına saldı, pulqabısını çıxardı, oradan da pulları götürüb kassanın pəncərəsinə uzatdı, ümidli idi ki, bəs eləyəcək. Kassir qadın pulun qalığını saydı: "Buyurun biletlərinizi, ümidvaram bizim konsertlər xoşunuza gələcək, siz qabaqlar, deyəsən, bizdə heç olmamısınız, sizi gördüyümü nəsə heç xatırlamıram. Mənim isə üzlərə qeyri-adi yaddaşım var – bir dəfə gördümmü, heç vaxt yaddan çıxarmaram. Hərçənd ki

eynək adamın xarici görünüşünü yaman dəyişir, xüsusilə də sizinki kimi qara eynəklər.

Ölüm eynəyini çıxardı:

– İndi necədir?

– Yox, əminəm ki, sizi heç vaxt görməmişəm.

– Bəlkə, ondandır ki, indi sizin qarşınızda duran insan, həmin o insan ki, mən ona dönmüşəm, simfonik orkestrlərin konsertinə heç vaxt bilet almaq fikrinə düşməyib, mən özüm isə bir neçə gün qabaq orkestrin məşqində burada olmuşam, amma onda kimsə görmədi.

– Başa düşmürəm.

– Yadıma salın, bu günlərdə bir vaxt tapıb izah edərəm sizə.

– Nə vaxt?

– Nə vaxtsa, nə vaxtsa o gün mütləq yetişəcək.

– Məni qorxutmayın.

Ölüm gözəl bir təbəssüm göstərib soruşdu:

– Düzünü deyin, siz o fikirdəsiniz ki, mənim görkəmim qorxu doğurur?

– Siz nə deyirsiniz, mən qətiyyən bunu demək istəmirdim.

– Onda məndən nümunə götürün – gülümsünün və yaxşı şeylər barədə fikirləşin.

– Mövsüm daha bir ay davam edəcək.

– Nə xoş xəbər, onda biz mütləq gələn həftə də görüşəcəyik.

– Məni həmişə burada tapa bilərsiniz, bizim teatrda mən artıq mebel-zad kimi bir şeyəm.

– Narahat olmayın, yerinizdə olmasanız da, taparam sizi.

– Gözləyəcəyəm.

– Mütləq tapacam.

Və bir qədər susub maraqlandı ölüm:

– Yeri gəlmişkən, siz özünüz, ya da evinizdəkilərdən kimsə bənövşəyi məktub almayıb ki?

– Ölüm məktubu?

– Bəli, ölümün məktubu.

– Biz, Tanrıya şükür ki, almamışıq, amma qonşumuzun vaxtı sabah bitir, yazıq, yaman özünü öldürür, adamın lap yazığı gəlir.

– Nə edəsən, həyatdır da.

– Düz deyirsiniz, – kassir qadın köksünü ötürdü,– həyatdır da.

Xoşbəxtlikdən, kassanın pəncərəsi qarşısında adamlar göründü, yoxsa bəlli deyildi, bu söhbətin məcrası hara kimi uzanacaqdı.

Hə-ə, indi isə elə bir otel tapmaq lazımdır ki, musiqiçinin evinə yaxın olsun. Ölüm gəzə-gəzə lap mərkəzə yetişdi, turist agentliyinə girib şəhərin planını istədi, tez bir zamanda teatrı tapdı, oradan da şəhadət barmağı violonçelçalanın evi yerləşən kvadrata kimi səyahət elədi. Bir az uzaqdır, amma şəhər ətrafında da otellər var. Onlardan birini – dəbdəbəsiz, amma bütün rahatlıqları olanı ona təklif etdilər. Elə həmin əməkdaş onun üçün telefonla yer saxlamağa öz köməyini təklif etdi, ölümün "sizə borcum nə qədərdir" sualına təbəssümlə cavab verdi:

– Borclu qalmazsınız, hesablaşarıq.

Belədir də, insanlar beyinlərinə gələni çərənləyirlər, sözlərini çölə tullayır və bircə dəqiqə susub, nəticələr barədə düşünmək üçün özlərinə əziyyət vermirlər. Hesablaşarıq, turist agentliyinin əməkdaşı belə dedi və tükənməz kişi təşəxxüsüylə, yəqin ki, bu yaxın zamanlarda baş verəcək gözəl görüşü təxəyyülündə canlandırdı. Lakin o, elə bir riskli addım atmışdı ki, ölüm onu soyuq nəzərləriylə süzüb belə cavab verə bilərdi: "Özünüzü gözləyin, siz kiminlə danışdığınızın fərqində deyilsiniz". Lakin sovuşdu: o yalnız fikirli-fikirli gülümsündü, təşəkkür edib getdi, heç üstündə telefon nömrəsi olan vizit kartını da qoymadı. Havadan zəif bir rayihə duyulurdu – qızılgüllə xrizantem qoxusu. "Deyəsən, həqiqətən, xrizantemlə qızıl güldür", – deyə əməkdaş şəhərin planını qatlayaraq eyni zamanda dodaqaltı mızıldandı. Küçədə

ölüm taksi saxladı və sürücüyə otelin ünvanını verdi. O, özündən narazı idi. Mehriban və diqqətli kassir qadını qorxutdu, onun hesabına şənləndi bir az, lap ağ eləmişdi. Adamlar, onsuz da, ölümdən kifayət qədər qorxurlar, daha onun gülümsəyərək, "bu da mən" nidası ilə, necə deyərlər, latın dilində olan *memento, homo, quipubises et inpulveremre-vertis*[1] ev ekvivalenti ilə qarşımızda peyda olmasına heç bir ehtiyac yox idi, sonra da hələ bu azmış kimi, ona yardım etmiş bir yaxşı xanıma sarsaq bir sual tullamağın yeri deyildi, bu sualı cəmiyyətin yuxarı təbəqələrindən olan həyasız adamlar, adətən, özlərindən aşağıda durduğunu güman etdiklərinə misilsiz bir özündənrazılıqla ünvanlayırlar: "Siz heç bilirsiniz ki, kiminlə danışırsınız". Yox, ölüm öz davranışından razı deyildi. O əmindir ki, əgər skelet görkəmində qalsaydı, ömrü boyu belə hərəkətlər etməzdi. "Bütün bu murdarlıqlar mənə yalnız insanlaşdığıma görə yapışıb, başqa bir şey yoxdur", – o düşünür. Maşının pəncərəsindən nəzər salaraq keçdikləri küçəni tanıyır – violonçelçi burada yaşayır, bu da onun alt mərtəbədəki pəncərələri. Qəflətən sinəqarın arakəsməsi nahiyəsində bir soyuq, bir narahatlıq duydu, bəlkə də, bu, ovunu nişan almış ovçunun həyəcanı idi, yaxud izaholunmaz, mübhəm bir dəhşət, özü-özündən qorxmağın dəhşəti idi. Taksi dayanır və: "Bu da sizin otel", – sürücü xəbər verir. Ölüm pulu uzatdı, kassir qadından aldığı pulu və əlavə elədi: "Artığı sizə qalsın", – heç ağlına da gəlmədi ki, pulun qalığı sayğacın çıqqıldayıb yazdığı rəqəmdən artıqdır. Eybi yox, bu nəqliyyat növü ilə təzəcə tanış olmağa başlayan bir məxluq üçün bağışlanan idi belə hərəkət.

Portyenin piştaxtasına yaxınlaşanda ölüm duyuq düşdü ki, turist şirkətinin agenti onun heç adını da soruşmamışdı, dəstəyi qaldıraraq yalnız bunu deməklə kifayətlənmişdi: "Sizə müştəri yollayıram, bəli-bəli, tezliklə gələcək", – hə, indi də o gəlmişdi, adının kiçik hərflə yazılan ölüm olduğunu

[1] Zira son külsən, külə də dönəcəksən. (*lat.*)

deyə bilməyən müştəri gəlməyinə gəlib, amma bilmir ki, özünü necə təqdim etsin, hə, çanta, çiynindən asdığı çanta, qara eynəyi, pulu çıxardığı və indi də hər hansı bir sənəd çıxaracağı çanta. "Hər vaxtınız xeyir, sizə yardım edə bilərəm?" – deyə portye maraqlandı. "On beş dəqiqə qabaq sizə səyahət bürosundan zəng çalaraq, otaq saxlamağı xahiş ediblər". "Bəli-bəli, onunla mən danışdım". "Mən gəldim". "Çox yaxşı, zəhmət olmasa, bu kartoçkanı doldurun". Ölüm artıq özünün yeni adını bilir – bunu piştaxtanın üstündə açdığı şəxsiyyət vəsiqəsindən öyrəndi və gözündəki qara eynəyə görə, portye tərəfindən sezilmədən soyadını, təvəllüd tarixini, vətəndaşlığını, ailə vəziyyətini, peşəsini köçürə bilərdi. "Buyurun, – dedi o. – Bizim oteldə nə qədər qalmaq niyyətindəsiniz?" – "Çox güman ki, bazar ertəsinədək". – "İcazənizlə sizin kredit kartınızın surətini çıxarım". – "Yanımda deyil, götürməmişəm, amma pulunu qabaqcadan, nağd ödəyə bilərəm". "Ah, yox-yox, – deyə portye dilləndi, – belə bir zərurət yoxdur". O, şəxsiyyət vəsiqəsini götürdü ki, onu formulyarla tutuşdursun və aşkar təəccüblənərək baxışlarını qaldırdı. Fotoşəkildəki xanım otelin təzə qonağından xeyli yaşlı idi. Ölüm qara eynəyini çıxarıb gülümsündü. Tamam çaşmış portye yenə vəsiqəyə baxdı – indi isə şəkildəki xanımla onun qarşısında dayanan iki damla su kimi eyni idilər. "Bəs sizin baqajınız hanı?" – soruşdu və əlini nəm alnına çəkdi. "Heç nəyim yoxdur, – ölüm cavab verdi, – alış-verişə gəlmişəm".

O, otaqda bütün gününü keçirdi, naharını, şamını otelin restoranında yedi. Televizora baxdı. Sonra da yatağına girib işığı söndürdü. Amma yuxuya getmədi. Ölüm heç vaxt yatmır.

* * *

Ölüm şəhərin ən dəbdəbəli mağazalarının birindən aldığı yeni paltarda konsertə baxır. O, lojanın birinci sırasında oturub və eynilə orkestrin məşqindəki kimi, violonçelçalana baxır. O isə zaldakı işıqlar sönənə, maestro gələnə kimi

qadını görməyə macal tapdı. Özü də yalnız o yox. Əvvəla, ona görə ki, bütöv bir lojanı tək tutmuşdu, amma bu elə də nadir hadisə deyildi, lakin tez-tez də baş vermirdi. İkincisi isə, ona görə ki, gözəl idi: bəlkə də, publikanın arasındakı qadınların ən gözəli deyildi, amma onun gözəlliyində nəsə bir məxsusi, mübhəm, gizli, şüuraltı mənasını sözlə izah etmək mümkün olmayan və bu mənanın həmişə tərcüməçinin gözündən qaçan şeir kimi – əlbəttə, şeirdə belə bir şey mümkündürsə – cəhətlər vardı. Nəhayət, ona görə ki, onun hər tərəfində boşluq olan və sanki, ləməkan görünən əndamının biçimləri ən mütləq tənhalığın simvoluna bənzəyirdi. Özünün buz kimi zirzəmisini tərk edəndən bəri bu qədər çox və təhlükəli gülümsünən ölüm isə indi gülümsünmürdü. Kişilər onu ikibaşlı məna daşıyan maraqla süzürdülər, qadınlar – qısqanc bir nigaranlıqla; o isə səmadan quzunun üstünə daş kimi düşən dişi qartal kimi yalnız violonçelçini görürdü. Amma bir fərq də vardı. Əgər yırtıcı quşlar təbiətən bunun üçün yarandıqlarından öldürməyə borcluydularsa, ovunu heç vaxt əldən verməyən bu qartalın baxışında zorla sezilən bir acımanın kölgəsi duyulurdu və bəlkə də, o, caynaqlarını məsum quzuya sancmağa deyil, qüvvətli qanadlarını tam açaraq yenidən göylərə millənməyə üstünlük verərdi – havanın daim seyrək olduğu ənginliklərə, əbədi əlçatmaz bulud sürülərinə. Orkestr susdu. Violonçelçi özünün solosunu ifa edir, elə bil, dünyaya yalnız bunun üçün gəlib. O bilmir ki, lojadakı tənha qadın özünün təzəcə dəyişdiyi çantasında ona ünvanlanmış bənövşəyi məktub saxlayır, bilmir və bilə də bilməz, lakin elə çalır, sanki, bu dünya ilə vidalaşır və bütün bu müddət ərzində susduqlarını demək istəyir: həm uçmuş arzularını, həm həyata keçməyən istəklərini, sözün qısası, bütün həyatını danışır. Orkestrdəkilər ona təəccüblə baxırlar, dirijor – hörmətlə, publika köks ötürür və əsim-əsim əsir, qartal baxışını dumanlandıran xırdaca mərhəmət buludu isə gözdən yaş axıdır. Budur, solo bitdi və ifaya başlayan orkes-

trin nəhəng, ahəstə ləngərləyən dənizinə violonçelin nəğməsi qərq olur, onun bətnində əriyir və dağılır, onun bətnində musiqinin sükut zirvəsinə qədər uçur, sonuncu və artıq eşidilməz əks-sədanın titrək kölgəsinə çevrilir, necə ki mis məcməyiyə qonan kəpənəyin çaldığı qanadlar tələtüm yaradır. Yaddaşda kəpəyin qorxulu ipək uçuşu parladı, lakin ölüm onu əlinin hərəkətiylə qovdu, eynən yer altındakı zirzəmidə bənövşəyi məktubları masanın üstündən itməyə məcbur edən və violonçelçalana ünvanlanmış təşəkkür əlaməti kimi, o isə tamaşaçı zalının ilıq qaranlığında gözləriylə onu axtarırdı, indi isə başını yan lojaya sarı çevirmişdi. Ölüm öz hərəkətini təkrar elədi və sanki, onun nazik barmaqları kamandan yapışmış əlin üstünə endi. Violonçelçi xaric çalmadı, baxmayaraq ki qəlbi bunun üçün lazım olan hər şeyi etdi. Barmaqlar onun əlinə daha toxunmadı – ölüm anladı ki, öz işiylə məşğul olan sənətkara mane olmaq olmaz. Konsert başa çatanda zal alqışlardan partladı, işıq yandı və dirijor orkestri qaldırdı, sonra da ayrıca violonçelçalanı, qoy o da layiq olduğu alqış payını alsın, ölüm lojada ayaq üstə duraraq və nəhayət, gülümsünərək əllərini sinəsində çarpazlamışdı və baxırdı – sadəcə, baxırdı – əl çalanlara, "bravo" çığıranlara, dirijorun adını on dəfə çağıranlara. Sadəcə, baxırdı. Sonra isə publika yavaş-yavaş, istəmədən çıxışa yollandı, orkestr isə kulis arxasına keçdi. Violonçelçalan lojaya sarı çöndü, amma orada artıq kimsə yox idi. "Həyat belədir də", – deyə mızıldandı.

Lakin o səhv edirdi – həyat həmişə belə deyildi və lojada olan xanım onu xidməti çıxışın yanında gözləyirdi. Çıxan orkestr üzvləri ona mənalı nəzərlərlə baxırdılar, amma anlayırdılar ki, bu qadın, bəlli deyil nədən, amma gözəgörünməz çəpərin, yüksəkgərginlikli xəttin arxasındadır və ona əlini vursan, pərvanə kimi yanarsan. Lakin budur, violonçelçi göründü. Qadını görəndə yerində dondu, bəlkə, hələ geri də dönmək istədi, elə bil, bu qadın yaxınlaşanda heç qadın olmayacaq, nəsə bir başqa şeyə dönəcək, fərqli sferanın,

bu dünyaya aidiyyəti olmayan məkanların məxluquna, Ayın qaranlıq tərəfinin məxluquna. O, başını aşağı saldı, çıxan həmkarlarına çatmağa, gizlənməyə çalışdı, lakin çiynindən asılmış, içində violonçel olan ağır qutu onun manevrini məhdudlaşdırdı. Qadın isə artıq onun qarşısında durmuşdu və deyirdi: "Məndən qaçmayın, mən yalnız sizə demək istəyirəm ki, sizin ifanız mənə həqiqi həzz verdi". – "Çox sağ olun, amma mən adi musiqiçiyəm, heç tanınmış ifaçı da deyiləm ki, pərəstişkarları ondan avtoqraf almaq üçün, ya da, sadəcə, toxunmaq üçün saatlarla gözləsinlər". – "Əgər məsələ yalnız bundadırsa, mən də sizdən avtoqraf istəyə bilərəm, heç olmasa, bu zərfin üstünə imza atın, təsadüfən yanımdadır". – "Yox-yox, siz məni düzgün başa düşmədiniz, mən, sadəcə, demək istəyirdim ki, mənimçün nə qədər xoş olsa da, buna layiq deyiləm". – "Tamaşaçılar isə başqa fikirdədirlər". – "Hə, bu gün belədir, gündən günə fərqi var". – "Tamamilə doğrudur, amma bu gün – məhz mənim gəldiyim gündür". – "Sizin gözünüzdə qədirbilməz bir kobud kimi görünmək istəməzdim, amma çox güman ki, siz elə günü sabah indi yaşadığınız hissləri unudacaqsınız və elə peyda olduğunuz kimi qafil yoxa çıxacaqsınız". – "Yox, siz məni tanımırsınız, mən öz niyyətimdə qətiyəm". – "Nədən ibarətdir sizin niyyətiniz?" – "Mənim bircə niyyətim var – sizinlə tanış olmaq". – "Hə, bu niyyətiniz artıq çin olduğundan, demək, sağollaşa bilərik". "Siz məndən qorxursunuz məgər?" – ölüm soruşdu. "Yox, bu, qorxu deyil, yüngül bir həyəcandır, vəssalam". – "Elə bilirsiniz, bu azdır: mənim yanımda həyəcan keçirmək". – "Həyəcan müdrikliyin bizə verdiyi siqnal ola bilər". – "Müdriklik labüd şeyləri yalnız təxirə sala bilər, lakin gec-tez o da tabe olacaq". – "Ümidvaram, bunun mənə bir dəxli yoxdur". – "Mən isə tamam əksinə, arxayınam". Violonçelçalan alətinin kəmərini digər çiyninə keçirdi. "Yoruldunuz?" – ölüm soruşdu. "Yox, bu alət özü ağır deyil, qutusu daha ağırdır, xüsusilə də – mənimki, lap qədimdir".



– "Mən sizinlə danışmalıyam". – "Artıq gecəyarısıdır, hamı dağılışıb". – "Yox, bax orada yenə adamlar var". – "Onlar dirijorun çıxmağını gözləyirlər". – "Gəlin bir bara girək, orada danışaq". "Ağzına kimi dolu barda çiynimdəki bu yüklə əcəb görünərəm, – musiqiçi gülümsündü, – təsəvvür edirsiniz, mənim həmkarlarımın hamısı öz alətləriylə bara girib oturalar". – "Biz orada konsert verə bilərdik". "Biz?", – deyə birinci şəxsin – özü də çox suyuşirin şəxsin – cəm şəklinə təəccüblənən violonçelçi soruşdu. "Hə də, mən özüm də bir zamanlar skripka çalmışam, hətta əlimdə skripka şəkillərim də var". – "Siz, yəqin, qarşınıza məqsəd qoymusunuz ki, hər sözünüzlə məni daha artıq təəccübləndirəsiniz". "Mənim sizi təəccübləndirmək istəyimdə hara kimi gedəcəyim sizdən asılıdır, özünüz qərar verin". – "Siz daha aydın açıqlaya bilməzsiniz fikirlərinizi?" – "Sizin səhviniz var, mən siz fikirləşəni nəzərdə tutmurdum". – "Mən nəyi nəzərdə tuturam ki, icazənizlə bunu soruşum". – "Yatağı nəzərdə tuturdunuz, bir də məni həmin yataqda". – "Günahkaram". – "Günahın hamısı məndədir: mən əgər kişi olsaydım və burada mənim dodaqlarımdan səslənənlərin hamısını eşitsəydim, heç şübhəsiz, elə sizin kimi düşünərdim, odur ki ikibaşlı sözlərimin bahasını ödəyirəm". – "Mən isə səmimi sözlərinizə görə təşəkkür edirəm". Qadın bir neçə addım atıb dedi: "Yaxşı, gedək də". – "Hara?" – violonçelçalan soruşdu. "Mən – qaldığım otelə, siz isə, yəqin ki – öz evinizə". – "Və mən bir də görməyəcəyəm sizi". – "Həyəcanınız keçdi, deyəsən". – "Mən heç həyəcanlıydım ki?" – "Düz demirsiniz". – "Razıyam, amma vardısa da, artıq yoxdur". Ölümün üzündə təbəssümə bənzər bir ifadə yarandı, amma bu ifadədə şadyanalıqdan əsər-əlamət belə yox idi. Və nigarançılıq üçün əsas yarananda da bu ifadə itdi. "Riskə gedirəm və ona görə də sualımı təkrarlayıram". – "Hansını?" – "Biz daha görüşməyəcəyik?" – "Şənbə günü mən konsertə gələcəyəm və elə həmin lojada oturacağam". – "Şənbə proqramında

mənim solom yoxdur". – "Mən bilirəm". – "Deyəsən, hər şeyi nəzərə almısınız". – "Hər şeyi". – "Bəs məqsəd nədir?" – "Məqsəd – sondadır, biz isə sizinlə – hələ lap başdayıq". Boş taksi göründü. Ölüm onu saxlayıb, violonçelçiyə sarı çöndü: "Sizi evinizə kimi aparımmı?" – "Yox, mən sizi otelə çatdırıb, özüm evə gedəcəm". – "Yox" deyil, "hə" deməlisiniz, yoxsa başqa taksi tapmalı olacaqsınız". – "Görürəm ki, məqsədinizə çatmağa adətkərdəsiniz". – "Həmişə". – "Nə vaxtsa alınmayacaq, Tanrı elə Tanrıdır və demək olar ki, başqa heç nəylə məşğul deyil". – "Mən elə lap indi sizə göstərməyə hazıram ki, alınmaması mümkün deyil". – "Mən isə sizin göstərəcəyinizə baxmağa hazıram". "Yaxşı, boş-boş danışmayın", – deyə ölüm tamam başqa tərzdə cavab verdi və onun səsində qəflətən təhdid eşidildi – təhtəlşüur, mübhəm, amma buna rəğmən dəhşəti heç də azalmamış təhdid. Violonçel maşının baqaj yerinə sığdı. Bütün yolboyu sərnişinlər kəlmə də kəsmədilər. Musiqiçinin evinə yetişəndə o, maşını tərk etməmişdən dedi: "Başa düşmürəm ki, bizim aramızda nə baş verir, yəqin, həqiqətən, bir də görüşməsək yaxşıdır". – "Sizə bunu kimsə qadağan etmir". "Hətta siz, istədiyinə həmişə nail olan bir xanım belə?" – deyə musiqiçi soruşdu. Çalışırdı ki, ahəngi bir az zarafatyana çıxsın. "Hətta mən", – qadın cavab verdi. "Amma bu, o deməkdir ki, istədiyiniz alınmayacaq". – "Bu, o deməkdir ki, alınacaq". Sürücü çıxıb baqajın qapağını qaldırdı və qutudakı aləti götürmələrini gözlədi. Kişiylə qadın sağollaşmadılar: "Şənbəyədək", – demədilər və bir-birinə toxunmadılar və bütün bunlar iki sevgilinin bir-birindən qəti, dramatik ayrılmasına bənzəyirdi, adama elə gəlirdi ki, onlar neçə növ and içmişdilər ki, bir daha görüşməyəcəklər. Kəməri çiyninə atan violonçelçalan getdi və evinə girdi. Və qəflətən qapıda duruxdu, amma nəsə heç arxaya çönmədi. Barmaqlarıyla çantasından bərk-bərk yapışmış qadın onun arxasınca baxırdı. Taksi tərpəndi.



Violonçelçi evinə daxil ola-ola hirslə donquldandı: "Dəli, dəlidir bu, dəli, ömrümdə bir dəfə xidməti qapının ağzında məni gözləyirdilər ki, necə gözəl çaldığımı desinlər, o da dəli çıxdı, elə mən də pis deyiləm, sarsaq, soruşdum ki, biz daha görüşməyəcəyik, özüm öz əlimlə tələ qurdum özümçün, elə qüsurlar var ki, hörmətə, ən azı diqqətə layiqdir, lakin özündənrazılıq gülməlidirsə, mən özüm ondan da gülməli göründüm". Onu qarşılamaq üçün qapının ağzına yüyürmüş itinin başını qayğılı-qayğılı sığalladı və musiqi salonuna keçdi. Qutunu açdı, ehtiyatla violonçeli çıxardı, yatmamışdan onu mütləq kökləməli idi, çünki taksidə, lap qısa belə olsa, hər bir səfər musiqi alətinə xeyir deyildi. Mətbəxə yollandı, köpəyə yemək verdi, özü üçünsə sendviç hazırlayıb böyrünə də bir stəkan çaxır qoşdu. Peşmançılığı artıq keçmişdi, lakin indi yavaş-yavaş onun yerinə gəlməli olan hiss ruhuna bir təskinlik gətirmirdi. Bu qadının dediyi bütün sözləri, o cümlədən də "ikibaşlı sözlərin bahasını həmişə ödəməli olursan", ifadəsini xatırlayarkən o, belə bir nəticəyə gəlir ki, qadının hər bir sözü, kontekstdən asılı olmayaraq, özündə əlavə bir məna çaları da daşıyır və bu çaları anlamaq, dərk etmək qeyri-mümkün şeydir, o iynələyir, Tantalın nahaq yerə toplamaq istədiyi su kimi əlindən süzülüb axır, meyvəsini dərmək üçün uzanmış əlindən yayınan budaq kimi gizlənir. "Yox, əşi, o, dəli deyildi, – düşündü, – amma, görünür, əməlli-başlı qəribəlikləri vardı bu xanımın". Yeməyini yeyəndən sonra musiqi salonuna qayıdır, royalı oradadır – biz axı indiyə kimi bu otağı ikibaşlı təsvir edirdik, lakin bu otağa, əslində, violonçel otağı desək, daha məntiqi olardı, çünki bizim musiqiçi məhz violonçeldən çıxarır çörəkpulunu, amma etiraf etmək gərəkdir ki, belə adlandırsaq bu otağı, pis çıxar və otağın özü də, sanki, öz dəyərini itirmiş olar, zira bu adlar zəncirini davam etdirmək lazımdır ki, bizim gəldiyimiz nəticənin doğruluğuna inana biləsən: musiqi otağı, royal otağı, violonçel otağı – bunlar hələ babatdır, dözmək olar, lakin bir az da davam etdirsək, görün

hara dığırlanacağıq: klarnet otağı, fleyta çardağı, türk təbili hücrəsi, hələ lap heç nəyə yaramayan üçbucaq küncü. Axı sözlərin də özünün iyerarxiyası var, etiketi, protokolu, özlərinin əsilzadə titulları, plebey ayamaları. Köpək sahibinin ardınca gəldi və öz oxu ətrafında üç dəfə dövrə vurub, döşəməyə uzandı – onun canavar olduğu dönəmdən qalmış yeganə mirası məhz bu vərdişi idi. Musiqiçi kamertonun "lya"sıyla violonçelini köklədi, yəni daş yolların çala-çuxuruyla vurulmuş vəhşi ziyanı məhəbbətlə düzəldib alətinə yenidən harmoniya bağışladı. Bəzi anlarda ona lojadakı qadını unutmaq nəsib olurdu, hətta onun özünü deyil, narahatlıq doğuran həmin o xidməti girişin ağzında apardıqları söhbəti, baxmayaraq ki taksidəki qığılcımlar yağdıran söhbət hələ də qulaqlarında təbillərin boğuq səsası kimi səslənirdi. Lojadan olan qadını o unutmamışdı, lojadan olan qadını o unutmaq istəmirdi. Onun lojada əllərini sinəsində çarpazlayıb necə durduğunu görür, onun almaz sərtliyində olan, gülümsünəndə parlayan baxışlarının vücudunda necə gəzişdiyini duymaqda davam edir. O fikirləşir ki, şənbə günü, yəqin, o qadını bir də görəcək, görməyinə görəcək, lakin o artıq əllərini sinəsində çarpazlayaraq lojada dayanmayacaq və ona uzaqdan baxmayacaq, çünki bu ecazkar sehrbazlıq anı sonrakı an tərəfindən udulub – onu sonuncu dəfə görmək üçün çöndüyü an tərəfindən – ona belə gəlirdi – o çöndü, qadın isə artıq yox idi.

Kamerton artıq çoxdan susmuşdu və telefon qəflətən zəng çalanda violonçel artıq əvvəlki və lazımi səsini tapmışdı. Musiqiçi gözlənilməz zəngdən diksindi, saatına baxdı – az qala, ikinin yarısı idi. "Bu nə zəngdir, lənət şeytana, – fikirləşdi, – belə gec kim ola bilər, görəsən".

Dəstəyi qaldırdı və bir neçə saniyə gözlədi, bu, təbii ki, tamamilə yersiz idi: o cavab verməliydi, gərək özünü təqdim edəydi, ya da nömrəsini deyəydi və onda xəttin o biri başından deyərdilər: "Bağışlayın, ora düşməmişəm". Amma bunun yerinə o tərəfdən soruşdular:



– Əgər dəstəyi it qaldırıbsa, qoy heç olmasa, bir ağız hürsün.

– Bəli, itdir danışan, – violonçelçi cavab verdi, – amma bilirsiniz, o lap çoxdan hürmür, həm də özündən başqa kimisə dişləmək adətini də artıq unudub, özünü isə yalnız o halda dişləyir ki, həyat lap dözülməz olsun.

– Hirslənməyin, mən sizdən üzr istəmək üçün zəng etmişəm, bizim bayaqkı söhbətimiz elə başlanğıcdan təhlükəli cığıra düşmüşdü və necə ki gözləmək olardı, kədərli bir şəkildə də bitdi.

– Bilmirəm, sizi o cığıra kim salmışdı, amma mən deyildim.

– Yox, hər şeyin günahı məndədir, hərçənd, əslində, sakitliyim, özümü ələ almaq bacarığımla fərqlənirəm.

– Mən sizdə onların heç birisini görə bilmədim.

– Bəlkə, məndə şəxsiyyətin haçalanması baş verir?

– Əgər belədirsə, onda bir bezin qırağıyıq: axı mən də eyni zamanda həm itəm, həm də insan – ikisi bir simada.

– Sizin dilinizdən ironiya bir az namünasib səslənir, sizin musiqi duyumunuz bunu deməliydi.

– Məlumunuz olsun ki, xanım, dissonans – musiqinin bir hissəsidir.

– Mənə xanım deməyin.

– Bəs necə müraciət edim sizə, mən axı nə adınızı bilirəm, nə kimliyinizdən xəbərim var, nə də ki hansı işlə məşğul olduğunuzdan.

– Vaxtı yetişəndə hamısını biləcəksiniz, tələsən tərsə düşər, biz axı təzəcə tanış olmuşuq.

– Amma siz artıq mənim telefonumu öyrənməyə macal tapmısınız.

– Bunun üçün məlumat xidmətləri var, portye lazımi məlumatları öyrənməyin əziyyətini öz boynuna çəkdi.

– Təəssüf ki, mənim aparatım lap qədimdən qalıb.

– Niyə təəssüflənirsiniz ki?

– Çünki yeni model olsaydı, sizin nömrənizi artıq çoxdan görmüşdüm.

– Bu, mənim oteldəki otağımın nömrəsidir.

– Belə de.

– O ki qaldı qədimliyə, bu, məni qətiyyən təəccübləndirmir, mən elə də bilirdim.

– Niyə?

– Çünki sizin telefonunuz elə görkəminizə uyğundur: adama elə gəlir ki, sizin əlli yox, beş yüz yaşınız var.

– Bəs siz haradan bildiniz ki, mənim əlli yaşım var?

– Mən adamın yaşını səhvsiz təyin edə bilirəm.

– Hərdən mənə elə gəlir ki, siz heç vaxt səhv etmədiyinizə həddən ziyadə inanırsınız.

– Yox, tapmadınız: məsələn, mən bu gün iki dəfə səhv etdim və hələ başıma belə bir şey gəlməmişdi.

– Başa düşmürəm.

– Məndə sizə məktub var, amma heç cür çatdıra bilmirəm, amma iki dəfə imkanım vardı buna – teatrdan çıxanda, sonra da taksidə.

– O, nə məktubdur elə?

– Gəlin belə hesab edək ki, onu sizə mən yazmışam, orkestrin məşqində iştirak edəndən sonra.

– Siz məşqdə idiniz?

– Bəli.

– Mən sizi görmədim.

– Tamamilə təbiidir – heç görə də bilməzdiniz.

– Nə isə, hər halda, gəlin elə hesab edək ki, həmin gün mənim konsertim deyildi.

– Riqqətləndirici təvazökarlıqdır.

– "Belə hesab edək" və "belə olub" eyni şey deyil, eləmi?

– Bəzən eynidir. Konkret bu halda yox.

– Təbrik edirəm, siz nəinki təvazökarsınız, həm də diqqətlisiniz.

– Yaxşı, bəs o məktub nə məktubdur elə?

– Vaxtı çatanda bunu da biləcəksiniz.

– Bəs niyə onu mənə vermədiniz, imkan da vardı.



– Bir imkan yox, ikisi.

– İkisi daha yaxşı – bəs nədən vermədiniz?

– Özüm də bunu öyrənmək istəyirəm və bəlkə də, şənbə günü, konsertdən sonra aldınız onu, çünki bazar ertəsi mən artıq sizin şəhərdə olmamalıyam.

– Siz burada yaşamırsınız?

– Yaşamağına, yaşamıram.

– Heç nə anlamadım, sizinlə danışmaq – çıxışı olmayan labirintdə dolaşmaq kimidir.

– Əla, bu, həyatın əla təyinidir.

– Siz – həyat deyilsiniz.

– Hə, mən onun qədər dolaşıq deyiləm.

– Kimsə deyib ki, bizim hər birimiz müəyyən bir müddətə elə həyatın özüdür.

– Bəli, məhz elədir – müəyyən müddətə, yalnız müəyyən müddətə.

– İlahi, əgər sabah yox, o birisi gün hər şey aydınlaşsa, nə gözəl olacaq – həm məktub, həm onu nədən mənə vermədiyiniz, bir sözlə, yoruldum bu sirlərin əlindən.

– Sizin sirr adlandırdığınız şeylər tez-tez bizim müdafiəçimizə çevrilir, bəziləri zireh taxır, digərləri – sirr.

– Müdafiədirmi, yoxsa yox, amma mən o məktubu görmək istərdim.

– Əgər üçüncü dəfə boşa çıxmasa, onda – görəcəksiniz.

– Niyə boşa çıxmalıdır?

– Elə iki dəfə nədən boşa çıxıbsa, ona görə.

– Deyəsən, biz "siçan-pişik" oynayırıq.

– Bu oyun mütləq pişiyin siçanı tutmasıyla başa çatır.

– Hə, əgər siçan pişiyin boynuna zəng asa bilməsə.

– Cavab yaxşıdır, lap desən hələ əladır da, amma bəla burasındadır ki, bu ancaq həyatakeçməz arzudur, xəyaldır, necə deyərlər, multfilmlərlə doğulmuş xəyal, çünki hətta pişik yatsa belə, səsdən oyanardı və onda – əlvida, siçan.

– Ona bənzəyir ki, həmin o əlvida dediyiniz siçan mənəm.

– Əgər biz oynamağa başlamışıqsa, ikimizdən birimiz istər-istəməz siçan olmalıyıq, siz isə nə zahiri görünüşdən, nə də fərasətdən pişiyə bənzəyirsiniz.

– Deməli, bütün ömrüm boyu siçan qisməti daşımağa məhkumam.

– Hə, həyat nə qədər davam edəcəksə, siz violonçelçi-siçan olacaqsınız.

– Yenə multfilmdir.

– Siz hələ fikir verməmisiniz ki, bütün adamlar – multfilm personajlarıdır.

– Deməli, siz özünüz də.

– Mənə elə gəlir ki, kimə bənzədiyim haqda nəticə çıxarmaq üçün əlinizdə fürsət olub.

– Gözəl qadına bənzəyirsiniz.

– Çox sağ olun.

– Bizim telefon söhbətimiz isə – eşqbazlıqdır, amma bilmirəm, bu, elə görünürmü.

– Əgər mehmanxananın telefonçusu sakinlərin danışıqlarını dinləməklə əylənirsə, yəqin, o da bu qənaətə gəlmiş olar.

– Əgər belə olsa da, ciddi ziyanı yoxdur, çünki heç adını belə öyrənə bilmədiyim lojada oturan xanım bazar ertəsi gedir.

– Və bir də geri dönməyəcək.

– Siz əminsiniz?

– İnanmıram ki, məni bura gəlməyə sövq etmiş şərait bir də yarana.

– "İnanmıram" – hələ "heç vaxt" demək deyil.

– Mən bütün zəruri tədbirləri həyata keçirəcəyəm ki, bu səfəri təkrar edəsi olmayım.

– Amma bütün bunlara baxmayaraq, təəssüflənmirsiniz.

– "Bütün bunlara" deyəndə, yəni nələrə?

– Mənim kobudluğumu bağışlayın, mən ancaq nəyə demək istəyirdim.



– Mənimlə mehriban olmağa çalışmayın, buna öyrəşməmişəm və bundan başqa, təxmin etmək çətin deyil ki, siz nəyi nəzərdə tuturdunuz, lakin buna baxmayaraq, daha geniş izahat verməyi lazım bilmirsinizsə, söhbətimizi şənbə günü davam etdirə bilərik.

– Bəs o vaxta qədər sizi görməyəcəyəm?

– Yox.

Rabitə kəsildi. Violonçelçalan hələ də tərləmiş əlində saxladığı dəstəyə baxdı. "Yəqin, yuxudur bu, – deyə mızıldandı, – real həyatda mənim başıma hələ belə bir şey gəlməyib". O, dəstəyi yerinə qoymadı, atdı və artıq ucadan, violonçelə, royala və kitab rəfinə müraciətlə soruşdu: "Bu qadın məndən nə istəyir, kimdir o və mənim həyatımda niyə peyda oldu?"

Yuxudan oyanmış it başını qaldırdı. Cavab onun gözlərindən oxunurdu, lakin violonçelçi ona fikir verməyərək otaqda əsəbi halda var-gəl eləməyə başladı – əsəbləri, deyəsən, daha pis oyanmışdı – cavab isə, təxminən, belə idi: "İndi, sən bu barədə söhbət açanda mən dumanlı şəkildə xatırlayıram ki, başımı hansısa qadının dizləri üstünə qoyub yatmışdım, bəlkə, bu, elə həmin adamdır". "Hansı diz, hansı qadın", – deyə violonçelçalan soruşmalıydı. "Hə, sən yatmışdın". – "Harada?" – "Çarpayıda, harada yatacaqdın". – "Bəs o harada idi?" – "Bax burada". – "Zarafat edirsiniz, cənab köpək, min ildir, bu evdə, bu otaqda qadın olmayıb, bir müfəssəl danış görüm". – "Yəqin, sən bilirsən ki, itlər fəsiləsinin zamanı qavraması insanınkından fərqlidir, amma elə bil, həqiqətən də, sənin bu yatağı qadınla son dəfə bölüşdüyün vaxtlardan çox illər ötüb". Bu, təbii ki, heç bir istehza olmadan söylənmişdi. "Deməli, sən onu arzularından uydurmusan?" – "Tamamilə mümkündür, çünki itlər – islaholunmaz xəyalpərəstlərdir, biz yatmamışdan yuxu görürük – lakin o vaxta qədər görürük ki, alaqaranlıqda nəsə dəysin gözümüzə və bizə də elə gəlsin ki, bu gördüyümüz qadındır, tullanaq divana, başımızı qoyaq onun dizinin üstünə". "Bu, sənin öz işindir, özün bilərsən",

– deyərdi violonçelçalan. "Və hətta xəyallarımız doğrulmayanda da biz şikayətlənmirik", – deyə it cavab verərdi. Oteldəki nömrəsində isə ölüm paltarlarını çıxarıb güzgünün qarşısında durmuşdu. Bilmirdi ki, gördüyü kimdir.

Bütün ertəsi gün ərzində qadın zəng vurmadı. Violonçelçalan evdən çıxmadı, zəngi qaçırmaqdan qorxurdu. Gecə keçdi – bir xəbər çıxmadı. O, dünənkindən də pis yatdı. Şənbə günü səhər, məşqdən qabaq, birdən ağlına qəribə fikir gəldi: ətraf otelləri gəzib soruşmaq olar ki, sizdə belə qəddqaməti, filan rəngdə saçları, filan cür gözləri, filan formada ağzı, filan cür təbəssümü, əllərinin hərəkəti olan qadın varmı – amma bu sərsəm fikri özündən uzaqlaşdırır, çünki tamamilə aydın idi ki, sorğu-suala çəkilənlər gizlətmək fikrində olmadıqları şübhələrlə ona quruca cavab verəcəkdilər: "Bu qəbil məlumatlar vermirik". Məşq birtəhər keçdi: o çalışırdı ki, yazılanı dəqiq çalsın, notlardan yan keçməsin, xaricləsə belə – tez-tez etməsin bunu. Çalan kimi evə yüyürdü. Və fikirləşirdi ki, yəqin, zəng çalıbmış, onun evində isə ən sarsaq avtomat cavab verən də tapılmadı ki, uzun siqnaldan sonra sözlərini qeyd etsin. "Yox, mən daş dövründən qalma mağara adamıyam, – yolboyu deyinirdi, – hamının avtomat katibəsi var, məndən başqa". Lakin qadının zəng çalmadığını isbat etmək lazım olsaydı, bu sübut ona cəmi bir neçə saatdan sonra təqdim olunacaqdı. Çünki zəng çalıb danışa bilməyənlər, adətən, yenidən zəng çalırdılar, amma zəhrimar aparat lənətlənmiş kimi, violonçelçalanın ona yönəltdiyi və getdikcə artan çıxılmazlıq dolu nəzərlərinə biganə qalaraq, bütün günü susurdu. Çıxılmazlığa düçar olmaq gərək deyildi, yəqin, heç zəng çalmayacaqdı, yəqin, hansı səbəblərdənsə telefon açmaq mümkün olmayıb, lakin konsertə ki gələcək, sonra da keçəndəfəki kimi taksiylə qayıdacaqlar, evə çatanda isə onu içəri dəvət edəcək, bax onda rahatca danışarlar, qadın da həmin məktubu ona verər və onlar birlikdə, məşqdən sonra qadının kağıza etibar etdiyi şişirdilmiş tərifləro gülüm-



sünərlər, o da deyər ki, hər halda, mən Rostropoviç[1] deyiləm, o isə – kim bilir, gələcəkdə nə olacağını deyər, sonra da daha danışası bir şey qalmayanda, ya da sözlər bir, fikirlər isə tamam başqa səmtə yönələndə, bəlkə də, elə bir şey baş verəcək ki, qocalanda xatırlamağa bir şey olsun. Bax belə bir əhvali-ruhiyyədə violonçelçalan evdən çıxdı, elə bu əhvalda da teatra yetişdi, elə həmin əhvalla – səhnəyə çıxdı və öz yerini tutdu. Loja boş idi. "Gecikir, – öz-özünə dedi, – indi görünəcək, odur, kimsə zala tələsir". Həqiqətən də, artıq yerlərini tutmuş, indi isə yenidən ayağa durmağa məcbur olan tamaşaçılardan üzr istəyə-istəyə sıraların arasıyla gecikmişlər irəliləyirdi, lakin qadın yox idi. "Fasilədə gələcək". Heç antraktda da gəlmədi. Loja konsertin sonuna kimi boş qaldı. Lakin hələ də tamamilə əsaslı bir ümid vardı içində ki, yuxarıda göstərilən səbəblərdən konsertə gəlməyə imkan tapmayaraq indi xidməti çıxışın qarşısında gözləyir onu. Yox, gözləmirdi. Lakin ümidin alnına yazılıb ki, çin olmayanda da elə o dəqiqə özünə bənzərlərini doğurur, bəlkə də, o səbəbdəndir ki, saysız-hesabsız xəyal qırıqlıqlarına baxmayaraq, ümidlərin yer üzündə kökü kəsilmək bilmir hələ, indi mütləq, evin qarşısında gözləyir, dodaqlarında təbəssüm, əlində də məktubu. "Hə, əlbəttə ki, odur – oradadır, verdiyi vədə xilaf çıxmadı. Yoxdur, orada da yoxdur". Violonçelçalan avtomat kimi evə keçir – o qədim, robotların birinci nəslindən olanlar, ayaqlarının biri tərpənmək üçün o birisindən icazə alan robot kimi. Onu salamlamağa çıxmış iti itələdi, violonçeli necə gəldi, başından eləyib çarpayıya yıxıldı. "Bu, sənə dərs olsun, idiot, özünü sonuncu axmaq kimi aparırdın, qafasız sarsaq, tamam başqa məna daşıyan sözləri arzuladığın kimi başa düşürdün, nə idi onların mənası – bilmirsən və heç vaxt da bilməyəcəksən, təbəssümlərə inandın, onlar isə, əslində, üz əzələlərinin qeyri-iradi yığılmasından başqa bir

[1] *Mstislav Leopoldoviç Rostropoviç* (1927–2007) – Azərbaycanın paytaxtı Bakı şəhərində anadan olmuş dünyaşöhrətli violonçelçi və dirijor

şey deyil, sən unutmuşdun, hərçənd ki səmimi şəkildə xatırlatmışdılar sənə, xatırlatmışdılar ki, əlli yaşın var, odur ki indi ağna burada, çarpayının üstündə, onu qəbul etmək istədiyin çarpayının, ağna, nə qədər ki o, sənin misilsiz axmaqlığın ucbatından düşdüyün sarsaq vəziyyətinə gülməyindədir". Bayaqkı incikliyini artıq unutmuş köpək ona təskinlik verməyə gəlirdi. Qabaq ayaqlarını döşəyin üstünə qoydu, elə yaxınlaşdı ki, sahibinin lazımsız, faydasız bir şey kimi yana atdığı sol əlinin bərabərində durdu və başını yavaşca onun üstünə endirdi. Adi həmcinsləri kimi onu bir-iki dəfə yalaya da bilərdi, lakin bu dəfə hüsn-rəğbət göstərmiş təbiət ona həssaslıq bəxş etmişdi və bu həssaslıq ona imkan verirdi ki, eyni və daim dəyişməz olan hisslərini büruzə vermək üçün hər dəfə başqa-başqa hərəkətlər kəşf etsin. Violonçelçalan o biri böyrü üstə çöndü, yaxınlaşıb elə əyildi ki, onun başından itin başına kimi bir qarışdan artıq məsafə qalmadı və beləcə, göz-gözə uzanıb, onlar sözlərə ehtiyac duymadan deyirdilər: "Hətta yaxşıca fikirləşəndən sonra belə özüm üçün heç cür təsəvvür eləmirəm ki, sən kimsən və bu heç vacib də deyil, çünki biz bir-birimizi sevirik". Ağrı-acı violonçelçinin qəlbindən yavaş-yavaş çıxırdı və həqiqətən də, bizim dünyamız belə epizodlarla çox zəngindir: o gözləyirdi, amma gəlmədi, qadın ümidliydi, o isə onun ümidlərini doğrultmadı və əlimizi ürəyimizin üstünə qoyub, bizlər – heç nəyə inanmayan skeptiklər birağızdan deyək: "Bu, ayağını qırmaqdan daha yaxşıdır". Bu fikri dilə gətirmək asandır, amma onlara söz donu geydirməsən, yüz dəfə bundan yaxşı olar, zira sözlər çox vaxt gözlənilməndən, nəyin naminə dilə gətirilmişdisə, ona əks təsir göstərir, odur ki bir də görürsən, bu kişilər, bu qadınlar deyirlər: "Sənə nifrət edirəm! Nifrət edirəm!" – sonra da acı-acı göz yaşları axıdırlar. Violonçelçalan çarpayıya oturdu, ayaqlarını onun dizləri üstə qoymaqla təskinlik verən iti qucaqladı və özünə ünvanladığı qınaqla dedi: "Zəhmət olmasa, mənliyinizi qoruyun, bəsdir inildədiniz".



Sonra da daimi kompanyonuna müraciətlə əlavə elədi: "Yəqin, yemək istəyirsən?" Quyruğunu bulayan it bununla cavab verdi ki, hə, əlbəttə, istəyirəm, bir gəl istəməyim, gör neçə saatdır, ac-acına oturmuşam və onlar mətbəxə keçdilər. Violonçelçi bir şey yemədi – istəmirdi. Bir də ki boğazındakı qəhər, onsuz da, imkan verməzdi bir şey uda. Yarım saat sonra o artıq yataqda idi: yerini rahatladı ki, tez yuxusunu gətirsin, amma bir xeyri olmadı. O yuxuya gedir, oyanırdı, mürgüləyir, diksinirdi, hər dəfə beynində bir fikir dolaşırdı ki, yuxuya çatıb, onu tutmaq lazımdır, gərək qoymayasan yuxusuzluq sənin yanında, çarpayının boş tərəfində uzansın. Lojadakı qadın onun yuxusuna girmirdi, amma elə dəqiqələr vardı ki, oyananda onu musiqi otağının tən ortasında, əllərini sinəsində çarpazlamış görürdü.

Ertəsi gün bazar idi, bazar isə – iti gəzdirmək günüydü. "Məhəbbətin müqabilində gərək məhəbbət verəsən", – dişlərində xaltasını tutmuş it belə cavab verə bilərdi. Artıq parkda, özünün sevimli skamyasına sarı gedəndə uzaqdan gördü ki, orada bir qadın oturub. Parkdakı skamyalar hamının və heç kimindir və bir qayda olaraq pulsuzdur, odur ki səndən qabaq gələn heç kəsə deyə bilməzsən: "Bu skamya mənimdir, yerinizi dəyişin, zəhmət olmasa". Violonçelçalan kimi tərbiyəli bir insan heç vaxt özünə bunu rəva bilməz, xüsusilə də ona elə gəldi, skamyadakı qadın konsertdə lojada, birinci sırada oturandır, həmin o vəd etdiyinə baxmayaraq, gəlməyən, dünən gecə isə musiqi otağının ortasında əllərini sinəsində çarpazlayaraq duran qadın. Bəlli olduğu kimi, əllidən sonra adamın gözləri qabaqkı olmur və biz onları qırpmağa, qıymağa başlayırıq, sanki, özümüzü vəhşi qərbin qəhrəmanlarına, ya da ötən əsrlərin dəniz səyyahlarına oxşatmağa çalışırıq, elə bil, karavellanın burnunda dayanıb, əllərimizi gözlərimizin üstünə tutub uzaq üfüqləri seyr edirik. Qadın, o birisindən fərqli geyinmişdi, şalvarda və dəri pencəkdə idi və başqası olduğuna şübhə yox idi. "Başqasıdır", – violonçelçalan qəlbinə

dedi, lakin qəlb – daha itigözlüdür, odur ki cavab verir: "Gözlərini sil, elə özüdür ki var və indi baxarıq özünü necə aparacağına". Qadın başını qaldırdı və sonuncu tərəddüdlər də yox oldu – bu o idi. "Salam, – skamyanın yanında dayanaraq dedi, – bu gün mən nə desəniz gözləyərdim, belə görüşdən başqa". – "Salam, mən gəldim vidalaşım və üzr istəyim ki, dünən axşam konsertdə ola bilmədim". Violonçelçalan onunla yanaşı əyləşərək itin zəncirini açdı və dedi: "Gəz". Və qadına nəzər salmadan ona cavab verdi: "Sizin üzr istəməyinizə səbəb yoxdur, belə şeylər olur, adam bilet alır, sonra da ya bir, ya da başqa səbəbdən gələ bilmir, burada nə var ki?" – "Üzr məsələsiylə qurtardıq, bəs vidalaşma necə?" – deyə o soruşdu. "Hə, sizin tərəfinizdən bu çox böyük həssaslıqdır: tanımadığınız bir şəxslə vidalaşmağa özünüzü borclu bilirsiniz, özü də mən qətiyyən başa düşmürəm ki, bazar günləri bu parkda gəzmək vərdişimi haradan bilirsiniz?" – "Sizin barənizdə mənə, az qala, hər şey bəllidir". – "Sizə yalvarıram, gəlin dördüncü gün teatrın yanındakı, sonra da telefondakı kimi absurd söhbətə girişməyək, siz mənim barəmdə heç nə bilmək iqtidarında deyilsiniz, çünki qabaqlar heç vaxt görüşməmişik". – "Yadınıza salın, mən məşqinizdə də olmuşam". – "Mən isə başa düşmürəm ki, siz zala necə keçə bilmisiniz: bizim dirijor yad adamları məşqə qoymur, bircə deməyin ki, onu da tanıyırsınız". – "Sizin kimi yaxşı tanımıram, siz – istisnasınız". – "İstəməzdim". – "Niyə?" – "Bilmək istəyirsiniz, siz, həqiqətən, bunu bilmək istəyirsiniz?!" – violonçelçalan çıxılmazlığa yaxın bir qəzəblə soruşdu. "İstəyirəm". – "Çünki mən heç tanımadığım qadına vurulmuşam, mənimlə özü üçün əylənən və mənim başıma oyun açan qadına, sabah isə, kim bilir, hara gedəcək və bir daha görməyəcəyim bir qadına". – "Sabah yox, bu gün". – "Bu lap pis". – "Bir də sizin başınıza oyun açmağım – düz deyil". – "Amma məhz belə təəssürat yaranır". – "O ki qaldı vurulmağınıza, məndən cavab gözləməyin, çünki elə sözlər var, onları tələffüz etmək mənə yasaqdır". – "Yenə də sirr". – "Və hələ sonuncusu deyil bu". –

"Yox, biz vidalaşacağıq, bütün sirlər də bitəcək". – "Başqaları yarana bilər". – "Xahiş edirəm, mənə əzab verməyin". – "Məktub". – "Mən heç bir məktub barədə eşitmək istəmirəm". – "Əgər onu sizə təqdim etmək istəsəydim belə, alınmazdı – oteldə unutmuşam". – "Onda qayıdanda cırarsınız". – "Mən fikirləşərəm, onu neyləyim". – "Nə fikirləşmək bazarıdır, cırın – vəssalam". Qadın qalxdı. "Artıq gedirsiniz?" – violonçelçi soruşdu. O oturmuşdu hələ, başını da qaldırmırdı və aydın görünürdü ki, yenə nəsə demək istəyir. "Mən heç sizə toxunmadım da", – mızıldandı. "Mən istəmədim ki, toxunasınız". – "Necə nail oldunuz buna?" "Bu, mənim üçün hətta indi belə çətin deyil". – "Hətta indi belə? Heç olmasa, əlinizi verin". – "Əllərim soyuqdur". Violonçelçalan başını qaldırdı. Qadın artıq yox idi.

Kişiylə it parkı tərk etdilər, aldıqları sendviçləri evdə yeyəcəkdilər və otun üstündə günortadansonrakı istirahət ləğv edildi. Gün darıxdırıcı və kədərli keçirdi: violonçelçi kitab götürdü və yarım səhifə oxuyub bir kənara atdı. Royalın arxasına oturdu, lakin soyuq, taxtaya dönmüş, sanki, ölü əlləri sözünə baxmırdı. Və hətta violonçelə əl atanda da sevimli aləti onu rədd etdi. O, kresloda mürgüləyirdi və istəyirdi ki, bitməz bir yuxuya getsin və bir də oyanmasın. Sahibinin bu gün səslənməyəcək çağırışının intizarında döşəmə üstünə uzanmış it ona baxırdı. Görünür, sahibi parkdakı həmin o qadına görə kədərlənib, fikirləşirdi və belə çıxır ki, gözdən iraq – könüldən uzaq məsəli də gopdur. "Bu məsəllər daim bizi aldadır", – deyə it fikrini yekunlaşdırdı. Saat on birdə qapının zəngi çalındı. "Yəqin, qonşuya nəsə lazımdır," – deyə violonçelçalan fikirləşərək açmağa getdi.

– Axşamınız xeyir, – lojadakı qadın kandardan içəri keçəndə dedi.

– Axşamınız xeyir, – violonçelçalan boğazında yumruqlanmış qəhərə qalib gələrək cavab verdi.

– İçəri dəvət etməzsiniz?

– Əlbəttə, əlbəttə, buyurun içəri, zəhmət olmasa.

O, qadını içəri buraxaraq çəkildi, qapını örtdü və bütün bunları asta-asta elədi ki, ürəyi partlamasın. Əsən ayaqlarıyla onu qonaq otağına ötürdü, titrəyən əliylə kreslonu göstərdi.

– Mən elə düşünürdüm ki, siz artıq getmisiniz.

– Gördüyünüz kimi, ləngimək qərarına gəldim.

– Sabahadək?

– Çox güman.

– Elə bilirəm ki, mənə məktubu gətirmisiniz, cırmadınız, yəqin.

– Hə, o, mənim çantamdadır.

– Verin bura.

– Hara tələsirsiniz, hələ vaxtımız var, xatırlayırsınız, demişdim axı, tələsən tərsə düşər.

– Necə məsləhətdir, mən sizin ixtiyarınızdayam.

– Siz bunu ciddi deyirsiniz?

– Mənim bir böyük çatışmazlığım var: mən həmişə ciddi danışıram, hətta güldürmək istəyəndə də – xüsusilə güldürmək istəyəndə.

– Onda sizə bir xahişlə müraciət etmək istəyirəm.

– Eşidirəm.

– Mənə gələ bilmədiyim dünənki konsertin əvəzini verin.

– Necə edim bunu?

– Sizin royalınız var axı.

– Nə danışırsınız, mən ortabab pianoçuyam.

– Onda violonçel çalın.

– Bu, başqa məsələ, mən sizə bir-iki pyes çalmağa hazıram, əgər israr edirsinizsə.

– Seçim mənimkidir, – qadın dedi.

– Hə, amma mənim imkanlarım daxilində.

Qadın Baxın altı nömrəli süitasının notları olan dəftəri götürdü və dedi:

– Bax bunu.

– O çox uzundur, yarım saatdan çox çəkir, artıq gecdir.



– Təkrar edirəm – bizim vaxtımız var.

– Onun əvvəlində bir gəzişmə var, heç vaxt öhdəsindən gələ bilməmişəm.

– Eybi yox, – qadın cavab verdi, – ora çatanda – üstündən adlayın, amma bəlkə də, heç lazım olmayacaq, lap Rostropoviçinkindən də yaxşı alınacaq.

Violonçelçalan gülümsündü:

– Şübhə etməyə bilərsiniz.

O, notları püpitrə qoydu, dərindən nəfəs aldı, sol əliylə alətin dəstəyindən tutdu, kamanlı sağ əlini simlərə lap yaxınlaşdırdı, az qala, toxundu və başladı. Məgər özü bilmirdi ki, o – Rostropoviç deyildi, sadəcə, proqram tələb edəndə solo çalan bir orkestrant idi, amma burada, bu qadının qarşısında, döşəmənin üstünə yayılmış itinin yanında, gecənin bir aləmi, öz kitablarının, partituralarının, notlarının əhatəsində o, İohann Sebastyan Bax olmuşdu, Vötendə sonradan min on ikinci əsər adlandırılacaq şeyi bəstələyən və təxminən, kainatın xaliqinin yaratdığı qədər əsər yaratmış bəstəkar. Çətin gəzişmədən gəzərək keçmişdi, odur ki ifaçı heç özü də igidliyini hiss etmədi, qəribə əllər violonçeli oxumağa, danışmağa, pıçıldamağa, nərildəməyə məcbur edirdi və görünür, Rostropoviçə məhz bu otaq, bu saat, bu qadın çatmırdı. Bitirəndə artıq qadının əlləri soyuq deyildi, onunkular isə yanırdı və yəqin, ona görə də əllər əllərə sarı uzandı, birləşdilər və daha ayrılmadılar. Çox, çox uzaqda qalmışdı gecəyarısı, violonçelçalan soruşdu: "Taksi çağırım", – qadın isə cavab verdi: "Yox, səninlə qalacam". Və dodaqlarını öpüş üçün uzatdı. Yataq otağına keçdilər, soyundular və baş vermək nəsibində olan hər şey baş verdi, bir, iki, üç dəfə. O, yuxuya getdi, qadın isə yox. O – ölüm qalxdı, qonaq otağında qoyduğu çantasını açdı, bənövşəyi məktubu çıxardı. Ətrafına göz gəzdirdi, sanki, hara qoyacağını aydınlaşdırırdı – royalın üstünə, violonçelin simlərinin arasına, ya yataq otağına qayıdıb üstündə kişinin başını qoyduğu balışın altına qoysun.

Heç yana qoymadı. Mətbəxə çıxıb kibriti çəkdi – kim, kim, o, bircə baxışıyla bu kağızı toz kimi külə çevirməyə qadir idi, barmağının bircə toxunuşuyla alışdıra bilərdi – və budur, adi kibrit – bəsit, miskin, həmişəki kibrit ölümün məktubunu yandırdı, yalnız ölümün məhv edə biləcəyi məktubu. Heç kül də qalmadı. Ölüm yatağa qayıtdı, yatmış kişini qucaqladı və nə baş verdiyini anlamadan, zira ölüm heç vaxt yatmır – birdən hiss etdi ki, yuxu onun göz qapaqlarını astaca yumur. Ertəsi gün kimsə ölmədi.

İN NOMİNE DEİ

(pyes)

İN NOMİNE DEİ[1]

(pyes)

İnsanlara şüur verilib, heyvanlara instinkt, amma bilmək istərdik ki, onlardan hansı bəxş olunmuş həyatdan daha çox bəhrələnmək qabiliyyətindədir? Əgər itlər özlərinə tanrı uydursaydılar, yəni onları necə – Pudel, yoxsa Kolli çağırmalı olduqları barədə fikir müxtəlifliyinə görə bir-birini qıra bilərdilər? Əgər bu məsələdə razılığa gələ bilsələr belə, neçə nəsil dalbadal həmin o it tanrısının qulağının hansı formada olmasına görə, quyruğunun uzunluğuna görə bir-birini cırıq-cırıq edərdilər?

Mənim bu sözlərim "Fransisk Assizskinin ikinci həyatı" və "İsanın İncili"nin dalınca yüyürən nəsnə kimi, dinə hörmətsizlik nümunəsi çıxmasın. Nə mənim özüm, nə də sakit ateizmim günahkar deyil ki, Münsterdə, on altıncı əsrdə, eynilə bir çox başqa şəhərlərdə və dövrlərdə olan kimi katoliklərlə protestantlar bir-birini vəhşicəsinə qırırdılar. İn Nomine Dei – eyni Tanrının adı ilə – məqsəd isə o idi ki, əbədiyyətdə elə eyni cənnətə düşə bilsinlər. Bu pyesdə təqdim olunan hadisələr insan dözümsüzlüyünün uzun və zaman-zaman dözülməz dərəcədə faciəvi tarixinin cəmi-cümlətanı bir fəslini canlandırır. İstərdik ki, bu kitabı möminlər və inancsızlar məhz belə oxusunlar, qəbul etsinlər. Bəlkə də, ondan özləri üçün az da olsa, faydalı nə isə çıxara bilərdilər. Heyvanların, təbii ki, buna ehtiyacı yoxdur.

[1] Tanrının adıyla (*lat.*)

İŞTİRAK EDİRLƏR:

(Səhnədə görünmə sırası ilə)

BERNDT KNİPPERDOLİNK – Münsterdəki antiklerikal müxalifətin lideri, anabaptist
BERNDT ROTMANN – anabaptist-vaiz
MÜNSTER BURQOMİSTRİ
FRANS FON VALDEK – Münsterin katolik yepiskopu
FON DER VİK – yeni burqomistr
QADIN

YAN MATTİS – anabaptistlərin "apostolu"
YAN VAN LEYDEN (LEYDENLİ İOANN) – anabaptistlərin "apostolu", sonradan – Münsterin kralı elan edilir.
GERTRUDA FON UTREXT, ya da **DİVARA** – Yan van Leydenin arvadı
YAN DUZENTSŞUER – "axsaq-peyğəmbər"
HUBERT REYXER – dəmirçi
HİLLE FEYKEN
HENRİX MOLLENHEK – dəmirçilər gildiyasının sabiq başçısı
ANABAPTİST-ƏSGƏR

HENRİX KREXTİNQ – anabaptist, rahibliyi qəbul etmiş katolik ruhanisi, "kralın" müşaviri
HANS VAN DER LANGENŞTRATEN – muzdlu döyüşçü
HENRİX QRESBEK – Münsterdən Langenştratenlə birgə qaçmış anabaptist
KATOLİK ORDUSUNUN KAPİTANI
BERNDT KREXTİNQ – Henrix Krextinqin qardaşı
MÜNSTERİN ƏHALİSİ (katoliklər, lüteranlar, anabaptistlər)
RUHANİLƏR
VALDEKİN ORDUSUNUN ƏSGƏRLƏRİ

Hadisələr Münsterdə (Almaniya), 1532-ci ilin mayından 1535-ci ilin iyununa kimi cərəyan edir.

BİRİNCİ PƏRDƏ

Birinci səhnə

Qaranlıqlaşır. Torpaq qətlə yetirilmiş kişi və qadın meyitləriylə doludur. Onların arası ilə, fənərlərin işığında silahlı əsgərlər gəzir. Onlar hələ həyat nişanəsi göstərənləri tapıb öldürürlər. Səhnənin işığı yavaş-yavaş solur. Öz işlərini bitirən əsgərlər bir-birinin ardınca səhnədən çıxırlar. Sonuncu əsgər çıxanda işıq tam sönür.

İkinci səhnə

SƏS (*qaranlıqda avazla ucalır*). Peyğəmbər Danilin kitabında deyilir: "Çayların üzərində yerləşən kətan paltarlı kişi sağ və sol əllərini göylərə qaldıraraq əbədi Ölməzlərə and içirdi ki, zamanın, bu zaman və yarımzamanların sonunda müqəddəs xalqın güc birliyindən baş tutacaq hər şey".

İşıq yavaş-yavaş qayıdır. Bir müddət peyğəmbərliyin təhdidli mənasını gücləndirən musiqi səslənir. Səhnədə reallığa nisbətən dəyişmiş bazar meydanı görünür – sol tərəfdə kafedral məbəd, ortada – ratuşa, sağda – Müqəddəs Lambert kilsəsi. Onların arasında – cəmi bir neçə ev var.

Üçüncü səhnə

(KNİPPERDOLİNK və ROTMANN
bir neçə kişi və qadının müşayiətiylə gəlirlər)

KNİPPERDOLİNK. Peyğəmbərliyin zamanı yetişir. Onun Münsterin darvazalarını necə amiranə və israrla döyməsini eşidirəm. Bizim rahibləri bayırda incəsənət və sənətkarlıqla məşğul olaraq çörəyimizi əlimizdən alan monastır-



ların iradəsinə zidd çıxmağa cəsarət etmədiyimiz günlər artıq keçmişdə qaldı. Nə müqəddəs məkan – sexdir, nə də monastır – sənətkar gildiyası. Ədaləti bərpa edən zamansa şəhər darvazalarını döyərək tamam başqa müjdələr gətirir bizə. Cənubda alman knyazlarının qırdığı kəndlilər indi şimalda diriliblər və artıq təkcə çörək yox, ədalət də tələb edirlər. Həlak olanların sözləri indi dirilərin dilində səslənir; onlar da, bunlar da israrla tələb edirlər ki, insanlar arasında Tanrı işi getsin. Zira hər bir insanın apostol və Tanrı elçisi olmaq zamanı artıq yetişib.

ROTMANN. Tanrı kəlamı mənim ciyərlərimi hava ilə doldurараq, dodaqlarımdan hələ Münsterin divarlarından kənarda, Müqəddəs Mavriki kilsəsində moizə edərkən yağırdı. Oradan məni katoliklər üzərində yepiskop təyin edilmiş Valdek qovdu, alçaqcasına qovdu, mənim azadlığımı tapdadı, ruhuma zülm etdi. Lakin gənc yaşlarımda icmamızın çiçəklənərək möhkəmlənməsi naminə məni Vittenberqə oxumağa yollayan şəhər tacirləri indi də mənə qayğı göstərib müdafiə etdilər və mənim səsim indi burada, Münsterin lap ürəyində, Müqəddəs Lambert kilsəsində səslənir. Amma yenə də master Knipperdolink, ancaq Tanrı sözlərini çatdıran adamları apostol, ya da peyğəmbər saymaq olmaz.

KNİPPERDOLİNK. Zaman Tanrının müti quludur, onun iradəsinin icraçısıdır, o göstərəcək sən kimsən, biz kimik, hansı əzablar gözləyir bizi, şöhrətmi var nəsibimizdə, yoxsa lənət, Tanrımızın təsvirolunmaz müdrikliyi yaranışımızın ilk günündən nələr hazırlayıb bizə. Mən eşidirəm – sanki, ağır, dəmir çənbərli qapı guruldadı: bu, Dünya Kitabında bizim adlarımız yazılan səhifədir, çevirdilər.

ROTMANN. Hamımızı çağıracaqlar, bunu Tanrı deyir.

KNİPPERDOLİNK. Elə çalışaq ki, hamımız seçilmişlərdən olaq. Münster mehrab kimidir. Tanrının sağ əli bizi gizləyəcək, qoruyacaq, sol əliylə isə bizim düşmənlərimizi dibsiz uçurumlara atacaq.

ROTMANN. Qoy yer üzündə Münster mehrab kimi olsun. Gedeonun Tanrıya dediklərini yada salaq: "Əgər sən İsraili mənim əlimlə xilas etsən, mən xırman yerinə qırxılmış yun sərəcəm: əgər şeh yalnız yunun üzərində olsa, torpaq isə quru qalsa, biləcəyəm ki, söylədiyin kimi, İsrailə mənim əlimlə nicat verəcəksən. Ertəsi gün tezdən oyanıb, sərdiyi yunu sıxmağa başladı və düz bir cam şeh sıxdı. Və Gedeon Tanrıya dedi: əgər bir dəfə, bircə dəfə də desəm ki, qoy bütün yun quru qalsın, torpaq isə islansın, mənə qəzəblənmə, nə olar. Tanrı həmin gecə elə də etdi, yalnız yun quru qaldı".

Münster xalqı, Tanrının başımıza ilahi şeh yağdıracağı gün uzaqda deyil. Gəlin Gedeonun sərdiyi yun misalı olaq, Tanrı sözünü vücudumuza hopduraq, elə edək ki, ruhlarımızı sıxmaq dəmində Tanrı öz camını ağzınadək doldura bilsin.

KNİPPERDOLİNK. Katoliklərsə o dəm qupquru qalacaqlar – cismləri də quru, ruhları da, zira damarlarında axan qan acıdır, soyuqdur, bu, iblisin qanıdır.

Kilsənin qapılarından katolik ruhanilər və möminlər çıxır.

RUHANİLƏR XORU. Gün gələcək – bu küfr kəlamların baha oturacaq sənə, Knipperdolink.

KNİPPERDOLİNK. Tam dəyərini ödəyəcəm. Həm artıq dediyim sözlərin, həm də nə vaxtsa deyəcəklərimin dəyərini. Mənə borc verən təkdir – mənim Tanrım, siz isə həm cisminiz, həm ruhunuzla iblisə borclusunuz.

RUHANİLƏR XORU. Səni lənətə gələsən, Lüterin törəməsi. Tanrı kilsəsini təhqir etmək – Tanrının özünü təhqir etmək kimi bir şeydir, lakin O, bu təhqirlərini öz iradəsiylə bağışlasa belə, onun möhkəm qalası – kilsə bu təhqirlərə yol verənləri məhv etməyə borcludur.

ROTMANN. Niyə? Sizin dediyinizdən belə çıxır ki, kilsə tanrıdan ucada durur?

KNİPPERDOLİNK. Əgər Tanrı bağışlayırsa, mümkünmüdür ki, kilsə bağışlamasın?



RUHANİLƏR XORU. Tanrı adıyla kilsə də bağışlayar, lakin Tanrının özü təhqir olunursa, kilsənin qaçılmaz cəzası həmin o təhqir edəni bu həyatda, dünyəvi həyatda mütləq haqlayacaq. Və artıq qətiyyən önəmli deyil ki, orada, əbədiyyətdə Tanrının son hökmü necə olacaq.

ROTMANN. Tanrı bağışlayandır.

RUHANİLƏR XORU. Kilsə nə vaxta kimi gözləməlidir ki, Tanrı kimisə bağışlasın. Sizin qəlblərinizdə pusqu qurub gizlənmiş məkr və qəzəbi biz aydın görürük. Siz iddia edirsiniz ki, özünüzü Tanrıya tapşırmısınız və bununla da bizim əlimizdən qurtulacağınıza bel bağlayırsınız.

ROTMANN. Tanrı zamanın sonunda sizlərlə bizlər arasında seçim edəcək. Lakin burada, vəd olunmuş müqəddəs Münster torpağında, hal-hazırda biz itaətsizlik bayrağını ucaldacağıq. Biz liturgiyanın, guya, qurban vermək olduğu haqda anlayışlarınızı rədd edirik və bildiririk ki, Məsih özünün mahiyyətini məhz bunda göstərir. Biz tələb edirik ki, bütün dini mübhəmlər, o cümlədən də, körpələrin xaç suyuna çəkilməsi latın dilində deyil, xalqımız danışan dildə icra olunsun. Biz bəyan edirik ki...

RUHANİLƏR XORU. Dur, Rotmann, çünki sənin söyləməyə macal tapdıqlarında biz artıq küfr əlamətləri gördük, sən və sənin adamların bu küfrlərlə katolik kilsəsini zəiflətməyə can atırsınız. Sən "xalqın danışdığı dili" xatırlatdın, biz isə soruşuruq: əgər Müqəddəs Kitabda yazılıbsa ki, Tanrı Babil qülləsini ucaldan insanların dillərini qarışdırdı ki, birbirilərini anlamasınlar, onda sənin söylədiklərin nə deməkdir? Məgər bundan belə bir nəticə çıxmır ki, Tanrı bütün xaliqlərinin ona eyni dildə müraciət etməsini istəyir?

ROTMANN. Yer üzündə Tanrının gücü qarşısında davam gətirəcək bir qüvvə yoxdur. Onun yüngülcə üfürməsi bəs edərdi ki, Babil qülləsi uçub tökülsün, onun şöhrətpərəst inşaatçıları isə – uçqunlar altında tələf olsunlar. Lakin Tanrı özünün mübhəm mərhəmətiylə onların yalnız dillərini qarışdırmaq istədi. Onun üçün ki, gələcəkdə hər xalq ona

alqışlarını öz dilində yağdırsın, sizin dildə, kimsənin danışmadığı latın dilində yox.

RUHANİLƏR XORU. Sənin dəlillərin, Rotmann, sofistikadan başqa bir şey deyil. Lakin gözəl danışıq bizim hamımızın Tanrı qarşısında duracağımız zaman, O, hər birimizi məhkəmə edəndə köməyinə gəlməyəcək.

ROTMANN. Bizim Tanrı qarşısında durduğumuz saatda mənim susmağım belə sizin latın dilindən daha inandırıcı səslənəcək.

KNİPPERDOLİNK. Gənclik dövrü var, qocalıq əyyamı da, mübahisə dəmi də var, qərar məqamı da. Özünüz görürsünüz, ey katoliklər, sizin dəlillərniz bizi inandırmır – xüsusilə də düz min beş yüz illik bir dövrdə bu dəlillərdən şər işlər üçün istifadə etdiyinizi və indi onları müdafiə edərək, həqiqəti necə təhrif etdiyinizi düşünəndə.

RUHANİLƏR XORU. Bizim tərəfimizdə yalnız kilsənin hörməti durmur, həm də hakimiyyət və sərvət sahiblərinin hüsn-rəğbəti durub arxamızda.

ROTMANN. İsa isə nə öz həyatında, nə də öləndən sonra bu hüsn-rəğbətdən istifadə etmədi.

RUHANİLƏR XORU. Elə imperatorun özü də bizi müdafiə edir.

KNİPPERDOLİNK. Bu dünyanın hökmdarlarının borcu – bütün təbəələrini eyni dərəcədə müdafiə etməkdir, ilahi pərvərdigardan, Kainatın Hakimi-mütləqindən nümunə götürərək müdafiə etmək. Siz say etibarilə bizdən çoxsunuz, qoy olsun, amma bilin ki, buna görə hüquqlarınız artmır. Tək bir fərdin hüququ hamının hüququnun cəminə bərabərdir, şəhərin hüququ bir parçasını təşkil etdiyi dövlətin hüququna, Münsterin hüququ isə heç də imperiyanınkından az deyil.

RUHANİLƏR XORU. Bu sözlərini möhkəm saxla yadında, zira nə vaxtsa, Tanrı nəsib etməsin bunu, amma sizlər bizdən çox ola bilərsiniz. Bizə ancaq dua etmək qalır ki, bu baş verməsin, Tanrı istəməsin bunu.



KNİPPERDOLİNK. İnsanlar Tanrının nə istədiyini yalnız sözdən əmələ keçəndə anlayırlar. Nə qədər ki əllərini yanlarına salaraq fəaliyyətsiz durublar, ilahi yalnız dinləyir. Lakin Münstern qülləsində qərar və fəaliyyət saatı öz zəngini çalırsa, Tanrı da nizəsini əlinə alaraq, indi bizim aramızdadır.

ROTMANN. Siz, ruhanilər və kitab əhli, bizim şüurumuza sahiblənə bilməzsiniz, gücümüzə qarşı çıxsanız da, onu üstələyə bilməzsiniz.

RUHANİLƏR XORU. Sərsəmlik sizin beyninizi dumanlandırıb.

KNİPPERDOLİNK. Onlarda Tanrı qığılcımı parlayır.

ROTMANN. Bəsdir bu mübahisə. Əgər alçalmağınızın şahidi olmaq istəyirsinizsə, qala bilərsiniz. Bura magistratın üzvləri gəlir və siz də onlara deyəcəklərimizi eşidə bilərsiniz.

BURQOMİSTR. Sizin tələbləriniz nədən ibarətdir?

KNİPPERDOLİNK. Hollandiyanın düzənlik torpaqlarında və Almaniyanın bütün şimalında yeni nəsim əsir. Ruhumuz Tanrının təzə nitqlərinə köklənib, onun nəfəsi üzlərimizi qarsır. Münsterndə islahat keçirmək zamanıdır.

RUHANİLƏR XORU. Magistratın hakimiyyəti dinə aid deyil və biz imkan vermərik ki, o, səlahiyyətlərini aşsın. Biz yepiskop Frans fon Valdekə tabeyik və siz də bütün iddialarınızı ortaya qoymalısınız ki, cavabı ondan alasınız.

KNİPPERDOLİNK. Biz yepiskop Valdekin deyəcəklərini qabaqcadan bilirik. Burada, Münsterndə Münstern vətəndaşları ixtiyar sahibidirlər, biz isə islahat istəyirik.

ROTMANN. Hə. Zamanı yetişib artıq.

BURQOMİSTR. Müşavirlərin əksər hissəsi – mərhəmətli və qısqanc katoliklərdir. Odur ki magistrat öz üzvlərinin əksəriyyətinin iradəsiylə üst-üstə düşməyən qərar qəbul edə bilməz.

ROTMANN. Belə olan təqdirdə biz onu bu qərara məcbur edərik.

Meydanda narahatlıq. Ruhanilər kilsədə gizlənirlər. Müqəddəs Lambert məbədinin girəcəyində katoliklərlə protestantlar arasında dava başlayır. Katoliklər və magistrat üzvləri qaçırlar. Qaliblər kilsəyə daxil olurlar, Knipperdolink və Rotmannı da təntənəylə içəri keçirirlər.

Dördüncü səhnə

Bazar meydanında insan kütləsi. Knipperdolink və Rotmann da buradadırlar. Ratuşadan magistrat üzvləri çıxırlar.

BURQOMİSTR. Görün özünüzün səhv və düşüncəsiz hərəkətlərinizlə nəyə nail oldunuz. Yepiskop Valdek onun yeparxiyasındakı, sizin zorla ələ keçirdiyiniz kilsələrdə islahatlar keçirilməsinə belə cavab verir. Münster şəhərinə gələn bütün mallar, harda aşkar edildiklərindən və hardan gəlmələrindən asılı olmayaraq müsadirə olunacaq. Şəhərə gələn bütün yollar kəsiləcək. Münster o vaxta qədər mühasirədə qalacaq ki, yeparxiyanın bütün kilsələri yenidən Roma kuriyasının tabeliyinə keçsin. Onun verdiyi əmrlər bundan ibarətdir.

KNİPPERDOLİNK. Bəs sən necə hərəkət etmək niyyətindəsən?

BURQOMİSTR. Mən, xalqın mənafeyinə çalışan xalq nümayəndəsi kimi, yepiskopun tələblərinin təcili olaraq təmin olunmasını və əllərindən zorla alınmış bütün məbədlərin katolik kilsəsinə verilməsini əmr edirəm. Onda Münsterdə yenə sülh olacaq.

KNİPPERDOLİNK. Sən özünü bizim nümayəndə saymaqda azadsan, amma sülhün keşikçisi kimi görünmək istəyin əbəsdir. Çünki sən və sənin kimilərin "sülh" adlandırdıqları – Valdekin əmrlərinə əsl qul mütiliyi ilə tabe olmağımız üçün indi bizə sırıdığınız şey, müharibələrin ən qaniçənindən də pisdir.

ROTMANN. Nəyə baş qoşduğunuzu özünüz görürsünüz də, ey müşavirlər. Yəni elə fikirləşirsiniz ki, magistrat üzvlərini dəyişmək kilsələrdəki vaizləri dəyişməkdən çətindir?



BURQOMİSTR. Sən bizi təhdid edirsən? Bizi Münster vətəndaşları seçib, hakimiyyətimizi və ləyaqət nişanlarımızı yalnız onlar geri ala bilər.

KNİPPERDOLİNK. Yepiskop Valdekə deyin ki, əgər o, şəhərə ərzaq buraxmamaqla bizim iradəmizi qırmaq istəyirsə, onda gərək sizin kilsənin kanonikləri, əhli-kitabları və digər ruhaniləri pəhrizə birinci başlasınlar. Münster vətəndaşları! Tutun onları, rütbələrinə, vəzifələrinə, müqəddəslik dərəcələrinə və iyerarxiyadakı mövqelərinə baxmayaraq, hamısını tutun, qollarını burun, boyunlarına kəndir salın və həmin kəndirdən çəkə-çəkə bura gətirin. Yepiskop Valdeki onların arasında tapa bilməyəcəksiniz, amma onun yerində tutduğunuz istənilən şəxsi təsəvvür edin və ruhunuz şənlənsin.

Rotmann və daha bir neçə nəfər kilsəyə daxil olur.

BURQOMİSTR. Sən tamam ağlını itirmisən. Ruhanilərə qarşı zor tətbiq etmək – bu, dəhşətli günahdır. Tanrı qəzəbi Münsterin başı üzərinə yağacaq.

KNİPPERDOLİNK. Tanrıya qulluq edənlərin arasında kanonik həddən ziyadə çox, insan isə azdır. Əmin ola bilərsən ki, bu kitab əhli acından ölsə, dünya heç xəbər də tutmayacaq. Onlar cəhənnəmə düşəndə isə qoy sevgili yepiskoplarını günahlandırsınlar. (*Burqomistrə*) Tez Valdekin yanına çapar yolla, xəbər yetirsin ki, bütün kanoniklər Münster tərəfindən girov götürülüb.

BURQOMİSTR. Münster yox, bir ovuc qiyamçı tərəfindən. Çünki şəhəri biz – magistrat üzvləri təmsil edirik.

KNİPPERDOLİNK. Məni və mənim çoxlu həmfikirlərimi siz təmsil etmirsiniz. Amma boş danışıq bəs edər artıq. Görürəm ki, bura gələn var – onların hesabına şəhərə ərzaq yenə gətiriləcək. (*Əlibağlı kanoniklərə müraciətlə*) Əgər yepiskop sizi həqiqətən sevirsə, elə bilirəm, tezliklə azadlığa çıxa biləcəksiniz. Hələlik isə necə böyük əhəmiyyət daşıdığınızla fəxr edin – mən sizi Münsterin girovları elan edirəm.

RUHANİLƏR XORU. Səni lənətə gələsən.

KNİPPERDOLİNK. İblis xristianı lənətləyə bilməz, çünki bu lənət xeyir-duaya bərabərdir. Mən bu lənəti elə də qəbul edirəm.

RUHANİLƏR XORU. Səni və bütün havadarlarını kilsədən təcrid edirik.

KNİPPERDOLİNK. Sizin kilsədən – hə, bizi kənar edə bilərsiniz, lakin Məsihin dinindən yox. Yaxşısı budur, o barədə düşünün ki, bəlkə də, elə həmin bu dəqiqələrdə suların üstüylə gəzir o və bizim çayın suyunda təmizlənəcək yenidən, sizinkində yox.

RUHANİLƏR XORU. Sən xaç suyuna çəkilmək barədə danışırsan?

ROTMANN. Ola bilər.

RUHANİLƏR XORU. Bu axı küfrdür, küfr. Xaça çəkilmənin mübhəmliyi dəyişə bilməz və bir dəfə baş verir.

KNİPPERDOLİNK. Bir dəfə vaxt tapıb, əlbəttə, əgər o zamana kimi gəbərməsəniz, biz bir teoloji disput təşkil edərik. İndi isə *(öz tərəfdarlarına müraciət edir)* onları zindana aparın və unutmayın – nə bir tikə çörək verirsiniz, nə bir damcı su, o vaxtadək ki, xaç suyuna ehtiyacları olmadıqları barədə sözlərindən imtina etsinlər.

BURQOMİSTR. Mən bütün şəhər tərəfindən seçilmiş vətəndaş hakimiyyətinin nümayəndəsi kimi tələb edirəm ki, əsirlər bizim nəzarətimizdə olsunlar.

KNİPPERDOLİNK. Doğru sözlərdir – sən vətəndaş hakimiyyətinin nümayəndəsisən. Amma burada söhbət məzhəb fərqlərindən gedir və elə bu səbəbdən də sənə bir aidiyyəti yoxdur. Kənara çəkil, bizi öz müharibəmizlə baş-başa burax.

BURQOMİSTR. Ağzından çıxdı – qoynuna düşdü, odur, gəlir, sizə əsl müharibəni göstərər.

Yepiskop Valdek katolik möminlərin və silahlı əsgərlərin əhatəsində içəri daxil olur. Yepiskopun özü də silahlıdır. Həmin dəqiqə Münster əhalisinin iki düşərgəyə bölünməsi əyani



görünür – əgər katoliklər yepiskopa diqqət və hörmət əlamətləri göstərirlərsə, protestantlar düşmən münasibətlərini gizləmirlər.

VALDEK. Mənim kilsəmin müqəddəs sərhədlərini əlisilahlı pozmağa kim cəsarət edib? Mənim ruhanilərimin qollarını kim zəncirləyib, onların azadlığını əlindən kim alıb?

KNİPPERDOLİNK. Bunu mənim əmrimə əsasən ediblər.

VALDEK. Azad et onları.

KNİPPERDOLİNK. Münsterə gələn yollardan gözətçiləri yığışdır, bizim malları burax.

VALDEK. Nə qədər ki zorla alınmış bütün məbədlər Roma kilsəsinə qaytarılmayacaq, bu olmayacaq.

KNİPPERDOLİNK. Bir də təkrar edirəm – yollardan gözətçi dəstələrini yığışdır, mallarımızı burax. Əgər bunları etməsən – diri icmaların yerinə, ölü ruhanilər alacaqsan, zira bu dəqiqədən etibarən onlar nə bir tikə çörək görəcəklər, nə bir damcı su.

ROTMANN. Və öz əsgərlərinə bizim üstümüzə hücum əmri vermək fikrinə də düşmə. Çünki ölənlər dirilərin əlində qalxana, qılınca çevriləcəklər və sənin qarşına hamımız – həm dirilər, həm ölülər – birgə çıxacağıq.

BURQOMİSTR. Gəlin bu mübahisəni bir yerdə və sülhlə həll edək. Qılınçları qınına taxın.

KNİPPERDOLİNK. Qoy bunu əvvəlcə əsgərlər etsin.

Valdek öz yoldaşlarına işarə verir və onlar silahlarını aşağı salırlar. Münster əhalisi də onlar kimi edir.

BURQOMİSTR. Sizə bəllidir ki, magistrat üzvlərinin əksər hissəsi ruhu və cismi ilə Roma katolik kilsəsinə mənsubdur. Lakin bizim borcumuz və müqəddəs vəzifəmiz – şəhəri qarşıdurmalardan, bu qəbil hadisələrdən xilas etmək üçün əlimizdən gələni əsirgəməməkdir. Özü də imperator Karl Nürnberqdə elan edib ki, artıq təyin olunmuş birgə yığıncaq baş tutmayana kimi heç kəsin istənilən dinə inanc bəsləmək hüququ məhdudlaşdırıla bilməz. Və bu səbəbdən,

sən – Frans fon Valdek, bizim yepiskop və hökmdarımız və siz – Münster protestantları, Ausburq sülhünün ruhundan bəhrələnərək, bu mübahisəni dinc yolla həll etməlisiniz. Gəlin bir-birimizə qarşı dözüm, xoş niyyət nümayiş etdirək. İmperator Karlın əmrini gözləyək.

KNİPPERDOLİNK. Yaxın gəl, Rotmann. (*Knipperdolink və Rotmann nə barədəsə pıçıldaşırlar.*) Bizim şərtlərimiz budur: yepiskop yollardan qarovulu çıxarır, mallarımızı qaytarır, biz isə onun bütün ruhanilərini azad edirik. O ki qaldı yerlərdəki kilsələrə, elədiklərimiz öz qüvvəsində qalacaq, dəyişməyəcək. Yepiskopun hakimiyyəti altında və mütləq ixtiyarında kafedral kilsə və monastırlar qalacaq.

VALDEK. Sizin təklifdə iblisə xas bir cəsarət, bəd niyyət və güzəştə getməmək meyli görürəm. Lakin imperatorumuzun ali iradəsinin yerinə yetirilməsi naminə və mövcud vəziyyətdən çıxış edərək şərtlərinizi qəbul etmək zorundayam. Roma kilsəsi öz məqamını gözləyəcək, zira sizlər də bunu bilməlisiniz – zaman ona məxsusdur. Və bu təhqirlərə görə otuz dəfə üçqat cəzalanacaqsınız. Sizin yepiskop bunu unutmayacaq, hökmdar isə – bağışlamayacaq.

Valdek öz əsgərlərini apararaq gedir. Ruhanilər azad edirlər və onlar kilsəyə qaçaraq qapıları taqqıltı ilə bağlayırlar. Magistratın müşavirləri başlarını aşağı salaraq ratuşaya daxil olurlar. Protestantlar təntənə edirlər.

Beşinci səhnə

Meydanda yeni magistrata seçkilər keçirilir. Şəhərlilər aşkar iki düşərgəyə bölünüblər – katoliklər və protestantlar. Lakin bununla yanaşı, protestantlar arasındakı fərq də hiss olunmalıdır – Lüterin ortodoksal tərəfdarları ilə daha barışmaz mövqedə duranlar arasındakı fərq.

BURQOMİSTR. Münster vətəndaşları, sizlərdən hansınız hələ səs verməmisiniz?



Bir neçə nəfər irəli yeriyərək bülletenləri ratuşa binasının qabağında qoyulmuş qutuya salırlar.

Daha kimsə yoxdur? Hamı öz iradəsini istədiyi və bacardığı kimi bəyan etdimi? Baxın ha – sonra qoy kimsə şikayətlənərək deyinməsin ki, lazım olan vaxtda bunu etmədi, zira səsvermədə iştirak etməyənlər onun nəticələrinə görə, namizədlərdən birinə səs verənlərlə bir yerdə məsuliyyət daşıyırlar. Səslərin sayılmasına başlayaq.

Bülletenləri masanın üstünə töküb sayırlar. Sayılmış kağızlar iki müxtəlif böyüklükdə qalaq təşkil edir. Burqomistrin özünü aparmasından belə anlamaq olar ki, nəticələrdən dilxordur. Sayma prosesi bitəndən sonra burqomistr nəticəni elan edir.

Münster vətəndaşları, bu gündən etibarən şəhərimizin magistratında protestantlar çoxluq təşkil edəcək. Siz bunu istədiniz və istədiyinizi aldınız. Əminəm, gözləriniz açılacaq, sizin üçün peşmançılıq vaxtı gələcək və Tanrıya yalvarıram ki, bu məqam çox gecikməsin.

Protestantlar yeni magistratı alqışlarla, qışqırıqlarla salamlayırlar. Katoliklər azsaylı nümayəndələrinə ürkək-ürkək əl çalırlar. Keçmiş şuranın üzvləri camaatın içində əriyir, yeniləri – ratuşaya keçirlər. Səhnədə Knipperdolink və Rotmann qalır.

KNİPPERDOLİNK. Bu günə xeyir-dua verək. Artıq islahatlarla küfrdən təmizlənmiş həqiqi Tanrı sözü Münsterin cəmi yeddi kilsəsində səslənməyəcək. Bu gündən etibarən magistratın iclaslarında da onu dinləyəcək, ona itaət edəcəklər. İslahatın irəlilədiyi tikanlı cığır Münsterdə geniş, hamar yola çevriləcək, onu iman genişlədəcək, birliklərin, gildiyaların gücünü artıracaq, bizim qazandığımız hakimiyyəti möhkəmlədəcək.

ROTMANN. Bu günə alqış olsun, Knipperdolink. Lakin inan mənə – biz yolun hələ lap başlanğıcındayıq, zira Tanrı bizdən əldə etdiklərimizdən qat-qat əzəmətli şeylər tələb edəcək. Ona göylərdə magistrat-zad lazım deyil – o istəyir ki, bütün yer üzü Tanrı səltənətinin aynası olsun.

KNİPPERDOLİNK. Lakin bu məqsədin həyata keçməsi üçün Tanrıya insan gücü gərək olacaq, biz isə səninlə gözəl bilirik ki, bu güc nə qədər kasaddır.

ROTMANN. Tanrı yer üzündəki bütün canlıları xəlq edəndə onlara bəxş etdiyi gücü dərk eləmək imkanı da verib. Amma sonuncu xəlq olunan insan nə heyvandır, nə quş – o, öz gücünü bilmir. Çünki insanın gücü ona Tanrıdan gəlir və yalnız Tanrı bilir ki, ona xəyalında belə təsəvvür edə bilmədiyi bu gücü nə vaxt və nə üçün versin.

KNİPPERDOLİNK. Deyəsən, planın var.

ROTMANN. Biz Tanrıya göstərəcəyik ki, bəlkə də, onun bizə verdiyi, indiyədək olan gücümüz daha bəs etmir. Biz bundan da artığına layiqik.

KNİPPERDOLİNK. Bəs bunu necə göstərəcəyik?

ROTMANN. Mümkün olan bütün yollarla. Tanrı özü bizə yol göstərəcək və yolun ən yaxşısını tapmağın da əziyyətini öz boynuna çəkəcək. Hər şeydən qabaq körpələrimizi xaç suyuna çəkməyəcəyik, priçastiye mərasimini çörək və çaxırla həyata keçirəcəyik, elə edəcəyik ki, bizim Münsterin mənəviyyatı, dini, ictimai quruluşu kilsənin tələb etdiyi ciddi qaydalar əsasında getsin. Biz tanrıçılığın özünü islah edəcəyik və bununla da öz sözümüzü deyəcəyik. Tanrı isə öz sözünü sonra deyər.

Gedirlər.

Altıncı səhnə

Şəhər meydanında, Müqəddəs Lambert kilsəsi qarşısında çoxlu adam var. Gərgin intizar ab-havası. Mizin üstündə – bir neçə qalac çörək və bir dolça çaxır var. Katoliklər deyinirlər. Arasında yeni burqomistr Fon der Vikin də olduğu mühafizəkar-protestantlar da narazılıqlarını büruzə verirlər.

FON DER VİK. Özünüzü gözləyin, Münster sakinləri. Hər bir insanın qarşısında bir yox, çoxlu yollar durur və onları müxtəlif tale də gözləyə bilər. Atdığımız ilk addım bizi

məqsədimizə çatdırdı, lakin sonrakı – bizi bu məqsəddən yayındıra, başqa yola çıxara bilər. Həyat əyri-üyrü bir xətt üzrə gedir və Tanrıdır onu düzəldən, yalnız ölüm saatımızda hər şeyi bizə anladan. Bütün mövcudiyyətin mənasını, məzmununu həyatın son anı açır, ancaq o göstərir. Ona görə də, ey Münster vətəndaşları, ömrünüzün hər anını elə yaşayın, sanki, sonuncudur, çünki səhvdən qaçmaq, onu düzəltməkdən yaxşıdır.

KNİPPERDOLİNK. Səhvlərdən qaçmaqdan daha yaxşısı isə onları etmək cəsarətidir, əgər həqiqətə qovuşmaq naminədirsə. Mən sənə qulaq asırdım, Fon der Vik və bu sözlərin bizim həmməzhəbimizdənsə, katolikə daha çox yaraşdığı barədə təəssüratdan heç cür qurtula bilmirəm.

FON DER VİK. Mən hər cür ifratçılıqdan qorxuram. Bu çörək, bu çaxır nəyə lazımdır? Onları kim gətirib?

ROTMANN. Bu, Tanrının mübhəm gecəsi üçün düzəlmiş masadır, çörək və çaxır – onun cismi və qanıdır.

FON DER VİK. Sən çox dərinə gedirsən, Rotmann, küfrün çox dərindədir.

KATOLİKLƏR XORU. Küfr, küfr.

ROTMANN. Yaxın durun, qardaşlar, mərasimi çörəklə, çaxırla eləyək.

KATOLİKLƏR XORU. Yalnız bizim mərasimdə Məsihin cisminin təcəssümü var.

ROTMANN. Tanrı çörəyi qırdı və dedi. "İçin, bu, mənim çoxlarının yolunda axıdacağım qanımdır". Mən isə deyirəm – bu çörək, bu da çaxır və deməli, Məsihin cismi də buradadır, qanı da.

KATOLİKLƏR XORU. Küfr, küfr.

Kilsədən katolik ruhaniləri, möminlərin əhatəsində çıxırlar. Onlar əllərində müqəddəs nemətlər aparırlar.

RUHANİLƏR XORU. Budur priçastiye çörəyi, torpaqdan yoğrularaq bişib ki, göyləri özündə yerləşdirsin. Yaxın

gəlin, katoliklər, Məsihin cismindən dadın, onu dilinizin üstündə hiss edin, qoy ağzınızda ərisin, qanınızda dolaşsın və ruhunuza hoparaq onunla qarışsın.

ROTMANN. Mənim kəsdiyim bu çörəkdir Məsihin cismi, onu islatdığım çaxır isə Məsihin qanıdır. Ona görə də bu – yeganə və həqiqi priçastiyedir Tanrının gizli axşamda şagirdləriylə bölüşdüyü. Yaxınlaşın, protestantlar, Məsihin cismindən dadın, Məsihin qanından için, onun şagirdinə çevrilin.

Katoliklər və radikal-protestantlar priçastiye mərasimini icra edirlər – hər biri öz bildiyi kimi. Mühafizəkar-protestantlar tərəddüddədirlər və baxmayaraq ki priçastiye etmirlər, amma katoliklərə yaxınlaşırlar.

KNİPPERDOLİNK *(Fon der Vikə müraciətlə)*. Özünüzə protestant deyirsiniz, özünüzü lüteran adlandırırsınız, lakin mən indi görürəm ki, sizin qəlbinizə katoliklər daha çox yatır, onlara meyliniz var, onlara can atırsınız. Siz artıq öz fikirlərinizdə bizi satmısınız – əməldə də xəyanət etsəniz, Tanrının cəzasından qorxun.

RADİKALLAR XORU. Biz – Tanrının şagirdləriyik və bu gündən etibarən çəkmək, saymaq və bölmək ixtiyarı bizə verilib. Odur ki yadda saxlayın – Tanrı qəzəbi bizim qəzəbimizə çevriləcək və Onun adından rıəhkəmə quracağıq.

MÜHAFİZƏKARLAR XORU. Belə özünəarxayınlıq sizi məhv edəcək, bu təşəxxüs sizi ikinci və həqiqi ölümə aparacaq.

KATOLİKLƏR XORU. Bizimlə birləşin, Məsih Kilsəsini məhv etmək istəyənlərə qarşı müqavimət göstərək. Borcun həyasız və abırsız pozucularını, ilahi təlimi təhrif edənləri, Tanrı sözünün yalançı təfsirinə yol verənləri şəhərimizdən qovaq.

KATOLİKLƏR VƏ MÜHAFİZƏKARLAR XORU. Rədd olun! Rədd olun!

ROTMANN. Əgər müharibə istəyirsinizsə, elə hesab edin ki, istəyinizə nail oldunuz.



Hər iki tərəfdən bir-birinə zidd çıxan dəstələrdəki insanların əlində silah görünür. Qanlı toqquşma qaçılmaz görünür, lakin son anda kütlənin içindən əliuşaqlı bir qadın irəli çıxır.

QADIN. Ey, sizlər – qılınclarınızı qınına qoyun! Siz bura mənim yeni doğulmuş körpəmi xaça çəkmək üçün gəlmisiniz. Özü də qanla yox, suyla, su tökməlisiniz başına. Onun əmgəyinin sümükləri hələ çox yumşaqdır, kövrəkdir. Çörək, çaxır vaxtına çox qalıb balamın, onun ağzı hələ yalnız döşümdəki südün dadını bilir və qoxusu da mənim bədənimin qoxusundan fərqlənmir. *(Rotmanna müraciətlə)* Onu xaç suyuna çək və bu elə olacaq, sanki, mən özüm bu mübhəm mərasimi bir də yaşadım.

ROTMANN. Səni xaç suyuna çəkməyə hazır olardım, əgər inancın buna layiq olsaydı. Amma oğlunu – yox!

QADIN. Niyə?

ROTMANN. Çünki yenicə anadan olmuş körpənin hələ nə şüuru, nə inancı var.

QADIN. Mənim yaddaşımda, mənim babalarımın, ulu babalarımın yaddaşında xaç suyuna çəkmə mərasimi həmişə körpələr üzərində icra olunub.

ROTMANN. Mənim imtina etməyimlə yeni yaddaş başlanacaq. Bütün olanlar unudulacaq və ruh təmiz vərəqə çevriləcək, üzərində Tanrının əli Onun adını yazacaq – heç vaxt oxuya bilməyəcəyik bu adı, lakin Onun canlı iştirakı kimi içimizdə yaşadacağıq.

QADIN. Mənim oğlumu xaç suyuna çək, qoy o ölməsin.

ROTMANN. Yox.

QADIN. Niyə?

ROTMANN. Xaç suyuna çəkmə – yuyunmaqdır, insanın arzuladığı və günah üçün öldüyünün ən dəqiq, ən həqiqi şahidliyi kimi aldığı bir nemətdir. Onun Məsihlə bir yerdə dəfn olunmasının və indi yeni həyat üçün dirilməsinin ən bariz sübutudur. Həmin dəqiqədən o artıq cisminə təsəlli

vermək üçün yox, Tanrı iradəsinə müticəsinə itaət üçün yaşayacaq. (*Başqa ahənglə*) Və sən belə hesab edirsən ki, biz bax indi sənin sinənə sıxılmış bu çağadan belə, ya da buna bənzər bir niyyət gözləyə bilərik?

QADIN. Yox, gözləyə bilmərik.

KATOLİKLƏR XORU. Bura gəl, ey qadın, bizim sıramıza keç. Biz sənin körpəni xaç suyuna, bir zamanlar özünü çəkdiyimiz kimi çəkəcəyik. Bizə yalnız sənin inancın da bəs edir. Eynilə necə ki bir zamanlar, anadan olandan bir neçə gün sonra səni kilsəyə gətirəndə, bizim sələflərimizə valideynlərinin inancı bəs etmişdi. Bizim sıralarımıza dur və sənin oğlun ölməz.

QADIN. Mən nə etməliyəm? Mənim valideynlərim katolik idilər, amma mən – katolik deyiləm. Oğlumun ölməməsi üçün kimə etibar etməliyəm onu?

LÜTERANLARIN XORU. Bizim yanımıza gəl, qadın. Biz sənin seçdiyin və riayət etməli olduğun məzhəbə qulluq edirik. Biz sənin oğlunu xaça çəkərik və körpən əbədi həyatın ləzzətini dadar.

QADIN (*Rotmanna*). Mənim oğlumu xaça çəkəcəksən?

ROTMANN. Biz bazarda deyilik ki qiymət salaq, bura heç hərrac da deyil – qiyməti qaldıraq. Tək Tanrı bilir sənin oğluna hansı qisməti hazırlayıb, ondan nə istəyir. O, bizə o vaxt gərək olacaq ki, Tanrı da ona lazım olsun.

Bütün radikallar və onların içində Knipperdolinklə Rotmann çıxıb gedirlər. Yalnız "mötədil" katoliklər və mühafizəkar-lüteranlar qalır.

KATOLİKLƏRİN XORU. Bura gəl, qadın, oğlunu bizə gətir.

QADIN. Əgər mənim oğluma sizin yanınıza gəlmək nəsibdirsə, qoy o, bu yolu mənsiz, özü keçsin. Çünki mən başqa məzhəbə inanc bəsləyirəm. Mən onu öz əllərimlə necə gətirə bilərəm sizə?

Katoliklər pərt halda səhnəni tərk edirlər.



LÜTERANLARIN XORU. Biz buradayıq, biz sənin oğlunun mərasimini icra etməyə hazırıq.

QADIN. Mən istəmirəm.

LÜTERANLARIN XORU. Niyə?

QADIN. Ona görə ki, qabaqlar mənim ağzımdan çıxmayan sözləri söyləyəndə əvvəllər gizli qalanları da anladım.

LÜTERANLARIN XORU. Nəyi anladın?

QADIN. Anladım ki, əgər mənim oğlum sizin yanınıza gəlməlidirsə, qoy özü – öz ayaqlarıyla gəlsin, mənim qucağımda yox.

LÜTERANLARIN XORU. Oğlun xaça çəkilməmiş ölsə, heç vaxt Tanrını görməyəcək.

QADIN. Eybi yox. Tanrı onu görür. Əgər, həqiqətən, fikirləşirsinizsə, Tanrı məxluqlarının biri üçün görünməz qalsa belə, mövcud ola bilərdi, onda əcəb ruhanisiniz.

Lüteranlar narazılıq içində səhnəni tərk edirlər. Qadın əlində uşağı, tək qalır. Yavaşca onun bələyini açır, sanki, körpənin nəyisə görməsini istəyir.

Yeddinci səhnə

Meydanda qələbəlikdir. Katoliklər, lüteranlar və anabaptistlər arasında düşmənçilik sezilir. Bir canlanma duyulur.

ANABAPTİSTLƏRİN XORU. Qeyzə gəlmiş, dişlərini qıcayan və təhdidlə ulayan vəhşi heyvan kimi yepiskop Valdek də şəhər darvazalarına yaxınlaşır, Münsterin divarları qarşısında var-gəl edir, niyyəti özünün alçaldılmasına görə qəddar intiqam almaq və sizi öz kilsəsinə itaətə məcbur etməkdir. Dərd, dərd gözləyir onu, Münsterdə şəhər sakinlərindən başqa qarşısına çıxacaq kimsənin olmadığını güman eləyən ağıldankəmi, onların gücü var – amma insan gücüdür yalnız. Tanrı bizim əllərimizi ilahi ədalətin alətinə çevirəcək

və Onun qəzəbini qılınclarımızın ucunda daşıyacağıq. Gəl, yepiskop Valdek, dəhşətli ölümünə tələs, bu ölüm səni Münsterin divarları dibində gözləyir.

KATOLİKLƏRİN XORU. Tanrının iradəsini həyata keçirməyə tələsən, güzəşt nə olduğunu bilməyən və artıq nizəsini iblis qulluqçularına yönəltmiş qisasçı-arxangel kimi, bizim hökmdarımız yepiskop Valdek küfr taunuyla zəhərlənmiş Münsterə tələsir ki, verdiyi sözə əməl etsin. Bizi isə üfunətli havası ilə nəfəs almağa məcbur olduğumuz lüteran təhrifindən, küfründən qurtarsın, ikiqat küfr olan anabaptistlərdən xilas etsin. Tanrı bizim əllərimizi özünün ilahi ədalətinin alətinə çevirəcək və biz Onun qəzəbini qılıncımızın ucunda daşıyacağıq. Gəl, yepiskop Valdek, tez gəl, bizi istismar edənlərin həyatına son qoy, dəhşətli və layiqli bir cəza ilə son qoy.

LÜTERANLARIN XORU. Üfüqdən gələn, qara külə-yində bütün səmavi tufanların rüşeymini daşıyan şimşək buludu kimi Münsterin sərhədlərinə yepiskop Valdek yaxınlaşır ki, özünün alçaldılmasına görə qəddar intiqam alsın və bizləri öz kilsəsinə itaətə məcbur etsin. Onun qəzəbi bizi qorxudur, lakin bulud şimşək çaxdırandan sonra torpağa yağış kimi bir nemət səpdiyi kimi, Tanrının iradəsiylə Münsterə sülh müharibənin darvazalarından gələcək. Və biz silahla möhkəmlənmiş əllərimizlə Onun iradəsini icra edəcəyik. Gəl, yepiskop Valdek, gəl ki, Tanrının iradəsi və əmri ilə layiq olanların hamısını dəhşətli edama yollayasan.

ŞƏHƏRLİLƏRİN XORU. Gəl, yepiskop Valdek, gəl... Silah... Silah... Dəhşətli edamlar.

Bir-birinə qarşı durmuş şəhərlilər eyni sözləri deyirlər, lakin onların bu sözlərə fərqli duyğular qatdığı aydın duyulmalıdır. anabaptistlərdə – nifrət, katoliklərdə – ümid, lüteranlarda – ikibaşlı nigarançılıq.

FON DER VİK. Başıbəlalı Münster, bədbəxt şəhər, sabahkı gün sənin bölünmüş övladlarının başına çox bəlalar gətirəcək.



Meydanı çiyinlərində ev əşyalarını daşıyan şəhərlilər keçir.

Gələcəyin qorxusundan evlərini tərk etmiş sakinlərinin hüznlü səfi bitmək bilməyəcək. Bu olacaq, bizi bu bəlalara katoliklərin dözümsüzlüyü və anabaptistlərin ifratçılığı atacaq. Həm onların, həm də bunların günahının bahasını bizlər ödəyəcəyik – hətta biz, lüteranlar kimi sülh arzulayan və hər növ ifratçılığı rədd eləyən insanlar.

ŞƏHƏRLİLƏRİN XORU. Münsterdə bir yox, iki ilan yuva salıb, qıvrılaraq fısıldayır. Katolisizm ilanının məkrli xisləti və qurğuları bizə bəllidir – hətta çox yaxşı bəllidir. İndi isə biz öyrənirik ki, sinəmizin üstündə başqa bir ilan saxlamışıq – o, bizim öz evimizdə yaşayıb, bizim masanın arxasında yemlənib. Budur, indi özünü büruzə verdi, yalançı qılafını tullayaraq bütün murdarlığını göstərdi. Onun adı – lüteranların qorxacaqlığıdır, özlərinin miskin həyatı naminə Tanrını satmağa hazır olan lüteranlar.

FON DER VİK. Mənim sözlərimi təhrif etmə, niyyətimi yanlış mənalandırma.

KNİPPERDOLİNK. Sənin niyyətlərin ucadan söylədiyin sözlərindən də yalançıdır. Münster sakinləri, yepiskop Valdek şəhəri mühasirəyə almağa hazırlaşır. O, bizi müharibə ilə hədələyir. Yəni siz fikirləşirsiniz ki, bu magistrat bu burqomistrlə sizi qorumaq iqtidarındadır?

SƏSLƏR. Yox, yox.

KNİPPERDOLİNK. Məgər elə ilk hücumda onlar darvazaları düşmən qarşısında açmayacaqlar? Məgər onların alnında düşmənin mərhəmətinə bel bağlayaraq təslim olacaqları yazılmayıb?!

SƏSLƏR. Düzdür, düz deyirsən.

KNİPPERDOLİNK. Bəs nə edək?

AYRI-AYRI SƏSLƏR. Bizi yepiskopun qoşunlarından qoruyacaq magistrat seçək! Knipperdolinklə Rotmanı burqomistr edək! Düşmənlə nə danışıq lazımdır, nə onun halına acımaq!

ROTMANN. Siz, həqiqətən, hakimiyyəti bizim əlimizə vermək istəyirsiniz?

AYRI-AYRI SƏSLƏR. Hə! Hə!

FON DER VİK. Əgər xalq yeni seçkilər tələb etsə, biz lüteranlar öz namizədlərimizi magistratdakı vəzifələrə irəli sürəcəyik və əvvəlki kimi müşavirliyimizi qısqanclıqla icra edəcəyik. Əgər vicdanımızın əleyhinə gedəsi olmasaq, biz yeni burqomistrin hakimiyyətini tanıyacağıq.

KNİPPERDOLİNK. Mən ümid edirəm ki, camaatın mənafeyi naminə sizin vicdanınız bizim hakimiyyətimizlə əl-ələ çalışacaq. *(Gülüş)*

ROTMANN. Münster vətəndaşları! Xahiş edirəm, sakitlik yaradın! Sizə fövqəladə mühüm bir xəbəri çatdırmaq vaxtıdır. Bunun yanında yepiskop Valdekin qurğuları və təhdidləri, eləcə də müharibə başlamaq meyilləri və şəhərimizi mühasirəyə salmaq istəyi puç və əfsanə şeylərdir. Xəbəriniz olsun ki, indicə Münsterin darvazalarından anabaptistlərin peyğəmbəri, Hollandiyadan gəlmiş Yan Mattis şəhərə daxil olur. O eşidəndə ki biz körpələrin xaça çəkilməsini Müqəddəs Kitaba zidd sayırıq, yanımıza, Yeni İttifaq tərəfdarlarının saatbasaat artdığı və artıq Qiyamət Gününün şəfəqləri görünən müqəddəs Münster şəhərinə gəlmək qərarını bildirib. Hazırlaşın, qardaşlar!

Səmada meteoroloji fenomenlər görünür, kütlə onları Rotmannın apokaliptik öncəgörmələrinin isbatı kimi qəbul edir. Anabaptistlər dini ekstaza düşürlər, protestantlar da eyni hisslər keçirirlər. Katoliklər qorxu içində kilsəyə qaçır, orada gizlənirlər.

AYRI-AYRI SƏSLƏR. Bizim gözlərimiz, nəhayət ki, Məsihi görəcək. Mərhəmətli, pak, ədalətli, müqəddəs olaq. Tanrının yollarını hazırlayaq.

Yan Mattis, Yan Beykels, van Leyden və onun arvadı, sonralar Divara adını alacaq Gertruda van Utrext görünürlər. Onlarla bir yerdə Hollandiyadan gələnlərdir.



MATTİS. Salam olsun sənə, Münster, ümidin sığınacağı, Tanrı ədalətinin mərkəzi. Həqiqi inancın dirçəlişi və bərqərar olmasını rədd edənlərin bizləri azğınlıqla təqiblərə məruz qoyduğu, zindanında müəllimimiz, böyük Melxior Hofmanın məhbus olduğu holland torpaqlarından sənin qoynuna gəlmişik, Münster, burada, sənin divarlarının içində gözəl cənnət meyvələri yetirəcək Tanrı kəlamını gətirmişik. Tanrının iradəsiylə biz sənin sərhədlərin daxilinə, sənin qoynuna sağ-salamat qədəm basdıq. – O, bizi Valdekin və əlaltılarının gözlərindən mübhəm saxlamaq üçün ən pis yollarla, lazım gələndə, sanki, buludun içində gizləyərək gətirdi. Və indi, inamsızlar və düşmənlər Onun qüdrətini dinməz etiraf etsinlər deyə, tərəddüd keçirənlər inansınlar və səhvlərini boynuna almayan inadcıllar sakitləşsinlər deyə göylərdə və yer üzündə möcüzəli əlamətlər göstərdi. Həqiqət, həqiqət söyləyirəm sənə, Münster, səndən xoşbəxti yoxdur dünyada, zira Tanrı iradəsiylə Yeni Yerusəlim, ilahi seçilmişlərinin şəhəri sən olacaqsan.

Alqışlar səslənir.

ROTMANN. Münsterə xoş gəldin, Yan Mattis. Çox yayılmış və tez-tez təkrar olunan bu sözlər elə səslənir, sanki, biz səni bütün adamlar kimi, bütün başqa qonaqların arasından olan bir qonaq kimi qarşılayırıq. Amma, əslində, Münster səni qəbul etmir – sən qəbul edirsən Münsteri. Və Münsteri qəbul edərkən, eyni zamanda, bizi də qəbul etmiş olursan, səni gözləyən, amma gözlədiyini bilməyən insanların hamısını. İndi budur, biz sənin qarşındayıq, Yan Mattis və biz ki artıq birlikdəyik, ümumi taleyimiz də layiq olduğu mükəmməlliyi tapdı. Bu gün başlanan taleyimiz.

Alqış səsləri və heyran nidalar.

KNİPPERDOLİNK. İndi sən də bizə "Xoş gəlmisiniz" de, Yan Mattis.

MATTİS. Mən səni tanıyıram, Berndt Knipperdolink, kim olduğunu bilirəm, zira sənin və Bernqard Rotmannın şöhrəti holland torpaqlarına da yetişib. Dinin sütunu olan sizlərin çiynində Məsihin yeni mehrabı ucalacaq, onu biz birlikdə, burada – Münsterdə ucaldacağıq. Lakin dörd yevangelist olduğundan bizim mehrab da dörd sütun üstə durmalıdır ki, çörəklə çaxırın, Məsihin ağırlığına tab gətirsin. Artıq budur, mən sizin qarşınızdayam, ən ağır, ən əzici yükü öz çiyinlərimə götürəcəyəm. İndi sizin qarşınızda duran, bizimlə birgə Tanrı iradəsini həyata keçirəcək insandır, mənimlə birlikdə gələndir. Onun adı – Yan van Leydendir, onu öz əllərimlə xaça çəkmişəm və öz apostolum etmişəm.

QADINLAR XORU *(üzlərini yana çevirib, səslərini qısaraq)*. Ah, qənirsiz gözəllik, o kişilərin ən qəşəngi. Səninlə yatağını bölüşəcək o xoşbəxt qadın kimdir, görəsən, öz nəvazişlərin üçün bizim hansımızı seçəcəksən?

GERTRUDA FON UTREXT *(elə həmin tərzdə)*. Ey Münster qadınları, bura baxın. Sizin qibtə etdiyiniz qadın mənəm, həmin o qadın ki, bu qədər arzuladığınız yatağa hər gün qalxır və bu dərəcədə şəhvətlə, həyasızlıq və acgözlüklə baxdığınız kişi də mənə məxsusdur.

YAN VAN LEYDEN. Tanrının əli bizi Onun iradəsiylə idarə edir. Qeyri-mükəmməl yeniyetməni kişiyə çevirir, ən böyük zəifliyi – qarşısıalınmaz bir gücə. Onun oğlu öz dünyəvi atasından dülgərlik peşəsini miras götürdüyü kimi, Tanrı da bizi əvvəllər dolanışığımızı çıxardığımız miskin işlərdən apostol məqamına ucaltdı. Xəbəriniz olsun ki, Yan Mattis Tanrıdan ilhamlanan peyğəmbər, son zamanların öncəgörəni əvvəllər Narlemdə çörəkçi olub. Mən – Yan van Leyden isə – əgər bu miskin adı burada çəkmək olarsa – avara dərzi idim, diyardan-diyara gəzir, insan cismini parçalara bürüyürdüm. Bürüyürdüm o zamana qədər ki, cismi yalnız çılpaq ruhun örtməli olduğunu anlayım.

ROTMANN. Korlar görmür, karlar eşitmir, lakin həmin o eşitməyənlər, həmin o görməyənlərə göylərin bütün istiqa-

mətlərdə necə hərləndiyindən göy qurşağının rənglərinin yeddi dəfə yeddi qədər çalarlar tapdığından danışırlar. Korların gözlərindən canlı göz yaşları axır və karlar barmaqlarını bu göz yaşlarında isladıb, onları dodaqlarına yaxınlaşdırır və yalnız onda qulaqla dərk edilməsi qeyri-mumkyn olan nəsnələri anlayırlar. Münster vətəndaşları, ey Müqəddəs Ruhun övladları, ey bizim yolumuzda axan qiymətli qanıyla qohumlaşdığımız Məsih qardaşlığının nümayəndələri, biz köhnə dünyanın yollarıyla sonuncu addımımızı atdıq. Artıq yeni dünyanın darvazaları qarşımızda taybatay açılıb, lakin onun kandarına yaxınlaşan kimi çox parlaq nur gözlərimizi kor edir və biz içəri girə bilmirik.

ŞƏHƏRLİLƏRİN XORU. Niyə? Niyə?

ROTMANN. Çünki biz xaça çəkilməmişik.

ŞƏHƏRLİLƏRİN XORU. Bizi xaça çək! Xaça!

ROTMANN, KNİPPERDOLİNK. Xaça çək bizi! Bizi də!

MATTİS. Bunu diləyən ağzınızdır, yoxsa imanınız?

ŞƏHƏRLİLƏRİN XORU. İmanımız, imanımız!

MATTİS. Su gətirin!

Ara qarışır. İçində su olan vedrələr gətirirlər. İlk olaraq, xaç suyuna Rotmann və Knipperdolink çəkilirlər. Bu ana qədər parlayıb rəngdən-rəngə düşən səma al qırmızı rəng alır və səhnənin axırına kimi elə qalır.

MATTİS *(başlarına su səpərək)*. Tanrımızın nemətləri və asayişi daim sənə və xoş niyyətli bütün insanlara yar olsun.

Xaça çəkmə mərasimi bir müddət davam edir. Adamlar yalnız Mattis yox, həm də Yan van Leyden, sonra isə Rotmann tərəfindən icra olunan xaça çəkmə mərasimi üçün növbəyə düzülürlər. Səhnədə şadyanalıqdır, rəqslər başlanır.

ŞƏHƏRLİLƏRİN XORU. Tanrımızın nemətləri və asayişi daim bizlərə, bütün xoş niyyətli insanlara yar olsun.

Yan Duzentsşuer daxil olur.
O, Mattisə müraciət edir.

YAN DUZENTSŞUER. Mən iman gətirirəm. Məni də xaç suyuna çək. Lakin əvvəlcə heç kəsin ağlına gəlməyən bir şeyi söyləyim sənə. Sənin üçün bu, çox mühümdür, zira bunu biləndən sonra Münster haqda hər şeydən xəbərdar olduğunu söyləmək haqqın olacaq.

MATTİS. Sən kimsən? Nə barədə danışırsan?

YAN DUZENTSŞUER. Mənim adım Yan Duzentsşuerdir, ləqəbim isə "axsaq peyğəmbər". Axsamağımı ilk baxışdan görmək olur, amma peyğəmbərliyimə inanmaq üçün, bütün öncəgörmələrin çin olacağı günü gözləmək lazım gələcək. Onların arasında, təbii ki, mənimkilər də olacaq, çünki həmin gün həm həqiqi, həm də yalançı peyğəmbərliklər çin olacaq.

MATTİS. Sən yalnız axsaq deyilsən, həm də divanəsən, amma peyğəmbərlikdən əsər-əlamət görünmür.

YAN DUZENTSŞUER. Peyğəmbərlər sırasına yalnız gələcəkdən xəbər verənlər daxil deyil, həm də indimizi izah edənlər var orada.

MATTİS. Aydın danış.

YAN DUZENTSŞUER. Cəhd edərəm, amma sən, onsuz da, bir şey anlamayacaqsan. Bura gəl. *(Ratuşanın qabağını bəzəyən beş ədəd dördkünc sütuna işarə edir.)* Sən bilirsənmi biz – Münster əhalisi sol və sağ sütunları necə adlandırırıq?

MATTİS. Bilmirəm, yox.

YAN DUZENTSŞUER. Sol tərəfdəkini biz "Tanrı Kəlamı" adlandırırıq, sağdakını "İmanın Dayağı". Bəs ortadakı – onun adını necə, bilirsən?

MATTİS. Haradan bilim, əgər indiyə kimi Münsterdə heç olmamışamsa?

YAN DUZENTSŞUER. Onun adı – Məsihdir. Məsih isə həmişə elə sən olan yerdə olub.

MATTİS. Məsih?

ŞƏHƏRLİLƏRİN XORU. Məsih!

YAN DUZENTSŞUER. Bəs Məsihlə İmanın Dayağı arasında duran sütunun adını necə, bilirsənmi?

MATTİS. Sən niyə mənə cavabını bilmədiyim sualları verməkdə davam edirsən?

YAN DUZENTSŞUER. Yaxşı, rollarımızı dəyişək. İndi sən soruşacaqsan, mən isə cavab verəcəyəm.

MATTİS. Məsihlə İmanın Dayağı arasında duran sütunun adı nədir?

YAN DUZENTSŞUER. İblis.

MATTİS. İblis?

ŞƏHƏRLİLƏRİN XORU. İblis!

MATTİS. Bəs Məsihlə Tanrı Kəlamı arasındakı?

ŞƏHƏRLİLƏRİN XORU. Ölüm!

MATTİS. Ölüm?

YAN DUZENTSŞUER. Bəli, onun adı Ölümdür. İndi, Münster barədə hər şeyi biləndən sonra məni də xaç suyuna çək.

İKİNCİ PƏRDƏ

Birinci səhnə

Soyuq bir gün. İndicə qar yağacaq. Münster artıq mühasirədədir. Hər şeydə sıxıntılı və nigaran bir əhvali-ruhiyyə duyulur. Silahlı adamlar dəstə-dəstə keçirlər – şəhəri müdafiə edən kişi və qadınlar

ŞƏHƏRLİLƏRİN XORU. Bütün qalan müharibələrdən əvvəl olmuş səma müharibəsində Tanrının mələkləri Lüsiferin əcinnələriylə döyüşüb onlara qalib gəldiyi kimi, biz, ilahinin seçdiyi insanlar da Münsteri yeni Lüsiferə – Roma papasına tabe olan yepiskop Valdekin başçılıq etdiyi əcinnələr legionundan müdafiə edirik. Lakin zamanın əvvəlində öləri məxluq olan insan onu yoldan çıxarmağa can atan qüvvələrin təsirinə məruz qalaraq onlara üstün gələ bilsin deyə Tanrı şəri məhv etmək istəmədisə, indi zamanın axırıdır deyə O, bizdən müqəddəs iradəyə zidd çıxanların hamısını məhv etməyimizi gözləyir. Onun üçün ki, yer üzü günahdan təmizlənsin və Məsihin ikinci gəlişinə burada yalnız həqiqi möminlər qalsın. Qılınclarımızın qəbzəsini sıxan və topларımıza mərmi qoyan əllər bizimki deyil, mələklərin əlidir. Zira sonuncu döyüş gəlir və Tanrı bizə öz gücünü əta edir.

Hamı gedir. Səhnədə dörd nəfər – Mattis, Knipperdolink, Yan van Leyden və Rotmann qalırlar.

MATTİS. Eşitdiniz onların dediklərini. "Sonuncu döyüş gəlir və Tanrı bizə öz gücünü əta edir". Lakin həmin o Tanrı gucu nəhayətsizdirsə, bizə yalnız bu gücün hansı qismini insan iradəsinin təşkil etdiyini görmək qalır, o iradənin ki, həmin bu gücü alaraq, ondan Onun işi naminə istifadə etsin.



Tanrı bilməlidir ki, seçdiyi insanlar inam və cəsarətlə silahlananda hara qədər irəliləyə bilər.

ROTMANN. Sən bununla nə demək istəyirsən? Biz – Tanrıdayıq, biz – Tanrıylayıq, bizim cismimiz də, canımız da ona məxsusdur və bizdə elə bir iradə ola bilməz ki, Onun iradəsindən qaynaqlanmasın. Biz – Onun ağzı, Onun diliyik və Onun dişləriylə Onun düşmənlərinin boğazından yapışacağıq.

KNİPPERDOLİNK *(Mattisə)*. Tanrı səni Münsterə ona görə gətirməyib ki, sən şəhəri xilas edəsən və özün də burada nicat tapasan. Elə öz dilindən çıxan, dörd sütun barədə söylədiklərini xatırla, Məsihin yeni mehrabının ucalacağı sütunlar. Lakin sən və Van Leyden – kənardan gələn insanlar belə sütuna heç vaxt çevrilə bilməzdiniz, əgər Tanrının iradəsiylə siz gələnə kimi burada ayağa qalxmış insanlar olmasaydı. Odur ki Onun inam göstərdiyi adamlara şübhəylə yanaşmağı ağlına belə gətirmə.

YAN VAN LEYDEN. Siz ikiniz də, yəqin, Mattisin nigarançılığını səhv anladınız, zira onun birinci şagirdi və apostolu olmuş mən, yəqin və tam dəqiq bilirəm. O, sizlərə yalnız mərhəmət hissləri bəsləyir içində. Lakin o qorxur ki, qohumluq əlaqələri, dostyana münasibətlər, bir sözlə, həyat tərzini təşkil edən hər şey sizin şüurunuzu dumanlandırar, qollarınızın gücünü alar və bunun ziyanını Münsterdən alaq otlarını qətiyyətlə təmizləmək, onları çıxarıb atmaq dəmi gələndə hiss edərik.

ROTMANN. Mən sənə, Yan Mattis, əmr etmirəm ki, bizi sınağa çək, zira tək Tanrının hüququ çatır buna. Lakin əgər, həqiqətən, bizim iradəmizin gücünü təyin etmək meyarı Onun istəyilə sən olacaqsansa, söylə – O nə istəyir bizdən, nə etməliyik? Lakin sənə əta edilmiş peyğəmbərlik istedadını şər işlərdə istifadə etsən, aldatsan və ya səhvə yol versən, Tanrı sənin dilini həmin dəqiqə lal edəcək.

MATTİS. Tanrı özü özünü aldada bilməz, ona görə də mənim dilimlə danışanda, siz də aldanmayacaqsınız. Qoy

mənim dilim qurusun, kəsilib yerə düşsün və Həvvanı aldadan, onu Adəmi aldatmağa məcbur edən ilan kimi torpağın üstündə qıvrılsın, əgər bütün söylədiklərim həqiqət və ədalətdən qaynaqlanmayacaqsa.

KNİPPERDOLİNK. Dəbdəbəli danışmaq yetər, sözünün kəsəsini de.

MATTİS. Tanrı bizə bunları əmr edir. Münsterin xaç suyuna çəkilmək istəməyən sakinlərinin hamısı təcili olaraq qətlə yetirilməlidirlər. Zira Tanrı onlara ittifaq təklif edir, onlarsa rədd eləyirlər. Əgər biz hamımız Tanrının övladlarıyıqsa, xaç suyuna çəkilməliyik, aramızdan şər bilmərrə yox olmalıdır. Peyğəmbərin sözlərini xatırlayın. "Mənim xalqımdan olan bütün günahkarlar qılınc yarasından həlak olacaqlar".

YAN VAN LEYDEN. Tanrı sənin dilini qurutmadı, Tanrı sənin dilini qoparmadı, Tanrı sənin dilinlə danışır. (*Rotmanna və Knipperdolinkə*) İndi nə deyəcəksiniz?

ROTMANN. Deyəcəyəm ki, Tanrı xeyirlə şəri seçmək bacarığını yenidən bərqərar etdi. Deyəcəyəm ki, bizim nicatımız İsa Məsihin yenilənmiş, təmizlənmiş kilsəsinin mərasimiylə xaça çəkilmək qərarındadır. Deyəcəyəm ki, hər bir insan özünün azad seçimi ilə Tanrı nemətini qəbul etməkdə, xaç suyuna çəkilməkdə və Məsih kilsəsinin həqiqi üzvü olmaqda azaddır.

YAN VAN LEYDEN. Çox yaxşı.

ROTMANN. Amma bir də onu deyəcəyəm ki, biz ona görə şəraiti nəzərə almağa borcluyuq ki, nə gecikək, nə tələsək.

MATTİS. Tanrının düşmənləri – yalnız bizim Münsteri mühasirə halqasına alanlar, onun divarlarını yarmaq istəyənlər deyil. Tanrı düşmənləri bizim evlərimizin yanında, bəlkə də, onların lap içində yaşayırlar. Biz kim olmaq istəyirik – Tanrının təmiz niyyətli döyüşçüləri, yoxsa iblisin murdar qulluqçuları?

ROTMANN. Biz – Məsih mehrabının dörd sütunuyuq.

KNİPPERDOLİNK. Hələ yox. İnanmıram ki, insan öz çiyinlərində Məsihin yükünü daşıya bilə, əgər onun yerinə

əzab camını içməyibsə; biz axı hələ ancaq dadmışıq ondan. Görün mən nə təklif edirəm. Əgər bu gün xəbər alsaydıq ki, Valdek mühasirəni açaraq, öz qoşunlarını Münsterdən çəkib aparır, nə edərdik? Sevincək olub qala divarlarına qalxardıq ki, kafir qoşununun biabırçılıq içində geri çəkilməsinə mane olmayaq. Bəs niyə şəhərin içində gizlənmiş düşmənlərimizə qarşı həmin şeyi etməyək, gəlin onlara əmr verək ki, Münsteri təcili tərk etsinlər. Əgər inad göstərənlər tapılsa, onları tərəddüdsüz və fikirləşmədən öldürərik, tabe olmadıqlarına görə öldürərik.

YAN VAN LEYDEN. Ən yaxşısı onların işini şərtsiz, xəbərdarlıqsız bitirməkdir. Axı onsuz da, Tanrı onları səsləyirdi, onlar isə qulaqlarını tutdular, Tanrı onlara əl uzadırdı, onlar bu ələ tüpürdülər. Əgər onlara getmək imkanı versək, Münster bu taundan təmizlənəcək, amma şər bir az da yayılacaq, bütün yer üzünü yoluxduracaq. Tanrı Mattisin dodaqlarıyla danışır və siz kimsiniz ki onun dediklərinə xilaf çıxırsınız, sözləri ətrafında mübahisə açırsınız?

KNİPPERDOLİNK. Biz – heç kimik və hətta ondan da aşağıyıq, mən isə – hamıdan miskinəm. Amma, hər halda, xatırladım sənə, əgər katolikləri qırsaq, bu, Münsterin üzərinə Valdekin daha böyük qəzəbini tökəcək. Əgər xaç suyuna çəkilmək istəməyən protestantları öldürsək, bir-birinə kömək etməyə borclu olan lüteranların müdafiəsini, köməyini ala bilməyəcəyik.

ROTMANN. Əzabkeş İov deyib: "Səndən soraram və Sən cavab verərsən". Ona görə də Tanrıya sual verməkdə heç bir qanunsuzluq yoxdur, hətta əgər bizə elə gəlirsə ki, O artıq öz iradəsini bildirib. Qoy Mattis ilahidən soruşsun, Knipperdolink gizli bir fikirlə sorurdu bunu, yoxsa düzlük, həqiqət naminə və onun təklifi xoşuna gəldimi?

MATTİS. Amma "Müqəddəs Kitabda" deyilir: "Öz Tanrını sınama". Hər halda, dülgər, masa ustası onun ayaqlarından birinin digər üç dənədən fərqlənməməsinin qayğısına

qalar. Mən isə Məsih mehrabının sizin kimi sütunlarından biriyəm, siz rəyinizi səsləndirin, mən də qoşuluram.

YAN VAN LEYDEN. Onlara ölüm.

ROTMANN. Onlara ölüm, əgər Tanrı bir də əmr etsə bunu.

MATTİS. Bəs sən nə deyəcəksən, Knipperdolink?

KNİPPERDOLİNK. Əgər bunu həqiqətən Tanrı istəyirsə, onda mənim qılıncım sizinkilər qınından sıyrılmaya macal tapmamış işə düşəcək.

Mattis kənara çəkilir, baxışlarını göyə zilləyib əllərini qaldırır, sanki, ilahi vəhy gözləyir. Qalanları özlərini müxtəlif cür aparırlar. Knipperdolinkin davranışında tərəddüd sezilir, Rotmann gözgörəsi tələsir, Yan van Leyden istehzalı bir görkəmlə gözləyir. Səhnənin dərinliyində Gertruda fon Utrext görünür.

MATTİS. Tanrı öz ədalət məhkəməsinin əlini havada saxlayıb və Onun səsi mənə dedi. "Tələsin, zira qan əyyamı artıq yetişib və daşa çəkilərək itilənən təbərzinin səsi eşidilir, dəhşət məhkum canlıları qaçırır, lakin harada gizlənmələrindən asılı olmayaraq, mənim əlim onlara yetəcək və bu, zamanın əvvəlində müəyyən etdiyim saatdan nə tez olacaq, nə gec".

KNİPPERDOLİNK. Bunu Tanrı dedi?

MATTİS. Tanrı dedi.

KNİPPERDOLİNK. Onun sözlərini necə başa düşək? Zaman yetişib, yoxsa yox?

ROTMANN. Əgər İlahi istəsəydi ki xaç suyuna çəkilməkdən imtina edənlər məhv olsun, O, sadəcə, deyərdi: "Öldürün onları". Sən axı Onun dediklərini başqa mənada başa düşdün, Yan van Leyden?

MATTİS. Sən nəyə tərəddüd edirsən? Peyğəmbərə, yoxsa öncəgörmələrinə?

YAN VAN LEYDEN. Nə ona, nə də buna, əgər peyğəmbər sənsənsə, onda öncəgörmələr də səninkidir. Yalnız xatır-



latmaq istəyirəm. Əgər bu dünyaya Məsihin yalnız Tanrı qərarıyla gəlişini nəzərə almasaq, ilahinin ayırdığı zaman mütləq insanların saatıyla ölçülür. Və çox ola bilər ki, siz kafirləri qırmağın zamanı yetişmədiyini düşünəndə səhvə yol verirsiniz.

GERTRUDA FON UTREXT *(yaxınlaşaraq)*. Əgər Tanrı istəyirsə ki Münsterdə qan tökülsün, bizi öz iradəsindən xəbərdar etmək üçün bir üsul tapacaq və bu işdə vasitəçilərə heç ehtiyac yoxdur. Yan, ərim mənim, biz sənin dalınca Hollandiyadan ona görə gəlməmişik ki, sən ölüm müjdəçisi olasan.

YAN VAN LEYDEN. Mən yalnız ölümün müjdəsini verməyə hazır deyiləm, həm də lazım gələndə bu müjdəni həyata keçirmək əzmindəyəm. Sən isə ədalət mələkləri kimi Tanrının öz yanına çağırdığı adamların işinə qarışma.

GERTRUDA FON UTREXT. Mən səni kişi kimi tanıyıram, mələk kimi yox.

YAN VAN LEYDEN. Mələk kimi də tanıyarsan, özüm sənə tapşıranda.

GERTRUDA FON UTREXT. Nə qədər israrla təkrarlasan da, mən səni əslində necəsən, elə də görəcəyəm – Tanrının həyat verdiyi və yaşatdığı oğlu kimi. Mən səni özümə tən görəcəyəm, zira mən də – Tanrının qızıyam.

YAN VAN LEYDEN. Get.

GERTRUDA FON UTREXT. Mən gedəcəyəm, əgər sən dilindən çıxardığın ölüm hökmündən imtina etsən. Yadına sal, ölüm yalnız ölümü doğurur. Tanrı ondan qorusun ki, əgər sən özünə düşmən saydıqlarına ölüm arzulasan, onda ölüm sənin dalınca gələcək.

MATTİS *(Yan van Leydenə)*. Sən icazə verirsən ki, qanuni arvadın bütün ər-arvadlıq vəzifələrini, o cümlədən də, itaəti unudaraq belə cəsarətlə danışsın?

YAN VAN LEYDEN. Öz suallarını Tanrıya ver, əgər eşitsə; mən isə Ona cavablarımı hazırlayacam. *(Gertrudaya)*

Mənim düşmənlərim arasında eləsi yoxdur ki, Tanrının da düşməni olsun. Onlar da, mən də ölümü Tanrı onu bizə göndərmək istəyəndə qəbul edəcəyik, çünki ölüm Onun iradəsinə tabedir, mənimkinə yox. *(Qalanlarına müraciətlə)* Əgər biz Münster dinsizlərinin həyatına dəyməsək, onları nə edəcəyik?

ROTMANN və KNİPPERDOLİNK. Hamısını şəhərdən qovarıq – bütün katolikləri də, ikinci dəfə xaça çəkilməkdən imtina edən protestantları da.

GERTRUDA FON UTREXT. Siz onları qan tökmədən öldürmək istəyirsiniz! Baxın – buludlar göy üzünü getdikcə daha sıx tutur, indicə qar yağacaq. Bu bədbəxtlər özlərinə sığınacaq tapmaq macalı olmadan donacaqlar, əgər onları elə şəhər darvazalarının qarşısında yepiskop Valdekin əsgərləri qırmasa.

MATTİS. Qadın, Tanrı xətrinə, sənə susmaq əmri verirəm. Məni qəzəbləndirmə, yoxsa insani və ilahi qanunların ərinə verdiyi hakimiyyətdən istifadə edərək səni cəzalandırmağa məcbur olacam.

YAN VAN LEYDEN. Mənə tabe ol, Gertruda, çıx get buradan! Sən isə, Yan Mattis, unutma ki, peyğəmbərlər Tanrıya o vaxt gərəkli olurlar ki, dilləri ağızlarında sağ-salamat qalsın.

MATTİS. Sən məni hədələyirsən?

YAN VAN LEYDEN. Yox, sadəcə, deyirəm ki, Tanrının səsi Münsterdə yüksələcək, hətta sənin dilini kəssələr də.

MATTİS *(qəzəb içində)*. Təhdidlər yağdırma, bizim hələ dillər, qılınclar, ölümlər və sözlərdən danışmağa vaxtımız olacaq. Amma əvvəlcə şəhəri kafir katoliklərdən və qiyamçı lüteranlardan təmizləmək lazımdır. *(Qışqırır)* Bura gəlin, anabaptistlər! Yeni xaç mərasimini qəbul etmək istəməyənlərin hamısını şəhər meydanında toplayın, istər papaçılar olsun, istər protestantlar, qotur it kimi qovaq onları, şəhərdən rədd olsunlar. Tanrı qəzəbinin göylərdən yağaraq, onların hamısını bizimlə bir yerdə, həddən ziyadə dözümlü və güzəştli



olduğumuza görə, havadarlıq etdiyimizə görə külə döndərməsini gözləməyəcəyik. *(Başını göylərə qaldırır.)* Ey ulu Tanrım, ey Tanrım, əgər iradən belədirsə, hamımızı son nəfərinə kimi məhv elə, sonra isə yer üzünə en və seçimini et, zira bizim cismimiz, onsuz da, məhvə məhkumdur, Sənə isə ancaq ruhlarımız gərəkdir – sən onları ya qəbul edəcəksən, ya rədd.

Meydanda camaat toplaşmağa başlayır.
Qorxu, göz yaşları, çaşqınlıq.

Rədd olsunlar! Rədd olsunlar buradan!

GERTRUDA FON UTREXT *(Rotmannla Knipperdolinkə üzünü tuturaq)*. Kömək edin, xilas edin onları, görün nə qədər köməksiz qocalar, zəif uşaqlar var onların arasında!

Rotmann və Knipperdolink dal-dala gedə-gedə geri çəkilirlər.
Kütlə şəhər meydanından sıxışdırılır. Lopa-lopa qar yağır.

HUBERT REYXER *(Kütlənin içindən çıxaraq)*. Yan Mattis, sən yalançısan!

MATTİS. Nə dedin?

HUBERT REYXER. Dedim ki, sən – yalançı peyğəmbərsən. Heç şübhə yoxdur ki, Tanrı yalnız sənin dilinlə danışmağa məcbur olsa, əbədilik lal olmağa üstünlük verərdi.

MATTİS *(Knipperdolinkə)*. Bu kimdir belə?

KNİPPERDOLİNK. Hubert Reyxerdir, dəmirçi və silah ustası.

MATTİS. Onda öl, yalançı, kafir, Tanrı düşməni! *(Xəncərini qınından çəkib Reyxerin sinəsinə sancır. O, cansız halda yerə sərilir. Hamı dəhşət içindədir.)*

MATTİS. Dedi Moisey. " İlahi pərvərdigar..."

Knipperdolink və Rotmann qətiyyətsizlik içində bir-birinə baxırlar; Gertruda fon Utrext hönkürtü çəkir. Yan van Leyden cəsədə yaxınlaşaraq onu ayağıyla itələyir, sanki, dəmirçinin öldüyünə əmin olmaq istəyir. Qar yağmağındadır. Şəhərdən qovulmuşları onların göz yaşlarına, inilti-lərinə, şikayətlərinə baxmayaraq, şəhər meydanından sıxışdırırlar.

İkinci səhnə

ŞƏHƏRLİLƏRİN XORU. Hər mömin ruh qüssə camından təmiz, qırmızı çaxır içəcək, lakin Tanrı elə edəcək ki, kafirlərə onun xıltı qalacaq. Onlar gəyirib qaytaracaqlar içdiklərini və dirilmək ümidi olmayan ölülər kimi yerə sərilələcəklər. Dinlə, ey sevgili xaçpərəstim! Sərt ol, Tanrı namusunu qoru. Yorulmadan və daim ölümün pişvazına hazır ol.

YAN DUZENTSŞUER. Siz sərtsiniz?

ŞƏHƏRLİLƏRİN XORU. Sərtik.

YAN DUZENTSŞUER. Sərtlik nəyinizə lazımdır?

ŞƏHƏRLİLƏRİN XORU. Tanrının namusunu qorumağa.

YAN DUZENTSŞUER. Hazırsınız?

ŞƏHƏRLİLƏRİN XORU. Hazırıq.

YAN DUZENTSŞUER. Nəyə?

ŞƏHƏRLİLƏRİN XORU. Ölümün pişvazına getməyə.

YAN DUZENTSŞUER. Onda siz də qüssə camını dibinə kimi, xıltına kimi içəsi olacaqsınız. Siz yalnız bununla öz düşmənlərinizdən fərqlənərsiniz, çünki əbədiyyət gözləyən göylər səltənətində, Tanrının cənnətində icazəniz olmayacaq ki, bu çaxırı nə gəyirəsiniz, nə qaytarasınız. Lakin cəhənnəmə düşsəniz, həm gəyirə biləcəksiniz, həm də qusacaqsınız. Bu, sizin üçün Şuramızın sütunları tərəfindən verilən dərsi unutmağınızın dəqiq əlaməti olacaq. Yalnız Məsihdir bizim nicatımız, zira Ölümlə İblisin arasında ucalır, onları bir-birindən ayırır. Məsih olmayan yerdə Ölüm İblisə əlini uzadacaq.

Alqış və salamlama sədaları altında Mattis, Rotmann, Knipperdolink, Yan van Leyden daxil olurlar.

MATTİS. Tanrının iradəsi belədir. Qoy seçilmiş xalq, bir zamanlar ilk xaçpərəstlərin Yerusəlimdə yaşadığı kimi, Münsterdə yaşasınlar. Qoy evlərin qapıları gündüz də, gecə də taybatay açıq olsun. Qoy hər kəsin sərvəti hamınınkı



olsun və qoy bir də heç kəs belə deməyə cəsarət etməsin: "Bu, mənə məxsusdur". Qoy bütün borclar bağışlansın və unudulsun. Qoy pullar məhv olsun. Zira Tanrının gözündə nə üz var, nə astar, nə hündür var, nə alçaq, nə yaxın var, nə uzaq. Zira insanların ən varlısı Tanrı qarşısında dilənçidir və ən sonuncu kasıb belə Onun sərvətini istəyə bilər. Qardaşlar, Tanrının dediklərini yadda saxlayın: "Qoy özünüzü ölçməyə mənim ölçümdən savayı başqa bir ölçü olmasın".

YAN VAN LEYDEN. Qardaşlarım, siz bilirsinizmi, pullar haradan gəlir? – İblisin bətnindən. Sizin cibinizdə gəzdirdiyiniz, sandıqlarda saxladığınız pullar, əslində, iblisin nəcisidir. Odur ki çevirin ciblərinizi, mücrüləri, sandıqları boşaldın, cəhənnəm havasından azad olun. Onda sizin əlləriniz bəyaz və təmiz, Tanrının bəni-İsraili səhrada doyurduğu manna kimi xoş qoxulu olacaq.

Yan van Leyden plaşını çıxararaq onu yerə sərir. Dini ekstaza düçar olmuş şəhərlilər özləriylə gətirdikləri pulu plaşın üstünə atırlar. Onlar ciblərini çevirirlər, bəzi evlərin pəncərələrindən isə mücrülərin, sandıqların içindəki pullar yerə yağır.

Təmizlənin, təmizlənin.

ŞƏHƏRLİLƏRİN XORU. İstəyirik ki, əllərimiz bəyaz və təmiz olsun, Tanrının səhrada bəni-İsraili yedirtdiyi manna kimi xoş rayihəli olsun.

KNİPPERDOLİNK. Siz elə hesab edirsiniz ki, bu bəsdir? Pulları, onların çürük gücünü rədd edərək, Tanrı oğulları kimi borclu olduğunuz hər şeyi etdiniz? Mən sizə baxaraq görürəm – sizlər bölünmüsünüz: sələmçilərə və borclulara və əgər birinin sərvəti, o birinin yoxsulluğundan həmin bu pul dağının göz önündə böyüdüyü doğrudursa, borc qəbzlərinin – borclu üçün tələ, kreditor üçün cələ – mahiyyətcə təxirə salınmış, nə vaxt icra olunacağını gözləyən ölüm hökmü olduğu da həqiqətdir. Odur ki bu lənətə gəlmiş kağız parçalarını yandırın, əgər yer və göyün ən böyük sərvəti, bizim

Tanrımız İsa Məsihin yoxsulluğuna yiyələnmək istəyirsinizsə, yandırın onları.

Tonqal yandırırlar,
borc sənədləri oda atılır,
pəncərələrdən də kağızlar yağır.

KNİPPERDOLİNK. Yandırın onları, yandırın! Adəmdən bəri hələ heç vaxt başər övladı belə təmiz alov yandırmayıb.

ŞƏHƏRLİLƏR XORU. Yerlərin və göylərin ən böyük sərvəti, Tanrımız İsa Məsihin yoxsulluğuna yiyələnək.

ROTMANN. Yadınızdadır, O, Dağüstü moizəsində nə demişdi? "Qayğı çəkməyin və deməyin ki, nə yeyək? Ya da nə içək? Ya da nə geyinək? Çünki bütün bunları bütpərəstlər axtarır və ona görə də sizin səmavi Atanız bilir ki, bunlara ehtiyacınız var. Ən əvvəl Tanrı Səltənətini və Onun həqiqətini axtarın və bütün qalan şeylər özü gələcək əlinizə. Beləliklə, sabahkı günün qayğısını çəkməyin, zira sabahkı günün özü öz qayğısını çəkəcək. Hər günün öz qayğısı özünə bəsdir".

ŞƏHƏRLİLƏRİN XORU. Tanrıya alqış.

ROTMANN. Qardaşlar, bizim müqəddəs şəhərimiz Münsterdə, Daniil peyğəmbərin sözünə əsasən, zaman, zamanlar və yarımzaman sona yetişir, siz Tanrı sözünü bütün kamilliyiylə tapacaqsınız. Unutmayın ki, Tanrı sizə belə deməyib: "Mən sənə yemək, içmək, geymək üçün nə lazımdırsa, satacam". O, belə deyib: "Mənim Səltənətimi axtar və Mənim həqiqətimi axtar, qalan şeylər özü gələcək". Budur, bizim Tanrıya bunları deyəcəyimiz zaman yetişib: "İlahi, sən görürsən – biz bütün sərvətimizdən imtina etdik, indi sənin növbəndir, sərvətini ver bizə".

YAN DUZENTSŞUER. Lakin Tanrı bizə şərt qoyub.

ROTMANN. Nə şərt?

YAN DUZENTSŞUER. Biz Onun Səltənətində nə axtarmalıyıq...

MATTİS. Biz daim elə bununla məşğuluq.



YAN DUZENTSŞUER. ...Bir də Onun həqiqətilə.

ROTMANN. Onun həqiqətini tapmadan Tanrı Səltənətinə girmək olmaz.

MATTİS. Necə yəni, Yan Duzentsşuer, sən demək istəyirsən ki, burada, Münsterdə biz Tanrı həqiqətini axtarmırıq?

YAN DUZENTSŞUER. Həmişə və hər yerdə yox.

KNİPPERDOLİNK. Şəhər divarlarının və qüllələrin üstündən biz yepiskop Valdekin başçılıq etdiyi katolik qoşunun hücumlarını dəf edirik.

YAN VAN LEYDEN. Biz katolikləri və ikinci dəfə xaç suyuna çəkilmək istəməyən protestantları qovduq.

YAN DUZENTSŞUER. Hə, bu belədir, lakin biz onların burada qalan zəhərli izlərini – onların kitablarını, bütlərini, ikonalarını məhv etməmişik.

YAN VAN LEYDEN. Mən sənin dodaqlarının necə tərpəndiyini gördüm, lakin dediyin sözləri eşitmədim. Çünki bu dəm Tanrının səsi hər şeyi üstələdi, O, mənə deyirdi: "Mattis, Mənim şəhərimdə tapdığın bütün kitabları yandır, zira yalnız Mənim sözüm səslənməlidir orada. Mən – Tanrıyam". Qardaşlar, gəlin ilahinin istəyini yerinə yetirək, elə bir alov çataq ki, bütün tərəddüdlərimizi yandırsın. Tanrının nifrət etdiyi kitabları pak alovun qoynuna ataq – onlar bizi iblisin əsirinə, ona xərac verənə çevirirdi.

YAN DUZENTSŞUER. Bəs şəkillər? Bəs heykəllər?

MATTİS. Alov, balta, çəkic – qoy bircə dənə də yalan, səhv, aldadıcı söz, daş qırığı, kətan parçası qalmasın! Tanrının evində yalnız Tanrı sözünə yer olmalıdır.

İkonaların yandırıldığı,
heykəllərin dağıdıldığı meydanda
sərsəmlik hökm sürür.

Üçüncü səhnə

Səhnədə – Mattis və Yan van Leydendir.
Sonra Yan Duzentsşuer də onlara qoşulur.

MATTİS. Hərdən gecənin bir aləmi oyanırsan, heç bilmirsən nədən, gözləri açıq uzanırsan, əbəs yerə yuxunun dönməsini gözləyirsən. Əgər sənin inamın sarsılıbsa, zülmət və sükut vücuduna ölüm qorxusu salacaq və sən özünü qalın meşədə, hər tərəfdən vəhşi canavarların yaxınlaşdığı meşədə kimsəsiz bir uşaq kimi hiss edəcəksən. Lakin əgər Tanrı səni tərk etməyibsə, bu sükutun içində Onun səsi ucalacaq və işıq Onun əliylə yazılan Kitabın qaranlıq səhifələrini aydınladacaq. Bu, sənin üçün bir əlamət olacaq. O zaman sən Lazarın ölüm yatağından qalxdığı kimi yerindən qalxacaqsan, zira canlı insan, Tanrı gəlib "Qalx və get" deməyənə qədər ölü kimidir. Budur, sən qalxdın və pəncərəni açdın, heç hiss etmədin ki, gecənin ayazı bədənini necə üşüdür, çünki səmaya, ulduzlara baxırdın. Sonra gözlərini aşağı salıb yerə baxanda görəcəksən, şəhər divarlarından o üzdə tonqal işıqları var – bu yepiskop Valdekin qoşunlarıdır, düşərgə salıb. Sən bir daha Tanrının sənə ünvanladığı sözləri eşidəcəksən: "Qalx və get".

YAN VAN LEYDEN. Bu yuxudur, Mattis.

MATTİS. Adi adamlar üçün yuxu olan nəsnə, Yan van Leyden, peyğəmbərlər üçün Tanrı təlqinidir.

YAN VAN LEYDEN. Sən onun əmrini necə başa düşürsən?

MATTİS. O istəyir ki, mən pəncərəmi açım.

YAN VAN LEYDEN. Göydəki ulduzlara baxaraq Onun əzəmətini alqışlamaq üçün.

MATTİS. Yalnız bu yox. Həm də katolik qoşunlarının çatdığı tonqalların işığını görmək üçün.

YAN VAN LEYDEN. Başa düşmürəm.

MATTİS. Tanrı əvvəlcə bu tonqalları mənə göstərdi və yalnız sonra əmr etdi. "Qalx və get".

YAN VAN LEYDEN *(hövsələsiz)*. Bilirəm, bilirəm. Sən artıq demisən bunu.

MATTİS. Sənə elə gəlir ki bilirsən. Mən isə həqiqətən bilirəm. Nə qədər ki bu dünyadayıq, Tanrı bir zamanlar burada səsləndirdiyi sözləri bizə daim ünvanlayacaq. Çünki Onun yeni sözlərini Onun cənnətinə qədəm basmayana kimi eşidə bilməyəcəyik. Ona görə də biz onun keçmiş sözlərində yeni məna, yeni məzmun axtarıb tapmağa borcluyuq; Onun iradəsini başqa cür yozmalıyıq.

YAN VAN LEYDEN. Nə mənada? Necə?

MATTİS. "Qalx və döyüşə get", – Tanrı mənə bax bunu demək istəyirdi. "Çünki Mənim evimi ağır təhqir edənlərin əməllərinə müticəsinə dözənlər Mənim tərəfimdən seçilmişlərin sırasına heç vaxt girməyəcəklər. Məgər o, mühasirədə deyilmi?" Və deməli, biz də öz qüvvələrimizi cəmləyib, şəhərdən çıxaraq çöldə katoliklərlə döyüşməliyik. Tanrı, onsuz da, bizim tərəfimizdədir, lakin indi, Onun tərəfindən ilhamlanıb bunu etsək, O borclu olacaq ki, son sözünü desin.

YAN VAN LEYDEN. Sən belə hesab edirsən ki, Tanrının iradəsi budur?

MATTİS. Sən buna şübhə edirsən?

YAN VAN LEYDEN *(çəkinərək)*. Münsterdə elə bir adam yoxdur ki, Tanrıya səndən yaxın olsun.

MATTİS. Tanrı kimin ruhunu istəsə, alovlandırır, hansı müddətə, nə məqsədlə istəməyini də özü bilir. Biz isə eyni zamanda – həm Tanrının yetişdirdiyi nemətik, həm də Onun oraği. Bu gün mən – Onun rəsuluyam, sabah isə, bəlkə də, sürüsündəki ən dinməz qoyun olacağam.

YAN VAN LEYDEN *(sanki, danışaraq düşünür)*. Təbii ki, Tanrı öz fikrini aydın söyləyib, bundan aşkar nə deyəcəkdi ki, öz iradəsini çatdırdı, əmr etdi ki, Münsterin divarlarından kənara çıxaq və yepiskop Valdekin qoşunları ilə həlledici

döyüşdə qarşılaşaq. Lakin özün düşün, Mattis, O axı deməyib ki, "Qalxın və gedin", əgər hamımızın bir yerdə papaçıların üstünə yürüş etməyimizi istəsəydi, belə deyərdi. Aydın və amiranə bir söz. "Qalx və get" sənə ünvanlanıb. Mattis, təkcə sənə.

MATTİS. Bəli, bəllidir ki, bir nəfər bütöv bir orduya qalib gələ bilməz.

YAN VAN LEYDEN. Niyə ki? Gələr, əgər Tanrı bunu istəsə. Yadına sal, sən özün indicə demirdin? "Elə bir an yetişib ki, O, özünün son və qəti hökmünü verməlidir". Tanrı ilə sən bu döyüşü udacaqsınız və bəlkə də, bununla bizim Münsteri bir çox əzablardan və bəlalardan azad edəcəksiniz. Sənə döyüşə tək getmək lazım olmayacaq, çünki heç bir sərkərdə tək olmur və müşayiət edənlərin hamısı onunla çiyin-çiyinə döyüşürlər. Bu dəfə məğlubedilməz sərkərdə Tanrının özü olacaq – qoşunun Tanrısı.

MATTİS. Tanrı səni anlatdı, mənə isə göstərdi ki, bəsit şüurum lazımi idrak qabiliyyətinə malik deyil. Mən bu dəqiqə bir neçə döyüşçü toplayıb, onlarla bir yerdə ildırım sürətli hücuma keçəcəm, bircə həlledici zərbə ilə şəhəri azad edəcəm. Bəli, Tanrı qəzəbinin əliylə göndərilmiş şimşək kimi onları heçə döndərəcəyik, od olub Valdekin gücünü yandıracağıq. Onların Tanrını təhqir edən kitablarını, ikonalarını külə çevirəcəyik.

YAN VAN LEYDEN. Mattis, sən istəyirsənmi ki, biz Münsterin sakinlərini qala divarlarının üstünə səsləyək, qələbənə şahidlik etsinlər?

MATTİS. Mənimlə orada olacaq döyüşçülər şöhrət görəcəklər – amma mənim şöhrətimi yox, Tanrınınkını, çünki əsl şöhrət yalnız ona məxsusdur. Başqa şeylər keçib-gedəcək, göydəki bulud kimi, tüstü kimi əriyəcək, yox olacaq. Əlvida, Yan van Leyden.

O gedir. Səslər, silah cingiltisi eşidilir. Mattis bir neçə nəfərin əhatəsində səhnənin dərinliklərinə gedir.

YAN VAN LEYDEN. Əlvida, Mattis. Sən hələ şəhər darvazalarına yaxınlaşmamısan, Tanrı isə artıq səni səslədiyi döyüşün taleyini həll edib. Onun fikirləri o qədər dərkolunmazdır ki, sən döyüşdə öləsi olsan belə, addımlarını dayandırmayacaq. Zira bu günə kimi dünyada baş verənlərin hamısı Tanrı iradəsiylə olub, necə ki gələcəkdə nə baş verəcəksə, hamısı onun iradəsinin məhsuludur. Ah, Yan Mattis, sən necə dəhşətli yanılırsan – səninlə bir yerdə də biz – əgər güman edirsənsə ki, güya, Tanrını öz iradəsini bildirməyə məcbur etmək bizim istəyimizlədir. Onun bütün mülahizələri qətidir, amma onların heç biri sonuncu deyil. Tanrı bunları söyləyəndən sonra, nə edərdi? Sən gedərkən dedin: "Əlvida, Yan van Leyden". Tanrı həmin an bilirdi ki, niyə "əlvida" söylədin, "görüşənədək" yox.

Yan Duzentsşuer daxil olur.

YAN DUZENTSŞUER. Mattis bu döyüşçülərlə hara getdi?

YAN VAN LEYDEN. Tanrı onu hücuma ilhamlandırdı.

YAN DUZENTSŞUER. Altı nəfər bütün qoşuna qarşı?

YAN VAN LEYDEN. Altı nəfər və ilahi pərvərdigarın özü.

YAN DUZENTSŞUER. İlahi pərvərdigar, heç şübhəsiz, daim insanla bir yerdədir və elə buna görə də döyüş meydanındakı on min adamın Tanrısı tək bircə şəxsinkindən on min dəfə çoxdur. Yan Mattis öz ölümünün pişvazına gedir.

YAN VAN LEYDEN. Biz hamımız ölümün pişvazına gedirik.

YAN DUZENTSŞUER. Niyə özünü hansı təhlükəyə məruz qoyduğunu açmadın ona?

YAN VAN LEYDEN. Tanrı ona dedi: "Qalx və get". Mən kiməm ki, ona belə deyim. "Durduğun yerdə qal, tərpənmə"? İlahi Lazara tabutdan qalxıb yerimək əmri verəndə, Lazar tabe oldu, baxmayaraq ki ölümün telləri ondan möhkəm yapışmışdı.

YAN DUZENTSŞUER. Yan van Leyden, mən şübhələnirəm ki, sən öz əllərinlə Mattisə həyatın tellərindən azad olması üçün kömək edirsən.

YAN VAN LEYDEN. Lap az qalıb, bir azdan biz, nəhayət, biləcəyik ki, Tanrının istəyi idimi bu?

YAN DUZENTSŞUER. Yoxsa sənin.

YAN VAN LEYDEN. Tanrı məni Münsterə ona görə gətirib ki, onun iradəsini yerinə yetirim. Yaxşı olardı ki, sən bunu unutmayasan, çünki elə öz sözlərinə əsaslansaq, sən peyğəmbərsən axı və hər imkan yarananda bu sözləri təkrar etsən, əla olar.

Uzaqdan qışqırıqlar, çığırtılar eşidilir. Şəhərlilərdən ibarət bir dəstə adam görünür. Hamıdan qabaqda gələn əsgər nizəsinin ucunda Yan Mattisin kəlləsini qaldırır. Knipperdolinklə Rotmann da daxil olurlar.

YAN VAN LEYDEN. Bizim qardaşımız Yan Mattisi Tanrı öz yanına çağırdı. Minnətdar olaq Ona. Nə mənə, nə Mattisə Tanrının ona ünvanladığı sözlərin mənası aydın deyildi. Amma indi onun bu acı nəsibini görərkən hər şey aydınlaşır.

YAN DUZENTSŞUER. "Gəl yanıma", – Tanrı bir dəfə Mattisə belə demişdi, lakin o elə bilmişdi ki, guya, Tanrı onu öz gücüylə qulluğunda durmağa və Onun yolunda katoliklərlə son döyüşə çıxmağa çağırır. Hələ yepiskop Valdek üzərində çalacağımız qələbənin başlanğıcına Tanrının hazır olmadığını bu yolla anlamalıyıq.

ŞƏHƏRLİLƏRİN XORU. Biz qala divarlarının üstündəydik, katoliklərin düşərgəsinə göz qoyurduq, elə bu vaxt şəhər darvazalarının qarşısında Mattis göründü və bizə belə dedi. "İndi görəcəksiniz müharibənin necə qurtardığını". O, darvazaları açdı və yanında olan bir ovuc döyüşçü ilə çölə çıxdı. Elə o dəqiqə də katoliklər onların üzərinə hücum çəkərək bizimkiləri qətlə yetirdilər. Tək bir nəfəri sağ qoydular – onun üçün ki, Mattisin başını Münsterə gətirsin. Biz indi də



təbərzin zərbəsindən boynundan üzülən kəllənin necə yerə düşərək dığırlandığını xatırlayanda dəhşətdən titrəyirik. Qan kəsilmiş damarlardan fəvvarə vururdu, dodaqlar isə hələ də Tanrının adını çağırmaqda idi. Bizə elə gəlirdi ki, Xaç atası İoannın Solomeyanın qarşısına gətirilmiş başını görürük.

KNİPPERDOLİNK. Ruhumuzu möhkəmlədək, qardaşlar, Mattisin öz davranışıyla bizə göstərdiyi sədaqət nümunəsinə hər gün layiq olaq. Tanrı qələbəni bizə o vaxt göndərəcək ki, onun mədaxil-məxaric kitabına şəhərimizdə olan sakinlərin sayı qədər həqiqi inanc sübutu yazaq.

ROTMANN. Bəs indi biz nə edəcəyik?

YAN DUZENTSŞUER. Əgər Yan van Leydenin bu suala hazır cavabı olmasaydı, mənə yaman qəribə gələrdi.

YAN VAN LEYDEN. İnanmıram ki, təəccüblənəsən, Yan Duzentsşuer, zira hərdən mənə elə gəlir ki, sən fikirlərimi oxuya bilirsən.

YAN DUZENTSŞUER. Mən sənin ruhunu oxuyuram.

ROTMANN. Sizin söhbətinizə qulaq asanda istər-istəməz düşünürsən ki, bizlərin bilmədiyi nələrdənsə xəbərdarsınız.

YAN VAN LEYDEN *(istehzayla)*. Bu ona görədir ki, nə Knipperdolink, nə sən Yan Duzentsşuer kimi qəlbləri oxuya bilmirsiniz. *(Pauzadan sonra)* Və ona görə də mən bir qardaş kimi sizə öz qəlbimi açmalıyam. Özü də qardaşımız Yan Mattisin bizə baxdığı bu kədərli anda. Mən onun yalnız cismini nəzərdə tutmuram – yox, onun həm də göylərdə olduğunu düşünürəm. Əgər burada onun üzülmüş başı ölü gözləriylə bizə baxırsa, bütün ruhu oradadır və gözlərindən əbədi həyat nuru yağır.

KNİPPERDOLİNK. Sən nə demək istəyirsən?

YAN VAN LEYDEN. Qardaşımız Mattisin fəlakəti Tanrının bizə verdiyi nişanədir, əlamətdir. Onun sözlərini səhv yozmağın göstəricisi deyil.

ROTMANN. Hansı əlamətdən danışırsan?

YAN VAN LEYDEN. Biz Münsterin Tanrı şəhəri olmasıyla razıyıq, yoxsa yox?

ŞƏHƏRLİLƏRİN XORU. Bəli, Münster Tanrı şəhəridir və Tanrıya məxsusdur.

YAN VAN LEYDEN. Bəs onda necə ola bilər ki, adamların seçdiyi adamlar, Tanrıya məxsus olan bir şeyi idarə etsinlər?!

KNİPPERDOLİNK. Tanrı Münster vətəndaşlarının gözlərini açıb və onlara magistratı seçərkən kimlərə səs verməli olduqlarını anladıb.

YAN VAN LEYDEN. Elə həmin dəqiqədə isə O, mənə hər şeyi aydınlatdı, indi isə sizə də anladacaq; siz Yan Mattisin davamçısı qismində məni görəcək və bunu bəyan edəcəksiz.

YAN DUZENTSŞUER. Mattisin davamçısı kimi mən səni artıq tanıyıram və bunu bəyan edirəm. Vaxtı çatanda isə daha artığını söyləyəcəm.

ROTMANN. Mən səni Yan Mattisin davamçısı sayıram.

KNİPPERDOLİNK. Mən də səni Yan Mattisin davamçısı sayıram.

YAN VAN LEYDEN. Belə olan təqdirdə, Tanrı iradəsinin mənə əta etdiyi hüquqdan və sizin etiraflarınızdan bəhrələnərək, həmin bu andan etibarən magistratı kafir yığıncağı və buraxılmış elan edirəm. Onun yerinə isə şəhərimiz on iki ağsaqqal tərəfindən idarə olunacaq, onları indi, buradaca seçəcəyik və on iki İsrail nəslinin Hakimi elan edəcəyik. İctimai və şəxsi, mülki və dini işlərin idarəçiliyi onların səlahiyyətində olacaq. Sən Ruvim olacaqsan, sən – Simeon, sən – Levi, sən – İuda, sən – Dan, sən – Neftəli, sən – Qad, sən – Asir, sən – İssahar, sən – Zavulon, sən – İosif və nəhayət, sən isə – Veniamin. Məni isə siz özünüzə ata bilib, rəhbər kimi tabe olmalısınız, necə ki adlarını daşıdığınız adamlar İakova tabe olub sitayiş edirdilər.

KNİPPERDOLİNK. Bəs mən?



YAN VAN LEYDEN. Sən isə, Knipperdolink, mənim silahdaşıyanım olacaqsan, hakimiyyəti və gücü yalnız Yan van Leydeninkindən az olan birisi.

ROTMANN. Mən özüm barədə soruşmalıyammı?

YAN VAN LEYDEN. Sən – Rotmannsan, odur ki bundan artıq heç nəyə ehtiyacın yoxdur.

İSRAİL HAKİMLƏRİNİN XORU. Tanrı Yan van Leydenin diliylə danışır və bu gündən etibarən onun sözü Münster üçün qanundur.

YAN VAN LEYDEN. Yalnız həqiqi möminlərə yeni kilsənin tavanı altında yer olacaq, onun üçün də təzə xaççəkmə mərasimini arzulayaraq, ondan sonra günaha girənlərin hamısı dəhşətli cəzalara məruz qalacaqlar. Şər atanlar, böhtan söyləyənlər, narazılığa, qiyama təhrik edənlər, səslərini öz valideynlərinə qarşı ucaldanlar, öz sahiblərinin əmrinə tabe olmayanlar, zinakarlıq edənlər, pozğunlar, deyinənlər və onlarla bir yerdə araqızışdıranlar və əsassız şikayətlənənlər ağır cəzalar alacaqlar. Mənim bərqərar etdiyim qanun budur, siz isə yalnız kimsənin onu pozmayacağına nəzarət etməlisiniz. Siz mənim haqq məhkəməmin gözətçilərisiniz. Zira Münsterdə bircə ruh belə ölsə, bütün şəhərin ölməsi deməkdir.

İSRAİL HAKİMLƏRİNİN XORU. Münsterin mömin xalqı, günahı öz içindən qov və peyğəmbərinin söylədiklərini unutma.

Dördüncü səhnə

SƏHNƏ ARXASINDA SƏS. Assuriyalıların sərkərdəsi Olofern yeniyetmənin əliylə ölməmişdi. Heç onun qarşısına nə öz gücü ilə fərqlənən qəhrəmanlar, nə də nəhənglər çıxmışdı. Lakin Merarinin qızı Yudif onu öz gözəlliyiylə məhv etdi. O, özünün dul paltarını çıxararaq bahalı əlbisələr geydi ki, öz israilli qəbiləsinin şöhrəti və təntənəsi naminə

Oloferni başdan çıxarsın. Gözəl rayihəli yağlar çəkdi bədəninə. Başına türban taxdı. Onun bu gözəlliyi Olofernin ruhunu əsir etdi. O da döyüşçünün başını öz qılıncıyla üzdü.

Pauza. Müqəddəs Lambert kilsəsindən moizəyə qulaq asan şəhərlilər çıxır. Tədricən hamı səhnədən yox olur. Səhnədə yanız Gertruda fon Utrext və Hille Feyken qalırlar.

GERTRUDA FON UTREXT. Tanrının yolları anlaşılmazdır, insan beyni onu dərk etmək gücündə deyil. Tanrı öz istəklərində azaddır. Vetuliya qalasının divarları içərisində israillilərin bütöv bir ordusu durmuşdu, amma O qərar verdi ki, şəhəri mühasirəyə almış assuriyalılar bir zəif qadına məğlub olmalıdırlar.

HİLLE FEYKEN. Mənim qəlbim dərin çaşqınlıq içindədir.

GERTRUDA FON UTREXT. Niyə?

HİLLE FEYKEN. Ona görə ki, içimdən gələn və mənə susmaq bilmədən Münsteri xilas etmək əmri verən səsin, həqiqətən, Tanrının səsi olub-olmadığına əmin deyiləm. Bəlkə, içimə dolan təşəxxüs və özünəarxayınlıq əcinnələridir, ruhuma giriblər ki, məni yoldan çıxarsınlar.

GERTRUDA FON UTREXT. Sən nədən danışırsan? Aydın söylə.

HİLLE FEYKEN. Əgər Tanrı çar Navuxodonosorun sərkərdəsi Olofernin Manassinin dul qadını Yudifin əlində ölməsini istəyibsə, niyə Papa sərkərdəsi yepiskop Valdekin Hille Feyken adlı bir qız tərəfindən qətlə yetirilməsini arzulamasın?

GERTRUDA FON UTREXT. Sənin başın xarab olub, qız? Yəni sən elə fikirləşirsən ki, katoliklərin düşərgəsinə sağ çata bilərsən? Əgər çatsan belə, qılınc çəkib yepiskop Valdeki öldürə bilərsən? Yadına sal, Yan Mattisin başına gələnləri yadına sal – o da elə bilirdi ki, Tanrı çağırır onu, nəticəsi nə oldu – başını itirdi.



HİLLE FEYKEN. Əgər Rotmann bu gün bizə Yudiflə Olofernidən danışırdısa, bu yalnız ona görə idi ki, bunu Tanrı istəmişdi – bu gün istəmişdi, dünən yox, sabah yox, məhz bu gün. Yan Mattisin timsalında Tanrı bizim möhkəmliyimizi yoxlayırdı. Kim iddia edə bilər ki, ilahi bunu mənim də üzərimdə sınamaq istəməz?

GERTRUDA FON UTREXT. Sən axı hələ lap uşaqsan.

HİLLE FEYKEN. David Qoliafla döyüşə çıxıb onu öldürəndə yaşca məndən böyük deyildi.

GERTRUDA FON UTREXT. David sapandına daş qoyub uzaqdan atmışdı ona, sən isə yepiskop Valdeki ona yaxınlaşmadan yoldan çıxara bilməzsən. Sən onun qarşısında çılpaq və silahsız duracaqsan, çünki sənin çılpaqlığın onu yoldan çıxarmaq üçün alətdir, öldürmək üçün yox.

HİLLE FEYKEN. Mən onu boğaram.

GERTRUDA FON UTREXT. Bu incə əllərinlə? Bu nazik barmaqlarınla?

Döyüş səsi eşidilməyə başlayır – topların atəşi, qışqırıqlar, silah cingiltisi. Katoliklər Münsteri növbəti dəfə hücumla ələ keçirməyə çalışırlır. Bu qarışıqlıqda, qaçan insanların arasında Gertruda fon Utrextlə, Hille Feyken də yox olurlar. Uzaqda, səhnənin dərinliklərində səmada qızartı görünür. Döyüşün səsi yavaş-yavaş, uzaqlaşan şimşək sədası kimi yox olur. Münsterin müdafiəçiləri yenə görünürlər – onların görkəmindən döyüşün necə ağır keçdiyini anlamaq olar. Yan van Leyden, Knipperdolink, Rotmann və Yan Duzentsşuer səhnəyə çıxırlar.

YAN VAN LEYDEN. Əgər siz Tanrının gözündə nəsə bir günah işlətmiş olsaydınız, O, sizi düşmənin əlinə verib, onların qarşısında bir heçə çevirərdi. Lakin Tanrının iradəsinə və mənim hakimiyyətimə tabe olan Münster xalqı Onu heç nəylə təhqir etmədi və elə bu səbəbdən də O, bu gün bizi qanadları altına çəkdi, düşmənlərimizsə özlərini əbədilik biabırçılıq və şərəfsizliklə ləkələdilər.

YAN DUZENTSŞUER. Yan van Leyden, səni Tanrı döyüşçüsü elan edirəm.

KNİPPERDOLİNK *(Rotmanna)*. Tanrı döyüşçüləri – Münsteri müdafiə edərək canlarından keçənlərdir.

ROTMANN. Özünü gözlə, Knipperdolink, belə sözlərə görə sən də həyatını itirməyəsən.

YAN VAN LEYDEN. Nə pıçıldaşırsınız orada?

ROTMANN VƏ KNİPPERDOLİNK. Ondan danışırıq ki, bizlərin arasında Yan Duzentsşuer adını daşımağa səndən layiqli adam yoxdur.

YAN VAN LEYDEN. Mənim bu titula başqasından çox layiq olduğumu demək – müqayisəyəgəlməz şeyləri tutuşdurmaqdır. Zira burada, Münsterdə mən Tanrıdan sonra birinciyəmsə, siz məndən elə mənim Ondan aralı olduğum qədər aralısınız. Qətiyyən ona görə yox ki, mən sizi öz hakimiyyətimdən uzaqlaşdırmışam, Tanrının seçiminə görə.

ROTMANN və KNİPPERDOLİNK. Məhz elədir. Bunu ilahi istəyib, ilahi bunu gələcəkdə də istəyəcək.

YAN DUZENTSŞUER *(üzünü kənara tutaraq)*. Belə danışıq, əslində, başqa cür düşünənlərə yaraşır.

YAN VAN LEYDEN. Yepiskop Valdek, günahın ilanı bizim divarlara yenidən alov və zəhər püskürdü. Lakin onlar müqəddəsdir, zira Tanrı özünün sol ayağıyla onlara dayaq verib. Sağ ayağı isə bizim ruhlarımıza dayanır. O, bizə sonuncu yardımını edəcək və bu yardım bizi qarı düşmən üzərində mütləq qələbəyə çatdıracaq. Qəlblərimizi möhkəmləndirək, sərtləşdirək, əməlisalehlərdən ən pakları olaq. Münster xalqı Tanrı xalqıdır! Daha bir səy, cəmi bir səy – və qələbə bizimlədir.

ŞƏHƏRLİLƏRİN XORU. Qəlblərimizi möhkəmləndirək və sərtləşdirək, əməlisalehlərin ən pakları olaq. Münster xalqı Tanrı xalqıdır! Daha bir səy, cəmi bir səy – və qələbə bizimlədir.

Hamı gedir. Səhnənin ortasında yalnız Gertruda fon Utrext və Hille Feyken görünür, onlar bir neçə dəqiqə qabaq camaatın içində itmişdilər, indi isə yenə də peyda olurlar. Hille Feyken əlində örtüyə bənzər nəsə tutub.



GERTRUDA FON UTREXT. Mənim qəlbim sevinclə doludur, ruhum vəcdə gəlir, çünki Tanrı öz baxışını Yan van Leydenin üzərində dayandırdı – mənim ərimin. "Cəmi bir səy – və qələbə bizimlədir", – bunu o dedi və sanki, Tanrının sözləriydi bu.

HİLLE FEYKEN. Qoy qüllələrdəki döyüşçülər dincəlsin, qoy öz qılınclarını sakitlik içində aşağı salsınlar və nizələrinə söykənsinlər, çünki bu sonuncu səyi mən edəcəyəm. Tanrının sol ayağı mənim qəlbimi axtarıb tapdı, sağ ayağı isə ruhumu və artıq mən – özüm deyiləm, tarım çəkilmiş kamandan, Onun kamanından qopmağa hazır oxam.

GERTRUDA FON UTREXT. Bu müharibədə yalnız kişilər döyüşmür. Biz qadınlar da müharibəyə gedərək onlarla çiyin-çiyinə bacardığımız kimi vuruşacağıq. Lakin bizim zəmanədə özünü Yudifə oxşadaraq yepiskopa qarşı qılınc qaldırmaq – sərsəmlikdir, ölümün qucağına atılmaqdır.

HİLLE FEYKEN. Mən qılıncla Valdekin boynunu vurmayacağam, xəncərlə bağrını dəlməyəcəyəm, onu yandırmayacam, boğmayacam.

GERTRUDA FON UTREXT. Sən deyirdin ki, silahın yalnız əllərin olacaq.

HİLLE FEYKEN. Bir zamanlar Yudif kimi mən də ən gözəl paltarlarımı geyinəcəm, lakin dul paltarlarını yox, sadə olduğundan daha çox iştah doğuran bakirə qız əlbisəsini. Qollarımı, saçlarımı və boynumu, əllərimi və barmaqlarımı ətirləyəcəyəm ki, yepiskop onu başdan edəcək rayihəni sinəsinə çəksin, Özüm isə dizüstə düşüb Münsterə rəhm etməsi üçün yalvaracam.

GERTRUDA FON UTREXT. Yepiskop Valdek səni ən azından geriyə yollayacaq, bəlkə, hələ daha pis nəsə edəcək.

HİLLE FEYKEN. Mənalı baxışlarla, ikibaşlı ifadələrlə ona anladacağam ki, istəklərinə müqavimət göstərmək gücündə deyiləm. Əgər lazım olsa, and içərəm ki, Münsterin taleyi mənim üçün önəmli deyil, məzhəbimdən də dönürəm.

Ona məxsus olmağa razıyam və monastıra gedəcəyəm, lakin orada olanda belə hücrəmin də qapısı elə bədənimin qapısı kimi həmişə yalnız onun üçün açıq olacaq.

GERTRUDA FON UTREXT. Yaxşı, elə fərz edək ki, sən onu başdan eləyə bildin və təkbətək qaldınız. Onu necə öldürəcəksən?

HELLE FEYKEN. Bax bu köynəklə.

GERTRUDA FON UTREXT. Başa düşmədim.

HİLLE FEYKEN. O, mənimlə yatağa girmək istəyəndə xahiş edəcəyəm ki, istəyinin sübutu olaraq, mənim öz əlimlə toxuduğum və tikmələrlə bəzədiyim bu köynəyi geysin. Yepiskop köynəyi geyəndə isə bir dəqiqədən artıq yaşamayacaq. Çünki ona hopdurduğum zəhər özünü büruzə verəndə artıq çox gec olacaq.

GERTRUDA FON UTREXT. Zəhər?

HİLLE FEYKEN. Hə. Bu zəhərdən. *(İçində şəffaf maye olan şüşə qabı göstərir.)* Görürsən, necə şəffafdır, adama elə gəlir ki tərtəmiz sudur. Amma bu parçaya toxunan dəri o saat kömür kimi qapqara olacaq. Və yepiskop Valdek isə hələ cəhənnəm alovunda yanana qədər məhv olacaq.

GERTRUDA FON UTREXT. Mən sənin üçün qorxuram. Əgər tutulsan, necə olacaq?

HİLLE FEYKEN. Ölüm mənim nəsibimdir, Gertruda, bu, yepiskopu məhv edə biləcəyimdən və bilməyəcəyimdən asılı deyil. Əgər gözətçilər nəsə hiss etsələr, məni heç çadıra yaxınlaşmadan öldürəcəklər. Niyyətim baş tutsa da, öləcəm, çünki çadırı tərk etmək mümkün olmayacaq. Yudif özüylə kənizini aparmışdı və Olofernin düşərgəsində olduğu üç gün ərzində onunla bir yerdə Tanrıya alqış yağdırmaq və oradakı bulaqda yuyunmaq üçün Vetul vadisinə gedirdi. Mən isə ölüm vadisində tək olacağam və göz yaşlarından savayı yuyunmaq üçün heç nəyim olmayacaq. Məncə, o vaxt Tanrıya dua etməyə başlayanda deyəcəyim ilk söz də axırıncısı olacaq.



GERTRUDA FON UTREXT. Ölümünü axtarma, Hille, sərsəm niyyətindən imtina et.

HİLLE FEYKEN. Bacarmaram. Əgər bu fikir mənə İlahi tərəfindən təlqin edilibsə, mən Onun iradəsini yerinə yetirəcəyəm. Lakin əgər bu şeytan əməlidirsə və Tanrı məni ondan müdafiə etmirsə, deməli, yenə də Onun iradəsidir bu və mən də bu iradəni həyata keçirməyə borcluyam. Amma kifayətdir, çox danışdıq, deyəsən, yaxşısı budur, mənə kömək elə.

Hille Feyken köynəyi açır,
Gertruda fon Utrext onun qollarından tutaraq
zəhəri üstünə səpir. Sonra köynəyi
bərk bir parçaya bükürlər.

Hərdən yadına düşsə, mənim barəmdə fikirləş.

Gedir.

GERTRUDA FON UTREXT *(dizləri üstə düşərək)*. İlahi Pərvərdigara, söylə mənə, həqiqətənmi, əzəmətini dünyaya göstərmək üçün Sənin bütün bunlara ehtiyacın var?

ÜÇÜNCÜ PƏRDƏ

Birinci səhnə

ROTMANN. Sən mənim dalımca adam yollamışdın, Yan van Leyden. Lazım idim sənə?

YAN VAN LEYDEN. Vəhşi canavarlar, azğın pələnglər, zəhərli ilanlar şəhərimizin divarları qarşısındadırlar, lakin Tanrı öz xalqının tərəfindədir və katoliklərin hücumları dəf olunur. Şəhərin və hakimiyyətin qorunması üçün mən İlahi tərəfindən təlqin olunmuş qanunlar qoydum və O da məhz buna görə bizə qələbə əta elədi. O, bizə yeni-yeni, saysız-hesabsız qələbələr yollayacaq, əgər qədim patriarxlar kimi ona daim itaətdə bulunsaq. Xüsusilə də, indi, bu məhrumiyyətlərə məruz qaldığımız günlərdə.

ROTMANN. Mən səni həm anlayıram, həm də yox, sözlərinin mənası mənə tam aydın deyil.

YAN VAN LEYDEN. Rotmann, diqqət yetirmisənmi, aramsız döyüşlər ucbatından şəhərin kişi əhalisinin sayı qadınlara nisbətən nə qədər azalıb?

ROTMANN. Əlbəttə, bir gəl diqqət yetirməyim. Münsterdə qadınların sayı indi kişilərinkindən neçə dəfə artıqdır. Amma bütün mühasirədə olan şəhərlərdə vəziyyət belə olur. Qadınlar təbiətən kişilərdən dözümlüdürlər. ölüm isə heç qadınlara da aman verməməsiylə yanaşı, kişiləri daha böyük həvəslə biçir. Lakin sülh yetişəndə, hər şey əvvəlki kimi olacaq.

YAN VAN LEYDEN. Sən dedin ki, qadınlar kişilərdən çox yaşayır, ona görə müharibə olsa da, olmasa da, kişilərin sayı daha az olur.

ROTMANN. Hə, elədir.



YAN VAN LEYDEN. Tanrı heç nəyi məqsədsiz etmir və əgər O, qadınların say etibarilə kişilərdən çox olmasını istəyibsə, bu yalnız ona görədir ki, hər kişi bir yox, qarnını doyura bildiyi qədər arvad alsın. Bu nümunəni bizə qədim patriarxlarımız verirlər, onların da bir yox, bir neçə arvadları olub.

ROTMANN. Mənə elə gəlir ki, sənin fikrini anladım.

YAN VAN LEYDEN. Əks təqdirdə, bu, sən olmazdın.

ROTMANN. Mən nə etməliyəm?

YAN VAN LEYDEN. Sən elan edəcəksən ki, öz həyatımızda nümunə götürməli olduğumuz qədim patriarxların yaşam tərzinə əsasən, Münster şəhərində çoxarvadlılıq elan edilir. Çünki biz Tanrıdan qorxan xalqıq. Zira indi yaşadığımız əziyyət və məhrumiyyətlər dönəmində, küçə və meydanlarımızda dolaşan saysız-hesabsız ərsiz qadınlar öz ruhlarını təhlükəyə məruz qoyurlar.

ROTMANN. Niyyətdə günah etmək bunu cismən etməkdən yaxşıdır.

YAN VAN LEYDEN. Tanrının gözündə bunlar eyni şeydir. Sən, deyəsən, unutmusan ki, müqəddəs Münster şəhərində günah, ümumiyyətlə, ola bilməz və qadını cismən tanıyan hər kişinin bir məqsədi olmalıdır – nəslin davamı. Odur ki qadınları bölməyə başlayanda qısırları və hamilələri kənara atmaq gərəkdir, çünki onlar kişilərə şəhvani ləzzətdən başqa heç nə verə bilməzlər. Nəsil artırmaqla bağlı olmayan cinsi həzz isə günahdır.

ROTMANN. Sən istəyirsən ki, mən zinakarlığın və bu qəbildən olan digər günahların kökünü kəsəcəyimizi dəfələrlə bəyan etdiyimiz bir şəhərdə çoxarvadlılıq elan eləyim?

YAN VAN LEYDEN. "Doğun, törəyin, artın", – Tanrının nəsihətidir bu, deməli, Onun iradəsi həyata keçirilən yerdə bunlar günah ola bilməz. O ki qaldı zinakarlığa, bu, cinayətdir və elə əvvəlki kimi ölümlə cəzalandırılacaq.

ROTMANN. Əgər belədirsə, sənin iradəni elan edərəm camaata.

YAN VAN LEYDEN. Vaxt itirməyək – camaatı çağır meydana və özünün bütün bəlağətindən onları inandırmaq üçün istifadə et, amma elə danış ki, sanki, bu fikir səninkidir, mənimki yox.

Çıxır. Rotmann bir müddət qayğılı və fikirli bir tərzdə durur, tərəddüd içində, amma bir azdan özünə gəlir.

ROTMANN *(əl çalaraq)*. Bura, bura gəlin, Münster xalqı, meydana toplanın, ey Tanrıdan qorxan xalqın kişiləri, qadınları! Bura!

Meydana dəstə-dəstə insanlar gəlir, onların arasında Gertruda fon Utrext və Knipperdolink də var.

ÜMUMİ XOR. Nə var, nə olub, bu nədir, nə xəbərdir? Bizi niyə çağırdın? Yepiskop yenə hücuma keçib?

ROTMANN. Narahat olmayın, bacılar və qardaşlar, vəhşi Valdek hələ yaralarını yalayır. Mən sizi səsləmişəm ki, Tanrının yeni iradəsini çatdırım. O, bütün istəklərinə necə müticəsinə riayət etdiyimizi gördüyündən, istəyir ki, bu gündən etibarən qədim patriarxların həyat tərzinə addambaaddım yaxınlaşaq. Amma əvvəlcə, icazə verin, sizə xatırladım ki, apostol İoannın "Açıqlamaları"nda nə deyilir: "Nə yerə ziyan yetirin, nə dənizə, nə ağaca – nə qədər ki Tanrımızın qullarının alnına Onun möhürü vurulmayıb. Və mən həmin o möhürlənmişlərin sayını eşitmişəm. Möhürlənən bəni-İsrailin bütün nəsillərindən yüz qırx dörd min idi". Bu, seçilmişlər olacaq – on iki nəslin hərəsindən on iki min və hər birinin alnında möhür olacaq. Lakin onların yüz qırx dörd min nəfər təşkil edəcəyi gündən sonra – nə bir nəfər az, nə bir nəfər çox. Biz tamamilə şəksiz dərk etdik ki, Münster Yeni Yerusəlimdir, əsl möminlər şəhəridir və buna görə də buradakı seçilmişlərin də alnında Tanrı möhürü olacaq. Lakin, qardaşlar, Münsterdə yüz qırx dörd min kişi yoxdur və əhalisinin sayı hələ çox uzun müddət bu rəqəmə yaxınlaşmayacaqdır, əgər Tanrı özünün yeni iradəsini mənə bildirməsəydi.



Pauza. Kütlənin arasında həyəcanlı və hövsələsiz uğultu eşidilir.

XOR. Hansı iradəsini?

ROTMANN. Tanrı bizdən doğma Münsterimizdə çoxarvadlılıq elan edilmiəsini istəyir ki, şərqdən Tanrı möhürüylə qalxan mələk alınlarımızda öz izini qoysun. Bu nişanəylə fərqlənən bizlər ağ paltarlar geyib, əllərimizdə palma budaqları, birağızdan nida edəcəyik: "nicatımız öz taxtında bərqərar olan Tanrıya və Onun quzusuna məxsusdur".

XOR. Bizim nicatımız öz taxtında bərqərar olan Tanrıya və Onun quzusuna məxsusdur.

ROTMANN. Yeniyetmə yaşından çıxmış hər kişi kəbinə girməyə borcludur. Ərə getməmiş arvadlar onları seçən ilk kişini özünə ər kimi qəbul etməlidirlər. Nikah ittifaqının təmizliyi və şəhvani zövq olmadan. Tanrı səltənətini biz belə yaradacağıq.

KİŞİLƏRİN XORU *(sevinc içində)*. Tanrı iradəsi belədir! Qoy ilahinin iradəsi həyata keçsin!

QADINLARIN XORU *(etirazla)*. Bu nə deməkdir, bizi pəyədəki heyvan kimi – soruşmadan, kiminlə gəldi cütləşdirəcəklər?!

ROTMANN. Özünüzü gözləyin, əmrə riayət etmək istəməyən qadınlar və onların tərəfinə keçən kişilər, zira bu əmri yerinə yetirməyən istənilən şəxs qiyamçı elan edilərək, ağır cəzaya məruz qalacaq.

KNİPPERDOLİNK. Tanrı öz iradəsini kimə əyan edib? Sənə, yoxsa Leydenli İoanna? Əgər sənə əyan olubsa bu, onda niyə Yan van Leyden Mattisin varisi və Münsterin hamı tərəfindən qəbul olunan başçısı kimi bunu bilmək üçün aramızda deyil? Əgər ona əyan olubsa bu, onda niyə xalqa bu xəbəri qanuni haqqı ilə qılınc daşıyan və hakimiyyətdə, gücdə yalnız İoanndan aşağı duran mən elan etmirəm?

ROTMANN. Tanrı sözü axtarıb məni tapdı, O, məni seçdi ki, Münsterdə çoxarvadlılığı elan edim. Tanrı insanlar

arasındakı qaydalara tabe deyil, kimin yuxarı, kimin aşağı durmasının, kimə az, kimə çox itaət olunmasının da Ona bir aidiyyəti yoxdur.

GERTRUDA VAN UTREXT. Ey Münster qadınları, məgər siz bilmirsiniz, Hille Feyken şəhər divarlarından kənara çıxıb ki, yeni Yudif kimi, yepiskop Valdeki öldürsün. Əgər Tanrının iradəsiylə o, sağ qalsa və yanımıza dönsə, yəni imkan verərik ki, qarşısına çıxan ilk kişi onun iradəsinin ziddinə olaraq, bu igid qadını özünə arvad eləsin?!

QADINLARIN XORU. Yox, yol vermərik. Və heç özümüz də buna getmərik.

GERTRUDA VAN UTREXT. Apokalipsis mələyi Hille Feykenin alnına artıq öz möhürünü vurub. Adi, öləri bir kişi Tanrının nişanladığı kimsəni seçə bilməz. Əgər O, Hille Feykenin ərə getməsini istəyirsə, ədalət naminə ona imkan verilməlidir ki, ərini özü seçsin.

QADINLARIN XORU. Elədir. Biz də bunu istəyirik.

ROTMANN. Sən Tanrının iradəsinə zidd gedirsən, Gertruda van Utrext? Bunu mənim qarşımda eləmə, öz ərinin qarşısında elə. Mənim indicə dediklərimi nəzərə al və düşünmə ki, onun yeganə arvadı olacaqsan.

GERTRUDA VAN UTREXT. Adəmin bir arvadı vardı. Həvvanın da – bir əri, amma onların hər ikisi Tanrının əliylə yaranmışdı. Biz isə yalnız öz valideynlərimizin övladları və övladlarımızın valideynləriyik. Əgər Tanrının iradəsi belədirsə, mənim ərimin məndən başqa digər arvadları da olacaq, lakin yalnız Tanrı yol verə bilər ki, onlar mənə bacı olsunlar.

KNİPPERDOLİNK. Qanunun lap ilahi tərəfindən məhdudlaşdırılması belə, əgər Tanrının bizə əta etdiyi azadlıq qanununu üstələyirsə, ilahi özü özünə qarşı çıxmış olur. Və mən Leydenli İoanna deyəcəyəm. Heç bir qadın sevmədiyi kişiylə ittifaqa məcbur edilə bilməz.

ROTMANN. Deyərsən, deyərsən , amma sonra, mən isə sizə yalnız Tanrı iradəsini açıqlamalıydım.



Yan van Leyden
və Yan Duzentsşuer
gəlirlər.

YAN VAN LEYDEN. Burada nə baş verir? Niyə toplaşmısınız bura?

ROTMANN. Tanrı mənimlə danışdı.

YAN VAN LEYDEN. O nə dedi sənə?

ROTMANN. Dedi ki, bizim müqəddəs şəhər Münsterdə çoxarvadlılıq tələb edir ki, sayımız tezliklə yüz qırx dörd minə çatsın – hər nəsildən on iki min. O zaman Apokalipsis mələyi uçub yer üzünə gələcək, bizi sayacaq və hər birimizin alnına öz əlamətini vuracaq.

YAN VAN LEYDEN. Qoy onun iradəsi yerinə yetsin. Birinci mən seçəcəyəm, mənim dalımca – Knipperdolink, sonra Rotmann, sonra da bütün qalan kişilər. Kişilərin heç biri Leydenli İoanndan artıq arvada sahib çıxa bilməz.

KNİPPERDOLİNK. Mən sarıdan narahat olmaya bilərsən, çünki məni seçəndə xoşum gəlir, özüm seçəndə yox. Bu, o deməkdir ki, məni seçənlər elə keyfiyyətlərimi görürlər ki, özüm onların varlığına tam əmin deyildim.

YAN DUZENTSŞUER *(gülür və sağlam ayağının üstündə atılıb-düşür)*. Qoy mənim quşum qonan heç kəs mənə ürəyindən olmadığını söyləməyə cəsarət etməsin. Mən topal olsam da, peyğəmbərəm, nə olub ki mənə, kefin istəyən kişiyəm, çoxu mənim paxıllığımı çəkir. Tanrı istəyib bunu, bizə də yalnız riayət etmək qalır, Ona və yer üzündə Onun iradəsini həyata keçirənlərə.

YAN VAN LEYDEN *(Gertrudaya müraciətlə)*. Sən mənim birinci arvadım olacaqsan, məqamımdan doğan şərəfi-şanı mənimlə bölüşəcəksən. Amma özün özünü hamıya tən saymalısan. Dənizin sümürüb istədiyi yerə apardığı bir qum dənəsi kimi.

KİŞİLƏRİN XORU. Bəsdir boş yerə vaxt itirdik, özümüzə qadın seçək!

QADINLARIN XORU. İlahi, Sənin iradəni hər dəfə kişilərin ağzından eşidirik. Elə bir gün gələcəkmi ki, Sən bizə özün əyan olasan, üz-üzə durub ən mühüm mətləbləri açasan?

YAN VAN LEYDEN. Səsinizi kəsin.

Gertruda fon Utrextin əlindən tutub, sıraya düzülmüş qadınların önündən keçir, ən cavanlarına və gözəllərinə işarə edir. Gertruda onların hər birinin alnından öpür. Onların dalınca isə Rotmann və Duzentsşuer eyni şey edirlər. Yalnız Knipperdolink yerində qalır. Bütün bu hadisələr çox yavaş tempdə cərəyan edir. Bəzi qadınlar bu seçimə məmnuniyyətlə tabe olurlar, digərləri müqavimət göstərirlər, amma bir kəlmə də dillənmirlər. Yan van Leyden bu mərasimi bitirməmişdən, səhnəyə əllərində xərək dörd əsgər daxil olur, xərəyin üstündə üzü örtülü bir meyit var.

ŞƏHƏRLİLƏRİN XORU. Bu nədir? Nə gətirmisiniz?

ƏSGƏR. Yepiskopun adamları bunu şəhər darvazalarının qarşısında qoydular, biz də götürüb bura gətirdik.

ŞƏHƏRLİLƏRİN XORU. Kimdir bu?

Gertruda fon Utrext xərəyə yaxınlaşıb üzünü açır. Hamı Hille Feykeni görür – o ölüb; bütün bədəni qapqaradır, əynində Valdek üçün nəzərdə tutulmuş köynək var.

GERTRUDA FON UTREXT. Hille Feyken!

ŞƏHƏRLİLƏRİN XORU. Hille Feyken!

GERTRUDA FON UTREXT. Münster kişiləri, ürəyinizdən keçən qadın, bax budur. İndi hansınız istəyəcəksiniz onu, hansınız qolundan tutub ölüm yatağından qaldıraraq, onu öz yatağınıza aparacaqsınız? Ona ölüm gətirmiş zəhəri dodaqlarından hansınız içəcəksiniz?

Səhnədəkilər dəhşət içində səslərini kəsib, geri çəkilirlər. Gertruda isterikadadır, gah ağlayır, gah gülür. Yan van Leyden onu zorla xərəkdən aralayır və digər qadınların arasına itələyir. Hamı gedir. Səhnədən sonuncu Yan Duzentsşuer çıxır. O getməmişdən xərəyin ətrafına bir neçə dəfə dolanır, sanki, Hillenin məhv olmuş gözəlliyinə sarsılıb. Cəsəd ortada tək qalır. Pauza. Sonra uzaqdan döyüş səsi gəlir. Katoliklər Münsterə bir dəfə də hücum təşkil edirlər.



İkinci səhnə

Meydanda toplanmış xalq Yan van Leydeni görəndə canlanır. Qabaqda Knipperdolink, Rotmann və on iki İsrail hakimi durub, onların hər birinin əlində hakimiyyət əlaməti olaraq, qılınc var. Yan van Leyden on altı arvadının əhatəsində meydana girir – onların arasında Gertruda fon Utrext və Yan Duzentsşuer də var.

YAN DUZENTSŞUER. Səsinizi kəsin, indi Yan van Leyden danışacaq.

YAN VAN LEYDEN. Kim məni Münsterin baş hakiminə çevirmiş ilahi iradəsinin həqiqətinə qəlbinin dərinliklərində şübhə edirdisə, bu şübhələrini dilinə gətirməyə cəsarət edirdisə, indi görsün, Tanrımız elə indicə onların nə qədər yanıldığını göstərdi. Zira o iradə və mənim əldə etdiyim bu hakimiyyət olmasaydı, Münster xalqı katolik qoşunlarının qəzəbli hücumlarının qarşısını heç vaxt ala bilməzdi. Çünki hamımız bizim müqəddəs şəhərimizi insanların necə igidliklə müdafiə etdiyini, kişilərimizin katoliklərə və onların muzdlularına muşketlərdən, toplardan necə atəş açaraq, onların başına güllə və mərmi yağışı yağdırdıqlarını görürük. Qadınlarımızın qala divarları üstündə necə döyüşərək, düşmənlərin üstünə daş-kəsək, qaynar qatran, sönməmiş əhəng tökdüklərinin şahidiyik. Odur ki Tanrıya minnətdarlıq edək, bizə haqq işimizdə qələbə bəxş edən Tanrıya, bu haqq işini müdafiə etdiyinə, kölgəsini üstümüzdən çəkmədiyinə görə minnətdarlıq edək.

ŞƏHƏRLİLƏRİN XORU. Minnətdarıq Sənə, ulu Tanrı!

YAN VAN LEYDEN. Alqış Onun bizə açıqladığı iradəsinə!

ŞƏHƏRLİLƏRİN XORU. Alqış olsun! Alqış!

YAN VAN LEYDEN. Zaman yetişdi artıq, mənim çar olmaq zamanım. Zira yer üzündə Tanrıdan başqa hakimi-mütləq olmadığından, ilahi səltənətin yerdəki nümunəsi olan

Münsterdə də bir başçı, bir hökmdar olmalıdır. Və bu mənəm, indi sizinlə danışan Yan van Leyden – Tanrının Öz əliylə nişan verdiyi, Öz diliylə söylədiyi insan.

Şəhərlilər onun bu sözlərinə müxtəlif münasibət göstərirlər. Görünür ki, bəziləri razıdırlar, digərləri tərəddüd edirlər, üçüncülərin isə etirazları var, bunu aşkar göstərməsələr belə. Amma buna baxmayaraq, alqış sədaları yüksəlir.

YAN VAN LEYDEN. Yan Duzentsşuer, Münsterə gələn gündən məndən səmimi və ağıllı məsləhətlərini əsirgəməmisən, indi də kömək əlini çəkməzsən, dualarınla məni çar elan edərsən.

YAN DUZENTSŞUER. Mən yalnız bir şeyin arzusundayam – qoy salnamələrə qeyd olunsun ki, mən bu yer üzünə yalnız bunun üçün gəlmişdim. Çünki mən elə burada dayananların hamısı kimi sənin şöhrətinin şahidi olmuşam və indi də varam, bu andan etibarən isə həm də bu şöhrəti bir az da ucaldan alət olacağam.

YAN VAN LEYDEN. Mən özümün hökmdar şərəfi naminə çarlara yaraşan libas hazırlamışam. Onları bura gətir. Siz isə, ey on iki İsrail nəslinin hakimləri, qılınclarınızı mənim ayaqlarım altına qoyun, zira bu gündən etibarən Münsterdə çarın mütləq hakimiyyətindən savayı başqa hakimiyyət olmayacaq. Çünki mən sizlərin ikiqat hökmdarıyam – cisminizin də, ruhunuzun da çarıyam.

Hakimlər iki-iki Yan van Leydenə yaxınlaşır, qılınclarını onun ayaqları altına qoyurlar, Yan Duzentsşuer gəlir, onun dalınca gələn adamlar isə əllərində səltənət taxtını və bir sandıq gətirirlər, paltarlar da elə həmin sandıqdan çıxarılır. Gertruda və Yan van Leydenin qalan arvadları onu geyindirirlər. O, taxta çıxır. Yan Duzentsşuer dua oxuyub onun başına tac qoyur. Sonra isə hökmdar əsasını və dünya imperatorluğunun simvolunu – üstündə xaç olan qızıl alma təqdim edir.

YAN VAN LEYDEN. Mənim birinci arvadım Gertruda sağımda əyləşəcək və sizin çariçanız olacaq. Bu gündən etibarən onu Divara çağıracaqsınız – bu ad onun yeni mövqeyinə daha çox yaraşır. Bütün qalan arvadlarım, siz də yaxın gəlin, taxtımın hər iki tərəfində yer alın və mənim qulluğumda ilahi pərvərdigarın xidmətində duran mələklər kimi duracaqsınız.



YAN DUZENTSŞUER. Münster vətəndaşları, qardaşlar və bacılar, hökmdarımızı alqışlayın.

ŞƏHƏRLİLƏRİN XORU. Eşq olsun sənə, ey Leydenli İoann, Münster çarı!

Qəflətən kütlənin içindən bir neçə nəfər irəli çıxır. Taxta yaxınlaşırlar, onlardan biri Henrix Mollenhek əlini Leydenli İoannın çiyninə qoyur.

HENRİX MOLLENHEK. Ey Münster vətəndaşları, əgər bizim şəhərimiz Tanrı tərəfindən yeni Sion seçilibsə, niyə onun iradəsi yad bir adamın çar olmasıdır? Niyə taxta bir yadelli çıxır? Əgər bu artıq baş veribsə və biz onu özümüzün çarı elan etmişiksə, niyə o eyni zamanda bizim həm dünyəvi, həm ruhi hökmdarımız olmalıdır?! Yaxşı, qoy şəhəri idarə etsin, onun müdafiəsini öz boynuna çəksin, lakin ruhlarımızı və amallarımızı Berndt Knipperdolinkə tapşırmaq daha yaxşı olardı.

YAN VAN LEYDEN *(sakit tərzdə)*. Sənin adın Henrix Mollenhekdir?

HENRİX MOLLENHEK. Bəli.

YAN VAN LEYDEN. Bəs sən, Berndt Knipperdolink, mənim silahdaşıyanım, eşitdiklərin haqda sən nə deyə bilərsən? Münsterlilərin ruhlarının hakimi olmağın, mənə isə onların yalnız cismini tapşırmaq barədə nə deyə bilərsən?

KNİPPERDOLİNK. Onu deyə bilərəm ki, Henrix Mollenhek düz söyləyir, biz Tanrının şəninə, bizim Münsterin mənafeyinə bu yolla daha yaxşı qulluq edə bilərik.

YAN VAN LEYDEN. Bu sözlərinə cavab olaraq bunu deyə bilərəm: əgər əvvəlki kimi sənə inanmağımı istəyirsənsə, kaş bunu söyləməyəydin. Bu uydurma və təhlükəli

fikri Tanrının sənə açıqladığını, ya da hələ açıqlayacağını demək fikrinə də düşmə, zira burada, Münsterdə O yalnız mənimlə danışır, məndən başqa heç kimlə bölüşməz. *(Başqa ahənglə, lakin yenə sakitliyini qorumağa çalışaraq şəhərlilərə müraciət edir.)* Sizin aranızda elələri varmı ki, Henrix Mollenhekin təklifinə şərik olsun?

Bir neçə nəfər irəli çıxıb Mollenhekə birləşirlər.

(Qəzəb içində qışqırır.) Siz hamınız öləcəksiniz! Əsgərlər! Tutun onları! Aparın buradan! Məni təhqir etməklə, onlar Tanrını təhqir etdilər. Mənə itaətsizlik göstərməklə, onlar Tanrıya itaətdən imtina edirlər! Aparın onları meydandan və öldürün. Mən onların çığırtılarını eşitmək istəyirəm.

Əsgərlər itaətsizlik göstərənləri meydandan çıxarırlar. Səhnə arxasından zərbə səsləri gəlir, amma qışqırıq yoxdur. Əsgərlər qayıdırlar.

Hə? Nə oldu?

ƏSGƏRLƏR. Biz sənin əmrini yerinə yetirdik.

YAN VAN LEYDEN. Amma mən çığırtılarını eşitmədim!

ƏSGƏRLƏR. Onlar qışqırmadılar.

YAN VAN LEYDEN *(gizlədə bilmədiyi pərtliklə)*. Eybi yox, cəhənnəmdə qışqırarlar. *(Gülür.)* Artıq qışqırırlar. Cəhənnəm qapıları onları iblisin məskəninə buraxmaq üçün artıq açılıb, cəhənnəm alovu artıq zəbanə çəkib onları yandırır və əcinnələr çəngəllərlə bədənlərini dağım-dağım eləyir. Mənim hakimiyyətimi sarsıtmaq istəyənlər özləri özlərini əbədi əzablara məhkum etdilər. Sizlər isə bu hakimiyyətin sərhədlərini hələ tanımırsınız.

KNİPPERDOLİNK. Tanımırıq. Amma bir şeyi dəqiq bilirik – o, Tanrı hakimiyyətindən güclü deyil. Bir də biz elə bir şey bilirik ki, bunu sən də heç vaxt unutmamalısan – biz hamımız bir yerdə Tanrının seçdiyi xalqıq və Tanrı qarşısında hər birimiz başqalarıyla eyniyik.



YAN VAN LEYDEN. Bilirsən, Knipperdolink, insanın başı bədənindən üzüləndə, o daha başqalarına bərabər olmur.

KNİPPERDOLİNK. Özünə bu qədər arxayın olma, Yan van Leyden.

YAN VAN LEYDEN *(sözünü kəsərək)*. Mən çar – Leydenli İoannam.

KNİPPERDOLİNK. Özünə bu dərəcədə bel bağlama, çar. Tanrı üçün kəsilmiş başı yerinə qaytarmaq heç çətin deyil.

ROTMANN. Özünüzü gözləyin, Tanrının bütöv görmək istədiyi bir şeyi ayırmağa cəhd eləməyin. Sən, Knipperdolink, Tanrı qarşısında hamımızın eyni olduğunu deyəndə düz söyləyirsən, çünki bizim hər birimiz Qiyamət günü onun qarşısında hesabat verəcəyik. Lakin Leydenli İoann bizim çarımızdır, odur ki, ilahi pərvərdigarın qarşısında duranda, hər bir təbəəsinin yaşadığı hər gün üçün hesabat verməli olacaq.

YAN VAN LEYDEN. Knipperdolink, daha belə sözlər demə, Tanrının işini bu cür işlərlə ağırlaşdırmaq istəmirəm.

KNİPPERDOLİNK. Sən Tanrının mənə əta etdiyi açıqlamalardan söz açmağı qadağan edə bilərsən, amma onların yerli-dibli olmaması sənin iradən daxilində deyil. Bunu bil, Yan van Leyden, biz bir yerdə öləcəyik.

YAN VAN LEYDEN. Harda? Nə vaxt?

KNİPPERDOLİNK. Mən bircə şey bilirəm ki, bunun harada və necə baş verməsindən asılı olmayaraq, biz yanaşı olacağıq.

YAN DUZENTSŞUER. Oh, mənim çarım, fikir ver, gör bizim Knipperdolink nə qədər hiyləgərdir. Sən ya onun indiki peyğəmbərliyinə inanmayaraq onu öldürə bilərsən, ya da onun düz dediyinə inanıb, onu qətlə yetirsən, həyatını itirməkdən qorxacaqsan.

YAN VAN LEYDEN *(nigaran fikirlərə qərq olaraq)*. Biz birlikdə qalacağıq. *(Başqa ahənglə və ucadan)* Öz şərəf nişanələrini mənim ayaqlarım altına atmış on iki İsrail nəslinin hakimləri əvəzinə şəhəri idarə etmək üçün özümə kömək olaraq Flandriyada qəbul olunduğu kimi dörd müşavir seçirəm.

Səni, Knipperdolink, çünki mənim ölüm saatım yetişəndə sənin necə öləcəyini görmək istəyirəm. Səni, Rotmann, çünki həmişə sözlərinə ehtiyacım olacaq. Səni, Yan Duzentsşuer, çünki xəstə yeri yandıraraq yaranın üstündən yara vurmaqla onun hər ikisini sağaldan məlhəm kimisən. (*Pauza*) Və səni, qabaqlar katolik ruhanisi olmuş Henrix Krextinq – ona görə ki, düşmənlərimizin düşüncə tərzini heç vaxt unutmayım. Ey Münster sakinləri, anabaptistlərin sarayı bu tərkibdədir və siz buna tabe olmağa borclusunuz.

ŞƏHƏRLİLƏRİN XORU. Yaşasın Leydenli İoann, Münster anabaptistlərinin çarı!

ROTMANN. Sevgili qardaşlarım, qisas dəmi gəldi. Peyğəmbər Daniilin dediyi üçbuynuz heyvanın vəhşiliklərinə çox uzun müddət müticəsinə dözmüşük. Bu heyvan papalıqdır, çünki onun rəmzi üçmərtəbəli tiaradır – Roma papasının tacı. Lakin Tanrı bizə vəd etdiyi David qismində Yan van Leydeni göndərib, Babildən, onun sakinlərindən intiqamımızı almağa həvəsləndirib. Odur ki sizin də silahlanmaq vaxtınızdır, sevgili qardaşlarım. Qoy bu dəm sizin qarınıza yalnız əzablar – Məsih apostollarının dinc silahı deyil, həm də Davidin ecazkar sapandı – qisas silahı gəlsin. Qoy biz bu silahların köməyilə Babil hakimiyyətini yıxaq və onun Tanrı əleyhinə olan bütün qanunlarını darmadağın edək. Zira ilahi pərvərdigar hələ zamanın əvvəllərində belə qərar verib və öz peyğəmbərlərinin diliylə bunu söyləyib. Qoy onun ruhunun qüdrəti sizin qəlblərinizi də doldursun.

Nidalar ucalır.
Təntənəli bir yürüş başlanır,
qabaqda Yan van Leyden və Divara,
onların dalınca dörd müşavir və çarın qalan arvadları
gedirlər. Rotmann da öz arvadlarını aparır.



Üçüncü səhnə

Meydanda Yan van Leyden və onun
müşavirləridir – Rotmann, Knipperdolink,
Duzentsşuer, Krextinq.

YAN VAN LEYDEN. Qardaşlarım, əlimizə xəbər yetişib ki, iki dəfə bizə məğlub olmuş yepiskop Valdek Münsterin mühasirəsini gücləndirmək qərarına gəlib, istəyir bizi aclıqla sınağa çəkərək təslim etdirsin. Yepiskop bununla onu etiraf edir ki, daha öz silahının gücünə beli bağlı deyil. Tanrı bizimlədir.

KNİPPERDOLİNK. Biz də Tanrıylayıq. Amma vəziyyətimiz günbəgün ağırlaşır, bu qələbələr isə bizə çoxlu insan bahasına başa gəlib. İndi bu qədər məhrumiyyət və əzablardan sonra aclıq təhlükəsiylə qarşı-qarşıyayıq, gərək harada yerləşmələrindən asılı olmayaraq qardaşlarımızın köməyinə müraciət edək. Əgər yepiskopun tərəfində zadəganlar çıxış edirlərsə, Tanrı xalqı da gərək Münsterin köməyinə qalxsın. Gücümüzü birləşdirsək, qələbə çalacağıq, bölsək – əzabkeş çələngi başımıza taxılacaq.

KREXTİNQ. Knipperdolink düz deyir, bizə təcili olaraq kömək gərəkdir.

YAN VAN LEYDEN. Mühasirə halqası birdəfəlik sıxılmamışdan, dörd bir tərəfə apostollarımı göndərəcəyəm. Qoy onlar Yeni Siondan xəbər aparsınlar, qoy Almaniya, Hollandiya, Belçika və İsveçrədəki həmməsləklərimizə müraciət etsinlər, onları bizimlə birləşməyə çağırsınlar. Sən, Yan Duzentsşuer, onlarla gedəcəksən.

YAN DUZENTSŞUER. Topal ayağım buna mane olmaz.

YAN VAN LEYDEN. Bu cavabı eşitdiniz də. Tanrının köməyi olmasa, bizim Münster topal adama bənzəyərdi, lakin ilahinin yardımıyla biz yer üzündə şöhrət yürüşümüzü ikiayaqlı edəcəyik və torpaq addımlarımızın səsindən titrəyəcək. (*Pauza*) Münster xalqı Səmavi Atamıza sədaqətini isbat

edəcək. Qoy gözləriniz önündə açılanlar sizi təəccübləndirməsin, zira dünyada Münsterin özünün və onun sakinlərinin inancının mövcudluğundan təəccüblü bir şey ola bilməz.

ROTMANN. Biz nə etməliyik?

YAN VAN LEYDEN. Heç bir şey etmək lazım deyil. Gözləyin.

Yan van Leyden əl çalır. Belə başa düşmək olar ki, o, kiməsə işarə verir. Çünki meydanda bir şeypurçu peyda olur. Yan van Leydenin siqnalı ilə o, şeypur çalır. Hər tərəfdən meydana şəhər əhalisi toplaşır. Həyəcanlı intizar atmosferi hökm sürür.

ŞƏHƏRLİLƏRİN XORU. Nə baş verib? Niyə Qiyamət günüymüş kimi, şeypur səsası hər yeri başına götürüb? Söylə bizə, hökmdar, nədən bizi bu qədər israrla səsləyirdin ki, bütün işlərimizi, hətta qala divarları üstündəki mövqelərimizi də buraxaraq bura gələsi olduq.

YAN VAN LEYDEN. Tanrıya bir qədər az inansaydınız və mənə etibarınız indikindən zəif olsaydı, belə tez gəlməzdiniz. Qorxmayın – Münsterin divarlarını Tanrı özü qoruyacaq. Sizə isə xəbər verirəm ki, tezliklə köməyimizə qardaşlarımızın çoxsaylı dəstələri yetişəcək.

ŞƏHƏRLİLƏRİN XORU. Ura! Ura!

KNİPPERDOLİNK. Amma bu, həqiqət deyil axı.

YAN DUZENTSŞUER. Yadında saxla ki, o, bizə sakitcə baxmaq tapşırmışdı, müdaxilə etmək yox. Görək bu yeni ayaqlar bizləri hara aparacaq.

ROTMANN *(ilhamlanaraq)*. Yan van Leyden – Davidin taxtındadır, David isə bütün düşmənlərimizi rəzil edəcək. Onda sülhməramlı Solomon, əbədiyyət hökmdarı və Tanrının seçdiyi Məsih Atasının taxtına çıxacaq və Onun səltənətinin sonu olmayacaq.

YAN VAN LEYDEN. Yepiskop Valdekin və onun müttəfiqlərinin qoşunları şəhəri mühasirəyə alaraq muşketlərinin və toplarının lüləsini bizə sarı tuşlayıblar. Lakin Tanrı bizə əmr



edir ki, qala divarlarından çıxıb qardaşlarımızı açıq çöllükdə qarşılayaq. Biz elə də edəcəyik və yeganə silahımız Münsterin açıq bayraqları olacaq. Zira Tanrı – həm gücümüz, həm qalxanımızdır və bütün şər işlərdən nicat verəcək hamımıza.

KNİPPERDOLİNK. Mən imkan vermərəm ki, camaat şəhər darvazalarından kənara çıxsın. Yəni artıq unutmusan, Yan van Leyden, Yan Mattisin, Hille Feykenin başına gələnlər nə tez yaddan çıxdı? Onlar çölə ayaq basan kimi qətlə yetirildilər. Görəsən, bu çarın ayaqları altına nə qədər meyit tökülməlidir hələ?

KREXTİNQ. Səsini kəs, bəlkə, bunlar yalnız farsdır.

YAN VAN LEYDEN. Mənimlə bir yerdə qardaşlarımızın pişvazına kim getmək istəyir?

Xalq çaşqınlıq içindədir. Bir neçə əl qətiyyətsizliklə qalxır, onların ardınca da digərləri. Bu hissiyyat getdikcə güclənərək meydanda duranların hamısını çulğayır. Hamı əlini qaldırır.

Sizin əlləriniz göyə qalxanda Tanrıya daha yaxın olursunuz. Əsgərlər kimi sıraya düzlənin, bayraqları qaldırın. Qoy sizlərdən bəziləri irəlidə getsin və şəhər darvazalarını açsın. Tanrı artıq düşmən toplarının və muşketlərinin lüləsini kündələyib, bircə qılınc da qınından çıxmayacaq, zira Tanrı mələklərinin əlləri yepiskopun əsgərləninin qolundan yapışıb artıq. Ey İsrail Tanrısı, Sənin gücün qədərsiz, mərhəmətin nəhayətsizdir.

Camaat xüsusi bir həvəs göstərmədən uzun yürüş səfinə düzülür. Yan van leyden qabağa çıxaraq hərəkət siqnalı verir. Dəstə bir neçə addım irəliləyir.

Dayanın! Hara gedirsiniz?

ŞƏHƏRLİLƏRİN XORU. Hara tapşırmısansa, ora – qardaşlarımızın pişvazına.

YAN VAN LEYDEN. Ulu Tanrım, Sən özün gördün ki, Sənin xalqın elə indicə nələri göstərdi – özünün sədaqətini necə nümayiş etdirdi. Zira mənim dilimdən söylədiyin bir neçə söz bəs etdi ki, Münster sakinləri şəhər darvazalarından çıxmağın nə dərəcədə təhlükəli olduğunu nəzərə almadan, ruhi yüksəliş

içində, yalnız Sənin gücünə arxalanaraq, özlərini Sənin mərhəmətinə tapşıraraq, əldə heç bir silah olmadan getsinlər, elə bir yerə ki, yalnız təpədən-dırnağa silahlanmış insan özündə sağ qalmaq ümidi oyada bilərdi. (*Xalqa müraciətlə*) Dağılışın, qardaşlarımızı qarşılamağa gərək yoxdur, çünki elə bu dəqiqə Göylər Tanrısının özü qarşıladı və qəbul etdi sizi. Lakin möhkəm yadda saxlayın və heç vaxt unutmayın ki, Tanrıya sədaqət – elə dünyəvi atanıza – çarınıza sədaqətdir.

Camaat əl çalır.

KNEXTER (*Knipperdolinkə*). Mən axı sənə dedim – bütün bunlar komediyadır.

KNİPPERDOLİNK. Möminlərin inancıyla belə oynamaq olmaz, onların özünə hörmət etməsən də, heç olmasa, bir mərhəmətin olmalıdır.

KREXTİNQ. O çardır və Tanrının adından danışır.

KNİPPERDOLİNK. Əgər Tanrı özünün bu qədər əzəmətli gücüylə bizim Ona inamımıza hörmət etməlidirsə, onun adından danışanlar bu hörməti daha artıq göstərməyə borcludurlar.

Rotmann və Yan Duzentsşuer yaxına gəlirlər.

ROTMANN. Mən sənin dediklərini eşitdim, Knipperdolink. Sənin hakimiyyətə tabe olmadığın və ona hörmət etmədiyin haqda nəticəyə gəlməliyəmmi?

KNİPPERDOLİNK. Sənin hasil etdiyin nəticə yanlışdır. Mən Tanrı qızının vicdan hakimiyyətini qəbul edir və ona sitayiş edirəm.

ROTMANN. Tanrının yalnız bir oğlu var.

KNİPPERDOLİNK. Yer üzündə bütün insanlar – Tanrı övladları, vicdan isə – onların bacısıdır. Gec-tez ilahi onu bizə də göndərəcək.

YAN DUZENTSŞUER. Gəlin bu dini yenilikçiliklə başqa vaxt məşğul olaq. Yan van Leyden işarə verir, danışmaq istəyir, deyəsən. Onu dinləyək.



Rotmann, Knipperdolink və Duzentsşuer arasındakı qısa dialoqun davamı kimi, Yan van Leyden şəhərlilərin səflərinin qarşısından keçir, onlar isə hökmdar yaxınlaşan kimi diz üstə çökərək başlarını aşağı salırlar, onu salamlayır, alqışlar yağdırırlar.

YAN VAN LEYDEN. Herold, şeypur!

Şeypur sədaları altında səhnəyə qadınlar və kişilər çıxır, özləriylə böyük masalar gətirirlər, başqaları isə masaların üstünə yeməklər düzürlər. Xalq ziyafət hazırlığını görəndə alqışlar yağdırır, amma icazə verilmədən onlara yaxınlaşmır.

Həmvətənlərim və qardaşlarım! Yepiskop Valdek və onun müttəfiqləri olan zadəganlar silah gücünə qalib gəlməyin qeyri-mümkünlüyünü görərək, bizi indi aclıqla sınağa çəkmək istəyirlər. Lakin Tanrı şəhərimizdəki yemək ehtiyatının sayını min dəfə artırıb, siz onları bu masaların üstündə görürsünüz, zira biz Tanrının adıyla yeyəcəyik bu təamları. Yaxınlaş, Tanrı xalqı, bu ruhi qidadan dad və bu Sina dağında Məsihin zühuru münasibətilə əsl ziyafət olacaq, İsanın cisminin bayramı.

Təntənəli-mistik bir həyəcan. Kişilər və qadınlar masaların arxasına keçirlər. Yan van Leyden və Divara yeməkləri boşqablara çəkirlər. Xalq dini nəğmələr oxuyur.

ŞƏHƏRLİLƏRİN XORU. Pərvərdigarın tavanı altda yaşayan – Hakimi-mütləqin kölgəsi altında dincəlir. Tanrıya deyir: "Mənim pənahgahım və qibləgahım, Tanrım mənim, sənə bel bağlayıram"! O, səni ovçunun torundan, məhvedici yaralardan xilas edəcək. Özünün lələklərıylə üzərinə kölgə salacaq və Onun qanadlarının altında müdafiə tapacaqsan; qalxan və çəpər – Onun həqiqətidir bu. Gecənin dəhşətindən qorxmayacaqsan, gündüz kamandan qopan ox təhlükə yaratmayacaq sənə. Xəstəliyin zülmətində ayaq açıb yeriyən, günortanı qara edən yara-xoradan qorxun yoxdur daha. Sənin qarşında min və on min azar-bezar tökülәcək, amma

sənə yaxın durmayacaq. Yalnız öz gözlərinlə baxaraq, kafirlərdən alınan intiqamı görəcəksən. Zira Tanrı sənin pənahgahındır; ilahini özünə sığınacaq seçmisən. Dərd-bəladan uzaq qalacaqsan, xəstəliklər evinizə yaxın gəlməyəcək. Zira O, öz mələklərinə səni tapşırıb – səni hər dərddən qorumağı. Səni əlləri üstündə aparacaqlar, ayaqların daşlara dəyməyəcək. Ot-ələfin üstünə ayaq basanda şiri, əjdahanı əzəcəksən. "Məni sevdiyinə görə ona nicat verib müdafiə edəcəyəm; çünki Mənim adımı tanıyır. Məni çağırsa, onu eşidəcəyəm; kədərində onunlayam; nicat verib, şöhrətləndirəcəyəm; günlərin uzunluğuyla sevindirəcəyəm və xilaskarı olacağam".

Ziyafət başa çatır və dini mərasimə keçir.
Yan van Leyden, Divara və müşavirlər möminlər
üzərində çörək və çaxırla mərasim icra edirlər.

Mənim qəlbim hazırdır, ilahi; şöhrətindən nəğmələr oxuyaraq Səni öyəcəyəm. Ucal, ey mənim tərənnümlərim, sözlərim! Mən erkən qalxıram. Səni öyəcəyəm, Tanrım, xalqlar arasında; Səni vəsf edəcəyəm, tayfalar içində. Zira mərhəmətin göylərin özündən də ucadır, Tanrım; qoy bütün yer üzündə sənin şöhrətin bərqərar olsun. Qoy sənin sevgililərin nicat tapsınlar; Öz əlinlə qoru onları və məni eşit.

Dördüncü səhnə

Ötən səhnənin sevinc dolu finalı ilə indiki
ruh düşkünlüyü və zülmət kəskin ziddiyyət təşkil edir.
Azuqənin qıtlığı artıq özünün dəhşətli bəhrələrini verir.
Camaat meydanda toplanaraq dini tərənnümlər oxuyurlar.

ŞƏHƏRLİLƏRİN XORU. Tanrım, mənim duamı eşit və səsim Sənə yetişsin. Öz üzünü məndən gizlətmə, kədərli anımda qulağını mənə sarı tut; Səni çağırdığım an tez eşit məni. Zira ömrümün günləri duman kimi itdi, sümüklərim kösöv kimi alışır. Qəlbimdən vurulmuşam, qupquru quruyub o, inil-

tilərimin sədasından sümüklərim ətimə yapışıb. Səhrada balıqudana, xarabalıqda bayquşa bənzəyirəm – damın üstündə oturub heç vaxt yatmayan quşa. Düşmənlərim hər gün əzir məni, bədxahlarım hər gün danışır dalımca. Mən çörək əvəzinə kül yeyirəm, içəcəyim isə göz yaşlarımdır ancaq.

Yan van Leyden gəlir, yanında Divara və qalan
arvadları. Onların dalınca Yan Duzentsşuerdən başqa bütün
müşavirləri də görünür, o artıq digər apostollarla
bir yerdə Münsteri tərk edib.
Camaat diz üstə çökür.

YAN VAN LEYDEN. Bu nədir, qardaşlarım, sədaqətli anabaptistlər? Niyə sizin ağzınızdan belə kədərli sözlər eşidirəm? Məruz qaldığımız çətinliklərin, aclığın mənası qətiyyən o deyil ki, guya, Tanrı bizdən üz döndərib. Mən sizin çarınızam və deyirəm ki, Tanrı elə qabaqkı kimi bizimlədir, bizi tərk etməyib, necə ki əzabkeç İovu kədər anında tərk etməmişdi. İndi şikayətlənmək dəmi deyil, əksinə şadyanalıq, sevinc çağıdır, zira nicat günümüz yaxındadır, onunla bir yerdə isə kafirlərin cəzası da yetişəcək.

ŞƏHƏRLİLƏRİN XORU. Tərəddüd etmə, çarım, səbrim bitməyib, məni irəli aparan imanım zəifləməyib, amma cismim əldən düşüb, quruyaraq acıb, ruhum az qalır vücudumdan çıxa.

YAN VAN LEYDEN. Ruhun yüksəlsin, ey Münster xalqı! Tanrı eşqinə yeni himn oxuyaq, Ona alqış yağdıraq! İsrail öz xaliqinin gözləri önündə sevinsin. Sionun övladları öz hakimi-mütləqlərinin qarşısında təntənə etsinlər. Qoy onu rəqslərlə, musiqi, mahnı sədalarıyla şərəfyab etsinlər. Zira Tanrı öz xalqını, həqiqətən, sevir və mütilərə qələbə bağışlayır. Alliluyya!

ŞƏHƏRLİLƏRİN XORU. Alliluyya!

YAN VAN LEYDEN. Tez olun, tez, hamı rəqsə, əl çalıb ayaqlarınızı yerə döyəcləyin, kimsə kənarda qalmasın! Səsinizi, səsinizi də çıxarın, şən bir mahnı başlayın, qoy düşmən

eşitsin, qoy düşmən fikirləşməsin ki, hamımız acından ölmüşük! Knipperdolink, sən bir nümunə göstər görək! Müşavir olmaq azdır, gərək rəqqas da ola bilәsən! Oyna, Davidin taxtı önündə oyna, öz çarının qarşısında oyna.

KNİPPERDOLİNK. Düşmənlərin qarşısında duruş gətirmək imkanı verən gücü rəqsdə tükəndirməyə dəyməz.

YAN VAN LEYDEN. Sənə deyirəm, Knipperdolink, oyna! Mən daha təkrar etməyəcəyəm.

Knipperdolink tərəddüd edir, amma hər halda, tabe olur, rəqsə başlayır. Yavaş-yavaş ondan nümunə götürən xalq da rəqsə girişir. Musiqi səslənir. Knipperdolink dayanır, başqaları isə rəqslərini davam etdirirlər.

YAN VAN LEYDEN. Yoruldun? Belə tez?

KNİPPERDOLİNK. Mən rəqsimi davam etdirə bilməzdim, çünki qəflətən gözlərimin qarşısına əmr verib dünyanın dörd bir tərəfinə yolladığın apostolların gəldi. İyirmi dörd nəfər idi onlar – Münsteri tərk edənlər və onların hamısı – satqınlıqda ittiham etməli olduğumuz bir nəfərdən savayı hamısı dəhşət içində həlak olublar. Sənin başına tac qoymuş Yan Duzentsşuer də məhv olub, amma sən onun ölüm xəbərini eşidəndə gözlərindən bircə damla yaş belə çıxmadı və mən sənin üzündə ruhi iztirab və kədərin kölgəsini də görə bilmədim.

YAN VAN LEYDEN. Sən harada görmüsən ki, cəllad ağlasın, ey Knipperdolink? Çarlar da elə cəllad kimidirlər, onlar da heç vaxt ağlamırlar. Bilirsən niyə? Çünki onlar öz hallarına ağlaya bilməzlər.

KNİPPERDOLİNK. Bəlkə də, çarlara da, cəlladlara da ağlamaq nəsib olur – ölüm saatlarında.

YAN VAN LEYDEN. Bunu bilmirəm. Nə çarların, nə də ki, cəlladların son nəfəsi ağzından çıxanda, yanlarında olmamışam. Knipperdolink, bilirsənmi, mən bu saat nə barədə fikirləşirəm? Səni də həmin o apostollarla bir yerdə yollamaq lazım idi.

KNİPPERDOLİNK. Əgər elə olsaydı, mən artıq ölümümün qucağındaydım.



YAN VAN LEYDEN. Ya da xəyanət eləyib həyatını satın alardın.

KNİPPERDOLİNK. Narahat olma, Yan van Leyden, mən elə insanlar sırasına aidəm ki, nə ağlaya, nə də ki xəyanət eləyə bilmirəm. Yaxşısı budur, bir çar kimi öz şəxsiyyətinin qeydinə qal və çalış ki, daşıdığın ada həmişə layiq olasan və sənin yolunda canından keçənləri hesabla.

Rəqs yavaş-yavaş lap ölgünləşir. Rəqs edənlər artıq aşkar əldən düşüblər. Səhnədə yenə kədərli atmosfer bərqərar olur – qarşıdakı faciənin havası duyulur.

YAN VAN LEYDEN. Çar ölənləri yox, qələbələri sayır. (*Xalqa müraciət edərək*) Ey, niyə ayaq saxladınız? Əgər mən rəqs etmək əmri vermişəmsə, rəqs etməlisiniz, çünki qüssə və kədər Tanrının gözündə mərhəmətə layiq deyil. Rəqs edin, hamı rəqs etsin!

Şəhərlilər ayaqlarını zorla tərpədirlər, büdrəyib yıxılaraq qalxır, rəqslərini davam etdirirlər. Ayaq üstə qalanlar yıxılanları qaldırmaq istəyir, özləri də yıxılırlar.

KNİPPERDOLİNK. Tanrı belə zordan xoşlana bilməz.

ROTMANN. Tanrı günahlara görə cəza təyin edir və günahsız cəzanı rədd edir.

YAN VAN LEYDEN. Siz haradan bilirsiniz Ona nə lazım olduğunu, Onun nəyi qəbul edəcəyini? Burada Onun adından qərarı mən verirəm və mənim qərarım budur. Görün bu rəqsdə qocalar, qadınlar və uşaqlar necə ölüvay görünürlər, onların şəhərin müdafiəsi üçün də heç bir faydaları yoxdur, çünki bizə qüvvətli əllər və möhkəm çiyinlər lazımdır, artıq ağızlar yox, onlar heç yedikləri quru çörəyə də dəymirlər, odur ki qərara alıram...

KREXTİNQ. Mən bunu təsəvvürümə gətirəndə belə, dəhşətə qərq oluram.

YAN VAN LEYDEN. Biləndə lap yaman günə düşəcəksən, onlardan isə heç danışmağa dəyməz.

KNİPPERDOLİNK və ROTMANN. Tez söylə.

YAN VAN LEYDEN. Bunu Tanrı istəyir, mən isə yalnız Onun iradəsini açıqlayıram. Şəhər xilas olunmalıdır, onun hər bir sakininin dəyərsiz həyatı yox. Qocalar artıq heç nəyə yarayan deyillər, kara gələn uşaqlar isə Münsterin naminə xidmət edə bilərdilər, əgər böyüməyə vaxtları olsaydı. Kişilərdən heç birini seçməyən qadınlar isə, elə bil, yerli-dibli yoxdurlar. Odur ki qoy onların hamısı – uşaqlar, qadınlar, qocalar – şəhəri tərk etsinlər. Tanrı onların nicat tapmasının qayğısına özü qalacaq. Əgər Tanrı onlardan imtina etsə, əgər öz müqəddəs örtüyüylə qorumasa onları – qoy ölsünlər, öz canlarından Münster naminə keçsinlər.

Dəhşət və etiraz çığırtıları. Qurban veriləcəyi nəzərdə tutulmuş insanlar bir-birini qucaqlayıb, qoyun kimi sürü şəklində sıxlaşırlar. Yan van Leydenin arvadları onu əhatəyə alırlar, sanki, verdiyi qərarın dəyişdirilməsinə nail olmaq istəyirlər.

KNİPPERDOLİNK. İkiüzlülük etmək gərək deyil, Yan van Leyden. Sən gözəl bilirsən ki, Tanrıya son ümidlərini əlindən aldığın bu zavallılar şəhər darvazalarından çıxan kimi katoliklər onları didim-didim edəcəklər.

YAN VAN LEYDEN. Nə olsun ki? Tanrı bizim hamımızı özünün seçilmiz xalqı kimi bəyənib, amma heç də hamımız Onunla yanaşı oturmaq şərəfinə nail ola bilməyəcəyik.

ELZA VANDŞERER. Bəs sən özün harada oturacaqsan, Yan van Leyden?

Qadın qorxmadan onun düz qarşısında durur. Digər arvadlar onu bir kənara çəkməyə, qorumağa can atırlar.

YAN VAN LEYDEN. Bunu mənə deyirsən?

ELZA VANDŞERER. Burada başqa Yan van Leyden yoxdur ki, deməli, mən bu sualı başqasına verə də bilmərəm. Zira tamamilə əminəm ki, Tanrının hüzurunda heç vaxt oturmayacaq bir nəfər varsa, o da sənsən, Yan van Leyden.



YAN VAN LEYDEN. Mən səni də bu gərəksiz adamlarla bir yerdə şəhər darvazalarından çıxarmaq meylimlə mübarizədəyəm indi.

ELZA VANDŞERER. Sən bu meylinə qalib gəlməli olmayacaqsan, çünki mən öz istəyimlə qoşuluram onlara.

YAN VAN LEYDEN. Sən yalnız mənim dediklərimi eləyəcəksən, çünki arvadımsan, onların arasında heç bir ehtirasın və arzun olmadığından, sonuncu yerdə dursan belə, hər halda, arvadımsan.

ELZA VANDŞERER. Mənim arzum da var, iradəm də, ən azından sənə qəddar adam olduğunu söyləmək üçün, əgər səni Münster taxtına mənim fikirlərimə rəğmən hakimiyyət düşkünü olmağın deyil, Tanrı çıxarıbsa da, bunu yalnız Münsterin məhvi üçün, hamımızın məhvi üçün edib. Əgər Tanrı bizim nicatımızı istəsəydi, səni heç vaxt bizim diyarlara gətirib çıxarmazdı. Lakin bəlkə, səni iblis yollayıb bura? Axı bir dəfə özün dedin ki, məni təhqir etmək, Tanrını təhqir etmək kimidir. İndi isə mən sənə cavabını verim, Onu təhqir etmək günahsızlığı təhqir etməklə mümkündür. Çünki O özü də günahı olmadan əzablara düçar edilib.

YAN VAN LEYDEN. Söylə, Elza Vandşerer, bilirsənmi, niyə mən səni bu adamlarla bir yerdə şəhərdən çıxarmıram?

ELZA VANDŞERER. Bunu sən özün bilirsən, özün də indi deyəcəksən mənə.

YAN VAN LEYDEN. Çünki səni indicə öz əllərimlə öldürəcəyəm.

Ümumi çaşqınlıq. Divara irəli atılır. Elza Vandşereri müdafiə etmək istəyir.

DİVARA. Mən sənin birinci arvadınam, dinlə məni.

YAN VAN LEYDEN. Siz hamınız eynisiniz, istər birincisi olsun, istər ikincisi, ya da lap sonuncusu.

DİVARA. Bəli, biz hamımız eyniyik, çünki – bacıyıq, baxmayaraq ki bir-birimizi rəqib sayırdıq. Bizim hər birimizin

qoynunda axtarıb tapdığın şəhvani ləzzət öz içində kilidli qalırdı, biz isə həmin o hissi yaşayanda onu yarı bölürdük. Sən, Yan van Leyden, bizim kimliyimizi bilmirsən.

YAN VAN LEYDEN. Siz mənim arvadlarımsınız və bunu bilmək mənə bəs eləyir. Çəkil kənara.

DİVARA. Qaç, Elza, qaç.

ELZA VANDŞERER. Hələ kimsə ölümdən qaça bilməyib.

YAN VAN LEYDEN. Tanrı səni ağıllandırdı, qadın. Düz deyirsən. Onda öl.

Qəzəb içində onu xəncərlə vurur. Elza Vandşerer yıxılır və digər qadınlar onu tuturlar. Kütlənin arasında təhdidedici səs-küy başlayır və getdikcə ucalır, Yan van Leydenin işarəsiylə əsgərlər qovulanları mühasirəyə alırlar və sıxışdırıb meydandan çıxarırlar. İniltilər, çığırtılar eşidilir və yavaş-yavaş uzaqlarda kəsilir. Uzun pauza. Nəhayət, səhnə arxasından dəhşətli səs-küy eşidilir – bu, şəhər divarlarından o üzdə katoliklərdir, qadınları, qocaları, uşaqları qırırlar.

DİVARA. Tanrı sağ əlində bir cam tutur, solda digərini. Birincisində düşmənlərimizin axıtdığı qanımızı yığır. İkinci camda isə başqa qandır – özümüzün tökdüyümüz qan. Və sol cam indi ağzına kimi dolaraq yerə tökülür. Artıq az qalıb, gün gələcək, sağdakı cam bizim hələ ki, damarlarımızda axan qanı qəbul edəcək. Tanrım, bizi niyə xəlq etmisən? Tanrım, bizi niyə atmısan?

Beşinci səhnə

Mühasirə Münster əhalisinin məhrumiyyətlərini son həddə çatdırdı, lakin buna və Yan van Leydenin azğınlığına baxmayaraq, xalq dini inanclarına sadiqdir. Meydanda toplaşmış əhali Tanrıya dua edir.

XOR. Tanrım, məni eşit, çünki mən yoxsulam, fağıram. Ruhumu hifz elə, çünki Sənin qarşında boyun əyirəm. Nicat ver mənə, Tanrım, sənə ümid edən quluna. Kədərli günümdə



Səni səsləyirəm, çünki Sən eşidəcəksən məni. İlahilər arasında Sənin kimisi yoxdur, heç Sənin təki işləri olan da yoxdur. Tanrım, təşəxxüslü insanlar sıxır məni, qiyamçılar ruhumu əzirlər; onlar Sənin qarşında duracaqlarını təsəvvür etmirlər. Lakin Sən, ilahi pərvərdigara, səbri və mərhəmətinin həddi olmayan, həqiqi Tanrım, mənə nəzər sal, bağışla; müti quluna dözüm ver. Sükut etmə, susma və sakit olma, ilahi. Çünki Sənin düşmənlərin səs-küy salır, Səni görməyə gözü olmayanlar başını qaldırır. Mənim Tanrım! Qoy onlar tufanda toz dənəsi kimi, küləkdə saman çöpü kimi olsunlar. Alov meşəni yandıran kimi, od dağları qarsan kimi onları öz fırtınanla qov və çaşqınlığa düçar et onları.

İnsanlar duanın üç sonuncu misrasını təkrarlaya-təkrarlaya dağılışırlar. Səhnədə iki nəfər qalır – Hans der Langenştraten və Henrix Qresbek.

LANGENŞTRATEN. Tanrının mərhəməti bizdən üz döndərib, Onun nicatı bizim nəsibimiz deyil, səxavətindən başqaları bəhrələnir.

QRESBEK. Münsterdə artıq azuqə qalmayıb, küçələrdə nə it taparsan, nə pişik – hamısını tutub yeyiblər. Hətta siçovullar belə yuvalarında gizlənməli olurlar, çünki aclıqdan camaat siçan da yeyərdi.

LANGENŞTRATEN. Son nəticədə, belə çıxır ki, Tanrı katolik imiş, biz heç bilmirdik.

QRESBEK. Çox ola bilər ki,Tanrı nə katolikdir, nə protestant, bu, onun ancaq adı da ola bilər.

LANGENŞTRATEN. Bəs onda biz burada nə edirik?

QRESBEK. "Burada", yəni harada? Münsterdə?

LANGENŞRATEN. Yox, bu dünyada.

QRESBEK. Nə bilim, yəqin, heç nə. Bəlkə də, hər şey. "Heç nə" "hər şeydən" ibarətdir, amma "hər şey" "heç nədən" çox az fərqlənir.

LANGENŞTRATEN. Əgər belədirsə, bizim bütün yaxşı əməllərimiz elə pis əməllərə dəyər, qiymətləri də eynidir.

QRESBEK. Hə, hamısının dəyəri eynidir. Heç qiymətləri yoxdur.

LANGENŞTRATEN. Biz əgər düşmənə Münsterin qapılarını açsaydıq, xəyanət etmiş olardıq.

QRESBEK. Tanrının gözündə xəyanət nədir?

LANGENŞTRATEN. Sən demədin ki, Tanrı, bəlkə, onun yalnız daşıdığı addır. Əgər o addırsa, ya da addan da böyükdürsə, onda xəyanətin Onun gözündə heç bir əhəmiyyəti yoxdur, çünki bu, insanın əməllərinə aiddir.

QRESBEK. Bunun əhəmiyyəti olardı, əgər biz hər dəfə xəyanət edəndə Tanrının kimin tərəfində olduğunu bilsəydik. Çünki ilahinin istədiyi işi tutan insan xəyanətkar ola bilməz.

LANGENŞTRATEN. Tanrı – Münsterə qarşıdır.

QRESBEK. Deməli, Münsterə xəyanət etmək – Tanrıya xəyanət deyil.

LANGENŞTRATEN. Əgər O, Münsterin tərəfində olsaydı, onda başqa məsələ.

QRESBEK. Amma Tanrı Münsterin tərəfində deyil.

LANGENŞTRATEN. Yox.

QRESBEK. Bəs onda nə edək?

LANGENŞTRATEN. Münsterə xəyanət edək ki, Tanrıya xəyanət etmiş olmayaq.

QRESBEK. Bəlkə, Tanrı onun, həqiqətən, yalnız adıdır?

LANGENŞTRATEN. Bunu nə vaxtsa insanlar öyrənəcək, amma biz yox.

QRESBEK. İnsan istənilən əməlini bilmədən eləyir və insanın hər əməli zülmət doğurur. Tanrıdan doğan nur bəs eləmir.

LANGENŞTRATEN. Onda deməli, insandan başqa iblis yoxdur. Cəhənnəm isə buradadır, yer üzündə, başqa heç yerdə ola bilməz.

QRESBEK. Hə, nədir, xəyanət edək?

LANGENŞTRATEN. Edək.



Gedirlər. Pauza.
Səhnəni şəhərlilərdən ibarət kütlə doldurur,
onlar dizləri üstə düşüb dini nəğmələrlə
Yan van Leydenlə ayanlarının gəlişini
salamlayırlar.

XOR. Tanrı mənim pənahım və sığınacağımdır, kimdən qorxmalıyam?

YAN VAN LEYDEN. Mən sizi sevinc içində dinləyirəm, zira Göylər Atasına dualar edəndə, siz hökmdara ünvanlamalı olduğunuz eyni sözləri deyirsiniz. Zira, həqiqətən də, bu dünyada mən həm sizin pənahınız, həm sığınacağınız, həm də qalxanınızam.

Qəflətən səhnəyə Valdek ordusunun əsgərləri soxulurlar. Qəfil yaxalanmış Münster əhalisi müqavimət göstərə bilmir. Kişilər və qadınlar həlak olurlar. Yalnız çox az adam canını qurtarıb qaça bilir. Ümumi çaşqınlıq. Əsgərlər Yan van Leydeni, Knipperdolinki, Berndt Krextinqi, Divarını və çarın bir neçə başqa arvadını mühasirəyə alırlar. Toqquşmada Rotmann öldürülür. Yepiskop Valdek özünün müttəfiqləri – alman knyazlarıyla daxil olur.

VALDEK. Tanrıya şükür, O, qələbə çaldı. Biz küfrün hidrasını məhv etdik və indi onu bütün əməllərinə görə cavab verməyə vadar edəcəyik. Əbəs yerə Tanrıdan nicat diləyəcəksiniz, lənətə gəlmişlər, çünki O, sizin məhvinizi arzulayır. Mən isə yalnız alətiyəm Onun, qisas alan qoluyam. Gözlərinizdən sel kimi axacaq yaş mömin təbərzinini başınızdan bir qarış da yayındıra bilməz. Heç bir yalvarış sizi alaq otu kimi biçəcək orağı yolundan azdıra bilməyəcək, sizi alaq otu kimi biçib zibilliyə atacağıq. Əgər siz yenə də Tanrının mərhəmətinə ümidlisinizsə, o dünyada bağışlanmaq istəyirsinizsə, indi burada, müqəddəs Anna məbədimiz Roma Apostol Katolik Kilsəsinin yepiskopu kimi mənim qarşımda inancınızdan imtina edin. İmtina edin!

Sükut. Valdek əsirlərin qarşısında irəli-geri gəzir. Onu kapitan müşayiət edir. Bir qrup qadının qarşısında dururlar.

VALDEK. Bunlar kimdir belə?

KAPİTAN. Yan van Leydenin arvadlarıdır.

VALDEK. Bir çarın gör neçə çariçası var?

KAPİTAN. Çariça onların yalnız birinə deyirdilər. *(Divaraya işarə edir.)* Buna.

VALDEK. Sənin adın nədir?

DİVARA. Sən qadının adını bilmək istəyirsən, yoxsa çariçanın?

VALDEK. Sənin çariça həşəmətini tanımadığımdan, qadın olanda hansı adı daşıyırdınsa, onu de.

DİVARA. Gertruda fon Utrext.

VALDEK. Yaxşı, biz sənin lə söhbətimizi bir az sonra davam etdirərik. *(Qalan qadınlara müraciətlə)* O ki qaldı sizə, ey yalançı çarın kənizləri, sizə nifrətim o qədər hədsizdir ki, həyatınıza toxunmayacağam. Peşmançılığınızı bildirin və rədd olun. Mənim əsgərlərim qadın bədəni üçün darıxıblar, fahişəliyinizi davam etdirə bilərsiniz.

ARVADLARIN XORU. Biz inancımızdan imtina etməyəcəyik. Bizə fahişə demə, çünki dünyada sənin qulluq etdiyin Roma küriyası kimi ikinci pozğun olmayıb.

VALDEK. Onları öldürün.

Əsgərlər qadınların üstünə atılıb onları qətlə yetirirlər.

Rotmann haradadır?

KAPİTAN *(yerə işarə eləyir)*. Orada.

VALDEK. Öldürülüb?

KAPİTAN. Bəli.

VALDEK. Bəxtəvər başına – asan ölüb. İblis onu cəzadan qorudu. *(Berndt Krextinqə müraciətlə)* Sən kimsən? Henrix Krextinqsən? Bu yalançının müşaviri?



BERNDT KREXTİNQ. Henrix mənim qardaşımdır. Mənim adım Berndtdir.

KAPİTAN. Henrix ölənlərin içində yoxdur. Görünür, o, şəhərdən qaçmağa müvəffəq olub.

VALDEK. Eybi yox, onun yerinə bunu edam edərik. İmtina edirsən məzhəbindən?

BERNDT KREXTİNQ. Yox.

Yuxarıdan dəmir qəfəs enir. Əsgərlər Berndt Krextinqi onun içinə itələyirlər.

VALDEK *(Knipperdolinkə müraciətlə)*. Yadındadır, sənə deyirdim ki, gün gələcək, mənə etdiyin təhqirlərin müqabilində üçqat cavab verəcəksən? İndi həmin o gün yetişib və səni dəmir qəfəs gözləyir – indicə Krextinqi saldığımız qəfəs kimi. Ölümqabağı isə işgəncədən dadacaqsan. İmtina edirsən?

KNİPPERDOLİNK. Yox.

Daha bir qəfəs enir, Knipperdolinki onun içinə salırlar.

VALDEK. Bəs sən, Yan van Leyden, ey çarlığı olmayan çar, eşidirsən, ölülər sənin şəninə necə alqışlar yağdırır? Tezliklə, çox tezliklə sən cəhənnəmə təşrif aparacaqsan və eşidəcəksən ki, əcinnələr səni görəndə necə sevinirlər. İmtina edirsən?

YAN VAN LEYDEN. Səhvlərimi etiraf edirəm.

VALDEK. Mən səndən soruşmuram ki, səhvlərini etiraf edirsənmi. Mən bilmək istəyirəm ki, sən küfrdən imtina edirsənmi?

YAN VAN LEYDEN. Səhvlərimdən imtina edirəm, messanın müqəddəs mərasim olduğunu etiraf və təsdiq edirəm.

VALDEK. Elə bu?

YAN VAN LEYDEN. Əgər mənim həyatıma dəyməsən, yepiskop Valdek, şəhərdə qalan anabaptistləri, o cümlədən Almaniya və Hollandiyadakı həmməzhəblərimi katolik

kilsəsinin qoynuna qaytarmağa söz verirəm. Sənə söz verirəm ki, onlar öz inanclarından imtina edərək imperatora sədaqət andı içəcəklər. Burada, Münsterdə isə sənin hakimiyyətini tanıyacaqlar.

VALDEK. Yan van Leyden, sənin namusun namussuzluğa və pozğunluğa sövq etdiyin insanlarınkından da azdır. Onlar ölməyə üstünlük verdilər, inanclarından imtina etmədilər, sən isə onlardan, sənin yolunda canlarından keçənlərdən, hamıdan imtina edirsən. Knipperdolinkdən, Krextinqdən imtina edirsən, onlar günah içində, lakin ləkələnməmiş vicdanla öləcəklər. Bu qorxaq üçün qəfəs endirin.

Yan van Leydeni də üçüncü qəfəsə salırlar.

İndi isə görək, Gertruda fon Utrext, çariça öz çarına yaraşandır, yoxsa yox. İmtina edirsənmi?

GERTRUDA FON UTREXT. Yox.

VALDEK. Sənin ərin isə imtina etdi.

GERTRUDA FON UTREXT. O, Tanrı qarşısında duranda buna görə cavab verəcək. Tanrı məndən də soruşacaq, amma elə səndən də, yepiskop, vaxtı yetişəndə sorulacaq hər şey. Mən isə Tanrı məhkəməsində soruşacam ki, niyə O, bəşər yaranandan insanların bir-birini qırmasına imkan verir? Niyə müxtəlif inancın daşıyıcıları arasında qarşılıqlı nifrəti sakitləşdirmir? Niyə sonsuz qisas zəncirini qırmır? Niyə bu bitib-tükənməz ağrını kəsmir? Yəni insanın ilk saatından ölümə sarı getməsi məgər azlıq edir?

VALDEK. İmtina et.

GERTRUDA FON UTREXT. Dözümsüzlükdən imtina edirəm. Törətdiyim və havadarlıq etdiyim şərdən imtina edirəm, öz-özümdən imtina edirəm – günah işlədən özümdən və yol verdiyim səhvlərdən. Lakin inancımdan imtina etmirəm, çünki mənə qalan yalnız budur. İnancsız insan – bir heçdir.

VALDEK. Onu öldürün.



Əsgərlər əmri yerinə yetirirlər. Yepiskop Valdek əyanları ilə gedir.
Hava qaralır. Yavaş-yavaş qalxan qəfəslər qırmızı rəngə boyanır.
Səhnədə əsgərlər dolaşır, yaralıları qətlə yetirirlər.
İşıq tutqunlaşır. Əsgərlər öz işlərini bitirib
bir-birinin dalınca səhnəni tərk edirlər.
Sonuncu əsgər gedən kimi
səhnə zülmətə qərq olur.

SƏS. Peyğəmbər Daniil isə demişdi: "Kətan paltarlı, çayların suyundan üstdə olan bir ər sağ və sol əllərini göylərə qaldıraraq, əbədi yaşayanlara and içirdi ki, zamanın və zamanların sonunda, yarımzamanlar bitəndə və müqəddəs xalq gücdən düşəndə bütün bunlar baş verəcək".

MÜNSTERDƏ ANABAPTİST HƏRƏKATININ QISA XRONOLOGİYASI

1530-1533 – Münsterdə (əhalisi on min nəfərə yaxın) islahat.

1525 – Sənətkarlığın inkişaf etdiyi monastırlara qarşı hərəkatın başlanğıcı.

1527 – Berndt Knipperdolink Münsterdə antiklerikal hərəkatın başına keçir.

1531 – Berndt Rotmann Münster yaxınlığındakı Müqəddəs Mavriki kilsəsində lüteranlığı yayır.

Yanvar 1532 – Yepiskop seçilmiş Rotmann Münsterə qaçaraq şəhər tacirlərinin himayəsinə sığınır.

23 fevral 1532 – Rotmann Müqəddəs lambert kilsəsinin minbərindən moizələrinə başlayır.

19 may 1532 – Rotmann disputda katolik ruhanilərini məğlub edir.

1 iyun 1532 – Minden və Osnabryuk yepiskopu Frans fon Valdek kilsə kapitulasında Münster yepiskopu seçilir (bütün kanoniklər əsilzadə idilər).

1iyul 1532 – Magistratı Münsterdə islahatlar keçirməyə vadar etmək üçün otuz altı şəhərlidən ibarət komissiya təşkil olunur.

10 avqust 1532 – İcma kilsələrində zorla islahatlar tətbiq olunur.

8 oktyabr 1532 – Yepiskopun əmri ilə Münster əhalisinin mal-dövləti əlindən alınır; şəhər mühasirəyə alınır.

25 - 26 dekabr 1532 – Münsterlilər qonşu Telqt şəhərinə hücum edirlər. Orada kanoniklər, kapitula və yepiskopun müşavirləri əsir alınırlar.

14 fevral 1533 – Gessen qrafının vasitəçiliyi ilə şəhərlə yepiskop "Dülmen müqaviləsi" imzalayırlar. Bu müqaviləyə

əsasən, Valdek islahatlarla razılaşır. Yalnız kafedral kilsə və ətraf monastırlar katoliklərin ixtiyarında qalır.

3 mart 1533 – Protestantların çoxluq təşkin etdiyi yeni şəhər şurası seçilir.

17 mart 1533 – İcma kilsələrinin ruhaniləri seçilir. 1532-ci ildən aktiv fəaliyyətdə olan vaizlər rəsmi təyinat alırlar.

YAŞLILARIN XAÇ SUYUNA ÇƏKİLMƏSİYLƏ BİTƏN RADİKALLAŞMA

Mart-aprel 1533 – Rotmann möminlərin bütün həyatını reqlamentləşdirən qaydalar məcmusu hazırlayır. Magistrat Zucntordnunq (mənəvi kodeks) çap etdirir, buna əsasən, şəhər əhalisinin dini ayinlərə necə riayət etməsi də onun vəzifələri sırasına əlavə edilir.

7 - 8 avqust 1533 – Şəhər ratuşasında xaçaçəkmə mərasiminin mübhəmləri ətrafında açıq disput keçirilir. Rotmann bəyan edir ki, xaçaçəkmənin vacib şərti inancdır.

7 sentyabr 1533 – Pastor Şnaprade körpəni xaç suyuna çəkməkdən imtina edir.

5 - 6 noyabr 1533 – Əhalinin etirazlarına əsasən magistrat ən radikal vaizləri şəhərdən qovmağa məcbur olur. Rotmanna Münsterdə qalmağa icazə verilir, amma o, moizə etmək hüququndan məhrum edilir.

22 oktyabr – 8 noyabr 1533 – Rotmannın ilk kitabı "İki mübhəm – xaçaçəkmə və priçastiye" çap olunur.

11 dekabr 1533 – Rotmannın şəhərdən qovulması haqda əmr çıxır, amma yerinə yetirilmir.

Dekabrın sonu 1533 – Qovulmuş vaizlərin qaytarılması.

5 - 6 yanvar 1534 – Rotmann və onun həmfikirləri anabaptistlərin peyğəmbəri Yan Mattisin iki "apostol"u tərəfindən ikinci xaçaçəkmə mərasimini icra edirlər.

13 yanvar 1534 – Münsterə daha bir "apostol" – Leydenli İoann gəlir.

23 yanvar – 3 fevral 1534 – anabaptistlər əleyhinə yepiskop verdiktləri çıxır. İmperiyanın qanunlarına əsasən, yepiskop onlarla mübarizə aparmalıdır.

31 yanvar 1534 – Magistrat anabaptistlərə münasibətdə dini dözümlülük dekreti qəbul edir.

3 fevral 1534 – Yepiskop zadəganlıqdan kömək istəyir.

8 fevral 1534 – Tövbəyə ilk çağırışlar.

9 fevral 1534 – Yepiskopun qoşunlarının şəhərə yaxınlaşması barədə şayiələr ona səbəb olur ki, katoliklər, protestantlar və anabaptistlər silahlanmağa başlayırlar. Real vətəndaş müharibəsi təhlükəsi yaranır.

1534 11 fevral – 1532-ci ildə Padenborn şəhərinin qiyamçı əhalisi ilə qəddarcasına haqq-hesab çəkmiş yepiskopun qorxusundan münsterlilər müqavilə imzalayırlar. Lakin anabaptistlərin təzyiqi altında qəbul edilmiş dini dözümlülük dekreti Valdeklə müharibə anlamındadır. Yepiskop anabaptistləri məhv etmək məcburiyyətindədir, əks təqdirdə imperator onu mülki vəzifədən məhrum edərək, yalnız dini vəzifəsini saxlayacaq. İmperatorun qorxusu alman knyazlarını yepiskopun köməyinə gəlməyə məcbur edir. Bu şəraitdə anabaptistlərin davam gətirməsi qeyri-mümkündür. Onların tərəfində yalnız dünyanın axırının və Qiyamət gününün çox yaxın olmasına inanc durur.

"YENİ YERUSƏLİM" (fevral – aprel 1534)

Fevral 1534 – Münsterin mühasirəsi şəhərin xeyli sakinlərinin ailələrini qoyaraq qaçmasına səbəb olur. Bununla eyni zamanda Vestfaliya, Hollandiya və Reyn çayı sahilindən anabaptistlər Münsterə axışırlar.

13 fevral 1534 – Münsterin şəhər şurasına seçkilər. Demək olar ki, bütün yerlər anabaptistlər tərəfindən tutulur.

17-18 fevral 1534 – Yepiskop kömək üçün zadəganlara müraciət edir və muzdlulardan ibarət dəstələr yığır.



24 fevral 1534 – Kibbenbroyk və Knipperdolink şəhər sindikatlarına seçildilər. Anabaptistlərin peyğəmbəri Yan Mattis Münsterdə peyda olur. O, şəhəri "Tanrının seçilmişlərinin" şəhəri, "Yeni Yerusəlim" elan edir. Münsteri şərdən qurtarmaq üçün Yan Mattis ikonalar əleyhinə hərəkata başlayır. Şəhər arxivləri tarixi kökdən ayrılma nümunəsi kimi məhv edilir.

25 fevral 1534 – Şəhərlilərin hücumu. Müqəddəs Mavriki monastırı zəbt olunur. Kilsə və evlər talanır. Hücum iki məqsəd daşıyır – dini cərəyan kimi anabaptizmin əhəmiyyətini göstərmək və Münsteri mühasirəyə almaq istəyən yepiskopun mövqelərini zəiflətmək.

27 fevral 1534 – Mühasirənin başlanması. Qar çovğunu zamanı şəhərdən ikinci dəfə xaça çəkilməkdən imtina edənlər qovulur. 300 kişi və 2000 qadın zorla xaç suyuna çəkilir. Bunun sayəsində Münsterin dini yekcinsliyi təmin olunur. Bununla yanaşı, əhali arasında müxtəlif təbəqələri fərqləndirmək lazımdır: a) əqidəli anabaptistlər; b) şəhəri yepiskopdan qorumaq istəyənlər; c) biganələr; d) Münsterə can atan və orada macəra həvəsindən qalanlar.

Martın əvvəli 1534 – Fevralın 27-də zorla xaça çəkilən insanları ölüm gözləyir; onları Müqəddəs Lambert kilsəsinə toplayaraq yerə uzadıb Tanrıdan aman diləməyə məcbur edirlər, sonra isə qəflətən bağışlayırlar. Dini inancının qeyri-möhkəmliyində suçlu bilinənlərə qarşı terror başlanır. Yan Mattis Münsterin həyatını ilk xristian icmalarının nümunəsində tənzimləməyə çalışır, mal-dövləti ümumi elan edir və bu, müharibə şəraitində iqtisadi bərabərliyə nail olmaq imkanı verir. Borc kağızları şəhər meydanında yandırılır, puldan istifadə olunması məhdudlaşır və tədricən dövriyyədən tamam çıxır.

1534-cü il 15 martdan sonra – Kilsə kitabxanalarında, şəxsi kolleksiyalarda və kitab mağazalarındakı kitabların yandırılması.

Mart ayının sonu 1534 – Yan Mattis anabaptist-peyğəmbərlərin hakimiyyətini şübhə altına alan silah ustası Hubert Reyxeri qətlə yetirir.

5 aprel 1534 – Pasxa. Yan Mattis şəhəri mühasirədə saxlayan katolik qoşunlarına hücum edərək Qiyamət gününü yaxınlaşdırmağa cəhd edir və döyüşdə həlak olur. Yan van Leyden özünü onun davamçısı elan edir.

YAN VAN LEYDEN – PEYĞƏMBƏR VƏ ÇAR
(aprel 1534 – yanvar 1535)

Aprel 1534 – Yan van Leyden bəşər nizamnaməsini ləğv edərək, "13 hakimin hakimiyyətini" – Əhdi-Ətiqdə təsvir olunmuş dövlət quruluşuna uyğun – bərpa edir. Həmin gündən etibarən Münster onun özü və on iki (İsrail nəsillərinin sayına uyğun) hakim tərəfindən idarə olunur.

May 1534 – Münsterin pul vahidi (taler) təbliğat məqsədilə zərb edilir, sikkənin üzərində heç bir şəkil yoxdur, yalnız İncildən kəlmələr var.

25 may 1534 – Katoliklər qəti, lakin uğursuz hücuma keçirlər.

16 iyun 1534 – Frislandiyadan olan Hille Feyken Oloferni qətlə yetirmiş Yudif kimi, yepiskop Valdekə sui-qəsd edir.

İyulun sonu 1534 – cinsi həyatın yalnız nəsil artırmaq məqsədi daşımalı olduğu şərtilə çoxarvadlılıq tətbiq olunur. Müqəddəs şəhərdə günah ola bilməz və deməli, qısır və hamilə qadınlarla kəbindənkənar əlaqələr də mümkün deyil. Şəhərdə subaylar çox olduğuna görə evlilik "institutu" liberallaşdırılır.

29 iyul 1534 – Dəmirçilər gildiyasının başçısı Henrix Mollenhek və əlliyə yaxın digər şəhərli çoxarvadlılığa qarşı etiraz edir və qiyam qaldırırlar, Münsteri yepiskopun tabeliyinə qaytarmaq istəyirlər.



30 iyul 1534 – Anabaptistlər magistratda yenidən çoxluq əldə edirlər.

1-3 avqust 1534 – Mollenhek və 46 başqa qiyamçının edam olunması.

31 avqust 1534 – Şəhərə ikinci hücum dəf edilir.

Sentyabrın əvvəli 1534 – Yan van Leyden özünü "Yeni Yerusəlimin çarı" elan etməyə razılıq verir və Münsterin təkcə dini yox, həm də siyasi liderinə çevrilir, şəhərin müdafiəsinə rəhbərliyi də öz üzərinə götürür.

Oktyabrın əvvəli 1534 – Yan van Leyden və Knipperdolink arasında hakimiyyət mübarizəsi başlanır. Sonuncu məğlub olaraq həbs edilir və çarın hakimiyyətini qəbul edir.

13 oktyabr 1534 – İyirmi yeddi apostol dünyanın dörd bir tərəfinə göndərilir – Şimala (Osnabryuk), Qərbə (Varendorf), Cənuba (Zoest) və Şərqə (Koysfel).

Oktyabr 1534 – Berndt Rotmann "Həqiqi doktrinanın bərpası. Məsihin inancı və həyatı" kitabını nəşr etdirir.

5 - 8 noyabr 1534 – Yepiskopun müttəfiqi olan knyazların məşvərət məclisində Münsterin mühasirəsinin davam etdirilməsi qərarı qəbul edilir. Tam mühasirə taktikası şəhərdə aclıq başlaması ucbatından sakinlərin tam kapitulyasiyasına hesablanıb.

Payız – qış, 1534 – 1535 – Hərbi əməliyyatlar səngiyir. Yan van Leyden sakinlərin diqqətini ağır vəziyyətdən yayındırmaq məqsədilə kütləvi bayramlar təşkil edir. Eyni zamanda, Hollandiyada qoşun toplamağa cəhd göstərir, bu hissələr mühasirədə olan şəhərə köməyə gəlməlidirlər.

2 yanvar 1535 – Münsterin yeni nizamnaməsinə əsasən, çar hakimi-mütləq olur.

ACLIQ, MƏĞLUBİYYƏT, QİSAS (1535-1536)

10 yanvar 1535 – Qraf Virix de Daun Münsteri mühasirədə saxlayan qoşunun sərkərdəsi təyin olunur.

Fevral-mart 1535 – Münsterin bir kilometrliyində divar ucaldılır.

28 mart 1535 – Pasxa. Çoxsaylı vədlərə baxmayaraq, kömək gəlmir, şəhərin mühasirədən çıxmasına bəslənən ümidlər doğrulmur.

7 aprel 1535 – Münsterə köməyə tələsən 500 nəfər anabaptistdən ibarət dəstə Oldenkloster (Frislandiya) yaxınlığında darmadağın edilir.

5 - 25 aprel 1535 – Müqəddəs Roma imperiyasının ali şurasında yepiskop Valdekə kömək etmək qərara alınır.

Aprel 1535 – Aclıq hökm sürən Münsterdən istəyənlərin getməsinə icazə verilir. Lakin küfrdə şübhəli bilinənləri yepiskop və imperiya sərkərdələri buraxmırlar və aclıqdan qurtulmaq istəyən bədbəxtlər həlak olurlar.

13 may 1535 – Şəhərə və onun əhalisinə ciddi nəzarət üçün 12 "hersoq" seçilir.

23 may 1535 – Henrix Qresbek və muzdlu Hans vanın der Langenştraten Münsteri tərk edərək düşmənə əsir düşürlər.

27 may 1535 – Elza Vandşerer – çarın 16 arvadından biri, çarın hərəkətlərini tənqid etdiyinə görə edam olunur.

24 iyun 1535 – İki fərari – Qresbek və Langenştraten – katoliklərə Münsterin müdafiəsinin zəif yerlərini göstərirlər.

25 iyun 1535 – Şəhər yepiskop Valdekin qüvvələri və imperiya qoşunları tərəfindən alınır. Münsterin demək olar ki, bütün müdafiəçiləri həlak olurlar. Yalnız kommunanın başçıları əsir götürülür.

27 iyun 1535 – Küçə döyüşləri başa çatır.

7 iyul 1535 – Yan van Leydenin məzhəbindən imtina etmək istəməyən arvadlarının edamı. Yan van Leyden və tərəfdarları – Knipperdolink və Krextinq istintaqa cəlb edilir və onlara işgəncə verilir.

22 yanvar 1536 – Anabaptistlərin üç lideri ölüm cəzasına məhkum edilərək Münsterin bazar meydanında edam olunur. İmperator Beşinci Karlın 1532-ci ildə qəbul olunmuş fər-

manına əsasən onlara ən ağır cəza verilir – qiyamçılara edamdan qabaq közərmiş kəlbətinlərlə işgəncə verilir.

1536 – Yepiskop Valdek şəhərin yeni nizamnaməsini qəbul edir. 24 bələdiyyə müşaviri təyin olunur. Magistrata seçkilər ləğv edilir, peşə sexləri və gildiyaların hüquqları xeyli dərəcədə məhdudlaşdırılır. Münsterin əhalisi 3000 nəfərdən artıq deyil.

1541-1553 – Valdek şəhərə azadlıqlarını və hüquqlarını qaytarır, o cümlədən, özünüidarə orqanlarının seçkiləri və gildiyaların güzəştləri bərpa olunur.

1560-1570 – Əhalinin sayı 10 min nəfərə çatır.



QƏHRƏMANLAR MÜƏLLİFİ NECƏ ÖYRƏDİR

(J.Saramaqonun Nobel nitqi)

QƏHRƏMANLAR MÜƏLLİFİ NECƏ ÖYRƏDİR

(J.Saramaqonun Nobel nitqi)

Ömrüm boyu rastlaşdığım ən müdrik adam nə yazmaq bilirdi, nə oxumaq. Təxminən, səhər saat dörddə, şəfəq hələ haradasa, Fransa üzərində qızaranda o, öz taxtından qalxıb beş-altı donuzunu örüşə qovurdu – onunla arvadını yedirən bu heyvanların məhsuldarlığı idi. Anamın valideynləri bir az donuz saxlayıb, çoşqalarını Azinaqa kəndində yaşayan qonşularına satmaqla dolanırdılar. Babamın adı Jeronimo Melrinyo, nənəminki Jozefa Kayşinya idi; hər ikisi savadsızdı. Vedrədə suyu donduran soyuq qış gecələrində onlar pəyədəki ən zəif çoşqaları götürüb öz yataqlarına salırdılar. Kobud yorğanlar və insan bədəninin istisi yeni doğulmuş körpələrin donmasına imkan vermir, onları aşkar ölümdən qurtarırdı. Babam və nənəm mərhəmətli insanlar idilər, lakin belə davranmalarının səbəbi heç də şəfqətləri deyildi. Sentimentallıq hər ikisinə yad idi, sadəcə olaraq, onlar güzəranlarını təmin edən şeyləri qoruyurdular və bu, yaşamaq naminə yalnız ən zəruri şeylər barədə düşünməyə adət etmiş insanlar üçün çox təbii idi.

Mən babama işlərində tez-tez kömək edirdim. Evin yanındakı bostanı belləyir, odun doğrayır, kənddəki su quyusunun nasosunu hərəkətə gətirən ağır dəmir çarxını hərlədib vedrə-vedrə su daşıyırdım. Tez-tez dan yeri sökülməmiş biz qarovulçuların gözlərindən yayınıb dırmıx, kəndir və kisələri götürüb qarğıdalı zəmilərinə girir, məhsul yığımından sonra qalmış yarpaqları, zoğları yığışdırıb aparır, donuzlarımızın altına sərirdik. İsti yay günləri, şam yeməyindən sonra babam bəzən mənə belə deyirdi: "Joze, bu gecə səninlə ənciriin altında yatacağıq". Yaxınlıqda daha iki ağac vardı, amma evimizdə hamı başa düşürdü ki, söhbət məhz hansı ağacdan gedir – o çox böyük, deməli, qoca və demək olar ki, əbədiyaşar idi. Bax belə bir "antonomaziya" – bu ağıllı sözü mən çox illər sonra öyrəndim və bunun nə demək olduğunu bildim... Gecənin qaranlığında yüksək budaqların arasından gözümə bir ulduz görünüb üsulluca yarpaqların arxasında gizlənirdi, gözlərini ondan azacıq yayındıran kimi isə səma qövsündə dinməz çay kimi axan "müqəddəs İakov yolu"nun sakit ağartısını görürdüm; o zamanlar bizim kənddə Saman yolunu hələ bu cür adlandırırdılar. Yuxum gəlmirdi, gecə babamın söhbətləriylə dolurdu: əfsanə və həqiqi olaylarla, kabus və dəhşətlərlə, qeyri-adi hadisələrlə, çoxdan ötmüş ölümlərlə, paya, dəyənək, daş davalarıyla, ulu babalarımızın sözləriylə – xatirələrin susmaz uğultusuyla dolur, məni yatmağa qoymur və eyni zamanda da şirin bir layla çalırdı. İndiyədək bilmirəm ki, babam məni yuxu apardığını görəndə susurdu, yoxsa söhbətini bilə-bilə ən maraqlı yerdə kəsdiyi an verdiyim "bəs sonra necə oldu" sualını cavabsız qoymamaq üçün danışmağına davam edirdi. Bəlkə də, o, bu əhvalatı təkrar-təkrar özünə danışırdı ki, ya unutmasın, ya da onu yeni-yeni təfərrüatlarla zənginləşdirə bilsin. Söyləmək artıqdır ki, yəqin, bütün yaşıdlarım kimi elə mənim də gözlərimdə babam Jeronimo dünya müdrikliyinin hər şeydən hali gözətçisi idi. Dan yeri söküləndə quşların səsindən oyanarkən isə onu artıq yanımda görməzdim – məni oyatmadan donuzlarını otarmağa yollanırdı. Mən yerimdən dik qalxıb yorğanımı bükür və ayaqyalın – on dörd yaşına kimi mən həmişə ayaqyalın gəzirdim – saçlarıma dolaşmış saman çöplərini təmizləmədən evə sarı gedirdim. Daim babamdan da tez qalxan nənəm isə qabağıma içinə çörək doğranmış iri bir fincan qəhvə qoyub mütləq necə yatdığımla maraqlanardı. Və əgər babamın söhbətlərindən sonra gecə





nəsə qorxulu bir yuxu görmüşdümsə deyərdi: "Çıxar bunları başından, yuxuya inam yoxdur". O zamanlar mən əmin idim ki, nənəm özünün bütün müdrikliyinə baxmayaraq, babamın yüksəldiyi zirvələrə varmaq gücündə deyil – babam öz nəvəsi Joze ilə böyür-böyürə əncir ağacının altında uzanaraq cəmi bir neçə sözlə bütün Kainatı hərəkətə gətirə bilirdi. Çox illər ötəndən, Jeronimo babam bu dünyanı tərk edəndən, mən isə böyüyəndən sonra bəlli oldu ki, sən demə, nənəm özü yuxulara möhkəm inanırmış. Yoxsa daha necə izah etmək olardı ki, bir axşam artıq tək yaşadığı evinin kandarında oturub başının üstündəki nəhəng və xırda ulduzlara baxaraq dedi: "Dünya necə gözəldir, amma çox heyif ki, öləsi olacam", o demədi ki, "ölməkdən qorxuram", sadəcə, "heyif" dedi, sanki, onun ağır, zəhmətlə dolu həyatı özünün lap sonunda bir bərəkət, bir nemət – ətrafındakıların qənirsiz gözəlliyi ilə qəlbinə təsəlli olan ali və sonuncu vida mərasiminin bərəkətini əyan etmişdi ona. O, öz evinin qarşısında əyləşmişdi və bu evin bənzərini mən bütün dünyada təsəvvürümə gətirə bilmərəm – bu evdə yatağına çoşqaları öz balası kimi salan, həyata əlvida deyərkən yalnız onun qənirsiz gözəlliyinə təəssüflənən insanlar yaşayırdı; babam – donuzotaran və nağılçı Jeronimo da belə idi; ölümün tezliklə ziyarətinə gələrək onu özüylə aparacağını duyan kimi bağdakı ağaclarıyla vidalaşırdı – hər birisiylə ayrıca. Yaxınlaşır, qucaqlayıb ağlayırdı, çünki bilirdi ki, daha heç vaxt görməyəcək onları.

Yenə neçə illər sonra, Jeronimo və Jozefadan ilk dəfə yazanda (unutdum deyəm ki, nənəmi cavanlığında tanıyan insanların dediyinə görə, o, nadir gözəlliyiylə fərqlənirmiş), birdəfəlik əmin oldum ki, mən adi insanları ədəbi qəhrəmanlara çevirirəm; bəlkə də, bu, onları unutmamaq üçün fikirləşib tapdığım bir üsuldur – onların simasını bərpa edib yaddaşın özünü belə dəyişməyə qadir bir qələmlə canlandırmaq; sanki, kiminsə öz ömrünü sürərək başa vurmağı qərarlaşdırdığı bir ölkənin qeyri-təbii

irreallığını dəyişkən yaddaş kartının üzərində təsvirə gətirib gündəlik həyatın cansıxıcı, üfüqsüz ənginliklərini aydınlatmaq və bütün mənzərəni müxtəlif rəng və çalarlara boyamaq. Köhnə bir fotoşəklə (indi artıq bu şəklin səksən yaşı var) baxaraq onu təsvir edərkən elə eyni hisslər məni məcbur etdi ki, bərbər babamın mübhəm cazibəyə malik simasını yaddaşımda canlandıraraq yazım: "Valideynlərimin hər ikisi gənc, gözəldir, fotoqrafa ciddi və təntənəli bir görkəmlə baxırlar, nigarandırlar bir az; bəlkə də, qəliz, bic şüşələri artıq növbəti günə qovuşmağa hazır bir günün bir daha təkrar olunmayacaq anlarından birini elə indicə dayandıracaq fotoaparatı görəndə qorxublar... Anam sağ əlinin dirsəyini hündür yastığa söykəyərək barmaqlarında çiçək tutub. Atam onun çiynini qucaqlayıb və qabarlı əlləri anamın kürəyindən qanad kimi boylanır. Onlar budaq kimi naxışları olan xalçanın üstündə utancaq bir görkəmlə durublar, şəklin fonu isə psevdoantik nələrisə bulanıq, aydın olmayan bir tərzdə təsvir edən bir tablodur... Gün gələcək, mən bu barədə söhbət açacağam. Bunun məndən savayı kimsəyə dəxli yoxdur. Babam – Şimali Afrikadan bərbər, ikinci babam – donuzotaran, bir də ecazkar gözəlliyə malik nənəm, valideynlərimin ciddi, gözəl sifətləri, şəkildə təravətli, təzə-tər çiçək – daha hansı genealogiya axtarmalıyam, hansı nəsil şəcərəsinə söykənməliyəm ki?"

Bunu, demək olar ki, otuz il bundan qabaq yalnız bir məqsədlə yazmışam – varlığım üçün borclu olduğum, mənə ən yaxın insanların həyatından bir anı bərpa edərək təsvirə gətirmək; mən əmin idim ki, haradan peyda olduğumu, hansı materialdan biçildiyimi, indi kiməmsə, bu cür necə olduğumu izah etmək üçün təkcə bu kifayət edər. Mən yanılırdım – biologiya hər şeyi müəyyənləşdirmir, o ki qaldı genetikaya, onun bu dərəcədə dərinliklərə sirayət elədiyi yolların özü bir sirr olmalıdır... Mənim nəsil ağacım (ifadəmin təmtərağını bağışlayarsınız yəqin, çünki o köklərdən qidalanan meyvənin özü miskindir) nəinki

zamanın əliylə həyat səhnəsinin döyüşlərində kəsilmiş budaqlarının çoxundan, həm də onun köklərinə torpağın ən dərin qatlarına işləməyə kömək edən, meyvələrinin rayihəsi və dadını qiymətləndirə, qol-budağını möhkəmləndirə, şaxələndirə bilən, köçəri quşların bu sıx budaqlar arasında özünə sığınacaq tapıb yuva qurmasını təmin eləyən nəsnələrdən məhrum olub. Valideynlərimi, nənə-babalarımı ədəbi üsullarla təsvir edərək, ət və qandan ibarət adi insanları mənim həyatımı yenidən quran, müxtəlif cür quran ədəbi personajlara çevirəndə mən heç özüm də bilmədən cığır tapdayırdım və sonra başqa, mənim uydurduğum, artıq kitab meyarlarına tam uyğun gələn qəhrəmanlar həmin bu cığırla mənə materiallar, alətlər gətirəcəkdilər və mən onların köməyi ilə – bilmirəm yaxşılığamı, yoxsa pisliyə, qazanaraqmı, yoxsa ziyan edərək, birisində gərəkəndən az, digərində qat-qat çox – özümü elə yaradacaqdım ki, indi bu yaradılmışın, həqiqətən, özüm olduğumu, daha doğrusu, bütün bu obrazların, eyni zamanda, həm xaliqi, həm də məxluqu olduğumu etiraf edə biləcəkdim. Bəlkə də, mən hərfbəhərf, sözbəsöz, səhifəbəsəhifə, kitabbakitab tədricən yaratdığım obrazları mənimsəyir, onları öz içimdə yerləşdirirdim. Əminəm ki, onlarsız mən indiki kimi olmazdım; çox mümkündür ki, onlar olmasa, mənim həyatım tələsik və natamam eskizə, həyatda tez-tez tuş gəldiyimiz, yerinə yetmək nəsibi olmayan vədə bənzəyərdi; nəsə etmək imkanı olan, amma bir şey eləyə bilməyən bir insana oxşayardım.

İndi həyatın bu ustalarını – məni ağır yaşam sənətinə inadla və israrla öyrədən müəllimlərimi aydın görürəm; budur, onlar romanlarımın, pyeslərimin onlarla qəhrəmanlarından ibarət bir səf çəkib gözlərim önündən keçirlər, kağız və mürəkkəbdən yaranmış, zahirən mənim müəllif iradəmlə idarə olunan, hərəkətləri və davranışları onları hərəkətə gətirən, mənim dartaraq idarə etdiyim iplərdən heç bir vəchlə artıq ola bilməyən kuklalar. Və onların birincisi orta istedadlı bir portretçi-rəssam idi; onu, sadəcə,



"X" adlandırdım, iki əllə yönəldilən (həm özü və həm də bəlli mənada mənim yaratdığım), "Təsviri sənət və kalliqrafiya dərsliyi" adlandırdığım əhvalatın qəhrəmanı; bu odur, həmin o personajımdır ki, mənə şikayətlənmədən, deyinmədən öz məhdudluğunu etiraf etmək kimi sadə və düzgün sənətin əlifbasını öyrətdi. Zira mən kiçik süjet xəttimdən kənara addımlayaraq nə uğur qazanmağa ümid edə, nə də ki bu addımı ata bilərdim və mənə qalan bircə yol idi – daha dərindən qazımaq, daha dərinə nüfuz etmək, məsələnin lap kökünə çıxmaq. Öz kökümə və əgər ambisiyaların belə həddən ziyadə şişməsi yolverilməzsə, onda lap elə dünyanın köklərinə də. Təbii ki, bu səylərimin nə dərəcədə məhsuldar olduğunu qiymətləndirmək mənlik deyil, lakin bu gün bir şeyi lap şübhəsiz sayıram. Mənim o zamandan bəri və bu günə kimi bütün fəaliyyətim bu prinsipə tabedir və bu məqsədi güdür.

Sonra növbə Alentejo bölgəsinin sakinlərinə yetişdi – nəsibləri torpaqda işləmək olan, babam Jeronimo ilə nənəm Jozefanın da aid olduğu sadə kəndlilərə; əllərinin gücünü və əməklərini "alçaq" kəlməsindən başqa bir şeyə layiq olmayan elə şəraitdə, elə qiymətə satmağa məcbur olan insanlar idi onlar. Mədəni və inkişaf etmiş olmalarıyla öyünən adamların – vəziyyətdən asılı olaraq – qiymətsiz, müqəddəs, ilahi nemət adlandırdığımız şeyləri ən alçaq dəyərdən də düşük qiymətə verirdilər var-yoxlarını. Mənə yaxşı tanış olan sadə adamların dövlət və latifundiyaçıların öz hakimiyyət və gəlirlərini ədalətlə böldüyü kilsənin başdan elədiyi insanların, polisin ayıq-sayıq nəzarəti altında olan, belə tez-tez özbaşınalığın, ədalətsiz məhkəmənin qurbanı olanların növbəsi çatdı. Mau-Tempodan olan bir kəndli ailəsinin üç nəslinin əsrimizin əvvəllərindən başlayaraq diktaturanı yıxan 1974-cü ilin Aprel inqilabına kimi həyatı öz əksini "Torpaqdan ucalanlar" romanının səhifələrində tapdı və həmin bu ayaq üstə dik qalxmış, əvvəlcə real, sonra isə mənim uydurduğum adamlar mənə səbir etməyi, zamana inanmağı və ona bel

bağlamağı öyrətdilər, çünki zaman bizi eyni zamanda həm qurur, həm də dağıdır ki, sonra bir də qursun, bir də dağıtsın. Bu insanların xarakterindəki bir cəhəti – ağır sınaqlar bahasına məziyyətə çevrilmiş tək bircə şeyi, bunu etiraf etməliyəm, tam mənada qavraya bilmədim – həyata münasibətdə boğazdanyuxarı yox, təbii sərtliyi. Lakin əzbərlədiyim bu dərsin indi, üstündən iyirmi ildən artıq bir müddət ötəndən sonra belə yaddaşımdan silinmədiyini, onun tələblərinin hər gün içimdə səsləndiyini, özünü tələbkarcasına xatırlatdığını nəzərə alsaq, bunu demək istəyirəm: bir zamanlar Alentejonun nəhayətsiz düzlərinin qoynunda mənə açılan yüksək ləyaqət nümunələrinə nə vaxtsa, az da olsa, yaxınlaşa biləcəyim barədə ümidlərimə heç də son qoyulmayıb. Amma hər şeyi zaman göstərər.

Bəs XVI əsrdə yaşamış, "Luziada"larda öz vətəninin şöhrətini vəsf etmiş, bədbəxtliklərinə və dərdlərinə ağlamış, poetik dühanın mütləq təcəssümü olan, özünü "Kameonsdan əzəmətli" adlandıran Fernando Pessoa, nə qədər dərin kədərinə səbəb olsa da, söz sənətimizin ən böyük bu siması mənə hansı dərsləri verməliydi? Mənim axı yalnız bir şeyi mənimsəməyə gücüm çatardı, yalnız bir dərsin mənə faydası olardı – Luis de-Kamoensin saf humanizminin təklif etdiyi bütün dərslərdən ən sadəsinin – əsil-nəcabətli bisavadların nifrətinə tuş gələn, kralın və onun güclü əyanlarının saymazyana biganəliyindən, əsrlərdən bəri şairlərin, peyğəmbərlərin və təlxəklərin yer üzünə hər gəlişinə dünyanın göstərdiyi kinayə və istehza ilə qarşılanan yazıçının vüqarlı bir mütiliklə qapılar döyərək qələmə aldığı kitabı çap etməyə razılıq verənlərin axtarışında dolaşarkən nümayiş etdirdiyi qürurlu bir mütilik dərsinin. Həyatında, ən azı, bir dəfə hər bir yazıçı Luis de-Kamoensin vəziyyətində ya artıq olub, ya da hələ olacaq, əgər bu yazıçı heç "Zənglər Tanrı məbədinə səsləyirdi..." kəlmələrini yazmayıbsa belə. Və budur, əyan-əşrəf, saray adamları və Müqəddəs İnkvizisiyanın senzorları arasında, çoxdan ötmüş məhəbbətlərin və vaxtsız



qocalmadan doğan xəyal qırıqlığının ağuşunda çoxlarının yalnız varlanmaq üçün yollandığı Hindistandan yoxsul qayıdan bu xəstə insan göründü – qəlbi şırımlanmış tək-göz əsgər, saray xanımlarının beynini bir daha dumanlandıra bilməyəcək uğursuz sevgili mənim "Mən bu kitabı nə edim?" adlandırdığım, finalında tamam başqa sual, yeganə məna daşıyan sual səslənən, lakin "Siz bu kitabı nə edəcəksiniz?" deyib cavablandırsalar da, cavabını tapmadığımız pyesdə səhnəyə çıxdı. Bəli, belə mütilik qürurdan əzəmətlidir – qoltuğunun altında dünyanın ədalətsizcəsinə rədd etdiyi ölməz şedevr gəzdirəsən. Qürurdan başqa bu mütilikdə bir divanəlik də var. Biz mütləq bilmək istəyirik ki, bu gün yazılan kitablar sabah hansı məqsədlərə qulluq edəcək və bununla yanaşı, ətrafımızdakıların, ya da elə özümüzün bizlərə təsəlli üçün təklif etdiyi dəlillərin uzun zamanmı (və dəqiq nə qədər?) ömür sürəcəyinin tərəddüdləri içində özümüzü didib-tökürük. Aldadılmaq istəyən adamı aldatmaqdan asan heç nə yoxdur.

Budur, qarşımızda sol əlini müharibədə itirmiş bir kişi və gözlərdən mübhəm qalanları görməyə qadir ecazkar vergisi olan bir qadın durub. Kişinin adı Baltazar Mateus, ayaması isə Yeddi Günəş, qadının adı Blimundadır, sonra isə Yeddi Ay çağıracaqlar, zira artıq çoxdan deyilir. Günəş olan yerdə ay da olmalıdır, çünki onların hər ikisinin məhəbbət adlandırılan ahəngdar vəhdəti bizim yer üzünü həyat üçün yararlı eləyir. Dünyada sadə mərhəmətin, ondan daha bəsit məfhum olan hörmətin günəşi və ayına çevrilməkdən savayı nəyə desən qadir, bu adi nəsnələrə dönməyi nə istəyən, nə bacaran, nə də ki bilən insan iradəsinin, yalnız və yalnız insan iradəsinin gücüylə hərəkətə gələn, qanadları üstündə adamı göylərə qaldıraraq uçmağa qadir qəribə bir maşın kəşf etmiş İyezuit Bartolomeu da səhnədə peyda olur. Bu üç qəribə insan on səkkizinci əsr Portuqaliyasında yaşayırlar. Həm dövr, həm ölkə mövhumat və inkvizisiya tonqallarının istisindən alışır, xudpəsəndlik və böyüklük xülyasına düşmüş kral

isə hamını, bütün dünyanı – təbii ki, dünya əgər öz nəzərlərini Portuqaliyaya salsa və onun gözləri Blimundanınkı kimi görünməyən şeyləri görməyə qadir olsa – heyrətə gətirməli olan bir bina – eyni zamanda həm monastır, həm saray, həm məbəd ucaldır... İllər uzunu qabarlı əlləriylə daşı daş üstə qoyaraq monastır divarları, əzəmətli saray zalları, sütunlar və pilyastrlar, zənglər səslənəcək qüllə, boşluqda süzən məbəd günbəzini ucaldan əldən düşmüş, əzabkeş insanlar görünür... Bizim qulaqlarımıza Domeniko Skarlatinin klavesinindən qopan səslər yetişir – o heç özü də bilmir ki, ağlayırmı, gülürmü?.. Bu, "Baltazar və Blimunda"nın əhvalatıdır və bu kitabda şəyird-müəllif bir zamanlar babası Jeronimo və nənəsi Jozefanı yaxşı dərk etdiyindən bir qədər poetiklikdən də xali olmayan bu sətirləri yaza bilib. "Qadının nitqindən savayı, bir də arzuları onu orbitdə saxlayır. Lakin arzulardır onun başına aydan çələng taxan. Bax elə buna görə də insanların beynində göylər parlaq şöhrətlə eyniləşir, baxmayaraq ki bizim tək bir göyümüz var – insanların beynindəki göy". Qoy belə olsun.

Yeniyetmə bir zamanlar Lissabondakı texniki liseydə oxuyaraq həyat yolunun başlanğıcında qədəm qoymalı olduğu peşəsinə – sadə dillə desək, mexanik olmağa hazırlaşarkən poeziya haqda dərsliklərdən, müntəxabatlardan artıq bir az məlumatlanmışdı. O, yaxşı poeziya müəllimləri tapmışdı özünə və kitabxanalarda keçirdiyi bitib-tükənmək bilməyən axşamlar ərzində kataloqlarda sövq-təbii eşələnib heç kəs tərəfindən yönəldilmədən, istiqamət almadan da tapıntılar edir və bu zaman sözün bütün çalarlarında yeni torpaqlar kəşf edən dənizçinin yaradıcı heyranlığını yaşayırdı. "Rikardo Reysin ölüm ili" orada – məktəbin kitabxanasında yaranmağa başladı; həmin kitabxanada ki, mexanik orada "Afina" jurnalını taparaq Rikardo Reys adıyla imzalanmış şeirlər aşkarladı və ölkəsinin ədəbi topoqrafiyasını çox zəif bildiyindən, təbii olaraq, doğrudan, elə sandı ki, belə bir portəgiz şairi



həqiqətən olub. Amma çox tezliklə aydınlaşdı: müəllif Fevnando Nogeyra Pessoa adlı birisi imiş və o, şeirlərini yalnız təxəyyülündə mövcud olan şairlərə verirmiş. O, onları "geteronimlər" adlandırırdı – o zamanların lüğətlərində belə bir söz yox idi, odur ki bizim ədəbiyyat şəyirdinin bu məfhumu anlamasının çətinliyi tam təbiidir. Rikardo Reysin bir çox şeirlərini o əzbər bilirdi ("Əgər əzəmət istəyirsənsə, bütöv olasan gərək... Hər işinin qulpundan, lap boş bir şey olsa da, möhkəm tutasan gərək"), lakin şəyird özünün bütün yeniyetmə bisavadlığına baxmayaraq, o yüksək zəkanın yaratdığı bu sərt postulatla qətiyyən barışa bilmirdi: "Müdrik o insandır ki, dünyanı seyr etməklə kifayətlənir". Çox illər sonra başını ağartmış və bir qədər müdrikləşmiş şəyird bir roman yazaraq onun müəllif iradəsindən ömrünün bir neçə son gününü 1936-cı ilin dünyasında keçirməli olan "Odalar"ın müəllifinə bu dünyada nələr baş verdiyini göstərir – nasistlər Reyn əyalətini işğal ediblər, İspaniyada Franko respublikaçılara qarşı müharibəyə başlayıb, Salazar Portuqaliya legionunu yaradıb; şəyird, sanki, ona deyirdi: "Bax gör dünya indi necədir, ey acı hüzn və incə skepsis şairi. Seyr et və zövq al, əgər öz müdrikliyini, həqiqətən, bunda görürsənsə..."

"Rikardo Reysin ölüm ili" melanxolik sözlərlə başa çatır: "Burada, torpağın bitdiyi və dənizin gözlədiyi yerdə". Nəzərdə tutulan bu idi ki, Portuqaliya daha böyük kəşflər etməyəcək və yalnız naməlum gələcəyinin intizarında gözləməyə məhkumdur... Yalnız indiyədək gördükləri yalnız gerçəkləşməyən arzular olacaq və bir də bəzi başqa şeylər... Onda usta şəyirdinə elə gəldi ki, gəmiləri yenidən səfərə yollamaq üçün yenə yol var – bunun üçün torpağın özü yerindən qopub dəryaya çıxmalıdır. Avropanın biganəliyinə "kollektiv-şüursuz-portəgiz" incikliyi (daha doğrusu, mənim şəxsi incikliyim) səbəb oldu ki, "Daş bərə" romanı yaransın; orada bütün İberiya yarımadasının qitədən qoparaq özbaşına, "sükansız və yelkənsiz" – vintlərdən heç söhbət də gedə bilməzdi – üzən

əzəmətli bir adaya çevrilməsi təsvir olunur və "üzərini şəhərlər və kəndlər, çaylar və göllər, zəmilər və çəmənliklər, fabrik və zavodlar, qalın ormanlar və məhsuldar tarlalar örtmüş torpaq və daşdan ibarət nəhəng kütlə özünün bütün adamları və heyvanlarıyla yerindən tərpənərək üzməyə başlayır, buxtadan açıq dənizə – kimlərinsə çoxdan kəşf etdiyi, lakin yenə də naməlum olmuş açıq dənizə çıxan gəmiyə dönür", yeni Utopiyanı axtarmağa başlayır. İki sivilizasiyanın – Pireney və Atlantikanın o üzündə gözləyən – görüşü Birləşmiş Ştatların bu regiona sırıdığı boğucu qanunlara qarşı (bax mənim strateji fikirlərim bu istiqamətə kimi uzanırdı) çağırış idi... Bu ikiqat utopiya siyasi uydurmanı daha nəcib və insani metaforaya çevirirdi və onun bütün mənası o nöqtədə təmərküzləşirdi ki, Avropa – bütün Avropa! – cənuba sarı hərəkət etməlidir ki, dünyada müvazinəti bərpa edərək, özünün keçmiş və indiki müstəmləkəçi günahlarını yusun. "Daş bərə"nin personajları – iki qadın, üç kişi və it – Pireney yarımadasında səyahət edirlər, onun özü isə okeanda üzür. Dünya dəyişir, qəhrəmanlar isə bilirlər ki, bir zamanlar mütləq çevriləcəkləri insanların cizgilərini tapmalıdırlar özlərində (təbii ki, it hesabdan deyil, çünki o, onsuz da, başqa itlərə bənzəmir).

Sonra şəyird xatırlayır ki, əgər artıq bizdən uzaq olan zaman kəsiyi korrektor rolunda çıxış edir və "Daş bərə" gələcəyə yeni nöqteyi-nəzərlə baxırdısa, keçmişə də belə yanaşma, onu təzədən idrakın süzgəcindən keçirmək pis olmazdı və "Lissabon mühasirəsinin tarixçəsi" romanını yazır. Onun qəhrəmanı, nəşriyyatda korrektor çalışan birisi eyni adlı kitab üzərində – bu artıq əsl tarixi tədqiqatdır – işləyərkən getdikcə özünün heyrətləndirmək qabiliyyətini itirən "Tarixçə"ni izləməkdən bezərək, əsərin bir yerindəki sözün sonuna inkar şəkilçisi qoyub "tarixi həqiqət"i dəyişir. Raymundo Silva adlı korrektor ən sadə, ən adi bir insandır, bütün qalanlarından yalnız onunla fərqlənir ki, bir inamı var: yer üzündə hər şeyin bir görü-



nən tərəfi var, bir də görünməyən və nə qədər ki biz onların hər ikisini dəqiq seçə bilmirik, hadisələrin və əşyaların mahiyyətinə varmaq iqtidarında olmayacağıq. Görün o, "Tarixçənin" müəllifiylə bu barədə necə söhbət aparır: "Sizə xatırlatmalıyam ki, korrektorlar ədəbiyyatı və həyatı bilən ciddi adamlardır – unutmayın ki, mən tarix yazıram – senyor, ədəbiyyata aid olmayan nə varsa, həyatdır. – Bəs tarix? – Xətrinizə dəyməsin, amma tarix xüsusilə belədir. – Bəs təsviri sənət, bəs musiqi? – Musiqi lap əzəldən buna müqavimət göstərir, gəlir və gedir. dünyadan qurtulmağa çalışır, amma məncə, yalnız paxıllıqdandır bu, onsuz da sonda tabe olur həyata. – Bəs təsviri sənət? – Təsviri sənət elə fırça və rənglərlə yaradılan ədəbiyyatdır da, siz axı ümidvaram ki, insanların yazmağa başlamamışdan şəkil çəkdiklərini unutmamısınız, siz, yəqin, bu məsəli də bilirsiniz. "Gerbli kağızın yoxluğundan adisində yazırlar", başqa sözlərlə desək – yazmağı bilməyənlər şəkil çəkirlər, uşaqlar necə eləyirsə, bax elə. – Yəni siz demək istəyirsiniz ki, ədəbiyyat dünyaya gələndən xeyli qabaq mövcud olub? – Məhz elədir və bu baxımdan o, eynilə anadan olanadək bəlli mənada mövcud olan insan kimidir. – Təəssüf ki, siz filosof olmamısınız, yaxşı filosof çıxardı sizdən, ya da ki tarixçi; sizdə bu peşə üçün gərək olan hissiyyat da var, temperament də. – Savadım çatmır, savadsız da nə edə bilərsən ki? Mənim bəxtim, onsuz da, gətirib ki, bu dünyaya gözəl irsiyyət göstəricilərıylə gəlmişəm, amma bu, necə deyərlər, xammaldır, təhsilim isə yalnız orta məktəbdən ibarətdir. – Özünüzü inadlı səyləri nəticəsində müdrikliyə yetişmiş bir insan kimi təqdim edə bilərdiniz, bundan utanmaq lazım deyil, keçmiş zamanlarda cəmiyyət belə fitri istedad sahibləriylə qürur duyurdu. – O zamanlar keçdi, tərəqqi bütün bunlara son qoydu və indi fitri istedad sahibi yalnız maraqlı şeir və hekayələr yazan xoşbəxtlərə deyirlər, mən isə, etiraf edim ki, hər cür ədəbi istedaddan tamam xali birisiyəm. – Fəlsəfəyə üz tutun. – Görürəm ki, sizin yumor hissiniz çox böyükdür, ironik idrak yapınız var,

niyə özünüzü tarix kimi ciddi və dərin bir elmə həsr etmisiniz? – Mən yalnız həyatda ironiyaya yol verirəm. – Mən həmişə tarixin həyat deyil, yalnız ədəbiyyat olmasına heyran qalmışam. – Axı tarix hələ tarix adını daşımamışdan real həyat olub. – Deməli, siz inanırsınız ki, real həyat elə budur? – Təbii ki, inanıram. – Mən demək istəyirdim ki, yəni "tarix real həyat olub"? – Heç şübhəsiz. – Görün insanlar korrektura üçün çıxdaş işarəsini tapmasaydılar, başımıza nələr gələrdi, – deyə korrektor köksünü ötürərək dedi".

Demək artıqdır ki, korrektor Raymundo Silva müəllif-şəyirdə tərəddüd dərsi vermiş oldu. Bu dərs çox vaxtında idi.

İstisna etmək olmaz ki, artıq mənimsədiyi bu tərəddüd onu qələmdən yapışıb "İsanın İncili"ni yazmağa məcbur elədi. Həqiqətən də, elə müəllifin özü deyən kimi, əsərin adı adama göz yanlışlığı kimi gəlir, lakin soruşmaq yerinə düşərdi ki, bunda pis nümunə göstərən, yeni romanın cücərdiyi torpağı çox uzun müddət hazırlamış korrektorun günahı nə dərəcədədir? Lakin bu dəfə məsələ onunla yekunlaşmırdı ki, müəllif Əhdi-Cədidin səhifələrini ziddiyyət və uyğunsuzluqlar axtarışında diqqətlə oxusun, yox, o hələ, üstəlik, bütün hadisələri məxsusi bir bucaq altında nəzərdən keçirməyə can atırdı; qədim sənətkarların tablolarını nəzərdən keçirən kimi – daha dərin relyef vermək, pozduğu, yenidən işlədiyi yerləri tapmaq, ruhi çaşqınlıq məqamlarını aşkarlamaq üçün. İndi artıq İncil qəhrəmanlarının arasında olan müəllif bu nurun işığında körpələrin qətli səhnəsini, sanki, ilk dəfə oxudu və oxuyandan sonra çox şeyi anlaya bilmədi. Anlaya bilmədi ki, dində əzabkeşlər niyə yaranıblar, niyə dinin xaliqi bunun haqda yalnız otuz ildən sonra müjdə verib; niyə vifliyemli oğlanları xilas etmək iqtidarında olan yeganə şəxsin bu addımı atmağa cəsarəti çatmayıb; anlaya bilmirdi ki, niyə ailəsiylə bir yerdə Misirdən qayıdan İosif öz üzərində nə məsuliyyət yükünün ağırlığını duydu, nə vicdan əzabı



çəkdi, nə də adi maraq hissi yaşadı. Vifliyemli körpələrin İsanın nicatı naminə mütləq ölməli olduqları haqda dəlil də inandırıcı deyildi. Həm ilahi, həm də insani işlərdə rəhbər tutulmalı olan sadə sağlam məntiq bizə deyir ki, Tanrı əgər bilsəydi ki, oğlunun nəsibinə hələ lap körpə yaşlarında İrodun döyüşçülərinin əlindən ölmək yazılıb, onu yer üzünə yollamazdı, özü də elə-belə yox, bəşəriyyətin günahlarını yumaq üçün yollamazdı... Şəyirdin bu böyük drama layiq bir hörmətlə qələmə aldığı İncildə İosif günahından doğan əzablar içində didilir, çəkdiyi vicdan ağrısını məhz törətdiyi günahın cəzası kimi, elə ölümün özü kimi müqavimətsiz qəbul edir – ölüm onun üçün dünya ilə haqq-hesab çürütməyin yeganə vasitəsinə çevrilir. "İsanın İncili" isə öz növbəsində tanrılar haqda, onların mərhəmətlərindən bəhrələnən adamlar barədə növbəti ibrətamiz əfsanəyə yox, bir neçə adamın əzəmətli bir gücün təsiri altına düşmələrinin tarixçəsinə çevrildi – onlar bu güclə mübarizə aparır, lakin ona qalib gələ bilmirlər. İsa atasının neçə-neçə yollar, cığırlar dolaşdığı tozlu səndəllərdən savayı bir miras kimi öz günah və məsuliyyətinin faciəvi dərkini də aldı və bu acı hiss o artıq çarmıxın üstündən səslənəndə də onu tərk etmir. "İnsanlar, bağışlayın onu, çünki nə etdiyini bilmir!" – bu sözlər, heç şübhəsiz, onu edama yollayan Tanrıya aiddir, lakin bununla yanaşı, həm də onu dünyaya bir cisim kimi gətirən (əgər ölümqabağı cançəkişmədə onu xatırlayırsa) İosifə, onun "dünyəvi atasının" özünə də aiddir. Özünüz görürsünüz, şəyird çox yollardan keçməliydi ki, özünün küfr İncilində İsayla əhli-kitabın arasındakı söhbət səhnəsini qələmə alsın. "Günah bir canavardır ki, atanı udandan sonra oğlunu didir. – Mənim atamı bu canavar yeyib? – Hə, indi isə sənə girişəcək. – Bəs sənin özünü necə, heç didib, yeyib bu canavar? – Yalnız didməyib, yalnız yeməyib, həm də qusub, qaytarıb".

Əgər Böyük Karl Şimali Almaniyada monastırın əsasını qoymasaydı, əgər bu monastır Münster şəhərinin əsasını qoymasaydı, əgər Münster özünün 1200 illik yubileyi

münasibətilə XVI əsrin dəhşətli hadisələrindən – katoliklər və protestant-anabaptistlər arasındakı müharibədən – bəhs edən operanı səhnəyə çıxarmaq qərarına gəlməsəydi, şəyird də özünün "İn Nomine Dei" ("Tanrının adıyla") pyesini yazmazdı. Yenə də, heç kimin köməyi olmadan, yalnız miskin şüurunun nurunda insanı belə asanlıqla öldürməyə və ölməyə məcbur edən dini inancların qaranlıq labirintinə qədəm basmazdı. Şəyird orada yenə də dözümsüzlüyün mənfur simasını gördü, Münsterdə divanəlik paroksizminə çatmış, təmizliyi naminə hər iki qarşılaşan tərəfin hər şeyə hazır olduğu ideyaların özünə belə mütləq ləkə salan dözümsüzlük gördü. Zira bu müharibə bir-biriylə düşmən olan iki Tanrının deyil, eyni Tanrının adıyla aparılırdı. İnanclarından kor olmuş Münster katolikləri və anabaptistləri bütün dəlillərin ən əsaslısını da dərk etmək iqtidarında deyildilər. Hər iki tərəfin öz dünyəvi həyatlarında gördükləri əzablar müqabilində mükafat almağa gəldikləri Məhşər ayağında Tanrı – əgər onun hərəkətləri insan məntiqiylə hər hansı bir yolla uzlaşırsa – hər iki tərəfə ilahi səltənətinin nemətlərini təkcə elə o səbəbdən verməlidir ki, onların hər ikisi bu səltənətin mövcudluğuna inanc bəsləyirlər. Dəhşətli Münster qırğını şəyirdi buna öyrətdi. Heç vaxt heç bir din insanlara nə vəd etməsindən asılı olmayaraq, bəşəriyyətin birləşməsi naminə istifadə olunmayıb və bütün müharibələrin ən ağlasığmazı elə din naminə müharibədir, çünki, ən azı, bir şeyi nəzərə almaq lazımdır ki, Tanrı – əgər istəsə belə – özü özünə müharibə elan edə bilməz...

Korluq. "Biz koruq", – şəyird düşündü bir dəfə və oturub "Korluq barədə düşüncələr"ini yazdı ki, onu oxuyanlara bunları xatırlatsın: həyatı alçaltmaqla biz şüuru təhrif edirik, insan ləyaqəti hər gün dünyanın güclüləri tərəfindən əzilir, həqiqətlər çoxluğu bir universal yalanla əvəz edilib və insan digər bəşər övladlarına layiq olduqları hörmətini itirən kimi, özünə hörmət etməyə də son qoyub. Onda, sanki, şüurun korluğundan doğan əcinnələri



qovmaq üçün öz əhvalatlarının ən sadəsini yazmağa başladı: bir adam başqa birisini axtarır, çünki anlayır – həyat onun qarşısında bundan mühüm vəzifə qoya bilməz daha. Bu kitab "Bütün adlar" adlanır. Bizim bütün adlarımız, hələ yazılmamışlar belə buradadır. Dirilərin və ölülərin adları.

Fikrimi yekunlaşdıraraq deyim ki, bu səhifələri oxuyan səs mənim qəhrəmanlarımın səsinin əks-səsdasına çevrilmək istəyirdi. Mənim başqa səsim yoxdur. Əgər mənim üçün hər şey olan nəsnələr sizə çox xırda və bəsit gəldisə, bağışlayın.

01.07.2007.



MÜNDƏRİCAT

Yabanı turpun acılığı 5

ROMANLAR

İsanın İncili 17

Təxirə salınmış ölüm 479

PYES

İn Nomine Dei 685

Münsterdə anabaptist hərəkatının qısa xronologiyası 772

J.Saramaqonun Nobel nitqi

Qəhrəmanlar müəllifi necə öyrədir 781

NOBEL MÜKAFATI LAUREATI

Joze Saramaqo

SEÇİLMİŞ ƏSƏRLƏRİ

Çapa imzalanmışdır 11.03.2010. Format 60×84 $^{1}/_{16}$. Ofset çap üsulu.
Fiziki çap vərəqi 50. Sifariş 39. Tiraj 7000.

"Şərq-Qərb" ASC-də çap olunmuşdur
Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+994 12) 374-75-62
Faks: (+994 12) 370-18-49
e-mail: sharq.qarb@gmail.com

AZ-263987



Joze Saramaqo

Joze Saramaqo (1922) gəncliyində texniki peşələrlə məşğul olsa da, 25 yaşında "Günah diyarı" romanını qələmə alıb. Sonra 19 il ədəbiyyatda görünməyib, dönəndə isə oxucuların qarşısına şair kimi çıxıb, amma az sonra yenə nəsrə qayıdıb, həm də dramaturgiyaya müraciət edib.

J.Saramaqonun "Torpaqdan ucalanlar" (1982), "Rikkardo Reyşin ölüm ili" (1984), "Monastır xatirələri" (1985), "Daş bərə" (1986), "Lissabon mühasirəsinin tarixi" (1989), "İsanın İncili" (1991), "Mağara" (2000) romanları söz sənətinin inciləri sırasına daxil olub.

O, siyasi baxışlarına görə solçudur, "İsanın İncili" romanı isə kilsənin qəzəbinə tuş gəlib. Amma bütün bunlar J.Saramaqonun 1998-ci ildə Nobel mükafatına layiq görülməsinə mane olmayıb.